
Yaşıl dünya naminə həmrəylik ili



Təqvim

2024



Azərbaycan
Milli Kitabxanası

ƏZİZ OXUCULAR!

Sizə təqdim etdiyimiz "Əlamətdar və tarixi günlər təqvimi" 1961-ci ildən nəşr edilir. 1970-ci ilin oktyabr ayından "Kitabxana işçisinə kömək" adı ilə çap olunan vəsaitin nəşri 1992-ci ildə dayandırılmış, 2005-ci ildən isə "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə yenidən çap olunmağa başlanmışdır.

Bu illər ərzində təqvim daha da təkmilləşdirilmiş, mövzu üzrə bölmələrin sayı artırılaraq həcmi genişləndirilmiş, əhatəli məlumat mənbəyi kimi formalaşmışdır.

Təqvimin əsas məqsədi geniş oxucu kütləsi və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən ən mühüm hadisələri, kitabxana işi haqqında və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır.

2015-ci ildən "Əlamətdar və tarixi günlər təqvimi" Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən nazirliyin aparatının struktur bölmələrinin və bütün mədəniyyət müəssisələrinin rəhbərləri üçün tövsiyə olunmuşdur.

Mədəniyyət işçiləri, müəllimlər, ziyalılar, kütləvi informasiya vasitələri və əsasən də kitabxana işçiləri üçün nəzərdə tutulan bu vəsaitin builki buraxılışı "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuşdur. Ölkə başçısı iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ili Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdir.

Təqvimdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işləri əks etdirən zəngin məlumatlar öz əksini tapmışdır.

2024

КВТ Я25
UOT (059)

Baş redaktor: **Kərim Tahirov,**
Professor,
Əməkdar mədəniyyət işçisi

Məsul katib: **Ədibə İsmayılova,**
tarix üzrə
fəlsəfə doktoru

Redaktor: **Xeyransa Abbasova**

Təqvimin bu buraxılışı üçün materiallar Milli Kitabxananın əməkdaşları Y.Məmmədova, M.İbrahimova, T.Cəfərova, K.İmanova, A.Əliyeva, A. Cəfərova, Ş.İsmayılova və G. Babayevadan ibarət işçi qrupu tərəfindən hazırlanmışdır.

Əlamətdar və tarixi günlər təqvimi – 2024 / Baş red. K.Tahirov; məsul katib Ə.İsmayılova; red. X.Abbasova. – Bakı, 810 s.

ISBN: 978-9952-571-51-6

© Azərbaycan Milli Kitabxanası, 2023

TƏQVİM 2024

"Əlamətdar və tarixi günlər təqvimi" il ərzində yubileyi qeyd olunacaq müəyyən əlamətdar hadisələr və həmin hadisələrə aid məlumatlarla bağlı günlərin seçmə siyahısından ibarət illik təqvimdir. Təqvimə milli və dünya ədəbiyyatının, incəsənətin, elmin, texnikanın və müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri, Azərbaycan Respublikasının, keçmiş SSRİ-nin fəxri adlarına layiq görülmüş, həmçinin mədəniyyət, incəsənət, ədəbiyyat və elm sahələrində mühüm xidmətləri olan, elmi və yaradıcılıq fəaliyyəti göstərən insanlar haqqında, mədəniyyətlə bağlı milli və beynəlxalq günlər, peşə bayramları və digər mühüm məlumatlar daxil edilmişdir.

Hər bir məlumatda yubileyi qeyd olunacaq şəxsin doğulduğu gün, ay, il, əlamətdar hadisənin başvermə tarixi göstərilmişdir. Təqvimdə 2024-cü ildə yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlər və əlamətdar hadisələr haqqında məlumatlar aşağıdakı bölmələr üzrə verilmişdir:

Milli ədəbiyyat; Folklor; Dünya ədəbiyyatı; Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq; Musiqi. Opera. Balet; Teatr. Kino; Milli Qəhrəmanlar; İkinci Qarabağ Müharibəsi Şəhidləri; Siyasət. Hərbi iş; Tarix; Fəlsəfə. İqtisadiyyat. Hüquq; Mədəniyyət. Maarif. Təhsil; Coğrafiya. Geologiya; Riyaziyyat. Fizika. Astronomiya; Kimya. Biologiya. Tibb; Texnika. Mühəndis işi; Kitabxanaşünaslıq. Biblioqrafiya; İdman; Digər tarixi hadisələr.

Hər bölmədə məlumatlar ilin müvafiq ay və günləri üzrə (1 yanvardan 31 dekabradək) təqdim edilir. Təqvimdə şəxslərlə bağlı mətn-məlumatlar, əsasən onların doğum günləri üzrə təqdim olunur.

Təqvimin "Milli Qəhrəmanlar" bölməsində Birinci Qarabağ Müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adını alan Vətən övladları haqqında məlumat verilir.

2022-ci ildən Təqvim üçün "İkinci Qarabağ Müharibəsi Şəhidləri" adlı yeni bölmə hazırlanmışdır. Buraya 27 sentyabr 2020-ci il tarixindən 10 noyabr 2020-ci il tarixinədək davam edən 44 günlük hərbi əməliyyatlar zamanı Şanlı Qələbimizi tarixə yazdıran, Vətən uğrunda qəhrəmancasına şəhid olmuş igid əsgər və zabitlərimiz haqqında məlumat verilir.

2024-ci ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında "Əlavələr" bölməsindən məlumat əldə etmək olar. Bu bölmədə Təqvimin mətnləri illər üzrə günbəgün, artan xronologiya üzrə verilib.

Təqvimin hər sayı yubileyi qeyd ediləcək görkəmli bir şəxsiyyətə və ya əlamətdar günə həsr olunur. Vəsaitin tam mətni kitabxananın saytında yerləşdirilir.

Oxucuların təqvimdən istifadəsini asanlaşdırmaq məqsədilə hər ayın ilk səhifəsində mündəricat verilmiş, təqvimin sonunda isə köməkçi əlifba göstəricisi tərtib edilmişdir.

Təqvimin hazırlanmasında Milli Kitabxananın fondunda mühafizə edilən Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti haqqında ensiklopedik toplu və nəşrlərdən, məzmuna uyğun kitablardan, dövri nəşrlərdən, həmçinin, mövzu üzrə müvafiq elektron mənbələrdən istifadə olunub. İstifadə olunmuş ədəbiyyat siyahısı təqvimin sonunda verilib.

Nəşrlə bağlı rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57;
E-mail: metodik@anl.az

ƏJDAHA İLİ



Çox qədim zamanlardan başlayaraq insanlar vaxtı ölçmək üçün təbiətdəki "saatlardan" - dövri (periodik) təbiət hadisələrindən istifadə etməyi öyrəniblər: Yerin öz oxu ətrafında fırlanması nəticəsində baş verən gecə-gündüz hadisəsi, Ayın Yer ətrafında fırlanması nəticəsində 29,53 günlük dövrlə (periodla) təkrarlanan Ay fazaları və nəhayət, Yer kürəsinin Günəşin ətrafında fırlanması nəticəsində 365,24 günlük dövrlə təkrarlanan il mövsümləri. Qədim Çində gün, ay, il dövrlərindən başqa, uzunluğu 60 ilə bərabər olan dövrdən də istifadə etmişlər. İmperator Xuandinin (b.e. əvvəl 26-cı əsr) vaxtında "gançji" ("gövdə və budaqlar") prinsipinə əsaslanan dövri il sayma sistemi tətbiq olunmuşdu: hər ilə növbəylə 12 heyvandan - siçan, inək, pələng, dovşan, əjdaha, ilan, at, qoyun, meymun, toyuq, it, donuz və beş əsas təbii ünsürdən - od, torpaq, metal, su və ağacdan birinin adı verilirdi. Nəticədə hər 60 ildən bir təkrarlanan il dövrləri alınırdı. Dövr daxilində illəri heyvan rəngini dəyişməklə də adlandırırdılar: 60 illik dövrün, məsələn, əjdaha illəri olan 5-ci, 17-ci, 29-cu, 41- ci və 53-cü illəri, uyğun olaraq, ağ əjdaha, qara əjdaha, göy əjdaha, qırmızı əjdaha və sarı əjdaha ili adlanırdı. Belə dövri təqvim Çində 1911- ci ilədək tətbiq olunurdu və Çin tarixinin il hesabı sülalənin dəyişdiyi vaxtdan başlayırdı. 60 illik dövri təqvimin istifadə olunmasının təcrübi əsaslara da söykəndiyini də ehtimal edirlər. Belə ki, ağac həlqələrinin qalınlığının paylanmasında da 60 illik dövrilik olması üzə çıxarılıb. Bu isə təbiətdə belə dövriliyin olması deməkdir. Günəş aktivliyində 60 illik dövrilik yoxdur, amma geofiziki indekslərdə bu dövrilik izlənilib.

2024-cü il Şərq astrologiyasına görə, çox qeyri-adi varlıq olan Əjdaha ili üzərində təhvil olur. Çin astroloqlarına görə, əzəmət və gücdən savayı, sehirli Əjdahaya emosionallıq, xarizmatiklik, hər zaman diqqət mərkəzində olmağa can atmaq və parlamaq kimi xüsusiyyətlər xasdır.

Əjdaha vaxtilə Yer kürəsində mövcud olmuş və daha sonra kökü kəsilmiş dinozavrlara bənzəyir. Qədim Çin mifologiyasında Əjdahanın müxtəlif ölçülərdə və fərqli quruluşlara malik çoxsaylı növlərinə rast gəlinir.

Əjdaha bürclər arasında Yer və Göyün ruhunu birləşdirən yeganə mifik varlıqdır. Əjdaha nəzərə çarpan, əzəmətli, nəcib bir məxluqdur. Parıldamağı və diqqəti cəlb etməyi sevir.

Əjdaha ilinin ünsürü Ağacdır. O, özündə fiziki və mənəvi yüksəlişi ehtiva edir, ona görə də özünə inanan, məqsədyönlü və xeyirxah əməlləri olan insanları bu ildə uğur və nailiyyət müşayiət edəcək. İlin energetikasında üstünlük təşkil edən yaşıl rəng yenilənməni, tərəqqi və yüksəlişi, yeni həyatın başlanğıcını və çoxsaylı maraqlı hadisələrin bir-birini əvəzləməsini simvolizə edir. Ağacdan olan Əjdaha demək olar ki, istənilən şəraitə uyğunlaşmağa kömək edəcək. Astroloji proqnozlara görə, çətinliklər çoxaldıqda onların öhdəsindən gəlmək üçün səylərimiz və gücümüz də bir o qədər çox olacaq.

Əjdaha ilindən olan insanlar düzgün düşünürlər, enerjili və səbrli olurlar. Adətən çox sağlam olurlar. Dürüstdürlər, emosionaldırlar, qətiyyətlidirlər, onlara etibar etmək olar. Daima fikirlərini qiymətləndirməyi bacarırlar. Onlar bacarıqlı, pul qazanan olurlar, amma pul hərisi deyillər, pul hərisi olanları da sevmirlər, bir sözlə ətraflarında belə insanlara yer yoxdur. Ailə qurmağı tez planlayırlar. Ətrafındakıların onları sevməsindən daima istifadə edirlər.

YANVAR

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30	31				

- *Yeni il (01.01)*
- *“Azərbaycan Respublikasının dövlət dili haqqında” Qanun qüvvəyə minmişdir (04.01.2003)*
- *Dünya Qoruqları və Milli Parklar Günü (11.01.1997)*
- *Ümumxalq hüzn günü (20.01.1990)*

22 dekabr-
20 yanvar
Oğlaq bürcünün ünsürü torpaq, planeti Saturn, düşərli günü çərşənbə axşamı, şənbə, düşərsiz günü bazar ertəsi, cümə axşamı, metalı dəmir, uğurlu rəngi tündyaşıl, qara, göy,
uğursuz rəngi ağ, uğurlu daşı rubin, oniks, enerji verən
çiçəyi ağ qərənfil, qara lalə, uğurlu rəqəmi isə 3 və 5-dir.

Yaşıl dünya naminə həmrəylik ili



Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 dekabr 2023-cü il

YANVAR

2024



Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Məsimov Baba Vəzir oğlunun (Baba Vəziroğlu) (10.01.1954) anadan olmasının 70 illiyi 12
Nasir Qasımov Ənvər Yusif oğlunun (15.01.1914-04.03.1989) anadan olmasının 110 illiyi
Şair, dramaturq Kazımzadə Səməd Hacı Əhməd oğlunun (Səməd Mənsur) (31.01.1879-03.01.1927) anadan olmasının 145 illiyi
Əməkdar incəsənət xadimi, şair Cavadzadə Əli Qulu oğlunun (Əli Tudə) (31.01.1924-26.02.1996) anadan olmasının 100 illiyi 13



Folklor

Əməkdar incəsənət xadimi, aşıq Nəsibov Ədalət Məhəmmədəli oğlunun (Aşıq Ədalət) (27.01.1939-14.09.2017) anadan olmasının 85 illiyi 14



Dünya ədəbiyyatı

Alman dramaturqu Lessinqin (Qothold Efraim) (20.01.1729- 15.02.1781) anadan olmasının 295 illiyi
Şotlandiya şairi Berns Robertin (25.01.1759-21.07.1796) anadan olmasının 265 illiyi
Gürcüstanın Xalq şairi Leonidze Georgi Nikolayeviçin (28.1.1899-09.08.1966) anadan olmasının 125 illiyi



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Xalq rəssamı, pedaqoq Mirzəzadə Sirus Yədulla oğlunun (22.01.1944) anadan olmasının 80 illiyi 15
Əməkdar rəssam, kino rəssamı, miniatürçü-rəssam Aslanov Elçin Muxtar oğlunun (26.01.1934-03.03.2018) anadan olmasının 90 illiyi 16



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, opera müğənnisi Ağdamski (Bədəlbəyli) Əhməd Bəşir oğlunun (05.01.1884-01.04.1954) anadan olmasının 140 illiyi 17
Xalq artisti, Əməkdar incəsənət xadim, bəstəkar Axundova Şəfiqə Qulam qızının (21.01.1924- 26.07.2013) anadan olmasının 100 illiyi 18
Xalq artisti, dirijor, pedaqoq Həsənov Əşrəf Həsən oğlunun (24.01.1909-09.08.1983) anadan olmasının 115 illiyi

YANVAR 2024



Teatr. Kino

Xalq artisti, aktyor, teatr rejissoru Əhmədov İlham Namiq Kamal oğlunun (09.01.1949) anadan olmasının 75 illiyi 19
Xalq artisti, aktyor Balayev Məmmədəli Bəşir oğlunun (10.01.1939) anadan olmasının 85 illiyi 20
Xalq artisti, teatr və kino aktyoru İsmayılov Hacı Məcid oğlunun (22.01.1944) anadan olmasının 80 illiyi 21



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Quliyev Mətləb Kamran oğlunun (09.01.1959-31.08.1992) anadan olmasının 65 illiyi 22
Azərbaycanın Milli Qəhrəmanı Quliyev Mirzə Məcid oğlunun (11.01.1974) anadan olmasının 50 illiyi 23
Azərbaycanın Milli Qəhrəmanı Əliyev Vasili Əhməd oğlunun (15.01.1959-20.10.1992) anadan olmasının 65 illiyi 24
Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Rövşən Əbdülhüseyn oğlunun (16.01.1969-13.09.1993) anadan olmasının 55 illiyi 25
Azərbaycanın Milli Qəhrəmanı Həsənov Səyavuş Həsən oğlunun (20.01.1964-25.06.1992) anadan olmasının 60 illiyi 26
Azərbaycanın Milli Qəhrəmanı Muradov Hikmət Oqtay oğlunun (23.01.1969-29.10.1991) anadan olmasının 55 illiyi 27



İkinci Qarabağ Müharibəsi Şəhidləri

MAHHXHQ əsgər Hüseynov Vüsal Hüseyn oğlunun (01.01.1999-19.11.2020) anadan oımasının 25 illiyi 28
MAHHXHQ əsgər Soltanov Oruc Fərhad oğlunun (01.01.1999- 15.10.2020) anadan olmasının 25 illiyi 28
Əsgər Azadlı Zabil Tələt oğlunun (01.01.1999- 30.10.2020) anadan olmasının 25 illiyi 29
Əsgər Məmmədov Oqtay Namiq oğlunun (01.01.1994- 08.11.2020) anadan olmasının 30 illiyi 29
Əsgər Hüseynov Rəcəb Nazim oğlunun (03.01.1994- 09.11. 2020) anadan olmasının 30 illiyi 30
Əsgər Mehdiyev Nüsrət Telman oğlunun (03.01.1999- 29.09.2020) anadan olmasının 25 illiyi 30
Baş leytenant Bababəy Şamil Nazim oğlunun (04.01.1994- 07.10.2020) anadan olmasının 30 illiyi 31
MAHHX kiçik çavuş Süleymanov Arif Ramiz oğlunun (05.01.1994- 08.10.2020) anadan olmasının 30 illiyi 31

YANVAR

2024

Əsgər Nəsirov Qara Eldəniz oğlunun (05.01.1999- 08.11.2020) anadan olmasının 25 illiyi 32
MAHHXHQ əsgər Əliyev Azər Dilafər oğlunun (06.01.1999-28.01.2021) anadan olmasının 25 illiyi 32
Polkovnik Samidli Babək Mətləb oğlunun (07.01.1974-23.11.2020) anadan olmasının 50 illiyi 33
Leytenant Yusubov Elzar Süleyman oğlunun (09.01.1989- 08.10.2020) anadanolmasının 35 illiyi 34
Əsgər Əliyev Məhəmməd İlham oğlunun (09.01.1999- 08.11.2020) anadan olmasının 25 illiyi 34
Əsgər Məmmədov Vüqar İlqar oğlunun (09.01.1994- 06.10.2020) anadan olmasının 30 illiyi 35
MAHHXHQ əsgər Əliyev Aqil Faiq oğlunun (10.01.1999- 15.10.2020) anadan olmasının 25 illiyi 35
MAHHXHQ əsgər Qəribzadə Fəxri Elmir oğlunun (10.01.1994-10.10.2020) anadan olmasının 30 illiyi 36
Əsgər Kərimzadə Mirxəyal Valeh oğlunun (10.01.1999- 03.11.2020) anadan olmasının 25 illiyi 36
Gizir Soltanov Nadir Nəzir oğlunun (11.01.1984- 27.09.2020) anadan olmasının 40 illiyi 37
Əsgər İmanov Ənvər Emil oğlunun (11.01.1999- 29.10.2020) anadan olmasının 25 illiyi 37
Əsgər Fərəcullayev Elşad İsa oğlunun (13.01.1984- 08.11.2020) anadan olmasının 40 illiyi 38
Əsgər Seyfullazadə Kamran Cəlal oğlunun (14.01.1999- 04.11.2020) anadan olmasının 25 illiyi 38
Baş leytenant Ələkbərov Əlisahib Selman oğlunun (15.01.1994- 18.11.2020) anadan olmasının 30 illiyi 39
Çavuş Hacıyev Kamran Füzuli oğlunun (16.01.1994 - 22.10.2020) anadan olmasının 30 illiyi 39
MAHHXHQ əsgər Məmmədov Taleh Arif oğlunun (16.01.1999- 29.09.2020) anadan olmasının 25 illiyi 40
Əsgər Xanalıyev Ziyəddin Ariz oğlunun (16.01.1999- 06.11.2020) anadan olmasının 25 illiyi 40
Əsgər Məmmədli Cavid Natiq oğlunun (16.01.1999-27.09.2020) anadan olmasının 25 illiyi 41
Əsgər Əzizov Sübhan Məmməd oğlunun (17.01.1999- 06.11.2020) anadan olmasının 25 illiyi 41
Əsgər Hüseyinov Bəhruz Yavər oğlunun (17.01.1994- 19.10.2020) anadan olmasının 30 illiyi 42

Əsgər Əsədov Səbuhi Azər oğlunun (19.01.1999- 10.10.2020) anadan olmasının 25 illiyi 42
MAHHX baş çavuş Səlifov Murad Nəbi oğlunun (21.01.1989- 27.09.2020) anadan olmasının 35 illiyi 43
Leytenant Məmmədov Məhəmməd Zakir oğlunun (27.01.1994-06.10.2020) anadan olmasının 30 illiyi 43
Əsgər Xankişiyev Nicat Aşur oğlunun (27.01.1999- 07.10.2020) anadan olmasının 25 illiyi. 44
Əsgər Nəcəfov Elmin Saleh oğlunun (30.01.1999- 21.11.2020) anadan olmasının 25 illiyi. 44



Siyasət. Hərbi iş

Hərbi xadim, general-leytenant Naxçıvanski İsmayıl xan Ehsan xan oğlunun (05.01.1819-10.02.1909) anadan olmasının 205 illiyi
İctimai-siyasi xadim, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Qurbanlı Mübariz Qəhrəman oğlunun (07.01.1954) anadan olmasının 70 illiyi 45
Dövlət xadimi, hüquqşünas Vəlibəyov Bahadır Qasım oğlunun (12.01.1894-17.02.1940) anadan olmasının 130 illiyi
İctimai-siyasi xadim, Milli Məclisin üzvü, professor Seyidov Səməd İsmayıl oğlunun (18.01.1964) anadan olmasının 60 illiyi 46
Azərbaycanın ilk hüquqşünas professoru, ictimai xadim Vəkilov Mustafa ağa Məmməd ağa oğlunun (25.01.1899-30.04.1943) anadan olmasının 125 illiyi
İctimai-siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının Rəyasət Heyətinin sədri Rəsulzadə Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlunun (31.01.1884-06.03.1955) anadan olmasının 140 illiyi 47



Tarix

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, tarixçi-epiqrafist və şərqşünas Nemətova Məşədixanım Sədulla qızının (05.01.1924-26.12.2016) anadan olmasının 100 illiyi 48



Mədəniyyət. Maarif. Təhsil


Əməkdar jurnalist, Filologiya üzrə elmlər doktoru, professor, ədəbiyyatşünas Əsgərov Ramiz Baxşəli oğlunun (Ramiz Əsgər) (10.01.1954) anadan olmasının 70 illiyi 49
Akademik, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, dilçi-alimi, türkoloq, elm və təhsil təşkilatçısı, ictimai-siyasi xadim Qurbanov Afad Məhəmməd oğlunun (10.01.1929-26.09.2009) anadan olmasının 95 illiyi 50

Dilçi, türkoloq, tənqidçi, siyasətçi Məmmədov Aydın Mirsaleh oğlunun (16.01.1944-19.04.1991) anadan olmasının 80 illiyi



İdman

Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar məşqçi Abbasov Teymur Tofiq oğlunun (11.01.1924-21.02.2005) anadan olmasının 100 illiyi 999



Kimya.Biologiya.Tibb

Əməkdar həkim, tibb üzrə elmlər doktoru, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası idarə heyətinin sədri, millət vəkili, ürək-damar cərrahı Mahmudov Rəşad Məmmədqulu oğlunun (18.01.1974) anadan olmasının 50 illiyi 51
Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Hacıyev Dəmir Vahid oğlunun (29.01.1929- 20.06.1999) anadan olmasının 95 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Lənkəran rayon MKS-i yaradılmışdır (01.01.1979)



Digər tarixi hadisələr

Yeni il (01-02.01) 52
Azərbaycanda ərəb əlifbasından latın qrafikalı əlifbaya keçid başlanmışdır (01.01.1929)
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılmasının (03.01.1999) 25 illiyi 53
“Qarabağ Dirçəliş Fondu” yaradılmışdır (04.01.2021)
“Azərbaycan Respublikasının dövlət dili haqqında” qanun qüvvəyə minmişdir (04.01.2003) 54
Azərbaycanla Vatikan dövləti (ölkəmizin müstəqilliyini 1992-ci il mayın 23-də tanıyıb) arasında diplomatik münasibətlər qurulmuşdur (09.01.1994)
Azərbaycan Latviya və Slovakiya ilə diplomatik münasibətlər qurmuşdur (11.01.1994)
Dünya Qoruqları və Milli Parklar Günü (11.01.1997) 55
Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncam imzalanmışdır (12.01.2004)
Ümumxalq hüzn günü (20.01.1990) 56
Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi deportasiya dilməsinə başlanmışdır (25.01.1988) 57
Ucar rayonunun yaradılmasının (24.01.1939) 85 illiyi

YANVAR

2024

Beyləqan rayonunun yaradılmasının (24.01.1939) 85 illiyi
"Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğuna milli qoruq statusu verilməsi haqqında qərar qəbul edilmişdir (24.01.2020)
Dünya Ekoloji Təhsil Günü (26.01.1972) 58
Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalanmışdır (27.01.2021)
Gömrük İşçiləri Günü (30.01.1992)

Baba Vəziroğlu – 70

(1954)

Şair, tərcüməçi



Ə d ə b i y y a t :

...Qalanı xatirədir: [şeirlər toplusu] / Baba Vəziroğlu; baş red. və tərtibatçı T. Hüseynli; [ön söz N. Həsənzadə]; rəssam İ. Nurəli. - Bakı: [Zərdabi], 2022.- 191, [1] s.

"Nağıllara inana-inana yaşayırıq" / Baba Vəziroğlu; müsahibəni apardı Ü.Fərzəliyeva // Tibb qəzeti.- 2017.- 30 sentyabr.- S.10-11.

Gülümsə: [şeirlər] /F.Rəsul; [ön söz B. Vəziroğlu].Rəsul, Firdovsi. (Rəsulov Firdovsi Fizuli oğlu) 1986- Bakı: [TEAS Press], 2020. - 186 s.

B.V.Məsimovun (Baba Vəziroğlunun) "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10 yanvar 2020-ci ilAzərbaycan Respublikası Prezident (2003- ; İ. H. Əliyev) // Azərbaycan.-2020.- 11 yanvar.- S.1.

69-u vurub başa.../ Elman Eldaroğlu //Xalq Cəbhəsi.-2023.- 12 yanvar.- S.15.

Danışmaqdan çox susmağı sevirəm / Baba Vəziroğlu; müsahibəni apardı Tamilla M-zadə // 525-ci qəzet .- 2023.- 24 iyun.- S.18;19.

"Qalanı xatirədir" kitabının təqdimatı keçirilib //Mədəniyyət.- 2022.- 14 dekabr.- S.4.

Baba Vəzir oğlu Məsimov (Baba Vəziroğlu) 1954-cü il yanvar ayının 10-da İsmayıllı rayonunun Mollaisaqlı kəndində anadan olmuşdur.

İsmayıllı rayonun Hacatamlı kənd orta məktəbini bitirdikdən sonra "Pravda" kolxozunda işləmiş, oradan 1971-1972-ci illərdə ADU-nun (indiki BDU) hazırlıq fakültəsinə göndərilmişdir.

1972-1977-ci illərdə universitetin jurnalistika fakültəsində təhsil almışdır. Azərbaycan LKGİ MK RTİD qərargahında ədəbi işçi, 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqında Bədii ədəbiyyatı təbliğ bürosunda təlimatçı, 1979-1991-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi işləmişdir. "Molla Nəsrəddin" jurnalının baş redaktoru olmuşdur.

1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü seçilmişdir.

Ədəbi fəaliyyətə 1976-cı ildə "Ulduz" jurnalında çap etdirdiyi "Bir yaz axşamı", "Mağazinçi Dadaş" hekayələri ilə başlamışdır. Həmin vaxtdan dövri mətbuatda şeir və nəsr əsərləri ilə fəal çıxış etmişdir. Klassik rus şairlərindən tərcümələr etmişdir. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

1982-ci ildə Sovet nümayəndə heyətinin tərkibində Bolqarıstanda tərcüməçilərin beynəlxalq müşavirəsində iştirak etmişdir. 1983-cü ildə İ.Karacalenin "İtirilmiş məktub" dram əsərini Azərbaycan dilinə müvəffəqiyyətlə tərcümə etdiyinə görə SSRİ Mədəniyyət Nazirliyi və Ümumrusiya Teatr Cəmiyyətinin diplomuna layiq görülmüşdür. 1984-cü ildə Yazıçılar İttifaqının dəvəti ilə Almaniya Demokratik Respublikasında yaradıcılıq ezamiyyətində olmuşdur. 1984-cü ildə gənc yazıçıların Moskvada keçirilən VIII Ümumittifaq müşavirəsində nümayəndə heyətinin üzvü kimi iştirak etmişdir.

1985-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun nəşr şöbəsini qiyabi bitirmişdir.

1993-1994-cü illərdə "Yurd" jurnalının məsul katibi işləmişdir. 1994-cü ildən "İstedad" jurnalının baş redaktorunun müavini olmuşdur. 1997-1998-ci illərdə "Mir" Dövlətlərarası Teleradio Şirkətində redaktor, 1998-2002-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqında baş redaktoru, 2002-ci ildən isə idarə heyətinin katibidir.

"Səhər qatarı" (1980), "Yaddan çıxan görüş" (1985), "Ocaq" (1889), "Yol" (1992), "Dünya dəyməz göz yaşına" (1998), "...Qalanı xatirədir" (2022) kimi kitabları ədəbiyyatımıza dəyərli töhfə olmuşdur.

Bir çox şeirlərinə mahnı bəstələnmişdir. Uzun illər televiziya verilişi aparıcısı kimi çalışmış, "Həsən Seyidbəyli", "Yeri boş qalan adam" (Rəşid Behbudov haqqında), "Sənsiz və ya ömrün son axşamı" (Həsən Turabov haqqında), "Haradan başlanır vətən", "Elegiya" (Zərifə Əliyeva haqqında), "Beş nəğməlik ömür" (Oqtay Kazımov haqqında) və s. sənədli filmlərin ssenari müəllifi olmuşdur.


Baba Vəziroğlu 1988-ci ildə "Respublika komsomolu" mükafatı laureatı olmuş, 2000-ci ildə "Humay" mükafatına layiq görülmüşdür,

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 2005-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, 2020-ci ildə isə Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Əli Tudə – 100

(1924-1996)

Şair



Ə d ə b i y y a t :

İstiqlal şairimiz - Əli Tudə : O, ömrü boyu Azərbaycanın bütövlüyü və azərbaycançılığın təbliği uğrunda həyatı və qələmi ilə mücadilə aparıb /M.Rzayeva// Şərq.-2014.-21 avqust.-s.7

Əsərləri : [20 cilddə] /Ə. Tudə ; [red. N. Cavadzadə ; rəssam N. Rzaquliyev] Tudə, Əli. (Cavadzadə Əli Qulu oğlu) Əməkdar incəsənət xadimi, şair 1924-1996[C. 13] Mənim səsim : [şeirlər və poemalar] Bakı: Azərbaycan, 2018.- 349 s.

"Tudə təxəllüsünü Xalq özü verdi mənə" //Kredo.-2021.- 3 fevral.- S.15.

Əbilov, A.X. "Əli Tudə-100": "Söz" adlı Vətən / Aydın Xan Əbilov // Ədəbiyyat qəzeti.- 2023.- 7 oktyabr.- S.15.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/%C6%8Fli_Tud%C9%99

http://www.anl.az/down/meqale/525/2013/sentyabr/327622.htm

Əli Qulu oğlu Cavadzadə (Əli Tudə) 1924-cü il yanvar ayının 31-də Bakı şəhərində anadan olmuşdur. 150 saylı orta məktəbin yeddinci sinfini bitirmiş, ailəliklə Cənubi Azərbaycana köçdüklərindən təhsil ala bilməmişdir. Lakin şəxsi mütaliəsi, ədəbiyyata güclü meyli onda yazıb yaratmaq həvəsi oyatmışdır.

Sovet Ordusunun döyüş hünərindən bəhs edən ilk şeirini 1944-cü ildə "Vətən yolunda" qəzetində "Əli Tudə" imzası ilə çap etdirmişdir. Təbrizin şairlər məclisində ona "Tudə" - yəni "Xalq" təxəllüsü verilmişdir.

1944-1946-cı illərdə şeirləri Ərdəbildə çıxan "Ziddi-faşist", "Cövdət" qəzetlərində, ədəbi almanaxlarda, Təbrizdə çıxan "Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şəfəq", "Azərbaycan" məcmuələrində, "Şairlər məclisi" almanaxında müntəzəm çap olunmuşdur. 1944-cü ildə o, "Hizbitudeyi İran" partiyasının üzvü olmuşdur. 1945-ci il sentyabrın 3-də Təbrizdə yaranan Azərbaycan Demokrat Firqəsi sıralarına daxil olmuş, 1944-1945-ci illərdə İran Xalq Partiyası Ərdəbil Vilayət Komitəsində təbliğatçı, 1945-1946-cı illərdə Milli hökumət yarandıqdan sonra Təbrizdə Maarif Nazirliyi Tədris şöbəsinin müdiri, 1946-cı ildə Təbriz Dövlət Filarmoniyasının direktoru vəzifələrində çalışmışdır. Milli demokratik hökumətin süqutundan sonra, Bakıya mühacirət etmiş, "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi işləmişdir.

1947-1952-ci illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almış və universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1952-1962-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Ali Partiya Məktəbində müavin, "Azərbaycan" qəzetində (Azərbaycan demokratik firqəsinin orqanı) ədəbi şöbə müdiri olmuşdur. "Cənub nəğmələri" adlı ilk şeirlər kitabı "Azərnəşr" tərəfindən 1950-ci ildə buraxılmışdır.

1958-ci ildə Yazıçılar Birliyinin üzvü, 1960-cı ildən Birliyin İdarə Heyətinin üzvü seçilmişdir.

"Vətən sevgisi" (1951), "Məhbusların son sözü" (1952), "Şimal həsrəti" (1953), "Arazın o tayında" (1954), "Şairin düşüncələri" (1956), "Qartal" (1959), "Qəzəb" (1960), "Şeirlər və poema" (1962), "Buludlar" (1964), "Yanıqlı tütək" (1966), "Seçilmiş əsərlər"i (1968), "Sevinc" (1973), "Həyat sınağı" (1978), "Vətən torpağı" (1980); "Günəşli baharın yarpaqları" (1983), "Araz üstə palıd" (1984), "Gecikmiş vüsal" (1988), "Mənə elə baxma" (1990), Təbriz yolu (1996), "Söz ömrü" (1997), "Mühacir qeyrəti" (1998), "Mənim səsim" (2002), "Yarımçıq dastan" (2004), "Əsərləri: (20 cilddə)"(2014-2022), "Əli Tudə - 100" (2023) adlı kitabları nəşr olunmuşdur.

Görkəmli şairin "Əsərlərinin külliyatı" 2014-2022-ci illərdə "Azərbaycan" nəşriyyatında nəşr olunmuşdur.

1958-ci ildə Yazıçılar Birliyinin üzvü, 1960-cı ildən İdarə Heyətinin üzvü seçilmişdir.

1962-ci ildə Vilyam Şekspirin "Seçilmiş əsərlər"ini, "Şıltaq qızın yumşalması"nı, 1963-cü ildə Rabindranat Taqorun "Seçilmiş əsərlər"ini tərcümə etmişdir.

Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, Tbilisidə SSRİ Yazıçılar İttifaqının plenumunda və s. ümumittifaq tədbirlərində iştirak etmişdir.

Şair 1946-cı ildə "21 Azər", 1959-cu ildə "Əməkdə fərqlənməyə görə" medalları, 1984-cü ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. 1986-cı ildə "Əmək veteranı", 1987-ci ildə Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüşdür.

Şair 1996-cı ilin 26 fevralında Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Aşıq Ədalət – 85

(1939-2017)

Aşıq



Ədalət Məhəmmədəli oğlu Nəsibov (Aşıq Ədalət) 1939-cu il yanvar ayının 27-də Qazax rayonunda anadan olmuşdur.

Qazax şəhər 1 nömrəli orta məktəbini bitirmişdir. İlk dərsini atası Məhəmmədəli kişidən almış, daha sonra Aşıq Ələsgərin qardaşı Məşədi Salehin nəvəsi Aşıq Əlinin yanında şəyirdlik etmişdir. Gənc yaşlarından saz ifası üzrə fitri istedada malik olmuş, Aşıq Ələsgərin, Hüseyn Bozalqanlının, Hüseyn Şəmkirlinin, Molla Cumanın və başqalarının ən yaxşı ənənələrini, xalq tərəfindən daim sevilən və yayılan sənətkarlıq xüsusiyyətlərini həvəslə öyrənmişdir.

Xalq şairi Səməd Vurğun onun çalğısının vurğunu olmuşdur. O, "Qaytarma", "Baş sarıtel", "Ruhani", "Yanıq Kərəmi" və başqa saz havalarının bənzərsiz ifaçısı olmuşdur.

Saz ustasının yaradıcılığı təkcə müxtəlif havaları ifa etməklə, saz havalarında yenilik yaratmaqla məhdudlaşmamış, yaradıcı aşıq kimi "Arzu", "O bağa məni", "Gəlmişəm", "Gözəl", "Aşıq" rədifli qoşmaları və onlarca başqa şeirlər onun qələmindən çıxmışdır.

O, 50-dən çox xarici dövlətdə qastrol səfərində Azərbaycan sazının qüdrətini, şöhrətini bütün dünya xalqlarına çatdıra bilmişdir. UNESCO tərəfindən onun ifaları ayrıca lentə alınıb.

1970-ci ildə "Yeddi oğul istərəm", 1971-ci ildə "Ədalət", 1972-ci ildə "Aşıq Ələsgər", 1992-ci ildə "Prima", 2007-ci ildə "Tanrı payım, telli sazım" kimi filmlər onun şöhrətini daha da artırmışdır.

Qazax aşıqlarının xor lirikasında yüksək peşəkarlıq göstərmələrində Aşıq Ədalət Nəsibovun və Aşıq Şəadət Gülməmmədovun əvəzsiz xidmətləri olmuşdur. Onlar dövlət tədbirlərində xor ansamblının daha mütəşəkkil şəkil almasında yeniliklər edərək, özəlliklər yaratmışlar. Bilindiyi kimi, hər havacatda xor lirikası təşkil etmək mümkün olmadığı üçün bu həddi qoruyub saxlamaqda ustad Aşıq Ədalət Nəsibovun böyük rolu olmuşdur.

Dəqiq ifası, oxunuşu, aydın tələffüzü ilə yanaşı dastançılığı yüksək səviyyədə olan Ədalət Nəsibov hələ həyatda ikən el-oba içində "Dədə" titulunu qazanan sənətkarların sırasına qoşulmağı bacarmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1990-cı il 24 iyul tarixli Sərəncamı ilə Əməkdar incəsənət xadimi fəxri adına, 1997-ci il 10 oktyabr tarixli Sərəncamı ilə isə Prezident təqaüdünə layiq görülmüşdür. 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Aşıq Ədalət 2017-ci il sentyabr ayının 14-də Bakı şəhərində vəfat etmiş, vəsiyyətinə görə Qazax rayonunun Ağköynək qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat:

Saza sirdaş sənətkar: Ustad aşıq Ədalət Nəsibovun 80 illiyinə həsr olunan gecə /S.Fərəcov//Mədəniyyət . – 2019. – 13 mart.- S.1;3.

"Aşıq musiqisi axşamları"nda "Yada salaq Aşıq Ədaləti" /Savalan//Mədəniyyət.-2018.- 13 aprel.- S.3.

Vəfadağlı, A. Mənəvi mədəniyyətimizdə aşıq Ədalət zirvəsi /A. Vəfadağlı. //Ədalət .-2020.- 20 mart.- S. 7

İnternetdə:

https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_%C6%8Fdal%C9%99t

https://www.edebiyyatveincesenet.az/index.php/az/musiqi/item/462-bu-zhun-ustad-ash-g-aedalaetin-an-m-zhunudur

Sirus Mirzəzadə – 80

(1944) *Rəssam*



Sirus Yədulla oğlu Mirzəzadə 1944-cü il yanvar ayının 22-də Bakıda anadan olmuşdur.

1966-cı ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbini, 1972-ci ildə Moskva Ali Bədii-Sənaye məktəbinin "Monumental-dekorativ rəssamlıq" bölməsini bitirmişdir.

1972-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvlüyünə qəbul olunmuşdur.

Yaradıcılığa 1970-ci illərdən başlayan rəssam istər monumental-dekorativ, istərsə də dəzgah rəngkarlığı sahələrində fəal işləyir və bu iki fəaliyyət sferaları onun yaradıcılığında vəhdət təşkil edir.

Xalq rəssamı Siruz Mirzəzadə Azərbaycan rəngkarlıq məktəbinin tanınmış nümayəndəsi kimi müasir təsviri sənətin zənginləşməsində xüsusi payı və xidmətləri olan rəssamlardandır. Siruz Mirzəzadə öz yaradıcılığında ənənə ilə müasirliyin, milli bədii təfəkkürlə beynəlmiləl bədii düşüncə tərzinin maraqlı sintezini yaratmışdır.

Uzunmüddətli bədii fəaliyyəti dövründə təkrarsız üsluba malik rəssam çoxsaylı əsərlər yaratmış, 1972-ci ildən etibarən respublika, ümumittifaq və beynəlxalq sərgilərdə mütəmadi olaraq iştirak edərək bir çox mükafatlara layiq görülmüşdür. 1987-ci ildə Bakıda və Moskvada, 1995-ci ildə Fransada və Türkiyədə fərdi sərgiləri keçirilmişdir.

Rəssamın 70 illik yubileyi münasibəti ilə 2014-cü ilin dekabrında Milli İncəsənət Muzeyində fərdi sərgisi keçirilmişdir.

"Mənim əcdadlarımın torpağı", "İlin üç fəsli", "Qobelençilər", "Günəbaxanlar", "Suzanın yuxusu", "İkar haqqında nağıl", "Rəssamın qonağıyıq", "Xatirə", "Fələstin kədəri", "Çağırış", "Bakı, sabahın xeyir!", "İlin fəsilləri" dördlüyü, "Şanapipiklə natürmort", "Bərpaçılar", "Ömrün tarixçəsi" dördlüyü, "Uşaqlıqdan gəlmiş quş", "Uzağa baxanlar", "Arazın sahilində", "Gözmuncuğu", "Sarı fonda", "Pişiklə qız", "Sevgililər", "Şanapipik", "Mavi geyimli qız", "Söhbət zamanı" , "Balıqçı və balıq", "Rəssam və model", "Qırmızı mənzərə", "Adəm və Həvva", "İkiüzlü insan" və s kimi əsərlərin müəllifidir.

1996-cı ildə "Humay" mükafatı almışdır. 2002-ci ildə isə Əməkdar rəssamı fəxri adına, 27 may 2018-ci ildə isə Xalq rəssamı fəxri adına layiq görülmüşdür.

Azərbaycan, Rusiya, İran, Türkiyə, Almaniya, Niderland, Norveç, Fransa, Kuba, Rumıniya, Bolqarıstan, Macarıstan, Suriya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, ABŞ və İtaliyada nümayiş etdirilmişdir. Onun əsərləri muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılır.

Hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olur.

Ədəbiyyat:

Sirus Mirzəzadə. Azərbaycan Respublikasının Xalq rəssamı [İzomaterial]: rəngkarlıq, qrafika, monumental sənət /Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Rəssamlar İttifaqı; layihənin rəhbəri A. Hüseynov; tərtibatçı və foto T.Məmmədov; tərc. F.Fərəcova; dizayn R. Sadıxzadə.- Bakı: [n. y.], 2019.- 206, [2] s.,

Əliyev, Z. Miniatür üslubuna müasirlik bəxş edən sənətkar: 75 yaşı tamam olan Xalq rəssamı Sirus Mirzəzadənin yubiley portreti /Z.Əliyev .-2019.- 22 yanvar.- S.6.

Əliyev, Z. Ənənəyə bağlı sənətkar: Xalq rəssamı Sirus Mirzəzadənin yubiley portreti /Ziyadxan Əliyev //Kaspi. - 2019. - 5-7 yanvar.- S.24.


İnternetdə:

https://az.wikipedia.org/wiki//Sirus_Mirzəzadə

Elçin Aslanov – 90

(1934-2018)

Kino rəssamı



Elçin Muxtar oğlu Aslanov 1934-cü il yanvar ayının 26-da Bakıda anadan olmuşdur.

1960-cı ildə Leninqradda (indiki Sankt-Peterburq) Rəssamlıq Akademiyasını bitirmişdir. O vaxtdan təsviri sənətin kitab qrafikası, səhnə tərtibatı, rəngkarlıq və miniatür sahələrində çalışmışdır.

Elçin Aslanov 1962-ci ildən SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul olunmuşdur. Əsərləri ilə respublika və ümumittifaq səviyyəli, habelə xarici ölkələrdəki sərgilərdə iştirak etmidir.

Akademik Milli Dram Teatrında 12 tamaşanın ("Ölülər" (1966), "Xəyyam" (1970), "Xurşudbanu Natəvan" (1981) və s.), Opera və Balet Teatrında "Leyli və Məcnun" (1976) və digər səhnə əsərlərinin quruluşçu rəssamı olmuşdur.

Rəssam Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin sifarişi ilə 12 rəngkarlıq və qrafika əsəri işləmişdir. Orta əsrlərin tanınmış miniatür rəssamları Kəmaləddin Behzad, Soltan Məhəmməd, Ağamirək, ustad aşıqlar Dirili Qurbani və Abbas Tufarqanlının təsviri sənət obrazlarını yaratmışdır.

Elçin Aslanov 1968-1969-cu illərdə "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Cırtdan" cizgi filminin quruluşçu rəssamı, 1973-cü ildə çəkilən "Nəsimi" bədii filminin geyim üzrə rəssamı olmuşdur.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində baş rəssam kimi çalışmışdır. 1982-1987-ci illərdə Respublika Rəssamlar İttifaqının "Miniatür və kitab qrafikası" bölməsinə rəhbərlik etmişdir.

1965-ci ildən başlayaraq rəssamlıq sənəti ilə yanaşı, milli mədəniyyət tarixinə aid 200-ə yaxın məqalənin, milli-mənəvi dəyərlərimizlə bağlı "El-oba oyunu, xalq tamaşası", "Mən Dədə Qorqud", "Azərbaycan toyu", "Təxti-nərd dəstgahı", "Şəbeh epik teatrımız", "Zorxana mədəniyyəti", "Padşahın kiçik oğlu", "Gün çıx-çıx", "Yeddi çərşənbə, yeddi bayram", "Nuhun dabanı" - ümumilikdə 20-dən çox kitabın müəllifidir. Uşaqlar üçün nəşr edilən 60-dək kitaba bədii tərtibat vermişdir.

1994-cü ildə Rəssamlar İttifaqının "Soltan Məhəmməd" mükafatına, 1999-cu ildə "Mən Dədə Qorqud" kitabına görə Yazıçılar Birliyinin mükafatına, 2002-ci ildə Əməkdar rəssam fəxri adına layiq görülmüşdür.

Elçin Muxtar oğlu Aslanov 2018-ci il mart ayının 3-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t :

Mən Dədə Qorqud: Peyğəmbərin camalın görmüş milli övliyamızın bu fani dünyaya varıb-getməsi / Elçin Muxtar Elxan .- [Bakı]: [Səda], [2010.].- 182, [1] s.

Neominyətür sorağında: xatirələr, düşüncələr /Elçin Muxtar Elxan.- Bakı: "SƏDA", [2010].- 72 s.

"Xanxan" oyunları / Elçin Muxtar Elxan // Qobustan:Sənət toplusu.- 2015.- № 2.- S.54-58.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Elçin_Aslanov

https://medeniyyet.az/page/news/35335/Bundan-sonra-kompyuter-ressamliginin-hokmranligi-baslayir.html?lang=az

Əhməd Ağdamski - 140

(1884-1954)

Opera müğənnisi



Əhməd Bəşir oğlu Bədəlbəyli (Əhməd Ağdamski) 1884-cü il yanvar ayının 5-də Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur.İlk təhsilini Ağdamda və Bakıda "Realnı" məktəbdə almışdır. Hələ kiçik yaşlarında ikən teatra çox böyük maraq göstərmiş, 1910-cu ildə "Nicat" Xeyriyyə Cəmiyyətinin teatr truppasında səhnə fəaliyyətinə başlamışdır. Teatrda çalışdığı illərdə o, H.Sarabski, H.Ərəblinski M.Əliyev, H.Hacıbababəyov və sair sənət fədailəri ilə dostluq, əməkdaşlıq etmişdir. Tariximizdə ilk Leyli rolunu Əbdürrəhman Fərəcov ifa etmiş, lakin qadın obrazı olduğu üçün o, ikinci dəfə bu rolu oynamaqdan imtina etmişdir.

Üzeyir Hacıbəyov yeni aktyor axtarışına çıxmış, bu aktyor isə Əhməd Ağdamski olmuşdur. "Realnı" məktəbində təhsil alan Əhməd bəy tanınmasın deyə, adını "Miri" yazdırmış, sonralar isə səhnə təxəllüsü olaraq özünə "Ağdamski" soyadn götürmüşdür. Onun çıxışı Üzeyir Hacıbəyovun xoşuna gəlmiş və sonralar Əhməd Ağdamski bəstəkarın əsərlərində baş rolların ifaçısına çevrilmişdir.

Beləliklə o, inqilabdan əvvəlki Azərbaycan Opera və Musiqili Komediya Teatrı səhnələrində ilk dəfə qadın rollarının ifaçısı kimi tanınmışdır. O, qadın rollarını elə artistlik məharətilə ifa edirdi ki, hətta tamaşadan sonra qadın kimi ona çiçək göndərənlər də az olmurdu. Onun oynadığı qadın rollarının hamısı xarakter etibarilə bir-birindən fərqlənirdi. Bu obrazların hər birini tamam ayrı səpkidə oynayırdı. Tək oyun tərzi yox, hətta səsi də dəyişilirdi. O, düz 12 il səhnəyə qadın qiyafəsində, qadın geyimində çıxmışdır. Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Leyli, "Əsli və Kərəm"də Əsli, "O olmasın, bu olsun"da Gülnaz, "Arşın mal alan"da Gülçöhrə, "Ər və arvad"da Minnət, "Rüstəm və Söhrab"da Təhminə, "Şah Abbas və Xurşudbanu"da kəndli qızı və s. onun əsas rolları kimi opera tarixinə düşmüşdür. Hətta o, 1917-ci ildə "Arşın mal alan" filminə çəkilmış, Gülçöhrə rolunu canlandırmışdır.

Əhməd bəy Ağdamski 1920-ci illərin əvvəllərində doğma Qarabağa qayıdaraq Ağdamda yaşamağa başlamışdır. Burada 1923-cü ildə teatr truppası yaratmış, bir çox tamaşaların rejissoru olmuş, musiqili əsərləri ilə yanaşı, dram əsərlərində də bir müğənni-aktyor kimi çıxış etmişdir. 1934-cü ildə Ağdaş rayonuna göndərilmiş, orada Üzeyir Hacıbəyovun dəstəyi ilə musiqi məktəbi açmışdır. Həmin məktəbdə tar müəllimi kimi çalışan Ağdamskinin məşhur tələbələrindən biri də Habil Əliyev olmuşdur. 1936-cı ildə isə şəhər musiqi məktəbinə direktor təyin olunmuşdur.

1943-cü ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Əhməd Ağdamski 1954-cü il aprel ayının 1-də Ağdaş rayonunda vəfat etmişdir.

2017-ci ildə Mustafa Çəmənli Əhməd Ağdamskinin ömür yolundan bəhs edən "Səhnə fədaisi" adlı sənədli poevestini çap etdirmişdir.

Ə d ə b i y y a t :

Çəmənli, M. Əhməd Ağdamski / Mustafa Çəmənli. - Bakı : Şərq-Qərb, 2017. - 168 s.

Çəmənli, M. Səhnə fədaisi: Görkəmli opera müğənnisi Əhməd Ağdamskinin ömür yolu Sənədli povest / Mustafa Çəmənli // Azərbaycan.- 2018.- № 3.- S.21-69.

Ağdamski, T. Əhməd bəy Ağdamski: Qadın rollarının məşhur kişi ifaçısı: Professor Telman Ağdamski: "Atam dahi Üzeyir bəyin doğma xalası oğludur" / Telman Ağdamski, müsahibəni apardı İ.Hacıxanoğlu // Ekspress.- 2014.- 8-10 fevral.- S.12.

Əhməd Ağdamski(1884-1954): Qarabağın görkəmli simaları. //İqtisadiyyat.-2022.- 3-9 fevral.- S.6

Şəfiqə Axundova – 100

(1924-2013)

Bəstəkar



Şəfiqə Qulam qızı Axundova 1924-cü il yanvar ayının 21-də Şəki şəhərində anadan olmuşdur. İlk təhsilinə Şəki şəhərindəki 6 saylı orta məktəbdə başlamışdır. Lakin atasının işi ilə əlaqədar olaraq ailəsi Bakıya köçmüş və təhsilini 6 saylı orta məktəbdə davam etdirmiş, musiqi təhsili almışdır. "Röya" və "Qəlbimiz" adlı ilk mahnılarını yeddinci sinifdə oxuduğu dövrdə bəstələmişdir.

1943-1944-cü illərdə A.Zeynallı adına Bakı Musiqi Məktəbində oxuyarkən Üzeyir Hacıbəylidən dərs almışdır. 1956-cı ildə Ü.Hacıbəli adına Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq ixtisası üzrə B.Zeydmanın sinfini bitirmişdir. Konservatoriyada oxuduğu illərdə bir çox instrumental əsərlər, mahnı və romanslar yazmışdır. Onlardan Nizami Gəncəvinin sözlərinə "Nə gözəl" və "Cahanda", Məhəmməd Füzulinin sözlərinə "Fəqan etməz idim" romansları, "Zəfər marşı", "Zəfər bizimdir", "Ana Vətən" mahnılarının və s. musiqilərin adını çəkmək olar.

1943-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Şəfiqə Axundova peşəkar fəaliyyəti ilə yanaşı, 1943-1945-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrında çalışmış, 1956–1989-cu illərdə Azərbaycan İncəsənət İnstitutunda dərs demişdir.

Bəstəkar mahnı yazmaqla kifayətlənməmiş, mürəkkəb, eləcə də çətin bir janra müraciət edərək 1972-ci ildə "Gəlin qayası" operasını yazmış və Şərqdə ilk opera yazan qadın kimi tarixə düşmüşdür. Əsərdəki klassik musiqi ilə şifahi ənənəvi klassik muğamın qovuşması Üzeyir Hacıbəyli üslubunun saxlanmasını təsdiq edir. Qəhrəmanların ariya və ariozaları ifa etməsilə yanaşı, muğam parçalarının da səslənməsi bəstəkarın xalq musiqisini çox mükəmməl bilməsindən irəli gəlir və əsərə uğur qazandırır. Onun həyat və yaradıcılığı haqqında çoxsaylı kitablar yazılmışdır.

Şəfiqə xanım həm də bir sıra gözəl mahnıların ("Leyla", "Bəxtiyar ellər" və s.), "Ev bizim, sirr bizim" operettasının (1965), simli kvartet üçün pyeslərin, dramatik teatr üçün "Aydın", "Əlvida Hindistan!", "Nə üçün yaşayırsan?" və s. tamaşaların, "Təlxəyin nağılı", "Dovşanın ad günü" və s. kimi uşaq tamaşalarının musiqisinin müəllifidir.

Müasir Azərbaycan musiqisində mahnı janrının inkişafında Şəfiqə Axundovanın misilsiz xidmətləri vardır. O, klassik və müasir Azərbaycan poeziyasının qüdrətli nümayəndələrinin bədii irsinə dönədönə müraciət etmiş, Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə və Mirvarid Dilbazinin lirik şeirlərinə qaynağını xalq musiqisindən və muğamlardan alan yüzlərlə mahnı bəstələmişdir.

2012-cil ildə "Bəstəkar Şəfiqə Axundova" adlı film çəkilmişdir.

Azərbaycan musiqi sənəti sahəsindəki xidmətlərinə görə 1998-ci ildə Xalq artisti fəxri adına layiq görülmüşdür. 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur. 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Şəfiqə Qulam qızı Axundova 2013-cü il iyul ayının 26-da vəfat etmişdir.

Ədəbiyyat:

Şəkidə Şəfiqə Axundovanın yaradıcılıq gecəsi keçirilib //Mədəniyyət .-2023.- 25 yanvar.- S.4.

Şərqdə ilk opera yazan qadın bəstəkar : Görkəmli bəstəkar Şəfiqə Axundovanın anadan olmasından 95 il keçir//Üç nöqtə.-2019.- 22 yanvar.- S.12.

Bir əsrin iki Şəfiqəsi: Yaxud : Gözlərimin işığı sənsən... /G.Kərimi//Ədalət.-2020.- 25 iyul.- S.10

Azərbaycan və Xarici ölkə bəstəkarlarının kamera ansamblı üçün əsərləri [Notlar] : [dərs vəsaiti] /Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Milli Konservatoriyası ; tar ilə fortepiano üçün işləyəni və köçürəni M. H. Məmmədov (tərt. ed.) [ön söz] ; red. M. B. Quliyev ; [naşir C. Əliyev ; dizayner M. Əli.- Bakı: [Ecoprint], 2022,387s.

İnternetdə:

https://www.musicacademy.edu.az/az/bestekar-gorkemli/367-shafiqa-axundova.html

https://azertag.az/xeber/sefiqe_qulam_qizi_axundova-27017

İlham Namiq Kamal – 75

(1949) *Aktyor*



İlham Namiq Kamal oğlu Əhmədov 1949-cu il yanvar ayının 9-da Bakıda anadan olmuşdur.1966-cı ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. SSRİ Xalq artisti Adil İsgəndərovun və Azərbaycanın Xalq artisti Rza Təhmasibin kursunda təhsil almışdır. Tələbə vaxtı fransız ədibi Jan Batist Molyerin "Jorj Danden" satirik komediyasının tamaşasında baş qəhrəmanın rolunu uğurla oynamışdır.

O, 1968-1971-ci illərdə institutun Tədris teatrının aktyor truppasına qəbul edilmişdir. Bu kollektivdə Mirzə Cavad ("Aydın", Cəfər Cabbarlı), Şvitter ("Meteor" Fridrix Dürrenmatt), Lomov ("Elçilik", A.P.Çexov), Rekrutçu ("Sahildə bir ev", Stefan Sveyq) və s. rolları oynamışdır.

1971-ci il noyabrın 25-dən 1972-ci il fevral ayının 2-dək Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında, fevralın 3-dən isə Akademik Milli Dram Teatrında çalışmışdır. 1989-cu ildə Gənclər Teatrında aktyorluğa başlamışdır. Dövlət Gənclər Teatrında işləməklə yanaşı, 1989-1991-ci illərdə paralel olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrında fəaliyyət göstərmişdir. 1993-cü ildə özünün "İlham" Miniatür Teatrını yaratmışdır. Direktor və bədii rəhbər olduğu bu teatrda həm quruluşçu rejissor, həm də aktyor kimi çalışmışdır.

1995-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyir, Musiqili teatr aktyoru kafedrasının müdiridir. İlham Namiq Kamal 1998-ci ildən, həmçinin Akademik Milli Dram Teatrının yüksək dərəcəli aktyorudur. Onun oynadığı Altay Məmmədovun "Kişilər" (Hüseyn Ağbacı), Karlo Qaldoninin "Mehmanxana sahibəsi" (Markiz), İslam Səfərlinin "Göz həkimi" (Talıbov), Anarın "Evləri köndələn yar" və "Evləri göydələn yar" (Paşa Paşayeviç), Aqşin Babayevin "Nekroloq" (Sadıqov), Rüfət Əhmədzadənin "Bu, mənəm, mən deyiləm?", "Onu yazma", "Yumoristik parodiyalar" silsiləsində (Aparıcı tiplər), Cahangir Aslanoğlunun "Mənim tanışlarım" (Tiplər) monoloqlarının, Bernard Şounun "Kənd elçiliyi" (kişi), Nikolay Qoqolun "Evlənmə" (Podkolyosin), Mövlud Süleymanlının "Bəylik dərsi" (İbn Qubad) pyeslərinin tamaşaları Dövlət Televiziyasının daimi fondunda saxlanılır.

Aktyor "Azərbaycanfilm"-in istehsal etdiyi ekran əsərlərinə də çəkilmişdir. Onun "Qaynana" (İlqar), iki seriyalı "Qəribə adam" (Əbdürrəhman), "Arvadım mənim, uşaqlarım mənim" (MİS müdiri), "Uzun ömrün akkordları" (Curnalist), "Qızıl qaz" (Əli), "Bəyin oğurlanması" (Anar) filmlərindəki rolları daha sanballı və koloritlidir. O, onlarca televiziya verilişində satirik obrazlarda, Mozalan satirik kino jurnalında yüzə yaxın bədii süjetdə çəkildiyi surətlərdə böyük yaradıcılıq səyi ilə çıxış etmişdir. Azərbaycan Dövlət Televiziyasının müxtəlif əyləncəli, musiqili proqramlarının əsas aparıcılarından olub.

İlham Namik Kamal 2005-ci ildən Azərbaycan Dövlət Musiqili Teatrında aktyor-rejissor vəzifəsində çalışır. 2009-cu ildə professor elmi adını almışdır.O, Azərbaycan teatr sənətinin inkişafındakı xidmətlərinə görə bir çox dövlət mükafatlarına - 1982-ci ildə Əməkdar artist, 2002-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2004-cü ildən 2012-ci ilədək Prezident mükafatçısı olmuşdur. 2012-ci ildə fərdi Prezident təqaüdçüsü olmuşdur. 2013-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2000-ci ildə "Qızıl Dərviş" mükafatı laureatı olmuş, 2014-cü ildə ona Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Sənətkar" medalına layiq görülmüşdür. 2023-cü ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Xatirəsi qəlblərdə qalan sənət fədaisi /İ.N.Kamal

//Mədəniyyət.-2021.- 5 fevral.- S.6.

Rəhimli, İ. İlham Namiq Kamal / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə.- Cild 2.- Bakı, 2017.- S.124

Sənətkar ömrü: Azərbaycan Respublikasının Xalq artisti İlham Namiq Kamalın həyat və yaradıcılığına həsr olunur /Ç. A. Ələsgərli ; [red. M. Əvəzqızı] ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. Bakı: Təhsil, 2014.,151 s.

Sənətkar dostum üçün doğum günü yazısı və yaxud Xalq artisti İlham Namiq Kamalın bitib-tükənməyən sənət qayğıları /Ç.A.Ələsgərli

//525-ci qəzet.-2023.- 7 yanvar.- S.15., //Səs.- 2023.- 6 yanvar.- S.12.

İnternetdə:

https://musiqiliteatr.az/staff/az/5

https://modern.az/fotosohbet/55993/xalq-artisti-ilham-namiq-kamalla-fotoshbet/

Məmmədəli Balayev - 85

(1939) *Aktyor*



Məmmədəli Bəşir oğlu Balayev 1939-cu il yanvar ayının 10-da Qərbi Azərbaycanın Basarkeçər rayonunun Kəsəmən kəndində anadan olmuşdur. 1950-ci ildə ailəsi ilə birgə Qərbi Azərbaycandan Daşkəsən rayonuna deportasiya olunmuşdur.

Məmmədəli Balayev 1954-cü ildə Mədənçilərin Mədəniyyət evində bədii özfəaliyyət dərnəyi təşkil etmişdir. Sonra Moskva Dövlət İncəsənət Universitetinin iki illik rejissorluq kursunu və həmçinin Pedoqoji İnstitutun Dil-ədəbiyyat fakültəsini bitirmişdir.

O, 1961-ci ilin sentyabr ayından Gəncə Dövlət Dram teatrında fəaliyyətə başlamışdır. Gəncə Dövlət Dram Teatrının səhnəsində "Məhəbbət əfsanəsi"ndə Xosrov, "Pələng dərisi geyinmiş pəhləvan"da Tariyel, "Qaramanlı Qamboy"da Hacı Zeynəlabdin Tağıyev, "Komsomol poeması"nda Cəlal, "Nəriman ata"da Nəsif bəy Yusifbəyov, "Sokratla söhbətlər"də Anit, "Üç qəpiklik opera"da Gənc, "Dağlı qızı"nda Yusif, "O olmasın bu olsun"da Qoçu Əsgər, "Qatır Məmməd"də Əziz, "Qaçaq Nəbi"də Səlim bəy, "Ağıllılar və dəlilər"də Ədhəm Tağıyev, "Bu dünyanın adamları"nda Qulaməli, "Eşq və intiqam"da Piri baba, "Oktay Eloğlu"nda Hacı Zaman, "Qana qan"da Tacir, "Bəxtsiz cavan"da Hacı Səməd ağa, "Əsrin möçüzəsi"ndə Ədalət, "Qəribə oğlan"da Barsuq, "Son məktub"da Vahid, "Məhəbbətin qənimi"ndə Həkim, "Dan yeri sökülən-də"də Cəlil ağa və digər başqa maraqlı obrazlar yaratmışdır.

Məmmədəli Balayev eyni zamanda 1990-cı ildə Gəncə Dövlət Nizami Poeziya teatrında da aktyor kimi fəaliyyət göstərmişdir. Bu illər ərzində o, Nizami Gəncəvinin Xəmsəsi motivləri əsasında hazırlanmış tamaşalarda Nizami Gəncəvi obrazının əvəzolunmaz ifaçısı kimi tamaşaçıların hörmət və rəğbətini qazanmışdır.

Məmmədəli Balayev həmçinin "Bu dünyadadır", "Sizi unutmarıq" və "Qəza" pyeslərinin müəllifidir.

Aktyor səhnə fəaliyyətilə yanaşı, həmçinin "Haray", "Acılar bitməz", "Sonuncu fəsil", "Sevdiyim yar", "Şeyx Bahəddin", "Döngələr", "Azərbaycan toyu", "Sonuncu səsli" və s. filmlərdə də maraqlı rollar oynayıb.

Məmmədəli Bəşir oğlu Balayev 1994-cü ildən Azərbaycan Teatr Xadimləri İttifaqının Gəncəbasar bölməsinin sədridir.

Məmmədəli Balayevin sənətdə xidmətləri hər zaman yüksək dəyərləndirilib. Məmmədəli Balayev 2000-ci il oktyabr ayının 28-də Əməkdar artist, 2014-cü il fevral ayının 13-də Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2002-ci il mart ayının 10-da "Qızıl Dərviş" mükafatı almışdır. 1992-ci il mart ayının 4-də Azərbaycan Ali Sovetinin fəxri fərmanı və fəxri medalı ilə təltif olunmuşdur. 2022-ci il may ayının 10-da Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ə d ə b i y y a t :

Rəhimli, İ. Məmmədəli Balayev / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə; layihənin rəhb. Ə.M.Qarayev [ön söz]; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Cild 2.- Bakı, 2017.- S.282.

Burcəliyev, A. Gəncə teatrının 80 yaşlı fədaisi / Anar Bürcəliyev // Cümhuriyət.- 2019.- 10 yanvar.- S.14.

Burcəliyev, A. 80 yaş nədir ki ... / Anar Bürcəliyev // Mədəniyyət.- 2019.- 11 yanvar. - S. 4.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Məmmədəli_Balayev

Hacı İsmayılov - 80

(1944) *Teatr və kino aktyoru*



Hacı Məcid oğlu İsmayılov 1944-cü il yanvar ayının 22-də Bakı şəhərində anadan olmuşdur. 190 nömrəli orta məktəbdə təhsil almışdır. Orta məktəbi 1961-ci ildə bitirərək bir il tütün fabrikində fəhlə, daha sonra isə Gənc Tamaşaçılar Teatrında işıqçı işləmişdir. 1963-1967-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsində təhsil almışdır. 1967-ci ilin əvvəllərində İrəvan Dövlət Azərbaycan Dram Teatrını yenidən bərpa etmək məqsədilə İrəvana göndərilən son kurs tələbələrindən biri də Hacı İsmayılov olmuşdur.

Bakıya qayıtdıqdan sonra, 1967-1968-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda səhnə danışığı kafedrasında müəllim işləmişdir. Sumqayıt Dövlət Dram Teatrına aktyor işləməyə dəvət olunmuş və 1968-ci il sentyabr ayının 2-də truppada fəaliyyətə başlamışdır. Yeni teatr pərdələrini 1969-cu il mart ayının 14-də Mirzə Fətəli Axunzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası ilə açmış, bu tamaşada Məstəli şah rolunu ifa etmişdir. Bundan sonra Con Patrikin "Qəribə missis Səvic" dramında Ceffi, Aramaşot Papayanın "Bəli, dünya dəyişib" komediyasında Səməndər, Cəfər Cabbarlının "Sevil" pyesinin tamaşasında Məmmədəli bəy rollarında çıxış etmişdir.

Aktyor 1970-ci il fevral ayının 16-dan taleyini Akademik Milli Dram Teatrı ilə bağlamışdır. Elə ilk gündən Hüseyn Cavidin "Xəyyam" faciəsindəki İkinci Qulam rolunu almışdır. "Azərbaycanfilm" kinostudiyasında ilk dəfə "Ad günü" filmində Mustafa rolunda çəkilmişdir. Bu rola görə böyük uğur qazanmış və 1980-ci ildə Respublikanın Dövlət mükafatı laureatı olmuşdur.

Hacı İsmayılov Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Vaqif Səmədoğlunun üçhissəli "Yaşıl eynəkli adam" (Qafar), Mövlud Süleymanlının "Fatehlərin divanı" (Qazı), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında işlənmiş "Ordan-burdan" (Qoçu Gülbala), İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (Mustafa), "Ad günü" (Xuduş), Altay Məmmədovun "Kişilər" (Səməndər), "Alov" (Bədəl), Anarın "Nigarançılıq" (Kəblə Qasım) teletamaşalarında oynamışdır. "Azərbaycanfilm" kinostudiyasında "Bağlı qapı arxasında" (Alik), "Dantenin yubileyi" (Əlikram), "Yol əhvalatı" (Mürşüd), "Ölsəm, bağışla" (Tağı), "Özgə həyat" (Qasımov) və digər bədii filmlərə çəkilmişdir.

Hacı İsmayılovun yaradıcılığı və fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1989-cu il may ayının 17-də Əməkdar artist, 2000-ci il dekabr ayının 19-da isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Sənətkar" ordeni ilə təltif olunmuşdur. 21 yanvar 2019-cu ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Prezident təqaüdçüsüdür.

Hacı İsmayılov 2014-cü ildən Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq üzrə sədr müavinidir.

Ə d ə b i y y a t :

Rəhimli, İ. Hacı İsmayılov / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə.- Cild 2.- Bakı, 2017.- S.47-49.

Xalq artisti Hacı İsmayılov 75 illiyini teatrsevərlərlə birlikdə qeyd edib //Üç nöqtə.-2019.- 24 yanvar.- S.12.//Palitra.-2019.- 24 yanvar.- S.13.

Yubilyar ad günündə səhnədə : Xalq artisti Hacı İsmayılov 75 yaşını doğma teatrda qeyd edib //Mədəniyyət.-2019.- 23 yanvar.- S.1.

İ n t e r n e t d ə :

https://azdrama.az/?page_id=239

http://anl.az/el/emb/TEATR/aktyorlar/Haci_Ismayilov.htm

Mətləb Quliyev – 65

(1959-1992)

Milli Qəhrəman



Mətləb Kamran oğlu Quliyev 1959-cu il yanvar ayının 9-da Beyləqan rayonunda anadan olmuşdur.

İbtidai təhsilini 3 saylı pambıqçılıq sovxozundakı orta məktəbdə almışdır. Sonra ailəsi Sumqayıt şəhərinə köçmüş və o, təhsilini səkkizinci sinfə qədər 13 saylı orta məktəbdə davam etmişdir. Sonra Cəmşid Naxçıvanski adına hərbi məktəbə daxil olmuş, hərbi məktəbi bitirdikdən sonra müxtəlif müəssisələrdə fəaliyyət göstərmişdir. Ordu sıralarına çağırılmış, hərbi xidməti Ukraynada keçmişdir. Ordudan tərxis olunan il Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki ADPU) daxil olmuşdur. İnstitutda "Təhsil əlaçısı" döş nişanı ilə təltif edilmişdir.

Mətləb Quliyev 1985-ci ildə leytenant rütbəsi ilə Dövlət Pedaqoji İnstitutunu bitirmiş, Sumqayıt şəhəri 3 saylı orta məktəbdə hərbi hazırlıq müəllimi kimi çalışmağa başlamışdır. 1992-ci ildə daxili işlər orqanlarında işləməyə başlamış, bir zabit kimi Vətəni qorumaq üçün cəbhə bölgəsinə yollanmışdır. 1992-ci il avqust ayının 31-də Ağdam bölgəsində ağır döyüşlərdə fəal iştirak etmiş, düşməni böyük itkiyə uğradaraq geri çəkilməyə məcbur etmişdir. Qızğın döyüşdə güllələsinin qurtardığını görən düşmən hücuma keçmiş və bu döyüşdə Mətləb Quliyev qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə baş leytenant Quliyev Mətləb Kamran oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Sumqayıt şəhərindəki 3 saylı orta məktəb Mətləb Quliyevin adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuş, adına bulaq tikilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Mətləb Kamran oğlu – alay komandiri – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S.27.- (Ölümündən sonra).

Mətləb Quliyev /M.Mirzə //Respublika.-2023.- 8 yanvar.- S.7.

Seyidzadə, T. Şəhid olanlar Cənnətə gedir / Tofiq Seyidzadə // Azad Azərbaycan.- 2017.- 25 fevral.- S.7

Mirzə Quliyev - 50

(1974)

Milli Qəhrəman



Mirzə Məcid oğlu Quliyev 1974-cü il yanvar ayının 11-də Bərdə rayonunun Saatlı kəndində anadan olmuşdur.

Mirzə Quliyev 1991-ci ildə Saatlı kənd orta məktəbini bitirmiş, həmin ildə Mingəçevir şəhərindəki 39 saylı texniki peşə məktəbində qaynaqçı peşəsinə yiyələnmişdir. 1980-1991-ci illərdə burada təhsil almışdır. 1992-ci ildə hərbi xidmətə çağırılmış, Naxçıvan MR-nın Sədərək rayonu ərazisində RDM-da tuşlayıcı-atıcı kimi döyüşə başlamış, Batabat ərazisində gedən döyüşdə vuruşmuşdur. 1993-cü il iyul ayının 28-də Ağdam bölgəsinə göndərilmiş, döyüşlərdə iştirak etmişdir. Daha sonra Füzuli, Ağdərə, Tərtər bölgələrində gedən döyüşlərdə iştirak etmişdir.

PDM-lə düşmənin bir neçə tankını və canlı qüvvəsini məhv etmişdir. Öz vətənpərvərlik borcunu layiqincə yerinə yetirmiş M.Quliyev 1995-ci il yanvar ayının 15-də Prezidentin Fərmanı ilə "Hərbi xidmətə görə" medalı ilə təltif olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Quliyev Mirzə Məcid oğlu döyüşlərdə göstərdiyi rəşadətə görə daha yüksək ada "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

M.Quliyev 1995-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının qiyabi şöbəsinə daxil olmuşdur. 1996-cı ilin oktyabr ayında çavuş rütbəsi ilə Milli Ordu sıralarından azad edilərək, daxili işlər orqanlarına işə göndərilmişdir.

1997-ci ildə Bakı şəhər Baş Polis İdarəsinin Çevik Polis Alayında polis nəfəri kimi fəaliyyətini davam etdirmişdir. 1998-ci ildə "Qızıl Ulduz" medalını almışdır. 2003-cü ildə M.Quliyevə leytenant rütbəsi verilmişdir. Hazırda DİN-in Nəsimi rayonu 20-ci bölməsində Cinayət axtarışı üzrə baş əməliyyat müvəkkili vəzifəsində kapitan rütbəsində çalışır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Mirzə Məcid oğlu – Müdafiə Nazirliyi, sıravi – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.

Seyidzadə, M. Quliyev Mirzə Məcid oğlu / M.Seyidzadə // Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.130.

İnternetdə:

http://www.milliqahramanlar.az/hero/240 http://veten-ugrunda.az/milliqehremanlar/266-quliyev-mirz-mcid-olu.html

https://avciya.az/quliyev-mirz%C9%99-m%C9%99cid-oglu/

https://az.baku-art.com/az/qehremanlarim-z-tan-yaq-v-tan-daq-mirz-quliyev

Vasili Əliyev – 65

(1959-1992)

Milli Qəhrəman



Vasili Əhməd oğlu Əliyev 1959-cu il yanvar ayının 15-də Qubadlı rayonunda anadan olmuşdur. 1966-1976-cı illərdə orta təhsil almış, 1977-ci ildə rayon Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağırılmışdır. Vasili Əliyevin Daxili qoşunlarda xidmət etməsi polis peşəsinə həvəsini daha da gücləndirmişdir. Ordudan tərxis olunaraq mühafizə bölməsinə gözətçi, 1980-ci ildə isə rayon DİŞ-ə polis nəfəri kimi işə qəbul olunmuşdur. Əla xidmətinə görə DİN tərəfindən "Polis əlaçısı" döş nişanı ilə təltif edilmişdir.

1988-ci ildən başlayaraq Vasili Əliyev mütəmadi olaraq döyüş meydanlarında əhalinin təhlükəsizliyinin təmin olunmasında xidmət göstərmişdir. 1989-cu ildə Qafan rayonunun Novruzlar kəndi yaxınlığında qurulmuş düşmən toplarının məhv edilməsində Vasilinin də xidmətləri olmuşdur. 1992-ci il oktyabr ayının 20-də Qaraqaya yüksəkliyi uğrunda yenidən döyüş başlamış, qeyri-bərabər döyüşdə qəhrəmanımız xüsusi rəşadət nümayiş etdirmişdir. Düşmənin xeyli canlı qüvvəsini məhv etmiş, özü isə qəhrəmancasına şəhid olmuşdur.

Vasili Əhməd oğlu Əliyev Qubadlı rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı Fərmanı ilə Əliyev Vasili Əhməd oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Qubadlı rayon Mədəniyyət evi və Diləli-Müskanlı kənd orta məktəbi qəhrəmanın adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilməsi haqqında: [Əliyev Vasili Əhməd oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 may 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- № 9.- S.55.- (Ölümündən sonra).

İnternetdə:

https://az.wikipedia.org/wiki/Vasili_%C6%8Fliyev

https://az.wikipedia.org/wiki/Vasili_%C6%8Fliyev

https://avciya.az/aliyev-vasili-ahmed-oglu/

Rövşən Abdullayev - 55

(1969-1993) *Milli Qəhrəman*



Rövşən Əbdülhüseyn oğlu Abdullayev 1969-cu il yanvar ayının 16-da Lerik rayonunda anadan olmuşdur. Məktəbi burada başa vurduqdan sonra ailəsi ilə birlikdə Lənkərana köçmüşdür.

Rövşən 1987-ci ildə Sankt-Peterburq Ali Hərbi-Siyasi məktəbinə daxil olmuşdur. 1991-ci ildə ali məktəbi əla qiymətlərlə leytenant rütbəsi ilə bitirmiş və onun təyinatını Rostov şəhər DİŞ-nə vermişlər. Lakin o, təkidlə təyinatını Azərbaycana dəyişdirmişdir.

Azərbaycana qayıdan kimi DİN-in əməkdaşı olaraq daxili qoşunların tərkibinə qatılmışdır. Gənc zabit bir müddət sonra Zəngilana göndərilmişdir. Rövşən 70 nəfərdən ibarət tağımın komandiri təyin edilmişdir. 13 sentyabr 1993-cü il Rövşənin son döyüşü olmuş, qəhrəman zabit Zəngilan rayonunun Qazançı kəndi uğrunda gedən döyüşdə igidlik göstərərək şəhid olmuşdur.

Rövşən Əbdülhüseyn oğlu Abdullayev Lənkəran şəhər qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə leytenant Abdullayev Rövşən Əbdülhüseyn oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Milli Qəhrəmanının Lənkəran şəhərində abidəsi qoyulmuşdur. Lerikdə mədəniyyət evi və küçə qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Abdullayev Rövşən Əbdülhüseyn oğlu – Daxili İşlər Nazirliyi, leytenant – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il //Azərbaycan.- 1995.- 17 yanvar.- S.1.- (Ölümündən sonra).

Rövşən Abdullayev /Ə. Həsənov //Respublika.-2022.- 20 mart.- S.8.

Rövşən Abdullayev /Ə.Həsənov//Respublika.-2023.- 15 yanvar.- S.4.

İ n t e r n e t d ə :

https://avciya.az/abdullayev-rovsen-ebdulhuseyn-oglu/

Səyavuş Həsənov – 60

(1964-1992) *Milli Qəhrəman*



Səyavuş Həsən oğlu Həsənov 1964-cü il yanvar ayının 20-də Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. Səkkizinci sinfi kənd məktəbində bitirdikdən sonra, təhsilini 54 saylı texniki-peşə məktəbində davam etdirmiş və rəngsaz peşəsinə yiyələnmişdir. Bir neçə ay Bakı Baş Tikinti İdarəsinin nəzdindəki Evtikmə Kombinatında işləmiş və sonra hərbi xidmətə yola düşmüşdür.

Stavropolda xidmətini başa vurduqdan sonra, yenidən əvvəllər işlədiyi kombinata qayıtmışdır. 1990-cı il yanvar ayının 20-də Bakıya daxil olan ordunun qarşısını almaqçün Xalq hərəkatına qoşulmuşdur. Qarabağı qorumaq üçün könüllü müdafiə batalyonu yarananda ona ilk qoşulanlardan biri olmuşdur.

1992-ci il iyun ayının 18-də Ağdərə bölgəsinə yola düşən dəstə bir çox kəndlərin geri alınmasında böyük şücaət göstərmişdir. 1992-ci il iyun ayının 25-də gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur.

Səyavuş Həsən oğlu Həsənov Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 21 iyul 1992-ci il tarixli 69 saylı Fərmanı ilə Həsənov Səyavuş Həsən oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

"Şəhid, səndən başlayır Vətən" adlı film Milli Qəhrəman Həsənova həsr olunmuşdur.

Ədəbiyyat:

Həsənov Səyavuş Həsən oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Milis starşinası – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 21 iyul 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 14.- S.47.- (Ölümündən sonra).

Səyavuş Həsənov /Q.Aslan //Respublika.-2023.- 20 yanvar.- S.8.

Seyidzadə, T. Allah şəhidliyi Öz dostlarının üzünə açır... / Tofiq Seyidzadə // Azad Azərbaycan.- 2017.- 31 yanvar.- S.7.

İnternetdə:

http://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Hesenov_Seyavus.pdf

https://shexsiheyet.mia.gov.az/?/az/menu/120/

Hikmət Muradov - 55

(1969-1991) *Milli Qəhrəman*



Hikmət Oqtay oğlu Muradov 1969-cu il yanvar ayının 23-də Bakı şəhərində anadan olmuşdur. 1976-1986-cı illərdə 190 saylı orta məktəbdə təhsil almışdır. 1986-cı ildə Krasnokutsk Mülki Aviasiya Məktəbinə daxil olmuş, 1991-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. Sonra isə Kiyev Ali Mülki Aviasiya İnstitutunun qiyabi şöbəsinə daxil olmuşdur.

Hikmət Muradov Yevlax Hava Yollarında 2-ci pilot kimi fəaliyyətə başlamışdır. 1991-ci il oktyabr ayının 29-da xüsusi tapşırıqla xidmət borcunu yerinə yetirərkən Xocalı rayonunun Xanabad kəndi ərazisində onun idarə etdiyi AN-2 təyyarəsi şiddətli raket atəşi nəticəsində zədələnmişdir. Təyyarəni və ekipajı təhlükəsiz yerə çatdırmaq istəsə də, düşmən atəşinə tuş gəlmiş və qəhrəmancasına şəhid olmuşdur.

Hikmət Oqtay oğlu Muradov Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı Fərmanı ilə Muradov Hikmət Oqtay oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərində 190 saylı orta məktəbdə barelyefi vurulmuşdur.

Ədəbiyyat:

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Muradov Hikmət Oktay oğlu – AN-2 təyyarəsinin ikinci pilotu – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 noyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 22.- S.68.- (Ölümündən sonra).

Hikmət Muradov /M.Mirzə //Respublika.-2023.- 22 yanvar.- S.11.

Seyidzadə, T. Vətənin müdafiəsi hər birimiz üçün ən müqəddəs zirvədir / Tofiq Seyidzadə // Azad Azərbaycan.- 2017.- 17 mart.- S.7.

İnternetdə:

http://veten-ugrunda.az/milliqehremanlar/124-muradov-hkmt-oqtay-olu.html http://avciya.az/muradov-hikmet-oqtay-oglu / http://maxe.az/herbci-heyati/123-hikmt-muradov-azrbaycann-milli-qhrman-qaraba-mharibsi-hidi.html

1 YANVAR

Vüsal Hüseynov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Vüsal Hüseyn oğlu Hüseynov 1999-cu il yanvar ayının 1-də Gədəbəy rayonunun Novo-İvanovka kəndində anadan olmuşdur. 2005-2016-ci illərdə Novo-İvanovka kənd orta məktəbəbində təhsil almışdır. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Müddətdən artıq hərbi xidmət qulluqcusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Vüsal Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək yaralanmış və 2020-ci il noyabr ayının 19-da şəhid olmuşdur.

Vüsal Huseyn oğlu Hüseynov ölümündən sonra Azərbaycan Respublikası Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-1

1

Oruc Soltanov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Oruc Fərhad oğlu Soltanov 1999-cu il yanvar ayının 1-də Kürdəmir rayonu Şovla kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmət dövründə nizam-intizam qaydaları baxımından seçilən əsgərlərdən olmuş və dəfələrlə təltifnamələrə layiq görülmüşdür.

Azərbaycan Ordusunun əsgəri olan Oruc Soltanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Ordu sıralarına çağırılmışdır. Oruc Soltanov ön cəbhəyə, Füzulinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə fədakarlıqla döyüşmüşdür. Snayperçi kimi xidmətini davam etdirən əsgər Oruc Soltanov düşmənin 50-yə yaxın canlı qüvvəsini və bir sıra texnikasını məhv etmişdir. Oruc Soltanov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Kürdəmir rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçünə Oruc Fərhaq oğlu Soltanov ölümündən sonra Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

YANVAR 1

Zabil Azadlı - 25

(1999-2020)

Əsgər



Zabil Tələt oğlu Azadlı 1999-cu il yanvar ayının 1-də Lerik rayonunun Biləvər kəndində anadan olmuşdur.

O, 2016-cı ildə şəhid Cəbrayıl Ağayev adına Biləvər kənd tam orta məktəbini əla qiymətlərlə başa vurmuşdur. 2017-ci il yanvar ayının 9-da Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış və Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəyə göndərilmişdir. Kəşfiyyat bölüyündə xidmət edən Zabil Azadlı 3 ay sonra xidmətini Ağstafada, Ermənistan sərhədində davam etdirmişdir. 2018-ci il iyul ayının 2-də xidmətini başa vurduqdan sonra ehtiyata buraxılmışdır.

Xidmətini başa vurduqdan sonra Zabil 2020-ci ildə Azərbaycan Kooperasiya Universitetinin ingilis dili (tərcüməçi) fakültəsinə daxil olmuş, lakin sentyabr ayının 27-də başlayan Vətən müharibəsinə qatılmışdır. Zabil Azadlı oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olmuş, doğulduğu Lerik rayonunda dəfn edilmişdir.

Zabil Tələt oğlu Azadlı ölümündən sonra Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalarlı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il.//Azərbaycan.–2020.– 19 dekabr.– S.5.

1

Oqtay Məmmədov - 30

(1994-2020)

Əsgər



Oqtay Namiq oğlu Məmmədov 1994-cü il yanvar ayının 1-də Gəncə şəhərində anadan olmuşdur. 2000-2011-ci illərdə İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2012-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Nizami Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

27 sentyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilmişdir. Oqtay Məmmədov könüllü olaraq orduya yazılmış, Vətən müharibəsində iştirak etmişdir. O, Azərbaycan Respublikasının ərazi bütövlüyü və işğal altında olan torpaqlarımızın azadlığı uğrunda vuruşmuş, Füzuli rayonu və Şuşa şəhəri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 8 noyabr 2020-ci il tarixində Xankəndi istiqamətində gedən döyüşdə şəhid olmuşdur. 16 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Oqtay Namiq oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

3 YANVAR

Rəcəb Hüseynov - 30

(1994-2020)

Əsgər



Rəcəb Nazim oğlu Hüseynov 1994-cü il yanvarin 3-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə İ.Bayramov adına Aşağı Öysüzlü kənd tam orta məktəbində təhsil almışdır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Rəcəb Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərə könüllü olaraq qatılmışdır. Noyabr ayının 9-da Şuşanın azad edilməsi zamanı şəhid olmuşdur. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunmuşdur.

Ailəli idi. İki övladı Vətənə yadigar qalmışdır.

Rəcəb Nazim oğlu Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

3

Nüsrət Mehdiyev - 25

(1999-2020)

Əsgər



Nüsrət Telman oğlu Mehdiyev 1999-cu il yanvar ayının 3-də Sabirabad rayonunun Bala Həşimxanlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nüsrət Mehdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 29-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Sabirabad rayonunda dəfn olmuşdur.

Nüsrət Telman oğlu Mehdiyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

YANVAR

4

Şamil Bababəy - 30

(1994-2020)

Baş leytenant



Şamil Nazim oğlu Bababəy 1994-ci il yanvar ayının 4-də Ordubad rayonunun Cənnəb kəndində anadan olmuşdur. 8-ci sinifi bitirdikdən sonra 3 il Ordubad rayonu, Heydər Əliyev adına Hərbi Liseydə təhsil almışdır.

O, 2012-2016-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuş, 4 il burada oxuduqdan sonra leytenant rütbəsi almışdır. Daha sonra baş leytenant rütbəsinə qədər yüksəlmişdir.

Şamil Bababəy N saylı Hərbi hissədə tankçı vəzifəsində xidmət etmiş və Aprel döyüşlərinin iştirakçısı olmuşdur. 2020-ci il yanvarın 1-də Mingəçevir hərbi hissəsinə bölük komandiri təyin edilmişdir.

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının Baş Leytenantı olan Şamil Bababəy 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə uğrunda gedən döyüşlərdə iştirak etmişdir., oktyabrın 7-si düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olmuşdur. İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Şamil Nazim oğlu Bababəy ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Suqovuşanın azad olunmasına görə", III dərəcəli "Qüsursuz xidmətə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

5

Arif Süleymanov - 30

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Arif Ramiz oğlu Süleymanov 1994-cü il yanvar ayının 5-də Goranboy rayonunda anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Arif Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Arif Süleymanov oktyabrın 8-də Madagizin azad edilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Arif Ramiz oğlu Süleymanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.66-67.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12


YANVAR

5

Qara Nəsirov - 25

(1999-2020)

Əsgər



Qara Eldəniz oğlu Nəsirov 1999-cu il yanvar ayının 5-də Beyləqan rayonunda anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı qüvvələri sırasında həqiqi hərbi xidmətə çağrılmışdır. Hərbi xidmət müddəti bitəndə mülki şəxs olaraq fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qara Nəsirov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Xocavənd döyüşlərində iştirak etmişdir. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zaman qəhrəmancasına şəhid olmuşdur.

Qara Eldəniz oğlu Nəsirov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57

6

Azər Əliyev - 25

(1999-2021)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azər Dilafər oğlu Əliyev 1999-cu il yanvar ayının 6-da Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Ağcabədi rayon Yuxarı Qiyaməddinli kənd Alı Mustafayev adına tam orta məktəbdə təhsil almışdır. Azər Əliyev Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuş, Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. Azər Əliyev 2019-cu ildən Xocavənd rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətdən artıq hərbi xidmət etmşdir.

Azərbaycan Ordusunun əsgəri olan Azər Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Ağdamın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 15 oktyabr 2020-ci ildə Hadrutun azad uğrunda gedən döyüşlər zamanı ağır yaralanmış və xəstəxanaya yerləşdirilmişdir. Uzun müddət koma vəziyyətində olmuş, 28 yanvar 2021-ci ildə müalicə aldığı xəstəxanada vəfat etmişdir. 29 yanvar 2021-ci ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində dəfn olunmuşdur

Azər Dilafər oğlu Əliyev Azərbaycan Respublikası Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Cəsur döyüşçü", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

7 YANVAR

Babək Samidli - 50

(1974-2020)

Polkovnik



Babək Mətləb oğlu Samidli 1974-cü il yanvar ayının 7-də Göyçay şəhərində anadan olmuşdur.

1980-1991-ci illərdə Göyçay şəhəri 6 nömrəli orta məktəbədə thsil almışdır. 1993-1997-ci illərdə Türkiyə Respublikasının Ankara şəhərində yerləşən Quru Qoşunları Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır.

2000-2003-cü illərdə Ali Hərbi Məktəbdə tağım və bölük komandiri kimi çalışmışdır. 2003-cü ildən Tovuzda tağım komandirin müavini Tovuz rayonunda düşmənlə təmas xəttində bölük komandiri olaraq xidmətə davam etmişdir. 2005-ci ildə Almaniyada "Corc Marşal" adına Avropa Təhlükəsizlik Mərkəzində kurs keçmişdir. 2005-ci ildə Hərbi Polisin xüsusi təyinatlı taborunda komandir müavini vəzifəsinə təyin olunmuşdur. 2007-ci ildə Hərbi Polisin qərargahında xidmət etmişdir. 2007-ci ildən 2010-cu ilə qədər Lənkəran rayon Hərbi Polisinin rəisi vəzifəsində xidmət etmişdir. 2010-cu ildə Füzuli rayonunda hərbi hisənin ön xətt taboruna tabor komandiri vəzifəsinə təyin olunmuşdur. Cəlilabad rayonunda yerləşən hərbi hissədə tabor komandiri, əməliyyat bölmə rəisi və qərargah rəisi vəzifələrində xidmət etmişdir. 2015-ci ildə Birinci Ordu Korpusunda korpusun əməliyyat bölmə rəisi vəzifəsinə təyin olunmuşdur. Daha sonra Birinci Ordu Korpusunda maddi texniki təminat bölməsinin baş zabiti olaraq xidmət etmişdir.

2016-cı ildə Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Talış kəndi uğrunda gedən ağır döyüşlərdə iştirak etmişdir.

2018-ci ildə "Hərbi Xidmətlərə Görə" medalı ilə təltif edilmişdir.

Babək Samidli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Talış kəndi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Talış kəndinə üçrəngli bayrağımızı sancan Babək Samidli təkbaşına 39 yaralı əsgərimizi döyüş ərazisindən çıxara bilib, Suqovuşanı azad edən zaman təhlükəli olsa da, mühəndisləri həmin əraziyə apararaq rayonlara su verilişini bərpa etmişdir. Noyabr ayının 23-də Babək Səmidli Suqovuşan ərazisində minaya düşərək şəhid olmuşdur. Noyabr ayın 24-də Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Ailəli idi. İki övladı yadigar qalıb.

Polkovnik Babək Samidli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Zəfər" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhid Babək Səmidliyə məxsus materiallar ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin İkinci Qarabağ müharibəsi fonduna təhvil verilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.66-67.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/246

https://unudulmazlar.az/az/infom/1321

YANVAR
9

Elzar Yusubov - 35

(1989-2020) *Leytenant*



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Elzar Süleyman oğlu Yusubov 1989-cu il yanvar ayının 9-da Gürcüstanın Dmanisi rayonunun Qəmərli kəndində anadan olmuşdur. 1992-ci ildən Yusubovlar ailəsi Hövsan qəsəbəsində yaşamağa başladılar. 1995-2007-ci illərdə Hövsan qəsəbəsində Ə.Məmmədov adına 76 nömrəli tam orta məktəbdə, 2007-2011-ci illərdə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) ali təhsil almışdır.

Elzar Yusubov 2011-2012-ci illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmiş, 2013-cü ildən Daxili Qoşunların sıralarında Manqa Komandiri vəzifəsində xidmət etmişdir. 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmət göstərmişdir.

Leytenant Elzar Yusubov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elzar Yusubov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Hövsan qəsəbəsində dəfn edilmişdir.

Ailəli idi. İki övladı yadigar qalmışdır.

Elzar Süleyman oğlu Yusubov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

9

Məhəmməd Əliyev - 25

(1999-2020) *Əsgər*



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilətəltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Məhəmməd İlham oğlu Əliyev 1999-cu il yanvar ayının 9-da Masallı rayonunun Böyük Xocavar kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Bəyalı Məmmədov adına Böyük Xocavar kənd tam orta məktəbində təhsil almışdır. 2017-ci ilin yanvar ayında çağırışçı kimi hərbi xidmətə yollanmışdır. Həqiqi hərbi xidmətini Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində davam etdirmişdir. 2018-ci ilin iyul ayında ordu sıralarından tərxis olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri Məhəmməd İlham oğlu Əliyev 27 sentyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşa döyüşlərində şəhid olmuşdur. 11 noyabr 2020-ci ildə Böyük Xocavar kənd qəbiristanlığında dəfn olunmuşdur.

Məhəmməd İlham oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

YANVAR
9

Vüqar Məmmədov - 30

(1994-2020)

Əsgər



Vüqar İlqar oğlu Məmmədov 1994-cü il yanvar ayının 9-da Sumqayıt şəhərində anadan olmuşdur. 2000-2011-ci illərdə Sumqayıt şəhər 22 nömrəli tam orta məktəbdə, 2011-2015-ci illərdə isə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində təhsil almışdır.

Vüqar Məmmədov 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunları sıralarında həqiqi hərbi xidmətə başlamışdır. 2016-cı ildə Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar iştirak etmişdir. Hərbi xidmətdə topçu vəzifəsində və manqa komandiri kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Məmmədov 27 sentyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Vüqar Məmmədov 2020-ci ilin 6 oktyabr tarixində Füzuli şəhərinin azad edilməsi uğrunda gedin döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Vüqar İlqar oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölmündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

10

Aqil Əliyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Aqil Faiq oğlu Əliyev 1999-cu il yanvar ayının 10-da Tovuz rayonunun Pələkli kəndində anadan olmuşdur. 2005-2013-cü illərdə V.Rəhmanov adına Pələkli kənd tam orta məktəbində təhsil almış, 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuşdur.

Aqil Əliyev 27 sentyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. O, oktyabr ayının 15-də Suqovuşan ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Tovuz rayonunun Pələkli kəndində dəfn edilmişdir.

Aqil Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il//Azərbaycan.–2020.– 19 dekabr.– S.5.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.66-67.

YANVAR
10

Fəxri Qəribzadə - 30

(1994-2020)

MAHHXHQ əsgər



Fəxri Elmir oğlu Qəribzadə 1994-cü il yanvar ayının 10-da Bərdə rayon Güloğlular kəndində anadan olmuşdur. 2001-2011-ci illərdə Bakı şəhəri Suraxanı rayonunda Əmi Məmmədov adına məktəbdə təhsil almışdır. Orta məktəbi başa vurduqdan sonra, 2012-2013-cü illərdə, Quru qoşunlarında həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Mahmud Cavadov Ağdərə döyüşlərində iştirak etmiş, 10 oktyabr 2020-ci il tarixində Ağdərə istiqamətində şəhid olmuşdur. Bərdə Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Fəxri Qəribzadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.66-67.

10

Mirxəyal Kərimzadə - 25

(1999-2020)

Əsgər



Mirxəyal Valeh oğlu Kərimzadə 1999-cu il yanvar ayının 10-da Lənkəranda anadan olmuşdur.

O, 2017-2018-ci illərdə Naxçıvanda ağır artilleriya bölümündə atıcı kimi xidmət göstərmuşdir.

Azərbaycan Ordusunun əsgəri olan Mirxəyal Kərimzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllü iştirak edərək sentyabrın 28-i cəbhəyə yollanmışdır. Əvvəl Gəncəyə, oradakı 3 günlük xüsusi təlimdən sonra isə Murovdağa göndərilmişdir. Noyabrın 3-ü səhər saatlarında Xocavənd uğrunda gedən döyüşlərdə düşmənin onlarla canlı qüvvəsini məhv etmişdir və qəhrəmancasına şəhid olmuşdur. 9 noyabr Lənkəran şəhərinin Kiçik bazar qəbiristanlığında dəfn olunmuşdur.

Əsgər Kərimzadə Mirxəyal Valeh oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan. –2020. – 16 dekabr. – S.6-12.

YANVAR
11

Nadir Soltanov - 40

(1984-2020)

Gizir



Nadir Nəzir oğlu Soltanov 1984-cü il yanvar ayının 11-də Şamaxı Şəhərində anadan olmuşdur. 1990-2001-ci illərdə Şamaxı şəhərində M.Hadi adına 9 nömrəli tam orta məktəbdə təhsil almışdır.

Nadir Soltanov 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2005-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun giziri olan Nadir Soltanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Nadir Soltanov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olmuş, Şamaxı şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Ailəli idi. Üç övladı yadigar qalmışdır.

Nadir Nəzir oğlu Soltanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

11

Ənvər İmanov - 25

(1999-2020)

Əsgər



Ənvər Emil oğlu İmanov 1999-cu il yanvar ayının 11-də Sumqayıt şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə Sumqayıt şəhər 41 saylı tam orta məktəbdə təhsil almşdır.

2015-ci ildən qol güləşi idman növü ilə məşğul olmağa başlamış və Respublikada keçirilən yarışlarda iştirak edərək mükafatçı olmuşdur.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ənvər İmanov Füzuli, Cəbrayıl, Xocavənd döyüşlərində iştirak etmişdir. Ənvər İmanov 28 oktyabr 2020-ci ildə Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ənvər Emil oğlu İmanov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" ,"Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57

YANVAR

13

Elşad Fərəcullayev - 40

(1984-2020)

Əsgər



Elşad İsa oğlu Fərəcullayev 1984-cü il yanvar ayının 13-də Gəncə şəhərində anadan olmuşdur. 1999-cu ildə Gəncə şəhər 17 nömrəli tam orta məktəbi bitirmuş və 2002-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmışdır. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

2014-2018-ci illərdə müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirmişdir.

27 sentyabr 2020-ci il tarixdə Vətən Müharibəsinin başlanması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarxli Sərəncamına uyğun olaraq Elşad Fərəcullayev 29 sentyabr tarixində yenidən hərbi xidmətə çağrılmışdır. O, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi və işğal altında olan torpaqlarımızın azadlığı uğrunda vuruşmuşdur. 8 noyabr 2020-ci ildə Xankəndi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. 17 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Elşad İsa oğlu Fərəcullayev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

14

Kamran Seyfullazadə - 25

(1999-2020)

Əsgər



Kamran Cəlal oğlu Seyfullazadə 1999-cu il yanvar ayının 14-də Astara şəhərində anadan olmuşdur. Orta təhsilini Astara şəhər F.Əliyarov adına 6 saylı orta məktəbdə almışdır.

Hərbi xidmətini başa vurduqdan sonra Kamran Seyfullazadə İyul hadisələri zamanı hərbi komisarlığa gedərək könüllü cəbhəyə getmək üçün yazılı ərizəsi ilə müraciət etmişdir. Əks-hücum əməliyyatları başlayan ilk günlərdə o, könüllü cəbhəyə yollanmışdır. Füzuli, Hadrut, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kamran Seyfullazadə 4 noyabrda Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 5 noyabr 2020-ci ildə doğulduğu Astara şəhərində dəfn olunmuşdur.

Kamran Cəlal oğlu Seyfullazadə ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

YANVAR
15

Əlisahib Ələkbərov - 30

(1994-2020) *Baş leytenant*



Əlisahib Selman oğlu Ələkbərov 1994-cü il yanvar ayının 15-də Salyan rayonunun Piratman-Gəncəli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun baş leytenantı olan Əlisahib Ələkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində döyüşmüşdür. Əlisahib Ələkbərov noyabr ayının 1-də şəhid olmuşdur. Salyan rayonunda dəfn olunmuşdur.

Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Əlisahib Selman oğlu Ələkbərov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" madalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

16

Kamran Hacıyev - 30

(1994-2020) *Çavuş*



Kamran Füzuli oğlu Hacıyev 1994-cü il yanvar ayının 16-da Xəzər rayonunun Şüvəlan qəsəbəsində anadan olmuşdur.

Azərbaycan Ordusunun çavuşu olan Kamran Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Kamran Hacıyev oktyabr ayının 22-də Hadrut döyüşləri zamanı şəhid olmuş, Xəzər rayonunun Şüvəlan qəsəbəsində dəfn olunmuşdur.

Kamran Füzuli oğlu Hacıyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

YANVAR

16

Taleh Məmmədov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Taleh Arif oğlu Məmmədov 1999-cu il yanvar ayının 16-da Tərtər rayonunda anadan olmuşdur. Tərtər rayon Hüsənli kənd tam orta məktəbində təhsil almış, 2017-ci ildə hərbi xidmətə çağırmışdır. Sonradan isə müddətdən artıq hərbi qulluqçu kimi Azərbaycan Ordusunda xidmətə davam etmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Taleh Məmmədov Ağdərə, Tərtər döyüşlərində iştirak etmişdir. Taleh Məmmədov 2020-ci il sentyabrın 29-da Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olmuşdur. Tərtər rayonun dəfn edilmişdir.

Taleh Arif oğlu Məmmədov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalarlı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

16

Ziyəddin Xanalıyev - 25

(1999-2020)

Əsgər



Ziyəddin Ariz oğlu Xanalıyev 1999-cu il yanvar ayının 16-da Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olmuşdur. Orta təhsilini Təzəkənd kənd tam orta məktəbində almışdır.

Ziyəddin Xanalıyev Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut, Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 6 noyabr 2020-ci il tarixində Daşaltı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 19 noyabr 2020-ci ildə Ağalıkənd qəbiristanlığında dəfn olunmuşdur.

Ziyəddin Ariz oğlu Xanalıyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

YANVAR
16

Cavid Məmmədli - 25

(1999-2020)

Əsgər



Cavid Natiq oğlu Məmmədli 1999-cu il yanvar ayının 16-da Şirvan şəhərində anadan olmuşdur. 2006-2015-ci illərdə Bəhruz Aslanov adına Şirvan şəhər 16 nömrəli tam orta məktəbdə təhsil almışdır.

Cavid Məmmədli 2020-ci il iyulun 1-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan şəhər Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Cavid Məmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Cavid Məmmədli 27 sentyabr 2020-ci ildə Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 4 oktyabr 2020-ci ildə Şirvan Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Cavid Natiq oğlu Məmmədli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" , "Şuşanın azad olunmasına görə" , "Cəbrayılın azad olunmasına görə" "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

17

Sübhan Əzizov - 25

(1999-2020)

Əsgər



Sübhan Məmməd oğlu Əzizov 1999-cu il yanvar ayının 17-də Salyan rayonunun Dayıkənd kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Dəmir Yolu Liseyinin tələbəsi idi.

Azərbaycan Ordusunun əsgəri olan Sübhan Əzizov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Laçının, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sübhan Əzizov noyabrın 6-də Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Noyabr ayının 7-də Salyan rayonunun Dayıkənd kəndində dəfn olunmuşdur.

Sübhan Məmməd oğlu Əzizov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası PrezidentininSərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57

YANVAR

17

Bəhruz Hüseynov - 30

(1994-2020)

Əsgər



Bəhruz Yavər oğlu Hüseynov 1994-cü il yanvar ayının 17-də Salyan rayonunun Yolüstü kəndində anadan olmuşdur. 2011-ci ildə Yolüstü kənd orta məktəbini bitirmiş və Azərbaycan Texniki Universitetinə qəbul olunmuşdur.

2015-ci ildə universiteti bitirdikdən sonra Bəhruz Hüseynov hərbi xidmətə başlamışdır.O, hərbi xidmətdə tank taborunda tuşlayıcı operator olmuşdur. 2016-cı ildə Aprel döyüşləri zamanı Tərtər rayonu istiqamətində gedən döyüşlərdə şücaət göstərmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan Vətən müharibəsində tankçı olaraq ön cəbhə bölgəsinə göndərilmişdir. Füzuli, Cəbrayıl və Hadrut istiqamətində gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 19-da Xocavənd rayonu Düdükçü kəndi üzərindəki yüksəkliklərin azad edilməsi uğrunda gedən döyüşlərdə düşmənin atdığı minaatan mərmisi nəticəsində şəhid olmuşdur.

Bəhruz Yavər oğlu Hüseynov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

19

Səbuhi Əsədov - 25

(1999-2020)

Əsgər



Səbuhi Azər oğlu Əsədov 1999-cu il yanvar ayının 19-da Bakı şəhərində anadan olmuşdur. 2005-2016-ci illərdə Suraxanı rayonu 85 saylı orta məktəbdə təhsil almışdır.

O, 5 iyul 2019-cu ildə hərbi xidmətə yollanmışdır. Mingəçevir şəhərində "N" saylı hərbi hissədə hərbi xidmət dövrü keçmişdir.

Səbuhi Əsədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı cəbhənin Tərtər istiqamətində Talış və Suqovuşan uğrunda gedən döyüşlərə qatılmışdır. 8 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində şəhid olmuşdur.

Suraxanı rayonu Bülbülə qəsəbəsindədəfn olunmuşdur.

Səbuhi Əsədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edlmişdir.


Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

YANVAR
21

Murad Səlifov - 35

(1989-2020) *MAHHXHQ baş çavuş*



Murad Nəbi oğlu Səlifov 1989-cu il yanvar ayının 21-də Göytəpə şəhərində anadan olmuşdur.

Azərbaycan Ordusunun baş çavuşu Murad Səlifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılmışdır. Murad Səlifov sentyabrın 27-də Füzuli, Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Ailəli idi. 2 övladı yadigar qalıb.

Murad Nəbi oğlu Səlifov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

27

Məhəmməd Məmmədov - 30

(1994-2020) *Leytenant*



Məhəmməd Zakir oğlu Məmmədov 1994-cü il yanvar ayının 27-də Qazax rayonunun Alpout kəndində anadan olmuşdur.

2011-2015-ci illərdə Bakı Dövlət Universitetinin (BDU) Qazax filialında "Tarix-coğrafiya müəllimliyi" ixtisası üzrə ali təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Məhəmməd Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Məhəmməd Məmmədov oktyabr ayının 6-da Ağdərə istiqamətində şəhid olmuşdur. Qazax rayonunda dəfn olmuşdur.

Məhəmməd Zakir oğlu Məmmədov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "İgidliyə görə", "Laçının azad olunması" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12


YANVAR

27

Nicat Xankişiyev - 25

(1999-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Nicat Aşur oğlu Xankişiyev 1999-cu il yanvar ayının 27-də Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olmuşdur. Xankişiyev 2005-2016-cı illərdə Şəmsəddin Orucov adına Həsənabad qəsəbə tam orta məktəbdə təhsil almışdır.

Nicat Xankişiyev 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur, Beyləqan rayonunda kəşfiyyatçı kimi xidmət etmişdir.

Nicat Xankişiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Suqovuşan, Xocavənd, Qubadlı, Hadrut döyüşlərində iştirak etmişdir. 7 oktyabr 2020-ci il tarixində Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Həsənabad qəsəbəsində dəfn edilmişdir.

Nicat Aşur oğlu Xankişiyev ölmündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

30

Elmin Nəcəfov - 25

(1999-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respubli-Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il.// Azərbaycan.–2020.– 19 dekabr.– S.5.

Elmin Saleh oğlu Nəcəfov 1999-cu il yanvar ayının 30-da Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olmuşdur. O, 2005-2016-cı illərdə Şəmsəddin Orucov adına Həsənabad tam orta məktəbində təhsil almışdır.

Elmin Nəcəfov 31 yanvar 2017-2018-ci illərdə müddətli hərbi xidmət keçmişdir.

O, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Elmin Nəcəfov müharibə zamanı manqa komandiri vəzifəsində çalışmışdır. 9 oktyabr tarixində Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. 21 noyabr tarixində anadan olduğu Neftçala rayonunun Həsənabad qəsəbəsində dəfn olunmuşdur.

Elmin Saleh oğlu Nəcəfov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Mübariz Qurbanlı - 70

(1954) *İctimai-siyasi xadim*



Mübariz Qəhrəman oğlu Qurbanlı 1954-cü il yanvar ayının 7-də Şəmkir rayonunun Koltəhnəli kəndində anadan olmuşdur.

Mübariz Qurbanlı Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1978-1982-ci illərdə Şəmkir rayon Koltəhnəli kənd orta məktəbində müəllim işləmişdir. 1982-1985-ci illərdə Bakı Dövlət Universitetinin aspiranturasında əyani təhsil almışdır. Aspiranturada təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim, baş müəllim, dosent, kafedra müdiri, prorektor vəzifələrində çalışmışdır.

1995-2010-cu illərdə birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, Hesablayıcı Komissiyanın sədri olmuşdur. Azərbaycan-Bosniya və Herseqovina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Kanada, Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü olmuşdur. 1996-2014-cü illərdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvü və komitə sədrinin müavini kimi fəaliyyət göstərmişdir.

18 iyul 2014-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvüdür. Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilmişdir.

Yeni Azərbaycan Partiyasının VII qurultayında (5 mart 2021-ci il) YAP İdarə Heyətinin üzvü seçilmişdir. Partiyanın icra katibinin müavinidir.

Respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə Azərbaycan Respublikası Prezidentinin 07 yanvar 2014-cü il tarixli Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Mübariz Qurbanlı tarix üzrə fəlsəfə doktorudur. Çoxsaylı elmi, elmi-publisistik, nəzəri, politoloji məqalələrin və bir neçə kitabın müəllifidir.

Ədəbiyyat:

Ulu Öndərin irsi milli dəyərimizdir: Azərbaycan tarixinin Heydər Əliyev salnaməsi / Mübariz Qurbanlı // Respublika.- 2023.- 6 may.- S.7.

Sülhə gedən yol / Mübariz Qurbanlı; red. N.Məmmədov.- Bakı: Ozan, 2000.- 114 s.

AXalqla iqtidarın birliyi /S. Novruzov; elmi red. M. Qurbanlı ; tərt. ed. M. Qıpçaq. Bakı: Elm və təhsil, 2019.-270 s.

Xilaskar İlham Əliyev /B. Sadıqov ; red. İ. Hüseynli ; ön söz müəl. M. Qurbanlı. Bakı: [Hədəf Nəşrləri], 2021. S.317.

Tarixi dönüşün böyük uğurları /M.Qurbanlı //Azərbaycan.-2020.- 14 iyul.- S.1;3

Ermənistanın növbəti həyasızlığı /M.Qurbanlı //Azərbaycan.-2020.- 19 avqust.- S.1; 4.

İnternetdə:

https://meclis.gov.az/news-dep.php?id=363&lang=az

https://www.yeniazerbaycan.com/SonXeber_e4537_az.html

Səməd Seyidov – 60

(1964)

İctimai-siyasi xadim



Seyidov Səməd İsmayıl oğlu 1964-cü il yanvar ayının 18-də Bakı şəhərində anadan olmuşdur. 1981-1986-cı illərdə Leninqrad Dövlət Universitetinin (indiki Sankt-Peterburq Dövlət Universiteti) Psixologiya fakültəsində təhsil almışdır.

1986-cı ildə Leninqrad Dövlət Universitetinin psixologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1989-cu ildə doktorluq dissertasiyasını müdafiə etmişdir və Leninqrad Dövlət Universitetində fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 1986-cı ildən Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda laborant, baş laborant, müəllim, baş müəllim, tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır. 1994-cü ildə Psixologiya Doktoru elmi dərəcəsinə və daha sonra professor elmi dərəcəsinə yüksəlmişdir.

1994-2000-ci illərdə Azərbaycan Dillər Universitetinin tədris işləri üzrə prorektoru vəzifəsində işləmişdir. 2000-ci ildən 2015-ci ilədək Azərbaycan Dillər Universitetinin rektoru vəzifəsində işləmişdir.1998-2000-ci illərdə Azərbaycanın təhsil sistemini Avropa Şurasında təmsil etmişdir. 1999-cu ildən Azərbaycan Dillər Univesitetinin psixologiya kafedrasının professorudur.

Müasir dövrün tələbləri səviyyəsində yazılmış 150-dən çox elmi əsər, dərslik, dərs vəsaiti və monoqrafiyanın, həmçinin psixologiya dərsliyinin, "Menecment psixologiyası", "Yaradıcılığın fenomenologiyası" və s. kitabların müəllifidir.

2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. 2000-ci ildən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədridir. Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür. 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini, 2003-cü ildən isə AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin rəhbəridir. 2003-2005, 2007-2009, 2011-2013-cü illər ərzində Avropa Şurası Parlament Assambleyasında vitse-prezident və Büronun üzvü olmuşdur. 2018-ci ildən Avropa Şurası Parlament Assambleyasının vitse-prezidentidir. 2016-cı ildən Siyasi Psixologiya Mərkəzi İctimai Birliyinin direktorudur.

Səməd Seyidov 2011-ci ildə Azərbaycanla Fransa arasında əlaqələrin inkişafındakı müstəsna roluna görə Fransanın "Fəxri legionun kavaleri" rütbəsi ilə təltif edilmişdir. 2014-cü ildə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto professor Səməd Seyidova Azərbaycan və Macarıstan arasında ikitərəfli əməkdaşlıqda göstərdiyi xidmətlərə görə, universitetdə macar dili və mədəniyyətinin tədrisinin həyata keçirilməsi ilə bu əlaqələrə verdiyi töhfə və AŞPA-da bu əlaqələrin inkişafı yönündə fəaliyyətinə görə Macarıstan Prezidentinin fərmanı ilə döş nişanı və ordeni təqdim etmişdir. 2014-cü ildə Ərəb dilinin inkişafı və təbliğində göstərdiyi xidmətlərinə görə Misir Ali Təhsil Nazirliyi tərəfindən medalla təltif olunmuşdur. 2018-ci ildə "Diplomatik Xidmət Orqanlarının 100 illik yubiley medalı" ilə və 2019-cu ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

English: təlim Azərbaycan və rus dilində olan ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün dərslik /N. Yusifov, N. Bağırova; məsləhətçi. S. Seyidov, elmi red. D. İsmayılova, rəyçi. K. Əsgərova Bakı: Kövsər, 2010.-50s

Ermənistan-terrorçu "xristian" ölkənin gizlinləri /S. A. Uimz (ön söz) ; ingilis dilindən tərc. ed. Z. Ağayev; elmi red. S. Seyidov. Bakı: [Mütərcim], 2015.-387s.

Səməd Seyidov: Ermənilərin AŞPA-da Azərbaycanla bağlı əsassız iddiaları tamamilə iflasa uğradı // Azərbaycan.-2019.- 24 yanvar.- S.3.

Səməd Seyidov: Dünya ictimaiyyətinin Azərbaycanın yaratdığı yeni reallığı qəbul etməsi mütləq zərurətə çevrilib // Azərbaycan.-2020.- 4 dekabr.- S.3.

Səməd Seyidov: "Ölkələrlə qarşıdurma deyil, dialoq yaratmaq lazımdır" // Azərbaycan.-2021.- 26 yanvar.- S.3.

Səməd Seyidov: "Azərbaycan bu gün yaratdığı reallıqla Avropaya məsləhət verir" //Azərbaycan.-2022.- 23 iyun.- S.6.

Məhəmməd Əmin Rəsulzadə - 140

(1884-1955) İctimai-siyasi xadim



Ə d ə b i y y a t :

Rəsulzadə, M. Ə. Bir kərə yüksələn bayraq, bir daha enməz!: [Sitatlar] / Məhəmməd Əmin; naşir M. Xan; dizayn və qrafika F. İlham.- Bakı: [Mücrü]: 2023.- 126, [2] s.

Balayev, A. Məmməd Əmin Rəsulzadə: (1884-1955) / A. Balayev; elmi red. M. N. Quboqlo.- Bakı: [JekoP-rint], 2023.- 303, [1] s.

Rəsulzadə xatirələri / hazırl. D. Əhməd [ön söz]; red. V. Babayeva; naşir Y. İlhamoğlu; dizayn X. Danyal.- [C. 2].- Bakı: Çapar, 2023.- 251, [1] s.

Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi / Hüseyn Baykara [ön söz]; tərc. E. Əbülhəsənli; red. M. Əsədova; naşir M. Xan; dizayner F. İlham.- [Bakı]: Mücrü, [2023].- 354, [2] s.

Məhəmməd Əmin Rəsulzadə: biblioqrafiya / materialları toplayıb nəşrə haz., giriş sözün müəl. və red. N. Yaqublu; transliterasiya red. S. Xalidoğlu; rəssam R. Rəsulzadə. Bakı: [Kitab Klubu], 2015.-463

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Məhəmməd_Əmin_Rəsulzadə

Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində ruhani ailəsində anadan olub. Məşhur maarifçi-pedaqoq S.M.Qənizadənin (1866-1942) müdiri olduğu "II müsəlman-rus" məktəbində ilk təhsil alması mütəfəkkirin taleyində böyük rol oynamışdır. Sonralar M.Ə.Rəsulzadə təhsilini Bakı texniki məktəbində, rus dilində davam etdirib.

1902-1907-ci illərdə Azərbaycanda rus müstəmləkəsinə qarşı gizli mübarizə aparan ilk təşkilat yaradır və ədəbi-siyasi fəaliyyətə başlayır.

Əmək fəaliyyətinə "Kaspi" qəzetində mürəttib kimi başlamış və burada həyat məktəbi keçmişdir. "Müxəmməs" adlı ilk əsəri 1903-cü ildə Tiflisdə Məmməd ağa Şaxtaxtinskinin nəşr etdirdiyi "Şərqi Rus" qəzetində çap olunmuşdur. Ə.Rəsulzadənin Əli bəy Hüseynzadənin redaktor olduğu "Füyuzat", həmçinin Əhməd bəy Ağayevin redaktorluğu ilə çıxan "İrşad" və "Tərəqqi" qəzetlərində müxtəlif mövzularda məqalələri çap olunmuşdur.

1904-cü ilin axırlarından "Hümmət" təşkilatında, 1908-1910-cu illərdə İran inqilabında fəal iştirak etmiş, 1908-ci ildə İran tarixində ilk dəfə nəşr olunan "İrani new" ("Yeni İran") adlı gündəlik qəzet buraxdırmış və qəzetin baş redaktoru olmuşdur. 1911-ci ildə M.Ə.Rəsulzadə İstanbula getmək məcburiyyətində qalmışdır. Həmin illərdə Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu və Yusif Akçüralı da İstanbulda idilər. 1913-cü ildə elan edilən siyasi amnistiyadan istifadə edən M.Ə.Rəsulzadə Bakıya qayıtmışdır. Burada Müsavat partiyasına daxil olmuş və partiyanın rəhbərliyini əlinə almağa çalışmışdır. 1915-ci ildə nəşr etdirdiyi "Açıq söz" qəzetində türkçülük ideyasını irəli sürmüşdür.

1917-ci il inqilabı zamanı Bakıda toplanan Müsavat partiyasının qurultayında M.Ə.Rəsulzadə partiyanın lideri seçilmişdir. Həmin ildə partiyanın proqramında Azərbaycanın muxtariyyəti nəzərdə tutulurdu. Rusiyada bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra üç respublikadan (Azərbaycan, Gürcüstan, Ermənistan) ibarət Zaqafqaziya Seymi yaradılmışdır. Bu qurumda M.Ə.Rəsulzadə çox fəallıq göstərmiş, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında xüsusi xidmətlər göstərmişdir.

O, 28 may 1918-ci ildə Azərbaycanın müstəqilliyini elan etmiş və Milli Şuranın sədri olmuşdur. 1920-ci il aprelin 27-də Azərbaycan Qızıl Ordu tərəfindən işğal edildikdən sonra M.Ə.Rəsulzadə bir çox siyasi xadimlərlə birlikdə həbs olunmuşdur. Bu zaman Stalin Bakıya gəlmiş, Məhəmməd Əmini həbsdən azad etdirmiş və onu Moskvaya aparmışdır. M.Ə.Rəsulzadə iki il Moskvada yaşadıqdan sonra 1922-ci ildə Moskvadan Finlandiyaya qaçmış və oradan da İstanbula gəlmiş və onun bundan sonrakı ömrü mühacirətdə keçmişdir. O, 1931-ci ildə Polşaya köçmüş və 1947-ci ilin sentyabrına qədər müxtəlif Avropa ölkələrində yaşayan M.Ə.Rəsulzadə həmin il yenidən Türkiyəyə dönmüş və ömrünün axırına qədər Ankarada yaşamışdır.

Məmməd Əmin Rəsulzadə 1955-ci il mart ayının 6-da Ankarada vəfat etmiş və Əzri qəbiristanlığında dəfn olunmuşdur.

1993-cü ildə Ulu Öndər Heydər Əliyev M.Ə.Rəsulzadənin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında, 2013-cü il noyabr ayının 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" və 2023-cü il dekabr ayının 30-da "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamlar imzalamışlar.

Məşədixanım Nemətova – 100

(1924-2016)

Tarixçi-epiqrafist



Məşədixanım Sədulla qızı Nemətova 1924-cü il yanvar ayının 5-də Bakıda anadan olmuşdur. 1941-ci ildə orta məktəbi, 1948-ci ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsini bitirmişdir. 1954-cü ildə namizədlik, 1968-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1951-ci ildə AMEA Tarix İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamış görkəmli alim 1970-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Epiqrafika" şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Məşədixanım Nemətova 60 illik elmi fəaliyyəti dövründə Azərbaycanın bütün tarixi ərazisiniindiki Ermənistan, Dağıstan və Gürcüstanı addım-addım gəzərək, ərəb qrafikasının çətin oxunan kufi kitabələrini araşdırıb oxumuş və onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir. O, xüsusilə 1961-ci ildə Zəngəzurun Urud kəndindəki XIV-XVII əsrlərə aid qoç heykəllərinin və sənduqə formalı məzar daşlarının üzərindəki yazıları oxumaqla tarixən Zəngəzurda alban tayfalarının yaşadığını və onların İslamı qəbul etməsini elmi dəlillərlə sübut etmişdir.

Məşədixanım Nemətova İlisu sultanlarının məzar daşlarında olan kitabələrə əsasən onların Əlibəy Şami (Suriya) övladları olmalarını sübut etmişdir.

Məşədixanım Nemətova Azərbaycanın tarixi ərazisi olmuş Cənubi Dağıstanın Dərbənd daxil olmaqla, epiqrafik abidələrini tədqiq etmiş və buna əsasən Azərbaycanın Samur çayına qədər tarixi ərazisini müəyyənləşdirmişdir. Zəngəzur, Laçın, Kəlbəcər, Gürcüstanda Armazisxevidə, Qobustan tərəfdəki Qarabağ və başqa qəbirstanlıqlarda aşkar etdiyi XIVXIX əsrlərə aid at və qoç heykəlli və başdaşı formalı məzar daşlarında türk tayfalarına məxsus tamqaların, şamanların təsvirləri əsasında Cənubi Qafqazda türk tayfalarının yayılma arealını və beləliklə, Azərbaycanın tarixi ərazisini müəyyənləşdirmişdir. O, XIII-XIV əsrlərə aid Abşerondakı (Buzovna, Şağan, Yeni Suraxanı) üç xristian abidəsi əsasında xristian Suriya nəsranilərinin Abşeronda yaşamalarını, türkləşmələrini və Azərbaycan xalqının təşəkkülündə iştirak etmələrini sübut etmişdir.

Məşədixanım Nemətova elmi fəaliyyətin nəticəsi kimi 12-dən artıq monoqrafiya, 200 elmi məqalə, o cümlədən, 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu" nu nəşr etdirmişdir. Məşədixanım Nemətova sənətşünaslıq tarixində elmə məlum olmayan bədii daşyonma sənəti məktəblərini, onun əsasını qoymuş ustaları, onların davamçıları- nı, fəaliyyətlərinin xronoloji ardıcıllığını və əsərlərinin yayıldığı sahələri müəyyənləşdirmişdir. Onun epiqrafika elminin, ümumiyyətlə, Azərbaycan tarixinin müxtəlif mərhələlərinin öyrənilməsində böyük xidmətləri olmuşdur.

Görkəmli tarixçi 2009-cu ildə Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsində xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 4 mart 2009-cu il tarixli Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Azərbaycanın ilk epiqrafçı qadın alimi 2011-ci ildə Türkiyənin Qars şəhərində keçirilmiş "Uluslararası Kaşgardan Endülüse Türk-İslam Şehirleri Sempozyumları Qazi Kars Şehir Şehrengizleri" toplantısında "Türk-İslam mədəniyyətinə xidmətinə görə" mükafatına layiq görülmüşdür.

Məşədixanım Nemətova 2016-cı il dekabrın 26-da vəfat etmişdir. Zabrat qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat:

Azərbaycanda pirlər /M.S.Nemət; red. V.Quliyeva.- Bakı: Elm və təhsil, 2010.- 209, [3] s

"Əsrin daş yaddaşında mənim də sözüm qaldı" : Görkəmli epiqrafçı alim Məşədixanım Nemətovanın xatirəsi yad olundu /S. Fərəcov//Mədəniyyət.-2019.- 9 yanvar.- S. 1;3.

Azərbaycan epiqrafiya /Ə. Cəfərov //Kredo.-2019.- 31 yanvar.- S.5;7.

İnternetdə

http://www.xalqqazeti.com/az/news/ culture/79666


http://science.gov.az/forms/skanchavshiesyachlenyikorrespondentyi/2892chlenyikorrespondentyi/2892chlenyikorrespondentyi/2892

https://az.wikipedia. org/wiki/ Məşədixanım_Nemətova ?page=addread&id=568

Ramiz Əsgər - 70

(1954)

Ədəbiyyatşünas



Ə d ə b i y y a t :

Əlişir Nəvayinin lirikası / Ramiz Əskər; elmi red.: İ. Həbibbəyli, Ş. Siracəddinov; red.: Ə. Şamil, N. Əskər ; elmi məsl. B. Abduhəlimov. - Bakı: [Füyuzat], 2022.-318, [2] s

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı / Ramiz Əsgər; elmi red. M. İmanov; red.: Ə.Şamil, N.Əskər. - Bakı: [Füyuzat], 2021.- 286, [2] s.

Dahi türk dilçisi Mahmud Kaşğari: (dərs vəsaiti) / Ramiz Əskər; elmi red. İ. Həbibbəyli; red.: S. Sadıqova, İ. Məmmədov.- Bakı: [Füyüzat], 2020.- 175, [1]s.

Teymur Əhmədov Azərbaycan yazıçıları.(XX-XXI yüzillikdə ensiklopedik məlumat kitabı).-Bakı, "Nurlar" 2011, s.762.

Professor Ramiz Əsgər: "Mən Qərbi Azərbaycanın bu kəndində doğulmuşam" : "...Doğulduğum Qaraçanta kəndi Şörəyel mahalına aiddir" /R. Əsgər; müsahibəni apardı:İ.Sarıyeva //Bakı Xəbər.-2023.- 10 yanvar.- S.10.

Bütöv Azərbaycanın "Odlar yurdu" qəzeti /R. Əsgər; müsahibəni apardı X.Məzahirqızı //Şərq-2019.- 20 iyun.- S.11.

Ramiz Baxşəli oğlu Əsgərov (Ramiz Əsgər) 1954-cü il yanvar ayının 10-da Amasiya rayonunun Qaraçanta kəndində müəllim ailəsində anadan olmuşdur. 1961-1971-ci illərdə Əzizbəyov kənd orta məktəbində, 1972-1975-ci illərdə Azərbaycan Dövlət Universiteti Jurnalistika fakültəsində, 1975-1978-ci illərdə Moskva Dövlət Universiteti Jurnalistika fakültəsində təhsil almışdır.

Ramiz Əsgərov 1978-1983-cü illərdə Azərbaycan radiosunun redaktor, 1983-1984-cü illərdə "Azərbaycan bu gün" jurnalının baş redaktoru, 1984-1991-ci illərdə "Odlar yurdu" qəzetinin baş redaktor, 1991-1993-cü illərdə Uluslararası Xəbər Agentliyi (UHA, Ankara) və "Hürriyet" qəzetinin (İstanbul) Azərbaycan müxbiri, 1993-1997-ci illərdə "Yeni Forum" (Ankara) jurnalının Bakı təmsilçisi, 1993-1994-cü illərdə Azərbaycan Xarici Turizm Şurasının informasiya, reklam və mətbuat idarəsinin rəisi, 1994-1996-cı illərdə "XXI əsr" qəzetinin baş redakoru, 1992-1997-ci illərdə Azərbaycan Jurnalistilər Birliyinin katibi, 1997-dən Azərbaycan Jurnalistilər Birliyinin baş katibidir (ictimai əsaslarla), 2002-2007-ci illərdə BDU-nun türkologiya kafedrasının əməkdaşı, 2007-2009-cu illərdə BDU-nun Azərbaycan mühacərət ədəbiyyatı və bədii tərcümə elmi-tədqiqat laboratoriyasının baş elmi işçisi, 2009-2012-ci illərdə BDU-nun Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə elmi-tədqiqat laboratoriyasının müdiri və baş elmi işçisi, 2012-2016-cı illərdə BDU-nun Türk xalqları ədəbiyyatı kafedrasının müdiri, 2016-cı ildə BDU-nun Türkologiya kafedrasının müdiri olmuşdur. 2018-ci ildən BDU-nun Türkologiya kafedrasının professorudur. 2004-cü ildə filologiya elmləri namizədi elmi dərəcəsi, 2009-cu ildə filologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

Türkologiya, ədəbiyyat, tarix və jurnalistikaya dair kitablar yazmış, türk, rus, özbək, qazax, uyğur, türkmən, tatar, başqırd, qaqauz dillərindən tərcümələr etmişdir. "İqlimdən-iqlimə, təqvimdən-təqvimə", "Qutadğu Bilig", "Mahmut Kaşğarinin 1.000 illik yubileyinə.1.000 biblioqrafik göstərici", "Mahmud Kaşğarinin "Divani Lüğət-it-Türk" əsəri üzrə biblioqrafik və qrammatik göstərici", "Türk xalqları ədəbiyyatı oçerkləri-1", "Kitabi-Dədə Qorqud: biblioqrafik göstərici", "Qutadğu Bilig" hikmətləri", "Əlişir Nəvayi və onun xəmsəsi", "Dahi türk dilçisi Mahmud", "Kaşğari Özbək ədəbiyyatı tədqiqatları", "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı", "Əlişir Nəvayi: şəxsiyyəti və sənəti", "Əlişir Nəvayinin lirikası" adlı kitabları çap olunmuşdur.

Ramiz Əsgərin tərcüməçilik fəaliyəti də çox genişdir. O, Oğuzlar: tarixləri, boy təşkilat dastanları (Faruq Sümər 1992), Milli Azərbaycan hərəkatı (M.B.Məmmədzadə, 1992), Jurnalistikanın on qızıl qaydası (Erik Fichtelius, 2002), Gənc jurnalistlərə xitab (H. Haciyev, 2005), Türk mifologiyası (2006), Divanü Lüğat-it-Türk: (4 cilddə, 2006), Həyatım.... (Murad Tağı, 2008), XX əsr özbək şeiri antologiyası (2009), Monqolların gizli tarixi (2011), Seçilmiş əsərləri (M.Fəraqi, 2011), Türk ədəbiyyatı tarixi (2 cilddə, 2010), Seçilmiş əsərləri (A. Tukay, 2011), Seçilmiş bədii əsərləri (B. Çobanzadə, 2012), Qız Cibək: Qazax məhəbbət dastanı (2016), Türklərin İranı: yaxın gələcək (R. Albayraq, 2 cilddə, 2016) və b. tərcümə kitabların müəllifidir.

Nəvai ilə bağlı elmi araşdırmalarına və tərcüməçilik fəaliyyətinə görə Ramiz Əsgər Özbəkistanın "Turan" Elmlər Akademiyasının akademiki adına və Nəvayi şəhərinin Fəxri vətəndaşı adına layiq görülüb. 2021-ci ilin sonunda isə Beynəlxalq Türk Akademiyasının "Əlişir Nəvayi" qızıl medalı ilə təltif edilib. O, "Qızıl qələm", "Həsən bəy Zərdabi", "Humay", Türkiyənin "Türk dünyasına xidmət", Türkmənistanın "Altın əsr" və TürkSOY-un "Özəl ödül" mükafatları laureatıdır. Yazıçılar və Jurnalistlər Birliklərinin, Beynəlxalq Mətbuat İnstitutunun (İPİ, Vyana) üzvü, Azərbaycanın Əməkdar jurnalistidir.

2010-cu ildə Avrasiya Tərcüməçilər Birliyinin (Ankara) sədri seçilmişdir. 2014-cü ildə "Şöhrət" ilə təltif edilmişdir.

Afad Qurbanov - 95

(1929-2009)

Dilçi alim



Afad Məhəmməd oğlu Qurbanov 1929-cu il yanvar ayının 10-da Borçalının Qızıl Şəfəq kəndində anadan olmuş, orta təhsilini Ermənistanın Qızıl Şəfəq və İlməzli məktəblərində almışdır.

1945-ci ildə Qızıl Şəfəq yeddiillik məktəbinin direktoru və Azərbaycan dili müəllimi təyin edilmişdir. 1946-1948-ci illərdə Gürcüstan Müəllimlər İnstitutunda təhsil almışdır. Təhsilini davam etdirmək üçün Bakıya gəlmiş və V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Dil və ədəbiyyat fakültəsinə daxil olmuşdur. 1951-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vuraraq 1956-cı ildə həmin institutun Azərbaycan dilçiliyi kafedrasında aspiranturaya daxil olmuş, 1959-cu ildən Azərbaycan dilçiliyi kafedrasında assistent, müəllim, 1965-ci-ildən dosent vəzifələrində çalışmışdır. 1962-ci ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1967-1981-ci illərdə 1 il institutun filologiya fakültəsinin dekan müavini, 1981-1989-cu illərdə rektoru vəzifəsində çalışmış, Filologiya və pedaqogika elmləri üzrə Müdafiə Şuralarının sədri olmuşdur. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin və Maarif Nazirliyinin Azərbaycan dili üzrə Tədris-Metodiki Şuralarının sədr müavini, sonralar Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının və Təhsil Problemləri üzrə Elmi-Metodik Mərkəzin fəal üzvü olmuşdur. 1970-ci ildə professor elmi adına layiq görmüşdür. 1979-cu ildən həyatının sonuna kimi ADPU-da kafedra müdiri işləmiş, "Azərbaycan toponimlər lüğəti" ensiklopedik nəşrinin, "Dil və ədəbiyyat" məcmuəsinin, "Elm və həyat", "Təhsil" və "Türkologiya" jurnallarının redaksiya heyətinin üzvü, "Dilçilik" elmi-linqvistik və "Onomastika" elmionomastik jurnallarının təsisçisi, baş redaktoru olmuşdur.

1980-ci ildən bir çox komissiyaların, o cümlədən Azərbaycan Əlifba Komissiyasının sədri (1990), Azərbaycan Milli Elmlər Akademiyasının Terminologiya Komitəsinin, Adlar və Soyadlar üzrə Xüsusi Komissiyanın, Dövlət dili haqqında qanun layihəsinin hazırlanması üzrə Komissiyanın, Əlaqələndirmə Şurasının, Nəsimi adına Dilçilik İnstitutunda Elmi və Müdafiə Şuralarının, Azərbaycan Yazıçılar Birliyinin üzvü kimi (2001) gərgin və səmərəli fəaliyyət göstərmişdir.

1981 və 1987-ci illərdə Bakı şəhər Sovetinin, 1990-1995-ci illərdə isə Azərbaycan Parlamentinin deputatı olmuşdur. 1983-1989-cu illərdə "Bilik" cəmiyyətinin Natiqlik və Mühazirəçilik Məharəti Komissiyasının sədri və Azərbaycan Ali Məktəbləri Rektorlar Şurasının Rəyasət Heyətinin üzvü olmuşdur. 1984-1989-cu illərdə SSRİ EA Sovet Türkoloqları Komitəsinin üzvü, Tədris-metodiki bölməsinin sədri, Türk Onomastikası Bölməsi Bürosunun üzvü, sonralar həmin komitənin sədr müavini, 1992-2009-cu illərdə Azərbaycan Dilinin Onomalogiyası Problemləri Laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. 1992-2000-ci illərdə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının, Rusiya Pedaqoji və Sosial EA-nın, Nyu-York Akademiyasının akademiki, Türk Dil Qurumunun şərəfli üzvü, Sürəkli Türk Dili Məclisinin həqiqi üzvü, Belçika Onomastika cəmiyyətinin, Finlandiyanın Fin-Uqor cəmiyyətinin və digər təşkilatların həqiqi və ya fəxri üzvü seçilmişdir

1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1991-ci ildə Dövlət mükafatı laureatı olmuşdur.

Afad Məhəmməd oğlu Qurbanov 2009-cu il sentyabr ayının 26-da vəfat etmişdir.

Ədəbiyyat:

Dilçi Afad Qurbanov: monoqrafiya / [red. T. Bünyadov, İ. Həbibbəyli]. - Bakı:[s. n.], 2005.- 175, [1] s.

Seyidəliyev, N. Afad Qurbanov və ümumi dilçilik / Nəriman F. Seyidəliyev; red. A. Babayev, İ. Məmmədli; ön söz N. Q. Cəfərov; AMEA, Nəsimi ad. Dilçilik İn-tu.- Bakı: [n. y.], 2019.- 420, [2] s.

Fərəcov, S. Dilimizin fədakar tədqiqatçısı / Savalan Fərəcov // Mədəniyyət.- 2021.-22 sentyabr.- S.6.

İmanquliyeva, M. Afaq Qurbanovun elmi fəaliyyətində kosmonimlər problemi / Mehri İmanquliyeva Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.- 2021.- №2(116).- S.106-108.

İsmayılova, M. Müstəqillik dövründə Azərbaycanda əlifba islahatlarında Afad Qurbanovun tarixi rolu / Mirvari İsmayılova Linqvistika problemləri: Beynəlxalq elmi jurnal .- 2020.- C.01; №01.- S. 36-46.

Rəşad Mahmudov – 50

(1974)

Əməkdar həkim



Rəşad Məmmədqulu oğlu Mahmudov 1974-cü il yanvar ayının 18-də Astara rayonunda anadan olmuşdur. 1980-1991-ci illərdə Astara rayonundakı Səməd Vurğun adına orta məktəbdə orta təhsil, 1991-1997-ci illərdə isə 9 Eylül Universitetinin Tibb fakültəsində ali təhsil almışdır. 1997-2003-cü illərdə Türkiyə Respublikası Ege Universitetinin ürək-damar cərrahiyəsi Elmi Mərkəzinin doktoranturasında oxumuşdur. 2003-cü ildə Türkiyə Respublikası Ege Universitetində Uzmanlıq Diplomu müdafiə etmişdir.

O, 2006-cı ildə Ali Attestasiya Komisiyası tərəfindən namizədlik dissertasiyası müdafiə edərək Tibb elmləri namizədi, 2007-2015-ci illərdə isə Ali Attestasiya Komisiyası tərəfindən doktorluq dissertasiyası müdafiə edərək Tibb üzrə Elmlər Doktoru alimlik dərəcəsi almışdır. 2018-ci ildən Mərkəzi Gömrük Hospitalında Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi vəzifəsində çalışır.

Rəşad Mahmudov Azərbaycanda və xaricdə 75-dən çox çap olunmuş elmi məqalənin müəllifidir. 1999-cu ildə Türkiyədə çap olunmuş "Aort Cərrahiyəsi" kitabının və 2014-cü ildə İtalyada çap olunmuş "Trikuspid Qapaq Cərrahiyyəsi" kitabının həmmüəllifidir.

O, 1997-2004-cü illərdə Türkiyə Respublikası "Ege Universiteti"nin ürək-damar cərrahiyəsi mərkəzində, 2004-2005-ci illərdə isə Türkiyə Respublikası Kent xəstəxanasında ürək-damar cərrahı, 2005-2017-ci illərdə Bakıdakı Mərkəzi Neftçilər Xəstəxanasının Ürək-damar cərrahiyəsi şöbəsinin müdiri və ürək-damar cərrahı, 2017-2018-ci illərdə isə Respublika Müalicəvi Diaqnostika Mərkəzində Elmi Tədqiqat işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır.

Rəşad Mahmudov 2005-ci ildən xari ölkələrdə keçirilən 50-dən çox beynəlxalq konfransda iştirakçı olmuşdur. 2006-cı ildən etibarən Azərbaycanda və dünyanın müxtəlif ölkələrində 40-dan çox beynəlxalq, regional konfransların təşkilinə rəhbərlik etmiş və 35-dən çox elmi məqalələrin tərtibatçısı olmuşdur.

Rəşad Mahmudov 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif olunmuş, 2009-cu ildə "Qızıl çinar" beynəlxalq mükafatını almışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 2014-cü ildə Əməkdar Həkim fəxri adına layiq görülmüş, 2019-cu ildə isə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin V və VI çağırış seçkilərində Yeni Azərbaycan Partiyasından namizədliyi irəli sürərək millət vəkili seçilmişdir.

Ədəbiyyat:

Rəşad Mahmudov: Dövlətimizin sosialyönümlü siyasəti məmnunluq doğurur//Xalq qəzeti.-2021.- 29 avqust.- S.6.

Rəşad Mahmudov: Peyvənd COVID-19 xəstəliyinin ağır formada keçməsinin qarşısını alır //İki sahil.-2021.- 12 mart .- S.15.

Rəşad MAHMUDOV: Şuşa tarixiliklə müasirliyin qovuşduğu mədəniyyət paytaxtımızdır //Xalq qəzeti.-2021.- 3 sentyabr.- S.2.

Rəşad Mahmudov: Gənclərimiz bu günün qəhrəmanlıq nümunəsidir /R.Mahmudov//Xalq qəzeti.-2022.- 30 yanvar.- S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rəşad_Mahmudov

Yeni il



Yeni il bayramı ilin sonuncu günündən növbəti təqvim ilinə keçid ilə əlaqədar keçirilən bir bayramdır. Bu günü bayram etməklə insanlar belə hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir. Bu bayramın yaranmasının ən azı 25 əsrlik tarixi var. Bəzi fərziyyələrə görə, Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu bayram qədim german və romalılarla bağlanılır. Başqa bir mənbəyə görə isə Yeni ili bayramla qarşılamaq ənənəsinin əsası eramızdan əvvəl üçüncü minillikdə Mesopotamiyada qoyulmuşdur.

Hər bir xalq yeni il üçün tarixi və ya mifik hadisə ilə bağlı öz tarixi günlərindən istifadə edib. Eramızdan əvvəl misirlilər hər bir sülalənin hakimiyyətə gəlməsini ilin başlanğıcı hesab ediblər. Qədim Romada Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd edilən yanvarın 1-i İşığın Qaranlıq üzərində qələbəsi günü kimi səciyyələndirilir. Başqa bir mənbədə romalılar bu günə Yanus allahının adını veriblər. Bizim istifadə etdiyimiz təqvim miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır.

Yeni ilin əsas atributları Şaxta baba və Qar qızı hesab olunur. Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağaclarısız təsəvvür etmək qeyrimümkündür. Çoxları şam ağacları bəzəmək ənənəsini də xristian dini ilə əlaqələndirir. Əslində isə, hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirmişlər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi sayılırmış, küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatlarla bəzədilirmiş. Yer üzündə ilk olaraq Yeni ili Fici arxipelaqının 160 adasının sakinləri qarşılayır.

Dekabrın 31-i gecəsi insanlar bayram süfrəsi ətrafında toplaşırlar. Artıq həmişəlik vidalaşdıqları ilin son anlarında musiqini dayandıraraq sükut içərisində saat 12.00-ı gözləyirlər. Yeni il Yer kürəsinin bütün guşələrində dini etiqadlarından asılı olmayaraq müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan ən məşhur bayramlardandır. Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə - xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də, bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır.

1991-ci ildən Azərbaycanda dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd olunduğundan Yeni il bayramı azərbaycanlılar üçün ikiqat bayramdır.

Ə d ə b i y y a t :

Əliyev, İlham. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti / İlham Əliyev // Azərbaycan.- 2023.- 6 yanvar.- S.1;3; İki sahil.- 2023.- 6 yanvar.- S.3.

Mustafayev, O. Dünya xalqlarının yeni il ənənələri / O.Mustafayev // Azərbaycan müəllimi.- 2012.- 28 dekabr.- S.12.

Lənkəran teatrında Yeni il tamaşası //Mədəniyyət.-2021.- 22 dekabr.- S.4.

Planetimizdə neçə Yeni il bayramı var // Azərbaycan.- 2007. - 2 yanvar. - S. 8.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası - 25 *(1999)*



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikası Prezidentinin 3 yanvar 1999-cu il tarixli 60 saylı Fərmanı ilə yaradılmış və Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Qanunvericiliyinə və akademiyanın nizamnaməsinə müvafiq fəaliyyət göstərən ali peşəkar təhsil-tədris statuslu elm və təhsil ocağı kimi fəaliyyətə başlamışdır.

Akademiyanın fəaliyyəti dövlət qulluqçularının, onları əvəz etmək üçün ehtiyat kadrların hazırlanmasına, yenidən hazırlanmasına və ixtisasların artırılmasına dair dövlət sifarişi, habelə təhsil verilməsi haqqında dövlət hakimiyyəti orqanları ilə bağlanacaq müqavilələrin, elmi tədqiqatların və analitik-informasiya işlərinin aparılması barədə müqavilələrin əsasında həyata keçirilir.

Akademiya dövlət idarəçiliyi və dövlət kadr siyasəti sahəsində elmi tədqiqatlar aparır və eyni zamanda dövlət idarəçiliyi məsələləri üzrə dövlət hakimiyyəti orqanlarının analitik-informasiya təminatını həyata keçirir, dövlət qulluqçularının təhsil sisteminin lazımi metodik və proqrammetodik təminatını işləyib hazırlayır. Akademiya profilinə uyğun beynəlxalq elmi yenilikləri müşayiət edir, elmi mərkəzlər və xarici ölkə universitetləri ilə əlaqələr quraraq beynəlxalq layihələrin və təhsil proqramlarının iştirakçısı olur.

Akademiyanın elmi fəaliyyətinin əsas hissəsini elmi-tədqiqat işləri təşkil edir. Elmi-tədqiqat fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri ilə razılaşdırılan və təsdiq olunan perspektiv və cari planlara uyğun olaraq həyata keçirilir. Elmi-tədqiqat işləri bir istiqamətə - "Azərbaycanda dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi" istiqamətinə yönəldilmişdir və iki problemi - "Azərbaycanda dövlət idarəçiliyi sistemində innovativ inkişafın aktual problemləri" və "Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu" problemlərinin tədqiqi istiqamətlərində aparılır.

Dövlət İdarəçilik Akademiyasında təhsil çoxpilləli sistem əsasında aparılır: tələbələr bakalavr pilləsi üzrə 4 il, magistr pilləsi üzrə 2 il təhsil alırlar. Həmçinin təhsildə Boloniya sisteminin tətbiqinə başlanılmışdır. Tələbələrin biliyinin qiymətləndirilməsi çoxballı sistemə əsaslanır. DİA-da həmçinin, vətəndaşların qiyabi yolla ikinci ali təhsil almaları və ixtisaslarının artırılması üçün də imkan yaradılmışdır.

Akademiyada Elmi təşkilat şöbəsi, Regional İqtisadi və Sosial Araşdırmalar İnstitutu, Siyasi Araşdırmalar İnstitutu, "Sorğu" Sosial-Siyasi Araşdırmalar İnstitutu, İnsan Hüquqları, Demokratiya və Sülh Problemləri üzrə YUNESKO Mərkəzi, Mətbuat və İnformasiya Xidməti, Nəşriyyat, Beynəlxalq əlaqələr, Aspirantura və doktorantura, Tədris və Ümumi şöbələr, Elekt- ron tədris və qiymətləndirmə sektoru, Elmi kitabxana, yataqxana, professor müəllim və tələbələr üçün sahəsi 700 kv.m. olan iki zal və 4 otaqdan ibarət yeməkxana, idman zalı mövcuddur. Akademiyada həmçinin, Böyük Elmi Şura, fakültələrdə Elmi-metodik Şuralar fəaliyyət göstərir.

Ədəbiyyat:

Dövlət müdrikçilik məktəbi: "Heydər Əliyev və dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" mövzusunda 3-4 may 2000-ci il tarixdə Bakıda keçirilmiş elmi-praktik konfransın materialları / Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası; red.: R.Mehdiyev, S.Qəndilov.-Bakı: Çaşıoğlu, 2000.- 215 s


Dayanıqlı sülhün təmin edilməsində çoxtərəfliliyin əhəmiyyəti // Mədəniyyət.-2020.- 25 sentyabr.- S.3.

İnternetdə:

http://dia.edu.az/az/content/242

https://az.wikipedia.org/wiki/Azərbaycan_Respublikasının_Prezidenti_yanında_Dövlət_İdarəçilik_AkademiyasıAkademiyası

Azərbaycan Respublikasının dövlət dili haqqında qanunu (2003)



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hələ birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsinə nail olmaqla dilimizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirmiş, bu sahədə mütəxəssislərin qarşısına mühüm vəzifələr qoymuşdur.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə Azərbaycana rəhbərliyi dövrdə 1995-ci ildə referendum yolu ilə qəbul olunmuş konstitusiyamızda dilimizin adının Azərbaycan dili olmasını təsbit etdirdi. Bununla da dilimizin adı ilə bağlı olan alternativ variantlara (Azərbaycan türkcəsi, Azəri türkcəsi, Azərbaycan türk dili və s.) son qoyuldu. Heydər Əliyev 2001-ci il iyunun 18-də dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi ilə bağlı Fərman imzaladı. Bu fərmandan irəli gələn məsələləri yerinə yetirmək üçün 4 iyul 2001-ci il tarixli Sərəncamla dil komissiyası yaradıldı. Ulu Öndərin Azərbaycan dilinə olan hədsiz məhəbbətinin və dövlət başçısının qayğısının nümunəsi kimi 2001-ci il avqust ayının 9-da "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" Prezident Fərman imzalamışdır. Bu fərmanla hər il avqust ayının 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunması təsdiq edildi. 2002-ci il sentyabr ayının 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Heydər Əliyev Azərbaycan dilinə dövlət dili statusunun verilməsində öz təcrübəsini və əməyini əsirgəmədi, Azərbaycan dilini qorudu, yaşatdı və dövlət dili səviyyəsinə qaldırdı.

Azərbaycan dövlətinin dil siyasəti "Azərbaycan xalqının ən böyük milli sərvətidir" prinsipinə əsaslanır. Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Prezidentinin 4 yanvar 2003-cü il tarixində Sərəncamı imzalandı və həmin tarixdən qüvvəyə mindi. 20 maddədən ibarət olan bu qanun Azərbaycan Respublikasının Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır. Bu qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır

Ədəbiyyat:

Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu: Azərbaycan Respublikasının Qanunlar Toplusu. Bakı: 2003 "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə: Azərbaycan Respublikasının Qanunu, 19 fevral 2019-cu il //Azərbaycan.-2019.- 7 aprel.- S.2.

İnternetdə:

https://e-qanun.az/framework/1865

https://respublika-news.az/news/milli-servetimiz

Dünya Qoruqları və Milli Parklar Günü
(1997)



11 yanvar Dünya Qoruqlar və Milli Parklar Günü kimi qeyd olunur. 1917-ci il yanvarın 11-də dünyada ilk dəfə Rusiyada nadir heyvanların qorunması məqsədilə Baykal gölü üzərində Barquzin Dövlət Qoruğu yaradılıb. Həmin təqvim Dünya Vəhşi Təbiət Fondunun təşəbbüsü ilə 1997-ci ildən etibarən qeyd olunur.

Qoruqların yaradılmasında əsas məqsəd sayı azalmaqda olan bitki və heyvan növlərini qorumaqdır. Qoruğun başqa forması isə Milli Parkdır. Milli Parkda ayrı-ayrı növlər yox, bütün təbiət qorunur.

Dünyada yaradılan ilk milli park isə Yellouston milli parkıdır. Bu park Şimali Amerikadadır. Burada min hektar iynəyarpaqlı meşə qorunur.

Azərbaycanda da ölkənin nadir təbiətinin qorunması məsələlərinə böyük diqqət yetirilir. Ölkəmizdə 10 Milli Park, 11 Dövlət Təbiət Qoruğu və 24 Dövlət Təbiət Yasaqlığı fəaliyyət göstərir. Azərbaycanda ilk qoruq 1925-ci ildə yaradılmış Göygöl Dövlət Təbiət Qoruğudur.

Milli Parklar xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, elmi tədqiqat statusuna malik olan ərazilərdir. Azərbaycanda Milli Park və Qoruqlar ölkə ərazisinin 10,3 faizini təşkil edir.

Bununla yanaşı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yeni, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması istiqamətində işlər davam etdirilir. Digər tərəfdən mövcud qoruqların əraziləri də genişləndirilir. Ümumiyyətlə isə bu qoruqlar, sayı azalmaqda olan bitki və heyvan növlərini qorumağa hesablanıb. Qoruqlar həm də elmi əhəmiyyət daşıyır. Burda alimlər bitki və heyvanlar üzərində müşahidə aparır, nəsli kəsilməkdə olan növlərin sayını artırmaq üçün yollar axtarırlar.

44 gün davam edən Vətən müharibəsində Rəşadətli Ordumuz möhtəşəm Qələbə qazandı. 30 ilə yaxın bir müddətdə işğalda olan torpaqlarımız erməni tapdağından azad olundu. Ermənilər bu illər ərzində həmin torpaqlarda vandalizm aktları törədib, bütün tarixi abidələri, məscidləri, yaşayış binalarının, evlərin əksəriyyətini dağıdıb, meşələri kəsib, qırıb, yandırıblar. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində həmin torpaqlarda olan böyük əhəmiyyətə malik xüsusi mühafizə olunan təbiət ərazilərində - Bəsitçay və Qaragöl dövlət təbiət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri işğalçı ordunun tapdağına məruz qalaraq məhv edilib.

Ədəbiyyat:

Ölkə ərazisinin 3,7 faizi milli parklardır: Qobustan qoruğu isə beynəlxalq turist marşrutunun tərkibinə daxildir: 11 yanvar Dünya Qoruqları və Milli Parklar Günüdür /M.Nərimanoğlu//Azərbaycan.-2018.-11 yanvar.- S.8.

Nərimanoğlu, Məhəmməd. Gözəlliklər diyarı Azərbaycanda ekoturizmin inkişafı üçün geniş imkanlar var: 11 yanvar Dünya Qoruqları və Milli Parklar Günüdür / M.Nərimanoğlu // Azərbaycan.- 2017.- 11 yanvar.- S. 7.

İnternetdə:

https://azertag.az/xeber/11_yanvar___Dunya_Qoruqlar_ve_Milli_Parklar_Gunudur-1685025

Ümumxalq hüzn günü

(1990)



1990-cı il yanvar ayının 20-si Azərbaycan xalqının tarixinə ən faciəli günlərdən biri kimi daxil olmuşdur. 34 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Bədnam M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin açıq-aşkar dəstəklənməsinə və o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxarmışdı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələnmişdi. Nəticədə 170 nəfər həlak olmuş, 400-ə yaxın insan yaralanmışdı. Bunların arasında gənclər, uşaqlar, qocalar, qadınlar hətta hərbi qulluqçular da var idi.

Buna baxmayaraq, Azərbaycanın o vaxtkı sərişəsiz, kölə psixologiyalı rəhbərlərinin əksinə olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etmiş, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırmışdı. Bununla da Ulu Öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etmişdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmişdir və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırılmışdı. 20 Yanvar Ümumxalq hüzn günü elan edilmişdir.

Bakının ən uca nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvar ayının 20-də minlərlə insan vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edirlər. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

Ədəbiyyat:

Xarici İşlər Nazirliyi 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə bağlı bəyanat //Azərbaycan.-2023.- 20 yanvar.- S.8.

Birdəqiqəlik sükut //Azərbaycan.-2023.- 22 yanvar.- S.4.

Qəniyev, E. Əbədi yaşayanlar / Elşən Qəniyev // Azərbaycan.- 2023.- 22 yanvar.- S.1; 4.

Beynəlxalq hüquqa əsasən, 20 Yanvar hadisəsi insanlıq əleyhinə cinayət kimi tövsif edilməli, onun sifarişçiləri və icraçıları cəzalandırılmalıdır // Azərbaycan.- 2022.- 20 yanvar.- S.5.

İnternetdə:

https://mod.gov.az/az/20-yanvar-faciesi-414/

Azərbaycanlıların Ermənistandan 1988-ci il deportasiyası



Azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi hələ XVIII əsrdən başlanıb. Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə müsəlmanların deportasiyası üç mərhələdə aparılıb:

Birinci mərhələ 1905-1920-ci illər;

İkinci mərhələ 1948-1953-ci illər;

Üçüncü mərhələ 1988-1992-ci illər.

Bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, 30 minə yaxın evi dağıdıb və yandırıb, qoca, uşaq və qadınların da daxil olduğu 140 min insanı vəhşicəsinə qətlə yetirib, 750 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb. Sonuncu deportasiyada 1988-ci ildə isə 220 mindən artıq azərbaycanlı erməni vəhşiliyinə tab gətirə bilmədiyindən doğma yurd-yuvalarını tərk edib. Bundan sonra ermənilər Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi mədəni abidələri, dini müəssisələri, məktəb, xəstəxana və digər binaları darmadağın edib. Təkcə 1988-ci ildən sonra Qərbi Azərbaycanda ermənilər azərbaycanlılara məxsus 2000-dən artıq qəbristanlıq dağıdıb. Ermənilər tarixən azərbaycanlılara, türklərə qənim kəsildikləri halda bu faktlar gizlədilib, dünya ictimaiyyəti isə bu məsələlərə diqqətsizlik göstərib.

Əgər digər repressiyaya məruz qalan xalqlar yaşadıqları bütün torpaqlardan deportasiya olunmuşdularsa, azərbaycanlılar yalnız Ermənistandan köçürüldülər ki, məqsəd Ermənistanın "təmizlənməsi" idi. Ermənistanın bütün toponimini də təmizlənməsi qərara alınmışdı. SSRİ Nazirlər Kabinetinin çoxlu saylda sərəncamları ilə 2 mindən çox ad dəyişdirildi. Lakin Ermənistanın tam təmizlənməsinə sovet dövrü bəs etmədi. Ermənistanın məsul işçilərindən biri olan Manuk Vardanyanın sözlərinə görə ölkədəki bütün türk mənşəlli sözlərin dəyişdirilməsi 2007-ci ildə sona çatmışdır.

Fransa, Rumıniya, Azərbaycan, Türkiyə, Ukrayna, İtaliya parlamentariləri tərəfindən imzalanmış Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qərarına əsasən "Böyük Ermənistan yaradılmasına yönəldilmiş azərbaycanlı əhalinin məcburi köçürülməsi, yüz ildən artıq bir dövrü əhatə edir".

Bunları unutmaq olmaz!

1813-1828-ci illərə qədər Azərbaycan dövlətinin sahəsi təxminən 410 min km² olmuşdur. 1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: Qacarlar İranı nəzarəti altında qalan Cənubi Azərbaycan əraziləri: sahəsi təxminən 280 min km² olmuşdur. Rusiya əsarəti altındakı Şimali Azərbaycan ərazisi - sahəsi təxminən 130 min km² olmuşdur.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı - sahəsi 9 min km² olmuşdur. Rusiya əsarəti altındakı Dərbənd xanlığı – sahəsi 7 min km² olmuşdur.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi - təxminən 114 min km² olmuşdur. Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və Gürcüstan SSR-in qismən nəzarətinə verilən Borçalı - birlikdə sahəsi 27,4 min km² olmuşdur.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan SSR-nin ərazisi 86,6 min km² olmuşdur.

Ədəbiyyat:

Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası: 1948-1953-cü illər: sənədlər toplusu /Azərb. Respublikasının Milli Arxiv İdarəsi; müqəddimənin müəl. və məsul red. A. Ə. Paşayev. Bakı: "Zərdabi LTD" MMC, 2013, 782 s.

Mustafa, N. Azərbaycanlıların əzəli torpaqlarından sonuncu-1988-1989-cu illər deportasiyası / Nazim Mustafa // Xalq qəzeti.- 2013.- 10 dekabr.- S.6; Respublika.- 2016.- 16 oktyabr.- S.7; 2016.- 18 oktyabr.- S.13; 2016.- 25 oktyabr.- S.10.

İnternetdə:

https://www.google.com/search?q=Ermənistan+SSR-də+yaşayan+azərbaycanlı+əhalinin+kütləvi+deportasiya+edilməsinə+başlanmışdır=

Dünya Ekoloji Təhsil Günü

(1972)



Dünya Ekoloji Təhsil Gününün qeyd edilməsində əsas məqsəd ətraf mühit problemlərinə, onların həllinə ictimai diqqəti yönəltmək və gələcəkdə baş verə biləcək fəsadların qarşısını almaqda ekoloji təhsilin və ekoloji maarifləndirmənin vacibliyini vurğulamaqdır.

Müasir ekoloji təhsil hərəkatı 1972-ci ilin iyununda İsveçin paytaxtı Stokholmda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının "İnsanın ətraf mühiti" adlanan konfransında beynəlxalq status alıb. Konfransın 21-ci plenar iclasında Stokholm Sazişi qəbul edilib. Sazişdə ətraf mühitə və davamlı inkişafa dair 26 prinsip yer alıb. Prinsiplərdən biri "Ətraf mühit üzrə təhsil vacibdir" adlanır.

Bu günlə bağlı dünyanın bir çox ölkəsində təhsil müəssisələrində, uşaq bağçalarında ekoloji təhsilin vacibliyi, ekoloji şüurun formalaşması və dövlətlərarası təcrübə mübadiləsinin əhəmiyyətinə diqqət cəlb edilir, ekoloji məsələlərə həsr edilmiş konfranslar və seminarlar keçirilir, "dəyirmi masalar" təşkil olunur.

Ölkəmizdə də "Dünya Ekoloji Təhsil Günü" ilə əlaqədar maarifləndirici vebinarlar keçirilir, xüsusilə məktəblilərin ekoloji dünyagörüşünün formalaşdırılmasına yönələn tədbirlər təşkil olunur.

Bu günlə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "EkoSfera" Sosial-Ekoloji Mərkəz tərəfindən müəllim və məktəblilərlə maarifləndirici tədbir keçirilir, ETSN və "EkoSfera"nın təşkilatçılığı azərbaycan və rus dillərində metodiki vəsait hazırlanır, eyni zamanda, Nazirliyin mütəxəssisləri tərəfindən Azərbaycan təbiəti, onun qorunması ilə bağlı məlumat və tövsiyələr verilir, milli parklar haqqında çəkilmiş film və reportajlar nümayiş etdirilir.

Planetimizin hər yerində olduğu kimi, respublikamızda da mövcud olan ekoloji bumeranqın qarşısının alınması təbiətin və onun sərvətlərinin, bütövlükdə isə bütün bəşəriyyətin mühafizəsində həyati vacib amillərdən biridir.

Təbii sərvətlərin sürətlə tükəndiyi və yararsız hala düşdüyü, iqlim böhranının təhlükəli üzünü göstərdiyi bir vaxtda ekoloji maarifləndirmə qlobal rifah üçün əsas rol oynayır. Fərdlərin və cəmiyyətlərin möhkəm yapışması lazım olan bir anlayış olaraq önə çıxan ekoloji maarifləndirmə planetimizin gələcəyi üçün son dərəcə əhəmiyyətlidir.

Ə d ə b i y y a t :

İdrisoğlu, F. Məktəblilərin ekoloji cəhətdən maarifləndirilməsi / Fazil İdrisoğlu // Azərbaycan müəllimi.- 2009.- 22 may.- S.8.

Mahmudov, Y. Qobustan rayonunda "Biomüxtəliflik günü"/ Yusif Mahmudov // Təhsil və Zaman.- 2008. - 14 iyun. - S.4.

İ n t e r n e t d ə :

https://eco.gov.az/az/nazirlik/xeber?newsID=11857

https://azertag.az/xeber/bu_gun_dunya_ekoloji_tehsil_gunudur-2460224

FEVRAL



21 yanvar
18 fevral

Dolça - nişanı havadır. Saturn və Uranın himayəsindədir. Günəşin Dolça bürcündən keçdiyi dövrdə doğulanlar xaraktercə emosional, təbiətcə həssas olurlar

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29			

- *Gənclər Günü (02.02.1997)*
- *Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)*
- *Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq təşkilatına üzvlüyə qəbul olunmuşdur(16.02.1992)*
- *Beynəlxalq Ana Dili Günü (21.02.1999)*
- *Xocalı soyqırımı günü (26.02.1992)*

Yaşıl dünya naminə həmrəylik ili



Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlər daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi istiqamətində də mühüm işlər görülür. 2003-cü ildə "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişaf üzrə Milli proqram" qəbul olunmuşdur. Minilliyin İnkişaf Məqsədlərindən biri olan Ətraf mühitin davamlılığını təmin etmək üzrə fəaliyyət planına əsasən davamlı inkişaf prinsipləri dövlət siyasəti və proqramlarına daxil edilmişdir. Bu istiqamətdə çirklənmiş ərazilərin bərpası, meşə ilə örtülü ərazilərin miqyasının artırılması, biomüxtəlifliyin mühafizəsi, quru ərazilərdə torpaqların münbitləşdirilərək yaşıllaşdırılması, Xəzər dənizinin ətraf mühitinin qorunması, iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, hidrometeoroloji müşahidə sistemlərinin və monitorinq şəbəkəsinin modernləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq, əhalinin ekoloji şüur səviyyəsinin artırılması fəaliyyət istiqamətlərindən olmuşdur. Hazırda ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir.

FEVRAL 2024



Milli ədəbiyyat

Xalq yazıçısı, nasir, dramaturq, ssenarist, prodüser və kinorejissor İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlunun (05.02.1939-10.03. 2022) anadan olmasının 85 illiyi 66
Əməkdar jurnalist və ictimai xadim, yazıçı, publisist dramaturq Fərzəliyev Şamil Xurşud oğlunun (Şamil Xurşud) (18.02.1934-24.04.1986) anadan olmasının 90 illiyi
Yazıçı-dramaturq, ictimai xadim, jurnalist, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri Məmmədquluzadə Cəlil Məmmədqulu oğlunun (22.02.1869-04.01.1932) anadan olmasının 155 illiyi. 67
Şair, dramaturq, yazıçı Əhmədov Yusif Yaqub oğlunun (22.02.1939-27.03.2012) anadan olmasının 85 illiyi
Nasir, publisist İsmayılova Svetlana Rəhim qızının (26.02.1939-25.02.2022) anadan olmasının 85 illiyi



Dünya ədəbiyyatı

Fransız yazıçısı Rable Fransuanın (04.02.1494-09.04.1553) anadan olmasının 530 illiyi
Rus yazıçısı Qolikov Arkadi Petroviçin (Arkadi Qaydar) (22.02.1904- 26.10.1941) anadan olmasının 120 illiyi 68



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Xalq rəssamı, heykəltəraş Əliyev Hüseynqulu Əli oğlunun (03.02.1949) anadan olmasının 75 illiyi 69
Xalq rəssamı, Əməkdar incəsənət xadimi, heykəltəraş Mirqasımov Mirələsgər Mirəsədulla oğlunun (09.02.1924-09.11.2003) anadan olmasının 100 illiyi 70
Xalq rəssamı Müfidzadə Cəmil Mir Yusif oğlunun (24.02.1934-20.12.2019) anadan olmasının 90 illiyi 71



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor, musiqişünas Tağızadə Aida Zeynal qızının (05.02.1934) anadan olmasının 90 illiyi 72
Əməkdar artist, müğənni, xanəndə Talışinskaya Cahan Rza qızının (09.02.1909-01.03.1967) anadan olmasının 115 illiyi
Xalq artisti, müğənni Qasımova Nisə Fətulla qızının (13.02.1954) anadan olmasının 70 illiyi 73
Əməkdar artist, xanəndə Abdullayev Süleyman Cümşüd oğlunun (14.02.1939-23.10.2022) anadan olmasının 85 illiyi 74

FEVRAL 2024

Xalq artisti, professor, bəstəkar, pedaqoq, dirijor Ələsgərov Süleyman Əyyub oğlunun (22.02.1924-22.01.2000) anadan olmasının 100 illiyi 75
Əməkdar artist, opera müğənnisi Məmmədova Nəzakət Əli qızının (28.02.1944-21.10.1980) anadan olmasının 80 illiyi 76
Əməkdar incəsənət xadimi, musiqişünas, sənətşünaslıq doktoru, professor Məmmədov Tariyel Aydın oğlunun (28.02.1949) anadan olmasının 75 illiyi . . . 77



Teatr. Kino

Xalq artisti, teatr və kino aktyoru Qasımov Tariyel İsgəndər oğlunun (04.02.1939) anadan olmasının 85 illiyi 78
Xalq artisti, aktrisa Şərifova Firəngiz Abbasmirzə qızının (06.02.1924-20.02.2014) anadan olmasının 100 illiyi 79
Xalq artisti, Əməkdar incəsənət xadimi, kinorejissor, ssenari müəllifi, aktyor Tağızadə Tofiq Mehdiqulu oğlunun (07.02.1919-27.08.1998) anadan olmasının 105 illiyi
Xalq artisti, teatr aktrisası Veysəlova Rəmziyyə Osman qızının (11.02.1914-22.08.1993) anadan olmasının 110 illiyi 80
Xalq artisti, teatr və kino aktyoru Avşarov Muxtar Həsən oğlunun (15.02.1914-06.12.2004) anadan olmasının 110 illiyi 81
Xalq artisti, teatr və kino aktyoru Mərdanov Mustafa Haşım oğlunun (28.02.1894-12.12.1968) anadan olmasının 130 illiyi 82



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Tağıyev Şahin Talıb oğlunun (03.02.1949) anadan olmasının 75 illiyi 83
Azərbaycanın Milli Qəhrəmanı Ağayev Bəylər Tapdıq oğlunun (03.02.1969-06.08.1992) anadan olmasının 55 illiyi 84
Azərbaycanın Milli Qəhrəmanı Xəlilbəyli Təbriz Xəlil Rza oğlunun (12.02.1964-31.01.1992) anadan olmasının 60 illiyi 85
Azərbaycanın Milli Qəhrəmanı Çirinqov Ramazan Heybullah oğlunun (15.02.1969-03.09.1995) anadan olmasının 55 illiyi 86
Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Sahil Ələmdar oğlunun (25.02.1964) anadan olmasının 60 illiyi 87



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Əsgər Əhmədov Əhmədxan Məzahir oğlunun (01.02.1999-09.11.2020) anadan olmasının 25 illiyi 88
Əsgər Hüseynov Əzizağa Nizami oğlunun (01.02.1999- 16.10.2020) anadan olmasının 25 illiyi 88

MAHHXHQ əsgər Qurbanlı Elvin Mehman oğlunun (02.02.1999- 01.10.2020) anadan olmasının 25 illiyi 89
MAHHXHQ çavuş Cəbrayıllı İbrahim Raqub oğlunun (03.02.1999- 30.09.2020) anadan olmasının 25 illiyi 89
MAHHXHQ əsgər Qəhrəmanov Məkan Mübariz oğlunun (03.02.1999- 10.10.2020) anadan olmasının 25 illiyi 90
Əsgər Əliyev Rövşən İsrafil oğlunun (03.02.1999- 26.10.2020) anadan olmasının 25 illiyi 90
Əsgər Əliyev Qubat Hüsür oğlunun (04.02.1994- 08.11.2020) anadan olmasının 30 illiyi 91
Əsgər Manafov Cavid Faiq oğlunun (04.02.1999- 07.11.2020) anadan olmasının 25 illiyi 91
Kapitan Mahmudov Cavid Hilal oğlunun (06.02.1989- 05.10.2020) anadan olmasının 35 illiyi 92
Əsgər Tağıyev Əkbər Məhəmməd oğlunun (07.02.1994- 19.11.2020) anadan olmasının 30 illiyi 93
Əsgər Ömərov Qoşqar Səxavət oğlunun (09.02.1994- 04.11.2020) anadan olmasının 30 illiyi 93
Polkovnik-leytenant Qasımov Faiq Qaçay oğlunun (10.02.1974-27.09.2020) anadan olmasının 50 illiyi 94
MAHHXHQ əsgər Teymurov Fərid Fizuli oğlunun (11.02.1999-10.2020) anadan olmasının 25 illiyi 95
Əsgər Şükürov Azər Cahid oğlunun (11.02.1994-22.10.2020) anadan olmasılnın 30 illiyi 95
MAHHXHQ əsgər Əliyev Elqaş Barat oğlunun (12.02.1999- 03.11.2020) anadan olmasının 25 illiyi 96
MAHHXHQ kiçik çavuş Məmmədov Xəyal Arif oğlunun (13.02.1989-02.10.2020) anadan olmasının 35 illiyi 96
Əsgər Əliyev Eldar Süleyman oğlunun (13.02.1994- 13.10.2020) anadan olmasının 30 illiyi. 97
Əsgər Cəfərov Oruc Vaqif oğlunun (13.02.1994- 08.10.2020) anadan olmasının 30 illiyi 97
Əsgər əsgər Məmmədov İlham Rauf oğlunun (14.02.1999- 09.11.2020) anadan olmasının 25 illiyi 98
Əsgər Nüsrətbəyli Ülvi Arif oğlunun (14.02.1999- 12.10.2020) anadan olmasının 25 illiyi. 98
Kapitan Musibov Veysəl Yadullayeviçin (15.02.1989-07.10.2020) anadan olmasının 35 illiyi. 99
MAHHXHQ çavuş Babayev Fariz Zakir oğlunun (15.02.1984- 03.11.2020) anadan olmasının 40 illiyi 100
Əsgər Məhərrəmov İsa Məhərrəm oğlunun (15.02.1999- 19.10.2020) anadan olmasının 25 illiyi 100
Gizir Alıyev Vahid Abbas oğlunun (18.02.1989- 02.10.2020) anadan olmasının 35

illiyi 101
Gizir Qəniyev Cahid Şaiq oğlunun (18.02.1994-29.09.2020) anadan olmasının 30 illiyi 101
Leytenant Məmmədov Şəhriyar Müzəffər oğlunun (22.02.1999-11.10.2020) anadan olmasının 25 illiyi 102
MAHHXHQ əsgər Qaraxanov Səfa Yenişar oğlunun (22.02.1994 - 01.10.2020) anadan olmasının 30 illiyi 102
MAHHXHQ əsgər Kərimov Cavid Mərdan oğlunun (23.02.1999- 02.10.2020) anadan olmasının 25 illiyi 103
Baş leytenant Xəlilli Namiq Həsən oğlunun (25.02.1994- 23.10.2020) anadan olmasının 30 illiyi 103
Əsgər Nəsibov Asəf Səfəralı oğlunun (25.02.1994- 29.10.2020) anadan olmasının 30 illiyi 104
Gizir Alməmmədov Emin Akif oğlunun (27.02.1989- 29.09.2020) anadan olmasının 35 illiyi 104



Siyasət. Hərbi iş

Siyasi xadim, diplomat Məmmədquliyev Mahmud Əhməd oğlunun (15.02.1949) anadan olmasının 75 illiyi 105
Türkiyə Respublikasının 12-ci prezidenti, Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın (Recep Tayyip Erdoğan) (26.02.1954) anadan olmasının 70 illiyi 106



Tarix

Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı, akademik Mahmudov Yaqub Mikayıl oğlunun (10.02.1939) anadan olmasının 85 illiyi 107
Əməkdar elm xadimi, akademik, tarix elmləri doktoru, professor Köçərli Tofiq Qasım oğlunun (11.02.1929-31.10.2007) anadan olmasının 95 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Əmək veteranı, filologiya elmləri namizədi, professor, ədəbiyyatşünas, tənqidçi Vəzirova Fəridə Şamil qızının (15.02.1924-06.09.1986) anadan olmasının 100 illiyi 108
Filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas, Rüstəmli Asif Heydər oğlunun (16.02.1954) anadan olmasının 70 illiyi 109
Filologiya elmləri doktoru, ədəbiyyatşünas, tənqidçi, sənətşünas, publisist, tərcüməçi Bayramov Adilxan Hüseynəli oğlunun (19.02.1949-15.04.2021) anadan olmasının 75 illiyi
Əməkdar elm xadimi, akademik, professor, ədəbiyyatşünas Araslı Həmid Məmmədtağı oğlunun (23.02.1909-20.11.1983) anadan olmasının 115 illiyi

Görkəmli ictimai xadim, publisist, tərcüməçi Hüseynzadə Əli bəy Molla Hüseyn oğlunun (24.02.1864-17.03.1940) anadan olmasının 160 illiyi 110




Fəlsəfə. İqtisadiyyat

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Əkbərov Surxay Cabbar oğlunun (08.02.1954) anadan olmasının 70 illiyi 111
AMEA-nın müxbir üzvü, professor, torpaqşünas Ələkbərov Kazım Əbdülmanaf oğlunun (17.02.1909-12.09.1987) anadan olmasının 115 illiyi




Coğrafiya.Geologiya

Əməkdar elm xadimi, akademik, geologiya-mineralogiya elmləri doktoru, professor, geoloq-neftçi Abramoviç Mixail Vladimiroviçin (08.02.1884-05.06.1965) anadan olmasının 140 illiyi
Əməkdar elm xadimi, akademik, geoloq alim Əlizadə Akif Ağa Mehdi oğlunun (25.02.1934) anadan olmasının 90 illiyi 112



Fizika.Riyaziyyat.Astronomiya

Əməkdar elm xadim, akademik, fizika-riyaziyyat elmləri doktoru, Milli Aviasiya Akademiyasının rektoru Paşayev Arif Mir Cəlal oğlunun (15.02.1934) anadan olmasının 90 illiyi 113
AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru Abdinov Ovsat Bəhram oğlunun (23.02.1944-29.10.2016) anadan olmasının 80 illiyi 114



Kimya.Biologiya.Tibb

Rus alimi, pedaqoqu Mendeleyev Dmitri İvanoviçin (08.02/27.01.1834-02.02/20.01.1907) anadan olmasının 190 illiyi
Əməkdar elm xadimi, Əməkdar həkim, tibb elmləri doktoru, professor İsayev İbrahim İsa oğlunun (10.02.1954) anadan olmasının 70 illiyi 115
Akademik, tibb elmləri doktoru, professor Qurbanov Fazil Səməd oğlunun (18.02.1944-23.12.2020) anadan olmasının 80 illiyi 116
Əməkdar elm xadimi, akademik, biologiya elmləri doktoru, professor Talıbov Tariyel Hüseynəli oğlunun (22.02.1949) anadan olmasının 75 illiyi 117
Əməkdar həkim, akademik, professor, tibb elmlər doktoru Əfəndiyev Fuad Ələddin oğlunun (23.02.1909-29.09.1963) anadan olmasının 115 illiyi



Texnika. Mühəndis işi

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Əmənzadə Yusif Əmən oğlunun (08.02.1914-11.03.1982) anadan olmasının 110 illiyi

FEVRAL 2024



Kitabxanaşünaslıq. Biblioqrafiya

Pedaqogika üzrə fəlsəfə doktoru, pedaqoq Ağayeva Xuraman Telman qızının (22.02.1959) anadan olmasının 65 illiyi 118
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mehrəliyeva Nailə Müzəffər qızının (22.02.1959) anadan olmasının 65 illiyi 118



Digər tarixi hadisələr

Gənclər Günü (02.1997) 119
Türkiyə hökuməti Ceyhan terminalına Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir (02.02. 2004)
Ümumdünya Xərçənglə Mübarizə Günü (04.02.2005)
Mingəçevir Su Elektrik Stansiyasının (SES) istifadəyə verilməsinin (04.02.1954) 70 illiyi 120
Beynəlxalq Təhlükəsiz İnternet Günü (07.02.2004)
Naxçıvan MR-nın yaradılmasının (09.02.1924) 100 illiyi 121
Hirkan Milli Parkı yaradılmasının (09.02.2004) 20 illiyi
Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının qəbul edilməsinin (11.02.2004) 20 illiyi
Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)
Beynəlxalq Kitab Bağışlama Günü (14.02.2013) 122
Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı təsis edilmişdir (18.02. 2014)
Ümumdünya Su Məmələlərinin Mühafizəsi Günü (19.02.1986)
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının (20.02.1999) yaradılmasının 25 illiyi
Beynəlxalq Ana Dili Günü (21.02.1999) 123
“Şuşa şəhərinin 2024–cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalanmışdır (21 noyabr 2023)
Avtomobil yol işçilərinin Peşə Bayramı Günü (22.02.2008)
Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (23.02.2009) yaradılmışdır
Milli Məclis “Xocalı soyqırımı günü haqqında” qərar qəbul etmişdir (24.02.1994)
Xocalı soyqırımı günü (26.02.1992) 124

Rüstəm İbrahimbəyov – 85

(1939-2022)

Nasir, dramaturq



Rüstəm Məmməd İbrahim oğlu İbrahimbəyov 1939-cu il fevral ayının 5-də Bakıda anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra o, 1956-1962-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil almış, əmək fəaliyyətinə 1962-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasında başlamışdır.

Gənc yaşlarından ədəbiyyat və kino sənəti ilə yaxından maraqlanan Rüstəm İbrahimbəyov Moskvada 1967-ci ildə Ali ssenarist kursunu, 1974-cü ildə Ali rejissorluq kursunu bitirmişdir.

1962-ci ildən yazıb yaratdığı yazıçılıq dövründə 15 pyesi dünyanın 100 dən çox ölkə teatrlarından tamaşaya qoyulmuşdur. Onun əsərləri əsasında 40-dan çox bədii film, televiziya filmləri və tamaşaları çəkilmişdir.

O, çoxcəhətli fəaliyyəti ilə ölkəmizin hüdudlarından kənarda da tanınmışdır. Nəsrimizin yeni mərhələyə qədəm qoymasının fəal iştirakçısı olan Rüstəm İbrahimbəyov öz səmərəli yaradıcılığı ilə bədii-estetik fikrin zənginləşməsində mühüm rol oynamış, yarım əsrdən artıq müddət ərzində ədəbi-mədəni mühitin inkişafına töhfələr vermişdir. Sənətkarın sosial-mənəvi problemləri, dramatik konfliktləri və müasirlərimizin daxili aləmini həyat həqiqətləri əsasında ustalıqla əks etdirən povestləri və hekayələri, pyesləri və ssenariləri ədəbiyyatımızın və milli kino sənətinin məzmunca yeniləşməsində əhəmiyyətli rol oynamışdır. Onun əsərləri əsasında 40-dan çox bədii və televiziya filmləri çəkilmişdir. Mühüm sosial həqiqətlərdən söz açan, rəngarəng və dolğun obrazlarla zəngin bu əsərlər özünəməxsus dəst-xətti ilə seçilən sənətkara böyük oxucu və tamaşaçı auditoriyasının rəğbətini qazandırmışdır.

Rüstəm İbrahimbəyovun ssenarist və rejissor olaraq kinematoqrafiyanın inkişafında da təqdirəlayiq xidmətləri vardır. Yazıçının ssenariləri əsasında çəkilən "Bir cənub şəhərində", "Səhranın bəyaz günəşi", "İstintaq", "Ad günü" və bir çox digər filmlər geniş şöhrət tapmış, yüksək mükafatlarla təltif edilmişdir. Onun həmmüəllif ssenaristi olduğu "Urqa" filmi 1991-ci ildə Venesiya Beynəlxalq Kinofestivalının ali mükafatına, "Günəşdən usanmışlar" filmi isə 1994-cü ildə Kann Beynəlxalq Kinofestivalının ali mükafatına və 1995-ci ildə Amerika Kino Akademiyasının "Oskar" mükafatına layiq görülmüşdür.

Rüstəm İbrahimbəyov bədii yaradıcılıqla yanaşı, eyni zamanda ictimai fəaliyyət göstərmişdir. O, 1967-1981-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1981-1985-ci illərdə birinci katibi, 1986-1991-ci illərdə SSRİ Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1990-cı ildən ömrünün sonunadək Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olmuş, 1989-cu ildə SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

Rüstəm İbrahimbəyovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1976-cı ildə "Əməkdar incəsənət xadimi", 1998-ci ildə "Xalq yazıçısı" fəxri adlarını almış, Azərbaycan ədəbiyyatının və kino sənətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının ali dövlət təltifi olan "Şöhrət" ordeninə layiq görülmüşdür.

Rüstəm Məmməd İbrahim oğlu İbrahimbəyov 2022-ci il mart ayının 10-də 83 yaşında Moskvada vəfat etmişdir. 13 mart 2022-ci ildə sənətkar ilə Moskvadakı Mərkəzi Kinematoqrafçılar Evində vida mərasimi keçirilmiş və 16 martda nəşi Bakıya gətirilmişdir. Rüstəm İbrahimbəyov Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t :

Azərbaycan kino sənəti tarixi : (4 cilddə) : [monoqrafiya] /N. Əbdülrəhmanlı ; [layihə. rəhb. R. İbrahimbəyov] ; red. Z. İsmayılova ; nəşrinə məsul Əli İsa Cabbarov ; vizual material. üzrə məsləhətçi N. Abbas ; foto təminatı: P. Quliyev, N. Ələkbərov, R. Qasımov ; qapaq dizaynı R. Həsən ; [Azərbaycan Kinematoqrafçılar İttifaqı].-Bakı: [Qanun], 2020.-719 s.


Dünya mədəniyyətinə qovuşan sənətkar//Mədəniyyət.-2022.- 18 mart .- S.3.

Seçilmiş pyeslər /R. İbrahimbəyov ; red. İ. Sadıq ; rəssam Z. Kantəmirov ; [Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi]. - Bakı: Azərnəşr, 2009.- 218 s.

Seçilmiş əsərləri : iki cilddə /R. İbrahimbəyov, I Cild.- Bakı: Avrasiya press, 2006.- 312 s.

Cəlil Məmmədquluzadə – 155

(1869-1932) Yazıçı-dramaturq



Cəlil Məmmədqulu oğlu Məmmədquluzadə 1869-cu il fevral ayının 22-də Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini əvvəlcə mollaxanada, sonra Naxçıvan şəhər məktəbində almışdır. 1887-ci il iyun ayının 7-də Zaqafqaziya Müəllimlər Seminariyasını (Qori) bitirmiş, 1887-1897-ci illərdə İrəvan quberniyasının kəndlərində müəllimlik etmişdir. İlk məlum bədii əsəri sayılan "Çay dəsgahı" alleqorik pyesini və "Danabaş kəndinin əhvalatları" povestini bu dövrdə yazmışdır.

1895-ci ilin yayında Moskva və Sankt-Peterburqa getmiş, bu şəhərlərin mədəni həyatı ilə tanış olmuşdur. 1904-cü ildən Tiflisdə nəşr edilən "Şərqi-Rus" qəzetinin redaksiyasında işləmişdir. Onun yazıçı və jurnalist kimi püxtələşməsində "Şərqi-Rus" qəzetinin və onun redaktoru M.Şahtaxtlının mühüm rolu olmuşdur.

1904-cü ilin noyabrından Cəlil Məmmədquluzadə "Şərqi-Rus" qəzetinin müvəqqəti redaktoru olmuşdur. 1905-ci ilin əvvəllərində qəzet bağlananda jurnalist Ömər Faiq Nemanzadə və maarifpərvər tacir M.Bağırzadə ilə birlikdə bu qəzetin mətbəəsini alıb ona "Qeyrət" adı vermişdir. 1905-1907-ci illərdə ilk kitabçaları olan "Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "İranda hürriyyət" bu mətbəədə nəşr olunmuşdur. Həmin ildə Cəlil Məmmədquluzadə Tiflisdə azərbaycanlı uşaqlar üçün məktəb və pansion açmışdır.

1906-cı il aprel ayının 7-də, Tiflisdə "Molla Nəsrəddin" jurnalının ilk nömrəsi çapdan çıxmışdır. Müəyyən fasilələrlə nəşr olunan jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə 8 nömrə ilə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr olunmuşdur. "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla Cəlil Məmmədquluzadə Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur.

Cəlil Məmmədquluzadə "Yeni yol" qəzetinin redaktoru, Ümumittifaq Mərkəzi Yeni Əlifba Komitəsinin üzvü, Bakı Azad Tənqid-Təbliğ Teatrının təşkilatçılarından olmuş, "Maarif və mədəniyyət", "Yeni kənd", "Şərq qadını" və s. mətbuat orqanlarında fəaliyyət göstərmişdir. Onun "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət", "Qurbanəli bəy" kimi hekayələri, məşhur "Ölülər" komediyası Azərbaycan realizmi və satirası tarixində şərəfli yer tutur. Yaradıcılığında milli şüur ("Anamın kitabı", 1919), məktəb tərbiyəsi, ümumiyyətlə xalq maarifi ("Danabaş kəndinin məktəbi", 1921) problemlərinə geniş yer verilmişdir.

1936-cı ildə nəşr olunmuş, 1977-ci ildə tamaşaya qoyulmuş "Dəli yığıncağı" pyesində feodal-patriarxal münasibətlər, din və fanatizm kəskin tənqid atəşinə tutulmuşdur. İlk məqaləsini 1902-ci ildə "Kaspi" qəzetində nəşr etdirmişdir. . Əsərləri bir sıra dillərə tərcümə edilmişdir

Yazıçı-dramaturq 1932-ci il yanvar ayının 4-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

Bir sıra küçə və mədəni-maarif müəssisəsinə Cəlil Məmmədquluzadənin adı verilmişdir. Keçmiş Astraxanbazar rayonu və şəhəri 1967-ci ildə onun şərəfinə Cəlilabad, vaxtilə müəllimlik etdiyi Baş Noraşen kəndi isə Cəlilkənd adlandırılmışdır. Naxçıvanda və Cəlilabadda heykəli qoyulmuşdur. Bakıda və Naxçıvanda ev-muzeyləri, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeyləri açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 17 yanvar 2019-cu ildə "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. Milli Kitabxan tərfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Cəlil Məmmədquluzadə. Biblioqrafiya" kitabı nəşr edilmiş və "Cəlil Məmmədquluzadə - 150" elektron məlumat bazası hazırlanmışdır.

Ədəbiyyat:

Cəlil Məmmədquluzadə: Cəlil Məmmədqulu Məşədi Hüseynqulu oğlu Məmmədquluzadə: biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərtib ed.: M. Vəliyeva, L. Şirinova, H. Manafova; elmi red. K. M. Tahirov; red. M. Cəfərova; ön sözün müəl. İ. Həbibbəyli.- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2019. 756, [4] s.

Məmmədquluzadə, H. Mirzə Cəlil haqqında xatirələrim / Həmidə Məmmədquluzadə; naşir M. Xan; dizayn F. İlham.- [Bakı]: Mücrü, [2022].- 179, [1] s

Qasımov, R. Klassikimiz və müasirimiz Cəlil Məmmədquluzadə / Ramiz Qasımov // Olaylar.- 2023.- 24 fevral-2 mart.- S.23.

Yaqubqızı, R. Böyük mütəfəkkir, yazıçı-dramaturq, jurnalist - Mirzə Cəlil / RamidəYaqubqızı // Respublika.- 2023.- 10 fevral.- S.11.

Seçmə hekayələr /C. Məmmədquluzadə ; tərt. E. Astanbəyli ; rəssam E. Cabarov.- [Bakı]: [Altun kitab MMC], [2019], 223 s.

Arkadi Qaydar – 120

(1904-1941)

Rus yazıçısı



Arkadi Petroviç Qolikov (Arkadi Qaydar) 1904-cü il fevral ayının 22-də (bəzi mənbələrdə 9-da) Kursk vilayətinin Lvov şəhərində anadan olmuşdur. On üç yaşlı Arkadi realnı məktəbinin üçüncü sinfində oxuyanda 1917-ci ilin fevral inqilabı baş vermişdir. O, 14 yaşından könüllü olaraq Qızıl ordu sıralarına daxil olmuş, Kiyevdə komandirlər kursunu bitirdikdən sonra on altı yaşında onu alay komandiri təyin etmişlər.

Qaydar altı il Qızıl ordu sıralarında xidmət etmişdir. 1923-cü ildə isə bərk xəstələndiyinə görə onu ordudan tərxis etmişlər. Ordu sıralarında hərbi xidmətini başa vurduqdan sonra o, ədəbi fəaliyyətlə məşğul olmuşdur.

1925-ci ildə "Kovş" adlı Leninqrad almanaxında ilk povesti – "Məğlubiyyət və qələbə günlərində" çapdan çıxmışdır. 1930-cu ildə gənc nəsil üçün yazdığı "Məktəb" povesti dərhal uşaq və məktəb kitabxanalarında əl-əl gəzmiş, oxucuların ən sevimli kitablarından birinə çevrimişdir. "Məktəb" povestinin əsas qəhrəmanı, birinci şəxsin dilindən danışan əsgər oğlu Boris Qolikov surətində Arkadi Qaydar məhz özünü təsvir etmişdir.

1940-cı ildə yazdığı "Timur və onun komandası" povesti ona böyük şöhrət qazandırmışdır. Cəsur, həssas, qətiyyətli, xeyirxah Timur surəti indi də uşaqların ən sevimli qəhrəmanlarından biri olaraq qalır. Yazıçı böyüməkdə olan nəslin ən yaxşı cizgilərini böyük vətənpərvərlik ideyası ilə qələmə alaraq bu obrazda ifadə etməyə müvəffəq olmuşdur. Qaydar uşaqlarla hər bir dildə danışmağı bacarırdı. Onun bütün əsərlərində ürəkləri isidən səmimilik, düzgünlük hiss olunurdu.

Yazıçının "Təbilçinin taleyi" (1939), "Cuk və Gek" (1939), "Hərbi sirr" (1940) və s. əsərlərində Böyük Vətən müharibəsinin çətin günlərində var qüvvələri ilə xalqın əzəmətli mübarizəsinə kömək edən gənc vətənpərvərlərin şücaətindən söhbət açılır.

1941-ci il oktyabrın 26-da Qaydar dörd nəfər partizanın müşaiəti ilə kəşfiyyata yollanaraq, faşist gülləsinin qurbanı olmuşdur.

Qaydar yaradıcılığı, onun qəhrəman həyatı, əməlləri, bədii yaradıcılığa həsr edilmiş ömrü indi də onu sevənlər üçün örnəkdir.

Ədəbiyyat:

Тимур и его команда : повесть, рассказы ; [для среднего школьного возраста] /А. П. Гайдар ; [ред. П. М. Столповский]. Сыктывкар: Коми кн. изд-во, 1987.-156 с.

Повести и рассказы книга для чтения с комментарием /А. Гайдар ; ред. кол. Г. П. Бердников [и др.] ; вступ. статья Д. М. Урнов ; сост. комментария С. А. Княжицкая.-Москва, Русский язык, 1984.-322 с.

İnternetdə:

https://ru.wikipedia.org/wiki/ Гайдар,_Аркадий_Петрович

Hüseynqulu Əliyev – 75

(1949)

Heykəltəraş



Hüseynqulu Əli oğlu Əliyev 1949-cu il fevral ayının 3-də Ordubad rayonunun Bist kəndində anadan olmuşdur. 1971-1975-ci illərdə Ə.Əzimzadə adına Bakı rəssamlıq məktəbində, 1977-1982-ci illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitunun (indiki ADMİU) dekorativ tətbiqi sənət fakültəsində təhsil almışdır.

O, 1982-1988-ci illərdə Naxçıvan Dövlət Rəsm Qalereyasında işləmişdir. 1989-cu ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı işləyir. Naxçıvan Dövlət Universitetinin təsviri incəsənət kafedrasının müdiridir.

1986-cı ildən Azərbaycan Rəssamlar Birliyinin, 2000-ci ildən Azərbaycan Teatr Xadimləri İttifaqının və 2012-ci ildən Naxçıvan MR Rəssamlar Birliyinin üzvüdür.

2008-ci ildə dosent, 2017-ci ildə isə professor elmi adına layiq görülmüşdür. 1984,1986, 2009-cu illərdən Naxçıvan Rəssamlar Birliyinin Sərgi salonunda fərdi sərgiləri olmuşdur.

"Koroğlu", "Bəhruz Kəngərli" heykəllərini (Naxçıvan şəhəri), "Heydər Əliyev" büstünün, "Ana abidəsi"ni (Şəhidlər Xiyabanı), Şəhidlər abidəsini (Vənənd və Nehrəm kəndləri), C.Məmmədquluzadənin büstünü (1985) yaratmışdır.

Rəngkarlıq, qrafika, karikatura janrlarında əsərləri var. C.Məmmədquluzadənin portreti (1990), "C.Məmmədquluzadə və H.Cavid" (1990), "C.Məmmədquluzadə oğlu Midhətlə" (1990), "C.Məmmədquluzadənin oğlu Ənvərin ailə üzvlərinin portreti" (1994), "Qurbanəli bəy" hekayəsi mövzusunda barelyef (1989), "Saqqallı uşaq" (1989), "Konsulun arvadı" (1989) əsərlərinə illüstrasiyalar çəkmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrı üçün 1988-1989-cu illərdə "Ölülər" tamaşasının geyim eskizlərini hazırlamışdır.

Hüseynqulu Əliyev Teatr dekorasiyası sənəti sahəsində də fəaliyyət göstərmişdir. Teatrda işlədiyi müddətdə Ü.Hacıbəylinin "O olmasın, bu olsun", "Arşın mal alan", S.Ələsgərovun, Ş.Qurbanovun "Özümüz bilərik", İ.Səfərlinin "Xeyir və Şər", G.Xuqayevin "Arvadımın əri", Z.Hacıbəylinin "50 yaşında cavan", S.Rüstəmovun "Beş manatlıq gəlin", H.Arzulunun "Mərhəmət məhəbbət deyil" və s. tamaşalara səhnə tərtibatı vermişdir.

Rəssamlıqda üstünlük verdiyi janrlar portret, mənzərə, natürmort, tematik tablolar, süjetli kompozisiyalardır. Heykəltəraş olaraq monumental, dəzgah (büst-portretlər, barelyef, barelyef-pannolar), monumental-dekorativ və dekorativ heykəltəraşlıq (kiçik ölçülü plastika) növlərinə müraciət edərək dəyərli sənət nümunələri ərsəyə gətirmişdir.

Hüseynqulu Əliyev 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar rəssam, 2002-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür.

Ə d ə b i y y a t :

Naxçıvan ensiklopediyası. Bakı. 2002, s 143.

Xalq rəssamı Hüseynqulu Əliyevin 70 illik yubileyi keçirilib /S.Qaliboğlu //Mədəniyyət.-2019.- 8 fevral.- S.5.

Xalq rəssamı Hüseynqulu Əliyevin yaradıcılıq yolu : Sənətşünaslıq [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : 6203.01 /F. A. Məmmədova.Bakı: 2022.-22 s.


İ n t e r n e t d ə:

ttp://calilbook.musigidunya.az/ye/aliyev_huseyngulu.html

Mirələsgər Mirqasımov – 100

(1924-2003)

Heykəltəraş



Mirələsgər Mirəsədulla oğlu Mirqasımov 1924-cü il fevral ayının 9-da Bakı şəhərində müasir Azərbaycan tibb elminin əsaslarını qoyanlardan biri Mirəsədulla Mirqasımovun ailəsində anadan olmuşdur.

Mirələsgər Mirqasımov əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (1939-1943) müəllimi, məşhur heykəltəraş P.Sabsay, daha sonra İ.E.Repin adına Sankt-Peterburq Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (1944-1950) təhsil almış və tanınmış incəsənət ustaları, heykəltəraşlar A.T.Matveyev, V.A.Sinayski, M.K.Anikuşin, rəssamlar S.L.Abuqov və A.A.Mılnikovdan sənətinin incə sirlərinə yiyələnib. Təhsilini başa vurub ölkəmizə dönən M.Mirqasımov yarım əsrdən çox uğurlu bədii yaradıcılıq fəaliyyəti ilə məşğul olub, bədii estetik məziyyətlərə malik bir çox büst-portret əsərləri və monumental heykəltəraşlıq abidələri ərsəyə gətirmişdir. İlk ali təhsilli peşəkar Azərbaycan heykəltəraşı olmuşdur.

M.Mirqasımovun yaradıcılığının əsas xüsusiyyətləri kimi professional işlənilmə, mükəmməl bədii obraz yaradıcılığı, surətlərin fərdi xarakterik və ümumiləşdirilmiş formada bədii işlənilmə xüsusiyyətlərini vurğulamaq olar. Dəzgah heykəltəraşlığı sahəsində yaratdığı büst-portretlərə nə qədər poetiklik, lirizm və zahiri statiklik xasdırsa, monumental heykəltəraşlıq abidələrində isə əksinə olaraq dinamizm, daxili ekspressivlik və gərgin müdrik düşündürücülük əlamətləri var.

M.Mirqasımovun müəllifi olduğu dəzgah heykəltəraşlığı əsərlərinə nümunə olaraq "M.Ə.Sabirin büstü" (1948), "At" (1950, gips), "Şir" (1950, gips), "Qız portreti" (1955, mərmər), "Anasının portreti" (1956, gips), "Qız göyərçinlə" (1956, mərmər), "Şah yaylaq" (1957, gips), "Qız portreti" (1958, mərmər), "C.Cabbarlı" (1958, mərmər), "Neftçi Qurban" (1959, bürünc), "Azadlıq" (1959, bürünc), "İkar" (1962, bürünc), "Xəzri" (1966, bürünc), "Akademik Mirəsədulla Mirqasımov" (1980, bürünc), "Hərəkət qüvvətdir" (1982, bürünc), "C.Cabbarlı" (1987, bürünc) və başqalarını göstərmək olar.

M.Mirqasımovun müəllifi olduğu monumental heykəltəraşlıq abidələrinə Sumqayıt şəhərində "N.Nərimanovun abidə büstü" (1964, bürünc), Naxçıvan şəhərində "C.Məmmədquluzadənin heykəli" (1974, bürünc, memar Ənvər İsmayılov), Bakı şəhərində "C.Cabbarlının heykəli" (1982, qranit, memar Yusif Qədimov) göstərmək olar. Sadalanan heykəltəraşlıq abidələri şəhərlərimizin ümumi memarlıq quruluşunun həllində və yerləşdiyi yerlərin məkan plan qruluşları ilə ahəngdarlıq təşkil edir. Həmçinin, şəhər sakinlərinin bədii estetik zövqünün formalaşmasında mühüm rol oynayır.

Heykəltəraşın əsərləri Rusiya, Polşa, Bolqarıstan, Almaniya, Kanada, Misir və başqa ölkələrdə uğurla nümayiş etdirilərək, Azərbaycan heykəltəraşlıq məktəbinə şöhrət qazandırmışdır.

Heykəltəraş M.Mirqasımov bütöv yaradıcılığı boyu hər zaman yüksək sənət amallarına sadiq qalaraq, uğurlu yaradıcılıq yolu keçmiş və hər zaman bədii estetik zövq aşılayan, nəzər-diqqəti cəlb edən bitkin sənət əsərləri ərsəyə gətirmişdi.

M.Mirqasımovun bədii yaradıcılıq fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. O, Əməkdar incəsənət xadimi (1963), Xalq rəssamı (1982) fəxri adlarına və "Şöhrət" ordeninə layiq görülmüşdü. 2002-ci il iyun ayının 11-də Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

Mirələsgər Mirəsədulla oğlu Mirqasımov 2003-cü il noyabrın 9-da vəfat etmişdir.

Ədəbiyyat:

M. M. Mirqasımovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan Respublikası Prezidentinin Fərmanları və Sərəncamları.- Bakı, 1996.- № 4.- S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/ Mirələsgər_Mirəsədulla_Mirqasımov


https://azertag.az/xeber/mirelesger_miresedulla_oglu_mirqasimov-299657

https://525.az/news/171878-xalq-ressami-mireli-mirqasimovun-yaradiciliq-dunyasi-yazi

Cəmil Müfidzadə - 90

(1934-2019)

Rəssam



Cəmil Mir Yusif oğlu Müfidzadə 1934-cü il fevral ayının 24-də Ordubadda anadan olmuşdur. O, ilk ixtisas təhsilini 1948-1955-ci illərdə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində almışdır. "Ümumittifaq sərgisinə eksponatların yola salınması" tablosu onun diplom işi olmuşdur. Rəssam daha sonra 1955-1956-cı illərdə Ukraynada Kiyev Orta Rəssamlıq Məktəbini, 1959-1962-ci illərdə isə Xarkov Dövlət Rəssamlıq İnstitutunun "Qrafika" fakültəsini bitirmişdir. Cəmil Müfidzadənin növbəti diplom işi "Neft daşları" mövzusunda çəkdiyi rəngli ofortlar silsiləsi olmuşdur.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında "Qrafika" kafedrasına rəhbərlik etmiş Cəmil Müfidzadə "Ofort" adlı dərsliyin müəllifidir. Rəssamın işlədiyi "Doğma düzənlər" ofort silsiləsi 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü çərçivəsində təşkil olunmuş təsviri sənət sərgisində nümayiş olunmuşdur. O, 1961-ci ildə III Ümumittifaq sərgisində (Moskva) "Qaldırıcı kranlar təmirdə" adlı ofort ilə iştirak etmişdir.

Cəmil Müfidzadənin ksiloqrafiya texnikasında işlədiyi "Bakı albomu", "Neft daşları", "Qala divarları", "Parkda", "Qız qalası", "Xəzər üzərində axşam", "Romantiklər", "Damda" və s. əsərlərini qeyd etmək olar. Rəssamın yaradıcılığında "İçərişəhər" silsiləsi xüsusi yer tutur. "Əcdadlarımızın yaşayış yerləri", "Göy pəncərəli evlər", "Babaların yurdu", "Köhnə Bakı", "Azərbaycan qadını keçmişdə", "Şirvanşahlar sarayı", "Xan sarayı", "Köhnə evlər", "Qədim Bakı", "Yeni Məscid", "Türbə", "Dəvələr", "Qız qalası", "İçərişəhər", "Təndir", "Suçular", "Şirvan qapıları", "Namaz", "Tut ağacı", "Karvansaray" və digər əsərləri İçərişəhərə həsr edilmişdir. Onun qarışıq texnikada işlədiyi ilk 4 əsəri 1967-ci ildə Bakıda təşkil olunan respublika sərgisində "Azərbaycanın qədim memarlıq abidələri" adı ilə nümayiş olunmuşdur. Cəmil Müfidzadənin qarışıq texnikada çəkdiyi "Abşeron nefti" silsiləsi 1967-1975-ci illəri əhatə edir. Bu silsiləyə rəssamın "Bakı-neft paytaxtıdır", "Abşeron nefti", "Çənlər parkı", qarışıq texnikada isə "Neft ehramı", "Neft saxlancı", "Neft mədənlərində" əsərlərini misal göstərmək olar. 1960-1970-ci illər yaradıcılığıda yer alan "Buhenvald", "Sülhün keşiyində", "Bakı-neft paytaxtıdır", eləcə də 1980-ci illərin əvvəllərində Yaponiyaya səfərindən sonra işlədiyi "Bu bir daha təkrar olmamalıdır" silsilələrində C.Müfidzadə dövrünün qarşılaşdığı təzadlı hadisələrə yaradıcı mövqeyini bildirmişdir. Rəssamın, eyni zamanda, Xınalıq kəndinə həsr etdiyi silsiləsi yaradıcılığında mühüm yer tutur.

Rəssam "Monqolustan torpağında" silsiləsində Qobi səhrasının dəvəli mənzərələri geniş yer almışdır. Silsilədə "Axırıncı tikan", "Qurumuş çeşmə başında", "Əsrlərin görüşü" və "Naməlum səs" əsərləri yer alır. Cəmil Müfidzadənin digər qrafik silsiləsindən "Şimal", "Bəyaz gecələr", "Şaxta 45 dərəcədədir", "Şimalın adi günləri", "Balıqçı adası" lövhələrini qeyd etmək olar. Onun "Misir təəssüratları" silsiləsinə "Tənha yolçu", "Misir tarixi", "İki dost", "Daimi dostlar" tabloları aiddir. Xalq rəssamının Azərbaycan, Polşa, Rusiya, İran, Fransa, və Türkiyədə fərdi sərgiləri təşkil olunmuşdur.

Cəmil Müfidzadənın əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, Şərq xalqları Dövlət İncəsənət Muzeyində, Maksim Qorkinin mənzil-muzeyində, P.Lüdviqin muzeyində, Ulan-Bator İncəsənət Muzeyində, Fransa və digər ölkələrin şəxsi kolleksiyalarında qorunub saxlanılır.

Cəmil Müfidzadə 1982-ci ildə Əməkdar rəssamı və 2002-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür.

Cəmil Mir Yusif oğlu Müfidzadə 20 dekabr 2019-cu ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Xalq rəssamı Cəmil Müfidzadə vəfat edib /S.Fərəcov//Mədəniyyət.-2019.- 25 dekabr.- S.6.

Xalq sevgisini qazanmış sənətkarlar unudulmur: Cəmil Müfidzadə /R. Orxan//Azad Azərbaycan.-2020.- 28 yanvar.- S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Cəmil_Müfidzadə

https://nrb.gov.az/artists?painter=138

Aida Tağızadə – 90

(1934)

Musiqişünas



Aida Zeynal qızı Tağızadə 1934-cü il fevral ayının 5-də Şuşa şəhərində anadan olmuşdur. O, 150 saylı məktəbdə, daha sonra isə Asəf Zeynallı adına Musiqi Kollecində təhsil almış, təhsilini qırmızı diplomla bitirərək Ü.Hacıbəyli adına Konservatoriyaya daxil olmuşdur. Əvvəlcə fortepiano üzrə ifaçılıq şöbəsində oxuyan Aida xanım iki ildən sonra musiqişünaslıq şöbəsində təhsilini böyük uğurla başa vurmuşdur.

Aida xanım 1958-ci ildən Bakı Musiqi Akademiyasında fəaliyyət göstərmişdir. Pedaqoji işlə yanaşı, Azərbaycanın bir çox görkəmli bəstəçiləri və ifaçıları haqqında monoqrafiyaların, kitabçaların, oçerk və məqalələrin müəllifidir.

1985-ci ildə "Yazıçı" nəşriyyatında çap olunmuş kitabı görkəmli bəstəkarımız Soltan Hacıbəyovun yaradıcılığına həsr edilişdir. 1969-cu ildə müdafiə etdiyi namizədlik dissertasiyası da istedadlı sənətkarımızın əsərlərinin təhlili ilə bağlıdır. Həmin monoqrafiyada bəstəkarın "Gülşən" baleti, simfonik janrda yazılan əsərləri, onun üslubu üçün səciyyəvi bir çox xüsusiyyətlər yüksək səviyyədə araşdırılıb.

Alimin sonrakı tədqiqat nümunəsi müasir musiqi sənətimizin görkəmli nümayəndələrindən A.Əlizadənin yaradıcılığına həsr olunmuş monoqrafiyadır. Burada "Kənd suitası", o dövrdə yazılan simfoniyaları, özünəməxsus xor və kamera-instrumental əsərləri təhlil olunaraq, bəstəkarın müasir Azərbaycan musiqi mədəniyyətində tutduğu uğurlu və hətta "yenilikçi" mövqeyi şərh olunub.

Müxtəlif qəzet və jurnallarda 100-ə yaxın məqaləsi çap olunub. Məqalələrin əsas mövzuları Ü.Hacıbəyli, Q.Qarayev, Fikrət Əmirov, A.Məlikov və başqa böyük sənətkarların yaradıcılığı, bədii üslubunun özəllikləri, yeni əsərlərin təhlilidir. Aida Tağızadə Azərbaycan milli musiqisi sənətimizin bir çox xarici ölkələrdə təbliğində də böyük əmək sərf edib. Professional ifaçılıq sənətimizə xüsusi diqqət ayırıb, öz yazılarında M.Maqomayev, Fidan və Xuraman Qasımova bacıları, S.Qəniyev, E.Səfərova, F.Quliyeva, A.Abdullayeva kimi sənətkarların yaradıcılığına geniş yer verib.

Aida Tağızadə 1986-cı ildə professor elmi adını alıb. 1996-2007-ci illərdə fəaliyyətini Türkiyənin Ankara Bilkənd Universitetində davam etdirib.

Aida xanımın Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuş kitab və broşürləri Azərbaycan musiqişünaslığına bir töhfədir. Bu sırada dövrümüzün görkəmli bəstəkarları C.Hacıyevin, Hacıbəyovlar sülaləsinin nümayəndəsi Soltan Hacıbəyovun, müasir musiqi sənətinin görkəmli nümayəndəsi A.Əlizadənin yaradıcılıqlarına həsr olunmuş monoqrafiyalar parlaq nümunələrdir.

Ə d ə b i y y a t :

İzabella Abezqauz /A.Tağızadə ; red. Z. Qafarovava ; buraxıl. məsul Ə. Əsədzadə ; Azərb. Bəstəkarlar İttifaqı.- Bakı: Renessans-A, 2020.-38 s.

Aida Tağızadə /Z. Dadaşzadə; red. Z. Qafarova; buraxıl. məsul Ə. Əsədzadə; Azərb. Bəstəkarlar İttifaqı. Bakı: Renessans-A,

2020.- 20 s.

İncə sənət yolunda keçən ömür: Sənətşünas Aida Tağızadə // Azadlıq.- 2013.- 20 iyul.- S.14.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Aida_Tadızadə

Nisə Qasımova – 70

(1954)

Müğənni



Nisə Fətulla qızı Qasımova 1954-cü ilin 13 fevralında Bakı şəhərində anadan olmuşdur.

Geniş səs diapazonu, musiqiyə marağı Nisə xanımın taleyini çox erkən yaşlarından ömürlük səhnəyə bağlamışdır. 8 yaşında Əfsər Cavanşirovun rəhbərlik etdiyi "Bənövşə" uşaq xorunun heyətinə qəbul olan Nisə Qasımova çox keçmir ki, bütün peşəkar musiqi heyətinin diqqətini özünə cəlb edib 9 yaşında olarkən xorun gənc solisti olmuşdur. "Günəş adlı yaxın dostum var mənim" məxsusi olaraq onun üçün yazılan bu mahnı ilə ən müxtəlif konsert proqramlarında çıxış etmişdir.

Nisə xanım 1971-ci ilin əvvəlində Müslüm Maqomayev adına Dövlət Filarmoniyası nəznindəki "Lalə qızlar ansamblı"na solist kimi dəvət olunmuşdur. Dünya səhnəsi ulduzlarından ilham alan müğənni ansambldakı konsertlərdə çoxdilli repertuarı, fərqli səs imkanları və ən nəhayət o zaman üçün böyük yenilik olan dinamik səhnə rəqsləri ilə diqqəti cəlb etmişdir.

1972-1973 illərdə biri-birinin ardınca ifa etdiyi "Ay ellər", "Sənsən Həyatım", "Eşqimi sönməyə qoymaram", "Gözləyəcəyəm", "Qəşəngdir" kimi mahnıları xalq tərəfindən sevilib və Nisə xanıma tez bir zamanda möhtəşəm uğurlar əldə etməsinə səbəb olmuşdur.

1975-ci ildə isə 21 yaşında olarkən Azərbaycan musiqisinin qızıl fonduna ifa etdiyi " Laylay" (Şəfiqə Axundova), "Sədaqətim var" (Ələkbər Tağıyev), "Bayatı Şiraz təsnifi" ilə daxil olan Nisə xanım artıq Azərbaycan Dövlət televiziyasının solisti kimi çalışmağa başlamışdır. Elə həmin illərdə SSRİ Dövlət elektro musiqi orkestrinin rəhbəri Vyaçeslav Mişşerinin dəvəti ilə Moskvaya gedən müğənni bu ansambla birgə "Gül bir az", "Gözləyəcəyəm", "Leyla" və. s. mahnılarından ibarət albom lentə aldırmışdır. Nisə xanımın Moskvadakı çıxışları zamanı məşhur rus bəstəkarı və şairi Nikolay Zinovyev gənc müğənninin ifaçılıq və səhnə istedadına valeh olmuşdur. Yaradıcılığında Alla Puqacova, İrina Alleqrova, Filipp Kirkorov kimi rus estrada ulduzlarına mahnı bəstələyən Nikolay məxsusi olaraq Nisə xanım üçün Azərbaycanda çox sevilən "Xaxatunya", "Kaspiyskiy vals"və s. kimi mahnılar yazmışdır. 1977-ci ildə ali təhsilini davam etdirmək üçün valideynlərinin təkidi ilə Bakıya dönən müğənni İncəsənət İnstitutuna daxil olmuşdur.

1975-ci ildə "Leyli və Məcnun" operasının televiziya versiyasında Leylini məharətlə ifa etmişdir. Nisə xanım Mehdi Məmmədov, Bəhram Mansurov, Nicat Melikov kimi dövrün ziyalılarının təklifi ilə Opera və Balet teatrında Leyli rolunu ifa etmişdr.

Azərbaycanın ən müxtəlif yerlərində, eləcə də sərhədlərmizdən kənarda Danimarka, İslandiya, Türkiyə, Dubay, Əfqanıstan, Ukrayna, Almaniya və digər ölkələrdə böyük uğurla konsertlər vermişdir.

Davamlı sənət uğurları ilə yanaşı ictimai fəaliyyətlə də məşğul olan müğənni özünün adını daşıdığı "Nisə Qasımova fondu"nu yaradıb davamlı xeyriyyə və mədəniyyət aksiyalarını maliyyələşdirir. 2008-ci ildə Nisə xanıma "Birliyə doğru" beynəlxalq humanitar təşkilatı tərəfindən "Əlimi tut, səninləyəm" xeyriyyə layihəsinə görə Azərbaycanın "ən xeyirxah müğənnisi" diplomu verilmişdir.

2019-cu ildə Heydər Əliyev sarayda "İmza:MƏN" adlı solo konserti baş tutmuşdur.

1989-cu ildə müğənni Əməkdar artist, 2008-ci ildə Xalq artisdi fəxri adlarına, 2011-ci ilədə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ədəbiyyat

N.F.Qasımovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 28 iyun 2011-ci il // Azərbaycan.- 2011.- 29 iyun.- S. 5.

Qurbanlı, R."Mən bu elin qızıyam, anamdır Azərbaycan..." : [Müğənni Nisə Qasımova haqqında] / Ramilə Qurbanlı // Gün.- 2006. - 15-21 aprel. - S.25.

İnternetdə:

https://az.wikipedia.org/wiki/ wiki/Nisə Qasımova

https://metbuat.az/melumat/taninmis/72/nise-qasimova.html

Süleyman Abdullayev – 85

(1939-2022)

Xanəndə



Süleyman Cümşüd oğlu Abdullayev 1939-cu il fevral ayının 14-də Füzuli rayonunun Qoçəhmədli kəndində anadan olmuşdur. 1959-cu ildə istedadlı musiqiçilər sorağıyla Füzuli rayonuna gələn böyük xanəndə Seyid Şuşinski Süleyman Abdullayevin səsini yüksək qiymətləndirmiş və o, professional təhsil almaq üçün Bakıya dəvət edilmişdir.

1960-1964-cü illər ərzində S.Abdullayev Bakı Musiqi Texnikumunda Seyid Şuşinskinin sinfində bütün muğam dəsgahlarını tam şəkildə öyrənmişdir. 1964-cü ildən Süleyman Abdullayev Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyətə başlamış, xalq çalğı alətləri ansamblları ilə çalışmışdır. 1969-cu ildə Türkiyənin İstanbul şəhərində keçirilən ümumdünya festivalının qalibi olmuşdur. Seyid Şuşinskinin ənənələrini yaşadan xanəndə, eyni zamanda, özünəməxsus ifaçılıq üslubu, oxuma tərzi, bir çox muğamların yaddaqalan təfsiri ilə tanınır. Süleyman Abdullayev zəngin tembrli, yüksək tessituralı səsə malik xanəndədir. O, ifa etdiyi muğamda sözün düzgün tələffüzünə, qəzəlin mənasının dinləyiciyə çatdırılmasına çalışmışdır. Onun yanıqlı və məlahətli səsindən eşidilən neçə-neçə mahnılar (“Qarabağ”, “Aşiqəm”, “Səni qəmli görəndə”), muğam üstə oxuduğu qəzəllər sənətsevərlərin yaddaşına əbədi həkk olunmuşdur. Süleyman Abdullayevin ifasında “Segah”, “Dəşti”, “Çahargah”, “Şur” muğam dəsgahlarının lent yazıları AzTV-nin Fonduna daxil olmuşdur.

Xanəndə oxuduğu muğamlarda klassik şairlərin – Füzulinin, S.Ə.Şirvaninin, Vahidin qəzəllərinə müraciət edərək, xüsusilə vətən haqqında şeirlərə üstünlük vermişdir. Öz sənəti ilə böyük bir elin müdrik ağsaqqalı kimi sevilən xanəndə xalq tərəfindən “Dədə Süleyman” deyə çağırılırdı.

Qarabağ muğam ənənələrinin davamçısı olan sənətkar 1998-ci ildən Prezident təqaüdçüsü olmuşdur. 2005-ci ildə Həsən bəy Zərdabi adına Dünya Azərbaycanlıları Xeyriyyə Cəmiyyətinin “Qızıl səs” medalına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Abdullayev Süleyman Cümşüd oğluna Əməkdar artist fəxri adı verilmişdir.

Süleyman Abdullayev 2022-ci ildə oktyabr ayının 23-də vəfat etmişdir. Müşfiqabad qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat:

Füzulinin məşhur simaları - Dədə Süleyman:: “Bunu eşidəndə yenidən doğuldum” /S.Abdullayev; müsahibəni apardı: N.Vahid //Türküstan.-2020.- 15-21 dekabr.- S.24

Muğamın Süleyman Abdullayev nəfəsi /Ə.Mədətoğlu//Ədalət.-2019.- 7 dekabr.- S.4.

Dədə Süleymandan qalan dünya : Böyük xanəndə Süleyman Abdullayev zəngin və əbədi bir sənət irsi qoyub getdi /N.Yalçın//525-ci qəzet.-2022.- 12 noyabr.- S.16.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Süleyman_Abdullayev_(xanəndə)

Süleyman Ələsgərov - 100

(1924-2000)

Bəstəkar



Ədəbiyyat:

Lirik mahnı :[Notlar] : Qoboy və fortepiano üçün /Süleyman Ələsgərov; layihənin rəhb. K. Tahirov; tərt. ed. M. İbrahimov; red. S. Fərəcov; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası.- Bakı: [n. y.], 2023.- 5, [3] s.

Qafarova, M. Bəstəkar Süleyman Ələsgərov və xalq çalğı alətləri orkestri: dərs vəsaiti / Maya Qafarova; ixt. red. R.Zöhrabov; rəyçi. F.Bədəlbəyli [və b.].- Bakı: ADPU, 2012.- 227, [1] s.

Bəstəkar Süleyman Ələsgərovun xatirəsi anılıb // Mədəniyyət .-2020.-19 fevral.- S.6.

İki pyes: [Notlar]: fortepiano üçün / Süleyman Ələsgərov; tərt. ed. M. İbrahimov; layihənin rəhb. K. Tahirov; red. S. Məlikova; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası.- Bakı: [n. y.], 2020.- 7, [1] s.

İnternetdə:

https://musicacademy.edu.az/az/simli-gorkemli/391-suleyman-aleskerov.html

https://ru.wikipedia.org/wiki Алескеров_Сулейман_Эйюб оглы

Süleyman Əyyub oğlu Ələsgərov 1924-cü il fevral ayının 22-də Şuşa şəhərində anadan olmuşdur. Musiqiyə olan hədsiz həvəsi onu Azərbaycan Dövlət Konservatoriyasına (Bakı Musiqi Akademiyası) gətirib çıxarmışdı. Bəstəkar 1943-cü ildə Ü.Hacıbəylinin zəmanəti ilə Bəstəkarlar İttifaqına qəbul olunmuşdur. III kursda təhsil alarkən simfonik orkestr üçün "Bayram uvertürası"nı, violonçel, fortepiano və simfonik orkestr üçün ikili "Konsert"ini, nəhayət, diplom işi olan "Vətən" simfoniyasını bəstələmişdir.

Məşhur pedaqoq Zeydmanın sinfini fərqlənmə diplomu ilə bitirən Süleyman Ələsgərov 1948-1949-cu illərdə Bakı Orta İxtisas Musiqi Məktəbinə rəhbərlik etmişdir. 1949-1951-ci illərdə Azərbaycan SSR Kinematoqrafiya Komitəsi orkestrinin bədii rəhbəri, 1951-1952-ci illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının rəhbəri, 1954-1956-cı illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin İncəsənət məsələləri üzrə idarə rəisi, 1956-1958-ci illərdə Azərbaycan xalq çalğı alətləri orkestrinin dirijoru, 1958-1960-cı illərdə Televiziya və Radio Yayımları üzrə Respublika Komitəsinin bədii rəhbəri, 1960-1971-ci illərdə Ş.Qurbanov adına Musiqili Komediya Teatrının direktoru və baş dirijoru olmuşdur. 1958-ci ildən pedaqoq kimi fəaliyyət göstərmiş, 1968-ci ildən Dövlət Konservatoriyasının dosenti kimi çalışmış, fasilələrlə Xalq çalğı alətləri kafedrasına rəhbərlik etmişdir.

1970-ci ildən Azərbaycan SSR Təhsil Nazirliyinin musiqi-estetik tərbiyə üzrə tədris-metodik şurasına rəhbərlik etmişdir. 1976-cı ildə professor elmi adını almışdır. 1972-2000-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının Qarabağ filialının rəhbəri, 1991-2000-ci illərdə öz təşəbbüsü ilə yaradılmış Konservatoriyanın Şuşa filialının rektoru olmuşdur.

Yaradıcılığında operetta janrı əsas yer tutur. "Ulduz" (1948), "Özümüz bilərik" (1962), "Olmadı elə, oldu belə" (1964), "Milyonçunun dilənçi oğlu" (1966), "Hardasan, ay subaylıq" (1968), "Sevindik qız axtarır" (1970), "Həmişəxanım" (1971), "Məhəbbət gülü", "Subaylardan görəsiz", "Gurultulu məhəbbət" operettaları Azərbaycan Musiqili Komediya Teatrının səhnəsində bu gün də oynanılır. Bundan başqa, Süleyman Ələsgərovun "Bahadır və Sona", "Solğun çiçəklər" operaları, bir neçə kantata, "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, simfonik poema və süitaları, 3 tar üçün konserti, 200-ə qədər mahnı və romansları (22 sözsüz mahnı), "Tarantella", "Rəqs-tokkata", "Rondo", "Aşıqvari", qanun aləti üçün yazdığı "Poema" ("Rapsodiya") və digər əsərləri Azərbaycan musiqisinin incilərindəndir.

Görkəmli bəstəkarın yaradıcılığı yüksək qiymətləndirilmiş, ona 1959-cu ildə"Şərəf nişanı" ordeni, 1960-cı ildə Əməkdar incəsənət xadimi, 1974-cü ildə isə Xalq artisti fəxri adları verilmişdir. 1967-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuşdur. 1999-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Süleyman Ələsgərov 2000-ci il yanvar ayının 21-də vəfat etmişdir.

Görkəmli bəstəkar və pedaqoq, Xalq artisti Süleyman Ələsgərovun 100 illik yubileyi ərəfəsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Milli musiqi xəzinəmizdən: Azərbaycan Milli Kitabxanasının fondundan" layihəsi çərçivəsində Süleyman Ələsgərovun "İki pyes"(2020) "Cəngi" (2023), "Lirik mahnı" (2023), "Lirik rəqs" (2023), "Sonatina" (2023), "Sözsüz mahnı" (2023), "Tarantella və daimi hərəkət" (2023) adlı not məcmuələri təkrar nəşr edilmişdir (layihənin rəhbəri Kərim Tahirov).

Nəzakət Məmmədova – 80

(1944-1980) *Opera müğənnisi*



Nəzakət Əli qızı Məmmədova 1944-cü il fevral ayının 28-də Gəncə şəhərində anadan olmuşdur. Uşaq yaşlarında atasını itirmişdir. Valideynləri onu müəllim görmək istəyirdilər. Onların bu istəyini nəzərə alan gənc qız Bakıya gələrək Xarici Dillər İnstitutuna (indiki ADU) daxil olmuşdur. Amma gözəl səsi olan gənc Nəzakət musiqidən ayrı yaşaya bilməyəcəyini anlamış və təhsilini yarımçıq qoyaraq 1966-cı ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna daxil olmuşdur. Onun səsinə ilk qiyməti görkəmli sənətkarlar Əhməd Bakıxanov və Hacıbaba Hüseynov vermişdilər. Onların qarşısında "Bayatı-Qacar" oxuyan gənc qız hər iki sənətkarın diqqətini cəlb etmişdir. Sonralar təhsilini Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) davam etdirən Nəzakət Məmmədova bir müddət "Lalə" qızlar ansamblında çalışmışdır.

1968-ci ildə Opera və Balet Teatrına işləməyə dəvət olunmuş, 1971-ci il yanvarın 2-də Nəzakət Məmmədova Leyli, Baba Mahmudoğlu Məcnun rolunda səhnəyə çıxmışdılar. Nəzakət Məmmədova opera müğənnisi kimi parlaq istedadını nümayiş etdirmişdir. Sürəyya Qacar, Həqiqət Rzayeva, Gülxar Həsənova kimi sənətkarlardan sonra Nəzakət Məmmədova da Leyli obrazları arasında yeni bir səhifə açmışdır. O, "Rast", "Qatar", "Şahnaz", "Segah" və digər muğamların, mahnı və təsniflərin mahir ifaçısı kimi tanınmış, sevilmişdir.

Azərbaycan musiqi sənətinin incəliklərini gözəl və məlahətli səsi ilə vətənindən çox-çox uzaqlara da apara bilmiş, Türkiyə, İran, Əfqanıstan, Almaniya, Belçika, İtaliya və s. ölkələrdə qastrol səfərlərində olaraq səsinin gözəlliyinə bələnən mahnıları əcnəbilərə də sevdirə bilmişdir. Repertuarı muğamlardan, təsniflərdən, bəstəkar və xalq mahnılarından ibarət idi. Onun ifasında "Qatar", "Rast", "Şahnaz", "Segah" muğamları, "Sarı bülbül", "Qaragilə" xalq mahnıları AzRT Fondunda saxlanılır.

Müğənni 1974-cü ildə "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

Nəzakət Məmmədova 1980-ci il oktyabr ayının 21-də Soçi şəhərində, uğursuz plastik əməliyyat nəticəsində vəfat etmişdir.

Ə d ə b i y y a t :

Məmmədova Nəzakət Əli qızı // Muğam ensiklopediyası /Heydər Əliyev Fondu; baş red. M.Əliyeva; red. hey. A.Babayev [və b.]; haz.: G.Abdullazadə [və b.].- Bakı, 2008.- S.130-131.

İ n t e r n e t d ə:

http://enene.musigi-dunya.az/m_simalarda_xanende.html https://az.wikipedia.org/wiki/Nəzakət_Məmmədova_(müğənni)

Tariyel Məmmədov - 75

(1949) *Musiqişünas*



Tariyel Aydın oğlu Məmmədov 1949-cu il fevral ayının 28-də Bakı şəhərində anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət Konservatoriyasını tarix və musiqi nəzəriyyəsi ixtisası üzrə bitirmişdir. 1983-cü ildə SSRİ Mədəniyyət Nazirliyinin Ümumittifaq Elmi Araşdırmalar Sənətsünaslıq İnstitutunda "Koroğlu dastanında epik nəğmələri yaradıcılığı" mövzusunda sənətşünaslıq üzrə namizədlik, 1989-cu ildə isə "Azərbaycan aşıqlarının ənənəvi nəğmələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, musiqi elmində ilk Azərbaycan sənətşünaslıq doktoru elmi adına layiq görülən musiqişünaslardan biri olmuşdur.

1996-cı ildən Bakı Musiqi Akademiyasının Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasında çalışmışdır. 2004-cü ildə professor elmi adını almışdır. 2006-2009-cu illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuşdur.

Tariyel Məmmədov 37 monoqrafiya, dərslik, elmi-publisistik kitabların müəllifidir. Onun 100-dən artıq elmi məqaləsi beynəlxalq və respublika nəşrlərində çap olunmuşdur. Alim bir sıra beynəlxalq konfrans və simpoziumlarda ölkəmizi layiqincə təmsil etmişdir. Tariyel Məmmədov pedaqoji və elmi-tədqiqat sahəsində göstərdiyi fəaliyyətlə yanaşı, ölkə mətbuatının inkişafında da böyük xidmətləri olan yaradıcı insandır. Belə ki, məhz Tariyel Məmmədovun rəhbərliyi ilə 1999-cu ildən etibarən Azərbaycanda ilk musiqili elmi-pedaqoji, tənqidi-publisistik, mədəni-maarif beynəlxalq mətbu orqan olan "Musiqi Dünyası" jurnalını nəşr edilməyə başlanmışdır.

"Musiqi dünyası"nın yaradıcı qrupu 2005-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondu ilə birgə bütün dünyada geniş təbliğ olunan "Qarabağ xanəndələri" layihəsini müvəffəqiyyətlə həyata keçirmişdir. Layihənin müəllifi və rəhbəri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun Prezidenti Mehriban xanım Əliyeva, koordinatoru isə professor Tariyel Məmmədov olmuşdur.

2008-ci ildə nəşr olunmuş "Muğam ensiklopediyası"nın da məsul redaktoru Tariyel Məmmədovdur.

Tariyel Məmmədov 2007-ci ildə Azərbaycan musiqi mədəniyyətinin müasir texnologiyalar vasitəsi ilə təbliğinə görə "Humay" mükafatını almışdır. 2008-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. 2016-cı ildən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının professorudur. Azərbaycan musiqisi üzrə İnternet-layihələrin müəllifi və rəhbəridir..

Ədəbiyyat:

Muğam ensiklopediyası [Komplekt] : [CD, DVD və kitabdan ibarət komplekt] /Heydər Əliyev Fondu ; red. hey.: M. Əliyeva (sədr, baş red.) (məsul red.T.Məmmədov)[və b.] ; hazırl.: G. Abdullazadə. [və b.]. [Bakı]: [Musiqi dünyası], [TUTU Design], [2008], 215 s.

"Karaoke..." : Bakı Musiqi Akademiyası - 100 /T. Məmmədov//Azərbaycan müəllimi.-2021.- 23 iyul.- S.5.

Musiqi təhsilinə innovasiyalı yanaşma: BMA-nın pandemiya dövründə tədris təcrübəsindən /T. Məmmədov //Azərbaycan müəllimi.- 2021.- 23 aprel.- S.14.

İnternetdə;

https://az.wikipedia.org/wiki/Tariyel_Məmmədov

Tariyel Qasımov – 85

(1939)

Teatr və kino aktyoru



Tariyel İsgəndər oğlu Qasımov 1939-cu il fevral ayının 4-də Ağstafa rayonunun Köçəsgər kəndində anadan olmuşdur. Orta məktəbi 1956-cı ildə bitirərək Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur. Təhsil aldığı illərdə müxtəlif dram dərnəklərində həvəskar aktyorluq etmişdir.

1958-ci ildə Həsən Seyidbəyli onu Gənc Tamaşaçılar Teatrında hazırlanan bir tamaşada idman müəllimi rolunu oynamağa dəvət etmişdir. Teatr müdiriyyətinin məktubu ilə 1960-cı ildə Tariyel Qasımov köçürmə yolu ilə Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə keçirilmişdir. Ali məktəbi bitirəndən sonra təyinatla Milli Akademik Dram Teatrına göndərilmişdir. Tələbə ikən tamaşalarda epizodik rollar oynamışdır.

1964-cü ildə Gənc Tamaşaçılar Teatrına dəvət olunmuşdur. 1967-ci ildə, on səkkiz illik fasilədən sonra "Sevil" tamaşası ilə fəaliyyəti bərpa edilən İrəvan Dövlət Dram Teatrında işləmişdir. Bir müddət sonra Naxçıvan DMDT-də işləmiş, bir il burada fəaliyyət göstərərək Bakıya qayıtmış və "Azərbaycanfilm" kinostudiyasında rejissor assistenti vəzifəsində çalışmışdır. Tariyel Qasımov 1971-ci ildən yenə Gənc Tamaşaçılar Teatrının truppasında, 1997-1998-ci illərdə Qazax Dövlət Dram Teatrında, 1999-cu ildə Dərbənd Dövlət Azərbaycan Teatrında direktor və bədii rəhbər işləmişdir. "Azərbaycanfilm"də, Almaniyada və Tacikistanda müxtəlif bədii filmlərə çəkilmişdir. Tariyel Qasımovun Gənc Tamaşaçılar Teatrının səhnəsində ifa etdiyi - Cəfər Cabbarlı ("Aydınlığa doğru", Seyfəddin Dağlı), Cəlal, Bəxtiyar, Söhrab, Məşədi Əzizbəyov ("Komsomol poeması", "Söhrab və Rüstəm" və "Komissarlar", İsgəndər Coşqun), İmran və Oruc ("Tamahkar" və "Qaraca qız", Süleyman Sani Axundov), Məlik Məmməd ("Məlik Məmməd", Əyyub Abbasov), Zaur ("Yadındamı?", Altay Məmmədov), Kazım ("Məhəbbət novellası", Şamil Xurşid və Əşrəf Hacıyev), Səfər ("Kiçik təpə", Nəbi Xəzri), Qədim, Həsənzadə ("Büllur sarayda" və "Sən həmişə mənimləsən", İlyas Əfəndiyev), Pərviz ("Sən nə üçün yaşayırsan?", Həsən Seyidbəyli və İmran Qasımov), Artur ("Ovod", Etil Voyniç), Ədalət ("Gəl qohum olaq", İsi Məlikzadə), Rəcəb ("Şirinbala bal yığır", Salam Qədirzadə), Polad ("Təzə şagird", Qılman İlkin), Antonio ("Sükut divarı", Poalo Messina), Əşrəf bəy və Mahmud ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Kuzınınski ("Zəng səsləri", Ramiz Heydər), Senya koqan ("İnqilab naminə", Mixail Şatrov) kimi rolları ilə məşhurlaşmışdır. Aktyor fəaliyyət göstərdiyi teatrlarda bir neçə tamaşaya quruluş vermişdir.

Tariyel Qasımovun yaradıcılığı Dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, teatr sahəsindəki səmərəli fəaliyyətinə görə 1979-cu ildə Əməkdar artist, 1991-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2018-ci ildə III dərəcəli "Əmək" ordeninə layiq görülmüşdür.

Ə d ə b i y y a t :

Rəhimli, İ. Tariyel Qasımov / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə.- Cild 3.-Bakı, 2017.- S.296-297

Tariyel Qasımovun 80 illik yubileyi keçiriləcək /Nəzrin//525-ci qəzet.-2019.- 15 mart.- S. 7.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Tariyel_Qasımov

Firəngiz Şərifova - 100

(1924-2014) *Aktrisa*



Firəngiz Abbasmirzə qızı Şərifova 1924-cü il fevral ayının 6-da Bakı şəhərində böyük səhnə ustaları Abbasmirzə Şərifzadə və Mərziyyə Davudovanın ailəsində anadan olmuşdur. 1931-1941-ci illərdə orta məktəbdə oxuyarkən eyni zamanda Bakı Xoreoqrafiya Məktəbində də təhsil almışdır.

1941-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) daxil olmuş, 1947-ci ildə həmin ali məktəbin vokal fakültəsini bitirmişdir.

Firəngiz Şərifova əmək fəaliyyətinə 1947-1949-cu illərdə Azərbaycan Musiqili Komediya Teatrında (indiki Azərbaycan Dövlət Musiqili Teatrı) aktrisa kimi başlamışdır. 1949-1961-ci illərdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında, 1961-1965-ci illərdə isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında çalışmışdır. 1965-ci ildə yenidən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına qayıtmış və 2014-cü ilədək taleyini bu sənət ocağı ilə bağlamışdır.

Milli teatrın və kinematoqrafiyanın inkişafında təqdirəlayiq xidmətləri olan Firəngiz Şərifova müasir Azərbaycan mədəniyyəti salnaməsində özünəməxsus yer tutan görkəmli sənətkarlardandır.

Firəngiz Şərifova teatrımızın səhnəsində Gülçöhrə ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyli), Durna ("Durna" Süleyman Rüstəm və Səid Rüstəmov), Ulduz ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Keto ("Keto və Kote", Vladimir Dolidze), Bayadera ("Bayadera", İmre Kalman), Perdita ("Qış nağılı", Uilyam Şekspir), Həcər ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Ket ("Gözəllik və sevgi adası", Aleksis Parnis), İvanovna ("Palata", Samuil Alyoşin), Gülgün ("Od gəlini" Cəfər Cabbarlı), Ayşa ana ("Fudziyama dağında qonaqlıq", Çingiz Aytmatov və Kaltay Məhəmmədcanov), Pəri ("Sən nə üçün yaşayırsan?", İmran Qasımov və Həsən Seyidbəyli), Kraliça ("Qarlar kraliçası", Hans Xristian Andersen), Dorotti ("Tom dayının komaşı" , biçer Stou) və s. rolları ilə yadda qalmışdır. "Azərbaycanfilm" kinostudiyasında "Qaraca qız" (Yasəmən), "Qum üzərində bağ evi" (Ana), "Bayquş gələndə" (Nənə), "Qərib cinlər ölkəsində" (Tükəz), "Uzun ömrün akkordları" (Zərdabinin arvadı), "Qətl günü" (Nənə) bədii filmlərinə çəkilmişdir.

Firəngiz Şərifovanın Azərbaycan teatr və kino sənətinin inkişafı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmiş, o, 1960-cı ildə Əməkdar artist, 1969-cu ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2007-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatı laureatı olmuş, İttifaqın "Teatr xadimi" qızıl medalını almışdır. 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2002-ci ildən Prezident təqaüdçüsü olmuşdur.

Firəngiz Abbasmirzə qızı Şərifova 2014-cü il fevral ayının 20-də vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Rəhimli, İ. Firəngiz Şərifova / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası: üç cilddə / Layih. rəhb. Ə.M.Qarayev [ön söz]; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Cild 1.- Bakı, 2016.- S.403-404.

Ustad sənətkarın sənətkar qızı /S.Fərəcov//Mədəniyyət.-2021.- 12 fevral.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Firəngiz_Şərifova

Rəmziyyə Veysəlova – 110

(1914-1993)

Teatr aktrisası



Rəmziyyə Osman qızı Veysəlova 1914-cü il fevral ayının 11-də Bakı şəhərində anadan olmuşdur. 1922-1929-cu illərdə Bakıda yeni tipli qız məktəbində yeddiillik təhsil almışdır.

1929-1932-ci illərdə M.F.Axundzadə adına Bakı Teatr Məktəbinin aktyorluq fakültəsində oxumuşdur. Təhsil aldığı müddətdə sənət müəllimlərinin tövsiyəsi ilə Bakı Türk İşçi Teatrının yardımçı heyətinə qəbul olunmuş, kütləvi səhnələrə çıxmış, tamaşalarda iştirak edərək epizodik rollar oynamışdır.

Musiqili səsi, mürəkkəb məqamlarda da canlı və plastik hərəkətli səhnə davranışı, güclü texnika vərdişləri, iti yaddaşı, emosional cazibə qüdrəti vardı.

1932-ci ilin sonlarında ailə vəziyyəti ilə əlaqədar Aşqabad şəhərinə köçmüşdür. Aktrisa orada üç ilə yaxın "Rəmziyyə" və "Rəmziyyə Əfəndiyeva" kimi çıxış etmiş, müəyyən təcrübə toplamış və az müddətdə teatrın aparıcı aktrisalarının cərgəsinə çıxmışdır. 1934-1935-ci il teatr mövsümündə Bəhram Əfəndiyev (həyat yoldaşı) və Rəmziyyə xanım Gəncə şəhərinə gəlmiş və hər ikisi Gəncə Dövlət Dram Teatrının kollektivinə qəbul olunmuşlar.

Aktrisa altmış iki illik fəaliyyəti dövründə Ceyran ("Özgə uşağı", Vasili Şkvarkin), Almaz, Solmaz, Mariya Timofeyevna, Sitarə ("Almaz", "Od gəlini", "1905-ci ildə" və "Nəsrəddin şah", Cəfər Cabbarlı), Gülnar və Xuraman, Məryəm ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), Kəmalə, Sənubər ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Huri ("Məhəbbət", Mirzə İbrahimov), Balisa, Marsela ("Kələkbaz sevgili" və "Nə yardan doyur, nə əldən qoyur", Lope de Veqa), Natella ("Vətən namusu", Georgi Mdivani), Dilşad, Nəzakət, Nurcahan xanım ("Atayevlər ailəsi", "Sən həmişə mənimləsən" və "Mənim günahım", İlyas Əfəndiyev), Tükəz ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Xumar və Nina, Südabə ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Ayişə ("Şikayət qəbul olunmur", Toktobolat Əbdülmöminov), Rəxşəndə ("Kişilər", Altay Məmmədov), Məhsəti xanım ("Nizami", Mehdi Hüseyn), Həkim ("Göz həkimi", İslam Səfərli) və s. kimi rolları ifa etmişdir.

Gəncə Dövlət Dram Teatrının görkəmli aktrisalarından olmuş Rəmziyyə Veysəlova 1955-ci ildə Əməkdar artist, 1958-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görlmüş, 1981-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Rəmziyyə Veysəlova 1993-cü il avqust ayının 22-də Gəncə şəhərində vəfat etmiş, Bağbanlardakı Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t :

Rəhimli, İ. Rəmziyyə Veysəlova / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası: üç cilddə; layihənin rəhb. Ə.M.Qarayev [ön söz]; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: [Azərnəşr], 2016.- C.3.- S.126-128


Romantik və realist xarakterlər ustası /S.Fərəcov //Mədəniyyət.-2022.- 16 fevral.- S.6.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/ wiki/Rəmziyyə_Veysəlova https://wikivisually.com/ lang-az/wiki/Rəmziyyə_ Veysəlova

Muxtar Avşarov - 110

(1914-2004) *Teatr və kino aktyoru*



Muxtar Həsən oğlu Avşarov 1914-cü il fevral ayının 15-də İrəvan şəhərində anadan olmuşdur. 1922-ci ildə Gəncədəki Dəmiryol məktəbində oxumuş və IX sinfi bitirdikdən sonra Bakıya gələrək sənət məktəbində təhsil almağa başlamışdır.

1933-cü ildə sənət məktəbini bitirib Gəncəyə qayıdan Muxtar Avşarov Gəncə paravoz deposunda maşinist köməkçisi işləməklə yanaşı, Dəmiryolçuların Gənc Tamaşaçılar Teatrında aktyor kimi fəaliyyətini davam etdirmişdir. 1936-cı ildə yeni yaranmış Siyasi şöbə tərəfindən Moskvaya iki aylıq mədəni maarif kursuna göndərilmiş və oranı bitirdikdən sonra Gəncə Mədəniyyət Evində kütləvi işçi vəzifəsinə təyin edilmişdir. Bir müddətdən sonra onu Gəncə Dövlət Dram Teatrına dəvət etmişlər.

1968-ci ildə Azərbaycan Dövlət Akademik Dram Teatrına dəvət edilən sənətkar 1990-cı ilin sonlarınadək burada çalışmış, yüzlərlə tamaşada müxtəlif xarakterli obrazlar yaratmışdır.

1992-ci ildə Xalq artisti Amaliya Pənahova Bakı Bələdiyyə Teatrını yaratmış və qocaman aktyoru həmin teatra dəvət etmişdir. 1996-cı ildə Mədəniyyət Fondu nəzdində "Sönməyən ulduzlar" Teatrı fəaliyyətə başlamış və teatrın rejissoru Məmmədkamal Kazımov Muxtar Avşarovu teatra dəvət etmişdir. "Solğun çiçəklər" (C.Cabbarlı) pyesindəki Əbdül əmi rolu ona həvalə olunmuşdur.

Aktyorun kinodakı fəaliyyəti 40 illik bir dövrü əhatə edir. Kinoya 41 yaşında gəlmiş aktyor 90 yaşınadək filmlərə çəkilmişdir. "Yenilməz batalyon" (1965), "Dəli Kür" (1969), "Sevil" (1970), "Yoxlanılmış, inanılmış..." (1971), "Ulduzlar sönmür" (1971), "Gün keçdi" (1971), "Axırıncı aşırım" (1971), "Gilas ağacı" (1972), "Xatirələr sahili" (1972), "Qatır Məmməd" (1974), "Tütək səsi" (1975), "Ad günü" (1977), "Arxadan vurulan zərbə" (1977), "Sarıköynəklə Valehin Nağılı", "Yollar görüşəndə" (1979), "Qızıl uçurum" (1980), "Gözlə məni" (1980), "Babamızın babasının babası" (1981), "Birisi gün, gecəyarısı" (1981), "Qara gölün cəngavərləri" (1984), "Cin mikrorayonda" (1985), "Qanlı zəmi" (1985), "Qəm pəncərəsi" (1986), "İşarəni dənizdən gözləyin" (1986), "Qəm pəncərəsi" (1986), "Kişi sözü" (1987), "Qətl günü" (1990), "Etiraf" (1992), "Hacı Qara" (2002), "Güllələnmə təxirə salınır" (2003) və s. filmlərə çəkilmişdir.

Onun iştirakı ilə milli televiziyada hazırlanmış C.Cabbarlının "Solğun çiçəklər", İ.Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı", Ə.Haqverdiyevin "Diş ağrısı" televiziya tamaşaları Azərbaycan Dövlət Televiziya və Radio Şirkətinin qızıl fondunda qorunub saxlanılır.

Muxtar Avşarovun yaradıcılığı və fəaliyyəti yüksək qiymətləndirilmiş, o, 1960-cı ildə Əməkdar artist, 2002-ci ilin dekabr ayında isə Bakı Bələdiyyə Teatrının 10 illik yubileyi ilə əlaqədar olaraq Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2002-ci il oktyabr ayının 2-dən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur. 2004-cü ilin may ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Muxtar Avşarov 2004-cü il dekabr ayının 6-da vəfat etmişdir.

Ədəbiyyat:

R. Avşar. Muxtar Avşarov. Bakı,2009

Muxtar Avşarovun oğlu: "Atam istəmirdi ki, onun kimi aktyor olum" : /R. Avşarov//Türküstan.-2022.- 23-29 avqust.- S. 11.

Xatirəsi könüllərdə yaşayan və sevilən sənətkar /S.Fərəcov//Mədəniyyət.-2019.- 13 fevral.- S.1;6.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Muxtar_Avüarovar

Mustafa Mərdanov – 130

(1894-1968)

Teatr və kino aktyoru



Mustafa Haşım oğlu Mərdanov 1894-cü il fevral ayının 28-də Cənubi Azərbaycanda, Mərənddə anadan olmuşdur. Hələ uşaqkən ailəsi ilə Tiflisə köçmüş, 1924-cü ilə qədər burada yaşamışdır.

Azərbaycan xalqının qabaqcıl ziyalılarının qayğısı sayəsində istedadlı sənətkar Mustafa Mərdanov böyük səhnəyə qədəm qoymuşdur. 1917-ci ildə gimnaziyanı bitirdikdən sonra Rostova getmiş, Tibb Universitetinə daxil olmuşdur. Ancaq bu sənət Mustafanın urəyincə olmadığı üçün atasından icazə almış, tibb təhsililə yanaşı, həm də Rostovda dram studiyasında çalışmışdır.

1910-cu ildən səhnədə çıxış edən Mustafa Mərdanov 1918-ci ildə Tiflisə qayıtmış, müsəlman dram dərnəklərində fəaliyyət göstərmiş, 1921-1922-ci illərdə Tiflis Azərbaycan Dövlət Teatrının direktoru vəzifəsində çalışmışdır. Təhsilini davam etdirmək üçün Moskvaya, Dövlət Teatr Sənəti İnstitutuna getmişdir.

1924-cü ildə Bakıya gəlmiş və burada Azərbaycan Dövlət Dram Teatrında öz fəaliyyətini davam etdirmişdir. A.M.Şərifzadə, S.Ruhulla, A.Gəraybəyli, Ə.Ələkbərov və onlarla sənət korifeylərindən öyrəndikləri aktyorun sənət yoluna işıq salmış, onu yeni yaradıcılıq axtarışlarına ruhlandırmışdır. "Hacı Qara"da Kərəməli, "Yağışdan çıxdıq, yağmura düşdük"də Qəmbər, "Nadir şah"da Ədhəm kimi rolları Tiflis teatrında yaradan aktyor, Bakı teatrında daha ciddi rollar oynamalı olmuşdur. O, kino sənətində də ölməz obrazlar yaratmışdır.

Mustafa Mərdanov teatrda işlədiyi vaxtlar tez-tez filmlərdə də çəkilməyə dəvət almışdır. Muzdur Qulu ("Bismillah" - film, 1925) onun kinoda ilk rolu olmuşdur. Səssiz kinomuzun dəyərli nümunələrindən olan bu filmdə Mustafa Mərdanov maraqlı rol ifa etmişdir. 1930-cu illərin əvvəllərində çəkilmiş əksər filmlərdə - "O olmasın, bu olsun", "Əhməd haradadır?", 1968- ci ildə isə "Qanun naminə" filmində çəkilmişdir. Ömrünün sonuna kimi teatra bağlı olmuş, teatr səhnəsindən düşməmişdir. Əbədiyyətə qovuşan günədək 6000 dəfə səhnədə çıxış etmiş, 300-ə yaxın rol oynamışdır.

1959-cu ildə onun "50 il Azərbaycan səhnəsində xatirələrim" kitabı, ölümündən sonra, 1973-cü ildə isə "Mənim müasirlərim" xatirə kitabı nəşr edilmişdir. Məşhur aktyor 1962-1968-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinə (bugünkü Teatr Xadimləri İttifaqı) rəhbərlik etmişdir.

Onun uzun illik yaradıcı əməyi yüksək qiymətləndirilmiş, 1935-ci ildə Əməkdar artist, 1943-cü ildə Xalq artisti fəxri adlarına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif edilmişdir.

Mustafa Mərdanov 1968-ci il dekabr ayının 12-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t :

Rəhimli, İ. Mustafa Mərdanov / İlham Rəhimli; [burax. məsul S.İsmayılova; red. T.Rüstəmova; dizayner Z.Abbasov; baş red. G.Cəfərova].- Bakı: ŞərqQərb, 2017.- 174, [2] s.

Tarixdə iz qoyanlar: Məşədi İbadı meymuna oxşadan "intelligent"-Mustafa Mərdanov//Türküstan.-2021.- 2-8 mart.- S.24.

İ n t e r n e t d ə :*:*

https://az.wikipedia.org/wiki/Mustafa_Mərdanov

Şahin Tağıyev – 75

(1949)

Milli Qəhrəman



Şahin Talıb oğlu Tağıyev 1949-cu il fevral ayının 3-də Tərtər rayonunda anadan olmuşdur. İlk təhsilini 1956-cı ildə Bakının Bülbülə qəsəbəsində 208 saylı orta məktəbdə almış, 12 saylı internat məktəbində isə təhsilini başa vurmuşdur.

1969-cu ildə Bakı Energetika Texnikumunu bitirmiş və təyinatla Udmurt Vilayətinə göndərilmişdir. Gənc mütəxəsis kimi o, Udmurt vilayətinin İjevski şəhərindəki neft mədənlərinin birində əmək fəaliyyətinə başlamışdır. Elə oradan da ordu sıralarına çağırılmışdır. O, Hərbi xidmətini Novasibirskidə keçirmiş, burada raket-artillerya qoşun zabitlik kursunu bitirmişdir. Raketaltillerya qoşun hissələrində xidməti ona böyük təcrübə qazandırmışdır.

Ordu sıralarından tərxis olunduqdan sonra Bakı Mayesiz Transformatorlar Zavodunda işləmiş, sonra tikintidə mühəndis kimi çalışmışdır.

Respublikamızın ərazilərinə erməni müdaxiləsi başlayanda Şahin silah götürüb Vətənin müdafiəsinə qalxır. 1992-ci ildə yenicə yaradılmış "Qurtuluş" batalyonunun tərkibinə qatılmışdır. Tərtər, Seysulan, Yarımca, Levonarx döyüşlərində iştirak etmişdir. 1992-ci ilin mart ayında "Qurtuluş" batalyonuna komandir təyin edilmişdir.

Polkovnik-leytenant Şahin Tağıyev torpaqlarımızın azadlığı uğrunda fədakarlıq göstərənlərdən biri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Tağıyev Şahin Talıb oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

1993-cü ilin martında döyüşlərin birində ağır yaralanıb, hospitalda uzunmüddətli müalicədən sonra polkovnik-leytenant rütbəsində Ordudan tərxis olunmuşdur.

Şahin Tağıyev atəşkəs dövründə də Qarabağın azadlığı naminə fəaliyyətini davam etdirmişdir. 1998-ci ildə Qarabağ Koordinasiya Şurasının işində fəal iştirak etmişdir. Qarabağ Azadlıq Təşkilatının yaradıcılarından olub, 2000-ci ildə Qarabağ Azadlıq Təşkilatının bərpa qurultayında Ali Məclis üzvü, sədr müavini seçilmişdir. Hazırda İsveçdə yaşayır.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Tağıyev Şahin Talıb oğlu – kapitan – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №12.- S.35.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Şahin_Tagıyev_(milli_qəhrəman)

https://modern.az/azerbaycani-terk-eden-milli-qehreman-haralardadi/351149

Bəylər Ağayev - 55

(1969-1992)

Milli Qəhrəman



Bəylər Tapdıq oğlu Ağayev 1969-cu il fevral ayının 3-də Qubadlı rayonunun Qaraağac kəndində anadan olmuşdur. 1985-ci ildə qonşu Qaracallı kənd orta məktəbini bitirmişdir. 1987-ci ildə hərbi xidmətə çağırılmışdır. O, hərbi xidmətini 1989-cu ildə Almaniya Demokratik Respublikasında başa çatdıraraq doğma kəndlərinə qayıtmışdır.

1990-cı ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri Universitetinə daxil olmuşdur. 1992-ci ildə təhsilini yarımçıq qoymuş, könüllü olaraq ordu sıralarına yazılmışdır. Onun yüksək bacarığı ilk günlərdən diqqəti cəlb etmiş və bölmə komandiri təyin edilmişdir. Bəylər Ağayev Laçın rayonu ərazilərinin erməni işğalından təmizlənməsində fəal iştirak etməklə Səfiyan, Yuxarı və Aşağı Fərəcan, Mazutlu, Türklər, Suarası kəndlərində düşmənin xeyli canlı qüvvəsinin və hərbi texnikasının darmadağın edilməsində əsl qəhrəmanlıq nümunəsi göstərmişdir.

1992-ci il avqust ayının 6-sı Xanalılar kəndi uğrunda düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv edərək qəhrəmancasına şəhid olmuşdur. Qaraağac kəndindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Ağayev Bəylər Tapdıq oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Qaraağac kənd orta məktəbi onun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Ağayev Bəylər Tapdıq oğlu – bölmə komandiri – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 dekabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №24.- S.50. (Ölümündən sonra).

Bəylər Ağayev /M.Mirzə//Respublika.-2023.- 3 fevral.- S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Bəylər_Agayev

Təbriz Xəlilbəyli – 60

(1964-1992)

Milli Qəhrəman



Təbriz Xəlil Rza oğlu Xəlilbəyli 1964-cü il fevral ayının 12-də Bakı şəhərində, Xalq şairi Xəlil Rza Ulutürkün ailəsində anadan olmuşdur. 1981-ci ldə Bakı şəhəri M.Müşfiq adına 18 saylı orta məktəbi bitirmişdir. 1982-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmuşdur. Təhsilini qiyabi davam etdirərək, həm də C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında işıqçı işləmişdir.

1991-ci ilin sonunda könüllü olaraq cəbhəyə yollanmış, Xromord və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərmişdir. Döyüş şücaətinə görə DİN-nin "Boz qurd" mükafatına layiq görülmüşdür.

1992-ci il yanvar ayının 31-də Təbriz Xəlilbəylinin son döyüşü olmuş, o, qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Xəlilbəyli Təbriz Xəlil Rza oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ailəli idi. İki övladı yadigar qalmışdır.

Bakı şəhərində və Səlyan rayonunda küçələrdən biri onun adını daşıyır. Yaşadığı evin qarşısına xatirə lövhəsi vurulmuşdur.

Ə d ə b i y y a t :

Təbriz Xəlil Rza oğlu Xəlilbəyliyə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sıravi – Azərbaycan Respublikası suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə] Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il // Azərbaycan.- 1992.- 10 oktyabr.- S.1. (Ölümündən sonra).

"Ulu türkün Təbrizi"/T.Aydınoğlu//Xalq qəzeti.-2020.- 28 fevral.- S.10.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/T%C9%99briz_X%C9%99lilb%C9%99yli

https://avciya.az/x%C9%99lilb%C9%99yli-t%C9%99briz-x%C9%99lil-rza-oglu/

https://ordu.az/az/news/126310/tebriz-xelilbeylinin-sehid-oldugu-gundur

Ramazan Çirinqov - 55

(1969-1995) *Milli Qəhrəman*



Ramazan Heybullah oğlu Çirinqov 1969-cu il fevral ayının 15-də Balakən rayonunun Meşəşambul kəndində anadan olmuşdur.

1986-cı ildə Meşəşambul kənd orta məktəbini bitirmiş, Balakən Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Əfqanıstanda keçirən Ramazan, göstərdiyi şücaətə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və "Beynəlmiləl döyüşçüyə" döş nişanı ilə təltif edilmişdir.

1989-cu ildə ordudan tərxis olunaraq, Balakən rayon Daxili İşlər şöbəsində polis nəfəri kimi əmək fəaliyyətinə başlamışdır.

1995-ci il sentyabr ayının 3-də Balakən rayonunda cinayətkar dəstəni zərərsizləşdirərkən qəhrəmancasına şəhid olmuşdur. Meşəşambul kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 saylı Fərmanı ilə Çirinqov Ramazan Heybullah oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Balakən şəhərindəki küçələrdən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Çirinqov Ramazan Heybullah oğlu – polis starşinası – Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasında, əmin-amanlığın təmin edilməsində, qeyri-qanuni silahlı dəstələrin zərərsizləşdirilməsində, mütəşəkkil cinayətkarlığa, banditizmə və digər cinayətlərə qarşı mübarizədə öz xidməti borcunu şərəflə yerinə yetirərkən şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 dekabr 1995-ci il //Azərbaycan.- 1995.- 27 dekabr.- S.1. (Ölümündən sonra).

Balakənin cəsur oğlu /Q.Aslan//Respublika.-2022.- 15 fevral.- S.12.

İ n t e r n e t d ə :

https://avciya.az/cirinqov-ramazan-heybullah-oglu/

https://shexsiheyet.mia.gov.az/?/az/menu/176/

Sahil Məmmədov – 60

(1964)

Milli Qəhrəman



Sahil Ələmdar oğlu Məmmədov 1964-cü il fevral ayının 25-də Qərbi Azərbaycanın Uluxanlı (Masis) rayonunun Yuxarı Necili (Nizami) kəndində anadan olmuşdur. 1971-1981-ci illərdə Bakıxanov qəsəbəsindəki 96 saylı məktəbdə təhsil almışdır.

1982-ci ildə ordu sıralarına çağırılmışdır. 1983-cü ildə Moskva vilayətinin Krasnoqorsk şəhərində hərbi xidmətdə olarkən rəhbərlik tərəfindən SSRİ DİN-nin Sankt-Peterburq şəhərindəki Ali Siyasi Məktəbinə oxumağa göndərilmişdir. 1987-ci ildə təyinatla Ukrayna Respublikasının Çerniqov, sonra isə Kiyev şəhərlərinə göndərilmişdir.

Daxili Qoşun Hərbi Birləşmələrinin tərkibində rota komandirinin siyasi işlər üzrə müavini vəzifəsində çalışmağa başlamışdır. 1991-ci ilin oktyabrında Sovet Ordusu sıralarından tərxis olunmuşdur.

1992-ci il yanvar ayının 2-də Azərbaycan Respublikası DİN-nin Daxili Qoşunlar İdarəsinin hərbi polis alayında rota komandirinin müavini kimi fəaliyyətə başlamışdır. Daha sonra Sahil Məmmədov Ağkənd, Dərəli, Qazançı kəndlərində zastava rəisi təyin edilmişdir.

O, 1992-ci il iyun ayının 2-də Zəngilan rayonunun Qazançı kəndində gedən döyüşdə ağır yaralanmış, bir ayağını itirmişdir.

1994-cü ildən polkovnik-leytenant Sahil Məmmədov DİN-nin Pasport, Viza və Qeydiyyat İdarəsində baş inspektor vəzifəsində çalışmışdır. Sahil Məmmədov torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparmış, böyük şücaət göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Məmmədov Sahil Ələmdar oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmiş və Ulu Öndər Heydər Əliyev şəxsən "Milli Qəhrəman" vəsiqəsini və medalını qəhrəmana təqdim etmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Sahil Ələmdar oğlu – polis baş leytenantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.

"Bizim Komandir": Milli Qəhrəman Sahil Məmmədov haqqında film nümayiş olunub//Mədəniyyət.-2022.- 4 noyabr.- S.6

İnternetdə:

https://avciya.az/ Sahil Ələmdar oğlu Məmmədov

https://vetendas.az/sahil- Məmmədov Ələmdar oğlu

FEVRAL

1

Əhmədxan Əhmədov - 25

(1999-2020)

Əsgər



Əhmədxan Məzahir oğlu Əhmədov 1999-cu il fevral ayının 1-də Daşkəsən rayonu, Quşçu kəndində anadan olmuşdur.

Əslən Kəlbəcər rayonundan idi. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əhmədxan Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Əhmədxan Əhmədov Xocavənd və Şuşa döyüşlərində iştirak etmişdir. 2020-ci ildə noyabr ayının 9-da Şuşa istiqamətində gedən döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuşdur.

Əhmədxan Məzahir oğlu Əhmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qoyulmuş tapşırıqların icrası zamanı verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

1

Əzizağa Hüseynov - 25

(1999-2020)

Əsgər



Əzizağa Nizami oğlu Hüseynov 1999-cu il fevral ayının 1-də Ağsu rayonunun Bozavand kəndində anadan olmuşdur. İlk təhsilini 2005-ci ildən Ağsu rayon Natiq Mirzəliyev adına Ağarx kənd tam orta məktəbində alan Əzizağa 2016-cı ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir.

2017-ci ildə hərbi xidmətə yollanmış, Şəmkirdəki hərbi xidmət müddətini 2018-ci ildə başa vurmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əzizağa Hüseynov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Əzizağa Hüseynov 16 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Əzizağa Nizami oğlu Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

FEVRAL

2

Elvin Qurbanlı - 25

(1999-2020)

MAHHXHQ əsgər



Elvin Mehman oğlu Qurbanlı 1999-cu il fevral ayının 2-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə İ.Mürşüdov adına Aşağı Quşçu kənd tam orta məktəbində təhsil almışdır.

Elvin Qurbanlı 2017-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Elvin Qurbanlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Elvin Qurbanlı oktyabrın 1-də Kəlbəcər rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn edilmişdir.

Elvin Mehman oğlu Qurbanlı ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

3

İbrahim Cəbrayıllı - 25

(1999-2020)

MAHHXHQ çavuş



İbrahim Raqub oğlu Cəbrayıllı 1999-cu il fevral ayının 3-də Zərdab rayonunun Məlikumudlu kəndində anadan olmuşdur.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan İbrahim Cəbrayıllı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. İbrahim Cəbrayıllı sentyabrın 30-da Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

İbrahim Raqub oğlu Cəbrayıllı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

3 FEVRAL

Məkan Qəhrəmanov - 25

(1999-2020) *MAHHXHQ əsgər*



Məkan Mübariz oğlu Qəhrəmanov 1999-cu il fevral ayının 3-də Ağcabədi rayonunun Minəxorlu kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə orta təhsil almışdır. 2020-ci ilin iyul ayından ordu sıralarında MAXE kimi qulluq etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məkan Qəhrəmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Məkan Qəhrəmanov 10 oktyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Minəxorlu kənd qəbristanlığında dəfn edilmişdir.

Məkan Mübariz oğlu Qəhrəmanov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

3

Rövşən Əliyev - 25

(1999-2020) *Əsgər*



Rövşən İsrafil oğlu Əliyev 1999-cu il fevral ayının 3-də Şəmkir rayonunun Düyərli kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Düyərli kəndi 1 saylı tam orta məktəbdə təhsil almışdır, sərbəst güləşlə məşğul olmuşdur. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur. Naxçıvan şəhərinin Ordubad rayonunda qulluq etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rövşən Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzuli, Hadrut, Qubadlı, Zəngilan və Ağdam rayonları uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rövşən Əliyev oktyabr ayının 26-da döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur.

Rövşən İsrafil oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

FEVRAL

4

Qubat Əliyev - 30

(1994-2020)

Əsgər



Qubat Hüsür oğlu Əliyev 1994-cü il fevral ayının 4-də Sumqayıt şəhərində anadan olmuşdur. 2001-2010-cu illərdə Sumqayıt şəhər 8 nömrəli orta məktəbdə oxuyub, daha sonra 1 nömrəli Peşə Liseyində təhsilini davam etdirmişdir. 2013-cü ildə hərbi xidmətə çağırılmış və Ağdam rayonunda xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qubat Hüsür oğlu Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində döyüşlərə qatılmışdır. Qubadlı, Ağdərə və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 8-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Qubat Hüsür oğlu Əliyev Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

4

Cavid Manafov - 25

(1999-2020)

Əsgər



Cavid Faiq oğlu Manafov 1999-cu il fevral ayının 4-də Bakı şəhərində anadan olmuşdur. O, 2005-2016-cı illərdə Heydər Əliyev adına liseydə orta təhsil, 2016-2020-ci illərdə isə Bakı Dövlət Universitetində (SEP) Psixologiya fakültəsi üzrə ali təhsil almışdır. 8 iyul 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Cavid Faiq oğlu Manafov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 31 oktyabr 2020-ci il tarixdə ağır yaralanmışdır. 2020-ci il noyabr ayının 7-də şəhid olmuşdur.

Cavid Faiq oğlu Manafov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Cavid Mahmudov - 35

(1989-2020)

Kapitan



Cavid Hilal oğlu Mahmudov 1989-cu il fevral ayının 6-da Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olmuşdur.

Cavid Mahmudov 1995-2006-cı illərdə Aşağı Cürəli kənd tam orta məktəbində orta təhsil, 2006-2010-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

Cavid Mahmudov 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2012-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Göygöl rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2020-ci ildən isə o, Azərbaycan Silahlı Qüvvələrinin Abşeron rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi.

Azərbaycan Ordusunun kapitanı olan Cavid Mahmudov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 5-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Biləsuvar rayonunda dəfn olmuşdur.

Cavid Hilal oğlu Mahmudov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezident i İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3; Xalq qəzeti.- 2021.- 6 noyabr.- S.3.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/402

https://respublika-news.az/news/qururla-aniriq-cavid-mahmudov

https://report.az/qarabag/dogum-gunu-mezari-onunde-qeyd-edilen-zabitimiz/

FEVRAL
7

Əkbər Tağıyev - 30

(1994-2020)

Əsgər



Əkbər Məhəmməd oğlu Tağıyev 1994-cü il fevral ayının 7-də Yevlax rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Mingəçevir şəhərindəki Turizm kollecində təhsil almışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Əkbər Tağıyev Suqovuşan, Ağdərə, Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından sonra 19 noyabr 2020-ci ildə şəhid olmuşdur. Yevlax Şəhidlər xiyabanında dəfn edilmişdir.

Əkbər Məhəmməd oğlu Tağıyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

İnternetdə:

https://www.unudulmazlar.az/az/infom/532

9

Qoşqar Ömərov - 30

(1994-2020)

Əsgər



Qoşqar Səxavət oğlu Ömərov 1994-cü il fevral ayının 9-da Kürdəmir rayonunun Şilyan (Qarasu) kəndində müəllim ailəsində anadan olmuşdur. 2011-ci ildə Qarasu kənd orta məktəbini yüksək qiymətlərlə bitirərək yüksək balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat-informatika fakültəsinə daxil olmuşdur. 2015-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnformasiya texnologiyaları ixtisası üzrə magistraturaya daxil olsa da, hərbi xidmətə yola düşmüşdür. 2016-2018-ci illərdə magistr təhsili almışdır. 2018-ci ildə MİQ imtahanında 57 bal toplayaraq Masazır kənd 5 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır.

Qoşqar Ömərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmişdir. Noyabrın 4-də Şuşanın Daşaltı kəndinin ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Qoşqar Səxavət oğlu Ömərov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalımedalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

Faiq Qasımov - 50

(1974-2020) *Polkovnik-leytenant*



Faiq Qaçay oğlu Qasımov 1974-cü il fevral ayının 10-da Qubadlı rayonunun Qayalı kəndində anadan olmuşdur.

Faiq Qaçay oğlu Qasımov 1981-1990-cı illərdə Qubadlı rayonunun Qayalı Kənd tam orta mətəbində orda təhsil almışdır. 1993-cü il avqustun 1-də Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olmuşdur və 1995-ci ildə oranı "Motoatıcı" ixtisası üzrə bitirmişdir.

Faiq Qasımov 1995-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində, 2010-2012-ci illərdə Balakən rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2012-2013-cü illərdə Mingəçevir şəhərində yerləşən "N" saylı hərbi hissəsində, 2013-cü ildən isə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Faiq Qasımov cəbhənin Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Faiq Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sentyabr ayının 27-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Faiq Qaçay oğlu Qasımov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Vətən Müharibəsi Qəhrəmanı" medalları ilə təltif edilmişdir.

Faiq Qaçay oğlu Qasımovun şəxsi əşyaları AMEA Milli Azərbaycan Tarixi Muzeyinin İkinci Qarabağ müharibəsi fondunda qorunur.

2021-ci il fevralın 12-da İctimai TV-də Faiq Qasımova həsr olunan sənədli filmi təqdim olunmuşdur. 22 dəqiqədən ibarət olan sənədli filmdə onun həyatı və döyüş yolu barədə məlumat verilmişdir.

2021-ci ildə Qubadlı rayonu Mahmudlu kənd tam orta məktəbinə (müvəqqəti olaraq Sumqayıt şəhərində yerləşir) Vətən Müharibəsi Qəhrəmanı Faiq Qasımovun adı verilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 10 dekabr.- S.3.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

İ n t e r n e t d ə :

https://memorial.az/az/qehremanlarimiz/953

https://vetennamine.az/s%C9%99hidl%C9%99rimizi-yasadaq-3/

FEVRAL
11

Fərid Teymurov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Fərid Fizuli oğlu Teymurov 1999-cu il fevral ayının 11-də Cəlilabad rayonunun Qarğılı kəndində anadan olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Teymurov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 2020-ci ilin oktyabrın əvvəlində itkin düşmüşdür. Uzun müddət nəşi tapıla bilməmişdir. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunmuşdur. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülmüşdür. Fərid Teymurovun nəşi 2 yanvar 2021-ci ildə tapılmış və Cəlilabad rayonunun Qarğılı kəndində dəfn olunmuşdur.

Fərid Fizuli oğlu Teymurov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

11

Azər Şükürov - 30

(1994-2020)

Əsgər



Azər Cahid oğlu Şükürov 1994-cü il fevral ayının 11-də Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Əli Rüstəmov adına Birinci Şahsevən kənd 1 nömrəli tam orta məktəbdə təhsil almışdır. Hərbi xidməti başa vurduqdan sonra Beyləqanda yerləşən pambıq istehsalı və emalı zavodunda traktorçu kimi çalışmışdır.

Azər Şükürov 2014-cü ilin aprelində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Beyləqan rayon üzrə Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmış, Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Azər Şükürov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Azər Şükürov 22 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Nəşi 3 noyabr tarixində tapılmış və 4 noyabr tarixində Beyləqan rayonunun Birinci Şahsevən kəndində dəfn olunmuşdur.

Ailəli idi. 2 övladı yadigar qalıb.

Azər Cahid oğlu Şükürov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

FEVRAL

12

Elqaş Əliyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Elqaş Barat oğlu Əliyev 1999-cu il fevral ayının 12-də Lerik rayonunun Bırkandul kəndində anadan olmuşdur. Lerik rayon Zahid Həsənov adına Bırkandul kənd ümumi orta məktəbində IX sinfə qədər təhsil almış, daha sonra Ənvər Nəciyev adına Vistən kənd tam orta məktəbində orta təhsilini tamamlamışdır.

Elqaş Əliyev 18 yaşında həqiqi hərbi xidmətə çağrılmış, xidmət müddəti bitdikdən sonra isə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi orduda fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elqaş Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. 3 noyabr tarixində Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Elqaş Barat oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

13

Xəyal Məmmədov - 35

(1989-2020)

MAHHXHQ kiçik çavuş



Xəyal Arif oğlu Məmmədov 1989-cu il fevral ayının 13-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Xəyal Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərə qatılmışdır. Xəyal Məmmədov oktyabrın 2-də Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olmuşdur. O, Göyçay rayonunun Birinci Ərəbcəbirli kəndində dəfn olunmuşdur.

Xəyal Arif oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə əltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.66-67.

FEVRAL
13

Eldar Əliyev - 30

(1994-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Eldar Süleyman oğlu Əliyev 1994-cü il fevral ayının 13-də Bakıda anadan olmuşdur. 2000-2011-ci illərdə Bakı şəhəri 70 nömrəli məktəb-liseydə orta təhsil aldıqdan sonra, Azərbaycan Dövlət İqtisad Universiteti Türk Dünyası İşlətmə Fakültesinə daxil olmuşdur. 2015-ci ildə təhsilini müvəffəqiyyətlə başa vuraraq hərbi xidmətə getmişdir. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu motoatıcı hərbi hissəsində pulemyot atıcı olaraq xidmət etmişdir.

2016-cı il hərbi xidmətdən qayıdan Eldar Əliyev, Azərbaycanın böyük şirkətlərinin birində, Azərbaycan Supermarket MMC-də, daha sonra isə Bulvar Hoteldə çalışmışdır.

Eldar Süleyman oğlu Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzuli, Hadrut və Cəbrayılın işğaldan azad olunması uğrunda gedən döyüşlərə qatılmışdır. 13 oktyabr tarixində Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. 18 oktyabr tarixində Bakı şəhərində, Əhmədli qəsəbəsi qəbristanlığında dəfn olunmuşdur.

Eldar Süleyman oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" , "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

13

Oruc Cəfərov - 30

(1994-2020)

Əsgər



Oruc Vaqif oğlu Cəfərov 1994-cü il fevral ayının 13-də Bərdə rayonunun Xanərəb kəndində anadan olmuşdur. Orta təhsilini 2000-2011-ci illərdə Bərdə şəhərindəki internat məktəbində almışdır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Oruc Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 8-də Ağdərə istiqamətində gedən döyüşlərd qəhrəmancasına şəhid olmuşdur.

Oruc Vaqif oğlu Cəfərov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

AAzərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

FEVRAL
14

Ülvi Nüsrətbəyli - 25

(1999-2020)

Əsgər



Ülvi Arif oğlu Nüsrətbəyli 1999-cu il fevral ayının 14-də Masallı rayonunun Güllütəpə kəndində anadan olmuşdur. 2016-2020-ci illərdə Lənkəran Dövlət Universitetində ali təhsil almışdır.

Ülvi Nüsrətbəyli 2020-ci ilin iyulundan Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Nüsrətbəyli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Ülvi Nüsrətbəyli oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olmuş, Masallı rayonunda dəfn olunmuşdur.

Ülvi Arif oğlu Nüsrətbəyli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

14

İlham Məmmədov - 25

(1999-2020)

Əsgər



İlham Rauf oğlu Məmmədov İlham Rauf oğlu 1999-cu il fevral ayının 14-də Gəncə şəhərində anadan olmuşdur. 2016-cı ildə Gəncə şəhər M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbi bitirmişdir.

2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

27 sentyabr 2020-ci il tarixdə Vətən Müharibəsinin başlaması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarixli Sərəncamına uyğun olaraq İlham Məmmədov yenidən hərbi xidmətə çağrılmışdır. O, Xocavənd rayonunun Ağoğlan (Hadrut), Füzuli və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 9 noyabr 2020-ci ildə Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. 21 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

İlham Rauf oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsaslanaraq "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

FEVRAL
15

Veysəl Musibov - 35

(1989-2020)

Kapitan



Veysəl Yadulla oğlu Musibov 1989-cu il fevral ayının 15-də Qazaxıstan SSR Taldı-Kurqan vilayətinin Kirov qəsəbəsində anadan olmuşdur.

Veysəl Musibov orta məktəbə 7-ci sinfə qədər Şahbuz rayonunun Sələsüz kəndində Vahid Ələkbərov adına orta məktəbdə oxumaqla başlamışdır. 2004-2007-ci illərdə Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi liseydə, 2007-2011-ci illərdə AAHM-da oxumuşdur.

Veysəl Musibov 2011-ci ildə "N" saylı hərbi hissədə taqım komandiri kimi xidmət etmişdir. 2012 -ci ildə Xüsusi Təyinatlı Qüvvələr kursu keçərək Xüsusi Əməliyyat Qrup komandiri vəzifəsində xidmət etmişdir.

Tarixə Aprel döyüşləri olaraq yazılan döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olaraq savaşmışdır.

Veysəl Yadulla oğlu Musibov Dəfələrlə hərbi hissədə və xarici ordular arasında yarışlarda iştirak etmişdir. 2018-ci ildə ordu arasında keçirilən kəşfiyyatçı qrup yarışında 1-ci yeri tutmuşdur. "Efes-2018" Xüsusi Təyinatlılar yarışında iştirak etmiş, 24 ölkə arasında qrup olaraq 1-cilik əldə etmişdirlər.

2018-ci ildə Xüsusi Əməliyyat taborunda Əməliyyat zabiti olmuşdur. 2019-2020-ci illər ərzində xüsusi əməliyyat taborunun qərargah rəisi vəzifəsində Vətənə xidmət etmişdir.

Veysəl Musibov 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsinə qatılaraq Kəlbəcər rayonu istiqamətində Murov yüksəkliyinin alınmasında fəal iştirak etmişdir. Həmçinin Füzuli rayonunun bəzi kəndlərinin alınmasında iştirak etmiş, Cəbrayıl rayonunun alınması zamanı 7 oktyabr 2020-ci ildə şəhid olmuşdur. 8 oktyabr 2020-ci ildə Xırdalan şəhər Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Ailəli idi. İki övladı yadigar qalıb.

Veysəl Yadulla oğlu Musibov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur

2021-ci il noyabrın 25-də İctimai Televiziyanın "Heç kim unudulmur, heç nə yaddan çıxmır" verilişinin növbəti seriyası Veysəl Musibova həsr edilmişdir.

2021-ci ildə Abşeron rayonu Xırdalan şəhəri 5 nömrəli tam orta məktəbə Vətən Müharibəsi Qəhrəmanı Veysəl Musibovun adı verilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.24-28.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

FEVRAL
15

İsa Məhərrəmov - 25

(1999-2020)

Əsgər



İsa Məhərrəm oğlu Məhərrəmov 1999-cu il fevral ayının 15-də Bakıda anadan olmuşdur.

Bakı Kooperasiya və Biznes Kollecində təhsil almışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı İsa Məhərrəmov Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 19 oktyabr 2020-ci ildə şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ailəli idi. İki övladı yadigar qalıb.

İsa Məhərrəm oğlu Məhərrəmov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

15

Fariz Babayev - 40

(1984-2020)

MAHHXHQ çavuş



Fariz Zakir oğlu Babayev 1984-cü il fevral ayının 15-də Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olmuşdur.

Fariz Babayev kəşfiyyatda sanitar-təlimatçı vəzifəsində çalışmışdır. O, döyüşməklə bərabər, həm də yaralılara tibbi xidmət göstərirdi.

Azərbaycan Ordusunun çavuşu olan Fariz Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Hadrut və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 3-də Şuşa döyüşləri zamanı Daşaltı istiqamətində qəhrəmancasına şəhid olmuşdur. Şəhid Fariz Füzuli rayonunun Bala Bəhmənli kəndində dəfn edilmişdir.

Ailəli idi. İki övladı yadigar qalıb.

Fariz Zakir oğlu Babayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

FEVRAL
18

Cahid Qəniyev - 30

(1994-2020)

Gizir



Cahid Şaiq oğlu Qəniyev 1994-cü il fevral ayının 18-də Lerik rayonun Sors kəndində anadan olmuşdur. Orta təhsilini Çaylı kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun giziri olan Cahid Qəniyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Cahid Qəniyev sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. O, 13 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Çaylı kənd məzarıstanlığında dəfn edilmişdir.

Ailəli idi. Bir övladı yadigar qalıb.

Cahid Şaiq oğlu Qəniyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan $g 2021.- 25 iyun.- S.66-67.

18

Vahid Alıyev - 35

(1989-2020)

Gizir



Vahid Abbas oğlu Alıyev 1989-cu il fevral ayının 18-də Daşkəsən rayonun Alunitdağ qəsəbəsində anadan olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Vahid Alıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vahid Alıyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur.

Vahid Abbas oğlu Alıyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

İnternetdə:

https://ordu.az/az/news/242499

FEVRAL
22

Səfa Qaraxanov - 30

(1994-2020) *MAHHXHQ əsgər*



Səfa Yenişar oğlu Qaraxanov 1994-cü il fevral ayının 22-də Salyan rayonu Xalac kəndində anadan olmuşdur. 2001-2012 illərdə orta təhsil almışdır. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır. Xidməti başa xurduqdan sonra müddətdən artıq hərbi qulluqçu kimi çalışmağa başlamışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Səfa Qaraxanov Füzuli və Cəbrayıl döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 1-i Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Səfa Qaraxanov Səlyanda dəfn olunmuşdur.

Səfa Yenişar oğlu Qaraxanov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

22

Şəhriyar Məmmədov - 25

(1999-2020) *Leytenant*



Şəhriyar Müzəffər oğlu Məmmədov 1999-cu il fevral ayının 22-də Naxçıvan şəhərində anadan olmuşdur. 2016-2020-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Şəhriyar Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Şəhriyar Məmmədov oktyabrın 11-də Xocavənd uğrunda gedən döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Naxçıvan şəhərində dəfn edilmişdir.

Şəhriyar Müzəffər oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Vətənə xidmətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57

FEVRAL

23

Cavid Kərimov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Cavid Mərdan oğlu Kərimov 1999-cu il fevral ayının 23-də Yevlax rayonu Aşağı Bucaq kəndində anadan olmuşdur.

Cavid Kərimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı, oktyabr ayının 2-də Suqovuşan və Murov dağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Yevlax Şəhidlər xiyabanında dəfn edilmişdir.

Cavid Mərdan oğlu Kərimov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıdığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.6-12.

25

Namiq Xəlilli - 30

(1994-2020)

Baş leytenant



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Namiq Həsən oğlu Xəlilli 1994-cü il Namiq Həsən oğlu Xəlilli 1994-cü il fevral ayının 25-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Azadkənd kəndində anadan olmuşdur. O, orta təhsilini 2000-2009-cu illərdə Ordubad rayonunun Azadkənd tam orta məktəbində almışdır.

Uşaq yaşlarından hərbiyə böyük marağı olan Namiq Xəlilli sənədlərini 2009-cu ildə hərbi liseyə vermiş və 3 il Naxçıvanda oxumuş, sonra Bakıya gələrək burada hərbi təhsil almışdır. O 2016-cı ildə leytenant rütbəsi ilə hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan Namiq Xəlilli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. 23 oktyabr 2020-ci il tarixində Laçın istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Namiq Həsən oğlu Xəlilli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıdığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra"İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

FEVRAL
25

Asəf Nəsibov - 30

(1994-2020)

Əsgər



Asəf Səfəralı oğlu Nəsibov 1994-cü il fevral ayının 25-də Qazax rayonunun Qaymaqlı kəndində anadan olmuşdur. Kənd orta məktəbində təhsil almışdır. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunudur. Hərbi xidməti bitirdikdən sonra "Sumqayıt Kimya Sənaye Parkı" MMC-də əmək fəaliyyətinə başlamışdır.

Asəf Nəsibov 2016-cı ilin Aprel döyüşlərində snayperçi kimi iştirak etmişdir. O, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixdən başlayan Vətən müharibəsində iştirak etmiş, Cəbrayıl, Qubadlı və Laçın rayonları istiqamətində gedən döyüşlərdə vuruşmuş və düşmən hücumunun qarşısını alarkən 29 oktyabr tarixində şəhid olmuşdur.

Asəf Səfəralı oğlu Nəsibov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

27

Emin Alməmmədov - 35

(1989-2020)

Gizir



Emin Akif oğlu Alməmmədov 1989-cu il fevral ayının 27-də Şəmkir şəhərində anadan olmuşdur. 2007-ci ildə Şəmkir şəhər C.Rüstəmov adına tam orta məktəbi bitirmişdir. 2008-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Tərxis olunduqdan bir müddət sonra yenidən ordu sıralarına qayıtmış və 2013-cü ildən MAHHXHQ kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan Emin Alməmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Emin Alməmmədov sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Şəmkir şəhərində dəfn olunmuşdur.


Emin Akif oğlu Alməmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Mahmud Məmmədquliyev - 75

(1949) *Diplomat*



Mahmud Əhməd oğlu Məmmədquliyev 1949-cu il fevral ayının 15-də Gəncə şəhərində anadan olmuşdur.

O, 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) hüquq fakültəsini bitirmişdir. 1972-1974-cü illərdə Azərbaycan Dövlət Universitetinin müəllimi olmuşdur. 1974-1993-cü illərdə müxtəlif dövlət orqanlarında xidmət etmişdir. 1992-1993- cü illərdə Kommersiya Bankının idarə heyəti sədrinin müavini omuşdur.

Mahmud Məmmədquliyev 1995-ci il noyabr ayının 12-də 3 №-li seçki dairəsindən Milli Məclisin deputatı seçilmiş, 2000-ci ilə qədər Azərbaycan Respublikası Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının üzvü olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti 25 noyabr 1993-cü ildə M.Məmmədquliyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri dərəcəsi verilməsi haqqında sərəncam imzalamışdır.

M.Məmmədquliyev 1993-cü il noyabr ayının 25-dən 2001-ci il may ayının 25-nə qədər Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığında və eyni zamanda İrlandiya Respublikasında, İsveç və Norveç Krallıqlarındakı və Danimarka Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri olmuşdur.

M.Məmmədquliyev Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 1993-cü ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini vəzifəsinə təyin olunmuşdur və hal-hazırda həmin vəzifəni daşıyır.

Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mahmud Məmmədquliyev Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli sərəncamına əsasən 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

M.Ə.Məmməd-Quliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 fevral 2019-cu il // Azərbaycan $g 2019.- 15 fevral.- S.5.

Nur-Sultanda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üzv dövlətlərinin XİN rəhbərlərinin VI görüşü keçirilir //Azərbaycan.-2021.- 13 oktyabr.- S.5.

Bali Demokratiya Forumunda Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizəyə verdiyi töhfələrdən danışılıb//Azərbaycan .-2021.- 10 dekabr.- S.2.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Mahmud_Məmmədquliyev

Rəcəb Tayyib Ərdoğan – 70

(1954) Türkiyə Respublikasının prezidenti



Rəcəb Tayyib Ərdoğan 1954-cü il fevral ayının 26-da İstanbulun Qasımpaşa bölgəsində anadan olmuşdur. 1965-ci ildə Piyalə paşa ibtidai məktəbini bitirmişdir. 1965-1973-cü illərdə İmam Xatib liseyində təhsil almışdır. Daha sonra ali təhsilini Mərmərə Universitetinin İqtisadi və ticari elmlər fakültəsində almışdır.

O, Camialtı, İETT, və Eroksporda 16 il futbol oynamışdır. 12 sentyabr 1980-ci ildən sonra futboldan ayrılmışdır.

Rəcəb Tayyib Ərdoğan Milli Türk Birliyindəki fəaliyyətindən sonra 1976-cı ildə islami dəyərlərə sadiqliyi ilə bilinən Milli Səlamət Partiyası Bəyoğlu Gənclər Şöbəsinin sədri və həmin il də MSP İstanbul il (vilayət) başçısı seçilmişdir.

Rəcəb Tayyib Ərdoğan 1982-ci ildə hərbi xidmətdə olmuş, qərargah zabiti olaraq əsgərliyini bitirmişdir.

1983-cü ildə qurulmuş Rifah Partiyası ilə siyasi fəaliyyətə təkrar qayıtmış, 1984-cü ildə partiyanın Bəyoğlu rayon başçısı və yüksək idarə orqanına üzv seçilmişdir. 1986-cı ildə əlavə seçkilərdə deputatlığa namizədliyi irəli sürülmüşdür. 1989-cu ildə isə Bəyoğlu rayonundan bələdiyyə sədrliyinə namizəd olmuşdur. 1989-cu il seçkilərində Rifah Partiyası ikinci yeri tutmuşdur. 1991-ci ildə təkrar deputatlığa namizədliyi irəli sürülmüşdür. 1994-cü il seçkilərinə qədər partiyanın İstanbul İl (vilayət) başçısı vəzifəsində işləmişdir. 1994-cü ildə İstanbul Bələdiyyəsinin sədri seçilmişdir.

Rəcəb Tayyib Ərdoğan 27 dekabr 1997-ci ildə Siirtdə mitinq zamanı oxuduğu bir şeirə – Ziya Göyalpın 1912-ci ildə "Balkan Savaşı" üçün yazdığı "Asker Duası"nın dəyişdirilmiş bir hissəsinə görə və çıxışının davamında "hər dövrün Firoun və Nemrutları olduğu kimi bunun qarşısına çıxacaq Musa və İbrahimləri də var" söyləməsi səbəbindən həbs olunmuşdur. 1999-cu il iyul ayının 24-də azadlığa çıxmışdır.

Türkiyədə islami zümrəyə qarşı yürüdülən siyasətin nəticəsi olaraq Fəzilət Partiyasının konstitusiya məhkəməsi tərəfindən ləğv edilməsindən sonra, Tayyib Ərdoğanın liderliyində 14 avqust 2001-ci ildə Ədalət və İnkişaf Partiyasını yaradılmışdır. Tayyib Ərdoğan partiyanın sədri seçilmişdir.

2002-ci ildə Ədalət və İnkişaf Partiyası seçkilərində səslərin böyük çoxluğunu qazanaraq təkbaşına iqtidara gəlmişdir. Seçkilərin birinci mərhələsində müxtəlif bürokratik əngəllərlə namizədliyi qəbul edilməyən Ərdoğan Siirtdə keçirilən təkrar seçkilərdə millət vəkili seçilmişdir.

Abdullah Gülün baş nazir olduğu 58-ci hökumətin istefasından sonra 59-cu hökuməti quraraq Türkiyə Cumhuriyyətinin baş naziri olmuşdur.

Rəcəb Tayyib Ərdoğan 2014-cü il avqust ayının 10-da birinci və 2018-ci ildə Prezident seçkilərində ikinci dəfə Prezident seçilmişdir. 2023-cü ildə prezident seçkilərinə yenə Cümhur İttifaqı namizədi olaraq qatılan Rəcəb Tayyib Ərdoğan ikinci turda %52,18 səs alaraq üçüncü dəfə Türkiyə Respublikasının 12-ci prezidenti seçilmişdir.

Bu gün Azərbaycan və Türkiyə arasında münasibətlər olduqca dinamik şəkildə inkişaf edir və bunda xalqlarımızın tarixən bir-birinə yaxın olması ilə yanaşı, hər iki ölkə rəhbərliyinin siyasi iradəsi, strateji əməkdaşlığın genişləndirilməsi istiqamətində atdıqları addımlar da mühüm rol oynayır.

Rəcəb Tayyib Ərdoğan hələ Baş nazir olmazdan öncə sadə Türkiyə vətəndaşlarının sevdiyi şəxslər siyahısına daxil olub. Türkiyə xalqı ona ölkəni daha da irəliyə aparan, sadə insanların problemini yaxından duyaraq onu həll etməyə çalışan, Türkiyənin dünyada nüfuzunun daha da artmasına xidmət edən lider kimi qəbul edir.

2021-ci ildə Azərbaycan Respublikası Prezidenti ilə birgə Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi"ni imzalamışdır.

Ədəbiyyat:

Rəcəb Tayyib Ərdoğan /H. Nərimanoğlu; red. E. Cansever, Ə. Çərkəzoğlu Bakı: Nurlar, 2010.-226s.

Rəcəb Tayyib Ərdoğan : Türkiyə Respublikasının 12-ci prezidenti /[tərt. G. Natiq ; dizayn R. Alışbəyli]. [Bakı]: [Qanun], [2021]

İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı ol//Azərbaycan.-2022.- 3 noyabr.- S.1.

Rəcəb Tayyib Ərdoğan: "Ermənistanın Azərbaycan torpaqlarına hücumlarının qarşısının alınmaması dünyada riyakarlığın əsl nümunəsidir" //Azərbaycan.-2020.-22 sentyabr.- S.3.

İnternetdə:

https://tr.wikipedia.org/wiki/Recep_Tayyip_Erdogan

http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_yanvar2009/66620.htm

Yaqub Mahmudov – 85

(1939)

Tarixçi



Yaqub Mikayıl oğlu Mahmudov 1939-cu il fevralın 10-da Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur.

1956-cı ildə Balakən rayonunun Sarıbulaq kənd tam orta məktəbini bitirmişdir. 1957-1962-ci illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır. 1962-1966-cı illərdə aspirantura-da təhsilini davam etdirmişdir. 1966-cı ildə "Ağqoyunlu dövlətinin Venesiya ilə qarşılıqlı əlaqələri" adlı namizədlik dissertasiyası, 1989-cu ildə isə Moskva Dövlət Universiteti Tarix fakültəsinin Elmi Şurasında "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. 1991-ci ildə professor elmi adı almışdır.

1966-1975-ci illərdə Azərbaycan Ensiklopediyasında elmi redaktor, böyük elmi redaktor, redaksiya müdiri, elmi işlər üzrə baş redaktor müavini, 1968-1981-ci illərdə ADPU-da baş müəllim, dosent, 1992-1993-cü illərdə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyasında sədr müavini və "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyində baş direktor, 1981-2004-cü illərdə BDU-nun Tarix fakültəsində dosent, kafedra müdiri, dekan müavini, dekan və 2004-2021-ci illərdə isə AMEA-nın Tarix İnstitutunda direktor işləmişdir.

1991-1992-ci illərdə Azərbaycan Respublikasının ilk Təhsil Qanununu hazırlayan ekspert-işçi qrupuna rəhbərlik etmişdir.

2007-ci ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Tarixşünaslıqda ilk dəfə olaraq XV-XVII əsrlərdə Azərbaycanın Avropa ölkələri ilə geniş diplomatik əlaqələr saxladığını və həmin ölkələrlə danışıqlar aparmış bir çox Azərbaycan diplomatlarının adlarını üzə çıxarmışdır. 1000-dən çox elmi əsərin müəllifidir. Qarabağ, Naxçıvan və İrəvan tarixinə dair Dövlət Mükafatına layiq görülmüş fundamental əsərlərin müəlliflərindən biri və naşiridir. İkicildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın baş redaktorudur. 18 cildlik "Seçilmiş əsərləri" çapdan çıxmışdır. Əsərləri bir çox xarici ölkələrdə (Türkiyə, Pakistan, Rusiya, Böyük Britaniya, ABŞ, Qırğızıstan, Almaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Polşa, Ukrayna, İtaliya, Misir, Cənubi Koreya, İsveç və Meksika) nəşr olunmuşdur.

Diplomatiya tarixi, itirilmiş torpaqlar və soyqırımları tarixi istiqamətləri üzrə elmi məktəblər yaratmışdır. Onun elmi rəhbərliyi ilə 71 nəfər fəlsəfə və elmlər doktoru yetişmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü olmuş və YAP-ın I və III qurultaylarında çıxış etmişdir. II, III, IV və V çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. YAP Veteranlar Şurasının üzvüdür.

Azərbaycan Respublikasının əməkdar elm xadimi və Dövlət Mükafatı laureatı, Dağıstan Respublikasının əməkdar elm xadimi və 7 beynəlxalq akademiyanın həqiqi üzvüdür. "Şöhrət", "Şərəf", 1-ci dərəcəli "Əmək" və "Ataman Anton Qolovatıy" ordenləri ilə təltif olunmuşdur. "Yusif Məmmədəliyev", "Rəsul Rza", "Qızıl qələm", "Humay" və digər çoxsaylı mükafatların laureatıdır.

Akademik Yaqub Mahmudov bir sıra beynəlxalq mükafatlara, o cümlədən "Elmdə ad" fəxri tituluna, "Ən yaxşı baş menecer" fəxri adına və Beynəlxalq Atatürk Mükafatına layiq görülmüş və XXI əsrin məşhur elm adamlarının siyahısına daxil edilmişdir.

Ədəbiyyat:

Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Yaqub Mahmudov; elmi red. Ə.M.Həsənov. - Bakı: Təhsil, 2002. - 328 s.

Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər) / Yaqub Mahmudov. - Bakı: Təhsil, 2006. - 416 s.

İlham Əliyev və Azərbaycan tarix elmi / Yaqub Mahmudov; elmi red. Y. Gözəlova. - Bakı: [Turxan NPB], 2014. - 478, [2] s.

Real tarix və "Böyük Ermənistan" uydurması / Yaqub Mahmudov; elmi red. A.Əlimirzəyev; dizayn M.Xanbabayeva. - Bakı: [Elm], 2017. - 143, [1] s.

Ağır sınaqlarda sınmayan böyük alim: Yaqub Mahmudov / Nazim Xəlilov, Elnur Nəciyev; red. S.Məlikzadə; elmi məsl. G.Nəcəfli; dizayner M.Xanbabayeva. - Bakı: [Zərdabi-Nəşr MMC], 2022. - 163, [1] s.

Fəridə Vəzirova – 100

(1924-1986)

Ədəbiyyatşünas



Fəridə Şamil qızı Vəzirova 1924-cü il fevral ayının 15-də Qaryagin (indiki Füzuli) rayonunun Sərdarlı kəndində anadan olmuşdur.

O, Bakı şəhərindəki 171 saylı orta məktəbi bitirdikdən sonra, 1940-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. 1942-ci ildə, universitetin ikinci kurs tələbəsi olarkən komsomolçuların "Vətən naminə" çağırışına qoşularaq cəbhəyə yollanmış, orduda sıravi döyüşçü, rabitəçi kimi fəaliyyət göstərmişdir.

Fəridə Vəzirova 1944-cü ildən Sovet İttifaqı Kommunist Partiyası üzvü seçilmişdir. 1945-ci ilin oktyabrında ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirmiş, Stalin təqaüdü almış, universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

O, 1948-1949-cu illərdə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında ədəbi işçi kimi işləmiş, 1949-1952-ci illərdə ADU-nun aspiranturasında təhsil almışdır.

Onun ilk ədəbi tənqidi məqaləsi Mədinə Gülgünün "Təbrizin baharı" kitabına yazdığı eyniadlı məqaləsi olmuşdur. 1952-1953-cü illərdə "Azərbaycan" jurnalında tənqid şöbəsinin müdiri işləmiş, daha sonra ADU-nun filologiya fakültəsində Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş müəllim, dosent, 1980-ci ildən professor olmuşdur. 1956-cı ildə görkəmli ədəbiyyatşünas alim, akademik M.A.Dadaşzadənin rəhbərliyi ilə "Cəfər Cabbarlının yaradıcılığında sosializm realizmi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, 1981-ci ildən Əmək veteranı adını almışdır. Azərbaycan Qadınlar Şurasının üzvü seçilmişdir.

Fəridə Vəzirova "Məmməd Səid Ordubadi" (1970), "M. S. Ordubadi: Anadan olmasının 100 illiyi münasibətilə" (1972), "Alovlarda bərkiyən qələm" (1981), "Ədəbi qeydlər, tədqiqlər" (1985) adlı kitabların müəllifi olmuşdur.

O, Azərbaycan qadınlarının III qurultayına nümayəndə seçilmişdir. Əmək və müharibə cəbhəsində fəaliyyətinə görə 8 - II dərəcəli "Böyük Vətən Müharibəsi" ordeni, "Almaniya üzərində qələbəyə görə", "Qafqazın müdafiəsinə görə", "Yaponiya üzərində qələbəyə görə" və s. medallarla təltif edilmişdir.

Fəridə Vəzirova 1986-cı il sentyabr ayının 6-da Bakı şəhərində vəfat etmişdir.

2014-cü ildə Azərbaycan Yazıçılar Birliyində (AYB) ədəbiyyatşünas alim, tənqidçi, professor Fəridə Vəzirovanın 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Ə d ə b i y y a t :

Ədəbi qeydlər, tədqiqlər / Fəridə. Vəzirova; red. A. Hüseynov.- Bakı: Yazıçı, 1985.- 187, [5] s.

Alovlarda bərkiyən qələm: / T. Rüstəmov; red. Fəridə Vəzirova.- Bakı: Yazıçı, 1981.- 206, [2] s.

Ölümündən sonra....: / İ.Əliyeva // Vəfa.-2004.- №6.- S. 32-33.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Fəridə_Vəzirova

https://525.az/news/17064-unutma-ki-unudulmayasan

https://azertag.az/xeber/taninmis_edebiyyatsunas_alimin_90_illik_yubileyi_qeyd_edilmisdir-61909

Asif Rüstəmli – 70

(1954)

Ədəbiyyatşünas



Ə d ə b i y y a t :

Cəfər Cabbarlı və Cabbarlışünaslıq / A. H. Rüstəmli; red. Q. Seyfəddinqızı; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Cəfər Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım İctimai Birliyi.– Bakı: Ləman, 2019. –106, [1] s.

Zirədən başlanan yol: (Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti) / A. Rüstəmli; layihənin ideya müəl. B. Rzayev; elmi red. V. Əliyev; [Zirə Mədəniyyət Mərkəzi Eko-Park].– Bakı: Gənclik, [Zirə Mədəniyyət Mərkəzi EkoPark], 2018.– 279, [1] s.

Ədəbi redaktənin əsasları: tarixi, nəzəriyyəsi, təcrübəsi: dərs vəsaiti / A. Rüstəmli; elmi red. A. Babayev; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti.– Bakı: Gənclik, 2018.– 215, [1] s.

Fədakar tədqiqatçı-alim: professor Asif Rüstəmli haqqında /AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İn-tu ; toplayanı və tərt. ed. N. Rüstəmli ; elmi red. İ. Həbibbəyli ; ön söz. müəl.: K. Tahirov, [Y. Qarayev].- Bakı: Elm və təhsil, 2020.- 303s.

Asif Heydər oğlu Rüstəmli 1954-cü il fevral ayının 16-da Ağcabədi rayonunun Qiyaməddinli kəndində anadan olmuşdur. 1982-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirmişdir.

O, 1988-ci ildə Nizami adına Ədəbiyyat İnstitutuna müsabiqə yolu ilə daxil olmuş, baş laborantlıqdan baş elmi işçi, şöbə müdiri vəzifəsinədək yüksəlmiş, 1991-1995-ci illərdə Folklor Sarayı elmi-mədəni mərkəzinin (indiki AMEA Folklor İnstitutunun) direktoru, 1995-1999-cu illərdə Elmi nəşrlər bölməsinin müdiri vəzifələrində işləmiş, Mətbuat tarixi və publisistika şöbəsinin müdiri olmuşdur.

Asif Rüstəmli 1994-cü ildə elmlər namizədi, 2009-cu ildə dosent elmi adını, 2011-ci ildə elmlər doktoru elmi dərəcəsini almışdır. 1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2003-cü ildən AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının üzvü, 2012-ci ildən ADMİU-nun professoru, 2013-cü ildən BDU nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü, 2015-ci ildən AYB tərkibində Cəfər Cabbarlı Komissiyasının sədridir.

O, 2010-2017-ci illərdə İnstitut Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışmışdır. 15 kitabın, 350-dən çox elmi, publisistik məqalənin və məruzənin müəllifi, 20 kitabın tərtibçisi, 2 kitabın tərcüməçisi, çoxsaylı kitabların redaktoru və rəyçisi olmuş, onlara ön söz yazmışdır. Elmi məqalələri xarici ölkələrdə türk, fars, rus, polyak və macar dillərində çap olunmuşdur. Ssenariləri əsasında "Günəş Şərqdən doğur", "İstiqlal fədaisi", "Nurlu gələcək naminə" sənədli filmləri çəkilmiş, Moskvanın "Kinoprodukt" Studiyasının çəkdiyi "Əfsanənin əks üzü" seriyasından "26 Bakı komissarı" sənədli filminin elmi məsləhətçisi olmuş və filmdə çıxış etmişdir.

1992-1996-cı illərdə Azərbaycan Televiziyası ilə gedən "Yaddaş", "Tarix bizə nə deyir" verilişlərinin ssenari müəllifi və aparıcısı olmuşdur. ADMİU-da mətnşünaslıq, redaktənin əsasları fənlərini tədris etmişdir (1996-2019). Bir sıra namizədlik dissertasiyalarının opponenti olmuşdur. Ankara, Bağdad, Tehran, Təbrizdə, Bəsrə, Urmiya, Varşava, Tomsk, Elazığ, Budapeşt, Diyarbəkir, Astanada və Balıkəsirdə keçirilən beynəlxalq elmi konfransların, simpoziumların iştirakçısı olmuşdur.

Asif Rüstəmli Ankaradakı Azərbaycan Kültür Dərnəyinin mükafatı (1994), C. Cabbarlı Mükafatı Komissiyasının "Xüsusi diplom"u (2001), "Qılınc və qələm" beynəlxalq ədəbi mükafatı (2004), Varşava Universitetinin "Sertifikat"ı (2007), Elazığ (Türkiyə) valisinin xüsusi mükafatı (2010), "Cəfər Cabbarlı mükafatı" (2010), İstanbulda fəaliyyət göstərən Türk Ədəbiyyatı Vəqfinin "Türk Ədəbiyyatına Xidmət Baratı" (2013), AMEA Rəyasət Heyətinin "Fəxri fərman"ı (2014), Türk Dünyası Araştırmaları Uluslararası İlimler Akademisinin "Türk edebiyyatına hizmet" Uluslararası Ödülü (2014), L.N.Qumilyev adına Avroaziya Milli Universitetinin Sertifikatı (2014), Azərbaycan – Türkiyə Dostluq Dərnəkləri Federasiyasının mükafatı (2014), "Ağa Musa Zirvəsi" mükafatı (2015), AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "İlin Alimi" (2017) mükafatı ilə təltif edilmişdir. O, 2014-2015-ci illərdə Prezident təqaüdçüsü olmuşdur.


Asif Heydər oğlu Rüstəmli 2018-ci ildə professor elmi adına layiq görülmüşdür. 2018-ci ilin sentyabr ayından Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Humanitar, ictimai elmlər və sənətşünaslıq, 2020-ci ilin mart ayından isə Akkreditasiya şöbəsinin müdiri, AAK Kollegiyasının üzvü olmuşdur.

A.H.Rüstəmli haqqında "Fədakar tədqiqatçı-alim" adlı məqalələr toplusu çap olunmuş, Professorun 65 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanasında əsərlərinin sərgisi təşkil olunmuşdur.

Əli bəy Hüseynzadə – 160

(1864-1940)

İctimai xadim



Ə d ə b i y y a t :

Əli bəy Hüseynzadə: biblioqrafik monoqrafiya: Əli bəy Hüseynzadənin anadan olmasının 155 illik yubileyinə və Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunur /AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu, BDU, Biblioqrafiyaşünaslıq kafedrası; tərtibçi V. H. Xudiyeva; elmi red. və məsləhətçilər: A. İ. Əliyeva-Kəngərli, N. İ. İsmayılov; ixtisas red. və nəşrə məs. K. Ə. Məmmədova; ön söz. müəl. A. Turan.- Bakı: Mütərcim, 2020.- 487 s.

Əli bəy Hüseynzadənin Azərbaycan İstiqlal Muzeyində qorunan irsi: [kitab-albom] / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu (MİMTA) (layihənin rəhb.), Azərb. İstiqlal Muzeyi; elmi red. heyəti: G. Məmmədova (ing. dilinə tərc ed.) [və b.] ; ing. dilinə tərc ed.: M. Yunusov; red.: A. Əziz, Ü. Rəhman, F. Qədimova; [ön söz S. Mirseyibli]; dizayn və tərtibat M. Əziz.- Bakı: [Nurlar], 2022. 254, [2] s.

Seçilmiş əsərləri / Ə.Hüseynzadə.- Bakı: Çaşıoğlu, 2007.- 640 s. Aşırlı, A. Əli bəy Hüseynzadə: Olduğu kimi / Akif Aşırlı // Bakı xəbər.- 2018.- 24 yanvar.- S.5; 25 yanvar.- S.5.

Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə 1864-cü il fevral ayının 24-də Salyan şəhərində anadan olmuşdur. İlk təhsilini Tiflisdə Qafqaz Şeyxülislamının ruhani məclisi yanında altı sinifli dini mədrəsədə almışdır.

1875-1885-ci illərdə Tiflis şəhər gimnaziyasında rus, alman, latın dillərinə yaxından bələd olması ona Avropa mədəniyyətini öyrənməyə imkan yaratmışdır. 1885-1890-cı illərdə Sankt-Peterburq Universitetinin fizika və riyaziyyat fakültəsində təhsilini davam etdirmişdir. Tələbəlik illərində qafqazlı gənclərlə inqilabi hərəkata qoşulmuşdur. Təqib olunduğu üçün universiteti yarımçıq buraxaraq Türkiyəyə getmiş, İstanbul Darülfünunun hərbitibbiyyə fakültəsində təhsilini davam etdirmişdir.

1895-ci ildə İstanbul Darülfünunu dermotoloq ixtisası və təbib yüzbaşı rütbəsi ilə bitirmişdir. Əmək fəaliyyətinə başladığı ilk illərdə həkimliklə yanaşı, elmi, ədəbi-bədii yaradıcılıqla da ciddi məşğul olmuşdur.

1897-ci ildə Türkiyə-Yunanıstan müharibəsi dövründə Hilali-əhmər (Qırmızı aypara) heyəti tərkibində İtaliyaya göndərilmişdir. 1900-cü ildə müsabiqə yolu ilə İstanbul Darülfünunun hərbitibbiyyə fakültəsinin Dəri və zöhrəvi xəstəlikləri kafedrasına professor köməkçisi seçilmişdir. Həkim M.Rəfi ilə yazdığı "Vəba və mikrobu" (1900) tibbi-səhiyyə kitabını, prof. Dr. Kamal Berksayla tərtib etdiyi "Ensiklopedik tibbi lüğət"i (1902), "Sifilis" (1903) əsərini nəşr etdirmişdir. İctimai-siyasi məzmunlu publisistik məqalələri "Əli Turan", "Əli Hüseyn Turan", "Əli bəy Hüseynzadə", "Əli Hüseynzadə" "Səlyani", "Ə.H." imzaları ilə dərc olunmuşdur. Təqib olunduğuna görə doğma vətəni Azərbaycana qayıtmışdır. 1905-ci ildə Ə.Ağayevlə birlikdə "Həyat" qəzetinə, 1906-cı ildə isə "Füyuzat" jurnalına redaktorluq etmiş, "Molla Nəsrəddin" jurnalında öz rəsmləri ilə çıxış etmişdir.

O, 1910-cu ildə Türkiyəyə köçmüş, ömrünün sonunadək mühacirətdə yaşamışdır.

Türkiyə və Azərbaycan arasında Batumda 1918-ci ilin iyunun 4-də imzalanan Dostluq və əməkdaşlıq müqaviləsinin hazırlanmasında, danışıqların aparılmasında və 1926-cı ildə Bakıda I Ümumittifaq türkoloji qurultayında iştirak etmişdir.

Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə 1940-cı il mart ayının 17-də, 76 yaşında İstanbulda vəfat etmiş, Qaracaəhməd qəbiristanlığında dəfn olunmuşdur.

1991-ci ildə Salyan rayon Tarix Diyarşünaslıq muzeyinə adı verilmiş, 1994-cü ildə Salyanda abidəsi ucaldılmışdır. 2014-cü il yanvar ayının 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

2017-ci ildə qızı Feyzavər xanım Alpsar atasının sənət əsərlərindən, foto sənədlərindən və şəxsi əşyalardan ibarət arxivini Azərbaycan İstiqlal Muzeyinə hədiyyə etmişdir. 161 əsər - 37 təsviri sənət əsəri, 48 fotoşəkil, 53 şəxsi əşya, 22 orden, medal və nişanlar, eləcə də ipək üzərində çap olunmuş "Həyat" qəzeti Azərbaycana gətirilmiş, bu əsərlərin 61 ədədi Azərbaycana gətirilməndən sonra bərpa olunmuşdur. 7 ədəd şəxsi möhürü də bu siyahıya daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əli bəy Hüseynzadə Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

2020-ci ildə Əli bəy Hüseynzadənin 155-illiyi ilə əlaqədar AMEA-nın M. Füzuli ad. Əlyazmalar İn-tu BDU-i ilə birlikdə hazırladığı "Əli bəy Hüseynzadə: biblioqrafik monoqrafiya" kitabı nəşr olunmuşdur.

Surxay Əkbərov – 70

(1954) *Alim*



Surxay Cabbar oğlu Əkbərov 1954-cü il fevral ayının 8-də Masis rayonunun Zəhmət kəndində anadan olmuşdur.

Surxay Əkbərov 1976-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini "mexanika" ixtisası üzrə bitirmişdir. Ali məktəbi bitirəndən sonra təyinatla Azərbaycan SSR Elmlər Akademiyasının (indiki Azərbaycan Milli Elmlər Akademiyası) Riyaziyyat və Mexanika İnstitutuna göndərilib, baş laborant vəzifəsində işləmişdir.

Surxay Əkbərov 1978-ci ildə Azərbaycan SSR EA-nın Riyaziyyat və Mexanika İnstitutunun əyani aspiranturasına daxil olmuş və Ukrayna SSR EA-nın S.P.Timoşenko adına Mexanika İnstitutuna (Kiyev) ezam edilmişdir. 1981-ci ildə elə həmin institutda "Əyilgən matrisada iki lifin dayanıqlılığının bu dayanıqlılıq itirilən zaman onların qarşılıqlı təsiri nəzərə alınmaqla tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Surxay Əkbərov 1983-1985-ci illərdə S.P.Timoşenko adına Mexanika İnstitutunda elmi təcrübə keçmişdir. 1988-ci ildə "Əyilmiş strukturlu kompozit materiallarda gərgin vəziyyət (Hissə-hissə bircins cisim modeli)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

O, 1990-1993-cü illərdə Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunun dağılma mexanikası şöbəsinin müdiri olmuşdur. 1992-ci ildə "deformasiya olunan bərk cisim mexanikası" ixtisası üzrə professor elmi adına layiq görülmüşdür. 1993-cü ilin sonundan indiyə qədər "Yıldız" Texniki Universitetində (İstanbul, Türkiyə) professor vəzifəsində çalışır.

2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Surxay Əkbərovun tədqiqatları mexanika sahəsinə, kompozit materiallar, onlardan hazırlanmış konstruksiya elementlərinin dayanıqlığının tədqiqinə həsr edilmişdir. Mexaniki xassələri zamandan asılı olan kompozit materialların və bu materiallardan hazırlanan konstruksiya elementlərinin dayanıqlığının üçölçülü xəttiləşdirilmiş nəzəriyyəsini işləmişdir.

İlk dəfə üçölçülü xəttiləşdirilmiş dayanıqlıq nəzəriyyəsini mexaniki xassələri zamandan asılı olan materiallar üçün inkişaf etdirmiş və mexaniki xassələri zamandan asılı olan materialdan (məsələn, özlü-elastik materialdan) hazırlanmış konstruksiya elementlərinin dayanıqlığının öyrənilməsinə tətbiq etmişdir.

Surxay Əkbərov çapdan çıxmış 405 elmi əsərin, 350 elmi məqalənin, 4 monoqrafiyanın, xaricdə çıxmış 230 elmi əsərin, beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap olunmuş 215 məqalələrin müəllifidir. Rəhbərliyi altında 33 fəlsəfə doktoru, 3 elmlər doktoru hazırlanmışdır.

Ədəbiyyat:

"Həmin elmi ünsiyyətin təsirindən hələ də ayılmamışam": Surxay Əkbərov: "Sadəcə nəzəri elmi bilgilərin olması, tədqiqatlar aparmaq üçün yetərli deyil" /S.Əkbərov; müsahibəni apardı: Ş.Nəzərli//Kaspi.-2020.- 25 fevral.- S.10.

Zamanov, A. Mücərrəd təməldən ali mükafata doğru: Dövlət Mükafatına təqdim olunmuşdur / Asəf Zamanov; S.Əliyev Respublika $g 2014.- 13 may.- S.10.

İnternetdə:

science.gov.az

https://az.wikipedia.org/wiki/Surxay_Ələkbərov

Akif Əlizadə – 90

(1934)

Akademik



Akif Ağamehdi oğlu Əlizadə 1934-cü il fevral ayının 25-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji kəşfiyyat fakültəsini bitirmişdir.

A.Əlizadə 1961-ci ildə geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, 1969-cu ildə geologiya-mineralogiya üzrə elmlər doktoru elmi dərəcələrini almış, 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının (AEA) müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. 1990-2007-ci illərdə AMEA Yer Elmləri Bölməsinin (YEB) akademik-katibi, 2007-2013-cü illərdə AMEA-nın vitse-prezidenti, 2013-2019-cu illərdə AMEA-nın prezidenti olmuşdur.

A.Əlizadə əmək fəaliyyətinə Suraxanıneft mədənində quyuların tədqiqi üzrə texnik vəzifəsindən başlamışdır. 1957-ci ildə AEA-nın Geologiya (indiki Geologiya və Geofizika) İnstitutuna baş laborant vəzifəsinə işə qəbul olunmuşdur. Ardıcıl olaraq kiçik, böyük elmi işçi vəzifələrində işləmişdir. 1970-1976-cı illərdə Geologiya İnstitutunun elmi işlər üzrə direktor müavini olmuş, 1976-cı ildən isə Geologiya və Geofizika İnstitutunun direktorudur.

A.Əlizadə görkəmli alim-geoloq və elmin böyük təşkilatçılarından biridir. Onun elmi maraq dairəsi təbaşir çöküntülərinin regional stratiqrafiyasını əhatə edir. A.Əlizadənin rəhbərliyi və iştirakı ilə Azərbaycanın təbaşir çöküntülərinin stratiqrafik sxemləri işlənib hazırlanmış, geoloji proseslər, çökmə və vulkanogen-çökmə formasiyaları, təbaşir dövründə faunanın inkişafı və s. məsələlərə dair müasir baxışları əks etdirən zəngin paleontoloji-strariqrafik materiallar araşdırılıb ümumiləşdirilmişdir. Alimin çoxillik tədqiqatları əsasında Azərbaycanın təbaşir mollusk faunasına (belemnitlər) komplekslər haqqında nəzəriyyənin əsas müddəaları irəli sürülmüş, onların təsnifatı və filogeniyası verilmiş, morfofunksional təhlil aparılmış, paleobiocoğrafi rayonlaşdırmanın prinsipləri işlənib hazırlanmış, ekologiya və paleontoloji məsələlər işıqlandırılmışdır. Alim ilk dəfə olaraq, təbaşir dövründə Aralıq dənizi hövzələrində təbaşir dövrü onurğasızlarının zaman-məkan daxilində paylanma mərhələlərini müəyyən etmiş və paleocoğrafi taksonları ayırmışdır.

Elm dünyası Azərbaycan aliminin elmi xidmətlərini nəzərə alaraq, öyrəndiyi belemnitlərin yeni ailəsini onun adı ilə "Akifibelidlər" adlandırmışdır.

AR Prezidenti yanında Elmin İnkişafı Fondunun və AR Dövlət Neft Şirkətinin Elm Fondunun himayədarlar şurasının üzvü, AR Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədridir.

Akif Əlizadənin rəhbərliyi ilə səkkiz cildlik unikal fundamental əsərlər - "Azərbaycan geologiyası", habelə ensiklopedik "Azərbaycanın mineralları" atlası yaradılmış və nəşr edilmişdir.

A.Əlizadə Azərbaycan Dövlət Neft Akademiyasında, Bakı Dövlət Universitetində mühazirələr oxumuşdur. O, 250-dən çox elmi əsərin, 9 monoqrafiyanın, 6 müəlliflik şəhadətnaməsinin müəllifidir. Onun rəhbərliyi ilə 15 fəlsəfə doktoru hazırlanmışdır.

A.Əlizadənin xidmətləri Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmiş və o, "Fədakar əməyə görə" yubiley medalı, "Şərəf nişanı", "Şöhrət", "Şərəf" və "İstiqlal", 1-ci dərəcəli "Əmək" ordenləri ilə təltif olunmuşdur. A.Əlizadə Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Azərbaycan Dövlət Mükafatı laureatıdır. A.Əlizadə Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü seçilmiş və bu Akademiyanın "Elm və mədəniyyət fədakarı" fəxri nişanı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan elmi: Gələcəyə baxış: Seçilmiş məruzələr, çıxışlar, məqalələr, müsahibələr: [2 cilddə] / Akif Əlizadə; ümumi red. T. Kərimli; tərt.: V. İbrahimov, Y. Lətifova.- C. 1.- Bakı: [Elm], 2022.- 423, [1] s.; C. 2.- Bakı: [Elm], 2022.

Azərbaycan elmi: Gələcəyə baxış: Seçilmiş məruzələr, çıxışlar, məqalələr, müsahibələr: [2 cilddə] / Akif Əlizadə; ümumi red. T. Kərimli; tərt.: V. İbrahimov, Y. Lətifova.- C. 2.- Bakı: [Elm], 2022.-324 s.

Geologiya İnstitutu Azərbaycanın müstəqilliyinin 20 ili ərzində / A.Əlizadə; AMEA, Geologiya İn-tu.- Bakı: [Nafta-Press], 2011.- 112 s.

"Bizdə Nobelə layiq tədqiqatlar olub, amma..." : AMEA-nın prezidenti Akademik Akif Əlizadə: "Bütün ümidlərim Azərbaycanın gənc alimlərinədir" /A.Əlizadə // Xalq Cəbhəsi.-2019.- 15 oktyabr.- S.15.

Akademik Akif Əlizadə: Elmin təhsillə inteqrasiyası çox vacibdir /A.Əlizadə //Respublika.-2020.- 21 iyun.- S.5.

Arif Paşayev – 90

(1934)

Akademik



Ədəbiyyat:

Arif Paşayev (Arif Mir Cəlal oğlu Paşayev) : biblioqrafiya /Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası ; tərt. ed.: X. Abdullayev, L. Miryaqubova ; elmi red. K. Tahirov ; məsləhətçi Ş. Axundov.Bakı: [Zərdabi-Nəşr], 2019.-407 s.

Hava gəmilərinin elektrik avadanlığı: dərs vəsaiti / Arif Paşayev (elmi red.), İ. Ə. İsgəndərov, F. Ə. Mahmudlu; Azərb. Resp. Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Milli Aviasiya Akad.- Bakı: [MAA], 2019.- 205, [1] s.

Tətbiqi mexanika: dərslik / Arif Paşayev, Ə. X. Canəhmədov, R. Ə. Kəbirli; red. A. M. Paşayev (ön söz müəl.); rəyçilər C. H. Ağalarov [və b.].- Bakı: "Apostroff", 2014.- 510, [2] s.

Əsas diqqət elmi nailiyyətlərə yönəldilir /A.Paşayev// Azərbaycan.-2020.- 30 dekabr.- S.4

Mühəndis heyətinin intellektual potensialı Azərbaycanın strateji resursudur/A.Paşayev//Azərbaycan.-2022.-21 aprel.- S.6.//Xalq qəzeti.-2022.-21 aprel.- S.9.

Arif Mir Cəlal oğlu Paşayev 1934-cü il fevral ayının 15-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1941-1951-ci illərdə Bakı şəhər 164 saylı orta məktəbi bitirmiş, 1951-1954-cü illərdə Moskva Elektrotexnika Rabitə İnstitutunun tələbəsi olmuşdur.

1954-1957-ci illərdə Odessa Elektrotexnika Rabitə İnstitutunda radiofizika ixtisası üzrə təhsil almış, 1959-cu ildən AMEA-nın Fizika İnstitutunda elmi fəaliyyətə başlamışdır. Görkəmli alim 1960-1964-cü illərdə Moskvada "QİREDMET" İnstitutunda aspirant olmuş, 1966-cı ildə isə "Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Elmi axtarışlarını uğurla davam etdirən alim 1978-ci ildə "Yarımkeçiricilərin tədqiqində qeyri-dağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiqi perspektivləri" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Akademik yüksək və ifratyüksək tezlikli diapazonlarda materialların zədəsiz tədqiqatlarının fiziki əsaslarını yaratmış, zədəsiz nəzarət yarımkeçiricilər fizikasının və ölçmə istiqamətlərinin elmi əsaslarının inkişafı, yeni istiqamətlərin yaradılması və onların tətbiqi ilə məşğul olmuşdur. Akademik Arif Paşayev 300-ə yaxın elmi əsərin, 15-dən artıq kitabın və monoqrafiyanın müəllifidir. Alim 30-dan çox ixtiraya görə müəlliflik şəhadətnaməsi və sənaye nümunələri almış, medallar və diplomlarla təltif olunmuşdur.

Bundan əlavə, akademik Arif Paşayev Azərbaycan Respublikasının Dövlət mükafatına, fizika sahəsindəki yüksək nailiyyətlərinə görə "SSRİ-nin ixtiraçısı" medalına, akademik Y. Məmmədəliyev adına medala və İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzinin qızıl medalına layiq görülmüş, "XXI əsrin tanınmış alimi" beynəlxalq diplomu ilə təltif edilmişdir. Azərbaycanda elmin, təhsilin inkişafında yüksək xidmətləri olan akademik Arif Paşayev Vətənimizin yüksək mükafatları ilə – "İstiqlal", "Şərəf " və "Şöhrət" ordenləri ilə təltif olunmuşdur.

Arif Paşayev Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının Ekspert Şurasının, Tbilisi Texniki Universitetində Ərazi Şurasının üzvü, AMEA-da cihazqayırma üzrə Elmi Şuranın sədri, Azərbaycan Milli Aerokosmik Agentliyi və Milli Aviasiya Akademiyası nəzdində birləşmiş ixtisaslaşdırılmış şuranın həmsədri, Dövlətlərarası Aviasiya Komitəsi nəzdində aviasiya mütəxəssislərinin hazırlanması üzrə əlaqələndirmə şurasının üzvüdür.

Arif Paşayev ilk dəfə yarımkeçirici materialların elektrofiziki parametrlərinin kontaktsız ölçülməsi üsullarının elmi əsaslarını işləmiş və bu üsulları reallaşdıran elmi cihazlar yaratmışdır. Onun rəhbərliyi altında 10-dan çox aspirant və dissertant namizədlik dissertasiyası müdafiə etmişdir. Eyni zamanda iki doktorluq dissertasiyasının məsləhətçisi, Rusiyada, Ukraynada, Latviyada, Estoniyada və Azərbaycanda müdafiə olunmuş bir çox doktorluq dissertasiyaları üzrə rəsmi opponent kimi çıxış etmişdir. 1971-ci ildən 1996-cı ilədək AMEA-nın Fizika İnstitutunun "Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları" laboratoriyasına rəhbərlik etmişdir.

Akademik Arif Paşayevin Azərbaycanda aviasiya sahəsi üçün ixtisaslı kadrların hazırlanması sahəsində də xüsusi xidmətləri vardır. Görkəmli alim 1996-cı ildən indiyədək "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Milli Aviasiya Akademiyasının yaradıcısı və rektorudur.

Övsat Abdinov – 80

(1944-2016)

Fizik



Övsat Bəhram oğlu Abdinov 1944-cü il fevral ayının 23-də Balakən şəhərində anadan olmuşdur.

1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika fakültəsini bitirmişdir. 1972-ci ildə fizika elmləri namizədi, 1986-cı ildə fizika elmləri doktoru elmi dərəcəsini almışdır. 1973-1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin Nəzəri fizika kafedrasında baş müəllim vəzifəsində çalışmış, 1975-ci ildən Elmlər Akademiyasının Fizika İnstitutunun Yüksək enerjilər fizikası laboratoriyasının rəhbəri olmuş, 1993-2002-ci illərdə Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda (Dubna şəhəri) baş elmi işçi vəzifəsində işləmişdir.

Elmi fəaliyyətlərinin əsas istiqamətləri adron-adron, adron-nüvə və proton-proton toqquşmalarında elementar zərrəciklərin və atom nüvələrinin xassələrinin tədqiqi olmuşdur. Professor Övsat Abdinov xarici və yerli elmi jurnallarda dərc edilən 600-dən artıq məqalənin müəllifi və həmmüəllifi olmuş, rəhbərliyi ilə 2 fəlsəfə doktoru hazırlanmışdır.

2008-ci ildə Övsat Abdinovun təşəbbüsü və rəhbərliyi altında AMEA Fizika İnstitutunun rəhbərliyi altında Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunun Yüksək enerjilər fizikası laboratoriyası bazasında, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunun dəstəyi ilə Azərbaycanda ilk milli GRİD seqmenti yaradılmışdır. O, müasir təcrübələrin aparılması, təmin edilməsi və fiziki analizinin aktiv iştirakçısı və səlahiyyətli icraçısı olmuşdur. Rəhbərliyi altında SSRİ-nin iki Dövlət proqramı, RFFİ-nin iki qrantı, STCU-nun qrantı, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun qrantı başa çatdırılmışdır. Bir sıra beynəlxalq konfransların təşkilat komitəsinin üzvü və sədri olmuşdur. Övsat Abdinov müxtəlif illərdə ADU və Azərbaycan Dövlət Neft və Sənaye Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuş, BNTİ-nin və AMEA Fizika İnstitutunun Elmi Şuralarının üzvü, fəlsəfə və elmlər doktorluğu elmi dərəcələrinin verilməsi üzrə ixtisaslaşmış şuraların və AAK-ın Fizika üzrə Ekspert Şurasının üzvü olmuşdur. Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda Azərbaycanın tamhüquqlu nümayəndəsinin müavini və Elmi Şurasının üzvü olmuşdur.

Övsat Abdinov 1997-ci ildən Avropa Nüvə Tədqiqatları Mərkəzinin ATLAS kollaborasiyasında Azərbaycanın koordinasiyaçısı, ATLAS kollaborasiyasının üzvü olmuşdur. 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Övsat Bəhram oğlu Abdinov 2016-cı il oktyabr ayının 29-da vəfat etmişdir.

Ə d ə b i y y a t :

Böyük Adron Kollayderi, ATLAS kollaborasiyası: ilk nəticələr / Övsat Abdinov // Elm.- 2013.- 17 may.- S.24.

Qrid gələcəyin texnologiyalarıdır / Övsat Abdinov // Elm və həyat.- 2011. Görkəmli alim haqqında vida sözü: [professor Övsat Abdinovun vəfatı haqqında] // Elm.- 2016.- 4 noyabr.- S.8.

Məmmədov, N. Axtarışlara səsləyən örnək / N.Məmmədov, F.Xəlilzadə // Elm.- 2016.- 18 noyabr.- S.7-8. Исследование зависимости поперечных импульсов и парциальных коэффициентов неупругости заряженных пионов от множественности протонов в пион-углеродных взаимодействиях при 5 Гэв/с. / О.Б.Абдинов, А.А.Байрамов, А.А.Маилов; АН Азерб. ССР, Ин-т Физики.- Баку: [б. и.], 1985.- 9, [1] с.

Серия Препринт №137 Корреляции по углу разлета в рождении кумулятивных протонов в пион-углеродных взаимодействиях при импульсе 40 Гэв/с. / О.Б.Абдинов, Г.Н.Агакишиев, Р.Р.Мехтиев, М.К.Сулейманов; АН Азерб. ССР, Ин-т Физики.- Баку: [б. и.], 1984.- 6 с

İbrahim İsayev – 70

(1954)

Əməkdar həkim



İbrahim İsa oğlu İsayev 1954-cü il fevral ayının 10-da Qərbi Azərbaycanın Hamamlı rayonunun Saral kəndində anadan olmuşdur. 1961-1971-ci illərdə Saral kənd orta məktəbində təhsil almış, 1972-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ATU) pediatriya fakültəsinə daxil olmuşdur. 1978-ci ildə ali təhsilini başa vurduqdan sonra bir neçə il Əzizbəyov (Xəzər) rayonunun tibb müssisələrində praktiki səhiyyə sahəsində çalışmış və təcrübə qazanmışdır.

O, 1983-cü ildə Azərbaycan Tibb Universitetinin Uşaq xəstəliklərinin propedevtikası kafedrasında aspiranturaya daxil olmuşdur. Aspiranturanı bitirdikdən sonra ardıcıl olaraq həmin kafedrada baş laborant, assistent, dosent kimi fəaliyyət göstərmişdir. 1987-ci ildə namizədlik, 1995-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1995-ci ildə Uşaq xəstəliklərinin propedevtikası kafedrasının müdiri olmuşdur.

2000-2013-cü illərdə ATU-nun elmi katibi vəzifəsində çalışmış, 2013-cü ildən universitetin elmi işlər üzrə prorektoru vəzifəsinə təyin edilmişdir. Elmi fəaliyyətinin əsas istiqaməti uşaq kardiorevmatologiyasının aktual problemlərinə həsr edilmişdir. İlk dəfə olaraq praktiki sağlam uşaqlarda exokardioqrammanın tam parametrlərini yaşdan və cinsdən asılı olaraq müəyyən etmiş, submaksimal fiziki yük sınağı zamanı və ondan sonrakı bərpa dövründə intrakardial, mərkəzi hemodinamikanın və miokardın funksional göstəricilərinin xüsusiyyətlərini öyrənmişdir.

2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti Yanında Elmin İnkişaf Fondunun keçirdiyi müsabiqənin qalibi olmuşdur. O, 250-dən artıq elmi məqalə, 3 dərslik, 2 dərs vəsaiti, 6 tədris-metodik vəsait, 2 ixtira, 4 səmərələşdirici təklifin müəllifidir. Professor İbrahim İsayev ilk dəfə olaraq Tibb Universitetinin tələbələri üçün Azərbaycan dilində "Uşaq xəstəliklərinin propedevtikası" fənnindən dərslik hazırlayaraq tələbə və gənc həkimlərin istifadəsinə vermişdir. Onun rəhbərliyi ilə 10 nəfərdən artıq tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə yiyələnmişdir.

Alim dəfələrlə Almaniya, Türkiyə, Kipr, Rusiya, Qazaxıstan, Qırğızıstan və s. ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda iştirak etmiş, məruzələri ilə respublikamızı təmsil etmişdir. Azərbaycan Tibb Universitetinin Elmi Şurasının, AMEA-nın Biologiya elmləri bölməsinin Əlaqələndirmə Şurasının, Tibb üzrə Problem Şurasının elmi katibi, o cümlədən ATU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, MDB ölkələri Kardiorevmatoloqlar Assosiasiyasının, Azərbaycan Respublikası Kardioloqlar Assosiasiyasının, Türkdilli ölkələrin Pediatriya Assosiasiyasının üzvüdür.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2000-ci ildə Əməkdar həkim, 2010-cu ildə isə Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdür. O həm də, işlədiyi Azərbaycan Tibb Universiteti rəhbərliyi tərəfindən müxtəlif təltif və təşəkkürlərlə mükafatlandırılmışdır.

Ədəbiyyat:

İsayev İ.İ., Fətəliyeva M.M., Mustafayeva A.İ., Vəlibəyova F.M. "Uşaqlarda qeyri-paroksizmal taxikardiyalar zamanı ürək ritminin variabelliyinin dövri parametrlərinin xüsusiyyətləri" // Azərbaycan Tibb Jurnalı. Elmi - praktik jurnal, Bakı, 2011, № 2, s.49-52.

Гусейнова Дж.О., Исаев И.И., Гаджиев А.Б., Рзакулиев Д.М. "Оценка первичного иммунологического исследования в зависимости от наличия перикардита и хелаторной терапии десфералом при гомозиготной β-талассемии у детей", "Sağlamlıq" jurnalı, Bakı, №1, səh.103-107

Pediatriya: ali məktəblər üçün dərslik /İ. İ. İsayev, S. Q. Xanməmmədova, R. R. Məmmədova, N. Q. Hüseynov. - Bakı: Elm və təhsil, 2017 s.

Fazil Qurbanov – 80

(1944-2020)

Akademik



Fazil Səməd oğlu Qurbanov 1944-cü il fevral ayının 18-də Bakıda anadan olmuşdur. 1973-cü ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsini bitirmiş, Respublika Uroloji Xəstəxanası nəzdində internatura keçmişdir. 1975-ci ildən Azərbaycan Elmlər Akademiyasının (EA) Fiziologiya İnstitutunun cərrahiyyə qrupunun elmi işçisi olmuşdur. Fazil Qurbanovun elmi rəhbəri SSRİ Tibb Elmləri Akademiyasının (TEA) akademiki M. A. Topçubaşov idi.

F.Qurbanov əmək fəaliyyəti ərzində AMEA-nın Fiziologiya İnstitutunda elmi işçi (1975-1980), SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Cərrahiyyə Mərkəzində aspirant, elmi işçi (1980-1987), ARSN Qastroenterologiya İnstitutunda şöbə müdiri (1988-1999), Azərbaycan Tibb Universitetində Cərrahiyyə kafedrasının professoru (1991-1999), N.A.Semaşko adına Mərkəzi Kliniki Xəstəxanada (Moskva) Cərrahiyyə şöbəsinin müdiri (1999-2005), Rusiya Xalqlar Dostluğu Universitetinin Cərrahiyyə kafedrasının professoru (1999-cu ildən) vəzifələrində çalışmışdır.

F.Qurbanov MDB-də və xarici ölkələrdə yüksəkixtisaslı alim-cərrah və üç dildə dərs deyən (Azərbaycan, rus, ingilis) pedaqoq kimi tanınır. Onun cərrahlıq təcrübəsi çoxsahəli olsa da, fəaliyyətinin əsas istiqamətlərini qida borusu, mədə, həzm orqanlarının operativ və konservativ müalicəsi zamanı ən müasir tibbi texnologiyaların tətbiqi təşkil etmişdir.

Fazil Qurbanov respublikada və xarici ölkələrdə çap olunmuş 250-dən artıq elmi məqalə, 5 monoqrafiya, ali məktəb tələbələri üçün dərslik və dərs vəsaitlərinin, çoxsaylı xüsusi tibbi təlimatların, 13 ixtira və 7 səmərəli təklifin müəllifidir. Onun elmi rəhbərliyi altında respublika və xarici ölkələr üçün tibb üzrə yüksəkixtisaslı alim kadrlan hazırlanmış, 7 elmlər doktoru və 14 fəlsəfə doktoru dissertasiyası müdafiə edilmişdir. F.Qurbanov Beynəlxalq Cərrahlar Birliyi (ABŞ), Rusiya Cərrahlar Assosiasiyası, Rusiya Endoskopik Cərrahiyyə Assosiasiyası, Rusiya Hernioloqlar Assosiasiyasının üzvü olmuşdur.

O, AR SN "Cərrahiyyə" jurnalının redaksiya Şurasının üzvü, Rusiyanın və Moskva şəhərinin bəzi səhiyyə, tibbi komitə və komissiyalarının, Rusiya Xalqlar Dostluğu Universitetinin Elmi Şurasının üzvü olmuşdur.

F.Qurbanov 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü, 2016-cı ildə ÜmumRusiya Azərbaycan Konqresinə sədr seçilmişdir.

F.Qurbanov elmi, həkimlik, pedaqoji və ictimai fəaliyyəti ilə əlaqədar Azərbaycanın, Rusiyanın Fəxri Fərman və təşəkkürlərinə layiq görülmüşdür.

Fazil Qurbanov 2020-ci il dekabr ayının 23-də Moskva şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t :

Onikibarmaq bağırsağın ağırlaşmış xoraları: Dərs vəsaiti /F. S. Qurbanov, N. Ə. Vəliyev, S. Ə. Əsədov ; Azərb. Resp. Səhiyyə Nazirliyi, Azərb. Tibb Un-ti.Bakı: Elm və təhsil, 2014.-155 s.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə /F.Qurbanov //Azərbaycan.-2019.- 25 may.- S.4

İ n t e r n e t d ə:

https://az.wikipedia.org/wiki/Fazil_Qurbanov

Tariyel Talıbov – 75

(1949)

Bioloq



Tariyel Hüseynəli oğlu Talıbov 1949-cu il fevral ayının 22-də Naxçıvan MR Şərur rayonunun Siyaqut kəndində anadan olmuşdur. 1966-cı ildə Siyaqut kənd onbirillik orta məktəbi, 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) biologiya fakültəsini bitirmişdir.

Tariyel Talıbov 1978-ci ildə Azərbaycan EA Genetika və Seleksiya İnstitutunun aspiranturasına daxil olmuş, 1986-cı ildə namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 2003-cü ildə AMEA Botanika İnstitutunda "Naxçıvan MR-in flora biomüxtəlifliyi, onun səmərəli istifadəsi və qorunması" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək "Botanika" ixtisası üzrə biologiya elmlər doktoru elmi dərəcəsi almışdır. 2007-ci ildə professor elmi adı almışdır.

1974-cü ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) Kimya-biologiya kafedrasında baş laborant, Biologiya kafedrasında müəllim, baş müəllim, Botanika kafedrasında dosent vəzifələrində çalışmış, 1989-2002-ci illərdə universitetin Botanika kafedrasının müdiri vəzifəsində işləmişdir. 2003-cü ildə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru vəzifəsinə təyin edilmiş və hal-hazırda həmin vəzifədə çalışır.

Naxçıvan MR-in flora biomüxtəlifliyinin tədqiqi, taksonomik spektrin hazırlanılması və səmərəli istifadəsi və qorunmasına aiddir. İlk dəfə olaraq Naxçıvan MR-in flora biomüxtəlifliyində ali bitkilərin taksonomik spektri hazırlanmış, onların nadir növlərinin "Qırmızı kitabı" nəşr edilmişdir. Naxçıvan MR-in flora biomüxtəlifliyi ilə sıx əlaqəda olan onurğalı heyvanların taksonomik spektri hazırlanılmış, region təbiətinin artan antropogen təsirlər nəticəsində modifikasiya və ya transformasiya səbəbləri işlənilərək, onurğalı heyvanların nadir növlərinin "Qırmızı kitabı" nəşr edilmişdir. Naxçıvan MR-in flora və bitkiliyinə, meyvə, üzüm və dərman bitkilərinə aid tədqiqatları elmi fəaliyyətdə mühüm yer tutur. Onun elmi rəhbərliyi altında 4 fəlsəfə doktorları, 1 elmlər doktoru müdafiə edilmişdir.

O, 2006-2009-cu illərdə Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Qafqaz Ekoregional Şurasının üzvü, AMEA Botanika İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavini olmuşdur. 2007-ci ildə "Botanika" ixtisası üzrə AMEA-nın müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilmişdir. 160 əsərin, o cümlədən, 31 kitab, metodik vəsait, proqram və xəritələrin müəllifidir.

Tariyel Talıbov bir çox beynəlxalq simpozium və konfransların iştirakçısı olmuşdur. Tariyel Talıbovun çoxillik elmi, elmi təcrübi və təşkilatçılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ona 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adı verilmiş, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, AMEA Rəyasət Heyətinin "Fəxri fərman"ları, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Yubiley qızıl medalı, 2015-ci ildə Bioresursların tədqiqi ilə bağlı fundamental və tətbiqi elmi əsərlərinə görə "Həsən bəy Zərdabi" adına mükafat ilə təltif edilmişdir. 12 saylı Şərur seçki dairəsindən III, IV və V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir.

Ədəbiyyat:

Naxçıvan Muxtar Respublikasının gias və albalı sortları. Bakı:Elm və təhsil, 2013

Yaddaşlara köçən müəllim /T. Talıbov//Azərbaycan müəllimi.-2022.- 7 oktyabr.- S.14.

Azərbaycan Respublikasının Qırmızı Kitabı. İkinci nəşr. Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri. Bakı:Şərq-Qərb nəşriyyatı, 2013


İnternetdə:

https://az.wikipedia.org/wiki/Tariyel_Talıbov

Xuraman Ağayeva – 65

(1959)

Pedaqoq



Ə d ə b i y y a t :

Ağayeva Xuraman Telman qızı // Azərbaycan Kitabxana ensiklopediyası: AKE / Azərb.Resp. Mədəniyyət və Turizm Naz., Azərbaycan Milli Kitabxanası; lay. rəh. Ə.Qarayev; baş red. K.Tahirov; elmi red. A.Xələfov; red. h. X.İsmayılov və b.- Bakı, 2015.- S.17.

Xuraman Telman qızı Ağayeva 1959-cu il fevral ayının 22-də Qax rayonunda anadan olmuşdur.

O, 1976-1983-cü illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində təhsil almışdır və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1985-1987-ci illərdə M.Ə.Sabir adına Bakı şəhər Kitabxanasında kitabxanaçı, 1987-1992-ci illərdə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasında laborant, 1992-2012-ci illərdə Biblioqrafik informasiya-axtarış sistemləri tədris laboratoriyasının müdiri işləmişdir.

2002-2007-ci illərdə BDU-nun dissertantı olmuşdur. 2009-cu ildə "Azərbaycanda pedaqoji elmlərin biblioqrafik informasiya təminatı: tarixi, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları" mövzusunda dissertasiya işini müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

2011-ci ildən Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, eyni zamanda fakültə Elmi Şurasının elmi katibidir. Dosent Xuraman Ağayeva "Kitabxanada biblioqrafiya işinin təşkili və metodikası", "Azərbaycanın biblioqrafik ehtiyatı", "Pedaqoji ədəbiyyatın biblioqrafiyası", "İncəsənətin biblioqrafiyası", "Xüsusi elmi kitabxanalarda mütəxəssislərə biblioqrafik xidmət", "Kitabxana biblioqrafiyası" və s. fənləri tədris edir. Bir çox respublika və beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir

Nailə Mehrəliyeva – 65

(1959)

Pedaqoq



Ə d ə b i y y a t :

Rus poeziyasının klassiki Aleksandr Puşkinin əsərlərinin Azərbaycanda nəşri // Kitabşünaslıq və redaktor sənəti: Elmi-nəzəri və təcrübi-metodik jurnal.- 2021.- №2.- S.22-25; Mikayıl Müşfiqin əsərlərinin nəşri tarixindən // Kitabşünaslıq və redaktor sənəti.- 2022.- №2.- S.51-56

Nailə Müzəffər qızı Mehrəliyeva 1959-cu il fevral ayının 22-də Füzuli rayonunda anadan olmuşdur. 1985-ci ildə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsini bitirmişdir. 1985-1994-cü illərdə Azərbaycan Dillər Universitetində biblioqraf, 1994-1995-ci illərdə Bakı Humanitar Kollecində (keçmiş Əhməd Cavad adına Mədəni-Maarif Texnikumu) müəllim işləmişdir. 1995-ci ildən Bakı Dövlət Universitetinin Redaksiya-nəşriyyat işi kafedrasının müəllimidir.

2003-cü ildə "Yeniyetmələrin mənəvi tərbiyəsində məktəb kitabxanalarının rolu" mövzusunda dissertasiya işini müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2007-ci ildən dosentdir.

Nailə Mehrəliyeva BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin bakalavriat səviyyəsində "İnformasiya resursları", "Kitab və kitabxana tarixi", "Redaktənin əsasları", "Nəşrin redaktor hazırlığı", magistratura səviyyəsində isə "Tərcümə ədəbiyyatının redaktəsi", "Dövri nəşrlərin redaktor hazırlığı", "Ədəbiyyat növlərinin redaktəsi" fənlərini tədris edir.

O, 100-dən çox elmi məqalənin, eləcə də bir sıra monoqafiya, dərs vəsaiti və metodik vəsaitlərinin müəllifi, "Kitabşünaslıq və redaktor sənəti" elmi-nəzəri və təcrübi-metodik jurnalının redaksiya şurasının üzvüdür.

Nailə Mehrəliyeva uzun illərdən bəri Respublika və Beynəlxalq elmi konfrans və simpoziumlarda aktual mövzularda məruzələrlə çıxış edir.

Gənclər Günü

(1997)



2 fevral tarixinin Gənclər Günü kimi qeyd olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilmişdir. 1996-cı il fevralın 2-də keçirilən I Forumda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir". Bu forum Azərbaycanda gənclər hərəkatının vüsət almasına təkan verdi. Ulu öndər gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq, 1997-ci ildə imzaladığı sərəncamla tədbirin keçirildiyi günü - fevralın 2-ni Azərbaycan Gənclər Günü elan etmişdir.

Ulu öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər isə respublikanın ictimai -siyasi həyatında gənclərin daha da fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir. Bütün bunlar Heydər Əliyevin gənclərə böyük qayğısının sübutu idi. Azərbaycanda hər il Gənclər Günündə bütün istiqamətlər üzrə fəaliyyət göstərən gənclər yekun hesabat verirlər. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. Prezident 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncam imzaladı. Proqram çərçivəsində görülən işlər gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi yönündə ciddi irəliləyişə gətirib çıxardı. 2011-ci ilin 6 aprel tarixində prezidentin "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında Sərəncamı ölkəmizdə gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etmək idi.

Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədi ilə Prezident İlham Əliyev 19 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması barədə sərəncam verdi. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyuldu.

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"-nın təsis edilməsi oldu.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda, onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır.

Ədəbiyyat:

Əliyev, İlham. Prezident İlham Əliyev Azərbaycan gənclərinin təbrik etdi: "Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində..." / İlham Əliyev // Azərbaycan.- 2023.- 3 fevral.- S.1.

Qasımova, S. Heydər Əliyevin gənclər siyasəti böyük uğurla davam etdirilir: 2 Fevral Gənclər Günüdür / S.Qasımova // Xalq qəzeti.- 2023.- 2 fevral.- S.6.

Salmanlı, R. Dövlət gənclər siyasətinə xüsusi önəm verir: Prezident İlham Əliyev bu nəslin hərtərəfli inkişafına böyük qayğı göstərir / Rəhman Salmanlı // Azərbaycan.- 2023.-12 avqust.- S.1; 9.

Quliyev, C. Gənclər cəmiyyət həyatının bütün sahələrində təmsil olunurlar / Cəmi Quliyev // Azərbaycan.- 2023.-2 fevral.- S. 9.

Məmmədli, N. "Gənclər sabahın qurucularıdır"/ N.Məmmədli // Mədəniyyət.- 2023.- 3 fevral.- S.4.

2 fevral – Gənclər Günü // Azərbaycan.- 2023.- 3 fevral.- S.1.

Mingəçevir Su Elektrik Stansiyası - 70

(1954)



Stansiyanın tikintisinə 1945-ci ildə başlanılmış, 1953-cü ildə ilk hidroaqreqat əldə olunmuşdur. 1954-cü il fevral ayının 4-dən isə stansiya tam gücü ilə işə başlamışdır.

Azərbaycanın müxtəlif rayonlarından Mingəçevir su elektrik stansiyasının quraşdırılmasıyla əlaqədar olaraq böyük sayda insan gücü cəlb edilmiş, ümumilikdə isə bu stansiyanın tikilməsində 20.000 insan iştirak etmişdir. 1940-cı illərin sonlarına doğru 10.000-ə yaxın alman hərbi əsirləri bu stansiyanın quraşdırılmasına cəlb edilmişdir. Ölkənin ən təcrübəli mütəxəssisləri tikinti meydançasının postsovet məkanının ən böyük su elektrik stansiyasının quraşdırılmasına cəlb edilmişdir.

Bugünkü Mingəçevir şəhəri su elektrik stansiyasının tikilməsiylə əlaqədar olaraq qurulmuş və 1948-ci ildə şəhər statusu almışdır. 1957-ci ildə az güclü Varvara SES işə düşdükdən sonra ikisi birlikdə "Mingəçevir SES silsiləsi" adlanır. Mingəçevir su anbarı 1953-1959-cu illərdə doldurulmuş, su tutumu 16070 milyon m³-dir. Dəryaçanın uzunluğu 70 km, eni 13-18 km-dir. Su anbarının tikilməsi və iki kanalın çəkilməsi ölkədə 970 min hektar sahəni suvarmağa imkan yaratmış, 200 min hektar sahənin su altında qalmaq təhlükəsini aradan qaldırmışdır. "Mingəçevir SES silsiləsi"ndə 165 nəfər işçi çalışır. Stansiyanın tərkibinə 110, 220 və 330 kilovoltluq paylayıcı yarımstansiyalar daxildir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il 27 fevral tarixində "Mingəçevir" su elektrik stansiyasının yenidənqurmadan sonra istismara verilməsi mərasimində iştirak etmişdir. Yenidənqurma işləri çərçivəsində stansiyanın bütün hidrogeneratorları və hidroturbinləri yeniləri ilə əvəzlənmişdir. Bunun nəticəsində isə imkan gücü 284 meqavat olan stansiyanın istehsal gücü artırılaraq 424 meqavata çatdırılmışdır.

Azərbaycan Prezidentinin 2011-ci il fevralın 25-də imzaladığı Fərmana əsasən Fövqəladə Hallar Nazirliyinin nəzdində yaradılan Su Ehtiyatları Dövlət Agentliyinin səlahiyyətlərinə dövlət əhəmiyyətli su anbarlarının etibarlı mühafizəsini təmin etmək, ölkədə qurğuların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirmək, yerüstü, yeraltı su ehtiyatlarının, su obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqlərini aparmaq daxil edildi.

Mingəçevir Su Elektrik Stansiyasında təhlükəsizliyin təmin edilməsi strateji məsələ kimi daim diqqətdə saxlanılır, 16 milyard kubmetr su ehtiyatına malik anbarın kənar müdaxilələrdən qorunması üçün müasir avadanlıqlardan istifadə edilərək mükəmməl təhlükəsizlik sistemi qurulub. Bu təhlükəsizlik sistemi stansiyanın perimetrini, su bəndini və xüsusi əhəmiyyətli üç mühəndis qurğusunu kənar müdaxilələrdən qoruyur.

Ədəbiyyat:

Mingəçevir SES-69: Cənubi Qafqazda ən böyük su anbarı... /Y. Bayramova //Yeni Azərbaycan.-2023.- 10 yanvar.- S.4.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Mingəçevir_SES

https://www.yeniazerbaycan.com/xeberlenti_e79263_az.html

Naxçıvan Muxtar Respublikası - 100

(1924)



Ədəbiyyat:

Naxçıvan Ensiklopediyası, AMEA, Bakı, 2002, s. 595

Naxçıvan mətbəxi:[Elektron resurs]: Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi.- Bakı: [Əcəmi NPB], 2012.- 353, [3] s.

Naxçıvan rəssamlarının ensiklopediyası: [NRE] / [Azərb. Milli Elmlər Akad., Naxçıvan bölməsi, Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi; tərt.: Ü. T. Həmzəyeva, N. İ. Alıyev, A. A. Xudiyev; red. R. Ə. Zülfüqarov]; red. hey.: İ. Hacıyev, Ü. Həmzəyeva, F. Xəlilov, İ. Həbibbəyli.- Naxçıvan: [Əcəmi NPB], 2022. 157, [1] s.

Cabbarov, Ə. Naxçıvan Muxtar Respublikasının turizm marşrutları / Əli Cabbarov.- Naxçıvan: [Əcəmi].- 2022. 158, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Naxçıvan_Muxtar_Respublikası

https://nakhchivan.preslib.az/az_a1.html

https://meclis.gov.az/news-az.php?id=4&lang=az

Naxçıvan Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biridir. Naxçıvan Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr vermişdir. Azərbaycan türkləri min illər boyu burada ardıcıl həyat sürmüş, böyük dövlətçilik ənənələrinin əsasını qoymuşlar. X əsrdə "Naxçıvan şahlığı", XII əsrdə Azərbaycan Atabəylər dövləti yaranmış, XVIII-XIX əsrlərdə "Naxçıvan xanlığı", XX əsrin əvvəlində Araz-Türk Respublikası fəaliyyət göstərmişdir.

1924-cü il fevral ayının 9-da yaradılan Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasına (1995-ci il) əsasən Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvanın muxtariyyət tarixi 1921-ci ildə imzalanan 2 mühüm beynəlxalq sənəddə - Moskva və Qars müqavilələrində öz əksini tapmışdır. Moskva müqaviləsinin 3-cü, Qars müqaviləsinin isə 5-ci maddəsində muxtariyyətin əsasları, eyni zamanda Naxçıvan MR-nın ərazisi təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikasının ərazisi 5,5 min kvadrat kilometr, əhalisi 461 min nəfərdir (2021).

Naxçıvan Muxtar Respublikası paytaxt Naxçıvan şəhərindən və 7 inzibati rayondan təşkil olunub. 5 şəhəri, 8 qəsəbəsi, 206 kəndi vardır. Naxçıvan MR-nın sərhəddi Türkiyə Respublikası ilə 14 kilometr, İran İslam Respublikası ilə 204 kilometr, Ermənistanla 246 kilometr təşkil edir.

Naxçıvan Muxtar Respublikasının ali qanunverici hakimiyyət orqanı 45 deputatdan ibarət olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisidir. Naxçıvan Ali Məclisinin səlahiyyət müddəti 5 ildir. Azərbaycan Respublikası Konstitusiyası və Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən muxtar respublika Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsidir. İcra hakimiyyətini Nazirlər Kabineti, məhkəmə hakimiyyətini isə muxtar respublikanın məhkəmələri həyata keçirirlər.

Naxçıvan Muxtar Respublikasında 3 ali təhsil müəssisəsi - Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi, 3 orta ixtisas məktəbi, Heydər Əliyev adına Hərbi Lisey, 5 peşə məktəbi və 216 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".

Naxçıvan antik və orta əsrlər dövrünə aid türkislam mədəniyyəti nümunələri və tarixi abidələrlə - qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən muxtar respublika ərazisindəki 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılmışdır. İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərini özündə yaşadan Naxçıvan Muxtar Respublikasında milli və mənəvi dəyərlərə hörmətlə yanaşılır, dini dəyərlər və adət-ənənələr qorunub saxlanılır, abidələr bərpa olunur.

Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur.

2023-cü ildə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam imzalamışdır.

Beynəlxalq Kitab Bağışlama Günü
(2013)



14 Fevral - Beynəlxalq kitab bağışlama günü (International Book Giving Day) – təqvimdə ən gənc bayramlardandır. Bu gün uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət yaradan bütün insanları birləşdirir.

2012-ci ildə meydana gələn bu bayram ABŞ-da məşhur Delightful Children's Books uşaq kitabı saytının yaradıcısı Emmi Brodmoorun adı ilə bağlıdır. Bu ideyanı ona balaca oğlu vermişdir. O, anasından soruşmuşdur ki, niyə insanların bir-birinə kitab bağışladığı xüsusi gün yoxdur. 2011-ci ildə Amerikanın Minessota əyalətində yaşayan 6 yaşındakı Jack Broadmoore adlı kiçik qız "Kitap Vermə Günü" adlı bir bayram uydurmuşdur. Bütün dostlarını və ailə üzvlərini də bu bayramda bir birləri ilə kitab dəyişdirməyə məcbur etmişdir. Tam bir il sonra 2012-ci ildə Jackin anası Amy Broadmoore, uşaq kitabları bloqunda bütün kitabsevərləri, uşaqlara kitab hədiyyə edərək "Kitab Vermə Günü"nü qeyd etməyə dəvət etmişdir.

2013-cü ildə də Cənubi Afrikadan Braziliyaya, Sinqapurdan İngiltərəyə, Hindistandan Yeni Zellandiyaya qədər çox fərqli ölkədən bloqqerlər birlikdə hərəkət edərək insanları o günü "uşaqlara kitab vermə günü" olaraq qeyd etməyə çağırmışlar. Deməli o gündən bəri dünyanın bir çox ölkəsində 14 fevral "Dövlətlərarası Kitab Vermə Günü" olaraq qeyd olunmağa başlamışdır. Mövcud olduğu ildən bu təşəbbüs bütün dünyada dəstək qazanır və indi də yeni iştirakçılar cəlb etməkdə davam edir. Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi mühüm rol oynamışdır.

Hər il minlərlə həm oxunmuş, həm də yeni kitablar dünyanın bütün istiqamətlərinə yola düşür və uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək sevinci yaradır. İlk olaraq evdə oxuduğumuz və bir daha oxumayacağımızı düşündüyümüz kitablarımızı ayıraq. Ətrafımızdakı kitablarla maraqlanan insanlara bu kitabları verək. Bir uşağa kitab alaq. Dostlarımızla kitablarımızı dəyişək. Kitablarımızı kitabxanaya, uşaq evlərinə, xəstəxanalara və ya kitab kampaniyalarına bağışlayaq. Uzun səyahətlər zamanı oxuyub bitirdiyimiz kitabları avtovağzallara, hava limanlarına və ya başqa yerlərə qoyaq.

Azərbaycan Milli Kitabxanasında hər il "Beynəlxalq kitab bağışlama günü" münasibətilə tədbir keçirilir. Tədbirdə mütaliə mədəniyyətinin formalaşmasında kitabın rolundan, gələcək nəsillərin dünyagörüşünün inkişafında kitab oxumağın nə qədər vacib məsələ olmasından bəhs edilir. Eyni zamanda Milli Kitabxana tərəfindən "14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü" adlı virtual sərgi təqdim edilir. Onlayn sərgidə fotolar, mövzuya dair kitab və dövri mətbuat səhifələrində dərc olunan məqalələr nümayiş olunur.

Ədəbiyyat:

Mənə kitab bağışla... // Mədəniyyət.- 2023.- 17 fevral.- S.4.

Nərimanoğlu, M. Kitab dostumuz, ən dəyərli bilik mənbəyimizdir: 14 Fevral Beynəlxalq Kitab Bağışlama Günüdür / Məhəmməd Nərimanoğlu // Azərbaycan.- 2022.- 13 fevral.- S.8.

Ən dəyərli hədiyyə: 14 fevral "Beynəlxalq kitab bağışlama günü"dür /N.Məmmədli//Mədəniyyət.-2020.- 14 fevral.- S.7.

Bayramov, Z. Kitab ən qiymətli hədiyyədir / Ziyafəddin Bayramov // Respublika.- 2020.- 1 mart.- S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Beynəlxalq_Kitab_Bağışlama_Günü

https://azertag.az/xeber/fevralin_14_u_beynelxalq_kitab_bagislama_gunudur-1136583

Beynəlxalq Ana Dili Günü
(1999)



Hər il fevral ayının 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd edilir. Birləşmiş Millətlər Təşkilatının 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü əsasında belə bir tarixi qərar qəbul etməsi ötən əsrin ortalarında Pakistanda benqal dilinin sıxışdırılması zəminində baş verən hadisələrlə bağlı olmuşdur.

1952-ci il fevralın 21- 22-də Pakistanda benqal dilinin qadağan edilməsinə etiraz əlaməti olaraq keçirilmiş dinc kütləvi aksiyada qətlə yetirilmiş 4 nəfərin xatirəsinə ehtiram olaraq Banqladeş nümayəndələri fevralın 21-i tarixinin Beynəlxalq Ana Dili Günü kimi qeyd olunması barədə məsələ qaldırmışlar. BMT-nin ali mədəniyyət qurumu olan UNESCO-nun 1999-cu ilin noyabrında keçirilmiş baş konfransında fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan olunmuşdur.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dilinin daha da inkişaf etdirilməsi yolunda geniş üfüqlər açılmışdır. Xalqımız 1995-ci il noyabr ayının 12-də referendum yolu ilə mövqeyini nümayiş etdirərək Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması müddəasına tərəfdar çıxmışdır.

Beləliklə, dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırılmış, onun hüquqları qorunmuş, cəmiyyətdəki mövqeləri bərpa edilmişdir. Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicisi olan Heydər Əliyev yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyun ayının 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır. Fərmanda dilimizin tarixi inkişafı boyu əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində mövcud problemlər də geniş təhlil edilmiş, onların həlli yolları göstərilmişdir.

2001-ci ildə latın qrafikalı Azərbaycan əlifbasına keçidin reallaşması ulu öndər Heydər Əliyevin dilimizin inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. Ümummilli liderin 2001-ci il 9 avqustda imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmana əsasən, hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan əlifbası və dili günü kimi geniş qeyd edilir.2003-cü ilin yanvar ayının 2-də isə Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş, qanunda dövlətin ana dilinə qayğısı sahəsindəki əsas vəzifələr dəqiq şəkildə göstərilmişdir. Prezident İlham Əliyevin ana dilinə qayğı siyasətinin yeni mərhələdə uğurla davam etdirilməsi bütövlükdə qloballaşma şəraitində xalqın milli-mənəvi dəyərlərinin qorunmasından xəbər verir.

Prezident İlham Əliyev 2018-ci il noyabr ayının 1-də Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalamışdır. Fərmanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaratmaq tapşırılmışdır.

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən "21 fevral Beynəlxalq Ana Dili Günü" adlı virtual sərgi hazırlanaraq istifadəçilərə təqdim olunur. Virtual sərgidə görkəmli şəxslərin ana dili haqqında fikirləri, ümummilli lider Heydər Əliyevin dil siyasəti, Azərbaycan dilinin tarixi, eləcə də mövzu ilə bağlı kitab və məqalələr nümayiş olunur.

Ədəbiyyat:

UNESCO-da Beynəlxalq Ana Dili Günü qeyd edilib //Mədəniyyət.-2020.-26 fevral.- S.8.

Azərbaycan Yazıçılar Birliyində Beynəlxalq Ana Dili günü ilə bağlı tədbir keçirilmişdir //Kredo.-2023.- 10 mart.- S.14.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Beynəxalq_Ana_Dili_Günü

https://azertag.az/xeber/21_fevral___beynelxalq_ana_dili_gunudur-1138686

https://medeniyyet.az/page/news/56134/21-fevral-Beynelxalq-Ana-Dili-Gunudur.html

Xocalı soyqırımı
(1992)



Ədəbiyyat:

Turabqızı, S. Əsir Xocalı / Səkinə Turabqızı; red. B. Sadiq.- Bakı: [Gənclik], 2023. 213, [1] s.

Turabqızı, S. Xocalı ağrısı: (tarixi esselər) / Səkinə Turabqızı; red. B. Sadiq; [ön söz V. Yusifli].- Bakı: [Gənclik], 2021.-202, [2] s.

Rüstəmov, Z. Bir gecənin fəryadı / Ziyadxan Rüstəmov.- Bakı: [Ləman NP], 2020.- 28 s.

Kamalqızı, R. Bəşər tarixində vəhşilik aktı: Xocalı soyqırımı / Rəfiqə Kamalqızı // Səs.- 2023.- 23 fevral.- S.4.

Bayramova, Z. 31 il əvvəl törədilən Xocalı soyqırımı / Zümrüd Bayramova // Səs.- 2023.- 25 fevral.- S.13.

"Xocalı soyqırımı qan yaddaşımızdır" // Mədəniyyət.- 2022.- 23 fevral.- S.4.

Hocalı soykırımı tanıklar anlatıyor: unutmadıq, unutmayacagıq! 26 şubat 1992.- [İstanbul]: [Kartons Matbaacilik ve Yayıncilik Ltd. Şti].- [2020]. 112 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Xocal%C4%B1

Dünya tarixində insanların kütləvi qətliamı ilə bağlı soyqırımlar çox olub. Amma onların içərisində Xocalı soyqırımı xarakteri və qəddarlığı ilə fərqlənir. Azərbaycanlılar tək Xocalıda deyil, 1905-1907, 1918-ci illərdə, soydaşlarımızın Qərbi Azərbaycandan deportasiya edildiyi dövrlərdə, 1988-ci ildə daşnak qəddarlığının qurbanı olublar.... Xocalı soyqırımını tanıyan Pakistan, Kolumbiya, Meksika kimi digər ölkələrdə də ictimaiyyətə çatdırılır ki, 26 fevral 1992-ci ildə yer üzündən silinən bu şəhərin 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri ahıl olmaqla 613 sakini qətlə yetirilmiş, 487 nəfər şikəst olmuş, 1275 nəfər ermənilər tərəfindən əsir götürülmüş, təhqirlərə məruz qalmışdır. Onların 150 nəfərinin taleyi barədə bu günədək xəbər yoxdur. 24 uşaq hər iki valideynini itirmiş, 130 körpə isə bir valideynindən məhrum olmuşdur. Soyqırım qurbanlarından 56 nəfəri amansız vəhşiliklə qətlə yetirilmişlər.

Dəhşətli soyqırımlara imza atan ermənilər, keçmiş sovetlərin 366-cı alayının əsgər və zabitləri Xocalıda qətlə yetirdikləri azərbaycanlıları soyqırım qurbanı kimi görmək istəmirlər. Amma 1915-ci ildə Osmanlı dövründə satqınlığı və dövlətçiliyə qarşı göstərdiyi xəyanətləri üzündən öldürülən daşnakları guya soyqırım qurbanları kimi tanıtmaq üçün min cür hiyləyə əl atırlar. İndi bütün dünya ictimaiyyəti bilir ki, 1992-ci ildə erməni faşizminin azərbaycanlılara qarşı növbəti qətliamı olan Xocalıda görünməmiş dəhşətlər yaşanıb.Ötən əsrdə ermənilərin azərbaycanlılara qarşı yönəlmiş soyqırımına ilk siyasi qiyməti 26 mart 1998-ci ildə (1918-ci il mart hadisələrinin 80-ci ildönümü ərəfəsində) imzaladığı fərmanla verən ümummilli lider Heydər Əliyev daha bir tarixi missiyanı yerinə yetirdi. Prezident İlham Əliyevin səyi, Azərbaycanın artan nüfuzu, uğurlu diplomatiyası sayəsində dünya ictimaiyyətinə çatdırıldı ki, Ermənistanın idarə olunan siyasətinin əsasında terrorçuluq və işğalçılıq dayanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq səviyyədə aparılan ideoloji təbliğatın əsas prioritetləri Dağlıq Qarabağ haqqında həqiqətləri, Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaqdır.

57 ölkənin gənclər təşkilatlarını birləşdirən İƏT-in Gənclər Forumu İdarə Heyətinin sessiyasında qurumun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış, bütün dünya birliyi tərəfindən dəstəklənən "Xocalıya ədalət" kampaniyasını genişləndirməkdə də məqsəd ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır. "Leyla Əliyeva: Xocalıya ədalət" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) kitabı da "Xocalıya ədalət" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının 5 illiyi münasibətilə nəşr olunmuşdur. Xocalı soyqırımının ildönümü günlərində Avropa və Qərb dövlətlərində keçirilən aksiyalarda iştirak edənlərin sayının artması, Xocalı faciəsinin İsveçdə yaradılmış və virtual aləmdə geniş təbliğ olunan "Beynəlxalq Müharibə Qurbanları Memorialı"na daxil olunması da Azərbaycana dəstək kampaniyasının nümunəsidir.

Xocalı rayonu 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Yevlax rayonunda keçirilən danışıqların nəticəsində Xocalı rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının nəzarətinə keçmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır.

MART



19 fevral-
20 mart

Balıq
Nişanı
sudur. Yupiter
və Neptunun
himayəsindədir.
Günəşin Balıqlar
bürcündən
keçdiyi dövrdə
doğulanlar
incə intuisiyalı
olmaqla yanaşı,
daim bir
narahatlıq hissi
də keçirirlər.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	31

- *Azərbaycanın BMT-yə qəbul olunması günü(02.03.1992)*
- *Ümumdünya Yazıçılar Günü (03.03.1986)*
- *Milli Teatr Günü (10.03.2013)*
- *Beynəlxalq Novruz Günü (21.03.2010)*
- *Azərbaycanda "Elm günü" (27.03.2018)*
- *Azərbaycanlıların soyqırımı günü (31.03.1998)*

Yaşıl dünya naminə həmrəylik ili



Müasir dövrdə enerji təhlükəsizliyi və ətraf mühitin çirklənməsi, qlobal iqlim dəyişmələri bəşəriyyəti narahat edən əsas problemlərdəndir. Problemlərin həlli istiqamətində alimlər və mütəxəssislər tərəfindən müxtəlif fikirlər yürüdülür ki, bunlardan da bu gün üçün ən önəmlisi alternativ və bərpa olunan enerji mənbələrindən istifadədir.

Bütün dövlətlər özlərinin yanacaq-enerji balansına yeni enerji mənbələrinin cəlb edilməsinə çalışırlar. Bu külək, günəş, biokütlə, dalğa, qabarma-çəkilmə, kiçik çayların hidroloji enerjisi kimi qeyri-ənənəvi enerji mənbələri xüsusi yer tutur. Azərbaycan hökuməti 2008-ci ildə "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə" xüsusi Dövlət Proqramı qəbul etmiş və bu sahədə görülən işlər reallaşdırılmışdır. Azərbaycan 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürmüşdür.

Azərbaycanda 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialı mövcuddur. Bunun 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür.Hazırda Azərbaycanın ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17,3 faiz təşkil edir.

MART 2024



Milli ədəbiyyat

Şair Molla Vəli Vidadinin (17.03.1709-13.05.1809) anadan olmasının 315 illiyi
Xalq yazıçısı Ələkbərzadə Əbülhəsən Əlibala oğlunun (12.03.1904-20.05.1986) anadan olmasının 120 illiyi 134
Əməkdar incəsənət xadimi, yazıçı, dramaturq, teatrşünas, kinoşünas, tərcüməçi, kinossenarist Cabbarlı Cəfər Qafar oğlunun (20.03.1899-31.12.1934) anadan olmasının 125 illiyi
Xalq yazıçısı, nasir, dramaturq, tənqidçi Hüseynov Mehdi Əli oğlunun (Mehdi Hüseyn) (22.03.1909- 10.03.1965) anadan olmasının 115 illiyi
Xalq yazıçısı, nasir, ədəbiyyatşünas, publisist, pedaqoq, ssenarist Şıxlinski İsmayıl Qəhrəman oğlunun (İsmayıl Şıxlı) (22.03.1919-26.07.1995) anadan olmasının 105 illiyi
Əməkdar incəsənət xadimi, şair, dramaturq Xəlilov Zeynal Rza oğlunun (23.03.1914-11.08.1973) anadan olmasının 110 illiyi 135
Filologiya elmləri doktoru, şair Qasımov Dəmir Müseyib oğlunun (Dəmir Gədəbəyli) (27.03.1939-06.05.2019) anadan olmasının 85 illiyi 136
Şair, publisist və tərcüməçi, ictimai-dövlət xadimi Əliyev Teymur Süleyman oğlunun (Teymur Elçin) (28.03.1924-14.03.1992) anadan olmasının 100 illiyi 137



Folklor

Əməkdar mədəniyyət işçisi, şair-aşıq Zeynalov Mikayıl Cabbar oğlunun (Aşıq Mikayıl Azaflı) (21.03.1924-12.10.1990) anadan olmasının 100 illiyi 138



Dünya ədəbiyyatı

Ukrayna şair və yazıçısı Şevçenko Taras Qriqoryeviçin (09.03.1814-26.02/10.03.1861) anadan olmasının 210 illiyi 139
Rus yazıçısı, dramaturq, şair, tənqidçi, publisist Qoqol Nikolay Vasilyeviçin (20.03/01.04.1809-21.02/04.03.1852) anadan olmasının 215 illiyi 140



Musiqi.Opera.Balet

Xalq artisti, tar ifaçışı Haşımova Ceyran Əsəd qızının (08.03.1934) anadan olmasının 90 illiyi 141
Xalq artisti, xanəndə, şair, qəzəlxan, pedaqoq Hüseynov Hacıbaba Hüseynəli oğlunun (15.03.1919- 24.10.1993) anadan olmasının 105 illiyi
Xalq artisti, Azərbaycan peşəkar musiqi teatrının banilərindən biri, opera müğənnisi, aktyor, rejissor, pedaqoq, teatr xadimi Rzayev Hüseynqulu Məlik oğlunun (Hüseynqulu Sarabski) (20.03.1879-16.02.1945) anadan olmasının 145 illiyi 142

Xalq artisti, xanəndə Qəhrəmanov Səfa Hüseyn oğlunun (30.03.1949- 05.05.2008) anadan olmasının 75 illiyi 143



Teatr.Kino

Xalq artisti, aktyor Heydərzadə (Vəlixanlı) Məmmədəli Hacı Heydər oğlunun (15.03.1899-12.04.1969) anadan olmasının 125 illiyi
Xalq artisti, teatr aktyoru Quliyev Məmməd Allahverdi oğlunun (15.03.1914-11.09.2001) anadan olmasının 110 illiyi 144
Əməkdar incəsənət xadimi, teatr rejissoru, aktyor Şərifov Niyaz Səttar oğlunun (16.03.1914-15.05.1982) anadan olmasının 110 illiyi 145
Xalq artisti, teatr və kino aktyoru Sadıqov Hüseynağa Ələsgər oğlunun (21.03.1914-23.02.1983) anadan olmasının 110 illiyi 146
Xalq artisti, aktyor Abdullayev Lütfəli Əmir oğlunun (22.03.1914-09.12.1973) anadan olmasının 110 illiyi 147
Xalq rəssamı, rejissor, ssenari müəllifi İsmayılov Rafiz Rza oğlunun (30.03.1939) anadan olmasının 85 illiyi 148



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Seryoqin Viktor Vasilyeviçin (23.03.1944-28.01.1992) anadan olmasının 80 illiyi 149
Azərbaycanın Milli Qəhrəmanı Təhməzov Paşa Qurban oğlunun (23.03.1949-23.08.1993) anadan olmasının 75 illiyi 150
Azərbaycanın Milli Qəhrəmanı İsmayılov İlqar Sədi oğlunun (29.03.1959-01.10.1992) anadan olmasının 65 illiyi 151
Azərbaycanın Milli Qəhrəmanı İsmayılov Etibar Bəylər oğlunun (29.03.1964-04.01.1994) anadan olmasının 60 illiyi 152
Azərbaycanın Milli Qəhrəmanı Qəhrəmanov Fariz Çoban oğlunun (29.03.1974) anadan olmasının 50 illiyi 153



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Kiçik çavuş Ağayev Zabil Azər oğlunun (01.03.1994-07.11.2020) anadan olmasının 30 illiyi 154
Əsgər Mehtiyev Elgiz Şahin oğlunun (01.03.1999-05.11.2020) anadan olmasının 25 illiyi 154
Leytenant Bəşirov Hakim Nizam oğlunun (02.03.1989-20.10.2020) anadan olmasının 35 illiyi 155
MAHHXHQ əsgər Həsənov Emil Eldəniz oğlunun (02.03.1999-22.10.2020) anadan olmasının 25 illiyi 155
MAHHXHQ əsgər Vəliyev Hidi Bəxtiyar oğlunun (02.03.1994-27.09.2020) anadan olmasının 30 illiyi 156
MAHHXHQ kiçik çavuş Paşayev Elgün İlham oğlunun (04.03.1994-27.09.2020) anadan olmasının 30 illiyi 156

Gizir Əliyev Elçin Rasim oğlunun (04.03.1994-28.09.2020) anadan olmasının 30 illiyi 157
Kiçik gizir İbrahimli Nail Nəriman oğlunun (04.03.1994-08.11.2020) anadan olmasının 30 illiyi 157
Əsgər Hacılı Feyruz Bəhruz oğlunun (04.03.1994-17.10.2020) anadan olmasının 30 illiyi 158
Əsgər Quliyev Hüseyn Həsən oğlunun (04.03.1999-28.09.2020) anadan olmasının 25 illiyi 158
Leytenant Atayev Nicat Habil oğlunun (05.03.1994-27.09.2020) anadan olmasının 30 illiyi 159
Gizir Aslanov Xəyal Qüdrət oğlunun (05.03.1994-28.09.2020) anadan olmasının 30 illiyi 159
MAHHXHQ əsgər Cəfərov Vüsal Sərhədxan oğlunun (06.03.1989-22.10.2020) anadan olmasının 35 illiyi 160
MAHHXHQ əsgər Zeynalov Arzu Rövşən oğlunun (06.03.1999-02.10.2020) anadan olmasının 25 illiyi 160
Əsgər Daşdəmirov Rəvan Məzahir oğlunun (06.03.1994-27.10.2020) anadan olmasının 30 illiyi 161
Əsgər Fərziyev Balaş İltizam oğlunun (06.03.1994-29.09.2020) anadan olmasının 30 illiyi 161
Əsgər Lillahov Fərid Loğman oğlunun (06.03.1999-08.11.2020) anadan olmasının 25 illiyi 162
MAHHXHQ əsgər Həmidov Pərvin Azər oğlunun (08.03.1994-01.10.2020) anadan olmasının 30 illiyi 162
MAHHXHQ əsgər Həsənov Sərxan Habil oğlunun (08.03.1999-27.09.2020) anadan olmasının 25 illiyi 163
Əsgər Dadaşov Seyfəddin Məhyəddin oğlunun (08.03.1999-31.10.2020) anadan olmasının 25 illiyi 163
Əsgər Ömərli Kənan Elxan oğlunun (08.03.1999-06.10.2020) anadan olmasının 25 illiyi 164
Əsgər Zeynalov Elşən Zaman oğlunun (08.03.1999-14.10.2020) anadan olmasının 25 illiyi 164
MAHHXHQ kiçik çavuş Əliyev Mərhab Şikar oğlunun (08.03.1979-15.10.2020) anadan olmasının 45 illiyi 165
MAHHXHQ çavuş İsmayılov Elvin Tələt oğlunun (09.03.1989-27.09.2020) anadan olmasının 35 illiyi 165
Əsgər Məmmədov Coşqun Elnur oğlunun (09.03.1994-22.11.2020) anadan olmasının 30 illiyi 166
MAHHXHQ əsgər Qədirzadə Aqşin Elman oğlunun (10.03.1999-18.10.2020) anadan olmasının 25 illiyi 166
Əsgər İsmayılov Tural Nurəddin oğlunun (10.03.1999-07.11.2020) anadan olmasının 25 illiyi 167

MART 2024

Leytenant Məmmədov Ümid Fərman oğlunun (19.03.1999-05.10.2020) anadan olmasının 25 illiyi 167
MAHHXHQ əsgər Namazov Təbriz Ələmdar oğlunun (14.03.1994-29.09.2020) anadan olmasının 30 illiyi 168
Miçman Axundov Mirzə Musa oğlunun (15.03.1984-02.10.2020) anadan olmasının 40 illiyi 168
Əsgər Babayev Rəşad İlham oğlunun (15.03.1999-09.11.2020) anadan olmasının 25 illiyi 169
Əsgər Quliyev Alim Fuad oğlunun (15.03.1999-30.10.2020) anadan olmasının 25 illiyi 169
MAHHXHQ əsgər Aslanov Rəşad Taryel oğlunun (16.03.1984-29.09.2020) anadan olmasının 40 illiyi 170
Əsgər Dursunov Zeynali Əlləz oğlunun (16.03.1999-14.10.2020) anadan olmasının 25 illiyi 170
Çavuş İsgəndərov İlkin Camal oğlunun (18.03.1999-25.10.2020) anadan olmasının 25 illiyi 171
Əsgər Əhmədov İlqar Xəqani oğlunun (18.03.1999-05.11.2020) anadan olmasının 25 illiyi 171
Əsgər Abdullayev Həmdulla Aslan oğlunun (19.03.1994-07.11.2020) anadan olmasının 30 illiyi 172
Əsgər Hadıyev Raqim Teymur oğlunun (19.03.1999-04.11.2020) anadan olmasının 25 illiyi 172
Leytenant İzzətli Fərid Aydın oğlunun (21.03.1994-21.10.2020) anadan olmasının 30 illiyi 173
MAHHXHQ kiçik çavuş Mustafayev Sərxan İslam oğlunun (21.03.1994-31.10.2020) anadan olmasının 30 illiyi 173
Gizir Həsənzadə Famil Şiraslan oğlunun (22.03.1994-08.11.2020) anadan olmasının 30 iliyi 174
MAHHXHQ kiçik çavuş Babayev Allahverdi Ələt oğlunun (24.03.1989-27.09.2020) anadan olmasının 35 illiyi 174
MAHHXHQ əsgər Orucov Şakir Bakir oğlunun (24.03.1999-06.10.2020) anadan olmasının 25 illiyi 175
Əsgər Bayramov Əli Nadir oğlunun (24.03.1999-05.10.2020) anadan olmasının 25 illiyi 175
Leytenant Kərimov Asif Məmməd oğlunun (25.03.1989-03.11.2020) anadan olmasının 35 illiyi 176
Baş miçman Mehdizadə Mərdan Əhməd oğlunun (25.03.1979-12.10.2020) anadan olmasının 45 iliyi 176
Gizir Mehbalıyev Vasif Gülhəsən oğlunun (26.03.1994-16.10.2020) anadan olmasının 30 illiyi 177

Baş leytenant Məmiyev Valeh İsbat oğlunun (27.03.1994-23.10.2020) anadan olmasının 30 illiyi 177
Baş gizir Yusifli Azər Nazim oğlunun (28.03.1994-21.10.2020) anadan olmasının 30 illiyi 178
Kapitan Cavadov Cəlil Ağaddin oğlunun (29.03.1989-27.10.2020) anadan olmasının 35 illiyi 179
Gizir Məmmədov Pərvin Rza oğlunun (30.03.1994-02.10.2020) anadan olmasının 30 illiyi 178



Siyasət. Hərbi iş

Filologiya üzrə fəlsəfə doktoru, dövlət xadimi Qafarova Elmira Mikayıl qızının (01.03.1934-01.08.1993) anadan olmasının 90 illiyi 180
Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor, ictimai xadim Vəliyev Ədalət Məqsəd oğlunun (04.03. 1959) anadan olmasının 65 illiyi 181
Hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti Qacar Seyfulla Mirzə Bəhmən Mirzə oğlunun (06.03.1864-29.07.1926) anadan olmasının 160 illiyi
İctimai-siyasi xadim Vəkilov Məmmədrza Hacı Mənsur oğlunun (08.03.1864-30.12.1944) anadan olmasının 160 illiyi



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Əmək Qəhrəmanı, neftçi Quliyev Piri Dostməmməd oğlunun (Usta Piri) (02.03.1869-05.08.1951) anadan olmasının 155 illiyi
Əməkdar elm xadimi, akademik, iqtisad elmləri doktoru, professor Nadirov Asəf Abbasqulu oğlunun (13.03.1929-14.03.2014) anadan olmasının 95 illiyi 182
Dövlət xadimi, general-mayor Məmmədov Aydın İsrafil oğlunun (22.03.1939-12.12. 2001) anadan olmasının 85 illiyi
Hüquq elmləri doktoru, professor Seyidov Ənvər Cümşüd oğlunun (29.03.1949) anadan olmasının 75 illiyi 183



Mədəniyyət. Maarif. Təhsil

Filologiya elmləri doktoru, professor, dilçi-alim Əfəndiyeva Türkan Əşrəf qızının (07.03.1929) anadan olmasının 95 illiyi 184
Filologiya elmləri doktoru, professor Qəhrəmanlı Nazif Ələkbər oğlunun (10.03.1949-17.08.2012) anadan olmasının 75 illiyi
Filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas, tərcüməçi, mətnşünas Beqdeli Qulamhüseyn Fətulla xan oğlunun (15.03.1919-16.08.1998) anadan olmasının 105 illiyi

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Sadıqov (Sadıqlı) Murtuz Zeynal oğlunun (21.03.1929-24.04.1997) anadan olmasının 95 illiyi
Fəlsəfə elmləri doktoru, professor, ədəbiyyatşünas, şair, filosof, Səbri Təbrizi Qulamrza Hacı Məhəmmədəli oğlunun (Qulamrza Səbri Təbrizi) (21.03.1934-08.05.2020) anadan olmasının 90 illiyi 185
Pedaqoq, maarif xadimi, publisist və şair Səfərov Məhəmməd Tağı Kərbəlayi Səfər oğlunun (Məhəmməd Tağı Sidqi) (22.03.1854-08.12.1903) anadan olmasının 170 illiyi 186



İdman

Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar məşqçi Baxşəliyev Rza İbrahim oğlunun (22.03.1899-30.01.1992) anadan olmasının 125 illiyi




Coğrafiya.Geologiya

Əməkdar mühəndis, geologiya-minerologiya üzrə fəlsəfə doktoru Bayramova Gülarə Əşrəf qızının (08.03.1939) anadan olmasının 85 illiyi



Riyaziyyat. Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, alim Sultanov Qeys Cəmşid oğlunun (09.03.1939) anadan olmasının 85 illiyi
Fizika-riyaziyyat elmləri doktoru, professor İbrahimxəlilov İbrahimxəlil Şıxəhməd oğlunun (10.03.1934-29.05.2016) anadan olmasının 90 illiyi
Əməkdar elm xadimi, akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Tağıyev Bahadır Hüseyn oğlunun (13.03.1934-07.01.2020) anadan olmasının 90 illiyi
Fizika-riyaziyyat elmləri doktoru Hüseynov Emil Kamil oğlunun (16.03.1939) anadan olmasının 85 illiyi
AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Cavadov Mais Həbib oğlunun (22.03.1929-28.09.1992) anadan olmasının 95 illiyi



Kimya.Biologiya.Tibb

Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Qasımov Əbdül Hüseynəli oğlunun (05.03.1929-31.01.2005) anadan olmasının 95 illiyi
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Nəsirov Məmməd Yəhya oğlunun (05.03.1939) anadan olmasının 85 illiyi 187

Əməkdar həkim, Sosialist Əməyi Qəhrəmanı, ginekoloq Ələsgərova Şamama Məmmədkərim qızının (08.03.1904-02.04.1977) anadan olmasının 120 illiyi
Tibb elmləri doktoru, professor Axundov Nazim Yusif oğlunun (20.03.1934-23.05.2008) anadan olmasının 90 illiyi
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, allerqoloq Əyyubova Amaliya Abdulla qızının (26.03.1934-17.06.2023) anadan olmasının 90 illiyi
Kimya elmləri doktoru, professor Ağahüseynova Minirə Məhəmməd Əli qızının (26.03.1949) anadan olmasının 75 illiyi 188
Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, kimya üzrə mühəndis-texnoloq Səmədova Fəzilə İbrahim qızının (29.03.1929-08.01.2020) anadan olmasının 95 illiyi



Texnika.Mühəndis işi

AMEA-nın müxbir üzvü, texnika üzrə elmlər doktoru, professor, energetik Əlizadə Ağasəməd Əbdülhüseyn oğlunun (08.03.1909-1990) anadan olmasının 115 illiyi
Dünyada ilk kosmonavt Qaqarin Yuri Alekseyeviçin (09.03.1934- 27.03.1968) anadan olmasının 90 illiyi 189
Alman fiziki Eynşteyn Albertin (14.03.1879-18.04.1955) anadan olmasının 145 illiyi
Fəxri mühəndis, radionun ixtiraçısı Popov Aleksandr Stepanoviçin (16/04.03.1859-13.01.1906/31.12.1906) anadan olmasının 165 illiyi
İlk azərbaycanlı qadın hərbi pilot Seyidməmmədova Züleyxa Həbib qızının (22.03.1919-10.11.1994) anadan olmasının 105 illiyi



Digər tarixi hadisələr

Dmitri Mendeleyev kimyəvi elementlərin onların atom çəkisinə və kimyəvi uyğunluqlarına görə dövri cədvəlini tərtib etmişdir (01.03.1869)
Ümumdünya Mülki Müdafiə Günü (01.03.1972)
“AzInTelecom” MMC (01.03.1994) yaradılmışdır
Azərbaycanın BMT-yə qəbul olunması günü (02.03.1992)
Ümumdünya Yazıçılar günü (03.03.1986) 190
Bədən Tərbiyəsi və İdman Günü (05.03.2005)
Azərbaycanda ilk Dövlət Bankının yaradılmasının (07.03.1919) 105 illiyi
Beynəlxalq Qadınlar Günü (08.03.1910) 191
Milli Teatr Günü (10.03.1873) 192
Qızıl Aypara Günü (10.03.2009)
Daxili Qoşunlar Günü (12.03.1995)
Ümumdünya İstehlakçılar Günü (15.03.1983)


MART 2024

"Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendumu keçirilmişdir (18.03.2009)
Ermənistanın xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı metropoliteninin "20 Yanvar" stansiyasında terror aktı törədilmişdir (19.03.1994)
Naxçıvan MR-da Kəngərli rayonu yaradılmışdır (19.03.2004)
Miqrasiya orqanları işçilərinin peşə bayramı günü (19.03.2010)
Novruz bayramı (20-22.03) 193
Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə Əlifba islahatı komissiyası yaradılmışdır (21.03.1919)
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü (21.03.1966)
Beynəlxalq Novruz Günü (21.03.2010)
Beynəlxalq Poeziya Günü (21.03.1999) 194
Ümumdünya Meşələr Günü (21.03.2012)
Ümumdünya Su Günü (22.03.1992)
Azərbaycan Respublikası Ekvador ilə diplomatik əlaqələr qurmuşdur (22.03.2004)
Ümumdünya Meteorologiya Günü (23.03.1961)
Beynəlxalq Teatr Günü (27.03.1961) 195
Elm Günü 196
Azərbaycanda ilk Milli Təhlükəsizlik Orqanının yaradılmasının (indi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti) (28.03.1919) 105 illiyi
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997)
Azərbaycanda Nobel Qardaşları şirkətinin fəaliyyətə (29.03.1879) başlamasının 145 illiyi
Azərbaycanlıların soyqırımı günü (31.03.1998) 197

Əbülhəsən Ələkbərzadə – 120

(1904-1986)

Yazıçı



Əbülhəsən Əlibaba oğlu Ələkbərzadə 1904-cü il mart ayının 12-də (digər mənbələrdə 1906-cı ildə) İsmayıllı rayonunun Basqal kəndində anadan olmuşdur.

Əbülhəsən 1912-ci ildə Basqal kəndində dördsinifli rus-tatar məktəbini bitirdikdən sonra üç aylıq müəllimlər kursuna daxil olmuşdur. Oranı bitirdikdən sonra yazıçı Ağsu rayonunun Nuran kəndində bir il müəllimlik etmişdir.

Ələkbərzadə daha sonra keçmiş Bakı Müəllimlər Seminariyasına daxil olmuş və 1925-ci ildə oranı bitirdikdən sonra Dərbənd pedaqoji texnikumunda müəllim kimi çalışmışdır. 1927-ci ildə Əbülhəsən indiki Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişdir. Daha sonra o, bir il Balaxanıda Maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Müxtəlif illərdə yazıçı Tovuzda maarif müdiri, Kinematoqrafiya Komitəsində baş redaktor, "Azərbaycan" jurnalında baş redaktor işləmişdir.

Əbülhəsən Ələkbərzadə ədəbi fəaliyyətə 1925-ci ildə "Maarif yolu" jurnalında şeirlərini çap etdirməklə başlamışdır. Onun burada "Dağlar", "Şahbuzdağı", "Bahar yağışları", "Qasımkəndin yaxınlığında", "Etirafdan", "Cortel axşamı" və başqa şeirləri dərc olunmuşdur. Bu əsərlər lirik xarakterdədir, əsasən təbiət lövhələrindən ibarətdir.

1927-ci ildə "Maarif və mədəniyyət" jurnalında yazıçının "Sofi" adlı hekayəsi çap olunmuşdur. Bu hekayə ilə o ədəbiyyatımızda dini mistikaya qarşı aparılan çoxəsrlik mübarizənin davamçısı kimi nəsrə qədəm qoyur. Onun "Araz" adlı ilk hekayələr kitabı 1930-cu ildə nəşr edilmişdir. 1934-cü ildən AYB-nın üzvü olmuşdur.

Əbülhəsən Ələkbərzadənin yaradıcılığı üçün ən səciyyəvi janr romanıdır. İlk müasir Azərbaycan romanı da onun qələminə məxsusdur: kənddə kollektivləşmə hərəkatına həsr edilmişdir "Yoxuşlar", Azərbaycan zəhmətkeşlərinin hakimiyyəti ələ alması və inqilabi dövlət yaratması prosesindən bəhs edən "Dünya qopur" romanları. "Dünya qopur" həm müəllifin, həm də o zamankı bədii nəsrimizin görkəmli nailiyyəti idi. Müəllif bu əsərini bir neçə dəfə təkmilləşdirmişdir. 1980-ci ildə isə "Üç ildən sonra" adı ilə çap etdirmişdir. Bundan başqa Boşandı (1930), Tanışlar (1935), Yoxuşlar (1933, 1938, 1962), Krım hekayələri (1943), Görüş yeri (1943), Atalar və oğullar (1944), Ağsu (1948), Müharibə (1948, 1950, 1952), Hekayələr (1954), Dostluq qalası (1955), Tamaşa qarının nəvələri (1957, 1973), Dünya qopur (1933, 1968, 1957), Tərs adamlar (1967), Utancaq (1975), Sədaqət (1978), Üç ildən sonra(1983), Seçilmiş əsərləri: 3 cilddə (1984), Povestlər və hekayələr (2006) adlı kitablarıda çap olunmuşdur.

Əbülhəsən Ələkbərzadə atmışıncı illərdə "Tərs adamlar" və "Dünya qopur" romanlarını, daha sonralar isə "Tamaşa qarının nəvələri", "Utancaq" povestlərini" və "Sədaqət" romanını yazmışdır.

İkinci Dünya müharibəsi zamanı Əbülhəsən Ələkbərzadə əvvəlcə Sevastopolun müdafiəsində nişançı rotasının komandiri vəzifəsində, daha sonra isə hərbi komissarlıqda çalışıb. Ələkbərzadə 1966, 1971 və 1976-cı illərdə "Qırmızı Bayraq"ordeni, fəxri fərmanlar və döyüş medalları ilə təltif olunub. 1979-cu ildə Azərbaycan SSR Xalq yazıçısı fəxri adına layiq görülmüşdür.

Əbülhəsən Ələkbərzadə 1986-cı il may ayının 20-də vəfat etmişdir və İsmayıllının Basqal kəndində dəfn olunub.

Bakıda küçələrin biri onun adını daşıyır.

Ədəbiyyat:

Əsədullayeva, N. Əbülhəsən yaradıcılığında sinfi düşmən obrazları / Nuranə Əsədullayeva // Azərbaycan ədəbiyyatşünaslığı / AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.- 2022.- №1.- S.77-85.

Hüseynova, Şəhla Azərbaycan hekayəsində portret və psixologizm: (Ə. Əbülhəsənin yaradıcılığı əsasında) / Şəhla. Hüseynova; elmi red. P. Kərimov; baş elmi məsl. və ön söz. müəl. İ. Əliyeva.- Bakı: [Elm], 2022.- 153.

Povestlər və hekayələr / Əbülhəsən Əbülhəsən; S. Bağırov.- Bakı: "E.L" NPŞ MMC, 2006.- 400 s.

Əhmədov, T. XX əsr Azərbaycan yazıçıları / Teymur Əhmədov.- Bakı, 2004.- S. 212.

Üç ildən sonra: romanın sonu / Əbülhəsən Ələkbərzadə. - Bakı: Yazıçı, 1983.- 183 s.

Utancaq: povest / Əbülhəsən Ələkbərzadə; [red. B. Həsənov].- Bakı: Gənclik, 1975. – 133 s.

Dostluq qalası: "Müharibə" romanının 4-cü kitabı / Əbülhəsən Ələkbərzadə; [red. N. Nağıyev].- Bakı: Azərnəşr, 1970. - 436 s.

Zeynal Xəlil – 110

(1914-1973)

Şair, dramaturq



Zeynal Rza oğlu Xəlilov (Zeynal Xəlil) 1914-cü il mart ayının 23-də Gəncə şəhərində papaqçı ailəsində anadan olmuşdur. Gəncədəki yeddiillik məktəbi bitirdikdən sonra pedaqoji fəhlə fakültəsində, daha sonra 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) təhsil almışdır. Ali məktəbi bitirdikdən sonra Qasım İsmayılov Goranboy kəndində (indiki Goranboy rayonu) orta məktəb müdiri vəzifəsində çalışmışdır.

Zeynal Xəlilin "Yeni kənd" adlı ilk mətbu şeiri 1936-cı ildə "Hücum" adlı jurnalda, daha sonra şeirləri "Gənc işçi" və "Ədəbiyyat" qəzetlərində dərc olunmuşdur. "İstək" adlı şeirlər kitabı 1936-cı ildə nəşr olunmuşdur.

O, 1941-1942-ci illərdə cəbhədə vuruşmuş, ağır yaralandıqdan sonra vətənə qayıtmışdır.

Zeynal Xəlilin 1938-1939-cu illərdə İncəsənət Muzeyinin direktoru, 1939-1945-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının Rəyasət Heyətinin məsul katibi, 1945-1948-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının müdiri, 1947-1950-ci illərdə isə Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətində sədr müavini, 1950-1951-ci illərdə Azərbaycan SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin redaktoru, sonra məsul katibi, 1951-1952-ci illərdə Azərnəşrdə redaktor, 1952-1956-cı illərdə Azərbaycan SSR Radio Komitəsində bədii verilişlər üzrə məsləhətçi, 1956-1958-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi, 1960-1963-cü illərdə Azərbaycan Mədəniyyət Nazirliyi İncəsənət İşləri İdarəsinin rəisi, 1963-cü ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsində baş redaktor vəzifəsində çalışmışdır.

Zeynal Xəlilin ədəbi irsi zəngindir. Onun yüzlərlə lirik şeiri, 14 poeması, 1 mənzum romanı, 5 dramı, ədəbiyyat və sənətin müxtəlif məsələlərinə dair tənqidi-publisistik məqalələri, rus və dünya ədəbiyyatı klassiklərindən tərcümələri vardır. Zeynal Xəlil özbək şairi Qafur Qulam, rus şairi Pavel Antokolski, macar şairi Şandor Petöfi, avar şairi Rəsul Həmzətov, gürcü şairi David Quramişvili kimi yazıçıların əsərlərini Azərbaycan dilinə tərcümə edib.

Zeynal Xəlilin sağlığında 22 kitabı işıq üzü görmüşdür. 1940-cı ildə "Qılınc" poeması, 1941-ci ildə "Qatır Məmməd", 1942-ci ildə "Tatyana", 1943-cü ildə "Düşüncələr", 1947-ci ildə "Etibar", 1949-cu ildə "Arzular", "Qələbə", 1954-cü ildə "Gənc ustalar", 1955-ci ildə "Lalə", 1956-cı ildə "Bənövşə", 1972-ci ildə "Günəş, dəniz və insan" adlı kitabları çap olunmuşdur. "Qatır Məmməd" pyesi motivləri əsasında 1974-cü ildə bədii film çəkilmişdir. İlk pyesi "İntiqam" bir çox teatrlarda tamaşaya qoyulmuş və müvəffəqiyyət qazanmışdır

1941-1942-ci illərdə göstərdiyi rəşadətə görə "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər ikinci Dünya müharibəsində fədakar əməyə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif olunmuş, 1964-cü ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Zeynal Xəlil 1973-cü il avqust ayının 11-də vəfat etmişdir. II Fəxri Xiyabanda dəfn olunub.

Vəfatından sonra 3 kitabı - 1975-ci ildə "Dünya, ey gözəl dünya", 1978-ci ildə "Əsrim, taleyim mənim" və 2000-ci ildə Tehranda "Əsrim, taleyim mənim" adlı şeirlər kitabı latın qrafikası və əski əlifba ilə Azərbaycan dilində nəşr olunmuşdur.

2023-cü ildə Zeynal Xəlilin tərcümə etdiyi macar şairi Şandor Petöfinin "Azadlıq və sevgi: Seçilmiş şeirlər və poemadan parça" adlı kitab çap olunmuşdur.

Ədəbiyyat:

Petöfi, Ş. Azadlıq və sevgi: Seçilmiş şeirlər və poemadan parça / Şandor Petöfi; tərc.: Zeynal Xəlil [və b.]; ön söz müəl. və baş məsl. R. Hüseyn; naşir R. Müzəffərli; [üz qabığı A. Kərimov; Petöfi Mədəniyyət Agentliyi, Macarıstan Xarici İşlər və Ticarət Nazirliyi, Türk Dövlətləri Təşkilatının Macarıstandakı Nümayəndəliyi].- [Bakı]:[n. y.], [2023].- 159, [1] s.

Seçilmiş əsərləri / Zeynal Xəlil; tərt. Z. Xəlilova.- Bakı: Öndər, 2004.- 264 s.

Bənövşə: şeirlər və nəğmələr / Zeynal Xəlil; [red. Ə.Ziyatay].- Bakı: Azərnəşr, 1956.- 65, [3] s.


Dünya, ey gözəl dünya / Zeynal Xəlil; [red. Ə.Salahzadə].- Bakı: Gənclik, 1975.- 203, [1] s. Ulduzlar: [roman şeirlər ilə] / Zeynal Xəlil; [red. Ş. Abasov].- Bakı: Azərnəşr, 1961.- 200, [4] s.

Xəyal, S. Zeynal Xəlil: yaradıcılığı əsasında / Sona Xəyal; red. T.Həsənzadə; ön sözün müəl. K.Kələntərli.- Bakı: [MBM], 2010.- 91, [1] s.

Dəmir Qasımov – 85

(1939-2019)

Şair



Dəmir Müseyib oğlu Qasımov (Dəmir Gədəbəyli) 1939-cu il mart ayının 27-də Gədəbəy rayonunun Ataxal kəndində müəllim ailəsində anadan olmuşdur.

1946-1956-cı illərdə Qaramurad kənd orta məktəbində təhsil almış, 1956-1961-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1961-1969-cu illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin Xarici verilişlər baş redaksiyasında müxbir kimi başlamış, 1970-1971-ci illərdə Ədəbi-dram verilişləri baş redaksiyasında, 1971-1984-cü illərdə "Gənclik" baş redaksiyasında redaktor, 1984-1991-ci illərdə "Azərbaycan televiziya və radiosunun proqramları" həftəliyində məsul katib, 1991-1993-cü illərdə Azərbaycan Turizm Agentliyi nəzdində "Azərtural" şirkətində direktor vəzifələrində işləmiş, 1993-1995-ci illərdə "20 Yanvar" qəzetinin baş redaktor, 1996-cı ildə Təfəkkür Universitetində jurnalistika fakültəsinin dekanı olmuşdur.

1975-ci ildə görkəmli alim Mir Cəlal Paşayevin rəhbərliyi ilə "Azərbaycan poeziyasında qoşma janrı" mövzusunda namizədlik, 1987-ci ildə "Azərbaycan xalq dastanlarının poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Türkiyənin "Zaman" qəzetinin Bakı üzrə təmsilçisi olmuşdur.

Ədəbi fəaliyyətə 1965-ci ildə Gədəbəy rayon qəzetində dərc edilmiş "Məktəb" şeirilə başlamışdır. Dəmir Qasımov SSRİ və xarici ölkə xalqları ədəbiyyatından tərcümələr etmişdir. Onun üç yüzdən çox şeirinə mahnılar bəstələnmişdir. 1974-cü ildə "Molodaya qvardiya" jurnalında silsilə şeirləri çap edilmiş, "Muzıka" nəşriyyatında "Qeyri adi meşə" kitabı kütləvi tirajla nəşr edilmişdir. Onun şeirləri alman, ingilis, rus, yunan, rumın, çex, bolqar, macar və.s dillərə tərcümə edilmişdir.

Onun "Sınaqlar", "Baba ocağı", "Daşlar, gözlər, məhəbbət", "Ayrılığın əlində", "Abdaloğlu", "Qeyrət qalası", "Ellərin əziz qızı", "Xatirələrdə yaşayan illər", "Xalqın Heydər babası", "XX əsrin Nyutonu", "Tuğ harayı", "Türk qızı", "Atatürkün əsgəri", "Türk ana", "Türk generalı", "Acılı, ağrılı dünya", "Oyun dünya", "Ellər vurğunu", "Muqa namaz", "Oyun dünya", "Gədəbəyim qızıl obam", "Sən yadıma düşəndə", "Qəmlo", "Azərbaycan yaraları", "Bu dağların o üzündə Göyçə var" və s. adda əllidən çox kitabları çap olunmuşdur.

Bəstəkarlar sözlərinə 300-ə qədər mahnı bəstələyiblər.

1981-ci ildən Azərbaycan Yazıçılar İttifaqının, 1988-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur.

Dəmir Müseyib oğlu Qasımov 2019-cu il may ayının 6-da vəfat etmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan yaraları / Dəmir Gədəbəyli; red. A.Dəmir; [ön söz İ.Pirməmmədov].- Bakı: Nurlan, 2011.- 141, [3] s.

Şöhrətli 100 il: [poema] / Dəmir Gədəbəyli.- Bakı: Təhsil, 2013.- 103, [1] s.

Tuğ harayı: poema və şerlər / Dəmir Gədəbəyli; ön söz müəl. M.Qacar.- Bakı: Təfəkkür, 2001.- 60 s.

Əhmədov, T. Dəmir Gədəbəyli / Teymur Əhmədov // Azərbaycan yazıçıları: XX-XXI yüzillikdə ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.173-174.

Quliyeva, G. Dəmir Gədəbəyli / Gülarə Quliyeva // Yeni Mədəni-maarif.- 2009.- No 4.- S.75.

Teymur Elçin – 100

(1924-1992)

Şair, publisist



Ədəbiyyat:

Babalar, nənələr, nəvələr / Teymur Elçin; red. Hidayət.- Bakı: Gənclik, 1995.- 22 s.

Balaca Aytən / Teymur Elçin.- Bakı: Gənclik, 1983.- [14] s.

Mənim kiçik ulduzlarım: [şeirlər, nəğmələr] / Teymur Elçin; [red. M.Namaz].- Bakı: Gənclik, 1985.- 349, [3] s.

Əliyeva, T. Azərbaycan uşaq ədəbiyyatı: Teymur Elçin: [dərs vəsaiti] / Tənzilə Əliyeva.- Bakı:[s. n.], 2017.- 153, [1] s.

Teymur Elçin: (Teymur Süleyman oğlu Əliyev): biblioqrafiya / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. M.Vəliyeva, M.İbrahimova, S.Əsədova; ön söz. müəl. Elçin; red. və burax. məsul K.Tahirov.- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2014.- 246, [2] s.

Orucov, E. Azərbaycanı dünyaya tanıdan böyük sənətkar / Elçin Orucov // Xalq qəzeti.-2021.- 30 noyabr.- S.10.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2021/noyabr/769059.htm

Teymur Süleyman oğlu Əliyev (Teymur Elçin) 1924-cü il mart ayının 28-də Şuşa şəhərində anadan olmuşdur. 1931-ci ildə ailəsilə birgə Bakıya köçmüş, burada 132 nömrəli orta məktəbdə təhsil almışdır. 1941-ci ildə orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə qəbul olmuş, lakin 1943-1945-ci illərdə Böyük Vətən müharibəsinin iştirakçısı olduğundan təhsili yarımçıq qalmışdır. O, Zaqafqaziya cəbhəsində kursant, alay komsomol təşkilatçısı, hazırlıq kurslarının müdavimi olmuşdur. Cəbhədən qayıtdıqdan sonra ali təhsilini davam etdirmiş və 1948-ci ildə universiteti bitirmişdir.

Tələbə ikən "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi, 1941-1943-cü illərdə ictimai əsaslarla Azərbaycan Radio Komitəsində ictimai-siyasi verilişlər baş redaksiyasında ştatdankənar müxbir, diktor, redaktor, məsul redaktor vəzifələrində çalışmışdır. Teymur Elçin 1945-1946-cı illərdə Komsomol Komitəsinin katibi, 1946-1948-ci illərdə Azərbaycan LKGİ Bakı Şəhər Komitəsinin I katibi, 1948-1949-cu illərdə Azərbaycan LKGİ MK Təbliğat və Təşviqat şöbəsinin müdirinin müavini, 1949-1950-ci illərdə Azərbaycan LKGİ Bakı Komitəsinin katibi, 1950-1952-ci illərdə Azərnəşrin Siyasi-ictimai ədəbiyyat şöbəsinin müdiri, 1952-1953-cü illərdə Azərbaycan Nazirlər Soveti yanında Radio Məlumat Komitəsinin sədrinin müavini, 1957-1964-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri, 1975-1988-ci illərdə Azərbaycan Mədəniyyət Nazirinin müavini vəzifələrində çalışmışdır.

1958-ci ildə Azərbaycan Yazıçılar Birliyinə və Azərbaycan Jurnalistlər Birliyinə üzv seçilmişdir.

Teymur Elçin Azərbaycan Ali Sovetinin (V, VI, VII, VIII çağırış) deputatı olmuşdur.

İlk mətbu əsəri Bakı Mərkəzi Pionerlər Evinin 1938-ci ildə nəşr etdiyi "Şeirlər məcmuəsi"ndə dərc olunan "Azərbaycan" şeiridir. Məktəb illərində dövri mətbuatda ("Kommunist", "Yeni yol" və "Azərbaycan pioneri" qəzetlərində) dərc edilən yazıları "Teymur Əlizadə" imzası ilə çıxmışdır.

Teymur Elçinin milli uşaq ədəbiyyatının təşəkkül tapıb formalaşmasında mühüm xidmətləri olmuşdur. Ədib "Qar qız", "Sözlər, nəğmələr, nağıllar, laylalar", "Laylalar", "Xoruzbanı gedirəm", "Torağayın nəğməsi", "Babalar, nənələr, nəvələr " və s. uşaqlara həsr olunmuş şeirlər, "Balalarımız üçün", "Pişik və sərçə", "Toğrul babanın nağıl ağacı", "Pekin zəngi", "Boz sərçəylə boz siçanın dostluğu" və s. mənzum nağıllar yazmışdır.

Onun yaradıcılığının bir hissəsini tərcümə sahəsi əhatə etmiş və başqa xalqların folklorundan çoxlu sayda uşaq folklor nümunələrini Azərbaycan dilinə tərcümə etmişdir. Teymur Elçinin "Qar qız" mənzum pyesi 1983-cü ildə Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur.

Teymur Elçinin çoxlu sayda şeirləri rus dilinə tərcümə edilmiş və bir neçə kitabı Moskvada rus dilində nəşr olunmuşdur.

Görkəmli şairin sözlərinə xeyli mahnı bəstələnmişdir. Vasif Adıgözəlovla birgə yazdıqları "Qarabağ şikəstəsi" oratoriyasının sözlərinə görə Azərbaycan Respublikasının Dövlət mükafatına (1990) layiq görülmüşdür.

Ədəbi və ictimai-siyasi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, xidmətlərinə görə Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri Fərmanı, "Qırmızı Əmək Bayrağı" ordeni (1971), "Şərəf nişanı" ordeni (1979), Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Görkəmli şair, publisist Teymur Elçin 1992-ci il mart ayının 14-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

1994-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən anadan olmasının 70 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında qərar vermişdir.

2014-cü ildə Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından Teymur Elçinin anadan olmasının 90 illiyi münasibətilə "Teymur Elçin. Biblioqrafiya" (Teymur Süleyman oğlu Əliyev) adlı fundamental biblioqrafiya çap olunmuşdur.

Mikayıl Azaflı – 100

(1924-1990)

Aşıq



Mikayıl Cabbar oğlu Zeynalov (Mikayıl Azaflı) 1924-cü il mart ayının 21-i Tovuz rayonunun Azaflı kəndində anadan olmuşdur.

Erkən yaşlarında "Solğun" və "Coşğun" təxəllüsü ilə şeirlər yazan aşıq-şair daha sonra doğma kəndinin adını, "Azaflı"nı təxəllüs götürmüşdür.

Aşığın yaradıcılığında bir-birindən gözəl gəraylılar, təsniflər, qoşmalar, müxəmməslər, divanilər, vücudnamələr, cahannamələr, sicilləmələr, ustadnamələr, ithaflar, nəzirələr, bağlama-qıfılbənd deyişmələr, şeirlə məktublaşmalar, bayatılar, hətta rübai və qəzəllər, poema və dastanlar geniş yer tutur.

Türkiyəli tədqiqatçı Mikayıl Azaflıya həsr etdiyi namizədlik dissertasiyasında və sanballı monoqrafiyasında ustad sənətkarı "Müasir Azərbaycan aşıqlarının bayraqdarı" adlandırmış, professor Əzizə Cəfərzadə isə onu "Çağdaş aşıq sənətinin ən ulu aşıq şairi" hesab etmişdir.

Onun yaratdığı "Azaflı dübeyti", "Azaflı gözəlləməsi", "Azaflı sənəti", "Azaflı dünyası", "Azaflı gəraylısı", "Azaflı himni", "Mikayılı", "Azaflı dağları", "Azaflı bəhri", "Azaflı müxəmməsi", "Şah sarayı" kimi saz havaları dillər əzbəridir.

Mikayıl Azaflının rəhbərliyi ilə "Koroğlu" dastanının 4 qolu - "Koroğlunun Dərbənd səfəri" (Mikayıl Azaflı), "Durna teli" (Əkbər Cəfərov), "Toqat səfəri" (Mahmud Məmmədov), "Koroğlu və Bolu bəy" (Əlixan Niftalıyev) vala köçürülmüşdür.

İlk dəfə sənətkar 1954-cü ildə festivalda iştirak etmiş və medalla təltif olunmuşdur.

Aşıqların IV Qurultayında (mart, 1984) sənətkara ehtiram göstərərək çıxış etmək təklif olunmuşdur. Azaflı məruzə səviyyəli çıxışında çoxillik təcrübəsi əsasında aşıq sənətinin incəliklərindən, çatışmazlıqlardan, qarşıda duran vəzifələrdən söz açmışdır. Qurultayda Azaflının aşıq sənətinin inkişafında göstərdiyi fədakarlıq və xidmətləri xüsusi qeyd edilmişdir. O, Aşıqlar Birliyinin sədr müavini seçilmişdir.

Ümumittifaq Musiqi Cəmiyyətinin Rəyasət Heyətinə üzv seçilmiş sənətkar Novruz bayramı şənliklərində Dədə Qorqud obrazını canlandırmışdır.

1987-ci ildə "Qoca qartal" kitabı Bakıda çap edilmiş, daha sonra 1988-ci ildə Türkiyədə, 1993 və 2003-cü ildə İranda nəşr olunmuşdur.

1989-cu il may ayının 17-də Mikayıl Azaflı ədəbiyyat və incəsənətin inkişafında böyük xidmətlərinə görə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

Mikayıl Azaflı 1990-cı il oktyabr ayının 12-də vəfat etmiş, öz doğma kəndi Azaflıda dəfn olunmuşdur.

Tovuz şəhərində bir küçəyə aşığın adı verilmiş və Azaflı kəndində oxuduğu məktəbin önündə büstü qoyulmuşdur.

Ə d ə b i y y a t :

Qoca Azaflıyam / M.Azaflı; tərt.ed.və ön söz. Q.Paşayev, M.Azaflı; red. M.Qasımlı, G.Azaflı.- Bakı: Nurlan, 2008.- 758, [3] s.

Qoca qartal: Şeirlər / M.Azaflı; red. M. Şükür.- Bakı: Yazıçı, 1987.- 166, [1] s.

Özüm ölsəm, sözüm ölməz: [şeirlər] / M.Azaflı; Red. Q.Əcaib; Tərtibçi. M.Quliyev.- Bakı: Şur, 1994.- 167 s.

Paşayev Q. Bir şeirin və Azaflı Mikayılın taleyi / Qəzənfər Paşayev //Ədəbiyyat qəzetib .-2023.- 11 fevral.- S.9.

İ n t e r n e t d ə :

http://www.anl.az/down/meqale/edebiyyat/2023/fevral/836419(meqale).pdf

Taras Şevçenko – 210

(1814-1861) *Ukrayna şairi*



Taras Qriqoryeviç Şevçenko 1814-cü il mart ayının 9-u Ukraynada təhkimli kəndli ailəsində anadan olmuşdur. O, ilk təhsilini kənd keşişindən almış, 1831-ci ildə Peterburq şəhərinə gəlmişdir.

İlk kitabı "Kobzar" 1840-cı ildə nəşr olunmuşdur. Yazıçı 1842-ci ildə "Kor qadın", 1845-ci ildə "Muzdur qadın", 1848-ci ildə "Marina" adlı romanlarını, 1838-ci ildə "Taras gecəsi" adlı tarixi poema yazmışdır. Əsərləri Ukrayna ədəbiyyatında siyasi lirika və satira janrlarının inkişafında mühüm rol oynamışdır.

O, 1847-ci ildə xəyanət nəticəsində həbs edilmiş, Orsk qalasına sürgün edilmişdir. 10 il (1847-1857) sürgündə qalan Şevçenko yalnız I Nikolayın ölümündən sonra azad edilmişdir. Sürgün illərində rus dilində avtobioqrafik səciyyəli "Çalğıçı", "Bədbəxt", "Kapitan arvadı", "Əkizlər", "Rəssam" və s. realist povestlərini yazmışdır. Ukrayna ədəbiyyatının inkişafında Şevçenkonun müstəsna xidmətləri olmuşdur. Əsərləri dünya xalqları dillərinə tərcümə edilmişdir.

Öz ədəbi-bədii fəaliyyəti ilə xalqın ictimai və milli şüurunun oyanmasında, inkişafında mühüm rol oynayan görkəmli inqilabçı-demokrat Ukrayna ədəbiyyatı tarixinə yeni nəfəs, yeni vüsət, yeni həyat gətirmişdir. T.Şevçenko həm milli, həm də beynəlmiləl ədib olmuşdur.

Şevçenko yazıçılıqla yanaşı, həm də rəssam kimi məşhurdur. O, 1838-1845-ci illərdə Peterburq Rəssamlıq Akademiyasında oxumuş, K.P.Brullovdan dərs almışdır. Realist meyillər Şevçenkonun erkən yaradıcılığında meydana gəlmiş, sürgündə yaratdığı rəsmlərində kəskin ifşaedici qüvvə kəsb etmişdir. Sürgündən qayıtdıqdan sonra Şevçenko çoxlu qravüralar yaratmış, 1860-cı ildə mis üzərində qravüralarına görə akademik adı almışdır.

Şevçenkonun 1860-cı ildə yaratdığı "Çimən Virsaviya" əsəri Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

Görkəmli ictimai xadim Taras Şevçenko 1861-ci fevral ayının 26-da (bəzi mənbələrdə 10 mart) vəfat etmiş, vəsiyyətinə görə Kaver yaxınlığında, Dnepr sahilindəki Çerneçyada dəfn edilmişdir.

Taras Qriqoryeviç Şevçenko irsi Azərbaycanda geniş tədqiq edilmiş, əsərləri ukrayna dilindən Azərbaycan dilinə tərcümə edilmişdir. Bakıda adına küçə və məktəb verilmişdir. Paytaxtın Azadlıq prospektində görkəmli şair Taras Şevçenkonun abidəsi ucaldılmışdır. Abidənin müəllifi ukraynalı heykəltəraş İqor Qreçanikdir.

Ə d ə b i y y a t :

Əkizlər. Rəssam: povestlər / T.Q.Şevçenko; tərc. Z.Abbas; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Aspoliqraf, 2014.- 214, [2] s.

Cəfərsoy İ. Ukraynanın türk əsilli Kobzarı / İlhami Cəfərsoy // Mədəniyyət.-2021.- 2 iyun.- S. 6.

Лирика: пер. с укр. / Тарас Шевченко; [сост. Л. Новиченко].- Москва: Худож. лит., 1984.- 136 с.

İ n t e r n e t d ə :

http://www.anl.az/down/meqale/medeniyyet/2021/iyun/746257.htm


MART

20

Nikolay Qoqol – 215

(1809-1852)

Rus yazıçısı



Nikolay Vasilyeviç Qoqol 1809-cu il mart ayının 20-də (bəzi mənbələrdə 1 aprel) Poltava quberniyasının Mirqorod qəzasında Velikiye Soroçinski adlanan ucqar bir kənddə, mülkədar ailəsində anadan olmuşdur. Uşaqlıq illəri valideynlərinin Vasilyevka malikanəsində - əfsanələr, rəvayətlər, nağıllar diyarı olan Dikanka kəndi yaxınlığında keçmişdir. İncəsənətin qızğın pərəstişkarı, teatr həvəskarı, şeirlər və komediyalar müəllifi atasının, Vasili Afanasyeviçin gələcək yazıçının tərbiyəsində mühüm rolu olmuşdur.

Qoqol Vasilyevka kəndində ilk ibtidai ev təhsili aldıqdan sonra 1818-ci ildə təhsilini artırmaq üçün Poltavaya getmişdir. 1821-ci ildə Nejində açılmış Ali Elmlər Gimnaziyasına daxil olmuş, burada skripkada çalmağı, tamaşalarda oynamağı və əsasən komik rollar ifa etməyi öyrənmişdir.

1828-ci ildə Nejin gimnaziyasında təhsilini başa vurduqdan sonra Peterburqa getmişdir. Lakin özünə iş tapa bilməmiş, ilk ədəbi cəhdləri də boşa çıxmış, nəhayət, kiçik məmur işinə düzələ bilmişdir.

1830-cu ildə "Oteçestvennıye zapiski" jurnalında "Basavryuk" adlı ilk povesti işıq üzü görmüşdür. Sonralar bu povest əlavə və dəyişikliklərlə "İvan Kupala ərəfəsində axşam" adı ilə yenidən nəşr edilmişdir. 1831-ci ildə Qoqol Qadın Vətənpərvərlik İnstitutunda müəllim kimi çalışmışdır.

1830-1831-ci illərdə Peterburqda yaşadığı zaman görkəmli rus yazıçıları ilə, E.Jukovski, S.A.Puşkin, P.Pletnyov, Delviq, İ.A.Krılov, V.Odoyevski kimi dövrünün tanınmış ziyalıları, yazıçı və şairləri ilə, o cümlədən Puşkinlə yaxından tanış və dost olmuşdur. Bu tanışlıq gənc yazıçının ictimai baxışlarının və ədəbi istedadının formalaşmasına müsbət təsir göstərmişdir. Yazıçının 1831-1832-ci illərdə Ukrayna həyatından bəhs edən iki kitabdan ibarət "Dikanka yaxınlığındakı xutorda axşamlar" əsəri çapdan çıxmışdır.

1834-cü Peterburq Universitetinin Ümumi tarix kafedrasında orta əsrlər tarixi üzrə professor vəzifəsinə təyin edilmiş, 1835-ci ildə universiteti tərk edərək bütün qüvvəsini yaradıcılıq işinə həsr etmişdir. "Portert", "Neva prospekti", "Dəlinin qeydləri" əsərlərini yazmış, "Viy", "İvan İvanoviçin İvan Nikiforoviçlə dalaşması haqqında povest", "Taras Bulba" kimi əsərlərini toplayaraq "Mirqorod" adı ilə çap etdirmişdir.

Qoqol yalnız nəsr sahəsində deyil, dramaturgiya sahəsində də öz yaradıcılıq məharətini göstərmişdir. 1836-cı ilin aprel ayında onun məşhur "Müfəttiş" komediyası birinci dəfə tamaşaya qoyulmuş və böyük müvəffəqiyyət qazanmışdır.

Böyük ədib 1836-cı ildə Qərbi Avropa ölkələrinə - Almaniyaya, Fransaya, İsveçrəyə və İtaliyaya səyahətə çıxmış, səyahətdən qayıtdıqdan sonra "Ölü canlar" əsərini yazmış və 1842-ci ildə I cildini nəşr etdirmişdir.

Nikolay Vasilyeviç Qoqol 1852-ci il fevral ayının 21-də (bəzi mənbələrdə 4 mart) Moskvada vəfat etmişdir.

Nəriman Nərimanov onun "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə etmiş və ilk dəfə olaraq 1896-cı ildə noyabr ayının 28-də teatr səhnəmizdə tamaşaya qoyulmuşdur.

1908-ci ildə "Müfəttiş" komediyası məşhur aktyorumuz Hüseyn Ərəblinskinin quruluşu ilə tamaşaya qoyulmuş və tamaşa daha böyük müvəffəqiyyət qazanmışdır. Pyes həmin quruluşda 1912, 1914 və 1915-ci illərdə Bakıda və Tiflisdə oynanılmış, indiyə qədər də səhnəmizdə oynanılmaqdadır.

Ədəbiyyat:

Seçilmiş əsərləri / N.V.Qoqol; ön söz. müəl. G.Manafova; [tərc. ed. S.Rəhman, İ.İbrahimov, Ə.Ağayev, M.Rzaquluzadə]; red. A.Dadaşov; bədii tərtibat və dizaynın müəl. T.Qorçu.- Bakı: Şərq-Qərb, 2009.- 332, [2] s.

Müfəttiş / N.V.Qoqol; tərc. S.Rəhman.- Bakı: Qanun, 2018.- 127 s.

Dəlinin gündəliyi /N. Qoqol ; tərc. Z. Abdulla. - [Bakı]: [Qanun], [2022]. 78, [1] s.

Вечера на хуторе близ Диканьки / Н.В.Гоголь; художник Н.В.Доценко.- Москва: Центрполиграф, 2003.- 314 с.

Гоголь и русское общество: [монография] / Е.И.Анненкова; Рос.Гос. педагогический ун-т им. А.И.Герцена Анненкова, Елена Ивановна.- Санкт-Петербург: Ростоκ, 2012.- 750, [2] с.

Ceyran Haşımova - 90

(1934)

Tar ifaçısı



Ceyran Əsəd qızı Haşımova 1934-cü il mart ayının 8-də Bakı şəhərində musiqiçi ailəsində anadan olmuşdur.

Orta təhsilini 32 nömrəli məktəbdə başa vurduqdan sonra Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin tar sinfinə qəbul olmuşdur. 1952-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirmiş, daha sonra Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında(indiki Bakı Musiqi Akademiyası) təhsil almışdır.

Ceyran Haşımova 1958-ci ildə Səid Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrində "Saz" qrupunun konsertmeysteri olmuşdur. Ömrünün 50 ildən çoxunu milli mədəniyyətimizin inkişafına, eləcə də musiqimizin təbliğinə həsr edən Ceyran Haşımova bir müddət müəllimlik etmişdir. Bu orkestrin tərkibində 1959-cu ildə Moskvada keçirilmiş Azərbaycan mədəniyyəti ongünlüyündə iştirak etmiş, Bülbül, Şövkət Ələkbərova, Sara Qədimova, Xan Şuşinski kimi görkəmli sənətkarları müşayiət etmişdir.

O, 1964-cü ildə "Lalə" Qızlar Ansamblını yaratmışdır. Ansamblda bir çox məşhur müğənnilər - Raziyə Şirinova, Zöhrə Abdullayeva, Təranə Vəlizadə, Mahrux Muradova, Nisə Qasımova, Nəzakət Məmmədova, Ruhəngiz Allahverdiyeva, Suğra İbrahimova, Kəmalə Rəhimli, Firuzə İbadova, Xalidə Gözəl, Rəhilə Bəndəliyeva və başqaları, həmçinin, musiqi alətləri ifaçıları fəaliyyət göstərmişlər. Ansambl Türkiyə, İran, Çexoslovakiya, keçmiş SSRİ məkanında və bir çox başqa xarici ölkələrdə qastrol səfərlərində olmuşdur.

"Lalə" qızlar ansamblı 1966-1971-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Komitəsinin nəzdində fəaliyyət göstərmişdir. Radioda ilk dəfə olaraq 1966-cı il fevral ayının 23-də canlı yayımla Ələkbər Tağıyevin "Xızı dağları" və Tofiq Quliyevin "Sənə də qalmaz" mahnılarını ifa etmiş, televiziyada isə həmin il mart ayının 8-də Beynəlxalq Qadınlar Günü münasibəti ilə də keçirilən "Mavi işıq" gecəsində çıxış etmişdir. Qastrollara çıxmaq üçün kollektiv 1971-ci ildən Dövlət Filarmoniyasının nəzdində fəaliyyət göstərməyə başlamış, 1978-ci ildə Dövlət Konsert Birliyi yarananda sonra isə 1992-ci ilədək kollektiv bu qurumun tərkibində yer almışdır.

Ceyran Haşımova 1985-ci də "Əmək veteranı" medalı, 1987-ci ildə Əməkdar artist, 2006-cı ildə Xalq artisti fəxri adlarına və 2004-cü ildə Mədəniyyət Nazirliyi tərəfindən "Fəxri" nişana layiq görülmüşdür.

2003-ci ildən Prezident təqaüdçüsüdür.

Ə d ə b i y y a t :

Zeynalova, T. Azərbaycanın solmayan lalələri /T.Ə.Zeynalova; red.: Ş.Səlimbəyli; ön söz. müəl. Ş.Axundova.- Bakı: Avropa, 2004.-200s.

Nizamiqızı, H. Çiçək ömründən çox uzun və ya 48 il solmayan "Lalə" / Həmidə Nizamiqızı // Mədəniyyət.- 2012.- 7 mart.- S.12.


Cəfərov, E. Şərqdə ilk olaraq qızlardan ibarət Azərbaycan xalq çalğı ansamblını yaradan tar ifaçılıq sənətinin mükəmməl ifaçısı - qadın tarzən Ceyran Haşımova / E.Cəfərov // Вышка. -2018.- 12 октября.- С.8.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Ceyran_Ha%C5%9F%C4%B1mova

Hüseynqulu Sarabski – 145

(1879-1945) Opera müğənnisi, teatr xadimi



Hüseynqulu Məlik oğlu Rzayev (Hüseynqulu Sarabski) 1879-cu il mart ayının 20-də Bakıda, İçərişəhərin Yeddilər məhəlləsində anadan olmuşdur. İçərişəhərdəki Şah məscidinin yanında ibtidai dini təhsil almışdır. Məlahətli avazı olduğuna üçün şəbih tamaşalarında iştirak etmişdir.

O, 1897-ci ildə H.Z.Tağıyevin açdırdığı kursda rus dilində oxumuş və növbəti il H.Mahmudbəyovun məktəbinin ikinci sinfinə qəbul olunmuşdur.

Hüseynqulu Sarabskini teatra həvəskar aktyorlar Murad Muradov və Mehdibəy Cabbarlınski cəlb etmişlər. O, ilk dəfə 1902-ci il iyul ayının 1-də səhnəyə çıxmış, ilk rolu N.Nərimanovun "Nadanlıq" dram tamaşasında Rəsul obrazı olmuşdur.

1906-cı ildən 1919-cu ilin payızına qədər "Müsəlman dram cəmiyyətində", "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin dram dəstələrində, özünün təşkil etdiyi "Müsəlman opera truppası"nda, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti"ndə, A.Şərifzadənin rəhbərliyindəki "Müsəlman artistləri ittifaqı"nda aktyorluq və rejissorluq etmişdir.

O, 1919-cu ilin 24 oktyabrından "Hökumət Türk Teatrosunda" (indiki AMDT) aparıcı aktyorlarından olmuşdur. 1925-ci ildə opera truppası Akademik Teatrın nəzdindən ayrılaraq "Rus operası" adlanan kollektivin nəzdinə keçmiş və həmin dəstənin öncüllərindən biri H.Sarabski olmuşdur. O, "Leyli və Məcnun" əsərinin ilk və ən qabaqcıl aktyorlarından biri olmuşdur. 1906-cı ildə "Axtaran tapar", "Cəhalət", "Nə doğrarsan aşına, o da çıxar qaşığına" adlı üç dram əsərinin müəllifidir.

Hüseynqulu Sarabski xatirələrdən və adət-ənənələrdən bəhs edən "Köhnə Bakı" kitabını yazmışdır.

Onun 1920-1940-cı illərdə mədəni-quruculuq sahəsindəki fəaliyyəti çoxcəhətli olmuşdur. O, əvvəllər Xalq Maarif Komissarlığının İşlər İdarəsində baş təlimatçı vəzifəsində çalışmışdır. 1925-ci ildən 1932-ci ilə kimi "Şərq orkestri"nin tərkibində muğam və mahnı ifaçısı kimi dinləyicilərin rəğbətini qazanmışdır. Onun repertuarında "Şüştər", "Hicaz", "Bayatı-Şiraz", "Segah", "Şikəsteyi-fars" kimi minor muğamlar, "Qalalı", "Üçtelli durna", "Sona bülbüllər", "Ləbuləb" xalq mahnıları da olmuşdur. Bir çox mahnılar - "Muğan", "Dağlar", "Layla" və s. bəstələmişdir.

Hüseynqulu Sarabski 1926-cı ildə Şərq orkestri ilə birlikdə Moskva, Leninqrad, Minsk şəhərlərində konsertlər vermişdir.

1932-ci ildə Respublika Xalq Yaradıcılıq Evinin təşkilində onun əməyi olmuş, ömrünün sonunadək ora rəhbərlik etmişdir. 1934-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü, 1938-ci ildə isə Respublika Ali Sovetinin deputatı olmuşdur.

Hüseynqulu Sarabskinin səsi qrammofon valına yazılmasa da bizə yeganə olaraq müğənninin 1940-cı ildə "Səbuhi" kinofilmində məşhur xanəndə Səttar rolunda ifası yadigar qalmışdır.

Böyük sənətkar pedaqoji fəaliyyət də göstərmiş, Azərbaycan Dövlət Konservatoriyasında muğamatdan dərs demiş, A. Zeynallı adına Musiqi Məktəbində vokal sinfinə başçılıq etmişdir.

O, teatr sahəsindəki xidmətlərinə görə 1926-cı ildə Əməkdar artist, 1932-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüş, 1938-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

Hüseynqulu Sarabski 1945-ci il fevral ayının 16-da vəfat etmişdir.

4 mart 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hüseynqulu Sarabskinin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.

Ə d ə b i y y a t :

Köhnə Bakı / Hüseynqulu Sarabski; tərt. ed. A.Sarabski. Bakı: Yazıçı, 1982.- 251, [5] s.

Qərənfilsən, butasan / Hüseynqulu Sarabski; nəşrə haz. və ön sözün müəl. Q.Vaqifqızı; red.

M.Məmmədova; AMEA, Məhəmməd Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: Elm və təhsil, 2013.- 111, [1] s.

Bəhmənli, V. Hüseynqulu Sarabski: [sənədli-publisistik povest] / V.Bəhmənli; [burax. məsul S.İsmayılova; dizayner Z.Abbasov; baş red. G.Cəfərova].- Bakı: Şərq-Qərb, 2017.- 174 s.

Bəhmənli, V. Məcnun özü: [Teatr xadimi, qüdrətli sənətkar Hüseynqulu Sarabskiyə həsr olunmuş povest] / Vaqif Bəhmənli // Azərbaycan: Ədəbi-bədii jurnal.- 2017.- №10.- S.18-94.

Şuşinski, F. Hüseynqulu Sarabski / Firidun Şuşinski // Azərbaycanın musiqi xəzinəsi.- Bakı.- 2015.- S.448-463.

Üzeyirin ilk "Məcnunu"... : Sarabski, yoxsa Rzayev? //Yeni Azərbaycan.-2023.- 16 fevral.- S.8.

Səfa Qəhrəmanov - 75

(1949-2008)

Xanəndə



Səfa Hüseyn oğlu Qəhrəmanov 1949-cu il mart ayının 30-da Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olmuşdur.

Hələ uşaqlıqdan musiqiyə həvəsi olmuş, Tibb Texnikumunda təhsil alarkən respublika üzrə keçirilən musiqi müsabiqələrində iştirak etmişdir. 1970-ci ildə Yaşıl Teatrda keçirilən "Qızıl payız" muğam festivalının iştirakçısı olmuş, Xan Şuşinski, Əhməd Bakıxanov, Sahib Şükürov, İslam Rzayev, Adil Gəray kimi sənətkarların qarşısında çıxış edərək müsabiqədə qalib gəlmişdir. Bundan sonra o, Əhməd Bakıxanovun ansamblına dəvət almış, bir müddət sonra isə hərbi xidmətə yollanmışdır.

Səfa Qəhrəmanov 1978-ci ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunun (indiki Milli Konservatoriya nəzdində Musiqi Kolleci) xanəndəlik şöbəsini, 1990-cı ildə isə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) mədəni-maarif işi fakültəsini bitirmişdir. Muğam ustası Nəriman Əliyevin tələbəsi olmuşdur. Hələ Musiqi Texnikumunda təhsil alarkən səhnə fəaliyyətinə başlayan Səfa Qəhrəmanov milli muğamlarımızı, xalq və bəstəkar mahnılarını məharətlə ifa etmişdir. 1975-ci ildə ilk dəfə olaraq peşəkar xanəndə kimi Əhsən Dadaşovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblı ilə televiziyada "Mirzə Hüseyn segahı"nı ifa etmişdir.

Səfa Qəhrəmanov 1992-ci ildən həm də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının muğam bölməsinin solisti olmuş, opera səhnəsində Qəndab Quliyeva ilə "Leyli və Məcnun" operasında Məcnun rolunda çıxış etmişdir. Teatrdakı on altı illik fəaliyyəti ərzində bir sıra milli operalarda - Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun, İbn Səlam, Məcnunun atası, Müslüm Maqomayevin "Şah İsmayıl" operasında Şah İsmayıl, Z.Hacıbəylinin "Aşıq Qərib" operasında Şeyx, V.Adıgözəlovun "Natəvan" operasında Qarabağ xanəndəsi, R.Mustafayevin "Vaqif" operasında xanəndə, Niyazinin "Rast" baletində xanəndə kimi obrazlar yaratmışdır.

Səfa Qəhrəmanov həm də müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. 1999-cu ildən A.İsgəndərov adına Mədəniyyət Sarayında muğam sinfində dərs demiş, Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun müəllimi olmuşdur. Bu illər ərzində onun ifasında xalq mahnıları və muğamlar lentə alınaraq qızıl fonda daxil edilmişdir.

Səfa Qəhrəmanovun Azərbaycan opera sənətinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilmiş, 2000-ci ildə O, Əməkdar artist, 2006-cı ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Səfa Hüseyn oğlu Qəhrəmanov 2008-ci il may ayının 5-də vəfat etmişdir.

Ədəbiyyat:

Vahid, T. Onun ürəyi musiqi ilə döyünürdü: [Xalq artisti Səfa Qəhrəmanov haqqında] / T.Vahid // Mədəniyyət.- 2012.- 30 mart.- S. 6.
Vahid, T. Səs xəzinəmizin nadir səsi / T.Vahid // Mədəniyyət.- 2013.- 29.- mart.- S.6.
Şaqraq səsi yaddaşlarda yaşayır // Mədəniyyət.-2019.- 29 mart.- S. 7.


İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2019/mart/641601.htm
https://az.baku-art.com/az/sesi-sehn-m-d-niyy-ti-v-yetishdirm-l-ri-il-sozun-demi-xan-nd-xalq-artisti-s-fa-q-hr-manov

Məmməd Quliyev – 110

(1914-2001)

Aktyor



Məmməd Allahverdi oğlu Quliyev 1914-cü il mart ayının 15-də Naxçıvanda anadan olmuşdur.

Orta məktəbdə oxuyarkən Səməd Mövləvi onu teatra dəvət etmişdir. O, əsasən, opera və operetta tamaşalarında xorda oxumuş, epizodik rollarda səhnəyə çıxmışdır. Gözəl və ürəyəyatımlı səsi olmuşdur. Opera artisti olmaq arzusu ilə orta məktəbi bitirdikdən sonra Bakıya gələrək Asəf Zeynallı adına Musiqi Məktəbinə (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci) daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra bir müddət Opera və Balet Teatrında işləmiş, müxtəlif tamaşalarda ikinci dərəcəli partiyalar ifa etmişdir.

Məmməd Quliyev əsl səhnə fəaliyyətinə 1943-cü ildə Naxçıvan teatrında başlamışdır. Yaradıcılığının ilk illərində dram və operetta tamaşalarında çıxış etmişdir. Aktyor teatrda işlədiyi müddətdə onlarla müxtəlif xarakterli bədii obraza səhnə həyatı vermişdir. Bunların arasında ayrı-ayrı janrlarda hazırlanmış və müxtəlif bədii xarakterli obrazlar var.

Məmməd Quliyevin Dərviş, Müller, Rüstəm Zal ("Şeyx Sənan", "Şeyda" və "Səyavuş", Hüseyn Cavid), Pirqulu, Həmzə, Belakurov ("Aydın", "Vəfalı Səriyyə" və "Yaşar", Cəfər Cabbarlı), İbrahim xan ("Vaqif", Səməd Vurğun), Qurban ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Naib ağa ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Əlimərdan ("Eşq və intiqam", Süleyman Sani Axundov), Mirzə Cəlil ("Sizi deyib gəlmişəm", Anar), Kral ("Sevilya ulduzu", Lope de Veqa), Naçalnik ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Gəray bəy ("Komsomol poeması", İsgəndər Coşqun), Şahbazov ("Göz həkimi", İslam Səfərli), Pristav ("Qatır Məmməd", Zeynal Xəlil), Balvazov ("Həmyerlilər", Altay Məmmədov), Gəncə hökmdarı ("Məhsəti", Kəmalə Ağayeva), Salmanov ("Toy", Sabit Rəhman), Şahmar ("Vətən", Abdulla Şaiq) rolları yaradıcılığının başlıca mahiyyətini xarakterizə edən rollardır.

O, müxtəlif quruluşlarda Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" (Nofəl və Məcnunun atası), "Əsli və Kərəm" (Keşiş) operalarında, "Məşədi İbad" (Sərvər), "Arşın mal alan" (Əsgər) operettalarında, Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Murad), Məmməd Səid Ordubadi və Səid Rüstəmovun ("Beş manatlıq gəlin" (Qiyas) musiqili komediyalarında solist-aktyor kimi çıxış etmişdir.

Aktyor yaradıcılığındakı uğurlarına görə 1965-cü il iyun ayının 21-də Əməkdar artist, 1974-cü il iyun ayının 1-də Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Məmməd Quliyev 2001-ci il sentyabr ayının 11-də Naxçıvanda vəfat etmişdir.

Ə d ə b i y y a t :

Məmməd Quliyev / Naxçıvan MSSR Mədəniyyət Nazirliyi.- Bakı: [s.n.], 1981.- [3] qat. v.

Quliyev Məmməd Allahverdi oğlu // Naxçıvan Ensiklopediyası: 2 cilddə / AMEA Naxçıvan bölməsi; Bur. məs. V.Talıbov.- Naxçıvan, 2005.- C.1.- S. 351.

Rəhimli, İ. Məmməd Quliyev / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə; layihənin rəhb. Ə.M.Qarayev [ön söz]; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Cild 2.- Bakı, 2016.- S.287-288.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d_Quliyev_(aktyor)

Niyaz Şərifov - 110

(1914-1982)

Teatr rejissoru



Niyaz Səttar oğlu Şərifov 1914-cü il mart ayının 16-da Bakı şəhərində anadan olmuşdur.

O, Bakıda B.Bədəlbəylinin məktəbində birinci dərəcəli pillədə dörd il, ikinci dərəcəli təhsil pilləsində isə beş il oxumuşdur. 1929-1932-ci illərdə Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbində təhsil almışdır. Tələbəlik illərində Bakı-Türk İşçi Teatrının və Milli Dram Teatrının tamaşalarında iştirak etmişdir.

Niyaz Şərifov 1930-1932-ci illərdə İşçi Teatrında, 1933-1938-ci illərdə müxtəlif mədəniyyət ocaqlarında işləmişdir. Böyük Vətən müharibəsində iştirak etmişdir.

O, 1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yaradılanda orada əvvəlcə texniki rejissor, sonra isə quruluşçu rejissor kimi çalışmışdır. Müəyyən fasilələrlə ömrünün sonuna qədər bu kollektivdə işləmişdir.

Niyaz Şərifov Naxçıvan, Gəncə, Lənkəran, Quba və digər rayon teatrlarında tamaşalar hazırlamışdır.

Musiqili Komediya Teatrında Niyaz Şərifov Məhərrəm Əlizadə və Soltan Hacıbəyovun "Qızılgül" (1945 və 1967), Məhərrəm Əlizadə və Fikrət Əmirovun "Gözün aydın" (1946), Kərim Kərimov və Zakir Bağırovun "Kəndimizin mahnısı" (1959), Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" (1960), "Əlli yaşında cavan" (1972), Məhərrəm Əlizadə və Əşrəf Abbasovun "Səndən mənə yar olmaz" (1963), Novruz Gəncəli və Şəfiqə Axundovanın "Ev bizim, sirr bizim" (1965 və 1979), Məcid Şamxalov və Zakir Bağırovun "Qaynana" (1965), Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" (1969), Ədil İsgəndərov və Əşrəf Abbasovun "Dağlar qoynunda" (1970), Məhərrəm Əlizadə və Nazim Əliverdibəyovun "Nazxanım naz eləyir" (1974), Məhərrəm Əlizadə və Ramiz Mustafayevin "Qonşumuzda bir oğlan var" (1976), Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (1976), Cahangir Məmmədov və Əşrəf Abbasovun "Həyətim mənim, həyatım mənim" (1977), Salam Qədirzadə və Süleyman Ələsgərovun "Gurultulu məhəbbət" (1980) musiqili komediyalarına quruluş vermişdir.

1974-cü il aprel ayının 3-də "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Niyaz Səttar oğlu Şərifov 1982-ci il may ayının 15-də vəfat etmişdir.

Ə d ə b i y y a t :

Rəhimli, İ. Niyaz Şərifov (16.3.1914 -15.5.1982) / İlham Rəhimli // Azərbaycan teatr tarixi.- Bakı: Çaşıoğlu, 2005.- S.343-344.

Rəhimli, İ. Niyaz Şərifov (16.3.1914-15.5.1982) / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası.- Cild 3.- Bakı, 2017.- S.65.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Niyaz_%C5%9E%C9%99rifov

Hüseynağa Sadıqov – 110

(1914-1983)

Teatr və kino aktyoru



Hüseynağa Ələsgər oğlu Sadıqov 1914-cü il mart ayının 21-də Bakı şəhərində anadan olmuşdur.

O, hələ orta məktəbdə oxuyarkən həvəskar teatr truppalarına maraq göstərmişdir. O, müsabiqə ilə 1930-cu ildə Gənc Tamaşaçılar Teatrının aktyor truppasına sınaq müddətinə qəbul olunmuş, 1931-ci ildən isə tam ştata keçmişdir. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmişdir. Döyüşlərdə ağır yaralanandan sonra ordudan tərxis olunmuş və yenidən Gənc Tamaşaçılar Teatrında aktyor işləməyə başlamışdır. Lakin aktyor xüsusi teatr təhsili almamışdır.

Hüseynağa Sadıqov uşaqların sevimli səhnə personajları - ayı, tülkü, xoruz rolundan tutmuş, el qəhrəmanlarına qədər ən mürəkkəb obrazların ifasında uğurlar qazana bilmiş, "Xoruz baba", "Piri baba" obrazları ilə uşaqların sevimlisinə çevrilmişdir.

O, Gənc Tamaşaçılar Teatrında 50 ildən çox aktyorluq etmişdir. Məşədi Cabbar, Tarverdi ("Molla İbrahimxəlil kimyagər" və "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə), Trufaldino ("İki ağanın bir nökəri", Karlo Qoldoni), Aptekçi, Spid ("Romeo və Cülyetta" və "İki veronalı" Uilyam Şekspir), Jiront ("Skapenin kələkləri", Jan Batist Molyer), Cəbi və Qıdı Kirvə, Əhməd ("Hacı Qəmbər" və "Ağakərim xan Ərdəbili", Nəcəf bəy Vəzirov), Babaşov ("Sağlıq olsun", İsi Məlikzadə) kimi əsas dramatik və komik rollar ifa etmişdir. Uşaq əsərlərində isə Əyyar ("Aqil və Sərvinaz", Əyyub Abbasov), Pitli ("Əfilər", Rabindranat Taqor), Şir, Tülkü ("Meşədə futbol, qol!" və "Tülkü məhkəməyə gedir", İgəndər Coşqun), Kikel ("Hünərli Kikel", Boris Qamrekeli və Georgi Naxutstişvili), Qambo ("Sehrli güvəc", Pavel Malyarevski), Kirpi ("Dovşanın ad günü, Xanımana Əlibəyli"), Xoruz ("Xoruz", Firidun Ağayev) nağıl və alleqorik janrlı tamaşalarda çıxış etmişdir.

Hüseynağa Sadıqov "Azərbaycanfilm" kinostudiyasında "Səhər", "Yenilməz batalyon", "Yeddi oğul istərəm", "O qızı tapın", "Sehrli xalat", "Telefonçu qız", "Babamın babasının babası", "Alma almaya bənzər", "Ələddinin sehrli çırağı" bədii kinolentlərində epizod rollara çəkilmişdir.

Hüseynağa Sadıqov 1944-cü ildə "İgidliyə görə" və "Qafqazın müdafiəsinə görə" medalları, 1945-ci ildə "Qırmızı Ulduz" ordeni və "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı, 1959-cu ildə "Əməkdə fərqlənməyə görə" medalı və 1956-cı il iyul ayının 1-də "Əməkdar artist", 1979-cu il fevral ayının 9-da "Xalq artisti" fəxri adları ilə təltif olunmuşdur. "Komsomol poeması" tamaşasında oynadığı Mirpaşa roluna görə 1967-ci ildə Azərbaycan SSR Lenin komsomolu mükafatına layiq görülmüşdür.

Hüseynağa Ələsgər oğlu Sadıqov 1983-cü il fevral ayının 23-də vəfat etmişdir.

2019-cu ilin martında Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Hüseynağa Sadıqovun 105 illik yubileyi qeyd olunmuşdur.

Ədəbiyyat:

Rəhimli, İ. Hüseynağa Sadıqov (21.3.1914, Bakı - 23.2.1983, Bakı) / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası.- Cild 2.- Bakı, 2017.- S.84-86.

Əmirli, Ş Onu hamı sevirdi... / Şəhla Əmirli // Mədəniyyət.-2019.- 29 mart.- S.6.

Mirməmməd,G "Babamızın babasının babası"nı xatırladıq / Mirməmməd G. //Mədəniyyət.-2019.- 20 mart.- S.1;4.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2019/mart/641599.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2019/mart/640825.htm

MART
22

Lütfəli Abdullayev - 110

(1914-1973)

Aktyor



Lütfəli Əmir oğlu Abdullayev 1914-cü il mart ayının 22-də Şəki şəhərində anadan olmuşdur.

Şəki şəhərində yeddillik məktəbi bitirdikdən sonra, 14 yaşında ikən Şəkidə fəhlə gənclər klubunun dram dərnəyində çıxış etmişdir. 1928-1929-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının valtorn sinfinin məşğələlərində iştirak etmiş, vokal sinfinə marağı olduğuna görə paralel olaraq Berolskinin kursunda ifaçılıqla məşğul olmuşdur.

O, 1930-cu ildə yaşının az olmasına baxmayaraq Azərbaycan Dövlət Opera Teatrının xor heyətinə qəbul olunmuşdur. Teatrın hazırladığı operettalarda epizod rollarda oynamışdır. İlk böyük rolu 1936-cı ildə Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasında Vəli obrazı olmuşdur.

Lütfəli Abdullayevin yaradıcılığının əsas dövrü Musiqili Komediya Teatrı ilə bağlıdır. O, 1938-1949 və 1956-1973-cü illərdə bu teatrın truppasında çalışmışdır. Musiqili Komediya Teatrı müvəqqəti bağlandıqdan sonra, 1949-1952-ci illərdə Milli Dram Teatrında və 1952-1954-cü illərdə Filarmoniyada, 1954-1956-cı illərdə rejissor Soltan Dadaşovun rəhbərliyi ilə iki il fəaliyyət göstərmiş, dövlət statusu olmayan Musiqili Komediya Teatrında işləmişdir.

O, Vəli və Soltan bəy, Hambal və Məşədi İbad ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyli), Qulu, Kəblə Heydər, Aşıq Vəli ("Əli yaşında cavan", "Evliykən subay" və "Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyli), Qoşun ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Qüdrət Səda ("Haradasan, ay subaylıq?", Salam Qədirzadə və Süleyman Ələsgərov), Məmmədəli ("Məmmədəli kurorta gedir", Arif Zeynallı və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Mitoş ("Hicran", Sabit Rəhman və Emin Mahmudov (Sabitoğlu)) rollarını ifa etmişdir. Akademik Milli Dram Teatrında isə ("Rəqs müəllimi", Lope de Veqa), Oddamdı ("Od gəlini", Cəfər Cabbarlı), Nadir ("Çiçəklənən arzular", Məmmədhüseyn Təhmasib) rollarını oynamışdır.

Lütfəli Abdullayev "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Əhməd haradadır?" (Zülümov), "Ulduz" (Məhəmməd), "Qatar əhvalatı" (Kefçilov) bədii filmlərinə çəkilmişdir.

Lütfəli Abdullayev çox az filmə çəkilmişdir. Cəmi 6 kinoya. İlk dəfə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə 1945-ci ildə "Arşın mal alan"da Vəli rolunda iştirak etmişdir. Film ekrana çıxandan bir il sonra 1946-cı ildə bu rola görə Stalin dövlət mükafatına (sonralar SSRİ dövlət mükafatı adlandı) layiq görülür. 1956-cı ildə Hüseyn Seyidzadənin "O olmasın, bu olsun"da Baloğlan, 1960-cı ildə Ş. Şeyxovun "Qəribə əhvalat"ında Kefçilov, 1962-ci ildə Rəşid Atamalıbəyovun "Payız konserti"ndə konsert təşkilatçısı, 1963-cü ildə Adil İsgəndərovun "Əhməd haradadır" filmində Zülümov, 1964-cü ildə Ağarza Quliyevin "Ulduz"unda Məhəmməd kimi ölməz obrazlar yaradıb.

O, 1943-cü il iyun ayının 17-ə "Əməkdar artist", 1960-cı il may ayının 24-də "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Lütfəli Əmir oğlu Abdullayev 1973-cü il dekabr ayının 9-da vəfat etmişdir və İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakıdakı küçələrin birinə sənətkarın adı verilmişdir. Yaşadığı evin önündə baralyefi vurulmuşdur.

13 fevral 2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Lütfəli Abdullayevin 100 illik yubileyi haqqında sərəncam imzalamışdır.

2014-cü ildə Lütfəli Abdullayev haqqında "Ürəklərdə yaşayan sənətkar Lütfəli Abdullayev" adlı qısametrajlı sənədli fim çəkilmişdir. Filmin rejissoru Sənan Sultanovdur, baş rolu isə Məhəmməd Samiroğlu ifa etmişdir.

Ədəbiyyat:

Xurşid, A. Varislər: Hər kəsə gülüş bəxş edən kədərli gözlərin sahibi / X. Abdullayeva // Ədəbiyyat qəzeti.-2021.- 17 aprel.- S.16-17.

Qurbanlı, R. Lütfəli Abdullayev / Ramilə Qurbanlı; [baş red. G. Cəfərova ; red. N. Cabbarlı; buraxıl. məsul S. İsmayılova ; dizayner Z. Abbasov]. - Bakı: Şərq-Qərb.- 2017. 143, [1] s.

Rəhimli, İ. Lütfəli Abdullayev (22.3.1914, Şəki - 9.12.1973, Bakı) / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası.- Cild 2.- Bakı.- 2017.- S.238-240.

Sarıyeva, İ. Lütfəli Abdullayev sənətinə dövlət qayğısı... / İradə Sarıyeva // Bakı xəbər.- 2015.- 5 noyabr.- S.15.

İnternetdə:

http://www.anl.az/down/meqale/edebiyyat/2021/aprel/741798.htm

MART
30

Rafiz İsmayılov – 85

(1939)

Teatr və kino rəssamı



Rafiz Rza oğlu İsmayılov 1939-cu il mart ayının 30-da Bakı şəhərində anadan olmuşdur.

O, 1962-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində bitirmişdir. 1966-1972-ci illərdə Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rəssamlıq fakültəsində, Mixail Boqdanov və Gennadi Myaskinovun emalatxanasında təhsil almışdır.

Həyatını milli kinomuzun və teatrın inkişafına həsr edən istedadlı sənətkarın adına bədii filmlərdə, teatr tamaşalarında quruluşçu rəssam, cizgi filmlərində isə rejissor, rəssam, ssenarist kimi tez-tez rast gəlmək olar. 50-dən çox filmin quruluşçu rəssamı olmuşdur. O, "Qatır Məmməd", "Sevinc buxtası", "Üzeyir ömrü", "Qara gölün cəngavərləri", "Qəribə adam", "Oxuyur Müslüm Maqomayev", "1001-ci qastrol", "Yapon və yaponiyalı", "Pirverdinin xoruzu", "Dantenin yubileyi", "Anın quruluşu", "Özgə ömür", "Təhminə" kimi filmlərdə işləyərək, hər janra uyğun plastika və rəng çalarları, orijinal tərtibat üsulları tapmışdır. Beləliklə də, filmlərin bədii keyfiyyətinin yüksək professional səviyyədə alınmasına xidmət göstərmişdir.

Azərbaycan Milli Dram Teatrında "Gecə döyülən qapılar", "Tənha iydə ağacı", "Fedra", "Misir gecələri", "Ölüləri qəbiristanlıqda basdırın", "İkinci səs", Opera və Balet Teatrında isə "Natəvan", "Leyli və Məcnun", "Məhəbbət və ölüm", "Rast", "Trubadur" əsərlərinin quruluşçu-rəssamı olaraq teatr dekoru sənətinin inkişafına öz töhfəsini vermişdir. "Danışan işıqlar", "Xeyir və Şər", "Göyçək Fatma", "Lağım" cizgi filmlərinin quruluşçu-rəssamı, "Oda" filminin rejissoru, ssenaristi və rəssamı olan Rafis İsmayılov "Xətai", "Metexan", "Romeo və Cülyetta", "Spartak", "Oliver Tvist", "Qaçaqlar", "Kventin Dorvard" və başqa kitablara illüstrasiyalar yaratmışdır. Atalar sözləri, Dədə Qorqud motivləri və xalq mahnıları mövzusunda çox sayda rəsm əsərinin müəllifidir. O, dünyada məşhur olan qədim Təbriz miniatür məktəbinin ənənələrini davam etdirərək, dəzgah rəngkarlığı və miniatür üslubunda axtarışlar aparır və bu sahənin inkişafına çalışır. Ölkəmizdə və xaricdə açılan bir çox sərgilərdə iştirak etmiş Rafiz İsmayılov Professional Kinorejissorlar Gildiyasının, Kinematoqrafçılar İttifaqının və Rəssamlar İttifaqının üzvü kimi milli mədəniyyətimizin ictimai həyatında fəal iştirak etmişdir.

Rafiz İsmayılov 1972-ci ildən "Azərbaycanfilm" kinostudiyasında çalışır.

1975-ci ildən Azərbaycan Rəssamlar İttifaqının, 1976-cı ildən Azərbaycan Kinematoqrafiyaçılar İttifaqının üzvü olmuşdur. 2008-ci ildən Azərbaycan Respublikasının mədəni və ictimai həyatında böyük xidmətləri görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə laiq görülmüşdür

İsmayılov Rafiz Rza oğlu 1982-ci ildə Əməkdar rəssam, 2000-ci ildə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür. 1978-ci ildə "Sevinc buxtası" filminə görə Dövlət mükafatına, 2015-ci ildə "Sübhün səfiri" filminə görə "Ən yaxşı rəssam işi" nominasiyasında "Qızıl Pəri" mükafatına layiq görülmüşdür. Əsərləri Dövlət Mükafatı və rəssamlıq üzrə Sultan Məhəmməd mükafatı ilə təltif edilmişdir.

Rafiz İsmayılovun əsərləri Rüstəm Mustafayev adına Milli İncəsənət Muzeyi, Moskva Dövlət Şərq Xalqları İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında, eləcə də yerli və xarici şəxsi kolleksiyalarda qorunaraq saxlanılır.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə 2019-cu il fevral ayının 15-də Muzey Mərkəzində Rafiz İsmayılovun 80 illik yubileyi keçirilmişdir.

Ədəbiyyat:

"Həmişə sevinmişəm ki, mənim də kinoda əməyim var": Rafiz İsmayılov: "Rəssamsız filmin koloritini qurmaq mümkün deyil" / R.R.İsmayılov: müsahibəni apardı Ş.Əmirli // Mədəniyyət.- 2022.- 30 mart.- S.7.

Rafiz İsmayılov: "Kinoda çox şey quruluşçu rəssamın işindən asılıdır" / Rafiz İsmayılov, müsahibəni apardı: G.Camalqızı // Ekran-efir.- 2014.- 18 iyul.- S.28.

Cabbarova, Z. Azərbaycan kinosunda xidmətləri olan rəssam: "İstedadlı rəssam öz xəyalı ilə filmdə istədiyi dövrü yarada bilər" / Ziyarət Cabbarova // Mədəniyyət.- 2020.- 13 may.- S.7.

Xalq rəssamının 80 illiyi qeyd edilib // Mədəniyyət.- 2019.- 17 aprel.- S.3.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rafiz_%C4%B0smay%C4%B1lov

http://kinobiz.az/celebrity/rafis-ismayilov/

Viktor Seryoqin - 80

(1944-1992) *Milli Qəhrəman*



Viktor Vasilyeviç Seryogin 1944-cü il mart ayının 23-də Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olmuşdur. 1986-cı ildə Kremençuq Mülki Aviasiya Məktəbini bitirdikdən sonra Zabrat Əlahiddə Aviasiya Dəstəsinə məxsus Mİ-2 vertolyotuna pilot təyin edilmişdir. Azərbaycanın Hərbi Hava Qüvvələrinin yaradılmasında onun böyük xidməti olmuşdur. Dəfələrlə ordenlərlə təltif olunmuşdur.

Qarabağ müharibəsində adı hər kəsə məlum olan Viktor sərrast atəşlərlə erməni işğalçılarının zirehli texnikalarını sıradan çıxarmış, erməni yaraqlılarının postlarına od ələmişdir. Dəfələrlə atəşə tutulmasına baxmayaraq vertolyotu təmir etmiş, yeni uçuşlar həyata keçirmişdir. Viktor Ağdərə, Şuşa, Ağdam səmasında özünəməxsus izlər qoymuş, dinc sakinləri dəfələrlə xilas edərək təhlükəsiz əraziyə daşımışdır.

1992-ci il yanvar ayının 28-də dinc sakinləri təhlükəsiz yerə apararaq Ağdam-Şuşa istiqamətində hərəkət etmiş, erməni yaraqlıları qəfil vertolyotu atəşə tutmuş, Viktor alova bürünmüş vertolyotu kənara yönəldərək insanların tələf olmasının qarşısını ala bilmişdir. Viktor Seryogin heyətlə birlikdə qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ailəli idi. İki övladı yadigar qalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı Fərmanı ilə Seryogin Viktor Vasilyeviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan Hava Yolları" Dövlət Konserninin əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Seryogin Viktor Vasilyeviç - Mİ-8 vertolyotunun komandiri Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 noyabr 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- No 22.- S.68.- (Ölümündən sonra).

Əsgərov, V. Seryogin Viktor Vasilyeviç / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.197.

Seryogin Viktor Vasilyeviç (1944-1992) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.184-185.

Seyidzadə, M. Seryogin Viktor Vasilyeviç / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.206.

Paşa Təhməzov – 75

(1949-1993) *Milli Qəhrəman*



Paşa Qurban oğlu Təhməzov 1949-cu il mart ayının 23-də Lənkəran şəhərində anadan olmuşdur. 1964-cü ildə 6 saylı orta məktəbin səkkizinci sinfini bitirmiş, orta təhsilini fəhlə-gənclər məktəbində davam etdirmişdir.

O, əmək fəaliyyətinə Əhaliyə Məişət Xidməti İstehsalat Kombinatında usta köməkçisi kimi başlamışdır.

1993-cü il avqust ayının 23-də Azərbaycanın cənub bölgəsində vəziyyət gərginləşəndə Paşa Təhməzov silaha sarılaraq "Talış Muğan Respublikası" adı ilə baş qaldıran daxili çəkişmələrin qarşısını almağa yollanmışdır. Paşa Təhməzov dövlətçiliyimizin qorunması uğrunda öz canını əsirgəməmiş, cinayətkar dəstə ilə baş verən qarşıdurma nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı Fərmanı ilə Təhməzov Paşa Qurban oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Lənkəran şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ailəli idi. Üç övladı yadigar qalmışdır.

Lənkəran şəhərindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuş, "23 Avqust" meydanında büstü qoyulmuşdur.

Ə d ə b i y y a t :

Paşa Qurban oğlu Təhməzova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Lənkəran şəhər Əhaliyə Məişət Xidməti idarəsinin işçisi Azərbaycan Respublikasının dövlətçiliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasında, Azərbaycan xalqına təcavüz edən cinayətkar ünsürlərə qarşı mübarizədə göstərdiyi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 24 avqust 1993-cü il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- No16.- S.19. (Ölümündən sonra).

Əsgərov, V. Təhməzov Paşa Qurban oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.213.

Seyidzadə, M. Təhməzov Paşa Qurban oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.217.

Təhməzov Paşa Qurban oğlu (1949-1993) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.201.

Zeynalov, R. Təhməzov Paşa Qurban oğlu: (1949-1993) / R.Zeynalov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 1996.- S.111.

İlqar İsmayılov - 65

(1959-1992) *Milli Qəhrəman*



İlqar Sədi oğlu İsmayılov 1959-cu il mart ayının 29-da Bakı şəhərində anadan olmuşdur.

Orta təhsilini Nərimanov rayonundakı 45 saylı orta məktəbdə almış, 1976-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur. 1981-ci ildə institutu bitirmiş, həmin il həqiqi hərbi xidməti Bakı Ordu İdman Klubunda yerinə yetirmişdir. 1986-cı ilə qədər "Dinamo" İdman Klubunda məşqçi işləmiş, sonralar leytenant rütbəsi ilə DİN-nin Sabunçu rayon Daxili İşlər Şöbəsində əməliyyat müvəkkili vəzifəsində çalışmışdır.

İlqar İsmayılov 1991-ci ilin dekabırından başlayaraq döyüş bölgələrinə ezam olunmuşdur. O, Şuşanın Malıbəyli, Meşəli kəndlərində və Ağdam rayonunun ərazilərində gedən döyüşlərdə iştirak etmişdir.

1992-ci il oktyabrın 1-də Laçın rayonunun Mazutlu kəndi yaxınlığında Qızartı yüksəkliyi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı Fərmanı ilə kapitan İsmayılov İqar Sədi oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərində küçələrdən biri onun adını daşıyır, 45 saylı orta məktəbin önündə büstü qoyulmuşdur.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Daxili İşlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [İsmayılov İlqar Sədi oğlu - polis kapitanı Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- No20.- S.19. (Ölümündən sonra).

İsmayılov İlqar Sədi oğlu (1959-1992) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.107-108.

Əsgərov, V. İsmayılov İlqar Sədi oğlu / V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.105.

Seyidzadə, M. İsmayılov İlqar Sədi oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.110.

Etibar İsmayılov – 60

(1964-1994) *Milli Qəhrəman*



Etibar Bəylər oğlu İsmayılov 1964-cü il mart ayının 29-da Ağcabədi rayonunun Hindarx kəndində anadan olmuşdur.

O, 1981-ci ildə orta məktəbi bitirmiş və çilingər kimi əmək fəaliyyətinə başlamışdır. Ağdamdakı özünümüdafiə batalyonuna daxil olmuş, torpaqlarımızın müdafiəsində fəal iştirak edərək igidlik göstərmişdir. O, Naxcıvanik, Şelli kəndlərinin müdafiəsində şəxsi nümunə göstərmişdir. Xocavənd rayonunun ərazisində erməni hücumlarını dəf etmiş, Ağcabədidə yaradılan özünümüdafiə taboruna qoşulmuşdur.

Etibar İsmayılov 1994-cü il yanvar ayının 4-də Xocavənd rayonunun Qarakənd istiqamətində aparılan əməliyyatlar zamanı döyüşdə yoldaşlarının mühasirədən çıxarılmasında igidlik göstərmiş, özü isə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli 86 saylı Fərmanı ilə İsmayılov Etibar Bəylər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Hindarx kənd orta məktəbi Etibar İsmayılovun adını daşıyır. Məktəbin önündə qəhrəmanın büstü qoyulmuşdur. Milli qəhrəmana həsr olunmuş "Vətənə etibarlı oğul" və "Vətən mənə oğul desə" filmləri çəkilmişdir.

Ə d ə b i y y a t :

Etibar Bəylər oğlu İsmayılova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Taqım komandiri - döyüş dostlarının həyatını xilas etmək üçün tank əleyhinə qumbara ilə düşmən tankının altına atılaraq onu məhv etdiyinə, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında xüsusi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 yanvar 1995-cü il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1995.- No1.- S.12. (Ölümündən sonra).

Əsgərov, V. İsmayılov Etibar Bəylər oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.104.

İsmayılov Etibar Bəylər oğlu (1964-1993) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.106-107.

Seyidzadə, M. İsmayılov Etibar Bəylər oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.109.

MART
29

Fariz Qəhrəmanov - 50

(1974)

Milli Qəhrəman



Fariz Çoban oğlu Qəhrəmanov 1974-cü il mart ayının 29-da Bərdə rayonunun Xəsili kəndində anadan olmuşdur.

Orta təhsilini 1991-ci ildə doğma kəndlərində almış, sonra 47 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmişdir.

Fariz Qəhrəmanov 1992-ci ildə Milli Orduya çağırılmış, 776 saylı hərbi hissədə xidmətə başlamışdır. Ağdam, Ağdərə, Füzuli, Kəlbəcər və Tərtər rayonları uğrunda gedən ağır döyüşlərdə iştirak etmişdir.

O, 1994-cü ildə Ağdərənin müdafiəsi uğrunda gedən döyüşdə yaralanmışdır. Bir müddət müalicə aldıqdan sonra yenidən cəbhəyə qayıtmışdır. 1995-ci ildə dövlət çevrilişinə cəhdin qarşısının alınmasında xidmət göstərmişdir. 1995-1996-cı illərdə Türkiyə Respublikasında Jandarm və Komanda məktəbini bitirmiş, 1999-cu ildə sənədlərini Ali Birləşmiş Komandanlıq məktəbinə vermiş və motoatıcı qoşunlar komandiri ixtisası üzrə orada kursu tam olaraq başa vurmuşdur. Kapitan rütbəsinə qədər yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Qəhrəmanov Fariz Çoban oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Hazırda polkovnik-leytenant rütbəsində Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsində xidmətini davam etdirir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qəhrəmanov Fariz Çoban oğlu - Müdafiə Nazirliyi, çavuş-Azərbaycan Respublikasının Konstitusiyası, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan.- 1995.- 5 aprel.

Əsgərov, V. Qəhrəmanov Fariz Çoban oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.235.

Qəhrəmanov Fariz Çoban oğlu (1974) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.118.

Seyidzadə, M. Qəhrəmanov Fariz Çoban oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.122.

1 MART

Zabil Ağayev - 30

(1994-2020) *Kiçik çavuş*



Zabil Azər oğlu Ağayev 1994-cü il mart ayının 1-də Saatlı rayonunun Məmmədabad kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Zabil Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayil, Xocavənd, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Zabil Ağayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur.

Zabil Azər oğlu Ağayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12

1

Elgiz Mehtiyev - 25

(1999-2020) *Əsgər*



Elgiz Şahin oğlu Mehtiyev 1999-cu il mart ayının 1-də Saatlı rayonunun Bəylər kəndində anadan olmuşdur. 2006-2014-cü illərdə Bəylər kənd ümumi orta məktəbində təhsil almışdır. 2016-cı ildə hərbiyə yollanan Elgiz Mehtiyev Tərtər rayonunun "N" saylı hərbi hissəsində qulluq etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elgiz Mehtiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elgiz Mehtiyev noyabr ayının 5-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur.

Elgiz Şahin oğlu Mehtiyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
2

Hakim Bəşirov - 35

(1989-2020) *Leytenant*



Hakim Nizam oğlu Bəşirov 1989-cu il mart ayının 2-də İmişli rayonunun Əliyetməzli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun leytenantı olan Hakim Bəşirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Xocavəndin, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yüksək şücaət göstərmişdir. Oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Oktyabrın 23-də İmişli rayonunun Əliyetməzli kəndində dəfn edilmişdir.

Hakim Nizam oğlu Bəşirov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

2

Emil Həsənov - 25

(1999-2020) *Əsgər*



Emil Eldəniz oğlu Həsənov 1999-cu il mart ayının 2-də Goranboy rayonunun Tatarlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Emil Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü atıcı olaraq iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Emil Həsənov 22 oktyabr 2020-ci ildə Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Goranboy rayonunda dəfn olunmuşdur.

Emil Eldəniz oğlu Həsənov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART

2

Hidi Vəliyev - 30

(1994-2020)

MAHHXHQ əsgər



Hidi Bəxtiyar oğlu Vəliyev 1994-cü il mart ayının 2-də Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Niyazi Aslanov adına Goranboy rayon Tap Qaraqoyunlu kənd tam orta məktəbində təhsil almışdır. 2016-cı ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Goranboy rayon üzrə Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmış və Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmişdir. 2016-cı il aprel ayında tarixə "Aprel döyüşləri" olaraq yazılan döyüşlər zamanı Hidi Vəliyev atıcı olaraq vuruşmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Hidi Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində atıcı olaraq iştirak etmişdir. Tərtər, Ağdərə istiqamətində gedən döyüşlərdə vuruşub və müharibənin ilk günündə, 27 sentyabr tarixində qəhrəmancasına şəhid olmuşdur. Goranboy rayonunun Qızılhacılı kəndində dəfn edilmişdir.

Hidi Bəxtiyar oğlu Vəliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12

4

Elgün Paşayev - 30

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Elgün İlham oğlu Paşayev 1994-cü il mart ayının 4-də Sabirabad şəhərində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Elgün Paşayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elgün Paşayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur.

Elgün İlham oğlu Paşayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.– 2021. – 25 iyun. – S.45-57.

MART
4

Elçin Əliyev - 30

(1994-2020)

Gizir



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S. 6-12

Elçin Rasim oğlu Əliyev 1994-cü il mart ayının 4-də Mingəçevir şəhərində anadan olmuşdur. 2000-ci ildə 1-ci sinifi Qax rayon Qaşqaçay tam orta məktəbdə, 11-ci sinifi 2011-ci ildə Mingəçevir şəhər S.Vurğun adına 16 saylı tam orta məktəbdə bitirmişdir.

2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində hərbi xidmət keçmişdir. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzinə Gizir Hazırlıq Kursuna Döyüş Maşın (BMP-2 (yüngül zirehli texnika)) Komandiri – Manqa Komandiri ixtisası üzrə qəbul olunmuşdur. Daha sonra Hərbiçi olaraq xidmətini davam etdirmək üçün Mingəçevir şəhər "N" saylı Hərbi Hissə Komandirinin sərəncamına göndərilmiş, Hərbi hissənin 1-ci Taborunda Döyüş Maşın Komandiri vəzifəsində xidmət etməyə başlamışdır.

Elçin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ, Ağdərə-Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Elçin Əliyev sentyanrın 28-də Talış kənd uğrunda gedən döyüşlərində şəhid olmuşdur. Nəşi uzun müddət sonra tapılmışdır. Oktyabr ayının 4-də Mingəçevir Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Elçin Rasim oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Nail İbrahimli - 30

4

(1994-2020)

Kiçik gizir



Nail Nəriman oğlu İbrahimli 1994-cü il mart ayının 4-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olmuşdur. 2001-2011-ci illərdə V. İbrahimov adına 2 nömrəli tam orta məktəbdə təhsil almışdır.

Nail İbrahimli 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Nail İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Nail İbrahimli noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Oğuz rayonunun Xaçmaz kəndində dəfn olunmuşdur.

Nail Nəriman oğlu İbrahimliyə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

4 MART

Feyruz Hacılı - 30

(1994-2020)

Əsgər



Feyruz Bəhruz oğlu Hacılı 1994-cü il mart ayının 4-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Tibb Universitetinə daxil olmuş və oranı müvəffəqiyyətlə bitirmişdir.

Feyruz Hacılı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd döyüşlərində vuruşmuşdur. Oktyabrın 14-də ayağının şah damarından qəlpə yarası almış, həmin ayın 17-də şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Feyruz Bəhruz oğlu Hacılı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qoyulmuş tapşırıqların icrası zamanı verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

4

Hüseyn Quliyev - 25

(1999-2020)

Əsgər



Hüseyn Həsən oğlu Quliyev 1999-cu il mart ayının 4-də Gəncə şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə M. Mehdizadə adına İngilis dili Təmayüllü 4 saylı Liseydə təhsil almışdır. 2016-2020-ci illərdə isə Bakı Dövlət Universitetinin tarix fakultəsində təhsil almışdır. 2020-ci ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi getmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 28-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. 3 oktyabrda Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Hüseyn Həsən oğlu Quliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qoyulmuş tapşırıqların icrası zamanı verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
5

Nicat Atayev - 30

(1994-2020) *Leytenant*



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

Atayev Nicat Habil oğlu 5 mart 1994-cü ildə Mingəçevirdə doğulub. 2000-ci ildə Bakıda 200 №li məktəbdə təhsilə başlamışdır. 10-cu sinifdən təhsilini Gəncədə 55 №li Kəlbəcər məktəbində davam etdirmişdir.

Orta məktəbi bitirdikdən sonra 2011-ci ildə hərbi xidmətə yollanıb. Xidmətini Naxçıvan şəhərindəki hərbi hissədə keçmişdir. 2013-cü ildə xidmətini başa vurduqdan sonra Gəncə Dövlət Universitetinin fiziki hazırlıq fakültəsinə daxil olub. Ali təhsili bitirdikdən sonra sənədlərini Müdafiə Nazirliyinə təqdim edib. 2019-cu ildə 3 aylıq zabitlik kursunu başa vurduqdan sonra Füzulidə hərbi xidmətə başlayıb.

Azərbaycan Ordusunun leytenantı olan Nicat Atayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nicat Atayev sentyabrın 27-də Füzulinin azad edilməsi zamanı Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Atayev Nicat Habil oğlu ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

5

Xəyal Aslanov - 30

(1994-2020) *Gizir*



Xəyal Qüdrət oğlu Aslanov 1994-cü il mart ayının 5-də Tərtər rayonunun Çardaqlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Xəyal Aslanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Xəyal Aslanov sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Ailəli idi. 2 övladı yadigar qalıb.

Xəyal Qüdrət oğlu Aslanov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin ərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. – 2021. – 25 iyun. – S.66-67.

6 MART

Vüsal Cəfərov - 35

(1989-2020)

MAHHXHQ əsgər



Vüsal Sərhədxan oğlu Cəfərov 1989-cu il mart ayının 6-da Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olmuşdur. 2006-cı ildə Göytəpə şəhər 1 saylı məktəbi bitirmişdir. 2007-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda həqiqi hərbi xidmət keçmişdir.

Vüsal Cəfərov 2013-cü il iyul ayının 29-da MN-nin Beyləqanda yerləşən N saylı kəşfiyyat taborunda kəşfiyyatçı kimi müddətdən artıq xidmətə başlayıb. O, 2016-cı ilin aprel döyüşlərində də fəal iştirak etmişdir.

27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində Vüsal Cəfərov da Füzuli, Hadrut, Cəbrayıl və Qubadlı döyüşlərində bir kəşfiyyatçı kimi yüksək peşəkarlıq göstərmişdir. Oktyabr ayının 22-də Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Cəlilabad rayonunda dəfn olunmuşdur.

Vüsal Sərhədxan oğlu Cəfərov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətənə xidmətə görə", "Azərbaycan Bayrağı" (III dərəcəli) ordenləri ilə və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

6

Arzu Zeynalov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Arzu Rövşən oğlu Zeynalov 1999-cu il mart ayının 6-da Qazaxıstan Respublikasının Arşalinskiy rayonunun Qırmızı Göl kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Daşkəsən rayon Mədənçilər qəsəbəsindəki Nəriman Nərimanov adına 3 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2017-2018-ci illərdə Arzu Zeynalov həqiqi hərbi xidmət keçmişdir. 2020-ci ilin iyun ayından etibarən MAHHXHQ əsgər kimi yenidən xidmətə başlamışdır.

Rövşən Zeynalov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Oktyabr ayının 2-də Kəlbəcər rayonu istiqamətində aparılan hərbi əməliyyatlar zamanı şəhid olmuşdur. Noyabr ayının 24-də Daşkəsən rayonundakı Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Arzu Rövşən oğlu Zeynalov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Hərbi xidmətinə görə", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il.// Azərbaycan.–2020.– 19 dekabr.– S.5.

MART

6

Rəvan Daşdəmirov - 30

(1994-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Rəvan Məzahir oğlu Daşdəmirov 1994-cü il mart ayının 6-da Gəncə şəhərində anadan olmuşdur. 2000-2011-ci illərdə K.D.Uşinski adına Gəncə şəhər 29 nömrəli tam orta məktəbdə orta təhsil almışdır. 2011-2015-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetinin "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisası üzrə ali təhsil almışdır. Rəvan Daşdəmirov 2015-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhər Nizami rayon üzrə Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Daşdəmirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü atıcı olaraq iştirak etmişdir. O, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 27 oktyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 29 oktyabr tarixində Gəncə Şəhidlər xiyabanında dəfn olunmuşdur.


Rəvan Məzahir oğlu Daşdəmirov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Vətənə xidmətə görə" medalları ilə təltif edilmişdir.

6

Balaş Fərziyev - 30

(1994-2020)

Əsgər



Balaş İltizam oğlu Fərziyev 1994-cü il mart ayının 6-da Lerik rayonunun Bibiyani kəndində anadan olmuşdur. Mikayıl Qasımov adına tam orta məktəbdə təhsil almışdır. Azərbaycan Kooperasiya Universitetinin "İqtisadiyyat" fakültəsini bitirmişdir. 2015-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır.

Balaş Fərziyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Sentyabr ayının 29-da Füzuli uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. 7 noyabrda Lerik rayonunun Bibiyani kəndində dəfn olunmuşdur.

Balaş İltizam oğlu Fərziyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
6

Fərid Lillahov - 25

(1999-2020)

Baş əsgər



Fərid Loğman oğlu Lillahov 1999-cu il mart ayının 6-da Oğuz rayonunun Baş Daşağıl kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Ə.Həbibullayev adına Baş Daşağıl kənd tam orta məktəbində təhsil almışdır. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Lillahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşa-Xankəndi istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 8-də Şuşa-Xankəndi istiqamətində döyüşlər zamanı şəhid olmuşdur. Oğuz rayonunun Baş Daşağıl kəndində dəfn olunmuşdur.

Fərid Loğman oğlu Lillahov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

8

Pərvin Həmidov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Pərvin Azər oğlu Həmidov 1994-cü il mart ayının 8-də Yevlax rayonunun Beydili kəndində anadan olmuşdur. 2011-ci ildə Mingəçevir şəhərində yerləşən 25 №-li Kəlbəcər məktəbindən məzun olmuşdur. 2012-ci ilin aprel ayında Yevlax rayonun Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır. Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə sürücü vəzifəsində müddətdən artıq hərbi qulluqçu kimi çalışırdı.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Pərvin Həmidov Talış Suqovuşan döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 1-də Talış-Suqovuşan istiqamətində şəhid olmuşdur. Oktyabr ayının 2-də Mingəçevir şəhəri Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Vətənə əmanət iki övladı qaldı.

Pərvin Azər oğlu Həmidov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

8 MART

Sərxan Həsənov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Sərxan Habil oğlu Həsənov 1999-cu il mart ayının 8-də Tovuz rayonunun Əlibəyli kəndində anadan olmuşdur. 2005-2014-cü illərdə Q.Rzayev adına Hacallı kənd tam orta məktəbində təhsil almışdır. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2019-cu ildən isə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edirdi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Sərxan Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 27-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Tovuz rayonunun Əlibəyli kəndində dəfn olunmuşdur.

Sərxan Habil oğlu Həsənov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

8

Seyfəddin Dadaşov - 25

(1999-2020)

Əsgər



Seyfəddin Məhyyəddin oğlu Dadaşov 1999-cu il mart ayının 8-də Beyləqan rayonunda anadan olmuşdur. 2005-2016-cı illərdə Beyləqan rayon Mayak kənd tam orta məktəbdə, 2016-2020-ci illərdə isə Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsində ali təhsil almışdır. 2020-ci ildə magistratura pilləsinə qəbul olsa da, təhsilini yarımçıq qoyaraq hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Seyfəddin Dadaşov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak etmişdir. Döyüşlər zamanı ayaq nahiyəsindən yaralandığı üçün hospitala göndərilsə də, yenidən döyüşlərə qatılmaq üçün ön cəbhəyə qayıtmışdır. Ağdərə-Suqovuşan istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir. Oktyabr ayının 31-də şəhid olmuşdur. Beyləqan rayonunun Mayak kəndində dəfn edilmişdir.

Seyfəddin Dadaşov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.66-67

8 MART

Kənan Ömərli - 25

(1999-2020) *Əsgər*



Kənan Elxan oğlu Ömərli 1999-cu il mart ayının 8-də Göyçay rayonu Cəyirli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Kənan Ömərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Kənan Ömərli oktyabr ayının 6-da şəhid olmuşdur. Göyçay rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kənan Ömərli ölümündən "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

İnternetdən:

https://memorial.az/az/qehremanlarimiz/921

8

Elşən Zeynalov - 25

(1999-2020) *Əsgər*



Elşən Zaman oğlu Zeynalov 1999-cu il mart ayının 8-də Goranboy rayonunun Düzqışlaq kəndində anadan olmuşdur. Düzqışlaq kəndi, Ziyad Məsimov adına tam orta məktəbdə təhsil almışdır. 2017-2018-ci illərdə hərbi xidmətdə olmuşdur.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Elşən Zeynalov Suqovuşan, Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 14 oktyabrda Suqovuşan istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Elşən Zeynalov 17 noyabr 2020-ci ildə Düzqışlaq kənd qəbiristanlığında dəfn olunmuşdur.

Elşən Zaman oğlu Zeynalov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART 8

Mərhab Əliyev - 45

(1979-2020)

MAHHXHQ kiçik çavuş



Mərhab Şikar oğlu Əliyev 1979-cu il mart ayının 8-də Gəncə şəhərində anadan olmuşdur. 1990-2001-ci ildə Goranboy rayonunun Bağçakürd kənd orta məktəbində təhsil almışdır. 2001-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2010-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Mərhab Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Madagizin azad edilməsi zamanı ağır yaralanıb və Hərbi Hospitala yerləşdirilmişdir. Oktyabrın 15-də Hərbi Hospitalda şəhid olmuşdur. Oktyabr ayının 16-da Goranboy rayonunun Bağçakürd kəndində dəfn olunmuşdur. Ailəli idi. Üç övladı yadigar qalmışdır.

Mərhab Şikar oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. – 2021. – 25 iyun. – S.66-67

9

Elvin İsmayılov - 35

(1989-2020)

MAHHXHQ çavuş



Elvin Tələt oğlu İsmayılov 1989-cu il mart ayının 9-da Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun çavuşu olan Elvin İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 27-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Beyləqan şəhərində dəfn olunmuşdur.

Elvin Tələt oğlu İsmayılov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Vətənə xidmətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

9 MART

Coşqun Məmmədov - 30

(1994-2020)

Gizir



Coşqun Elnur oğlu Məmmədov 1994-cü il mart ayının 9-da Ucar rayonunun Qarabörk kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Ucar rayon 5 saylı tam orta məktəbdə təhsil almışdır. 2012-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağrılmışdır. Xidmətini Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda başa vurmuşdur.

Coşqun Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Noyabr ayının 22-də Ağdərə-Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ailəli idi. Bir övladı yadigar qalmışdır.

Coşqun Elnur oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan. – 2020.– 16 dekabr. – S.6-12.

10

Aqşin Qədirzadə - 25

(1999-2020)

MAHHXHQ əsgər



Aqşin Elman oğlu Qədirzadə 1999-cu il mart ayının 10-da Qəbələ rayonunun Seyidqışlaq kəndində anadan olmuşdur. 2005-2014-cü illərdə Seyidqışlaq kənd orta məktəbində orta təhsil almışdır. Kənddə bir müddət işlədikdən sonra 2016-cı ildə çilingər peşəsinə yiyələnmək üçün Qəbələ rayonu Peşə məktəbində təhsil almışdır. 2017-ci ildə peşə təhsilini yarımçıq qoyaraq hərbi xidmətə yollanmışdır. 2017-2018-ci illərdə Ədliyyə Nazirliyində müddətli həqiqi hərbi xidmət keçmişdir. 2019-cu ildə Ordu Sıralarında xidmət üçün kursa başlamışdır. 12 iyul 2019-cu ildə həmin kursu moto atıcı manqa komandiri vəzifəsi ilə bitirmişdir. Tovuz döyüşlərində iştirak etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Aqşin Qədirzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 4-də itkin düşmüşdür. Oktyabrın 18-i şəhid olduğu açıqlanmışdır. Dekabr ayının 18-də Qəbələ rayonunun Seyidqışlaq kəndində dəfn olunmuşdur.

Aqşin Elman oğlu Qədirzadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci ilin aprel ayında Vətən müharibəsi şəhidi Aqşin Qədirzadənin adına Qəbələ rayonu Zərgərli kəndində, Qəbələ-Oğuz yolunun kənarında bulaq istifadəyə verilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Bakı şəhəri, 24 iyun 2021-ci il. // Azərbaycan.–2021.– 25 iyun

MART
10

Tural İsmayılov - 25

(1999-2020)

Əsgər



Tural Nurəddin oğlu İsmayılov 1999-cu il mart ayının 10-da Daşkəsən rayonunun Zivlan kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Tural İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Tural İsmayılov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur.

Tural Nurəddin oğlu İsmayılov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

14

Ümid Məmmədov - 25

(1999-2020)

Leytenant



Ümid Fərman oğlu Məmmədov 1999-cu il mart ayının 14-də Babək rayonunun Nehrəm qəsəbəsində anadan olmuşdur. 2005-2013-cü illərdə Babək rayon Nehrəm qəsəbə 3 saylı tam orta məktəbdə orta təhsil almış, 2013-2016-cı illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirmişdir. 2016-2020-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdir. Tarixə "Tovuz döyüşləri" olaraq yazılan hərbi əməliyyatlar zamanı Ümid Məmmədov general-mayor Polad Həşimov ilə birlikdə vuruşmuşdur.

Azərbaycan Ordusunun leytenantı olan Ümid Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak etmişdir. 5 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Oktyabr ayının 18-də doğulduğu Babək rayonunun Nehrəm qəsəbəsində dəfn olunmuşdur.

Ümid Fərman oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART

14

Təbriz Namazov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Təbriz Ələmdar oğlu Namazov 1994-cü il mart ayının 14-də Şəmkir rayonunun Aşağı Seyfəli kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə N.Abbasov adına Aşağı Seyfəli kənd tam orta məktəbində təhsil almışdır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Təbriz Namazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər və Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Təbriz Namazov sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Nəşi uzun müddət tapıla bilməmişdir. Dekabr ayının 6-da Şəmkir rayonunun Aşağı Seyfəli kəndində dəfn olunmuşdur.

Təbriz Ələmdar oğlu Namazov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

15

Mirzə Axundov - 40

(1984-2020)

Miçman



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. –2021. –25 iyun. – S.66-67.

Mirzə Musa oğlu Axundov 1984-cü il mart ayının 15-də Lənkəran rayonunun Gəgiran kəndində anadan olmuşdur. 1991-2000-ci illərdə Gəgiran kənd tam orta məktəbində təhsil almışdır. 2002-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Mirzə Axundov Aprel döyüşlərində iştirak etmişdir. "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı olan Mirzə Axundov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Mirzə Axundov oktyabrın 2-də Talış istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Xəzər rayonunun Türkan qəsəbəsində dəfn olunmuşdur.

Mirzə Musa oğlu Axundov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
15

Rəşad Babayev - 25

(1999-2020)

Əsgər



Rəşad İlham oğlu Babayev 1999-cu il mart ayının 15-də Gəncə şəhərində anadan olmuşdur. 2007-2016-cı illərdə Gəncə şəhər 28 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçmişir.

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü atıcı olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rəşad Babayev 9 noyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. 21 noyabr 2020-ci ildə Gəncə Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Rəşad İlham oğlu Babayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

15

Alim Quliyev - 25

(1999-2020)

Əsgər



Alim Fuad oğlu Quliyev 1999-cu il mart ayının 15-də Siyəzən rayonu Yenikənd kəndində anadan olmuşdur. 2005-2014-cü illərdə Yenikənd kənd tam orta məktəbində təhsil almışdır. 2017-2018-ci illərdə həqiqi hərbi xidmət keçmişdir.

Alim Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Ağdam, Füzuli, Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Alim Quliyev oktyabr ayının 30-da Şuşa yaxınlığında şəhid olmuşdur. Noyabr ayının 1-i dəfn edilmişdir.

Alim Fuad oğlu Quliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.– 2021. – 25 iyun. – S.45-57.

MART
16

Rəşad Aslanov - 40

(1984-2020) *MAHHXHQ əsgər*



Rəşad Taryel oğlu Aslanov 1984-cü il mart ayının 16-da Goranboy rayonunda anadan olmuşdur. Goranboy rayonu Yunis Nəcəfov adına Qarqucaq kənd tam orta məktəbində təhsil almışdır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almışdır. 2014-cü ildən orduda hərbi qulluqçu kimi xidmətə başlamışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Rəşad Aslanov Suqovuşan, Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Rəşad Aslanov 2020-ci il sentyabrın 29-da Murovdağ istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olmuşdur. Goranboyda dəfn olunmuşdur.

Rəşad Taryel oğlu Aslanov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Bakı şəhəri, 24 iyun 2021-ci il. // Azərbaycan. – 2021.– 25 iyun

16

Zeynali Dursunov - 25

(1999-2020) *Əsgər*



Zeynali Əlləz oğlu Dursunov 1999-cu il mart ayının 16-da Saatlı rayonunun Fətəlikənd kəndində anadan olmuşdur. 2006-2014-cü illərdə Saatlı rayonu Günəşli kənd ümumi orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Adil Çaxoyev adına Fətəlikənd tam orta məktəbində orta təhsilini başa vurmuşdur. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olmuşdur.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Zeynalı Dursunov Füzuli döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 14-də Füzuli rayon istiqamətində gedən döyüş əməliyyatları zamanı şəhid olmuşdur. Saatlı rayonunda dəfn edilmişdir.

Zeynali Əlləz oğlu Dursunov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
18

İlkin İsgəndərov - 25

(1999-2020)

Çavuş



İlkin Camal oğlu İsgəndərov 1999-cu il mart ayının 18-də Sumqayıt şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə Qubadlı rayon Kavdadiq kənd tam orta məktəbində təhsil alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun çavuşu olan İlkin İsgəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İlkin İsgəndərov oktyabrın 25-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Sumqayıt şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

İlkin Camal oğlu İsgəndərov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

18

İlqar Əhmədov - 25

(1999-2020)

Əsgər



İlqar Xəqani oğlu Əhmədov 1999-cu il mart ayının 18-də Kürdəmir rayonu İsmayıllı kəndində anadan olmuşdur.

İlqar Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 5-ində şəhid olmuşdur. Noyabr ayının 20-də dəfn olunmuşdur.

İlqar Xəqani oğlu Əhmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
19

Həmdulla Abdullayev - 30

(1994-2020)

Əsgər



Həmdulla Aslan oğlu Abdullayev 1994-cü il mart ayının 19-da İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olmuşdur. 2000-2011-ci illərdə K. Əsədov adına Hacıbabalı kənd tam orta məktəbində təhsil almışdır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Həmdulla Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Həmdulla Abdullayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində dəfn olunmuşdur.

Həmdulla Aslan oğlu Abdullayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

19

Raqim Hadıyev - 25

(1999-2020)

Əsgər



Raqim Teymur oğlu Hadıyev 1999-cu il mart ayının 19-u Lənkəran rayonunun Alazepin kəndində anadan olmuşdur. Orta təhsilini Alazepin kənd məktəbində aldıqdan sonra hərbi xidmətə yollanmışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Həci Hüseynov Füzuli, Cəbrayıl, Hadrut istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 4 noyabr 2020-ci il tarixində Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Lənkəranda dəfn olunmuşdur.

Raqim Teymur oğlu Hadiyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
21

Fərid İzzətli - 30

(1994-2020)

Leytenant



Fərid Aydın oğlu İzzətli 1994-cü il mart ayının 21-də Şəki şəhərində anadan olmuşdur. 2000-2011-ci illərdə Şəki Şəhər 17 saylı tam orta məktəbdə təhsil almışdır. 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır. 2015-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmət edirdi. 2016-cı ilin 2-5 aprelində baş verən "Aprel döyüşləri"ndə iştirak etmişdir. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Fərid İzzətli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin, Zəngilanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 21-də Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Oktyabr ayının 22-də Şəki şəhərində dəfn olunmuşdur. Ailəli idi. Bir övladı yadigar qalmışdır.

Fərid Aydın oğlu İzzətli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2022-ci ildə Fərid İzzətli haqqında "Cənab leytenant" adlı sənədli film çəkilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il.// Azərbaycan.–2020.– 19 dekabr.– S.5.

21

Sərxan Mustafayev - 30

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Sərxan İslam oğlu Mustafayev 1994-cü il mart ayının 21-də Qazax rayonunun Aslanbəyli kəndində anadan olmuşdur. 2001-2009-cu illərdə Aslanbəyli kənd tam orta məktəbində təhsil almışdır. 2012-2013-cü illərdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Sərxan Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sərxan Mustafayev oktyabrın 31-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Qazax rayonunun Aslanbəyli kəndində dəfn olunmuşdur.

Ailəli idi. İki övladı yadigar qalmışdır.

Sərxan İslam oğlu Mustafayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

MART
22

Famil Həsənzadə - 30

(1994-2020)

Gizir



Famil Şiraslan oğlu Həsənzadə 1994-cü il mart ayının 22-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. Beyləqan rayon Kəbirli kənd orta məktəbində təhsil almışdır. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 2014-cü ilin mart ayından eyni hərbi birləşmədə müddətdən artıq həqiqi hərbi xidmət etməyə başlamışdır. Minaatan komandirləri kursunu bitirmişdir. "N" saylı hərbi hissənin minaatan taborunda minaatan komandiri vəzifəsində xidmət etmişdir. 2020-ci ilin gizirlik kursunu bitirərək "gizir" rütbəsi almışdır. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülmüşdür.

Azərbaycan Ordusunun giziri olan Famil Həsənzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Famil Həsənzadə noyabr ayının 8-də Şuşa döyüşləri zamanı Xocalı rayonunun Sığnaq kəndində şəhid olmuşdur.

Famil Şiraslan oğlu Həsənzadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

24

Allahverdi Babayev - 35

(1989-2020)

MAHHXHQ kiçik çavuş



Allahverdi Ələt oğlu Babayev 1989-cu il mart ayının 24-də Mingəçevir şəhərində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Allahverdi Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Allahverdi Babayev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Allahverdi Ələt oğlu Babayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
24

Şakir Orucov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Şakir Bakir oğlu Orucov 1999-cu il mart ayının 24-də Beyləqan rayonunun Qəhrəmanlı kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Qəhrəmanlı kənd tam orta məktəbində təhsil almışdır. 2017-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) idi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Şakir Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Şakir Orucov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Beyləqan rayonunun Qəhrəmanlı kəndində dəfn olunmuşdur.

Şakir Bakir oğlu Orucov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

24

Əli Bayramov - 25

(1999-2020)

Əsgər



Əli Nadir oğlu Bayramov 1999-cu il mart ayının 24-də Binəqədi rayonunda anadan olmuşdur. 2006-2016-cı illərdə Binəqədi rayon 179 saylı tam orta məktəbdə təhsil almışdır. Əli Bayramov 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Əli Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Əli Bayramov Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 5 oktyabr 2020-ci ildə Binəqədi rayonunda yerləşən Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Əli Nadir oğlu Bayramov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MART
25

Asif Kərimov - 35

(1989-2020) *Leytenant*



Asif Məmməd oğlu Kərimov 1989-cu il mart ayının 25-də Cəlilabad rayonunun Ləzran kəndində anadan olmuşdur. 2006-2010-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) ali təhsil almışdır. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət etmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Asif Kərimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Asif Kərimov noyabr ayının 3-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Cəlilabad rayonunda dəfn olunmuşdur.

Ailəli idi. İki övladı yadigar qalıb.

Asif Məmməd oğlu Kərimov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

25

Mərdan Mehdizadə - 45

(1979-2020) *Baş miçman*



Mərdan Əhməd oğlu Mehdizadə 1979-cu il mart ayının 25-də Şəki rayonunun Göybulaq kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin baş miçmanı olan Mərdan Mehdizadə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley və "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalları ilə təltif edilmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Mərdan Mehdizadə Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 12-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Şəki rayonunun Göybulaq kəndində dəfn olunmuşdur.

Mərdan Əhməd oğlu Mehdizadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MART
26

Vasif Mehbalıyev - 30

(1994-2020)

Gizir



Vasif Gülhəsən oğlu Mehbalıyev 1994-cü il mart ayının 26-da Neftçala rayonunun Aşağı Surra kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Vasif Mehbalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Hadrut və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vasif Mehbalıyev oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur.

Vasif Gülhəsən oğlu Mehbalıyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

27

Valeh Məmiyev - 30

(1994-2020)

Baş leytenant



Valeh İsbat oğlu Məmiyev 1994-cü il mart ayının 27-də Yardımlı rayonunun Kürəkçi kəndində anadan olmuşdur. 2011-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olumuşdur. Daha sonra Silahlı Qüvvələrin TTM-də təhsilini davam etdirmiş, 2015-ci ilin dekabr ayında ali zabit-leytenant rütbəsini alaraq tank tağım komandiri kimi xidmətə başlamışdır. 2018-ci ilin avqust ayında həmin hərbi hissədə tank bölük komandiri vəzifəsinə yüksəlmişdir. "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuşdur. 2020-ci il Türkiyə və Azərbaycan birgə hərbi təlimlərində iştirak etmiş və Türkiyənin Müdafiə Naziri Hulusi Akar tərəfindən xüsusi fərqlənmə ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan Valeh Məmiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə cəsur komandir kimi iştirak etmişdir. Valeh Məmiyev oktyabrın 19-da Qubadlı döyüşləri zamanı ağır yaralanmışdır. Oktyabr ayının 23-də şəhid olmuşdur. Doğulduğu Yardımlı rayonunda dəfn olunmuşdur.

Valeh İsbat oğlu Məmiyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MART
28

Azər Yusifli - 30

(1994-2020)

Baş gizir



Azər Nazim oğlu Yusifli 1994-cü il mart ayının 28-də Ağstafa rayonunun Böyük Kəsik kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Ağstafa rayonunda Böyük Kəsik kənd tam orta məktəbində təhsil almışdır. 2012-ci ilin aprel ayında Ağstafa Rayon Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. O, 2012-2013-cü illərdə Ədliyyə Nazirliyinin Penitensiar xidmətin Mühafizə alayının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2013-cü ildən isə Sərhəd Qoşunlarının Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Azər Yusifli "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley medalı ilə və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilmişdir.

Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkat Dəstəsinin (ÇHD) baş giziri olan Azər Yusifli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Zəngilan uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Azər Yusifli tərəfindən Zəngilan şəhərinə 27 ildən sonra Azərbaycan bayrağı sancılmışdır. Oktyabr ayının 21-də Zəngilan şəhəri istiqamətində şəhid olmuşdur. Ağstafa rayonunun Böyük Kəsik kəndində dəfn olunmuşdur.

Azər Nazim oğlu Yusifli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Vətən Müharibəsi Qəhrəmanı" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

30

Pərvin Məmmədov - 30

(1994-2020)

Gizir



Pərvin Rza oğlu Məmmədov 1994-cü il mart ayının 30-da Göyçay rayonunun Yeniarx kəndində anadan olmuşdur. 2017-ci ildə gizirlik kursuna qəbul olmuş və gizir rütbəsi almışdır.

Azərbaycan ordusunun giziri olan Pərvin Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Pərvin Məmmədov oktyabr ayının 2-də Ağdərə döyüşləri zamanı şəhid olmuşdur. Göyçay rayonunda dəfn olunmuşdur.

Pərvin Rza oğlu Məmmədo Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il.//Azərbaycan.–2020.– 19 dekabr.– S.5.

MART
29

Cəlil Cavadov - 35

(1989-2020)

Kapitan



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 19 dekabr. – S.5.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan . – 2021. – 25 iyun. – S.45-57.

Bağırova, A. Zəfəri bizə yaşadanlardan biri: Uşaqlıqdan ata-anasını itirən kapitan Cəlil Cavadovun döyüş yolu od-alovdan keçib /Aygül Bağırova // Azərbaycan . – 2021. – 8 avqust. – S.5.

Rüstəmov, İ. Zabit şərəfi ilə şəhid olan kapitan /İlqar Rüstəmov // Xalq qəzeti . – 2021 .– 2 oyabr. – S.14.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/157

http://www.anl.az/down/meqale/xalqqazeti/2021/noyabr/764689(meqale).pdf

Cəlil Ağaddin oğlu Cavadov 1989-cu il mart ayının 29-da Lerik rayonunun Xəlifəkücə kəndində anadan olmuşdur. 1995-2003-cü illərdə Z.Səfərov adına Blaband kənd tam orta məktəbində, 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

2010-cu ildə leytenant hərbi rütbəsi alan Cəlil Cavadov 10 illik zabit peşəsinin ilk 6 ilini könüllü olaraq Ağdam rayonunda düşmənlə təmas xəttində vətənə xidmət etmişdir.

2016-cı ildə Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissədə qərargah bölüyünün komandiri, 2017-ci ildə Qazax rayonunda yerləşən hərbi hissədə tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edir. 2018-ci ildə isə Qaradağ rayonunun ərazisində yerləşən "N" saylı hərbi hissədə uçot-əməliyyat bölməsinin rəisi vəzifəsinə təyinat almışdır.

2020-ci ilin martında baş leytenant Cəlil Cavadov Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə tabor komandirinin müavini vəzifəsinə təyin olunmuşdur. Bir aydan sonra isə komandanlığın əmri ilə ona kapitan rütbəsi verilmişdir. Cəlilin kapitan rütbəsi alması onun tabordakı nüfuzunu daha da artırmışdır. Buna qədər Cəlil artıq komandanlıq tərəfindən nümunəvi xidmətə görə III və II dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir.

27 sentyabr 2020-ci il - Vətən müharibəsinin başlandığı ilk gündən Füzuli, Cəbrayıl, Hadrut və Xocavənd uğrunda gedən döyüşlərdə 1 ay müddətində qəhrəmancasına döyüşən Kapitan Cavadov Füzulinin azad olunmasında xüsusi riskli əməliyyata könüllü rəhbərlik edərək düşmənin qarşıya çıxan bütün canlı qüvvəsini məhv etməklə komandasının bir gecədə 4 kilometr dərinliyə qədər irəliləməsinə nail olmuşdur.

Füzuli döyüşlərindən dərhal sonra, qadir olduğu döyüş əzminə görə komandanlıq tərəfindən ona tabor komandiri səlahiyyətləri verilmişdir. Cəsur kapitan Cəbrayıl, Hadrut və Xocavənd uğrunda gedən döyüşlərdə də daim öndə getmiş, şəxsi heyəti arxasınca döyüşlərə cəlb etmişdir.

Cəbrayıl rayonu ərazisində düşmən pusqusuna düşdükləri zaman kapitan Cavadov xüsusi döyüş taktikası işlətməklə təkbaşına düşmən üzərinə getmiş düşmənin canlı qüvvəsini taborun dəqiq atəş açа biləcəyi mövqeyə çəkmiş və sonra düşmənin bu dəstəsini zərərsizləşdirmişdir.

Oktyabrın 27-də Xocavənd rayonunun Cütçü kəndi ərazisində yerləşən strateji yüksəkliyin işğaldan azad edilməsi uğrunda başlanılan əməliyyatda döyüş tapşırığını sonuna qədər icra edən qəhrəman komandir 14 nəfərlik şəxsi heyətlə birgə döyüşə-döyüşə hədəfdə olan, strateji yüksəklikdə mövqe tutan düşmən səngərinə hücumu zamanı muzdlu terrorçuların da daxil olduğu 70 nəfərdən artıq yaraqlının pusqusuna düşmüş, qeyri-bərabər döyüşdə sinəsini düşmənə sipər etməklə şəxsi heyətini qorumağa çalışan kapitan son nəfəsinədək vətən uğrunda döyüşmüşdür. Yaralı halda yenidən qalxaraq düşmən üzərinə qumbaralar ataraq xeyli sayda qüvvəsini məhv etdikdən sonra qəhrəmancasına şəhid olmuşdur. Lerik rayonunda dəfn olunmuşdur.

Cəlil Ağaddin oğlu Cavadov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Elmira Qafarova – 90

(1934-1993)

Dövlət xadimi



Elmira Mikayıl qızı Qafarova 1934-cü il mart ayının 1-də Bakı şəhərində anadan olmuşdur. O, 23 nömrəli orta məktəbdə təhsil almışdır. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Daha sonra aspiranturada təhsilini davam etdirmiş, 1961-ci ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Elmira Qafarova 1961-1970-ci illərdə Azərbaycan KP MK-nın təlimatçısı, Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı MK-nın katibi və birinci katibi, Azərbaycan KP MK-nın birinci katibi, Heydər Əliyevin rəhbərliyi altında 1970-1980-ci illərdə Azərbaycan KP MK Mədəniyyət şöbəsinin müdir müavini, Bakı Şəhər Partiya Komitəsinin katibi işləmişdir. 1980-1983-cü illərdə Azərbaycan SSR Maarif naziri vəzifəsində çalışmış E.Qafarova Azərbaycanda maarifçiliyin yayılmasında, məktəb şəbəkələrinin çoxaldılmasında böyük xidmətlər göstərmişdir. 1983-cü ildə Azərbaycanın Xarici işlər naziri təyin edilən Elmira Qafarova dörd ilə yaxın bu vəzifədə çalışmışdır. 1987-1989-cu illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsinə təyin edilmişdir. SSRİ Ali Sovetinin və bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. AKP MK-nın üzvü olan Elmira Qafarova AKP-nin XXXI qurultayında AKP MK-nın büro üzvü seçilmişdir.

O, Respublika üzrə müxtəlif elmi-praktik konfransların təşkilində, məktəblərdə pedaqoji mühitin yaxşılaşdırılmasında xüsusi fəallıq göstərmişdir.

Elmira Qafarovanın təşəbbüsü ilə Estetik tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzi yaradılmış, bununla bağlı nazirliyin işçiləri Zaqafqaziyanın mərkəzi şəhərlərinə dəfələrlə ezamiyyəyə göndərilmiş və nəhayət, mərkəzin səmərəli fəaliyyəti təmin olunmuşdur. Elmira Qafarovanın fəaliyyəti dövründə xarici ölkələrlə təhsil sahəsindəki əlaqələr də xeyli canlanmış, xaricdə işləməyə gedən azərbaycanlı gənclərin sayı artmışdı. Azərbaycana Polşadan, Macarıstandan, Vyetnamdan, Bolqarıstandan, Finlandiyadan və başqa ölkələrdən nümayəndələr səfər edirdi.

O, qadınların rəhbər vəzifələrə irəli çəkilməsinə də müsbət yanaşırdı. Həmin illərdə Sabirabad, Balakən, Yevlax, Xaçmaz, Naftalan və respublikanın digər rayonları, həmçinin Bakının Səbail və Nərimanov rayonlarında xalq maarifi şöbələrinə qadınlar müdir təyin olunmuşdur.

E.Qafarova 1989-cu il dekabrın 30-da Gəncə şəhərinin adının bərpa olunması və 1990-cı il martın 13-də Azərbaycan xalqının milli bayramı olan "Novruz bayramı"nın rəsmən qeyd edilməsi haqqında fərmanlar imzalamışdır.

Dağlıq Qarabağ hadisələrinin regionda ciddi ziddiyyətlər doğurduğu bir zamanda Elmira Qafarova Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri seçilmiş, 1990-1992-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsində çalışmışdır. 26 noyabr 1991-ci ildə təşkil edilən Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinə daxil edilmişdir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının heç bir xəbərdarlıq etmədən Bakı şəhərində dinc adamları qətlə yetirməsi ilə əlaqədar E.Qafarova sovet rəhbərliyinin törətdiyi bu qanlı cinayətə etiraz bəyanatı ilə çıxış etmiş və onun haqqında həqiqəti tezliklə bütün ölkələrə yaymağa nail olmuıdur.

Elmira Qafarova SSRİ-nin bir sıra orden və medalları, o cümlədən iki dəfə "Qırmızı əmək bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

Elmira Mikayıl qızı Qafarova 1993-cü il avqust ayının 1-də vəfat etmişdir. Fəxri xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Musayev, M. Parlamentlər və sədarət: (deputatlıq dövrümüzün bəzi məqamlarından) / Maksim Musayev.- Bakı: [Nurlar], 2019.- 159, [1] s.

Mirzəliyev, M. Gəncənin adını özünə qaytaran dövlət xadimi: [Elmira Qafarova haqqında] / Məmməd Mirzəliyev // Hürriyyət.- 2019.- 27 fevral.- S.13.

Elmira Qafarova // Azərbaycanın Təhsil Nazirləri / Azərb. Resp. Təhsil Nazirliyi; layih. rəhb. M.Mərdanov; red. B.Hüseynzadə; tərt. ed. B.Məmmədov, Ş.Məmmədov, Ə.Daşdəmirov, E.Əbdülov; rəs. M.Hüseynov.- Bakı, 2010.- S.110.

Qurban, T. Ən yaxın tarix: İlk və yeganə qadın spiker / Teyyub Qurban // Ekspress.- 2014.- 18-21 yanvar.- S.15; 1-3 fevral.- S.15; 8-10 fevral.- S.15.

Elmira Mikayıl qızı Qafarova: Azərbaycanın təhsil nazirləri // Azərbaycan müəllimi.- 2011.- 11 noyabr.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Elmira_Qafarova

Ədalət Vəliyev - 65

(1959)

İctimai xadim



Ədalət Məqsəd oğlu Vəliyev 1959-cu il mart ayının 4-də Bakı şəhərində anadan olmuşdur. 1966-1976-cı illərdə Bakı şəhər 102 nömrəli orta ümümtəhsil məktəbində, eyni zamanda 1968-1973-cü illərdə 21 nömrəli musiqi məktəbində təhsil almışdır.

Ədalət Vəliyev əmək fəaliyyətinə 1976-cı ildə başlamışdır. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil olmuş və buranı filologiya ixtisası üzrə bitirmişdir. 1978-1980-ci illərdə ordu sıralarında xidmət etmişdir.

O, 1980-ci ildən başlayaraq Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında və Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında müxtəlif vəzifələrdə işləmişdir. 1986-1987-ci illərdə Azərbaycan Dövlət Rus Dram Teatrında, 1987-1989-cu illərdə isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında direktor müavini vəzifəsində çalışmış, 1989-1991-ci illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında sərəncamçı direktor, 1991-1993-cü illərdə isə Azərbaycan Dövlət Rus Dram Teatrında direktor vəzifəsində, 1993-2006-cı illərdə Azərbaycan Respublikası mədəniyyət nazirinin, 2006-2018-ci isə illərdə is' Mədəniyyət və Turizm nazirinin müavini vəzifələrində çalışmışdır.

1997-2017-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, Azərbaycanda və xaricdə çap olunan çoxlu sayda elmi və publisistik məqalələrin, dərslik, dərs vəsaiti və proqramların müəllifidir. Odlar Yurdu Universitetinin fəxri professorudur.

"Azərbaycan milli teatr prosesinin çağdaş təşkilatlanma problemləri", "Teatr sənətimiz: dünən, bu gün, sabah…", "Yeni təməl", "Əqidə, Ruh və Teatr" (XX əsrin II yarısında Azərbaycan mədəniyyətində milli teatr konsepsiyalarının sosial-fəlsəfi və siyasi-ideoloji paradiqması), ingilis dilində "The Structure of a Modern Theatre"və "Belief, Spirit and Theatre", rus dilində "Азербайджанский театр начала XXI века" adlı kitabların müəllifidir.

Ədalət Vəliyevə 2008-ci ildə sənətşünaslıq namizədi alimlik dərəcəsi, 2012-ci ildə teatrşünaslıq kafedrası üzrə dosent elmi adı, teatrşünaslıq kafedrası üzrə professor elmi adı, 2018-ci ildə sənətşünaslıq üzrə elmlər doktoru dərəcəsi verilmişdir.

Ədalət Vəliyev 25 iyun 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Əməkdar incəsənət xadimi fəxri adı və 5 mart 2019-cu ildə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir. Müxtəlif illərdə "Qızıl dərviş", "Humay", "Qızıl Qələm" mükafatlarına, Abbasqulu Ağa Bakıxanov adına fəxri diploma, Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri Fərmanına, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının döş nişanına, Bakı Dövlət Universitetinin Fəxri Fərmanına, Azərbaycan Teatr Xadimləri İttifaqının "Sənətkar" medalına, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Fəxri mədəniyyət işçisi" adına və döş nişanına, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yubiley döş nişanına, "Azərbaycan Ədliyyəsinin 100 illiyi" xatirə nişanına, "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi" yubiley medalına, "Azərbaycan Ədliyyəsinin 100 illiyi" yubiley medalına, "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley medalına, "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi" yubiley medalına, "Bakı Dövlət Universitetinin 100 illiyi" yubiley medalına, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi" yubiley medalına, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) təsisatının 20 illiyi" yubiley medalına və bir sıra digər mükafatlara, fəxri fərmanlara layiq görülmüşdür.

Azərbaycan Yazıçılar Birliyinin, Teatr Xadimləri İttifaqının və Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Ədalət Vəliyev 2019-cu il noyabr ayının 29-dan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışır.

Ədəbiyyat:

Azərbaycan milli teatr prosesinin çağdaş təşkilatlanma problemləri: sənətşün. n. a. dər. al. üçün təq. ed. dis.: 17.00.01 / Ədalət Vəliyev; Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti.- Bakı, 2001.- 141 s.

Azərbaycan milli teatr prosesinin çağdaş təşkilatlanma problemləri / Ədalət Vəliyev; elmi red. İ. Kərimov. - Bakı: Elm, 2003.- 194 s.

Teatr sənətimiz: Dünən, bu gün, sabah... / Ədalət Vəliyev; elmi red. və ön sözün müəl. İ. Kərimov; red. R. Rəhimli.- Bakı: Orxan, 2005.- 394 s.

İki kitab qırx səkkiz rəy. Yeni təməl / Ədalət Vəliyev; Red. V. Bəhmənli; Ön söz M. Əlizadə.- Bakı: Elm 2007.- 228 s.

Ədalət Vəliyev 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilib // Mədəniyyət.-2019.- 6 mart.- S.2.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2019/mart/26.htm

https://az.wikipedia.org/wiki/%C6%8Fdal%C9%99t_V%C9%99liyev

Asəf Nadirov – 95

(1929-2014)

İctimai xadim



Asəf Abbasqulu oğlu Nadirov 1929-cu il mart ayının 13-də Naxçıvan MR-nın Şərur rayonunun Cəlilkənd kəndində anadan olmuşdur.

O, 1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) geologiya-coğrafiya fakültəsində iqtisadi coğrafiya ixtisası üzrə ali təhsil almışdır. 1952-ci ildə Azərbaycan EA-nın aspiranturasına daxil olmuş, 1956-cı ildə Moskva şəhərində SSRİ EA Coğrafiya İnstitutunun aspiranturasını bitirmiş və həmin ildə namizədlik, 1968-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş, 1970-ci ildə professor elmi adı almışdır.

Asəf Nadirov əmək fəaliyyətinə 1951-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinin aparatında məsləhətçi kimi başlamışdır. O, 1956-1958-ci illərdə Coğrafiya İnstitutunun İqtisadiyyat bölməsində kiçik elmi işçi və baş elmi işçi, 1958-1964-cü illərdə şöbə müdiri, 1964-1981-ci illərdə elmi işlər üzrə direktor müavini işləmişdir. 1966-1981-ci illərdə AMEA-nın İqtisadiyyat seriyası "Xəbərlər" jurnalının baş redaktorunun müavini, sonra baş redaktoru təyin olunmuşdur.

Asəf Nadirov 1981-ci ildə AEA Rəyasət Heyətinin üzvü və baş elmi katibi, 1990-1997-ci illərdə baş akademik katibi və yenidən Rəyasət Heyətinin üzvü seçilmişdir. 1997-ci ilədək AEA Rəyasət Heyətinin baş elmi katibi və akademik-katibi, 1997-2000-ci illərdə isə müşaviri kimi məsul vəzifələr icra etmiş, 2000-2007-ci illərdə AMEA Rəyasət Heyətinin üzvü olmuş və 2007-ci ildə yenidən müşaviri təyin edilərək ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır.

O, 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. 1987-ci ildə Ümumittifaq "Bilik" cəmiyyətinin idarə heyətinin üzvü, 1988-ci ildə SSRİ EA Regional İqtisadi Problem üzrə şuranın üzvü seçilmiş, 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komitəsinin Rəyasət Heyətinin üzvü olmuşdur.

Asəf Nadirov 2012-ci ildə Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) XII Sammitində təşkilatın mükafatını alan ilk və tək Azərbaycanlı kimi tarixə düşmüşdür.

O, 600-ə yaxın araşdırmanın, həmçinin 20-dən çox kitab, monoqrafiya, metodik material və dərsliyin müəllifidir. Əsərləri Türkiyədə, Rusiyada, Almaniyada, Fransada, Yunanıstanda və s. ölkələrdə nəşr olunmuşdur. Müxtəlif dünya ölkələrində keçirilmiş beynəlxalq, həmçinin ittifaq əhəmiyyətli konqres və simpoziumlarda məruzə etmişdir.

Asəf Nadirovun rəhbərliyi ilə 6 nəfər doktorluq, 50 nəfərdən artıq namizədlik dissertasiyası müdafiə etmişdir.

Xidmətlərinə görə Sovet İttifaqının "Xalqlar Dostluğu" ordeni, "Əmək igidliyinə görə" medalı, Sovet Sülh Müdafiə Fondunun fəxri medalı, bir sıra nüfuzlu elmi mərkəzlərin fəxri diplomları və fərmanları ilə təltif olunmuşdur. Akademik Asəf Nadirov "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, İslam Əməkdaşlıq Təşkilatının xüsusi elmi mükafatını almışdır. 2004-cü ildə "Şöhrət", 2009-cu ildə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Asəf Nadirov 2014-cü il mart ayının 14-də vəfat etmişdir.

Ədəbiyyat:

Asəf Abbasqulu oğlu Nadirov: biblioqrafiya / tərt. Ş. İslamova; red.: A. Əliyeva-Kəngərli, İ. Səfərov.- Bakı: Elm, 2005.- 227 s.

Həyat insanlara xidmət edəndə və onlara səmimi olanda daha mənalı və cəlbedicidir / Asəf Nadirov; red. T. Kərimli.- Bakı: Elm, 2011. 347, [1] s.

Nadirov, A. Azərbaycan iqtisadiyyatının daima yüksələn müstəqillik dövrü / Asəf Nadirov; elmi red. Ə.X.Nuriyev.- Bakı: [s. n.], 2012.- 359, [1] s.

Muradov, Ş. Dəyərli alim ömrü / Şahbaz Muradov // Azərbaycan.-2019.- 12 mart.- S. 6.

Muradov, Ş. Azərbaycan iqtisad elminin görkəmli nümayəndəsi / Şahbaz Muradov //AMEA-nın Xəbərləri: İqtisadiyyat seriyası.-2019.- №1.- S.5-11.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2019/mart/640516.htm

http://www.anl.az/down/meqale/amea_xeb_iqt/2019/1/795338(meqale).pdf

Ənvər Seyidov - 75

(1949)

Hüquqşünas



Ədəbiyyat:

Seyidov, Ə. Vətənə sədaqətli xidmət nümunəsi / Ənvər Seyidov //Xalq qəzeti.-2021.- 15 iyun.- S.10.

Zahidov, B. Ədalətli hakim, istedadlı yazıçı, səmimi insan: Ənvər Seyidov -70 / Bəhram Zahidov // Xalq qəzeti. - 2019. - 14 mart. - S. 11.

Ümummilli liderin Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunda, inkişafında və gələcəyində rolu / Ənvər Seyidov // Xalq qəzeti.- 2023.- 3 may.- S.7.

Zahidov, B. Ədalətli hakim, istedadlı yazıçı, səmimi insan: Ənvər Seyidov -70 / Bəhram Zahidov // Xalq qəzeti.- 2019.- 14 mart.- S.11.

Ünvansız eşq: [roman və kino ssenari] / Ənvər. Seyidov; red. K. Haqverdiyeva.- III kitab.- Bakı: Azərnəşr, 2011. 455, [1] s.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2021/iyun/747910(meqale).pdf

http://www.anl.az/down/meqale/xalqqazeti/2019/mart/641868(meqale).pdf

https://az.wikipedia.org/wiki/%C6%8Fnv%C9%99r_Seyidov

Ənvər Cümşüd oğlu Seyidov 1949-cu il mart ayının 29-da anadan olmuşdur.

O, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1964-cü ildən başlayan hüquqşünas səhiyyə və rabitə sahəsində müxtəlif işlərdə çalışdıqdan sonra, 1972-ci ildə Azərbaycan Ədliyyə Nazirliyi sistemində işə başlamaqla respublika VVA Arxivinin müdiri, Notariat və VVA İdarəsinin baş məsləhətçisi, Zaqatala və Cəlilabad rayon məhkəmələrinin hakimi, Cəlilabad Rayon Məhkəməsinin sədri vəzifəsində işləmişdir. 1990-cı ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin, 2000-ci ildən Ağır Cinayətlərə dair Azərbaycan Respublikası Məhkəməsinin, 2014-ci ildən 2019-cu ilədək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifələrində işləmişdir.

Hərbi polkovnikdir. O, birinci ixtisas dərəcəli hakim, hüquq elmləri doktoru və Azərbaycan Pedaqoji Universitetinin professordur.

Ənvər Seyidov 1994-1999-cu illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü və təftiş qrupunun rəhbəri, "Xəbərlər jurnalı" redaksiyasının üzvü olmuşdur.

O, "Azərbaycan Respublikasında beynəlxalq normaların tətbiqi" (2003), "Konstitusiya və hüququn əsasları", "Hüququn əsasları" (2008), "Heydər Əliyev və Azərbaycan Konstitusiyası" (2008), "Cinayət prosesində insan hüquqlarının təminatı məsələləri: Beynəlxalq standartlar və dövlətdaxili qanunvericilik" (2012), "Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları (2014) dərsliklərinin müəllifidir.

Ənvər Seyidov Azərbaycan Teatr Xadimləri İttifaqının, Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Ağsaqqallar Şurasının və 1997-ci ildən "Əsilzadələr Məclisinin" üzvüdür.

Ənvər Seyidovun "Tələtüm" (2006), "Gürzə" (2008), "Ünvansız eşq" (2011) və "Dələduzlar" (2014) romanları əsasında bədii televiziya filmləri çəkilmişdir. O, həm də "Canavar balası" (1997), "Sonuncu şahid" (2004) filmlərinin məsləhətçisi olmuşdur. 2009-cu ildə ekranlara çıxan "Gürzə" filmi televiziya filmləri arasında 1-ci diploma layiq görülmüşdür.

İlk bədii əsəri olan "Tələtüm" romanı 2008-ci ildə Mir Cəlal Paşayevin 100 illik yubileyi ilə bağlı Milli Kulturoloji Mərkəz tərəfindən keçirilən VII Kitab Bayramında xüsusi mükafatı qazanaraq "İlin Kitabı" elan olunmuşdur. O, "Qızıl Qələm" və "Qızıl Qılınc", "Abdula Şaiq" mükafatlarına layiq görülmüşdür. 2011-ci ildə yaradıcılıq uğurlarına görə "Rəsul Rza" mükafatı, 2018-ci ildə Türk Dünyası Beynəlxalq Araşdırmalar Elmlər Akademiyası tərəfindən Türk Dünyası elminə və mədəniyyətinə xidmətlərinə görə mükafatlandırılmışdır. Elm və təhsil, mədəniyyət və incəsənət sahəsindəki böyük xidmətlərinə görə Birləşmiş Millətlər İctimai Təltiflər Şurasının Beynəlxalq Mükafatlar Komitəsinin "Şərəf və vicdan", "Mədəniyyət və incəsənət xidmətlərinə görə", Avropa Təbiət Elmləri Akademiyasının "Qızıl qartal", Almaniyanın Avropa Elmlər Akademiyasının "Gümüş cəngavər" ordenləri və 18-dən çox müxtəlif medallarla təltif edilmişdir.

Beynəlxalq Sülh Federasiyası və Dünyada Sülh Naminə Dinlərarası və Beynəlxalq Federasiyasının sülhməramlı səfiridir. Azərbaycan Ağsaqqallar Şurasının üzvüdür. 1990-cı ildən Cəlilabad rayonunun fəxri vətəndaşı adına layiq görülmüşdür.

Türkan Əfəndiyeva – 95

(1929)

Dilçi alim



Türkan Əşrəf qızı Əfəndiyeva 1929-cu il mart ayının 7-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1936-1941-ci illərdə Bakıda, 1941-1946-cı illərdə Şəkidə 8№-li məktəbdə, 1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Universitetində Rus dili kafedrasında baş laborant kimi başlamışdır. Moskva Dövlət Universitetinin nəzdində açılmış ali məktəblər üçün dilçiliyin müxtəlif sahələri üzrə müəllim hazırlayan birillik kursun məzunu olmuşdur. 1953-1956-cı illərdə MDU-nun Türk dilləri kafedrasının aspirantı olmuş, 1959-cu ildə MDU-nun nəzdindəki Şərq Dilləri İnstitutunun Böyük Elmi Şurasında "Müasir Azərbaycan ədəbi dilində feilin keçmiş zaman formalarının sistemi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunda kiçik elmi işçi, baş elmi içi vəzifələrində işləyib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona 18 noyabr 1965-ci il də Müasir Azərbaycan dili ixtisası üzrə baş elmi içi adı verilmişdir.

1973-cü ildə Azərbaycan EA-nın İctimai elmlər bölməsinin Elmi Şurasında "Azərbaycan dilinin leksik üslubiyyatı (bədii üslub)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 12 dekabr 1975-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona filologiya elmləri doktoru elmi dərəcəsi verilmişdir. 1976-1980-ci illərdə ADU-nun təbiət fakültələrinin Rus dili kafedrasına, 1981-1987-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Səhnə danışığı və nitq mədəniyyəti kafedrasına rəhbərlik edib. 12 avqust 1983-cü ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona Səhnə danışığı və nitq mədəniyyəti kafedrası üzrə professor elmi adı verilmişdir. 1987-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin razılığı ilə ADPİ-nin İbtidai siniflərdə rus dili kafedrasına professor vəzifəsinə təyin olunmuşdur.

1992-1993-cü illərdə İstanbulun Mərmərə Universitetinin dəvəti ilə orada çalışmış, Azərbaycan dili və ədəbiyyatından mühazirələr oxumuş, rus dilindən dərs demişdir. 1993-1997-ci illərdə ADPİ-nin İbtidai siniflərdə rus dili kafedrasında, 1997-2006-cı illər professor vəzifəsində çalışmışdır. 1997-ci ildən Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır.

O, 1989-1996-cı illərdə İstanbul, Kayseri, Ankara, Bodrum şəhərlərində Uluslararası Türk konqresində, XI Türk tarixi konqresində məruzələrlə çıxış etmişdir.

100-ə yaxın monoqrafiya, dərslik, dərs vəsaiti və elmi məqalələrin müəllifidir.

Azərbaycan Yazıçılar Birliyinin üzvi olub. 2005-ci ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Hazırda Şimali Kipr Türk Cümhuriyyətində yaşayır.

Ədəbiyyat:

Azərbaycan dilinin leksik üslubiyyatı: bədii üslub: [monoqrafiya] / Türkan Əfəndiyeva; red. A.Axundov; [ön söz müəl. İ.O.Məmmədli]; AMEA, Nəsimi ad. Dilçilik İn-tu.- Bakı: Elm və təhsil, 2011.- 351, [1] s.

Rüstəmov, F. Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları: 100 : 1921-2021 / Fərrux Rüstəmov; layihənin rəhbəri və ön söz. müəl. C. Cəfərov ; elmi red. A. Zamanov; [dizayner Ə. Zaliyev].- Bakı: [ADPU], 2021.- S.126-127.

İlahi nurun işığı: söz, sənət / Türkan Əfəndiyeva // Kredo.- 2014.- 27 sentyabr.- S.1.

İnternetdə:-

https://az.wikipedia.org/wiki/T%C3%BCrkan_%C6%8Ff%C9%99ndiyeva

MART
21

Qulamrza Səbri Təbrizi - 90

(1934-2020)

Ədəbiyyatşünas



Qulamrza Hacı Məhəmmədəli oğlu Səbri Təbrizi 1934-cü il mart ayının 21-də Cənubi Azərbaycanda Təbriz şəhərinin Şəkili məhəlləsində anadan olmuşdur.

O, 1940-1944-cü illərdə ibtidai dini məktəbdə, 1945-1946-cı illərdə Təbrizdəki Elmiyyə Məktəbində təhsil almışdır. 1944-1953-cü illərdə Məhəmmədiyyə, Nizami və Firdovsi mədrəsələrini bitirmişdir. 1953-1958-ci illərdə Təbriz Universitetinin fars, ingilis dili və pedaqogika fakültəsində təhsilini davam etdirmişdir. 1959-cu ildə İstanbul şəhərində Bayazid Universitetinin İngilis dili və ədəbiyyatı fakültəsinə magistr qəbul edilmiş, 1959-1963-cü illərdə London Universitetinin Kinqs Kollecində magistr təhsili almışdır.

Qulamrza Səbri Təbrizi tələbəlik dövründə orta məktəblərdə müəllimliklə yanaşı, 1956-1958-ci illərdə Amerikanın İrandakı hərbi idarəsində tərcüməçi işləmişdir. London BBC radiostansiyasında Şərq və Orta Asiya üzrə ədəbi və siyasi icmalçı, 1960-1963-cü illərdə "Nəzər saatı"nın aparıcısı kimi fəaliyyət göstərmişdir.

O, Edinburq Universitetinin İngilis dili və Ədəbiyyatı Departamentinə doktoranturaya daxil olmuş, "Vilyam Bleykin dialektik fikirləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1963-1969-cu illərdə fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır. Bu müddətdə Edinburq Universitetinin Şərqşünaslıq İnstitutunda, eləcə də dünyanın bir sıra ali məktəblərində məruzələrlə çıxış etmişdir.

Qulamrza Səbri Təbrizi İran İslam İnqilabı dövründə Təbrizdə elmi-pedaqoji və siyasi fəaliyyətini davam etdirmiş, lakin din xadimlərinin təqibinə məruz qaldığından Böyük Britaniyaya qayıtmış, 1978-1995-ci illərdə televiziya şirkətlərində icmalçı olmuşdur. 1989-1990-cı illərdə türk və fars dillərində "Odlar ölkəsi" adlı aylıq qəzet nəşr etdirmişdir. 1994-cü ildə Böyük Britaniyanın Edinburq Universitetinin professoru, 1995-ci ildə isə Universitetdə akademik məsləhətçi olmuşdur. 1997-ci ildə Azərbaycan Dillər Universitetinin fəxri professoru seçilmişdir. 1997-2003-cü illərdə Azərbaycanın ali məktəblərində XIX-XX əsrlər ingilis ədəbiyyatı, Şekspir və Bleykin yaradıcılığı mövzusunda mühazirələr oxumuşdur.

O, bədii yaradıcılığa tələbəlik dövründən başlamışdır. Elmi-kütləvi məqalələri, şeirləri, müsahibələri ingilis, türk, rumın dillərində çap olunmuşdur. 1973-cü ildə "Vilyam Bleyk cənnəti və cəhənnəmi" monoqrafiyası London və Nyu-Yorkda, 1989-cu ildə "İran: bir uşağın xatirəsi, böyüyün xatirəsi" kitabı ingilis dilində Nyu-Yorkda, "Vətən həsrəti", "Mənim iki dünyam", "Fikir dalğaları", "Həyat fəlsəfəsi", "Baxışlar, düşüncələr, arzular", "Sönməz ocaq", "Seçmə şeirlər", "Ümid çırağı", "Qürbət harayı", "Günəşə doğru", "Pozulmamış dünya", "Yaranış" adlı kitabları Bakıda nəşr olunmuşdur.

Q.S. Təbrizi Azərbaycan, İran və Şərq mədəniyyətinin Ömər Xəyyam, Nizami Gəncəvi, Biruni, Şeyx Mahmud Şəbustəri, Məhəmməd İqbal, Mirzə Əli Möcüz, Şeyx Cəmaləddin Əfqani, Mirzə Ələkbər Sabir, İrəc Mirzə, Qulam Hüseyn Səedi, Səməd Bəhrəngi və Məhəmmədhüseyn Şəhriyar kimi klassiklər haqqında onlarla araşdırmaların müəllifidir. Onun araşdırmaları və elmi tədqiqatları nəticəsində Azərbaycan ədəbiyyatının bir çox klassiklərinin yaradıcılıq yolu ingilis oxucularına çatdırılmışdır. Q.S. Təbrizi uzun illərdən bəridir ki, Böyük Biritaniyada Azərbaycan Respublikasının qeyri rəsmi elçisi kimi fəaliyyət göstər

2001-ci ilin noyabr ayının 9-11-də Bakı şəhərində Azərbaycanlıların I qurultayında fəal iştirak etmiş və qurultayın qərarı ilə yaradılmış Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədr müavini seçilmişdir. 2007-ci ilin iyun ayında Almaniyanın Köln şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının konqresinin qurultayında səs çoxluğu ilə Dünya Azərbaycanlıları konqresinin sədri seçilmişdir.

O, 2003-cü ildə Kipr, Balkanlar və Avrasiya Türk Ədəbiyyat Qurumunun "Türk dilinə xidmət" ödülünə layiq görülmüşdür. Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyev tərəfindən 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur

Qulamrza Səbri Təbrizi 2020-ci il may ayının 8-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Seçmə şeirlər / Qulamrza Səbri Təbrizi; tərt. ed., nəşrə hazırl., red. V.Sultanlı.- Bakı: Şirvannəşr, 2002.- 252 s.

Pozulmamış dünya / Təbrizi Qulamrza Səbri; nəşrə hazırl. və red. V.Sultanlı; ön söz. müəl. Q.Namazov.- Bakı: Azərnəşr, 2010.- 216, [2] s.

Güney Azərbaycanın iki xalq şairi: Balaş Azəroğlu, Qulamrza Səbri Təbrizi / tərt. ed. və red. V.Sultanlı.- Bakı: Azərnəşr, 2010.- 262, [2] s.

Mənsimoğlu, T. Qulamrza Səbri Təbrizi / Teyyub Mənismoğlu; elmi red. V. Sultanlı.- Bakı: Şirvannəşr, 2002.- 88 s.

Bədirova, L. Azərbaycan arzularında bütövləşdirən Qulamrza Təbrizi / Lalə Bədirova //Xalq qəzeti.-2023.- 7 fevral.- S.9.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2023/fevral/835843(meqale).pdf

MART
22

Məhəmməd Tağı Sidqi – 170

(1854-1903) *Maarif xadimi*



Ə d ə b i y y a t :

Həbibbəyli, İ. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti / İsa Həbibbəyli; elmi red. A. İmanlı.- Bakı, Elm və Təhsil, 2022.- 82, [2] s.

Seçmə fənlərin tədrisində Məhəmməd Tağı Sidqi irsindən istifadə məsələləri: (metodik vəsait) / [Azərb. Resp. Təhsil Nazirliyi], Naxçıvan Un-ti, ["Azərb. dili və ədəbiyyat" kafedrası]; tərt. ed. N. S. Əliyeva; elmi red. F. Y. Xəlilov. -Naxçıvan: [n. y.], 2021.- 68 s.

Nümuneyi-əxlaq: seçilmiş pedaqoji əsərlər.- Bakı: Mücrü, 2023.- 78, [2] s.

Əsərləri / Məhəmməd Tağı Sidqi; red. Ə.Qədimov; topl., tərt. ed. və müqəd. müəl. İ Həbibbəyli.- Bakı: Çaşıoğlu, 2004.- 280 s.

Məhəmməd Tağı Sidqi: taleyi və sənəti / Tərt. ed. F.Xəlilov; elmi red. Ə.Quliyev.- [Naxçıvan]: [Əcəmi], [2015].- 183, [1] s.

Rəhimli, İ. Məhəmməd Tağı Sidqi / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası.- Cild 3.- Bakı, 2017.- S.267.

Məhəmməd Tağı Kərbəlayi Səfər oğlu Səfərov (Məhəmməd Tağı Sidqi) 1854-cü il mart ayının 22-də Ordubadda anadan olmuşdur.

İlk təhsilini Ordubadda molla Məhəmməd Tağı Axundun yanında almış, sonra Hüseyn Soltan mədrəsəsində oxumuşdur. Bir müddət İranda Xorasan, Səbzivar, Nişapur şəhərlərində yaşamış, təhsilini davam etdirmiş və ticarətlə məşğul olmuşdur. 1885-ci ildə Vətənə qayıtmış, fəhləlik etmişdir. Ailəsini yaşatmaq niyyətilə açdığı çayxana qısa müddətdə yerli ziyalıların əsas yığıncaq yerinə çevrilmişdir. Burada Türkiyə, İran və Rusiyadan gətirilmiş qəzetlər, Şərq klassiklərinin əsərləri, habelə Sidqinin fəal üzvü olduğu "Əncüməni-şüəra" ədəbi məclisi üzvlərinin şeirləri oxunub müzakirə olunurdu. Sidqi 1892-ci ildə Ordubadda maarifçi ziyalı Hüseyn Sultan Kəngərli ilə birgə "Əxtər", 1894-cü ildə isə Naxçıvanda "Tərbiyə" ("Məktəbi-Tərbiyə") məktəbini təsis etmişdir.

Sidqi yaradıcılığa klassik üslubda qəzəllər yazmaqla başlamışdır. Əlyazmaları AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin ("Nümuneyi-əxlaq", "Töhfeyi-bənat, yainki Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" və s.) müəllifidir.

Sidqi müntəzəm surətdə bədii yaradıcılıqla da məşğul olmuşdur. Ordubadda fəaliyyət göstərən "Əncüməni-şüəra" ədəbi məclisinin fəal üzvlərindən idi. Pedaqoji fəaliyyəti ilə bilavasitə bağlı olan ədəbi irsi 300-dən çox qəzəldən, "Məsnəviyyati-mənəviyyə" adlı irihəcmli mənzumədən, "Kəbb Nəsir" mənzum hekayətindən, "Heykəli-insanə bir nəzər" ədəbi fəlsəfi traktatdan (1912-ci ildə kitab halında çap edilmişdir), 20-dən çox hekayədən ibarətdir.

Sidqi Azərbaycan uşaq nəsrinin ilk yetkin nümunələrini yaratmışdır. "Məktəb hekayələri" kimi tanınan bu əsərlərdə ("Məktəbə davam", "Gözütox uşağın hekayəti", "Yalançı uşaq", "Səxavətli uşaq" və s.) o, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, yüksək mənəvi-əxlaqi keyfiyyətləri bədii şəkildə təbliğ etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında" 11 mart 2004-cü il tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Kukla Teatrına Məhəmməd Tağı Sidqinin adı verilmiş, 160 illiyi ilə əlaqədar 17 sentyabr 2014-cü il tarixli qərarı ilə Məhəmməd Tağı Sidqinin Ordubad şəhərində anadan olduğu qədim binada ev-muzeyi yaradılmışdır.

Görkəmli pedaqoq, publisist və şair, maarifpərvər ziyalı Sidqi Məhəmməd Tağı 1903-cü il dekabr ayının 8-da vəfat etmişdir. Məzarı Naxçıvan şəhərindədir.

2022-ci ildə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-marifçi fəaliyyəti" adlı kitabı çap olunmuşdur. Kitab böyük marifçi şair, nasir, görkəmli pedaqoq və ilk məktəb dərsliklərı yaratmış Məhəmməd Tağı Sidqinin həyat və yaradıcılığından bəhs edir.

2023-cü ildə seçilmiş pedaqoji əsərlərindən ibarət "Nümuneyi-əxlaq" adlı kitabı çap olunmudur.

Məmməd Nəsirov – 85

(1939) *Alim*



Məmməd Yəhya oğlu Nəsirov 1939-cu il mart ayının 5-də Sabirabad rayonunun Ulacalı kəndində anadan olmuşdur.

O, 1962-ci ildə Azərbaycan Tibb Universitetini bitirmişdir. 1962-1967-ci illərdə Türkmənistan Respublikasında cərrah işləmiş, 1967-1973-cü illərdə Azərbaycan Səhiyyə Nazirliyinin Klinik və Eksperimental Təbabət İnstitutunda kiçik elmi işçi, 1973-cü ildən ATU-nin Cərrahi xəstəliklər kafedrasında, 1967-1977-ci illərdə AR Səhiyyə Nazirliyinin nəzdində cərrahiyyə ixtisası üzrə Attestasiya Komissiyasının elmi katibi işləmişdir. 1970-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1972-ci ildə "Ali dərəcəli cərrah" adına layiq görülmüşdür. 1973-1984-cü illərdə assistent, 1984-1986-cı illərdə dossent, 1986-cı ildə tibb elmləri doktoru elmi dərəcəsinə, 1987-ci ildə professor elmi adı almışdır.

Məmməd Nəsirov 1980-1982-ci illərdə Azərbaycan Tibb İnstitutunun I müalicə-profilaktika fakültəsində dekan müavini, 1987-1988-ci illərdə II müalicə-profilaktika fakültəsində dekan, 1991-ci ildən Azərbaycan Tibb Universitetinin Cərrahi xəstəliklər kafedrasının müdiri, 1993-1995-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Elm və Texnika Komitəsi nəzdində Tibb və Biologiya Elmi Şurasının sədr müavini və sədri işləmişdir.

O, 1994-1997-ci illərdə ATU-nin nəzdində İxtisaslaşmış Doktorluq Müdafiə Şurasının həmsədri, 1994-2000-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının sədri, 1995-1997-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin cərrahiyyə üzrə baş mütəxəssisi vəzifəsini icra etmişdir. 1996-cı ildən 2013-cü ilə kimi Azərbaycan Tibb Universitetinun Xarici əlaqələr üzrə prorektoru vəzifəsində çalışmış, 2006-cı ildən 2016-cı ilə kimi Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən İxtisaslaşmış Doktorluq Müdafiə Şurasının sədr müavini kimi fəaliyyət göstərmişdir.

Professor 200-dən artıq elmi işin, "Hərbi-səhra cərrahiyyəsi" dərsliyinin müəllifidir. Məmməd Nəsirov həmçinin 3 monoqrafiyanın, 1 patentin, 12 səmərələşdirici təklifin, 13 metodik göstərişin müəllifidir. Onun tərəfindən tərtib və nəşr olunmuş "Azərbaycanca-ingiliscə-rusca tibbi danışıq kitabı"nın bu sahədə dəyərli əsərdir. Azərbaycan, rus, fransız və türkmən dillərini sərbəst bilir.

Professor Məmməd Nəsirovun rəhbərliyi altında 5 doktorluq və 11 namizədlik dissertasiyası müdafiə edilmişdir. AR Səhiyyə Nazirliyinin, SSRİ Səhiyyə Nazirliyinin, Əlcəzair Xalq Demokratik Respublikasının Səhiyyə Nazirliyin fəxri fərmanları və "SSRİ Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilmişdir. 1997-ci ildən Avropa Cərrahlar Assosiasiyasının fəxri üzvüdür. 2000-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2001-ci ildə Azərbaycan Respublikasının tanınmış alimləri siyahısına daxil edilmiş, 2006 və 2009-cu illərdə Beynəlxalq Elm Mərkəzi tərəfindən "XXI əsrin Azərbaycan ziyalısı" seçilmişdir. 2010-cu ildə Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. 30 noyabr 2022-ci il "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Məmməd Nəsirov "Kimya, biologiya, Tibb" jurnalının redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərmişdir. Hazırda "Cərrahlıq" jurnalında baş redaktor müavini, "Azərbaycan Tibb Jurnalı"nın, "Sağlamlıq", Şərqi Avropa "Cərrahlıq" və "Hepar" jurnallarının redaksiya heyətinin üzvüdür.

Ədəbiyyat:

Hərbi-səhra cərrahiyyəsi: [dərslik] / Məmməd Nəsirov, Z.Ə.Salahov; red. H.A Sultanov; [ön söz B.A.Ağayev, V.Q.Verdiyev].- Bakı: Elm və təhsil, 2017.- 607, [1] s.

Peritonitin müalicəsində endolimfatik limfostimulyasiya: monoqrafiya / Məmməd Nəsirov, Z.İ.Rzayev.- Bakı: [s.n.], 2006.- 150 s.

Şəkərli diabetin aşağı ətraflarda irinli-nekrotik ağırlaşmalarının kompleks müalicəsi: monoqrafiya / M.Y.Nəsirov, G.T.İsrafilova.- Bakı: [s.n.], 2007.- 143, [1] s.

Minirə Ağahüseynova - 75

(1949)

Alim



Minirə Məhəmməd Əli qızı Ağahüseynova 26 mart 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur.

1966-1971-ci illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun Kimya-texnologiya fakültəsində təhsil almışdır. 1972-1975-ci illərdə "Fiziki kimya" kafedrasının aspirantı olmuşdur.

Minirə Ağahüseynova 1975-1978-ci illərdə "Fiziki kimya" kafedrasının nəzdində olan "Karbohidrogenlərin hetoregen oksidləşməsi" laboratoriyasında elmi işçi olmuşdur. 1978-1979-cu illərdə "Ümumi kimya" kafedrasında baş müəllim, dosent vəzifələrində işləmişdir.

Minirə Ağahüseynova 1989-cu ildə kimya elmlər doktoru, 1991-ci ildə isə professor adını almışdır. l993-2015-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının "Ümumi və qeyri-üzvü kimya" kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Elmi araşdırmaları keçid metalların kompleks birləşmələrinin kimyası, alınma üsulları, quruluşları sahəsinə aiddir. 250-dək elmi əsərin, 20 dərslik və dərs vəsaitinin, 6 ixtiranın və 2 ixtira patentinin müəllifidir. Minirə Ağahüseynova Ümumi kimya. Məhlullar və elektrokimyəvi proseslər: dərs vəsaiti (1998), Qeyri-üzvi kimya: ali texniki məktəblərin ixtisası kimya olan tələbələri üçün dərs vəsaiti (2007), Ümumi və qeyri-üzvi kimya: ali məktəblər üçün dərslik (2013), Ümumi və qeyri-üzvi kimyadan terminlər lüğəti (2014) və b. adlı dərs vəsitlərinin müəllifidir.

Minirə Ağahüseynova Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü (1995), Avropa Kimya Cəmiyyətinin üzvü (1997), Beynəlxalq Eko-Energetika Akademiyasının akademiki (1998) seçilmişdir.

2000-ci ildə Beynəlxalq Bioqrafiya Mərkəzi (Kembric, Böyük Britaniya) tərəfindən "Minilliyin adamı" fəxri adına, 2010-cu ildə isə "Əməkdar müəllim" adına layiq görülmüşdür. 2020-ci ildə Təhsil Nazirliyinin Fəxri Fərmanla təltif edilib.

2021-ci ildə Minirə Ağahüseynova "Modern general chemistry" kitabına və elmi nailiyyətlərinə görə Rusiya Təbiət Elmləri Akademiyasının V.İ.Vernadski medalı ilə təltif olunub.

Ə d ə b i y y a t :

Ümumi və qeyri-üzvi kimya: ali məktəblər üçün dərslik / Minir Ağahüseynova, S.Q.Əliyev; elmi red. S.Q.Əliyev.- 1-hissə.- Bakı: [s. n.], 2013.- 316 s.

Qeyri-üzvi kimya: ali texniki məktəblərin ixtisası kimya olan tələbələri üçün dərs vəsaiti / Minir Ağahüseynova, S. Q. Əliyev, N. İ. Salmanova; elmi red. O. İ. İsayev.- Bakı: [ADNA], 2007.- 410, [2] s.

Hüseynova, T. "İlin qadını": Bu beynəlxalq mükafata azərbaycanlı professor Minirə Ağahüseynova da layiq görülüb / T. Hüseynova // Panorama.- 1999.- 25 mart. - S.8.

Ağahüseynova Minirə Məhəmməd Əli qızı // *Azərbaycan qadını ensiklopediyası / [X. Abbasov [və b.]]; red. hey. R. Mehdiyev (sədr) [və b.] ; baş red. İ. Vəliyev.- Bakı.-2002.- S. 22.*

İ n t e r n e t d ə :

https://tehsil-press.az/index.php?newsid=63705

https://www.nkpi.az/?page=addread&id=16068

Yuri Qaqarin – 90

(1934-1968) *İlk kosmonavt*



Yuri Alekseyeviç Qaqarin 1934-cü il mart ayının 9-da Rusiyanın Smolensk vilayətinin Qoatski rayonunun Kluşino kəndində kolxozçu ailəsində anadan olmuşdur.

Doğma kəndində natamam orta məktəbi bitirdikdən sonra 1951-ci ildə Lyubertsi şəhərində sənət məktəbinə daxil olmuşdur. Sənət məktəbini bitirdikdən sonra Saratov Sənaye Texnikumuna daxil olmuş, texnikumda təhsilini davam etdirməklə bərabər, Saratov aeroklubuna kursant qəbul edilmişdir. Qaqarin kosmosa doğru ilk addımını məhz Saratovda atmışdır. 1955-ci ildə təhsilini əla qiymətlərlə başa vuraraq Yak-18 təyyarəsində ilk dəfə sərbəst uçuş etmişdir. Qısa müddətdə 196 dəfə havaya qalxmış və 42 saat 23 dəqiqə uçuş keçmişdir. Elə həmin ilin payızında hərbi xidmətə çağırılmış və Orenburqda xidmət etməyə başlamışdır. Təyyarəni sərbəst idarə edə bildiyi üçün Qaqarini Orenburqdakı Hərbi Aviasiya Məktəbinə oxumağa göndərmişlər.

O, 1957-ci ildə Çkalov adına hərbi aviasiya məktəbini, 1968-ci ildə isə N.Y.Jukovski adına Moskva Hərbi Hava Mühəndisləri Akademiyasını bitirmişdir. 1957-ci ildən Qırmızı Bayraqlı Şimal Donanmasının aviasiya hissələrinin birində qırıcı-təyyarəçi kimi xidmət etməyə başlayan Qaqarini 1960-cı ildə kosmonavtlar dəstəsinə qəbul etmişlər. Dünyada ilk kosmonavt kimi Yuri Qaqarin 1961-ci il aprel ayının 12-də "Vostok" gəmisində kosmosa uçmuş, yer ətrafında 1 saat 48 dəqiqə dövr edib geri qayıtmışdır.

Yuri Qaqarin 1961-ci il aprel ayının 14-də "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüşdür.

SSRİ-nin ilk təyyarəçi-kosmonavtı, polkovnik, Sovet İttifaqı Qəhrəmanı Qaqarin Yuri Alekseyeviç 1968-ci il mart ayının 27-də təyyarədə təlim uçuşu zamanı qəza nəticəsində həlak olmuşdur. Sınaq uçuşu 20 dəqiqə nəzərdə tutulmuşdu, lakin havaya qalxdıqdan 10 dəqiqə sonra Yuri Qaqarin yerə enmək üçün icazə istəmiş və bundan sonra təyyarə ilə əlaqə kəsilmişdi. Əvvəlcə, bunu heç kəs faciə kimi qiymətləndirmək istəməmiş, lakin bir müddətdən sonra həyəcan siqnalı verilmiş və itən təyyarənin axtarışına başlanmışdır. Yalnız 3 saatlıq axtarışdan sonra təyyarənin qalıqlarını uçuş-sınaq mərkəzindən 85 kilometr aralı, Novoselovo kəndi ətrafında tapmışlar.

Yuri Qaqarin Moskvada Kreml divarında dəfn olunmuşdur.

Vəfatından sonra Qaqarinin xatirəsi əbədiləşdirilmiş, Qjatsk rayonu Qaqarin adlandırılmış, Moskvada və SSRİ-nin hər yerində onun adına küçələr və parklar salınmışdır.

Ədəbiyyat:

Obuxova, L. Öncə yer vardı: Yuri Qaqarin haqqında xatirə povest / Lidiya Obuxova; tərc. ed. V.Bəhmənli.- Bakı: Nağıl evi, 2010.- 252 s.

Fəzanı fəth edən Qaqarin / N.İxtiyarqızı // Həftə içi.- 2012.- 14-16 aprel.- S.16.

Губарев, В. Тайны Гагарина: мифы и правда о первом полете / В.Губарев.- Москва, 2011.- 316 с.


Данилкин, Л. Юрий Гагарин / Лев Данилкин.- Москва: Молодая гвардия, 2011.- 509, [3] с.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Yuri_Qaqarin

Ümumdünya Yazıçılar Günü

(1986)



Ümumdünya Yazıçılar günü 1921-ci ildən PEN klub tərəfindən (bu ad ingiliscə üç sözün poets, essayists və nvelists – ilk hərflərindən yaranan qısaltmadır) qeyd olunmağa başlamışdır. PEN klubun ilk beynəlxalq konqresi isə 1923-cü ildə Londonda keçirilmişdir.

1986-cı il yanvarın 12-dən 18-dək PEN klubun sayca 48-ci beynəlxalq konqresi baş tutmuşdur. Məhz həmin tədbirin iştirakçıları mart ayının 3-nü "Yazıçı"nın "Ümumdünya Sülh Günü" elan edilməsi barədə qərar qəbul etmişlər. Həmin vaxtadək artıq dünyanın yüzdən çox ölkəsində PEN mərkəzləri fəaliyyət göstərirdi.

Bir sıra ölkələrdə bu bayram sadəcə "Yazıçı Günü" adlanır və bir növ daha çox fərqlənmiş ədibləri təbrik etmək və mükafatlandırmaq üçün münasib gün kimi qeyd olunur. Bayramı keçirməkdə məqsəd "Dördüncü hakimiyyət"in – demokratik mətbuatın mənfi aspektlərinə qarşı çıxmağa, yalan yazılara, məqsədli təhriflərə, faktların bilərəkdən saxtalaşdırılmasına, yaxud siyasi, qrup və şəxsi maraqlar naminə gerçəyin vicdansızcasına yozulmasına yol verməməyə çağıran peşə bayramıdır.

Qeyd edək ki, eyniadlı təşkilat – PEN klub bizim ölkəmizdə də yaradılıb. Bu təşkilat ölkəmizdə 2011-ci ildə yaradılıb və prezidenti yazıçı Çingiz Abdullayevdir. Bütün dünyada fəaliyyət göstərən PEN klubun məqsəd və vəzifələri bizdə də hədəf götürülüb. Ölkəmizdə PEN klubun digər məqsədi Azərbaycan yazıçılarını dünya ölkələrində tanıtmaqdır. Bu da təbii ki, tərcümə vasitəsilə mümkündür. Klubun üzvləri ən istedadlı, görkəmli və fəal yazıçılardır.

Ədəbiyyat:

Məhərrəmova, T. Yazıçılar günü olarsa... : "Onlara hər şeyi bəyəndirmək olmur" : [yazıçı Natiq Rəsulzadə, şair Sabir Rüstəmxanlı, nasir Elçin Hüseynbəyli, tənqidçi Əsəd Cahangir, Aslan Quliyev, Cavid Zeynalının mövzu ilə bağlı fikirləri] /Təranə Məhərrəmova // Kaspi .- 2020.- 29 fevral.-2 mart.- S.8.

Məhərrəmova, T. Hər gün yazıçının günüdür /Təranə Məhərrəmov //Kaspi. - 2012. - 2 mart. - S.9.


İnternetdə:

https://portal.azertag.az/az/node/12169

http://www.anl.az/down/meqale/kaspi_az/2020/fevral/705088(meqale).pdf

www.anl.az/down/meqale/kaspi_az/2012/mart/236841.htm

Beynəlxalq Qadınlar Günü
(1910)



Ədəbiyyat:

Əliyev, İlham. Fədakar analarımız, yüz illər əvvəl olduğu kimi, saf əqidəli övladlar yetişdirirlər: Prezident İlham Əliyev 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib / İlham Əliyev // Azərbaycan.- 2023.- 7 mart.- S.1; İqtisadiyyat.- 2023.- 7-15 mart.- S.1; Azərbaycan müəllimi.- 2023.- 10 mart.- S.2.

Əliyev İ. Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçısıdır : 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik / İlham Əliyev // Azərbaycan.-2022.- 10 mart.- S. 1.

Möhkəm iradə və zərif qəlb sahibləri: Qadınlar // İqtisadiyyat.- 2023.- 7-15 mart.- S.6.

Azəri, L.Zəriflərin bayramı münasibətilə – "Harmoniya" / Lalə Azəri // Mədəniyyət.- 2023.- 10 mart.- S.8.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2022/mart/785784.htm

Dünyanın bir çox ölkələrində 8 mart Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Tarixə nəzər salsaq qadın hərəkatının tarixi 1857-ci ildə Nyu Yorklu qadınların 12 saatlıq iş gününə etirazı ilə başlamışdır. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail olmuşdur. 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirmişdir.

Türk etnoslarında, Azərbaycanda qadın, ana müqəddəs sayılmış, ona böyük ehtiram göstərilmişdir. Ana haqqı Tanrı haqqına bərabər tutulmuşdur. Azərbaycan qadını qəhrəmanlıq göstərmiş, hökmranlıq etmiş, diplomat kimi fəaliyyət göstərmişdir. Massaget hökmdarı Tomiris torpaqlarımıza qəsbkar yürüş etmiş Əhəməni hökmdarı II Kiri məğlub etmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Saraxatın qonşu dövlətlərin hökmdarları ilə danışıqlar aparmış, siyasət və diplomatiya meydanında onlara qalib gəlmişdir.

Müstəqillik əldə edildikdən sonra qəbul olunan Konstitusiyamızın 25-ci maddəsinin ikinci hissəsində də kişi ilə qadının eyni hüquqları və azadlıqları təsbit olunmuşdur. Azərbaycan Respublikası 1992-ci il avqustun 4-də "Qadınların siyasi hüquqları haqqında", 1952-ci il BMT Konvensiyasına və 1995-ci il iyunun 30-da "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında", 1979-ci il tarixli BMT Konvensiyasına qoşulmuşdur.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu 10 oktyabr 2006-cı il tarixində qəbul edilmişdir. Bu gün Azərbaycan qadınları ölkənin ictimai-siyasi, elm, təhsil və mədəni həyatında yüksək fəallığı, zəngin biliyi, vətənpərvərliyi, dövlətçilik ənənələrinə sədaqəti və mərdliyi ilə seçilirlər. Müasir Azərbaycan qurucusu, Ümummilli Liderimiz Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə qadınlara yüksək qiymət verərək demişdir: "Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, qadınsız həyat ola bilməz. Azərbaycan qadınları da öz ağıllarına, zəkalarına görə, biliklərinə, istedadlarına görə, eyni zamanda gözəlliklərinə görə dünya qadınları içərisində özünəməxsus və çox yüksək yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik". Dövlət Qadın siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi isə Azərbaycan qadınlarının məsuliyyətini daha da artırır. Qadınların ictimai-siyasi həyatdakı fəallığı ilbəil yüksəlir.

Azərbaycan qadını ölkəmizi bütün dünyada ləyaqətlə təmsil edir, mötəbər kürsülərdə çıxış edir. Azərbaycan qadınları artıq cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının nə qədər fəal olduğunu təsdiq edir. Qərb dünyası Mehriban xanım Əliyevanın timsalında Şərqin ağıllı, müdrik, peşəkar bir siyasətçisinin obrazını görür. Azərbaycan qadınları mühüm dövlət qurumlarında uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verirlər.

MART

10

Milli Teatr Günü

(1873)



Ə d ə b i y y a t :

Əsədov, Adil. Teatr və proto-teatr: teatrın mahiyyəti və təşəkkül xüsusiyyətləri fəlsəfi refleksiya kontekstində / Adil Əsədov [ön söz]; ön söz. müəl. İ. Həbibbəyli; [dizayner.: H. Hüseynov, T. Əsədov, D. Nəzərli, T. Əsədova]; AMEA, Fəlsəfə və Sosiologiya İn-tu.- Bakı: Elm və təhsil, 2023.- 439, [1] s.

Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İlham Rəhimli; layihənin rəhb. Ə. M. Qarayev; red. hey.: T. İ. Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- C. 3 $p N, O, Ö, P, R, S, Ş, T, U, Ü, V, Y, Z.- Bakı: [Azərnəşr], 2017.- 415, [1] s.

Həyatdan səhnəyə, səhnədən duyğu və düşüncələrə: Mədəniyyət // Xalq qəzeti. 2023.- 10 mart.- S.10.

Yusifoğlu, Q. Azərbaycan dramaturgiyası və milli teatr / Qabil Yusifoğlu // Xalq qəzeti.- 2023.- 10 iyun.- S.8.

Milli Teatr Günü münasibətilə //Mədəniyyət.-2022.- 16 mart .- S.4.

Teatr Xadimləri İttifaqında Milli Teatr Günü // Mədəniyyət.-2022.- 11 mart .

XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə olmuşdur. 1873-cü il mart ayının 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası tamaşaya qoyulmuşdur. Bu şərəfli işdə H.Zərdabi və N.Vəzirov mühüm rol oynamışdılar. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyuldu. Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Hələ eramızdan əvvəl xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatr tamaşaları ("Maral oyunu", "Kilimarası"), bayram tamaşaları ("Kos-Kosa"), dini səciyyəli tamaşalar ("Şəbih") və s. geniş yayılmışdır. XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Şarden, Çuxursəd bəylər-bəyisinin İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən burada ona üç hissəli bir tamaşa göstərmişdilər. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu "Şərqin operası" adlandırmışdı.

Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat H.Z.Tağıyevin böyük xidməti olmuşdur. O, Bakı şəhərində ilk teatr binası inşa etdirmişdir. Tezliklə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Leyla Bədirbəyli, Hökümə Qurbanova kimi yüzlərlə simaları yetişdi. Azərbaycanda teatr sənətinin inkişafında Hacıbəyov qardaşlarının da böyük əməyi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli teatrın fəaliyyətində də canlanmaya səbəb oldu. Dövlətin fəal köməyi və müdaxiləsi nəticəsində Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Teatrın repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər gəldi. Cümhuriyyət hökümətinin bu sahədə məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının yaradılması oldu. Bu, Azərbaycan peşəkar teatrının dövlət teatrı statusu alması demək idi. Bu teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N.Nərimanovun "Nadir Şah" faciəsinin tamaşası ilə açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında "Milli Teatr Günü"nün təsis edilməsi haqqında 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir. Azərbaycan dövlətinin teatr sənətinə göstərdiyi qayğının miqyası günü-gündən artır. Bəllidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 dekabr 2006-cı il tarixində "Teatr və Teatr Fəaliyyəti Haqqında" Azərbaycan Respublikasının Qanununu imzalayıb. Prezident İlham Əliyevin 2007-ci ildə "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" imzaladığı Sərəncam da teatr sənətinə böyük təkan verib. Teatrşünaslar qeyd edir ki, dövlət başçısının mədəniyyətimizə himayəsi Azərbaycan incəsənətində yaradıcılıq əhval ruhiyyəsini artırıb. Teatrın inkişafı üçün Dövlət Proqramı uğurla həyata keçirilir. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla, Dövlət Rus Dram, Dövlət Gənc Tamaşaçılar, Dövlət Akademik Milli Dram, Dövlət Musiqili teatrlarının binalarında yüksək səviyyədə təmir-bərpa, yenidənqurma işləri aparılıb və artıq istismara verilib. Azərbaycan teatrı dünya standartlarına uyğun səviyyədə müasir avadanlıqlarla təchiz olunur.

2020-ci ilin 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı Zəfər sayəsində Qarabağda mədəniyyətimizin dirçəlişi üçün də tarixi bir səhifə açılmışdır. Otuz il əvvəl Qarabağdan – Şuşadan, Ağdamdan, Füzulidən didərgin düşən teatrlarımız tezliklə yenidən qurulacaq, doğma şəhərlərdə fəaliyyətini davam etdirəcəkdir.

Novruz bayramı



Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişdir. Qədim zamanlardan başlayaraq Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistanda və bir çox şərq ölkələrində baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır.

2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir.

"Novruz" fars sözü olub, "yeni gün" deməkdir. Novruz bayramının mənşəyi qədimdir. İslam dini Yaxın Şərq və Orta Asiya ölkələrində yayıldıqdan sonra Ərəb xilafəti bu ölkələrin və xalqlarının İslama zidd olan adət-ənənələrə, bayramlara müsəlmanlığı qəbul edənlər tərəfindən riayət edilməsinin əleyhinə olmuşdur.

Novruz bayramanının əsaslarının Zərdüştilik və ya Atəşpərəstliklə bağlı olduğu bu bayramda indiyədək qalmış ayinlərdə, xüsusən də odun müqəddəs sayıldığı əhkamlarda görünür.

Bəzi qədim inanclara görə kainat 4 ünsürdən – su, od, torpaq və küləkdən yaranmışdır. Hər il 4 çərşənbə Novruzdan, günün bərabərləşməsindən əvvəl qeyd olunur. Aşıqlar da "Ab, atəş, xak, baddan yarandım" deyiblər vücudnamələrində, yəni su, od, torpaq və yelə bağlıdır insan.

Azərbaycanda adətə görə Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Azərbaycan kəndlisi səməni göyərtməklə növbəti təssərrüfat ilinə bərəkət, bolluq arzulamış, bayrama dörd həftə qalmış, hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, mahnı ("gün çıx!" nəğməsi və s.) qoşmaqla oda, atəşə, günəşə olan etiqad və inamını ifadə etmişdir. Bütün bu mərasimlər İslamdan çox-çox əvvəl mövcud olmuş qədim şərq ənənələrinin davamıdır.

Novruz bayramında papaq atmaq, qulaq falına çıxmaq, tonqaldan tullanmaq, tullanarkən "Ağırlığım – uğurluğum odda yansın" demək, səməni yetişdirmək, səməni xonçaları bəzəmək, yumurta boyamaq, yumurta döyüşdürmək, qohumlara, qonşulara qonaq getmək, onlara Novruz payı aparmaq, ailənin sayı qədər şam yandırmaq, mənası insanların birliyi olan və Azərbaycan xalqının qədim dövrdən bəri ifa etdiyi yallı rəqsi etmək, Novruz oyunları oynamaq (məsələn, ənzəli) və s. adətlər yerinə yetirilir.

Ümummilli Lider Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirmişdir: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir".

2020-ci ilin Vətən müharibəsində qazandığımız Zəfər sayəsində Novruz bayramı doğma Vətən torpaqlarına qayıdı. Otuz il sonra Qarabağda, onun baş tacı Şuşada Novruz tonqalları çatıldı, həsrətində olduğumuz və bizi həsrətlə gözləyən torpağımızda Bahar bayramının ətri, nəfəsi, ocaqlarımızın istisi yayıldı.

Ədəbiyyat:

Abdullayev, Məsaim. Heydər Əliyev və Novruz bayramı: Ulu öndər 23 əvvəl Novruz şənliyində tarixi çıxış edib / Məsaim Abdullayev // Xalq qəzeti.- 2023.- 19 mart.- S.7.

Azadi, S. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası olan Novruz bayramı / Sevinc Azadi // İki sahil.- 2023.- 14 mart.- S.6.

Xalqı birləşdirən bayram: İşğaldan azad edilən yurdlarımızda Novruz tonqalları yandırılır /M.Nərimanoğlu Nərimanoğlu, Məhəmməd // Azərbaycan.-2022.- 18 mart.- S.8.

Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik: Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva 20 mart 2021-ci il tarixdə Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar //Azərbaycan müəllimi. -2022.- 18 mart.- S.1.

Hüseynoğlu, K. Novruz bayramının fəlsəfəsi / Kami Hüseynoğlu // Kredo.- 2023.- 10 mart.- S.4.

Beynəlxalq Poeziya Günü

(1999)



YUNESKO-nun 1999-cu ildə keçirilən 30-cu iclasında martın 21-i "Beynəlxalq Poeziya Günü" elan edilmişdir. Dünya Poeziya Günün məqsədi milli, regional və beynəlxalq poetik hərəkata yeni impuls vermək və dünyadakı dil müxtəlifliyini təşviq etmək və yox olmaqda olan dilləri poeziya vasitəsilə dəstəkləməkdir.

Poeziya ən qədim zamanlardan başlayaraq insanın mənəvi ehtiyacına çevrilmiş, onun arzu və istəklərinin, duyğu və düşüncələrinin, sevinc və kədərinin poetik tərcümanı olmuşdur. Dünyanın bir sıra mədəni xalqlarının ədəbiyyatı kimi, bəşəriyyətin söz xəzinəsini zənginləşdirən Azərbaycan poeziyası da xalqımızın tarixi qədər qədim, mənəviyyatı qədər zəngindir. Azərbaycan şairləri, bütövlükdə, Yaxın və Orta Şərq, eləcə də dünya ədəbiyyatının inkişafına güclü təsir göstərmiş, özünəməxsus poeziya məktəbi yaratmışlar. Bu poeziya məktəbi nümayəndələrinin yaradıcılığında yüksək peşəkarlıq, sözün poetik imkanlarından istifadə bacarığı özünü daha aydın göstərmişdir.

Azərbaycanda poeziyanın ilk nümunələri şifahi xalq ədəbiyyatı zəminində formalaşmış bayatılar, holavarlar, sayaçı sözləri və digər mövsüm-mərasim nəğmələridir.

Azərbaycan şifahi xalq ədəbiyyatı qədimlikdən, tarixdən xəbər verməklə yanaşı, Azərbaycan xalqının ruhundan süzülən mədəniyyətdir. Zəngin Azərbaycan şifahi xalq ədəbiyyatı dünyanın digər xalqlarının folkloru arasında özünəməxsus yer tutur. Hələ qədim zamanlardan Azərbaycan xalqı söz sənətinin ilk nümunələrini yaratmış, əsasən, şifahi formada olan bu yaradıcılıq nümunələri poetik bədii təfəkkürün ilkin təzahürünə çevrilmişdir. Orta əsrlərdən başlayan yüksək mədəni inkişaf prosesi isə Azərbaycan poeziyasının yüksəlişində yeni bir mərhələnin başlanmasına səbəb olmuşdur, insana, onun daxili aləminə maraq güclənmişdir.

Şeir sənətimiz Həsənoğlunun, N.Gəncəvinin, M.Füzulinin, İ.Nəsiminin... timsalında yeni çalarlarla zənginləşib. XIX əsrdən başlayaraq şeirlərdəki fəlsəfi mühakimələrin yerini müasirlik və real obrazların lirik təzahürü tutub. M.P.Vaqifin, M.V.Vidadinin, Q.Zakirin, S.Ə.Şirvaninin, M.Ə Sabirin və başqalarının yaradıcılığı isə maarifçi-realist ruhda formalaşmışdır.

Azərbaycanın müxtəlif bölgələrini əhatə edən "Gülüstan", "Əncüməni-şüəra", "Fövcül-füsəha", "Beytüs-Səfa", "Məcməüş-şüəra", "Divani-hikmət", "Məclisi-üns, "Məclisi-fəramuşan" kimi ədəbi məclislər ədəbi mühitin inkişafına öz təsirlərini göstərmişdirlər. Bunun da nəticəsində Azərbaycan ədəbiyyatının yüksəliş mərhələsi sayılan XX yüzil ədəbiyyatına keçid üçün möhkəm zəmin hazırlanmışdır.

Poetik fikrimizin M.Ə.Sabir, H.Cavid, M.Hadi, Ə.Cavad, S.Vurğun, M. Müşfiq, M.Araz, B.Vahabzadə, X.Rza kimi görkəmli nümayəndələri öz yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatına yeni ruh verib, bir-birindən dəyərli poetik nümunələri ilə xalqımızın Azərbaycançılıq məfkurəsi, milli dəyərlər ətrafında birləşməsində layiqli xidmət göstəriblər.

Bu gün Azərbaycan dövlətinin, eləcə də Heydər Əliyev Fondunun hərtərəfli qayğısı sayəsində ədiblərimizin bədii yaradıcılıqları daha da çoxalmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz bu səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermişdir. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra Vaqif Poeziya Günləri yenidən öz yurdunda - mədəniyyət paytaxtımızda keçirilməkdədir.

Ə d ə b i y y a t :

Qasımzadə, Jalə.Dirçələn Şuşada Vaqif Poeziya Günləri / Jalə Qasımzadə // Respublika.- 2023.- 14 iyul.- S. 9.

Vaqif Poeziya Günləri: Heydər Əliyev Fondu // Qobustan: Sənət toplusu.-2022.- №3.- S.12-13.

Azadi, Sevinc.Böyük Qayıdışımızın daha bir təntənəsi - Vaqif poeziya günləri /Sevinc Azadi // İki sahil.-2021.-31 avqust.- S.17.

Bu yaz bir başqa yazdır... // Azərbaycan. - 2018. – 28 mart. - S.5.

Cəbrayıl, Q. Ver sözə ehya ki...: 21 mart - Beynəlxalq Poeziya Günüdür / Q.Cəbrayıl // Mədəniyyət. az. - 2016. - No 3. - S. 34-37.

Şairəm, çünki vəzifəm budur...: Xaçmazda "Sabir poeziya günü" keçirilib // Mədəniyyət. - 2016. – 1 iyun. - S. 2.

MART

27

Beynəlxalq Teatr Günü

(1961)



Teatrın vətəni qədim Yunanıstandır. Bu söz də yunan sözüdür, "tamaşa yeri" mənasını verir. Yunanıstanda qədim zamanlarda şərab "ilahəsi" Dionisin şərəfinə təntənəli bayramlar keçirilirdi. Azad yunanlar şəhər və kəndlərin küçələrində təntənəli gəzintilər təşkil edir, Dionis haqqında əfsanələrdən bütöv səhnələr oynayırdılar. Əvvəllər tamaşalar açıq havada, təpənin ətəyində göstərilərdi. Tamaşaçılar isə yamacda yer tutub otururdular. Təpənin ətəyində yunanca "skena" adlanan çadır qurulurdu. Burada aktyorlar paltarlarını dəyişirdilər. Sonralar çadır əvəzinə kiçik bina tikdilər. Tamaşa vaxtı burada dekorasiyalar asırdılar. Binanın qarşısında aktyorların və xorun çıxış etməsi üçün meydança-orkestra düzəldirdilər. Beləliklə, e.ə. V əsrdə Yunanıstanda teatr binaları tikməyə başladılar. Qədim yunanlar teatrı çox sevir, onu "böyüklər üçün məktəb" adlandırırdılar.

Beynəlxalq Teatr Günü YUNESKO yanında Beynəlxalq Teatr İnstitutunun 1961-ci ildə Vyanada keçirilmiş IX konqresində qəbul edilmiş qərara əsasən təsis olunmuşdur. Ənənəyə əsasən hər il Beynəlxalq Teatr Günü münasibətilə görkəmli teatr xadimləri ictimaiyyətə müraciət ünvanlayırlar. Bu ənənənin əsasını qoyan və ilk dəfə dünya ictimaiyyətinə Teatr Günü münasibəti ilə müraciət göndərən fransalı yazıçı Jan Kokto olmuşdur. Bu ənənəni davam etdirəm Beynəlxalq Teatr İnstitutu hər il mart ayının 27-də müxtəlif ölkələrdən olan bir görkəmli teatr xadiminin müraciətini yayımlayır.

Azərbaycan teatr sənəti çox qədim və zəngin bir tarixə malikdir. XIX əsrin ikinci yarısından başlayaraq ölkəmizdə cərəyan edən ictimai-siyasi hadisələr maarifçilik hərəkatının inkişafına güclü təkan vermişdi. Həmin dövr Azərbaycan teatrı üçün də əlamətdar olmuşdu. Belə ki, böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə tərəfindən ədəbiyyatımıza dram janrının gətirilməsi xalq teatrının peşəkar teatr sənətinə çevrilməsində həlledici rol oynamışdı. Görkəmli maarifçi Həsən bəy Zərdabi və yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə 1873-cü ildə Bakıda M.F.Axundzadənin "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının tamaşaya qoyulması ilə Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində dünyəvi, peşəkar teatrın təməli qoyulmuşdur

Ölkə rəhbərliyi bütün sahələrdə olduğu kimi, teatr sənətinin də inkişafına xüsusi diqqət yetirir. Teatr binalarının əsaslı təmiri, incəsənət ustalarının sosial-rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin 2009-cu il 18 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı uğurla həyata keçirilmişdir. On illik bir dövrü əhatə edən proqram çərçivəsində Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla, S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram, Azərbaycan Dövlət Gənc Tamaşaçılar, Azərbaycan Dövlət Akademik Milli Dram, Azərbaycan Dövlət Akademik Musiqili, Mingəçevir, Şuşa, İrəvan, Ağdam və Füzuli Dövlət Dram teatrlarının binalarında yüksək səviyyədə təmir-bərpa və yenidənqurma işləri aparılıb.

Teatrlarımızın yeni inkişaf yoluna çıxmasında Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri var. Ulu öndərin bu siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ədəbiyyat:

Beynəlxalq Teatr Günü qeyd edildi // 525-ci qəzet.-2023.- 28 mart.- S.9.

Məmmədli, N. Bölgələrdə Beynəlxalq Teatr Günü /N.Məmmədli //Mədəniyyət.-2023.- 29 mart.- S.4.

Müşfiq Ş."Teatrda bir gün"ün təəssüratı" / Şahanə Müşfiq //525-ci qəzet.-2022.- 29 mart.- S.10.

Nizamiqızı H."Açıq qapı"-dan görünənlər: 27 mart – Dünya Teatr Gününün xoşməramlı aksiyasından bol təəssürat / Nizamiqızı, Həmidə //Mədəniyyət.-2022.- 30 mart.- S.1;5.


İnternetdə:

http://www.anl.az/ down/meqale/525/2022/mart/787475.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2022/mart/788020.htm

Elm Günü

(2018)



2018-ci il aprelin 9-da Prezident İlham Əliyev cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Bu tarix ölkə üçün əlamətdar bir vaxta – AMEA-nın təsis olunduğu günə təsadüf etdiyi üçün xüsusi əhəmiyyət daşıyır. Respublika həyatının müxtəlif sahələrinin inkişaf etdirilməsində, ictimai fikrin formalaşdırılması və möhkəmləndirilməsində, dövlət müstəqilliyi uğrunda mübarizə yollarında AMEA-nın böyük xidmətləri var. 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması və fəaliyyəti ilə xalqımız elm sahəsində daha böyük uğurlar əldə etməyə nail olub. Akademiyanın keçdiyi çətin və şərəfli yol elmimizin inkişafının böyük bir tarixi mərhələsi olmaqla yanaşı, ölkəmizin tərəqqisində elmin, alim sözünün, ziyalı mövqeyinin geniş imkanlara malik olduğunu nümayiş etdirən elmi-ictimai hərəkatın, mədəni-texniki proseslərin də mühüm bir göstəricisidir. Ölkəmizdə elmin sistemli inkişafında XX əsr xüsusi mərhələ təşkil etmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə ölkəmizdə cəmiyyət həyatının digər sahələri kimi, elm də inkişafın yeni mərhələsinə qədəm qoyub. Azərbaycan elminin inkişaf etdirilməsinə dövlət səviyyəsində böyük qayğı göstərilib, ölkədə alimin və elmin nüfuzu yüksəlib. Ulu Öndərin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası adı verilib.

Müstəqillik illərində Azərbaycanda elmin inkişafı istiqamətində ardıcıl olaraq islahatlar həyata keçirilir. Nəticədə AMEA-nın struktur, idarəetmə və təşkilati sistemi əsaslı olaraq təkmilləşdirilib, elmi müəssisələrin fəaliyyətinin məqsədyönlü koordinasiyası üçün mühüm işlər görülüb. Akademiyanın Rəyasət Heyəti ən aktual elmi, elmi-innovativ və elmi-təşkilati məsələlərin professional və multidissiplinar səviyyədə müzakirə olunduğu intellektual beyin mərkəzinə çevrilib.

Dünya elminə böyük töhfələr bəxş edən dövlətlər sırasında olan Azərbaycan elm və təhsil sahəsində mühüm nailiyyətlər qazanıb. Ölkəmizdə elmi fəaliyyətlə bağlı qanunvericilik bazası bu sahənin inkişafına geniş imkanlar yaradır. Bu baxımdan "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və bunun həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı, 2016-cı ildə qəbul edilmiş "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və digər proqram və strategiyalar müəyyənləşdirilmişdir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli Fərmanı yeni islahatlara yol açıb. Bu Fərman elmimizin idarəedilməsinin təşkilinin səmərəli qurulmasına geniş imkanlar yaradır. Dövlətimizin başçısının 2022-ci il 15 oktyabr tarixli Fərmanı ilə "Azərbaycan Elm Fondu" publik hüquqi şəxs yaradılıb.

Azərbaycan elminin dünya elminə inteqrasiyası istiqamətində mühüm tədbirlər həyata keçirilir. Alimlərə, xüsusən gənclərə dünyanın aparıcı ölkələrinin elmi müəssisələrində ixtisasartırma kursları keçmək və araşdırma aparmaq üçün imkanlar yaradılır, onların beynəlxalq elmi layihələrdə iştirakı təmin edilir. Eyni zamanda, ölkəmizdə elmi-texniki infrastrukturun modernləşdirilməsi, tədqiqat müəssisələrinin statusuna və vəzifələrinə uyğun olaraq onların maddi-texniki bazasının möhkəmləndirilməsində mühüm addımlar atılır. Həmçinin elm və təhsilin inteqrasiyasının təmin edilməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi Azərbaycan elminin qarşısında duran əsas vəzifələrdəndir. Doktorantura, dissertantura və magistratura yolu ilə elmi kadr hazırlığı keyfiyyətcə yeni səviyyəyə qaldırılır.

Ədəbiyyat:

Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri 28 iyul 2022-ci il //Azərbaycan.-2022.- 29 iyul.- S.2; Azərbaycan müəllimi.-2022.- 29 iyul.- S.2.

Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 aprel 2018-ci il //Azərbaycan.- 2018.- 10 aprel.- S.2.

Qurbanov, Habil. Tariximizin yeni günü-"Elm günü": ["Elm günü"nün təsis edilməsi haqqında] / Habil Qurbanov //Elm.- 2018.- 20 aprel.- S.2.

MART

31

Azərbaycanlıların soyqırımı günü

(1998)



1918-ci il 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı soyqırımı törətmişdirlər. Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilmişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir. Rəsmi mənbələrə əsasən, soyqırım nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşmüşdür

Bu qanlı faciələrin daha dəhşətlisi 1918-ci ilin 31 mart tarixində azərbaycanlılara qarşı törədilən soyqırımı hadisələridir. Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail olublar. 1918-ci ilin mart ayından etibarən Bakı Kommunası tərəfindən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlamışdırlar.

Mart qırğınları zamanı ermənilər bir çox qədim binaları, tarixi abidələri, o cümlədən ziyarətgahları, dünya memarlığının incilərindən sayılan İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışdıkar. Xəzər dənizində yerləşdirilmiş hərbi donanmanın açdığı atəş nəticəsində Cümə və Təzəpir məscidlərinin minarələri ağır zədə almışdır. Daşnak silahlı dəstələri karvansarada vəhşicəsinə öldürdükləri insanların meyitlərini elə oradaca yandırmışdırlar.

1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Azərbaycan müstəqillik qazandıqdan sonra xalqın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilib. Ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci tarixli fərmanda bu hadisələrə siyasi qiymət verilib və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qalması ilk dəfə rəsmi surətdə bəyan etmişdirlər. Azərbaycanlıların Soyqırımı Gününün təsis edilməsi azərbaycanlıların məruz qaldığı etnik təmizləmə siyasəti və soyqırımı cinayətləri barədə dünya ictimaiyyətinin məlumatlandırılmasıda müstəsna əhəmiyyət kəsb edir. 31 mart - Azərbaycanlıların Soyqırımı Günü hər il ölkəmizdə dövlət səviyyəsində qeyd edilir.

Qubada 1918-ci il hadisələri zamanı ermənilərin törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar üzə çıxarılıb. Tapılmış saysız-hesabsız insan sümükləri bu qırğınlar zamanı erməni vandalizmini təsdiqləyən əyani dəlillərdir. Bu ərazidə on minlərlə insanın qətlə yetirilməsinin sübutu kimi və onların xatirəsinə ehtiram əlaməti olaraq Quba soyqırımı Memorial Kompleksi yaradılıb. Azərbaycan Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyi də Azərbaycanın tarixi həqiqətlərinin, erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilmiş qırğınların, qətliamların dünya ictimaiyyətinə çatdırılmasında mühüm əhəmiyyət kəsb edir. Amma beynəlxalq miqyasda bu soyqırıma hələ də hüquqi qiymət verilməyib.

Ədəbiyyat:

XİN 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb // Azərbaycan.- 2023.- 1 aprel.- S.9.

Qasımov, R. Tarixi yaddaşın mart fəryadı: 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü / Ramiz Qasımov // Olaylar.- 2023.- 31 mart-6 aprel.- S.14; 16.

Nağıyev, M. 31 mart-Azərbaycanlıların Soyqırımı Günü və 44 Günlük... / Muxtar Nağıyev // Səs.- 2023.- 30 mart.- S.11.

Tarixi həqiqətlərin ünvanı – Quba Soyqırımı Memorial Kompleksi //Mədəniyyət.-2023.- 31 mart.- S.1;4.

Məmmədov, C.Tariximizin qanlı soyqırımı dərsləri / Coşqun Məmmədov //Xalq qəzeti.- 2023.- 2 aprel.- S.6.

İnternetdə:

http://www.anl.az/down/meqale/adalet/2022/mart/788188(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2022/aprel/788644.htm

APREL

21 mart -
20 aprel

Qoç bürcünün nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik olurlar

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30					

- *Aprel döyüşləri və ya Dördgünlük müharibə (02-05.04.2016)*
- *Bakıda Hərbi Qənimətlər Parkı açılmışdır (12.04.2021)*
- *Beynəlxalq Ekoloji Bilik Günü (15.04.1992)*
- *Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996)*

Yaşıl dünya naminə həmrəylik ili



Ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqinə yer verilir. "Yaşıl iqtisadiyyata" sərmayələrin cəlb olunması üçün ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə etmək, istilik effekti yaradan qazları azaltmaq, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə üzrə tədbirlər həyata keçirilir. Hələ 2011-ci ildə Azərbaycanda ilk dəfə olaraq, "Bakı Ekspo" sərgi mərkəzində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi və fəal iştirakı ilə ətraf mühitin mühafizəsinə həsr olunmuş "Xəzər: ətraf mühit üçün texnologiyalar" ("CTE-2011") beynəlxalq sərgisi keçirilmişdir. Təmizləmə qurğularının quraşdırılmasına, neft və qaz hasilatı idarələrinin istismar etdikləri mədən ərazilərində neftlə çirklənmiş torpaqların təmizlənməsinə və yaşıllaşdırılmasına böyük həcmdə vəsaitlər ayrılmış, ekoloji layihələr həyata keçirilmişdir.

Ölkəmizdə təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədilə dövlət başçısının 2011-ci il 28 dekabr tarixli Sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılmış, 2012-ci ildə istehsal gücünə görə Şərqi Avropa və MDB məkanında ən iri müəssisə hesab olunan Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu fəaliyyətə başlamışdır.

APREL 2024



Milli ədəbiyyat

Əməkdar mədəniyyət işçisi, şair, publisist Nəcəfov Qəşəm Mirzə oğlunun (01.04.1959) anadan olmasının 65 illiyi
Xalq yazıçısı, hüquq elmləri doktoru, ssenarist, hüquqşünas, ictimai xadim, nasir, publisist Abdullayev Çingiz Akif oğlunun (07.04.1959) anadan olmasının 65 illiyi 206
Yazıçı-dramaturq Vəzirov Nəcəf bəy Fətəli bəy oğlunun (02.04 1854-13.07.1926) anadan olmasının 170 illiyi 207
Əməkdar incəsənət xadimi, şair Mütəllibov Tofiq Mütəllim oğlunun (13.04.1929-30.10.1992) anadan olmasının 95 illiyi
Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor, nasir, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi Hüseynov Çingiz Həsən oğlunun (20.04.1929) anadan olmasının 95 illiyi
Nasir, publisist, dövlət və siyasi xadim Ağaoğlu Səməd Əhməd bəy oğlunun (Səməd Ağaoğlu) (23.04.1909-06.08.1982) anadan olmasının 115 illiyi
Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, nasir Musayev Qılman İsabala oğlunun (Qılman İlkin) (28.04.1914-06.11.2009) anadan olmasının 110 illiyi 208



Dünya ədəbiyyatı

Özbəkistan yazıçısı, dramaturqu və publisisti, repressiya qurbanı Abdulla Qədirinin (10.04.1894-4.09.1938) anadan olmasının 130 illiyi. 209
İngilis dramaturqu və şairi Şekspir Vilyamın (26.04.1564-23.04.1616) anadan olmasının 460 illiyi



Musiqi. Opera. Balet

Xalq artisti, müğənni Babayev Abdulla Murtuz oğlunun (01.04.1924- 10.03.2015) anadan olmasının 100 illiyi 210
Bəstəkar Zeynallı Asəf Zeynalabdin oğlunun (05.04.1909-27.10.1932) anadan olmasının 115 illiyi 211
Xalq artisti, xanəndə Mustafayev Teymur Ağaxan oğlunun (10.04.1939-11.06.2020) anadan olmasının 85 illiyi 212
Əməkdar artist, bəstəkar, pianoçu, orqan ifaçısı Mirzəyev Arif Abdulla oğlunun (10.04.1944) anadan olmasının 80 illiyi 213
Xalq artisti, Şuşa xanəndəlik məktəbinin nümayəndəsi, xanəndə Şuşinski Seyid Mir Möhsün Ağa Seyid İbrahim oğlunun (12.04.1889-01.11.1965) anadan olmasının 135 illiyi 214
Xalq artisti, Əməkdar incəsənət xadimi, professor, bəstəkar Mirişli Ramiz Aqil oğlunun (16.04.1934- 17.04.2015) anadan olmasının 90 illiyi 215
Xalq artisti, caz bəstəkarı Qəmbərov Salman Hüseyn oğlunun (18.04.1959) anadan olmasının 65 illiyi 216
Əməkdar incəsənət xadimi, bəstəkar Hacıbəyli Zülfüqar Əbdülhüseyn oğlunun (17.04.1884-30.09.1950) anadan olmasının 140 illiyi 217

APREL 2024



Teatr. Kino

Xalq artisti, Əməkdar incəsənət xadimi, professor, kinorejissor, kinodramaturq, nasir, İsmayılov Tofiq Hüseyn oğlunun (06.04.1939-25.03.2016) anadan olmasının 85 illiyi 218
Xalq artisti, aktyor Quliyev Qabil Əzizulla oğlunun (Qabil Mehdixanlı) (19.04.1949) anadan olmasının 75 illiyi 219
Xalq artisti, kino və teatr rejissoru, aktyor, pedaqoq Təhmasib Rza Abbasqulu oğlunun (20.04.1894- 14.02.1980) anadan olmasının 130 illiyi 220
Xalq artisti, aktrisa Nərimanova Zemfira Əli qızının (20.04.1959) anadan olmasının 65 illiyi 221
Xalq artisti, teatr və kino aktyoru Cavadov Ağahüseyn Xəlil oğlunun (22.04.1894-19.07.1981) anadan olmasının 130 illiyi 222
Əməkdar mədəniyyət işçisi, rejissor Gülçöhrə Məmməd qızı Şəfiyevanın (23.04.1949-23.12.2023) anadan olmasının 75 illiyi
Xalq artisti, teatr və kino aktyoru Bürcəliyev Məmməd İsmayıl oğlunun (25.04.1914-25.11.1994) anadan olmasının 110 illiyi 223
Xalq artisti, Əməkdar incəsənət xadimi, kinorejissor, ssenarist, aktyor və pedaqoq İbrahimov Əjdər Mütəllim oğlunun (29.04.1919-20.09.1993) anadan olmasının 105 illiyi
Xalq artisti, Əməkdar incəsənət xadimi, fəlsəfə və sənətşünaslıq doktoru, professor, teatr rejissoru, yazıçı və şair Nemətzadə Əflatun Nemət oğlunun (25.04. 1944) anadan olmasının 80 illiyi 224



Rəssamlıq. Heykəltəraşlıq

Xalq rəssamı, xalçaçı-rəssam Rəcəbov Aydın Məhəmməd-Ağa (Məmmədağa) oğlunun (09. 04.1944) anadan olmasının 80 illiyi 225



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Şövqiyar Cəmil oğlunun (05.04.1969-27.08.1992) anadan olmasının 55 illiyi 226
Azərbaycanın Milli Qəhrəmanı Atakişiyev İntiqam Vahid oğlunun (07.04.1974) anadan olmasının 50 illiyi 227
Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Tofiq Mirsiyab oğlunun (19.04.1954-26.02.1992) anadan olmasının 70 illiyi 228
Azərbaycanın Milli Qəhrəmanı Həbibov Rəfael Hacı Şərafət oğlunun (20.04.1964-07.07.1992) anadan olmasının 60 illiyi 229
Azərbaycanın Milli Qəhrəmanı Aqarunov Albert Aqarunoviçin (25.04.1969-08.05.1992) anadan olmasının 55 illiyi 230



İkinci Qarabağ Müharibəsi Şəhidləri

MAHHXHQ çavuş Hüseynov Cavid Habil oğlunun (01.04.1994-30.09.2020) anadan olmasının 30 illiyi 231

APREL 2024

MAHHXHQ kiçik çavuş Hilalov Araz Elburus oğlunun (01.04.1979-05.09.2020) anadan olmasının 45 illiyi 231
MAHHXHQ əsgər Abdullayev Elgün Əmirxan oğlunun (01.04.1994-09.11.2020) anadan olmasının 30 illiyi 232
MAHHXHQ əsgər Şirvanov Davud Xeyrulla oğlunun (01.04.1994-02.10.2020) anadan olmasının 30 illiyi 232
Əsgər İslamlı Ruhid Uğur oğlunun (01.04.1999-06.10.2020) anadan olmasının 25 illiyi 233
Əsgər Allahverdiyev İsgəndər Nəsir oğlunun (02.04.1999-08.11.2020) anadan olmasının 25 illiyi 233
Baş leytenant Məlikov Mahmud Təhmasib oğlunun (03.04.1994-29.10.2020) anadan olmasının 30 illiyi 234
Əsgər Həsənov Teymur Mahal oğlunun (03.04.1989-25.10.2020) anadan olmasının 35 illiyi. 234
MAHHXHQ əsgər Vəliyev Nurlan Habil oğlunun (04.04.1994-29.09.2020) anadan olmasının 30 illiyi 235
Əsgər Məmmədov Abid Asif oğlunun (04.04.1994-02.10.2020) anadan olmasının 30 illiyi. 235
Gizir Məmmədov Kərim Namil oğlunun (05.04.1989-02.10.2020) anadan olmasının 35 illiyi 236
Baş leytenant Məhərrəmov Fuad İmaməddin oğlunun (05.04.1994-15.10.2020) anadan olmasının 30 illiyi 236
MAHHXHQ əsgər Rəsulov Elxan Ayaz oğlunun (06.04.1989-16.10.2020) anadan olmasının 35 illiyi 237
MAHHXHQ əsgər Zeynalov Əlisəfa Elşad oğlunun (06.04.1994-05.10.2020) anadan olmasının 30 illiyi 237
MAHHXHQ əsgər Eyvazov İslam Həsən oğlunun (07.04.1999-09.11.2020) anadan olmasının 25 illiyi 238
MAHHXHQ əsgər Məmmədov Vüsal Aydın oğlunun (08.04.1989-29.10.2020) anadan olmasının 35 illiyi 238
MAHHXHQ əsgər Xəncəlov Ümüd Radif oğlunun (10.04.1994-06.10.2020) anadan olmasının 30 illiyi 239
Mayor Hacıyev Abakar Məhəmməd oğlunun (11.04.1979-27.10.2020) anadan olmasının 45 illiyi 240
Gizir Əliyev Sənan Əlisafa oğlunun (11.04.1989-30.09.2020) anadan olmasının 35 illiyi 239
Əsgər Rüstəmov Rövşən Orxan oğlunun (11.04.1999-06.10.2020) anadan olmasının 25 illiyi 241
Leytenant Niftəliyev İlyas Güloğlan oğlunun (12.04.1999-14.10.2020) anadan olmasının 25 illiyi 241
MAHHXHQ əsgər Vəliyev Qoşqar Nuruş oğlunun (12.04.1989-22.11.2020) anadan olmasının 35 illiyi 242

APREL 2024

Əsgər Cavadov Mahmud Heydər oğlunun (13.04.1999-27.11.2020) anadan olmasının 25 illiyi 242
Əsgər Ələsgərov Niyaməddin Süleyman oğlunun (13.04.1999-04.10.2020) anadan olmasının 25 illiyi 243
Gizir Həşimov Tərzan Qəhrəman oğlunun (13.04.1989-20.10.2020) anadan olmasının 35 illiyi 243
MAHHXHQ əsgər Əliyev Mahir Əjdər oğlunun (13.04.1984-28.09.2020) anadan olmasının 40 illiyi 244
Əsgər Hüseynli Əliheydar Səlahəddin oğlunun (14.04.1994-09.11.2020) anadan olmasının 30 illiyi 244
Əsgər Rzayev Elxan Ariz oğlunun (15.04.1994-01.11.2020) anadan olmasının 30 illiyi 245
Əsgər Mailov Rafael İlqar oğlunun (16.04.1994-14.10.2020) anadan olmasının 30 illiyi. 245
MAHHXHQ əsgər Abdullayev Məhəmməd Vaqif oğlunun (19.04.1999-30.09.2020) anadan olmasının 25 illiyi 246
MAHHXHQ əsgər Bağırov Ramin Nəriman oğlunun (19.04.1999-27.10.2020) anadan olmasının 25 illiyi 246
MAHHXHQ əsgər Qarayev Namiq Qarakişi oğlunun (21.04.1979-01.10.2020) anadan olmasının 45 illiyi 247
Leytenant Məmmədov Elşən Əziz oğlunun (21.04.1999-21.10.2020) anadan olmasının 25 illiyi 247
Əsgər Məmmədov Kənan Bəhruz oğlunun (22.04.1999-29.10.2020) anadan olmasının 25 illiyi 248
Əsgər Yaqubzadə Yaqub Eldəniz oğlunun (22.04.1999-02.10.2020) anadan olmasının 25 illiyi 248
MAHHXHQ kiçik çavuş Əliyev Xəyal Saleh oğlunun (25.04.1999-02.10.2020) anadan olmasının 25 illiyi 249
Gizir Abışov Babək Vaqif oğlunun (25.04.1994-27.09.2020) anadan olmasının 30 illiyi. 249
Əsgər Mirzəyev İbad Mansur oğlunun (25.04.1999-19.10.2020) anadan olmasının 25 illiyi 250
MAHHXHQ kiçik çavuş Bağırov Elçin Fəhrad oğlunun (27.04.1989-01.10.2020) anadan olmasının 35 illiyi 250
Gizir Mehdiyev Zahir Zakir oğlunun (27.04.1984-03.11.2020) anadan olmasının 40 illiyi. 251
Əsgər Ənnağıyev Babək Oktay oğlunun (27.04.1994-07.10.2020) anadan olmasının 30 illiyi 251
Əsgər Rəhimli Orxan Rəşid oğlunun (28.04.1994-08.11.2020) anadan olmasının 30 illiyi. 252

Əsgər Qurbanov Elvin Elmar oğlunun (29.04.1999-14.10.2020) anadan olmasının 25 illiyi 252
Əsgər Qədimov Ayxan Fikrət oğlunun (30.04.1999-30.11.2020) anadan olmasının 25 illiyi 253



Siyasət. Hərbi iş

Dövlət xadimi Cəfərov Vaqif Cəfər oğlunun (18.04.1949-20.11.1991) anadan olmasının 75 illiyi



Tarix

Tarix elmləri doktoru, professor Muxtarova Əsməd İmamməmməd qızının (03.04.1944) anadan olmasının 80 illiyi 254



Fəlsəfə.İqtisadiyyat.Hüquq

İqtisad elmləri doktoru, Vergi Xidməti Generalı, sambo və qaçış üzrə idman ustası Əjdərov Təhmasib Hüseyn oğlunun (17.04.1964) anadan olmasının 60 illiyi . . 255



Mədəniyyət. Maarif. Təhsil

Filologiya elmləri doktoru, professor Xudiyev Nizami Manaf oğlunun (01.04.1949-25.05.2021) anadan olmasının 75 illiyi
Azərbaycan əsilli Türkiyə dilçisi, ədəbiyyatşünas Cəfərzadə Əhməd İsmayıl oğlunun (Əhməd Cəfəroğlu) (17.04.1899-06.01.1975) anadan olmasının 125 illiyi
AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Budaqova Zərifə İsmayıl qızının (28.04.1929-07.11.1989) anadan olmasının 95 illiyi
Filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas, tənqidçi, lüğətçi Abıyev Aydın Müstəcəb oğlunun (Aydın Abi Aydın) (28.04.1939) anadan olmasının 85 illiyi 256



Coğrafiya.Geologiya


AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor, neft qaz yataqlarının işlənilməsi sahəsində alim Abbasov Zöhhak Yaqub oğlunun (10.04.1939-01.03.2019) anadan olmasının 85 illiyi
Geologiya-mineralogiya elmləri doktoru, geofizik Xəlilov Elçin Nüsrət oğlunun (26.04.1959) anadan olmasının 65 illiyi

APREL 2024



Riyaziyyat. Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor, Avropa Elmlər Akademiyasının (AEA) həqiqi üzvü Allahverdiyev Kərim Rəhim oğlunun (01.04.1944) anadan olmasının 80 illiyi 257
Fizika-riyaziyyat elmləri doktoru Məmmədov Tofiq Səfərəli oğlunun (05.04.1944) anadan olmasının 80 illiyi



Kimya.Biologiya.Tibb

Səhiyyə əlaçısı, tibb elmləri doktoru, professor Əsgərov Vasif Fətulla oğlunun (15.04.1929) anadan olmasının 95 illiyi
Tibb elmləri doktoru, professor Şahtaxtinskaya Adilə İsasultan qızının (17.04.1894-30.03.1951) anadan olmasının 130 illiyi 258
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Abasquliyev Əhməd Əlibala oğlunun (20.04.1919-20.06.2008) anadan olmasının 105 illiyi



Digər tarixi hadisələr

Eldəgizlər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın hakimiyyətə gəlməsinin (01.04.1174) 850 illiyi
Ümumdünya Gülüş Günü (01.04.1564)
Beynəlxalq Quşlar Günü (01.04.1906)
Beynəlxalq Uşaq Kitabı Günü (02.04.1953) 259
Aprel döyüşləri və ya dördgünlük müharibə (keçirilən hərbi əməliyyatlar zamanı işğal olunmuş ərazilərin bir qismi Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir) (02/05.04.2016) 260
Dünya Autizm Məlumatlandırma Günü (02.04.2008) 261
Azərbaycan Çad və Şərqi Timor dövlətləri ilə diplomatik münasibətlər qurmuşdur (05.04.2004)
Ümumdünya Sağlamlıq Günü (07.04.1948)
VI Ümumazərbaycan Sovetlər qurultayının qərarı ilə Azərbaycanda yeni ərazi-inzibati vahidlər-dairələr yaranmışdır (08.04.1929)
Bakıda Atatürk Mərkəzinin açılışı olmuşdur (10.04.2004)
İnşaatçılar Günü (10.04.2009)
Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)
Bakıda Hərbi Qənimətlər Parkı açılmışdır (12.04.2021)
Azərbaycan parlamenti Hərbi məhkəmənin və alay məhkəmələrinin yaradılması haqqında qanun vermişdir (14.04.1919)
Beynəlxalq Ekoloji Bilik Günü (15.04.1992)
Dünya İncəsənət Günü (15.04.2019)
Ümumdünya Səs Günü (16.04.2002)
Ümumdünya Hemofiliya Günü (17.04.1964)

APREL 2024

Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983) 262
Parklara Yürüş Günü (19-24.04.1995)
“Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalanmışdır (19.04.2021)
Azərbaycan Respublikası Paraqvay ilə diplomatik əlaqələr qurmuşdur (20.04.2004)
Dünya Elektron Kitabxanası saytının rəsmi açılışı olmuşdur (21.04.2009)
Göygöl şəhəri (indiki Göygöl rayonu) alman kolonistləri tərəfindən Yelenendorf (alm. Helenendorf) adı altında salınmışdır (22.04.1819)
Ümumdünya Yer Günü (22.04.1970) 263
Azərbaycan Respublikası Əlcəzair ilə diplomatik əlaqələr qurmuşdur (22.04. 1994)
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996)
Beynəlxalq Əqli Mülkiyyət Günü (26.04.2000)
Ümumdünya Əməyin Mühafizəsi Günü (28.04.2003)
Beynəlxalq Rəqs Günü (29.04.1982)
Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (keçmiş ADNA) terror hadisəsinin (30.04.2009) 15-ci ildönümü 264
Beynəlxalq Caz Günü (30.04.2011)

Çingiz Abdullayev – 65
(1959)

Yazıçı



Ə d ə b i y y a t :

Ustac, Z. Çingiz Abdullayev: [Çingiz Abdullayevin həyat və yaradıcılığı haqqında] / Zaur Ustac [tərt. və red.]; ön söz R. Hüseynov; naşir T. Şəhrili.- K. 33.- Bakı: Ustac. az, 2023.- 72 s.

Qanın üç rəngi: +10 : [Detektiv] / Çingiz Abdullayev; uşaqlar üçün işləyəni İ.İlyaslı; rəssam E.Cabbarov; dizayner Ö. Məmmədov.- [Bakı]: Qələm, [2023].-124, [1] s.

Azğın ruhların şəhəri: roman / Çingiz Abdullayev; naşir M. Xan; tərc. M. Qənbərova; dizayn və qrafika F. İlham.- Bakı: Mücrü, 2023.- 232 s.

Oliqarxın vəsiyyətnaməsi / Çingiz Abdullayev; rus dilindən tərc. S. Əhmədova [Bakı]: Teas Press, [2022]. 273, [3] s.

"Türk dünyasının və Müsəlman şərqinin ulduzu": Türkiyənin "Təmrin" dərgisi Xalq yazıçısı Çingiz Abdullayevin doğum günündə xüsusi buraxılış hazırlayıb // Ədəbiyyat qəzeti.- 2022.- 9 aprel.- S.7.

Çingiz Abdullayevin "Azğın ruhların şəhəri" işıq özü görüb // 525-ci qəzet.- 2023.- 11 fevral.- S.18.

Çingiz Akif oğlu Abdullayev 1959-cu il aprel ayının 7-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini 189 saylı şəhər məktəbində almış, 1976-1981-ci illərdə ADU-nun (indiki BDU) hüquq fakültəsində təhsilini davam etdirmişdir.

Çingiz Abdullayev 1988-ci ildə hüquq elmləri namizədi, 1991-ci ildə hüquq elmləri doktoru elmi dərəcəsini almışdır.

Əmək fəaliyyətinə Bakı istehsalat birliyində hüquq məsləhətçisi kimi başlayan Çingiz Abdullayev daha sonra böyük hüquq məsləhətçisi və şöbə rəisi vəzifələrində çalışıb. O, 1984-1986-cı illərdə Afrika, Asiya və Avropa ölkələrində ezamiyyətdə olub. Sonra Bakı şəhəri Əzizbəyov rayonu İK-də şöbə müdiri, KP Qaradağ rayonu komitəsində təşkilat şöbəsinin təlimatçısı, siyasi-maarif kabinetinin müdiri vəzifələrində çalışıb.

Çingiz Abdullayev 1990-cı ildən H.Z.Tağıyev adına Xeyriyyə Cəmiyyətinin sədri və Azərbaycan PEN-klubunun prezidentidir. 1989-cu ildən SSRİ və Azərbaycan Yazıçılar İttifaqının üzvü, 1989-cu ildə Azərbaycan SSR Yazıçılar İttifaqının katibi, 1991-2014-cü illərdə ittifaqın İdarə Heyətinin katibi olmuşdur. 2014-cü ilin iyun ayından Azərbaycan Yazıçılar Birliyinin birinci katibidir.

2003-cü ildən "Beynəlxalq Ədəbiyyat Fondu"nun həmsədri, 2005-2015-ci illərdə AR Prezidenti yanında YUNESKO üzrə Milli Komissiyanın, 2011-ci ildən "Dünya Azərbaycanlılarının Koordinasiya Şurasının" üzvü, 2013-cü ildən AR Elm, Texnologiya, Memarlıq, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət mükafatları Komissiyasının üzvü, 2014-cü ildən İnterpolun fəxri səfiri, AR Prezidenti yanında Heraldika Şurasının üzvü, 2015-ci ildən Azərbaycan Beynəlxalq Ukrayna İttifaqının fəxri üzvü, "Neftçi" Futbol Klubunun Müşahidə Şurasının sədri, 2016-cı ildə "Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi"nin prezidenti seçilmişdir.

2009-cu ildə yaradılmış Beynəlxalq Qara dəniz və Xəzər dənizi Əməkdaşlıq və Tərəfdaşlıq Fondunun təsisçilərindən biri, 2015-ci ildə həmin fondun prezidenti olmuş, 2017-ci ildən Beynəlxalq Dayanıqlı Sülh və İnkişaf Fondunun (IFSPD) təsisçisi, vitse-prezidenti və İdarə Heyətinin üzvüdür.

Ədəbi fəaliyyətə tələbəlik dövründən başlayan Çingiz Abdullayev 1983-cü ildən dövri mətbuatda oçerk, məqalə və detektiv janrda yazdığı hekayələrlə müntəzəm çıxış edib. Rus dilində psixoloji və siyasi detektiv janrında əsərlər yazan yeganə azərbaycanlı yazıçıdır. O, ədəbi fəaliyyətə bir neçə lirik hekayə ilə, o cümlədən "Vals" (1981) və "Bir tikə çörək" (1981-1982) ilə başlayıb. Yazıçının ilk böyük əsəri - "Mavi mələklər" romanı 1988-ci ildə Bakıda çap olunmuşdur. Sonralar trilogiya - "Əclafların qanunu", "Əclafların əqidəsi" və "Əclafların vicdanı" nəşr olunub. Daha sonralar Dünyanın müxtəlif ölklərində kütləvi tirajla buraxılan "Qaranlıq" (2000), "Draqon" (2004), "Günəş altında qaranlıq" (2009), "Mənim gözəl alibim" (2008), "Kabuslar tuneli (2008), "Demək olar ki, inanılmaz qətl" (2010), "Öz dünyanı yarat" (2010), "Bütlərin yükü" (2015), "Qurban sindromu" (2016), "Alliqator xətti" (2017), Ölmək adəti (2017), "Ədəbsizin təntənəsi" (2019), "Kriminalistika dərsi" (2020), "Qanın üç rəngi" (2023) və b. adda kitabları çap olunub.

Yazıçı həm də "Dronqo" (2002, bədii serial) , "Məhkumlar" (2007, tammetrajlı bədii film), "Tərsinə çevrilən dünya" (2011, tammetrajlı bədii film), "Xeyirlə şərin rəqsi" nin (2015,tammetrajlı bədii film) ssenari müəlifidir. Əsərləri milyon nüsxə tirajla xarici ölkələrdə çap olunmuşdur.

Çingiz Abdullayev bir sıra şəhərin fəxri vətəndaşı və beynəlxalq mükafatın sahibidir. O, həmçinin müxtəlif xarici ali təhsil ocaqlarının fəxri doktor adına layiq görülüb, 6 xarici ölkənin ordenləri ilə təltif edilib.

Çingiz Abdullayev 2005-ci ildə "Xalq yazıçısı" fəxri adına və 2009-cu ildə "Şöhrət", 2019-cu ildə "Şərəf" ordenlərinə laiq görülüb "Humay", "Qızıl qələm", "Platin qələm" mükafatları laureatıdır. 2020-ci ildə Rusiya federasiyasının "Dostluq" ordeni ilə təltif edilmişdir. 2023-cü ildə IX Bakı Beynəlxalq Kitab Sərgisində Xalq yazıçısı oxucularla "Dronqo geri qayıdır" adlı görüş keçirmişdir.

Nəcəf bəy Vəzirov – 170

(1854-1926)

Yazıçı-dramaturq



Ə d ə b i y y a t :

Vəzirov, N. Müsibəti-Fəxrəddin: (seçilmiş əsərləri) /Nəcəf bəy Vəzirov; tərt. F. Qasımzadə.- Bakı: [Kitab Klubu N.E.], 2021.- 430, [2] s.

Nəcəf bəy Vəzirov - "Milli irfana xidmət etmiş nadir sima": [məqalələr toplusu] / [tərt. ed. Ə. Ələkbərova; elmi red. M. Vəzir]; AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: [n. y.], 2021.- 429 s.

Seçilmiş əsərləri / N.Vəzirov; tərt. ed. X.Məmmədov.- Bakı: Maarif, 2002.- 292 s.

Palıd / N.Vəzirov; nəşrə hazırl. M.Q.Məmmədova (ön söz); red. A.Quliyev; AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: Elm və təhsil, 2013.- 90 s.

Ələkbərova, Ə. Nəcəf bəy Vəzirovun arxivinin təsviri / Əzizə Ələkbərova; red. M.Teymurov; AMEA, M.Füzuli ad. Əlyazmalar İnstitutu.- Bakı: MK, 2012.- 116 s.

Nəcəf bəy Vəzirov: biblioqrafiya / AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu; tərt. və ön söz müəl. Ə.H.Ələkbərova; elmi red. P.Kərimov.- Bakı: Elm və təhsil, 2014.- 50 s.

Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov 1854-cü il aprel ayının 11-də (bəzi mənbələrdə aprel ayının 2-də) Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini dini məktəbdə almışdır. Bir il oxuduqdan sonra Şuşa şəhərindəki mülkiyə məktəbinə getmiş, bu məktəbdə də təhsilini yarımçıq qoyaraq 1868-ci ildə Bakıya gəlmiş, real gimnaziyanın ikinci sinfinə daxil olmuşdur. Gimnaziyada oxuyarkən N.Vəzirov böyük Azərbaycan alimi Həsən bəy Zərdabi ilə tanış olmuşdur. 1874-cü ildə N.Vəzirov real gimnaziyanı qurtarıb təhsilini davam etdirmək üçün Rusiyaya getmişdir. O, Moskvada Petrovski-Razumovski Meşə və Təbiətşünaslıq Akademiyasının meşəçilik şöbəsinə daxil olmuş, 1878-ci ilin iyun ayında akademiyanı bitirərək təyinatla Qafqaza göndərilmişdir. Elə həmin ildə H.Zərdabinin təşəbbüsü ilə "İmdadiyyə" adlı dərnək təşkil etmişdir.

Nəcəf bəy Vəzirov XIX əsrin 90-cı illərinin əvvəllərində siyasi etibarsızlıqda günahlandırılıb meşəbəyi vəzifəsindən azad edilmişdir. 1895-ci ildə Bakıya köçmüş, burada lazımi imtahanları verib vəkillik vəsiqəsi almış və məhkəmələrdə çalışmışdır. O, burada "Yağışdan çıxdıq, yağmura düşdük", "Müsibəti-Fəxrəddin", "Pəhləvani zəmanə" kimi klassik əsərlərini yaratmışdır. "Müsibəti-Fəxrəddin" əsəri ilə yazıçı Azərbaycan ədəbiyyatında faciə janrının əsasını qoymuşdur. "Daldan atılan daş topuğa dəyər" (1890), "Sonrakı peşmançılıq fayda verməz" (1890), "Adı var, özü yox" (1891) adlı pyesləri yazıçıya şöhrət qazandırmışdır. O, pyeslərilə yanaşı 1875-ci ildə ilk nəsr əsərini - "Ağıçı" hekayəsini yazmışdır.

Əxlaq və ailə-məişət mətləbləri, ənənəvi nadanlıq və ona qarşı mübarizə mövzusu, Şərqdə və Rusiyada milli-ictimai hərəkat, beynəlmiləllik və xalqlar dostluğu ideyası, qadın azadlığı məsələsi yazıçının əsərlərinin əsas mövzusunu təşkil edirdi.

Nəcəf bəy Vəzirov 1903-cü ildə Bakı dumasına katib seçilmişdir. Az sonra isə şəhər maarif şöbəsi rəisinin müavini təyin edilmiş və keçmiş müəllimi Həsən bəy Zərdabi ilə birlikdə yeni məktəblərin, müxtəlif tərbiyə ocaqlarının açılması işində yaxından iştirak etmişdir.

1905-ci il inqilabı yazıçının ədəbi-ictimai fəaliyyətinin genişlənməsi üçün münbit zəmin yaratmışdır. Maarifpərvər ədib Bakıda çıxan "Həyat", "İrşad", "Tazə həyat", "Açıq söz" və s. qəzetlərdə "Dərviş" imzası ilə "Balaca mütəfərriqələr" başlığı altında felyetonlar yazmış, Azərbaycanda teatr sənətinin inkişafı, aktyor nəslinin yetişməsi üçün yorulmadan fəaliyyət göstərmişdir. Daha sonra o, Bakıda Kənd təsərrüfatı texnikumunda müəllim işləmişdir.

Nəcəf bəy Vəzirov 1926-cı ilin yayında təcrübə məşğələləri aparmaq üçün tələbələrilə birlikdə Şamaxıya – Çuxuryurda getmişdir. İyul ayının 13-də orada ürək çatışmazlığından vəfat etmiş və Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

2019-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Nəcəf bəy Vəzirov Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.


Azərbaycan Milli Kitabxanasında görkəmli publisist, dramaturq Nəcəf bəy Vəzirovun 165 illiyi münasibətilə "Nəcəf bəy Vəzirov-165" adlı kitab sərgisi açılmışdır.

2021-ci ildə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasının qərarı ilə Nəcəf bəy Vəzirov haqqında müxtəlif vaxtlarda qəzet və jurnallarda dərc olunmuş məqalələr toplanıldığı "Nəcəf bəy Vəzirov – Milli irfana xidmət etmiş nadir sima" adlı kitab çap olunmuşdur.

Qılman İlkin – 110

(1914-2009)

Yazıçı



Qılman İsabala oğlu Musayev (Qılman İlkin) 1914-cü il aprel ayının 28-də Mərdəkanda anadan olmuşdur. 1926-1929-cu illərdə şəhər Pedaqoji Texnikumunda oxumuş, 1932-1936-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə Xaçmaz rayonunun Əhmədoba kəndində məktəb müəllimi kimi başlamış, 1931-1932-ci illərdə "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi, 1938-ci ildən isə "Uşaqgəncnəşr"də məsləhətçi, baş redaktor və direktor vəzifələrində çalışmışdır.

Qılman İlkin ikinci Dünya müharibəsində iştirak etmiş, keçmiş Sovet Ordusunun tərkibində Qafqaz cəbhəsində və İranda hərbi qəzetlərdə müxbir olub, Təbrizdə nəşr olunan "Vətən yolunda" adlı əsgər qəzetinin redaksiyasında çalışmışdır.

O, bədii yaradıcılıqla yanaşı 1960-1963-cü illərdə Azərbaycan Dövlət Nəşriyyatının, 1963-1967-ci illərdə "Azərbaycan" jurnalının baş redaktoru, 1967-1971-ci illərdə isə Azərbaycan Dövlət Nəşriyyatında direktor vəzifələrində çalışmışdır.

Müasir Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən olan Qılman İlkin ədəbi yaradıcılığa 1943-cü ildən etibarən başlamışdır. Onu bir nasir kimi tanıdan ilk əsər "Həyat yollarında" povestidir. O, altmış ildən artıq bir dövr ərzində çox sayda hekayə, povest və romanlar qələmə almışdır. Tarixilik, vətənpərvərlik və tərbiyəvi mövzular onun yaradıcılığında aparıcı yer tutmuşdur. Əsərləri xarici dillərdə çap edilmiş, 50-dən çox kitabı işıq üzü görmüşdür. "Sən Bakını tanıyırsanmı?", "Bakı və bakılılar", "Tovuz lələyi" kitabları kütləvi tirajla dəfələrlə nəşr olunmuşdur. Qılman İlkinin "Bakı və bakılılar" kitabında Bakı və onun qədim tarixi haqqında geniş məlumatlar var. Kitabda Bakı milyonçuları və ziyalıları, ruhanilərı, qoçuları və hambalları, Bakı mətbuatı, təhsil və maarifin səviyyəsi, xanlıqlardan tutmuş bu günümüzə qədər paytaxtın mənzərəsi ustalıqla təsvir edilib. Kitab 1998, 1999, 2006, 2022-ci illərdə çap olunmuşdur.

Qılman İlkin Lev Tolstoyun "Kazaklar", "Seçilmiş hekayələr", "Qafqaz əsiri" adlı əsərlərini tərcümə etmişdir.

Yazıçı Azərbaycanın kino salnaməsinə daxil olmuş bir neçə bədii filmin və televiziya tamaşalarının ssenari müəllifi kimi də tanınmışdır. Onun ssenariləri əsasında "Azərbaycanfilm" kinostudiyasında "Yenilməz batalyon", "Kölgələr sürünür" filmləri çəkilmişdir. "Cərrahlar", "Tayqa nağılı", "Əsgər müharibədən qayıdırdı", "Geriyə yol yoxdur", "Baba və nəvə" televiziya pyesləri uzun müddət mavi ekranda göstərilmiş, "Təzə şagird" pyesi tamaşaya qoyulmuşdur.

Qılman İlkin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı", "II dərəcəli Böyük Vətən müharibəsi" ordenləri, iki dəfə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və medallarla təltif olunmuşdur. 1967-ci ildə Dövlət mükafatı laureatı olmuş, 1989-cu ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Yazıçı 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş, 2003-cü ildə "Xalq yazıçısı" fəxri adını almışdır. Qafqaz xalqları Ali Dini Şurasının "Paklıq" mükafatına layiq görülmüşdür.

Qılman İlkin 2009-cu il noyabr ayının 6-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

8 iyul 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xalq yazıçısı Qılman İlkinin 100 illik yubileyi haqqında sərəncam imzalamışdır. Onun adına Xəzər rayonu, Mərdəkan qəsəbəsində küçə verimişdir.

Ədəbiyyat:

Bakı və bakılılar / Qılman İlkin; naşir M. Xan; red. A. Musayev; dizayner F. İlham.- [Bakı]: Mücrü.- 2022.- 455, [1] s.

Tolstoy, L. Kazaklar: [roman] / Lev Tolstoy; tərc. Qılman İlkin.- [Bakı]: [Qanun], [2019].- 191, [1] s.

Seçilmiş əsərləri: 2 cilddə / Q.İlkin; tərt. ed. A.Musayev; ön söz. Ş.Salmanov.- Bakı: Avrasiya Press, 2006.- C.1.- 232 s.; C.2.- 408 s.

Köhnə Bakını tanıyırsanmı? / Q.İlkin; red. A.İsabəyli.- Bakı: Şirvannəşr, 2004.- 116 s.

Əliyeva, A. Ədəbiyyatımızda öz naxışı olan yazıçı / Aynur Əliyeva // Mədəniyyət.- 2019.- 26 aprel.- S.6.

Türk ordusu Bakıda: xatirələr / Q.İlkin; elmi red. H.Məmmədov; red. S.Nəzərli.- Bakı: AzAtaM, 2003.- 46 s.

Abdullayeva, S. Qılman İlkin 100 illiyi ilə bağlı anılıb / S.Abdullayeva // 525-ci qəzet.- 2014.- 2 may.- S.7.

Yusifli, V. Bakı tarixi, dəniz mavisi, şimal küləyi: Qılman İlkin - 100 / Vaqif Yusifli // Azərbaycan: jurnal.- 2014.- No 3.- S.163-167.

Abdulla Qədiri – 130

(1894-1938)

Özbək yazıçısı



Abdulla Qədiri 1894-cü il aprel ayının 10-da Daşkənddə tacir ailəsində anadan olmuşdur.

O, əvvəlcə mədrəsədə, sonra isə yerli rus-özbək məktəbində təhsil almışdır. İbtidai təhsilini başa vurduqdan sonra erkən yaşlarında Daşkənddə bir mülkədarın yanında mirzəliyə başlamışdır. Türküstanda getdikcə genişlənən cədidçilik, maarifçilik hərəkatı Abdulla Qədiriyə də təsirini göstərmişdir. Cədidçilərin yolunu tutan gənc xalqını xurafatdan, gerilikdən qurtarmaq üçün qələmə əl atmışdır.

Yaradıcılığa erkən başlayan yazıçının qələmə aldığı mövzular onun real şəkildə müşahidə etdiyi hadisələrdən qaynaqlanır. Abdulla Qədirinin yaradıcılığının ilk dövrlərinin bəhrəsi olan "Millətimə", "Bizim vəziyyət" şeirləri sosial məzmunludur. Ölkənin sosial-siyasi həyatında baş verən dəyişikliklər Abdulla Qədirinin dünyagörüşündə böyük dönüş yaratmışdır. 1919-1925-ci illərdə yazdığı felyetonlarını, hekayələrini "İştirakiyyun" ("Kommunist") və "Qızıl bayraq" qəzetlərində, "İnqilab" dərgisində çap etdirmişdir. 1922-ci ildə "İnqilab" dərgisində yazıçının "Mənim atam bolşevikdir" əsəri dərc olunmuşdur. Onun 300-dən artıq publisistik məqaləsi yayınlanmışdır. Bu məqalələr dövrün sosial-siyasi həyatının salnaməsi kimi diqqəti çəkir. Hekayələrini, felyetonlarını, məqalələrini "Cul qunbay", "Dunbul", "Ciyən", "Sovrunbay", "Ovsar", "Dumbulnisə" və başqa gizli imzalarla nəşr etdirən Abdulla Qədiri alverçiləri, kəndxudaları, ikiüzlü çinovnikləri, bürokratları, qadın azadlığı əleyhinə çıxanları, maarifçiliyin düşmənlərini tənqid atəşinə tutur, xalqını yeni günə, işıqlı, aydın sabahlara çağırırdı. "Mənim tərcümeyi-halım" hekayələr silsiləsindən olan "Kalvayı Məhzum", "İnadcıl Taşpulat nədən danışır" və "Şarvon xala nədən danışır" hekayələrində yazıçı yaratdığı obrazları satirik dillə ifşa edir. Ona böyük şöhrət gətirən "Ötən günlər" adlı romanını 1922-ci ildən hissə-hissə çalışdığı "İnqilab" dərgisində dərc etdirmişdir. Abdulla Qədirinin bu əsəri ilk dəfə XX əsr Azərbaycan dilçiliyinin görkəmli simalarından olan özbək əsilli Azərbaycan dilçisi Xalid Səid Xocayev tərəfindən1928-ci ildə tərcümə olunaraq Hənəfi Zeynallının redaktorluğu ilə Azərnəşrdə çap olunmuşdur. 1928-ci ilin fevralında Abdulla Qədiri ikinci böyük əsəri olan "Mehrab əqrəbi" tarixi romanını tamamlayır və əsər bir il sonra Səmərqənddə kitab halında yayınlanmışdır.

Abdulla Qədiri Özbəkistanda nəşr olunan ilk satirik jurnalın – "Müştüm" dərgisinin banilərindən və fəal müəlliflərindən biri olmuşdur. Yazıçı 1924–1925-ci illərdə Moskvada B. Y. Bryusov adına Ali Bədii Ədəbiyyat İnstitutunda təhsilini davam etdirmişdir. Abdulla Qədiri daha sonra ərəb və fars dillərinə yiyələnmək üçün yeni üsullu mədrəsədə – müsəlman seminariyasında təhsilini davam etdirir. O, Özbəkistanın azadlığı uğrunda mübarizə aparanların sırasında yer tutmuş, gizli antisovet və antirusya təşkilatının fəallarından birinə çevrilir. 1937-ci ilin ortalarında Özbəkistanda özbək-cədid ziyalılarını, özbək ədəbiyyatı, tarix və mədəniyyət xadimlərini məhv etmək kampaniyası başlanılmışdır. Abdulla Qədiri də bu kompaniyada stalinizmin qurbanı kimi repressiyaya məruz qalmış, 1937-ci il dekabrın 31-də "xalq düşməni" kimi həbs edilmişdir. Yazıçı 1938-ci il oktyabrın 4-də qırx dörd yaşında güllələnmişdir. O, Daşkənddəki Xoca-Ələmbərdor (Kamalan) qəbiristanlığında dəfn edilmişdir.

Abdulla Qədiri ölümündən sonra Əlişir Nəvai adına Özbəkistan Respublikasının Dövlət Mükafatına (1991) layiq göyülmüş, Özbəkistan Prezidentinin fərmanı ilə "Müstəqillik" ordeni ilə təltif edilmişdir. Abdulla Qadiri adına Özbəkistan Respublikasının Dövlət Mükafatı təsis edilmişdir. Daşkənd Dövlət Mədəniyyət İnstitutu, Daşkənddəki mədəniyyət və istirahət parkı, Daşkəndin mərkəzi küçələrindən və metro stansiyalarından biri, respublikanın müxtəlif şəhərlərinin küçələri, bir çox mədəniyyət ocaqları onun adını daşıyır.

Ədəbiyyat:

ABDULLA QƏDİRİ: müasir özbək ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan sənətkar [Mətn]: 1-ci yazı /E.Quliyev//Xalq Cəbhəsi.-2019.- 7 may .- S.14.

Ötən günlər [Mətn] : roman /A. Qədiri ; tərc. ed. İ. İbrahimov ; [red. G. Həsənzadə]. Bakı: Uşaqgəncnəşr, 1960.- 386 s.

Mehrab əqrəbi [Mətn] : Xudayarxan və Mirzələrinin həyatından tarixi roman /A. Qədiri ; [tərc. ed. Y. Məmmədov ; red. Ş. Mirbağırova] Bakı: Gənclik, 1970.-263 s.

İnternetdə

https://az.wikipedia.org/wiki/Abdulla_Q%C9%99diri

Abdulla Babayev – 100

(1924-2015)

Müğənni



Abdulla Murtuz oğlu Babayev 1924-cü il aprel ayının 1-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Tumbul kəndində anadan olmuşdur.

O, 1941-ci ildə orta məktəbi bitirdikdən sonra 1959-cu ilə qədər Naxçıvan dəmiryol sahəsində müxtəlif vəzifələrdə çalışmışdır.

Atası Murtuz Babayevin hərdən bir evdə zümzümə etməsi, toylarda oxuması balaca Abdullanın da körpə qəlbini riqqətə gətirmişdir. Elə sonralar onun müğənni olmasında atasının böyük rolu olmuşdur.

Abdulla Babayev 1959-2011-ci illərdə Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblının solisti kimi fəaliyyət göstərmişdir. O, öz repertuarını daim zənginləşdirmiş, Azərbaycan muğamlarının, xalq və bəstəkar mahnılarının mahir ifaçısı kimi böyük tamaşaçı rəğbəti qazanmışdır.

Repertuarına "Qatar", "Zabul-Segah" muğamları, təsniflər, xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları və s. daxildir. Onun ifasında səslənən "Naxçıvan", "O Naxçvandır", "Təki sən səslə məni", "Dəli ceyran", "Yaxan düymələ", "Almanı atdım xarala", "Qoy gülüm gəlsin", " İrəvanda xal qalmadı", "Tel nazik" mahnıları bu gün də sevilə-sevilə dinlənilir.

Naxçıvan Dövlət Filarmoniyasının solisti kimi çox yerlər, şəhərlər gəzən Xalq artisti ömrünün 45 ilini səfərlərdə keçirtmişdir. Xarici ölkələrdə də Azərbaycan muğamlarını, el havalarını, bəstəkar mahnılarını təbliğ və tərənnüm etmişdir. Rusiya, Qazaxıstan, Özbəkistan, Tacikistan, Gürcüstan, Türkiyə və s. ölkələrdə qastrol səfərlərində olmuş, Azərbaycan musiqisinin təbliği və yaşadılması istiqamətində mühüm xidmətlər göstərmişdir.

Abdulla Babayevin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1970-ci ildə Naxçıvan Muxtar Respublikasının "Əməkdar artist", 1998-ci ildə isə Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 1996-cı ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2002-ci ildən Prezident təqaüdçüsü idi.

Abdulla Murtuz oğlu Babayev 2015-ci il mart ayının 10-da vəfat etmişdir.

Ə d ə b i y y a t :

Babayev Abdulla Murtuz oğlu // Naxçıvan Ensiklopediyası / AMEA; red. hey. C.Ə.Əliyev, A.A.Əlizadə, İ.Ə.Həbibbəyli [və b.].- Bakı: AMEA, 2002.- S.52.

Qarabağ xanəndələri [Elektron resurs] / Layihənin rəhbəri və müəllifi: YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva; Layihənin koordinatoru: T. Məmmədov; Layihənin iştirakçıları: Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkəti; Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi; Azərbaycan Dövlət Səsyazmalar Arxivi.- CD-ROM.- Bakı, 2005.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Abdulla_Babayev

https://nuhcixan.az/news/cemiyyet/34542-esl-seneti-benna-olan-oz-elciliyine-ozu-geden-o-naxcivandirin-evezsiz-ifacisi-abdulla-babayev

Asəf Zeynallı – 115

(1909-1932)

Bəstəkar



Ə d ə b i y y a t :

Xankişiyeva, Ş. 23 il yaşadı...: Son əsərini xəstəxana divarına yazdı / Şahanə Xankişiyeva // Yeni Azərbaycan.- 2023.- 5 aprel.- S.8.

Dünyamalıyeva, R. Asəf Zeynallı yaradıcılığında muniatür janrının formalaşması və bu janrın ilk nümunələri / Ruhiyyə Dünyamalıyeva // Axtarışlar: (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) / AMEA, Naxçıvan bölməsi.- 2021.- C.15, №03.- S. 157-160.

Muğamsayağı [Notlar] : Violino (yaxud viola) və fortepiano üçün /A. Zeynallı. - Bakı: [n. y.], 2022. - 6, [2] s

Asəf Zeynallı: Anadan olmasının 100 illiyinə həsr olunur: dərs vəsaiti / N.Kazımov; elmi red G.Abdullazadə; rəy. A.Məlikov, V.Əbdülqasımov; Azərb. Respub. Təhsil Nazirliyi, Azərb. Milli Konservatoriyası.- Bakı: Elm və Təhsil, 2009.- 108, [4] s.

Hüseynov, M. Asəf Zeynallı:musiqiyə həsr olunmuş ömür / M.Hüseynov.- Bakı: Nur, 2011.- 133 s.

Asəf Zeynalabdin oğlu Zeynallı 1909-cu il aprel ayının 5-də Dərbənd şəhərində anadan olmuşdur. İbtidai təhsilini Dərbənd realnı məktəbində almışdır. 1920-ci ildə ailəsi ilə birgə Bakıya köçmüşdür. 1926-cı ildə konservatoriyaya daxil olmuş, əvvəlcə orkestr fakültəsində oxumuş, sonra isə bəstəkarlıq fakültəsinə keçmişdir. Onun müəllimləri Ü.Hacıbəyli, L.P.Yablonko, V.V.Karagiçev olmuşdur. Konservatoriyada təhsil aldığı illərdə fortepiano üçün "Çahargah", "Durna", skripka üçün "Muğamsayağı" pyesini, xalq mahnısı əsasında iki violençel və fortepiano üçün "İki fuqa" əsərini yazmışdır.

XX əsrin 20-ci illərinin sonlarında o, Azərbaycan "Tənqid-təbliğ" Teatrının Musiqi şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. XX əsrin 20-30-cu illərində Zeynallı ən məşhur əsərlərini - "Ölkəm", "Sual", "Seyran", "Çadra", "Sərhədçi" romanslarını yazmışdır. 1930-cu illərin əvvəlində o, konservatoriyanın Yaradıcılıq bölməsinə rəhbərlik etmiş, Azərbaycan Proletar Musiqiçiləri İttifaqının (APMİ) başçısı olmuşdur. O, C.Cabbarlının "Sevil", Yanovskinin "Qəzəb", Kirşonun "Şimal küləyi", C.Xəndanın "Gizli əl", Ə.B.Hamidin "Hind qızı", S.Rüstəm və H.Nəzərlinin "Yanğın" və s. pyeslərinə musiqi yazmışdır. 1931-ci ildə Leninqrada (indki Sankt-Peterburq) gedib orada Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil etmiş və konsert zamanı Azərbaycan musiqisi haqqında məruzələrlə çıxış etmişdir. İlk milli fortepiano musiqi əsərlərinin meydana çıxmasında onun müstəsna xidməti olmuşdur.

İlk dəfə milli folklor yaradıcılığından əməli şəkildə istifadə edərək klassik Avropa fortepiano musiqisinin ənənələri ilə Azərbaycan xalq musiqisinin səciyyəvi cəhətlərini birləşdirmişdir. Asəf Zeynallı Azərbaycan musiqi mədəniyyəti tarixində bir sıra yeni janrın (milli romans və s.) yaradıcısı kimi tanınmış, simfonik, kamera, vokal və instrumental əsərlər bəstələmişdir.

Bəstəkarlardan: Q.Qarayev, S.Hacıyev, T.Quliyev, Z.Bağırov onun sinfində oxumuşlar. Asəf Zeynallı "İbtidai not savadı" dərsliyinin müəlliflərindəndir.

Fortepiano yaradıcılığında ən maraqlı əsərlərdən biri 6 pyesdən - "Kuklaların marşı", "Uşaq və buz", "Oyun", "Rəqs", "Qoyunlar", "Mübahisə"dən ibarət "Uşaq süitası"dır. O, bu pyesləri ilə Azərbaycanda uşaq fortepiano miniatürünün əsasını qoymuşdur.

Xalq musiqisinin toplanması, nota köçürülməsi və işlənməsi sahəsində də faydalı işlər aparmış, 50 xalq mahnısını nota almışdır. Bəstəkar "Sarı gəlin", "Səndən mənə yar olmaz", "O qara qaşlar" və digər xalq mahnıları üzərində işləyib, nota salmışdır. Onun kamera musiqisi üçün "Lay-lay", "Günlər" pyesi, "Çahargah", "Durna", "Muğamsayağı" əsərləri yazmışdır. "Fraqmentlər" süitası Azərbaycan musiqisində ilk simfonik əsərdir.

Görkəmli bəstəkar Asəf Zeynallı 1932-ci il oktyabr ayının 27-də Bakıda vəfat etmişdir.

1953-cü il dekabr ayının 31-də Bakı Orta İxtisas Musiqi Məktəbinə (indiki Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Kolleci) və paytaxt küçələrindən birinə Asəf Zeynallının adı verilmişdir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxana tərəfindən "Milli musiqi xəzinəmizdən: Azərbaycan Milli Kitabxanasının fondundan" layihəsində Asəf Zeynallının "Laylay" (2022), "Muğamsayağı" (2022), "Fortepiano üçün əsərlər" (2021) adlı not məcmuələri təkrar nəşr edilmişdir (layihənin rəhbəri Kərim Tahirov).

Teymur Mustafayev – 85

(1939-2020)

Xanəndə



Mustafayev Teymur Ağaxan oğlu 10 aprel 1939-cu ildə Astraxanbazar (Cəlilabad) rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Musiqi Məktəbində təhsil almışdır. Sənət müəllimləri Seyid Şuşinski, Əhməd Bakıxanov olmuşdur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsilini davam etdirmişdir. 1964-cü ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur.

Teymur Mustafayev əmək fəaliyyətinə 1959-cu ildə başlayıb və 60 il ərzində Azərbaycan Dövlət Filarmoniyasında, "Azkonsert" Birliyində, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində müğənni kimi öz sənəti ilə xalqa xidmət etmişdir.

Teymur Mustafayev Azərbaycan musiqi sənətini dünyanın müxtəlif ölkələrində - Rusiya, Gürcüstan, Ukrayna, Özbəkistan, Türkiyə, İran, Almaniya, Avstriya, Meksika, Hindistan, Pakistan, Əfqanıstan, İordaniya, Misirdə məharətlə təqdim etməklə, onu dinləyicilərə sevdirmişdir. Onun ifa etdiyi xalq və bəstəkar mahnıları, təsniflər Azərbaycan milli televiziya və radiomuzun qızıl fondunda qorunub saxlanılır. O, ömrünün son günlərinədək yaradıcılığını davam etdirmişdir. Konsert fəaliyyəti ilə yanaşı Teymur Mustafayev bir çox televiziya müsabiqələrinin münsiflər heyətinin üzvü kimi gənc ifaçılara öz dəyərli tövsiyələrini vermişdir.

Teymur Mustafayev "Teymur əmi" (2002), "Muğanın Sarvanı" (2002), "Bitməyən ömür" (2013) filmlərində iştirak etmişdir.

Görkəmli sənətkar 1982-ci ildə milli mədəniyyətimizin inkişafında uğurlarına görə "Əməkdar artist", 2005-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür, Prezident təqaüdçüsü olmuşdur.

Mustafayev Teymur Ağaxan oğlu 11 iyun 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t :

Əhməd. Teymur əmi 80 yaşında: "Əmi canı, qəti qorxusu yoxdur" / Əhməd // Cümhuriyyət.- 2019.- 11-13 may.- S.14.

Çobanoğlu, F. Gedin deyin xan çobana...: [xalq artisti Teymur Mustafayev haqqında] / Fariz Çobanoğlu // Ədalət.- 2017.- 18 oktyabr.- S.7.

Həsənov, A. Musiqili ömrün zirvəsi: Ömrünün yatım əsrrindən çoxunu qoca Şərqin nadir musiqi incilərinə həsr etmiş muğam ustası Teymur Mustafayevin 70 yaşı qeyd edildi / Aydın Həsənov // Səs.- 2009.- 17 aprel.- S. 16.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Teymur_Mustafayev


https://metbuat.az/melumat/taninmis/104/teymur-mustafayev.html

APREL
10

Arif Mirzəyev – 80

(1944)

Bəstəkar, pianoçu



Arif Abdulla oğlu Mirzəyev 1944-cü il aprel ayının 10-da Bakı şəhərində anadan olmuşdur.

Altı yaşında Bakı Konservatoriyasının nəzdində istedadlı uşaqlar üçün məktəbin şagirdi olan A.Mirzəyev, yeddinci sinifdən sonra bir çox görkəmli bəstəkarların təhsil aldığı Asəf Zeynallı adına Musiqi Məktəbinə daxil olmuşdur.

A.Mirzəyev bəstəkarlıq sənətinə Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında görkəmli bəstəkar Qara Qarayevin sinfində yiyələnib. P.İ.Çaykovski adına Moskva Konservatoriyasında N.Malinanın rəhbərliyi altında orqan sənətinin nəzəriyyəsi və tarixinə dair, habelə bu alətin ifası üzrə S.Dijurun yanında iki dəfə staj keçib. O, yaradıcılığını pedaqoji fəaliyyətlə birləşdirmişdir

Müasir Azərbaycan dini-memorial orqan və polifoniya musiqisinin banisi olan bəstəkar ölkəmizdə müasir musiqinin polistilistikası üzrə yeganə ustaddır. İ.S.Baxın musiqisi sahəsində ixtisaslaşmış A.Mirzəyev onun yaradıcılığının təbliğatçısı kimi həm də Robin Lenqli adına Orqan kitabxanasının donatorlarından biridir.

Moskvada yaşadığı illərdərində ən böyük əsərlərini – "İ.S.Baxın xatirəsinə orqan simfoniyasını, "Yanvar mərsiyələri", "Xocalı uşaqlarına layla", orqan üçün "Şahzadə Dianaya sarabanda", ABŞ-dakı 11 sentyabr faciəsinə həsr edilmiş kamera orkestri və iki solist üçün "Nyu-York mərsiyələri–2001" və s. ərsəyə gətirib.

Bəstəkara şöhrət gətirən daha bir əsəri əsəri 1984-cü ildə yaratdığı məşhur "İ.S.Baxın xatirəsinə orqan simfoniyası" olub. Dahi alman bəstəkarının 300 illiyinə "ornamental-muğam, xoral və polifonik variasiyalar" formasında bəstələnmiş bu simfoniya son 20 il ərzində dünyanın müxtəlif ölkələrində rekord sayda səsləndirilmişdir.

A.Mirzəyevin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi "Dahi Prezidentin ruhuna kədərli dua" əsəri on il əvvəl D.Şostakoviç adına Sankt-Peterburq Filarmoniyasında bəstəkarın 65 illiyinə həsr edilmiş orqan musiqisi axşamında ifa olunmuşdur.

2015-ci ildə Qəbələ Beynəlxalq Musiqi Festivalının açılışında simfonik orkestr bəstəkarın Azərbaycan Prezidenti İlham Əliyevin 50 illiyinə həsr etdiyi "İlhamnamə-50" himnini ifa edilmişdir

Bəstəkar, həmçinin çoxlu sayda kamera-instrumental, vokal və caz musiqisinin müəllifidir.

Almaniyada "Şərqin Sebastyan Baxı" adlandırılan maestro 1994-cü ildə "Bax-hauz" medalı ilə təltif edilib.

Almaniyada "İohann Sebastyan Baxın varisləri" beynəlxalq medalına layiq görülən ilk Azərbaycan bəstəkarıdır O, dünyada alman bəstəkarı Baxın musiqiləri üzrə mütəxəssis sayılır.

Arif Abdulla oğlu Mirzəyev 2011-ci il iyul ayının 4-də "Əməkdar Artist" fəxri adına layiq görülmüşdür.

Hazırda Almaniyada yaşayır.

Ədəbiyyat:

Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət pyeslər məcmuəsi [Notlar] : Kamança ilə fortepiano üçün işləmə və köçürmələr : Ali və və orta ixtisas musiqi məktəblərinin tələbələri üçün dərs vəsaiti /Z. Məmmədova, S. Məlikova ; elmi red. Ş. Eyvazova ; [ön söz R. Quliyev ; naşir C. Əliyev] ; Azərb. Resp. Təhsil Nazirliyi, Sumqayıt Musiqi Kolleci. - Bakı: [Ecoprint], 2019. - 176, [1] s.

"Ən böyük arzum torpaqlarımızın erməni işğalından azadlığını görməkdir" Almaniyada yaşayan azərbaycanlı bəstəkar Arif Mirzəyev / Vəsilə Vahidqızı; Almaniya Federativ Respublikası // Mədəniyyət.az.- 2019.- Mart-Aprel.- S. 108-109.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Arif_Mirz%C9%99yev

https://azertag.az/xeber/taninmis_bestekar_arif_mirzeyev_yubileyini_qeyd_edir-1268068

Seyid Şuşinski - 135

(1889-1965)

Xanəndə



Mir Möhsün ağa Seyid İbrahim oğlu Şuşinski (Seyid Şuşinski) 1889-cu il aprel ayının 12-də Şuşa qəzasının Horadiz kəndində (indiki Füzuli rayonu) anadan olmuşdur. Gənc Seyid ilk təhsilini Horadiz mədrəsəsində almış, oranı bitirdikdən sonra dərzilik sənəti ilə məşğul olmuşdur. Lakin buna baxmayaraq, hərdən dini mərasimlərdə və xalq şənliklərində muğamlar ifa etmişdir.

Seyidin peşəkar bir xanəndə kimi yetişməsində Azərbaycanda xanəndəlik sənətinin beşiyi olan Qarabağın və dahi xanəndə Cabbar Qaryağdıoğlunun çox böyük təsiri olmuşdur. Böyük sənətkar şuşalılar qarşısında ilk dəfə olaraq 1908-ci ildə çıxış etmişdir. Seyid Şuşinski həm də istedadlı bir səhnə ustası idi. 1916-1919-cu illərdə Bakıda, Şuşada, Tiflisdə, Vladiqafqazda, Batumda, Mahaçqalada və Dərbənddə səhnəyə qoyulan opera tamaşalarında müvəffəqiyyətlə çıxış etmişdir. O, 1916-cı ilin əvvəllərində Bakıda Cəlil Məmmədquluzadənin eyniadlı pyesi əsasında səhnələşdirilmiş "Ölülər" tamaşasının fasilələrində oxumuş, bununla da Bakı şəhərində ilk çıxışı ilə böyük şöhrət qazanmışdır.

Tiflis Azərbaycan Teatrında Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında İbn Salam, "Arşın mal alan" operettasında Əsgər, "O olmasın, bu olsun" operettasında Sərvər rollarında səhnəyə çıxmış və tamaşaçılar tərəfindən razılıqla qarşılanmışdır. Hətta S.Şuşinski 1924-1926-cı illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti olmuşdur. O, teatr tamaşalarında bir çox rollarda çıxış etməklə, səhnə sənətinin inkişafına böyük kömək göstərmişdir.

1926-cı ildə Bakı şəhərində "Böyük Şərq konserti" təşkil edilmişdir. Bu konsertdə Cabbar Qaryağdıoğlu, Bülbül, Əli Zülalov, Qurban Pirimov, Saşa Oqanezaşvili, Eloğlu İsmayıl ilə birlikdə Seyid Şuşinski də çıxış etmiş, "Mahur" və "Mani" muğamlarını böyük məharətlə ifa etmişdir.

Azərbaycan musiqisinin və xalq mahnılarının təbliği sahəsində Seyid Şuşinskinin xidməti böyükdür. Onun 1933-cü ildə təşkil etdiyi "Şərq musiqi ansamblı" ilə keçmiş SSRİ -nin müxtəlif şəhərlərində verdikləri konsertlər alqışlarla qarşılanmışdır. S.Şuşinski klassik, Şərq və Azərbaycan muğamlarının incəliklərinə dərindən bələd olan xanəndə idi. Onun gözəl və şaqraq zəngulələri (burunda və dişdə oxumaq) və uzun nəfəsləri dinləyiciləri valeh etmişdir. Üzeyir Hacıbəyov Seyid Şuşinskini nadir və istedadlı xanəndə adlandırmışdır.

Seyid Şuşinski yenilik axtaran sənətkar idi. O, bir çox muğamlara yeni guşələr, xallar, nəfəslər, hətta hissələr əlavə etmişdir. "Rast" və "Kürdü-Şahnaz" muğamlarının "Dilkeş" hissəsini dinləyicilərinə ilk dəfə çatdıran Seyid Şuşinski olmuşdur. Böyük sənətkar həm də bir çox muğamları birləşdirib oxumuşdur, Cabbar Qaryağdıoğlunun yolunu muğamdan-muğama keçmə (modulyasiya) üsulunu öz yaradıcılığında uğurla tətbiq etmişdir.

Seyid Şuşinskinin oxuduğu "Cahargah", "Nəva", "Bayatı-İsfahan", "Hümayun", "Rast", "Mahur", "Zabul", "Kürdü-Şahnaz", "Mirzə Hüseyn segahı", "Mani", "Arazbari", "Mənsuriyyə" muğamları böyük rəğbətlə qarşılanmışdır. Böyük sənətkar həm də görkəmli pedaqoq idi. Azərbaycan xanəndələrinin böyük bir nəsli onun tələbəsi olmuşdur.

Azərbaycan musiqi mədəniyyətinin inkişafı tarixindəki xidmətlərinə görə xanəndəyə Azərbaycan SSR "Xalq artisti" (1956) fəxri adı verilmiş, "Şərəf nişanı" (1959) ordeni və bir sıra medallarla təltif edilmişdir. Böyük xanəndə Azərbaycan SSR-nin "Əməkdar müəllimi" (1943) fəxri adına da layiq görülmüşdür.

Seyid Şuşinski 1965-ci il noyabr ayının 1-də vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.

2023-cü ildə Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənlinin Xalq artisti, Əməkdar müəllim Seyid Şuşinskiyə həsr olunmuş "Şərq musiqisinin incisi" xatirələr kitabını çap etdirmişdir.

Ədəbiyyat:

Çəmənli, M. Şərq musiqisinin incisi: Xatirələr / Mutafa Çəmənli.- Bakı: Mimta Yayımları, 2023.- 200, [8] s.

Seyid Şüşinski : Qarabağın görkəmli simaları // İqtisadiyyat. -2022.- 17-23 fevral.- S.6.

Mükərrəmoğlu, M "Şuşa mədəniyyətinin inciləri": Seyid Şuşinski / M. Mükərrəmoğlu // Xalq qəzeti.-2022.- 7 sentyabr.- S.7.

Təhmirazqızı, S. Seyid Şuşinski / Səadət Təhmirazqızı; [burax. məsul S.İsmayılova; dizayner Z.Abbasov].- Bakı: Şərq-Qərb, 2017.- 143, [1] s.

Şuşinski, F. Seyid Şuşinski: monoqrafiya / F.Şuşinski; red. Q.Aslanov.- Bakı: İşıq, 1991.- 352 s.

İnternetdə:

http://www.anl.az/down/meqale/iqtisadiyyat/2022/fevral/781934(meqale).pdf

http://www.anl.az/down/meqale/xalqqazeti/2022/sentyabr/812335(meqale).pdf

Ramiz Mirişli – 90

(1934-2015)

Bəstəkar



Ramiz Aqil oğlu Mirişli 1934-cü il aprel ayının 16-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan şəhərindəki orta məktəbi bitirdikdən sonra 1952-1954-cü illərdə Asəf Zeynallı adına musiqi məktəbində oxumuşdur. O, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında 1956-1962-ci illərdə bəstəkarlıq ixtisası üzrə ali musiqi təhsili almışdır.

Əmək fəaliyyətinə 1954-cü ildən etibarən Azərbaycan Radio-informasiya İdarəsində musiqiçi kimi başlayan Ramiz Mirişli 1962-ci ilədək respublikanın müxtəlif musiqi məktəblərində müəllim işləmişdir. O, 1962-2005-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində musiqi baş redaksiyasında böyük redaktor və baş redaktor vəzifələrində çalışmış, həmçinin 1987-1995-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının bədii rəhbəri vəzifəsini tutmuşdur. 1978-1998-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsinə rəhbərlik etmişdir.

Ramiz Mirişli 1972-ci ildən indiki Bakı Musiqi Akademiyasının müəllimi, dosenti və professoru, 2005-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Konservatoriyasının professoru olmuşdur.

1964-cü ildə o, keçmiş SSRİ Bəstəkarlar İttifaqına üzv qəbul olunmuşdur. Geniş yaradıcılıq diapazonuna malik olan Ramiz Mirişli folklor və xalq musiqisindən, milli bəstəkarlıq məktəbi ənənələrindən lazımınca bəhrələnərək Azərbaycanın musiqi mədəniyyəti xəzinəsini öz əsərləri ilə daha da zənginləşdirmişdir. O, ən müxtəlif janrlara müraciət etmiş, simli kvartet, tar və simfonik orkestr üçün konsert, kamera orkestri üçün simfoniya, xalq çalğı alətləri orkestri üçün konsert və süitalar, fortepiano triosu bəstələmişdir. O, 300-dən çox mahnı və romansın müəllifidir. Bəstəkarın yaratdığı əsərlər doğma yurda məhəbbət və milli dəyərlərə ehtiram aşılamaqla gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm əhəmiyyət kəsb etmişdir.

Ramiz Mirişli Azərbaycanda ilk dəfə olaraq mahnı janrında yallı rəqs ritminə müraciət etmiş və 1964-cü ildə "Bayram axşamlarında" mahnısını yazmışdır. R. Mirişli mürəkkəb ladlarımızdan istifadə edib "Oxu tar", "Oxu bül-bül" kimi vokal əsərlərini, "Gəl qohum olaq" operettasını, 1981-ci ildə C.Məmmədovun librettosu əsasında "Qaçırılmış qız" operettasını yazmışdır. O, teatr və kino janrlarına da müraciət etmiş, respublikamızın 10-a yaxın teatrında səslənən 40-dan çox tamaşaya musiqi yazmışdır. Ramiz Mirişli C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında A.Babayevin "Alma almaya bənzər", T.Tağızadənin "Evdə kişi var", E.Qasımovun "Köhnə bərə", Ş.Əkbərovun "Səhrasız gecə" kinofilmlərinə, S.Rüstəm, Naxçıvan Muxtar Respublikası, T.Mütəllibov haqqında filmlərə, "Bacarıqlı əllər" adlanan sənədli filmə, "Tıq-tıq xanım", "Dost axtarıram", "Kirpi və alma" və s. cizgi filmlərinə musiqi bəstələmişdir. Nizami Gəncəvinin qəzəlinə solist, xor və simfonik orkestr üçün "Peyğəmbərin tərifi" (1997) vokal poemasını yazmış, "Qəzəlxan" bədii filminə musiqi bəstələmişdir.

Musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə Ramiz Mirişli 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının "Əməkdar incəsənət xadimi", 1982-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi", 1990-cı ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif edilmişdir. Prezident təqaüdçüsü idi.

Görkəmli bəstəkar 2015-ci il aprel ayının 17-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Sənətdə keçən ömür / Ramiz Mirişli; müsahibəni apardı: Vahid, Təranə.- Mədəniyyət.- 2012.- 13 aprel.- S. 10.

Kamançа məktəbi: dərs vəsaiti / R.Mirişli, N.Mirişli; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirlyi.- Bakı: Elm və təhsil, 2009.- 202, [6] s.

Ramiz Mirişli: Mahnılarıma qonorar almamışam:Azərbaycanın Xalq artisti, bəstəkar Ramiz Mirişlinin APA-ya müsahibəsi / Ramiz Mirişli // İki sahil.- 2014.- 23 aprel.- S.20.

Mirməmməd, G."Zamanın səsi" ilə başlayan yubiley təntənəsi / G.Mirməmməd // Mədəniyyət.- 2019.- 8 may.- S.3.

Qulamova, J. Ömrün kamillik zirvəsində / Jalə Qulamova // Mədəniyyət.- 2009.- 10 aprel .- S. 5.

İnternetdə:

http://www.anl.az/down/meqale/yeni_az/2023/fevral/836524(meqale).pdf

Salman Qəmbərov - 65

(1959)

Caz bəstəkarı



Salman Hüseyn oğlu Qəmbərov 1959-cu il aprel ayının 18-də Bakı şəhərində anadan olmuşdur. Musiqiyə sevgisi anası tərəfindən uşaqlıqdan aşılanmış, dörd yaşında pianoda ən mürəkkəb klassik kompozisiyaları ifa etmişdir. S, Qənbərov Bülbül adına orta ixtisas musiqi məktəbində oxuyarkən qeyri-adi ifaçılığı və musiqiyə xüsusi yanaşması ilə seçilmişdir.

1978-1983-cü illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında nəzəriyyəçi-musiqişünas, 1986-1990-cı illərdə (prof. İ.Hacıbəyovun sinfi) bəstəkar ixtisaslarını bitirmişdir. Bəstəkar kimi ilk əsəri "Fortepiano üçün variasiyalar" 1987-ci ildə Moskvada keçirilən Ümumittifaq Bəstəkarlarının Müsabiqəsində birinci mükafata layiq görülmüşdür.

Salman Qəmbərov tələbə ikən müstəqil və ciddi şəkildə cazla məşğul olmuş, cazın müxtəlif üslubları üzrə ustalığını fəal şəkildə təkmilləşdirməyə başlamışdır. Salman Qəmbərovun caz sənətində yaradıcılığı Vaqif Mustafazadə və Rafiq Babayevdən sonra 3-cü yoldur.

1996-cı ildə "Bakustic Jazz" qrupunu yaratmış, 1999-cu ildə Almaniyada "Oriyental jazz Festiva"ına qatılmışdır. Folk-caza olan həvəsi "Lətif" səssiz filmi üçün yazdığı saundtrekdə, həmçinin 2000-ci ildə Londonda musiqisi "The Premises" studiyasında lentə alınan "Şərq, yoxsa Qərb?" layihəsində daha aydın görünür.

Görkəmli bəstəkar Salman Qəmbərov "Simfoniya" (1990), Simli kvartet üçün Dilogiya (1991), Skripka və piano üçün "Buta" instrumental fantaziyası (1992), Səs, nağara və piano üçün "Şərq ya Qərb" süitası (2000) və s. əsərlərin müəllifidir. "Ailəvi week-end" (1993), "Otello" (1998), və "Lətif" teatr tamaşalarına musiqi bəstələmişdir. "Ərazi" (2005, qısametrajlı bədii film), bəstəkar "Neftlə çəkilmiş portret" (2010, qısametrajlı sənədli film), bəstəkar "İşıq şəhəri" (2012, tammetrajlı sənədli film), bəstəkar, musiqi ifaçısı (royal) Vulkanın nəfəsi (2014, qısametrajlı sənədli film), bəstəkar "Qırmızı bağ" (2015, tammetrajlı bədii film), bəstəkar "Daşın yaddaşı" (2016, qısametrajlı sənədli film) və s. sənədli filmlərin musiqisi Salman Qəmbərova aiddir.

2015-ci ildə "Piano-Piano" beynəlxalq festivalının bədii rəhbəri Benjamin Taubkinin dəvəti ilə Argentinanın paytaxtı Boenos-Ayresdə keçirilən festivalda iştirak etmiş, 2016-cı il may ayında "Jaba" caz qrupunun dəvəti ilə Macarıstanda keçirilən "Budapeşt Jazz Club"da konsert proqramı ilə çıxış etmiş, 2016-cı ildə Almaniya və Niderland şəhərlərində keçirilən "Bütün Şərq ölkələrindən ulduzlar" adlı konsert proqramında, 2019-cu ildə Almaniyanın Osnabrük şəhərində keçirilən Morgenland festivalında, Almaniyanın Köln və Darmştadt şəhərlərində təşkil edilən "Jazz meets world" adlı konsertdə çıxış etmiş, "Eorasiyans Unity" ansamblında milli musiqilərimizlə yanaşı, dünya bəstəkarlarının əsərlərini də səsləndirmişdir.

Salman Qəmbərov "Müasir Musiqi Festivalı" (Azərbaycan), "Caz karnaval" (Odessa),"İmprovizasiyalı karusel" (Ukrayna), Caspian jazz and Blues Festival (Azərbaycan), "Bakı internasional Jazz Festival" (Azərbaycan), Vaqif Mustafazadə adına Moskva Festivalı (Rusiya) və s. festivallarda iştirak etmişdir.

Salman Qəmbərovun 2009-cu ildə 50 illik yubileyi, 2019-cu ildə 60 illik yubileyi qeyd edilmiş, R.Behbudov adına Dövlət Mahnı Teatrında "Cazın yazı" adlı gecə keçirilmişdir.

Salman Hüseyn oğlu Qəmbərov 16 sentyabr 2006-cı ildə "Əməkdar artist", 27 may 2018-ci ildə "Xalq artist"i fəxri adlarına, 2018, 2019, 2020 və 2021-ci illərdə Prezident Mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Qəmbərov, Salman Hüseyn oğlu //Azərbaycanın pianoçalanları: Müsəlman Şərqində Birincilər /A. F. Babayeva-Tağıyeva. – Bakı, 2021. – S.41–43.

Azəri, L. "Cazın yazı": Xalq artisti Salman Qəmbərovun 60 illik yubiley gecəsi: [Dövlət Mahnı Teatrında yubiley tədbirinin keçirilməsi haqqında] / Lalə Azəri // Mədəniyyət.–2019.– 17 may– S.4.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Salman_Qəmnərov


https://azlogos.eu/salman-qəmbərov-morgenland-festivalinda/

APREL
17

Zülfüqar Hacıbəyli – 140

(1884-1950)

Bəstəkar



Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyli 1884-cü il aprel ayının 17-də Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini doğma şəhəri Şuşada almışdır.

Azərbaycanda musiqi teatrının təşkilində fəal iştirak etmiş, Azərbaycan Musiqili Komediya Teatrının banilərindən biri, musiqi teatrımızın tərəqqisində böyük xidmətləri olmuş Zülfüqar Hacıbəyli ilk Azərbaycan operettası - "50 yaşında cavan"ın (1910) müəllifidir. Bu Azərbaycan səhnəsində məzhəkə janrının ilk nümunəsi sayılır. Mətni də, musiqisi də Zülfüqar Hacıbəyliyə məxsus olan bu əsərin ilk tamaşası 1911-ci il aprel ayında Tiflisdə Gürcü Zadəganları Teatrında olmuşdur. Sonralar tamaşa Naxçıvanda, İrəvanda, Bakıda, Şuşada göstərilmişdir.

Zülfüqar Hacıbəylinin "On bir yaşlı arvad" (1911), "Evliykən subay" (1911) musiqili komediyaları, "Aşıq Qərib" (1915) operası ona böyük şöhrət gətirmişdir. Azərbaycan bəstəkarlarının yaradıcılığına yeni bir cərəyan gətirən, ilk Azərbaycan operasından 7 il sonra yazılmış "Aşıq Qərib" operasında xalq rəvayətinin obrazlarına musiqi təcəssümünü ilk dəfə Zülfüqar Hacıbəyli vermişdir. O, 1932-ci ildə "Kölə qadınların rəqsi" adlı simfonik pyes bəstələmiş, Niyazi ilə birgə ilk səsli Azərbaycan bədii filmlərindən olan "Almaz" (film, 1936) filminə musiqi yazmışdır.

Zülfüqar Hacıbəyli yaradıcılığının əhəmiyyəti həm də qədim Azərbaycan musiqi ənənələrinin yenilənmə, zənginləşmə və inkişafı prosesini sürətləndirməsində olmuşdur. Onun fortepiano ilə simfonik orkestr üçün yazdığı "Azərbaycan qadınının rəqsi", bəstəkar Zakir Bağırovla birgə işlədiyi son əsəri olan "Kantata" uzun illər ictimai zövq meyarı kimi səsləndirilmişdir.

Musiqi sənətinin bir çox janrlarına müraciət etməsi bu sahədə yeni janrların yaranmasına rəvac vermişdir. O, XX əsrin 20-ci, 30-cu illərinin məşhur mahnıları olan "Kənd qızı", "Çoban qız", "Əsgər nəğməsi" kimi ilk bəstəkar mahnılarının da müəllifidir.

Bəstəkarın şəxsi arxivində "Onda elə, indi belə", "Yarış", "Evlənirəm", "Mən ağlaram, o gülər" və s. adlı operettalarının librettoları, "Üç aşiq və ya Məlikməmməd" adlı fantastik süjetə malik bir opera və musiqi eskizləri saxlanılır.

Bəstəkarın arxivində onun Nizaminin "İsgəndərnamə" poemasının motivləri əsasında Abdulla Şaiqin librettosuna, "Nüşabə" operasına aid çoxlu materiallar qalmışdır. Külli miqdarda musiqi materialları, yarımçıq qalmış işlər göstərir ki, bəstəkar ömrünün sonlarında belə maraqlı və geniş yaradıcılıq planları ilə yaşamışdır.

Görkəmli bəstəkar Zülfüqar Hacıbəyli 1943-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, 1944-cü ildə "Qafqazın müdafiəsi uğrunda", 1945-ci ildə "Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları ilə, 1946-cı ildə "Şərəf" nişanı ordeni ilə təltif edilmişdir.

Zülfüqar Hacıbəyli 1950-ci il sentyabr ayının 30-da vəfat etmişdir.

Ədəbiyyat:

Nəsirova, F. Zülfüqar Hacıbəyov folklorçu kimi / F.Nəsirova // Musiqi dünyası.- № 1/62.- 2015.- S.78-80.

Zülfüqar Hacıbəyov // Azərbaycan musiqi tarixi / AMEA, Memarlıq və İncəsənət İn-tu; layihə. rəhb. və elmi red. Z.Səfərova.- Cild 2.- Bakı, 2017.- S.238-285

Vahid, M. Hacıbəylilər / M.Vahid // Ədəbiyyat qəzeti.-2023.- 4 mart.- S.12.

Fərəcova, Z. İlk Azərbaycan operettasının müəllifi: Musiqi xadimlərimiz / Z. Fərəcova // Azərbaycan.-2021.- 3 sentyabr.- S.7.

İnternetdə


http://www.anl.az/down/meqale/edebiyyat/2023/mart/839709.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2021/sentyabr/754140(meqale).pdf

Tofiq İsmayılov - 85

(1939-2016)

Kinodramaturq, nasir



Tofiq Hüseyn oğlu İsmayılov 1939-cu il aprel ayının 6-da Bakı şəhərində anadan olmuşdur. M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq (1958-1962) və rejissorluq (1962-1968) fakültəsində, Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Ali rejissorluq və ssenari kurslarında (1968-1970) təhsil almışdır.

Əmək fəaliyyətinə orta məktəbdə oxuyarkən Gənc Tamaçılar Teatrında aktyorluqdan başlayıb. 1960-cı ildə Radio və Televiziya Verilişləri Komitəsində rejissor, 1967-ci ildə "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rejissor vəzifəsində işləmişdir. 1971-ci ildən M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rejissorluq kafedrasında çalışmış, 1988-1994-cü illərdə ADMİU-nun Bədii kino və televiziya rejissoru kafedrasına rəhbərlik etmişdir. 1992-ci ildə professor elmi adını almışdır.

1994-cü ildən Türkiyənin Memar Sinan adına Gözəl Sənətlər Universitetinin professoru, eyni zamanda İstanbul Böyükşəhər Bələdiyyəsində mədəniyyət işləri üzrə müşavir olmuşdur. Uzun illər ərzində türk dünyasının kino festivallarının, ədəbiyyata, opera sənətinə dair konsertlərin təşkilində yaxından iştirak etmişdir. Türkiyənin qəzet və jurnallarında 50-yə yaxın elmi-publisistik məqalə dərc etdirmiş, 18 seriyalı "Əfv et məni, hocam" telefilmində çəkilmiş, qırğız yazıçısı Ç.Aytmatovun "Əsrə bərabər gün" romanı əsasında "Manqurt" və qazax şairi M.Şahanovun "Çingiz xanın sirri" mənzum romanı əsasında eyniadlı tamaşanı İstanbul bələdiyyə teatrının sifarişi ilə səhnələşdirmiş, üçcildlik "Türk cümhuriyyətlərinin sinema tarixi" kitabını yazmışdır. 2007-ci ildən ADMİU-da dərs demişdir.

Tofiq İsmayılov50 illik rejissorluq fəaliyyəti dövründə 25 tam, 6 qısametrajlı, onlarla sənədli filmlər çəkmişdir. Azərbaycan kino sənətində özünəməxsus yer tutan "Ananın çırağı" (1970), "Oxuyur Müslüm Maqomayev" (1971), "Bizim məhəllənin oğlanları" (1973), "Mən mahnı bəstələyirəm" (1978), "Əzablı yollarla" (1982), iki seriyalı "Fövqəladə vəziyyət" (1985), "Yay günlərinin xəzan yarpağı" (1987), "Sürəyya" (1989), "Son tamaşa" (1990), "Maestro", "Gəl" kimi filmlərin müəllifidir.

Sənədli və elmi-kütləvi filmlər sahəsində də, rəqqasə Əminə Dilbazi haqqında "Prima", bəstəkar T.Quliyev haqqında E.Quliyevlə birgə çəkdiyi "Nəğməli ömür" (Özüm və zaman haqqında, 1992), "Sənətkarlarımızın portreti" silsiləsindən G.Həsənova, X.Mirzəzadə, M.C. Ruminin 800 illiyi şərəfinə YUNESKO-nun keçirdiyi yubiley ərəfəsində "Gəl, Rumi" sənədli və elmi-kütləvi filmləri ərsəyə gətirmişdi.

Tofiq İsmayılov ədəbi fəaliyyətə ötən əsrin altmışıncı illərində başlamışdır. İlk hekayəsi "Ağ dəsmal"ı 1962-ci ildə yazmış, sonralar "Qonşular", "Sevincin yuxusu", "Şəkil - teatr", "Şəkil - kino", "Diş ağrısı", "Kinoya gedən pişik" adlı kitabları işıq üzü görmüşdür. Uşaqlar üçün yazılmış nağıl və hekayələrdən ibarət 5 kitabın, bir çox ssenarilərin müəllifidir. Əsərləri xarici dillərdə nəşr olunmuşdur. 1993-cü ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

2008-ci ildə "Türk xalqlarının kino sənəti" adlı monoqrafiyası çap olunmuşdur. Monoqrafiyada ilk dəfə beş türk respublikasının-Azərbaycanın, Türkmənistanın, Qazaxıstanın, Özbəkistanın kino sənətinin təşəkkülü və təkamül mərhələləri nəzərdən keçirilmişdir.

O, 1987-ci ildə "Əməkdar incəsənət xadimi", 2008-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Tofiq İsmayılov 2016-cı il mart ayının 25-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Tofiq İsmayılov: kino və həyat / məsl. N. Cəfərov (ön söz.); red. D. Osmanl.- Bakı: AzAtaM, 2014. - 410, [2] s.

Türk xalqlarının kino sənəti / Tofiq İsmayılov; [ön söz müəl. N.Cəfərov; elmi red. T.Əfəndiyev; red. D.Osmanlı]; Azərbaycanda Atatürk Mərkəzi.- Bakı: Çaşı- oğlu, 2008.- 160 s.

Aydın, D. Tofiq İsmayılov nağılları / D.Aydın // Qobustan: sənət toplusu.- 2014.- № 2.- S.41-44.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Tofiq_%C4%B0smay%C4%B1lov_(rejissor)

Qabil Mehdixanlı – 75

(1949)

Aktyor



Qabil Əzizulla oğlu Quliyev (Qabil Mehdixanlı) 1949-cu il aprel ayının 19-da Cəlilabad rayonunun Tahirli kəndində anadan olmuşdur. İlk təhsilini 8 illik kənd məktəbində, orta təhsilini Cəlilabad 1 saylı şəhər orta məktəbində almışdır. 1966-1968-ci illərdə Bakı Neft Sənayesi Məktəbində oxumuş, 1968-1972-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsində təhsil almışdır. Azərbaycanın Xalq artistləri Əliheydər Ələkbərov və professor Rza Təhmasibin sinfində oxumuşdur. Tələbəlik illərində Akademik Milli Dram Teatrının tamaşalarında kütləvi səhnələrdə və epizodik rollarda çıxış etmişdir. 1972-1973-cü illərdə Moskvada "Mosfilm" kinostudiyasının hərbiləşdirilmiş kino-bazasında hərbi xidmətdə olmuşdur. O burada kütləvi səhnələrin çəkilişlərində iştirak etmiş, kaskadyorluq sənətinin sirlərinə yiyələnmişdir. Hərbi xidmətini başa vurub vətənə qayıtmış və 1973-cü ildən N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında aktyor kimi çalışmışdır. 100-dən artıq tamaşada rol almış, bir neçə bədii filmə çəkilmişdir.

Lənkəran Dövlət Universitetində 12 il etika, estetika və kulturologiyadan dərs demişdir.

Teatrda 150-dən çox rol oynamışdır. Aktyor Frans Fok, Xan ("Xırs quldurbasan" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Divanxana mirzəsi, Əhməd ("Dələduz" və "Müsibəti Fəxrəddin", Nəcəf bəy Vəzirov), Təhmas ("Nadir Şah", Nəriman Nərimanov), Oqtay ("Oqtay Eloğlu", Cəfər Cabbarlı), Qacar, Xosrov ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Poliksen ("Qış nağılı", Uilyam Şekspir), Xirin ("Yubiley", Anton Çexov), Zemlyanik ("Müfəttiş", Nikolay Qoqol), Qoca Moor ("Qaçaqlar", Fridrix Şiller), Kamalov ("Alov", Mehdi Hüseyn), Möhsünzadə, Həsənalı, Ədalət ("Unuda bilmirəm", "Mahnı dağlarda qaldı" və "Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev), Şamxal ("Şəhərin yay günləri", Anar) və s. rollarını yaratmışdır.

"Azərbaycanfilmdə" istehsal olunmuş "Cavad xan" (Gürcü Aleksandr rolu) filminə çəkilmişdir.

Qabil Mehdixanlı 1979-cu il may ayının 2-də "Əməkdar artist", 2000-ci il oktyabr ayının 28-də "Xalq artisti" fəxri adlarına, 2012-ci ildən Prezident mükafatına layiq görülmüş, 2009-cu ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Şərəf" mükafatı ilə təltif edilmişdir. 7 may 2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

2023-cü ildə Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Xalq artistinin yaradıcılıq fəaliyyətinin 50 illiyinə həsr olunmuş "Yarım əsrlik sənət yolum" adlı tədbir keçirilmişdir.

Ə d ə b i y y a t :

Rəhimli, İ. Qabil Mehdixanlı / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə; layih. rəhb. Ə.M.Qarayev; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Cild 2.- Bakı, 2017.- S.187-188.

Babayev, A. Səhnədən deyilən söz təsirli olur: Teatrlarımız / Ağaddin Babayev // Azərbaycan.- 2017.- 10 sentyabr.- S.5.

İ n t e r n e t d ə n

https://az.wikipedia.org/wiki/Qabil_Quliyev

Rza Təhmasib - 130

(1894-1980)

Kino və teatr rejissoru



Rza Abbasqulu oğlu Təhmasib 1894-cü il aprel ayının 20-də Naxçıvanda anadan olmuşdur. İlk təhsilini 1901-1906-cı illərdə M.T.Sidqinin "Məktəbi-tərbiyə" məktəbində almış, həmin illər ərzində rus dilini mükəmməl öyrənmişdir.

Səhnədə ilk dəfə 1907-ci ildə rusca hazırlanmış N.Qoqolun "Ölü canlar"ında Çiçikov rolunda çıxış etmişdir. 1910-cu ildə Tiflis Ticarət məktəbinin dördüncü sinfinə daxil olmuş, şəhərdəki Azərbaycan teatr həvəskarları dərnəyinə üzv yazılmışdır.

1915-ci ildə işləmək üçün Bakıya göndərilmiş, müxtəlif idarə işlərində çalışmış, həm ayrı-ayrı adamlara fərdi dərs demiş, həm də "Səfa" mədəni-maarif cəmiyyətinin məktəbində müəllimlik etmişdir. 1922-1924-cü illərdə Akademik Milli Dram Teatrında direktor və bədii rəhbər olmuş, 1937-1938, 1953 və 1959-cu illərdə bu teatrda direktor işləmişdir. Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri olmuşdur. Əvvəllər Bakı Teatr Məktəbində, 1946-cı ildən ömrünün sonunadək Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs demiş, 1947-ci ildən professor elmi adı almışdır.

O, C.Cabbarlının dramlarında Aydın və Dövlət bəy ("Aydın"), Elxan və Əbu Übeyd ("Od gəlini"), Balaş ("Sevil"), Hacı Əhməd ("Almaz"), İmamyar ("Yaşar"), General-qubernator ("1905-ci ildə"), H.Cavidin faciələrində İblis və Arif ("İblis"), Şeyx Sənan ("Şeyx Sənan"), Orxan ("Topal Teymur"), Keykavus ("Səyavuş"), Knyaz ("Knyaz"), digər dramaturqların əsərlərində Fəxrəddin və Rüstəm bəy ("Müsibəti Fəxrəddin", Nəcəf bəy Vəzirov), İsgəndər və Hacı Həsən ağa ("Ölülər", Cəlil Məmmədquluzadə) və s. rolları ifa etmişdir.

Akademik teatrda H.Cavidin "Şeyx Sənan" (İ.Hidayətzadə və R.Darablı ilə birgə), V.Şkvarkinin "Özgə uşağı", M.İbrahimovun "Madrid", Gəncə teatrında R.Rzanın "Vəfa", Gənc Tamaşaçılar Teatrında A.Yanın "Ağ dərə" pyeslərinin quruluşçu rejissoru olmuşdur.

Rza Təhmasibin yaradıcılığının bir qolu da kino sənəti ilə bağlı idi. 1927-ci ildə Bakıda Azərbaycan Foto-Kino İdarəsində (AFKİ) kino aktyorluğu sənətkarlığı kursunu bitirmiş, daha sonra Moskvada Kino Akademiyasında təhsil almışdır. Kino rejissoru kimi ilk dəfə 1937-ci ildə "On birdən biri" ("Sovet Azərbaycanı") sənədli filmini çəkmişdir. Müştərək çəkilmiş "Bir ailə", "Səbuhi", "Bakının işıqları", "Mahnı belə yaranır" filmlərində rejissorlardan biri olmuşdur. 1957-ci ildə isə "Onu bağışlamaq olarmı?" bədii filmini lentə almışdır.

"Hacı Qara" (Həkim), "Fətəli xan" (Ağası xan), "Bakının işıqları" (Mir Cəfər Bağırov), "Qanun naminə" (Qaloş) bədii filmlərində yaddaqalan obrazlar yaratmışdır.

P.Nikolay "Dağıstan qartalları", F.Dmitriy "Çapayev", C.Londonun "Qarlar qızı", V. Tatişvili "Məcnunun gözləri: yolüstü yazılar" və s. əsərlərini tərcümə etmişdir.

"Arşın mal alan" filminin rejissorluğuna görə 1946-cı ildə "Stalin mükafatı" (sonralar SSRİ Dövlət mükafatı adlandırılmışdır) ilə təltif edilmişdir. 1943-cü il iyun ayının 17-də "Əməkdar incəsənət xadimi", 1964-cü il iyun ayının 29-da "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Rza Təhmasib 1980-ci il fevral ayının 14-də vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t :

Təhmasib, T. Rza Təhmasib: Elmi-publisistik, sənədli xatirə / Tamilla Təhmasib; Redaktoru, nəşrə hazırlayan: Maarif Teymur.- Bakı: MBM, 2005.- 272 s.

Kinorejissor, aktyor, pedaqoq.... // Mədəniyyət. az.- 2015.- № 4.- S.51.

Rəhimli, İ. Rza Təhmasib / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə / layih. rəhb. Ə.M.Qarayev; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Cild 3.- Bakı, 2017.- S.149-150

Kinomuzun Qaloşlu adamı - İblis simalı obrazın bənzərsiz ifaçısı // Türküstan.-2021.- 16-22 fevral.- S.24.

Uğur. Rza Təhmasib - sənətinin fədaisi /Uğur // Xalq Cəbhəsi .-2013.- 2 may.- S.14.

Fərəcov, S. Sənətkar ömrünün məqamları: Rza Təhmasib - 120 / Savalan-Fərəcov // Mədəniyyət.- 2014.- 12 fevral.- S. 15.

Unudulmaz rejissor, aktyor və pedaqoq: Rza Təhmasib // Ekran-efir.- 2014.- 18 aprel.- S.9.

Zemfira Nərimanova – 65

(1959) *Aktrisa*



Nərimanova Zemfira Əli qızı 1959-cu il aprel ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 1976-cı ildə M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino fakültəsinə daxil olub.

1980-ci ildə Akademik Milli Dram Teatrında əmək fəaliyyətinə başlamışdır. Şeyda ("Yastı təpə", Ə.Əylisli), Sofi ("Yad adam", L.Frank), Təhminə, Xumar, Südabə ("Xurşidbanu Natəvan", "Sevgililərin cəhənnəmdə vüsalı", "Dəlilər və ağıllılar", İ.Əfəndiyev), Kəniz, Nübar ("Atabəylər", "Məhəbbət yaşadır", N.Hacızadə), Qadın ("Sizi deyib gəlmişəm…", Anar), Rəna və Qaraçı ("İblis", H.Cavid), Kama ("Kərgədan buynuzu", M. İbrahimbəyov), Çiçək ("Torpağa sancılan qılınc", N.Xəzri), Nastya ("Həyatın dibində", M.Qorki), Kleopatra ("Kölgələrin oyunu", Y.Edlis), Nisə xanım və Şölə xanım ("Lənkəran xanının vəziri», M. F.Axundzadə), Banu çiçək ("Özümüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə), Züleyxa, Xanım ("Ah, Paris… Paris!..", "Mənim ərim dəlidir", Elçin), Qadın ("Hərdən mənə mələk də deyirlər…", K Abdulla), Paolina ("Kəllə", N. Hikmət), Marta ("Anlaşılmazlıq", A.Kamy), Biatris ("Körpüdən mənzərə ", A.Miller) və s.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış tamaşalarda da oynayıb. Onların arasında Leyla ("Pəncərədə işıq", İlyas Əfəndiyev), Sarıköynək ("Sarıköynəklə Valehin nağılı"), Rəna ("Ordan-burdan", Üzeyir Hacıbəyovun felyetonları əsasında), Nərminə ("Göz həkimi", İslam Səfərli), Zərnişan ("İtkin gəlin", Əlibala Hacızadə) və s.

Müxtəlif illərdə "Azərbaycanfilm" kinostudiyasında "Beş çərək" (Gülya), "Torpaq" (Qız), "Girişmə öldürər" (Zemfira) və s. kinolentlərinə çəkilib.

Zemfira Nərimanova 1991-ci ildə Azərbaycan Respublikasının "Əməkdar artist"i, 2000-ci ildə "Xalq Artisti" fəxri adları ilə təltif olunub, 2012-2018-ci illər Prezident Mükafatına layiq görülmüş, 2019-cu ildən Prezident fərdi təqaüdçüsüdür.

Ə d ə b i y y a t :

Azərbaycanın xalq artisti Zemfira Nərimanova: "İstərdim ki, teatrımız yenə o teatr olaydı" / Zenfira Nərimanova // Xalq Cəbhəsi.- 2010.- 22 oktyabr.- S.15.

Qurbanova, S. Həssas qəlbin hərarəti / Sevil Qurbanova.- Bakı, 1989.- 17 may.

Nəbioğlu, A. Teatr ilk məhəbbətimdir / A.Nəbioğlu // Azərbaycan.- 1996.- 1oktyabr.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Zemfira_N%C9%99rimanova

Ağahüseyn Cavadov - 130

(1894-1981)

Aktyor



Ağahüseyn Xəlil oğlu Cavadov 1894-cü il aprel ayının 22-də Bakı şəhərinin Xırdalan qəsəbəsində anadan olmuşdur. O, ilk təhsilini mollaxanada almış, daha sonra "Səadət" məktəbini bitirmişdir. Tələbəlik illərində teatr sənətinə maraq göstərmiş, bəzi tamaşalarda epizodik rollarda çıxış etmişdir. 1920-ci ilin iyun ayında Azərbaycan Hərbi Komissarlığının Siyasi İdarəsi tərəfindən təşkil edilən Sidqi Ruhullanın rəhbərlik etdiyi teatr bölməsinə daxil olmuşdur. Burada Ə.Haqverdiyevin "Bəxtsiz cavan", "Ac həriflər", S.M.Qənizadənin "Xor-xor", "Dursunəli və ballıbad", M.Kazımovskinin "Molla Cəbi", "Daşım-daşım" pyes və vodevillərinin tamaşalarında oynamışdır.

Ağahüseyn Cavadov yeni təşkil olunmuş Türk Azad Tənqid və Təbliğ Teatrında 13 noyabr 1921-ci ildə göstərilən ilk tamaşada "Çərxi fələkdə" Piri Fani rolunu oynamışdır. Sonralar bu teatrın adı bir neçə dəfə dəyişdirilmiş, 1932-ci ildə isə Gəncə şəhərinə köçürülmüş, 1933-cü ildə Gəncə Dövlət İşçi Dram Teatrı kimi fəaliyyətini davam etdirmişdir.

Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasından sonra 1938-ci ildə Bakıda Musiqili Komediya Teatrı yaradılmış və Ağahüseyn Cavadov həmin teatra dəvət almışdır. 1942-ci ildə Azərbaycan Milli Dram Teatrının truppasına qatılmış və ömrünün sonunadək burada işləmişdir. O, Dram Teatrının səhnəsində Ocaqqulu, Xosməmməd, Həmzə, İmamverdi, Oddamdı ("Almaz", "Dönüş", "Solğun çiçəklər", "1905-ci ildə", "Od gəlini" Cəfər Cabbarlı), Platon, Məzarçı ("Şeyx Sənan", "Xəyyam" Hüseyn Cavid), Cəlal, Soraq kişi, Məmişov ("Həyat", "Yaxşı adam", "Məhəbbət" Mirzə İbrahimov), Qənimət ("Cavanşir", Mehdi Hüseyn), Mürsəl ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Usta Murad ("İldırım", Cabbar Məcnunbəyov), Bəbir Bəbiroviç, Qoşqar baba ("Yadigar", "Yol ayrıcında", İslam Səfərli), İmran ("Əcəb işə düşdük", Şıxəli Qurbanov), Savalan ("Dağlar qızı", Adil Babayev), Almurad ("Mənim günahım", İlyas Əfəndiyev) rollarını məharətlə oynamışdır.

Ağahüseyn Cavadov Azərbaycan kino tarixində də yaddaqalan obrazlar yaratmışdır. O, "Bəxtiyar" (Rza), "Görüş" (Əbülfəz), "Qızmar günəş altında" (Pirioğlu), "Bir qalanın sirri" (Əhməd), "Sehrli xalat" (Baş Vəzir), "Şərikli çörək" (İsmayıl baba), "O, olmasın, bu olsun" (Bəy), "İstintaq davam edir" (Həsən), "Bizim Cəbiş müəllim" və digər filmlərə çəkilmişdir. Böyük aktyor satirik rollar oynayarkən qroteskdən həssaslıqla bəhrələnmişdir. 1955-ci ildə çəkilən "Bəxtiyar" və "Görüş" kinokomediyalarında yaratdığı obrazlar buna ən yaxşı nümunədir. Görkəmli aktyor 200-dən artıq səhnə obrazı yaratmış, 10-a qədər filmdə komik və ciddi rollar ifa etmişdir.

Aktyor SSRİ-nin "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" (2 dəfə) ordenləri və müxtəlif medallarla təltif edilmiş, 1931-ci il "Əməkdar artist", 1938-ci il "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ağahüseyn Xəlil oğlu Cavadov 1981-ci il iyul ayının 19-də vəfat etmişdir. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t :

Epizodik rolların baş qəhrəmanı: Xalq artisti Ağahüseyn Cavadovun anadan olmasından 127 il ötür //Hərbi And. -2021.- 7 may.- S.23.

Kiçik rolların böyük ifaçısı: [Ağahüseyn Cavadov haqqında] // 525-ci qəzet.-2021.- 23 aprel.- S.16.


Rəhimli, İ. Səhnəsiz gülüş: Görkəmli sənət adamlarının həyatlarından şəbədələr / İlham Rəhimli; Red.: Z. Q. Hüseynov; A. S. Xəlilov.- Bakı: Çaşıoğlu, 2004.- 272 s.

Babayev, A. Ağahüseyn Cavadov / Adil Babayev; [red. C. Səfərov]; Azərb. Teatr Cəmiyyəti.- Bakı: İşıq, 1976.- 41, [3] s.

Rəhimli, İ. Ağahüseyn Cavadov / İlham Rəhimli // Səhnəyə qovuşan cığırlar; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı, 2013.- S.152-155.

Məmməd Bürcəliyev – 110

(1914-1994) *Teatr və kino aktyoru*



Məmməd İsmayıl oğlu Bürcəliyev 1914-cü il aprel ayının 25-də Şəki şəhərində anadan olmuşdur. Beş il Şəki şəhərində orta təhsil aldıqdan sonra 1932-ci ildə təhsilini davam etdirmək məqsədi ilə Karl Lipknixt adına fabrik-zavod məktəbinə daxil olmuşdur.

O, Sabit Rəhmanın dəvəti ilə 1932-ci ildə Şəki Dövlət Dram Teatrında aktyor kimi fəaliyyətə başlamış, 1932-1935-ci illərdə teatrda maraqlı və rəngarəng obrazlar qalereyası yaratmışdır. 1935-ci ildən ömrünün sonunadək Gəncə Dövlət Dram Teatrında çalışmışdır. 1967-1968-ci illərdə N.K.Krupskaya adına Moskva Dövlət İncəsənət Universitetinin teatr aktyoru və rejissoru fakültəsini bitirmişdir. 1948-ci ildə Məmməd Bürcəliyev "Yadigar" adlı bir dram əsəri qələmə almış, pyes Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. "Yadigar" pyesi 1948-ci ildə keçmiş SSRİ-də keçirilmiş "Müasir dramaturqların əsərlərinə baxış" festivalında 3-cü dərəcəli mükafata layiq görülmüşdür. M.Bürcəliyev respublikada çapdan çıxan qəzet və jurnallarda 75-dən artıq məqalə, resenziya və oçerkin müəllifidir.

Məmməd Bürcəliyev Gəncə Dövlət Dram Teatrının səhnəsində 300-dən artıq maraqlı obrazlar yaratmışdır. "Od gəlini"ndə Altunbay, "Aydın"da Səlim, "Nəsrəddin şah"da Cavad xan, "1905-ci ildə"də Qubernator, "Almaz"da Şərif, "Səyavuş"-da Kərşivaz, "Fərhad və Şirin"də Azər baba, "Qəribə dilənçi"də Qeyza Qaliba və s. obrazları onun yaradıcılığının əsasını təşkil etmişdir. O, bu teatrda 11 pyesə quruluşçu rejissor kimi səhnə həyatı bəxş etmişdir. Onlardan Cəlil Məmmədquluzadənin "Ölülər", Teymur Məmmədovun "Ürək yanarsa", Altay Məmmədovun "Həmyerlilər" və "Bəraət", Sabit Rəhmanın "Əliqulu evlənir", Şəfayət Mehdiyevin "Mirzə Fətəli", Rəsul Həmzətovun "Dağlı qızı", Yusif Əzimzadənin "Anacan", Abdulla Şaiqin "Tülkü həccə gedir" və başqalarını göstərmək olar.

O, bir neçə filmdə - "Dəli Kür" filmində Allahyar, "Qəm pəncərəsi" filmində Rəşid bəy, "O dünyadan salam" filmində Hacı Baxşəli və s. yadda qalan obrazlar yaratmışdır.

Görkəmli aktyor 1944-1945-ci illərdə Fikrət Əmirov ilə birgə ilk dəfə olaraq Gəncə Dövlət Filarmoniyasını yaratmış və orada direktor vəzifəsində çalışmışdır.

1955-ci ildə "Əməkdar artist", 1958-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Məmməd Bürcəliyev 1994-cü il noyabr ayının 25-də Gəncə şəhərində vəfat etmişdir.

Məmməd Bürcəliyevin şərəfinə Gəncə Dövlət Dram Teatrının yerləşdiyi Kutaisi küçəsinə onun adı verilmişdir, yaşadığı Gəncə şəhəri, Heydər Əliyev prospektindəki binanın qarşısında xatirə-baralyef lövhəsi vurulmuşdur.

Ə d ə b i y y a t :

Bürcəliyev, A. Əsl el adamı: Monoqrafiya / A.Bürcəliyev; red. A.Qasımova.- Bakı: Günəş, 1998.- 112 s.

Bürcəliyev Məmməd / [red. C.Səfərov].- Bakı: Azərbaycan teatr cəmiyyətinin nəşri, 1961.- [1] qat. v.

Rəhimli, İ. Məmməd Bürcəliyev / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə; layih. rəhb. Ə.M.Qarayev; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Cild 2.- Bakı, 2017.- S.279-280.


Burcəliyev, A. Unudulmayacaq sənətkar haqda xatirələr / Anar Bürcəliyev // Kaspi.- 2018.- 27 noyabr.- S.15.

APREL
25

Əflatun Nemətzadə - 80

(1944)

Teatr rejissoru, yazıçı



Ə d ə b i y y a t :

Əlizadə, Ş. Bir xoş soraq və səda...: Prof.Dr.Əflatun Nemətzadənin yaradıcılığı haqqında qeydlər / Şükür Əlizadə // Respublika.- 2020.- 18 mart.- S.6.

Rəhimli, İ. Kamilliyə aparan yol / İlham Rəhimli // Respublika.- 2019.- 1 fevral.- S.5.

Vələdoğlu, E. Teatr adamı / Elçin Vələdoğlu // Respublika.- 2014.- 16 dekabr.- S.9-10.

Abdullayev, A. İşıqlı ömrün cığırları ilə / Azər Abdullayev // Zaman.- 2013.- 5 mart.- S. 7.

Altın çağın incisi "Köroğlu" : [Üzeyir Hacıbeyli Köroğlu operası: 3 perde / 5 tablo: albüm] / [TÜRKSOY Uluslararası Türk Kültürü Teşkilatı; yayına hazırlayan.: E. Neimetzade, T. B. Davletov (çeviri edit.), Y. Vaudable (ingilizce çeviri), O. Yurdakul (tasarım); fotoğr.: H. Şahin, O. Yalçın, Y. Alatan, K. Sallı].- [Ankara]: [TÜRKSOY], [2011].- 144 s.

Üstün Zekâ ve Haydar Aliyev'e suikast planını kim hazırladı? / E. Neimetzade; inceleyen A. Ahmedov; kapak tasarımı C. İnce.- Ankara: [y. y.], 2007.- 410 s.

Əflatun Nemət oğlu Nemətzadə 1944-cü il aprel ayının 25-də Astara rayonunun Ərçivan qəsəbəsində anadan olmuşdur.

O, 1962-1967-ci illərdə M.Əliyev adına Azərbaycan Teatr İnstitutunun musiqili komediya fakültəsində təhsil almışdır. 1970-1975-ci illərdə Leninqrad (indiki Sankt-Peterburq) Rimski-Korsakov Dövlət Konservatoriyasının opera rejissorluğu fakültəsini bitirmişdir.

Əflatun Nemətzadə 1976-cı ildə Moskvada Böyük Opera və Balet teatrında dünyada məşhur olan Boris Pokrovskinin yanında rejissor köməkçisi kimi çalışmışdır. 1980-ci ildə Yəmən Xalq Respublikasında işə göndərilən rejissor, Adendə Dövlət Milli Musiqi Teatrını qurub və bununlada Yəməndə milli operanın qurucusu hesab olunur. 1984-1992-ci illər arasında Bakı Dövlət Opera və Balet teatrında bir çox operalara rejissorluq etmişdir.

O, 1988-ci ildə Gürcüstanın İncəsənət Universitetində incəsənət elmləri doktoru elmi dərəcəsi, 2000-ci ildə Türkiyə Cümhuriyyəti Universitetlərarası Elmi Şurası tərəfindən dosentlik, 2006-cı ildə Qazi Universitetində professor elmi adını almışdır.

1991-ci ildə Ankara Dövlət Opera və Balet teatrına dəvət olunan Əflatun Nemətzadə, daha sonra Mersin Dövlət Opera və Balet Teatrında rejissor kimi işə başlamışdır.

Əflatun Nemətzadənin 100-dən çox elmi araşdırması, məqalələri və şerləri "Ədəbiyyat və incəsənət", "Qobustan", "Azərbaycan gəncləri", "Literaturnıy Azerbaydjan" və Rusiya, Yəmən, Misir, Türkiyə və Polşada yayınlanmışdır. Keçmiş sovetlər dövründə Azərbaycanda, eləcə də Rusiyanın Sankt-Peterburq, Moskva, Özbəkistanın Karşi, Qazaxıstanın Almaata, Qırğızıstanın Bişkek, Tatarıstanın Kazan şəhərlərində tamaşalar səhnələşdirilmişdir.

Əflatun Nemətzadə 1970-1980-ci illərdə Azərbaycan Dövlət Televiziyasında "Opera haqqında söhbətlər" silsilə verlişlərin aparıcısı olmuşdur. "Koroğlu" və "Alpamış" operası kimi Türk Dünyasına aid bir çox önəmli projeni həyata keçirərək, böyük uğurlar qazanmışdır. Onun səhnələşdirdiyi operalar bütün Türk dünyasında, eləcə də Avropada böyük maraqla qarşılanmışdır.

O, "İsmayıl Dağıstanlı" (1981), "Yəmən düşüncələri" (1990), "İllərdə izlər…" (1991), "Opera rejissorluğu" (2000), "Dəmir pərdə", "Oyanış" (2007) romanlarının müəllifidir. "Oğuz xaqan", "İblis" opera-balet librettosu, "Dodaqdan qəlbə", "İnana" librettosunun müəllifidir.

Onun Ulu Öndər Heydər Əliyevə həsr etdiyi "Üstün zəka" kitabı Türkiyədə nəşr olunmuşdur. Həmçinin Türkiyədə ilk dəfə "Opera rejissorluğu" dərs kitabının müəllifi olmuşdur. 2011-ci ilə "Altın çağın incisi "Koroğlu" adlı kitabı çap olunmuşdur.

Uzun illərdir Türkiyədə Qazi Unversitetinin müəllimi olmaqla yanaşı, "İl" qəzetinin köşə yazarı, Yeni Azərbaycan Yardımlaşma və Kültür Dərnəyinin başqanı, eyni zamanda Azərbaycanlıların və digər Türk Xalqlarının Əməkdaşlıq Mərkəzinin (ATXƏM) Türkiyə təmsilçisidir. Əflatun Nemətzadə bütün bu geniş fəaliyyəti ilə yanaşı, həm də Türk dünyası diasporaları arasında əlaqələrin qurulmasında, bu əlaqələrin inkişaf etdirilməsində xüsusi rol oynamışdır.


2014-cü ildə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən Ankarada Əflatun Nemətzadənin yaradıcılığının 50 illik, ömürünün 70 illiyinə həsr olunmuş tədbir keçirilmiş və tədbir zamanı türk dünyası qarşısında səmərəli fəaliyyətinə görə Əflatun Nemətzadəyə TÜRKSOY-un yubiley medalı təqdim olunmuşdur.

Əflatun Nemətzadə 15 mart 2011-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi", 27 may 2018-ci ildə Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adları ilə təltif edilmişdir.

Aydın Rəcəbov – 80

(1944)

Xalçaçı-rəssam



Aydın Məmməd-Ağa oğlu Rəcəbov 1944-cü il aprel ayının 9-da Bakı şəhərində anadan olmuşdur. O, 1966-cı ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmiş və həmin il Politexnik İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdur. İkinci kursdan M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun xalça kafedrasında təhsilini davam etdirmiş və buradan 1972-ci ildə məzun olmuşdur.

Rəssam 1975-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü, 1991-ci ildə isə Azərbaycan Rəssamlar İttifaqının Rəyasət heyətinin üzvü seçilmişdir. O, 2012-ci ildə Azərbaycan Rəssamlar İttifaqının "Dekorativ-tətbiqi sənət" bölməsinin rəhbəri təyin olunmuşdur

Aydın Rəcəbov xalçaçı-rəssam Lətif Kərimov xalçaçılıq məktəbinin yetirməsi hesab edilir. Bununla yanaşı o, öz fərdi yaradıcılıq üslubunu formalaşdırmış və yaradıcılığını ənənələrə bağlılığı və müasirliyin sintezinə əsaslandırmışdır. Onun xalça və naxış yaradıcılığında poeziya qaynaqlarına, Azərbaycanın orta əsr miniatür ənənələri və kompozisiya quruluşuna müraciət əsas yer tutur. Rəssamın bu qəbildən olan əsərlərinə "Şirinin Bisituna gəlməsi", "Bahar qızı", "Şərq gözəli", "Ud ifaçısı", "Çövkən oyunu", "Şahın elçiliyi" və başqaları daxildir. Bundan əlavə, "Münəccimlər", "Əncir ağacı", "Süvari dərviş", "Dür at", "Günəş gəzdirən ağ dəvə", "Qurbanlıq qoç", "Əkinçi qoca", "Mücərrəd Qımıl", "Dünya ağacı və ya badam ağacı", "Simurq", "Faytonçu", "Həmsöhbət kişilər" kimi əsərləri rəssamın yaradıcılığında xüsusi yer tutur.

Aydın Rəcəbovun 2005-ci ildə Bakıda və Stokholmda, 2014-cü ildə Bakıda fərdi sərgiləri keçirilmişdir.

O, müxtəlif illərdə respublika və beynəlxalq sərgilərində müəllifi olduğu xalçaları ilə iştirak etmişdir. Xalçaçı rəssamın əsərləri Azərbaycan muzeylərində və Almaniya, Türkiyə, İtaliya, İspaniya, İsveçrə, Fransa və digər ölkələrdə müxtəlif şəxsi kolleksiyalarda saxlanılır.

Aydın Məmməd-Ağa oğlu Rəcəbov 2006-cı ildə Azərbaycan Respublikasının "Əməkdar rəssamı", 2021-ci ildə Azərbaycan Respublikasının "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. 2007-ci ildə "Soltan Məhəmməd" mükafatı almışdır.

Ə d ə b i y y a t :

Məhərrəmova, M. Aydın Rəcəbovun süjetli xalçalarında bədii ifadənin əksi / Mahizər Məhərrəmova // Axtarışlar: (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) / AMEA, Naxçıvan bölməsi.- 2019.- №2(32).- S.176-180.

Hüseynov, Fariz. Xalçaçı rəssamın yubiley sərgisi: [Muzey Mərkəzində Xalq rəssamı Aydın Rəcəbovun anadan olmasının 70 illik yubileyinə həsr olunmuş sərgi açılması haqqında] / Fariz Hüseynov //Mədəniyyət.-2014.- 4 iyun.- S. 2.

İ n t e r n e t d ə :

http://www.anl.az/down/meqale/ameanax_axtarishlar/2019/02/778863(meqale).pdf

https://az.wikipedia.org/wiki/Ayd%C4%B1n_R%C9%99c%C9%99bov

Şövqiyar Abdullayev – 55

(1969-1992) *Milli Qəhrəman*



Şövqiyar Cəmil oğlu Abdullayev 1969-cu il aprel ayının 5-də Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olmuşdur. 1986-cı ildə Nərimanlı kənd orta məktəbini əla qiymətlərlə bitirmiş, Azərbaycan Dövlət Politexnik İnstitutuna (indiki Azərbaycan Dövlət Texniki Universiteti) qəbul olunmuşdur.

Şövqiyar Abdullayev 1989-cu ildə Monqolustanda hərbi xidmətini tank qoşunları tərkibində başa vuraraq Bakıya qayıtmışdır. 1992-ci il mart ayının 3-də ali təhsilini yarımçıq qoyub könüllü surətdə ordu sıralarına daxil olmuş, Ağdamda təşkil edilmiş tank briqadasında ekipaj komandiri təyin edilmişdir. O, Papravənd, Pircamal, Aranzəmin və digər kəndlər uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. 1992-ci il avqust ayının 23-də Ağdamda Drambon kəndinin müdafiəsinə kömək üçün göndərilmiş, qısa müddətdə Drambon kəndi erməni-rus birləşmələrinin müqavimətindən azad edilmiş, çox sayda piyada döyüşçülərimiz mühasirə halqasından çıxmışdır.

Həmin döyüşdə Ş.Abdullayevin tankı vurulmuş və igid döyüşçü hər iki ayağından qəlpə yaraları almışdır. O, Ağdamdakı hərbi hospitala çatdırılmış, həkimlər ona ayaqlarına dolmuş qəlpələri təmizləmək üçün Bakıya getməyi məsləhət görmüş, müvəqqəti sarıq qoymuşlar. Şövqiyar isə xəstəxanadan qaçaraq döyüş bölgəsinə gəlmiş, öz komandiri olduğu tanka qalxaraq son nəfəsinə qədər Vətən, yurd, torpaq uğrunda döyüşmüş, canını doğma torpağa qurban vermişdir.

1992-ci il avqust ayının 27-də Drambon döyüşündə qəhrəmancasına həlak olan Abdullayev Şövqiyar Cəmil oğlu avqust ayının 29-da Şəhidlər Xiyabanında dəfn edilmişdir. Onun təltif olunduğu Azərbaycanın Milli Qəhrəmanının Qızıl ulduzunu Ulu Öndər Heydər Əliyev qəhrəmanın valideynlərinə təqdim etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli Fərmanı ilə Abdullayev Şövqiyar Cəmil oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Abdullayev Şövqiyar Cəmil oğlu-starşina - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- No3.- S.11.- (Ölümündən sonra).

Asena, N. Şövqiyar / N.Asena (Hacıyeva); red. H.Məlikzadə.- Bakı: Qanun, 2012.- 213, [3] s.

Abdullayev Şövqiyar Cəmil oğlu (1969-1992) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kiabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.21-22.

İntiqam Atakişiyev - 50

(1974)

Milli Qəhrəman



İntiqam Vahid oğlu Atakişiyev 1974-cü il aprel ayının 7-də Qəbələ rayonunun Tüntül kəndində anadan olmuşdur.

1981-1991-ci illərdə Qəbələ rayonunun Tüntül kənd orta məktəbində, 1991-1992-ci illərdə isə Bakı şəhəri 61 saylı texniki peşə məktəbində təhsil almışdır.

1992-ci ildə Milli Ordu sıralarına çağırılmışdır. İntiqam Atakişiyev 1992-1995-ci illərdə Müdafiə Nazirliyinin 776 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olarkən atıcıdan taqım komandirinin müavini vəzifəsinədək qalxmışdır.

O, 1995-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin nəzdində taqım komandirləri məktəbini, 1997-ci ildə isə Türkiyə Respublikasının Jandarma Komandirləri məktəbini bitirmişdir.

İntiqam Atakişiyev 1995-ci ildən 2004-cü ilədək "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsindən hərbi hissə komandirinin müavini vəzifəsinədək yüksəlmişdir.

1992-1994-cü illərdə Qubadlı, Laçın, Ağdam, Füzuli, Ağdərə və Tərtər bölgələrində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etmiş, Murovdağ döyüşlərindən birində yaralanmasına baxmayaraq silahı yerə qoymamış, Mingəçevirdə müalicə aldıqdan sonra yenidən cəbhəyə dönmüşdür. 1995-ci ilin mart ayında dövlət çevrilişi etmək istəyən qüvvələrin zərərsizləşdirilməsində şəxsi igidlik və şücaət göstərmişdir.

İntiqam Atakişiyevin dövlətin qorunmasında xidmətləri yüksək qiymətləndirilmiş və Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 aprel tarixli Fərmanı ilə İntiqam Vahid oğlu Atakişiyev "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. "Qızıl Ulduz", "İgidliyə görə", "Vətən uğrunda" medallar və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Polkovnik-leytenant İntiqam Atakişiyev hazırda Sərhəd Qoşunlarında xidmət edir, vətənpərvərlik, sərhədsevərlik nümunəsi göstərir.

O, xeyirxah bir insan, vətəndaşlıq mövqeyi ilə seçilən bir hərbçi kimi tanınır.

Təhsil aldığı məktəbin önündə şəhidlərimizin xatirəsini əbədiləşdirmək üçün abidə qoyulmasının təşəbbüskarı olmuş, bu işdə maddi və mənəvi köməyini əsirgəməmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Atakişiyev İntiqam Vahid oğlu-Müdafiə Nazirliyi, kiçik leytenant-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun

müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan.- 1995.- 5 aprel.


Atakişiyev İntiqam Vahid oğlu (1974) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kiabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.32.

Əsgərov, V. Atakişiyev İntiqam Vahid oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.226.

Seyidzadə, M. Atakişiyev İntiqam Vahid oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.31

Tofiq Hüseynov – 70

(1954-1992) *Milli Qəhrəman*



Tofiq Mirsiyab oğlu Hüseynov 1954-cü il aprel ayının 19-da Xocalı şəhərində anadan olmuşdur.

1961-1971-ci illərdə Xocalıda orta məktəbdə təhsil almışdır. Ağdam şəhərindəki Kənd Təsərrüfatı Texnikumunda Mexanizasiya fakültəsini bitirdikdən sonra 1974-cü ildə Sovet ordu sıralarına çağırılmış, Qazaxıstan Respublikasının Alma-Ata şəhərində hərbi xidmət keçmişdir.

1976-cı ildə ordudan tərxis olunmuşdur. Xocalı şəhər orta məktəbində hərbi hazırlıq müəllimi işləmiş, 1991-ci ildə Xocalıda yaradılmış özünümüdafiə taborunun yaradıcılarından olmuş, daha sonra komandir təyin edilmişdir. Onu Xocalıda "Mixaylo" adlandırırdılar. Ermənilər Naraguğ kəndindən Xocalını tez-tez top atəşinə tuturdular. Tofiq bu ərazini müəyyənləşdirib ermənilərin qurğularını məhv etmişdir. Daha sonra Mehdikənd kəndində yerləşən erməni quldurlarının artilleriyası olan "Alazan" qurğusu partladılmış, ferma darmadağın edilmişdir. Tofiq burada on erməni yaraqlısını əsir götürmüş, el oğlunun adı cəbhə boyu dolaşmışdı. Bu əməliyyatdan sonra ona mayor rütbəsi verilmişdir.

Tofiq Hüseynovun sonuncu döyüşü Xocalıda fevral ayının 26-da olmuş, əsrin ən dəhşətli soyqırımlarından olan Xocalı soyqırımı törədilən zaman o, neçə-neçə dinc sakini təhlükəsiz yerə çıxara bilmişdir. Son nəfəsinə, sonuncu gülləsinə qədər vuruşan Tofiq onlarla erməni quldurunu məhv etmiş, son anda sonuncu qumbarasını sinəsinə sıxaraq özü ilə bərabər yaxınlığında olan erməni faşistlərini də partlatmış və qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Hüseynov Tofiq Mirsiyab oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Tofiq Mirsiyab oğlu - baş leytenant - Azərbaycan Respublikasının suverenliyi və bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- No 13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Hüseynov Tofiq Mirsiyab oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.93.

Hüseynov Tofiq Mirsiyab oğlu (1954-1992) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kiabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.92-93.

Seyidzadə, M. Hüseynov Tofiq Mirsiyab oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.99.

Rəfael Həbibov - 60

(1964-1992)

Milli Qəhrəman



Rəfael Hacı Şərafət oğlu Həbibov 1964-cü il aprel ayının 20-də Əli Bayramlı şəhərində (indiki Şirvan) anadan olmuşdur. 1981-ci ildə buradakı 14 saylı orta məktəbi bitirmişdir. Rəfael təhsil illərində özünü bacarıqlı bir şagird kimi göstərmiş, yoldaşlarının və müəllim kollektivinin dərin hörmətini qazanmışdır.

O, hərbi xidmətini 1984-cü ildə Baltik qoşunlarında başa vuraraq, Leninqradda (indiki Sankt-Peterburqda) Kaunas Gizirlər Məktəbinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra Kutaisi ətrafındakı hərbi hissələrdən birinə göndərilmişdir. 1986-cı ildə hərbi xidmətini Əfqanıstanda davam etdirərkən orada gedən döyüşlərin birində yaralanmış, müalicədən sonra yenidən hərbi xidmətə qayıtmışdır. Döyüşlərdə göstərdiyi rəşadətə görə medallara, Fəxri fərmanlara layiq görülmüşdür. 1988-ci ildə Bakıya qayıtmışdır.

Respublikamızın ərazi bütövlüyünün qorunmasında iştirak etmək məqsədilə 1992-ci ildə Qarabağa göndərilmiş, ilk günlərdən təcrübəli zabit kimi döyüşlərə atılmışdır. Təzəkənd, Narıncılar, Zodqızıl, Mədəni Ala Qala, Ağdaban, Çörəkdar, Çapar və s. kəndlər uğrunda gedən gərgin döyüşlərdə iştirak etmişdir. Bu kəndlərin çoxu erməni quduzlarından azad edilmişdir. Rəfael Həbibov Kəlbəcər uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərmiş, mühasirəyə düşən kəşfiyyatçıları xilas edərkən düşmənlə qarşı-qarşıya çıxmış və düşmənin PDM-24 maşınını heyəti ilə birlikdə məhv etmişdir.

R.Həbibov Kəlbəcər uğrunda gedən döyüşlərdə böyük igidlik göstərərək, 1992-ci il iyulun 7-də qəhrəmancasına həlak olmuşdur. Şirvan şəhər qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə leytenant Həbibov Rəfael Hacı Şərafət oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Təhsil aldığı 14 saylı orta məktəb qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Həbibov Rəfael Hacı Şərafət oğlu - leytenant - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında,Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il // Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Həbibov Rəfael Hacı Şərafət oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kiabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.80.

Rzayev, A. Əli Bayramlının Milli Qəhrəmanları / Alik Rzayev; məsləhətçi: Z.Əliyev.- Bakı: Təbriz, 1996.- 12 s.

Seyidzadə, M. Həbibov Rəfael Hacı Şərafət oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.83.

Albert Aqarunov – 55

(1969-1992) *Milli Qəhrəman*



Albert Aqarunoviç Aqarunov 1969-cu il aprel ayının 25-də Bakı şəhərində anadan olmuşdur. Suraxanı rayonundakı 154 saylı məktəbin səkkizinci sinfini bitirərək peşə məktəbində sürücü-mexanik vəzifəsinə yiyələnmişdir. 1987-ci ildə hərbi xidmətə çağırılan Albert xidməti vəzifəsini Gürcüstanda yerinə yetirmiş və tank komandiri olmuşdur. Daha sonra Bakıya dönərək Suraxanıda Maşınqayırma zavodunda işləmişdir.

Qarabağ müharibəsi başlayarkən Albert Aqarunov könüllü olaraq cəbhəyə yollanmışdır. O, tank komandiri təyin edilmiş və Şuşa cəbhəsinə getmişdir. Albert Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini və zirehli texnikasını məhv etmişdir.

Albert igidliyi ilə Qarabağ müharibəsində əfsanəyə çevrilmiş, hətta ermənilər onun başına pul mükafatı qoymuşdular.

1992-ci il may ayının 8-də Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gəlmiş və döyüş meydanında həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Təhsil aldığı 154 saylı məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur. 2017-ci il sentyabr ayının 28-də Qırmızı Qəsəbədə Albert Aqarunovun adını daşıyan küçədə Milli Qəhrəmanın xatirə lövhəsi qoyulmuşdur. 2019-cu ildə Bakıda küçələrdən birinə Albert Aqarunovun adı verilmiş və həmin küçədə onun heykəli ucaldılmışdır.

Aqarunov həmçinin, 2014-cü ildə "Vətən Övladı" ordeni, 2016-cı ildə isə "Həzi Aslanov" ordeni ilə təltif edilmişdir. Qəhrəman haqqında Yefim Abramovun rejissorluğu ilə "Dostuma məktub" filmi çəkilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Aqarunov Albert Aqarunoviç - tank komandiri - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin

təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- No 13.- S.25.- (Ölümündən sonra).

Aqarunov Albert Aqarunoviç (1969-1992) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kiabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.25-26.

Dünyamalı, K. Vətən elin evidir / Kərim Dünyamalıyev; [burax. məs. və red. N.Nəcəfov; red. R.Babayev].- Bakı, 2007.- 139, [1] s.

Aslan, Q. Albert Aqarunov / Qədir Aslan // Respublika.- 2022.- 24 aprel.- S.11.

Seyidzadə, M. Aqarunov Albert Aqarunoviç / M.Seyidzadə // Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.34.

APREL

1

Cavid Hüseynov - 30

(1994-2020)

MAHHXHQ çavuş



Cavid Habil oğlu Hüseynov 1994-cü il aprel ayının 1-də Cəlilabad rayonunun Hamarqışlaq kəndində anadan olmuşdur. 2012-ci ildə hərbi xidmətə yollanmış, hərbi xidməti bitirdikdən sonra 2016-cı ildə yenidən Azərbaycan Respublikasının ordu sıralarında xidmətə başlamışdır. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində Baş çavuş və Tank Atıcısı kimi xidmətə başlamışdır. Xidməti dövründə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Cavid Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 30-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Cəlilabad rayonunun Hamarqışlaq kəndində dəfn olunmuşdur.

Cavid Habil oğlu Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

1

Araz Hilalov - 45

(1979-2020)

MAHHXHQ kiçik çavuş



Araz Elburus oğlu Hilalov 1979-cu il aprel ayının 1-də Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olmuşdur. 1997-1999-cu illərdə həqiqi hərbi xidmətə olmuşdur. 2014-cü ildən yenidən müddətdən artıq hərbçi kimi Azərbaycan Respublikasının ordu sıralarında xidmətə başlamışdır. 2016-cı il Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Araz Hilalov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Araz Hilalov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Füzuli rayonunun Bala Bəhmənli kəndində dəfn olunmuşdur.

Araz Elburus oğlu Hilalov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

APREL 1

Elgün Abdullayev - 30

(1994-2020) *MAHHXHQ əsgər*



Elgün Əmirxan oğlu Abdullayev 1994-cü il aprel ayının 1-də Ağstafa rayonunun Qırılı kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə S.Əliyev adına Qırılı kənd tam orta məktəbində təhsil almışdır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında "kiçik çavuş" hərbi rütbəsi altında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu olan Elgün Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Xocavəndin, Laçının və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 9-da Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Qırılı kəndində dəfn olunmuşdur.

Elgün Əmirxan oğlu Abdullayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

1

Davud Şirvanov - 30

(1994-2020) *MAHHXHQ əsgər*



Davud Xeyrulla oğlu Şirvanov 1994-cü il aprel ayının 1-də Lerik rayonunun Livədirqə kəndində anadan olmuşdur. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən isə Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Davud Şirvanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Davud Şirvanov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Lerik rayonunun Livədirqə kəndində dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalmışdır.

Davud Xeyrulla oğlu Şirvanov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL

1

Ruhid İslamlı - 25

(1999-2020)

Əsgər



Ruhid Uğur oğlu İslamlı 1999-cu il aprel ayının 1-də Lerik rayonunun Çeşman kəndində anadan olmuşdur. 2016-cı ildə Suraxanı rayonu, Dədə Qorqud qəsəbəsində yerləşən 315 saylı məktəbi bitirdikdən sonra Naxçıvan Müəllimlər İnstitutuna daxil olmuşdur. İxtisasca psixoloq idi.

Azərbaycan ordusunun əsgəri olan Ruhid İslamlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Talış Suqovuşan döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 6-da Goranboyun Gülüstan kəndi yaxınlıqda strateji əhəmiyyətli yüksəkliyə malik Çənlibel postunda şəhid olmuşdur. Suraxanı Rayonu, Dədə Qorqud qəsəbəsində yerləşən qəbiristanlıqda dəfn olunmuşdur.

Ruhid Uğur oğlu İslamlı ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

2

İsgəndər Allahverdiyev - 25

(1999-2020)

Əsgər



İsgəndər Nəsir oğlu Allahverdiyev 1999-cu il aprel ayının 2-də Qax rayonunun Şotavar kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Qax rayon tam orta məktəbində orta təhsil almışdır. 2017-2018-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan İsgəndər Allahverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. İsgəndər Allahverdiyev noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur.

İsgəndər Nəsir oğlu Allahverdiyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

3 APREL

Mahmud Məlikov - 30

(1994-2020) *Baş leytenant*



Mahmud Təhmasib oğlu Məlikov 1994-cü il aprel ayının 3-ü Neftçala rayon Xol Qaraqaşlı kəndində anadan olmuşdur. Heydər Əliyev adına Azərbaycan ali hərbi məktəbini bitirmişdir. Baş leytenant, bölük komandiri olmuşdur.

Azərbaycan Ordusunun baş leytenantı olan Mahmud Məlikov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. 29 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Doğulduğu Neftçala rayonunda dəfn olunmuşdur.

Mahmud Təhmasib oğlu Məlikov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

3

Teymur Həsənov - 35

(1989-2020) *Əsgər*



Teymur Mahal oğlu Həsənov 1989-cu il aprel ayının 3-də Bakının Yasamal rayonunda anadan olmuşdur. 1996-2007-ci illərdə Bakı şəhər 153 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2007-2011-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almışdır. 2011-2012-ci illərdə müddətli hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Teymur Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Teymur Həsənov 25 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. II Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Teymur Mahal oğlu Həsənov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL 4

Nurlan Vəliyev - 30

(1994-2020) *MAHHXHQ əsgər*



Nurlan Habil oğlu Vəliyev 1994-cü il aprel ayının 4-də Tovuz rayonunun Qovlar qəsəbəsində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Nurlan Vəliyev sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Dekabr ayının 25-də dəfn olunmuşdur. Ailəli idi. Bir övladı yadigar qalmışdır.

Nurlan Habil oğlu Vəliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Bakı şəhəri, 24 iyun 2021-ci il. // Azərbaycan.– 2021.– 25 iyun.

4

Abid Məmmədov - 30

(1994-2020) *Əsgər*



Abid Asif oğlu Məmmədov 1994-cü il aprel ayının 4-də Oğuz rayonunun Dəymədərə kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə şəhid Elburus Haşımov adına Dəymədərə kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Abid Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. Oktyabr ayının 4-də Murovdağ istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Oktyabr ayının 4-də Oğuz rayonunun Dəymədərə kəndində dəfn olunmuşdur. Ailəli idi. Bir övladı yadigar qalmışdır.

Abid Asif oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Bakı şəhəri, 24 iyun 2021-ci il. // Azərbaycan.– 2021.– 25 iyun

https://memorial.az/az/qehremanlarimiz/322

5 APREL

Kərim Məmmədov - 35

(1989-2020)

Gizir



Kərim Namil oğlu Məmmədov 1989-cu il aprel ayının 5-də Gəncə şəhərində anadan olmuşdur. 1995-2007-ci illərdə Gəncə şəhərində İ. Məmmədov adına liseydə təhsil almışdır. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2012-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun giziri olan Kərim Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kərim Məmmədov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Kərim Namil oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

5

Fuad Məhərrəmov - 30

(1994-2020)

Baş leytenant



Fuad İmaməddin oğlu Məhərrəmov 1994-cü il aprel ayının 5-də Goranboy rayonunun Zeyvə kəndində anadan olmuşdur. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən məzun olmuşdur. Ali hərbi təhsil aldıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında "leytenant" rütbəsi ilə hərbi vəzifəsinə başlamışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Fuad Məhərrəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fuad Məhərrəmov 15 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Fuad İmaməddin oğlu Məhərrəmov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" və "Vətənə xidmətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL
6

Elxan Rəsulov - 35

(1989-2020) *MAHHXHQ əsgər*



Elxan Ayaz oğlu Rəsulov 1989-cu il aprel ayının 6-da Goranboy rayonunda anadan olmuşdur. Goranboy rayonu Seymur Məmmədov adına Zeyvə kənd tam orta məktəbi bitirmişdir. 2007-2008-ci illərdə hərbi xidmətdə olmuşdur. Daha sonra yenidən Orduda müddətdən artıq xidmətə başlamışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Elxan Rəsulov Suqovuşan, Tərtər doyüşlərində iştirak etmişdir. Oktyabr ayının 16-da Talış Suqovuşan istiqamətində döyüşlər zamanı şəhid olmuşdur. Goranboy rayonunda dəfn olunmuşdur.

Elxan Ayaz oğlu Rəsulov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

6

Əlisəfa Zeynalov - 30

(1994-2020) *MAHHXHQ əsgər*



Əlisəfa Elşad oğlu Zeynalov 1994-cü il aprel ayının 6-da Saatlı rayonu Qaranuru kəndində anadan olmuşdur. Saatlı rayonunun Qaranuru kəndində yerləşən Cavanşir Sadıqov adına orta məktəbdə təhsil almışdır. 2012-2013-cü illərdə hərbi xidmət keçmişdir. Daha sonra yenidən orduda xidmət etməyə başlamışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Əlisəfa Zeynalov Suqovuşan, Ağdərə, Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Suqovuşan istiqamətində gedən döyüşlər zamanı başından ağır qəlpə yarası almış və 5 oktyabr 2020-ci il tarixində şəhid olmuşdur. Saatlıda rayonunda dəfn edilmişdir. Evli idi. Bir övladı yadigar qalmışdır.

Əlisəfa Elşad oğlu Zeynalov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.


Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. –2021. –25 iyun.- S. 81-84.

APREL 7

İslam Eyvazov - 25

(1999-2020) *MAHHXHQ əsgər*



İslam Həsən oğlu Eyvazov 1999-cu il aprel ayının 7-də Naxçıvan şəhərində anadan olmuşdur. 2006-2015-ci illərdə Naxçıvan şəhər 15 saylı orta məktəbdə təhsil almışdır. Orta məktəb illərində həmçinin Ərtoğrul Cavid adına musiqi məktəbinin fortopiano ixtisası üzrə musiqi təhsilinə yiyələnmişdir. 2017-ci ildə həqiqi hərbi xidmətə yollanmışdır. 2020-ci ildə yenidən hərb sahəsinə qayıdaraq "N" saylı hərbi hissədə kəşfiyyatçı kimi xidmət göstərməyə başlamışdır.

Azərbaycan ordusunun əsgəri olan Həsən Eyvazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Xocavənd uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 9-da Xocavənd rayonu ərazisində şəhid olmuşdur. Qaraxanbəyli kənd məzarlığında dəfn olunmuşdur.

İslam Həsən oğlu Eyvazov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

8

Vüsal Məmmədov - 35

(1989-2020) *MAHHXHQ əsgər*



Vüsal Aydın oğlu Məmmədov 1989-cu il aprel ayının 8-də Şəmkir rayonunun Abbaslı kəndində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra Milli Konservatoriyanın muğam fakültəsində təhsil almışdır. Gülyaz Məmmədovanın tələbəsi olmuşdur. Konservatoriyanı bitirdikdən sonra Vətən sevgisi onu hərbçi olmağa vadar etmişdir. Vüsal Məmmədov 7 il ərzində hərbçi kimi xidmət etmiş və Tovuz döyüşlərində iştirak etmişdir.

Azərbaycan ordusunun əsgəri olan Vüsal Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murov, Kəlbəcər, Cəbrayıl və Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 29-da "Ural" maşınının Füzuli rayonunda vurulması nəticəsində neytral zonada şəhid olmuşdur. Dekabr ayının 15-də ailəsinə təhvil verilmiş və dəfn edilmişdir. İki övladı yadigar qalmışdır.

Vüsal Aydın oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Bakı şəhəri, 24 iyun 2021-ci il. // Azərbaycan.–2021.– 25 iyun

APREL

10

Ümüd Xəncəlov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Ümüd Radif oğlu Xəncəlov 1994-cü il aprel ayının 10-da Qusar rayonunun Hil kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə K. Kərimov adına Hil kənd tam orta məktəbində təhsil almışdır. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Müddətli həqiqi hərbi xidmətini bitirəndən sonra isə müddətdən artıq həqiqi hərbi xidmətə başlamışdır. Kəşfiyyatçı idi. Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ümüd Xəncəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 6-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Qusar rayonunda dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Ümüd Radif oğlu Xəncəlov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbraylın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

11

Sənan Əliyev - 35

(1989-2020)

Gizir



Sənan Əlisəfa oğlu Əliyev 1989-cu il aprel ayının 11-də Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olmuşdur. 2013-cü ildə Mingəçevir şəhəri "N" saylı hərbi hissədə MAXE kimi xidmət etməyə başlamışdır. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmiş, fəxri fərman və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir. 2017-ci ildə gizir rütbəsinə yüksəlmişdir.

Azərbaycan Ordusunun giziri olan Sənan Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sənan Əliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı ağır yaralanmışdır. Sentyabr ayının 30-da şəhid olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Sənan Əlisəfa oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL
11

Abakar Hacıyev - 45

(1979-2020)

Mayor



Abakar Məhəmməd oğlu Hacıyev 1979-cu il aprel ayının 11-də Zaqatala rayonunun Dardoqqaz kəndində anadan olmuşdur. Orta təhsilini Ş. Qurbanov adına 3 saylı Zaqatala şəhər tam orta məktəbində almışdır. 1996-2000-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır. Abakar Hacıyev 2000-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsi altında xidmətə başlamışdır. Uzun illər Goranboy, Füzuli, Gəncə, Bərdə, Beyləqan və Lənkərandakı hərbi hissələrdə çalışmışdır. 2017-ci ilin noyabrında Qusarda "zampolit" kimi fəaliyyətə başlamışdır. Mayor hərbi rütbəsinə qədər yüksəlmişdir. Abakar Hacıyev xidməti dövründə III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley, III dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley, II dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley və I dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun mayoru olan Abakar Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Abakar Hacıyev oktyabrın 27-də Xocavəndin azad edilməsi zaman Qırmızı Bazar istiqamətində şəhid olmuşdur. Zaqatala rayonunda dəfn olunmuşdur. Ailəli idi. Üç övladı yadigar qalmışdır.

Abakar Məhəmməd oğlu Hacıyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.5-6.

APREL
11

Rövşən Rüstəmov - 25

(1999-2020)

Əsgər



Rövşən Orxan oğlu Rüstəmov 1999-cu il aprel ayının 11-də Bakı şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə Xətai rayonu 165 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Rövşən Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 6-da şəhid olmuşdur.

Rövşən Orxan oğlu Rüstəmov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12

12

İlyas Niftəliyev - 25

(1999-2020)

Leytenant



İlyas Güloğlan oğlu Niftəliyev 1999-cu il aprel ayının 12-də Qusar rayonunun Bədirqala kəndində anadan olmuşdur. Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirdikdən sonra Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmətə başlamışdır. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun leytenantı olan İlyas Niftəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 14-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Qusar rayonunda dəfn olunmuşdur.

İlyas Güloğlan oğlu Niftəliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL

12

Qoşqar Vəliyev - 35

(1989-2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12

Qoşqar Nuruş oğlu Vəliyev 1989-cu il aprel ayının 12-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olmuşdur. 2010-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi. 2010-2013-cü illərdə Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2013-cü ildən Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qoşqar Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində tankçı olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 2020-ci ilin oktyabr ayında tank partlaması zamanı aldığı kəllə-beyin travmasına görə xəstəxanaya yerləşdirilmişdir. Müalicəsini yarımçıq qoyan əsgər Vəliyev Qoşqar döyüş meydanına qayıtmışdır. Noyabr ayının 22-də Şuşa şəhərinin yaxınlığında şəhid olmuşdur.


Qoşqar Nuruş oğlu Vəliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

13

Mahmud Cavadov - 25

(1999-2020)

Əsgər



Mahmud Heydər oğlu Cavadov 1999-cu il aprel ayının 13-də Bakı şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə Yasamal rayon A.Ağaverdiyev adına 31 nömrəli tam orta məktəbdə, 2016-2020-ci illərdə isə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır. 2020-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Mahmud Cavadov Ağdərə döyüşlərinə qatılmışdır. Noyabr ayının 27-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Mahmud Heydər oğlu Cavadov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL
13

Niyaməddin Ələsgərov - 25

(1999-2020) *Əsgər*



Niyaməddin Süleyman oğlu Ələsgərov 1999-cu il aprel ayının 13-də Ağsu rayonu, Axunlu kəndində anadan olmuşdur.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Niyaməddin Ələsgərov Kəlbəcər döyüşlərinə qatılmışdır. Oktyabr ayının 4-də Kəlbəcər uğrunda gedən döyüşlərdə Toğanalı istiqamətində şəhid olmuşdur. Ağsu rayonunda dəfn olunmuşdur.

Niyaməddin Süleyman oğlu Ələsgərov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12

13

Tərzan Həşimov - 35

(1989-2020) *Gizir*



Tərzan Qəhrəman oğlu Həşimov 1989-cu il aprel ayının 13-də Lerik rayonunun Bibihoni kəndində anadan olmuşdur. 2010-cu il mart ayının 6-da Müdafiə Nazirliyinin əmri ilə gizir hərbi rütbəsi almış və Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə motoatıcı tağım komandirinin müavini vəzifəsində xidmət etməyə başlamışdır. Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Tərzan Həşimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.Oktyabr ayının 20-də Füzuli rayonu uğrunda gedən döyüşlər zamanı şəhid olmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Tərzan Qəhrəman oğlu Həşimov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

APREL
13

Mahir Əliyev - 40

(1984-2020)

MAHHXHQ əsgər



Mahir Əjdər oğlu Əliyev 1984-cü il aprel ayının 13-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. 2017-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Mahir Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mahir Əliyev 28 sentyabrda Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Ailəli idi. İki övladı yadigar qalmışdır.

Mahir Əjdər oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12

14

Əliheydar Hüseynli - 30

(1994-2020)

Əsgər



Əliheydar Səlahəddin oğlu Hüseynli 1994-cü il aprel ayının 14-də Ağstafa rayonunun Qırılı kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Qırılı kənd tam orta məktəbində, 2011-2015-ci illərdə Azərbaycan Texniki Universitetinin İnformasiya Texnologiyaları və Sistemləri Mühəndisliyi ixtisası üzrə təhsil almışdır. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2017-ci ildən etibarən "Azərişıq ASC"-nin Nərimanov rayon şöbəsində nəzarətçi-mühəndis vəzifəsində çalışırdı.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Əliheydar Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 9-da Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Qırılı kəndində dəfn olunmuşdur.

Əliheydar Səlahəddin oğlu Hüseynli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

APREL
15

Elxan Rzayev - 30

(1994-2020)

Əsgər



Elxan Ariz oğlu Rzayev 1994-cü il aprel ayının 15-də Sabirabad rayonunun Qəzli kəndində anadan olmuşdur. Qəzli kənd tam orta məktəbində və Bakı Dövlət Kompüter Kollecində təhsil almışdır. 2012-2014-cü illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildə Sumqayıt Dövlət Universitetinə daxil olsa da, Vətən müharibəsinə qatılmaq üçün könüllü olaraq cəbhəyə yola düşmüşdür.

Azərbaycan Ordusunun əsgəri olan Elxan Rzayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elxan Rzayev noyabr ayının 1-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur.

Elxan Ariz oğlu Rzayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

16

Rafael Mailov - 30

(1994-2020)

Əsgər



Rafael İlqar oğlu Mailov 1994-cü il aprel ayının 16-da Bakı şəhərində anadan olmuşdur. Nizami rayon 210 nömrəli məktəbdə, daha sonra 2012-2016-cı illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mexanika və informasiya texnologiyaları fakültəsində təhsil almışdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Rafael Mailov Füzuli və Xocavənd döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 14-də Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində şəhid olmuşdur. Keşlə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Rafael İlqar oğlu Mailov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

APREL
19

Məhəmməd Abdullayev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Məhəmməd Vaqif oğlu Abdullayev 1999-cu il aprel ayının 19-da Daşkəsən rayonu Xoşbulaq kəndində anadan olmuşdur. 2006-2014-ci illərdə Daşkəsən rayonunun Xoşbulaq kənd 1 saylı tam orta məktəbində təhsil almışdır. Təhsilini Gəncə şəhər 3 saylı peşə liseyində davam etdirmişdir. 2017-2019-cu illərdə Qusar rayonunda həqiqi hərbi xidmət keçmişdir. Həqiqi hərbi xidmətini "Təşəkkür məktubu" və "Fəxri fərmanla" başa vurmuşdur. 2020-ci ilin iyun ayının 19-da müddətdən artıq hərbi xidmətə başlamışdı.

Məhəmməd Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 30-da şəhid olmuşdur. Nəşi dekabr ayının 5-də tapılaraq ailəsinə təhvil verilmişdir. Dekabr ayının 6-da Daşkəsən rayonu Şəhidlər xiyabanında dəfn edilmişdir.

Məhəmməd Vaqif oğlu Abdullayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

19

Ramin Bağırov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021. – 25 iyun. – S.45-57.

Ramin Nəriman oğlu Bağırov 1999-cu il aprel ayının 19-da Şahbuz rayonu Badamlı qəsəbəsində anadan olmuşdur. 2006-cı ildə Şahbuz rayon Badamlı qəsəbəsində orta təhsilə başlamışdır. 2013-cü ildə Heydər Əliyev adına hərbi liseyə daxil olmuş, 2016-cı ildə liseyi bitirmişdir. Həmin il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) daxil olmuşdur. 2019-2020-ci illərdə həqiqi hərbi xidmət keçmişdir. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra Naxçıvana qayıdıraq yenidən orduya yazılmışdır. Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun kəşfiyyatçı kursunu keçərək xüsusi təyinatlı hərbi hissədə kəşfiyyatçı vəzifəsində xidmətə başlamışdır.

Ramin Bağırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 27-də şəhid olmuşdur. Oktyabr ayının 30-da Şahbuz rayon Badamlı kənd məzarlığında dəfn edilmişdir.

Ramin Nəriman oğlu Bağırov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

APREL
21

Namiq Qarayev - 45

(1979-2020) *MAHHXHQ əsgər*



Namiq Qarakişi oğlu Qarayev 1979-cu il aprel ayının 21-də Ucar rayonu Qazıqumlaq kəndində anadan olmuşdur. 1985-1996-cı illərdə Qazıqumlaq kənd 1 saylı orta məktəbində təhsil almışdır. 1997-1999-cu illərdə həqiqi hərbi xidmət keçmişdir. 2017-ci ildən Şəmkir korpusunda MAXE kimi fəaliyyətə başlamışdır.

Namiq Qarayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 1-də Kəlbəcər-Murov istiqamətində döyüş əməliyyatları zamanı şəhid olmuşdur. Nəşi dekabr ayının 21-də tapılaraq ailəsinə təfil verilmişdir və Qazıqumlaq kənd qəbiristanlığında dəfn olunmuşdur. Ailəli idi. Bir övladı yadigar qalıb.

Namiq Qarakişi oğlu Qarayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

21

Elşən Məmmədov - 25

(1999-2020) *Leytenant*



Elşən Əziz oğlu Məmmədov 1999-cu il aprel ayının 21-də Şərur rayonunun Danyeri kəndində anadan olmuşdur. 2005-2013-cü illərdə Danyeri kənd tam orta məktəbində, 2013-2016-cı illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2016-2020-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali hərbi Məktəbində təhsilini davam etdirib. 2020-ci ildə təhsilini uğurla başa vurduqdan sonra leytenant rütbəsi ilə Füzulidə xidmətə başlayıb.

Azərbaycan Ordusunun leytenantı olan Elşən Məmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Cəbrayıl, Füzuli, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 21 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə həlak olmuşdur. Şərur rayon Şəhidlər xiyabaninda dəfn olunmuşdur.

Elşən Əziz oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57.

APREL
22

Kənan Məmmədov - 25

(1999-2020)

Əsgər



Kənan Bəhruz oğlu Məmmədov 1999-cu il aprel ayını 22-də Ağdaş rayonunun Xosrov kəndində anadan olmuşdur. 2027-2028-ci illərdə həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kənan Məmmədov Ağdərə döyüşlərində iştirak etmişdir. 29 oktyabr 2020-ci ildə Ağdərə rayonunun Tülkü dərəsi adlanan ərazisində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində şəhid olmuşdur. Oktyabrın 30-da Xosrov kənd qəbiristanlığında dəfn olunmuşdur.

Kənan Bəhruz oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

22

Yaqub Yaqubzadə - 25

(1999-2020)

Əsgər



Yaqub Eldəniz oğlu Yaqubzadə 1999-cu il aprel ayının 22-də Bərdə rayonunun Alaçadırlı kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Xəzər rayonu 92 nömrəli tam orta məktəbdə, 2016-2020-ci illərdə Tbilisi şəhərində Gürcüstan - Avropa Universitetində "Kompüter mühəndisliyi" üzrə təhsil almışdır. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi. Şəmkir rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Yaqub Yaqubzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Yaqub Yaqubzadə oktyabr ayının 2-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Xəzər rayonunun Qala qəsəbəsində dəfn olunmuşdur.

Yaqub Eldəniz oğlu Yaqubzadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL
25

Xəyal Əliyev - 25

(1999-2020) *MAHHXHQ kiçik çavuş*



Xəyal Saleh oğlu Əliyev 1999-cu il aprel ayının 25-də Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olmuşdur. 2006-2017-ci illərdə Qəhrəmanlı kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Həqiqi hərbi xidmətdən qayıdandan bir müddət sonra Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə MAHHXHQ kimi yenidən Vətənə xidmətə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Xəyal Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Xəyal Əliyev oktyabr ayının 2-də Hadrut döyüşləri zamanı şəhid olmuşdur. Füzuli rayonunun Aşağı Yağlıvənd kəndində dəfn olunmuşdur.

Xəyal Saleh oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

25

Babək Abışov - 30

(1994-2020) *Gizir*



Babək Vaqif oğlu Abışov 1994-cü il aprel ayının 25-də Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olmuşdur. Təhsilin 2002-ci ildə Yeni Mil kənd R.Quliyev adına tam orta məktəbdə, 2009-2012-ci illərdə Vilayət Cəfərov adına Milabad qəsəbə tam orta məktəbində almışdır. 2014-cü il SQ TTM-də gizir hazırlıq bitirərək gizir rütbəsi almışdır. Aprel döyüşlərində iştirak etmişdir. Vətənə xidmət göstərdiyi müddətdə Fəxri Fərman və medalla təltif olunmuşdur.

Azərbaycan Ordusunun giziri olan Babək Abışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Babək Abışov sentyabr ayının 27-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Nəşi noyabr ayında tapılaraq Yeni Mil qəbiristanlığında dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Babək Vaqif oğlu Abışov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

APREL
25

İbad Mirzəyev - 25

(1999-2020)

Əsgər



İbad Mansur oğlu Mirzəyev 1999-cu il aprel ayının 25-də Ağsu rayonunun Kəndoba kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan İbad Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İbad Mirzəyev oktyabr ayının 19-da Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Oktyabr ayının 21-də Ağsunun Kəndoba kənd qəbiristanlığında dəfn olunmuşdur.

İbad Mansur oğlu Mirzəyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. – S.45-57.

27

Elçin Bağırov - 35

(1989-2020)

MAHHXHQ kiçik çavuş



Elçin Fərhad oğlu Bağırov 1989-cu il aprel ayının 27-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur. 1995-2006-ci illərdə orta təhsil almaqla bərabər Bakı şəhərində fəaliyyət göstərən Ağdam rayon uşaq musiqi məktəbində də musiqi təhsili almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Daha sonra isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmətə davam etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Elçin Bağırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ və Talış qəsəbəsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elçin Bağırov oktyabrın 1-də Talış istiqamətində şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamışdır. Dekabr ayının 20-də dəfn olunmuşdur. Ailəli idi. Dörd övladı yadigar qalmışdır.

Elçin Fərhad oğlu Bağırov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

APREL
27

Zahir Mehdiyev - 40

(1984-2020)

Gizir



Zahir Zakir oğlu Mehdiyev 1984-cü il aprel ayının 27-də Kürdəmir rayonunun Qarabucaq qəsəbəsində anadan olmuşdur. 1990-2001-ci illərdə Kürdəmir rayon Qarabucaq kənd tam orta məktəbində təhsil almışdır. 2002-2004-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Goranboy rayonunun Goran qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 2010-cu ildən eyni hərbi birləşmədə "gizir" rütbəsində xidmət etmişdir. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun giziri olan Zahir Mehdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Zahir Mehdiyev noyabrın 3-də Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamışdır. Dekabrın 4-də Kürdəmir Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Zahir Zakir oğlu Mehdiyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

27

Babək Ənnağıyev - 30

(1994-2020)

Əsgər



Babək Oktay oğlu Ənnağıyev 1994-cü il aprel ayının 27-də Sabirabad rayonunun Qasımbəyli kəndində anadan olmuşdur. O, 2000-2010-cu illərdə Sabirabad rayonu Qasımbəyli kənd tam orta məktəbində təhsil almışdır. 2012-ci ildə Sabirabad rayonu hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Qazax rayonunda "N" saylı hərbi hissəsində keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Babək Ənnağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 7-də Füzuli ətrafında gedən döyüşlər zamanı şəhid olmuşdur. Sabirabad rayonunda dəfn olunmuşdur. Ailəli idi. İki qız övladı yadigar qalmışdır.

Babək Oktay oğlu Ənnağıyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

APREL
28

Orxan Rəhimli - 30

(1994-2020)

Əsgər



Orxan Rəşid oğlu Rəhimli 1994-cü il aprel ayının 28-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə M.F.Axundov adına Xaçmaz kənd 1 nömrəli tam orta məktəbində, 2011-2015-ci illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Dağ mədən mühəndisliyi" üzrə təhsil almışdır. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 8-də Şuşa-Xankəndi istiqamətində şəhid olmuşdur. Noyabrın 16-da Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Orxan Rəşid oğlu Rəhimli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

29

Elvin Qurbanov - 25

(1999-2020)

Əsgər



Elvin Elmar oğlu Qurbanov 1999-cu il aprel ayının 29-da Qusar şəhərində Çiləgir kəndində anadan olmuşdur. Orta təhsilini rayonda yerləşən internat məktəbində almışdır. Daha sonra Qusar Peşə Liseyində aşpazlıq ixtisasına yiyələnmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Oktyabrın 14-də Füzuli uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Oktyabrın 19-da Qusar rayon Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Elvin Elmar oğlu Qurbanov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

APREL
30

Ayxan Qədimov - 25

(1999-2020)

Əsgər



Ayxan Fikrət oğlu Qədimov 1999-cu il aprel ayının 30-da Şəmkir rayonunun Morul kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ayxan Qədimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Onun nəşi 30 noyabr 2020-ci ildə tapılmış və Şəmkir rayonunun Morul kəndində dəfn olunmuşdur.

Ayxan Fikrət oğlu Qədimov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin PƏliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəmkir rayonunun Morul qəsəbəsində şəhidin xatirəsini əbədiləşdirmək məqsədilə abidə-bulaq inşa olunmuşdur.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.- S. 18-21.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Ayxan_Qədimov

https://memorial.az/az/qehremanlarimiz/1154

Əsməd Muxtarova - 80

(1944) *Tarixçi*



Əsməd İmamməmməd qızı Muxtarova 1944-cü il aprel ayının 3-də Bakı şəhəri Buzovna qəsəbəsində anadan olmuşdur.

O, Buzovna qəsəbəsində 125 saylı orta məktəbdə təhsil almış, 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Əsməd Muxtarova 1974-cü ildə "Azərbaycan SSR-də ali təhsilin inkişafı (1959-1965-ci illər)" adlı namizədlik dissertasiyasını, 1991-ci ildə isə "Azərbaycan SSR-də kənd təsərrüfatı fəhlələri" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. 1967-1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin əyani aspirantı olmuşdur. 1971-ci ildən həmin fakültədə "SSRİ tarixi" kafedrasında, 1992-ci ildən isə "Türk və Qafqaz xalqları tarixi kafedrası"nda çalışır. 1999-cu ildən "Türk və Qafqaz xalqları tarixi kafedrası"nın müdiridir.

Əsməd Muxtarova Aqrar sənaye kompleksi şəraitində fəhlə kadrlarının hazırlanması, Совхозы СССР, Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər), Türk xalqlarının dövlətçilik tarixinə dair (qədim dövr və orta əsrlər), Təhsilin magistratura pilləsi üçün dərs vəsaiti adlı monoqrafiya və kitabların müəllifidir.

O, "Türk və Qafqaz xalqları tarixi (qədim və orta əsrlər dövrü)" fənni üzrə bakalavr pilləsində dərs deyir. Magistratura təhsil pilləsində "Türk dünyası tarixi" ixtisasında "Türk xalqlarının dövlətçilik tarixi (qədim dövr və orta əsrlər)"; "Regionşünaslıq-Qafqazşünaslıq" ixtisasında "Qafqaza türk axınları" problemləri üzrə dərslər aparır. Türk xalqlarının qədim dövr və orta əsrlər tarixini tədqiq edir.

Əsmət Muxtarova 40-dan çox məqalənin, 2 monoqrafiyanın, 2 kitabın müəllifidir. Rəhbəri olduğu 1 aspirant və 3 dissertant namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışlar.

1999-cu ildə nəşr etdirdiyi "Türk xalqlarının tarixi (qədim dövr və ota əsrlər)" dərsliyinə görə "Xatun" jurnalının redaksiya heyətinin və "Xatun" Əbədi Məclisinin təşkilat komitəsinin qərarı ilə "Sara Xatun" adına fəxri diplomla təltif edilmişdir. "Türk xalqlarının tarixi (qədim dövr və ota əsrlər)" dərsliyi 2002, 2008, 2010, 2011 və 2013-cü lərdə təkrar nəşr olunmuşdur.

1997-ci ildən nəşr olunmasına başlanmış, təsisçisi və baş redaktoru olduğu "Tarix və onun problemləri" elmi, nəzəri, metodik jurnal vasitəsi ilə Sank-Peterburqun Azərbaycanlı diasporası ilə, Moskva Dövlət Universiteti, Daşkənd Universiteti, İsrail, İran, Almaniya ilə əlaqələr yaradılmışdır. 2006-cı ildə Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşkil etdiyi konfransda iştirak etmişdir.

Əsməd Muxtarova 2019-cu ildə III dərəcəli "Əmək" ordeni və "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Türk xalqlarının tarixi: qədim dövr və orta əsrlər: ali məktəblər üçün dərslik / Əsməd. Muxtarova; elmi red., [ön söz]: Q. Qeybullayev, M. Mirzəyev.- Bakı: Adiloğlu, 2013.- 446, [2] s.

Muxtarova, Ə. Türk xalqlarının tarixi: qədim dövr və orta əsrlər: ali məktəblər üçün dərslik / Əsməd Muxtarova; elmi red. Q. Qeybullayev, M. Mirzəyev; rəyçilər M.Sofiyev, S. Onullahi, İ. Məmmədov, S. İsmayılova.- Bakı, 1999. – 362 s.

Muxtarova, Ə. Azərbaycanın müasir türk dünyasına inteqrasiyası prosesi və Heydər Əliyev / Əsməd Muxtarova // Tarix və onun problemləri: nəzəri, elmi, metodiki jurnal.- 2013.- №2.- S.34-40.

https://az.wikipedia.org/wiki/%C6%8Fsm%C9%99d_Muxtarova

APREL
17

Təhmasib Əjdərov - 60

(1964)

Alim



Təhmasib Hüseyn oğlu Əjdərov 1964-cü il aprel ayının 17-də Bakıda anadan olmuşdur.

Hərbi partiya məktəbini, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit, Bakı Dövlət Universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirərək, iqtisadçı və hüquqşünas ixtisaslarına yiyələnmişdir. Sonralar Rusiya Federasiyasının Prezidenti yanında Dövlət Xidməti Akademiyasında təhsil almışdır.

Təhmasib Əjdərov Azərbaycanda vergi xidməti Maliyyə Nazirliyinin tərkibindən ayrıldıqdan sonra Baş Dövlət Vergi inspeksiyasında hüquq şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Bir müddət sonra isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Baş Dövlət Vergi müfəttişliyinin rəis müavini təyin edilmiş, uzun illər həmin vəzifədə çalışmışdır. 1997-ci ilə qədər I dərəcəli Baş Dövlət Vergi Xidməti Müşaviri (vergi xidməti generalı) vəzifəsini daşımışdır. Fransa, Almaniya, Avstriya və Türkiyədə vergi üzrə beynəlxalq ixtisasartırma kurslarını müvəffəqiyyətlə bitirərək, həmin ölkələrin sertifikatlarını almışdır.

O, 1996-cı ildə İqtisadiyyat İnstitutunun aspiranturasını əla qiymətlərlə bitirərək namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1997-ci ild Təhmasib Əjdərova iqtisad elmləri namizədi alimlik elmi dərəcəsi verilmişdir.

2000-ci ildə elmi yaradıcılıq fəaliyyəti ilə əlaqədar Ukraynanın Kiyev şəhərinə getmişdir. Orada doktoranturanı bitirdikdən sonra maliyyə, pul tədavülü və kredit ixtisası üzrə doktorluq dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. Ukrayna Ali Attestasiya komissiyasının 2002-ci il tarixli qərarı ilə Təhmasib Əjdərova İqtisad elmləri doktoru elmi dərəcəsi verilmişdir.

"Azərbaycanda vergiqoyma və vergi siyasəti poblemləri", "Azərbaycan iqtisadiyyatının inkişafında vergi problemləri və onun tədqiqat aspektləri", "Xarici iqtisadi əlaqələr və vergi mexanizmi", "Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sənayesi və onun inkişafına vergi mexanizminin təsiri", "Azərbaycanda vergi mexanizminin formalaşması və təkmilləşdirilməsi problemləri" adlı tədqiqat işinin nəticə və tövsiyələri, "Azərbaycanda vergi siyasətinin büdcə gəlirlərinə təsiri" adlı kitabların müəllifidir.

T.Əjdərov Azərbaycanın xarici ölkələrdəki diasporunun təşəkkül tapması, dünya Azərbaycanlılarının doğma vətənlə əlaqələrinin genişlənməsi fəal iştirak etmişdir. 2004-cü ildə Dünya Azərbaycanlıları Konqresinin qurultayına nümayəndə seçilmişdir.

Təhmasib Əjdərovun elmi əsərləri Azərbaycanda, Rusiyada, Ukraynada, Belarusiyada, Qazaxıstanda, Özbəkistanda, İranda və Türkiyədə nəşr edilmişdir. 15 elmi monoqrafiyanın, 10 broşuranın, 100-ə yaxın elmi məqalənin, bir sıra təlimat-instruksiya, proqram və qanun layihələrinin müəllifidir. Hazırda hüquq və iqtisadiyyat sahəsində elmi araşdırmalarını davam etdirir.

Ə d ə b i y y a t :

Əjdərov, T. Xarici iqtisadi əlaqələr və vergi mexanizmi / Əjdərov Təhmasib; Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi; Azərbaycan Elmi-Tədqiqat Elmi-Texniki İnformasiya İnstitutu.- Bakı: AzETETİİ, 2000.- 48 s

Əjdərov, T. İnkişaf etmiş xarici dövlətlərin vergi sistemlərinin öyrənilməsi təcrübəsi / Təhmasib Əjdərov.- Bakı: AzETETİİ, 2001.- 23 s.


İ n t e r n e t d ə :

https://e-qanun.az/framework/3782

Aydın Abıyev - 85

(1939-2022)

Ədəbiyyatşünas, tənqidçi



Aydın Müstəcəb oğlu Abıyev 1939-cu il aprel ayının 28-də Lerik rayonunun Hilədərə kəndində anadan olmuşdur.

O, orta məktəbi Biləsuvarda oxuduqdan sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinə qəbul olmuşdur. 1957-1962-ci illərdə Şərqşünaslıq fakültəsinin türk şöbəsində təhsil almışdır.

Aydın Abıyev əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi kimi başlamışdır. Daha sonra o, 1975-ci ildə baş elmi işçi olmuşdur. 1978-1981-ci illərdə Türkiyənin İsgəndərun şəhərində tərcüməçi kimi çalışmışdır. 1981-1992-ci illərdə yenidən Şərqşünaslıq İnstitutunun türk filologiyası şöbəsində baş elmi işçi və şöbə müdiri vəzifələrində çalışmışdır.

Aydın Abıyev 1968-ci ildə "Görkəmli türk yazıçısı Ömər Seyfəddinin həyatı və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, alimlik dərəcəsi almışdır. Abıyev 1997-ci ildə "XIX əsrin ikinci yarısı — XX əsrin əvvəllərində türk ədəbiyyatında satira və onun Azərbaycan ədəbiyyatı ilə əlaqəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Alim 1992-1998-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Ədəbiyyat və Azərbaycan dili kafedrasının dosenti, sonra professoru olmuşdur.

Aydın Abıyev Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin, həmçinin AMEA-nın Şərq xalqları ədəbiyyatı üzrə dissertasiya Müdafiə Şurasının üzvü olmuşdur. Alim elmi sessiya, konfrans və simpoziumlarda iştirak edib.

Azərbaycan Elmlər Akademiyası "Xəbərləri", "Azərbaycan", "Ulduz", "Qobustan", "Mütərcim", "Mədəniyyət və sənət" jurnallarında elmi-kütləvi publisistik yazıları, Türkiyə, Bolqarıstan və Almaniya yazıçılarının əsərlərindən tərcümələrini çap etdirmişdir. Eyni zamanda İzzəddin Həsənoğlunun və M.Ə.Marağalının məlum olmayan yeni şeirlərini aşkara çıxarmışdır. Abıyev Azərbaycanda ilk dəfə "Türkiyə ədəbiyyatı tarixi" dərsliyini (3 cilddə, 2005, 2007, 2010)və "Türk mənşəli şəxs adları sözlüyü" kitabların nəşr etdirmişdir.

Aydın Abıyev 2018-ci ildə "Tərəqqi" medalına layiq görülmüşdür.

Aydın Müstəcəb oğlu Abıyev 2022-ci il fevral ayının 16-də vəfat etmişdir.

Ə d ə b i y y a t :

Aydın Abi və Türkiyə ədəbiyyatı : ədəbi qeydlər, araşdırmalar /Ə. R. Xələfli ; red. və ön sözün müəl. A. Rüstəmli Xələfli, Əli Rza. Bakı: Xəzər Universiteti. - 2014. - 191, [1] s.

Türkiyə ədəbiyyatı tarixi: müqayisəli: dərslik / Aydın Abıyev; [elmi red.N. Şəmsizadə; rəyçilər. A. Babayev, G. Əliyeva, S. Qasımlı].- II Cild.- I Hissə.- Bakı: [Bakı Universiteti], 2007.- 279, [1] s.

İ n t e r n e t d ə

https://president.az/az/articles/view/30893/print

https://az.wikipedia.org/wiki/Ayd%C4%B1n_Ab%C4%B1yev

Kərim Allahverdiyev - 80

(1944)

Fizik



Kərim Rəhim oğlu Allahverdiyev 1944-cü il aprel ayının 1-də Qərbi Azərbaycanda anadan olmuşdur.

Rusiyada P.N.Lebedev adına Fizika İnstitutunu bitirdikdən sonra 1967-ci ildən AMEA-nın Fizika İnstitutunda çalışmışdır.

Kərim Allahverdiyev 1969-1972-ci illərdə aspiranturanı bitirmiş, 1972-ci ildə namizədlik, 1981-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1974-1975-ci illərdə Böyük Britaniya Oksford Universitetinin Clarendon laboratoriyasında çalışan alim 1992-1995-ci illərdə Ankarada Ortadoğu Texniki Universitetinin fizika fakültəsində professor kimi fəaliyyət göstərmişdir. 1995-ci ildən etibarən TUBİTAK Mərmərə Araşdırma Mərkəzində şöbə müdiri, 2002-ci ildən AMEA Fizika İnstitutunun aparıcı elmi işçisidir.

Kərim Rəhimovun 40-dan artıq universitet və araşdırma mərkəzi ilə elmi əlaqələri mövcud olmuşdur. Bu qurumlar arasında Moskva Dövlət Universiteti (Rusiya), məşhur Oksford, Kembric, Şeffild, London, İmperial universitetləri (Böyük Britaniya), MPI FKF, Ştutqart, Axen, Hamburq universitetləri (Almaniya), ABŞ Hava Qüvvələri "Laboratoriyası, Kolorado Əyalət Universiteti, Cincinatti Universiteti, Tsukuba Universiteti (Yaponiya) və Madrid Universitetini (İspaniya) və digər nüfuzlu universitetlərin adlarını çəkmək olar. 11 ildən artıq yarımkeçiricilər fizikası sahəsində çalışan alim bir sıra mühüm elmi nəticələr əldə etmişdir. Son 20 il ərzində isə lazer və lazer spektroskopiyası ilə işləyir. Bu mövzuda ilk məqaləsi 1970-ci illərdə nəşr olunmuşdur.

Professor Kərim Allahverdiyev 295 elmi məqalənin, 2 kitabın və 5 patentin müəllifidir. Onun rəhbərliyi altında 15-dən artıq elmlər namizədi hazırlanmış, 3 doktorluq dissertasiyası müdafiə edilmişdir.

Professor Kərim Allahverdiyev bir çox mükafatlara, orden və medallara layiq görülmüş, nüfuzlu beynəlxalq elmi təşkilatların üzvü seçilmişdir. 1988-ci ildə alim Azərbaycan Dövlət mükafatı, 1989-cu ildə Axen Texniki Universitetinin "Elmə açılan pəncərə" ("Window-on-Science") mükafatı, 1987-1989-cu illərdə Avropa Aerokosmik tədqiqatları ofisi tərəfindən ziyarətçi professor olaraq Krallıq Cəmiyyəti mükafatına, əldə etdiyi nailiyyətlərinə görə SSRİ Elmlər Akademiyası tərəfindən "İlin ən önəmli alimi" fəxri adına layiq görülmüşdür. Nyu-York Elmlər Akademiyası (1998), Azərbaycan Milli Yaradıcılıq Akademiyası (1988), A.M.Proxorov adına Rusiya Mühəndislik Akademiyasının, Avropa Elmlər Akademiyasının (2008), eləcə də Türkiyənin "Fizika" jurnalının Redaksiya Heyətinin üzvüdür.

2013-cü ildə qeyri-xətti optik sahəsindəki işə görə ABŞ Hava Qüvvələrinin mükafatına layiq görülmüşdür. 2009-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t :

Allahverdiyev Kərim Rəhim oğlu // Azərbaycan Milli Ensiklopediyası.- Cild 1.- Bakı, 2009.- S.334.

Динамические и статические нелинейные эффектыв слоистых кристаллах типа селенида галлия / К.Р.Аллахвердиев, Е.Й.Салаев.- Баку, 1993.

Пикосекундная спектроскопия свободных экситонов в "чистых" и легированных кристаллах селенида галлия / К.Р.Аллахвердиев, Н.Б.Мустафаев, М.М.Тагиев.- Баку: ИФАН АзССР, 1988.- 80 с.

Керим Аллахвердиев, доктор физико-математических наук: «Если какой-то важный прибор невозможно купить, его надо создать» / Керим Аллахвердиев; интервью провела Г.Алиева // Азербайджанские известия.- 2015.- 5 ноября.- С.1, 3.

Adilə Şahtaxtinskaya - 130

(1894-1951)

Həkim



Adilə İsasultan qızı Şahtaxtinskaya 1894-cü il aprel ayının 17-də Tiflis şəhərində publisist və kollec müşaviri İsasultan Şahtaxtinskinin ailəsində anadan olmuşdur.

O, 1912-ci ildə Tiflisdə II qız gimnaziyasını bitirmişdir.

Adilə Şahtaxtinskaya H.Z.Tağıyevin birinci rus müsəlman qız məktəbində əvvəlcə müəllim, sonra müdir olmuş, ikiillik qadın pedaqoji kursunda dərs demişdir.

O, 1919-cu ildə Tiflisdə Tibb institutuna qəbul olunmuş, ancaq ali tibb təhsilini 1922-ci ildə Bakı darülfünunda tamamlamış və Azərbaycanın ilk qadın həkimlərindən biri olmuşdur.

Adilə Şahtaxtinskaya 1930-cu ildə Azərbaycan Sovet mama-ginekoloqu, tibb elmləri doktoru, 1933-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) mamalıq və ginekologiya kafedrasının müdiri olmuş, 1936-cı ildə professor elmi adını almışdır. Adilə xanım tibb elmləri doktoru, professor adını alan və qadın kafedra müdirlərindən ilk azərbaycanlı qadın olmuşdur. Adilə Şahtaxtinskaya Azərbaycanda tədqiqatları, əsasən, qadın gigiyenasına, kəsilib götürülmüş uşaqlığın yumurtalıqlara təsirinə, eklampsiyaya həsr olunmuşdur.

O, 1937-ci ildə "Xalq düşməninin arvadı" kimi sürgün edilmiş, Mordvanın Potma rayonundakı qadın həbs düşərgəsində 5 il əzab-əziyyət çəkdikdən sonra azadlığa buraxılmışdır.

Adilə İsasultan qızı Şahtaxtinskaya 1951-ci il mart ayının 30-da (bəzi mənbələrdə ölüm tarixi 1949-cu il göstərilmişdir) Tiflisdə vəfat etmişdir. Tiflisin köhnə müsəlman qəbiristanlığında, indiki botanika bağının ərazisində yerləşən Görkəmli Azərbaycanlılar panteonunda dəfn edilmişdir.

Ə d ə b i y y a t :

Şahtaxtinskaya Adilə İsasultan qızı // Azərbaycan qadını ensiklopediyası / [X. Abbasov [və b.]]; red. hey. R. Mehdiyev (sədr) [və b.]; baş red. İ. Vəliyev.- Bakı.- 2002.- S. 364.

Gəncəli, S. Adilə xanım Şahtaxtinskaya / Sabir Gəncəli // Hər sətirdə bir tarix...: "Hər sətirdə bir tarix" ensklopedik - toplu / S.Gəncəli; red. Ş.Əbülfəzqızı; ön söz. müəl. Z.Verdiyeva.- Bakı, 1994.- S.135-136.

Gəncəli, S. Əsrin əvvəlllərində parlayan ulduzlar: [Naxçıvanın ilk ziyalı xanımları Nazlı xanım Tahirova-Nəcəfova, Sofiya xanım və qızları Leyla, Adilə Şaxtaxtinskayalar haqqında] / Sabir Gəncəli // Naxçıvan.- 1997.- 8 mart.- S.3

Beynəlxalq Uşaq Kitabı Günü
(1953)



Beynəlxalq Uşaq Kitabı Gününün bu tarixdə qeyd olunmasını alman yazıçısı Yella Lepman təklif etmişdir. Uşaq ədəbiyyatı gününün məhz bu tarixə təsadüf etməsinin maraqlı bir tarixçəsi vardır. Məşhur nağılçı Hans Xristian Andersen 1805-ci il aprelin 2-də anadan olmuşdur. 1953-cü ildə Yella Lepman uşaq ədəbiyyatı üzrə "balaca Nobel mükafatının" - "Hans Xristian Andersen" mükafatının təsis edilməsini təklif etmişdir.

1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası (International Board on Books for Young People-IBBY) tərəfindən isə Danimarka yazıçısı, uşaqların sevimlisi Hans Xristian Andersenin dünyaya gəldiyi gün - aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi təsis edilmişdir.

Ümumiyyətlə, uşaq kitablarının tarixi 1477-ci ildən, antik yunan müəllifi Ezopun mahnılarının yazılı kitab şəklində çap edilməsiylə başlayır. 1658-ci ildə çex maarifçisi və pedaqoqu Komenski uşaqlar üçün dünyanı anlatmaq məqsədi ilə rəsmlərin yer aldığı kitab nəşr etdirmişdir. XVIII əsrdə uşaqlara öz zövqlərinə görə kitab seçmək imkanı yaranmağa başlayıb. D.Defo və C.Sviftin "böyüklər" üçün yazılmış "Robinzon Kruzo" (1719) və "Qulliverin səyahəti" romanları ideal formada uşaqların oxu dairəsinə adaptasiya olunub. Şərqdə "Min bir gecə", "Ələddin", "Əli-Baba və qırx quldur", "Sindibadın yeddi səyahəti" nağılları da qeyd olunmalıdır. Qrim qardaşlarının nağıllar kitabı bu baxımdan diqqəti cəlb edir. 1846-cı ildən başlayaraq H.X.Andersenin qələmə aldığı nağılları uşaqlar bu gün də çox sevirlər. Müəlliflərin və kitabların adını çox sadalamaq olar. XIX əsri uşaq ədəbiyyatının "qızıl əsri" sayanlar da çoxdur. XIX-XX əsrlər Azərbaycanda da uşaq ədəbiyyatının inkişafı ilə xarakterizə olunur.

Beynəlxalq Uşaq Kitabı Günü ölkəmizdə də özünəməxsus şəkildə qeyd olunur. Hər il İçərişəhərdə bununla bağlı müxtəlif rəsm və kitab sərgiləri keçirilir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılır.

Azərbaycanda peşəkar uşaq ədəbiyyatının inkişafı öz mənbəyini XX əsrin əvvəllərindən götürür. Həmin vaxtdan başlayaraq ölkənin maarif və mədəniyyət sahəsində ciddi canlanma əmələ gəlib: bir sıra maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradılıb.

İlk vaxtlarda Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı və digərlərinin yaradıcılığı ilə təşəkkül tapan uşaq ədəbiyyatımız daha sonra növbəti nəsil yazıçıların əsərləri ilə daha da genişlənib. Çoxsaylı və gözəl, yaddaqalan şeir, təmsil və mənzum hekayələr qələmə alınıb və çap edilib.

İlk uşaq nəşr nümunəmiz maarif xadimi Əlisgəndər Cəfərzadənin "Dəbistan" jurnalı sayılır. Ardınca "Rəhbər", "Məktəb" kimi jurnallar da çap olunmuşdur. Bu gün uşaq nəşrləri qalereyamız xüsusilə zəngindir. Xüsusilə "Göyərçin" jurnalının fəaliyyəti qeyd etmək olar. "Göyərçin" ədəbi-bədii jurnaldır. Burada Azərbaycan və dünya xalqlarının nağılları, uşaq yazıçılarının əsərləri, folklor nümunələri olan tapmacalar, nağıllar, hikmətli sözlər nəşr edilir. Mirzə İbrahimov, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Əhməd Cəmil, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Əzizə Cəfərzadə, Hüseyn Abbaszadə, İsmayıl Şıxlı, Bayraqm Bayramov, Qılman İlkin, Gülhüseyn Hüseynoğlu, Balaş Azxəroğlu, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qasım Qasımzadə, Salam Qədirzadə, Nəriman Həsənzadə, Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Elçin, Əlibala Hacızadə, Vaqif İbrahim, Mövlud Süleymanlı və digər qələm sahiblərimiz uşaqlar üçün əsərlər yazmışdılar.

Ədəbiyyat:

Respublika Uşaq Kitabxanasında uşaq yazarları ilə görüşlər // Mədəniyyət.- 2023.- 5 aprel.- S.3.

Böyüyən nəslin mənəvi qidası: 2 aprel Beynəlxalq Uşaq Kitab Günüdür // Xalq qəzeti.-2023.- 2 aprel.- S.11.

"Kitab işıq saçar bir günəş kimi..." // Mədəniyyət.-2023.- 7 aprel.- S.4.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2023/aprel/843409.htm

Aprel döyüşləri

(2016)



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev aprel döyüşlərinə xüsusi önəm verərək, onu şanlı tariximiz adlandırmışdır: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri göstərdi ki, bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda ölümə getməyə hazırdırlar."

Erməni təcavüzkarlarının növbəti atəşkəs rejimini pozmaq cəhdi 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə baş vermişdir. Gün ərzində Azərbaycanın cəbhəboyu mövqeləri və yaşayış məntəqələri erməni silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalmışdır. Nəticədə 2 dinc sakin ölmüş, 10 nəfər yaralanmış, infrastruktur obyektləri zədələnmiş, evlər dağıdılmış, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəymişdir. Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin qorunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirləri həyata keçirilmiş, Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan məntəqəsi və Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə adlanan yüksəklik düşməndən azad edilmişdir. Döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz (Suqovuşan) istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etmişdir.

Hərbi əməliyyatlar zamanı ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilmiş, 320 erməni döyüşçüsü öldürülmüş və 500-dən artıq döyüşçü isə yaralanmışdır.

Aprel ayının 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılmışdır. Razılaşma Rusiyanın paytaxtı Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilmişdir.

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə başlanılması oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesi başladıldı. Bu kəndin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtdılar.

Tarixə "Dördgünlük müharibə" adı ilə düşən aprel döyüşləri gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Aprel döyüşlərində qazanılan qələbə xalqımızın orduya olan inamını artırdı. Bu uğurlu döyüşlər Silahlı Qüvvələrimizin gələcəkdə qazanacağı qələbələrin başlanğıcı oldu.

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində qorunub saxlanılan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şərəfli missiyasını uğurla davam etdirir. Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlığa sahibdir. Aprel döyüşləri Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını, xalqın arzu və istəyini reallaşdıracaq ordumuzun şəxsi heyətinin daim döyüşə hazır olduğunu göstərdi. Aprel zəfəri sübut etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti istənilən qələbələri qazanmağa qadirdir.

Ədəbiyyat:

Bünyatov, Ş. 20 Yanvar hadisəsi və aprel döyüşlərinin milli ruhumuzun inkişafındakı rolu / Ş.Bünyatov; elmi red. S.Talıblı; [Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; 20 yanvar fondu]. – Bakı: Zərdabi LTD MMC, 2017. – 298 s.

Əliyev, E. Murov qartalı: əfsanəvi kəşfiyyatçı polkovnik-leytenant Raquf İbrahim oğlu Orucov / Müəl. və tərt.: E.Əliyev, E.Salahov; məsləhətçilər: İ.Əhmədov, X.Məmmədov; red. M.Həsənov. – Bakı: Azərbaycan Universiteti, 2017. – 199, [1] s.

Hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində Aprel döyüşlərinin rolu: metodik tövsiyələr / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. S.Quliyeva; ixtisas red. və burax. məsul K.M.Tahirov; red. A.Abdullayeva. – Bakı: [M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası], 2017. – 35, [1] s.

Aprel döyüşləri – tariximizin şanlı səhifəsi // Mədəniyyət.-2023.- 5 aprel.- S.4.

Digər tarixi hadisələr

Dünya Autizm Məlumatlandırma Günü

(2008)



XXI əsrin qlobal problemi hesab edilən autizm ölkəmizdə də ən aktual bir mövzudur. Aparılmış tədqiqatlara görə dünya əhalisinin 1 faizi, yəni 70 milyon əhali autizmin qurbanıdır. Qeyri-rəsmi stastistikamıza əsasən ölkəmizdə təxmini 5000 yaxın uşaq və yeniyetmə autizm sindromundan əziyyət çəkir. Getdikcə bu say artmaq üzrədir.

BMT tərəfindən Ümumdünya Autizm Günü kimi qəbul edildikdən sonra dünyaca məşhur "Autism speaks" cəmiyyəti bu günlə əlaqədar "Light it up Blue" ("Mavi işıqla işıqlandır") layihəsini həyata keçirir. Həmin gün yer kürəsinin müxtəlif ölkələrində ən görkəmli binalar autizmi simvolizə edən mavi rəngdə işıqlandırılaraq 2 Aprel tarixini Ümumdünya autizm günü olduğunu insanlara çatdırır. Məqsəd əhali arasında autizm haqqında maarifləndirməni artırmaq və autizmli insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməkdir.

Azərbaycan bu layihəyə Heydər Əliyev Fondu, BMT-nin Uşaq Fondunun (UNİCEF) və ölkəmizdə ilk autizm təşkilatı hesab edilən Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi (ADPYM) İctimai Birliyinin dəstəyi ilə 2012-ci ildə Ümumdünya Autizm günündə qoşulub. İlk dəfə ölkəmizdə bu aksiya zamanı görkəmli binalardan biri Bakı Biznes Mərkəzi, 2013-cü ildə isə H.Əliyev Fondu, UNİCEF və Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi İctimai Birliyinin birgə layihəsi əsasında Bakı Four Seasons oteli mavi işığa boyanaraq autizmi tanıdığını bəyan etdi. Həmin ildən etibarən hər il bu aksiya davam edir, ən görkəmli binalar Kristal Zalı (Cristal Holl), Bakı Four Seasons Oteli, Bakı Olimpiya Stadionu və s. mavi işığa boyanaraq "Gəlin autizm spektr pozuntularından əziyyət çəkən insanlarla əl-ələ işləməyə, onlara güclü tərəflərini inkişaf etdirməyə və eyni zamanda onların qarşılaşdıqları çətinliklərin qarşısını almağa davam edək və onlara haqları olan layiqli həyat yaşamalarına yardım edək" şüarına qoşularaq mavi işığa burunur, bununla da insanları autizm xəstəliyi haqqında məlumatlandırılır.

Onu da qeyd edək ki, autizmdən əziyyət çəkən uşaqlarda artıq 2-3 yaşdan etibarən xəstəliyin simptomları özünü büruzə verir. Ən dəqiq diaqnoz 3 yaşında qoyulur.

Dünya Autizm Məlumatlandırma Günü ilə əlaqədar olaraq 15 aprel 2022-ci il tarixində Bakı Slavyan Universitetində "İnklüziv təhsildən inklüziv cəmiyyətə" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Ə d ə b i y y a t :


http://sosial.nmr.az/metbuat-xidmeti/xeberler/87-2-aprel-d%C3%BCnya-autizm-m%C9%99lumatland%C4%B1rma-g%C3%BCn%-C3%BCd%C3%BCr.html

APREL

18

Tarixi Abidələrin Mühafizəsi Günü

(1983)



Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə YUNESKO tərəfindən 1983-cü ildə təsis olunmuşdur. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir. Abidələr və tarixi yerlər öz görkəmləri ilə xalqlara hər an kimliyini, nəyə qadir olduğunu xatırladır, vətən sevgisi və ona sadiqlik hisslərini aşılayır. Xalqın mənəvi xəzinəsinin, "mən"inin cəmləşdiyi bu maddiyyat insanlara ulu əcdadlarından danışır, milli özünüdərkin formalaşmasında mühüm rol oynayır.

Hazırda dünyada minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir. Ölkəmizin hər yerində yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Bütün bunlar xalqımızı torpağa, əcdadlarına bağlayan qırılmaz bağlardır. Azıx mağarasından tapılmış və azıxantrop adlandırılan qədim insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri bu ərazilərdə ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Ölkəmizin ərazisində Manna, daha sonralar cənubda Atropatena, Albaniya dövlətlərinin yaranması ilə bağlı şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilmişdir.

30 ilə yaxın işğal altında qalan torpaqlarımızda Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıtmışlar. Qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda çoxlu sayda memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, dekorativ sənət nümunələri, həmçinin, muzey, yüzlərlə mədəni-maarif müəssisələri düşmən tapdağı altında qalmışdır. Ermənistanın uzun müddət davam etmiş işğal zamanı Azərbaycan xalqına məxsus daşınmaz tarix və mədəniyyət abidələrini dağıtması, mənimsəməsi, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə edərək vandalizmə məruz qoyması isə təcavüzkar siyasətin nəticəsidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında Qobustan, "İçəri şəhər" Tarix-Memarlıq, "Qala" Tarix-Et-noqrafiya, "Nardaran" Tarix-Mədəniyyət, "Atəşgah" Tarix-Memarlıq Qoruğlarında dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidələr qeydə alınmışdır.

Tariximizin təcəssümü olan bu abidələr turizm baxımından da böyük əhəmiyyət daşıyır. Tarixi abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması sahəsində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin, Azərbaycanın vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkə daxilində və xaricində həyata keçirdikləri böyük işlər hər kəs üçün ən gözəl örnəkdir. Məhz onların gərgin əməyi sayəsində İçərişəhər memarlıq kompleksi, Qobustan Milli Tarix-Bədii Qoruğu YUNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir.

28 il işğal altında olan, 44 günlük İkinci Qarabağ Müharibəsi (27 sentyabr 2020-10 noyabr 2020 (1 ay 2 həftə) nəticəsində sonra azad edilən əhəmiyyətli mədəni-tarixi abidələrimiz – Azıx və Tağlar mağaraları da dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdir.

Ədəbiyyat:

Azərbaycanın maddi-mədəniyyət abidələrinin zənginliyi daim diqqət çəkir : 18 Aprel Tarixi Abidələrin Mühafizəsi Günüdür / Z.Fərəcova // Azərbaycan.-2023.- 18 aprel.- S.10.

Nərimanoğlu, M. Ermənistan dağıtdığı tarixi abidələrə görə məsuliyyət daşıyır: 18 aprel Beynəlxalq Abidələrin Mühafizəsi Günüdür / Məhəmməd Nərimanoğlu // Azərbaycan $g 2021.- 18 aprel.- S. 5.

Mükərrəmoğlu, M. Abidələr tarixi yaddaşımızı yaşadır / M.Mükərrəmoğlu // Xalq qəzeti.- 2022.- 19 aprel.- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2023/aprel/845519(meqale).pdf

Ümumdünya Yer Günü
(1970)



Əsası C.Sterlinq Mortan tərəfindən qoyulan Yer gününün bayram edilməsi XIX əsrin 40-cı illərindən başlamışdır. 1872-ci ildə C.Morton Nebraska ştatının il ərzində bir gününün ətraf ərazinin yaşıllaşmasına həsr edilməsi təklifi ilə çıxış etmiş və birinci ağacəkmə günü milyona yaxın ağac əkilmişdir. 1882-ci il 22 aprel tarixindən başlayaraq "Ağac günü" Nebraska hökuməti tərəfindən ştatın rəsmi bayramı kimi qeyd olunur.

1970-ci ildən başlayaraq ətraf mühitin əhəmiyyətinin təbliği, onun ilkin formada qorunub saxlanılması, planetin təbii ehtiyatlarının tükənməsi və s. sahələri əhatə etməsi ilə əlaqədar olaraq bayram "Yer günü" adlandırılmışdır.

Beynəlxalq Yer Günü BMT Baş Assambleyasının 2009-cu ildə keçirilmiş 63-cü sessiyasında təşkilatın 50-dən çox üzv dövlətinin birgə təşəbbüsü ilə təsis edilib. Şimal yarımkürəsində yazda, cənub yarımkürəsində isə payızda qeyd olunan həmin qlobal aksiyanın əsas məqsədi cəmiyyətin və planetdəki hər bir insanın diqqətini Yer kürəsinin, ətraf mühitin problemlərinə cəlb etmək və planeti xilas etmək üçün bəşəriyyətin qarşısında duran çətin vəzifələr haqqında məlumat əldə etmək imkanı yaratmaqdır.

Yer Günü "Planetimizə sərmayə qoyun" devizi altında qeyd olunur.

Hazırda planetdə plastik çirklənmə nəticəsində okeanların turşulaşması baş verir. İqlim dəyişikliyi, təbiətə antropogen təsirlər, meşələrin qırılması, torpaqdan istifadənin dəyişməsi, intensiv əkinçilik, heyvandarlıq təcrübələri və brakonyerlik kimi qəbuledilməz təcrübələr biomüxtəlifliyi məhv edir və bütün bunlar planetimizi məhv olmağa doğru aparır.

Yerdəki bütün canlıları dəstəkləyən ekosistemlər nə qədər sağlam olarsa, planet və onun sakinləri bir o qədər sağlam olar. Zədələnmiş ekosistemlərin bərpası yoxsulluğa son qoymağa, iqlim dəyişikliyi ilə mübarizə aparmağa və kütləvi insan itkisinin qarşısını almağa kömək edəcək. Beynəlxalq Yer Günü də hər birimizin varlığımızı planetimizə və onun ekosistemlərinə borclu olduğumuzu xatırlatmaq məqsədi daşıyır.

Qeyd edək ki, 2014-cü ilin noyabr ayından ölkəmizin bütün guşələrində Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünün təsisçisi Leyla xanım Əliyevanın layihəsi əsasında ağacəkmə kampaniyasına start verilib. Bu aksiya çərçivəsində ölkə miqyasında xeyli ağac və gül kolları əkilmişdir.

Ə d ə b i y y a t :

Rzalı, R. Qlobal kataklizmlərin qarşısını almaq üçün Yeri və Göyü qorumalıyıq: 22 aprel Ümumdünya Yer Kürəsi Günüdür / Rəsmiyyə Rzalı // Azərbaycan.- 2011.- 22 aprel.- S.7.

Qarayeva, S. Ekoloji fəlakətə yol açan meşə yanğınları / Sevinc Qarayeva // 525-ci qəzet.- 2023.- 19 sentyabr.- № 167.- S. 14.

İsaxan, El. Ekologiya və ətraf mühitin mühafizəsi daim dövlətin diqqətindədir / Elnurə İsaxan // Hərbi and.- 2023.- 4 avqust.- № 28.- S. 7.

Feyizli, M. Dünyamızı necə xilas edək? / Mübariz Feyizli // Yeni Azərbaycan.- 2023.- 29 avqust.- № 154.- S. 5.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində terror hadisəsi - 15
(2009)



2009-cu il aprelin 30-da səhər saatlarında ADNA-nın Bakı şəhəri Dilarə Əliyeva küçəsi, 227 ünvanında yerləşən ikinci korpusuna daxil olan Gürcüstan vətəndaşı, 1980-ci il təvəllüdlü Fərda Qədirov binanın birinci mərtəbəsindən altıncı mərtəbəsinədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açıb. O, hadisə zamanı 12 nəfəri öldürüb, 13 nəfəri yaralamışdır. Daha sonra intihar etmişdir.

Faktla bağlı Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adam öldürmə, qaçaqmalçılıq, qanunsuz olaraq odlu silah, döyüş sursatı əldəetmə, saxlama, daşıma və gəzdirmə və qanunsuz olaraq narkotik vasitələri əldəetmə, saxlama və daşıma maddələri ilə cinayət işi açılmışdır. Hüquq-mühafizə orqanlarının apardığı araşdırmadan sonra məlum olub ki, terror aktı törədən Fərda Qədirov erməni xüsusi xidmət orqanlarının sifarişini yerinə yetirmişdir. İstintaq materiallarına görə, o, Gürcüstan vətəndaşı Mardun Qumaşyan adlı erməni ilə mütəmadi əlaqədə olmuşdur. Hətta hadisəni törətmək üçün ona külli miqdarda pul və silah vermişdir. Mardun Qumaşyan barəsində həbsli axtarış elan edilərək "İnterpol"a verilmişdir.

Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Neft Akademiyasında törədilən kütləvi qətllə bağlı məhkəmə keçirilmişdir. İşlə bağlı Cavidan Əmirov, Nadir Əliyev, Arif Qabulov və Nəcəf Süleymanov təksirkar bilinmişlər. Onlardan Arif Qabulov 11 il müddətinə, digərləri isə ömürlük azadlıqdan məhrum edilmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il 1 may tarixində "Azərbaycan Dövlət Neft və Sənaye Universitetində aprelin 30-da baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və ağır xəsarət alanlara maddi yardım ayrılması haqqında" Sərəncam imzalamışdır.

Faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Universitetin terror aktının törədildiyi ikinci tədris korpusunun foyesində faciə qurbanlarının xatirəsinə həsr olunmuş barelyef açılmışdır. Hadisədən bəhs edən və universitetin istehsalı olan "Bir sal yadına" sənədli filmi yaradılıb. Eyni zamanda, ADNSU-da hər il terror aktının ildönümü müxtəlif tədbirlərlə qeyd olunur.

Ə d ə b i y y a t :

Oruc, Z. Əslində terrorun ən başlıca hədəfi, bütövlükdə xalq idi / Zahid Oruc // Kaspi.- 2010. - 30 aprel. - S. 8.

Abdulla, A. 2009-cu il... ADNA-da bir adna günü / Arzu Abdulla // Mövqe.- 2011.- 30 aprel.- S. 13.

İ n t e r n e t d ə :

https://azertag.az/xeber/Azerbaycan_Dovlet_Neft_Akademiyasinda_toredilmis_terror_aktindan_14_il_otur-2594390

https://azadses.az/hadise/22877-adna-terrorundan-13-il-tr.html

MAY



21 aprel -
21 may

Buğa bürcünün Nişanı Yerdir. Veneranın himayəsindədir. Günəşin Buğa bürcündən keçdiyi dövrdə doğulanlar təbiətcə emosional olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30	31		

- *Şuşa şəhəri "Azərbaycanın Mədəniyyət paytaxtı" elan edilmişdir (07.05.2021)*
- *Ümummilli lider Heydər Əliyevin anadan olması (10.05.1923-12.12.2003)*
- *Heydər Əliyev Fondunun yaradılmasının (10.05.2004) 20 illiyi*
- *Beynəlxalq İqlim Günü (15.05.1992)*
- *Müstəqillik Günü (28.05.1918)*

Yaşıl dünya naminə həmrəylik ili



Prezident İlham Əliyevin 2010-cu ili ölkədə "Ekologiya ili" elan etməsi bu sahəyə diqqəti daha da artırmışdır. "Ekologiya ili" çərçivəsində, eləcə də sonrakı illərdə ölkəmizdə milyonlarla ağacın əkilməsi, yeni parkların salınması və dövlət başçısının özünün bu kompaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisidir. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir. Müstəqillik illərində ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaranmış, təbii ehtiyatların, o cümlədən faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Azərbaycan ətraf mühitin mühafizəsi üzrə ölkə üçün aktual olan bütün beynəlxalq konvensiyalara qoşulmuşdur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzdində xüsusi İctimai Ekoloji Şura yaradılmışdır. Ölkə rəhbərliyinin ekologiya ilə bağlı məsələlərə daim diqqət yetirməsi ətraf mühitin yaxşılaşdırılması istiqamətində aparılan işlərə güclü təkan vermiş, bu sahədə uğurla həyata keçirilmiş irimiqyaslı layihələr indi də davam etdirilməkdədir.

MAY 2024



Milli ədəbiyyat

Yazıçı Məlikzadə İsi Abbas oğlunun (01.05.1934-12.05.1995) anadan olmasının 90 illiyi 273
Yazıçı, jurnalist, tərcüməçi Əkbərov Məhəmməd Həmzə oğlunun (05.05.1909-10.12.1974) anadan olmasının 115 illiyi
Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Əfəndiyev Hikmət Ziya oğlunun (Hikmət Ziya) (13.05.1929-02.08.1995) anadan olmasının 95 illiyi
Xalq yazıçısı, nasir İbrahimov Hüseyn Məhəmmədəli oğlunun (23.05.1919-10.04.2008) anadan olmasının 105 illiyi
Şair Mehdizadə Abbasqulu Əlabbas oğlunun (Abbas Səhhət) (24.05.1874- 11.07.1918) anadan olmasının 150 illiyi 274
Yazıçı, şair, dramaturq, jurnalist, publisist Kazımov Məmməd İsrafil oğlunun (Məmməd Kazım) (25.05.1934-10.03.2018) anadan olmasının 90 illiyi 275
Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, nasir, dramaturq Əfəndiyev İlyas Məhəmməd oğlunun (26.05.1914-03.10.1996) anadan olmasının 110 illiyi 276
Əməkdar jurnalist, nasir İsmayılov İsmayıl Ələsgər oğlunun (28.05.1924-23.10.2003) anadan olmasının 100 illiyi



Folklor

Aşıq-şair Mirzalıyev Xaspolad Salman oğlunun (aşıq Xaspolad Gülablı (Coşqun) (21.05.1919-03.07.2000) anadan olmasının 105 illiyi
Şair, folklorşünas Kəmali Əli Əkbər oğlunun (24.05.1944-01.08.1999) anadan olmasının 80 illiyi
Aşıq Qədirov Bəylər Hacı Rəşid oğlunun (Aşıq Bəylər) (25.05.1914- 03.06.1991) anadan olmasının 110 illiyi 277



Dünya ədəbiyyatı

İngilis yazıçısı Voyniç Etel Lilianın (11.05.1864-28.07.1960) anadan olmasının 160 illiyi 278
Fransız yazıçısı Onore de Balzakın (20.05.1799-18.08.1850) anadan olmasının 225 illiyi 278
Müasir türk mütəfəkkiri, şair və yazıçısı Nəcib Fazil Qısakürək (26.05.1904-25.05.1983) anadan olmasının 120 illiyi 279
Rus şairi Aleksandr Sergeyeviç Puşkinin (26.05.(06.06).1799-29.01. (10.02).1837) anadan olmasının 225 illiyi
Rus yazıçısı Leonov Leonid Maksimoviçin (31.05.1899-08.08.1994) anadan olmasının 125 illiyi

MAY 2024



Rəssamlıq. Heykəltəraşlıq

Əməkdar incəsənət xadimi, rəssam, qrafik Hacıyev Əmir Səhliəli oğlunun (17.05.1899-21.08.1972) anadan olmasının 125 illiyi



Musiqi. Opera. Balet

Xalq artisti, sənətşünaslıq doktoru, professor, musiqişünas-alim Zöhrabov Ramiz Fərzulla oğlunun (02.05.1939-24.04.2017) anadan olmasının 85 illiyi 280
Xalq artisti, professor, pedaqoq, dirijor, bəstəkar Hacıbəyov Soltan İsmayıl oğlunun (08.05.1919- 19.09.1974) anadan olmasının 105 illiyi
Xalq artisti, rəqqasə, xoreoqraf-baletmeyster Cəlilova Roza İsmayıl qızının (17.05.1929) anadan olmasının 95 illiyi 281
Xalq artisti, baletmeyster Məmmədov Maqsud Davud oğlunun (30.05.1929) anadan olmasının 95 illiyi 282
Xalq artisti, Əməkdar incəsənət xadimi, bəstəkar Zülfüqarov Oqtay Qədir oğlunun (31.05.1929-31.08.2016) anadan olmasının 95 illiyi 283



Teatr. Kino

Xalq artisti, aktrisa Mütəllimova Firəngiz Bəhər qızının (01.05.1959) anadan olmasının 65 illiyi 284
Xalq artisti, teatr və kino aktyoru Cəfərzadə Rza Rüstəm oğlunun (Rza Əfqanlı) (15.05.1899-09.11.1973) anadan olmasının 125 illiyi
Xalq artisti, teatr rejissoru, ssenarist Məhərrəmov Firudin Əlməmməd oğlunun (10.05.1959) anadan olmasının 65 illiyi 285
Aktyor Anaplı (Məmmədov) Əbülhəsənin (22.05.1894 -28.08.1921) anadan olmasının 130 illiyi
Xalq artisti, teatr və kino aktrisası Yusupova Şükufə Mühəddin qızının (30.05.1954) anadan olmasının 70 illiyi 286



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Cəfərov Faiq Əliqulu oğlunun (01.05.1974-19.08.1999) anadan olmasının 50 illiyi 287
Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Namiq Vahid oğlunun (10.05.1974-09.02.1993) anadan olmasının 50 illiyi 288
Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Fikrət Əli oğlunun (19.05.1964-05.05.1992) anadan olmasının 60 illiyi 289



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Kapitan İsmayılov İmamverdi Yoloğlu oğlunun (01.05.1989 -29.09.2020) anadan olmasının 35 illiyi 290

Əsgər Ağayev Cavanşir Niyaməddin oğlunun (01.05.1999- 05.11.2020) anadan olmasının 25 illiyi 291
Əsgər Həsənzadə Məhəmmədəli Hörmət oğlunun (01.05.1999 – 06.11.2020) anadan olmasının 25 illiyi. 291
Əsgər Rüstəmov Vüqar Kamil oğlunun (1.05.1994-16.11.2020) anadan olmasının 30 illiyi. 292
Əsgər Şıxıyev Şahəli Əflatun oğlunun (01.05.1999-20.10.2020) anadan olmasının 25 illiyi. 292
Əsgər Məmmədov Araz Adil oğlunun (02.05.1994-04.11.2020) anadan olmasının 30 illiyi. 293
Əsgər Əlizadə Famil Habil oğlunun (03.05.1999 – 21.10.2020) anadan olmasının 25 illiyi 293
Çavuş Baxışova Arəstə Kərim qızının (04.05.1989-23.10.2020) anadan olmasının 35 illiyi. 294
Əsgər Şamilov Fərid Mirzə oğlunun (04.05.1999-09.11.2020) anadan olmasının 25 illiyi 294
Əsgər İbrahimov Bəhram Sakit oğlunun (05.05.1999-07.10.2020) anadan olmasının 25 illiyi. 295
MAHHXHQ əsgər Məmmədsalahov Kazım Sahib oğlunun (07.05.1989-07.10.2020) anadan olmasının 35 illiyi. 295
Əsgər Əhmədov Xəyal Hüseyn oğlunun (09.05.1994-04.11.2020) anadan olmasının 30 illiyi. 296
Əsgər Hacıyev Elmaz Elmar oğlunun (09.05.1994-04.11.2020) anadan olmasının 30 illiyi. 296
Əsgər Qaracayev Nurlan Ömər oğlunun (10.05.1999-08.10.2020) anadan olmasının 25 illiyi. 297
Əsgər Muradov Hüseyn Fərhad oğlunun (10.05.1994-08.10.2020) anadan olmasının 30 illiyi. 297
Gizir İbrahimov Zamanət Gülhəsən oğlunun (11.05.1989- 27.09.2020) anadan olmasının 35 illiyi 298
Gizir Qasımov Hüseyn Kamil oğlunun (13.05.1984-02.10.2020) anadan olmasının 40 illiyi. 298
MAHHXHQ əsgər Fətullayev Tərlan Amanşah oğlunun (15.05.1989 -25.10.2020) anadan olmasının 35 illiyi 299
MAHHXHQ kiçik çavuş Namazov Babək Səhman oğlunun (05.05.1994 -05.10.2020) anadan olmasının 30 illiyi 299
MAHHXHQ çavuş Xeyrullayev Cəlil Mürvət oğlunun (16.05.1989 -15.10.2020) anadan olmasının 35 illiyi 300
MAHHXHQ əsgər Alməmmədov İman Tarverdi oğlunun (17.05.1999 -09.11.2020) anadan olmasının 25 illiyi 300
MAHHXHQ əsgər Baxşiyev Vahid Məclum oğlunun (17.05.1999-30.10.2020) anadan olmasının 25 illiyi 301

Əsgər İsazadə Səfa Əmirxan oğlunun (17.05.1999-14.10.2020) anadan olmasının 25 illiyi 301
Əsgər Novruzov Allahverdi Bəhram oğlunun (17.05.1994-29.09.2020) anadan olmasının 30 illiyi 302
Kiçik leytenant Muradov Vüsal Cəsarət oğlunun (19.05.1999-29.10.2020) anadan olmasının 25 illiyi 302
MAHHXHQ əsgər Teymurov Elvin Mustafa oğlunun (20.05.1999-20.10.2020) anadan olmasının 25 illiyi 303
Əsgər Şalıyev Ceyhun Nüsrət oğlunun (20.05.1994-01.10.2020) anadan olmasının 30 illiyi 303
Kapitan Qurbanov İmran İlqar oğlunun (23.05.1989-29.09.2020) anadan olmasının 35 illiyi 304
MAHHXHQ çavuş Əliyev Rəfael Oruc oğlunun (24.05.1984-28.09.2020) anadan olmasının 40 illiyi 305
MAHHXHQ kiçik çavuş Qulamlı Ülvi Şahin oğlunun (24.05.1994-20.10.2020) anadan olmasının 30 illiyi 305
Əsgər Hacıyev Nicat Cahangir oğlunun (24.05.1989-02.10.2020) anadan olmasının 35 illiyi 306
Əsgər Əliyev Denis Aleksandroviçin (26.05.1989-08.10.2020) anadan olmasının 35 illiyi 306
Gizir Niftullayev Elşən Əfqan oğlunun (27.05.1999-10.10.2020) anadan olmasının 25 illiyi 307
Əsgər Bəşirzadə Hüseyn Xanhüseyn oğlunun (28.05.1994-21.10.2020) anadan olmasının 30 illiyi 308
Əsgər İbrahimli Kənan Azad oğlunun (28.05.1999-13.10.2020) anadan olmasının 25 illiyi 308
MAHHXHQ çavuş Əliyev Timur Nurəddin oğlunun (29.05.1984-13.10.2020) anadan olmasının 40 illiyi 308
Kapitan İsmayılov Elçin Mübariz oğlunun (30.05.1989-07.10.2020) anadan olmasının 35 illiyi 309
Baş leytenant Allahverdiyev Babək Bəxtiyar oğlunun (30.05.1979-04.11.2020) anadan olmasının 45 illiyi 310
Gizir Rəşidov Tural Fazil oğlunun (30.05.1989-16.10.2020) anadan olmasının 35 illiyi 311
Əsgər Sultanov Nurlan Yaşar oğlunun (31.05.1999-05.11.2020) anadan olmasının 25 illiyi 311

Siyasət. Hərbi iş

Hərbi xadim, polkovnik Məmmədov İsmayıl Məmməd Rəhim oğlunun (04.05.1909-29.11.1981) anadan olmasının 115 illiyi
Sovet İttifaqı Qəhrəmanı Allahverdiyev Müseyib Abdulla oğlunun (05.05.1909-19.05.1969) anadan olmasının 115 illiyi

Dövlət xadimi Sultanov Xosrov bəy Paşa bəy oğlunun (10.05.1879- 07.01.1943) anadan olmasının 145 illiyi
Siyasi xadim, hüquqşünas Ələsgərov Fuad Murtuz oğlunun (14.05. 1959) anadan olmasının 65 illiyi 312
İctimai və dövlət xadimi, texnika elmləri namizədi, professor Hüseynova Züleyxa İsmayıl qızının (29.05.1924-24.05.1996) anadan olmasının 100 illiyi 313



Tarix

Tarix elmləri doktoru Vəliyev Tofiq Talış oğlunun (07.05.1934-26.05.2014) anadan olmasının 90 illiyi 314



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, tənqidçi, ədəbiyyatşünas Seyidov Yusif Mirəhməd oğlunun (02.05.1929-18.11.2013) anadan olmasının 95 illiyi
Əməkdar elm xadimi, akademik, filologiya elmləri doktoru, professor, tənqidçi, ədəbiyyatşünas, nasir Cəfərov Məmməd Zeynalabdin oğlunun (Məmməd Cəfər) (09.05.1909-11.05.1992) anadan olmasının 115 illiyi 315
Filologiya elmləri doktoru, professor, dövlət xadimi, ədəbiyyatşünas Qurbanov Şamil Dünyamalı oğlunun (10.05.1934-16.01.2004) anadan olmasının 90 illiyi 316
Ədəbiyyatşünas, mətnşünas, publisist, biblioqraf Əsgərov Salman Məmmədəmin oğlunun (Salman Mümtaz) (20.05.1884-06.09.1941) anadan olmasının 140 illiyi 317
Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, pedaqoq Həkimov Mürsəl İsmayıl oğlunun (20.05.1929-15.04.2006) anadan olmasının 95 illiyi
İctimai-siyasi xadim, publisist, naşir, maarif və mədəniyyət xadimi, aktyor Hacınski Mehdi bəy Süleyman oğlunun (24.05.1879-18.06.1941) anadan olmasının 145 illiyi
Ədəbiyyatşünas, professor, publisist, Xuluflu Vəli Məmmədhüseyn oğlunun (26.05.1894-13.10.1937) anadan olmasının 130 illiyi 318

İdman




Əməkdar bədən tərbiyəsi və idman xadimi Nərimanov Bəhram Əhməd oğlunun (06.05.1934-10.06.2010) anadan olmasının 90 illiyi 319
Əməkdar məşqçi Ramazanov Emin Ramazan oğlunun (09.05.1934) anadan olmasının 90 illiyi

Əməkdar idman ustası İbrahimov Samir Həsən oğlunun (12.05.1964) anadan olmasının 60 illiyi



Riyaziyyat.Fizika.Astronomiya

İctimai xadim, fizika-riyaziyyat elmləri doktoru, professor Abutalıbov Hacıbala İbrahim oğlunun (13.05.1944) anadan olmasının 80 illiyi 320
Fizika üzrə elmlər doktoru, professor Barxalov Barxal Şaban oğlunun (15.05.1944-21.03.2021) anadan olmasının 80 illiyi



Kimya.Biologiya.Tibb

Tibb elmləri doktoru Haqverdiyeva Tahirə Həbib qızının (02.05.1949) anadan olmasının 75 illiyi
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Nəsrullayeva Həcər Məhəmməd qızının (12.05.1924-2005) anadan olmasının 100 illiyi 321



Texnika.Mühəndis işi

Əməkdar mühəndis, dövlət xadimi Ləmbəranski Əliş Cəmil oğlunun (10.05.1914-01.05.1999) anadan olmasının 110 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Kitabxanaçı, publisist Ələsgərov Bəybala Aydabala oğlunun (09.05.1954) anadan olmasının 70 illiyi 322
Filologiya elmləri doktoru, kitabşünas alim, yazıçı-publisist Cəfərov Əliağa Qafar oğlunun (16.05.1954) anadan olmasının 70 illiyi 323



Digər tarixi hadisələr

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü (03.05.1993)
Beynəlxalq Günəş Günü (03.05.1994)
Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü (05.05.1992)
“Xalçaçı günü” peşə bayramı (05.05.2016) 324
Şuşa şəhəri “Azərbaycanın Mədəniyyət paytaxtı” elan edilmişdir (07.05.2021)
Ümumdünya Qırmızı Xaç və Qızıl Aypara Günü (08.05.1953)
Faşizm üzərində Qələbə Günü (09.05.1945) 325
Heydər Əliyev Fondunun yaradılmasının (10.05.2004) 20 illiyi 326
“Dinc dağlar” Beynəlxalq ekspedisiyasının üzvü Mursaqulov Səridanən Azərbaycanın dövlət bayrağını dünyanın ən uca zirvəsi olan Everestə sancmışdır (12.05.1999)
Beynəlxalq İqlim Günü (15.05.1992) 327
Beynəlxalq Ailə Günü (15.05.1994) 327

MAY 2024

Azərbaycan Dövlət Pantomima Teatrının (16.05.1994)
yaradılmasının 30 illiyi 328
Ümumdünya İnformasiya Cəmiyyəti Günü (17.05.2006)
Beynəlxalq Elektronrabitə Günü (17.05.2006)
Beynəlxalq Muzeylər Günü (18.05.1977) 329
Ümumdünya Metrologiya Günü (20.05.1875)
Azərbaycan Respublikası ilə Malavi dövləti arasında diplomatik münasibətlər
qurulmuşdur (21.05.2004)
Ümumdünya Dialoq və İnkişaf Uğrunda Mədəni Müxtəliflik Günü (21.05.2003)
Beynəlxalq Bioloji Müxtəliflik Günü (22.05.2000)
Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı
Günü (23.05.2007)
Müstəqillik Gününün dövlət bayramı kimi qeyd edilməsi (28.05.1990) 330
Azərbaycan Respublikası Keniya ilə diplomatik əlaqələr qurmuşdur (28.05.2004)
Ağdam Sənaye Parkının yaradılması haqqında fərman imzalanmışdır (28.05.2021)
Ümumdünya Tütünlə Mübarizə Günü (31.05.1988)

MAY
1

İsi Məlikzadə – 90

(1934-1995)

Yazıçı



İsi Abbas oğlu Məlikzadə 1934-cü il may ayının 1-də Ağcabədi rayonunda anadan olmuşdur. Xalfərəddin kənd orta məktəbini bitirdikdən sonra, 1952-1957-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) neft-kimya fakültəsində təhsil almışdır.

1957-1961-ci illərdə "Əzizbəyovneft" mədənlər idarəsində operator, yerüstü avadanlıq ustası, 1961-1966-cı illərdə Azərbaycan Kommunal Təsərrüfatı Nazirliyi Baş Qaz İdarəsində böyük mühəndis, şöbə rəisinin müavini vəzifələrində çalışmışdır. 1966-1973-cü illərdə "Ulduz" jurnalı redaksiyasında Publisistika şöbəsinin müdiri, məsul katib, 1974-1976-cı illərdə Azərbaycan Dövlət Nəşriyyatında redaktor, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari redaksiya heyətinin üzvü, 1976-1980-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında Nəsr şöbəsinin müdiri, 1980-1981-ci illərdə "Ulduz" jurnalı redaksiyasında Nəsr şöbəsinin müdiri, 1981-1983-cü illərdə "Mozalan" satirik kinojurnalında böyük redaktor, 1983-1985-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor vəzifələrində işləmişdir. 1988-1990-cı illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrında ədəbi hissə müdiri işləmişdir. 1994-cü ildən ömrünün sonunadək "Azərbaycan" jurnalında Publisistika şöbəsinin müdiri, 1990-cı ildən Azərbaycan Mədəniyyət Fondunun Qarabağ filialının sədri vəzifələrində çalışmışdır.

İsi Məlikzadə 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Ədəbi fəaliyyətə XX əsrin 60-cı illərindən başlamış İsi Məlikzadənin "Baxmadı getdi" adlı ilk hekayəsi 1960-cı ildə, "Həsrətin sonu" adlı ilk kitabı isə 1964-cü ildə çap olunmuşdur.

Ədəbiyyatımıza yeni qəhrəman tipi gətirmiş, "60-cılar" ədəbi nəslinin nümayəndəsi olan İsi Məlikzadə "Küçələrə su səpmişəm", "Dədə palıd", "Gümüşgöl əfsanəsi", "Günəşli payız", "Yaşıl gecə", "Bir günün qonağı" povestlərinin, "Qırmızı yağış" romanının müəllifidir. Müstəqillik illərində yazıçının "Şehli çəmənlərin işığı" hekayələr kitabı və "Dolaşaların Novruz bayramı" povesti çap edilmişdir.

İsa Məlikzadənin Respublika teatrlarının səhnəsində "Gəl qohum olaq, "Sağlıq olsun", "Hərənin öz ulduzu, "Məndən nigeran qalmayın" pyesləri tamaşaya qoyulmuşdur

İsa Məlikzadə "Evin kişisi" (1978), "Evlənmək istəyirəm" (1983), "Kişi sözü"(1987), "Güzgü" (1990), "Pəncərə" (1991), "Ağ atlı oğlan" (1995), "Vətən mənə oğul desə" (1996) "Güllələnmə təxirə salınır!..." (2002), "Hərənin öz payı, öz tayı" (2006) və b. filmlərin ssenari müəllifi olmuşdur.

İsi Abbas oğlu Məlikzadə 1995-ci il may ayının 12-də vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın rafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq əsərlərin sırasında İsi Məlikzadənin əsərləri də daxil edilmişdir.

2019-cu ildə Azərbaycan Milli Kitabxanasında müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, yazıçı-dramaturq İsi Abbas oğlu Məlikzadənin anadan olmasının 85 illiyi münasibətilə "İsi Məlikzadə-85" adlı geniş kitab sərgisi açılmışdır.

Ədəbiyyat:

Yusifli, V. Azərbaycan povestində İsi Məlikzadə səhifəsi / Vaqif Yusifli //Ədəbiyyat qəzeti.- 2021.- 8 may.- S.24.

Bir xatirə / İsi Məlikzadə // Azad Azərbaycan.- 2020.-16 yanvar.- S.7.

"Qatarda" keçilən otuz illik yol: İsi Məlikzadənin "Qatarda" hekayələr kitabı haqqında qeydlər /Ə.Cahangir //Ədəbiyyat qəzeti.-2019.- 26 oktyabr.- S.14.

Seçmə hekayələr /İ. Məlikzadə ; tərtib edən və red. E. Astanbəyli ; dizayner L. Bəşirova ; bədii tərtibat A. Əliyeva. - [Bakı]: [Altun kitab], [2019]. - 240s.

Seçilmiş əsərləri / İ. Məlikzadə ; tərt. ed. İ. Qasımzadə ; ön söz. müəl. V. Yusifli ; [buraxıl. məsul Ə. Güləliyev ; tərtibatçı-rəssam N. Əliyeva].-Bakı: Şərq-Qərb, 2005.336 s.

İnternetdə:

http://www.anl.az/down/meqale/adalet/2014/may/369397.htm

Abbas Səhhət – 150

(1874-1918)

Şair



Abbasqulu Əlabbas oğlu Mehdizadə (Abbas Səhhət) 1874-cü il may ayının 24-də Şamaxı şəhərində anadan olmuşdur. Burada atasının açdığı məktəbi bitirdikdən sonra Tehran Universitetində tibb təhsil almışdır.

1901-ci ildə Şamaxıya qayıdaraq həkimlik və Rüşdiyyə məktəbində müəllimlik etmişdir. Bir müddət sonra həkimlik fəaliyyətini dayandırmış və bədii yaradıcılığa meyil etmişdir.

1905-ci il inqilabı milli ədəbiyyatın ümumi inkişafına təsir göstərdiyi kimi, Abbas Səhhətin də yaradıcılıq imkanlarının genişlənməsi üçün münbit şərait yaratmışdır. Onun ilk mətbu şeiri 1905-ci ildə "Şərqi-rus" qəzetində dərc edilmişdir.

Burjua-demokratik inqilabının təsiri onun poetik yaradıcılığında ictimai-siyasi motivləri gücləndirmişdir. Şeirlərində, nəsr əsərlərində və məqalələrində xalqın həyatını, milli azadlıq mübarizəsini, vətənə məhəbbəti, əxlaq və tərbiyə məsələlərini əks etdirmişdir.

Azərbaycan romantik ədəbiyyatı cərəyanının nümayəndəsi olan Abbas Səhhətin yaradıcılığına Şərqin Nizami, Hafiz, Sədi kimi şairlərinin böyük təsiri olmuşdur. O, türk xalqlarının ədəbiyyatları ilə də yaxından maraqlanmış, xüsusilə Tofiq Fikrətin yaradıcılığına diqqət göstərmişdir.

Ədibin tərcüməçilik fəaliyyəti də çox zəngin olmuşdur. O, M.Y.Lermontov, A.S.Puşkin, İ.A.Krılov, M.Qorki, V.Hüqo və digər şair və yazıçıların əsərlərini Azərbaycan dilinə tərcümə etmiş, onları 1912-ci ildə "Məğrib günəşləri" (iki cilddə) adlı kitabında çap etdirmişdir. O, "Vətən", "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi", "Özlərini sevənlərə", "Ey Vətən, getmə ki, əldən gedəriz", "Alimnümalar" şeirlərinin, "Əhmədin şücaəti", "Şair, muza və şəhərli" adlı poemaların, "Cərrahlıq", "Bədbəxt ailə", "Qaragünlü Həlimə" hekayələrinin, "Yoxsulluq eyib deyil", "Neft fontanı", "Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi" pyeslərinin, uşaqlar üçün yazılmış "Ana və bala", "Ata və oğul", "Yay", "Ayı və şir", "Quşlar" və onlarla başqa əsərlərin müəllifidir.

Azərbaycan xalqının ictima-isiyasi, ədəbi-fəlsəfi fikir tarixində özünəməxsus yer tutan Abbas Səhhət fəal mədəniyyət xadimlərindən olmuş, məktəblərin, kitabxanaların açılmasına çalışmışdır. O, Azərbaycanda İslam dəyərlərindən imtinaya qəti etiraz edərək, əsərlərində "ümummüsəlman qərbçiliyi" ideyasını dəstəkləmişdir. 1918-ci ilin martında erməni-daşnak quldur dəstələrinin Şamaxıda törətdiyi soyqırımdan sonra başlanan qaçqın həyatı, üzləşdiyi məşəqqət və nəhayət, yatalaq xəstəliyi şairin ölümü ilə nəticələndi. O, cümhuriyyət barədə arzularını həyata keçirmək üçün əməli fəaliyyət göstərə bilmədi.

Şair, tərcüməçi, maarif xadimi Abbas Səhhət 1918-ci il iyul ayının 11-də Gəncə şəhərində vəfat etmişdir. Respublikamızda bir sıra küçə, məktəb, kitabxana, mədəniyyət ocağı və uşaq bağçaları onun adını daşıyır.

2023-cü ildə Azərbaycanın görkəmli maarif xadimləri Mahmud bəy Mahmudbəyov və Abbas Səhhətin 1909-cu ildə birgə hazırladıqları "Yeni məktəb"(Türk dilinin təlimi üçün üçüncü ilə məxsus qiraət kitabı) adlı dərsliyin transfoneliterasiya olunmuş variantda çap olunmuşdur.

Ədəbiyyat:

Yeni məktəb: Türk dilinin təlimi üçün üçüncü ilə məxsus qiraət kitabı / M. Mahmudbəyov, Abbas Səhhət Mehdizadə; transfoneliterasiya ed. nəşrə hazırl., ön söz və lüğətin müəl. S. Nəsirova; elmi red. Ə. Nəcəfov; dizayner V. Hacıyev, [A. Aydın]; AMEA, M. Füzuli ad. Əlyazmalar İntu.- Bakı: [Zərdabi Nəşr], 2023.-176, [2] s.

Qurbanqızı, Z. Azərbaycan ədəbiyyatında romantizmin tanınmış nümayəndəsi: Abbas Səhhət 1874-cü il iyulun 11-də Şamaxıda dünyaya gəlib / Zümrüd Qurbanqızı // Respublika.- 2023.- 11 iyul.- S.7.

Azərbaycan türk mütəfəkkirləri insan və dünyanın təkamülü haqqında /F. Ələkbərli //Türküstan.-2022.- 4-10 oktyabr.- S.11.

Könlümün sevgili məhbubu mənim, Vətənimdir, vətənimdir, vətənim.. //Hərbi And.-2020.- 7 avqust.- S.22.

Vətənə sevgi və sədaqət dərsləri.../S.Fərəcov// Mədəniyyət.-2022.- 6 iyul.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Abbas_Səhhət

MAY
25

Məmməd Kazım – 90

(1934-2018)

Yazıçı



Məmməd İsrafil oğlu Kazımov 1934-cü il may ayının 25-də Masallı rayonunun Tatyan kəndində anadan olmuşdur. Uşaqlığı İkinci Dünya Müharibəsi illərinə təsadüf etdiyi üçün oxumağı və yazmağı özü öyrənmiş, müharibə bitdikdən sonra birbaşa ikinci sinfə qəbul edilmişdir.

1950-ci ildə 7 illik təhsilini başa vurduqdan sonra Bakıda Siyasi Maarif Məktəbinə qəbul olmuşdur. Yazdığı şeirler, o illərdə Maarif Məktəbində müəllim işləyən Xalq Yazıçısı Bayram Bayramov və Ədəbiyyat Dərnəyinin rəhbəri Yəhya Qarabağlı tərəfindən böyük maraqla qarşılanmışdır. İlk şeiri "Yeni həyat" qəzetində dərc olunan Məmməd Kazım 1956-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq Fakultəsində təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə 1953-cü ildə başlamış, Masallı rayon və kənd məktəblərində direktor, ədəbiyyat müəllimi, Masallı Radiosunda aparıcı və redaktor olaraq fəaliyyət göstərmişdir. 1966-cı ildə paytaxtdakı ədəbi mühitə yaxın olmaq üçün Xırdalana köçmüş və "Abşeron" qəzetinin şöbə müdiri, "Ədəbiyyat və incəsənət" qəzetinin isə əməkdaşı olmuşdur. Eyni ildə şairin "Qönçə" adlı ilk şeirlər kitabı işıq üzü görmüşdür.

Məmməd Kazımın təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Hərbi Şurasının qərarı əsasında Televiziyada Hərbi-Vətənpərvərlik tərbiyəsi redaksiyası yaradılmışdır. O, 1969-1985-ci illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində "Hünər" Hərbi-Vətənpərvərlik Redaksiyasına rəhbərlik etmiş, 1971-1983-cü illərdə isə "Hünər"in baş redaktoru və aparıcısı kimi fəaliyyət göstərmişdir. Eyni zamanda, 1990-cı ildə 70 min nüsxə ilə çap olunan "Hünər" kitabı böyük maraqla qarşılanaraq ən qısa vaxtda insanların stolüstü kitabına çevrilmişdir. Kitabda İkinci Dünya Müharibəsində şəhid olan yüzlərlə həmvətənlərimiz haqqında oçerklər yer almışdır.

"Zirvəyə yol axtarıram", "Xəzər laylası", "Xatın zəngləri", "Leytenant Kərimov və dostları", "Taleyim-qismətim", "Salam, General", "Gələrəm görüşünə", "Mirhəsən xanın övladları", "Ya peyğəmbər", "General Həzi", "Sahildə ucalan palıd", "Qarabağım-Qara bağrım", "Fateh" və sairə bu kimi nəzm və nəsr kitabları, eləcə də 3-cildlik "Seçilmiş əsərləri" Məmməd Kazımın Azərbaycan ədəbiyyatına qiymətli töhfələridir. O, bədii publisistikasına görə 1975-ci ildə "Qızıl Qələm" mükafatına layiq görülmüşdür.

Əsərləri rus, ukrayna, tatar, latış, ingilis və başqa dünya dillərinə tərcümə olunmuşdur. Məmməd Kazımın dilimizə tərcümə etdiyi Tatarıstanın xalq şairi Robert Minnullinin "Ətirli yarpaqlar" şeirlər kitabı tam orijinallığı ilə müstəqillik dövrünün poetik tərcümə işinə layiqli nümunədir.

Ssenariləri əsasında C.Cabbarlı adına Azərbaycanfilm Kinostudiyası tərəfindən 416-cı Azərbaycan Diviziyasının qəhrəmanlığına Taqanroqda ucaldılmış abidənin açılışından bəhs edən film, həmçinin, Azərbaycan Televizisiyasının sənədli filmlər studiyası tərəfindən "Dnepr qəhrəmanı", "Onu peşə məktəbi yetişdirmişdir" və "Hünər" filmləri çəkilmişdir.

Məmməd Kazımın ədəbiyyat sahəsindəki xidmətlərinin mühüm bir hissəsini naşirlik fəaliyyəti təşkil edir. Onun 1990-cı illərdə təsisçisi və baş redaktoru olduğu "Qala" qəzeti ədəbi proseslərin canlanmasında, hazırda Azərbaycan ədəbiyatının aparıcı imzalarına çevrilmiş insanların vaxtilə üzə çıxmasında böyük rol oynamışdır. O, Vətəndaş Həmrəyliyi Partiyasının ilk qurucularından və VHP Ali Məclisinin (Ali Şurasının) ilk üzvlərindən biri olmuşdur.

Məmməd Kazım 2018-ci il mart ayının 10-da Bakıda vəfat etmiş, Xırdalan Qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat:

Ədiloğlu, N. İşıqlı əməllərlə qazanılmış unudulmazlıq: [şair-publisist Məmməd Kazım haqqında] / Nurəddin Ədiloğlu // 525-ci qəzet.- 2023.- 19 iyul.- S.11.

Hacı, K. Məmməd Kazımın romanı $h [Azərbaycan televiziyasında "Hünər" verilişinin yaradıcısı və aparıcısı haqqında] / Kənan Hacı // Ədalət.- 2019.- 9 aprel.- S.7.

Məmməd Kazımın ədəbi dünyası (Elegiya)/A. İdrisoğlu //Azad Azərbaycan.-2018.- 17 aprel.- S.7.

Mirhəsən xanın övladları : Üç hissəli roman /Məmməd Kazım // Bakı: Ergün, 1996.- 218 s.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Məmməd_Kazım

MAY
26

İlyas Əfəndiyev – 110

(1914-1996)

Nasir, dramaturq



İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 26-da Füzuli rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1930-1933-cü illərdə şəhər məktəbində və II dərəcəli partiya məktəbində dil və ədəbiyyat fənlərini tədris etmişdir. 1934-1938-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda coğrafiya şöbəsində qiyabi təhsil almışdır. O, 1938-1940-cı illərdə "Yeni yol", "Kommunist" qəzetlərinin redaksiyalarında ədəbi işçi, 1940-1941-ci illərdə "Ədəbiyyat qəzeti" redaksiyasında tənqid şöbəsinin müdiri, 1941-1947-ci illərdə Azərbaycan Radio Komitəsində ədəbiyyat şöbəsinin müdiri, 1944-1945-ci illərdə Bakı Kinostudiyasında Ssenari şöbəsinin rəisi, 1946-1947-ci illərdə "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

İlyas Əfəndiyev 1940-cı ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1952-1958-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi, 1958-1961-ci illərdə məsul katib kimi çalışmışdır.

Yazıçı ədəbi fəaliyyətə 1939-cu ildən başlamışdır. İ.Əfəndiyevin "Berlində bir gecə" adlı ilk hekayəsi 1939-cu ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuşdur. "Söyüdlü arx" (1958), "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1978), "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981) kimi romanları, bir çox digər povest və hekayələri Azərbaycan və rus dillərində dəfələrlə Bakıda nəşr edilmişdir. Eyni zamanda, əsərləri keçmiş SSRİ xalqlarının dillərinə, ingilis, fransız, alman, çex, slovak, bolqar, macar və başqa dillərə tərcümə olunmuşdur.

Onun "İşıqlı yollarla" (1947), "Bahar suları" (1948), "Atayevlər ailəsi" (1954), "Sən həmişə mənimləsən" (1964), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Mənim günahım" (1970), "Mahnı dağlarda qaldı" (1971), "Xurşudbanu Natəvan" (1981), "Büllur sarayda" (1983), "Şeyx Məhəmməd Xiyabani" (1986), "Bizim qəribə taleyimiz" (1988) və başqa pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, eləcə də respublikanın digər teatrlarının səhnəində tamaşaya qoyulmuşdur və bütün bunlar Azərbaycan dramaturgiyası tarixində "İlyas Əfəndiyev teatr məktəbi"-nin formalaşmasına səbəb olmuşdur.

İlyas Əfəndiyev 1960-cı ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, 1972-ci ildə Dövlət mükafatı laureatı olmuşdur. 1974-cü ildə Azərbaycanın Xalq yazıçısı fəxri adına layiq görülmüşdür. 1949-cu ildə "Şərəf nişanı", 1971-ci ildə "Qırmızı Əmək Bayrağı", 1974-cü ildə "Oktyabr inqilabı", 1994-cü ildə "Şöhrət" ordenləri və bir çox medallarla təltif olunmuşdur.

İlyas Əfəndiyev 1996-cı il oktyabr ayının 3-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

2001-ci ildə ulu öndər Heydər Əliyev yazıçının xatirəsinin əbədiləşdirilməsi haqqında, 2004 və 2014-cü illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İlyas Əfəndiyevinin 90 və 100 illik yubileylərinin keçirilməsi haqqında Sərəncamlar imzalamışlar.

Yazıçının xatirəsini əbədiləşdirmək məqsədilə poçt markası və zərflər buraxılmış, xatirə lövhəsi, xatirə abidəsi, büstü qoyulmuşdur. Bakıda Elitar gimnaziya və beynəlxalq fond ədibin adını daşıyır. Dünya sularında "İlyas Əfəndiyev" gəmisi üzür.

Azərbaycan Milli Kitabxanası 2014-cü ildə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "İlyas Əfəndiyev" biblioqrafiyasını və 2022-ci ildə "İlyas Əfəndiyev. Geriyə baxarkən" fotoalbomunu nəşr etdirmişdir.

Ədəbiyyat:

İlyas Əfəndiyev: biblioqrafiya / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. G. Səfərəliyeva; red. və burax. məsul K. Tahirov; ön söz müəl. Ş. Alışanlı.- Bakı: [s. n.], 2014. -

511, [1] s.

Üçatılan: (roman) / İlyas Əfəndiyev; tərt., red. və ön söz müəl. N. Tapdıqoğlu (Vəlişov); [dizayner V. Əliyev].- Bakı: [İmza], 2023.- 255, [1] s.

İlyas Əfəndiyev : Yaddaş kitabçası. Bakı: Azərbaycan Milli Kitabxanası, 2023.-103 s.

Seçilmiş əsərlər : [6 cilddə] /İ. Əfəndiyev

I cild .-Buraxılış məlumatları Bakı: Yazıçı, 1984.

-359 s.

Ruhu Qarabağla səsləşən İlyas Əfəndiyev// Ədalət.-2020.- 10 oktyabr.- S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/İlyas_Əfəndiyev

MAY
25

Aşıq Bəylər – 110
(1914-1991)



Aşıq Bəylər Hacı Rəşid oğlu Qədirov 1914-cü il may ayının 25-də Salyan rayonunun Çuxanlı kəndində anadan olmuşdur. O uşaq yaşlarından aşıq sənətinə maraq göstərmiş, yüksək bacarıq və istedadı sayəsində bu sənətin bilicisinə çevirilmişdir.

O, 1938-ci ildən el məclislərində çıxış etməyə başlamışdır. Azərbaycan Aşıqlarının II və III Qurultaylarında iştirak etmişdir. Bir sənətkar kimi xidmətləri yüksək qiymətləndirilmiş, diplom, fəxri fərman və müxtəlif mükafatlara layiq görülmüşdür. Aşıq Bəylər 1970-ci illərdə Moskvada "Azərbaycan mədəniyyəti günləri ongünlüyü"ndə iştirak etmişdir.

XX əsrdə Şirvan bölgəsində, eləcə də Azərbaycan səviyyəsində tanınan Aşıq Bəylər Qədirov Şirvan aşıq mühitinin layiqli nümayəndəsi olmuşdur. Aşığın sənətkar kimi formalaşmasında el şənlikləri mühüm rol oynamışdır. Beləki, yaşayıb-yaratdığı illərdə bölgədə keçirilən bütün ictimai tədbirlərdə, el şənliklərində fəal iştirak etmişdir.

1966-cı ildə Aşıq Abbas Tufarqanlının "Abbas və Gülgəz" dastanının ifası üçün Azərbaycan radio komitəsinin səs yazma studiyasına dövrünün tanınmış bir neçə aşıqları dəvət olunmusdur. Aşıq Bəylər bir neçə gün möhlət istəmiş və səs yazmaya gəlmişdir. Bədii şura Aşıq Bəylər Qədirovu qəbul etmişdir. Dastanda musiqili hissəni Aşıq Bəylər Qədirov, bədii hissəni Məhluqə Sadıqova və Lütfi Məmmədbəyli icra etmişdir. Həmin səsyazma Azərbaycan radiosunun qızıl fondunda saxlanılır. Yarım əsrdən çox telli sazı ilə xalqa xidmət edən Aşıq Bəylər "Peyvənd şıkəstə", "Kərəmi", "Peşron"un əvəz olunmaz ifaçısı olub. Hətta, o vaxtlar Aşıq Bəylər aşıq sənətinin "Bülbülü" adlandırılmışdır.

Qiymətli gözəlləmələr, ustadnamələr, dastanlar müəllifi və ifaçısı olan Aşıq Bəylər təkcə Şirvan-Muğan məktəbi ilə yox, eyni zamanda Gəncə-Tovuz və Göyçə-Borçalı məktəblərinə məxsus olan klassik aşıq havalarını özünəməxsus ustalıqla ifa etmişdir.

Görkəmli sənətkar Aşıq Bəylər 1991-ci il iyun ayının 3-də Salyan rayonunun Çuxanlı kəndində vəfat etmişdir.

Onun ifa etdiyi bir çox musiqi nömrələri və aşıq mahnıları Azərbaycan radiosunun qızıl fondunda saxlanılır. Belə musiqilərdən biri də müəllifi olduğu "Kəndimiz" aşıq mahnısı indi də sevilir və mütəmadi olaraq dinlənilir. Aşığın ilk musiqi albomu 1999-cu ildə çıxmışdır.

2006-cı ildə Azərbaycan Folklor İnciləri seriyasından olmaqla 14 musiqisindən (Telli sazım, Dolanır, Səhərlər, Pərimin, Qadan alım, Bizim qızlar, Vətən, Bizimdir, Pərim, Oynayır, Səs verir, Keçdi, Gözlərin, Bəxtəvər) ibarət musiqi albomu buraxılmışdır.

Ədəbiyyat:

Aşıq Bəylər // Azərbaycan folkloru antologiyası / AMEA, Folklor İn-tu; toplayanı. B. Hüseynov; tərt. ed., red. və ön sözün müəl. H. İsmayılov; nəşrinə məsul. Ə. Ələkbərli.- Bakı: Nurlan, 2008.- S. 293-295

Ustad aşıq Bəylər Qədirovun ruhu işığında... /İ.Sarıyeva//Mədəniyyət.az.-2017.- №6.- noyabr-dekabr.- S.51-53.

Aşıq Bəylər.-Bakı,1960.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Aşıq_Bəylər_Qədirov

MAY
11

Etel Lilian Voyniç – 160

(1864-1960) *İngilis yazıçısı*



Etel Lilian Voyniç 1864-cü il may ayının 11-də İrlandiyanın Kork şəhərində anadan olmuşdur. 1887-1889-cu illərdə Rusiyada yaşamışdır. F.Engels və K.V.Plexanovla tanış olmuşdur.

1897-ci ildə "Ovod", "Cek Reymond" (1901), "Oliviya Letam" (1904), "Ovod sürgündə" (1910), "Başmaqlarını çıxart" (1945) romanlarında italyan, rus, polyak xalqlarının inqilabi mübarizəsi əks etdirilir. Rus, Ukrayna, polyak dillərindən tərcümələri vardır. Musiqi əsərləri də bəstələmişdir. Onun "Babilistan" (1948) oratoriyası Rusiyada çarizmin devrilməsinə həsr olunmuşdur.

Etel Lilian Voyniç 1960-cı il iyulayının 28-də Nyu-Yorkda vəfat etmişdir. Vəsiyyətinə görə nəşi yandırılaraq külü Nyu-Yorkun mərkəzi parkına səpilmişdir.

Ə d ə b i y y a t :


Atmilçəyi / Etel Lilian Voyniç; ing. dil. tərc. A. Mahmudov; red. T. Musayev; tərtibatçı Z. Xəlilov; dizayner B. Qafarov.- [Bakı], [2021].- 398, [2] s.

Ayaqqabılarını çıxar...: [roman] / E. L. Voyniç; tərc. Z. Abdulla; [red. Q. Abbasoğlu ; qapaq dizaynı R. Qasım ; rəssam Y. Klimova].- [Bakı]: Qanun, [Əli və Nino].- [2023].- 486, [1] s.

20

Onore de Balzak – 225

(1799-1850) *Fransız yazıçısı*



Onore de Balzak 1799-cu il may ayının 20-də Fransanın Tur şəhərində anadan olmuşdur. İlk təhsilini Tur şəhərində, sonra Bandom kollecində almış, 1814-cü ildə Paris hüquq məktəbində davam etdirmişdir.

Balzakın yaradıcılığı janr etibarilə rəngarəngdir. İlk əsərlərindən olan, 1820-ci ildə yazdığı "Kromvel" faciəsi J.Rasinin yaradıcılığına təqliddir. Romantizmin təsiri ilə yazılmış "Biraq varisi", "Luzilyanlı Klotilda", "Yüzyaşlı qoca" və s. romanları melodramatikdir. Yaradıcılığının ilk illərində gizli imzalarla yazdığı əsərlərdən yazıçı sonralar imtina etmişdir. Balzaka şöhrət qazandıran ilk əsər Bretanda əksinqilabi qiyamın yatırılmasına həsr olunmuş "Şyanlar" tarixi romanıdır. Bundan sonra Balzak əsas əsərlərini mühüm tarixi-ictimai problemlərə həsr etmişdir.

Onun ən məşhur əsəri - "Bəşəri komediya" və ya "İnsan komediyası" (La Comédie humaine) adlı epopeyada fransız həyatının bütün sahələrinin 143 kitabda əks etdirilməsi planlaşdırılmışdır. Yazıçı bütün gücünü sərf edərək 90 roman və novella yazdı. Bu epopeyaya "Şaqren dərisi", "Yevgeniya Qrande", "Qorio ata", "Sezar Biroto", "İtirilmiş illüziyalar", "Vadidəki Zambaq" və s. romanlar daxildir.

XIX əsrin görkəmli fransız yazıçıdramaturqu Onore de Balzak 1850-ci il avqust ayının 18-də Parisdə vəfat etmişdir.

Ə d ə b i y y a t :

"Dahinin taleyi: Onore de Balzak / A.Feyzullayeva // Dünya ədəbiyyatı.- 2020.- №1.- S.15-20.

Qorio ata: [roman] / Onore de Balzak; tərc. M.Rəfili.- [Bakı]: [Qanun], [2020].- 351, [1] s.

MAY
26

Nəcib Fazil – 120

(1904-1983)

Türk şairi və yazıçısı



Nəcib Fazil oğlu Qısakürək 1904-cü il may ayının 26-da anadan olmuşdur.

O, İbtidai və orta təhsilini Amerikan və Fransız kollecləri ilə "Bəhriyyə" məktəbində (Hərbi Dəniz Litseyi) almışdır. Onun litseydəki müəllimləri arasında dövrün məşhur adamlarından olan Yəhya Kamal, Əhməd Həmdi (Aksəki), İbrahim Aşkı kimi söz ustadları var idi. 1924-cü ildə Nəcib Fazil İstanbul Universitetinin ədəbiyyat fakültəsinin fəlsəfə bölümünü bitirdikdən sonra Fransaya göndərilmiş, 1924-1925-ci illərdə Sorbonna universitetinin fəlsəfə fakültəsində təhsil almışdır.

Nəcib Fazil Türkiyəyə qayıtdıqdan sonra, 1928-1939-cu illərdə "Hollandiya", "Osmanlı" və "İş" banklarında müfəttiş və mühasibat şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1939-1943-cü illərdə "Fransız ökülü"nda, "Robert kolleci"ndə, İstanbul İncəsənət Akademiyasında, Ankara Dövlət Konservatoriyasında, Ankara Universitetinin dil və tarix-coğrafiya fakültəsində müəllimlik etmişdir.

Nəcib Fazil şairliyə 17 yaşında ikən, anasının arzusu ilə başlamış, ilk şerlərini 1922-ci ildə "Yeni Məcmuə"də dərc etdirmişdir. "Yeni Məcmuə" və "Yeni həyat" jurnallarında dərc olunan şeirləri ilə ictimaiyyətın diqqətini cəlb etmiş və ona qarşı böyük maraq oyanmışdır. Parisdən qayıtdıqdan sonra, 1925-ci ildə nəşr etdirdiyi "Hörümçək toru" ("Örümcek Ağı",) və 1928-ci ildə işıq üzü görmüş "Səkilər" ("Kaldırımlar") adlı şeir kitabları onu çox gənc yaşda dünyaya tanıtmışdır. "Səkilər" şeiri çox məşhur olduğu üçün ona bəzən "Səkilər şairi" (türkcə "Kaldırımlar şairi") də deyirlər. 1932-ci ildə nəşr etdirdiyi "Mən və ötəsi" kitabı ilə isə bu şöhrəti daha da artmışdır.

Nəcib Facil Şöhrətinin zirvəsində ikən fəlsəfi axtarışlarını davam etdirmiş və 1934-cü il həqiqətən də həyatının yeni bir dövrünə başlanğıcı olmuşdur. Nəcib Fazılın bütün həyat fəlsəfəsinin əks olunduğu dram əsərlərini bir-birinin ardınca ədəbiyyata qazandırması da bu dövrə təsadüf etmişdir. "Toxum", "Pul", "Bir Adam Yaratmaq", "Rəis bəy" kimi pyesləri böyük əks-sədaya səbəb olmuşdur. Bu əsərlərdən "Bir Adam Yaratmaq" türk dramaturgiyasının əsasını təşkil edir.

Nəcib Fazilin şairliyi və yazıçılığı qədər əhəmiyyətli istiqaməti, çıxardığı jurnallarla düşüncə həyatımıza qatdığı zənginlik və bu jurnallarda çıxan yazılarla davam etdirdiyi mübarizədir. Həftəlik Ağac jurnalı (1936) dövrün məşhur ədəbiyyatçılarının toplandığı bir məktəb olmuşdur. O, bir neçə ildə həbsə məhkum olmuşdur. Şair "Cinnət Mustatili" adlı əsərində həbsxana xatirələrindən bəhs etmişdir.

Nəcib Fazilin tez-tez bağlanılan və müxtəlif bəhanələrlə yığdırılan "Böyük Şərq"in çıxmadığı müddətlərdə gündəlik lətifə və müxtəlif yazıları "Yeni İstanbul", "Son Məktub", "Babıalide Səhər", "Bu gün", "Milli Qəzet", "Hər gün" və "Tərcüməçi" qəzetlərində nümayiş olunmuşdur. Böyük Şərqdə çıxan yazılarında öz imzası xaricində Adıdeğmez, Mürid, Əhməd Abdülbaki kimi təxəllüslərden istifadə etmişdir. 1962-ci ildən etibarən demək olar ki bütün Anadolu şəhərlərində verdiyi konferanslarla səsini böyük kütlələrə duyurmuşdur. Başda 1959-cu ildə işıq üzü görmüş "İdeoloqa Hörgüsü" əsəri olmaqla, bütün düşündürücü əsərləriylə mədəniyyət həyatımıza verdiyi böyük xidmət, digər bütün istiqamətlərini belə geridə buraxacaq üstünlükdədir.

1975-ci ildə Nəcib Fazilin anadan olmasının 50 illiyi Türkiyə Böyük Millət Məclisində qeyd edilmişdir. Nəcib Fazil 1980-ci ildə Mədəniyyət Nazirliyinin "Böyük Mükafat"ına, "İman və İslam atlası" adlı əsərinə görə fikir əsəri kimi 1981-ci ildə "Milli Kültür Vəqfi mükafatı"na, 1982-ci ildə Türkiyə Yazıçılar Birliyinin "Ali Xidmət mükafatı"na layiq görülmüşdür. Türk Ədəbiyyatı Vəqfi tərəfindən 1980-ci ildə "Sultan-üs Şüara" (Şairlər Sultanı) Fəxri adını almışdır. Əsərlərinin bir çox qismi Azərbaycanda da nəşr edilmişdir.

Nəcib Fazil Kısakürək 1983-cü il may ayının 25-də vəfat etmişdir.

Ədəbiyyat:

Anar. Nəcib Fazil və ötəkilər / Anar // 525-ci qəzet.- 2023.- 16 sentyabr.- S.14-15.

Babayeva, E. Nəcib Fazil Qısakürəyin yaradıcılıq yolu / Eşqanə Babayeva; elmi red. B. Ə. Nəbiyev; [son söz əvəzi A. Əmrahoğlu]; AMEA, Nizami adına Ədəbiyyat İn-tu.- Bakı: Elm və təhsil, 2013.- 195, [1] s.

Çilə [Mətn] : [şeirlər] /N. F. Qısakürək ; tərc. R. Qaraca ; red. T. Qaraca. Bakı]: [Alatoran], [2022].-481 s.

Nəcib Fazil Qısakürək yaradıcılığında tərbiyə məsələləri [Mətn] /M.A.Ceyhan // Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dillər Universiteti: Elmi Xəbərləri.-2020.- №2.- S.84-91.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nəcib_Fazil_Qısakürək

Ramiz Zöhrabov – 85

(1939-2017)

Musiqişünas-alim



Ramiz Fərzulla oğlu Zöhrabov 1939-cu il may ayının 2-də Bakı şəhərində anadan olmuşdur.

1947-1958-ci illərdə Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki orta ixtisas musiqi məktəbində təhsil almış və 1958-1960-cı illərdə Konservatoriyanın ifaçılıq fakültəsinin simli alətlər şöbəsində oxumuş, 1965-ci ildə isə Konservatoriyanı musiqişünaslıq ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə 1965-ci ildə Gəncə şəhərindəki Q.Hüseynli adına orta ixtisas musiqi məktəbində musiqi tarixi və nəzəriyyəsi üzrə müəllim kimi başlayan Ramiz Zöhrabov 1966-1968-ci illərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında xalq musiqisi üzrə redaktor vəzifəsində işləmişdir.

O, 1968-1969-cu illərdə Bakı şəhər 16 saylı musiqi məktəbində musiqi nəzəriyyəsindən dərslər aparmış, 1969-cu ildən etibarən indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasında çalışmışdır.

1990-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin katibi seçilən Ramiz Zöhrabov 2012-ci ilədək həmin vəzifədə çalışmış, ölkəmizdə musiqişünaslığın inkişafına dəyərli töhfələr vermişdir. 1974-cü ildə sənətşünaslıq namizədi, 1994-cü ildə sənətşünaslıq doktoru elmi dərəcəsini, 1992-ci ildə professor elmi adını almışdır.

Ramiz Zöhrabov şifahi ənənəli Azərbaycan professional musiqi janrlarının nəzəri problemlərinə, Azərbaycan bəstəkarlarının yaradıcılığına dair 20 kitabın, 350 elmi-publisistik məqalənin, bir sıra müxtəlif musiqi əsərlərinin müəllifidir. Bunlardan 1983-cü ildə Moskvada, 1991-ci ildə Təbrizdə nəşr edilən "Azərbaycan təsnifləri" kitabını, "Azərbaycan zərbi-muğamları" (1986), "Muğam" (1991), "Bəstəkarlarımızın portreti" (Bakı, 1997) kitablarını misal göstərmək olar. Bundan başqa, 1999-cu ildə Tehranda nəşr edilmiş "Azərbaycan modal musiqisi" kitabı, 2000-ci ildə Bakıda çap edilmiş "Cahargah muğamının nəzəri əsasları" kitabı da Azərbaycan musiqişünaslıq elminin tədqiqində xüsusi yer tutur. "Azərbaycan musiqi ədəbiyyatı", "Musiqi ədəbiyyatı", "Şifahi ənənəli Azərbaycan professional musiqisi" adlı dərsliklərin də müəllifidir. R.Zöhrabovun xalq çalğı orkestri üçün "Bayram lövhələri", "Uşaq səhnələri", "Ərdəbil lövhələri suitaları, instrumental pyesləri Dövlət Teleradio Verilişləri Şirkətinin fonduna daxil edilmiş, müxtəlif məzmunlu mahnıları məşhur müğənnilər, uşaq xoru və solistlər tərəfindən ifa olunmuşdur.

Ramiz Zöhrabov 1971-ci ildən televiziyada silsilə verilişlərin müəllifi və aparıcısı olmuşdur. Ramiz Zöhrabovun ilk dəfə olaraq, görkəmli xanəndələrin ifasında 100 təsnifi nota alması və onun əsasında təsniflərin janr xüsusiyyətlərinin təhlilini aparması, o cümlədən, 9 zərbi-muğamı xanəndə və sazəndə ansamblının ifasında partitura şəklində nota yazaraq, onların nəzəri əsaslarını öyrənməsi sayəsində fəaliyyəti diqqətəlayiqdir.

Azərbaycan musiqi mədəniyyətinin zənginləşdirilməsi sahəsində çoxillik səmərəli fəaliyyəti yüksək qiymətləndirilmiş, 1990-cı ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adını, 1997-ci ildə "Humay" mükafatını almışdır. 2008-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüş, 2009-cu ildə isə müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Professor Ramiz Zöhrabov 2017-ci il aprel ayının 24-də vəfat etmişdir.

Ədəbiyyat:

Görkəmli musiqişünas -alim: Ramiz Zöhrabov-80 /C. Həsənova//Musiqi dünyası.-2019.- №1/78.- C.110-112.

Ramiz Zöhrabov /L. Zöhrabova ; red. Z. Qafarova ; buraxıl. məsul Ə. Əsədzadə ; Azərb. Bəstəkarlar İttifaqı. Bakı: Renessans-A, 2020.26 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ramiz_Zöhrabov

MAY
17

Roza Cəlilova – 95

(1929) *Xoreoqraf-baletmeyster*



Roza İsmayıl qızı Cəlilova 1929-cu il may ayının 17-də Şabranda anadan olmuşdur. 1947-ci ildə Bakı Xoreoqrafiya məktəbini bitirərək, iki il M.F.Axundov adına Opera və Balet Teatrının balet truppasında çalışmışdır. 1949-cu ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblına keçmiş, 1965-ci ilə qədər ansamblın rəqs qrupunda solist kimi fəaliyyətini davam etdirmiş, 1965-1975-ci illərdə isə qrupa rəhbərlik etmişdir. 1973-1983-cü illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Xalq Yaradıcılığı Elmi-Metodik Mərkəzində baletmeyster kimi çalışmışdır.

Roza Cəlilova istedadla bərabər, Xoreoqrafiya Məktəbindən əxz etdiyi professional hazırlığı ilə səhnəyə qədəm qoyan ilk rəqqaslardan idi. Peşəkar keyfiyyətləri sayəsində rəqqasə iki il sonra sənətdə bir-birinin ardınca böyük uğurlara imza atmağa başlamışdır. Professional rəqslə folkloru məharətlə birləşdirməsi onun şöhrətini artırmışdır. Lirik süjeti, bədən plastikası və kəpənək uçuşunu xatırladan zərif əl hərəkəti ilə rəqqasə hər bir rəqsində mükəmməl, bitkin bir sənət əsəri yaradırdı. Repertuarına Azərbaycan milli rəqsləri "Bənövşə", "Novruzu", "Zərif yerişli", "Qaragöz", "Lalə", "Tərəkəmə", "Ənzəli", həmçinin iran, hind, ərəb, benqal və b. xalqların rəqsləri daxildir.

Rəqqasə parlaq ifaçılığı ilə yanaşı, uzun illər xoreoqraf kimi də fəaliyyət göstərirdi. O, 1989-cu ildə "Gülüstan" Mahnı və Rəqs Ansamblını yaratmışdır. Yüksək professional səviyyə və tərkibinə görə "Gülüstan" ansamblı qısa zamanda populyarlaşaraq xarici ölkələrdən dalbadal dəvətlər almağa başlayır. "Gülüstan" ansamblı ilə bərabər, Roza Cəlilova Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən "Sevinc" rəqs ansamblına da rəhbərlik edirdi.

O, 1959-cu ildə "Şərəf nişanı" ordeninə və Milli mədəniyyət sahəsindəki uğurlarına görə 1959-cu ildə Əməkdar artist, 2007-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. O, Ümumdünya festivallarının və Beynəlxalq müsabiqələrin laureatı olmuşdur və 1999-cu ildən Prezident təqaüdçüsüdür. Həmçinin 2019-cu ildə Azərbaycan rəqs sənətinin inkişafı və təbliğindəki xidmətlərinə görə Roza Cəlilova "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə 2017-ci ildə tanınmış yazıçı-publisist Mustafa Çəmənlinin rəqs sənətimizin canlı əfsanəsi hesab olunan Roza Cəlilovanın həyat və səhnə fəaliyyətinə dair "Səhnəmizin ağ çiçəyi" adlı kitab çap olunmuşdur.

2019-cu ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Xalq artisti Roza Cəlilovanın 90 illiyinə həsr olunan yubiley gecəsi keçirilmişdir.

Ədəbiyyat:

"Əsl rəqqasə üçün ürkək, gülüş və sona baxışların olması vacibdir"/R.Cəlilova; müsahibəni apardı Həmidə //Üç nöqtə.-2021.- 11 fevral.- S.12.

Rəqs bağçamızın qızılgülü: Ömür səhifələri /X.Muradlı//Azərbaycan.-2019.-17 may.- S.6.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Roza_Cəlilova

MAY
30

Maqsud Məmmədov – 95

(1929)

Baletmeyster



Maqsud Davud oğlu Məmmədov 1929-cu il may ayının 30-da Gəncədə anadan olmuşdur.

1950-ci ildə Moskva Xoreoqrafiya Məktəbində Nikolay Tarasovun sinfini bitirmişdir. Maqsud Məmmədov peşəkar təhsil almış ilk azərbaycanlı balet artisti olmuşdur.

Əmək fəaliyyətinə 1951-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist kimi başlamışdır. Maqsud Məmmədov yaradıcılıq fəaliyyəti boyunca bir çox ölkələrdə – Misir, Yəmən, Əlcəzair, Türkiyə və İsveçdə çalışıb, milli xoreoqrafiya sənətimizin təbliğatçısına çevrilib.

Maqsud Məmmədov həm milli baletlərimizdə, həm də dünya klassiklərinin əsərlərində mürəkkəb partiyaları böyük uğur və şərəflə ifa etmişdir. Sənətkarın ifa yaradıcılığının əsasını Polad ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Mənzər, Lenni ("Yeddi gözəl" və "İldırımlı yollarla", Qara Qarayev), Fərhad ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Azad ("Gülşən", Soltan Hacıbəyov), Pərviz ("Qaraca qız", Əşrəf Abbasov), Albert ("Jizel", Adolf Adan), Dezire, Ziqfrid, Şahzadə ("Yatmış gözəl", "Sonalar gölü" və "Şelkunçik" Pyotr Çaykovski), Xli Şan Fu və Ma Li Çen ("Qırmızı lalə", Reynqold Qlier), Pyero ("Qızıl açar", Boris Zeydman), kolen ("Arlekinada", Rikardo Driqo), Vatslav ("Bağçasaray fəvvarəsi", Boris Asafyev), Frondoso ("Laurensisa", Aleksandr Kreyn), Qəhrəman ("Şopeniana", Frederik Şopen), Bazil ("Don Kixot", Lüdviq Minkus) obrazlarının ifası təşkil edir.

Maqsud Məmmədov Xalq artisti Rəfiqə Axundova ilə birgə Tofiq Bakıxanovun "Xəzər balladası", Fərəc Qarayevin "Qobustan kölgələri", "Kaleydoskop", Rauf Hacıyevin "Azərbaycan süitası", Nazim Əlivedibəyovun "Muğam", Aqşin Əlizadənin "Babək" baletlərinə quruluş vermişdir.

Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletindəki Fərhad rolu Maqsud Məmmədovun ən uğurlu işlərindəndir. O, Azərbaycan Opera və Balet Teatrının Monte-Karlo, Fransa, Lüksemburq qastrollarında qalib olmuşdur.

Milli mədəniyyətimizin inkişafına verdiyi töhfələrə görə Maqsud Məmmədov 1955-ci ildə Əməkdar artist, 1970-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb, 2019-cu ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

2002-ci ildən Prezident təqaüdçüsüdür.

Ədəbiyyat:

Xalq artisti Maqsud Məmmədov "Şöhrət" ordeni ilə təltif olunub //Mədəniyyət.-2019.- 31 may.- S. 2.

Akademik səhnənin yüksək peşəkarı Maqsud Məmmədov-80 /Samirə//Həftə içi.-2009.- 11 iyun S. 7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Maqsud_Məmmədov_(baletmeyster)

MAY
31

Oqtay Zülfüqarov – 95

(1929-2016)

Bəstəkar



Zülfüqarov Oqtay Qədir oğlu 1929-cu il may ayının 31-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1947-1951-ci illərdə Asəf Zeynallı adına Musiqi Məktəbinin, 1951-1952-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının violonçel sinfində oxumuş, 1952-1958-ci illərdə isə burada bəstəkarlıq ixtisası üzrə ali musiqi təhsili almışdır.

Əmək fəaliyyətinə hələ tələbə ikən 1949-cu ildə 1 saylı musiqi məktəbində violonçel müəllimi kimi başlayan Oqtay Zülfüqarov, eyni zamanda, müxtəlif mədəniyyət evlərində də xormeyster kimi çalışmış, 1958-1962-ci illərdə Azərbaycan Dövlət Radio və Televiziya Komitəsində musiqi redaktoru, səs rejissoru, 1965-1967-ci illərdə Respublika Xalq Yaradıcılıq Evində metodist, 1968-1991-ci illərdə isə Azərbaycan Bəstəkarlar İttifaqında məsləhətçi, baş məsləhətçi, redaktor, şöbə müdiri vəzifələrində işləmişdir. 1991-2012-ci illərdə o, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru və bədii rəhbəri olmuşdur. Oqtay Zülfüqarov 1958-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olmuşdur.

Oqtay Zülfüqarovun ilk musiqi əsərləri tələbəlik illərində yazmışdır. Onun iki simfoniyası, violonçel, fleyta və simfonik orkestr üçün konsertləri, "Şənlən mənim xalqım" uvertürası, "Qız ulduz", "Meşə nağılı", "Pişik və sərçə" nağıl-operaları, "Məlikməmməd" nağılı əsasında yazdığı "Sehrli alma " uşaq baleti, "Əlibaba və 40 quldur" librettosu, simli kvartetləri, fortepiano triosu, mahnı və romansları musiqi tariximizdə özünəməxsus yer tutur.

Bəstəkarın 300-ə qədər uşaq mahnısı vardır. Bunlardan "Ovçu oğlan", "Dumbulumu çalaram", "Rəssam", "Kuklam", "Nə əzizsən, vətən", "Əziz ana, can ana" və başqalarının adını çəkə bilərik. Adından da göründüyü kimi, bu mahnılar müxtəlif mövzuları əhatə edərək körpələrdə ana, vətən, təbiət, gözəllik, məktəb, müəllim və s. haqda daha aydın təsəvvür yaradır.

Oqtay Zülfüqarov 1967-ci ildən rəsmlə, xalq sənəti (dekorativ təsviri sənət) ilə ciddi məşğul olmağa başlamışdır. Onun rəsmlərində simvolika fantastika ilə birləşir. Uzun illər ''Tumurcuq'' və ''Aysel", Uşaq Mahnı Teatrı Oqtay Zülfüqarovun rəhbərliyi altında Azərbaycan Dövlət Televiziyasında verilişlər hazırlamışdır. Bəstəkar həm də şeirlər yazmış və onlar ''Oxuyur Aysel'' adlı topluda çap etdirmişdir.

Azərbaycan musiqi mədəniyyətinin zənginləşdirilməsi sahəsində səmərəli xidmətlərinə görə Oqtay Zülfüqarov 1972-ci ildə "Əməkdar incəsənət xadimi", 2000-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüşdür. 2009-cu ildə isə anadan olmasının 80 illiyi münasibəti ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Oqtay Qədir oğlu Zülfüqarov 2016-cı il avqust ayının 31-də vəfat etmişdir. II Fəxri Xiyabanda dəfn edilmişdir.

2019-cu ildə Azərbaycan Dövlət Akademik Filarmoniyasında və Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Oqtay Zülfüqarovun 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Ədəbiyyat:

Abşeronun bağları : Mahnı şeirləri /Oqtay Zülfüqarov. Bakı: 1999.-64 s.

Musiqi: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik /Q. Zülfüqarov, V. Xəlilov; Elmi red.: N. Kazımov; Rəyçilər: N. Rəcəbova, G. Məmmədova. Bakı: Pedaqogika, 2006

İnternetdə:

https://az.wikipedia.org/wiki/Oqtay_Zülfüqarov

1 MAY

Firəngiz Mütəllimova – 65

(1959) *Aktrisa*



Firəngiz Bəhər qızı Mütəllimova 1959-cu il may ayının 1-də Ağcabədi rayonunda anadan olmuşdur. Əslən Şuşalı olan Firəngiz Mütəllimova 1976-1980-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsində təhsil almışdır. 1980-ci ildən Azərbaycan Akademik Milli Dram Teatrında işə başlamış, teatrda səmərəli fəaliyyət göstərməklə yanaşı televiziya tamaşalarında da iştirak etmişdir.

Firəngiz Mütəllimova qısa müddətdə teatrın repertuarındakı tamaşaların bir neçəsinə daxil edilmiş, təzə əsərlərdə rollar oynamışdır. Gözəl ("Qılınc və qələm", M.S. Ordubadi), Qumral ("Əliqulu evlənir", S.Rəhman), Bəyim ("Xurşidbanu Natəvan", İ.Əfəndiyev), Aynur ("Büllur sarayda", İ.Əfəndiyev), Mələk ("Bizim qəribə taleyimiz", İ.Əfəndiyev), Gülnaz ("Mahnı dağlarda qaldı", İ.Əfəndiyev), Gülruh ("Şeyx Xiyabani", İ.Əfəndiyev), Gülnaz ("Tənha iydə ağacı", İ. Əfəndiyev), Azadə xanım ("Dəlilər və ağıllılar", İ.Əfəndiyev), Sonya ("Sizi deyib gəlmişəm", Anar), Firəngiz ("Təhminə və Zaur", Anar), Anna ("Həyatın dibində", M.Qorki), Reya ("Böyük Romul", F.Dürrenmatt), Tereza ("Biganələr oteli", R.İbrahimbəyov), Əsmər ("Günah", R.Əlizadə), Nisə xanım ("Lənkəran xanın vəziri", M.F.Axundzadə), Maral ("Sənsiz", Ş.Qurbanov), Nədidə ("Qanlı Nigar", S.Şəndil), Aysulu ("Sokratı anma gecəsi", Ç.Aytmatov və M.Şahanov), Arvad ("Mənim ərim dəlidir" ("Diaqnoz D"), Gülzar ("Poçt şöbəsində xəyal", Elçin), Sevər ("Bu dünyanın adamları", H.Orucov), Həvva ("Varlı qadın", Ə.Əmirli), Raisa ("Mesenat", Ə.Əmirli), Nigar ("Qanlı Nigar", S. Şəndil), Kərbəlayi Fatmanisə ("Almaz", C.Cabbarlı) və b. obrazlar yaratmışdır.

Firəngiz Mütəllimova Azərbaycan Dövlət Televiziyasında hazırlanmış iyirmidən çox teletamaşada müxtəlif səpkili rollar ifa etmişdir. Onlardan Gülnar ("Səni axtarıram", "Bağışla", "Səndən xəbərsiz", A.Qəhrəmanov), Mərcan ("Evləri köndələn yar", Anar), Ana və qız ("Unutmaq olmur"), Nazan ("Yad qızı", O.Kamal), Almaz ("Topal Teymur", H.Cavid), Almaz ("Göz həkimi", İ.Səfərli), Günay ("Sənin lə və sənsiz", M.Haqverdiyev) və s. rolların bədii estetik keyfiyyətlərini xüsusi qeyd etmək olar.

Aktrisa "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmiş "Qaçaq Nəbi" (Sərvinaz), "Qocalar, qocalar" (Leyli), "Bəyin oğurlanması" (Telli), "İşarəni dənizdən gözləyin" (Sona) bədii filmlərində, "Mənim ağ şəhərim" (Ana), "Şərəf" (Mila xanım) telefilmlərində aparıcı rollar oynamışdır.

Firəngiz Bəhər qızı Mütəllimova 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artist, 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar artist və 2000-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Eyni zamanda pedoqoji fəaliyyətlə də məşğuldur, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosentidir.

Firəngiz Mütəllimova müxtəlif illərdə (2012, 2014, 2015, 2016, 2017, 2018) Prezident mükafatçısı olmuş, 2017-ci ildə "Cəfər Cabbarlı mükafatı" ilə təltif edilmişdir. 10 may 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. Xalq artistinə 2019-cu ildə Teatr xadimlər ittifaqının "Sənətkar medalı" verilmişdir.

Ədəbiyyat:

"Şuşa cənnətdir": Firəngiz Mütəllimova: "Ramazan bayramında Cıdır düzündə gəzirdim" /S.Ərəblinski// Şərq.-2021.- 17 may.- S.9.

"Tək allah bilir ki, biz nələr yaşayırıq" [Mətn] : Firəngiz Mütəllimova: "Mən də teatrın açılmasını istəyirəm, həvəslə gözləyirəm" /S.Ərəblinski //Şərq.-2021.- 21 avqust.- S.14

"Qaçmaq, qışqırmaq, haray çəkmək, hönkürmək istəyirdim..." : Xalq artisti Firəngiz Mütəllimova: "Şuşanı mənə qaytaran, canlarını fəda edən oğullara, onları böyüdən analara bir ömür borcluyam" / Firngiz Mütəllimova; müsahibəni apardı T. M-zadə //525-ci qəzet.-2023.- 20 yanvar.- S.18;19.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Firəngiz_Mütəllimova

MAY
10

Firudin Məhərrəmov – 65

(1959) *Teatr rejissoru, ssenarist*



Firudin Əlməmməd oğlu Məhərrəmov 1959-cu il may ayının 10-da Lerik rayonunda anadan olmuşdur.

1982-1987-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) professor Mehdi Məmmədovun rəhbərlik etdiyi rejissorluq fakültəsində təhsil almışdır. Tələbəlik illərində "Bir məhəbbətin tarıxçəsi" (Rey Bredler), "Kamança"(C. M. Məmmədquluzadə), "Şirə bənzər"(R. İbrahimbəyov) və "Elektra" (Sofokl) kimi əsərlərə Tədris teatrında quruluş verən Firudin Məhərəmovun rejissor traktovkaları sənətşünaslar tərəfindən layiqincə qiymətləndirilmişdir.1987-ci ildə V. Şukşinin "Diribaş adamlar"əsərinə verdiyi quruluşla o, Sumqayıt Dövlət Dram Teatrında quruluşçu rejissor vəzifəsinə qəbul olunmuşdur. 1997-ci ildən həmin teatrın baş rejissorudur.

1989-cu ildə R. Kiplinqin "Öz xoşuna gəzən pişik" əsərinə verdiyi quruluş, onu kiçik yaşlı tamaşaçıların sevimlisinə çevirmişdir. Bu tamaşa lentə alınaraq dəfələrlə Respublika televiziyası ilə nümayiş olunmuşdur və Respublika televiziyasının Qızıl fondunda saxlanılır. Firudin Məhərrəmovun quruluş verdiyi "Təxribatçılar" (S. Mrojek), "Subaylarınızdan görəsiniz" (İ. Məlikzadə və S. Ələsgərov), "Yaralar" və "Kim nədeyər bizdə olan qeyrətə" (A. Babayev), "Qarışqa yuvası" (Ə. Qiyas) və s. tamaşalar F. Məhərrəmovun yaradıcılıq potensialını üzə çıxartmışdır. O, 4 pyesin tərcüməçisi, 5 pyesin isə müəllifidir. Rejissor Azərbaycan Respublikasında mütəmadi keçirilən mono-tamaşalar festivallarının diplomçusu və laureatı adına layiq görülmüşdür.

Firudin Məhərrəmovun Səhnələşdirərək quruluş verdiyi "Hamlet" (V. Şekspir), "Aydın" (C. Cabbarlı) və Orxan Fikrətoğlunun "Qapı" mono-tamaşaları sənətşünaslar tərəfindən yüksək qiymətləndirilmişdir. 1998-ci ildə Gürcüstan Respublikasının Rustavi şəhərinin 50 illiyinə həsr olunmuş, Beynəlxalq "Qızıl maska" festivalında Firudin Məhərrəmov quruluş verdiyi "Müsyo Jordan və Dərviş Məstəli şah" tamaşasına görə "Klassik əsər üzərində uğurlu eksperiment" prizi ilə təltif olunmuşdur. 2005-ci ildə Azərbaycan Respublikasında keçirilən "Boş məkan dolğunluğu" teatr festivalında Firudin Məhərrəmov Ç. Aytmatovun "Dəniz kənarıyla qaçan Alabaş" povestinin motivləri əsasında səhnələşdirdiyi "Ümid sahili" tamaşasına görə "Uğurlu aktyor ansamblı"- rejissor prizinə layiq görülmüşdür.

Firudin Məhərrəmov Ş. Qurbanov adına Musiqili Komediya teatrında "Hicran", Füzuli Dövlət Dram teatrında "Danabaş kəndinin əhvalatları", İrəvan teatrında E. Əfəndiyevin "Poçt şöbəsində xəyal", Anarın "Telefon gecələri" əsərlərinə quruluş vermişdir. Bunlarla yanaşı Firudin Məhərrəmov Sumqayıt şəhərində keçirilən Dövlət səviyyəli tədbirlərin ssenari müəllifi olmaqla yanaşı, həm də quruluşçu rejissorudur. Onun quruluş verdiyi Heydər Əliyevin anadan olmasının 70, 75 və 80 illik yubiley şənlikləri, Əziz Əliyev və Həsən Əliyevin yubileyləri tamaşaçı rəğbəti qazanmışdır. 1987-ci ildən bu günə kimi Firudin Məhərrəmov Sumqayıt teatrının səhnəsində 30-dan çox əsərə quruluş vermişdir. "Bir köpək vardı" (G. Xuqayev), "Dağlarda tufan" (Ə. M. Ləladağ), "Qarağaclar altında məhəbbət" (Y. Onil), "Bayramın birinci günü" (N. Hikmət), "Mənim ağ göyərçinim" (T. Vəliyeva), "Varlı qadın" (Ə. Əmirli), "Qaraca qız"(A. Şaiq) "Birincilər və sonuncular" (C. Qolsuorsi), "Şərəfin sandığı" (M. Atəş) və s. tamaşaları buna misaldır. "İynə-sap" (2 hissəli), "Şans" (2 hissəli), "Yanmış körpülər" (25 seriyalı), "Oyunçu" (12 seriyalı), "Susmuş vicdan" kimi film və tamaşaların ssenari müəllifidir.

Firudin Məhərrəmov 2005-ci ildə Əməkdar artist, 2018-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüş və 2007, 2008, 2018, 2019, 2020, 2021, 2022, 2023-cü illərdə isə Prezident mükafatçısı olmuşdur.

Ədəbiyyat:

Azərbaycan Teatr Ensiklopediyası, İlham Rəhimli, üç cilddə, I cild, Bakı -2017, səh.406

Ulu Öndər Heydər Əliyevə həsr olunmuş "Burdan min atlı keçdi" tamaşası Akademik Milli Dram Teatrının səhnəsində [Mətn] //Azərbaycan.-2022.- 2 iyul.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Firudin_Məhərrəmov

MAY
30

Şükufə Yusupova – 70

(1954) *Teatr və kino aktrisası*



Şükufə Mühəddin qızı Yusupova 1954-cü il may ayının 30-da Bakı şəhərində anadan olmuşdur.

O, 1971-1975-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsində təhsil almışdır. Görkəmli rejissor Mehdi Məmmədovun rəhbərlik etdiyi kursda oxuyan tələbə-aktrisa sənət müəlliminin 1974-cü ildə Akademik Milli Dram Teatrında hazırladığı S.Vurğunun "İnsan" dramının tamaşasında Tatyana rolunu ifa etmişdir. Təyinatı Şəki Dövlət Dram Teatrına verilib. Aktrisa həmin ərəfədə "Azərbaycanfilm" kinostudiyasında "Tütək səsi" və "Xoşbəxtliyin qiyməti" filmlərinə çəkildiyinə görə təyinatdan azad edilmişdir. Akademik teatrın baş rejissoru Tofiq Kazımov "Qılınc və qələm" (M.S.Ordubadi) tamaşasını hazırlayanda Şükufə Yusupovanı Rəna roluna dəvət etmişdir. Aktrisa 1976-cı ildə Akademik Milli Dram Teatrına aktyor truppasına işə götürülmüşdür.

Psixoloji teatr estetikasının prinsiplərində cəsarətli axtarışlar aparmağı sevən Şükufə Yusupova Akademik Milli Dram Teatrında Anyuta ("Daşqın", A.Safronov), Müttəhimin arvadı ("İstintaq", R.İbrahimbəyov), Təhminə, Zara xanım, Sədaqət ("Xurşidbanu Natəvan", "Bizim qəribə taleyimiz", "Büllur sarayda", İ.Əfəndiyev), Həmidə xanım ("Sizi deyib gəlmişəm…", Anar), Xavər ("İblis", H.Cavid), Gülnar ("Vaqif", S.Vurğun), Anna ("Həyatın dibində", M.Qorki), Şölə xanım ("Lənkəran xanının vəziri", M.F.Axundov), Lüsi ("Dəfn edilməmiş ölülər", J.P.Sartr), Zəhra xanım, Sona Ərəblinskaya ("Köhnə ev", "Mesenat", Ə. Əmirli), Qadın ("Qatil", Elçin) kimi rolları ifa etmişdir.

Aktrisa Şükufə Yusupova Azərbaycan Dövlət Televiziyasında N.Hacızadənin "Yaşa, ey haqq" (Ümbül banu), J.Koktonun "İnsan səsi" (Qadın), M.Normanın "Gecən xeyrə qalsın, ana!" (Qız) əsərlərinin teletamaşalarında oynamışdır. O, 1974-cü ildən başlayaraq "Dörd bazar günü" (Ustanın qızı), "Ad günü" (Rəna), "1001 gecə" (Şəhrizad), "Musiqi ilə xaş" (Qadın), "Asif, Vasif, Aqasif" (Ana), "Nar ağacı haqqında xatirələr" (Mədinə), "Gümüş göl əfsanəsi" (Səidə), "Ümid" (Ana) və s. filmlərə çəkilmişdir.

Şükufə Yusupova 1991-ci ildə Əməkdar artist, 2005-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Müxtəlif illərdə (2012, 2014, 2015) Prezident mükafatı almışdır. 2014-cü il iyun ayının 3-də "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2016-cı il may ayının 6-da Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ədəbiyyat:

Şükufə Yusupova // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə, III cild / İlham Rəhimli.- S.283-284.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Şükufə_Yusupova

https://azdrama.az/?page_id=236

MAY
1

Faiq Cəfərov – 50

(1974-1999)

Milli Qəhrəman



Faiq Əliqulu oğlu Cəfərov 1974-cü il may ayının 1-də Cəlilabad rayonunun Şiləvəngə kəndində anadan olmuşdur.

1991-ci ildə Bakı Maşınqayırma Texnikumuna daxil olmuş, 1992-ci ilin sentyabr ayından Sərhəd Qoşunları Baş İdarəsinin Naxçıvan Sərhəd Dəstəsində hərbi xidmətə başlamışdır. Sərhəd Qoşunlarında xidmət etdiyi dövrdə Azərbaycanın cənub hüdudlarının mühafizəsində fərqlənmişdir. 1995-ci ilin mart ayında dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı xüsusi qəhrəmanlıq nümunəsi göstərmiş, döyüşlərdə ağır yaralanmış və ehtiyata buraxılmışdır.

Bir ildən sonra öz həyatını dövlətçiliyimiz və xalqımıza xidmət etməyə bağlayan qəhrəmanımız yenidən orduya qayıtmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 27 dekabr tarixli fərmanı ilə Cəfərov Faiq Əliqulu oğlu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Faiq Cəfərov 1999-cu il avqust ayının 19-da avtomobil qəzası nəticəsində həlak olmuşdur.

Cəlilabad rayonunun Şiləvəngə kəndində dəfn edilmişdir.

Ə d ə b i y y a t :

Faiq Əliqulu oğlu Cəfərova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sıravi – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27 dekabr 1995-ci il //Azərbaycan.- 1995.- 28 dekabr.- S.1.

Faiq Cəfərov [Mətn] /M.Mirzə//Respublika.-2022.- 1 may.- S.7.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Faiq_Cəfərov_(milli_qəhrəman)

MAY
10

Namiq Abdullayev – 50

(1974-1993) *Milli Qəhrəman*



Namiq Vahid oğlu Abdullayev 1974-cü il may ayının 10-da Ağcabədi rayonunun Avşar kəndində anadan olmuşdur. 1991-ci ildə Avşar kənd orta məktəbini bitirmişdir.

1992-ci ilin dekabr ayında cəbhəyə yola düşmüş, işğal olunmuş bir neçə kəndin azad olunmasında fəal iştirak etmişdir.

1993-cü il fevral ayının 9-da erməni silahlı dəstələri Xocavənd rayonunda mövqe tutmuş döyüşçülərimizin üzərinə böyük qüvvə ilə hücuma keçmiş, düşmənin güclü hərbi texnikası qarşısında bu kiçik dəstə tab gətirə bilməmiş, lakin hücumu dəf etməyə çalışmışlar. Onlarla erməni quldurunu məhv edən Namiq son anda əlindəki qumbaranı sinəsinə sıxaraq özünü tankın altına atmışdır. Zirehli texnikanın heyəti məhv edilmiş, vətənimizin bu cəsur oğlu şəhidlik zirvəsinə ucalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə Abdullayev Namiq Vahid oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Milli Qəhrəman Namiq Vahid oğlu Abdullayev Avşar kəndində dəfn edilmişdir. Avşar kənd orta məktəbi qəhrəmanın adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haq¬qında: [Abdullayev Namiq Vahid oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorun¬masında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

İnternetdə:

https://az.wikipedia.org/wiki/Namiq_Abdullayev

MAY
19

Fikrət Hacıyev – 60

(1964-1992)

Milli Qəhrəman



Fikrət Əli oğlu Hacıyev 1964-cü il may ayının 19-da Goranboy rayonunun Qızılhacılı kəndində anadan olmuşdur. 1978-ci ildə səkkizinci sinfi bitirərək, Gəncə texniki-peşə məktəbində elektrik ixtisasına yiyələnmişdir.

1982-ci ildə Goranboy rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti Ufa şəhərində keçirmişdir. Bakı Kooperativ Texnikumunda təhsilini başa vurmuşdur.

1991-ci ilin sonunda könüllü olaraq cəbhəyə yollanmışdır. Goranboy özünümüdafiə batalyonunun tərkibində Şəfəq, Zeyvə, Qaraçinar və digər məntəqələrin müdafiəsində fəal iştirak etmiş və 1992-ci il may ayının 5-də qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Hacıyev Fikrət Əli oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Milli Qəhrəmanı Hacıyev Fikrət Əli oğlu Qızılhacılı kənd qəbiristanlığında dəfn edilmişdir. Ballıqaya kənd orta məktəbi qəhrəmanın adını daşıyır. Goranboy rayonunda büstü qoyulmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hacıyev Fikrət Əli oğlu – sıravi – Azərbaycan Respubli¬kasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.25.- (Ölümündən sonra).

Fikrət Hacıyev /Q.Aslan //Respublika.- 2022.- 19 may.- S.11.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Fikrət_Hacıyev

1 MAY

İmamverdi İsmayılov – 35

(1989-2020)

Kapitan



İmamverdi Yoloğlu oğlu İsmayılov 1989-cu il may ayının 1-də Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 2004-2007-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2011-ci ildə həmin məktəbi bitirmişdir. Daha sonra 1 il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) təhsil almışdır. Təhsilini bitirdikdən sonra Qusar rayonunda, Sumqayıt şəhərində (Nasosnu), Bakı şəhərində Müşviq qəsəbəsində "N" saylı hərbi hissələrdə xidmət göstərmişdir. 2017-ci ildən Mingəçevirdə "N" saylı hərbi hissədə xidmət etmiş və həmin hərbi hissənin tərkibində olan həmlə taborunun qərargah rəisi olmuşdur.

Azərbaycan Ordusunun Kapitanı İmamverdi İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. 2020-ci il sentyabr ayının 29-da Murov istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Qazax rayonunun Ağköynək kənd qəbiristanlığında dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalmışdır.

İmamverdi İsmayılov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MAY
1

Cavanşir Ağayev - 25

(1999-2020)

Əsgər



Cavanşir Niyaməddin oğlu Ağayev 1999-cu il may ayının 1-də Saatlı rayonunun Fətəlikənd kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Saatlı rayonunun Günəşli kənd ümumi orta və Fətəlikənd kənd tam orta məktəblərində orta təhsil almışdır.

2017-ci ildə Azərbaycan silahlı qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, 2019-cu ildə tərxis olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Cavanşir Niyaməddin oğlu Ağayev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cavanşir Ağayev 5 noyabr 2020-ci ildə döyüş tapşırıqlarını yerinə yetirərkən şəhid olmuşdur.

Cavanşir Niyaməddin oğlu Ağayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" "Cəsur döyüşçü" "Cəbrayılın azad olunmasına görə"medalı və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

1

Məhəmmədəli Həsənzadə - 25

(1999-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Məhəmmədəli Hörmət oğlu Həsənzadə 1999-cu il may ayının 1-də Sumqayıt şəhərində anadan olmuşdur. 2005-2016-cı ilərdə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon Qurban Məmmədov adına Yuxarı Mollu kənd tam orta məktəbində təhsil almışdır. 2016-cı ildə Azərbaycan Turizm və Menecment Universitetinin "Biznesin İdarə Edilməsi" fakultəsinə daxil olmuşdur. 2020-ci ildə ali təhsilini başa vuraraq Menecment ixtisasına yiyələnmişdir. 2020-ci ilin iyul ayında SHXÇÜDX-nin Qubadlı rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Məhəmmədəli Həsənzadə 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Ağdam, Hadrut, Füzuli və Xocavənd uğrunda gedən döyüşlərə qatılmışdır Noyabr ayının 6-da Xocavənd rayonunda gedən döyüşlərdə şəhid olmuşdur. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Məhəmmədəli Həsənzadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MAY
1

Vüqar Rüstəmov - 30

(1994-2020)

Əsgər



Vüqar Kamil oğlu Rüstəmov 1994-cü il may ayının 1-də Gədəbəy rayonunun Xarxar kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə E. Məmmədov adına Xarxar kənd tam orta məktəbində təhsil almışdır. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Vüqar Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak etmişdir. Noyabr ayının 16-da Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olmuş, Gədəbəy rayonunun Xarxar kəndində dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalmışdır.

Vüqar Kamil oğlu Rüstəmov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

1

Şahəli Şıxıyev - 25

(1999-2020)

Əsgər



Şahəli Əflatun oğlu Şıxıyev 1999-cu il may ayının 1-də İmişli rayonunun Qaraqaşlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Şahəli Şıxıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Şahəli Şıxıyev oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur.

Şahəli Şıxıyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

MAY
2

Araz Məmmədov - 30

(1994-2020)

Əsgər



Araz Adil oğlu Məmmədov 1994-cü il may ayının 2-də Tovuz rayonunun Kirən kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Gəncə şəhərində K. Uşinshi adına 29 nömrəli tam orta məktəbdə təhsil almışdır. O, idmanın cüdo növü ilə məşğul olurdu. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Müşfiqabad qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmət zamanı o, "Baş Kəşfiyyatçı snayper" kimi qulluq etmişdir.

Azərbaycan Ordusunun ehtiyatda olan əsgəri Araz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün Vətən müharibəsi başlanan zaman könüllü olara döyüşlərə qatılmışdır. Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İlk öncə snayper, sonra isə Xüsusi Təyinatlı Qüvvələrin heyətində döyüşmüşdür. Araz Məmmədov noyabrın 4-də Suqovuşan istiqamətində şəhid olmuşdur. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Araz Adil oğlu Məmmədov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

3

Famil Əlizadə - 25

(1999-2020)

Əsgər



Famil Habil oğlu Əlizadə 1999-cu il may ayının 3-də Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olmuşdur. 2005-2016-cı illərdə Ərkivan qəsəbəsinin tam orta məktəbində, 2016-2017-ci illərdə isə Bakı şəhərində 2 saylı peşə məktəbində təhsil almışdır. Famil Əlizadə 2017-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Famil Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 21-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Masallı rayonunun Ərkivan qəsəbəsində dəfn olunmuşdur.

Famil Habil oğlu Əlizadə ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

MAY
4

Arəstə Baxışova - 35

(1989-2020)

Çavuş



Arəstə Kərim qızı Baxışova 1989-cu il may ayının 4-də Xaçmaz rayonunun Qımılqışlaq kəndində anadan olmuşdur. 1995-2004-cü illərdə Biləcəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 saylı tam orta məktəbdə, 2004-2008-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Kollecində İngilis dili üzrə təhsil almışdır. Arəstə Baxışova 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Mərkəzi Hərbi Klinik Hospitalında tibbi statist olaraq çalışmışdır. 2019-cu il iyulun 12-dən isə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə operator vəzifəsində xidmət edirdi.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova Vətən müharibəsi zamanı Füzuli, Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Biləcəri Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

İki övladı yadigar qalıb.

Arəstə Baxışova ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin 12.05.2021-ci il tarixli Qərarına əsasən, Arəstə Baxışova İngiltərəli tibb bacısı Florens Naytinqeylin şərəfinə təsis edilən Florens Naytingeyl medalına layiq görülmüşdür.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

4

Fərid Şamilov - 25

(1999-2020)

Əsgər



Fərid Mirzə oğlu Şamilov 1999-cu il may ayının 4-də Sumqayıt şəhərində anadan olmuşdur. 2017-2019-cu illərdə həqiqi hərbi xidmət dövrü keçmişdir. Füzuli Haramı düzündəki hərbi hissədə ön xətdə xidmət etmişdir.

Azərbaycan Ordusunun könüllü əsgəri olan Fərid Şamilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. Cəbrayıl, Zəngilan, Xocavənd, Şuşa, Laçın rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 9-da Fərid Şamilov Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində şəhid olmuşdur. Noyabr ayının 10-da Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Fərid Şamilov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
5

Bəhram İbrahimov - 25

(1999-2020)

Əsgər



Bəhram Sakit oğlu İbrahimov 1999-cu il may ayının 5-də Yevlax rayonu Ərəbbəsrə kəndində anadan olmuşdur. Yevlax rayonu, Ərəbbəsrə kənd məktəbində təhsil almışdır. 2017-2018-ci illərdə həqiqi hərbi xidmət dövrü keçmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Bəhram İbrahimov Suqovuşan, Goranboy, Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 2020-ci il oktyabrın 7-də Suqovuşan istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur.

Bəhram Sakit oğlu İbrahimov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

7

Kazım Məmmədsalahov - 35

(1989-2020)

MAHHXHQ əsgər



Kazım Sahib oğlu Məmmədsalahov 1989-cu il may ayının 7-də Şəki rayonunun Qoxmuq kəndində anadan olmuşdur. O, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında uzun müddət idi ki, müddətdən artıq hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kazım Məmmədsalahov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində sürücü-mexanik olaraq iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Kazım Məmmədsalahov 7 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Kazım Məmmədsalahov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
9

Xəyal Əhmədov - 30

(1994-2020)

Əsgər



Xəyal Hüseyn oğlu Əhmədov 1994-cü il may ayının 9-da Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olmuşdur. Orta təhsilini 2000-2011-ci illərdə Neftçala şəhər 2 saylı tam orta məktəbdə almışdır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, cəbhə zonasında – Daşkəsən rayonundakı "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Xəyal Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Xəyal Əhmədov noyabrın 4-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Neftçala rayonunun Xıllı qəsəbəsində dəfn olunmuşdur.

Xəyal Əhmədov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlaına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

9

Elmaz Hacıyev - 30

(1994-2020)

Əsgər



Elmaz Elmar oğlu Hacıyev 1994-cü il may ayının 9-da Şamaxı rayonunun İkinci Çaylı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elmaz Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmışdır. Elmaz Hacıyev noyabr ayının 4-də Laçın döyüşləri zamanı şəhid olmuşdur. Yalınız 27 gündən sonra, dekabrın 1-də nəşini əldə etmək mümkün olmuş və dekabr ayının 2-də Xəzər rayonunun Binə qəsəbəsində dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalmışdır.

Elmaz Hacıyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
10

Nurlan Qaracayev - 25

(1999-2020) *Əsgər*



Nurlan Ömər oğlu Qaracayev 1999-cu il may ayının 10-da Balakən rayonunun Kortala kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Q.Nağıyev adına Kortala kənd tam orta məktəbində təhsil almışdır. 2017-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Nurlan Qaracayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nurlan Qaracayev oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Balakən rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Nurlan Qaracayev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

10

Hüseyn Muradov - 30

(1994-2020) *Əsgər*



Hüseyn Fərhad oğlu Muradov 1994-cü il may ayının 10-da Saatlı rayonu Cəfərxan kəndində anadan olmuşdur. 2011-ci ildə Bakı şəhərində 147 nömrəli Texniki-humanitar liseydən məzun olmuşdur. 2015-ci ildə Murovdağda hərbi xidmətdə olmuş və 2016-cı il "Aprel döyüşləri" ndə iştirak etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Hüseyn Muradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Füzuli istiqamətində başlayan döyüşlərdə pulemyotçu kimi döyüşmüşdür. Oktyabr ayının 8-də Hadrut uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Hüseyn Muradov Keşlə Şəhidlər xiyabanında dəfn edilmişdir.

Hüseyn Muradov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzülinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
11

Zamanət İbrahimov - 35

(1989-2020) *Gizir*



Zamanət Gülhəsən oğlu İbrahimov 1989-cu il may ayının 11-də Salyan rayonunun Sarvan kəndində anadan olmuşdur. 1997-2007-ci illərdə İ. Həsənov adına tam orta məktəbdə təhsil almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2009-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi. 2009-2011-ci illərdə Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə, 2011-2014-cü illərdə Göygöl rayonuda yerləşən "N" saylı hərbi hissədə, 2014-2017-ci illərdə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2017-ci ildən isə Naftalanda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun giziri olan Zamanət İbrahimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Zamanət İbrahimov sentyabr ayının 27-də Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Salyan rayonunda dəfn olunmuşdur.

Zamanət İbrahimov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

13

Hüseyn Qasımov - 40

(1984-2020) *Gizir*



Hüseyn Kamil oğlu Qasımov 1984-cü il may ayının 13-də Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olmuşdur. Doğulduğu kənd ermənilər tərəfindən işğal olunduqdan sonra dədə-baba yurdundan köçkün düşən Hüseyn ailəsi ilə birgə Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində məskunlaşmışlar. Orta məktəbi bitirdikdən sonra Ağcəbədi Pedoqoji Kollecində təhsil almışdır. Amma kollecdəki təhsilini başa vurduqdan sonra müəllim deyil, hərbçi olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Hüseyn Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 2-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur.

Hüseyn Kamil oğlu Qasımov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
15

Tərlan Fətullayev - 35

(1989-2020)

MAHHXHQ əsgər



Tərlan Amaşah oğlu Fətullayev 1989-cu il may ayının 15-də Sumqayıt şəhərində anadan olmuşdur. Orta təhsilini 1995-2006-cı illərdə Sumqayıt şəhər 6 saylı tam orta məktəbdə almışdır. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Tərxiz olunduqdan bir müddət sonra yenidən ordu sıralarına qayıtmış və xidmətini MAHHXHQ kimi davam etdirmişdir. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tərlan Fətullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Tərlan Fətullayev oktyabrın 25-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ailəli olmuş, bir övladı yadigar qalmışdır.

Tərlan Fətullayev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulini azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Babək Namazov - 30

15

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Babək Səhman oğlu Namazov 1994-cü il may ayının 15-də Şəmkir rayonunun Əliyaqublu kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Babək Namazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Babək Namazov oktyabr ayının 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir və 2021-ci il fevralın 20-də dəfn olunmuşdur.

Babək Namazov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
16

Cəlil Xeyrullayev - 35

(1989-2020)

MAHHXHQ çavuş



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Cəlil Mürvət oğlu Xeyrullayev 1989-cu il may ayının 16-da Quba rayonunun II Nügədi kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə II Nügədi kənd 3 saylı tam orta məktəbində təhsil almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2012-ci ildən isə Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət xidmət etməyə başlamışdır. Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Cəlil Xeyrullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Cəlil Xeyrullayev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Quba rayonunda dəfn olunmuşdur.

Cəlil Xeyrullayev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

MAY
17

İman Ələmmədov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

İman Tarverdi oğlu Ələmmədov 1999-cu il may ayının 17-də Şahbuz rayonunun Kolanı kəndində anadan olmuşdur. Orta təhsilini əvvəlcə, Şahbuz rayon Kolanı kənd orta məktəbində, sonra isə Babək rayon Vayxır kənd məktəbində almışdır. Orta məktəbdən məzun olduqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətini bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmət müddətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İman Ələmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzuli, Hadrut, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi və Xocalı rayonunun Çanaqçı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayının əvvəllərindən başlayan Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuş, Şuşa rayonunun Daşaltı kəndində mühasirədə qalsa da, mühasirədən çıxmağı bacarmışdır. İman Ələmmədov 9 noyabr 2020-ci ildə Şuşada döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Şahbuz rayonunun Kolanı kənd qəbiristanlığında torpağa tapşırılmışdır.

İman Ələmmədov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MAY
17

Vahid Baxşiyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Vahid Məclum oğlu Baxşiyev 1999-cu il may ayının 17-də Xaçmaz rayonunun Bayoba kəndində anadan olmuşdur. Orta təhsilini 2005-2016-cı illərdə Bayoba kənd tam orta məktəbində almışdır. 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2018-ci ildə hərbi xidmətini başa vurandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmış və xidmətini MAHHXHQ kimi davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vahid Baxşiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vahid Baxşiyev 30 oktyabr 2020-ci ildə Suqovuşan döyüşləri gedişatında Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Bayoba kəndində dəfn olunmuşdur.

Vahid Məclum oğlu Baxşiyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrund", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

17

Səfa İsazadə - 25

(1999-2020)

Əsgər



Səfa Əmirxan oğlu İsazadə 1999-cu il may ayının 17-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə şəhid Vüqar İbrahimov adına Xaçmaz kənd 2 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Səfa İsazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Talış kəndinin azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmişdir. Səfa İsazadə oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Oktyabr ayının19-da Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Səfa İsazadə ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
17

Allahverdi Novruzov - 30

(1994-2020)

Əsgər



Allahverdi Bəhram oğlu Novruzov 1994-cü il may ayının 17-də Salyan rayonunda anadan olmuşdur. İbtidai təhsilini "Plastik" yaşayış massivində yerləşən 9 illlik məktəbdə və 2011-ci ildə Salyan şəhər 2 saylı orta məktəbdə təhsilini başa vurmuşdur. Həmin il Dənizçilik Akademiyasına qəbul olunmuşdur. O, 2017-2018-ci illərdə cəbhə bölgəsinin təmas xəttində, Xocavənddə hərbi xidmət etmişdir. Hərbi xidmət zamanı kəşfiyyatçı bacarığına yiyələnmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Allahverdi Novruzov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmiş və sentyabrın 29-da şəhid olmuşdur.

Allahverdi Bəhram oğlu Novruzov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Fizulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

19

Vüsal Muradov - 25

(1999-2020)

Kiçik leytenant



Vüsal Cəsarət oğlu Muradov 1999-cu il may ayının 19-da Sumqayıt şəhərində anadan olmuşdur. 2017-ci ildən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil alırdı. IV sinif kursantı idi.

Azərbaycan Ordusunun kiçik leytenantı olan Vüsal Muradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Vüsal Muradov oktyabr ayının 29-da Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Vüsal Muradov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
20

Elvin Teymurov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Elvin Mustafa oğlu Teymurov 1999-cu il may ayının 20-də Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə orta təhsilini Nehrəm qəsəbəsində yerləşən Elşad Əliyev adına 2 saylı tam orta məktəbdə almışdır. O, 2017-2018-ci illərdə müddətli həqiqi hərbi xidmətdə olmuş və 2020-ci ilin may ayından müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətini davam etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Mustafa oğlu Teymurov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 20 oktyabr 2020-ci ildə Tuğ dağı istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Nehrəm qəsəbə qəbirstanlığında dəfn olunmuşdur.

Elvin Teymurov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

20

Ceyhun Şalıyev - 30

(1994-2020)

Əsgər



Ceyhun Nüsrət oğlu Şalıyev 1994-cü il may ayının 20-də Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini 7-ci sinfə qədər Rusiya Federasiyasının Voronej şəhərində almışdır. 2008-ci ildə təhsilini Bakı şəhərində yerləşən 94 nömrəli tam orta məktəbdə davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Şalıyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 1 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Ceyhun Şalıyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
23

İmran Qurbanov - 35

(1989-2020)

Kapitan



İmran İlqar oğlu Qurbanov 1989-cu il may ayının 23-də Bakı şəhərində, Sabunçu rayonunun Ramana qəsəbəsində anadan olmuşdur. 1996-cı ildə Sabunçu rayon Fikrət Tağıyev adına riyaziyyat təmayüllü 72 saylı liseyə, 2003-cü ildə isə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olmuşdur. 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdır. 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində təhsilini davam etdirmişdir. 2011-ci ildə Təlim Tədris Mərkəzini bitirən İmran leytenant rütbəsi alaraq Füzuli rayonunda taqım komandiri vəzifəsi ilə hərbi xidmətinə başlamışdır. 9 il orada xidmət etdikdən sonra Beyləqanda tabor komandirinin müavini kimi xidmətini davam etdirmişdir. Hərbi xidmət müddətində "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" medalları və "Azərbaycan Bayrağı" orden və medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun kapitanı olan İmran Qurbanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 29 sentyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

İmran Qurbanov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,18 dekabr 2020-ci il.//Azərbaycan.–2020.– 19 dekabr.– S.5.

MAY
24

Rafael Əliyev - 40

(1984-2020) *MAHHXHQ çavuş*



Rafael Oruc oğlu Əliyev 1984-cü il may ayının 24-də Horadiz şəhərində anadan olmuşdur. 1991-2002-ci illərdə Horadiz şəhərində 2 nömrəli tam orta məktəbdə təhsil almışdır. Rafael Əliyev 2002-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2006-cı ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Rafael Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Rafael Əliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Horadiz şəhərində dəfn olunumuşdur. Ailəli idi. İki övladı yadigar qalmışdır.

Rafael Əliyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Ülvi Qulamlı - 30

24

(1994-2020) *MAHHX kiçik çavuş*



Ülvi Şahin oğlu Qulamlı 1994-cü il may ayının 24-də Mingəçevir şəhərində anadan olmuşdur. 2011-2012-ci illərdə Mingəçevir şəhərində 13 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2018-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Ülvi Qulamlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ülvi Qulamlı oktyabrın 20-də Ağdərə istiqamətində şəhid olmuşdur. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Ülvi Qulamlı ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
24

Nicat Hacıyev - 35

(1989-2020)

Əsgər



Nicat Cahangir oğlu Hacıyev 1989-cu il may ayının 24-də Füzuli şəhərində anadan olmuşdur. 1993-cü ildə Ermənistan Silahlı Qüvvələrinin Füzuli şəhərini işğal etməsindən sonra ailəsi ilə birgə Mingəçevir şəhərində yaşamağa başlamış və 1996-2007-ci illərdə Mingəçevir şəhərində 4 nömrəli tam orta məktəbdə təhsil almışdır. Nicat Hacıyev 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurandan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi. 2016-cı ilin 2-5 aprel tarixində baş verən döyüşlərə qatılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Nicat Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nicat Hacıyev oktyabrın 2-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Nicat Hacıyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

26

Denis Əliyev - 35

(1989-2020)

Əsgər



Denis Aleksandroviç Əliyev 1989-cu il may ayının 26-da Bakı şəhərində anadan olmuşdur. Milliyyətcə rus idi. Xətai rayonu 59 saylı tam orta məktəbdə 9-cu sinifə qədər təhsil almışdır. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci il iyul ayında, Tovuz döyüşləri zamanı ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Denis Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Denis Əliyev oktyabrın 8-da Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Xətai rayonunda dəfn olunmuşdur. Ailəli idi. Bir qızı yadigar qalmışdır.

Denis Əliyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" ,"Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
27

Elşən Niftullayev - 25

(1999-2020)

Gizir



Elşən Əfqan oğlu Niftullayev 1999-cu il may ayının 27-də Cəlilabad rayonunun Musalı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Elşən Niftullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 10-da Ağdərə istiqamətində şəhid olmuşdur.

Elşən Niftullayev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.66-67.

28

Hüseyn Bəşirzadə - 30

(1994-2020)

Əsgər



Hüseyn Xanhüseyn oğlu Bəşirzadə 1994-cü il may ayının 28-də Lənkəran rayonunun Qumbaşı kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Lənkəran rayon Qumbaşı kənd tam orta məktəbində təhsil almışdır. Hüseyn Bəşirzadə bir müddət Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra sənədlərini Dövlət Sərhəd Xidmətinə qəbul olmuşdur. 2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra səfərbərlik başlamışdır. O, 21 sentyabr 2020-ci ildə hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Bəşirzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Hüseyn Bəşirzadə 21 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 23 oktyabr tarixində Lənkəran rayonunun Qumbaşı kəndində dəfn olunmuşdur.

Hüseyn Bəşirzadə ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
28

Kənan İbrahimli - 25

(1999-2020)

Əsgər



Kənan Azad oğlu İbrahimli 1999-cu il may ayının 28-də Cəlilabad rayonunun Adnalı kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə orta təhsil, daha sonra Masallı Dövlət Regional Kollecində kollec təhsili almışdır. Kənan İbrahimli 15 iyul 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra səfərbərlik başlamış, Kənan İbrahimli səfərbər olunmuşdur. 21 sentyabr 2020-ci ildə hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Kənan İbrahimli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü atıcı olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 13-da Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Kənan İbrahimli ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

29

Timur Əliyev - 40

(1984-2020)

MAHHXHQ çavuş



Timur Nurəddin oğlu Əliyev 1984-cü il may ayının 29-da Özbəkistan Respublikasının Çirçiq şəhərində anadan olmuşdur. 2000-ci ildə ailəsi ilə birgə Bakıya köçmüş, 2003-cü ildə Bakı şəhər 229 saylı tam orta məktəbi bitirmişdir. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2013-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun çavuşu olan Timur Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Timur Əliyev oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Qazax rayonunun Xanlıqlar kəndində dəfn olunmuşdur.

Timur Əliyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
30

Elçin İsmayılov - 35

(1989-2020)

Kapitan



Elçin Mübariz oğlu İsmayılov 1989-cu il may ayının 30-da Ucar şəhərində anadan olmuşdur. 1995-2006-cı illərdə Ucar şəhərində 1 nömrəli tam orta məktəbdə təhsil almışdır. Ali hərbi təhsilini 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Motoatıcı Taqım Komandiri" ixtisası üzrə almışdır. 2010-2011-ci illərdə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) təlimlərdə iştirak etmişdir. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində Qrup Komandirinin müavini vəzifəsində xidmət edən Elçin İsmayılov, 2014-cü ildən həmin hərbi hissədə Xüsusi Əməliyyat Taborunun Komandiri vəzifəsində xidmət etmişdir. Elçin İsmayılov 2015-ci ilin fevral ayında Qazax və Ağstafa istiqamətində olan döyüşlərdə, həmçinin 2016-cı ilin 2-5 aprelində baş verən döyüşlərdə iştirak etmişdir.

Azərbaycan Ordusunun kapitanı olan Elçin İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elçin İsmayılov oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Ucar şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalmışdır.

Elçin İsmayılov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
30

Babək Allahverdiyev - 45

(1979-2020) *Baş leytenant*



Babək Bəxtiyar oğlu Allahverdiyev 1979-cu il may ayının 30-da Naxçıvan MR Şərur rayonunun Dəmirçi kəndində anadan olmuşdur. İlk orta təhsilini Bakı şəhəri Nərimanov rayon 93 saylı tam orta məktəbdə almışdır. 1993-1996-cı illərdə C.Naxçıvanski adına Hərbi Liseydə oxumuşdur. 1996-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2000-ci ildə təhsilini leytenant rütbəsi ilə başa vuraraq Silahlı Qüvvələrin zabiti kimi xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Babək Allahverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Xocavəndin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Babək Allahverdiyev noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olmuş, II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Babək Allahverdiyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin

Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.–2021. – 25 iyun. –S.45-57

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il// Azərbaycan. –2021. –25 iyun. –S.81-84.

MAY
30

Tural Rəşidov - 35

(1989-2020)

Gizir



Tural Fazil oğlu Rəşidov 1989-cu il may ayının 30-da Balakən rayonunun Tülü kəndində anadan olmuşdur. 1995-2006-cı illərdə Balakən rayonunun İ.Nəsimi adına 2 saylı tam orta məktəbində təhsil almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2010-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin Cəlilabad rayonuna yerləşən "N" saylı hərbi hissəsində "gizir" hərbi rütbəsində xidmət edirdi.

Azərbaycan Silahlı Qüvvələrinin giziri olan Tural Rəşidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Tural Rəşidov oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Balakən Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalmışdır.

Tural Rəşidov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Qarabağ" ordeni və "Cəbrayılın azad olunmasına görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

31

Nurlan Sultanov - 25

(1999-2020)

Əsgər



Nurlan Yaşar oğlu Sultanov 1999-cu il may ayının 31-də Tovuz rayonunun Dönük Qırıqlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Sultanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nurlan Sultanov noyabr ayının 5-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur.

Nurlan Sultanov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

MAY
14

Fuad Ələsgərov – 65

(1959)

Hüquqşünas



Fuad Murtuz oğlu Ələsgərov 1959-cu il may ayının 14-də Şərur rayonunda anadan olmuşdur.

1981-ci ildə Azərbaycan Dövlət Universitetininin (indiki BDU) hüquq fakultəsini bitirmişdir.

1981-1984-cü illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Notariat və VVAQ İdarəsində məsləhətçi, 1984-cü ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə orqanları idarəsində məsləhətçi, 1984-1987-ci illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Nəzarət və icranın yoxlanılması idarəsində baş məsləhətçi, 1987-1990-cı illərdə Bakı şəhəri Suraxanı Rayon Xalq Məhkəməsində Xalq hakimi, 1990-1994-cü illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü, 1994–1998-ci illərdə isə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Dövlət-hüquq şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsinə, 2004-cü il aprel ayının 21-də Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvü, 2005-ci il fevral ayının 14-də Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilmişdir.

Fuad Murtuz oğlu Ələsgərov Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasının üzvüdür.

31 may 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Fuad Murtuz oğlu Ələsgərov Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri təyin edilmişdir.

2019-cu ilin 29 noyabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Fuad Murtuz oğlu Ələsgərov Azərbaycan Respublikası Prezidentinin köməkçisi − Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri təyin edilmişdir..

Azərbaycan Respublikasında qanunvericiliyin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2010-cu il tarixli Sərəncamı ilə "Əməkdar Hüquqşünas" fəxri adı verilmişdir. 2019-cu il 14 mayında dövlət qulluğundakı uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

F.M.Ələsgərovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi − Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri təyin edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 noyabr 2019-cu il // Azərbaycan.- 2019.- 30 noyabr.- S.2.

F.M.Ələsgərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 13 may 2019-cu il // Azərbaycan.- 2019.-14 may.- S.2

Fuad Ələsgərov: "Prezident İlham Əliyevin ölüm cəzasının bütün hallarda ləğvinə dair tapşırığı Heydər Əliyev siyasətinin humanist ənənələrinin davamıdır" [Mətn] /F.Ələsgərov//Azərbaycan.-2023.- 4 fevral.- S.5.

MAY
29

Züleyxa Hüseynova – 100

(1924-1996) *İctimai və dövlət xadimi*



Züleyxa İsmayıl qızı Hüseynova 1924-cü il may ayının 29-da Bakıda anadan olmuşdur.

O, 1942-ci ildə Azərbaycan Sənaye İnstitutunun neft-mexanika fakültəsinə qəbul olunmuş, ali təhsilini başa vurduqdan sonra İ.Q.Yesman adına Azərbaycan Elmi-Tədqiqat Energetika İnstitutunun aspiranturasında oxumuşdur.

Züleyxa Hüseynova 1953-cü ildə namizədlik dissertasiyası müdafiə etmiş, sonrakı 6 il ərzində Azərbaycan SSR Elmlər Akademiyasında fəaliyyət göstərmişdir. Daha sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin elm və tədris müəssisələri şöbəsinin müdir müavini təyin edilmiş, 1963-cü ildə isə Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir.

1965-ci ilin iyulunda Komitə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinə çevrilmiş, Züleyxa Hüseynova nazir təyin edilmişdir. Onun nazir kimi fəaliyyəti dövründə respublikada ali təhsil şəbəkəsinin genişləndirilməsi, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində sanballı işlər görülmüşdür. Belə ki, Azərbaycan Neft və Kimya İnstitutu nəzdində 4 yataqxananın, xarici tələbələr üçün tədris korpusunun inşası onun təşəbbüsü və köməyi ilə reallaşdırılmışdır. Ölkənin ikinci sənaye şəhəri olan Sumqayıtda Azərbaycan Neft və Kimya İnstitutunun filialı açılmışdır (həmin filialın bazası əsasında hazırda Sumqayıt Dövlət Universiteti fəaliyyət göstərir). Kirovabad (indiki Gəncə) Texniki İnstitutu da onun təşəbbüsü ilə yaradılmışdır.

1965-1970-ci illərdə Ali və orta ixtisas təhsili naziri vəzifəsində uğurla çalışan Züleyxa Hüseynova 1970-ci ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Həmkarlar İttifaqları Şurasının sədri vəzifəsinə seçilmişdir. 1981-ci ildən Azərbaycan SSR Nazirlər Sovetində Elm, texnika və təhsil müəssisələri şöbəsinin müdiri olmuşdur. Təqaüdə çıxandan sonra Azərbaycan Texniki Universitetində daxiliyanma mühərrikləri kafedrasında məsləhətçi-professor işləmişdir.

Züleyxa Hüseynova SSRİ Ali Sovetinə (7-10-cu çağırış) deputat seçilmiş, Ali Sovetin daimi komissiyasının sədr müavini və sədri, Asiya və Afrika Ölkələri ilə Həmrəylik Komitəsi sədrinin müavini olmuşdur.

Bir çox elmi məqalə və metodik işləri nəşr olunmuşdur. "Avtomobillər və traktorlar" adlı orijinal ali məktəb dərsliyinin həmmüəlliflərindəndir.

Züleyxa Hüseynovanın Azərbaycanda maarif və təhsilin inkişafı sahəsindəki xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Oktyabr inqilabı", "Qırmızı Əmək Bayrağı" ordenləri, bir sıra medal və fəxri fərmanlarla təltif edilmişdir.

Züleyxa İsmayıl qızı Hüseynova 1996-cı il may ayının 24-də vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan Qadın Ensiklopediyası. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı. 2002. S. 22.

Züleyxa İsmayıl qızı Hüseynova: Azərbaycanın təhsil nazirləri //Azərbaycan müəllimi.-2012.- 3 fevral.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Züleyxa_Hüseynova

Tofiq Vəliyev – 90

(1934-2014)

Tarixçi



Vəliyev Tofiq Talış oğlu 1934-cü il may ayının 7-də Ağdam rayonunun Kürdlər kəndində müəllim ailəsində anadan olumuşdur.

1948-1951-ci illərdə Ağdam Pedaqoji texnikumunda təhsil almışdır. Təhsilini bitirdikdən sonra 1951-1952-ci tədris ilində Yevlax rayonunun Qoyunbinəsi kəndində müəllim işləmişdir. 1953–1958-ci illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində oxumuş, təhsilini başa vurduqdan sonra təyinatla AMEA Tarix İnstitutuna göndərilmişdir. 1958-1990-cı illərdə AMEA Tarix institutunda işləmiş, 1960–1963-cü illərdə isə İnstitutun əyani aspiranturasında təhsil almışdır.

Vəliyev Talış oğlu 1990-cı ildə müsabiqə yolu ilə BDU-nun Tarix fakültəsinə professor vəzifəsinə keçmişdir. 1993-cü ildən 2014-cü ilədək fakültənin "Slavyan ölkələri tarixi" kafedrasının müdiri vəzifəsində işləmişdir.

O, 1966-cı ildə "XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1970-ci ildə Peterburqda (Leninqrad) keçirilmiş "Dünya iqtisadi tarixi" və həmin ildə Moskvada təşkil edilmiş "XII beynəlxalq tarix konqres"lərində iştirak etmişdir. 1986-cı ildə "XX əsrin əvvəllərində Azərbaycanın sənayesi və proletariatı" mövzusunda isə doktorluq dissertasiyası müdafiə etmişdir.

"XIX əsr-XX əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatında kapitalist münasibətlərinin inkişafı və eyni dövrdə Şərqi Slavyan ölkələrinin tarixi" sahəsində tədqiqatlar aparmışdır. 160-dan çox məqalənin, 5 monoqrafiyanın, orta və ali məktəblər üçün 14 dərslik və dərs vəsaitinin müəllifidir. 8 elmlər namizədi və 2 elmlər doktoru yetişdirmişdir.

"XX əsr Azərbaycan tarixi (ali məktəblər üçün dərslik)", "Azərbaycan tarixi suallarda və cavablarda (dərs vəsaiti I hissə)", "Azərbaycan tarixi suallarda və cavablarda (dərs vəsaiti II hissə)", "Ümumdünya tarixi suallarda və cavablarda (dərs vəsaiti, II hissə)", "Ümumdünya tarixi suallarda və cavablarda (dərs vəsaiti, III hissə)", "Slavyan ölkələri tarixi. Ümumi kursun proqramı", "Slavyan ölkələri tarixi magistr kursunun proqramı adlı kitabların müəllifidir.

Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Vəliyev Tofiq Talış oğlu 2014-cü il may ayının 26-da vəfat etmişdir.

Ə d ə b i y y a t :

Yeni tarix: ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik /T. T. Vəliyev və başqaları; Ümumi red. T.Vəliyev.- Bakı: Əlfərül, 2005.-128 s.

Bakı Dövlət Universitetinin əməkdaşlarının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 oktyabr 2009-cu il // Azərbaycan.- 2009.- 1 noyabr.- S. 1.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Tofiq_Vəliyev

Məmməd Cəfər – 115

(1909-1992)

Ədəbiyyatşünas, nasir



Məmməd Zeynalabdin oğlu Cəfərov (Məmməd Cəfər) 1909-cu il may ayının 9-da Naxçıvan şəhərində anadan olmuşdur.

O, 1928-1932-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunda təhsil almışdır. 1932-1935-ci illərdə APİ-nin (indiki ADPU) Dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirməklə yanaşı, "Gənc işçi", "Maarif işçisi" qəzetlərinin redaksiyalarında şöbə müdiri vəzifəsində çalışmışdır. 1935-1938-ci illərdə həmin institutun Ərəb ədəbiyyatı kafedrasının aspiranturasında təhsil almışdır. 1938-1939-cu illərdə Ədəbiyyat fakültəsinin dekanı, 1939-1941-ci illərdə Bakı İkiillik Müəllimlər İnstitutunda baş müəllim, 1941-1943-cü illərdə ADU-nun Rus ədəbiyyatı kafedrasında dosent, həmçinin "Ədəbiyyat qəzeti" redaksiyasında şöbə müdiri, 1943-1945-ci illərdə Quba Müəllimlər İnstitutunda elmi işlər üzrə direktor müavini, 1945-1949-cu illərdə ADU-nun Rus ədəbiyyatı kafedrasında dosent, eyni zamanda "Ədəbiyyat qəzeti"nin redaktoru, 1949-1951-ci illərdə ADU-nun Filologiya fakültəsinin dekanı, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, 1951-1953-cü illərdə ADU-nun Rus ədəbiyyatı kafedrasının müdiri, 1959-1962-ci illərdə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda Sovet ədəbiyyatı şöbəsinin, 1963-1982-ci illərdə Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri, 1982-1984-cü illərdə institutun direktoru olmuşdur. 1984-1987-ci illərdə Azərbaycan EA ictimai elmlər bölməsinin akademik katibi olmuşdur.

Məmməd Cəfər 1949-cu ildə filologiya elmləri namizədi, 1961-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsini, 1963-cü ildə professor elmi adını almış, 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) həqiqi üzvü seçilmişdir.

O, Ədəbi fəaliyyətə 1937-1938-ci illərdə "Kommunist", "Yeni yol" və "Ədəbiyyat qəzeti"ndə dərc etdirdiyi məqalələrlə başlamışdır. Əsərlərini "Zurnaçı", "M.N.", "Dəmdəməki", "Zorən təbib", "M.Zeynaloğlu" imzaları ilə çap etdirmişdir. İlk bədii əsəri "Snayper İlyas" 1942-ci ildə nəşr edilmişdir.

Məmməd Cəfər 30-dan artıq monoqrafiya, dərslik və kitab, 300-dən çox elmi məqalənin müəllifidir. O, rus ədəbiyyatının görkəmli bilicisi və tədqiqatçısı idi. Onun "Rus ədəbiyyatı tarixi oçerkləri" (1939), "Rus klassikləri" (1969), üçcildlik "XIX əsr rus ədəbiyyatı tarixi" (1970, 1974) kitabları buna misaldır. Azərbaycan romantizmi ilə bağlı ilk ən mükəmməl tədqiqatlar da onun adı ilə bağlıdır. Görkəmli alimin "Hüseyn Cavid" (1960), "Azərbaycan romantizmi" (1963) əsərləri Azərbaycan romantizminin bir ədəbi cərəyan olaraq tədqiqində yeni mərhələ idi. Alim eyni zamanda estetika nəzəriyyəçisi və sənətşünas filosof idi. Qələmə aldığı "Estetik zövq haqqında" (1965), "Mütəfəkkirin şəxsiyyəti" (1966), "Həyatın romantikası" (1968), "Nizaminin fikir dünyası" (1982) əsərləri Azərbaycan estetik və fəlsəfi fikrinin ən gözəl nümunələrindən sayılır. Onun "Ədəbi düşüncələr" (1958) və "Sənət yollarında" (1975) kitabları ədəbi tənqid tariximizdə öz elmi sanbalını bu gün də saxlamaqdadır. Əsərləri keçmiş SSRİ xalqlarının dillərində nəşr olunmuş, "Mirzə Ələkbər Sabir" və "Cəlil Məmmədquluzadə" kitabları rus, ingilis, fransız, ərəb, fars, ispan, türk dillərində çap olunmuşdur.

Məmməd Cəfər aspirant və dissertantlara elmi rəhbərlik etmiş, elmlər namizədi və elmlər doktorları yetişdirmişdir. O, 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatına, 1982-ci ildə Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, "Lenin ordeni" və iki dəfə "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdir.

Məmməd Cəfər 1992-ci il may ayının 11-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Cəfərov, M. Bədii əsərləri / Məmməd Cəfərov; toplayanı, tərt. ed., ön sözün müəl. İ.Həbibbəyli ; red. T.Məmməd.- Bakı: Elm və təhsil, 2022.- 917, [1] s.

Həbibbəyli, İ. Akademik Məmməd Cəfər Cəfərovun Nizami dünyası / İsa Həbibbəyli // 525-ci qəzet.- 2021.- 18 sentyabr.- S.16-17;18.

Əsgərli, Ə. Məmməd Cəfər Cəfərovun bədii irsinin təbliğinə töhfə / Əlizadə Əlizadə // 525-ci qəzet.- 2023.- 24 yanvar.- S.12

Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyi qeyd edilib //Mədəniyyət.-2019.- 14 iyun.- S.6.

Məmməd Cəfər sevgisi /V.Yusifli//Ədalət.-2020.- 4 iyul.- S.15

Məmməd Cəfər Cəfərovun elmi yaradıcılığı /Ə.Əsgərli//Elm.-2023.- 10 fevral.- S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məmməd_Cəfərov

MAY
10

Şamil Qurbanov – 90

(1934-2004)

Ədəbiyyatşünas



Şamil Dünyamalı oğlu Qurbanov 1934-cü il may ayının 10-da Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur.

1955-ci ildə orta məktəbi bitirmiş və həmin ildə ADU-nun (indiki BDU-nun) jurnalistika şöbəsinə daxil olmuşdur. Universiteti fərqlənmə diplomu ilə bitirmiş və "Azərbaycan məktəbi" jurnalında ədəbi işçi kimi fəaliyyətə başlamışdır. 1961-ci ildə universitetin jurnalistika fakültəsində baş laborant işləmişdir.

Şamil Qurbanov 1962-ci ildə Azərbaycan ədəbiyyatı tarixi kafedrası üzrə aspiranturaya qəbul olmuş və 1965-ci ildə "Zaqafqaziya rusdilli mətbuatında Azərbaycan ədəbiyyatı (1905-1917)" mövzusunda dissertasiyanı vaxtından əvvəl müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Müdafiədən sonra o, "Bakı" və "Baku" qəzetlərində ədəbiyyat şöbəsinin müdiri işləmişdir. 1968-ci ildə yenidən universitetə qayıtmış və "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında dosent işləmiş, Azərbaycan dilindən dərs demişdir. 1971-ci ildə Rus ədəbiyyatı tarixi kafedrasına keçmiş və rus ədəbiyyatından mühazirə oxumağa başlamışdır. 1973-cü ildən Türk və Şərqi slavyan xalqları ədəbiyyatı kafedrasına (o zaman "SSRİ xalqları ədəbiyyatı" kafedrası adlanırdı) keçmiş və həmin kafedrada dosent, professor işləmiş, 1989-cu ildən kafedraya rəhbərlik etmişdir. 1975-ci ildə "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan-rus ədəbi əlaqələri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, filologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

Şamil Qurbanov Azərbaycan ədəbiyyatında yeni səhifələr açmış, indiyə qədər məlum olmayan və ya az məlum olan şəxsiyyətləri üzə çıxarmışdır. Bunlar Hüseyn Minasazov, Rəhimbəy Məlikov, Məmməd Qarayev, Həmzətbəy Qəbulov, Şirvanski, Sona xanım Axundova, Kərim Yaycılı və başqalarıdır. Onun Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, M.Ə.Rəsulzadə haqqında da dərin tədqiqat əsərləri vardır. Ən böyük ədəbi xidməti Ömər Faiq Nemanzadə və Şeyx Cəmaləddin Əfqani haqqında tədqiqatlarıdır. Bunların hərəsi haqqında məqalələrdən əlavə 4-5 kitab nəşr etdirmiş, onların böyük xidmətləri şərh olunmuşdur. 1978-ci ildən 1992-ci ilə qədər doktorluq elmi dərəcəsi verən Elmi şuranın elmi katibi, 1981-1992-ci illərdə filologiya fakültəsinin qiyabi və axşam şöbəsinin dekanı olmuşdur. 10-dan çox beynəlxalq simpozium və konfranslarda (Ankara, Bursa, Tehran, Bağdad, İsfahan, Moskva, Tbilisi, Daşkənd və Düşənbə) iştirak etmiş, Daşkənd və Tbilisi ali məktəblərində Azərbaycan ədəbiyyatından dərs keçmişdir. BDU-nun "Türk və Şərqi slavyan xalqları ədəbiyyatı" kafedrasının müdiri və professoru olmuşdur.

"Açılmamış səhifələr" (1974), "Lermontov və Azərbaycan ədəbiyyatı" (1976), "Ədəbi dostluq" (1980), "Klassik rus poeziyası Azərbaycanda" (1985), "Ömər Faiq Nemanzadə" (1985), "Ömrün fikir dünyası" (1991), "Ömər Faiq Nemanzadə" (1992), "Cəmaləddin Əfqani və türk dünyası" (1996), "A.S.Puşkin Azərbaycanda" (1996), "Cəmaləddin Əfqani və türk dünyası" (1997), "Yaxın və uzaq dünyamız" (1997), "Məmməd Əmin Rəsulzadə" (2001), "Nəriman Nərimanov dünyası" (2001), "İstedadlar ocağı" (2001), "Nəriman Nərimanov" (2003), "Müəllimlər" (2003) adlı kitabları çap olunmuşdur

Şamil Qurbanov 22 kitabın, 300-dən çox məqalənin müəllifidir. Məqalələri İran, İraq, Türkiyə, Gürcüstan və s. ölkələrdə çap olunmuşdur.

O, 1995-ci ildə (I çağırış) və 2000-ci ildə (II çağırış) Milli Məclisin deputatı seçilmişdir.

Şamil Qurbanov 2004-cü ilin yanvar ayının 16-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Müəllimlər /Şamil Qurbanov.- Bakı: Çaşıoğlu.- Bakı: Çaşıoğlu, 2003.- 368 s.

Azərbaycanlıların soyqırımı / Şamil Qurbanov // Azərbaycan.- 2001.-13 mart.-S.5

Qismətoğlu, F. Elmin yollarında ağaran saçlar... / Faiq S.Qismətoğlu // Ədalət.- 2023.- 14 yanvar.- S.4; Ədalət.- 2023.- 19 may.- S.5.

O böyük Şamil Qurbanov /F.Qismətoğlu// Ədalət.-2020.- 11 yanvar.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Şamil_Qurbanov

MAY
20

Salman Mümtaz – 140

(1884-1941) *Ədəbiyyatşünas, mətnşünas*



Salman Məmmədəmin oğlu Əsgərov (Salman Mümtaz) 1884-cü il may ayının 20-də Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. Kiçik yaşlarında ailəsi ilə birlikdə Aşqabad şəhərinə köçdüklərindən uşaqlıq dövrü orada keçmiş, ibtidai təhsilini Mirzə Əsədullanın məktəbində almışdır. Ərəb, fars və urdu dillərini mükəmməl öyrənmiş, onda klassik Şərq ədəbiyyatını toplayıb nəşr etməyə güclü həvəs oyanmışdır. Ticarətlə məşğul olsa da, Zaqafqaziyanın ictimai mədəni həyatı, dövri mətbuatı ilə ciddi maraqlanmış, burada çıxan qəzet və jurnalların, xüsusən "Molla Nəsrəddin"in Türkistan, Ural və Sibir üzrə müvəkkili olmuşdur. "Molla Nəsrəddin", "Zənbur", "Kəlniyyət", "Tuti", "Qardaş köməyi" jurnallarında, "Günəş", "Səda", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Açıq söz" və s. qəzetlərdə satirik şeirləri, məqalələri, məktubları və mənzum felyetonları dərc olunmuşdur. 1910-cu ildə Aşqabaddan Bakıya köçmüş, burada klassik ədəbi irsi toplamağa, nəşr və tədqiq etməyə geniş imkan yaranmışdır.

1920-1930-cu illərdə Bakı dövri mətbuatı ilə - "Füqəra füyuzatı", "Kommunist", "Maarif və mədəniyyət", "Azərbaycanı öyrənmə yolu" jurnal və qəzetləri ilə əməkdaşlıq etmiş, eyni zamanda Azərbaycan ədəbiyyatı, şifahi xalq ədəbiyyatının nümunələrini toplamaq və tədqiq etməklə ardıcıl məşğul olmuşdur. "Kommunist" qəzeti redaksiyasında əməkdaşlıq etdiyi illər "Azərbaycan ədəbiyyatı" seriyasından "Ağa Məsih Şirvani", "Molla Pənah Vaqif", "Nişat Şirvani", "Qövsi", "Qasımbəy Zakir", "Mirzə Şəfi Vazeh" və s. kitablarını nəşr etdirmişdir. 1927-1928-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında klassik irs şöbəsinin müdiri işlədiyi zaman "Baba bəy Şakir", "El şairləri" (iki cilddə), "Aşıq Abdulla", "Mehdi bəy Şəqaqi", "Ağa Bağır Şirvani", "Mirzə Nəsrulla bəy Didə" adlı kitablarını müqəddimə və şərhlərlə nəfis şəkildə çap etdirmişdir.

Salman Əsgərov 1926-1936-cı illərdə Azərbaycan Dövlət Muzeyində, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Tarix, Dil, Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi, klassik irs şöbəsinin müdiri, elmi işçi vəzifələrində çalışmışdır.

"Kommunist" qəzetində "Unudulmuş yarpaqlar" sərlövhəsi altında verilən silsilə məqalələri, tapıntı və araşdırmaları klassik Azərbaycan ədəbiyyatının öyrənilməsinə kömək etmişdir. 1926-1936-cı illərdə "Kommunist" nəşriyyatı onun 24 kitabını çapdan buraxmış, 1927-1935-ci illərdə "Molla Pənah Vaqif", "Şeirlər" (Sarı aşıq), "Azərbaycan ədəbiyyatı", "El şairləri", "Sarı aşıq və bayatıları" kitablarını tərtib edib müqəddimə ilə nəşr etdirmişdir. 1934-cü ildə Sovet Yazıçılarının Birinci Ümumittifaq qurultayına nümayəndə seçilmişdir.

Salman Mümtaz 1937-ci il oktyabr ayının 8-də həbs olunmuş, 1941-ci il sentyabr ayının 6-da qətlə yetirilmişdir.

Azərbaycanın tanınmış folklorşünası və görkəmli ədəbiyyatşünas alimi Ələsgərov Salman Mümtaza 1956-cı il noyabrın 16-da SSRİ Ali Məhkəməsi tərəfindən ölümündən sonra bəraət verilmiş, ittihamnamə ləğv edilmişdir.

Azərbaycan ədəbiyyatı qarşısındakı xidmətləri nəzərə alınaraq Ulu Öndər Heydər Əliyevin 13 sentyabr 1996-cı il tarixli Sərəncamı ilə Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə Salman Mümtazın adı verilmişdir.

Ədəbiyyat:

İmaməliyeva, L.Salman Mümtazın ədəbi şəxsiyyəti: metodik vəsait / Leyla İmaməliyeva (tərt.); elmi red. A. H. Hüseynova; Azərb. Resp. Təhsil Nazirliyi Bakı Slavyan Un-ti.- Bakı: [Mütərcim], 2021.-37, [2] s.

Salman Mümtazın şəxsi fondundan folklor mətnləri / Azərb. Milli Elmlər Akademiyası, Folklor İntu; transliterasiya və tərtib edənlər R. Xəlilov, A. Xürrəmqızı; red. heyyəti M. Kazımoğlu (elmi red.) [və b.].- Bakı: [Nurlan], 2013.-91, [1] s.

Ənvəroğlu, Ç. Salman Mümtaz haqqında düşüncələr / Çingiz Ənvəroğlu // Ədalət.- 2019.- 23 noyabr.- S.14.

"100 şair" : Həsən bəy Zərdabi /S. Mümtaz//Ədəbiyyat qəzeti.-2022.- 23 iyul.- S.4-5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Salman_Mumtaz

MAY
26

Vəli Xuluflu – 130

(1894-1937) *Ədəbiyyatşünas, publisist*



Vəli Məmmədhüseyn oğlu Xuluflu 1894-cü il may ayının 26-da Yelizavetpol quberniyasının (indiki Şəmkir rayonu) Xuluflu qəsəbəsində anadan olmuşdur. İbtidai təhsilini 1905-1907-ci illərdə mollaxanada almış, 1912-ci ildə "Mədrəseyi-Ruhaniyyə"ni bitirmişdir. Həmin məktəbdə müəllim saxlanmış, 1917-ci ildə Gəncədəki müəllimlər kursunu bitirmiş və bu dövrdə inqilabi hərəkatda da fəal iştirak etmişdir. 1920-ci ildə Azərbaycan K(b)P-nın I Qurultayına nümayəndə göndərilmiş Vəli Xuluflu tezliklə bolşevikləri həyata keçirdiyi partiya sıralarındakı təmizləmə işi ilə əlaqədar partiya üzvlüyündən çıxarılmış, lakin əməllərində heç bir cinayət tərkibi olmadığından 1927-ci ildən partiya sıralarına bərpa edilmişdir. 1921-1922-ci illərdə Gəncə quberniyasında qəza partiya komitəsinin katibi işləmişdir.

O, 1922-1927-ci illərdə ADU (indiki BDU) Şərqşünaslıq fakültəsində təhsil almış, bu illərdə Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin təlimatçısı, "Bakinskiy raboçiy" nəşriyyatının və "Azərnəşr"in redaktoru olmuşdur. 1928-ci ildə Bakıda keçirilən Azərbaycan Aşıqlarının I Qurultayında iştirak etmiş və burada bir çox aşıqlarla tanış olmuşdur.

Azərbaycan folklor örnəklərinin toplanması, nəşri və tədqiqi sahəsində müstəsna xidmətləri olan bu görkəmli folklorşünas alim 1927-ci ildə "Koroğlu" dastanının Aşıq Hüseyn Bozalqanlının dilindən yazdığı iki qolunu, 1929-cu ildə isə 4 qolunu və 6 nağılvari hekayəti kitab halında nəşr etdirmişdir. Həmçinin 1927-ci ildə "El aşıqları", 1928-ci ildə "Tapmacalar" kitablarını tərtib etmişdir. 1926-ci ildə "Azərbaycan xalq ədəbiyyatından materiallar" seriyası ilə "El aşıqları" kitabını çap etdirmişdir. Bu kitaba Qurbani, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli və başqalarının tərcümeyi-halları ilə yanaşı, müxtəlif aşıqların repertuarından yazıya alınmış yüzdən çox qoşma, gəraylı, təcnislər və Şəmkirli Aşıq Hüseynə məxsus "Reyhan" dastanı daxil edilmişdir.

Vəli Xuluflu 1929-1933-cü illərdə Azərbaycan Dövlət Elmi-tədqiqat İnstitutunun elmi katibi, "Dil, Ədəbiyyat və İncəsənət" bölməsinin direktoru, sonrakı illərdə SSRİ EA Azərbaycan filialı Tarix İnstitutunun direktor müavini və s. vəzifələrdə çalışmışdır. 1929-cu ildə dosent, 1931-ci ildə professor adını daşımışdır.

1933-cü ildə bir müddət Mərkəzi Arxiv İdarəsində müdir, sonra Azərbaycan SSR Xalq Maarif Komissarlığında Universitet və elmi-tədqiqat müəssisələri idarəsinin rəisi və Dövlət Elmi Şurasının sədr müavini, eyni zamanda 1933-cü ildən SSRİ EA Azərbaycan şöbəsinin baş mütəxəssisi olmuşdur. 1924-cü ildən Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin işlərində fəal çalışmışdır. Zaqafqaziya federasiyasının 10 illiyində ictimai, elmi və ədəbi xidmətlərinə görə Fəxri tərifnamə və qızıl saatla təltif olunmuşdur.

Azərbaycanın görkəmli ziyalılarından biri olan Vəli Xuluflu 28 fevral 1937-ci ildə əksinqilabi millətçi təşkilatın üzvü kimi həbs olunmuş və 13 oktyabr 1937-ci ildə güllələnmişdir. Vəli Xulufluya 17 noyabr 1956-cı ildə bəraət verilmişdir.

Bakının adına küçə, Gəncədə küçə və məktəb, doğulduğu Şəmkir rayonunda orta məktəb və küçə verilmişdir..

Ədəbiyyat:

Qasımov, C. Vəli Xuluflu / Cəlal Qasımov; red. və ön söz müəll. A. Bayramoğlu; AMEA, Folklor İn-tu.- Bakı: [Elm və təhsil], 2016.- 323, [1] s.

Salmanlı, R. Gizli güllələnən alim: xatirə-memuar: Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qarşısında / Rəhman Salmanlı; red. B. Sadıqov; elmi məsləhətçi Ş. Vəliyev.- Bakı: [Elm və təhsil], 2016.- 183 s.

Bayramoğlu, A. Vəli Xuluflu və məşhur "58"-ci maddə" / Anar Bayramoğlu // Şərq.- 2012.- 7 mart. - S.13.

Eminova, İ. Vəli Xuluflu və Azərbaycan koroğlu-şünaslığı / İlkin Eminova // Filologiya məsələləri / AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu.- 2014.- №9.- S.216-225.

Elmi və xalqi ziyalı: Vəli Xuluflu /A.Əliyeva //Azad Azərbaycan.-2019.- 9 may.-S. 7

İnternetdə:

https://az.wikipedia.org/wiki/Vəli_Xuluflu

Bəhram Nərimanov – 90

(1934-2010) *Bədən tərbiyəsi və idman xadimi*



Bəhram Əhməd oğlu Nərimanov 1934-cü il may ayının 6-da Bakı şəhərində anadan olmuşdur. 1957-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmiş (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) və həmin ildən əmək fəaliyyətinə institutun "Gimnastika və onun metodikası" kafedrasında müəllim, 1962-ci ildən baş müəllim və 1973-cü ildən vəfatınadək kafedra müdiri, 1973-1981-ci illər Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu Həmkarlar İttifaqının sədri, pedaqoji fakültənin dekanı vəzifələrində çalışmışdır

Bəhram Nərimanov 1957-ci ildən elmi fəaliyyətə başlamış, 1981-ci ildə Moskvada dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi almış, 1984-cü ildə dosent elmi adına layiq görülmüşdür. 1979-1987-ci illərdə SSRİ Nazirlər Sovetinin Bədən Tərbiyəsi və İdman Komitəsinin elmi-metodiki və fənn komissiyalarının üzvü olmuşdur. Onun 80-dən çox elmi əsəri, o cümlədən, gimnastika üzrə dərslikləri, dərs vəsaitləri və metodiki tövsiyələri vardır.

1995-ci ildə elmi və ictimai fəaliyyətinə görə, ona Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfinfən professor fəxri adı verilmişdir. 1958-ci ildə Azərbaycan tarixində idman akrobatikası üzrə ilk "SSRİ idman ustası", 1962-ci ildə "SSRİ-nin fəxri idman ustası" adlarına layiq görülmüş, 1957-ci ildə SSRİ Həmkarlar İttifaqı Spartakiadasının, 1958-ci ildə SSRİ çempionatının mükafatçısı olmuşdur. 1952-1968-ci illərdə 16 dəfə Ümumittifaq "Neftçi" İdman Klubu Mərkəzi Şurasının Azərbaycan Respublikasının çempionu olmuşdur.

Bəhram Nərimanov 1959-1972-ci illərdə Azərbaycan yığma komandasının baş məşqçisi olmuş, saysız miqdarda SSRİ idman ustaları, Azərbaycan çempionları, SSRİ birinciləri və mükafatçıları hazırlamışdır. Ona bu nailiyyətlərinə görə 1962-ci ildə Azərbaycan Respublikasının "Əməkdar məşqçi", 1964-cü ildə isə "SSRİ Bədən Tərbiyəsi və İdman Əlaçısı" fəxri adları verilmişdir.

Bəhram Nərimanov 1960-1972-ci illərdə və 1994-2000-ci illərdə Azərbaycan İdman Akrobatikası Federasiyasının sədri, Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti olmuşdur. 1961-1990-cı illərdə SSRİ Akrobatika Federasiyasının üzvü olmuş, 1993-cü ildə dünyada akrobatikanın inkişafında böyük rolu nəzərə alınaraq, Beynəlxalq İdman Akrobatika Federasiyası tərəfindən medal və diplomla təltif edilmişdir. 1973-cü ildə Ümumittifaq və 1994-cü ildə "Beynəlxalq dərəcəli hakim" adına layiq görülmüşdür. Bəhram Nərimanov Azərbaycanda keçirilən gimnastika yarışlarında çıxışların quruluşu ilə də məşğul olmuş, 1991-ci ildə Azərbaycanın bədən tərbiyəsi və idman üzrə "Əməkdar xadim" fəxri adına layiq görülmüşdür.

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafına verdiyi töhfələrə görə Bəhram Nərimanov 2001-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmiş və Prezident təqaüdünə layiq görülmüşdür.

Bəhram Nərimanov 2010-cu il iyun ayının 10-da vəfat etmişdir.

Ədəbiyyat:

Ömrün 75-ci baharı /O.Bayramov//Xalq qəzeti.-2009.- 3 may.- S. 8.

İnternetdə:

https://agf.az/az/news/Bəhram Nərimanov

Hacıbala Abutalıbov – 80

(1944) *İctimai-siyasi xadim*



Hacıbala İbrahim oğlu Abutalıbov 1944-cü il may ayının 13-də Türkmənistanın Krasnovodsk şəhərində anadan olmuşdur. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir.

Hacıbala Abutalıbov 1968-ci ildə keçmiş SSRİ-nin Leninqrad şəhərində A. F. İoffe adına Fizika-Texnika İnstitutunda aspiranturaya daxil olmuş, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Lenin mükafatı laureatı Yevgeni Fyodoroviç Qrossun və Marina Lazaryevna Bellenin rəhbərliyi altında 1976-cı ildə namizədlik dissertasiyasını müdafiə etmiş, 1987-ci ildə isə Lenin mükafatı laureatı akademik Aleksandr Aleksandroviç Kaplyanskinin rəhbərliyi ilə həmin institutda fizika-riyaziyyat elmləri doktoru yüksək elmi dərəcəsi adını almışdır. Fizika-riyaziyyat elmləri doktoru, professordur.

O, Amerika, İngiltərə, Fransa, Almaniya, Rusiya və s. dövlətlərin qabaqcıl elmi jurnallarında çap olunmuş 200-dən çox elmi əsərin və monoqrafiyanın, 30-dan çox elmi ixtiranın müəllifidir.

Hacıbala Abutalıbovun rəhbərliyi altında 10-dan çox elmlər doktoru və elmlər namizədi yetişmişdir. 1988-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda "Yarımkeçiricilərin kvant elektronikası" laboratoriyasının müdiri olmuşdur.

Hacıbala Abutalıbov 1995-ci ilin fevral ayından 2000-ci ilin yanvar ayınadək Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur. 1999-cu ilin iyul ayında Azərbaycan Respublikası Prezidenti "Suraxanı Rayon İcra Hakimiyyətinin müsbət iş təcrübəsinin yayılması haqqında" Sərəncam imzalamışdır.

O, 2000-ci ilin yanvar ayından 2001-ci ilin yanvar ayına qədər Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışmışdır. 2001-ci ilin yanvar ayından Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilmişdir. 2018-2019-cu illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsini icra etmişdir.

Hacıbala Abutalıbov 2014-cü ildə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilmişdir. Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvüdür.

Ədəbiyyat:

Hümbətoğlu, Bt. Müdrikliyin səlahiyyət zirvəsi / Binnət Hümbətoğlu; ideya müəl. Z. Zeynallı; red. Ə. R. Xələfi; tərt. Elgün və Elay qardaşları.- Bakı : Şuşa, 2014.- 309, [2] s.

Həmişə cavanlaşan qocaman Bakı: [Paytaxtın baş planı haqqında] / Hacıbala Abutalıbov // Xalq qəzeti .- 2004.- 21 aprel. - S. 4.

Bakımızın Hacıbala müəllimi : Hacıbala Abutalıbov -75 /B. Hümbətoğlu//Kredo.-2019. - 30may. - S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Hacıbala_Abutalıbov

MAY
12

Həcər Nəsrullayeva – 100

(1924-2005) *Oftalmoloq*



Həcər Məhəmməd qızı Nəsrullayeva 1924-cü il may ayının 12-də anadan olmuşdur.

1946-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb institutunu bitirmişdir. 1958-ci ildən Azərbaycan ET oftalmologiya institutunda işləyirdi.

Həcər Nəsrullayeva Həmin "Hipertoniya xəstəliyi və hamilə qadınlarda hipertoniya simptomu ilə keçən toksikoz zamanı gözün elastotonometrik müayinələri" mövzusunda namizədlik, 1968-ci ildə isə "Gözün arxa hissəsinin patologiyası zamanı görmə itiliyinin funksional vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

O, 1971-ci ildən özünün cəhdi ilə yaradılan gözün sinir-damar patologiyası şöbəsinə rəhbərlik etmişdir. Geniş elmi erudisiyanın, zəngin klinik təcrübənin sahibi olaraq, prof. H.M.Nəsrullayeva bir çox illər ərzində biokimyəvi, biofiziki, morfohistokimyəvi və başqa müayinələrdən istifadə edərək, göz dibinin sinir-damar aparatının müxtəlif mənşəli patologiyası, şəkərli diabetlə əlaqədar əmələ gələn kataraktanın patogenezi problemlərinə həsr olunmuş tədqiqatlarla məşğul olmuşdur. 250-yə yaxın elmi əsər, o cümlədən 3 monoqrafiya, 7 metodik tövsiyələr, 3 müəlliflik şəhadətnamə, 32 səmərələşdirici təklif yaratmışdır. 1993-cü ildə Həcər Nəsrullayevaya professor elmi adı verilmişdir.

Respublikada oftalmoloq kadrlarının hazırlanması işinə böyük məsuliyyətlə yanaşaraq, Həcər Nəsrullayeva oftalmologiya sahəsində bir sıra yüksək ixtisaslı elmi və təcrübi mütəxəssislər hazırlamışdır. O, respublikada ilk dəfə olaraq, oftalmoneyroangiopatoloqlar elmi məktəbini yaratmışdır. 2 doktorluq və 10 namizədlik dissertasiyasına rəhbərlik etmişdir.

Həcər Nəsrullayeva xəstələrə geniş məsləhət və müalicəvi yardım göstərmişdir. Uzun illər ərzində o, institutun aparıcı mütəxəssislərinin konsiliumunun sədri olmuşdur. 1971-1980 illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, Səhiyyə və Sosial Təminat komissiyasının sədr müavini kimi çalışmışdır.

O, orden və medallarla təltif olunmuş, Respublikanın Əməkdar elm xadimi Fəxri adına layiq görülmüşdür.

Həcər Nəsrullayeva 2005-ci ildə vəfat etmişdir.

Ə d ə b i y y a t :

Həcər Nəsrullayeva // Azərbaycan qadını ensiklopediyası .– Bakı, 2002.– S.316.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Həcər Nəsrullayeva

file:///C:/Users/user/Downloads/HəcərNəsrullayeva.pdf

9 MAY

Bəybala Ələsgərov – 70

(1954)

Kitabxanaçı, publisist



Bəybala Aydabala oğlu Ələsgərov 1954-cü il may ayının 9-da Qusar rayonunun Köhnə Xudat Qazmalar kəndində anadan olmuşdur. 1971-ci ildə Qusar şəhər 1 saylı orta məktəbi bitirmiş, 1972-1973-cü illərdə "Paris Kommunası" gəmi təmiri zavodunda tornaçı işləmişdir. 1973-1975-ci illərdə Sovet Ordusu sıralarında ADR–də xidmət etdikdən sonra 1982-ci ilə kimi həmin zavodda növbə rəisi vəzifəsinə kimi yüksəlmiş, həmçinin müxbir postunun rəisi, Təbiəti Mühafizə Cəmiyyətinin sədri, ətraf mühit üzrə baş mühəndis müavini və partiya təşkilatının katibi vəzifələrində çalışmışdır.

1982-ci ildə ADU–nun (indiki BDU) kitabxanaçılıq fakültəsini bitirmiş, M.F.Axundov adına Kitabxanada metodist, redaktor, böyük redaktor, aparıcı mütəxəssis və bölmə müdiri vəzifələrində işləmiş,1988-1992-ci illərdə Moskva Dövlət Mədəniyyət İnstitutunun aspiranturasında təhsil almışdır.

1986-cı ildə Sovet İttifaqının ilk kitabxana-klub sisteminin metodikasının hazırlanmasında iştirak etmiş, Moskva (1988), Bakı (1989), Alma-Ata (1990), Kemerovo (1990),Tambov (1991-1993) və s. ümumittifaq konfranslarında çıxış etmişdir.

B. Ələsgərov "Sədaqət Kərimovanın həyat və yaradıcılığı" (2013), "Akademik Nizami Cəfərov" (2019), "Bu, həmin Elçindir" (2022), "İlyas Əfəndiyev (Yaddaş kitabçası)" (2023) adlı metodik vsatlərin müəllifidir. 400-ə yaxın publisistik, elmi məqalə, məruzə, çıxış, dialoq və müsahibələrlə dövri mətbuat orqanlarında çıxış etmişdir.

Bəybala Ələsgərov 1993, 1995, 1997-ci illərdə "İnformatika və elmşünaslıq" beynəlxalq konfransda, 1993-cü ildə "Nobel Mükafatı laureatlarının" III, 1995-ci ildə IV konfranslarında iştirak etmiş və Stokholm şəhərində Nobel Mükafatları Komitəsində dəfələrlə məruzələr etmişdir.1993-cü ildən Ümumdünya Nobel Mükafatları Komitəsinin Beynəlxalq Nobel İnformasiya Mərkəzinə üzv,1996-cı ildən həqiqi üzv seçilmiş, 2005-ci ildən Beynəlxalq Nobel İnformasiya Mərkəzinin Qafqaz və Orta Asiya ölkələri üzrə səlahiyyətli nümayəndəsidir.

2006-cı ildən Azərbaycan Jurnalistlər, 2008-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 2013-cü ildə Nobel yubiley konfransının təşkilat komitəsinə üzv seçilmiş, Beynəlxalq Nobel İnformasiya Mərkəzinin vitse-prezidentidir. 1996-cı ildə Beynəlxalq Nobel İnformasiya Mərkəzinin medalına, 2008-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüş, Ümumdünya Sülh Şurasının Beynəlxalq Federasiyasının sülhməramlı səfiri seçilmiş, "Samur" Milli Mədəniyyət Mərkəzinin Ali Məclisinin, 2011-ci ildən Respublika Ağsaqqallar Şurasının üzvüdür.

Ədəbiyyat:

Bu, həmin Elçindir: (Mərkəzləşdirilmiş Kitabxana Sistemləri, müstəqil kütləvi kitabxanalar üçün metodiki vəsait) / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt.-müəl. B. Ələsgərov; elmi red. K. Tahirov; [dizayner M. Əliqızı].– Bakı: [Zərdabi Nəşr MMC], 2023. – 111, [1] s.

İlyas Əfəndiyev: Yaddaş kitabçası / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt.: B. Ələsgərov, A. Koçak; ixtisas red. K. Tahirov; ön söz. müəl. Ş. Alışanlı.– Bakı: [Zərdabi Nəşr], 2023.– 103, [1] s.

Əliyeva, T. Cəfakeş elm adamı: Bəybala Ələsgərov-65 / Tərlanə Əliyeva // Hürriyyət.– 2019.– 29 mart.– S.13; Kredo.– 2019.– 27 mart.– S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/olaylar/2019/may/650375.htm

https://iqtisadiyyat.com/az/pages/6/news/970

MAY
16

Əliağa Cəfərov – 70

(1954)

Kitabşünas alim



Əliağa Qafar oğlu Cəfərov 1954-cü il may ayının 16-da Bakı şəhərində anadan olmuşdur. 1970-ci ildə Qubadlı rayonunun Əli-Qulu Uşağı kənd orta məktəbini bitirmiş, 1970-1973-cü illərdə Sumqayıt Politexnik Texnikumunda təhsil almışdır.

1977-1982-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Kitabxanaçılıq fakültəsində kitabxanaşünas-biblioqraf ixtisası üzrə təhsil almışdır. 1982-1994-cü illərdə "Azərkitab" kitab ticarəti birliyinin mağazasında direktor, Sumqayıt şöbəsinin direktoru və birliyin plan şöbəsinin rəisi işləmişdir. 1988-1991-ci illərdə Moskva Dövlət Mətbuat Akademiyasının aspiranturasında qiyabi təhsil almış, 1992-ci ildə "Azərbaycanda kitab ticarətinin meydana gəlməsi və inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Əliağa Cəfərov 1994-cü ildən Milli Elmlər Akademiyası "Akademkitab" kitab evinin direktorudur. Eyni zamanda 1997-ci ildən "Çıraq" nəşriyyatının təsisçisidir. 1999-2003-cü illərdə və 2018-ci ildən indiyə kimi Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olur. "Bukinist ədəbiyyatı", "Antikvar ədəbiyyat", "Kitab ticarətinin təşkili" fənlərini tədris edir. 2015-ci ildə "Şifahi və yazılı ənənədə "Koroğlu" sujetləri" (eposun Azərbaycan versiyası əsasında) mövzusunda elmi işi yekunlaşdırmış, 2015-ci ildə dissertasiya müdafiə edərək Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

Əliağa Cəfərov ötən əsrin 60-cı illərindən bədii yaradıcılıqla və jurnalistika ilə məşğuldur. Müxtəlif məbuat orqanlarında müxtəlif səpkili məqalələrlə, hekayələr , mənsur şeirlər, felyatonlar və oçerklərlə çıxış etmişdir. Orduda xidmət zamanı "Krasnaya zvezda" qazetinin nəzdində olan jurnalistika kursunu qırmızı diplomla bitirmiş və bu qəzetdə yüzə yaxın məqaləsi çap olunmuşdur. Bədii yaradıcılığa erkən başlayan Əliağa Cəfərovun ilk hekayəsi "Ov" adı ilə 1974-cü ildə "Pioner" qəzetində dərc olunmuşdur. Dövri mətbuatda şeir, hekayə, oçerk, publisitik və elmi-kütləvi məqalələrini dərc etdirən şair "Qurani-Kərim" nəşr etdirmişdir.

Əliağa Cəfərov 2004-cü ildən Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Türkiyə, Rusiya, Kanada, ABŞ, Latviya, Qazaxıstan Respublikalarında elmi məqalələri və konfrans materialları çap olunmuşdur.

Ə.Cəfərov "Xocalı faciəsi", "Bəlalı dağlar", "Puç olmuş arzular", "Qırğın" romanlarının, "Сасанитская держава в 3–5 вв", "O insanlara yaxşılıq üçün gəlmişdi", "Arzular ümüdlər məktəbi", "Aşıq repertuarında "Koroğlu" dastanı", "Azərbaycan "Koroğlu" dastançılığı ənənələri", "Qırğın" əsərlərinin müəllifidir. Üç cilddə "Azərbaycan dilinin izahlı lüğəti"nin tərtibçilərindən biridir. Beş cildlik "Azərbaycan nağılları", "Azərbaycan folkloru antalogiyası", "Koroğlu", "Qaçaq Nəbi" dastanlarını yenidən işləyib nəşr etdirmişdir. İlk dəfə olaraq 170 ildən sonra Londonda ingilis dilində nəşr olunmuş "Koroğlu" dastanının ilk nəşrini üzə çıxarmış, tərcümə etdirmiş və ön söz yazaraq ana dilimizdə nəşr etdirmişdir. 2020-ci ildə yazıçının "Qırğın" ("Katliam") romanı Türkiyədə 2000 tirajla nəşr edilmişdir.

2001-ci ildə "Xocalı faciəsi" romanına görə "Qızıl qələm" mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Qırğın" ("Katliam"):Hocalıda kanlı gece / Aliağa Ceferov; çev. S. Piriyeva Karaman, M. Karaman; red. kap. tas. A. Kahvecioğlu.- Ankara: Omca yayınları, 2020.- 510 s.

Bəlalı dağlar: (roman) / Əliağa Cəfərov; red.: İntiqam, Z. Əliqızı; [naşir E. Abbasova; dizayner İ. Əhmədova].- K. 2.- Bakı: [Füyuzat], 2022.- 431, [1] s.

Bəlalı dağlar: (roman) / Əliağa Cəfərov; red.: İntiqam, Z. Əliqızı; [naşir E. Abbasova; dizayner İ.Əhmədova].- K. 1..- Bakı: [Füyuzat], 2022.- 431, [1] s.

Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması tarixi həqiqətdən qaynaqlanan zəruri addımdır/ Əliağa Cəfərov //Xalq qəzeti-2022.- 16 aprel - S.8.

Bəlalı dağlar: (roman) /Ə. Cəfərov ; red.: İntiqam, Z. Əliqızı ; [naşir E. Abbasova ; dizayner İ.Əhmədova]

Bakı: [Füyuzat], 2022.- 431 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əliağa_Cəfərov

MAY
5

Xalçaçı günü
(2016)



2016-cı il 25 noyabrda hər il may ayının 5-i Azərbaycan Respublikasında "Xalçaçı günü" peşə bayramı kimi qeyd edilməsi haqqında Azərbaycan Respublikasın Prezidenti sərəncam imzalamışdır.

Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Arxeoloji materiallara və yazılı mənbələrə əsasən Azərbaycanda xalçaçılıqla hələ Tunc dövründən (e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərində) məşğul olmuşlar.

Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq 7 xalçaçılıq məktəbinə bölünür: Quba, Bakı yaxud Abşeron, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz.

Azərbaycan xalça sənətinin elm sahəsi kimi öyrənilməsi və professional rəssamların yaradıcılığında müasir inkişafı Azərbaycanın xalq rəssamı Lətif Kərimovun adı ilə bağlıdır. L.Kərimov uzun illər Azərbaycan xalçalarını tədqiq etmiş, Azərbaycan dekorativ sənətini yeni ornamentlərlə zənginləşdirmiş, ənənəvi bəzək elementləri əsasında yeni dekorativ motivlər yaratmışdır. L.Kərimovun eskizləri əsasında toxunmuş "Əfşan" (1932), "Qonaqkənd" (1939), "Ləçəktürünc" (1952), "Şuşa" (1953), "Göygöl" (1958), "Qarabağ" (1960), "İslimi" (1964), "Butalı" (1965), "Bahar" (1966,1976), "Heyvanlar aləmində" (1969), "Şəbi-hicran" (1975), "Zərxara" (1977), "Firdovsi" (1934), "Səməd Vurğun" (1956), "Vaqif2 (1967), "Füzuli" (1972), "Nəsimi" (1974), "Səfiəddin Urməvi" (1975), "Əcəmi" (1976) və s. ornamental və portret xalçalar ornament elementlərinin uyarlığı, kompozisiya bitkinliyi, rəsmlərinin zərifliyi və ifadəliliyi, zəngin koloritinə görə xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir. L.Kərimovun çox cildli "Azərbaycan xalçası" əsərində 1300-dən artıq Azərbaycan xalça ornament elementinin təhlili verilmişdir.

Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. 2010-cu ildə Azərbaycan xalça sənəti UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edilmişdir. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilmiş, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun bina inşa edilmişdir.

2014-cü ildən fəaliyyətə başlayan Xalça Muzeyi Azərbaycan xalçasının dünya miqyasında yetərincə təbliğinə və tanınmasına töhfəsini verir. Müasir tələblərə cavab verən muzeydə toplanılan nümunələr xalqımızın tarixini özündə ehtiva edir. Orijinal üslubda inşa olunan bükülmüş xalçanı xatırladan Xalça Muzeyinin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır ki, bu da bu sənət növünün müxtəlif dövrlərdəki inkişafını əks etdirir. Muzeydə Böyük Britaniyanın Viktoriya və Albert Muzeyində saxlanılan məşhur "Şeyx Səfi" xalçasının surəti, eləcə də XVII, XVIII, XIX və XX əsrlərdə toxunmuş məşhur kompozisiyalar da yer alıb.

2015-ci il iyulun 15-də Kannın Festivallar sarayında "Azərbaycan xalçaları incəsənətdə" sərgisi açılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu torpaqlarımızı Ermənistan silahlı qüvvələrinin işğalından azad etdi. Təcavüzkar ermənilərin uçurub dağıtdıqları, qarət etdikləri mədəniyyət ocaqlarımız da yenidən qurulur və qapılarını ziyarətçilərinin üzünə açır. Onlardan biri də XX əsrin sonuncu onilliyində Şuşa düşmən işğalına məruz qalanadək orada fəaliyyət göstərmiş xalça muzeyidir. Qarabağda toxunan zərif xalçalar yenidən Şuşada, Milli Azərbaycan Xalça Muzeyinin Şuşa filialında sərgilənir. O xalçalar ki, hər biri dəyərli sənət əsəridir və qədim Qarabağ torpağının ruhunu, əsrlərlə burada yaşayıb-yaratmış insanların, eləcə də sənətkarların həyat və məişətini, dünyagörüşünü özündə əks etdirir.

Ədəbiyyat:

Hüseynova, M. Xalça məmulatlarının naxış və texniki üslublarının tədqiqatı: Dərs vəsaiti / Minaxanım Hüseynova [ön söz müəl., dizayner]; elmi red. Z. A. Əliyev.- K. 2.- Bakı: [n. y.], 2021.- 318, [2] s.

Kamil Əliyev: [İzomaterial]: Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından: 100 / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Xalça Muzeyi; [mətn. müəl.: Ş. Y. Məlikova (layihənin rəhb.), N. Əliyeva; elmi red. A. Əhmədova; tərc. F. Musayeva; red.: A. Braker, N. Bənnayeva; bədii tərtibat N. Novruzov; fotoqraf S. Mansurov.- Bakı: [Azərbaycan Milli Xalça Muzeyi], 2021.- 152, [2] s.

Sarıyeva, İ. Qərbi Azərbaycanın dünyaca məşhur xalçaları... / İradə Sarıyeva // Bakı Xəbər.- 2023.-18-20 fevral.- S.14.

Fərəcova, Z. Qarabağın ruhunu yaşadan xalçaların sərgiləndiyi mədəniyyət ocağı / Zöhrə Fərəcova // Azərbaycan.- 2023.- 17 noyabr. - S.11.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Xalçaçı_günü_peşə bayramı(Azərbaycan)

9 MAY

Qələbə Günü

(1945)



Qələbə Günü — Böyük Vətən Müharibəsinin (1941-1945) başa çatdığı gündür. 1945-ci il mayın 8-dən 9-a keçən gecə alman generalı Vilhelm Keytel qeydsiz-şərtsiz təslim aktını imzalamış, bununla da Böyük Vətən müharibəsi faşizm üzərində qələbə ilə başa çatmışdır. Qələbə günü postsovet ölkələri və ikinci dünya müharibəsində iştirak etmiş digər dövlətlərdə qeyd olunur.

Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərmişdir. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılmışdı. 1941–1945-ci illərdə Azərbaycanın 700 mindən çox igid oğlu və qızı cəbhəyə yollanmışdı. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçmişdir. Həmvətənlərimizin təqribən 130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişdir. Azərbaycandan olan 170 min əsgər və zabit SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşdur. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz şücaətləri ilə xalqımızın tarixinə yeni səhifələr yazmışlar.

İqtisadiyyatı cəbhəyə xidmət istiqamətinə yönəltmək məqsədi ilə respublikada böyük işlər aparılırdı. Qısa müddətdə Bakı, döyüşən ordu üçün silah-sursat cəbbəxanasına çevrilmişdi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz qəhrəmanlıq və fədakarlıq göstərir, cəbhəni və sənayeni yanacaqla təmin edirdilər.

Akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradılmışdı. Neftçilərimizin fədakar əməyi sayəsində Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə edilmiş, 1941-ci ildə 23,5 milyon ton "qara qızıl" çıxarılmışdı. Bu, SSRİ-də çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi. Bütövlükdə müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları vermişdilər. İnamla demək olar ki, Bakı nefti faşizm üzərində qələbənin əsas amillərindən biri olmuşdur. Təkcə onu demək kifayətdir ki, hər beş təyyarədən dördü, hər beş tankdan dördü, hər beş avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyirdi.

Böyük Vətən müharibəsi Azərbaycan xalqının kütləvi qəhrəmanlıq və fədakarlığını nümayiş etdirmişdir.

İkinci Dünya müharibəsində Qələbənin 75 illik yubileyi münasibətilə M.F.Axundzadə adına Milli Kitabxana "Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində" biblioqrafiyasını nəşr etdirmişdir Materialların kifayət qədər çoxluğu nəzərə alınaraq biblioqrafik göstəricinin iki kitabda nəşr edilmişdir. Birinci kitab Azərbaycan və digər dillərdə, ikinci kitab isə yalnız rus dilində ədəbiyyatı əhatə edir. Azərbaycan dilində ədəbiyyatı əhatə kitabda mövzu üzrə 4 min 845 adda mənbə və rus dilində ədəbiyatı əhadə edən kitabda 3463 adda mənbə toplanmışdır.

Ədəbiyyat:

Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində: biblioqrafiya: Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə həsr olunur /Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası ; tərt. ed.: M. Vəliyeva, H. Manafova, X. Abbasova, elmi red. K. Tahirov, red. M. Cəfərova.- K. 1.- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2020.- 638, [2] s.

Prezident İlham Əliyev faşizm üzərində qələbə münasibətilə Azərbaycan veteranlarını təbrik edib / İlham Əliyev // Azərbaycan.- 2023.-10 may.- S.5.

Mehriban Əliyeva Faşizm üzərində Qələbə Günü ilə bağlı paylaşım edib / Mehriban Əliyeva // Azərbaycan.-2023.-10 may.- S.5.

Salehqızı, Ş. Təqvimdə rəngi qırmızı olan tarix-9 May qələbə günü / Şahnaz Salehqızı // Paralel.- 2023.- 27 aprel.- S.5.

Azərbaycan xalqı faşizm üzərində Qələbəni böyük Zəfərin doğurduğu ikiqat qürurla qeyd edir // Azərbaycan.- 2022.- 10 may.- S.1.

İnternetdə:

az.wikipedia.org/wiki/9_May_Qələbə_Günü

MAY
10

Heydər Əliyev Fondu - 20

(2004)

Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.

Fondun məqsədləri görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək, Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək, Respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək, yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərməkdən ibarətdir. Habelə insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək, elmi tədqiqatların aparılmasına yardım göstərmək, xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək, uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək, ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək, Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək, uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək fondun əsas qayələrindəndir.

Heydər Əliyev Fondu uzun illərdir Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin ifşası, ermənilər tərəfindən yurdlarından didərgin salınan yüz minlərlə məcburi köçkünün pozulmuş hüquqlarının beynəlxalq müstəvidə qorunması istiqamətində geniş-miqyaslı fəaliyyət göstərir. Fond Vətən müharibəsində və ondan sonrakı mərhələdə də Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün var qüvvəsi ilə çalışır. Bu gün də Qarabağın dirçəldilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına tez bir zamanda qayıdışı üçün görülən işlərə böyük dəstək verir.

Ədəbiyyat:

Mehriban Əliyeva: "Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır" // Azərbaycan.- 2020.- 9 dekabr.- S.2.

Kazımova, Z. Heydər Əliyev Fondu Qarabağın quruculuğunda da öndədir: Qarabağ Azərbaycandır! / Zeynəb Kazımova // Azərbaycan.- 2022.- 19 may.- S.14.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Heydər_Əliyev_Fondu

MAY
15

Beynəlxalq İqlim Günü
(1992)



15 may bütün dünyada Beynəlxalq İqlim Günü kimi qeyd olunur. Bu günün təsis edilməsində əsas məqsəd dünyanın dayanıqlı inkişafı üçün iqlim dəyişmələri ilə mübarizəyə beynəlxalq ictimaiyyətin cəlb edilməsindən ibarətdir. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) Ekspertlər Qrupunun qiymətləndirmə hesabatına görə son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması əsasən antropogen amillərlə bağlıdır.

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin hesablamalarına görə, istixana qazlarının emissiyalarının azaldılması ilə bağlı heç bir tədbir görülməzsə, XXI əsrdə dünyanın orta illik temperaturu ən azı 3-4 dərəcə Selsi yüksələ bilər.

Beynəlxalq ictimaiyyət hər il 15 May - Beynəlxalq İqlim Gününü qeyd edərkən iqlim dəyişmələri üzrə beynəlxalq ekspertlər tərəfindən dünya ölkələrinə müxtəlif çağırışlar edilir.

Əsas məqsəd ondan ibarətdir ki, alternativ enerji mənbələrindən istifadə ilə istilik effekti yaradan qazların emissiyalarının azaldılması, habelə iqlim dəyişmələrinə qarşı effektiv uyğunlaşma tədbirlərinin genişləndirilməsi istiqamətində istər lokal, istərsə də qlobal səviyyədə ölkələrarası əməkdaşlıq əlaqələri təcili genişləndirilməlidir

Ə d ə b i y y a t :

Qarayeva, R. Dünyamızın təmiz suya, havaya ehtiyacı var: 15 may Beynəlxalq İqlim Günüdür / R.Qarayeva.- Azərbaycan.- 2011.- 15 may.- S. 7.

15

Beynəlxalq Ailə Günü
(1994)



5 may dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Bu aksiya planetimizdə yaşayan bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəltməyə xidmət edir. Müstəqil Azərbaycanda dövlət ailə siyasətinin əsas prinsiplərinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər milli mənəvi dəyərlərin qorunmasının vacibliyini vurğulayaraq demişdir: "Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur".

Ulu öndər Heydər Əliyevin ailə siyasəti Azərbaycanda bu gün də məqsədyönlü surətdə həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva milli mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərirlər. Dövlət başçımız İlham Əliyev müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək demişdir: "Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır".

Bu gün ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Dövlət ailə siyasəti Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra dövlət proqramlarında özünün uğurlu inkişafını tapmışdır. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar ailə institutunun inkişafında da öz təsdiqini tapmaqdadır.

Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən qeyd olunur. Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulmuşdur.

Ə d ə b i y y a t :

Ailə dəyərləri cəmiyyətin mənəvi əsasıdır // Mədəniyyət.- 2022.- 18 may.- S.4.


Hüseynova, H. Müstəqillik illərində ailə dəyərləri daha da möhkəmlənib / Hicran Hüseynova // Azərbaycan.- 2021.- 19 oktyabr.- S.8.

MAY

16

Azərbaycan Dövlət Pantomima Teatrı - 30

(1994)



Pantomim - (pantomim) "sözsüz teatr" tamaşasıdır. Nümayiş sənətlərindən biridir.

Pantomimdə sənətçi üz mimikalarından, əl-qol və bədən hərəkətlərindən istifadə edərək mövzunu izah etməyə çalışır. Bir mənada "pantomim" universal teatr dili olaraq qəbul edilir. Teatrın bu növünün əsas üstünlüklərindən biri də onun beynəlxalq dilə malik olmasıdır.

Dövlət Pantomim Teatrı 16 may 1994-cü ildə Respublikanın mədəniyyət nazirinin sərəncamı ilə "Dəli yığıncağı" Pantomim Teatr-Studiyası kimi yaranmış və Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərmişdir.

Dövlət Pantomim Teatrı (DPT) Azərbaycan teatr tarixində ilk pantomim teatrıdır. Azərbaycanda pantomim teatrının əsasını qoyan əməkdar incəsənət xadimi Bəxtiyar Xanızadədir.

Truppa indiyədək bu tamaşaları hazırlamışdır: "Ümid" -Ş.Bekket /"Bir aktyor üçün mim"/ - pantomim, "Pantomim buketi" - B.Xanızadə - pantomim, "Karol xofu" - S.Mrojek – eksperimental tamaşa, "Gəldim ki, olam ğəmin hərifi" - M.Füzuli "Leyli və Məcnun" poeması əsasında – pantomim balet, "Şəngül, Şüngül, Məngül" - M.Musabəyov – divertisment –tamaşa, "Manqurt" -Ç,Aytmatov /"Gün var əsrə bərabər" povestinin motivləri əsasında/ - pantomim, "Dulusçu" - Ü. Hacıbəyov /"Biz nə tövr iş görürük?" fleytonu əsasında/- pantomim, "Zibillik pərvanələri" - B.Xanızadə - pantomim, "Eşq" - B.Xanızadə (V.Şekspirin sonetləri əsasında plastik düşüncə), "Balaca şahzadə" - Antuan de Sent Ekzüperi –nağıl –tamaşa, "Maska" - Zaur Zeyanlov – pantomim, "Çərçivə" - Ə.Abdulayev – pantomim, "Dejavü" - S.Hacıyeva – pantomim və s.

2000-ci ildə "Dəli yığıncağı" pantomim teatr-studiyasına Dövlət statusu verilib.

Sərbəst xoreoqrafik etüdlərlə pantomima sənətinin kəsişdiyi nöqtədə işləyən teatr Gürcüstanda, Ukraynada, Rusiyada, Türkiyədə, İranda, Fransada, Almaniyada, Avstriyada, Misirdə, Finlandiyada, İsveçrədə və dünyanın bir sıra digər ölkələrində ya festivallariştirak edib, ya qastrol səfərlərində olmuşdur.

Ədəbiyyat:

Tamaşa kimi ad günü : Elman Rəfiyev: "Pantomima Teatrının 26 illiyini səhnədə qeyd edə bilməsək də, bu ad günümüz qeyri-adiliyi ilə yaddaşımıza həkk olundu"/E. Rəfiyev, müsahibəni apardı: X.Rəis //Kaspi .-2020.- 20 may.- S.12.

Darısqal tamaşa zalı, genişürəkli Pantomima, bir də şlyapalı fədakar /E.Rəfiyev: müsahibəni apardı A.Sahəd //525-ci qəzet.-2022.- 24 dekabr.- S.12;13.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Azərbaycan_Dövlət_Pantomima_Teatrı

MAY
18

Beynəlxalq Muzeylər Günü
(1977)



Beynəlxalq Muzeylər Günü — Beynəlxalq Muzeylər Şurasının (İCOM) təşəbbüsü ilə 1977-ci ildən etibarən 18 may tarixində qeyd edilir. Bu bayram bir qayda olaraq xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək şüarı ilə keçirilir. Muzeylər mənəvi dəyərləri toplayan, qoruyan və təbliğ edən müəssisələrdir.

Bu günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir. Bu bayram qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da geniş miqyasda qeyd edilir.

Azərbaycanın ictimai-siyasi, mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan vermişdir. İlk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunmuşdur. Ötən əsrin əvvəllərində isə Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində pedaqoji, həmçinin Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzeylər yaradılmışdır. Lakin Nehrəm kəndindəki muzey istisna olmaqla, adları qeyd edilən məkanlar çarizmin mənafeyinə uyğun fəaliyyət göstərirdi. Təsadüfi deyil ki, Azərbaycanda aşkar edilən qiymətli arxeoloji əşyalar Tiflis, Moskva, Peterburq muzeylərinə göndərilmişdir.

Azərbaycanda dövlət səviyyəsində 1919-cu ildə - Xalq Cümhuriyyətinin dövründə təməli qoyulmuş ilk milli muzey 1920-ci ildən Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyət göstərmişdir. Sovet hakimiyyətinin ilk illərində Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev kimi Bakı milyonçularından müsadirə edilmiş qiymətli sənət əsərləri bu muzeyin eksponatları olmuşdur. H.Z. Tağıyevin mülkündə yerləşən Milli Azərbaycan Tarix Muzeyinin binasının özü də tariximizdən xəbər verən daş abidə kimi qiymətlidir. Ona görə də bu yerə bəzən "Muzey içində muzey" də deyirlər. Ötən əsrin 30-cu illərindən etibarən bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü – dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr muzeyləri yaradılmışdır.

Sonrakı illərdə Azərbaycanda yeni muzeylər fəaliyyətə başlamışdır. Erməni işğalından azad olunmuş doğma və canlı muzey olan Şuşada işğaladək 8 muzey fəaliyyət göstərmişdir. Hazırda bərpa işləri aparılan Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin evi, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı zəngin eksponat sayına görə fərqlənən muzeylərimiz olmuşdur. Çox təəssüflə bildiririk ki, keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi erməni vandalları tərəfindən Ağdam şəhəri kimi tamamilə yerlə-yeksan olunmuşdur.

2000-ci il martın 24-də qüvvəyə minmiş "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını və müvafiq münasibətləri tənzimləyir. Bu sənədə əsasən muzey - maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi-tədqiqat müəssisəsidir.

Ədəbiyyat:

Nurəddin. Mədəni sərvətimizin saxlanc yerləri: Beynəlxalq Muzeylər Günü münasibətilə regionlarda tədbirlər keçirilir / Nurəddin // Mədəniyyət.- 2021.- 19 may.- S.2.

18 may-Beynəlxalq Muzeylər Günüdür // Hərbi And .- 2020.- 22 may.- S.21.

"Muzeylər dünənimiz, bu günümüz, sabahımızdır" //Mədəniyyət.- 2021.- 21 may.- S.4.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Beynəlxalq_Muzeylər Günü

MAY

28

Müstəqillik Günü
(1990)



1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) – müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət yaradılmışdır. Bu respublika millətimizin tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur. Məmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan bu Cümhuriyyət Türk və İslam dünyasında ilk Parlamentli Respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası İstiqlaliyyət Bəyannaməsi ilə Azərbaycanın şimal torpaqlarında Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını elan etmişdi. Bu tarixi sənədə görə Azərbaycan qonşu xalqlar və dövlətlərlə dostluq münasibəti quracaqdı. Müstəqil Azərbaycan dövlətinin təşkil idarəsi xalq cümhuriyyəti idi. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi görməmiş və bütün vətəndaşların siyasi hüquqlarını təmin etmişdi. Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı isə Fətəli Xan Xoyski seçilmişdi. 10 gün Milli Şura Tiflisdə işlədikdən sonra Gəncəyə köçürülmüş, yalnız 1918-ci ilin sentyabrında Türkiyə ordusunun rəhbərliyi ilə Bakı daşnak-rus qüvvələrindən təmizləndikdən sonra milli hökumət Gəncədən Bakıya köçmüşdü. Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. 95 il bundan əvvəl ilk dəfə qadınlara seçim hüququ tanıyan və qadın-kişi bərabərliyini təmin edən Müstəqil Azərbaycan Cümhuriyyəti, o cümlədən milli ordu, milli pul, demokratlaşma, milli bank, azad seçkilər, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının tanınması, Azərbaycanın bütövlüyünü təmin etmək, iqtisadi islahatları həyata keçirmişdir. Azərbaycan Xalq Cümhuriyyətini rəsmi surətdə 1918-ci il iyun ayının 4-də tanıyan ilk dövlət Osmanlı dövləti olmuşdur. 1918-ci il 9 noyabr tarixində M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qırmızı rəngdə idi. Cümhuriyyət gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bilmişdir.

Təəssüflər olsun ki, Müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qalmış, müvəqqəti olaraq devrilmişdir. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etmişdi. Bolşeviklər tərifindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilməmiş və M.Ə.Rəsulzadənin "BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ, BİR DAHA ENMƏZ" şüarı öz əksini tapmış və nəhayət, 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etmişdir.

1990-cı ildən Respublika günü dövlət bayramı kimi qeyd edilir. 1991-ci ildən 2021-ci ilədək Respublika Günü adlandırılıb. Azərbaycan parlamentinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında isə "Müstəqillik Günü haqqında" yeni qanun qəbul edilib. Elə həmin gün də Prezident İlham Əliyev "Müstəqillik Günü haqqında" qanun təsdiq etdi. Qanunun təsdiqlənməsi ilə 28 May - Respublika Gününün adı dəyişdirilərək Müstəqillik Günü elan edilib

Ədəbiyyat:

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti - 100 : tarixi irs və müasirlik" mövzusunda Respublika elmi konfransının materialları : 24 may 2018-ci il."Azərbaycan Xalq Cümhuriyyəti - 100 : tarixi irs və müasirlik", Azərbaycan Respublikası elmi konfransı (2018 ; [Bakı]) Bakı: Elm və təhsil, 2020.

Azərbaycan Xalq Cümhuriyyəti-100: biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb Milli Kitabxanası; tərt. ed.: M. Vəliyeva, Z. Əhmədova, A. Hüseynova; elmi red. K. M. Tahirov; red. G. Səfərəliyeva.- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2018.- 558, [2] s.

Əliyeva, Y. Tarixi Zəfərimiz qəhrəmanlıq dastanıdır: 28 May Müstəqillik Günündür / Y eganə Əliyeva // İki sahil.- 2023.- 25 may.- S.2.

İYUN



22 may-
21 iyun

Əkizlər bürcünün Nişanı Havadır. Merkurinin himayəsindədir. Günəşin Əkizlər bürcünün keçdiyi dövrdə doğulanlar çox ağıllı olub, hər şeyi bilməyə həvəs göstərir, şəraitə asanlıqla uyğunlaşırlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30

- *Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950)*
- *Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)*
- *Ümumdünya Qida Təhlükəsizliyi Günü (07.06.2018*
- *Milli Qurtuluş Günü (15.06.1993)*
- *Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir (15.06.1993)*

Yaşıl dünya naminə həmrəylik ili



Ölkəmizin zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələr həyata keçirilir. Ekoloji tarazlığın qorunması, təbii ehtiyatların, o cümlədən, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mövcud olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya", "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" və digər dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər reallaşdırılmışdır. Uzun illər ərzində neft sənayesinin fəaliyyətindən əmələ gəlmiş tullantılar Abşeron yarımadasında bir sıra ərazilərin həddindən artıq çirklənməsinə səbəb olmuşdur. Bununla əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2018-ci ildə Suraxanı rayonunda müxtəlif ərazilərdə, neft və neft şlamı ilə çirklənmiş ərazilərin təmizlənməsi işləri aparılmışdır. Yarımadada göllər üzrə araşdırmalar aparılmış, 9 gölün (Xocasən, Binəqədi, Lökbatan, Qaradağ, Qu, Zabrat, Zığ, Bülbülə və Böyükşor) ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi prioritet hesab edilmişdir.

İYUN

2024



Milli ədəbiyyat

Xalq şairi, Əməkdar incəsənət xadimi, dramaturq, publisist Vəkilov Vaqif Səməd oğlunun (Vaqif Səmədoğlu) (05.06.1939-28.01.2015) anadan olmasının 85 illiyi 338
Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Rəsulzadə Natiq Rəsul oğlunun (05.06.1949) anadan olmasının 75 illiyi 339
Xalq şairi Hüseynzadə Hüseyn Camal oğlunun (Hüseyn Arif) (15.06.1924-14.09.1992) anadan olmasının 100 illiyi 340
Şair, ədəbiyyatşünas Alışanov Hüseyn Həsən oğlunun (Hüseyn Kürdoğlu) (15.06.1934-12.07.2003) anadan olmasının 90 illiyi
Əməkdar incəsənət xadimi, şair, dramaturq, ssenarist Xəndan Rəfiq Zəka Cəfər oğlunun (Rəfiq Zəka Xəndan) (16.06.1939- 07.01.1999) anadan olmasının 85 illiyi 341
Şair, yazıçı, alim, mütəfəkkir və tərcüməçi Bakıxanov Abbasqulu Mirzə Məhəmməd oğlunun (Abbasqulu ağa Bakıxanov Qüdsi) (21.06.1794- 31.05.1847) anadan olmasının 230 illiyi 342
Yazıçı Cavadov Cəlal Novruz oğlunun (Cəlal Bərgüşad) (22.06.1924- 09.07.1996) anadan olmasının 100 illiyi
Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Əliyev Çingiz Əli oğlunun (Çingiz Əlioğlu) (29.06.1944) anadan olmasının 80 illiyi 343



Dünya ədəbiyyatı

Rus şairəsi Axmatova (Qorenko) Anna Andreyevnanın (23.06.1889-05.03.1966) anadan olmasının 135 illiyi
İran yazıçısı, publisist Behrəngi Səməd İzzət oğlunun (24.06.1939-31.08.1968) anadan olmasının 85 illiyi



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Əməkdar rəssam, heykəltəraş və ilk monumentalçı qadın heykəltəraş Rzayeva Münəvvər Məcid qızının (06.06.1929-06.06.2004) anadan olmasının 95 illiyi



Musiqi. Opera. Balet

Əməkdar müəllim, professor, musiqiçi Əliyeva Elmira Mirzə Ağa qızının (03.06.1929) anadan olmasının 95 illiyi 344
Xalq artisti, müğənni Kərimova Qərinə Rəhim qızının (16.06.1964) anadan olmasının 60 illiyi 345
Xalq artisti, drijor Fəxrəddin Kərimovun (21.06. 1954) anadan olmasının 70 illiyi 246

İYUN 2024



Teatr. Kino

Xalq artisti, teatr və kino aktyoru Dadaşov Məlik Yusif oğlunun (7.06.1924-02.12.1996) anadan olmasının 100 illiyi 347
Xalq artisti, professor, aktrisa Cəfərova Bəsti Əli qızının (13.06.1959) anadan olmasının 65 illiyi 348
Xalq artisti, rejissor Fərzəlibəyov Mərahim Fərzəli oğlunun (26.06.1949) anadan olmasının 75 illiyi 349
Xalq artisti, teatr və kino aktrisası Şəkinskaya Barat Həbib qızının (28.06.1914-14.01.1999) anadan olmasının 110 illiyi 350



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Ağayev Faiq Alış oğlunun (06.06.1969-23.12.1991) anadan olmasının 55 illiyi 351
Azərbaycanın Milli Qəhrəmanı Allahverdiyev Bəxtiyar Əzizulla oğlunun (10.06.1974) anadan olmasının 50 illiyi 352
Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Vüqar Tofiq oğlunun (20.06.1969-20.07.1991) anadan olmasının 55 illiyi 353
Azərbaycanın Milli Qəhrəmanı Sarıyev Zaur Rəşid oğlunun (28.06.1974-17.03.1995) anadan olmasının 50 illiyi 354
Azərbaycanın Milli Qəhrəmanı Zülfüqarov Elxan Qaçay oğlunun (29.06.1954-05.01.1994) anadan olmasının 70 illiyi 355



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Baş leytenant Mahmudov Emin Pünhan oğlunun (01.06.1994-11.10.2020) anadan olmasının 30 illiyi 356
MAHHXHQ kiçik çavuş Quliyev Eltay Əli oğlunun (03.06.1989-29.09.2020) anadan olmasının 35 illiyi 356
Əsgər Məmmədov Elmir Arzu oğlunun (03.06.1999-27.09.2020) anadan olmasının 25 illiyi 357
MAHHXHQ çavuş Əliyev Yadigar Səfxan oğlunun (04.06.1994-01.11.2020) anadan olmasının 30 illiyi 357
Əsgər Əliyev Rauf Səxavət oğlunun (04.06.1994-30.09.2020) anadan olmasının 30 illiyi 358
MAHHXHQ əsgər Teymurov Mansur Elnur oğlunun (05.06.1999-18.10.2020) anadan olmasının 25 illiyi 358
T/x kapitanı Məmmədov Anar Kərəm oğlunun (06.06.1984-03.11.2020) anadan olmasının 40 illiyi 359
MAHHXHQ çavuş Əmrahov Emin Əvəz oğlunun (09.06.1989-27.10.2020) anadan olmasının 35 illiyi 359
Əsgər Cəfərov Sübhan Mehman oğlunun (10.06.1999-10.10.2020) anadan olmasının 25 illiyi 360

Əsgər Quliyev Nofəl İlham oğlunun (11.06.1994-27.10.2020)
anadan olmasının 30 illiyi 360
Kiçik gizir Talıbov Təbriz Məhrəməli oğlunun (11.06.1994-23.10.2020)
anadan olmasının 30 illiyi 361
Əsgər Hüseynov Fərid Ehtibar oğlunun (11.06.1994-29.09.2020)
anadan olmasının 30 illiyi 361
Mayor Hacıyev Elnur Yaqub oğlunun (12.06.1979-17.10.2020)
anadan olmasının 45 illiyi 362
MAHHXHQ əsgər Əhmədov Sabir Səfər oğlunun (14.06.1989-26.10.2020)
anadan olmasının 35 illiyi 363
Baş leytenant Rzazadə Həsən Vüqar oğlunun (15.06.1994-01.11.2020)
anadan olmasının 30 illiyi 363
MAHHXHQ əsgər Musayev Ələkbər Ələvsət oğlunun (16.06.1999-29.09.2020)
anadan olmasının 25 illiyi. 364
Əsgər Bağırov Elçin Yunus oğlunun (17.06.1994-21.10.2020)
anadan olmasının 30 illiyi 364
Kapitan Cəmiyev Aşur Bəybala oğlunun (18.06.1989–21.10.2020)
anadan olmasının 35 illiyi 365
Əsgər İbişov Vüsal Əli oğlunun (19.06.1999-16.10.2020)
anadan olmasının 25 illiyi 366
MAHHXHQ kiçik çavuş Əliyev Araz Aydın oğlunun (21.06.1984-08.10.2020)
anadan olmasının 40 illiyi 366
Gizir Əlizadə Tahir Qəribəli oğlunun (21.06.1994-06.12.2020)
anadan olmasının 30 illiyi 367
MAHHXHQ əsgər Mustafayev Əlizamin Baxış oğlunun (21.06.1999-02.10.2020)
anadan olmasının 25 illiyi 367
MAHHXHQ əsgər Abdullayev Həsən Qərib oğlunun (21.06.1994-06.11.2020)
anadan olmasının 30 illiyi 368
MAHHXHQ əsgər Məmmədov Etibar Səday oğlunun (22.06.1994-28.09.2020)
anadan olmasının 30 illiyi 368
Baş leytenant Ələkbərov Röyal Fərmail oğlunun (23.06.1994-16.10.2020)
anadan olmasının 30 illiyi 369
MAHHXHQ baş çavuş Hüseynov Fərid Fətəli oğlunun (23.06.1994-07.11.2020)
anadan olmasının 30 illiyi 369
Əsgər Hüseynov Əfsun Mətləb oğlunun (23.06.1999-21.10.2020)
anadan olmasının 25 illiyi 370
MAHHXHQ əsgər Təhməzov Cavid Əvəz oğlunun (25.06.1994-01.10.2020)
anadan olmasının 30 illiyi 370
Gizir Məmmədov Ürfan Çingiz oğlunun (28.06.1994-28.09.2020)
anadan olmasının 30 illiyi 371
Əsgər Cəfərli Şahin Şamil oğlunun (28.06.1994-01.10.2020)
anadan olmasının 30 illiyi 371

Kiçik gizir Quluzadə Orxan Elxan oğlunun (29.06.1994-08.11.2020) anadan olmasının 30 illiyi 372
MAHHXHQ kiçik çavuş Fətiyev Xəqani Hüseynəli oğlunun (30.06.1989-27.09.2020) anadan olmasının 35 illiyi 372
MAHHXHQ əsgər Əsədov Baxış Sahib oğlunun (30.06.1999-28.09.2020) anadan olmasının 25 illiyi 373



Tarix

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Mustafazadə Tofiq Teyyub oğlunun (01.06.1949) anadan olmasının 75 illiyi 374



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Kənd təsərrüfatı elmləri doktoru, professor Teymurov Kamil Heydər oğlunun (17.06.1914-24.02.1998) anadan olmasının 110 illiyi
AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Nuriyev Əli Xudu oğlunun (26.06.1939) anadan olmasının 85 illiyi 375



Mədəniyyət. Maarif. Təhsil

Akademik, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Dadaşzadə Məmməd Arif Məhərrəm oğlunun (Məmməd Arif) (10.06.1904-27.12.1975) anadan olmasının 120 illiyi 376
Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Əsədullayev Seyfulla Qüdrət oğlunun (19.06.1924-28.07.2011) anadan olmasının 100 illiyi 377
Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Axundov Nazim Fərrux oğlunun (20.06.1924-10.03.1994) anadan olmasının 100 illiyi 378
Türkoloq, filologiya elmləri doktoru, professor Zeynalov Fərhad Ramazan oğlunun (22.06.1929-16.10.1984) anadan olmasının 95 illiyi



İdman

Əməkdar bədən tərbiyəsi və idman xadimi Ağayev Elxan Ağabala oğlunun (04.06.1939) anadan olmasının 85 illiyi
İdman ustası Şabanov Ələddin Hacı Ağa oğlunun (18.06.1944- 04.11.2014) anadan olmasının 80 illiyi



Coğrafiya.Geologiya


Geologiya və mineralogiya elmləri doktoru Ağamirzəyev Ramiz Əlirza oğlunun (18.06.1924-23.06.1986) anadan olmasının 100 illiyi 379

İYUN 2024



Riyaziyyat. Fizika. Astronomiya

Riyaziyyat elmləri doktoru, professor Axundov Ədalət Yavuz oğlunun (01.06.1949) anadan olmasının 75 illiyi
AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Quliyev Əyyub Salah oğlunun (01.06.1954) anadan olmasının 70 illiyi 380
Əməkdar mədəniyyət işçisi, fizika-riyaziyyat elmləri doktoru Mehdiyev Tələt Rzaqulu oğlunun (04.06.1944) anadan olmasının 80 illiyi
Əməkdar elm xadimi, akademik Qacar Çingiz Oveys oğlunun (06.06.1929-12.06.2021) anadan olmasının 95 illiyi 381
Fizika-riyaziyyat elmləri doktoru, professor Araslı Dürdanə Həmid qızının (09.06.1939) anadan olmasının 85 illiyi



Kimya.Biologiya.Tibb

Biologiya elmləri doktoru, professor Qasımov Mayis Ələkbər oğlunun (06.06.1939-13.10.2017) anadan olmasının 85 illiyi
Kimya üzrə elmlər doktoru Kazımova Tamella Həsən qızının (16.06.1939) anadan olmasının 85 illiyi 382
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Rzayev Nurəddin Məmmədbağır oğlunun (26.06.1929-16.10.2011) anadan olmasının 95 illiyi . . 383



Texnika. Mühəndis işi

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, neftçi-alim Süleymanov Bağır Ələkbər oğlunun (22.06.1959) anadan olmasının 65 illiyi
“Nobel Qardaşları” şirkətinin və “Lüdviq Nobel” cəmiyyətinin başçısı Emmanuel Nobelin (22.06.1859-31.05.1932) anadan olmasının 165 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Sumqayıt şəhər MKS-nin yaradılmasının (01.06.1974) 50 illiyi 384



Digər tarixi hadisələr

Uşaqların Beynəlxalq Müdafiə Günü (01.06.1950) 385
Azərbaycanda Kitabxana işinin inkişafı Assosiasiyasının (02. 06.1999) yaradılmasının 25 illiyi 386
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü (02.06.2006)
Beynəlxalq Təcavüzə Məruz Qalmış Uşaqlar Günü (04.06.1982)
Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)
Su təsərrüfatı və meliorasiya işçiləri günü (05.06.2014)
Ümumdünya Qida Təhlükəsizliyi Günü (07.06.2018)

İYUN


2024

Ümumdünya Okeanlar Günü (08.06.1992)
“Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında Sərəncam imzalanmışdır (08.06.2020)
Beynəlxalq Qan Donoru Günü (14.06.2004)
Milli Qurtuluş Günü (15.06.1993) 387
Ümumdünya Səhralaşma və Quraqlıqla Mübarizə Günü (17.06.1994)
Azərbaycanda Tibb İşçilərinin Peşə Bayramı Günü (17.06.2001)
Azərbaycanda İnsan Hüquqları Günü (18.06.2007) 388
Ümumdünya Qaçqınlar Günü (20.06.2000)
Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü (20.06.2006)
“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir (22.06.1999)
Avropa Birliyi ilə Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq sazişi qüvvəyə minmişdir (22.06.1999)
Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında fərman imzalanmışdır (22.06.2021)
Beynəlxalq Olimpiya Komitəsinin yaradılmasının (23.06.1894) 130 illiyi
Beynəlxalq Olimpiya Qaçış Günü (23.06.1987)
Dövlət Qulluqçularının Peşə Bayramı (23.06.2006)
Dənizçilərin Peşə Bayramı Günü (25.06.2014)
Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.1987)
Milli Silahlı Qüvvələr Günü (26.06.1998). 389
Azərbaycan Bəstəkarlar İttifaqının yaradılmasının (30.06.1934) 90 illiyi 390

Vaqif Səmədoğlu – 85

(1939-2015)

Şair



Vaqif Səməd oğlu Vəkilov 1939-cu il iyun ayının 5-də Bakı şəhərində görkəmli Azərbaycan şairi Səməd Vurğunun ailəsində anadan olmuşdur. Bülbül adına musiqi məktəbində və Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır.

Vaqif Səmədoğlu 1962-1963-cü illərdə Moskvada Çaykovski adına Konservatoriyada ixtisas kursu keçmiş, 1963-1971-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında fortepiano üzrə ixtisas müəllimi, 1968-1971-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasında incəsənət redaksiyasının müdiri, 1982-1985-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinoaktyor teatrının ədəbi hissə müdiri, 1992-1994-cü illərdə "Oğuz eli" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır.

Ötən əsrin 60-cı illərində ölkəmizdə ədəbi mühitə yeni ab-hava gətirən istedadlı sənətkarlardan biri olaraq Vaqif Səmədoğlu yarım əsrdən artıq dövr ərzində xalqımızın söz xəzinəsinə dəyərli töhfələr vermişdir. Onun yaradıcılığı müasir Azərbaycan ədəbiyyatında yeni poeziyanın xüsusi mərhələsini təşkil edir. Sənətkarın əsərlərində mənalandırdığı hər bir ifadə Azərbaycan xalqının zəngin ədəbi-bədii irsi, milli folklorun tükənməz imkanları və dünya ədəbiyyatının nailiyyətləri ilə əlaqəlidir. Səmədoğlu həyat və zaman, dünya və insan haqqında lirik-fəlsəfi düşüncələrin özünəməxsus üslubda bənzərsiz mənzərəsini və poetik tapıntılarla dolu zəngin aləmini yaratmışdır. O, müraciət etdiyi rəngarəng mövzularda Vətən obrazını daim diqqət mərkəzində saxlamışdır.

Vaqif Səmədoğlu 1970-ci ildən Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmiş, 2000-2005-ci illərdə Azərbaycan Milli Məclisinin deputatı olmuşdur.

"Yeddi şeir" adlı ilk mətbu əsəri 1963-cü ildə "Azərbaycan" jurnalında çap olunmuş,1968–ci ildə "Yoldan teleqram" adlı ilk şeir kitabçası işıq üzü görmüşdür.

V.Səmədoğlu "Günü baxtı" (1972), "Mən burdayam, ilahi" (1996), "Uzaq yaşıl ada" (1999), "Bəxt üzüyü" (1999), "Gürzəçöl yazıları" (2016) kitablarının, "Bəxt üzüyü", "İntizar", "Uca dağ başında", "Lotereya", "Yayda qartopu oyunu", "Yaşıl eynəkli adam", "Generalın son əmri", "Mamoy kişinin yuxuları" dram əsərlərinin, "Xəzinə" (1970), "Gün keçdi" (1971), "Evləri köndələn yar" (1982), "Cin mikrorayonda" (1985), "Yaşıl eynəkli adam" (1987), "Qətl günü" (1990), "Bəxt üzüyü" (1991), "Karvan" (1995), "Beşmərtəbəli evin altıncı mərtəbəsi" (1996), "Yaşıl eynəkli adam–2" (1999), "Yaşıl eynəkli adam–3" (2002), "Yumurta" (2003), "Evləri göydələn yar" (2010), "Gün keçdi" (2012), "Bəxt Üzüyü-2" (2018) filmlərinin, "Son gecədir bu gün yenə...", "Nəyin istisindən yananlar...", "Bir cüt ayaqqabı...", "Qağayı, axtar məni...", "Anara, Birlikdən və tənhalıqdan...", "Bu payız da başlandı...", "Eşidirsənmi?..", "Mühit içində...", "Ədalarından çaşdığım qadın...", "Ev. Özgə otağının kiri. Divarda Stalin...", "Dənizdən ayrılmış qupquru qaya...", "Əyrin-üyrün, dar küçələrin..." və s. şeirlərin müəllifidir.

Vaqif Səmədoğlu 1989-cu ildə "Əməkdar incəsənət xadimi", 1999-cu ildə "Xalq şairi" fəxri adına layiq görülmüş, 2009-cu ildə "Şərəf" ordeni, 2014-cü ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir. 1998-ci ildə "Humay" mükafatı, 2014-cü ildə "Nəsimi" mükafatı laureatı olmuşdur.

Vaqif Səmədoğlu 2015-ci il yanvar ayının 28-də Bakıda vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

2015-ci ildə Vaqif Səmədoğlunun xatirəsinə həsr olunmuş "Vaqifə 40 dua" adlı şeirlər kitabı çap olunmuş, 2019-cu il iyun ayında Qazax rayonunun "Fəxri qazaxlılar" parkında Vaqif Səmədoğlunun büstünün açılışı olmuş, 2019-cu ildə Vaqif Səmədoğlu Mərkəzinin sədri Nüşabə Babayeva–Vəkilovanın təşəbbüsü ilə Vaqif Səmədoğlu medalı təsis olunmuşdur.

Ədəbiyyat:

Sandıq şeirləri / V. Səmədoğlu; tərt. və red. N. Babayeva-Vəkilova; layihənin rəhb. X. Rza.– Bakı: Mütərcim, 2016.– 214, [1] s.

Müşfiq , Ş. Bir Vaqif Səmədoğlu vardı... / Şahanə Müşfiq // Ədəbiyyat qəzeti.–2019.– 15 iyun.– S.15.

Əlişanoğlu, T. Ankarada Vaqif Səmədoğlu anılıb: [Beynəlxalq Türk Məzdəniyyəti Təşkilatında anım tədbirinin keçirilməsi haqqında] / T. Əlişanoğlu // Ədəbiyyat qəzeti.–2020.– 8 fevral.– S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Vaqif_Səməd oğlu

https://azertag.az/xeber/bu_gun_xalq_sairi_vaqif_semedoglunun_dogum_gunudur-2646896

Natiq Rəsulzadə – 75

(1949)

Yazıçı



Natiq Rəsul oğlu Rəsulzadə 1949-cu il iyun ayının 5-də Bakıda anadan olmuşdur.

1975-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir. 1979-cu ildən Azərbaycan Yazıçılar Birliyinin, Kinematoqrafçılar İttifaqı və Teatr Xadimləri İttifaqının üzvüdür.

40 ildən çoxdur əsərləri bir çox dillərdə və dünyanın adlı-sanlı ölkələrində çap olunur."Uşaqlıq lövhələri", "İşıqlı toran" "Bayramda yağan yağış", "Gecədə atlı", "Ruhlar arasında", "İntihar edənin qeydləri", "Kabusların arasında", "Ulduzların altında yol" və s. əsərlərin müəllifidir.

"İntihar edənin gündəliyi", "Gecə çaparı", "Nonsens", "Məhəbbət ili", "Yağışlı bayram", "Kabuslar arasında", "Quş çəkirəm", "Ulduz yollar", "Tələ", "Adacıq" və başqa geniş oxucu rəğbəti qazanmış əsərlərin müəllifi olan Natiq Rəsulzadənin ssenariləri əsasında "Mələklərə inanmayın", "Bayramda yağış", "Yaşa, qızıl balıq", "Vahimə", "Sifarişçi", "Gecə qatarında qətl", "Nə gözəldir bu dünya...", "Girov", "Ovsunçu", "Biz qayıdacağıq" kimi onlarla maraqlı filmlər çəkilmiş,2017–ci ildə yazıçının əsəri əsasında Azərbaycan Dövlət Rus Dram Teatrında "Meme" tamaşası səhnəyə qoyulmuşdur.

Azərbaycan, ABŞ, Rusiya, Macarıstan, Yuqoslaviya, Polşa və başqa ölkələrdə 40-dan artıq kitabı işıq üzü görmüş, bir çox nüfuzlu milli və beynəlxalq ədəbi mükafatlar almış,1984-cü ildə N.Ostrovski adına Ümumittifaq mükafatına layiq görülmüşdür.

N.Rəsulzadə Azərbaycan ədəbiyyatı və kino dramaturgiyasının inkişafındakı xidmətlərinə görə 1999-cu ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. Dövlət mükafatı laureatıdır.

Azərbaycan Respublikasının ədəbi həyatında fəal iştirakına görə 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif olunmuş, 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 2019-cu ildə "Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür. 2021-ci ildə Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi (1141-2021)" xatirə nişanı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Pəncərə: hekayə və povest /N. Rəsulzadə; tərc. ed. A. Arifqızı, İ. Fəhmi; nəşrin red. Ə. Mirzalı; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi Bakı: Mütərcim, 2010.–82 s.

Şəhrili, T. Natiq Rəsulzadə / Tuncay Şəhrili // 21– XXI əsrin 21 aydını: [Ensiklopedik toplu] / T. Şəhrili.–Bakı, 2021.–S.32–34.

Bakıdakı Rus Kitabı Evində Xalq yazıçısının kitabları təqdim edilib: [Natiq Rəsulzadənin oxucularla görüşü keçirilib]// Azərbaycan.–2021.- 17 oktyabr.- S.11.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Natiq_R%C9%99sulzad%C9%99

https://www.kulis.az/news/6995


https://1news.az/az/news/20190418115613127-Oxumaga-deyer-5-kitab-taninmish-yazichi-Natiq-Resulzade-meslehet-gorur-FOTO

news/20190418115613127-Oxumaga-deyer-5-kitab-taninmish-yazichi-Natiq-Resulzade-meslehet-gorur-FOTO

Hüseyn Arif – 100

(1924-1992)

Şair



Hüseyn Camal oğlu Hüseynzadə (Hüseyn Arif) 1924-cü il iyun ayının 15-də Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur. Ağstafa şəhər yeddiillik məktəbini bitirdikdən sonra, 1937-1940-cı illərdə Bakı Pedaqoji məktəbində təhsil almış, Tovuz şəhər orta məktəbində müəllim işləmişdir.

İkinci Dünya müharibəsində iştirak etmiş, yaralanmış, müalicə olunandan sonra Moskva hərbi mühəndislik məktəbinə göndərilmiş, 1943-1945-ci illərdə SSRİ Xalq Daxili İşlər Komissarlığı qoşunları tərkibində vzvod komandiri olmuşdur. 1946-1951-ci illərdə ADU-nun (indiki BDU) Şərqşünaslıq fakültəsində, 1951-1952-ci illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil almışdır.

1957-1959-cu illərdə Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində şöbə müdiri, 1965-1967-ci illərdə "Azərnəşr"in Bədii ədəbiyyat redaksiyasında böyük redaktor, 1967-1968-ci illərdə "Gənclik" nəşriyyatında Bədii ədəbiyyat redaksiyasının müdiri, 1980-1982-ci illərdə Azərbaycan Mədəniyyət Nazirliyinin Mədəni–Maarif idarəsində Repertuar redaksiya kollegiyasının üzvü olmuşdur.1984-1992-ci illərdə Azərbaycan Aşıqlar Birliyinin sədri vəzifəsində çalışmış, 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü seçilmişdir.

Ədəbi fəaliyyətə İkinci Dünya müharibəsi illərində başlamış, 1949-cu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. Onun librettosu əsasında 1957-ci ildə "Azad" tamaşası M.F.Axundov adına Opera və Balet Teatrında, "Yolda" poeması əsasında yazdığı eyniadlı pyesi 1974-cü ildə Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuş, 1971–ci ildə "Dağ kəndi" poemasına görə "Qızıl Oraq" mükafatına layiq görülmüşdür. Əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. "Mən inanmadım", "Qonşu qız", "Dedim, dedi", "Xatırla məni", "Mən sülhə səs verirəm", "Könül deyir yaşa hələ", "Sən mənimlə get" və b. şeirlərinə musiqi bəstələnmişdir.

1976-cı ildə Yuqoslaviyada (Sarayevo) Beynəlxalq poeziya günlərinin, 1979-cu ildə Liviyada SSRİ gunlərinin iştirakçısı olmuşdur.

Azərbaycan ədəbiyyatının inkişafı sahəsində xidmətlərinə görə 1978-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1984-cü ildə Əməkdar İncəsənət xadimi, 1989-cu ildə isə "Xalq şairi" fəxri adına layiq görülmüş, 1985-ci ildə 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

Hüseyn Arif 1992-ci il sentyabr ayının 14–də Bakıda vəfat etmiş, Ağstafa rayonunda dəfn olunmuşdur.

2010-cu ildə haqqında "Mən Hüseyn Arifəm..." filmi çəkilmiş, 2011-ci ildə "Seçilmiş əsərləri" çap olunmuş, 2014-cü ildə Prezident 90 illik yubileyi münasibətilə sərəncam imzalamış, "Seçilmiş əsərləri"və 9 cildlik külliyyatı nəşr olunmuşdur.

Ədəbiyyat:

Poemalar /Hüseyn Arif ; topl. və red. Z. Hüseynzadə ; [naşir A. Fəttahova].– Cild 4.– Bakı: [MBM], 2014.–431 s.

Göyüşov, R. Bu dünya durduqca durasıyam mən /Ramiz Göyüşov // Sən bizim ellərin ruhuna bir bax.–Bakı, 2015.– S.16 –29.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Hüseyn_Arif

https://www.wikimedia.az-az.nina.az/H%C3%BCseyn_Arif.html

*https://www.wikiwand.com/az/H%C3%BCseyn_*

Rəfiq Zəka Xəndan – 85

(1939-1999) *Dramaturq, ssenarist*



Rəfiq Cəfər oğlu Xəndan (Rəfiq Zəka Xəndan) 1939-cu il iyun ayının 16-da Bakıda anadan olmuşdur.

Mikayıl Müşfiqə həsr olunmuş ilk şeir kitabı "Çağlayan" adı ilə 1962-ci ildə nəşr olunmuşdur.

"Axırı yaxşı olar" (1968), "Mənim əziz vəhşiciyim" (1970) musiqili komediyalarının, "Füzuli" və "Söyüdlər ağlamaz" operalarının mətnlərinin müəllifidir. "Səadət", "Vətən kimlərindir?", "Meşədə", "Altı gül", "Baharın heykəli", "Könlümün yadigarı" və ümumilikdə 30–dək kitabı işıq üzü görmüş, əsərləri müxtəlif dillərə tərcümə edilmişdir.

Rəfiq Zəka Xəndan ötən əsrin 80-90-cı illərində Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişafında mühüm rol oynamış, Türkiyənin bir çox şəhərlərində keçirilən elmi konqreslərdə, beynəlxalq konfranslarda və simpoziumlarda iştirak etmişdir. Türkiyədə nəşr edilən "Size", "Tanıtım" jurnallarında Azərbaycan şair və yazıçıları haqqında yazılar dərc etmiş, yaradıcılıqlarını işıqlandırmışdır.

Klassik Şərq ədəbiyyatını, ərəb və fars dillərini, eləcə də Türkiyə türkcəsini dərindən bilən R.Z.Xəndan Türk dünyasının görkəmli söz ustadları haqqında monoqrafiyalar nəşr etdirməklə yanaşı, dünya klassik ədəbiyyatı nümunələrini tərcümə etmişdir.

Tanınmış bəstəkarların əksəriyyəti R.Z.Xəndanın şeirlərinə mahnılar bəstələmişlər."Ana Kür", "Səadət", "Qarabağım" mahnıları bu gün də müğənnilərin repertuarında geniş yer tutur.

Bədii yaradıcılıqla yanaşı, pedaqoji sahədə də fəaliyyət göstərən R.Z.Xəndan sisi kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs demiş, "Məhəmməd Hadi", "Cavid sənəti" və "Müşfiq incəlikləri" monoqrafiyalarını yazmışdır.

Şair 1987-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, 1990–cı ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, Türkiyə Folklor Akademiyasının fəxri akademiki seçilərək Atatürk mükafatına layiq görülmüşdür.

Rəfiq Zəka Xəndan 1999-cu il yanvar ayının 7-də vəfat etmişdir.

2014-cü ildə Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, ədəbiyyatşünas-alim və filosof Rəfiq Zəka Xəndanın 75 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalanmış, yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur.

Ə d ə b i y y a t :

Atatürkiyə / Rəfiq Zəka Xəndan; Naşiri və red.: T.Vəlixanlı .–Bakı: Mütərcim, 1998.– 200 s

Seçilmiş əsərləri / Rəfiq Zəka Xəndan; tərt. ed. A. Xəndan; [buraxıl. məsul Ə. Güləliyev; tərtibatçı-rəssam N. Əliyeva].– [Təkrar nəşr].– Bakı: Şərq-Qərb, 2004.– 360 s.

Mustafayeva, N. Rəfiq Zəka yaradıcılığında türkçülük və Türkiyə: Rəfiq Zəka Xəndanın anadan olmasının 70 illiyi münasibətilə / Natavan Mustafayeva; elmi red. B. Ə. Nəbiyev, R. B. Hüseynov; ön söz. B. Ə. Nəbiyev.– Bakı: [Avropa], 2009.– 180 s.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Rəfiq_Zəka_Xəndan

https://azertag.az/xeber/chaglayan_sair_refiq_zeka_xendan-820626

Abbasqulu ağa Bakıxanov Qüdsi – 230

(1794-1847) *Mütəfəkkir və tərcüməçi*



Ədəbiyyat:

Gülüstani-İrəm: [Tarix olduğu kimi] / A. Bakıxanov; tərc. M. Əskərli; red. Ə. Ələskərzadə; naşir M. Xan; dizayner F. İlham.– [Bakı]: Mücrü, [2023].– 284 s.

Bakıxanovlar şöhrət zirvəsində: [Kitab Abbasqulu ağa Bakıxanovun vəfatının 170, Əhməd Bakıxanovun anadan olmasının 125 və Tofiq Bakıxanovun yaradıcılıq fəaliyyətinin 70 illiyinə həsr olunur] / Azərb. Resp. Mədəniyyət və Turizm Naz.; tərt. H. Cəbrayılov; red. və ön söz. müəl. R. Hüseynov.– Bakı: Renessans-A, 2017.– 270, [2] s.

Bayramova, Y. Böyük maarifçi ədib...: Abbasqulu ağa Bakıxanovun doğum günüdür / Yeganə Bayramova // Yeni Azərbaycan.–2023.– 21 iyun.– S.8.

İnternetdə

https://az.wikipedia.org/wiki/Abbasqulu_a%C4%9Fa_Bak%C4%B1xanov

https://portal.azertag.az/az/node/2039

https://personalar.az/abbasqulu-aga-bakixanov-kimdir/

Abbasqulu Mirzə Məhəmməd oğlu Bakıxanov (Qüdsi) 1794-cü il iyun ayının 21-də Bakı şəhərinin Əmircan (köhnə adı Xilə) kəndində anadan olmuşdur.8 yaşınadək Bakıda yaşamış, ilk təhsilini də orada almışdır. 1802-ci ildə atası II Mirzə Məhəmməd xan əmisi oğlu Hüseynqulu xana məğlub olduğuna görə məcburiyyət qarşısında Qubaya, Amsar kəndinə köçdüyündən Bakıxanov 1819-cu ilədək orada yaşamış, bilikli ruhanilərdən fars və ərəb dillərini mükəmməl öyrənmişdir. Müntəzəm və əsaslı təhsil A.Bakıxanova Firdovsi, Xəyyam, Nizami, Xaqani, Mövlanə, Rumi, Sədi, Hafiz kimi Yaxın Şərqdə tanınmış alim və mütəfəkkirlərin əsərləri ilə tanış olmağa imkan yaratmışdır. O, gənclik illərində rus dili ilə də maraqlanmış, sonralar Tiflisdə onu mükəmməl öyrənmişdir.

1819-cu ildə Bakıxanov general Yermolovun dəvəti ilə Tiflisə gedərək Qafqaz Baş Hərbi İdarəsində Şərq dilləri tərcümanı vəzifəsinə qəbul olunmuş, Türkmənçay (1828) müqaviləsinin imzalanmasında tərcüməçi kimi iştirak etmişdir.

Azərbaycan elmi tarixində mühüm rolu olan Abbasqulu ağa Bakıxanovun birinci elmi əsəri 1831-ci ildə fars dilinin qanun və qaydalarını təlim edən "Qanuni-Qüdsi" adlı əsəridir. Bakıxanov 1835-ci ildən etibarən Qubada yaşamış, "Əsrarül-mələkût", "Təhzibül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm" kimi əsərlərini yazaraq böyük şöhrət qazanmışdır. Qubada "Gülüstan" adında ədəbi məclis təşkil edərək, Qubanın az-çox tanınmış şair və ziyalılarını bu məclisə toplamışdır.

A.Bakıxanovun "Təbriz əhlinə xitab" şeiri XIX əsr Azərbaycan poeziyasında zadəgan və ruhanilər əleyhinə ilk ictimai satira, "Kitabi-Əsgəriyyə" hekayəsi isə Azərbaycan nəsrinin ilk nümunələrindəndir. Ədibin yaradıcılığında 1833-1834-cü illərdə Varşavada olarkən fars dilində yazdığı "Merace xəyal", "Məclise firəng" poemaları, 1836-cı ildə Azərbaycan türkcəsində tərtib etdiyi "Kitabi nəsaih" ("Nəsihətnamə") əsəri, 1841-ci ildə fars dilində yazdığı "Mirat əl-Camal" ("Gözəllik güzgüsü") adlı şeir kitabı, "Kitabi-Əskəriyyə" ("Əsgər haqqında kitab") hekayəsi, ərəb dilində yazdığı "Hədis-i Qüdsi" əsəri, eləcə də müxtəlif illərdə yazdığı şeirləri, şeir "Divan"ı və tərcümə əsərləri mühüm yer tutur.

Ömrünün sonlarında Yaxın Şərqə səyahətə çıxmış A.Bakıxanovun dil, coğrafiya, tarix, astronomiya, məntiq, psixologiya və sair elmlərə aid əsərləri onun hərtərəfli bir alim olduğunu göstərir.

Abbasqulu ağa Bakıxanov 1847-ci ildə Məkkədən Mədinəyə gedərkən Vadiyi-Fatimə adlanan yerdə vəba xəstəliyinə tutularaq vəfat etmiş və həmin yerdə dəfn edilmişdir.

A.Bakıxanov III dərəcəli Müqəddəs Anna (1828), IV dərəcəli Müqəddəs Vladimir (1828), İmperator taclı II Müqəddəs Anna (1829), III dərəcəli Müqəddəs Stanislav, Almaz və briliantlarla bəzədilmiş I dərəcəli "Günəş və Şir (1829), Türkiyə və bir çox ölkənin ordenləri ilə mükafatlandırılmışdır.

1992-ci il aprel ayının 29-da Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Bakı şəhəri Sabunçu rayonu Bakıxanov qəsəbəsi adlandırılmışdır. 1999-cu il iyul ayının 7-də Qubanın Amsar kəndində xatirə muzeyi yaradılmış, 2011-ci ildə Bakıxanov qəsəbəsində adını daşıyan parkda heykəli ucaldılmış, doğulduğu Əmircan kəndində büstü qoyulmuş, yaşadığı evin divarında xatirə löhvəsi vurulmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna, Bakının Nəsimi rayonunda, Abşeron rayonunun Görədil qəsəbəsindəki küçələrdən birinə A.Bakıxanovun adı verilmişdir. Rəssam Murad Əşrəfmurad "Bakıxanov və Qriboyedov" (1958-1959) əsərini yaratmış, Səbuhi (1941), Sonuncu orden (2002),Əhməd Bakıxanov (2003), Qüdsi (2007), Adilə (2008), Sübhün səfiri (2012) filmlərində A. Bakıxanovun obrazı da canlandırılmışdır.

Çingiz Əlioğlu – 80

(1944)

Yazıçı



Çingiz Əli oğlu Əliyev (Çingiz Əlioğlu) 1944-cü il iyun ayının 29-da Füzuli rayonunda anadan olmuşdur. 1961-1965-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNSU) İstehsalat proseslərinin avtomatlaşdırılması və texnologiyası fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə "Gənclik" nəşriyyatında redaktor kimi başlamış, 1977-1988-ci illərdə böyük redaktor, 1988-1991-ci illərdə redaksiya müdiri, 1991-1992-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor, 1992-2001-ci illərdə Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində Nəşriyyatlar idarəsinin rəisi, 2001-2014-cü illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır.

Bədii yaradıcılığa 1967-ci ildə "Gənc qələmlər" toplusunda çıxan "Xatirələr" şeiri ilə başlamışdır. 1977-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Nikbinlik" (1969), "Vağzallar... Yollar..." (1974), "Soraqlar sevgi məni" (1978), "Ömür ağacı" (1980), "Alnından ay doğan adam" (1983), "Günəşli dayanacaqlar" (1984), "Tanrını tanı" (1992), "Ruhumun həndəsəsi" (2003), "Fraqmentlər" (2006), "Qonşunun iti" (2015) və s. kitabları çap olunmuşdur.

Gənc şairlərin Ümumittifaq poeziya festivallarında (IV, V, VI), gənc yazıçıların yeddinci Ümumittifaq müşavirəsində və birinci Ümumittifaq toplantısında, Şuşenskoyedə keçirilən yazıçı və tənqidçilərin Ümumittifaq nəzəri konfransında, Krasnoyarsk, İvanovo–Frankovsk vilayətlərində, Latviyada keçirilən Sovet ədəbiyyatı günlərində, Moskvada keçirilən Azərbaycan şeiri günlərində, Riqada və Vilnüsdə keçirilən Latış, Tilva tərcüməçilərinin beynəlxalq müşavirəsində iştirak etmişdir.

Çingiz Əlioğlunun "Təhsil" nəşriyyatında çap olunmuş "Çərçivə" kitabı bir çox mükafatlar qazanmış, 2010–cu ildə Moskvada keçirilən VII Beynəlxalq "Kitab sənəti" müsabiqəsində "Qran Pri"yə layiq görülmüşdür. Əsərləri keçmiş SSRİ və bir çox Avropa xalqlarının dillərinə tərcümə olunmuşdur.

Ümumittifaq poeziya müsabiqəsində "Yunnost" jurnalının "Yaşıl yarpaq" mükafatına, Azərbaycan LKGİ MK–nın və Ukrayna KP İvanovo–Frankovsk vilayət komitəsinin fəxri fərmanlarına layiq görülmüşdür. 1990–cı ildən Finlandiya Respublikası Maarif Nazirliyinin təqaüdçüsü, Beynəlxalq "Kalevala" cəmiyyətinin üzvüdür.

1991-ci ildə "Əməkdar mədəniyyət işçisi", 2005-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülmüşdür. 2015-ci ildə Belarus Prezidentinin Fərmanı ilə "Fransisk Skorina" medalına layiq görülmüş, Belarus Yazıçılar İttifaqının "Ədəbiyyata verdiyi böyük töhfəyə görə" döş nişanı ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Qonşunun iti: şeirlər / Çingiz Əlioğlu; layihənin rəhbəri X. Rza.– Bakı: Mütərcim, AYB.– 2015.– 212 s.

Qapı: [şeirlər və poemalar] / Çingiz Əlioğlu; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Təhsil, 2014.– 447, [1] s.

Müzəffərli, S. Çingiz Əlioğlu poeziyasının erkən dövründə avanqard axtarışlar / Səbirə Müzəffərli // Azərbaycan ədəbiyyatşünaslığı / AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.– 2022.– №1.– S.104–108.

Mədətoğlu, Ə. Çingiz Əlioğlunun əli: Mən hər zaman o əldən ümidlə tutmuşam / Əbülfət Mədətoğlu // Ədalət.– 2023.– 27 oktyabr, №41.– S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%Cingiz_Əliyev

https://qafqazinfo.az/news/detail/qizlar-deyirdi-ki-bu-oglan-ozunden-cox-razidir-musahibe-186264

Elmira Əliyeva – 95

(1929) *Musiqiçi*



Elmira Mirzəağa qızı Əliyeva 1929-cu il iyun ayının 3-də Bakıda anadan olmuşdur.

Üçillik musiqi məktəbində təhsil aldıqdan sonra onillik musiqi məktəbinin 4-cü sinfinə daxil olmuş, Lidiya Nikolayevna Yeqorovanın sinfində təhsil almışdır. 1947-1952-ci illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır.

Qərbi Avropa, Rus və Azərbaycan milli mədəniyyətinin sintezi və vəhdəti, həmçinin Azərbaycan mədəniyyətinin formalaşması prosesi Elmira xanımın musiqi təfəkküründün formalaşmasında istisna rol oynamışdır. Konservatoriyadakı təhsil müddətində Elmira Əliyeva 1935-ci ildə Azərbaycan Konservatoriyasının fortepiano sinfininə pedaqoq kimi Üzeyir Hacıbəyli tərəfindən dəvət olunmuş Xalq artisti Mayor Rafailoviç Brennerdən dərs almışdır.

Elmira Əliyeva pedaqoji fəaliyyətinə 1952-ci ildə Asəf Zeynallı adına Bakı Musiqi kollecində başlamış, 1952-1956-cı illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında konsertmeyster kimi çalışmışdır. O, 1950-1953-cü illər ərzində Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Dövlət triosunda solist olaraq çıxış etmişdir. Elmira xanım 1956-cı ildən 1962-ci ilə qədər Azərbaycan Dövlət Konservatoriyasında müəllim, 1962-1987-ci ilə qədər baş müəllim, 1987-1995-ci ilə qədər dosent vəzifəsində çalışmışdır.

Azərbaycan musiqisinin təbliğində böyük rol oynamış Elmira xanım Azərbaycan bəstəkarlarının kamera əsərlərinin bir çoxunun ilk ifaçısı olmuşdur.Müxtəlif illərdə Moskvada keçirilən Azərbaycan incəsənətinin dekadalarında, Azərbaycan Bəstəkarlar İttiffaqının qurultay və plenumlarında iştirak etmişdir. 1999-cu ildən Sumqayıt Musiqi Kollecində ustad dərsləri verib, tələbələrin çıxışlarını təşkil etmişdir.

E.Əliyeva ifaçı-pedaqoq və konsertmeyster fəaliyyəti ilə yanaşı elmi-publisistik fəaliyyəti ilə də məşğul olmuşdur.”Tofiq Bakıxanov “Uşaq pyesləri”, “ 5 perlüduya”, “Fərhəng Hüseynovun sonatinası” və sairə vəsaitlərdə ifaçılıq problemləri, ifaçılıq təcrübəsinə əsaslanaraq bacarıq və vərdişlərin analizi öz əksini tapmışdır.Konservatoriyada fəaliyyəti ərzində Elmira xanım yüzdən artıq gənc pianoçu, konsertmeyster yetişdirmişdir.

Elmira Əliyeva 2008-ci ildə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. 2014-cü ildə Səidə Xəlilova Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafında pianoçu Elmira Əliyevanın rolu” m övzusunda dissertasiya müdafiə etmiş, 2016-cı ildə dərs vəsaiti kimi nəşr olunmuşdur.

Ə d ə b i y y a t :

Xəlilova, S. Azərbaycan ifaçılıq sənətində pianoçu Elmira Əliyevanın rolu: dərs vəsaiti / Səidə Xəlilova (tərt. ed.); elmi red. G. Abdullazadə; Azərb. Resp. Təhsil Nazirliyi, Ü. Hacıbəyli ad. Bakı Musiqi Akad.– Bakı: Mütərcim, 2016.– 263, [1] s.

Qəniyeva, A. Dünya şöhrətli pianoçu, pedaqoq, konsertmeyster / Afaq Qəniyeva //Azad Azərbaycan.– 2019.– 11 iyun.– S.7.

İ n t e r n e t d ə:

https://sia.az/az/news/culture/744596.html

https://www.muallim.edu.az/www.old/arxiv/2008/n36/resmi.html

Qərinə Kərimova – 60

(1964)

Opera müğənnisi



Qərinə Rəhim qızı Kərimova 1964-cü il iyun ayının 16-da Bakıda anadan olmuşdur.

1986-cı ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət konservatoriyasının vokal fakültəsini bitirmiş, həmin ildən Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının solistidir. Bir çox beynəlxalq vokal müsabiqələrinin qalibi və laureatı olan Qərinə Kərimova Opera və Balet teatrının repertuarında olan milli (Nigar – "Koroğlu", Sevil –"Sevil") və klassik (Aida – "Aida", Toska – "Toska", Çio-Çio-San – "Çio-Çio-San", Mikaella – "Karmen") opera tamaşalarında aparıcı partiyaları ifa edir.

2003-cü ildə Rusiya Dövlət Akademik Böyük teatrı rəhbərliyinin dəvətilə Q.Kərimova həmin teatrın səhnəsində Puççininin "Toska" operasında Toska rolunda müvəffəqiyyətlə çıxış etmişdir.

Qərinə Kərimova geniş yaradıcılıq fəaliyyəti ilə yanaşı, həm də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət universitetinin vokal fakültəsinin müəllimi vəzifəsində çalışır. Qərinə Kərimova Azərbaycan incəsənət ustalarının nümayəndə heyətinin tərkibində bir çox xarici ölkələrdə – Türkiyə, Kipr, Fransa, Almaniya, Rusiya, Ukrayna, Avstriya və s. qastrol səfərlərində olmuş və milli vokal sənətimizi ləyaqətlə təmsil etmişdir. Qərinə xanım 1985-ci ildə Musiqi ifaçılarının VII Zaqafqaziya müsabiqəsinin laureatı olmuş,1987-ci ildə Vokalçıların M.Qlinka adına XII Ümumittifaq müsabiqəsinin, 1997-ci ildə Vokalçıların Bülbül adına I Beynəlxalq müsabiqəsinin 3-cü mükafatına layiq görülmüşdür. Milli vokal sənətini dünya səhnələrində ləyaqətlə təmsil etdiyinə görə istedadlı vokalçı Azərbaycan Teatr Xadimləri ittifaqı tərəfindən 1998-ci ildə "Qızıl dərviş" mükafatına layiq görülmüşdür.

2006-cı ildə "Yoxlama" filmində çəkilən Q.Kərimova 1991-ci il may ayının 17-də Azərbaycan Respublikasının Əməkdar Artisti, 1998-ci il may ayının 24-də Azərbaycan Respublikasının Xalq Artisti fəxri adı almış, 2014-2021-ci illərdə Prezident Mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Vüsal, Ş. Norman rolunun yeganə ifaçısı / Şəmsi Vüsal //Mədəniyyət.– 2008.– 20 dekabr.–S.6.

İnternetdə:

https://www.wikimedia.az-az.nina.az/Q%C9%99rin%C9%99_K%C9%99rimova.html

https://wikipedia.anarim.az/?q=Q%C9%99rin%C9%99_K%C9%99rimova

http://azteatr.musigi-dunya.az/file?id=92&dt=138

Kərimov Fəxrəddin – 70

(1954)

Dirijor



Fəxrəddin Nuri oğlu Kərimov 1954-cü il iyun ayının 21-də Bakıda anadan olmuşdur.

Bülbül adına orta ixtisas məktəbini bitirdikdən sonra 1973-1978-ci illərdə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında violino sinfi üzrə təhsil almış, 1982-1988-ci illərdə H.A.Rimski–Korsakov adına Leninqrad (Sankt-Peterburq) Dövlət konservatoriyasının opera–simfonik dirijorluğu şöbəsində Rusiyanın xalq artistləri V.Gergiyev və prof. İ.Musinin sinfində oxumuşdur. 1989-1991-ci illərdə Kirov adına opera və balet teatrında (Mariinski teatr) (rəhbər – V.Gergiyev) təcrübəçi–dirijor olmuş, 1991-2001-ci illərdə İstanbulun Memar Sinan adına Universiteti nəzdində Dövlət Konservatoriyası simfonik orkestrinin dirijoru kimi çalışmışdır.

1995-ci ildə İstanbul şəhəri Bələdiyyəsi rəhbərliyinin dəvəti ilə C.R.Rey adına konsert zalı nəzdində opera və simfonik orkestri yaradaraq 1999-cu ilə qədər həmin kollektivə rəhbərlik etmişdir. 2000-ci ildə İzmir Dövlət opera və balet teatrı tərəfindən S.Prokofyevin "Romeo və Culyetta"baletinə musiqi rəhbəri qismində dəvət alan F.Kərimov 2001-2004-cü illərdə bu teatrda baş dirijor vəzifəsində çalişmışdır.

F.Kərimov Almaniya, Polşa, Rumıniya, Rusiya, Belarus, Turkiyənin bir çox şəhərlərində qastrol səfərlərində olmuş, "Belıye noçi" (1996, Sankt–Peterburq), I Beynəlxalq türk musiqisi festivalı (1999), K.Silvestri adına beynəlxalq festival (2000, Rumıniya), (2004,Yakutsk) və s. iştirakçısıdır. 2004–cü ildən Azərbaycan Dövlət simfonik orkestrinin dirijoru, Baki Musiqi Akademiyasının vokal və opera hazırlığı kafedrasının dosentidir.

F.Kərimov 17 sentyabr 2008-ci ildə "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, 30 dekabr 2015–ci ildə Azərbaycan xalq artisti adı almışdır.

2015-ci il may ayının 6-da, 2018-ci il may ayının 9-da və 2019-cu il may ayının 10-da Prezident Mükafatına, 2020-ci il may ayının 7-də Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ə d ə b i y y a t :

"Şadam ki, bir çox əsərlərin Bakıda ilk dəfə səslənməsinə nail olmuşam": Dirijor Fəxrəddin Kərimov: "Gənclərə dayaq olmaqla yanaşı, sənətə məsuliyyətlə yanaşmalarını da tələb etməliyik" /F.Kərimov; Müsahibəni apardı: L.Azəri //Mədəniyyət.–2021.– 19 noyabr.– S.5.

Mükərrəmoğlu, M. Maraqlı konsert proqramı: [Üzeyir musiqi günləri çərçivəsində Fəxrəddin Kərimovun rəhbərliyi ilə keçirilən konsert haqqında] / M. Mükərrəmoğlu // Xalq qəzeti.– 2019.– 24 sentyabr.– S.7.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Fəxrəddin_Kərimov

https://medeniyyet.az/page/news/59960/Sadam-ki-bir-cox-eserlerin-Bakida-ilk-defe-seslenmesine-nail-olmusam.html?lang=az

Məlik Dadaşov – 100

(1924-1996)

Teatr və kino aktyoru



Məlik Yusif oğlu Dadaşov 1924-cü il iyun ayının 7-də Bakı şəhərində anadan olmuşdur. 174 saylı orta və A. Zeynallı adına musiqi məktəbində təhsil almışdır. Tibb İnstitutuna qəbul olmuş, lakin birinci kursdan orada oxumaqdan imtina etmişdir.II Dünya müharibəsində iştirak edərək yaralanmış, 1943-cü ildə müalicəsini başa çatdırıb, hərbi hissələrdə musiqiçi kimi xidmət göstərmişdir. 1945–ci ildə müharibədən qayıtdıqdan sonra Gənc Tamaşaçılar Teatrına aktyor kimi işə götürülmüş, sənədlərini Teatr İnstitutuna (indiki Mədəniyyət və İncəsənət Universiteti) verərək, Adil İsgəndərovun sinfinə daxil olmuşdur. 1950-ci ildə İnstitutu bitirdikdən sonra M.Əzizbəyov adına Akademik Dram Teatrında işləməyə başlamış və burada ilk dəfə H.Muxtarovun "Ailə namusu" pyesində oynamışdır.

Məlik Dadaşov 100-dən çox tamaşada, 50-dən çox filmdə müxtəlif obrazlar yaratmışdır. Filmdə ilk rolu 1947-ci ildə "Fətəli xan" filmində Sərdar xanın hərbi rəisi rolunda olan aktyor 1961-ci ildə "Leyli və Məcnun" da "Axırıncı aşırım"-da Qəmlo, "Dəli Kür"də Molla Sadıq, "Koroğlu"da Bolu bəy, "O dünyadan salam"da Şeyx Nəsrullah, "Birisi gün gecə yarısı"nda Nəriman Nərimanov, "Bir məhəlləli iki oğlan"da Nazif, "Ulduzlar sönmür"də general Mehmandarov, "26 Bakı komissarı"nda Əzizbəyov, "Mühariбəni görən adam"da Niyazxan, "Fəryad"da Aram Xaçaturyan və s. obrazları məharətlə oynamışdır.

1985-ci ildə Məlik Dadaşov "Azərbaycanfilm" və "Belorusfilm"in birgə istehsal etdiyi "Müsahibə götürən adam"da Niyaz xan, sonra isə "Axırıncı aşırım"-da Qəmlo, "Fəryad" filmində erməni obrazı, "Dəli Kür"də molla, "Ölülər"də Şeyx Nəsrullah rollarını oynayanda hədə-qorxu ilə üzləşmişdir.

Azərbaycan aktyorluq məktəbinin formalaşmasında xüsusi xidmətləri olmuş M. Dadaşov "26 Bakı komissarı" və "Ulduzlar sönmür" filmlərində M.Əzizbəyovun və N.Nərimanovun obrazlarını ekranda əbədiləşdirə bilmiş, "Birisi gün, gecəyarısı", "O dünyadan salam", "Hacı Qara" "Bir məhəlləli iki oğlan", "Dəli Kür", "Axırıncı aşırım", "Mezozoy əhvalatı", "Fəryad" və s. filmlərdə baş rollara çəkilmişdir. M. Dadaşov "Özbəkfilm"in istehsal etdiyi "Təyyarələr enmədi", "Moldovafilm"də lentə alınan "Dmitri Kantemir", "Belarusfilm"in istehsalı olan "Müsahibə götürən adam" filmlərində də çəkilmişdir.

"Mənfi tiplərin klassik ifaçısı" olan M. Dadaşov ömrünün sonuna kimi teatrda çalışmış, İ.Əfəndiyevin "Atayevlər ailəsi",V.Şekspirin "On ikinci gecə", L.Tolstoyun "Canlı meyit", S.Vurğunun "Fərhad və Şirin", Ş.Qurbanovun "Sənsiz", İ.Qasımovun "Nağıl başlananda" və s. tamaşalarda yaratdığı obrazlar xatirələrdə qalmışdır.

Aktyor 1980-ci illərdən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs demiş, 1989-cu ildə S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrına direktor təyin olunmuş, 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. 1991-ci ildə təqaüdə çıxmışdır.

M.Dadaşov 24 may 1960-cı ildə Əməkdar artist, 1 iyun 1974-cü ildə "Xalq artisti" fəxri adına layiq görülmüş, 26 may 1986-cı ildə Respublika Dövlət mükafatı laureatı olmuş, müxtəlif orden və medallarla, diplom və fəxri fərmanlarla mükafatlandırılmışdır.

Məlik Dadaşov 1996-cı il dekabr ayının 2-də Bakıda vəfat etmiş, İkinci Fəfri xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Rəhimli, İ. Məlik Dadaşov / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə.– Cild 2.– Bakı, 2017.– S.275–277.

Məlik Dadaşov erməni obrazını elə canlandırıb ki... : "...Onu küçədə görənlər daş–qalaq edir, xəsarət yetirməyə çalışırdılar" Rasim Balayev: "Baxmayaraq ki, mən onu tanıyırdım, onun həmin rolunu görəndə adamda nifrət hissi oyanırdı" /A.Elçinoğlu //Şərq.– 2021.–25 fevral.– S.13.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məlik_Dadaşov

https://portal.azertag.az/az/node/28285

Bəsti Cəfərova – 65

(1959)

Aktrisa



Bəsti Əli qızı Cəfərova 1959-cu il iyun ayının 13-də Bakıda anadan olmuşdur.1976-cı ildə Bakı şəhəri 82 nömrəli tam orta məktəbi bitirmiş və həmin il M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur.

Tələbəlik dövründə baş rejissor Tofiq Kazımovun dəvətilə Akademik Milli Dram Teatrına çağırılmış və Ə.Əylislinin "Quşu uçan budaqlar" dramında Səltənət rolunu oynamışdır.

Adil İsgəndərovun kursunda təhsil alan Bəsti Cəfərova ali təhsilini 1980-ci ildə başa vurmuş, təyinatla Akademik Milli Dram Teatrına göndərilmişdir. Nazlı ("Əliqulu evlənir"), Bənövşə ("Nişanlı qız" S. Rəhman), Qadın ("Sizi deyib gəlmişəm…", Anar), Əsmər ("Günah", R.Əlizadə), Bədidə və Nigar ("Qanlı Nigar", S.Şendil), Xurşidbanu Natəvan ("Xurşidbanu Natəvan", İ.Əfəndiyev), Solmaz ("Od gəlini", C.Cabbarlı), Martrio ("Dişi canavar", F.Q. Lorka), Qonerilya ("Kral Lir", V.Şekspir), Qaliyə və Adlay ("Sokratı anma gecəsi", Ç.Aytmatov və M.Şahanov), Ədilə ("Poçt şöbəsində xəyal", Elçin), Fedra ("Fedra", J.Rassin), Afət ("Afət", H.Cavid), Qadın ("İnsan səsi", J.Kokto) və s. rollarda yaddaqalan obrazlar yaratmış, "Yaramaz" (Ələsgərin katibəsi), "Günaydın, mələyim" (Aktrisa Sahibə), "Canavar balası" (Rimma) televiziya filmlərinə çəkilmiş, Ruhəngiz Qasımovanın "Ömrün yolları" (Qurbanovun sevgilisi), Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllər" (Ağabəyim ağa) əsərlərinin televiziya tamaşalarında oynamışdır.

Bəsti Cəfərova Akademik teatrda işləməklə yanaşı rejissor Vaqif İbrahimoğlunun Tədris teatrında hazırladığı "Mən Dədə Qorqud…" (Oğuz Xatunu və Dəli Domrulun anası), Antuan de Sent Ekzüperinin "Təskinlik verməyi unutmayın" ("Kiçik şahzadə", Qızılgül, Göl çiçəyi və Fanarçı), "Yuğ" Dövlət Teatrında Məhəmmədhüseyn Şəhriyarın "Heydərbaba" əsəri əsasında səhnələşdirilən "Salam" (Qadın) əsərlərinin tamaşalarında da rəngarəng rollar ifa etmişdir.

2005-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olan B.Cəfərova 2013–cü ildən professor elmi adı almışdır.

Bəsti Cəfərova 1989-cu ildə "Əməkdar artist", 1998-ci ildə "Xalq artisti" fəxri adlarına, 2014-cü il aprel ayının 30-da və 2015-ci il may ayının 6-da Prezident Mükafatına layiq görülmüş, 28 oktyabr 2019-cu ildə Cəfər Cabbarlı mükafatına, 29 oktyabr 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib, Azərbaycan Prezidentinin fərdi təqaüdçüsüdür.

Ədəbiyyat:

"Qətibə İnanc obrazı Bəsti Cəfərova əfsanəsinin var olmasını sübuta yetirdi...": [Xalq artisti ilə söhbət] / B. Cəfərova; söhbətləşdi S. Əşrəf // Ədəbiyyat qəzeti.– 2018.– 9 iyun.– S.12–13.

Rəhimli, İ. Bəsti Cəfərova // İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə.– Cild 1.– Bakı, 2016.– S.243–244.

Əşrəf, S. "Solğun çiçəklər"də tanıdığım Bəsti Cəfərova /Samirə Əşrəf // Ədəbiyyat qəzeti.–2019.– 15 iyun.– S.12.

Xalq artisti Bəsti Cəfərovanın 60 illik yubileyi qeyd olunub: [Akademik Milli Dram Teatrında] // Mədəniyyət.–2019.–19 iyun.– S.5.

İnternetdə

https://az.wikipedia.org/wiki/Bəsti_Cəfərova

https://azdrama.az/?page_id=213

Mərahim Fərzəlibəyov – 75

(1949) *Rejissor*



Mərahim Fərzəli oğlu Fərzəlibəyov 1949-cu il iyun ayının 26-da Bakıda anadan olmuşdur.

56 saylı orta məktəbi bitirmiş, səhnəyə orta məktəbdən maraq göstərmiş, Orta məktəbi bitirəndən sonra Azərbaycan Respublikası Jurnalistlər İttifaqının yaradıcılıq fotostudiyasında şagird-lobarant, Suraxanı rayon mədəniyyət evində kinomexanik köməkçisi, 26-lar Mədəniyyət sarayında pioner "Şəfəq" dram dərnəyinin rəhbəri işləyib. 1970-1975-ci illərdə Leninqradda (indiki Sankt-Peterburq) Dövlət Teatr Musiqi Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində təhsil almışdır. Diplom işi kimi Azərbaycan Dövlət Musiqili Komediya Teatrının rus bölməsində dramaturq Maykl Stüartın Bəstəkar Cerri Germanın "Hello Doli" müzikl–operettasını tamaşaya hazırlamışdır. 1975-1977-ci illərdə Çeçenistan Muxtar Respublikasının paytaxtı Qroznı şəhərindəki Mixail Lermontov adına Dövlət Rus Dram Teatrında quruluşçu rejissor işləmişdir. Tennessi Uilyamsın "Arzu tramvayı" dramına, Jan Batist Molyerin "Tartüf" komediyasına, Boris Vasilyevin "Qış gecəsinin nağılı" pyesinə, Alla Sokolovanın "Faryatevin fantaziyası" psixoloji tragikomediyasına, Yevgeni Sefip və Nikolay Novitskinin "Yegelyanın səadəti", uşaqlar üçün Sergey Mixalkovun "Lovğa dovşan" nağılına səhnə quruluşları vermiş, "Mənim ağ şəhərim", "Canavar balası" və "Qırmızı qar" filmlərinin rejissoru olmuşdur.

1977-1981-ci illərdə Sumqayıt Dövlət Dram Teatrında baş rejissor işləmiş, Azərbaycan Mədəniyyət Nazirliyinin əmri ilə 1981-ci ildə Akademik Milli Dram Teatrına rejissor təyin olunmuşdur. 12 yanvar 2006-cı ildə Respublika Mədəniyyət Nazirliyinin əmri ilə Akademik Milli Dram Teatrına baş rejissor təyin olunmuş, 12 may 2010-cu ildə öz xahişi ilə teatrın baş rejissoru vəzifəsindən azad edilmişdir. 2012-ci ildən Bakı Bələdiyyə Teatrının baş rejissorudur.

Milli Dram Teatrında "Maqbet" (U.Şekspir, 1981), " Yalan" (S.Rəhman, 1991), Sokratı anma gecəsi" (Ç.Aytmatov və M.Şahanov, 1999), "Medeya" (J.Anuy, 1982), "Ölülər" (C.Məmmədquluzadə, 2004) və s. tamaşalara quruluş vermişdir. Mərahim Fərzəlibəyov dəvətlə Naxçıvan Dövlət Musiqili Dram Teatrında N. Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" və "Atabəylər", Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında M. Haqverdiyevin "Məhəbbət, şeytan və lambada" və "Ləyaqət", "Azərbaycanfilm" kinostudiyasının nəzdindəki Kino-Aktyor Teatrı truppasında M. Muradın "Təkan", Q. Lorkanın "Qanlı toy" pyeslərini tamaşaya hazırlamış, "Ölülər" (Şeyx Əhməd) və "Qəm pəncərəsi" (Uçitel Həsənov) filmlərində çəkilmişdir.

Teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə, rejissorluqda qazandığı nailiyyətlərə görə 1982-ci il dekabr ayının 1-də "Əməkdar artist", 2000-ci il oktyabr ayının 28-də "Xalq artisti" fəxri adlarına layiq görülmüş,10 iyul 2019-cu ildə Azərbaycan teatr sənətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmiş, Prezident təqaüdçüsüdür.

Ədəbiyyat:

Quruluş verdiyim tamaşaların sayını-hesabını itirmişəm": Xalq artisti, rejissor M. Fərzəlibəyovla söhbət / M.Fərzəlibəyov; müsahibəni apardı T.M-zadə // 525-ci qəzet.– 2023.– 10 iyun .– S.21; Azad Azərbaycan.–2023.– 22 iyun.– S.6.

Səhnəyə sığmayan arzular: "Şöhrət" ordenli, Xalq artisti, rejissor Mərahim Fərzəlibəyovun 70 illik yubileyinə həsr olunur / Ç. Ələsgərli; [red. C. Abbasova; naşir E. Məmmədov; dizayner F. İbrahimova]; Azərb. Resp. Mədəniyyət Nazirliyi.– Bakı: Aspoliqraf, 2022.– 286, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Mərahim_Fərzəlibəyov

https://ikisahil.az/post/merahim-ferzelibeyov-ozumu-xoshbext-senetkar-hesab-edirem

Barat Şəkinskaya – 110

(1914-1999) *Teatr və kino aktrisası*



Barat Həbib qızı Şəkinskaya 1914-cü il iyun ayının 28-də Şuşada anadan olmuşdur.

İlk təhsilini Şuşada almış, 1923-cü ildə ailəsi ilə birlikdə Gəncəyə köçmüş, 2 saylı, birinci dərəcəli qız məktəbində təhsil almışdır. 1927-ci ildə Gəncə Pedaqoji məktəbinə qəbul olunmuş, həm məktəbin, həm də şəhərin müxtəlif dram dərnəklərində həvəskar aktrisa kimi çıxış etməyə başlamışdır. 1929-cu il sentyabr ayının 18-də Gəncə Həmkarlar İttifaqının "Fəhlə klubu"nda aktrisa kimi işə götürülmüşdür.

1930-cu ildə pedaqoji məktəbi bitirərək Sərkər kənd məktəbində işləmiş, eyni zamanda, "Qadınlar klubu"nun, "İşçi klubu"nun və "Dəmiryolçular klubu"nun dram dərnəklərində həvəskar aktrisa kimi fəaliyyət göstərmişdir. 1933-cü ildə Gəncə Türk İşçi Teatrosunun truppasına işə götürülmüşdür. 1935-ci ildə tibb təhsili almaq məqsədi ilə Bakıya gəlmiş, 1935-ci il, sentyabr ayının 1-də Akademik Milli Dram Teatrına aktrisa kimi işə götürülmüşdür.

Azərbaycanın ilk oğlan rollarının ifaçısı olmuş Barat Şəkinskaya Gəncə teatrında Kostya, Bakıda 1939-cu ildə oynadığı Napoleon obrazları ilə teatr tariximizə düşmüş, bir çox uşaq rollarını, o cümlədən 37 yaşında Məhəmmədhüseyn Təhmasibin "Çiçəklənən arzular" pyesində 7-ci sinif şagirdi Nazlı rolunu oynamışdır.

"Azərbaycan səhnəsinin Cülyettası" adlandırılan Barat Şəkinskaya 1935–ci ildən Xalq artisti Mustafa Mərdanovun təşəbbüsü ilə radio verilişlərinə cəlb olunmuşdur.

1943-cü ildə Gəncəyə qayıdaraq buradakı Dövlət teatrının yaradıcı kollektivinə üzv olmuş, Bahar ("Bahar") və Hürü ("Məhəbbət") rollarını ifa etmişdir. 1944-cü ildə köçürmə yolu ilə Akademik Milli Dram Teatrına keçmiş, 1956-cı ildə öz ərizəsi ilə məzuniyyətə çıxmış və işə qayıtmamışdır. 4 il "Azərbaycanfilm" kinostudiyasında aktrisa, Filarmoniyada aparıcı, yeni açılan televiziyada diktor işləmişdir.1960-cı ildə həyat yoldaşı Mehdi Məmmədov Akademik Dram Teatrına baş rejissor təyin ediləndən sonra Barat xanım teatra qayıtmışdır.

1970-ci ildə Sumqayıtdakı Hüseyn Ərəblinski adına Dövlət Dram Teatrında aktrisa kimi işləməyə başlamış, 1971-ci ildə yenidən Akademik Dram Teatrında işini davam etdirmiş,

1978-ci ildə təqaüdə çıxmışdır. B. Şəkinskaya 1986-cı ildə "Xatirələrim" kitabını nəşr etdirmişdir.

Aktrisa Moris Meterlinqin "Göy quş" (Tiltil), Şekspirin "Kral Lir" (Kardeliya), "Romeo və Cülyetta" (Cülyetta), "Otello" (Dezdemona), "On ikinci gecə"(Viola),"Polad qartal" (Şəfiqə), Şillerin "Məkr və məhəbbət" (Luiza), Karlo Haldoninin "Mehmanxana sahibəsi" (Mirandalina), Lope de Veqanın "Rəqs müəllimi" (Florela), Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (Kruçinina) pyeslərinin tamaşalarında əsas rolların ifaçısı olmuşdur.

1955-ci ildə "Görüş" filmində yaratdığı Şövkət obrazı aktrisanın kino fəaliyyətinin uğurlu başlanğıcı kimi qiymətləndirilir. Sonralar "O olmasın, bu olsun", "Qızmar günəş altında", "Kölgələr sürünür", "Qəribə əhvalat", "Telefonçu qız", "Evin kişisi", "Onun bəlalı sevgisi" filmlərində müxtəlif rollarda çəkilmişdir.

Qazandığı sənət nailiyyətlərinə görə 1940–cı ildə Azərbaycan Respublikasının "Əməkdar artist"i, Milli teatrımızın yaranmasının 75 illiyi münasibətilə 1949-cu il iyul ayının 21-də "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Barat Şəkinskaya 1999-cu il yanvar ayının 14-də Bakıda vəfat etmiş, İkinci Fəxri xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Axundov, İ. Barat Şəkinskaya / İmran Axundov.– Bakı: Mücrü, 2022.– 112 [] s.

Barat Şəkinskaya (1914–1999): Qarabağın görkəmli simaları //İqtisadiyyat.–2022.– 2–8 iyun.– S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Barat_Şəkinkinskaya

https://news.milli.az/society/36885.html

Faiq Ağayev – 55

(1969-1991)

Milli Qəhrəman



Faiq Alış oğlu Ağayev 1969-cu il iyun ayının 6–da Ağdam rayonunun Papravənd kəndində anadan olmuşdur.1986–cı ildə Papravənd kənd orta məktəbini bitirmiş, keçmiş Sovet ordusu sıralarında xidmət etmişdir. 1989-cu ildə ordu sıralarından tərxis olunduqdan sonra, Yevlax şəhərində əmək fəaliyyətinə başlamışdır. 1990-cı ilin sentyabr ayında Ağdam Rayon Polis İdarəsinin tərkibində yaranmış polis alayına yazılmış, vətənin müdafiəsinə qalxmışdır.

1991-ci il dekabr ayının 23-də Xocalı rayonunun Meşəli kəndi erməni silahlılarının hücumuna məruz qalmış, körpələrə, yaşlılara məhəl qoymadan günahsız, silahsız insanları vəhşicəsinə qətlə yetirmişdilər. Bir neçə saat davam edən atışmadan sonra erməni quldurları kəndə girərək evlərə, tövlələrə, ot tayalarına od vurmuş, 8 qadın, 3 uşaq olmaqla 28 nəfər qətlə yetirilmiş, 14 nəfər yaralanmışdır. Döyüşçülərimiz yerli əhalini xilas etməyə çalışmış, uçurulmuş evlərdən birini özünə istehkam seçən Faiq Ağayev dəqiq atəşlərlə azğınlaşmış erməni quldurlarını məhv etmiş, düşmənin atəşini özünə cəlb etməklə onlarla qadını, uşağı xilas etmiş, son ana qədər mövqeyini tərk etməmiş, son nəfəsinə qədər vuruşmuşdur. Vətənimizin igid oğlu başqalarının həyatını xilas edərək öz həyatını qurban vermişdir. Ağdam rayonunun Papravənd kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264-saylı Fərmanı ilə Ağayev Faiq Alış oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t :

Daşdəmirli, Ə. Azərbaycanın milli qəhrəmanları: Abdullayev Namiq; Ağayev Bəylər; Ağayev Faiq; Ağayev Eldar / Ədalət Daşdəmirli // Təhsil.– 2014.– № 3.– S.82–83.

Seyidzadə, T. Şəhidlərimizin ruhu şad olsun!:[Milli qəhrəman Faiq Ağayev və Bəylər Ağayev haqqında] / Tofiq Seyidzadə // Azad Azərbaycan.– 2016.– 13 dekabr.– S.7.

Mirzə, M.Faiq Ağayev / M. Mirzə // Respublika.–2022.– 7 iyun.– S.6.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Faiq_Ağayev_(milli_qəhrəman)

https://obastan.com/wiki/Faiq_A%C4%9Fayev_(milli_q%C9%99hr%C9%99man)

Bəxtiyar Allahverdiyev – 50

(1974) *Milli Qəhrəman*



Bəxtiyar Əzizulla oğlu Allahverdiyev 1974–cü il iyun ayının 10–da Bakı şəhərində anadan olmuşdur. 1991–ci ildə 199 saylı orta məktəbi bitirmiş, 1992–ci ildə hərbi xidmətə çağırılmış, 776 saylı hərbi hissədə əsgəri xidmətə başlamış, həmin ilin oktyabrında cəbhəyə yollanmışdır. Əvvəlcə Qubadlı bölgəsində, sonra Füzuli, Murovdağ əməliyyatlarında qəhrəmanlıq nümayiş etdirmişdir.

1994–cü ildə Tərtər, Ağdərə bölgələrinə göndərilmiş və müddətdən artıq xidmətə keçirilmişdir.

Ən qaynar nöqtələrdə göstərdiyi misilsiz döyüş rəşadətinə görə Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995–ci il tarixli 307 saylı Fərmanı ilə Allahverdiyev Bəxtiyar Əzizulla oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

1995–ci ildə Müdafiə Nazirliyinin əmri ilə B.Allahverdiyev hərbi biliyini artırmaq məqsədilə Türkiyə Respublikasına göndərilmiş, 1996–cı ildə ixtisas kursunu müvəffəqiyyətlə başa vurmuşdur. 1997–ci ildə gizir rütbəsi alaraq, 196 saylı hərbi hissənin kəşfiyyat taqımına komandir təyin olunmuşdur. 1998–1999–cu illərdə Zabitləri Təkmilləşdirmə və Gizirlər kurslarında təminat taqımının komandiri, 1999–2000–ci illərdə Bakı Ali Komandirlər məktəbində taktika kafedrasının təlimatçısı vəzifələrində çalışmışdır. 2002–ci ilin oktyabr ayında ordudan tərxis olunmuşdur. B.Allahverdiyev 2001–ci ildə Daxili İşlər Orqanlarına işə qəbul edilmiş, 2002–ci ildə Polis Akademiyasının qiyabi şöbəsinə daxil olmuş, 2007–ci ildə təhsilini başa vurmuşdur.Xətai rayon Əlahiddə Polis İdarəsinin Polis bölüyündə, 2004–cü ildən 2006–cı ilə qədər İsmayıllı rayonunda sahə müvəkkili vəzifəsində işləmişdir. Polis kapitanı B.Allahverdiyev hazırda Binəqədi rayon Polis İdarəsində ictimai təhlükəsizlik şöbəsinin baş inspektoru vəzifəsində çalışır.

Ədəbiyyat:

Əsgərov, V. Allahverdiyev Bəxtiyar Əzizulla oğlu /Vüqar Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları (Yenidən işlənmiş II nəşr).– Bakı, 2010.– S. 31–32.

Daşdəmirli, Ə. Azərbaycanın Milli Qəhrəmanları: Hərb-vətənpərvərlik: [Azərbaycanın Milli Qəhrəmanları haqqında bioqrafik məlumatlar] / Ədalət Daşdəmirli // Təhsil.– 2014.– № 4.–S.80–81.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Bəxtiyar_Allahverdiyev

https://avciya.az/allahverdiyev-bextiyar-ezizulla-oglu/

Vüqar Hüseynov – 55

(1969-1991) *Milli Qəhrəman*



Vüqar Tofiq oğlu Hüseynov 1969–cu il iyun ayının 20–də Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olmuşdur.1976–1986–cı illərdə Daşkəsən kənd orta məktəbində təhsil almış, 1986–cı ildə Bakıda 14 saylı texniki–peşə məktəbində elektrik–qaynaqçı ixtisasına yiyələnmişdir. 1987–ci ildə hərbi xidmətə çağırılmış, daxili qoşunlarda xidmət etmişdir. Hərbi xidmət dövründə çavuş rütbəsi almışdır.1989–cu ildə hərbi xidmətini başa vuraraq, Binəqədi Neft və Qazçıxarma İdarəsində elektrik qaynaqçısı kimi əmək fəaliyyətinə başlamışdır.

1990–cı ilin oktyabr ayından DİN–in xüsusi təyinatlı polis dəstəsinə yazılmışdır.

Vüqar Hüseynov Xocalıda, Goranboyda uğurlu döyüş yolu keçmişdir.lu döyüş yolu keçmişdir. Şəhid jurnalist Salatın Əsgərovanı qətlə yetirənlərin tapılmasında onun böyük xidməti olmuşdur.

1991-ci il iyul ayının 20–də erməni qəsbkarları böyük qüvvə ilə Goranboy rayonunun Buzluq kəndinə hücum edərkən Vüqar burada döyüş yoldaşları ilə birlikdə qəhrəmancasına vuruşmuş, düşməni geri çəkilməyə məcbur etmişdir.Bu döyüşlərdə igidliklə döyüşən Vüqar döyüş meydanında şəhid olmuşdur. Doğulduğu Daşkəsən kəndində dəfn edilmişdir.

SSRİ rəhbərliyi tərəfindən Hüseynov Vüqar Tofiq oğlu ölümündən sonra "Qırmızı ulduz" ordeni ilə təltif olunmuş, Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992–ci il tarixli 831 saylı Fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Təhsil aldığı orta məktəb onun adını daşıyır.

Ə d ə b i y y a t :

Əsgərov, V. Hüseynov Vüqar Tofiq oğlu / Vüqar Əsgərov // Azərbaycanın milli qəhrəmanları (Yenidən işlənmiş II nəşr).– Bakı, 2010.–S. 129.

Aslan, Q. Vüqar Hüseynov /Qədir Aslan //Respublika.–2022.– 19 iyun.– S.9.

İ n t e r n e t d ə:

https://az.wikipedia.org/wiki/Vüqar_Hüseynov_(milli_qəhrəman)

https://avciya.az/huseynov-vuqar-tofiq-oglu/

Zaur Sarıyev – 50

(1974-1995)

Milli Qəhrəman



Zaur Rəşid oğlu Sarıyev 1974-cü il iyun ayının 28-də Şəmkir rayonunun Qaralar kəndində anadan olmuşdur. 1981-1989-illərdə Qaralar kənd orta məktəbdə təhsil almış, 1989-cu ildə 15 saylı Gəncə şəhər texniki peşə məktəbində elektrik-qaynaqçı peşəsinə yiyələnmişdir. 1993-cü ildə Milli Ordu sıralarına çağırılmış, Qusar rayonunda hərbi təlim keçərək, döyüş bölgəsinə yola düşmüşdür. Tərtər, Füzuli, Ağdam, Kəlbəcər, Murovdağda döyüşmüşdür. Cəsur döyüşçü kimi yoldaşlarının və komandirlərinin hörmətini qazanmışdır.

1994-cü ildə Murovdağ istiqamətində kəşfiyyata çıxmaq əmri almış, mühasirəyə düşməsinə baxmayaraq, cəsurluğu nəticəsində 13 gündən sonra mühasirədən azad olunmuşdur. Bir müddət müalicə aldıqdan sonra yenidən cəbhəyə qayıtmış, 776 saylı hərbi hissədə xidmət etmiş, kiçik çavuş hərbi rütbəsi almışdır.

1995-ci il mart ayının 17-də dövlət çevirilişinə cəhdin qarşısının alınması zamanı qəhrəmancasına həlak olmuşdur. Şəmkir rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Sarıyev Zaur Rəşid oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ədəbiyyat:

İsayev, Ə. Ölümdən güclü / Əhməd İsayev // Azərbaycan.–2015.– 4 aprel.–S.7.

Aslanov, Q. Zaur Sarıyev / Qədir Aslan // Respublika.– 2022.– 26 iyun.–S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Zaur_Sarıyev

https://avciya.az/sariyev-zaur-r%C9%99sid-oglu/

Elxan Zülfüqarov – 70

(1954-1994)

Milli Qəhrəman



Elxan Qaçay oğlu Zülfüqarov 1954-cü il iyun ayının 29-da Füzuli rayonunun Üçbulaq kəndində anadan olmuşdur. 1969-cu ildə Bünyad Sərdarov adına 1 saylı məktəbin səkkizinci sinfini, 1971–ci ildə Yevlax rayonunda orta məktəbi bitirmişdir. 1971-ci ildə texnikuma daxil olmuş, 1972-ci ildə hərbi xidmətə çağırılmışdır. 1974-cü ildə Ukrayna Respublikasında hərbi xidmətini başa vurmuş, təhsilini davam etdirmişdir. E. Zülfüqarov 1975-ci ildə təyinatla Novosibirsk şəhərinə göndərilmişdir. Milis işçisi olaraq fəaliyyətə başlamış, baş leytenant rütbəsi almışdır.

1988-ci ildə Qərbi Azərbaycandan soydaşlarımızın deportasiya edilməsi və Qarabağ hadisələri zamanı Vətənə qayıtmış, 1992-ci ildə könüllü olaraq Milli Orduya qoşulmuşdur. Cəsur döyüşçü Laçın, Qubadlı, Zəngilan, Füzuli bölgələrində rəşadətlə vuruşmuşdur. Onu "Edik" kimi tanıyan ermənilər Elxanın başına mükafat qoymuşdur. 40–dan çox hərbi əməliyyatda iştirak edən Elxan xeyli erməni qulduru nu məhv etmiş, kapitan rütbəsi almış və kəşfiyyat qrupunun komadir müavini vəzifəsinə təyin edilmişdir. Elxan Zülfüqarov erməni, rus dillərini səlis bildiyindən kəşfiyyata gedərkən mühüm məlumatlar əldə etmişdir.

1994-cü il yanvar ayının 4-də kəşfiyyat zamanı əldə etdiyi məlumatlardan sonra 19 kənd azad edilmişdir. Ermənilərin xeyli sayda canlı qüvvəsi məhv edilmiş, hərbi texnika, silah-sursat ələ keçirilmişdir.

1994-cü il yanvar ayının 5-də Şükürbəyli kəndi uğrunda gedən döyüşlər zamanı Elxan Zülfüqarov qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə Zülfüqarov Elxan Qaçay oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Məmmədhəsən. Şəhidlər ana yurdunu candan baha tutdular / Məmmədhəsən // Azad Azərbaycan.–2017.–13 may.– S.7.

Aslan, Q.Elxan Zülfüqarov /Qədir Aslan //Respublika.–2022.– 29 iyun.– S.8.

İnternetdə

https://az.wikipedia.org/wiki/Elxan_Zülfüqarov

https://avciya.az/zulfiqarov-elxan-qacay-oglu/

İYUN

1

Emin Mahmudov - 30

(1994-2020) *Baş leytenant*



Emin Pünhan oğlu Mahmudov 1994-cü il iyun ayının 1-də Tovuz rayonunun Abulbəyli kəndində anadan olmuşdur. Bozalqanlı kənd orta məktəbində, 2012-2015-ci illərdə H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil almış, Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlamışdır. 2016–cı ilin Aprel döyüşlərində fəal iştirak etmişdir.

Emin Mahmudov 2013–cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, fəxri fərmanlarla təltif olunmuşdur.

E. Mahmudov İkinci Qarabağ müharibəsində Suqovuşan qəsəbəsinin, Füzulu, Cəbrayıl rayonlarının bir sıra kəndlərinin azad olunması uğrunda gedən qanlı döyüşlərdə iştirak etmişdir. Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərin birində yaralansa da,vuruşmağa davam etmiş, 80–dən artıq əsgərimizin düşmən mühasirəsindən çıxmasında fədakarlıq göstərmişdir.

Oktyabr ayının 11-də qızğın döyüşlər zamanı şəhid olmuşdur.Tovuz rayonunun Abulbəyli kəndində dəfn olunmuşdur.

Emin Mahmudov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Paşayeva, Q. Emin Pünhan oğlu Mahmudov / Qənirə Paşayeva // Tovuz şəhidləri: (44 günlük Vətən müharibəsi) / Q. Paşayeva.–Bakı, 2021.– S. 8–11.

Əliyev, S. "Şəhid olsam, ağlamayın": Ölümsüzlüyə qovuşanlar / Sabir Əliyev // Azərbaycan.– 2022.– 22 aprel.– S.10.

3

Eltay Quliyev - 35

(1989-2020) *MAHHXHQ kiçik çavuş*



Eltay Əli oğlu Quliyev 1989-cu il iyun ayının 3-də Goranboy rayonunun Quşçular kəndində anadan olmuşdur. 1995-ci ildə Quşçular kənd məktəbinə getmiş, 2006-cı ildə Gəncə şəhərindəki 33 nömrəli tam orta məktəbini bitirmişdir. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Bir müddət Türkiyə Respublikasında əmək fəaliyyəti ilə məşğul olmuş, 2020-ci il iyun ayının 1-dən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Kiçik çavuş E. Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 29-da Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Sentyabr ayının 30-da Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Eltay Quliyev ölümündən sonra "Vətən uğrunda" "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilətəltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,15 dekabr 2020-ci il //Azərbaycan.–2020.– 16 dekabr.– S.9.

İYUN
3

Elmir Məmmədov - 25

(1999-2020)

Əsgər



Elmir Arzu oğlu Məmmədov 1999-cu il iyun ayının 3-də Salyan rayonunun Xocalı kəndində anadan olmuşdur. 2004-2008-ci illərdə Xocalı kənd məktəbində, 2008-2016-cı illərdə isə Salyan şəhərinin 1 nömrəli tam orta məktəbində təhsil almışdır. 2016-cı ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin elektrik mühəndisliyi fakültəsinə daxil olmuş, 2020-ci ildə ali təhsilini bitirmişdir. 2020-ci ildə hərbi xidmətə çağırılmış, əvvəlcə Gəncədə, sonra Qazax rayonunun Dəmirçilər kəndində xidmət etmiş, hərbi təlimlərdə yüksək hazırlıq nümayiş etdirmişdir.

Elmir Məmmədov 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsində iştirak etmiş, qismətinə bir gün döyüşmək düşmüşdür. Murov silsiləsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Salyan rayonunun Xocalı kəndində dəfn olunmuşdur.

Elmir Arzu oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə", "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920-2020)" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan RespublikasıSilahlı Qüvvələrinin hərbiqulluqçularının "Vətənuğrunda" medalı ilətəltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. //Azərbaycan.–2020.– 16dekabr.– S.9.

4

Yadigar Əliyev - 30

(1994-2020)

MAHHXHQ çavuş



Yadigar Səfxan oğlu Əliyev 1994-cü il iyun ayının 4-də Goranboy rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Uşaq yaşlarından yunan-roma güləşi ilə məşğul olub, 2010-2011-ci illərdə yeniyetmələr arasında Azərbaycan çempionatında 2-ci, 3-cü yerləri tutmuşdur.Hərbi xidmətə 2012-ci ildə Lənkəran şəhəri "N" saylı hərbi hissədə başlamışdır. Fəxri fərman və medallarla təltif edilmiş, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Sərbəst güləş üzrə birinciliyində yüksək səviyyədə hakimlik etdiyinə görə diplomla təltif edilmişdir. 2014-cu ilin yanvar ayında hərbi xidmətdən təxrisolunmuşdur. 2020-ci ildə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi yenidən ordu sıralarına qayıtmış, Naxçıvan Muxtar Respublikası "N" saylı hərbi hissəsində kurs keçmişdir. Təlimlərdə yüksək səviyyədə iştirak etdiyinə görə komandir tərəfindən çavuş rütbəsi almış və medalla təltif edilmiş, Naxçıvan Muxtar Respublikasının Xüsusi Təyinatlılarının Baş kəşfiyyatçısı təyin edilmişdir.

Vətən müharibəsi başlayanda döyüşlərə qatılmış, Qubadlı və Şuşa şəhərləri uğrunda vuruşmuşdur. Əlbəyaxa döyüşlərdə iştirak edərək düşmənin xeyli sayda canlı qüvvəsini məhv etmiş, oktyabr ayının 30-da yaralı əsgərini xilas edərkən düşmənin atdığı snayper gülləsi nəticəsində şəhid olmuş və doğulduğu Qaradağlı kəndində dəfn edilmişdir. Yadigar Əliyev ölümündən sonra "Vətən uğrunda, "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə"medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Əliyev Yadigar Səfxan oğlu//Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.– Bakı, 2022.–S.556–557.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Yadigar_%C6%8Fliyev_(%C3%A7avu%C5%9F)

İYUN
4

Rauf Əliyev - 30

(1994-2020)

Əsgər



Rauf Səxavət oğlu Əliyev 1994-cü il iyun ayının 4-də Naxçıvan Muxtar Respublikasının,

Culfa rayonunun Əbrəqunus kəndində anadan olmuşdur. Bakı şəhərindəki 19 nömrəli orta məktəbi bitirmiş, 2011–2015–ci illərdə Azərbaycan Texniki Universitetinin İnformasiya və Texnologiya fakültəsində təhsil almışdır. 2016–cı ildə hərbi xidmətə çağırılmış və Aprel döyüşlərinin fəal iştirakçısı olmuşdur.

Hərbi xidmətdən sonra əmək fəaliyyətinə Celt Colleges hazırlıq kurslarında ingilis dili müəllimi olaraq başlamış, sonra İKT şirkətində aparıcı, Azər-Türk Bankda proqramist

vəzifəsində çalışmışdır. Proqramlaşdırma üzrə beynəlxalq sertfikartlar qazanmış, xarici ölkələrdə proqramlaşdırma üzrə təlimlərdə iştirak etmiş, ingilis, rus dillərini mükəmməl bilməklə yanaşı, həvəskar qitara ifaçısı olmuşdur.

R. Əliyev İkinci Qarabağ müharibəsi zamanı qəsmən səfərbərlik çərçivəsində ordu sıralarına çağırılmış, Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabr ayının 22–də Hadrut qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Bakıda II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Rauf Əliyev "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Əliyev Rauf Səxavət oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.537.


İlyasoğlu, R. Şəhid Rauf Səxavət oğlu Əliyev / Rauf İlyasoğlu // Culfa şəhidləri / R. İlyasoğlu.– Bakı, 2022.–S.45–46.

5

Mansur Teymurov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Mansur Elnur oğlu Teymurov 1999–cu il iyun ayının 5–də Beyləqan rayonunun İkinci Şahsevən kəndində anadan olmuşdur. Orta təhsilini İkinci Şahsevən kənd tam orta məktəbində almışdır. Orta təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə çağırılmış, Naxcıvan Muxtar Respublikasında xidmət etmişdir. M. Teymurov "Günnüt əməliyyatı"nda iştirak etmiş, Müdafiə naziri Zakir Həsənov tərəfindən şəxsən mükafatlandırılmışdır.

Hərbi xidmətdən tərxis olunduqdan sonra 2019 –cu ildə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət etmişdir.

M. Teymurov Vətən müharibəsinin ilk günündən hərbi tibbi yardım maşını ilə ağır nöqtələrdən yaralı əsgərləri döyüş meydanından çıxardıb, xəstəxanaya çatdırmışdır.

M.Teymurov Füzuli, Qubadlı rayonları uğrunda gedən ağır döyüşlərdə iştirak edərək böyük qəhrəmanlıqlar göstərmiş, oktyabr ayının 18 –də Xocavənd rayonunun azad olunması uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Oktyabr ayının 19 –da Beyləqan rayonunun İkinci Şahsevən kəndində dəfn olunmuşdur.

Mansur Teymurov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan RespublikasıSilahlı Qüvvələrinin hərbiqulluqçularının "Vətənuğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. //Azərbaycan.–2020.– 16 dekabr.– S.12.

İYUN
6

Anar Məmmədov - 40

(1984-2020)

Tibbi xidmət kapitanı



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.7.

Anar Kərəm oğlu Məmmədov 1984-cü il iyun ayının 6-da Bakı şəhərində anadan olmuşdur. O, Binəqədi rayonu 115 saylı tam orta məktəbdə təhsil almış, məktəbi bitirdikdən sonra Tibb Universitetinin "Pediatriya" fakültəsinə daxil olmuşdur. 2006-cı ildə öz istəyi ilə ixtisasını hərbi tibb kafedrasına yönləndirmişdi. 2008-ci ildə Şəmkir rayonunda "Leytenant" rütbəsi ilə ixtisasını davam etdirmişdir. 2009-cu ildən 2013-cü ilədək Füzuli rayonunda "N" saylı hərbi hissədə xidmət etmiş, daha sonra Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissədə, ordan da sülhməramlılarla birgə 6 ay Əfqanıstanda xidmət etmişdir. Döndükdən sonra Ağcabədi, Beyləqan, Qusar rayonlarında yerləşən müxtəlif hərbi hissələrdə xidmət etmiş, 2018-ci ilin dekabr ayında Bakıda tibb xidməti kapitanı rütbəsi ilə xidmətini davam etdirmişdi.

Azərbaycan Ordusunun tibb xidməti kapitanı olan Anar Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Xocavəndin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxarmışdır. Anar Məmmədov noyabrın 3-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur.

Anar Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasınagörə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

9

Emin Əmrahov - 35

(1989-2020)

MAHHXHQ çavuş



Ə d ə b i y y a t :

İmanquliyeva, M. Eminin şəhidlik zirvəsi /Mətanət İmanquliyeva; red. N. Həsənzadə.–Bakı, 2022.

Əmrahov Emin Əvəz oğlu //Memorial: Vətən müharibəsi şəhidləri. – C. I. – Bakı, 2022.–S.578–579.

Emin Əvəz oğlu Əmrahov 1989–cu il iyun ayının 9–da Ağstafa rayonunun Qırılı kəndində anadan olmuşdur. 1996–2007–ci illərdə Gəncə şəhərində M. Hadi adına 10 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2008–2009–cu illərdə müddətli həqiqi hərbi xidmətdə olmuş, 2015-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq tankçı vəzifəsində çalışmışdır. 2020–ci il iyul ayında Tovuz döyüşlərində iştirak etmiş, Vətən müharibəsinin ilk günlərindən ön xətdə olub, Murovdağ yüksəkliyindən başlayaraq bütün cəbhə boyu həyata keçirilən əks–hücum əməliyyatlarında, Füzuli və Xocavənd cəbhələrində gedən qanlı döyüşlərdə iştirak edərək rəşadətlə vuruşmuşdur. Oktyabr ayının 27–də Xocavənd döyüşləri zamanı şəhid olmuşdur.

Ağstafa rayonunun Qırılı kəndində dəfn olunmuşdur.

Emin Əmrahov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Mətanət İmamquluyeva şəhidin xatirəsinə həsr olunmuş "Eminin şəhidlik zirvəsi" adlı kitab yazmışdır.

İYUN
10

Sübhan Cəfərov - 25

(1999-2020)

Əsgər



Sübhan Mehman oğlu Cəfərov 1999–cu il iyun ayının 10–da Ağsu şəhərində anadan olmuşdur. 2006–cı ildə Soltan Umbayev adına 2 saylı tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2017-ci ildə orta məktəbi bitirmişdir. 2017–2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2020–ci il sentyabr ayının 27–də başlanan Vətən müharibəsi zamanı könüllü ordu sıralarına yazılmış, Tərtər–Ağdərə istiqamətində həyata keçirilən əks–hücum əməliyyatlarında iştirak etmişdir.

Suqovuşanın azad olunması uğrunda, Talış kəndi ətrafında gedən şiddətli döyüşlərdə igidliyi ilə fərqlənmişdir.

S.Cəfərov 10 oktyabr 2020–ci il tarixində Talış kəndinin azad edilməsi uğrunda gedən hərbi əməliyyat zamanı şəhid olmuş, Ağsu Şəhidlər Xiyabanında dəfn olmuşdur.

Sübhan Cəfərov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə"medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020–ci il //Azərbaycan. –2020. –30 dekabr. –S.8

11

Nofəl Quliyev - 30

(1994-2020)

Əsgər



Nofəl İlham oğlu Quliyev 1994-cü il iyun ayının 11-də Gədəbəy rayonunun Qoşabulaq kəndində anadan olmuşdur. 2000-ci ildə Qoşabulaq kənd məktəbində tam orta təhsilinə başlamış, 2011-ci ildə də həmin məktəbin məzunu olmuşdur. Elə həmin il Azərbaycan Dövlət İqtisad Universitetinin Əmtəəşünaslıq fakültəsi, Marketinq mallarının ekspertizası ixtisasına qəbul olmuşdur. 2015-ci il oktyabr ayının 20-də həqiqi hərbi xidmətə yollanmışdır.

Nofəl İlham oğlu Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində baş qumbaraatan kimi iştirak etmişdir. Düşmənin bir neçə zirehli texnikasını məhv etmişdir. Oktyabr ayının 27-də Cəbrayıl rayonunun Dağ Tumas kəndində gedən döyüşlərdə şəhid olmuşdur.

Nofəl Quliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Əliyev Rauf Səxavət oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.537.

İlyasoğlu, R. Şəhid Rauf Səxavət oğlu Əliyev / Rauf İlyasoğlu // Culfa şəhidləri / R. İlyasoğlu.– Bakı, 2022.–S.45–46.

İYUN
11

Təbriz Talıbov - 30

(1994-2020)

Kiçik gizir



Təbriz Məhrəməli oğlu Talıbov 1994-cü il iyun ayının 11-də Lerik rayonunun Ləkər kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Siyov kənd tam orta məktəbində təhsil almışdır. 2012-2014–cü illərdə müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2015–ci ildə Dövlət Sərhəd Xidmətində Çevik Hərəkət Briqadasında sürücü-mexanik kimi xidmətə başlamış, 2016–cı ildə Aprel döyüşlərində fəal iştirak etmişdir.

Kiçik gizir Təbriz Talıbov 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Təbriz döyüş yoldaşları ilə birlikdə Zəngilan rayonu ərazisində Sığırd yüksəkliyinin azad olunması uğrunda gedən döyüşlərdə düşmənlə mətanətlə vuruşaraq döyüş yoldaşlarının pusqudan çıxmasına şərait yaratmış, oktyabr ayının 23-də Vejnəli istiqamətində şəhid olmuşdur. Lerik rayonunun Ləkər kəndində dəfn olunmuşdur.

Təbriz Talıbov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni , "Vətən uğrunda" və "Zəngilanın azad olunmasınagörə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Orucoğlu, Z. Adı ürəklərə yazılan igid Təbriz.../ Zəfər Orucoğlu // Bakı Xəbər.– 2021.– 20–22 fevral.– S.14.

Əşrəf, S. "Mənim ad günümdə onun ölüm xəbəri gəldi" / Samirə Əşrəf // Hərbi And.–2023.– 3 mart.– S.8-9.

11

Fərid Hüseynov - 30

(1994-2020)

Əsgər



Fərid Ehtibar oğlu Hüseynov 1994-cü il iyun ayının 11-də Mingəçevir şəhərində anadan olmuşdur. Orta təhsilini Şəki rayonunun Qayabaşı kənd orta məktəbində almışdır. 2012-2014-cü illərdə Ağdam rayonunda Quru Qoşunlarında atıcı olaraq həqiqi hərbi xidmətdə olmuşdur. 2017–cidən Bakı şəhərinə köçmüş, Binəqədi rayonunun Xocasən bələdiyyəsində fəhlə işləmişdir.

Fərid Hüseynov 2020-ci il sentyabr ayın 27-də başlanan Vətən müharibəsində iştirak etmiş, Murovdağ, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Fərid Hüseynov sentyabr ayının 29–da Kəlbəcər rayonunda yerləşən Murovdağ istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Hoyabr ayının 12–də Qayabaşı kənd qəbristanlığında dəfn olunmuşdur.

Fərid Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,15 dekabr 2020-ci il //Azərbaycan.–2020.– 16 dekabr.– S.9.

İYUN
12

Elnur Hacıyev - 45

(1979-2020)

Mayor



Elnur Yaqub oğlu Hacıyev 1979-cu il iyun ayının 12-də Ucar şəhərində anadan olmuşdur. 1986-1996-cı illərdə Ucar şəhərində 5 nömrəli tam orta məktəbdə təhsil almışdır. 1997-2002-ci illərdə isə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində ali hərbi təhsil almışdır.

Elnur Hacıyev 2002-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət etmişdir. O, 2002-2006-cı illərdə Qobustan rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2006-2011-ci illərdə Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2011-2015-ci illərdə Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2015-2019-cu illərdə Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2019-cu ildən isə Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. Mayor Elnur Hacıyev xidməti boyunca qüsursuz fəaliyyətinə görə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medallarına layiq görülmüşdür.

Elnur Hacıyev 2020-ci il sentyabr ayının 27–də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabr ayının 17–də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Ucar Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Elnur Hacıyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Fərəcova, Z. Vətən gülsün deyə doğmalarını gözüyaşlı qoyan şəhid / Zöhrə Fərəcova //Azərbaycan.– 2022.–27 sentyabr.– S.15.

Tağıyeva, G. Vətən müharibəsi, şəhidlik və əbədilik / Günay Tağıyeva // Hərbi And.– 2023.– 24 noyabr, № 43.– S.13; Azərbaycan ordusu.– 2023.– 18 noyabr, № 87.– S.5.

İnternetdə

http://ucar-ih.gov.az/az/page/85.html

https://unudulmazlar.az/az/infom/837

İYUN
14

Sabir Əhmədov - 35

(1989-2020)

MAHHXHQ əsgər



Sabir Səfər oğlu Əhmədov 1989–cu il iyun ayının 14–də Beyləqan rayonunun Qəhrəmanlı kəndində anadan olmuşdur. 1995–2006–cı illərdə Qəhrəmanlı qəsəbə tam orta məktəbində təhsil almışdır. Sabir Əhmədov 2007–2009–cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmiş, təxris olunandan bir müddət sonra ordu sıralarına qayıdıb, Beyləqandakı "N" saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etmişdir.

Sabir Əhmədov 2020–ci il sentyabr ayının 27–də başlanan Vətən müharibəsinin ilk günlərindən döyüş meydanlarında olmuş, Füzuli və Hadrutun azadlığı uğrunda gedən həlledici döyüşlərdə iştirak etmişdir. S. Əhmədov oktyabr ayının 24–də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Beyləqan rayonunun Qəhrəmanlı kəndində dəfn olunmuşdur.

Sabir Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" ,"Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. //Azərbaycan.–2020.– 16 dekabr.– S.9.

Həsən Rzazadə - 30

15

(1994-2020)

Baş leytenant



Həsən Vüqar oğlu Rzazadə 1994-cü il iyun ayının 15-də Bakıda hərbçi ailəsində anadan olmuşdur. Əslən Zəngilan rayonundan olan Həsən uşaqlıqdan hərbiyə maraq göstərmiş və o, Azərbaycan Sülhməramlı Qüvvələrində xidmət etmişdir. 2019-cu ilin yanvar ayından etibarən Əfqanıstanda beynəlxalq sülhməramlı taborda xidmət göstərmişdir. Tabor Kabulda beynəlxalq aeroportu mühafizə edirdi. Həsən Rzazadə Hərbi xidməti dövründə "Əfqanıstanda sülhməramlı missiyaya görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" "!Azərbaycan ordusunun 100 illiyi" medalı ilə təltif edilmişdir.

Həsən Rzazadə 2020–ci il sentyabr ayının 27–də başlanan Vətən müharibəsi zamanı Laçın, Zəngilan, Qubadlı, Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Həsən Rzazadə bir neçə vacib yüksəkliklərin azad olunmasında birbaşa iştirak etmiş, düşmənin canlı qüvvəsini məhv etmiş və bir neçə texnikasını sıradan çıxarmışdır.Noyabr ayının 1-də Laçın istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Bakıda İkinci Fəxri xiyabanda dəfn olunmuşdur.

Həsən Rzazadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Qarabağ" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Məhərrəmov, V. Ölməzlik yolunun yolçusu: (sənədli povest) / Vahid Məhərrəmov; red. S. Mahmudzadə; naşir A. Dənzizadə.– Bakı: Apostrof–A, 2021.– 135, [1] s.

Baxşəliyev, S. Şəhid baş leytenant Həsən Rzazadə / Sabir Baxşəliyev // Həftə içi.– 2021.–15-16 iyun.–S.7.


İYUN

16

Ələkbər Musayev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Ələkbər Ələvsət oğlu Musayev 1999-cu il iyun ayının 16-da Cəlilabad rayonunun Mollalı kəndində anadan olmuşdur. Atası Ələvsət Musayev Qarabağ müharibəsi iştirakçısıdır. 2006-2017-ci illərdə şəhid Aqşin Mehdiyev adına Cəlilabad rayon Dövlətəlibəyli kənd orta məktəbində orta təhsil almışdır. Ələkbər Musayev 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətdə olmuş, sonra hərbi xidmətini müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ələkbər Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 29-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur.

Ələkbər Musayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ,"Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı, 24 iyun 2021–ci il //Azərbaycan.–2021.– 25 iyun.– S.80.

17

Elçin Bağırov - 30

(1994-2020)

Əsgər



Elçin Yunus oğlu Bağırov1994–cü il iyun ayının 17–də Bakı şəhəri Binəqədi rayonunda anadan olmuşdur. Ailənin yeganə övladı olan Elçin 2000–2011–ci illərdə 244 saylı tam orta məktəbdə təhsil almışdır. 2014–cü ildə Azərbaycan Texniki Universitetinə qəbul olmuş, 2018–ci ildə ali məktəbi bitirmişdir. Həmin il həqiqi hərbi xidmətə çağırılmış, Naxçıvandakı N saylı hərbi hissədə xidmət etmişdir.

2020–ci il sentyabr ayının 27–də başlanan Vətən müharibəsi zamanı Elçin Bağırov könüllü ordu sıralarına yazılmış, Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan istiqamətində həyata keçirilən əls–hücum əməliyyatlarında iştirak etmişdir.

Elçin Bağırov oktyabr ayının 29–da Qubadlı istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Biləcəri qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Elçin Bağırov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. //Azərbaycan.–2020.– 16 dekabr.– S.8.

İYUN
18

Aşur Cəmiyev – 35

(1989-2020)

Kapitan



Aşur Bəybala oğlu Cəmiyev 1989-cu il iyun ayının 18–də Şahbuz rayonunun Külüs kəndində anadan olmuşdur. 1995-2003-cü illərdə Külüs kənd orta məktəbində, 2003-2006-cı illərdə Heydər Əliyev adına hərbi liseydə təhsil almışdır. 2006-2010-cu illərdə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının Sərhəd Qoşunları fakültəsində təhsil almışdır.

2010-cu ildə həmin akademiyanı "İnzibati idarəetmə, sərhəd qoşunları komanda-taktiki" ixtisası üzrə uğurla bitirib, Lənkəran sərhəd dəstəsinə təyinat almışdır. 2010-2019-cu illərdə Lənkəran sərhəd dəstəsində xidmət edərkən ölkənin cənub sərhədlərinin təhlükəsizliyinin təmin olunması istiqamətində bir sıra uğurlu əməliyyatlarda iştirak edib. 2019-cu ildən başlayaraq DSX-nin "Qazax" əlahiddə sərhəd diviziyasında öz xidmətini davam etdirmi.dir. 2020-ci ilin sentyabr ayından isə Kəşfiyyat bölüyünün komandiri kimibir sıra təlimlərə cəlb edilmişdir.

2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", 2014-cü ildə "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi" və 2019-cu ildə isə "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley medalları ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kapitanı olan Aşur Cəmiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Aşur Cəmiyev oktyabr ayının 21–də Zəngilan istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Naxçıvan şəhərində dəfn olunmuşdur.

Aşur Bəybala oğlu CəmiyevAzərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra 3–cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ,"Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Aşur Bəybala oğlu Cəmiyev //Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.350.

Vətən sizə oğul dedi: [şəhid Tağı Abdullazadə, Aşur Cəmiyev, Bəxtiyar Aslanov, Tacəddin İsmayılzadə, Şahin İsgəndərov və Sahil Hüseynov haqqında] // Ədalət.– 2021.– 16 fevral.– S.5.

Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız [Aşur Bəybala oğlu Cəmiyev] / Şahanə Müşfiq //525–ci qəzet.– 2021.–3 iyun.– S.15.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/A%C5%9Fur_C%C9%99miyev

https://memorial.az/az/qehremanlarimiz/515

İYUN
19

Vüsal İbişov - 25

(1999-2020)

Əsgər



Vüsal Əli oğlu İbişov 1999-cu il iyun ayının 19-da Ağsu rayonunun Gəgəli kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Sahib Mütəllimov adına Gəgəli kənd tam orta məktəbində təhsil almışdır. Vüsal İbişov orta məktəbi bitirdikdən sonra Azərbaycan Milli Ordusunda Beyləqan korpusu N saylı hərbi hissədə kəşfiyyatçı ixtisası ilə hərbi xidmət keçmişdir. 2019-cu ilin aprelində hərbi xidməti başa vurduqdan sonra Bakıda inşaat şirkətində işləmiş, 2020-ci il sentyabr ayının 21-də hərbi xidmətə çağırılmışdır.

Vüsal İbişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış, Suqovuşan və Ağdərə istiqamətlərindəki döyüşlərdə kəşfiyyatçı kimi xidmət etmişdir. Oktyabr ayının 18–də yaralı əsgər yoldaşını xilas etməyə çalışarkən düşmənin snayperdən açdığı atəş nəticəsində şəhid olmuşdur.Ağsu rayonunun Gədəli kəndində dəfn olunmuşdur.

Vüsal İbişov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Şəhid əsgər Vüsal İbişov //Ağsu şəhidləri, Zəfər Qəhrəmanları: [Kitab-albom]: Ehtiramla anırıq /F. Xəlilli, Ş. Bayramova, V. Quliyev.–Bakı, 2022.–S.134–135.

21

Araz Əliyev - 40

(1984-2020)

MAHHXHQ kiçik çavuş



Araz Aydın oğlu Əliyev 1984–cü il iyun ayının 21–də Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. Orta təhsilini 1990–2001–ci illərdə Kəbirli kənd orta məktəbində almış, 2002–ci ildə həqiqi hərbi xidmətə çağırılmış, Ağdam rayonunda xidmət etmişdir. Ordudan təxris olunandan bir müddət sonra ordu sıralarına qayıdıb xidmətini MAHHXHQ kimi davam etdirmişdir.

Kiçik çavuş Araz Əliyev 2020–ci il sentyabr ayının 27–də başlanan Vətən müharibəsi zamanı ilk gündən ön xətdə vuruşub, qızğın döyüşlərdə böyük qəhrəmanlıq göstərmişdir. Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının azad edilməsi uğrunda gedən həlledici döyüşlərdə iştirak etmişdir.

Araz Əliyev oktyabr ayının 8–də Cəbrayıl rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunmuşdur.

Araz Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

ƏliyevAraz Aydın oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.480.

Tapdıqoğlu, N. ƏliyevAraz Aydın oğlu / Nazim Tapdıqoğlu // Kəbirli kəndi, onun şəhidləri / N. Tapdıqoğlu.–Bakı, 2022.–S.322–324.

İYUN
21

Tahir Əlizadə - 30

(1994-2020)

Gizir



Tahir Qəribəli oğlu Əlizadə 1994-cü il iyun ayının 21-də Biləsuvar şəhərində anadan olmuşdur. 2000-2011-ci illərdə Biləsuvar şəhər 4 saylı orta məktəbdə təhsil almış, 2012-2013-cü illərdə həqiqi hərbi xidmətdə olmuş, cəbhə zonasında– Ağcabədidə xidmət etmişdir. 2016-cı ildə SQ-nın Təlim-Tədris Mərkəzinin gizir hazırlığı kursunu bitirib, ordu sıralarında xidmət etməyə başlamışdır.

Gizir Tahir Əlizadə 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən Cəbrayıl, Füzuli, Qubadlı istiqamətində həyata keçirilən əks-hücum əməliyyatlarında iştirak etmişdir. İki dəfə yaralanmış, müalicə aldıqdan sonra yenidən cəbhəyə qayıtmışdır. Noyabr ayının 4-də Şuşa döyüşləri zamanı meşəlik ərazidə çətin döyüş tapşırığını uğurla həyata keçirmiş, yaralı yoldaşlarını xilas edərkən ağır yaralanmış və süni tənəffüs aparatına qoşulmuş, dekabr ayının 6-da vəfat etmişdir. Biləsuvar şəhərində dəfn olunmuşdur.

Tahir Əlizadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə","Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Əlizadə Tahir Qəribəli oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.570.

Əvvəl qazi, sonra şəhid oldu // Mədəniyyət.– 2020.- 11 dekabr.- S.5.

21

Əlizamin Mustafayev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Əlzamin Baxış oğlu Mustafayev 1999-cu il iyun ayının 21-də Tərtər rayonunun Bəyimsarov kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Tərtər rayonunda yerləşən 64 saylı tam orta məktəbdə təhsil almışdır. Əlzamin Mustafayev 2017-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. 2019-cu ildə Hacıqabul rayon "N" saylı hərbi hissədə hərbi xidmətini başa vurmuşdur. Daha sonra o, xidmətini Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Mustafayev Əlzamin 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərmişdir.

2 oktyabr 2020-ci il tarixdə Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Oktyabr ayının 3-də Tərtər rayon Bəyimsarov kəndində dəfn edilmişdir.

Əlzamin Mustafayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbiqulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.10.

İYUN
21

Həsən Abdullayev - 30

(1994-2020)

MAHHXHQ əsgər



Həsən Qərib oğlu Abdullayev 1994-cü il iyun ayının 21-də Daşkəsən rayonunda anadan olmuşdur. 2001-2011–ci illərdə Daşkəsən rayon S.Vurğun adına 4 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2012–ci ildə həqiqi hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində kəşfiyyatçı kimi xidmət etmişdir.Həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra idmanın karate–do növü ilə məşğul olmuş, bir sıra nailiyyətlər əldə etmişdir.

8 sentyabr 2020–ci il tarixindən MAHHXHQ hərbi qulluqçu kimi fəaliyyətə başlamış, könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrdə xidmətini davam etdirmişdir. 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində bütün cəbhə boyu əks-hücum əməliyyatlarında iştirak etmişdir. Cəbhənin əsasən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa istiqamətində gedən həlledici döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 6–da Şuşa şəhərinin Daşaltı kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Noyabr ayının 12–də Gəncə şəhərinin

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Həsən Abdullayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə","Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Həsən Qərib oğlu Abdullayev //Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.47.


Şəhid atası: Oğlumla fəxr edirəm // Hərbi And.– 2020.–27 noyabr.– S.15.

22

Etibar Məmmədov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Etibar Səday oğlu Məmmədov 1994-cü il iyun ayının 22-də Ağstafa rayonunun Yaradullu kəndində anadan olmuşdur. 2001- ci ildə Y.İsmayılov adına Yaradullu kənd tam orta məktəbinin birinci sinfinə gedib, 2009–cu ildə həmin məktəbin 9–cu sinfini bitirmişdir. Etibar Məmmədov 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2015–ci ildə kurs bitirdikdən sonra "N" saylı hərbi hissəsində tuşlayıcı–operator vəzifəsində xidmətə başlamışdır. 2016-cı ildə Aprel döyüşlərində, 2020-ci ildə Tovuz döyüşlərində iştirak etmişdir.

Etibar Məmmədov 2020-ci il sentyabrın 27–də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Sentyabr ayının 28–də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Yaradullu kəndində dəfn olunmuşdur.

Etibar Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Ə d ə b i y y a t :

Murad, G. Etibar Səday oğlu Məmmədov Güləmail Murad // Vətən uğrunda: 44 günlük Vətən müharibəsində canından keçmiş ağstafalı şəhidlərin əziz xatirəsinə ithaf edirəm / Güləmail Murad.– Bakı, 2021. – S.92.

İYUN
23

Röyal Ələkbərov - 30

(1994-2020)

Baş leytenant



Röyal Fərmail oğlu Ələkbərov 1994-cü il iyun ayının 23-də Naxçıvan MR-nın Kəngərli

rayonunun Qıvraq kəndində anadan olmuşdur. 2000–2008-ci illərdə kənd tam orta məktəbində təhsil almışdır. 2008–ci ildə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuş, 2011–ci ildə liseyi bitirərək Bakı şəhərində yerləşən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2015–ci ildə leytenant rütbəsində məzun olaraq Daşkəsəndə yerləşən "N" saylı Hərbi Hissənin tağım komandiri vəzifəsində xidmətə başlamış və 2018–ci ilədək Murovdağ yüksəkliyində xidmətini davam etdirmişdir. 2018-ci ildə baş leytenant rütbəsi almış, 2018–2020–ci illərdə Gəncədə "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsində xidmət etmişdir.

Röyal Ələkbərov 27 sentyabr 2020–ci il tarixdə başlayan Vətən müharibəsində iştirak etmiş və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərmiş, oktyabr ayının 16–da Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 19–da Bakıda II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Röyal Ələkbərov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 3-cü dərəcəli "Rəşadət" ordeni ,"Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşcü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Ələkbərov Röyal Fərmail oğlu //Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.458–459.

Səxavətqızı, M. Ələkbərov Röyal Fərmail oğlu / Manya Səxavətqızı // Vətən fədailəri: Naxçıvan şəhidləri /M. Səxavətqızı.–H. 1.– Bakı, 2021.–S.110–111.

Fərid Hüseynov - 30

23

(1994-2020)

MAHHXHQ baş çavuş



Fərid Fətəli oğlu Hüseynov 1994-cü il iyun ayının 23-də Cəlilabad rayonunun Bəcirəvan kəndində anadan olmuşdur. Bəcirəvan kənd orta məktəbində təhsil almış, 2012-2013-cü illərdə həqiqi hərbi xidmətdə olmuş, 2015-ci ilin uyul ayının 18-dən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq hərbi xidmətə başlamışdır.

Fərid Hüseynov 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun Seyidmahmudlu, Dədəli, Mirzəcamallı, Aybasanlı, Xocavənd rayonunun Düdükçü, Ağbulaq, Edilli kəndlərinin ərazilərində axtarış, erməni diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması, ayrı-ayrı obyektlərdə gizlənmiş düşmən hərbçilərinin zərərsizləşdirilməsi üzrə fəaliyyət zamanı daim öndə olmuş, heç bir təhlükədən çəkinməmişdir. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, noyabr ayının 7-də şəhid olmuşdur.Noyabr ayının 11-də Bəcrəvan kəndində dəfn olunmuşdur.

Fərid Fətəli oğlu Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda"və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. //Azərbaycan.–2020.– 16 dekabr.– S.7.

İYUN
23

Əfsun Hüseynov - 25

(1999-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.9.

Əfsun Mətləb oğlu Hüseynov 1999-cu il iyun ayının 23-də Sabirabad rayonu-Yaxabeşdəli kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə I Qarabağ Müharibəsi şəhidi Əlif Xanlarov adına tam orta məktəbdə orta təhsil almışdır. Əfsun Hüseynov 2017-ci ildə hərbi xidmətə yollanmış və Xüsusi Təyinatlı Qüvvələrdə xidmətini başa vurmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əfsun Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 21-də Qubadlı rayonunun Balasoltanlı kəndində gedən döyüşlər zamanı şəhid olmuşdur. Şəhid Əfsun Hüseynov noyabr ayının 5-də Sabirabad rayonun Qarağac kəndinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Əfsun Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Cəsur döyüşçü", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

25

Cavid Təhməzov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.11.

Cavid Əvəz oğlu Təhməzov 1994-cü il iyun ayının 25-də Bərdə rayonunun Cicimli kəndində anadan olmuşdur. O. 2001-2012-ci illərdə Yevlax şəhəri, Qənbər Məhərrəmov adına 4 saylı məktəbdə orta təhsil almışdır. Yevlax rayonundan hərbi xidmətə yollanmış, hərbi xidmətini Naxçıvan Muxtar Respublikasında başa vurmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində kəşfiyyatçı kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun baş kəşfiyyatçısı olan Cavid Təhməzov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmişdir. O, noyabr ayının 1-də kəşfiyyat bölüyünün tərkibində Talış kənd istiqamətində 482 yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşdə iştirak etmiş və şəhid olmuşdur.


Cavid Təhməzov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Cəsur döyüşçü", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir

İYUN
28

Urfan Məmmədov - 30

(1994-2020)

Gizir



Urfan Çingiz oğlu Məmmədov 1994-cü il iyun ayının 28-də Quba rayonunun Çartəpə kəndində anadan olmuşdur. Urfan Məmmədov 2000-2009-cu illərdə Quba rayon Çartəpə kənd tam orta məktəbində, 2009-2011-ci illərdə Nəsib Dadaşov adına Quba rayon Aşağı Xuc tam orta məktəbində təhsil almışdır. 2011-ci ildə hərbi xidmətə çağırılmış, Cəlilabad və Lənkəranda yerləşən "N" saylı hərbi hissələrdə xidmət etmişdir. 2017-ci ildə gizir kurslarını bitirərək, Mingəçevir şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmət etməyə başlamışdır.

Urfan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur.Sentyabr ayının 28-də Suqovuşan döyüşləri zamanı Talış istiqamətində şəhid olmuşdur. Quba rayonunun Çartəpə kəndində dəfn olunmuşdur.

Urfan Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. –2021. –25 iyun. –S.82.

Şahin Cəfərli - 30

28

(1994-2020)

Əsgər



Şahin Şamil oğlu Cəfərli 1994–cü il iyun ayının 28–də Oğuz rayonunun Xalxalqışlaq kəndində anadan olmuşdur. 2000-ci ildə bu kənddəki məktəbə getmiş, 2011-ci ildə Qumlaq kənd tam orta məktəbini bitirmişdir.

Şahin Cəfərli 2012-2014-cü illərdə Gəncə şəhərində N saylı hərbi hissədə hərbi xidmətdə olmuşdur. 2016-cı ildə Aprel döyüşlərində sərrast atıcı kimiorduya çağırılmış, verilən tapşırıqların öhdəsindən layiqincə gəlmişdir. 2020-ci ilin sentyabr ayında səfərbərliklə bağlı hərbi təlim toplanışına cəlb edilmiş, Kəlbəcər istiqamətindəki əks-hücum əməliyyatlarında iştirak etmişdir. Murovdağ yüksəklikləri uğrundakı şiddətli döyüşlərdə qəhrəmanlıqla vuruşaraq oktyabr ayının 1-də şəhid olmuşdur. Oktyabr ayının 2-də Xalxalqışlaq kəndində dəfn olunmuşdur.

Şahin Cəfərli ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Cəfərli Şahin Şamil oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.– I cild.– Bakı, 2022.– S.315.

Nurəddin. Sərrast atıcı / Nurəddin // Mədəniyyət.– 2021.– 21 aprel.– S.6.

İYUN

29

Orxan Quluzadə - 30

(1994-2020)

Kiçik gizir



Orxan Elxan oğlu Quluzadə 1994-cü il iyun ayının 29–da Lənkəran şəhərində anadan olmuşdur. 2000–2011–ci illərdə Lənkəran şəhər Vaqif Əliyev adına 4 saylı humanitar təmayüllü məktəb–liseydə təhsil almışdır. 2012–ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Azərbaycan Quru Qoşunlarının Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində yerləşən 4–cü ordu korpusunda müddətli həqiqi hərbi xidmət keçmişdir. 2018–ci ildən Azərbaycan Çevik Hərəkət Qüvvələrinin Yevlax briqadasında kiçik gizir kimi hərbi xidmətə başlamışdır.

Orxan Quluzadə 2020-ci il sentyabr ayının 27–də başlanan Vətən müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Orxan Quluzadə noyabr ayının 8-də Zəngilan döyüşləri zamanı Şüküraz dağı istiqamətində şəhid olmuşdur. Lənkəran şəhərində Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Orxan Quluzadə ölümündən sonra "Zəngilanın azad olunmasına görə", "Vətən uğrunda" medalları və "Qarabağ" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t :

Orucoğlu, Z. Vətən üçün yaşanan ömür yolu / Zəfər Orucoğlu // Paralel.– 2021.– 9 sentyabr.– S.5.


Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz!: [Quluzadə Orxan Elxan oğlu] / Şahanə Müşfiq // 525–ci qəzet.–2021.– 8 yanvar.– S.23.

30

Xəqani Fətiyev - 35

(1989-2020)

MAHHXHQ kiçik çavuş



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı,15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.8.

Xəqani Hüseynəli oğlu Fətiyev 1989-cu il iyun ayının 30-da Cəlilabad rayonunun Adnalı kəndində anadan olmuşdur. 1995-2006-cı illərdə Adnalı kənd orta məktəbində təhsil almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmiş, 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

Kiçik çavuş Xəqani Fətiyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Xəqani Fətiyev sentyabr ayının 27-də Füzuli rayonunun Əbdürrəhmanlı kəndində davam edən gərgin döyüşlərdə yaralı yoldaşını xilas edərkən qəhrəmancasına şəhid olmuşdur.

Xəqani Fətiyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Baxış Əsədov – 25

(1999-2020)

MAHHXHQ əsgər



Baxış Sahib oğlu Əsədov 1999-cu il iyun ayının 30-da Ağdam rayonunun Birinci Yüzbaşılı kəndində anadan olmuşdur. 2005-ildə həmin kənddə məktəbə qəbul olub, 2014-cü ildə IX sinfi bitirmişdir. 2018-2019-cu illərdə Naxçıvan MR-da həqiqi hərbi xidmətdə olmuş, 2020-ci il sentyabr ayının 5-dən müddətdən artıq hərbi qulluqçu kimi Tərtər rayonundakı N saylı hərbi hissədə xidmətə başlamışdır

Baxış Əsədov 2020-ci il sentyabr ayının 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində atıcı olaraq iştirak etmişdir. Suqovuşan, Talış, Ağdərə istiqamətində gedən döyüşlərdə vuruşmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Baxış Əsədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Baxış Əsədov 28 sentyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Ağdam rayonunun İkinci Yüzbaşılı kəndində dəfn edilmişdir.

Baxış Sahib oğlu Əsədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda","Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,15 dekabr 2020-ci il // Azərbaycan.–2020.– 16 dekabr.– S.9.

Əsədov Baxış Sahib oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.–I cild.–Bakı, 2022.–S.586.

İnternetdə

https://az.wikipedia.org/wiki/Bax%C4%B1%C5%9F_%C6%8Fs%C9%99dov

https://memorial.az/az/qehremanlarimiz/3287

Tofiq Mustafazadə – 75

(1949)

Tarixçi



Tofiq Teyyub oğlu Mustafazadə 1949-cu il iyun ayının 1-də Dəvəçi (indiki Şabran) rayonunun Zeyvə kəndində anadan olmuşdur.1966-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olmuş, 1971-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

Tofiq Mustafazadə Sumqayıt şəhərinin və Dəvəçi rayonunun orta məktəblərində tarix müəllimi, 1971-1974-cü illərdə Azərbaycan Elmlər Akademiyası (AMEA) Yaxın və Orta Şərq Xalqları İnstitutunda laborant, ADU–nun Ümumi tarix kafedrasında baş laborant işləmiş, 1974-1977-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun aspiranturasında təhsil almışdır.

1977-ci ilin dekabr ayından "Azərbaycanın Rusiya və Qafqaz xalqları ilə əlaqələri tarixi" ("Azərbaycanın qonşu xalqlarla əlaqələri və xanlıqlar dövrü") şöbəsində çalışmış və 1996-cı ilin noyabr ayından 2011-ci il yanvar ayının sonunadək bu şöbəyə rəhbərlik etmişdir. 130-a qədər elmi əsərin, o cümlədən 9 monoqrafiyanın müəllifidir. 1980-ci ildə namizədlik, 1992-ci ildə isə doktorluq dissertasiyaları müdafiə etmiş, 1999-cu ildə professor elmi adı almışdır.

Tofiq Mustafazadə uzun illər Bakı, Moskva, Sankt-Peterburq, Həştərxan, İstanbul arxivlərində və kitabxanalarında elmi axtarışlar aparmışdır. "XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri", "XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi", "Qarabağ xanlığı", "Азербайджан и русско–турецкие отношения в первой трети XVIII века" və s. sanballı elmi əsərlərin müəllifidir. Tofiq Mustafazadə 20 tarix üzrə fəlsəfə doktoru və 2 tarix elmləri doktoru yetişdirmiş, 20-dən çox dissertasiyaya opponentlik etmiş, 20-dən çox monoqrafiya və kitabın redaktoru olmuşdur. 20 ildən artıq müddətdir ki, AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun müdafiə şurasının üzvü, Müdafiə Şurasının nəzdindəki Elmi Seminarın sədridir.

Tarixçi alim, professor Tofiq Mustafazadə pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakı Dövlət Universiteti və Lənkəran Dövlət Universitetində əvəzçiliklə professor vəzifəsində çalışmışdır.Alimin yazdığı dörd cilddən ibarət "Ümumi tarix" kitabı Təhsil Nazirliyi tərəfindən ali məktəblər üçün dərs vəsaiti kimi təsdiq olunmuşdur. 2008-2012-ci illərdə "Ümumi tarix" kitabını elmin son nailiyyətlərini əks etdirərək iki cilddə yenidən nəşr etdirmişdir.

T.Mustafazadə həm respublikamızda, həm də xaricdə keçirilən beynəlxalq elmi konfranslarda (Moskva, Sankt-Peterburq, Həştərxan, Mahaçqala, Ankara. İstanbul, İzmir, Əskişəhər, Ərzurum, Budapeşt, Daşkənd,Tallin, Təbriz, Bişkek, Kiyev, Qomel, Varşava və b.) iştirak etmişdir. 1993–cü ildən Azərbaycan Tarix Qurumu ictimai birliyinin sədri, 2007-ci ildən "Tarix və Gerçəklik" jurnalının baş redaktorudur.

Tofiq Mustafazadə 2012-ci il 25 may tarixində Azərbaycan Respublikasının Dövlət mükafatına, 2016-cı ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

XVIII əsrin II rübündə Xəzəryanı regionda beynəlxalq münasibətlər və Nadir şah Əfşarın diplomatiyası / Tofiq Mustafazadə; red. C. M. Mustafayev; AMEA, A. A. Bakıxanov ad. Tarix İn-tu, "Azərb. Tarix Qurumu" İctimai Birliyi.– Bakı: [Optimist], 2022.– 311, [1] s.

Qarabağ xanlığı və onun beynəlxalq əlaqələri / Tofiq Mustafazadə; elmi red. K. K. Şükürov; AMEA, A. A. Bakıxanov ad. Tarix İn-tu.– Bakı: [Optimist], 2023.– 207, [1] s.

Məmmədov, N. Daxili mədəniyyətini və ləyaqətini hər məqamda qoruyan müdrik tarixçi /Tofiq Mustafazadə – 70 / Nazim Məmmədov // Kredo.– 2019.– 9 may.– S.3.

İnternetdə

https://az.wikipedia.org/wiki/Tofiq_Mustafazadə

https://science.gov.az/az/forms/doktora-nauk-instituta-istorii/2849

Əli Nuriyev – 85

(1939)

Alim



Əli Xudu oğlu Nuriyev 1939-cu il iyun ayının 26-da Füzuli rayonunda anadan olmuşdur.

1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) İqtisadiyyat fakültəsinə daxil olmuş, 1963-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1964-cü ildə Azərbaycan Dövlət Universitetinin Siyasi iqtisad kafedrasında baş laborant, 1965-ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, 1966-1968-ci illərdə əyani aspirant, 1969-1972-ci illərdə həmin institutda kiçik elmi işçi, böyük elmi işçi, 1972-1979-cu illərdə Naxçıvan Elm mərkəzində İqtisadiyyat şöbəsinin müdiri, 1974-1979-cu illərdə ictimai əsaslarla həm də tarix şöbəsinin müdiri, 1980-1981-ci illərdə ÜİKT Elmi-Tətqiqat İnstitutunun Azərbaycan filialında elmi hissə üzrə direktor müavini, 1982-1989-cu illərdə Sumqayıt Sənaye İnstitutunda dosent, 1989-1991-ci illərdə AMEA-nın İqtisadiyyat İnstitutunda baş elmi işçi, şöbə müdirinin müavini, 1992-2002-ci illərdə şöbə müdiri, 2002-2012-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzinin direktoru vəzifələrində işləmişdir. 2012-ci il iyul ayından həmin Akademiyada Regional iqtisadi və sosial araşdırmalar İnstitutunun direktoru vəzifəsində işləyir.

1969-cu ildə iqtisad elmləri namizədi, 1991-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmiş, 2005-ci ildə Dövlət İdarəetməsi və menecment kafedrası üzrə professor elmi adı almışdır.

260-dan çox əsərin, o cümlədən 10 monoqrafiya, 7 broşurun və metodiki vəsaitin müəllifi, 10 monoqrafik əsərin həmmüəllifi Əli Nuriyev Azərbaycanda regional idarəetmənin nəzəri əsaslarını yaratmışdır. Onun bir neçə dəfə nəşr olunmuş "Regional siyasət və idarəetmənin əsasları" kitabı (Bakı-2004, 2007, 2011) və tədris proqramları 2004-cü ildən başlayaraq respublikanın əksər ali məktəblərində Regional İdarəetmə, Regional siyasət fənnlərinin tədrisində əsas dərslik kimi istifadə olunur. 2003-cü ildə f.e.d. V.Həbiboğlu ilə birlikdə "Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalının nəşrini təşkil etmiş və 2007-ci ilədək bu jurnalda baş redaktorun müavini olmuşdur.

Əli Nuriyev AMEA-nın Naxçıvan Bölməsində və İqtisadiyyat İnstitutunda doktorluq və namizədlik alimlik dərəcəsi verən İxtisaslaşdırılmış dissertasiya şuralarının üzvü, 2002-ci ildən AMEA-nın İqtisadiyyat İnstitutunda Dissertasiya şurası nəzdində elmi seminarın sədridir. Onun rəhbərliyi ilə 22 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmiş, 3 nəfər dissertasiya üzərində işini davam etdirir. 1971-ci ildən bir çox namizədlik və doktorluq dissertasiyalarına rəsmi opponent olmuş, Respublika və Beynəlxalq elmi konfranslarda Azərbaycan İqtisad elmini ləyaqətlə təmsil etmiş, çoxsaylı monoqrafiya və digər əsərlərin redaktoru olmuşdur. "AMEA-nın Xəbərləri (iqtisadiyyat seriyası)", "Kooperasiya", "Təfəkkür", "Azərbaycanın vergi xəbərləri" elmi-nəzəri jurnallarının redaksiya heyyətinin üzvüdür.

Ə.Nuriyevə 2009-cu ildə Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1970-ci ildə Gənc alimlərin elmi əsərlərinin Respublika müsabiqəsinin qalibi olmuş, Respublika Komsomolu MK-sının fəxri fərmanı, 1977-ci ildə SSRİ Elmlər Akademiyasında Sosializm yarışının qalibi Döş nişanı, 2000, 2009 və 2014-cü illərdə AMEA-nın Rəyasət heyətinin fəxri fərmanları, 2014-cü ildə AMEA-nın 70 illik yubiley medalı ilə təltif olunmuşdur. Əli Nuriyev "Ustad", "Qızıl qələm", "Şərəf", "Nüfüzlü ziyalı" ali jurnalistika və media mükafatları laureatıdır.

Ədəbiyyat:

Davamlı və tarazlı regional inkişaf / Ə. X. Nuriyev; elmi red. R. P. Sultanova; Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.– Bakı: [Avropa], 2017.– 240, [2] s.

Qarabağ əvvəlkindən də gözəl, güclü və sevimli bir diyar olacaq /Əli Nuriyev //Xalq qəzeti.–2021.– 22 yanvar.– S.4.

Əli Xudu oğlu Nuriyev: biblioqrafik göstərici: 80 illiyinə həsr olunur / AMEA; Mərkəzi Elmi Kitabxana; tərt. N. Nuriyeva, T. Rüstəmova; red. Ş. Tahirqızı.– Bakı: "Elm", 2020.– 382, [2] s.

İqtisadiyyatın davamlı inkişafının maliyyə–büdcə tənzimlənməsi və stimullaşdırılması problemləri: monoqrafiya /E. Ə. İbrahimov ; elmi red. Ə. X. Nuriyev Bakı: Kooperasiya, 2018.–319 s.

İnternetdə

https://az.wikipedia.org/wiki/Əli_Nuriyev_(iqtisadçı)

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/140

Məmməd Arif – 120

(1904-1975)

Ədəbiyyatşünas



Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 1904-cü il iyun ayının 10-da Bakı şəhərində anadan olmuşdur. 1925-1931-ci illərdə ADU-nun (indiki BDU) Şərqşünaslıq fakültəsini bitirmiş, Moskvada Sovet Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur.

1932-1938-ci illərdə Azərbaycan Maarif Komissarının müavini, eyni zamanda APİ-nin Rus ədəbiyyatı kafedrasının baş müəllimi, dosenti işləmiş, ADU-nun Rus ədəbiyyatı kafedrasının müdiri təyin edilmişdir. Keçmiş SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunda baş elmi işçi, 1957-1959-cu illərdə İnstitutun direktoru vəzifəsində çalışmışdır.

Görkəmli alim 1936-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1941-1945-ci illərdə "Vətən uğrunda" jurnalının redaktoru, Azərbaycan EA Rəyasət Heyəti nəzdində Terminologiya Komitəsinin sədri olmuşduır. O, 1954-cü ildə filologiya elmləri doktoru, professor adı almış, 1955-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1958-ci ildə həqiqi üzvü seçilmişdir.

1959-cu ildə EA-nın ictimai elmlər bölməsinin akademik katibi, 1960-cı ildə vitse-prezidenti olmuş, ömrünün sonuna kimi bu vəzifədə işləmişdir. M. Arif EA-nın "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə elmi şurasının, Moskvada çıxan "Qısa ədəbiyyat ensiklopediyası"nın redaksiya heyətinin üzvü olmuşdur.

Məmməd Arif 1946-cı il İran yazıçılarının I konqresində, 1960-cı ildə şərqşünasların XXI Beynəlxalq konqresində iştirak etmiş, Azərbaycan Ali Sovetinin deputatı və sədri olmuşdur.

M. Arifinin 20-ci illərinin əvvəllərində yazdığı hekayələri müxtəlif qəzet və jurnallarda dərc olunmuşdur. İlk publisist məqaləsi 1923–cü ildə "Xızılı Məhəmməd Bağır" imzası ilə "Kommunist" qəzetində çap olunmuş, "Bədgümanam", "Belə getsə düzələr", "Elan", "Hövsələ", "Mərsiyə xəbərləri" felyetonlarını "Məğmun Xızılı" imzası ilə "Molla Nəsrəddin" jurnalında dərc etdirmiş, 1925–ci ildən isə əsərlərini Məmməd Arif təxəllüsü ilə yazmışdır.

Azərbaycanda dünya ədəbiyyatının fəal təbliğatçısı və tədqiqatçısı olmuş M.Arifin "Vladimir Mayakovski", "Qorki faşizm əleyhinə", "Krılov və Azərbaycan ədəbiyyatı", "Dahi rus şairi A.S.Puşkin", "İqor polku haqqında dastan" (1958), "Anton Pavloviç Çexov" (1960), "M.V. Lomonosov və rus ədəbiyyatı" (1961) və s. tədqiqatları ayrıca kitabça şəklində çap olunmuşdur.

Görkəmli alim 1974-cü ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmiş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Məmməd Arif Dadaşzadə 1975–ci il dekabr ayının 27–də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakıdakı küçələrdən biri, Yazıçılar İttifaqının kitabxanası, Şurabad qəsəbəsində orta məktəb akademik Məmməd Arifin adını daşıyır.

1974-cü ildə 70 illiyinə həsr olunmuş "Sovet ədəbiyyatşünaslığının aktual problemləri" kitabı, 1980-ci ildə M. Cəfərin "Məmməd Arif və onun sovet ədəbiyyatı haqqında nəzəri fikirləri" oçerki, 1986-cı ildə R. Əhmədovun "Məmməd Arif (tənqid və dramaturgiya məsələləri)" kitabı çap olunmuş, 1985-ci ildə H. İsmayılov "Məmməd Arif rus ədəbiyyatının tədqiqatçısı kimi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

2013-cü ildə rejissor S.Sultanovun quruluşunda "Zirvələrdən gələn səs" filmi çəkilmiş, 2014-cü ildə 110 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı sərəncam imzalamışdır.

Ədəbiyyat:

Ədəbiyyatımızın vicdanı. Məmməd Arif Dadaşzadə: məqalələr, xatirələr, məktublar: akademik Məmməd Arif Dadaşzadənin anadan olmasının 110 illiyinə həsr olunur / AMEA; tərt. A.Dadaşzadə; red. Z.Dadaşzadə; ön söz. müəl. İ. Həbibbəyli.– Bakı: Elm, 2015.– 586 s.

Ağayeva, N. Teatrşünaslıqda metod problemi:qavrasyış və anlama $h [məqalədə M. Arif və S. Vurğunun teatrı haqqında məqalə və resenziyaları təhlil edilir] / Nərminə Ağayeva / Mədəniyyət dünyası: Elmi-nəzəri məcmuə // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.– 2019.–№37.–S.51-56.

İnternetdə

https://az.wikipedia.org/wiki/Məmməd_Arif

Seyfulla Əsədullayev – 100

(1924-2011)

Tənqidçi



Seyfulla Qüdrət oğlu Əsədullayev 1924-cü il iyun ayının 19-da Astara rayonunun Ərçivan kəndində anadan olmuşdur.

1942-ci ildə Ərçivan kənd orta məktəbini bitirmiş, Şuvi kənd orta məktəbində müəllim işləmişdir. 1942-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmiş, yaralanaraq ordudan tərxis olunmuşdur. 1945-1947-ci illərdə Astara rayonunda orta məktəb müəllimi, məktəb internatının müdiri işləmişdir. 1947-1949-cu illərdə Bakı Slavyan Uni-versitetində təhsil almış,1951-ci ildə ADPU-nu fərqlənmə diplomu ilə bitirmişdir.1951-1956-cı illərdə Rus dili və ədəbiyyat Dövlət Pedaqoji İnstitutunda laborant,Baş laborant və müəllim vəzifəsində çalışmışdır. 1956-1959-cu illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində Filologiya fakültəsinin Rus sovet ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuşdur. 1959-1966-cı illərdə Azərbaycan Dillər İnstitutunda müəllim, baş müəllim, dosent, dekan müavini, fakültə dekanı vəzifələrində çalışmışdır.

1959-cu ildə namizədlik, 1970-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1971-ci ildə professor elmi adı almışdır. 1967-1984-cü illərdə BDU-da Rus ədəbiyyatı tarixi kafedrasının, 1984-2011-ci illərdə Müasir rus ədəbiyyatı kafedrasının müdiri vəzifəsində işləmişdir.

Azərbaycan Yazıçılar Birliyinin, Beynəlxalq Ədəbi Tənqidçilər İttifaqının üzvü olmuş Seyfulla Əsədullayev Moskva, Praqa, Budapeşt, Sofiya və s. şəhərlərdə 50-dən çox beynəlxalq simpozium, konfrans və konqreslərdə iştirak etmişdir.

Seyfulla Əsədullayev rus ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi və Rus-Azərbaycan ədəbi əlaqələrini tədqiq etmişdir. 20 monoqrafiya, 2 kitab və 500-dən artıq ədəbi-nəzəri və ədəbi-tənqidi məqalənin müəllifidir. 26 elmlər namizədi, 11 elmlər doktorunun rəhbəri olmuşdur.

Seyfulla Əsədullayev Əməkdar elm xadimi adı almış, "Böyük Vətən müharibəsi", "Xalqlar dostluğu", "Şöhrət" ordenlərinə, 12 medal və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin fəxri fərmanlarına layiq görülmüşdür.

Seyfulla Əsədullayev 2011-ci il iyul ayının 28-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t :

Azərbaycan poeziyasında sonet janrı: Tarixi və nəzəriyyəsi / S. Q. Əsədullayev; red. Z. Ağayev; naşir T. Vəlixanlı.– Bakı: Mütərcim, 2002.– 68 s.

Nüsrətbəyli, S. Gecəni çıraq edib...: Şerlər / Simuzər, Nüsrətbəyli; Ön sözün müəllifi: Seyfulla Əsədullayev; Red.: Akif Şahverdiyev; Rəssam: Gündüz Əlizadə.– Bakı: Azərbaycan, 2002.– 176 s.

Professor Seyfulla Əsədullayev. Ömrün və elmin zirvəsində /Nizaməddin Şəmsizadə // Əgər onlar olmasaydı....–Bakı, 2015.–S.177–181.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Seyfulla_%C6%8Fs%C9%99dullayev

https://cenublu.az/tarixi-faktlar-v-s-xsl-r/50-d-n-ox-beyn-lxalq-simpoziumda-i-tirak-ed-n-alim-seyfulla-s-dullayev/

https://m.facebook.com/cenublu.az/posts/160242166344658/

Nazim Axundov – 100

(1924-1994)

Ədəbiyyatşünas



Nazim Fərrux oğlu Axundov 1924-cü il iyun ayının 20-də Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Mirbəşir (indiki Tərtər) rayonunun Qaynaq kəndində almış, 1937-ci ildə Bakı Pedaqoji Məktəbinə daxil olmuş, 1940-cı ildə oranı bitirmişdir.

1940-1944-cü illərdə kənd məktəblərində müəllimlik etməklə yanaşı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) qiyabi şöbəsində təhsilini davam etdirmiş, 1945-ci ildə həmin institutun aspiranturasına daxil olmuşdur. 1948-ci ilin oktyabr ayında Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Elmi Şurasında "Molla Nəsrəddin" jurnalının nəşri tarixinə aid tədqiqlər" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

Nazim Axundov 1948-1950-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1950-ci ilin mart ayından 1952-ci ilə qədər Quba Pedaqoji İnstitutunun, 1953-1956-cı illərdə isə H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnstitutunun direktoru işləmişdir. 1953-cü ildə Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi, 1958-ci ildən isə Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsində çalışmışdır. 1961-ci ilin iyun ayından Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Dövri mətbuat və biblioqrafiya şöbəsinin müdiri işləmiş, 1971-1974-cü illərdə XX əsr Azərbaycan ədəbiyyatı şöbəsində baş elmi işçi, Xankəndi Dövlət Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri vəzifələrində çalışmışdır. N.Axundov 1988–ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun professoru olmuşdur. 1966-cı ildə "Azərbaycan satira jurnalları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Nazim Axundovun 1959-cu ildə çapdan çışmış "Molla Nəsrəddin" jurnalının nəşr tarixinə həsr olunan monoqrafiyası mətbuat tariximizin öyrənilməsində ilk sanballı tədqiqatlardan biri sayılır. "Azərbaycanda dövri mətbuat", "Azərbaycan satira jurnalları", "Azərbaycan mətbuatının ilki ("Əkinçi"–100)", "Azərbaycan dövri mətbuatı (biblioqrafiya)", ""Hümmət" qəzetinin izahlı biblioqrafiyası", "Sənədlərin dili ilə", "Üzeyir Hacıbəyov" və s. kitabları mətbuat tariximizin öyrənilməsində, ətraflı tədqiqində böyük rol oynamışdır.

Respublikanın görkəmli biblioqraflarından biri olmuş N. Axundovun 100-dən artıq elmi-tənqidi və biblioqrafik məqalələri, broşüra və kitabları nəşr olunmuşdur. Onlardan "Molla Nəsrəddin" jurnalının nəşri tarixi (1959), "Azərbaycan satira jurnalları" (1968) adlı monoqrafiyaları, "M.Ə. Sabir" (1959), "Cəfər Cabbarlı" (1964), "Azərbaycan dövri mətbuatı", "Səməd Vurğun", (1965) biblioqrafiyalarını göstərmək olar.

Mətbuat tariximizin yorulmaz tədqiqatçısı, ədəbiyyatşünas alimin S.Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivində mühafizə olunan zəngin şəxsi fondundakı sənədləri arasında mətbuatımızın izahlı biblioqrafiyaları, onlarla görkəmli şəxsiyyətlərimiz barədə elmi məqalələr, Beneqsin (Paris Universitetinin professoru), Q.Xəzai (Berlin), V.Samadov, N.Məsumi (Düşənbə), O.Maltsere, İ.Oratovski, M.Hüseyn, O.Sarıvəlli, M.C.Paşayev, Ə.Şərif, Ə.Cəfərzadə, Ə.Xanbabayev və onlarla məktub da diqqəti cəlb edir. M.İbrahimov, M.Cəlal, Z.Göyüşov, C.Xəndan və b. alimin yaradıcılığına yüksək qiymət verərək N.Axundovu Azərbaycan ədəbiyyatşünaslığının bel sütunlarından biri adlandırmışlar.

Görkəmli ədəbiyyatşünas alim, biblioqraf Nazim Axundov 1994-cü il mart ayının 10-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

"Hümmət" qəzetinin izahlı biblioqrafiyası / AzSSR Mədəniyyət Nazirliyi, M. F. Axundov ad. Azərb. Dövlət Kitabxanası; tərt. ed. N. Axundov; red. T. Əliyev.– Bakı: [s. n.], 1987.– 124, [2] s.

Axundov Nazim Fərrux oğlu //Azərbaycan kitabxana ensiklopediyası.–Bakı, 2015.–S.19–21.

İnternetdə

https://az.wikipedia.org/wiki/Nazim_Axundov

https://www.wikimedia.az-az.nina.az/Nazim_Axundov.html

Ramiz Ağamirzəyev – 100

(1924-1986)

Geoloq

Ramiz Əlisa oğlu Ağamirzəyev 1924-cü il iyun ayının 18-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Böyük Vətən Müharibəsində iştirak etmişdir.Müharibədən qayıtdıqdan sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuş,1950-ci ildə həmin İnstitutun geoloji-kəşfiyyat fakültəsinin dağ mühəndisi-geoloq ixtisası üzrə bitirmişdir. 1950-1956-cı illərdə "Azərdənizneftkəşfiyyat" və "Azərneftgeofizika" trestində, 1962-ci ildən Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda işləmişdir.

1961-ci ildə "Acınohur vilayətinin geoloji quruluşu və neft-qazlılıq pesrspektivliyi" mövzusunda namizədlik dissertasiyası, 1979-cu ildə "Böyük Qafqazın Azərbaycan hissəsinin sersmologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, geologiya-mineralogiya elmləri doktoru elmi adı almışdır.

Alimin elmi tədqiqatları Azərbaycan ərazisinin seysmologiyası, seysmoteklonikası, seysmik və mikroseysmik rayonlaşdırılması problemləri ilə bağlı olmuşdur.Onun işləyib hazırladığı seysmik təhlükə kriteriyaları SSRİ Dövlət Tikintisinin seysmoaktiv regionlar üçüün elmi cəhətcə əsaslandırılmış normativlərinə daxil edilmişdir.O.Böyük Qafqazın AZərbaycan hissəsinin zəlzələ ocaqlarının modelini qurmuş, seysmoaktiv zonaların geoloji–geofiziki parametrlərindən asılı olaraq müxtəlif zəlzələ ocaqlarından ayrılan maksimal ehtimal enerjinin proqnozlaşdırılması üçün kriteriya işləyib hazırlamışdır. Onun elmi tədqiqatlarının nəticələri 132 çap olunmuş elmi əsərdə və müəlliflik şəhadətnamələrində öz əksini tapmışdır.Onun bilavasitə iştirakı ilə respublikanın iri şəhərlərinin seysmomikrorayonlaşdırılması xəritəsi tərtib edilmişdir

Azərbaycan geoloqu və geofiziki Ağamirzəyev Ramiz Əlisa oğlu 1986-cı il iyun ayının 23-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t :

Материалы конференции по изучению сейсмичности и глубинного строения Азербайджана. Баку, март, 1973 г./ ред. кол.: Р. А. Агамирзоев (отв. ред.) и [др]; Конференция по изучению сейсмичности и глубинного строения Азербайджана.–Баку: Элм, 1974.– 242, [1] с.

Сейсмотектоника Азербайджанской части Большого Кавказа: [монография] / Р. А. Агамирзоев; АН АзССР, Ин-т геологии им. И. М. Губкина; [ред. А. А. Ализаде]– Баку: Элм, 1987.– 122, [2] с.

Axundova S. Ağamirzəyev Ramiz Əlisayeviç: geologiya–mineralogiya elmləri doktoru (1924–1986) /Svetlana Axundova //Azərbaycanın geoloq və geofizik alimləri / .Svetlana Axundova.– Bakı, 2004.–S.22.

Azərbaycan Milli Ensiklopediyası.– Cild 1.– Bakı, 2009.–S.164.

İ n t e r n e t d ə

http://ensiklopediya.gov.az/az/terms/5060/cild/13

Əyyub Quliyev – 70

(1954)

Alim



Əyyub Salah oğlu Quliyev 1954–cü il iyun ayının 1–də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olmuşdur.Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tətbiqi riyaziyyat fakültəsinə daxil olmuş, 1975–ci ildə həmin universiteti bitirmişdir. 1982–ci ildə "Böyük planetlərin komet ailələrinin xüsusiyyətləri" mövzusunda fəlsəfə, 1993–cü ildə "Periodik, aralıq və uzunperiodlu kometlərin kosmoqonil xarakteristikaları" mövzusunda doktorluq işini müdafiə etmişdir. 2001–ci ildə AMEA–nın müxbir üzvü seçilmiş, 2012–ci ildə isə professor elmi adı almışdır.

1997–2015–ci illərdə Şamaxı Astrofizika Rəsədxanasının direktoru olmuş, eyni zamanda AMEA–nın Fizika–Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik–katibinin müavini vəzifəsində çalışmışdır. Şamaxı Astrofizika Rəsədxanasının baş elmi işçisi kimi fəaliyyətini davam etdirir.

Günəş sistemi cisimləri üzrə mütəxəssis olan Ə. Quliyevin 1998–ci ildə rəhbərliyi altında ŞAR–ın 2 m–lik teleskopu yenidən işə salınmış, sonralar hə¬min teleskopun idarəetmə sistemi modernləşdirilmiş, rəsədxanada alüminiumləşdirici qurğu fəaliyyətə başlamış, bütövlükdə onun maddi–texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir.Alimin əsas elmi nailiyyətləri komet sistemində effektlərin aşkar olunması, kometlərin parçalanması üzrə yeni nəzəriyyə, o cümlədən hiperbolik komet və meteorların əmələ gəlməsi konsepsiyası və naməlum planetlər konsepsiyasıdır.

Ə.Quliyev 196 elmi məqalənin (xaricdə çıxmış elmi əsərlərinin sayı 106, beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap olunan məqalələrin sayı 78), o cümlədən 3 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi altında 8 fəlsəfə doktoru hazırlanmışdır.

Ensiklopediyanın redaksiya heyətinin üzvü olan Ə. Quliyev Bakı Dövlət Universiteti və Bakı Mühəndislik Universitetində pedoqoji fəaliyyətlə yanaşı, magistr dissertasiyası və diplom işlərinə rəhbərlik edir, Şamaxı Rəsədxanası magistraturasında mühazirələr oxuyur.

Ə.Quliyev Beynəlxalq Astronomiya İttifaqının, Avropa və Avrasiya Astronomiya cəmiyyətlərinin üzvüdür.1999–cu ildə ABŞ–ın Lovell Rəsədxanasının aşkar etdiyi yeni kiçik planet Əyyub Quliyevin şərəfinə adlandırılmış və müvafiq astronomik kataloqlarda həmin kiçik planet "ayyubguliev" adı və 18749 nömrəsi altında qeydiyyatdan keçmişdir. Onun təşəbbüsü və vəsatəti ilə daha üç kiçik planetə Nizami, Tusi və Cavid adı verilmişdir. "Müdriklik çadırı- Ömər Xəyyam" sənədli televiziya filminin çəkilişində Əyub Quliyevin məsləhətlərindən istifadə olunmuşdur.

Alim 2011–ci ildə Beynəlxalq Sokrat mükafatına layiq görülmüşdür.

Ə d ə b i y y a t :

Azərbaycan astronomiyası 20-ci əsrdə / Ə. S. Quluyev; AMEA N. Tusi adına Şamaxı Astrofizika Rəsədxanası.–Bakı: Elm, 2002.–110 s.

Şamaxı Astrofizika Rəsədxanası / Ə.Quliyev // Respublika.– 2014.–17 avqust.– S.3.

Гулиев А. С., Поладова У.D, Р. А. Гулиев Об ударном механизме вспышек блеска комет// Астрономический Вестник.– 2022.– N 4.

İ n t e r n e t d ə


https://az.wikipedia.org/wiki/Əyyub_Quliyev_(astronom)

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/114

Çingiz Qacar - 95

(1929-2021)

Fizik



Çingiz Oveys oğlu Qacar 1929-cu il iyun ayının 6-da Bakı şəhərində anadan olmuşdur. O, 1953-cü ildə Leninqrad (indiki Sankt-Peterburq) Politexnik İnstitutunu texniki-fizika ixtisası üzrə bitirdikdən sonra Azərbaycan EA-nın Fizika-Riyaziyyat İnstitutunda əmək fəaliyyətinə başlamışdır. Tanınmış alim, akademik Lətif İmanovun rəhbərlik etdiyi Radiofizika laboratoriyasında molekulyar spektroskopiya sahəsində orijinal elmi-tədqiqat işləri aparmış, mikrodalğalar diapazonunda biratomlu spirt molekulları və onların törəmələrinin fırlanma və rəqsi-fırlanma spektrlərinin ilk tədqiqatçısı olmuşdur.

Elmi fəaliyyətini 1973-cü ildən Fotoelektronika İnstitutunda davam etdirmiş, burada institutun əsas elmi istiqamətlərindən biri olan Tətbiqi spektroskopiya şöbəsini yaratmış, onun rəhbərliyi altında şöbənin kollektivi bir sıra maraqlı nəticələr əldə etmiş, nadir qeyri-standart elmi cihazların işlənib hazırlanması, quraşdırılması və zavod şəraitində kiçik seriyada istehsalı ilə məşğul olmuşdur. Ç.Qacar infraqırmızı diapazonda optik rabitə sahəsində də mühüm nailiyyətlər əldə etmişdir. Fizika İnstitutunda başladığı mikrodalğalı spektroskopiya sahəsində tədqiqatlarını Fotoelektronika İnstitutunda uğurla davam etdirmişdir. 52 müəlliflik şəhadətnaməsi və patentlərin, 250-dən çox elmi əsərin müəllifidir.

1980-ci ildə AMEA-nın müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir. Ç.Qacarın işlərinin əsas fərqləndirici cəhəti onların yüksək nəzəri təməl üzərində qurulması, təcrübələrin aparılmasında müasir metodlardan, kompyuter texnikasından istifadə olunması idi. Onun rəhbərliyi altında yaradılmış yeni fiziki metodlar, qurğu və cihazlar ölkəmizdə, həmçinin keçmiş İttifaqda, Türkiyədə, İran İslam Respublikasında tətbiq olunmuşdur.

Ç.Qacar ölkəmizdə yüksəkixtisaslı elmi kadrların hazırlanmasında da böyük xidmətlər göstərmişdir. O, nüfuzlu spektroskopçular məktəbi yaratmış, yüksəkixtisaslı fiziklər yetişdirmişdir. 24 fəlsəfə doktoru, 6 elmlər doktorunun rəhbəri olmuşdur. Alimin yaradıcılıq dairəsi əhatəli və rəngarəngdir. Çingiz Qacar həm də Azərbaycan mədəniyyəti, incəsənəti və tarixinə dair əsərlərin müəllifi kimi tanınırdı. Onun qələmindən çıxmış "Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri", "Qacarlar", "Köhnə Bakı", "Köhnə Şuşa", "Tiflis Vorontsova 53, 55" kimi əsərləri, dərslik və lüğətləri ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Ç.O.Qacar 2009-2012-ci illərdə AMEA Fizika İnstitutunun direktoru vəzifəsində çalışmışdır. AMEA Fizika İnstitutunda Molekulyar spektroskopiya laboratoriyasının rəhbəri olmuşdur. O, "Azərbaycan-irs" jurnalının redaktorlarından idi.

Çingiz Qacar 1982-ci ildə cihazqayırma sahəsində S.İ.Vavilov adına mükafata layiq görülmüşdür. 1990-cı ildə Əməkdar elm xadimi fəxri adını almış, 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmiş və 2014-cü ildə Nəsrəddin Tusi adına mükafata layiq görülmüşdür.

Çingiz Qacar 2021-ci il iyun ayının 12-də vəfat etmişdir. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t :

Azərbaycan qədim və orta əsrlərdə: görkəmli şəxsiyyətlər / Ç.Qacar; tərt. ed. N.Quliyev, N.Qaramanlı; üz qabığın rəssamı E.Şahtaxtinskaya.- Bakı: Oka Ofset, 2012.- 448 s.

Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri / Ç.Qacar.- Bakı: [Nicat], 1997.- 304 s.

Köhnə Şuşa /Çingiz Qacar; rus dilindən tərc. ed. və məsul red. V. Quliyev; dizayner L. Qarayeva. - [Bakı]: [Radius], - [2023].- 341 s.

Şahtaxtı /Seyid Zamin ; baş məsl. Ç. O. Qacar; elmi red. Q. H. Qədimov; [ön söz A.Kəngərli; dizayn. A. Əkpərli]. - Bakı: [Gənclik], - 2020.- 511 s.

Mizandarlıq: fizika ölçülərlə başlanır / Ç.Qacar.- Bakı: Şərq-Qərb, 2010.- 136 s.

Qacarların nəslini təmsil edən görkəmli alim // Azadlıq.- 2013.- 24 avqust.- S. 14.

Старая Шуша / Ч.Каджар; ред.: Ф.Мамедова, В.Кулиев; [Фонд Друзей Культуры Азербайджана].-Баку: [Şərq-Qərb], [2014].-344

Tamella Kazımova – 85

(1939)

Alim



Tamilla Həsən qızı Kazımova 1939-cu il iyun ayının 16-da Kürdəmir rayonunda qulluqçu ailəsində anadan olmuşdur. 1946-cı ildə Kürdəmir rayon orta məktəbinin birinci sinfinə daxil olmuş, sonra 3 saylı Naxçıvan şəhər məktəbində oxumuş və 1956-cı ildə Bakı şəhərində orta təhsilini başa vurmuşdur. Həmin ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsinə qəbul olunmuş, 1961-ci ildə isə oranı bitirmişdir. Təyinat ilə Azərbaycan Elmlər Akademiyası Neft-Kimya Prosesləri İnstitutuna göndərilmişdir. Əmək fəaliyyətinə akademik Y.Məmmədəliyevin laboratoriyasında başlamış, onun rəhbərliyi altında diplom işini yerinə yetirmişdir.

1962-1965-ci illərdə NKPİ-nin aspirantı olmuş, 1967-ci ildə "Heksaxlortsiklopentadienin sis-D-tsikloheksen-1,2-dikarbon turşularının anhidridləri ilə dien kondensləşməsi törəmələri və alınmış birləşmələrin çevrilmələri sahəsində tədqiqatlar" mövzusunda namizədlik, 1992-ci ildə isə "Alli-və proparqil efirlərinin polihalogentsiklopentadienlərlə tsiklobirləşmə reaksiyaları" mövzusunda "Üzvi kimya" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.

Tamilla Kazımova Dils-Alder reaksiyaları ilə polihalogentsiklodienlər əsasında geniş spektrdə tərkibində polihalogensaxlayan yeni norbornen birləşmələri sintez etmiş və onların tətbiq sahələrini aşkar etmişdir. Apardığı tədqiqatlardan məlum olmuşdur ki, həmin maddələr polimer materiallarında antipiren, rezinin vulkanlaşdırılmasında ləngidici, hermetikləşdirici, yapışqan kompozisiyasında antipiren, sürtkü yağlarında yeyilmə aşqarı, bakterisid və digər xassələr daşıyırlar.

Tamilla Kazımovanın apardığı tədqiqatların nəticələri 88 elmi əsərdə, o cümlədən 8 müəlliflik şəhadətnaməsində öz əksini tapmışdır.

Ə d ə b i y y a t :

T.H.Kazımova //Azərbaycan kimyaçıları /Abel Məhərrəmov, Mirzə Allahverdiyev, Rəfiqə Əliyeva (Akademik Yusif Məmmədəliyevin əziz xatirəsinə ithaf olunur).– Bakı, 1998.– S.337-338.

Kazımova Tamella Həsən qızı/ Abel Məhərrəmov //Azərbaycan kimyaçıları.– Əlavə və dəyişikliklər edilmiş II nəşri /Abel Məhərrəmov.– Bakı, 2017.– S.326.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Tamilla_Kazımova

Nurəddin Rzayev – 95

(1929-2011)

Fizik



Nurəddin Məmmədbağır oğlu Rzayev 1929-cu il iyun ayının 26-da Gədəbəy rayonunda anadan olmuşdur. 1945-ci ildə orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna (indiki ATU) daxil olmuş, 1950-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. 1950-1953-cü illərdə Türkmənistanda işləmiş,1958-ci ildə "Mezatonun cərrahiyyədə tətbiqi" mövzusunda namizədlik, 1965-ci ildə "Ağ ciyər arteriyalarının emboliya və trombozları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, professor elmi adını almışdır.

1961-ci ildən Azərbaycan Elmlər Akademiyasının Elmi Tədqiqat Kliniki və Eksperimental Cərrahlıq İnstitutunun elmi katibi, sonra elmi işlər üzrə direktor müavini, 1963-cü ildə direktor əvəzi və 1964-cü ildən 1994-cü ilədək institutun direktoru vəzifəsində işləmişdir.

1994-cü ildə Xəzər Universitetində Cərrahiyyə departamentinin müdiri, 1995-ci ildə universitetin prorektoru, 1996-cı ildə Azərbaycan Universitetində "Şərq-Qərb" elmi mərkəzinin professoru, 1999-cu ildən Ali Diplomatiya Kollecində "Türkoloji araşdırmalar mərkəzi"nin rəhbəri olmuşdur.

1996-cı ildən Azərbaycan Tibb Universitetində professor-konsultant kimi çalışmışdır.

Professor N.M.Rzayev 5 elmi ixtiranın, 300-dək elmi məqalənin müəllifi, 5 elmlər doktorunun və 31 elmlər namizədinin elmi rəhbəri olmuşdur.

1966-cı ildə professor N.M.Rzayevin təşəbbüsü ilə "Qanın laxtalanma sistemi məsələləri" üzrə II Ümumittifaq konfrans keçirilmiş, 1964-1990-cı illərdə Ümumittifaq Cərrahlar Cəmiyyətinin rəyasət heyətinin, Damar Cərrahlığı Üzrə İttifaq Problem Komissiyasının üzvü kimi Rusiya, Ukrayna, Belorus, Özbəkistan, Latviya, Moldova, Ermənistan, Gürcüstan, ABŞ, Türkiyə, İngiltərə, İran, Polşa, Avstriyada keçirilmiş müxtəlif konfrans və simpoziumlarda istər SSRİ-ni, istərsə də onun tərkibindəki Azərbaycanı yüksək səviyyədə təmsil etmişdir.

1966-cı ildən Azərbaycan SSR Səhiyyə Nazirliyinin elmi şura üzvü, 1973-1983-cü illərdə Azərbaycan Cərrahlar Cəmiyyətinin sədri olmuşdur. 1983-cü ildən Beynəlxalq Cərrahlar Cəmiyyətinin, 1993-cü ildən Avropa Təxirəsalınmaz Cərrahlıq və Travma Cəmiyyətinin, 1994-cü ildən Nyu York Elmlər Akademiyasının üzvü olmuşdur.

Tanınmış alim N. Rzayev 1982-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Nurəddin Rzayev 2011-ci il oktyabr ayının 17-də vəfat etmişdir.

Ə d ə b i y y a t :

Ümumi cərrahlıq: dərslik /Ş. Cəfərov; elmi red. N. Rzayev, M. Süleymanoğlu.– Bakı: Azərbaycan, 2006.–550 s.

Doktor Nurəddin Rzayev: Görkəmli şəxsiyyətlərimiz //Ədalət.– 2019.– 17 sentyabr.– S.4.

Telmanqızı, N. Azərbaycanın ən görkəmli triosu: [Nurəddin Rzayev, Xudu Məmmədov və Bəxtiyar Vahabzadə haqqında] / Nurlana Telmanqızı // Ədalət.– 2020.- 2 iyul.- S.7.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Nur%C9%99ddin_Rzayev

https://www.adalet.az/az/posts/detail/doktor-nureddin-rzayev-174512

Sumqayıt şəhər MKS – 50
(1974)



Sumqayıtda kitabxana işinin tarixi şəhərin yaranma tarixi ilə üst–üstə düşür. 1949–cu ildə ilk kütləvi kitabxana, 1953–cü ildə uşaq kitabxanası, 1958–ci ildə isə Mərkəzi şəhər kitabxanası açılmışdır. 1974–cü ildən etibarən Sumqayıtda dövlət kütləvi kitabxanalarını özündə birləşdirən Mərkəzləşdirilmiş Kitabxana Sistemi fəaliyyət göstərir. Hazırda Sumqayıt şəhər MKS özündə S. Vurğun adına Mərkəzi Kitabxana və 10 kitabxananı birləşdirir. Əhalini fəal mütaliəyə cəlb etmək, siyasi, iqtisadi, hərbi durumumuzu, tariximizi, mədəniyyət və incəsənətimizi geniş oxucu kütlələri arasında təbliğ etmək məqsədilə MKS–də vaxtaşırı olaraq bir–birindən maraqlı tədbirlər keçirilir.

Sistem kitabxanaları daha geniş oxucu kütlələrini kitabxanalara cəlb etmək məqsədilə öz işini Sumqayıt Dövlət Universiteti, Sumqayıt Texniki Kolleci, Ağsaqqallar və Veteranlar şurası, Gənclər və İdman Baş İdarəsi, Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt Bölməsi, Sumqayıt Təhsil şöbəsi, Əli Kərim adına Poeziya klubu, Sumqayıt şəhər Mədəniyyət evi, Uşaq və Yeniyetmələrin Yaradıcılıq Mərkəzi, H. Ərəblinski adına Sumqayıt Musiqili Dövlət Dram Teatrı və digər mədəni–maarif müəssisələri, həmçinin Gözdən Əlillər Cəmiyyətinin Sumqayıt şəhər şöbəsi, Qanunun Aliliyi Hüquq Resurs Mərkəzi, Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyi və digər Qeyri Hökumət Təşkilatları ilə əlaqəli həyata keçirir.

Şəhər əhalisi və oxucular arasında apardığı təbliğatçılıq fəaliyyətinə görə respublika kitabxanaları arasında Sumqayıt şəhər MKS–in adı həmişə birincilər sırasında çəkilmişdir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən, Azərbaycan Respublikası Prezidentinin 2008–ci il 6 oktyabr tarixli "Azərbaycan Respublikasında kitabxana–informasiya sahəsinin 2008–2013–cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın Tədbirlər Planında nəzərdə tutulan "İlin ən yaxşı kitabxanası" nominasiyası üzrə müsabiqədə Sumqayıt şəhər MKS də iştirak etmiş və "İlin nümunəvi Mərkəzləşdirilmiş Kitabxana Sistemi" nominasiyasında respublika kitabxanaları arasında 2010–cu ilin qalibi olmuşdur.

2013–cü ildə Sumqayıt Mərkəzləşdirilmiş Kitabxana Sistemi öz resurslarını istifadə üçün Milli Kitabxana–İnformasiya Mərkəzinin (AzLİBNET) məlumat bazasına yerləşdirmək hüququ almış, 2015–ci ildən Vahid Mərkəzləşdirilmiş Kitabxana portalına qoşulmuşdur. (sumgait.cls.az)

Kitabxananın kollektivi müasir texnoloji vasitələrdən istifadə edərək oxucu sorğularını tez və dolğun ödəməyə çalışır. Sumqayıt şəhər MKS–in filiallarında da kompüterləşdirilmiş infrastruktur qurulmuş, kitabxanaların kompyuterlə, internetlə, WI–FI ilə təmin olunması həyata keçirilir.

S. Vurğun adına Mərkəzi kitabxanada Söz bayramı ilə əlaqədar şair Əşrəf Veysəlli, AYB Sumqayıt bölməsinin sədri, şairə Gülnarə Cəmaləddin ilə görüş, Hüseyn İbrahimovun anadan olmasının 100 illiyi ilə əlaqədar informasiya saatı, şərqşünas alım, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın 80 illiyi münasibətilə tədbir keçirmiş, 2020–ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə əlaqədar "Könüllülər ili 2020" və s. metodik vəsaitlər hazırlanmışdır.

Ədəbiyyat:

Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi //Azərbaycan Kitabxana ensiklopediyası.–Bakı, 2015.–S.566.

Həsənova, V.V. Respublika şəhər MKS-nin kadr resursları (Gəncə, Mingəçevir, Sumqayıt şəhər MKS-nin müqayisəli statistik analizi) / V. Həsənova // Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri.–2016.– № 8.– S.67–76.

İnternetdə:

http://www.sumlib.az/MKS.aspx

https://az-az.facebook.com/sumqayit.kitabxana/

Uşaqların Beynəlxalq Müdafiə Günü

(1950)



Uşaqların Beynəlxalq Müdafiəsi Günü 1950–ci il iyun ayının 1–dən etibarən BMT Baş Assambleyasının qərarı ilə qeyd olunmağa başlanmışdır. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənmiş və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilmişdir. Bundan sonra iyun ayının 1–i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşmüşdür.

BMT–də qəbul olunmuş Uşaq hüquqları Konvensiyasına əsasən dünyanın hər bir yerində yaşayan uşaqların hüquqları təmin edilməlidir.

Bu bayramla yanaşı BMT–nin Baş Assambleyası tərəfindən 20 noyabr tarixində Ümumdünya Uşaqlar Günü də qeyd olunur. "Ümumdünya Uşaqlar Günü" 1954–cü ildə BMT–nin Baş Assambleyasının 836 (IX) saylı qətnaməsində 1956–cı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə olunan bayram kimi qeyd olunmuşdur.

BMT tərəfindən 1959-cu il noyabr ayının 20–də "Uşaq Hüquqları Bəyənnaməsi", 1989–cu ildə isə "Uşaq Hüquqları Konvensiyası" qəbul edilmişdir.1989-cu ildən BMT–yə və ya Cenevrə Konvensiyasına üzv olan ölkələr tərəfindən ratifikasiya edilmiş UHK demək olar ki, bütün dünyada qəbul edilmişdir.

Tarixdə ilk dəfə Uşaqların hüquqlarını təmin edən bəyənnamə 1924–cü ildə qəbul edilmişdir. Bu bəyənnamənin qəbul edilməsində Eqlantayn Cebin (Eglantyne Djebb) gördüyü işlər böyük rol oynamışdır. E. Ceb bacısı Doroti Bakstonun köməyi ilə 1919–cu ildə uşaqların müdafiəsini təmin etmək məqsədilə Londonda "uşaqlara yardım fondu"nun əsasını qoymuşdur.

Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir. 1998–ci il avqust ayının 24–də "Uşaq hüquqları haqqında" qanun qəbul edilmiş, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası təsdiq edilmiş, 2002–ci ildə Azərbaycan Konvensiyanın iki əlavə protokoluna qoşulmuşdur. "Azərbaycan Respublikasında dövlət–uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı (2006–2015–ci illər)" ölkəmizdə uşaqlara dövlət səviyyəsində göstərilən diqqətin bir nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə 22 dekabr 2008–ci il tarixli Sərəncam imzalamışdır. Sərəncama görə 2009–cu il "Uşaq ili" elan olunmuşdur.

Ə d ə b i y y a t :

Qurbanqızı, Z. Uşaqlar gülərsə, dünya gülər... / Zümrüd Qurbanqızı // Respublika.–2023.– 1 iyun.– S.13.

Bayramova, Z. 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür / Zümrüd Bayramova // Səs.– 2023.– 1 iyun.– S.9.

Uşaqların dünyası, dünyamızın uşaqları // Xalq qəzeti.– 2023.– 1 iyun.– S.17.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Uşaqların_Beynəlxalq_Müdafiəsi_Günü

https://portal.azertag.az/az/node/16884

Azərbaycanda Kitabxana işinin inkişafı Assosiasiyası – 25

(1999)



Azərbaycan Kitabxana İşinin İnkişafi Assosiasiyası (AKİİA) 1999-cu ildə təsis edilmişdir. Assosiasiya respublikamızda kitabxana ictimaiyyətini birləşdirən ikinci qeyri-hökumət təşkilatıdır. 1999-cu il uyun ayının 2-də Ədliyyə Nazirliyində qeydə alınmış assosiasiyanın idarə heyətinin ilk iclasında professor X.İsmayılov AKİİA-nın ilk prezidenti seçilmişdir. Respublikamızın kitabxana informasiya təminatı sahəsində fəaliyyət göstərən mütəxəssislərini və təşkilatlarını öz sıralarında birləşdirən AKİİA qısa müddətdə tanınmış ictimai quruma çevrilmişdir. Azərbaycan Kitabxana İşinin İnkişafi Assosiasiyası (AKİİA) sıralarında respublikanın nüfuzlu 12 kollektivi və 500-dən çox fərdi üzvü vardır.

AKİİA öz qarşısına ölkəmizdə kitabxana işinin mövcud vəziyyətini təhlil edərək, onun perespektiv inkişafı barədə tövsiyələr hazırlamaq, həm yerli mütəxəssislərin bilik və bacarığını, həm də digər ölkələrin qabaqcıl təcrübəsini öyrənməklə kitabxana işi sahəsində əhəmiyyətli texniki və texnoloji irəliləyişə, bu sahədə demokratik islahatların aparılmasına, kitabxanaçı-biblioqraf peşəsinin nüfuzunu yüksəltmək, kadr ehtiyatlarından səmərəli istifadə etmək, istehsalatda çalışan mütəxəsislərin fasiləsiz təhsilini təşkil etmək və s. bu kimi vəzifələr qoymuşdur.

İFLA 2000-ci ildə AKİİA-nı öz sıralarına qəbul etmiş və ona öz şurasında səsvermə hüququ vermişdir.

Mövcud olduğu müddət ərzində Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası dəfələrlə bir çox beynəlxalq və regional konfranslara dəvət alaraq – 2001-ci ildə İFLA-nın Boston (ABŞ) şəhərində keçirilmiş 67-ci Şura və Konfransında, Amerika Kitabxanaçılar Assosiasiyasının (ALA) 2002-ci il konfransında, 2006-cı ildə İFLA-nın Seul şəhərində keçirilmiş 72-ci Şura və Konfransında və s. rəsmi nümayəndə heyəti ilə iştirak etmişdir. Dünyanın bir çox ölkələrinin kitabxanaçılıq və informasiya assosiasiyaları, cəmiyyətləri və digər qurumları Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası ilə əməkdaşlıq edir, bu təşkilatı tanıyırlar.

Ə d ə b i y y a t :

Baxşəliyev, Z. Azərbaycan kitabxana işinin inkişafı assosiasiyası beynəlxalq təşkilatın-İFLA-nın üzvüdür /Zöhrab Baxşəliyev // Kitabxanaşünaslıq və biblioqrafiya.–2000.–№ 2.– S.122–126.

Azərbaycan Kitabxana İşinin İnkişafi Assosiasiyası // Azərbaycan Kitabxana Ensiklopediyası.–Bakı, 2015.–S.103–104..

İ n t e r n e t d ə :

https://www.facebook.com/ Azərbaycanda Kitabxana işinin inkişafı Assosiasiyası

Milli Qurtuluş Günü
(1993)



Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri 15 İyun – Milli Qurtuluş Günüdür.

1993-cü ilin yayında ölkəmizdə yaranan böhran olduqca pisləşmiş, siyasi və hərbi şərait daha da ağırlaşmış, hakimiyyət strukturlarına, o cümlədən silahlı birləşmələrə nəzarət tamamilə itmiş, Gəncədə, Qusarda, Lənkəranda və digər regionlarda silahlı birliklər separatçı iddialarla çıxış etmiş, mərkəzi hakimiyyətə tabe olmadıqlarını açıq şəkildə bildirməyə başlamışdılar. İyun ayının 4-də Gəncədə S.Hüseynovun başçılıq etdiyi hərbi hissə ilə hökumət qüvvələri arasında silahlı toqquşma olmuş. 35 nəfər həyatını itirmişdir.

Heydər Əliyev 1993-cü ilin böhranlı iyun günlərində Naxçıvandan Bakıya gələrək böyük səy, əzm və müdriklik nümayiş etdirərək ölkədə vətəndaş müharibəsinin, qardaş qırğınının qarşısını almış, Azərbaycanı məhv olmaqdan xilas etmişdir. İyun ayının 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş, iyunun 24-dən həm də Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Milli Məclis 1997-ci ilin iyun ayında bu günü dövlət bayramı elan etmişdir.

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas olmuş, inkişafın sarsılmaz təməlləri qoyulmuşdur. Azərbaycana rəhbərlik etdiyi dövrdə onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Bütün həyatını xalqına, Vətəninə həsr etmiş Heydər Əliyevin adı tariximizə həm də müstəqilliyimizin memarı, yeni Azərbaycanın banisi kimi yazılmışdır. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində Ulu Öndər zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdir.

Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək olmuş, məcburi köçkünlər qarşısında çıxışlarının birində Qarabağın mütləq azad olunacağını demişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində qəhrəman əsgərlərimizin torpaqlarımızı işğaldan azad etməsi və zəfər qazanması Heydər Əliyevin Azərbaycana gətirdiyi qurtuluşun davamıdır. İndi Heydər Əliyevin arzuları reallaşmış, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirmişdir.Bu gün Qarabağın hər yerində üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Bu gün Azərbaycan xalqı Qurtuluş Gününü fərqli əhval-ruhiyyə ilə qeyd edir. Azərbaycanı xilas edərək inkişaf, tərəqqi yoluna çıxaran Ümummilli liderin davamçısı olan Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan dünyada nüfuzlu dövlətlərdən birinə çevrilmişdir. Ölkəmiz həm iqtisadi, həm siyasi, həm mədəni, həm hərbi, həm elmi cəhətdən güclü inkişaf edir.

Ədəbiyyat:

Qurbanov, S. Milli həmrəylikdən milli qurtuluşa: Azərbaycanın Qurtuluş salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə / Sadiq Qurbanov // Azərbaycan.– 2023.– 15 iyun.–S.11.

Əsədov, K. Azərbaycanın Milli Qurtuluş Günü / Kamran Əsədov // Respublika.–2023.– 14 iyun.– S.7.

Abdalov, N. Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilası tarixidir / Nurlan Abdalov // Respublika.–2023.–15 iyun.–S.7.

İnternetdə

https://az.wikipedia.org/wiki/Milli_Qurtuluş_Günü

ttps://idp.gov.az/az/news/1044

Azərbaycanda İnsan Hüquqları Günü (2007)



Prezident İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamına əsasən 18 iyun Azərbaycan Respublikasında İnsan hüquqları günüdür. Azərbaycan dünyada öz Milli İnsan Hüquqları Gününü qeyd edən yeganə ölkədir.

12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının ikinci bölməsi bütünlüklə Azərbaycan Respublikasında əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur.

1998-ci il fevral ayının 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalanmış,1998-ci il iyun ayının 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir.

2001-ci il dekabr ayının 28-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında", 2002-ci il dekabr ayının 24-də "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin təmin edilməsi haqqında" Konstitusiya Qanununu qəbul edilmişdir. 2002–ci il mart ayının 5-də "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" fərman imzalanmışdır. Prezident İlham Əliyev 2006-cı il dekabr ayının 28-də "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncam imzalamış, 2011-ci il dekabr ayının 27-də "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunmuşdur. 2012-ci ilin dekabr ayında təsdiq olunmuş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da insan hüquqlarının səmərəli qorunması üçün yeni imkanlar açmışdır. 2016-cı il sentyabr ayının 26-da keçirilmiş ümumxalq səsverməsi nəticəsində insan ləyaqətinin qorunması və ona hörmət edilməsi konstitusional qaydada bəyan olunmuş, 2017-ci il 10 fevral tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncam ölkəmizdə insan hüquqlarının təmin olunması işinə mühüm təkan vermişdir.

Azərbaycanda qadınların hüquqlarının müdafiəsi istiqamətində intensiv işlər görülməklə yanaşı, uşaq hüquqlarının tam həcmdə təmin edilməsi, uşaq problemlərinin ardıcıl həlli bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqust ayında "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" Memorandum imzalanmış, Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur. Respublikamız insan hüquqlarının qorunması sahəsində mühüm beynəlxalq sənədlərə qoşulmuşdur.

Ölkəmizdə insan hüquqları istiqamətində görülən işlər,atılan uğurlu addımlar, insanhüquqlarının aliliyinin təmini, pozulmasının qarşısının alınması məqsədilə aparılanislahatlar Prezident İlhamƏliyevin siyasi iradəsini əks etdirməklə həm Azərbaycan xalqı, həm xarici dövlətlər, həm də beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Ədəbiyyat:

Əliyeva, S. İnsan hüquqlarının müdafiəsi milli və ümumbəşəri dəyər kimi: 18 İyun Azərbaycanda İnsan Hüquqları Günüdür /Səbinə Əliyeva.–2021.– 18 iyun.– S.7.

18 iyun Azərbaycanda İnsan Hüquqları Günüdür / N. Ələddinqızı // Səs.–2022.– 18 iyun.– S.7.

Əliyev, Z. Ulu Öndər Heydər Əliyev və Azərbaycanda insan hüquqları elminin inkişafı: 18 İYUN İnsan Hüquqları Günüdür / Zaur Əliyev // Respublika.– 2023.– 15 iyun.– S.12.

İnternetdə

https://portal.azertag.az/az/node/Azərbaycanda İnsan Hüquqları Günü

https://copat.gov.az/az/news/18-iyun-milli-insan-huquqlari-gunu

Silahlı Qüvvələr Günü

(1998)



26 iyun tariximizin əlamətdar səhifələrindən biri – Azərbaycan Milli Ordusunun yarandığı gündür. İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992–ci il 18 sentyabr tarixli Fərmanı ilə təsis edilmiş və 1991–ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix – 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 22 may 1998–ci il tarixli Fərmanına əsasən 1918–ci il ilk milli diviziyanın və Hərbi Nazirliyin yarandığı gün –26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü kimi elan edilmişdir. Bu tarix hər il rəsmi dövlət bayramı kimi qeyd edilir.

Milli Ordunun yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünütəsdiq tarixinin ən önəmli mərhələlərindən biri olmuşdur. General Səməd bəy Mehmandarov dekabr ayının 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edilmiş, Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etmişdir.1919–cu il milli ordu quruculuğunda həlledici mərhələ olmuş, proses 1920–ci il yanvar ayında əsasən başa çatdırılmış, 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət olmuşdur.

1920–ci ilin aprel ayında XI Qızıl Ordu Bakıda milli hökuməti devirmiş, 21 generaldan 15–i bolşeviklər tərəfindən güllələnmiş, komandirlərin böyük hissəsi repressiyaya məruz qalmışdır.

Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyun ayının 20-də C. Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb təşkil etmiş, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail olmuşdur.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci ildə silahlı qüvvələrin yaradılması haqqında qanun qəbul edilmiş, tədricən ordu quruculuğu formalaşmış,1993-cü ildən etibarən ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçmişdir.

20 avqust 2001-ci il tarixli fərman ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır.

Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Bu ordu işğal olunmuş əraziləri düşməndən azad etmiş, ölkənin ərazi bütövlüyünü təmin etmişdir.

Ədəbiyyat:

Ağaşahqızı, Y. Heydər Əliyevin qətiyyəti, cəsarəti və siyasi iradəsi ilə qurulan ordu / Yaqut Ağaşahqızı // İki sahil.–2023.– 26 iyun.– S.4.

Bədirxanlı, İ. Ordu Xalqa, Xalq Orduya dayaqdır / İmran Bədirxanlı // Xalq qəzeti.– 2023.–26 iyun.– S.3.

Əliyev, M. Azərbaycan Ordusu öz qüdrətini bütün dünyaya nümayiş etdirdi" $h [Mətn] $c Məhərrəm Əliyev // Səs.– 2023.–26 iyun.– S.4.

İnternetdə^

https://az.wikipedia.org/wiki/Azərbaycan_Respublikası_Silahlı_Qüvvələri_günü

https://azerbaijan.az/related-information/69

http://qaradagh-ih.gov.az/az/news/1487.html

Azərbaycan Bəstəkarlar İttifaqı - 90

(1934)



1933–cü ilin iyun ayında Bəstəkarlar İttifaqının 15 nəfərdən ibarət Təşkilat Bürosu yaradılmış, rəhbərlik milliyyətcə rus olan Sergey Paniyevə həvalə olunmuşdur. İyun ayınun 30–da 17 nəfərin iştirakı ilə ümumi yığıncaq keçirilmişdir.Təşkilatın sədri vəzifəsinə krım tatarı olan Asan Mahmudoviç Refatov seçilmiş, 6 nəfərdən ibarət İdarə Heyəti –A. Refatov, G. Burşteyn, V. Çebanenko, A. Mailov, N. Karnitskaya ilə yanaşı Əfrasiyab Bədəlbəyli seçilmiş, Təftiş komissiyasına sədr vəzifəsi Niyaziyə həvalə olunmuşdur. Beləliklə 30 iyun 1934–cü il Bəstəkarlar İttifaqının yaranma günü kimi tarixə düşmüşdür.

İlk iclaslarda Ü. Hacıbəyli və M. Maqomayev iştirak etməsə də, tezliklə Ü. Hacıbəyli, bir il sonra isə M.Maqomayev İttifaqın işinə cəlb olunmuş, 1934–cü il dekabr ayının 12–də çağırılmış yığıncaqda yaradılmış "tənqid və musiqişünaslıq bölməsi"nə Ü.Hacıbəyli rəhbərlik etmişdir.

1935–ci il iyun ayının 23–də keçirilmiş ümumi yığıncağın qərarı ilə Əli Kərimov sədr təyin olunmuş, Üzeyir bəy müavin seçilmişdir. 1937–ci ildə Ə. Kərimov "xalq düşməni" kimi həbs edilərək güllələnmiş, 1937–ci il fevral ayının 15-də keçirilən toplantıda təşkilata Üzeyir Hacıbəyli sədr seçilmiş, Qara Qarayev isə müavin təyin olunmuşdur. 1937-ci il mart ayının 10-da ittifaqın 3 yaradıcılıq növü üzrə 34, 1948-ci ilin əvvəlində 55 üzvü (45 bəstəkar və 10 musiqişünas), bunların da 33 nəfəri azərbaycanlı olmuşdur.

İttifaqa Ü.Hacıbəylidən sonra Səid Rüstəmov (1948–1952), Qara Qarayev (1953– 1982), Aqşin Əlizadə (1985–1990), Tofiq Quliyev (1990–2000) rəhbərlik etmiş, 2007-ci ildə keçirilmiş qurultayda xalq artisti, professor Firəngiz Əlizadə sədr, xalq artistləri Aqşin Əlizadə, Ramiz Zöhrabov və əməkdar incəsənət xadimi Eldar Mansurov katib seçilmişdir.

Azərbaycan musiqi mədəniyyətinin nailiyyətləri ölkəmizin dövlət müstəqilliyini bərpa etməsindən sonrakı illərdə ümummilli lider Heydər Əliyevin yaradıcı şəxslərə xüsusi dəstəyi, müəlliflərin hüquqlarının qorunmasına, onların yaradıcılığı üçün əlverişli şəraitin yaradılmasına göstərdiyi böyük diqqət və qayğı sayəsində daha da artmışdır.

Prezident İlham Əliyevin "Azərbaycan Bəstəkarlar İttifaqı üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması haqqında" 2007-ci il 12 mart tarixli Sərəncamına uyğun olaraq, 1912–ci ildə tikilmiş binada yüksək səviyyədə əsaslı təmir və yenidənqurma işləri aparılmış, 2009-cu il sentyabrın 1-də açılış mərasimində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişdir.

2009-cu ilin dekabrında Azərbaycan Bəstəkarlar İttifaqının yaranmasının 75 illiyi (1934–2009) qeyd edilmişdir.

1956–cı ilin mart ayında Bakıda Azərbaycan bəstəkarlarının ilk qurultayı keçirilmişdir.

Azərbaycan Bəstəkarlar İttifaqı yarandığı gündən ölkəmizin mədəni–ictimai həyatında fəal iştirak etmiş, bəstəkarların əsərləri həm SSRİ-də, həm də onun hüdudlarından çox-çox uzaqlarda Azərbaycan musiqisini ləyaqətlə təmsil etmiş, ona şöhrət gətirmişdir.

Hazırda İttifaq öz sıralarında 200–ə yaxın yüksək ixtisaslı peşəkar bəstəkar və musiqişünaslar birləşdirir.

Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi və geniş vüsət aldığı "İpək yolu" Beynəlxalq Musiqi festivalı Şəki şəhərində (2010-2017) böyük müvəffəqiyyətlə keçirilmiş,İttifaqın üzvləri Azərbaycan Hökuməti, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən Üzeyir Hacıbəyli, Mstislav Rastropoviç, Qara Qarayev, Qəbələ Beynəlxalq Musiqi Festivallarında, Üzeyir Musiqi günlərində yaxından iştirak etmişdir.

Ə d ə b i y y a t :

İlham Əliyev və musiqi mədəniyyəti /Azərbaycan Bəstəkarlar İttifaqı ; tərtibçi müəl. S. Təhmirazqızı; red.: Ş. Tahirqızı, A. Babayeva; [buraxıl. məsul Ə. Əsədzadə].–Bakı: [Renessans–A], 2021.–345 s.

Heydər Əliyev və musiqi mədəniyyəti: Azərbaycan Bəstəkarlar İttifaqı; tərtibçi müəl. S. Təhmirazqızı; red.: L. Zöhrabova, A. Babayeva, J. Qulamova, F. Əhmədova; [buraxıl. məsul Ə. Əsədzadə].– Bakı: [Renessans-A], 2023.– 302, [1] s.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Azərbaycan_Bəstəkarlar_İttifaqı

İYUL



22iyu-
22 iyul

Xərcəngin nişanı sudur. Ayın himayəsindədir. Günəşin Xərçəng bürcündən keçdiyi dövrdə doğulanlar daha çox açıq xasiyyətli, xəyalpərəst olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30	31				

- *Beynəlxaq İdman Jurnalistləri Günü (02.07.1995)*
- *Azərbaycan Polisi Günü (02.07.1998))*
- *Beynəlxalq Şahmat Günü (20.07.1966)*
- *Milli Mətbuat və Jurnalistika Günü (22.07.1998)*
- *İnsan Alverinə Qarşı Mübarizə Günü (30.07.2009)*

Yaşıl dünya naminə həmrəylik ili



Azərbaycan Respublikası 22 aprel 2016-cı ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişini imzalamış və həmin ilin oktyabr ayında ratifikasiya edərək 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüş, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını, bundan başqa elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını qarşıya məqsəd qoymuşdur. Bu öhdəliyi yerinə yetirmək üçün ətraf mühitə dost texnologiyalar tətbiq etməklə infrastruktur layihələri icra olunur, tükənməyən enerji mənbələrindən istifadə, enerji səmərəliliyinin artırılması və digər istiqamətlərdə müvafiq layihələr həyata keçirilir.

İYUL

2024



Milli ədəbiyyat

Şair, publisist Mahmudov Tofiq Cavad oğlunun (Tofiq Mahmud) (24.07.1944-21.09.2018) anadan olmasının 80 illiyi 398



Folklor

Etnoqraf, folklorşünas Əbdülhəlimov Hikmət Əhməd oğlunun (17.07.1939) anadan olmasının 85 illiyi 399
Aşıq Hüseynli Məhərrəm Hüseyn oğlunun (Aşıq Məhərrəm Hüseynli) (26.07.1959) anadan olmasının 65 illiyi



Dünya ədəbiyyatı

Alman yazıçısı Feyxtvanger Lionun (07.07.1884-21.12.1958) anadan olmasının 140 illiyi. 400
Çex yazıçısı Neruda Yanın (09.07.1834-22.08.1891) anadan olmasının 190 illiyi 400
Amerika yazıçısı, Nobel mükafatı laureatı Heminquey Ernest Millerin (21.07.1899-02.07.1961) anadan olmasının 125 illiyi
Rus yazıçısı, kinossenarist, kinoaktyor, kinorejissor, Əməkdar incəsənət xadimi Şukşin Vasili Makaroviçin (25.07.1929-02.10.1974) anadan olmasının 95 illiyi



Heykəltəraşlıq. Rəssamlıq. Memarlıq

Əməkdar memar, Beynəlxalq Memarlıq Akademiyasının, Rusiya Memarlıq və İnşaat Akademiyasının, Şərq Ölkələri Memarlıq Akademiyasının həqiqi üzvü Əliyev Rasim Həsən oğlunun (16.07.1934-13.11.2021) anadan olmasının 90 illiyi 401



Musiqi. Opera. Balet

Xalq artisti, professor, violonçelçalan Abdullayev Rasi Mahmud oğlunun (06.07.1944) anadan olmasının 80 illiyi 402
Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, çeçen rəqqası, SSRİ-nin balet artisti, xoreoqraf, estrada rəqqası Esambayev Mahmud Əlisoltanoviçin (15.07.1924-07.01.2000) anadan olmasının 100 illiyi 403
Musiqi xadimi, xanəndə Məhəmməd Məşədi Xəlil oğlunun (Keçəçi oğlu Məhəmməd) (18.07.1864-20.11.1940) anadan olmasının 160 illiyi 404



Teatr. Kino

Xalq artisti, teatr və kino aktrisası Əliyeva Lətifə Cahangir qızının (01.07.1944) anadan olmasının 80 illiyi 405
Xalq artisti, Əməkdar incəsənət xadimi, teatr və kino aktyoru, rejissor Novruzov Cahangir Mütəllib oğlunun (31.07.1954) anadan olmasının 70 illiyi ----------406

İYUL 2024



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Aqil Səməd oğlunun (30.07.1969-06.08.1992) anadan olmasının 55 illiyi 407



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Kapitan Tağıyev Elçin Ağaqulu oğlunun (01.07.1989-01.10.2020) anadan olmasının 35 illiyi 408
Əsgər Dadaşov Əzizağa Ramis oğlunun (01.07.1994-19.10.2020) anadan olmasının 30 illiyi 408
Mayor Hüseynov Rəhim Qədir oğlunun (01.07.1984-20.10.2020) anadan olmasının 40 illiyi 409
Kapitan Rəhmətov Əbülfəz Hüseynverdi oğlunun (03.07.1989-16.10.2020) anadan olmasının 35 illiyi 410
MAHHXHQ baş çavuş Vəlizadə Anar Afət oğlunun (03.07.1994-07.11.2020) anadan olmasının 30 illiyi 411
Baş leytenant Əlizadə Fuad Nazim oğlunun (05.07.1994-07.11.2020) anadan olmasının 30 illiyi 411
Əsgər Məmişov Qədir Zülfəli oğlunun (05.07.1989-02.11.2020) anadan olmasının 35 illiyi 412
Gizir Əliyev İxtiyar İlqar oğlunun (06.07.1994-06.10.2020) anadan olmasının 30 illiyi 412
Baş gizir İsmayılov Camal Vidadi oğlunun (07.07.1984-19.10.2020) anadan olmasının 40 illiyi 413
Gizir Omarov Vüsal Şəmsəddin oğlunun (07.07.1989-27.09.2020) anadan olmasının 35 illiyi 413
Əsgər İsmayılzadə Şəhriyar Əkbər oğlunun (07.07.1994-08.11.2020) anadan olmasının 30 illiyi 414
Əsgər Bayramov Elvin İslam oğlunun (08.07.1999-26.10.2020) anadan olmasının 25 illiyi 414
MAHHXHQ kiçik çavuş Yusibov Kənan Fehruz oğlunun (10.07.1999-27.09.2020) anadan olmasının 25 illiyi 415
Əsgər Ramazanov Vüsal Vahid oğlunun (10.07.1994-30.10.2020) anadan olmasının 30 illiyi 415
MAHHXHQ kiçik çavuş Balakişiyev Qara Əmirxan oğlunun (11.07.1994-27.09.2020) anadan olmasının 30 illiyi 416
MAHHXHQ əsgər Quliyev İman Kürdoğlu oğlunun (11.07.1999-04.11.2020) anadan olmasının 25 illiyi 416
MAHHXHQ əsgər Seyidov Əli Rahim oğlunun (11.07.1999-04.10.2020) anadan olmasının 25 illiyi 417
Əsgər Feyziyev Əli Malik oğlunun (11.07.1994-08.11.2020) anadan olmasının 30 illiyi 417
Mayor Əhmədov Vidadi Murad oğlunun (12.07.1979-12.10.2020) anadan olmasının 45 illiyi 418
Gizir Ələkbərov Niyaməddin İsrafil oğlunun (12.07.1989-02.10.2020) anadan olmasının 35 illiyi 419

Əsgər Qulamzadə Afərin Müqəddəs oğlunun (13.07.1999-03.11.2020) anadan olmasının 25 illiyi 419
Əsgər Vəliyev Oruc Ramiz oğlunun (13.07.1994-01.12.2020) anadan olmasının 30 illiyi 420
MAHHXHQ kiçik çavuş Xəlilli Murad Vəli oğlunun (14.07.1994-30.10.2020) anadan olmasının 30 illiyi 420
Əsgər Şahmuradov Rəvan Dilşad oğlunun (14.07.1999-15.10.2020) anadan olmasının 25 illiyi 421
MAHHXHQ əsgər Məcidzadə Saleh Nəriman oğlunun (16.07.1994-10.10.2020) anadan olmasının 30 illiyi 421
Əsgər Həsənov Tural Tapdıq oğlunun (16.07.1994-02.10.2020) anadan olmasının 30 illiyi 422
Baş gizir Yusifov Mehman Musa oğlunun (18.07.1979-05.10.2020) anadan olmasının 45 illiyi 422
Əsgər Ələsgərov Mətləb Vüqar oğlunun (18.07.1999-07.10.2020) anadan olmasının 25 illiyi 423
Baş leytenant Abdullayev İbrahim Habil oğlunun (20.07.1994-05.10.2020) anadan olmasının 30 illiyi 423
MAHHXHQ əsgər İlyasov Fərid İbad oğlunun (20.07.1999-30.10.2020) anadan olmasının 25 illiyi 424
Əsgər Səfərov Mais Şakir oğlunun (20.07.1999-01.10.2020) anadan olmasının 25 illiyi 424
Əsgər Orucov Nicat Niyadxan oğlunun (20.07.1999-26.10.2020) anadan olmasının 25 illiyi 425
Gizir Musayev Sahib Musa oğlunun (21.07.1984-07.11.2020) anadan olmasının 40 illiyi 425
MAHHXHQ əsgər Nadirov Fədail Fərhad oğlunun (23.07.1999-26.10.2020) anadan olmasının 25 illiyi 426
Kiçik gizir Mehbalıyev Elşən Təvəkgül oğlunun (23.07.1994-04.11.2020) anadan olmasının 30 illiyi 426
MAHHXHQ əsgər Əliyev Zaur Eldar oğlunun (24.07.1989-14.10.2020) anadan olmasının 35 illiyi 427
MAHHXHQ əsgər Rəsulov Sahil Sərvan oğlunun (24.07.1999-10.10.2020) anadan olmasının 25 illiyi 427
Mayor Quliyev Elnur Eldar oğlunun (25.07.1984-02.10.2020) anadan olmasının 40 illiyi 428
MAHHXHQ çavuş Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğlunun (27.07.1994-11.10.2020) anadan olmasının 30 illiyi 429
Əsgər Abdullazadə Qasım Əli oğlunun (27.07.1999-14.10.2020) anadan olmasının 25 illyi 429
Əsgər Mirzəyev Nuran Akif oğlunun (27.07.1999-19.10.2020) anadan olmasının 25 illiyi 430
MAHHXHQ kiçik çavuş Namazov Taleh Zülfəli oğlunun (28.07.1999-30.09.2020) anadan olmasının 25 illiyi 430

Mayor Rzayev İlkin Cəfər oğlunun (28.07.1984-02.10.2020) anadan olmasının 40 illiyi 431
Baş leytenant Zeynalov Elnur Elsevər oğlunun (28.07.1994-31.10.2020) anadan olmasının 30 illiyi 431
MAHHXHQ kiçik çavuş Paşayev Ramil Şakir oğlunun (28.07.1994-27.10.2020) anadan olmasının 30 illiyi 432
Əsgər Laçınov Əhməd Qurban oğlunun (28.07.1999-02.10.2020) anadan olmasının 25 illiyi. 432
Əsgər Məmmədli Cəmil Habil oğlunun (28.07.1999-15.10-2020) anadan olmasının 25 illiyi. 433
Əsgər Ağayev Mənsur Ağa oğlunun (29.07.1994-09.11.2020) anadan olmasının 30 illiyi 433
MAHHXHQ əsgər Fətaliyev Şahin Şamxal oğlunun (30.07.1999-30.09.2020) anadan olmasının 25 illiyi 434
Leytenant Məmmədli Nicat Rizvan oğlunun (31.07.1999-09.10.2020) anadan olmasının 25 illiyi 434



Siyasət. Hərbi iş

Əməkdar müəllim, pedaqoji elmlər doktoru, professor Qaralov Zahid İbrahim oğlunun (10.07.1934-07.01.2015) anadan olmasının 90 illiyi. 435



Fəlsəfə. İqtisadiyyat. Hüquq

Filosof, tarixçi, Makovelski Aleksandr Osipoviçin (22.07.1884-16.12.1969) anadan olmasının 140 illiyi 436




Mədəniyyət. Maarif. Təhsil

Əməkdar elm xadimi, Azərbaycan EA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Dəmirçizadə Əbdüləzəl Məmməd oğlunun (08.07.1909-10.04.1979) anadan olmasının 115 illiyi
Türkoloq, tərcüməçi Babayev Əkbər Ağarza oğlunun (10.07.1924-12.09.1979) anadan olmasının 100 illiyi 437
Pedaqoq və şair Axundzadə Xosrov Mirzə Əli oğlunun (13.07.1889-10.05.1960) anadan olmasının 135 illiyi
Ədəbiyyatşünas, filologiya elmləri namizədi, pedaqoq, publisist, tərcüməçi Tarıverdiyeva Kövsər Məmməd qızının (14.07.1914-2013) anadan olmasının 110 illiyi 438
Musiqişünas, professor Mahmudova Ceyran Emin qızının (19.07.1964) anadan olmasının 60 illiyi 439
Maarif xadimi Mahmudbəyov Həbib bəy Hacı İbrahimxəlil bəy oğlunun (29.07.1864-30.07.1928) anadan olmasının 160 illiyi 440


İYUL

2024



Riyaziyyat. Fizika. Astronomiya

Akademik, fizika-riyaziyyat elmləri doktoru, professor riyaziyyatçı Qasımov Mirabbas Göycə oğlunun (11.07.1939-06.09.2008) anadan olmasının 85 illiyi
Fizika-riyaziyyat elmləri doktoru, professor Zamanova Elmira Nəzər qızının (17.07.1939-15.03.2010) anadan olmasının 85 illiyi
Akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Cəfərov Təyyar Cəmşid oğlunun (18.07.1939) anadan olmasının 85 illiyi 441



Kimya. Biologiya. Tibb

Əməkdar elm xadimi, akademik, İsmayılov Rüstəm Hacı Əli oğlunun (01.07.1909-01.06.1972) anadan olmasının 115 illiyi
Əməkdar elm xadimi, Tibb elmləri doktoru, professor Abdullayev Məmmədsadıq Məmmədağa oğlunun (01.07.1924-18.10.2006) anadan olmasının 100 illiyi . . 442
Kimya elmləri doktoru, professor Heydərov Arif Əmrah oğlunun (05.07.1954) anadan olmasının 70 illiyi 443



Digər tarixi hadisələr

Beynəlxalq İdman Jurnalistləri Günü (02.07.1924)
Azərbaycan Polisi Günü (02.07.1998)
Qızılağac Dövlət Təbiət qoruğunun yaradılmasının (03.07.1929) 95 illiyi
Bakı metrosunun “28 May” və “Gənclik” stansiyaları arasında qatarda partlayış törədilməsinin (03.07.1994) 30 illiyi 444
Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır (07.07.2021)
Qarabağ iqtisadi rayonunun (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) yaradılması barədə qərar qəbul edilmişdir (07.07.2021)
Şərqi Zəngəzur iqtisadi rayonunun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılması barədə qərar qəbul edilmişdir (07.07. 2021)
Ümumdünya Əhali Günü (11.07.1989)
Tovuz döyüşləri baş vermişdir (12-17.07.2020)
Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi (14.07.1969) seçilməsinin 55 illiyi 445
Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmışdır (16.07.2009)
Beynəlxalq Şahmat Günü (20.07.1966) 446
Amerika astronavtlarının Ayın səthinə enmələrinin (21.07.1969) 55 illiyi
Beynəlxalq Valyuta Fondunun əsası qoyulmuşdur (22.07.1944)
Milli Mətbuat və Jurnalistika Günü (22.07.1991) 447


İYUL

2024

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdır (26.07.1994)
I Dünya müharibəsinin (28.07.1914) başlanmasının 110 illiyi
Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən blokadaya alınmasına başlanılmışdır (29.07.1989)
İnsan Alverinə Qarşı Mübarizə Günü (30.07.2009)

Tofiq Mahmud - 80

(1944-2018) *Tərcüməçi, publisist*



Tofiq Cavad oğlu Mahmudov 1944-cü il iyul ayının 24-də Füzuli rayonunun Gorazıllı kəndində anadan olmuşdur.

1961-ci ildə Füzuli rayonunda orta məktəbi bitirmişdir. 1963-1968-ci illərdə APİ-nin axşam şöbəsində təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə "Azərbaycan məktəbi" jurnalında katib, korrektor, texniki redaktor kimi başlamışdır (1963-1967), 1967-1985-ci illərdə "Ulduz" jurnalında texniki redaktor işləmişdir. "Molla Nəsrəddin", "Dünya", "Dədə Qorqud" jurnallarının məsul katibi və "Borçalı" jurnalının redaktoru olmuşdur. 1985-ci ildən ömrünün sonuna kimi "Azərbaycan" jurnalında müxtəlif vəzifələrdə, o cümlədən məsul katib işləmişdir.

Bədii tərcümə və publisistika ilə ötən əsrin 70-ci illərindən məşğul olmuşdur. "Ulduz", "Azərbaycan" jurnallarında "Ədəbiyyat qəzeti"ndə tərcümələri və sənədli oçerkləri dərc edilmişdir. V. Perevoznikovun "Canlı uçuş", M.Vamoşun "Mən və mən" romanları "Qobustan", "Ədəbiyyat və incəsənət" səhifələrində, B. Sporovun "Qarşılıqlı əlaqə (ailə: nigah və boşanma – problemlər, mülahizələr) kitabı "Azərbaycan" (1985, №11) jurnalında onun tərcüməsi ilə çap olunmuşdur.

N.Dubovun "Qaçqın" romanının tərcüməsi rəğbətlə qarşılanmışdır. "Əsrdən keçən cığır" (1985), "Polad belə bərkiyir" (1995) sənədli povestlərin və "Dünya, gözəl dünya" romanının müəllifidir.

Tofiq Mahmud "Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri nümayəndələrinin təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 iyul tarixli Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Tofiq Cavad oğlu Mahmudov 2018-ci il sentyabr ayının 21–də Bakıda vəfat etmişdir

Ədəbiyyat*:*

Tağıyev, A. Qapın açıq olsun…: "Xatirə yarpaqlarından" /Aydın Tağıyev // Ədalət.–2019.–13 iyul.–S.10.

Tofiq Mahmud:vəfatı münasibətilə AYB-nin başsağlığı //Ədəbiyyat qəzeti. - 2018. – 22 sentyabr. – S. 32.

Azərbaycan yazıçıları: XX-XXI üzillikdə: ensiklopedik məlumat kitabı /T.Əhmədov; red. N.Qurbanova.– Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. – 1056 s. – S. 946.

İnternetdə*:*

http://www.anl.az/down/meqale/edebiyyat/2018/sentyabr/607265.jpg

Folklor

Hikmət Əbdülhəlimov – 85

(1939)

Folklorşünas



Hikmət Əhməd oğlu Əbdülhəlimov 1939-cu il iyul ayının 17-də Şəki şəhərində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra, 1958-1961-ci illərdə hərbi xidmətdə olub. 1965-1969-cu illərdə Bakı Ali Partiya Məktəbində ali siyasi təhsil alıb, məktəbi fərqlənmə diplomu ilə bitirmişdir.

Hikmət Əbdülhəlimov əmək fəaliyyətinə 1956-1958-ci illərdə 3 saylı baramaçılıq və ipəkçilik fabrikində fəhlə kimi başlamışdır. 1962-1965-ci illərdə Şəki İpək Kombinatı Komsomol Komitəsinin katibi, 1969-2014-cü illərdə, müxtəlif vaxtlarda, Şəki Şəhər Komsomol Komitəsinin birinci katibi, Şəki Şəhər Partiya Komitəsinin təbliğat və təşviqat, təşkilat şöbələrinin müdiri, Şəki Şəhər Mədəniyyət şöbəsinin müdiri, Şəki Şəhər İcra hakimiyyətində ümumi şöbənin müdiri, Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin kadrlar şöbəsinin rəisi, həmin Birliyinin baş direktorunun müşaviri vəzifəsində çalışmışdır. 2014-cü ildən Azərbaycan Respublikası Rabitəçi Veteranlar Şurası İctimai Birliyinin sədr müavinidir.

Hikmət Əbdülhəlimovun ədəbi fəaliyyyəti də çox zəngin olmuşdur.1987 – 2020 illər ərzində 243 min nüsxə tirajla nəşr edilmiş 19 kitabın, o cümlədən, "Şəkinin gülüş çələngi" (Bakı, 1987/1988), "Saa quzu kəsərəm" (Bakı, 1992), "Şəki lətifələri" (Bakı, 1994), "Şəki gülməçələri" (Bakı, 1998) folklor toplularının, Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun buraxdığı "Azərbaycan folkloru antologiyası" – IV kitab və "Şəki folkloru" toplusu – I cildin həmmüəllifi, "Şəki folkloru" toplusunun II – III cildlərinin, "Şəki folklor örnəkləri" toplusunun I cildinin toplayıcısı və tərtibçisidir. Türkiyədə nəşr olunan "Türk Dünyası" jurnalında, Azərbaycanda nəşr olunan "525-ci qəzet", "Ədəbiyyat", "Naxçıvan", "Zarafat" və s. qəzetlərdə Şəki folkloruna dair materialları dərc edilib, respublika radiosunun "Xeyrə qənşər" xalq yaradıcılığı proqramında çıxışları olub. 40-dan artıq elmi və elmi-publisistik məqalənin müəllifidir. "Ünsiyyət körpüsü", "Qəhrəman ana, qayğıkeş qadın", "Əbədiyyətə qovuşan insan" kitablarının tərtibçisi və ön sözünün müəllifidir.

Layiqli xidmətlərinə görə Qırmızı Əmək Bayrağı, Şərəf Nişanı ordeni və bir neçə medallarla təltif olunmuşdur. 2003-cü ildə Azərbaycan Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliğ Bürosunun "Yaddaş" mükafatına layiq görülmüşdür. 2011-ci il dekabr ayının 2-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əbdülhəlimov Hikmət Əhməd oğlu "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Şəki folklor örnəkləri / Azərb. MEA, Folklor İn-tu; toplayıb tərt. ed. H.Əbdülhəlimov; red. L.Süleymanova.- Bakı: [Nurlan],2014.- 411s.

Yaddaşa qayıdış / H.Ə.Əbdülhəlimov; red. Ə.Tahizadə; ön sözün müəl. Z.Xəlil.- Bakı: [Nurlar], 2017.- 263 s.

Hikmət Əbdülhəlimov-80 // Ədəbiyyat qəzeti.- 2019.- 17 avqust.- S.32.

İnternetdə:

https://shaki.info/wiki/Hikmət Əbdülhəlimov

İYUL

7

Lion Feyxtvanger - 140

(1884-1958)

Alman yazıçısı



Ədəbiyyat:

Seçilmiş əsərləri /Lion Feyxtvanger; tərc. ed.: H.Qasımzadə, V.Hacıyev; ön söz. müəl.: Q.Quliyev, V.Hacıyev; red. A.Hacılı; bədii tərtibat və dizayn. müəl. T.Qorçu. – Bakı: Şərq-Qərb, 2010. – 807

Yəhudi əsilli alman yazıçısı Lion Feyxtvanger 1884-cü il iyul ayının 7-də Münhen şəhərində anadan olmuşdur. Berlin və Münhen şəhərərində filoloji təhsil almışdır. Jurnalistika və teatr tənqidi ilə məşğul olmuşdur. Lion Feyxtvanger fəlsəfə elmləri doktoru adını almışdır. 1933-cü ildə faşistlərin Almaniyada hakimiyyətə gəlməsindən sonra Fransaya mühacirət edərək orada yaşamağa başlamışdır. Feyxtvanger beynəlxalq mədəniyyəti müdafiə hərəkatında iştirak etmiş, B.Brext və B.Bredel ilə birgə 1936-1939-cu illərdə Moskvada almanca nəşr olunan "Söz" (Das Vort) jurnalının redaktoru olmuş, "Moskva - 1937" kitabını yazmışdır.1940-cı ildə Fransa hökümətinin mürtəce siyasətini tənqid etdiyinə görə həbs düşərgəsinə salınmış, alman qoşunları Fransanı işğal edərkən çətinliklə xilas olmuşdur.

Feyxtvangerin "Hərbi əsirlər" (1918), "Sülh" (1918) şeirlərində, həmçinin "Gözləmə zalı" trilogiyasında, "Müvəffəqiyyət" (1930), "Oppenheymlər ailəsi" (1933), "Sürgün" (1939), "Lautenzak qardaşları" (1943) romanlarında faşizm ifşa olunmuşdur. Yazıçının "Yəhudi Zyuss" (1925) pyesində, "Eybəcər hersoginya" (1923) və s. tarixi romanlarında xalq kütlələrinin rolu, sosial tərəqqinin inqilabi formaları şübhə altına alınmışdır. "Yəhudi müharibələri" (1932), "Oğullar" (1935), "Gün gələcək" (1942) trilogiyası, "Yalançı Neron" (1936) dövrün mütərəqqi ictimai-siyasi ideyaları ilə səsləşirdi. Yazıçının məşhur əsərləri sırasında böyük ispan rəssamına həsr olunmuş"Qoyya, yaxud idrakın məşşəqətli yolu" (1952), "Qəribə adamın müdrikliyi, yaxud Jan Jak Russonun ölümü və ölməzliyi" (1952) romanlarını qeyd etmək olar. Ömrünün son illərini ABŞ-da keçirən yazıçı 1958-ci il dekabrın 21-də Los-Anceles şəhərində vəfat etmişdir.

9

Neruda Yan - 190

(1834-1891)

Çex yazıçısı



Neruda Yan 1834-cü il iyul ayının 9-da Praqa şəhərində anadan olmuşdur. Akademik gimnaziyanı bitirdikdən sonra, Praqa Universitetində təhsil almış, orada fəlsəfə və hüquq fakültələrində mühazirələr dinləmişdir. Bir neçə il Praqa idarələrində işləmiş, gimnaziyada alman dilindən dərs demişdir.

1860-cı ilə qədər müəllim kimi fəaliyyət göstərmişdir. Daha sonra isə jurnalist və yazıçı kimi fəaliyyətinə davam etmişdir.

Onun ilk şeirləri 1850-ci illərin əvvəllərində çap olunmuşdur. "Qəbirstanlıq çiçəkləri" (1857), "Şeirlər kitabı" (1868), "Kosmik nəğmələr" (1878), "Balladalar və romanslar" (1883), "Övliya cüməsi nəğmələri" (1896) və s. kitabların müəllifidir. Vətənpərvərlik və sosial azadlıq duyğularının tərənnümü, xalq gücünə inam poeziyasının ideya məzmunudur. Neruda Yan 22 avqust 1891-ci ildə vəfat etmişdir.

Ədəbiyyat:

Рассказы /Ян Неруда; вступ. ст., и примеч. А.Соловьевой, худ. В. Сальников. – Москва: Книга, 1984. – 468 с.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Yan_Neruda

Rasim Əliyev – 90

(1934-2021)

Memar



Ədəbiyyat:

Keçmişdən gələcəyə: Azərbaycan memarlarına həsr olunub /Rasim Əliyev; Azərb. versiyasının ədəbi red. F.Behbudova; foto O.Bulanova [və b.]; bədii tərt. O.Bulanova. – Bakı: Şərq-Qərb, 2019. – 341 s.

Babullaoğlu, S. Rasim Əliyev. Xatirələr. Memar / Səlim Babullaoğlu; red. qrupu: R.Rza [və b.]; ön söz əvəzi Anar; foto: F.Xayrulin [və b.]. – Bakı: [İstanbul]: [Mega basım], 2016. – 365 s.

Babullaoğlu, S. Öz böyük olmayan ölçülərinə rəğmən məqbərə möhtəşəm, nəhəng görünür... / Səlim Babullaoğlu // Ədəbiyyat qəzeti. – 2016. – 16 iyul. – S.12-13.

Ramazanov, Q. Əməkdar memar, akademik Rasim Əliyevin 85 illiyi qeyd edilib /Qaşqay Ramazanov // Yeni Azərbaycan.– 2019.-17 iyul.- S.7.

Qasımzadə, E. Ustad memar, gözəl insan / Elbay Qasımzadə // Xalq qəzeti.– 2021.- 25 noyabr.- S.10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rasim_Əliyev_(memar)

Rasim Həsən oğlu Əliyev 1934-cü il iyul ayının 16-da Gəncədə görkəmli ziyalı alim, akademik Həsən Əliyevin ailəsində anadan olmuşdur.

1952-1958-ci illərdə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. Görkəmli memar Mikayıl Hüseynovun tələbəsi olmuşdur. 1958-1960-cı illər Azərbaycan Dövlət Layihə İnstitutunda memar vəzifəsində çalışmışdır.

1965-1974-cü illərdə Bakı şəhəri Baş memarının birinci müavini kimi çalışmış, 1974-1988-ci illərdə Bakı şəhərinin Baş memarı olmuşdur. 1980-1988-ci illərdə Azərbaycan Memarlar İttifaqının katibi işləmişdir.

Bakının və respublikanın digər şəhərlərinin planlaşdırılması və tikintisi, o cümlədən Bakı şəhərinin Baş planı, İçərişəhərin regenerasiya planı layihələrinin müəllifidir. Bakıda yaşayış binaları, Respublika Nazirlər Kabinetinin qonaq evi, "Həzi Aslanov" və "Xalqlar dostluğu" metrostansiyaları (müştərək layihə), Xırdalan mədəniyyət sarayı, Quba şəhərinin mərkəzi meydanı və burada tikilmiş 600 yerlik mədəniyyət sarayı və s., Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin (mərmər, qranit, 1996; heykəl-fiqurun müəllifi Ö.Eldarovdur), Bakıda bir sıra xatirə abidələrinin (R.Zorge, heykəltəraş V.Siqal) və s. memarlıq layihəsini vermişdir. Heydər Əliyev adına Beynəlxalq hava limanı (müştərək) və Azərbaycanın Türkiyədəki səfirliyi binası layihələrinin müəllifidir. Bakının 8-ci, 9-cu mikrorayonlarının, Əhmədli qəsəbəsinin, Kiyev, Yeni Günəşli yaşayış massivlərinin salınması da Rasim Əliyevin adı ilə bağlıdır.

1979-cu ildə Azərbaycan Respublikasının "Əməkdar memar" fəxri adına layiq görülmüşdür. 1980-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə, 2000-ci il 19 aprel tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni, 2009-cu il 24 sentyabr tarixində Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda memarlıq sənətinin inkişafında xidmətlərinə görə "Şərəf", 2014-cü il 16 iyul tarixində isə "İstiqlal" ordenləri ilə təltif edilmişdir. Rasim Əliyev Azərbaycan Respublikası Dövlət mükafatı, Hüseyn Cavid adına və bir sıra mükafatların laureatıdır. 2006-cı ildə Rasim Əliyevə həsr edilmiş "Memar" filmi çəkilmişdir.

1992-ci ildən Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının (Bakı) həqiqi üzvü, 1994-cü ildən Rusiya Memarlıq Akademiyasının fəxri üzvüdür.

2014-cü ildə Beynəlxalq Muğam Mərkəzində memarın 80 illik yubileyi şərəfinə tədbir keçirilmişdir. Tədbirdə görkəmli memarın rəsm əsərlərinin sərgisi də nümayiş etdirilmişdir.

2017-ci ildə istedadlı memar, fırça ustası, şəhərsalma prosesinin təşkilatçısı R.Əliyevin Azərbaycan, rus və ingilis dillərində "Xatirələr" kitabı çap olunmuşdur. Prezident İlham Əliyevin 2019-cu il iyulun 15-də imzaladığı sərəncama əsasən, Rasim Həsən oğlu Əliyev Azərbaycanda memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Müasir Azərbaycan memarlıq məktəbinin tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı,Əməkdar memar Rasim Həsən oğlu Əliyev 2021-ci il noyabrın 13-də vəfat etmişdir.

Rasi Abdullayev – 80

(1944)

Violonçel çalan



Rasi Mahmud oğlu Abdullayev 6 iyul 1944-cü ildə Bakı şəhərində anadan olmuşdur.

Rasi Abdullayev 1951-1962-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində, 1962-1967-ci illərdə isə Azərbaycan Dövlət Konservatoriyasında violonçel ixtisası üzrə professor Sabir Əliyevin sinfində təhsil almışdır. Həmin il o, violonçel ixtisası üzrə konservatoriyada assistent kimi fəaliyyətə başlamışdır. 1968-1969-cu illərdə Moskva Dövlət Konservatoriyasının aspiranturasında Mstislav Rostropoviçin sinfində violonçel ixtisası üzrə təhsilini davam etdirmişdir. 1973-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının aspirantura-assistentliyini bitirmişdir.1981-ci ildə Tbilisi Kionservatoriyasında təkmilləşmə kvalifikasiya kursunu bitirmişdir.

Rasi Abdullayev 1964-1972-ci illərdə Azərbaycan Dövlət Kamera Orkestrinin, 1970-2010-cu illərdə isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestrində solisti olmuşdur. 1970-ci ildən Rasi Abdullayev Bakı Musiqi Akademiyasında dərs deyir. 1976-1979-cu illərdə Qahirə, 1987-1994-cü illərdə isə Dəməşq konservatoriyalarında pedaqoji fəaliyyət göstərmişdir. 1987-ci ildə professor adı almışdır.

Rasi Abdullayev 1963-cü ildə gənclərin Respublika festivalında, 1965-ci ildə musiqiçi – ifaçıların ikinci Zaqafqaziya müsabiqəsində iştirak edərək birinci dərəcəli diploma və laureat adına, 1966-cı ildə üçüncü Ümumittifaq müsabiqəsində diploma layiq görülmüşdür.1968-ci ildə Bolqarıstanda IX Beynəlxalq Gənclər festivalında çıxış etmişdir.

1991-ci il may ayının 17-də "Azərbaycan Respublikasının "Əməkdar artisti", 2005-ci il sentyabr ayının 16-da "Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adına layiq görülmüşdür. 2006-cı il sentyabr ayından Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan Milli Ensiklopediyası /red. hey. sədri İ.H.Əliyev; baş red. M.K.Kərimov; məsul katib T. M. Nağıyev. – Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2009. – S. 36. – C. 1: A-Argelander.

Mustafayeva, T. Azərbaycan musiqi mədəniyyətində violonçel alətinin tətbiqi və onun inkişaf yolları:[bölmədə R.Abdullayevdən də bəhs olunur] Tahirə Mustafayeva //Azərbaycanda milli violonçel sənətinin yaranmasına dair (dərs vəsaiti).– Bakı.– 2019.– 62–71

İnternetdə:

http://ensiklopediya.gov.az/az/terms/878/cild/13

https://az.wikipedia.org/wiki/Rasi_Abdullayev

Mahmud Esambayev – 100

(1924-2000)

Rəqqas



Mahmud Əlisoltanoviç Esambayev 1924-cü il iyul ayının 15-də Qroznı yaxınlığındakı Köhnə Atagi kəndində anadan olmuşdur. 1939-1941-ci illərdə Qroznı Xoreoqrafiya Məktəbində oxumuş, 1944-1956-cı illərdə Qırğızıstan Opera və Balet Teatrının solisti olmuşdur. 1957-ci ildən estradada çıxış etmişdir. Esambayevin repertuarına dünya xalqlarının rəqsləri daxil idi. "Çoban" (çeçen-inquş, özbək), "Ovçu və qartal" (monqol rəqsi), "Döyüşçü" (başqırd rəqsi), "Qızıl allah" ("Bharat natyam" hind klassik rəqsi üslubunda), "Makum-ba" (Braziliya mərasim rəqsi), "Ave Mariya" rəqs novellası (F.Şubertin musiqisi əsasında), "Alov rəqsi" (M. de Falyanın musiqisi əsasında) Esambayevin məşhur rəqslərindəndir. Virtuozluq, yüksək emosionallıq və plastiklik, rəqsin üslub və xarakterini dəqiq, qabarıq vermək məharəti ifaçılığı üçün xarakterikdir. İncəsənət aləmində onu "rəqs şairi" adlandırmışlar.

1962-ci ildə "Azərbaycanfilm"in istehsal etdiyi "Mən rəqs edəcəyəm" adlı 91 dəqiqəlik tammetrajlı bədii film Mahmud Esambayevin həyat və yaradıcılığına həsr olunmuşdur. Baş rolunu M.Esambayevin özünün canlandırdığı filmin digər adı "Əmək və qızılgül"dür. Filmdə rəqqasın yaradıcılığından söhbət getməklə yanaşı, çeçen-inquş xalqının həyatı da öz əksini tapmışdır. Filmin ssenari müəllifi İdris Bazorkin, Tofiq Tağızadə, quruluşçu rejissoru Tofiq Tağızadə, operatoru Rasim Ocaqov, rəssamı Kamil Nəcəfzadə, bəstəkarı Rauf Hacıyevdir. 1959-cu ildə Esambayev öz proqramı ilə Moskvada çıxış etmiş, sonra "Sovet baletinin ulduzları" qrupunun tərkibində Fransada, Cənubi Amerikada qastrol səfərlərində olmuşdur. Beynəlxalq estrada incəsənəti xadimləri ittifaqının prezidenti, Beynəlxalq rəqs akademiyasının akademiki olmuşdur. Onun fəal dəstəyi nəticəsində Qroznıda dramatik teatr və sirkin yeni binaları tikilmişdir.

10-cu çağırış SSRİ Ali Sovetinin deputatı olmuşdur. 1957-ci ildə RSFSR-in "Əməkdar artisti", 1966-cı ildə RSFSR-in "Xalq artisti" fəxri adını almışdır. 1969-cu ildə Qırğızıstan SSR-nin "Xalq artisti", 1974-cü ildə SSRİ-nin "Xalq artisti", 1987-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adlarına layiq görülmüşdür. 1984-cü ildə "Lenin", 1994-cü ildə "Dostluq" 1999-cu ildə III dərəcəli "Vətənə xidmət" ordeni ilə təltif edilmişdir.

Mahmud Esambayev 2000-ci il yanvar ayının 7-də 76 yaşında vəfat etmiş, Moskvada Danilov müsəlman qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat:

Esambayev Mahmud Əlisoltanoviç //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. – Cild 4. – Bakı, 1980. – S.95.

Мусаев, А. Махмуд Эсамбаев /Алаудн Мусаев. – Москва: Молодая гвардия, 2011. – 377 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Mahmud_Esambayev

http://ensiklopediya.gov.az/az/terms/14898/cild/20

Məşədi Məhəmməd – 160

(1864-1940)

Xanəndə



Məhəmməd Məşədi Xəlil oğlu 1864-cü il iyul ayının 18-də Şuşa şəhərində anadan olmuşdur. Məhəmməd kiçik yaşlarından atasının peşəsinə (keçəçilik sənətinə) yiyələndiyindən xalq arasında Keçəçi adı ilə məşhur olmuşdur. Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi rol oynamışdır. Xanəndəlik sənətini Şuşada Xarrat Qulunun məktəbində və məşhur xanəndə Məşədi İsidən öyrənmişdir. Qarabağ məktəbinin digər görkəmli nümayəndələri ilə yanaşı, yaradıcılığında muğam sənətini inkişaf etdirmiş, Azərbaycan muğamının şöhrətini hər yana yaymışdır. Onun repertuarında klassik muğamlar, təsniflər və xalq mahnıları əsas yer tuturdu. Həmçinin, "Nəva", "Mahur", "Bayatı-Qacar" muğamını orijinal bir şəkildə ifa edirdi. Xüsusilə onun Cabbar Qaryağdıoğlu ilə birgə Füzulinin "Leyli və Məcnun" poemasından səhnələri duet şəklində oxumaları çox məşhur idi. Genis diapazonda zorlu güclü və zil səsə malik xanəndə bütün muğam dəstgahlarını və zərbi-muğamları ustalıqla ifa edirdi. Xanəndəliklə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1904-cü ildən Bakıda fəaliyyət göstərmiş, Qurban Primov, Məşədi Zeynal kimi tarzənlərlə birgə musiqi məclislərində və toylarda, Şərq konsertlərində çıxış etmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Keçəçioğlu Məhəmməd xalq sənəti ilə daha yaxından məşğul olmuş, bütün qüvvəsini və biliyini musiqi mədəniyyətimizin inkişafına həsr etmişdir.

1926-cı ildə Ü.Hacıbəyli tərəfindən Azərbaycan Dövlət Filarmoniyasına dəvət olunmuş və gənc xanəndələr yetişdirmişdir. Onun ifasında bir sıra muğam, təsnif və xalq mahnıları 1912-ci ildə "Sport-rekord" (Varşava), 1914-cü ildə "Ekstrafon" (Kiyev) şirkətləri tərəfindən qrammofon valına yazılmışdır. Burada Keçəçi oğlu Məhəmməd "Rahab", "Şahnaz", "Dəşti", "Çoban bayatı" muğamlarını, "Heyratı", "Qarabağ şikəstəsi" zərbi muğamlarını ifa etmişdi. Eyni zamanda, o, "Getdi-gəlmədi", "Gülə-gülə", "Xuraman", "Axşam oldu" təsniflərini də vala yazdırmışdır. Keçəçioğlu Məhəmməd Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında müəyyən xidmətləri olan görkəmli sənətkarlardan biridir.

Görkəmli xanəndə Keçəçioğlu Məhəmməd 1940-cı ildə Quba şəhərində vəfat etmişdir.

2014-cü il 22 aprel tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi Keçəçioğlu Məhəmmədin (Məhəmməd Məşədi Xəlil oğlunun) anadan olmasının 150 illik yubileyi keçirilmişdir.

Ədəbiyyat:

Azərbaycanın musiqi xəzinəsi / F.M.Şuşinski; topl., tərt. ed., nəşrə haz. və ön söz. müəl. A.Kənan; red. V.Quliyev. –Bakı: Vətənoğlu, 2015.. – S.378.

Hüseynoğlu, S. Keçəçi oğlu Məhəmməd /Sərvaz Hüseynoğlu; [baş red. G.Cəfərova; red. R. Həsənova; buraxıl. məsul S.İsmayılova; dizayner Z. Abbasov] . – Bakı: Şərq-Qərb, 2017. – 126 s.

Keçəçioğlu Məhəmməd (1864-1940) Mir Mehdi Xəzani (1819-1894): Qarabağın görkəmli simaları// İqtisadiyyat. –2021. – 18-24 noyabr. – S.8.

Hüseyn, T. Maddi-mədəni irsimiz: İki sənətin daşıyıcısı / Tofiq Hüseyn // Respublika.– 2023.– 25 yanvar.– S.9

İnternetdə:

http://www.anl.az/down/meqale/f-susinski_amx/2015/750197(meqale).pdf

http://mugam.musigi-dunya.az/k/kechechioglu.html

Teatr. Kino

Lətifə Əliyeva - 80

(1944)

Aktrisa



Lətifə Cahandar qızı Əliyeva 1944-cü il iyul ayının 1-də Qazax rayonunun Yuxarı Salahlı kəndində müəllim ailəsində anadan olmuşdur.

Lətifə Əliyeva 1952-1960-cı illərdə Qazax rayonunun Yuxarı Salahlı kənd orta məktəbində natamam orta təhsil almışdır. 1960-1963-cü illərdə Bakıda 5 nömrəli peşə məktəbində mürəttib peşəsinə yiyələnmişdir. 1964-1970-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dram və kino aktyorluğu fakültəsində axşam bölməsində təhsil almış, gündüzlər isə toxuculuq kombinatında fəhlə işləmişdir.

Lətifə Əliyeva 1967-ci il iyun ayının 1-dən, hələ tələbə ikən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında aktrisa kimi fəaliyyətə başlamışdır. Aktrisa S.S.Axundovun "Tamahkar" əsərindəki Nabat obrazı ilə tamaşaçıların hörmətini qazanmışdır. Bir-birindən fərqlənən Meymun ("Qaraca qız"), Qaranquş ("Dovşanın ad günü"), Nazlı ("Şamdan bəy"), Ziba ("Məlikməmməd"), Mahuru ("Məhəbbət novellası"), Xatın ("Ana laylası"), Çayır ("Aycan") obrazları Lətifə Əliyevanın ən yaddaqalan, sevilən rollarıdır. Lətifə Əliyeva bir kino aktrisası kimi bir sıra maraqlı və yaddaqalan obrazlara çəkilmişdir. "Tənha narın nağılı"nda Sədəf, "Bəyin oğurlanması" filmində Ana, "Kişi sözü"ndə Qəndab, "Lətifə" filmində Ana rolları aktrisaya geniş tamaşaçı rəğbəti qazandırmışdır. Aktrisa İran istehsalı olan "Divlər zindanı" və "Arzular" filmlərində də maraqlı rollar yaratmış, 1999-cu ildə Xalq artisti Aygün Kazımovanın "Tənha qadın" mahnısının klipinə çəkilmiş, Ə.Hacızadənin "İtkin gəlin" (Qadın), A. Babayevin "Dəvətnamə" (Fatma xala), N.Hacızadənin "Qayalarda qalan səs" (Qumru) əsərlərinin film-tamaşa və televiziya tamaşalarında oynamışdır.

Əliyeva Lətifə Cahandar qızı 1991-ci il 22 may tarixində Azərbaycanın sovet teatr incəsənətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan hökuməti tərəfindən fəxri fərmanla, 1996-cı ilin dekabr ayında III Beynəlxalq Monotamaşalar Festivalında arxa cəbhədə fədakarlıq göstərən qadınlara həsr olunmuş – "Sənin izinlə" tamaşasında Ana obrazına görə laureat diplomu ilə təltif olunmuşdur.

Lətifə Əliyeva 2005-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Prezident mükafatına, 2006-cı ildə Prezident təqaüdünə layiq görülmüşdür. 2000-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə "Əməkdar artist", 2018-ci il 10 dekabrda "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat:

"Qəlbim uşaqlıqdan aktrisa olmaqla döyünürdü": Lətifə Əliyeva: "Qardaşım rəhmətə gedəndə hörüklərimi qardaşım oturan skamyaya bağlamışdım ki..." / L.Əliyeva; müsahibəni apardı: K. Oruc // Üç nöqtə.– 2020.– 6 fevral.– S.12.

Lətifə Əliyeva //Azərbaycan Teatr Ensiklopediyası.–Bakı, 2017.–S.234–235

İnternetdə:

https://president.az/az/articles/view/30999

http://web2.anl.az:81/read/page.php?bibid=421696&pno=1

http://az.baku-art.com/az/bu-gun-xalq-artist-letife-eliyevanin-dogum-g-n-d-r

Cahangir Novruzov - 70

(1954) Aktyor, teatr rejissoru



Cahangir Mütəllib oğlu Novruzov 1954-cü il iyul ayının 31-də Bakı şəhərində anadan olmuşdur. 1971-ci ildə Mirzəağa Əliyev adına İncəsənət İnstitutunun (indiki ADMİU) rejissorluq fakültəsinə daxil olmuş və SSRİ Xalq artisti Mehdi Məmmədovun rəhbərlik etdiyi sinifdə təhsil almış və 1976-cı ildə həmin institutu bitirmişdir. Diplom işini Musiqili Komediya Teatrının səhnəsində Georgi Xuqayevin "Sevgilimin anası" operettasını hazırlayaraq müdafiə etmişdir. Eyni ildə təyinat alaraq həmin teatrda çalışmağa başlamışdır.

1979-cu ildə Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrına quruluşçu rejissor vəzifəsinə təyin edilmişdir. Bu teatrın səhnəsində həm də aktyor kimi bir çox rollar oynamışdır. 1981-ci ildə isə SSRİ Mədəniyyət Nazirliyinin Mədəniyyət İşçilərini Təkmilləşdirmə İnstitutunun rəhbər işçilər fakültəsinə qəbul olunmuşdur. İki il ərzində bir çox əsərlərin quruluşlarında A.Efrosa assistentlik etmişdir. 1983-cü ildə Moskvadakı təhsilini bitirərək Şəki teatrına qayıtmışdır.

1984-cü ildə SSRİ Xalq artisti, professor G.Tovstonoqovun yaradıcı laboratoriyasına qəbul olunmuş və hər il iki dəfə olmaq üzrə Sankt-Peterburqda 1988-ci ilə qədər çalışmalarda iştirak etmişdir. 1985-ci ildə Şəki teatrına baş rejissor vəzifəsinə təyin olunmuşdur. Orada çalışdığı illər ərzində teatrı Kazan, Daşkənd, Səmərqənd, Moskva və Praqa şəhərlərinə qastrol səfərlərinə aparmışdır. 1986-cı ildə Çexoslovakiyada keçirilən "Çeşskaya Buduyovutsa" gənc teatrlar festivalında münsiflər heyətinin üzvü kimi iştirak etmişdir. 1987-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyinin təşkil etdiyi Mirzə Fətəli Axundovun 175 illik yubileyinə həsr olunmuş teatr festivalında hazırladığı "Müsyö Jordan və Dərviş Məstəli Şah" əsərilə birincilik mükafatını qazanmışdır. 1988-ci ildə Parisdə keçirilən "Bovinyi" teatr festivalında fəxri münsif heyətinin üzvü kimi iştirak etmişdir. 1989-cu ildə Mədəniyyət Nazirliyi tərəfindən Musiqili Komediya Teatrına baş rejissor vəzifəsinə təyin olunmuşdur. 1990-cı ildə teatrın əsaslı təmir və yeni inşaata başlaması səbəbilə Gənc Tamaşaçılar Teatrının rus bölməsinə baş rejissor olaraq təyin olunmuşdur. 1991-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının təşkil etdiyi I Mono tamaşalar festivalında Şekspirin "Hamlet" əsərinin motivləri əsasında hazırlanmış "Olum ya ölüm" tamaşası ilə birincilik mükafatı qazanmışdır. 1995-ci ildə Türkiyə Cümhuriyyətinə universitetdə dərs demək üçün dəvət olunmuşdur. Hal-hazırda Türkiyənin Adana şəhərində Çukurova Universitetinin Dövlət Konservatoriyasının teatr bölməsinin professorudur.

2011-ci il iyulun 4-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə mədəniyyət və incəsənət sahəsindəki fəaliyyətlərinə görə "Əməkdar incəsənət xadimi" fəxri adına, 2014-cü ilin aprelində "TÜRKSOY-un 20 illiyi" yubiley medalına, 23 dekabr 2015-ci ildə TÜRKSOY-un "Haldun Taner" mükafatına layiq görülmüşdür. O.Janaydarmovun "Dans Plus" əsərini səhnələşdirdiyinə görə 2016-cı ildə "Qazaxıstanın Fəxri Mədəniyyət Xadimi" medalını almışdır. 2018-ci il may ayının 27-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Xalq artisti" fəxri adına layiq görülmüşdür. 2020-ci ildə "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

"Sənətini göstərə bilənə diqqət etmək lazımdır" / C.Novruzov; Müsahibəni apardı: H.Nizamiqızı // Mədəniyyət.– 2023.– 11 yanvar.– S. 7.

ADMİU-da Xalq artisti Cahangir Novruzova görüş keçirilib // Kaspi.– 2019.– 26 sentyabr.- S.12; 525-ci qəzet.– 2019.- 28 sentyabr.- S.13.

"Aktyor ona verilən rolun daxilini qavramalıdır" /C.Novruzov; müsahibəni apardı L.Hüseyn // Mədəniyyət. – 2015. – 9 oktyabr. – S.10.

Cahangir Novruzova "Xalq artisti" fəxri adı təqdim olunub //Mədəniyyət. – 2019. – 25 sentyabr. – S.3.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2019/sentyabr/672801.htm

https://devletkonservatuvari.cu.edu.tr/cu/personel/akademik-personel/sahne-sanatlari-bolumu/oyunculuk-anasanat-dali/prof-cahangir-novruzov

https://diaspor.gov.az/xeberler/fotos/0708/2.jpg https://news.milli.az/culture/285369.html

Aqil Məmmədov - 55

(1969-1992)

Milli Qəhrəman



Aqil Səməd oğlu Məmmədov 1969-cu il iyul ayının 30-da Qubadlı rayonunda anadan olmuşdur.

1984-cü ildə Qubadlı rayonu 2 saylı natamam orta məktəbi bitirdikdən sonra təhsilini 126 saylı Xınalıq texniki peşə məktəbində davam etdirmişdir.

Əmək fəaliyyətinə Qubadlı rayon Avtomobil Nəqliyyatı İdarəsində başlamışdır. 1987-ci ildə Orenburq vilayətinə hərbi xidmətə göndərilmişdir. Bir müddətdən sonra xidmətini yarımçıq qoyaraq vətənə qayıtmış, Qubadlı rayonunda yaradılan özünümüdafiə taboruna qoşulmuşdur. "Qaranquş" kəşfiyyat dəstəsinin məğlubedilməz döyüşçüsü kimi tanınmışdır. 1992-ci ilin iyun ayında girov götürdüyü erməni zabiti ilə əsir düşmüş əsgərimizi dəyişmişdir. 1992-ci il avqustun 7-də Laçın rayonunun Susuzdağ yüksəkliyi uğrunda gedən döyüşdə ağır yaralanmışdır. Çoxlu qan itirdiyindən Aqilin həyatını xilas etmək mümkün olmamış və o, qəhrəmancasına şəhid olmuşdur. Qubadlı rayonundakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Məmmədov Aqil Səməd oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Hazırda Sumqayıt şəhərində fəaliyyət göstərən təhsil aldığı 2 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Qubadlıda və Gəncədə adına küçə var.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı"adı verilməsi haqqında: [Məmmədov Aqil Səməd oğlu - sıravi - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı. ¬– 1993. ¬– № 3. ¬– S.11. ¬– (Ölümündən sonra).

Aqil Səməd oğlu Məmmədov // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- – Bakı, 2008. – S.136-137.

Əsgərov, V. Məmmədov Aqil Səməd oğlu // Azərbaycan Milli Qəhrəmanları / V.Əsgərov. – Bakı, 2005. – S.136-137.

İnternetdə:

https://e-qanun.az/framework/8112

http://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Memmedov_Aqil.pdf

https://milliqehremanlar.az/?p=346

Əlizamin. Məmmədov Aqil Səməd oğlu // Vətən fədailəri /Əlizamin. – Bakı, 1994. – S.120.

Məmmədov Aqil Səməd oğlu (1969-1993) // Qubadlının Milli Qəhrəmanları: (Plakat). – Bakı: İşıq, 1993.

Seyidzadə, M. Aqil Səməd oğlu Məmmədov // Milli Qəhrəmanlar zirvəsi

İYUL
1

Elçin Tağıyev - 35

(1989-2020)

Kapitan



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Elçin Ağaqulu oğlu Tağıyev 1989-cu il iyul ayının 1-də Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olmuşdur.1995-2004-cü illərdə Ə. Rəhmətov adına Zəhmətabad kənd tam orta məktəbində, 2004-2007-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. 2007-2011-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır. Elçin Tağıyev 2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmət etmişdir. Xidmətlərinə görə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülmüşdür.

Azərbaycan ordusunun kapitanı Elçin Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elçin Tağıyev 2020-ci il oktyabrın 1-də Talış döyüşləri zamanı şəhid olmuşdur. Biləsuvar rayonun Zəhmətabad kəndində dəfn olunmuşdur.

Elçin Ağaqulu oğlu Tağıyev Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

1

Əzizağa Dadaşov - 30

(1994-2020)

Əsgər



Əzizağa Ramis oğlu Dadaşov 1994-cü il iyul ayının 1-də Sumqayıt şəhəri Corat qəsəbəsində anadan olmuşdur. Orta təhsilini 2000-2011-ci illərdə Sumqayıt şəhər 7 saylı tam orta məktəbdə almışdır. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddəti həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan ordusunun əsgəri Ramis Əzizağa 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başladılan Vətən müharibəsi zamanı Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşərdə iştirak etmişdir. Oktyabrın 19-də Füzulinin Yarəhmədli kəndi istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Əzizağa Ramis oğlu Dadaşov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUL
1

Rəhim Hüseynov - 40

(1984-2020)

Mayor



Rəhim Qədir oğlu Hüseynov 1984-cü il iyul ayının 1-də Zərdab rayonunda anadan olmuşdur.

1998-2001-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil almışdır. 2001-2005-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. 2005-2006-cı illərdə Silahlı qüvvələrin təlim və tədris mərkəzində oxumuşdur. O, ingilis, rus, erməni dillərini mükəmməl bilirdi.

Rəhim Hüseynov Azərbaycan Silahlı Qüvvələrinin tərkibində NATO-ya bəyan edilmiş və dəfələrlə götürdüyü öhdəliyi müvəffəqiyyətlə yerinə yetirmiş Əməliyyat İmkanları Konsepsiyası (OCC BN) taborunun komandiri olmuşdur. 2020-ci ildə NATO-nun Əfqanıstan İslam Respublikasında Qətiyyətli Dəstək – qeyri-döyüş missiyasında Azərbaycan sülhməramlı kontongentinin və eyni zamanda Həmid Karzai Beynəlxalq Hava Limanının (HKIA) Qüvvə Qorunması taborunun komandiri vəzifəsində NATO Meritorious Service Medalı (Nato-nun xidmətə görə mükafat medalı) ilə təltif olunan ilk və tək azərbaycanlı zabiti olmuşdur.

Misilsiz xidmətlərinə görə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medallarına layiq görülmüşdür

Azərbaycan Ordusunun mayoru Rəhim Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başladılan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rəhim Hüseynov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ailəli idi. Üç övladı Vətənə yadigar qalıb.

Rəhim Qədir oğlu Hüseynov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Sərəncamlarına əsasən ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/336

https://www.unudulmazlar.az/az/infom/905

Əbülfəz Rəhmətov - 35

(1989-2020)

Kapitan



Əbülfəz Hüseynverdi oğlu Rəhmətov 1989-cu il iyul ayının 3-də Lerik rayonunun Anbu kəndində anadan olmuşdur.

O, orta təhsilini Lerik rayonunun Kitabəli Həmidov adına Ambu kənd tam orta məktəbində almışdır. 2006-2010-cu illərdə Heydər Əliyev adına Ali Hərbi məktəbinə ali təhsil almışdır.

2010-cu ildə leytenant, 2017-ci ildə kapitan rütbəsi almışdır.

2010-2020-ci illərdə Qusar, Abşeron, Goranboy, Tərtər, Tovuz və Gəncədə olan hərbi hissələrdə tağım komandiri, kəşfiyyat tağım komandiri, kəşfiyyat bölük komandiri, hərbi hissənin kəşfiyyat rəis əvəzi, motoatıcı taborun qərargah rəisi, motoatıcı tabor komandiri vəzifələrində xidmət etmişdir.

2016-cı ildə Aprel döyüşlərində və 2020-ci ildə Tovuz döyüşlərində iştirak etmişdir.

Misilsiz xidmətlərinə görə Əbülfəz Rəhmətov "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan ordusunun 100 illiyi" yubiley medalları ilə təltif olunmuşdur.

Hərbi xidmət müddətində kapitan Əbülfəz Rəhmətov Dördgünlük müharibədə (Aprel döyüşləri) iştirak etmişdir. Həmçinin, 2020-ci ilin Tovuz döyüşlərində general-mayor Polad Həşimov ilə bir sırada döyüşmüşdür.

Azərbaycan Ordusunun kapitanı olan Əbülfəz Rəhmətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Əbülfəz Rəhmətovun nəşi 6 may 2021-ci ildə Cəbrayıl rayonunda tapılmışdır. 7 may 2021-ci ildə Lerik rayonunda dəfn edilmişdir.

Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Əbülfəz Hüseynverdi oğlu Rəhmətov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respubliasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əbülfəz Rəhmətov ölümündən sonra "3-cü dərəcəli vətənə xidmətə görə Rəşadət" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medaları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3; Xalq qəzeti.- 2021.- 6 noyabr.- S.3.

İnternetdə:

https://ikisahil.az/post/291805-shehid-ebulfez-rehmetovun-qehremanliq-dastani

https://www.bizimyol.info/az/news/354456.html

İYUL
3

Anar Vəlizadə - 30

(1994-2020)

MAHHXHQ baş çavuş



Anar Afət oğlu Vəlizadə 1994-cü il iyul ayının 3-də Salyan rayonunun Cəngan kəndində anadan olmuşdur. Orta təhsilini Salyan rayonunun Cəngan kənd orta məktəbində və Kürqaraqaşlı kənd orta məktəbində almışdır.

2012-ci ildən DİN-in Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində istehkamçı vəzifəsində xidmət etmişdir.

Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Anar Vəlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Anar Vəlizadə noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. 12 noyabrda Salyan rayonunda dəfn olunmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Anar Afət oğlu Vəlizadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

https://memorial.az/az/qehremanlarimiz/118

5

Fuad Əlizadə - 30

(1994-2020)

Baş leytenant



Fuad Nazim oğlu Əlizadə 1994-cü il iyul ayının 5-də Şahbuz rayonunun Kolanı kəndində anadan olmuşdur. İlk təhsilini Naxçıvan şəhər 17 saylı məktəbdə almışdır. 2008-2011-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə, 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali təhsil almışdır

Fuad Əlizadə 2016-cı ilin aprelində baş verən döyüşlərdə iştirak etmişdir. 2018-ci ildə baş leytenat rütbəsinə layiq görülmüşdür. 2020-ci ilin fevral ayından 777 saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan Fuad Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi Cəbrayılın, Qubadlının və Laçın rayonun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fuad Əlizadə noyabrın 7-də Laçın dəhlizi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Fuad Nazim oğlu Əlizadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda, "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında $h [Mətn]: $b Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il Azərbaycan $g 2020.- 30 dekabr.- S.10-17.

İYUL
5

Qədir Məmişov - 35

(1989-2020)

Əsgər



Qədir Zülfəli oğlu Məmişov 1989-cu il iyul ayının 5-də Saatlı rayonunun Mircəlal kəndində anadan olmuşdur. 1995-2006-cı illərdə Saatlı rayonunda orta təhsil almışdır. 2007- 2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Qədir Məmişov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Qədir Məmişov 2 noyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. 2020-ci il noyabr ayının 3-də Saatlı rayonunun Mircəlal kəndində dəfn olunmuşdur.

Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Qədir Zülfəli oğlu Məmişov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

6

İxtiyar Əliyev - 30

(1994-2020)

Gizir



İxtiyar İlqar oğlu Əliyev 1994-cü il iyul ayının 6-da Goranboy rayonunun Goranlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun giziri olan İxtiyar Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər Əlahiddə Kəşfiyyat Taborunun heyətində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. oktyabrın 6-da Ağdərə istiqamətində "951" zirvəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunmuşdur. 2021-ci il oktyabrın 13-də gizir İxtiyar Əliyevin nəşi tapılmışdır, 14 oktyabr 2021-ci il tarixində Goranboy rayonunun Goranlı kəndində dəfn olunmuşdur.

İxtiyar İlqar oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında $h [Mətn]: $b Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il Azərbaycan $g 2021.- 6 noyabr.- S.2-3. Xalq qəzeti $g 2021.- 6 noyabr.- S.3.

İYUL
7

Camal İsmayılov - 40

(1984-2020)

Baş gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.32-44.

Camal Vidadi oğlu İsmayılov 1984-cü il iyul ayının 7-də Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olmuşdur. Camal İsmayılov ilk təhsilinin İqarka şəhərində V.P.Astafyev adına 1 nömrəli orta ümumtəhsil məktəbində və daha sonra təhsilini Neftçala şəhərində 1 nömrəli tam orta məktəbdə davam etmişdir.

2002-2004-cü illərdə Azərbaycan Silahlı qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur. 2004-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirmişdir və "gizir" hərbi rütbəsi verilmişdir. Xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (radio-teleqrafçı), xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət etmişdir. Azərbaycan, rus və erməni dillərində sərbəst danışırdı. 2016-cı il Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun baş giziri olan Camal İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Xocavəndin, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 19-da Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Ailəli idi iki övladı yadigar qalıb.

Camal Vidadi oğlu İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

7

Vüsal Omarov - 35

(1989-2020)

Gizir



Vüsal Şəmsəddinoviç Omarov 1989-cu il iyul ayının 7-də Kemerovo vilayətinin Prokopyevsk şəhərində anadan olmuşdur. 1995-2006-cı illərdə M.Müşfiq adına Gərəkli kənd tam orta məktəbində təhsil almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2009-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində "gizir" hərbi rütbəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vüsal Omarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vüsal Omarov sentyabrın 27-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Balakən Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Vüsal Şəmsəddinoviç Omarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə, "Cəsur döyüşçü", və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

İYUL
7

Şəhriyar İsmayılzadə - 30

(1994-2020)

Əsgər



Şəhriyar Əkbər oğlu İsmayılzadə 1994-cü il iyul ayının 7-də Şirvan şəhəri Hacıqəhrəmanlı qəsəbəsində anadan olmuşdur. 12 №-li tam orta məktəbdə oxumuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Şəhriyar İsmayılzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycan ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Şuşa şəhərlərinin işğaldan azad edilməsində iştirak etmişdir. 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. 10 noyabr 2020-ci ildə Şirvan Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Şəhriyar Əkbər oğlu İsmayılzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalı və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2793

https://az.wikipedia.org/wiki/Şəhriyar_İsmayılzadə

8

Elvin Bayramov - 25

(1999-2020)

Əsgər



Elvin İslam oğlu Bayramov 1999-cu il iyul ayının 8-də Bakı şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə 298 saylı məktəbdə orta, 2016-2020-cı ildə Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin Almaniya üzrə regionşünaslıq ixtisasında ali təhsil almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli döyüşlərdə iştirak etmişdir. 26 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Biləcəri Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Elvin İslam oğlu Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr. - S. 1;12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2342

İYUL
10

Kənan Yusibov - 25

(1999-2020)

MAHHXHQ kiçik çavuş



Kənan Fehruz oğlu Yusibov 1999-cu il iyul ayının 10-da Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 2005-2014-cü illərdə ildə Goranboy rayonunun Səfikürd kənd tam orta məktəbində, 2014-2018-ci illərdə Ağdam musiqi kollecində nağara üzrə təhsil almışdır. 2018-2020-ci illərdə DSX-nin Qazax rayonunda yerləşən N saylı hərbi hissəsində xidmət etmişdir. Xidməti dövründə kiçik çavuş hərbi rütbəsinə layiq görülmüşdür. 2020-ci ilin sentyabrın 8-dən Müdafiə Nazirliyinin Tərtər rayonunda yerləşən N saylı hərbi hissəsində müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Kənan Yusibov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 27-də Ağdərə istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur.

Kənan Fehruz oğlu Yusibov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

10

Vüsal Ramazanov - 30

(1994-2020)

Əsgər



Vüsal Vahid oğlu Ramazanov 1994-cü il iyul ayının 10-da Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Ramazan Muradov adına Yuxarı Çardaxlar kənd tam orta məktəbində təhsil almışdır. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Vüsal Ramazanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 30-da Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində dəfn olunmuşdur.

Vüsal Vahid oğlu Ramazanov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr. - S. 1;12.

https://azertag.az/xeber/Zaqatalada_sehid_Vusal_Ramazanovun_xatiresi_anilib-1970534

İYUL
11

Qara Balakişiyev - 30

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Qara Əmirxan oğlu Balakişiyev 11 iyul 1994-cü ildə Xocavənd rayonunun Əmiranlar kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Xocavənd rayon 4 saylı tam orta məktəbdə təhsil almışdır. 2012-2014-cü illərdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ildən isə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir. Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Qara Balakişiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 27 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Qara Əmirxan oğlu Balakişiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

11

İman Quliyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



İman Kürdoğlu oğlu Quliyev 1999-cu il iyul ayının 11-də Yevlax rayonunun Salahlı kəndində anadan olmuşdur. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İman Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Suqovuşanın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 4 noyabr 2020-ci ildə Laçın rayonunun Gülabird kəndində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

İman Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2281

İYUL
11

Əli Seyidov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Əli Rahim oğlu Seyidov 1999-cu il iyul ayının 11-də Bakı şəhərində, Ramana qəsəbəsində anadan olmuşdur. 2006-2017-cı illərdə Rixard Zorge adına 90 saylı orta məktəbdə təhsil almışdır. 2018-2019-cu illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidməti bitirdikdən sonra Azərbaycan Ordusunda müddətdən artıq xidmət keçirdi.

Azərbaycan Ordusunun əsgəri olan Əli Seyidov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər-Suqovuşan döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 4-də Tərtər-Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. 2020-ci il oktyabr ayının 10-da Bülbülə Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Əli Rahim oğlu Seyidov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən müharibəsi iştirakçısı" "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Ağdamın azad olunması" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/498

11

Əli Feyziyev - 30

(1994-2020)

Əsgər



Əli Malik oğlu Feyziyev 1994-cü il iyul ayının 11-də Astara rayonu Ərçivan qəsəbəsində anadan olmuşdur. 2000-2011-ci illərdə Ərçivan kənd 1 saylı tam orta məktəbdə təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əli Feyziyev 2020-ci il sentyabr ayının 27-də başlanan Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Noyabr ayının 8-də Şuşa uğrunda gedən döyüşdə şəhid olmuşdur. Ailəli idi. Bir övladı yadigar qalıb.

Əli Malik oğlu Feyziyev Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://cenublu.az/aktual/bu-gun-sahid-ali-feyziyevin-movlud-gunudur/

İYUL
12

Vidadi Əhmədov - 45

(1979-2020)

Mayor



Vidadi Murad oğlu Əhmədov 1979-cu il iyul ayının 12-də Salyan şəhərində anadan olmuşdur.

Vidadi Əhmədov 1985-1996-cı ildə Salyan şəhərindəki 1 saylı orta məktəbdə, 1996-2000-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində zirehli tank və avtomobil texnikasının istismarı ixtisası üzrə təhsil almışdır.

Vidadi Əhmədov 2000-2002-ci illərdə zabit kimi Murovdağda, 2002-2005-ci illərdə İraqda sülhməramlı qüvvələrin sıralarında, 2005-2011-ci illərdə Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində kapitan rütbəsində bölük komandiri kimi qulluq etmişdir. 2011-2014-cü illərdə Ali Hərbi Məktəbdə müəllim işləmişdir. 2014-2016-cı illərdə Tərtərdəki hərbi hissələrdən birində komandirin şəxsi heyətlə iş üzrə müavini olmuşdur. Aprel döyüşlərində iştirak etmişdir. 2014-cü il yanvar ayının 1-də 20 il qüsursuz xidmətinə görə ehtiyata buraxılıb.

Mayor Vidadi Əhmədovun Silahlı Qüvvələrin sıralarında qüsursuz xidməti layiqincə qitmətləndirilmiş, "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalları ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Vidadi Əhmədov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vidadi Əhmədov oktyabr ayının 12-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Salyan şəhərində dəfn olunmuşdur.

Ailəli idi. İki övladı vətənə yadigar qalıb.

Vidadi Murad oğlu Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Rəşadət" ordeni" və "Vətən uğrunda", "İgidliyə görə" , "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/698

İYUL
12

Niyaməddin Ələkbərov - 35

(1989-2020)

Gizir



Niyaməddin İsrafil oğlu Ələkbərov 1989-cu il iyul ayının 12-də Şərur şəhərində anadan olmuşdur. 2006-cı ildə Sumqayıt şəhər 25 saylı ora məktəbi bitirmişdir. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmət müddəti başa çatdıqdan sonra ordu sıralarında kəşfiyyatçı gizir kimi müddətdən artıq hərbi qulluqçu olaraq xidmətini davam etdirmişdir. 2016-cı il Aprel döyüşlərində də iştirak etmişdir.

Azərbaycan Ordusunun giziri olan Niyaməddin Ələkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Niyaməddin Ələkbərov oktyabrın 2-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 3-də Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn edilib

Niyaməddin Ələkbərov Azərbaycan Prezidenti İlham Əliyevin "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordenlə və "Vətən uğrunda", "Vətənə xidmətə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

13

Afərin Qulamzadə - 25

(1999-2020)

Əsgər



Afərin Müqəddəs oğlu Qulamzadə 1999-cu il iyul ayının 13-də Lənkəran rayonunun Mamusta kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Afərin Qulamzadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 3 noyabr Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 19 noyabr 2020-ci ildə dəfn olunmuşdur.

Afərin Müqəddəs oğlu Qulamzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhid adını əbədiləşdirmək məqsədilə Mamusta kəndində xatirə bulağı tikilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2649

İYUL
13

Oruc Vəliyev - 30

(1994-2020)

Əsgər



Oruc Ramiz oğlu Vəliyev 1994-cü il iyul ayının 13-də Gəncə şəhərində anadan olmuşdur. Gəncə şəhər Ə.Cavad adına 2 nömrəli tam orta məktəbdə və Bakı şəhərindəki 36 nömrəli tam orta məktəbdə təhsil almışıdr. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunlarında xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Oruc Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oruc Vəliyev oktyabrın 1-də Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. 18 dekabr 2020-ci il tarixində Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Oruc Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Oruc Vəliyev ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.61-65.

İnternetdə:

https://gencesehidleri.az/sehidler/553-veliyev-oruc-ramiz-oglu.html

14

Murad Xəlilli - 30

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Murad Vəli oğlu Xəlilli 1994-cü il iyul ayının 14-də Şərur rayonunun Çomaxtur kəndində anadan olmuşdur. Çomaxtur tam orta məktəbdə və Bakı şəhəri Namiq Məmmədov adına 9 saylı tam orta məktəbdə təhsil almışdır. 2011-ci ildə SHXÇ-DX-nin Şərur rayon idarəsi tərəfindən hərbi xidmətə çağrılmışdır. 2019-cu ildən Azərbaycan Ordusu sıralarında MAHHXHQ kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Murad Xəlilli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Murad Xəlilli oktyabrın 30-da Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Şərur rayonunun Çomaxtur kəndində dəfn olunmuşdur.

Ailəli idi. Bir övladı yadigar qalıb.

Murad Xəlilli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.5.

İYUL
14

Rəvan Şahmuradov - 25

(1999-2020)

Əsgər



Rəvan Dilşad oğlu Şahmuradov 1999-cu il iyul ayının 14-də Xaçmaz rayonunda anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Şahmuradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rəvan Şahmuradov oktyabrın 15-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Xaçmaz rayonunda dəfn olunmuşdur.

Rəvan Dilşad oğlu Şahmuradov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Xaçmaz rayonunun Şərifoba kəndində torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Rəvan Şahmuradovun xatirəsini əbədiləşdirmək məqsədilə abidə-bulaq kompleksi istifadəyə verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;12.

İnternetdə:

https://ordu.az/az/news/224963/serifoba-kendinde-sehid-ailesi-ziyaret-edilib

16

Saleh Məcidzadə - 30

(1994-2020)

MAHHXHQ əsgər



Saleh Nəriman oğlu Məcidzadə 1994-cü il iyul ayının 16-da Biləsuvar rayonunun Nəsimikənd kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Nəsimi kənd Rafiq Rzayev adına orta məktəbdə təhsil almışdır.

2015-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasına həqiqi hərbi xidmətə çağırılmışdır. 2017-ci ildən Xüsusi Təyinatlı Qüvvələrdə gizir kimi hərbi xidmətini davam etdirmişdir. O, 2016-cı il Aprel döyüşlərində və Tovuzda düşmən diversiya qrupunun məhv edilməsində iştirak etdiyinə görə komandanlıq tərəfindən təltif edilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Saleh Məcidzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 10 oktyabr 2020-ci ildə Cəbrayıl rayonunun Daş Veysəlli kəndinin düşməndən azad olunması zamanı qəhrəmancasına şəhid olmuşdur. 12 oktyabr 2020-ci ildə Nəsimikənd kəndində dəfn olunmuşdur.

Saleh Nəriman oğlu Məcidzadə Azərbaycan respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

İYUL
16

Tural Həsənov - 30

(1994-2020)

Əsgər



Tural Tapdıq oğlu Həsənov 1994-cü il iyul ayının 16-da Mingəçevir şəhərində anadan olmuşdur. Orta təhsilini Mingəçevir şəhər 10 N-li məktəbdə almışdır. Daha sonra Turizm kollecində Bədən Tərbiyəsi ixtisası üzrə təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tural Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Tərtər, Suqovuşan istiqamətlərində döyüşlərdə iştirak etmişdir. 2020-ci il oktyabrın 2-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Nəşi dekabrın 9-da neytral zonadan çıxarılaraq ailəsinə təhvil verilmişdir. Mingəçevir Şəhidlər xiyabanında dəfn edilmişdir.

Ailəli idi. İki övladı vətənə yadigar qalıb.

Tural Tapdıq oğlu Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:


https://memorial.az/az/qehremanlarimiz/2887

18

Mehman Yusifov - 45

(1979-2020)

Baş gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 10 dekabr.- S.2.

Mehman Musa oğlu Yusifov 1979-cu il iyul ayının 18-də Tovuz rayonunun Bayramlı kəndində anadan olmuşdur. 1985-1996-cı illərdə Tovuz rayonunda E.Orucov adına Bayramlı kənd orta məktəbində təhsil almışdır. 1998-2000-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2002-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirmişdir.

Hərbi qulluqda xidmətlərinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, II və III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ,"Azərbaycan Silahlı Qüvvələrin 95 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrin 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun baş giziri olan Mehman Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Tovuz rayonunun Bayramlı kəndində dəfn olunmuşdur.

Mehman Musa oğlu Yusifov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mehman Yusifov ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İYUL
18

Mətləb Ələsgərov - 25

(1999-2020)

Əsgər



Mətləb Vüqar oğlu Ələsgərov 1999-cu il iyul ayının 18-də Ağstafa rayonunun Köçəsgər kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə A. Ələkbərov adına 2 saylı Köçəsgər kənd tam orta məktəbində, 2016-2020-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Qaz-neft mədən fakültəsində Neft-qaz qurğuları mühəndisliyi ixtisası üzrə təhsil almışdır. Mətləb Ələsgərov 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Mətləb Ələsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Mətləb Ələsgərov oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Köçəsgər kəndində dəfn olunmuşdur.

Mətləb Vüqar oğlu Ələsgərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mətləb Ələsgərov ölümündən sonra "Vətənə xidmətə görə" orden və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2946

20

İbrahim Abdullayev - 30

(1994-2020)

Baş leytenant



İbrahim Habil oğlu Abdullayev 1994-cü il iyul ayının 20-də Bakı şəhərində anadan olmuşdur. Əvvəlcə Bakı şəhəri 160 saylı, sonra isə 8 saylı tam orta məktəbdə, 2011-2015-ci ildə Xarkov Politexnik İnstitutunda (Milli texniki Universitet) təhsil almışdır. 2016-2017-ci illərdə Azərbaycan silahlı qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2018-ci ildə SQ Təlim-Tədris Mərkəzində müvafiq hazırlıq kursları keçmiş, kəşfiyyatçı hərbi ixtisası və zabit rütbəsi alaraq xidmətini davam etdirmək üçün XTQ sıralarına göndərilmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan İbrahim Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ yüksəkliyi, Füzuli döyüşləri və Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 5-də Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər xiyabanında dəfn olunmuşdur.

İbrahim Habil oğlu Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUL
20

Fərid İlyasov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Fərid İbad oğlu İlyasov 1999-cu il iyul ayının 20-də Laçın rayonu Sadınlar kəndində anadan olmuşdur. 2006-cı ildən Laçın rayon Sadınlar kənd tam orta məktəbində, 2010-cu ildə isə təhsilini Binəqədi rayonunun 28 May qəsəbəsində yerləşən 306 saylı tam orta məktəbdə davam etdirmişdir. 2017-2018-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasına müddətli həqiqi hərbi xidmətə olmuşdur. Hərbi xidməti bitirdikdən sonra XTQ sırasında müddətdən artıq hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Fərid İlyasov 2020-ci ilin sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Fərid İlyasov 2020-ci il oktyabrın 30-da Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. II Fəxri xiyabanda dəfn olunmuşdur.

Fərid İbad oğlu İlyasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

https://memorial.az/az/qehremanlarimiz/371

20

Mais Səfərov - 25

(1999-2020)

Əsgər



Mais Şakir oğlu Səfərov 1999-cu il iyul ayının 20-də Neftçala rayonunun Xol Qarabucaq kəndində anadan olmuşdur. İbtidai təhsilini 2006-cı ildə Səbail rayonu Bayıl qəsəbəsi 163 saylı tam orta məktəbdə almış, daha sonra təhsilini 2010-2015-ci illərdə Sabunçu rayonu Balaxanı qəsəbəsi C. Cahangirov adına 4 saylı tam orta məktəbdə davam etdirmiş, 2015-2019-cu illərdə Bakı Humanitar Kollecinin Təsviri İncəsənət müəllimliyi fakültəsində təhsil almışdır. Mais Səfərov 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Mais Səfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Talış yüksəklikləri, Murovdağ və Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1 oktyabr 2020-ci ildə Goranboy rayonu Tap Qaraqoyunlu kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Mais Şakir oğlu Səfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUL
20

Nicat Orucov - 25

(1999-2020)

Əsgər



Nicat Niyadxan oğlu Orucov 1999-cu il iyul ayının 20-də Buzovnada anadan olmuşdur. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nicat Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa şəhəri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 26 oktyabr 2020-ci ildə Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Buzovna kənd qəbiristanlığında dəfn olunmuşdur.

Nicat Niyadxan oğlu Orucov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S. 18-21.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/3838

21

Sahib Musayev - 40

(1984-2020)

Gizir



Sahib Musa oğlu Musayev 1984-cü il iyul ayının 21-də Qax rayonunun Şotavar kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin "Su Altı Hücum" (SAH) Xüsusi Təyinatlı Qüvvələrinin miçmanı olan Sahib Musayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sahib Musayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur.

Sahib Musa oğlu Musayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2085

İYUL
23

Fədail Nadirov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Fədail Fərhad oğlu Nadirov 1999-cu il iyulun 23-də Qobustan rayonunun Bədəlli kəndində anadan olmuşdur. 2006-2016-cı illərdə Qobustan rayonu Bədəlli kənd orta məktəbində təhsil almışdır. 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağrılmışdır. 2020-ci ildən Beyləqanda yerləşən N saylı hərbi hissələrdən birində müddətdən artıq hərbi qulluqçu (MAHHXHQ) kimi fəaliyyətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Fədail Nadirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fədail Nadirov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Qobustan rayonunun Bədəlli kəndində dəfn olunmuşdur.

Fədail Fərhad oğlu Nadirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

https://shehidimiz.az/f%C9%99dail-nadirov/

23

Elşən Mehbalıyev - 30

(1994-2020)

Kiçik gizir



Elşən Təvəkgül oğlu Mehbalıyev 1994-cü il iyul ayının 23-də Bərdə rayonunun Otuzikilər kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanmışdır. Gizir Elşən Mehbalıyev cəbhənin Tərtər rayonu istiqamətində yerləşən N saylı Xüsusi təyinatlı hərbi hissədə xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun kiçik giziri olan Elşən Mehbalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elşən Mehbalıyev noyabrın 4-də Ağdərə istiqamətində şəhid olmuşdur. Bərdə rayonunun Otuzikilər kəndində dəfn olunmuşdur.

Elşən Təvəkgül oğlu Mehbalıyev ölümündən sonra Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbiqulluqçularının "Vətənuğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan RespublikasıPrezidentinin Sərəncamı,15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16dekabr.– S.6-12


Azərbaycan RespublikasıSilahlı Qüvvələrinin hərbiqulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsihaqqında: AzərbaycanRespublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. –2021. –25iyun. –S.66-67.

İYUL
24

Zaur Əliyev - 35

(1989-2020)

MAHHXHQ əsgər



Zaur Eldar oğlu Əliyev 1989-cu il iyul ayının 24-də Şəki şəhərində anadan olmuşdur. 1995-2004-cü illərdə Şəki şəhər 9 saylı tam orta məktəbdə təhsil almışdır. 2005-ci ildə Şəki Avtomobil məktəbini sürücü ixtisası üzrə bitirmişdir. 2007-2009-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmış və 2012-ci ildə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində müvafiq kurs keçərək xidmətini MAHHXHQ kimi davam etdirməyə başlamışdır. 2015-ci ildə ordudan tərxis olunmuşdur. 2020-ci ildə yenidən hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Zaur Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan döyüşlərində iştirak etmişdir. 14 oktyabrda Tərtər rayonunun Ağdərə qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəkidə dəfn olunmuşdur. Ailəli idi. Bir övladı yadigar qalıb.

Zaur Eldar oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Sahil Rəsulov - 25

24

(1999-2020)

MAHHXHQ əsgər



Sahil Sərvan oğlu Rəsulov 1999-cu il iyul ayının 24-də Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur.

2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 2020-ci ildən müddətdən artıq hərbi xidmət qulluqçusu kimi xidmətə davam etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Sahil Rəsulov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sahil Rəsulov 10 oktyabr Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. 11 oktyabr 2020-ci ildə Goranboy rayonunun Səfikürd kəndində dəfn olunmuşdur.

Sahil Sərvan oğlu Rəsulov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

https://unudulmazlar.az/az/infom/1173

İYUL
25

Elnur Quliyev - 40

(1984-2020)

Mayor



Elnur Eldar oğlu Quliyev 1984-cü il iyul ayının 25-də Füzuli rayonunda anadan olmuşdur. 1991-2001-ci illərdə Qəhrəmanlı qəsəbə tam orta məktəbində, 2002-2006-cı illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Artilleriya" ixtisası üzrə ali təhsil almışdır. Elnur Quliyev 2006-cı ilin iyulundan 2007-ci ilin iyununa qədər Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində (TTM) "Yerüstü Artilleriya Tağım Komandiri" kurslarında olmuşdur.

Elnur Quliyev 2007-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmət etmişdir. 2013-2015-ci illərdə Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə Bölüyün Komandiri, 2015-2019-cu illərdə isə Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissədə Maddi-Texniki Təminat (MTT) Bölüyü Komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət etmişdir.

Elnur Quliyev "mayor" hərbi rütbəsində Beyləqan rayonunda yerləşən hərbi hissələrdə Divizion Komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət etmişdir. Son olaraq Beyləqan rayonunda yerləşən "N" saylı Əlahiddə Kəşfiyyat Taborunda Tabor Komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun mayoru olan Elnur Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı təxliyə rəisi vəzifəsinə təyin olunmuşdur. Elnur Quliyev Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, Füzuli rayonu ərazisində olan "İlanlı" dağına Azərbaycan bayrağını sancan birinci hərbiçi olmuşdur. Elnur Quliyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı mühasirəyə düşən şəxsi heyətin xilas edilməsi üçün Tabor Komandiri və 4 nəfər döyüş yoldaşı ilə birgə döyüşə daxil olmuşdur. Döyüşlər zamanı Elnur Quliyev şəhid olmuşdur. Füzuli rayonunda dəfn olunmuşdur.

Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Elnur Eldar oğlu Quliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan §g 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2986

https://e-qanun.az/framework/46529

İYUL
27

Mirsəfa Mirəşrəfbəyli - 30

(1994-2020)

MAHHXHQ çavuş



Mirsəfa Mirbaba oğlu Mirəşrəfbəyli 1994-cü iyul ayının 27-də Cəlilabad rayonunun Badamağac kəndində anadan olmuşdur.

Mirsəfa Mirəşrəfbəyli 2016-2020-ci illərdə Daxili Qoşunların "Pələng" Xüsusi Təyinatlı Dəstəsində, 2020-ci ildən isə "Şahin" Xüsusi Təyinatlı Dəstəsində xidmət etmişdir.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Mirsəfa Mirəşrəfbəyli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Mirsəfa Mirəşrəfbəyli oktyabrın 11-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Cəlilabad rayonunda dəfn olunmuşdur.

Mirsəfa Mirbaba oğlu Mirəşrəfbəyli Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.45-57.

27

Qasım Abdullazadə - 25

(1999-2020)

Əsgər



Qasım Əli oğlu Abdullazadə 1999-cu il iyul ayının 27-də Bakının Mərdəkan qəsəbəsində anadan olmuşdur. 2005-ci ildə Mərdəkanda yerləşən H.Z.Tağıyev adına 123 nömrəli orta məktəbdə təhsil almağa başlamış və 2016-cı ildə təhsilini İsmayıllı rayonu 1 saylı tam orta məktəbdə başa vurmuşdur. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Qasım Abdullazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün başlanan Vətən müharibəsi zamanı cəbhənin bir çox istiqamətlərində döyüşlərdə iştirak edərək şücaət göstərmişdir. Qasım Abdullazadə 14 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə zamanı qəhrəmancasına şəhid olmuşdur.

Qasım Əli oğlu Abdullazadə Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə də təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:


https://unudulmazlar.az/az/infom/3813

İYUL
27

Nuran Mirzəyev - 25

(1999-2020)

Əsgər



Nuran Akif oğlu Mirzəyev 1999-cu il iyul ayının 27-də Quba rayonunun Dağlı kəndində anadan olmuşdur. 2005-2014-cü illərdə Qımıl kənd ümumi orta məktəbində, 2014-cü ildə Quba Peşə Liseyində Rabitə, elektrik mantyoru, sürücü ixtisasları üzrə təhsil almışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nuran Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak etmiş və 19 oktyabrda qəhrəmancasına şəhid olmuşdur. 21 oktyabr 2020-ci ildə Quba rayonunun Qımıl kəndində dəfn olunmuşdur.

Nuran Akif oğlu Mirzəyev Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 31 dekabr.- S.14-15.

İnternetdən:

https://az.baku-art.com/az/tarix-yazan-qehremanlar-rubrikasinda-nuran-mirz-yev

28

Taleh Namazov - 25

(1999-2020)

MAHHXHQ kiçik çavuş



Taleh Zülfəli oğlu Namazov 1999-cu il iyul ayının 28-də Ağstafa rayonunun Düzqışlaq kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Taleh Namazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Taleh Namazov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Düzqışlaq kəndində dəfn olunmuşdur.

Taleh Zülfəli oğlu Namazov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

İnternetdə:

https://media1.az/sehid-taleh-namazovun-dogum-gununde-xatiresi-anilib/

İYUL
28

İlkin Rzayev - 40

(1984-2020)

Mayor



Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il.

İlkin Cəfər oğlu Rzayev 1984-cü il iyul ayının 28-də Şərur rayonu Ələkli kəndində anadan olmuşdur.O, orta təhsilini 1990-1995-ci illərdə Suraxanı rayonu 270 nömrəli məktəbdə, 1995-2001-ci illərdə isə Nizami rayonu 250 nömrəli məktəbdə almışdır. 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2006-cı ildə hərbi məktəbi bitirərək "leytenant" rütbəsini almışdır. 2006-2007-ci illərdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində zabit kimi təkmilləşdirmə kursunu keçərək, Azərbaycan Ordusunda xidmətə başlamışdır.2009-cu ildə "Baş Leytenant", 2013-cü ildə "Kapitan", 2017-ci ildə isə "Mayor" rütbəsinə yüksəlmişdir.2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun mayoru olan İlkin Rzayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak etmişdir. O, 2 oktyabr 2020-ci ildə Murovdağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

İlkin Cəfər oğlu Rzayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

28

Elnur Zeynalov - 30

(1994-2020)

Baş leytenant



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Elnur Elsevər oğlu Zeynalov 1994-cü il iyul ayının 28-də Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan şəhər M.C. Cəfərov adına 14N-li tam orta məktəbdə, 2008-2011-ci illərdə Naxçıvan şəhər Heydər Əliyev adına Hərbi Liseydə, 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdır. 2015-ci ildə Ağstafa rayon N saylı Hərbi hissədə Kəşfiyyat qrup komandiri vəzifəsində xidmətə başlamışdır. 2018-ci ildə Baş Leytenant rütbəsi almışdır. 2020-ci ilin iyun ayında təyinatı üzrə Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlı N saylı hərbi hissəsində xidmətə başlamışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Elnur Zeynalov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl rayonu, Xocavənd rayonu, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elnur Zeynalov oktyabrın 31-də Xocavənd rayonu Qızılqaya yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Naxçıvan şəhərində dəfn olunmuşdur.

Elnur Elsevər oğlu Zeynalov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzuli azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İYUL
28

Ramil Paşayev - 30

(1994-2020) *MAHHXHQ kiçik çavuş*



Ramil Şakir oğlu Paşayev 1994-cü il iyul ayının 28-də Bərdə rayonunun Əyricə kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Ramil Paşayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ramil Paşayev oktyabrın 27-də Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ramil Şakir oğlu Paşayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/1129

28

Əhməd Laçınov - 25

(1999-2020) *Əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Əhməd Qurban oğlu Laçınov 1999-cu il iyul ayının 28-də Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində anadan olmuşdur. 2004-2013-cü illərdə R. Muradov adına Yuxarı Çardaxlar kənd tam orta məktəbində, 2015-2019-cu illərdə Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sırasına müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olan Əhməd Laçınov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ, Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əhməd Laçınov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində dəfn olunmuşdur.

Əhməd Qurban oğlu Laçınov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə","Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İYUL
28

Cəmil Məmmədli - 25

(1999-2020)

Əsgər



Cəmil Habil oğlu Məmmədli 1999-cu il iyul ayının 28-də İsmayıllı rayonunda anadan olmuşdur. 2005-2016-cı illərdə Bakı şəhəri Səbail rayonu 163 saylı orta məktəbdə orta təhsil almış, 2016-2020-ci illərdə Azərbaycan Texniki Universitetinin Metallurgiya fakültəsində ali təhsil almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağırılmışıdır.

Azərbaycan Ordusunun əsgəri olan Cəmil Məmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun işğaldan azad olunması uğrunda döyüşlərdə iştirak etmişdir. Oktyabrın 15-də Füzuli rayonunun Kürdlər kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Cəmil Habil oğlu Məmmədli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il // Azərbaycan.- 2022.- 6 noyabr.- S.2.

İYUL
29

Mənsur Ağayev - 30

(1994-2020)

Əsgər



Mənsur Ağa oğlu Ağayev 1994-cü il iyul ayının 29-da Hacıqabul rayonunun Padar qəsəbəsində anadan olmuşdur. Hacıqabul rayonunun Padar qəsəbə tam orta məktəbində təhsil almışdır. 2012-2014cü illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Mənsur Ağayev 2020-ci il sentyabrı 21-də Azərbaycan Silahlı qüvvələrinin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Mənsur Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Mənsur Ağayev noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Mənsur Ağa oğlu Ağayev Azərbaycan Respubliakasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/1443

İYUL
30

Şahin Fətaliyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Şahin Şamxal oğlu Fətaliyev 1999-cu il iyul ayının 30-da Beyləqan rayonunun Bolsulu qəsəbəsində anadan olmuşdu. Orta təhsilini aldıqdan sonra Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Həqiqi hərbi xidmət müddəti bitdikdən sonra 2-ci Ordu Korpusunun müddətdən artıq hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Şahin Fətaliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Şahin Fətaliyev 30 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Ailəli idi. Bir övladı Vətənə yadigar qalıb.

Şahin Şamxal oğlu Fətaliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şahin Fətaliyev ölümündən sonra "Vətən uğrunda" "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.


https://az.baku-art.com/az/shahin-kimi-veten-s-masina-ucalan-ahin-f-tal-yev

31

Nicat Məmmədli - 25

(1999-2020)

Leytenant



Nicat Rizvan oğlu Məmmədli 1999-cu il iyul ayının 31-də Culfa şəhərində anadan olmuşdur. 2005-2013-cü illərdə Culfa şəhərində 2 nömrəli tam orta məktəbdə, 2013-2016-cı illərdə isə Heydər Əliyev adına Hərbi Liseydə, 2016-2020-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır. Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Nicat Məmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nicat Məmmədli oktyabrın 9-da Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Culfa şəhərində dəfn olunmuşdur.

Nicat Rizvan oğlu Məmmədli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Rəşadət" ordeni və "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12

https://525.az/news/238920-culfada-sehid-leytenant-nicat-memmedlinin-anim-merasimi-olub

Zahid Qaralov – 90

(1934-2015)

İctimai-siyasi xadim



Zahid İbrahim oğlu Qaralov 1934-cü il iyul ayının 10-da Borçalı mahalının Başkeçid (indiki Gürcüstanın Dmanisi) rayonunun Ormeşən kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1952-1956-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1956-cı ildə Gürcüstanın Dmanisi rayonundakı Ormeşən kəndində orta məktəb direktoru kimi başlayan Zahid Qaralov 1959-1961-ci illərdə Dmanisi rayon komsomol komitəsinin birinci katibi olmuşdur.

1961-1964-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun əyani aspiranturasında oxumuşdur. Zahid Qaralov 1964-1976-cı illərdə Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri və elmi işlər üzrə direktor müavini, 1976-1984-cü illərdə isə həmin institutun direktoru vəzifələrində çalışmışdır. 1984-1987-ci illərdə Azərbaycan Respublikası Maarif nazirinin müavini işləmişdir. Zahid Qaralov 1987-ci ildən 1995-ci ilədək yenidən Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktoru vəzifəsini tutmuşdur. 1967-ci ildə namizədlik, 1994-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmiş və həmin ildə professor elmi adını almışdır.

Respublikanın ictimai-siyasi həyatının fəal iştirakçısı olaraq Zahid Qaralov 1973-cü ilin sentyabr ayından 1986-cı ilə qədər ardıcıl olaraq "26 Bakı komissarı" (indiki Səbail) rayonu Xalq Deputatları Sovetinin deputatı seçilmiş, "Mənzil uçotu və bölüşdürülməsi" üzrə komissiyanın sədri, rayon İcraiyyə Komitəsinin üzvü olmuş, Maarif Nazirliyinin orqanı olan "Fizika və riyaziyyat tədrisi" jurnalının baş redaktoru təyin olunmuş, 1995-2005-ci illərdə iki çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

Azərbaycanda pedaqogikanın inkişafında Zahid Qaralovun xidmətləri təqdirəlayiqdir. O, təhsil quruculuğu və məktəblilərin təlim-tərbiyəsi problemlərinə dair sanballı tədqiqatların müəllifi kimi tanınırdı. Alimin 200-dən çox elmi məqaləsi və 60-dan artıq monoqrafiyası, dərslik və dərs vəsaiti nəşr olunmuşdur. Respublikada pedaqogika sahəsində elmi kadrların hazırlanmasında Zahid Qaralovun böyük əməyi vardır. Onun rəhbərliyi altında onlarla tədqiqatçı dissertasiya müdafiə etmişdir. Alimin ölkəmizdə və onun hüdudlarından kənarda pedaqogikanın aktual problemlərinə həsr olunmuş müxtəlif elmi simpozium və konfranslardakı çıxışları mütəxəssislər tərəfindən yüksək dəyərləndirilmişdir. Zahid Qaralovun elmi və ictimai fəaliyyəti layiqincə qiymətləndirilmişdir.

1981-ci ildə "Respubilikanın Əməkdar Müəllimi" fəxri adı, '"Qırmızı Əmək Bayrağı" ordeni, 1983-cü ildə "Əmək veteranı" medalı, Azərbaycan Respublikasının ali mükafatları olan "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Zahid İbrahim oğlu Qaralov 2015-ci il yanvar ayının 7-də Almaniyanın paytaxtı Berlin şəhərindəki xəstəxanada vəfat etmişdir. İkinci Fəxri Xiyabanda dəfn olunub.

Ədəbiyyat:

Heydər Əliyev - milli ləyaqət ölçüsü /Zahid. Qaralov (ön söz). – Bakı: Təhsil, 2015. – 405, [3] s.

Müdrik müəllimimiz: Zahid Qaralov - 80 /tərt. ed.: S.Tağıyev, A.İbrahimova, A.Abdullayeva; elmi red. G.Qaralova; ön söz Z.Qaralov. – Bakı: Təhsil, 2014. – 366, [2] s.

Hacıyev, Ş. Görkəmli pedaqoq, ictimai-siyasi xadim, elm fədaisi, sadəlik və xeyirxahlıq mücəssəməsi / Şəmsəddin Hacıyev // Yeni Azərbaycan . – 2019. – 10 iyul. – S.5.

Abbasov, Ə. Onun xatirəsi unudulmayacaqdır / Ənvər Abbasov //Azərbaycan müəllimi. – 2019. – 12 iyul. – S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Zahid_Qaralov

https://www.wikimedia.az-az.nina.az/Zahid_Qaralov.html

İYUL
22

Aleksandr Makovelski – 140

(1884-1969)

Filosof



Ədəbiyyat:

Razumovski, V. Bakı şəhərində Universitetin yaradılması / Vasili İvanoviç Razumovski, Aleksandr Osipoviç Makovelski; [tərc. ed.: S.Ağabəyli, L.Əfəndiyeva; tərt. ed. və məsul red. F.Şiriyev; layihə. rəhb. və ön söz. A.Məhərrəmov. – Bakı: [Nurlar], 2014. – 107 s.

Rəşidov, Z. O.Makovelskinin tədqiqatlarında antik fəlsəfənin klassik mərhələsi və ellinizm dövrü // Şərq fəlsəfəsi problemləri, AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu.– 2021.– № 25.–S.78-86.

Rəşidov, Z. O.Makovelskinin tədqiqatlarında orta əsrlərdən yeni dövrədək Qərb fəlsəfə tarixi /Zaur Rəşidov // Dövlət və Din: İctimai fikir toplusu.– 2022. – № 02(73). – S.111-120.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Aleksandr_Makovelski

http://www.anl.az/ down/meqale/525/2013/iyun/312555.htm

Aleksandr Osipoviç Makovelski 1884-cü il iyul ayının 22-də Qrodno şəhərində anadan olmuşdur. Klassik gimnaziyanı qızıl medalla bitirmiş, Kazan Universitetinə qəbul olmuş, 1907-ci ildə Universitetin Fəlsəfə şöbəsini bitirmiş və həmin ildə fəlsəfə doktoru, 1921-ci ildə isə elmlər doktoru adını almışdır.

1904-cü ildə üçüncü kurs tələbəsi Makolevski Kazan Universitetinin 100-illik yubileyində Safoklun Antiqona faciəsində dramatik konfliktə yeni baxışların dəyərləndirilməsi adlı əsərinə görə medalla mükafatlandırılmışdır.

A.Makovelski əmək fəaliyyətinə 1906-cı ildən Kazan Ali qadın kurslarında fəlsəfə fənnini tədris etməklə başlamış, sonralar həmin kursların direktoru vəzifəsində çalışmışdır.

1913-cü ildə Makolevski, Sokratdan əvvəlki qədim yunan fəlsəfəsi üzrə ilkin mənbələrinin öyrənilməsi üçün Almaniyaya ikiilik elmi-ezamiyyətə göndərilmiş,- Birinci dünya müharibəsinin başlaması səbəbindən elmi işini yarımçıq qoyaraq, Rusiyaya qayıtmış Sankt-Peterburq və Moskva şəhərlərində elmi kitabxanalarda işini davam etmişdir. 1914-cü ildə Sokrataqədərkilər əsərinin birinci cildi, 1915-ci ildə ikinci cildi, 1919-cu ildə isə üçüncü cildi çapdan çıxmışdır.

A.Makovelski 1920-ci ildə müxtəlif şəhərlərdəki universitetlərdən, o cümlədən Bakı Universitetindən dəvət almış, əmək fəaliyyətini Azərbaycan Dövlət Universitetində davam etdirmişdir.1930-cu ilə qədər Psixologiya kafedrasının rəhbəri olmuş,1929-cu ildə Azərbaycan Dövlət Elmi Şurası təşkil olunan zaman A.Makovelski onun elmi katibi, sonra isə elmi pedaqoji bölməsinin sədri təyin olunmuşdur. Azərbaycan Dövlət Universitetinin yenidən təşkil edilməsi ilə əlaqədar olaraq Aleksandr Makovelski 1930-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna professor və Qiyabi Pedaqoji İnstituta direktor təyin olunmuş, eyni zamanda Elmi Tədqiqat İnstitutunda çalışmış,1938-ci ildən Azərbaycan Dövlət Universitetinin professoru olmuşdur.

1944-cü ildə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının Fəlsəfə Bölməsinə rəhbər, 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası təşkil olunanda isə həmin Akademiyanın Fəlsəfə İnstitutuna direktor təyin olunmuşdur. 1946-cı ildə SSRİ Elmlər Akademiyasının müxbir üzvü, 1949-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçil¬mişdir.

A.Makovelski qədim yunan fəlsəfə tarixi, dialektik və tarixi materializm, məntiq və məntiq tarixi, pedaqogika, psixologiya sahəsində, xüsusilə qədim yunan fəlsəfəsində sofistlər, Sokrata qədərki məktəblər, atomistlər barədə əsaslı tədqiqat aparmış, onların bir sıra əsərlərini tərcümə edərək şərh yazmışdır. Azərbaycan fəlsəfə tarixinə dair əsərlərində zərdüştlük, "Avesta", məzdəkilik, Şərqdə peripatetizm, neoplatonçuluq və atomizm, sufilik, Nizami və onun Şərqdə yeri, XIX əsr ictimai və fəlsəfi fikri kimi məsələləri geniş tədqiq etmişdir.

A.Makovelskinin elmi, pedaqoji və ictimai fəaliyyətini əks etdirən biblioqrafiyası 1964-cü ildə Bakıda çapdan çıxmışdır. Burada alimin Azərbaycan, rus, alman dillərində çap edilmiş 145, çap edilməmiş 18 elmi əsərinin adı göstərilmişdir.


Azərbaycanda fəlsəfi kadrların yetişdirilməsində alimin misilsiz xidmətləri olmuşdur. 1930-cu ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Aleksandr Makovelski 16 dekabr 1969-cu ildə Bakı şəhərində vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Əkbər Babayev – 100

(1924-1979)

Türkoloq



Əkbər Ağa Rza oğlu Babayev 1924-cü il iyul ayının 10-da Gəncənin Zərrabi məhəlləsində anadan olmuşdur. 5 yaşında oxuyub-yaza bilmişdir.Təhsilə marağının olmasında evlərində te-tez qonaq olan Ə.Cavad, S. Vurğunun xüsusi rolu olmuşdur. 15 yaşında orta məktəbi bitirmiş, yaşının az olduğuna görə atası onun yaşını sənədlərdə bir il artıq qeyd etdirmiş, hüquq fakültəsinə daxil olsada, ədəbiyyat və incəsənətə marağının olmasına görə oradan uzaqlaşmışdır.

Ə.Babayev 1939-cu ildə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. 1941-ci ildə, müharibə balayanda hərbi-tərcüməçilik məktəbini bitirib cəbhəyə göndərilmiş, 1942-ci ilin əvvəllərində Xarkov ətrafında gedən döyüşlərdə yaralanmışdır. Sağaldıqdan sonra Bakıya qayıdaraq təhsilini davam etdirmiş, eyni zamanda Azərbaycan Radio Verilişləri Komitəsində çalışmış, dərin məzmunlu publisistik yazıları ilə dinləyicilərin rəğbətini qazanmışdır.

1945-1946-cı illərdə Moskvada SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun "Türk şöbəsi" nəzdində aspiranturaya daxil olmuş, eyni zamanda Moskva Radio Verilişləri Komitəsində çalışmışdır. Bir çox türk yazıçılarının əsərlərini rus dilinə tərcümə etmişdir. Atasının həbs olunması Əkbərin təhsilinə də öz təsirini göstərmiş, onun aspiranturada təhsil almasına maneələr yaranmışdır. Görkəmli türk şairi Nazim Hikmətlə tanışlığı onun həyatında böyük dönüş yaratmışdır. Nazim Hikmət onun aspiranturaya bərpa olunmasına böyük köməklik göstərmişdir. Məhz, böyük türk şairinə olan hədsiz sevgisi, sonralar, 1951-ci ildə Əkbər Babayevi Nazim Hikmətin yaradıcılığı mövzusunda "Nazim Hikmət Sülh uğrunda mübarizdir" namizədlik dissertasiyasını müdafiə etməyə sövq etmiş və görkəmli alimlərin təklifi ilə bu sahədə tədqiqatlarını davam etdirmişdir. Əkbər Babayev Nazim Hikmətin 8 cildlik əsərləri toplusunun Bolqarıstan nəşrinə bilavasitə rəhbərlik etmişdir. Səmərəli elmi-tədqiqat və ədəbi yaradıcılıq fəaliyyəti ilə yanaşı, Türkiyə ilə ədəbi və mədəni əlaqələrin genişlənməsində də faydalı xidmət göstərmişdir. Şərqşünaslıq İnstitutunda apardığı elmi işlə yanaşı, Əkbər Babayev istedadlı tərcüməçi kimi də fəaliyyət göstərmişdir. Nazim Hikmətin, Əziz Nesinin və başqa türk yazıçılarının ən gözəl əsərlərini rus dilinə tərcümə etmiş, başqa tərcüməçilərə dəyərli məsləhətlər vermiş və bir sıra tərcümə əsərlərini redaktə etmişdir. O, Azərbaycan ədəbiyyatı nümunələrinin rus dilinə tərcüməsi, Moskva nəşriyyatlarında çap edilib geniş yayılması sahəsində də xeyli əmək sərf etmişdir. "Azərbaycan poeziyası antologiyası" adlı kitabını Moskvada rus dilində Xalq şairi Bəxtiyar Vahabzadə ilə birgə çap etdirmişdir. Türkoloq ömrünün sonunadək keçmiş SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda çalışmışdır. 1963-cü ildən Yazıçılar Birliyinin üzvü olmuşdur.

Ömrünün son illərində Moskvada 8 kitabı çap olunmuşdur. Nazim Hikmət yaradıcılığı haqqındakı monoqrafiyası Türkiyə, Polşa, Rumıniya, Yuqoslaviya, İraqda da nəşr olunmuşdur.

Əkbər Ağa Rza oğlu Babayev 1979-cu il sentyabr ayının 12-də Moskva şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Anar. Əkbərsiz türk olmaz / Anar //Ədəbiyyat qəzeti. – 2014. – 5 sentyabr. – S.4-5.

Şükürov, C. Yazıçılar Birliyində türkoloqalim Əkbər Babayev yad edilib /C.Şükürov // 525-ci qəzet. – 2014. – 18 oktyabr. – S.11

Fərəcov, S. "İstanbula mənim də gözümlə baxarsız!"/ Savalan Fərcov // Mədəniyyət. – 2019. – 5 iyul. – S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2019/iyul/662872.htm

https://525.az/news/26596-turkiye-sevdalisi-ekber-babayev

Kövsər Tarıverdiyeva – 110

(1914-2013)

Ədəbiyyatşünas



Kövsər Məmməd qızı Tarverdiyeva 14 iyul 1914-cü ildə İrəvanda Gedərçay üstündəki Dəmirbulaq məhəlləsində bağbanlıqla məşğul olan Məşədi Məmmədin ailəsində anadan olmuşdur. İrəvanda məşhur olan Haşım bəy məktəbində təhsil almış, 9-cu sinfi bitirərkən onun qabiliyyətini nəzərə alaraq İrəvan Pedaqoji Texnikumunun sonuncu kursuna dəyişdirilmişdir.

Pedaqoji məktəbi bitirdikdən sonra 1932-ci ildə ailəlisi ilə birgə Bakıya köçmüş, 1932-ci ildən fəhlə-gənclər məktəbində müəllimlik etmişdir. 1933-1937-ci illərdə K.Tarverdiyeva Lenin adına Pedaqoji İnstitutun (indiki ADPU) Ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. İnstitutun əyani və qiyabi şöbələrində XIX əsr Azərbaycan ədəbiyyatından, Azərbaycan ədəbiyyatı üzrə ümumi kursdan, uşaq ədəbiyyatından mühazirələr oxumuşdur.

Kövsər Tarverdiyeva 1937-ci ildən 1939-cu ilə qədər V.Lenin adına Azərbaycan Dövlət Pedoqoji İnstitutun Ədəbiyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1942-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda aspirantura təhsilini tamamlamışdır. 1942-1943-cü illərdə Azərbaycan SSR Təhsil Nazirliyində Kadrlar İdarəsinin rəisi vəzifəsində çalışmış, 1948-ci ilə qədər Azərbaycan SSR Təhsil Nazirliyi Müəllimləri Təkmilləşdirmə İnstitutunun elmi-tədris işləri üzrə prorektoru vəzifəsində işləmişdir.

30 yaşında tibb sahəsində təhsil almağa qərar vermiş və 1944-1949-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil almışdır, lakin sonralar həkim karyerasına davam etdirməmişdir.

1948-ci ildən etibarən 55 il Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (daha sonra Universitet) çalışmışdır.

1952-ci ildə İrəvanda "Abovyan və Axundov" mövzusunda namizədlik dissertasiyasını erməni dilində müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almış, həmin əsər 1958-ci ildə ayrıca kitab şəklində çap olunmuşdur. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Azərbaycan uşaq ədəbiyyatı və ədəbi əlaqələr mövzusunda mühazirələr oxumaqla yanaşı, elmi tədqiqatla ardıcıl məşğul olmuş, Azərbaycan, rus və erməni dillərində oxuduğu mühazirələr həmişə pedaqoji və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 100-dən çox elmi-kütləvi məqalələrinin, 8 kitab və monoqrafiyanın müəllifidir. Elmi-ədəbi fəaliyyətinə görə "Ali məktəb işçisi" fəxri adına, iki dəfə Azərbaycan SSR Ali Sovetinin Reyasət heyətinin fəxri fərmanına layiq görülmüş, "Qafqazın müdafiəsinə görə" və "Əmək fəaliyyətinə görə" medalları ilə təltif olunmuşdur.

Kövsər Tarverdiyeva 2013-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Kövsər Məmməd qızı Tarverdiyeva // İrəvan: Ensiklopedik foto-toplu. Bakı, 2019.- S. 27.

Sarıyeva, İ. Azərbaycançılıq və tarixi mənəvi dəyərlərimiz - Qərbi azərbaycanlı alim Kövsər Tarverdiyeva... /Sarıyeva İradə // Bakı Xəbər . – 2023. – 2 iyun. – S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Kövsər_Tarverdiyeva

https://www.wikiwand.com/az/Kövsər_Tarverdiyeva

İYUL
19

Ceyran Mahmudova - 60

(1964)

Musiqişünas



Ceyran Emin qızı Mahmudova 1964-cü il iyul ayının 19-da Bakı şəhərində anadan olmuşdur.

1971-1982-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil almışdır. 1982-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının tarixi-nəzəriyyə fakültəsinə daxil olmuş, 1987-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. 1987-1990-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun əyani aspirantı olmuşdur. 1990-1996-cı illərdə həmin institutda kiçik elmi işçi, elmi işçi, baş elmi işçi vəzifələrində çalışmışdır. 1991-ci ildən 2017-ci ilədək Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında müəllim vəzifəsindən profesor vəzifəsinə qədər yüksəlmişdir.

1994-cü ildə "Azərbaycan təsniflərinin problemləri" mövzusunda namizədlik, 2012-ci ildə "Azərbaycan bəstəkarlarının mahnılarında poeziya ilə musiqinin qarşılıqlı əlaqələri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Ali Attestasiya Komissiyası tərəfindən 2003-cü ildə dosent, 2017-ci ildə professor elmi adına layıq görülmüşdür.

2010-cu ildən Ali Attestasiya Komissiyasının sənətşünaslıq və memarlıq üzrə ekspert şurasının, Azərbaycan Bəstəkarlar İttifaqının İdarə heyətinin üzvüdür.

Ceyran Mahmudova 3 monoqrafiya, 3 dərs vəsaiti, 50-dən çox elmi, 40-dan artıq elmi-publisistik məqalənin, fənn proqramlarının və metodik göstərişlərin müəllifidir. Respublika və beynəlxalq miqyaslı bir sıra elmi konfrans və simpoziumlarda iştirak etmişdir.

2010-2014-cü illərdə Azərbaycan Televiziyası və "Mədəniyyət" kanalında "Musiqi xəzinəsi" verilişinin ssenari müəllifi və aparıcısı olmuşdur.

2017-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi sənəti" fakültəsinin dekanı vəzifəsində işləmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixili Sərəncamı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin olunmuşdur.

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuş, Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2023-cü il tarixli sərəncamı ilə Azərbaycanda təhsilin inkişafında xüsusi xidmətlərinə görə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat.

Emin Sabitoğlu /Ceyran Mahmudova (ön söz); elmi red. Z.Qafarova; [baş red. Ü.Məmmədova; burax. məs. S. İsmayılova; diz. N.Nəhmətova]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. – Bakı: Şərq-Qərb, 2016. – 145 s.

Elza İbrahimova /C. E. Mahmudova ; red. H.Babayeva; [baş red. S.Bektaşi; burax. məsul S.İsmayılova; dizayner K.Məhdəvi]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. – Bakı: Şərq-Qərb, 2015. – 31 s.

Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri: "Azərbaycan xalq musiqi yaradıcılığı" fənni üzrə Ali musiqi məktəbləri üçün dərs vəsaiti /Ceyran Mahmudova; elmi red. R.Zöhrabov, S.Abdullayeva, J.Qədimova [və b.]; Azərb. Resp. Təhsil Nazirliyi, Ü. Hacıbəyli ad. Bakı Musiqi Akad. – Bakı: [s. n.], 2014. – 112 s.

"Zəriflik" Beynəlxalq musiqi festivalı / Ceyran Mahmudova // Musiqi dünyası.– 2018.- №2/75.- S.7-9

İnternetdə:

https://www.admiu.edu.az/az.php?go=rektor

http://www.anl.az/down/meqale/azerbaycan/2018/iyul/601388.htm

Həbib bəy Mahmudbəyov – 160

(1864-1928) *Maarif xadimi*



Ədəbiyyat:

Vəzirov, H. Bakıdakı rusi-müsəlmani məktəblərin iyirmi beş illik yubiləsi münasibəti ilə /Haşım Vəzirov; Tərtibçilər: Ə.Tahirzadə, İ.Calallı. – Bakı: Nurlar, 2004. – 21+25 səh.

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. – C.II. – Bakı, 2005. – S.170.

Rəhimli, İ. Azərbaycan Teatr Ensiklopediyası. – C.II. – Bakı, 2017. – S.57.

Nəhmətova, K. Üç əsrin şahidi: 2 nömrəli Texniki-Humanitar Lisey-Həbib bəy Mahmudbəyovun yaratdığı məktəb /Könül Nəhmətova //Azərbaycan müəllimi. – 2014. – 4 aprel. – S.5.

Əliyeva, V.Həbib bəy Mahmudbəyov /Vəfa Əliyeva // Şərq. – 2018. - 9 noyabr. – S.13.

Fərəcov, S. Maarif və mədəniyyət yolunda yorulmaz təəssübkeş /Savalan Fərəcov //Mədəniyyət . – 2019. – 8 fevral. – S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/sherq/2018/noyabr/616086.jpg

Həbib bəy Hacı İbrahimxəlil bəy oğlu Mahmudbəyov 1864-cü il iyul ayının 29-da Şamaxı şəhərində anadan olmuşdu. Səkkiz yaşında ikən Şamaxının məhəllə məktəblərindən katib Mirzə Hüseyn adlı bir molla məktəbində oxumuş, sonra Şamaxının şəhər məktəbinə daxil olmuşdur. 1872-ci il zəlzələsində şəhər məktəbinin binası dağıldığından və Həbib bəy Bakıya gələrək real məktəbə daxil olmuşdur. Bu məktəbdə altıncı sinifədək oxuduqdan sonra 1883-cü ildə Sultan Məcid Qənizadə ilə birlikdə Tiflisə gedərək oradakı Aleksandrov Müəllimlər İnstitutuna daxil olmuşdur. 1887-ci ildə həmin institutu bitirərək yenə də Sultanməcid Qənizadə ilə bir yerdə Bakıya qayıdır və onlar ilk özəl rus müsəlman məktəbini açmışdılar. Bu, Azərbaycanda maarifin inkişafında böyük hadisə olmuş və maarifin gələcək inkişafının istiqamətini müəyyənləşdirmişdir.

Qısa müddətdə həmin məktəb məşhurlaşaraq 1891-ci ildə dövlət təminatına keçirilmişdir. 1896-cı ildə Həbib bəy Mahmudbəyov S. M. Qənizadə, İ. Məlikov və başqaları ilə birlikdə rus-müsəlman kitabxanası təşkil etmişdilər. 1897-ci ildə S.Qənizadə Ə.Axundovla birlikdə Bakıda nəşriyyat şirkəti yaratmış, əsasən rus və Azərbaycan dillərində bədii ədəbiyyat, dərsliklər və s. nəşr etmişlər. 1917-ci il oktyabr çevrilişinədək böyük ictimai maarifləndirmə fəaliyyəti ilə məşğul olmuş, Bakı şəhər dumasında məktəb komissiyasının üzvü kimi Azərbaycan müəllimlərinin Birinci qurultayının (1906) hazırlanması və keçirilməsində fəal iştirak etmişdir. Azərbaycanda sovet işğal rejimi qurulduqdan (1920-ci il 28 aprel) sonra H.Mahmudbəyov respublikada xalq təhsilinin inkişafında yeni istiqamətlərin işlənib hazırlanmasının fəal iştirakçılarından olmuşdur. Respublikada ali pedaqoji təhsilin təşkilində onun böyük xidmətləri olmuş, uzun müddət müəllim, məktəb direktoru kimi fəaliyyət göstərmişdir. Sosial təşkilat komissiyasının (1920) üzvü kimi o, pedaqoji institutun təşkilində fəal iştirak etmişdir. Ali pedaqoji institut yarandıqda onun direktor müavini, sonra isə direktoru olmuş, eyni zamanda rus dili və ədəbiyyatından dərs demişdir. Həbib bəy Mahmudbəyov gecə kursları təşkil etmişdi. Bu kurslar bir zaman Həbib bəy Mahmudbəyovun müdir olduğu və Şamaxı yolundakı binada yerləşmiş (Yasamal rayonu 18 və sonralar 240 nömrəli) məktəbdə təşkil olunmuşdur.

Həbib bəy teatr həvəskarı olmuş, onun rəhərlik etdiyi tetar trupbası Azərbaycanda tetrın inkişafında mühüm rol oyamışdır. Həbib bəy Mahmudbəyovun adı "Azərbaycan teatr tarixi" kitabına salınmışdır. Həbib bəy Mahmudbəyov xeyirsevər bir şəxsiyyət olmuş, kimsəsizlərin əlindən tutmuş, hərtərəfli yardım etmişdir. Hüseyn Ərəblinskini Azərbaycan xalqına qazandıran o olmuşdur.

Milli ziyalı nəslinin yetişməsində böyük əməyi olan maarif və mədəniyyət xadimi Həbib bəy Mahmudbəyov 1928-ci ildə iyun ayının 30-da Bakı şəhərində vəfat etmişdir. Bakıdakı 2 saylı Texniki-Humanitar Elmlər liseyi və Bakı şəhərindəki küçələrdən biri Həbib bəy Mahmudbəyovun adını daşıyır.

Təyyar Cəfərov – 85

(1939)

Fizik



Təyyar Cümşüd oğlu Cəfərov 1939-cu il iyul ayının 18-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsini bitirmiş, 1961-1978-ci illərdə SSRİ EA Yarımkeçiricilər İnstitutu və A.İoffe adına Fizika-Texnika İnstitutunda aspirant, elmi işçi, böyük elmi işçi və Diffuziya prosesləri sektorunun rəhbəri olmuşdur.

1978-ci ildən Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda laboratoriya rəhbəri, direktor müavini olmuş, hazırda isə Günəş və hidrogen enerjisinin çeviriciləri laboratoriyasının rəhbəridir. 1965-ci ildə namizədlik, 1974-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə edən alim 1982-ci ildə professor adını almış, 1989-cu ildə AMEA-nın müxbir, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir. 1980-1993-cü illərdə Azərbaycan Neft və Kimya Akademiyasında Ümumi fizika və Yarımkeçiricilər elektronikası fənlərini tədris edən Təyyar Cəfərov 1996-2004-cü illərdə Trabzonun Qaradəniz Texnik Universitetində və İstanbulun Yıldız Texnik Universitetində yarımkeçiricilər fizikası, optoelektronika, yüksək-temperaturlu ifrat keçiricilər fizikası, diffuziya prosesləri və s. kurslarından mühazirələr oxumuşdur. 2000-ci ildə "Yüksək temperaturlu ifrat keçiricilər" mövzusunda İtaliya universitetində mühazirələr oxuyan alim Per la Ricerca Di Base Universitetinin Fəxri professoru seçilmiş, bir sıra beynalxalq qrantların rəhbəri olmuşdur.

2006-2008-ci illərdə Azərbaycan Prezidenti yanında Ali Atestasiya Kommissiyasının "Fizika" ixtisası üzrə Ekspert Şurasının sədri, 2009-2011-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda "Fizika" ixtisası üzrə doktorluq dissertasiyasının Müdafiəsi Şurasının sədr müavini, 2019-ildə Fizika İnstitunda yaradılmış ED 1.14 saylı Dissertasiya Şurasının üzvü, AMEA-nın Fizika İnstitutunda və AMEA-nın Xəbərləri nəşr olunan "Fizika" və "Xəbərləri" jurnallarında Redaksiya heyətinin üzvüdür.

MDB və Avropa ölkələrinin Elmlər Akademiyalarının Beynəlxalq Assosiasiyası yanında "Elektronika Texnikasının Funksiyonal Materialları" Elmi Şurasının büro üzvüdür.

Onun rəhbərliyi ilə yarımkeçirici strukturlarda aşkarların diffuziya və elektrodiffuziya hədisələrinə radiasiya və işığın təsiri araşdırılmış, miqrasiya və deqradasiya hadisələrinin mexanizmləri müəyyən edilmiş və bir sıra stabil parametrli yarımkeçirici cihazların texnologiyası işlənmiş və tətbiq olunmuşdur. Nanoquruluşlu silisium əsasında yeni tip hidrogen elementlərini əldə etmə texnologiyası işlənilmişdir.

Təyyar Cəfərov 9 monoqrafiya və kitabın 350-dən çox elmi əsərin, 15 ixtiranın müəllifidir. 5 elmlər doktoru, 32 elmlər namizədinin rəhbəri olmuşdur. Alimin 140 məqaləsi Beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap olunmuş, ümumilikdə 332 elmi əsəri xarici mətbuatda çap olunmuşdur.

Təyyar Cəfərov 1974-cü ildə SSRİ Elmlər Akademiyasının Fəxri fərmanı, 2014-cü ildə AMEA-nın Fəxri fərmanı, 2006-cı ildə Yıldız Texnik Universitetinin rektorluğu (Türkiyə, İstanbul) tərəfindən Təşəkkürnamə, 2020-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Salmanov, V. M.Fizikanın müasir problemləri: (Dərs vəsaiti): [Ali məktəblər üçün dərs vəsaiti] / V. M. Salmanov; elmi red. T. C. Cəfərov ; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Un-ti.– Bakı: BDU, 2022.– 330, [2] s.

Əliyev, M. Dünyaşöhrətli alim / Maqsud Əliyev, Hüseyn İbrahimov // Respublika.– 2014.– 23 oktyabr.– S.7.

Görkəmli alim və pedaqoq // Elm. – 2019. – 26 iyul. – S.6.

İnternetdə:

https://science.gov.az/az/institutes/573


http://www.anl.az/down/meqale/azerbaycan/2020/iyul/724040.htm

http://www.anl.az/down/meqale/elm/2019/iyul/674136(meqale).pdf

https://az.wikipedia.org/wiki/Təyyar_Cəfərov

Məmmədsadıq Abdullayev – 100

(1924-2006) *Alim*



Məmmədsadıq Məmmədağa oğlu Abdullayev 1924-cü il iyul ayının 1-də Lənkəran şəhərində anadan olmuşdur. 1940-cü ildə, Lənkəran şəhərinin 2 №-li orta məktəbini bitirmiş və 16 yaşında Azərbaycan Tibb İnstitutuna qəbul olunmuşdur. 1944-cü ildə institutu fərqlənmə ilə bitirmişdir. 1943-cü ildən Azərbaycan Tibb İnstitutunda dərs demişdir. 1947-ci ildə ATİ-nun aspiranturasını və 1965-ci ildə Leninqradda S.M.Kirov adına Hərbi-Tibb Akademiyasında doktoranturanı bitirmiş və orada "Gözün hərəki aparat sinirləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edmiş, tibb elmləri doktoru, 1967-ci ildən professor adı almışdır.

1969-cu ildə Azərbaycan Tibb İnstitutunun "Histologiya" və 1969-1979-cu illərdə "İnsan anatomiyası" kafedralarının müdiri işləmişdir. 1988-2006-cı illərdə "İnsan anatomiyası" kafedrasının professoru, 1973-1979-cu illərdə Azərbaycan Anatomlar, Histoloqlar və Embrioloqlar Elmi Cəmiyyətinin sədri, 1976-1979, 1992-1995–ci illərdə Azərbaycan Tibb jurnalının baş redaktoru, 1976-1979-cu illərdə Azərbaycan SSR EA Terminologiya Komitəsinin üzvü olmuşdur.

1971-ci ildə SSRİ Ali Sovetinin rəyasət heyətinin fərmanı ilə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur, 1991-ci ildə "Azərbaycan SSR əməkdar elm xadimi" adına 2001-cü ildə "Qızıl qələm" mükafatı laureatı olmuşdur.

"İnsan" (1996), "Qalenizm və renessans anatomiyasının iztirabları" (2000),"İnsanın anatomiyası" (I cild. 2000); "Azərbaycanda XX əsrin tibb tarixində insanın anatomiyası" (2006) və s. kitabların müəllifi Məmmədsadıq Abdullayevin tədqiqatları periferik sinirlərin mieloarxitektonikasının həm normada, həm də xroniki işemiya şəraitində öyrənilməsinə həsr edilmişdir. O, 300-ədək elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir. Bir sıra beynalxalq konfranslarda məruzələrlə çıxış etmişdir.

Məmmədsadıq Abdullayev 18 oktyabr 2006-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

İnsanın anatomiyası: dərslik: [2 cilddə] / Məmmədsadıq Abdullayev, E. H. Məmmədova; rəyçilər M. R. Sapin, Ş. M. Musayev.– I Cild.– Bakı: Azərnəşr, 2000.– 416 s.

Axundov, İ. Böyük alim-sadə insan: Əməkdar elm xadimi, professor Məmmədsadıq Abdullayevin həyat və yaradıcılıq yolu /İmran Axundov; elmi red.: T.D. Qayıbov, K.T. Məmmədova; rəyçilər: L.H. Məmmədbəyova, E.H. Məmmədova. – Bakı: Nurlan, 1999. – 100 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məmmədsadıq_Abdullayev

http://ensiklopediya.gov.az/az/terms/793/cild/13

Arif Heydərov - 70

(1954) *Alim*



Arif Əmrah oğlu Heydərov 1954-cü il iyul ayının 5-də Ukrayna Respublikasının Stalin Vilayətində (indiki Torez şəhəri) anadan olmuşdur. 1970-ci ildə Yardımlı rayonu Yolocaq kənd orta məktəbini bitirmiş 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun (indiki Azərbaycan Pedoqoji Universiteti) Kimya fakültəsində təhsil almışdır. 1975-1977-ci illərdə Yardımlı rayonu Yolocaq kənd orta məktəbində kimya müəllimi işləmişdir. Arif Heydərov 1977-ci ildə Azərbaycan Elmlər Akademiyasının (indiki Milli Elmlər Akademyası) Qeyri-üzvi və Fiziki kimya İnstitunun (indiki MEA-ın M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) "Mineral maddələrin texnologiyası" laboratoriyasında aspirantura-ya daxil olmuş və 1986-cı ildə "Filizçay polimetallik filizindən alınan sink konsentrantının emalı prosesində qalliumun çıxarılması" mövzusunda namizədlik, 2010-cu ildə isə "Filizçay polimetal sulfid filizinin əsas və müşayət edən komponentlərə görə kompleks emalının elmi əsaslarının işlənib hazırlanması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

4 fevral 2011-ci ildə ona kimya elmləri doktoru adı, 8 may 2015-ci ildə isə "Qeyri-üzvi kimya" ixtisası üzrə professor elmi adı verilmişdir. 2011-ci ildən "Mineral maddələrin emalının kimyası və texnologiyası" laboratoriyasının nəzdində yaradılmış "Əlvan və nadir metallar" qrupunun rəhbəri olmuş, 2014-cü ildən "Əlvan metal tərkibli mineral xammalın emal" laboratoriyasının müdiridir.

Arif Heydərovun elmi fəaliyyəti Azərbaycan ərazisində olan zəngin və kasıb filizlərdən və qeyri-üzvi istehsalat tullantılarından əlvan və nadir metalların çıxarılmasının elmi əsaslarının işlənib hazırlanmasından ibarətdir. 2011-ci ilə kimi Arif Heydərov Filizçay polimetallik sulfid filizinin pirrotinləşmiş yanmasını və alınan pirrotinləşmiş yanığın avtoklav həll olması şəratini tədqiq etmiş, Gədəbəy mis tərkibli oksidləşmiş filizin xlorid və hipoxlorit məhlulları ilə yuyulmasının və yuyulmadan alınan məhlullardan mis və sinkin ion dəyişdirici sorbentlər vasitəsi ilə ayrılmasının optimal şəraitini tədqiq etmiş, Daşkəsən Filiz saflaşdırma kombinatının tullantılarından qiymətli metalların (Co, Cu, Zn, Mn) çıxarılmasının səmərəli parametr və rejimləri müəyyən edilmiş, laboratoriya şəraitində yeraltı aşındırma prosesini modelləşdirən sınaq stendi hazırlamışdır. 2014-cü ildə "Mineral tullantılardan qiymətli metalları ayırıb saflaşdıran mobil pilot sisteminin qurulması və yarımsənaye sınaqlarının keçirilməsi" mövzusunda onun tərəfindən təklif olunmuş elmi-tədqiqat layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin inkişafı fondunun "Sənaye qrantı" məqsədli müsabiqəsinin (ELF/MQM/ Sənaye-2014-4-19) qalibi seçilmişdir.

2014-cü ildən o, Azərbaycan Respublikası Prezdenti yanında AAK-nın kimya ixtisası üzrə ekspert şurasının üzvüdür. Arif Heydərov 120-dən çox elm məqaləsinin, 1 ixtiranın müəllifidir. 53 elmi əsəri xaricdə çap olunmuş, 14 əsəri beynəlxalq bazalarda indeksləşdirilən jurnallarda çap olunmuşdur. Onun rəhbərliyi ilə 4 nəfər namizədlik dissertasiyası müdafiə etmiş, 2 nəfər dissertant və 2 nəfər aspirant isə tədqiqat işlərini davam etdirir.

Hazırda A.Ə.Heydərov yeni elmi tədqiqat işləri üzərində işləyir.

Ədəbiyyat:

Tərkibində kobalt olan əlvan metallı kekin sulfatlaşmasının tədqiqi/ A.Ə.Heydərov, M.M.Əhmədov, N.V.Yusifova, A.A.Quliyeva // Kimya Problemləri.– 2015. № 4.–S. 262-266.

Tağıyev, D. Görkəmli kimyaçı alim və pedaqoq:[Həbibulla Sahtaxtinski haqqında] / Dilqəm Tağıyev, Arif Heydərov// Elm.– 2020.– 15 sentyabr.– S.13.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Arif_Heydərov_(kimyaçı)

https://science.gov.az/az/forms/doktora-nauk-instituta-kataliza-i-neorganicheskoy-himii/475

"28 May" və "Gənclik" metrostansiyaları arasında qatarda partlayış – 30 (1994)



1994-cü ilin iyul ayının 3-də 28 May metrostansiyasından Gənclik metrostansiyası istiqamətində hərəkət edən qatarın platformaya çatmağına 500 metr qalmış, elektrik qatarın ikinci vaqonunda partlayış, sonra yanğın baş vermişdir. Terror aktı nəticəsində 13 nəfər həlak olmuş və 58 nəfər isə yaralanmışdır.

Məhkəmə araşdırmaları zamanı müəyyən olunmuşdur ki, 14 yanvar 1994-cü ildə erməni separatçılarının ideoloqlarından biri, yazıçı Zori Balayan hərbi əsir, milliyətcə ləzgi olan Azər Aslanovla görüşmüş, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirmişdir. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının "Artur" adlı əməkdaşı A.Aslanovun Bakıdakı mənzilinə zəng vuraraq onun sağ olduğunu bildirmiş və azad olunması üçün yaxın qohumlarından birinin İrəvan şəhərinə gəlməsinin zəruriliyini qeyd etmişdir. 16 iyun 1994-cü il tarixində A.Aslanovun anası Tacibat Aslanova İrəvana gəlmişdir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilmiş, bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə "Ömər-75" təxəllüsü ilə daimi əməkdaşlığa cəlb edilmişdir. Azərbaycana maneəsiz gəlməsi üçün Azər Aslanovun adına saxta sənədlər hazırlanmış, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodorant qutularında gizlədilmişdir. A.Aslanov İrəvan — Mineralnıye Vodı — Bakı marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun "28 May" və "Gənclik" stansiyası arasında qatarda terror aktını həyata keçirmiş və yenidən Ermənistana qayıtmışdır. Bu müddət ərzində İrəvanda girov saxlanılan anası yalnız bundan sonra azad olunmuşdur. Terror aktı ilə əlaqədar olaraq Moskvada yaşayan Azər- baycan vətəndaşı Azər Salman oğlu As- lanov həbs edilmiş, 1997-ci ilin 29 noyabr tarixində Bakıya gətirilərək, məhkəmənin hökmü ilə ömürlük həbs cəzasına məhkum edilmişdir. İstintaq zamanı müəyyən edilmişdir ki, terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının polkovniki Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olmuşdur. Azərbaycan Respublikasının Ali Məhkəmə instansiyaları tərəfindən aparılmış araşdırmalar prosesində göstərilən terror aktlarının həyata keçirilməsində Dağlıq Qarabağın qeyri-qanuni rejiminin funksionerləri və Ermənistan Respublikasının xüsusi xidmət və digər dövlət orqanlarının təşkilatçılığı, maliyyə və texniki dəstəyi, əksər hallarda isə bilavasitə iştirakı prosessual qaydada sübuta yetirilmişdir. Aslanovun ifadələri əsasında, məhkəmənin göstərişi ilə Zori Balayana qarşı cinayət işi açılmış, 1999-cu ildə Azərbaycan Respublikasının Baş Prokurorluğunun təqdimatı əsasında Balayan İnterpolun xətti ilə beynəlxalq axtarışa verilmiş, sonra MDB dövlətlərində də beynəlxalq axtarışa verilmişdir. 2001-ci ildə Ermənistan tərəfinin müraciəti əsasında İnterpol Balayanı axtarışda olan şəxslər siyahısından çıxarmışdır. 2005-ci ilin may ayında Zori Balayan İnterpol tərəfindən, İtaliyanın Brindizi şəhərində beynəlxalq axtarışda olan cinayətkar kimi saxlanılmış, polis məntəqəsində 4 saat saxlandıqdan sonra sərbəst buraxılmışdır.

Ədəbiyyat:

Qacar, Mərkəz. Metroda terror: Sənədli povest / Mərkəz Qacar; Rəssam: Yavər Əsədov.–Bakı: Adiloğlu, 2004.–116 s.

Rəşad. Azərbaycan ərazisində törədilən terror hadisələri: Ölkəmizdə həyata keçirilən terror aktlarının arxasında daha çox hansı ölkələrin əli olub... / Rəşad // Hürriyyət.– 2020.– 20–21 oktyabr.– S.11

İnternetdə:

hhttps://az.wikipedia.org/wiki/Bak%C4%B1_metrosunda_partlay%C4%B1%C5%9Flar

https://www.youtube.com/watch?v=sdJdSFVz4TA

Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi seçilmişdir - 55 (1969)



Heydər Əlirza oğlu Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsindən 55 il ötür. Heydər Əliyev 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olmuş, 1974-1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsinə təyin edilmişdir. Heydər Əliyev 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabr ayında isə Siyasi Büronun üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunmuşdur. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmiş və SSRİ məkanında bir neçə mühüm layihənin həyata keçirilməsi məhz onun adı ilə bağlıdır. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq, Heydər Əliyev 1987-ci ilin oktyabr ayında tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar, yanvar ayının 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılması tələbini qoymuşdur. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyul ayında Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ildə Azərbaycana qayıdan Heydər Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatı seçilmiş, 1991-ci il sentyabr ayının 3-dən Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini seçilmiş, 1993-cü ilədək bu vəzifədə çalışmışdır. 1992-ci il noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında Heydər Əliyev partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığı bir vaxtda Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş, iyun ayının 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır.1993-cü il oktyabr ayının 3-də ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş, 2003-cü ilin oktyabr ayına qədər bu vəzifəni icra etmişdir. 2003-cü il oktyabr ayının 15-də keçirilən Prezident seçkilərində səhhəttində yaranmış problemlə əlaqədar öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürmüşdür. 2003-cü il dekabr ayının 12-də Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmiş və dekabr ayının 15-də Bakıda, Fəxri xiyabanda dəfn olunmuşdur.

İki ictimai-siyasi quruluşda Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin hər iki sistemdə görkəmli dövlət və siyasi xadim kimi Azərbaycan Respublikasının inkişaf etmiş dövlət kimi möhkəmlənməsində xidmətləri böyükdür. O, prezident seçildikdən sonra Azərbaycanda siyasi sabitlik bərpa olunmuş, mühüm dövlət təsisatları yaradılmışdır. Onun rəhbərliyi ilə əhəmiyyətli siyasi, iqtisadi və sosial islahatlar həyata keçirilmiş,1994-cü ildə Birinci Qarabağ müharibəsini dayandıran atəşkəs sazişi olan Bişkek protokolu imzalanmışdır.

Azərbaycanın ilk konstitutsiyası qəbul edilmiş, parlament seçkiləri baş tutmuş, təşəbbüsü və səyi nəticəsində Azərbaycanın gələcək iqtisadi yüksəlişini təmin edən "Əsrin müqaviləsi" adlanan neft sazişi imzalanmışdır.

H. Əliyev beş dəfə keçmiş SSRİ-nin Lenin ordeni ilə (1971-ci, 1973-cü, 1976-cı, 1979-cu, 1983-cü illər), Qırmızı Ulduz ordeni ilə (1962-ci il), çoxsaylı medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına (1979-cu və 1983-cü illər), həmçinin müxtəlif ölkələrin ali mükafatlarına, nüfuzlu ali məktəblərin fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat:

Böyük insanın ömür anları...: Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur: [Fotoalbom] /Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi.- Bakı: [Heydər Əliyev Fondu], 2023.- 495, [5] s.

Heydər Əliyev: Biblioqrafiya: (Kitabları və haqqında yazılmış kitablar) / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. ed.: M. Vəliyeva, Y. Sadıqova; elmi red. K. Tahirov; red. X. Abbasova; ön söz. müəl. İ. Həbibbəyli; [dizayner M. Əliqızı].- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2023.- 999, [1] s.

Heydər Əliyev - Azərbaycan dili və azərbaycançılıq: Heydər Əliyev - 100 / AMEA, İ. Nəsimi ad. Dilçilik İn-tu; elmi red. və ön söz. müəl. N. Cəfərov; [dizayner K. İbrahimov].- Bakı: Elm və təhsil, 2023.- 256 s.

Muradova, Z. Heydər Əliyev və Qarabağ / Zəhra. Muradova; elmi red. H.Məmmədova.- Bakı: [Orxan NPM], 2023.- 190, [2] s.

Əlixanov, H. Qələbəyə aparan yol: [Heydər Əliyev - 100] / H. Əlixanov; red. F. Əlixanova; [dizayner A. Aydın].- Bakı: [Zərdabi Nəşr], 2023.- 239, [1] s.

Beynəlxalq Şahmat Günü (1966)



1966-cı ildən 20 iyul dünyanın hər yerində Beynəlxalq Şahmat Günü kimi qeyd olunur. Bu bayram Beynəlxalq Şahmat Federasiyasının (FİDE) qərarı ilə keçirilir. Bütün rəsmi yarışlar, o cümlədən kişi və qadınlar arasında dünya çempionatları, kişi, qadın, tələbə və yeniyetmələrin komanda birincilikləri, Avropanın komanda birinciliyi, Avropa Çempionlar kuboku, Panamerikan fərdi yarışları FİDE-nin himayəsi altında keçirilir. FİDE 1950-ci ildən kişilərə, 1976-cı ildən isə qadınlara beynəlxalq qrossmeyster adı verir.

Azərbaycanda şahmat ən populyar idman növlərindən biridir. 1926-cı ildə Bakı, 1934-cü ildə isə ilk Azərbaycan çempionatı keçirilmişdir. Turnirin qalibi K.Səlimxanov olmuşdur. 50-ci illərin sonunda istedadlı şahmatçı S.Xəlilbəyli SSRİ idman ustası adına layiq görülmüş ilk azərbaycanlı şahmatçı olmuşdur.

Ötən əsrin 70-ci illərindən başlayaraq Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikada şahmat məktəbləri tikilməyə başlamış, gənclərin bu idman növünə marağı artmış, gənc və istedadlı şahmatçılar pleyadası yetişmişdir. Hazırda respublikada fəaliyyət göstərən 70-ə yaxın uşaq-gənclər şahmat məktəblərində 40 mindən çox uşaq və yeniyetmə məşğul olur.

Şahmatçılarımızın uğurları və şahmat sahəsindəki mövcud potensial onun gələcək inkişaf perspektivlərinin təmin edilməsi istiqamətində konkret tədbirlərin görülməsi, ölkədə şahmatın daha da inkişaf etdirilməsi və beynəlxalq yarışlarda yeni nailiyyətlərin qazanılmasını təmin etmək məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2009-2014-cü illərdə şahmatın inkişafına dair Dövlət Proqramı təsdiq edilmişdir. Bu proqramın əsas məqsədi şahmat sahəsində sistemli dövlət siyasətinin yürüdülməsi, ölkədə şahmatın və onun infrastrukturunun daha da inkişaf etdirilməsi, beynəlxalq səviyyəli şahmatçıların, məşqçilərin, hakimlərin və digər mütəxəssislərinin hazırlanmasını təmin etməklə ölkənin beynəlxalq miqyasda rolunun artırılmasından ibarət idi. Azərbaycan FİDE-nin üzvü olan 180-ə yaxın ölkə arasında şahmatın inkişaf etdirilməsi üzrə xüsusi Dövlət Proqramı qəbul etmiş yeganə dövlət sayılır. Azərbaycan şahmatçıları Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov və Vüqar Həşimov dünyanın ən güclü 20 şahmatçısı kimi FİDE-nin siyahısında yer almışdılar. Hazırda Azərbaycanda 25 beynəlxalq qrossmeyster, 16 beynəlxalq usta, 20 FİDE ustası, 16 FİDE hakimi və 15 beynəlxalq hakim var.

2008-2009-cu il 20 aprel-6 may tarixində ilk Qran-pri seriyalı yarışma, 2014-2015-ci il 1-15 oktyabr tarixində Bakı Qran-prisi, 2016-cı il 1-14 sentyabr tarixində Bakıda 42-ci Şahmat Olimpiadası, 2019-cu ildə Azərbaycan dövlət müstəqilliyinin bərpasının 28-ci ildönümü münasibətilə sentyabrın 20-də onuncu "Baku Open 2019" beynəlxalq şahmat festivalı, 2022-ci il 21-24 sentyabr tarixlərində Şuşa şəhərində Azərbaycan şairəsi Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunmuş ilk beynəlxalq şahmat turniri keçirilmişdir. 2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan "Baku Open-2023" beynəlxalq şahmat festivalı keçirilmişdir.

Son illərdə şahmat üzrə dünya və Avropa miqyaslı yüksək statusa malik yarışların ölkəmizin paytaxtı ilə yanaşı bölgələrində də baş tutması Azərbaycanın dünyanın şahmat mərkəzlərindən birinə çevrilməsi yolunda atılan mühüm addımdır. İnanırıq ki, dövlətimizin qayğı və dəstəyi ilə əhatə olunan "zəka oyunu"nun təmsilçiləri olan şahmatçılarımız onlara göstərilən etimadı hər zaman doğruldacaq, yeni-yeni qələbələrlə xalqımızı sevindirəcəklər.

Ədəbiyyat:

Ulu Öndərin 100 illik yubileyinə həsr edilmiş "Baku Open -2023" festivalının açılış mərasimi olub // Azərbaycan.- 2023.- 6 may.- S.12.

Bayramov, O. Heydər Əliyev və Azərbaycan şahmatının zəfər salnaməsi / Oqtay Bayramov; red. İ. Abbasov; [dizayn.: F. Əhmədov, R. Məhərləmov].- Bakı: [Zərdabi LTD MMC], 2018.- 95, [1] s.

Nərimanoğlu, M. 1500 yaşlı oyun: 20 iyul Beynəlxalq Şahmat Günüdür / Məhəmməd Nərimanoğlu // Azərbaycan.- 2021.- 18 iyul.- S.12.

Xəlilov, Y. Şahmat daşları: qədim tarix və maraqlı simvolika / Yunis Xəlilov // 525-ci qəzet.- 2023.-28 sentyabr.- S.12.

Əziz, Ş. "Natəvan Düma ilə şahmat oynayarkən" / Şəbnəm Əziz; müsahibəni apardı A.Sahəd // 525-ci qəzet.- 2023.- 7 iyun.- S.13.

İnternetdə:

https://president.az/az/articles/view/20929/print

https://informator.az/news_4925.html

Milli Mətbuat və Jurnalistika Günü (1991)



1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında yeni səhifə açılmışdır.

Vətənpərvər ziyalı Həsən bəy Zərdabi böyük əzab-əziyyətdən sonra ana dilində ilk qəzetin çapına müvəffəq olmuşdur. 1875-ci ilin 22 iyul tarixindən 1877-ci ilin 29 sentyabr tarixinə qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilmişdir. Bu müddət ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür. "Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının – Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Dərbənddən Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunmuşdur.

1877-ci il sentyabrın 29-da "Əkinçi" öz nəşrini dayandırmağa məcbur olmuşdur. Azərbaycan milli mətbuatının təməlini qoyan bu qəzet, ikiillik ömür yaşasa da, xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynamışdır. "Əkinçi"dən sonra onun yolunu milli mətbuatın yeni səhifələrini açan "Ziya", "Kəşkül", "Kaspi" və digər qəzetlər davam etdirmişdir. Mətbuat özlüyündə cəmiyyətin aynası, ictimai şüurun, mənəviyyatın inikasıdır.

Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası müxtəlif dövrlərdə ağır sınaqlara məruz qalsa da hər çətinliyə dözmüş və tutduğu şərəfli yoldan dönməmişdir. Müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirmiş, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. 2000-ci ilin martında "2000-2001-ci illərdə Kütləvi İnformasiya Vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə Tədbirlər Proqramı"nın təsdiq edilməsi, 2001-ci ildə Azərbaycan jurnalistlərinin I qurultayının keçirilməsi, 2001-ci il may ayının 11-də "Kütləvi İnformasiya Vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında", 2002-ci il may ayının 11-də "Kütləvi informasiya Vasitələri haqqında Azərbaycan Respublikası Qanununun təsdiq edilməsi haqqında" fərmanlar müstəqil mətbuatın inkişafında əhəmiyyətli rol oynayan tarixi sənəddir.

Ulu Öndər tərəfindən qoyulan mətbuatın inkişafına dövlət qayğısı siyasəti bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının 2005-ci il 20 iyun tarixli sərəncamına əsasən Azərbaycan milli mətbuatının 130, 2015-ci il 2 iyun tarixli sərəncamına əsasən 140, 2020-ci il 30 iyun tarixli sərəncamı ilə 145 illik yubileyini dövlət səviyyəsində qeyd olunması, Azərbaycan milli mətbuatının 147-ci ildönümünün 2022-ci ildə Şuşa şəhərində keçirilməsi Azərbaycan jurnalistikasında yaddaqalan hadisələrdəndir Azərbaycan jurnalistikasında söz, fikir azadlığının yaradılmasını, demokratiyanın inkişafını özündə əks etdirən bu siyasət nəticəsində Azərbaycan dünyada sözə, insan hüquqlarına hörmət edən ölkə kimi tanınır.

Azərbaycan Respublikası Prezidentinin 5 iyul 1991-ci il tarixli fərmanı ilə Azərbaycanın ilk milli qəzeti olan "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - 22 iyul Azərbaycan jurnalistikası günü elan edilmişdir.

Ədəbiyyat:

Qasımov, R. 22 iyul Milli Mətbuat və Jurnalistika Günüdür / Ramiz Qasımov //Olaylar. – 2023. – 21-27 iyul. – S.12; 19.

Aydınoğlu, T. Azad media Azərbaycanın misilsiz mənəvi sərvətidir: 22 iyul Milli Mətbuat və Jurnalistika Günüdür / Tahir Aydınoğlu // Xalq qəzeti. – 2023. – 22 iyul. – S.12.

İnternet:

http://www.anl.az/down/meqale/xalqqazeti/2023/iyul/860699.htm

https://media.gov.az/kommunikasiya/metbuat-tariximiz/

AVQUST



22 iyul
23 avqust

Şirin nişanəsi oddur. Ulduzlar padşahı olan Günəşin himayəsindədir. Günəşin şir bürcündən keçdiyi dövrdə doğulanlar hökmlü və daxili aləmləri zəngin olur

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

- *Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001)*
- *Azərbaycan Kinosu Günü (02.08.2001)*
- *Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü (05.08.1996)*
- *Azərbaycanda Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı (18.08.2000)*

Yaşıl dünya naminə həmrəylik ili



Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verib. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılıb. 2019-cu ilin noyabr ayında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü ölkəmizdə ekologiyanın sağlamlaşdırılması üçün aparılan işlərin davamı olmuşdur. Bundan başqa, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-dən fəaliyyətə başlayan İDEA - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kampaniyası çərçivəsində ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlər Azərbaycanda ekoloji problemlərə verilən dəyərin göstəricisidir.

AVQUST 2024



Milli ədəbiyyat

Şair Qoşqarlı Oruc Hüseyn oğlunun (04.08.1909-25.11.1989) anadan olmasının 115 illiyi



Dünya ədəbiyyatı

Alman şairi Höte İohann Volfqanqın (28.08.1749-22.03.1832) anadan olmasının 275 illiyi 455



Musiqi. Opera. Balet

Xalq artisti, qarmon ifaçısı Vəzirov Kamil Səfərəli oğlunun (02.08.1949-13.02.2018) anadan olmasının 75 illiyi
Xalq artisti, professor, tarzən Müslümov Möhlət Xanəli oğlunun (09.08. 1954) anadan olmasının 70 illiyi 456
Xalq artisti, müğənni, aktrisa Quliyeva Qəndab Həbib qızının (10.08. 1949-26.06.2017) anadan olmasının 75 illiyi



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Rus boyakarı və qrafiki Repin İlya Yefimoviçin (05.08.1844-29.09.1930) anadan olmasının 180 illiyi 457



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Novruzov Ələsgər Xanlar oğlunun (01.08.1949-26.02.1992) anadan olmasının 75 illiyi 458
Azərbaycanın Milli Qəhrəmanı Həsənov Məhəmməd Ələsgər oğlunun (09.08.1959-18.11.2020) anadan olmasının 65 illiyi 459



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Miçman Rəcəbov Ruslan Rəcəb oğlunun (01.08 1984 – 31.10.2020) anadan olmasının 40 illiyi 460
MAHHXHQ əsgər Axundzadə Kənan Hamil oğlunun (02.08.1994 – 31.10.2020) anadan olmasının 30 illiyi 460
MAHHXHQ əsgər Əhmədov Mahmud Fərman oğlunun (02.08.1989 – 03.11.2020) anadan olmasının 35 illiyi 461
MAHHXHQ əsgər Musayev Ramiz Kamil oğlunun (02.08.1989-25.11.2020) anadan olmasının 35 illiyi 461
Əsgər Əbilov Nurlan Fərrux oğlunun (02.08.1994-19.04.2021) anadan olmasının 30 illiyi 462

AVQUST 2024

Əsgər Hacıyev Şəhriyar Şahlar oğlunun (02.08.1999 – 26.10.2020) anadan olmasının 25 illiyi 462
Əsgər Məmmədzadə Anar Nazim oğlunun (03.08.1999 – 08.10.2020) anadan olmasının 25 illiyi 463
Əsgər Kərimov Əhməd Vaqif oğlunun (04.08.1989 – 10.11.2020) anadan olmasının 35 illiyi 463
MAHHXHQ əsgər Quliyev Təbriz İlqar oğlunun (05.08.1994 – 27.10.2020) anadan olmasının 30 illiyi 464
MAHHXHQ əsgər Paşayev Məhəbbət Vaqif oğlunun (05.08.1999 – 29.09.2020) anadan olmasının 25 illiyi 464
Əsgər Əzizli Tacəddin Şahəddin oğlunun (07.08.1994 – 09.11.2020) anadan olmasının 30 illiyi 465
MAHHXHQ əsgər Quluzadə Məhəmməd Cəlal oğlunun (07.08.1999 – 27.09.2020) anadan olmasının 25 illiyi 465
Gizir Ələkbərov Naiq Faiq oğlunun (08.08.1994 – 09.10.2020) anadan olmasını 30 illiyi 466
Kiçik gizir Zülfüqarov İlkin Nurəddin oğlunun (08.08.1989 – 20.10.2020) anadan olmasının 35 illiyi 466
MAHHXHQ əsgər Nağıyev Fərid Poladxan oğlunun (08.08.1999 – 27.09.2020) anadan olmasının 25 illiyi 467
Leytenant Əliyev Samir Əliheydər oğlunun (09.08.1999 – 29.09.2020) anadan olmasının 25 illiyi 467
Kapitan Məmmədov Pərviz Ələddin oğlunun (09.08.1989 – 30.09.2020) anadan olmasının 35 illiyi 468
Leytenant Məmmədov Elcan Söhrab oğlunun (09.08.1989 – 27.09.2020) anadan olmasının 35 illiyi 469
Çavuş Şirinov Kamil Altay oğlunun (09.08.1999 – 12.10.2020) anadan olmasının 25 illiyi 469
Əsgər Qasımov Elməddin Aqil oğlunun (09.08.1999 – 27.10.2020) anadan olmasının 25 illiyi 470
Əsgər Novruzov Elçin Qismət oğlunun (09.08.1989 – 16.11.2020) anadan olmasının 35 illiyi 470
Kiçik çavuş Abbasov Seymur Aqil oğlunun (10.08.1999 – 29.10.2020) anadan olmasının 25 illiyi 471
Baş leytenant Məmmədli Sübhan Səbuhi oğlunun (12.08.1994-06.10.2020) anadan olmasının 30 illiyi 471
Əsgər Zeynallı Əsəd Ərziman oğlunun (12.08.1999-13.10.2020) anadan olmasının 25 illiyi 472
Kiçik gizir Əliyev Nohəl Əlqəmə oğlunun (13.08.1989 – 03.10.2020) anadan olmasının 35 illiyi 472
Əsgər Hüseynli Anar Saday oğlunun (13.08.1994 – 08.11.2020) anadan olmasının 30 illiyi 473

AVQUST 2024

Əsgər Əliyev Fərid Pirəli oğlunun (14.08.1994 – 05.11.2020) anadan olmasının 30 illiyi 473
MAHHXHQ əsgər Salahov Sabir Hikmət oğlunun (15.08.1999-05.10.2020) anadan olmasının 25 illiyi 474
Kiçk çavuş İsmayılov Raqil Rafiq oğlunun (16.08.1994-07.11.2020) anadan olmasının 30 iliyi 474
Əsgər Həsənov Elgün Əli oğlunun (16.08.1999-24.10.2020) anadan olmasının 25 illiyi 475
MAHHXHQ əsgər Əmrahov Vüqar Mübariz oğlunun (17.08.1994 – 02.10.2020) anadan olmasının 30 illiyi 475
Əsgər Məmmədov Elmar Saleh oğlunun (18.08.1999 – 09.11.2020) anadan olmasının 25 illiyi 476
Gizir Əliyev Sənan Ceyhun oğlunun (19.08.1999 – 09.11.2020) anadan olmasının 25 illiyi 476
Əsgər Rzayev Adil Akif oğlunun (20.08.1999 – 29.11.2020) anadan olmasının 25 illiyi 477
Əsgər Məmmədov Altun Nüsrət oğlunun (21.08.1999 – 02.10.2020) anadan olmasının 25 illiyi 477
Əsgər Şəfiyev Daşqın Hidayət oğlunun (22.08.1989 – 05.11.2020) anadan olmasının 35 illiyi 478
Əsgər Məmmədli Məhəmməd Murad oğlunun (22.08.1994 – 02.10.2020) anadan olmasının 30 illiyi 478
Mayor İbadov Aqşin Nazim oğlunun (24.08.1984 – 19.10.2020) anadan olmasının 40 illiyi 479
Gizir Məmmədzadə Cahan Saleh oğlunun (24.08.1994 – 07.11.2020) anadan olmasının 30 illiyi 480
Leytenant Hacıyev Şükür Bayram oğlunun (25.08.1999 – 12.10.2020) anadan olmasının 25 illiyi 480
MAHHXHQ kiçik çavuş Məmmədov Əhməd Nazim oğlunun (25.08.1994 – 08.11.2020) anadan olmasının 30 illiyi 481
MAHHXHQ əsgər Həsənov Təbriz Rəşid oğlunun (25.08.1994 – 02.10.2020) anadan olmasının 30 illiyi 481
Əsgər Məhərrəmov Orxan Binət oğlunun (25.08.1994 – 06.10.2020) anadan olmasının 30 illiyi 482
Baş leytenant Zeynalov İlqar Natiq oğlunun (26.08.1989-10.10.2020) anadan olmasının 35 illiyi 482
MAHHXHQ əsgər Əmirov Adəm Elçin oğlunun (26.08.1999-15.10.2020) anadan olmasının 25 illiyi 483
Əsgər Mirzəliyev Aqil Mehman oğlunun (27.08.1999 – 20.10.2020) anadan olmasının 25 illiyi 483
Əsgər Həmidov Elşən Məzahir oğlunun (28.08.1979 – 08.11.2020) anadan olmasının 45 illiyi 484

Baş leytenant Mustafayev Təhmasib Sərməst oğlunun (30.08.1989 – 07.11.2020) anadan olmasının 35 illiyi 484
MAHHXHQ çavuş Bağırov Namiq Nurəddin oğlunun (30.08.1984 – 06.10.2020) anadan olmasının 40 illiyi 485
MAHHXHQ əsgər Qardaşxanov Qismət Qərib oğlunun (30.08.1994 – 05.10.2020) anadan olmasının 30 illiyi 485
MAHHXHQ əsgər Vəliyev Elnur Mirsiyab oğlunun (30.08.1999 – 28.09.2020) anadan olmasının 25 illiyi 486
MAHHXHQ əsgər İsmayılov Bahaləddin Temraz oğlunun (31.08.1999 – 29.10.2020) anadan olmasının 25 illiyi 486



Siyasət. Hərbi iş

Hərbi xadim, general-leytenant Qasımov Əbülfəz Əsədulla oğlunun (05.08.1934-07.04.2009) anadan olmasının 90 illiyi
Fransa dövlət xadimi və sərkərdə Napoleon Bonapartın (Napoleon I) (15.08.1769-05.05.1821) anadan olmasının 255 illiyi
Azərbaycan Respublikasının Birinci vitse prezidenti Əliyeva Mehriban Arif qızının (26 .08. 1964) anadan olmasının 60 illiyi 487



Fəlsəfə. İqtisadiyyat. Hüquq.

Fəlsəfə elmləri doktoru, professor, ədəbiyyatşünas, tənqidçi, esseist, kulturoloq Xəlilov Rahid Süleyman oğlunun (Rahid Ulusel) (13.08.1954) anadan olmasının 70 illiyi 490
AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru Pənahov Qeylani Minhac oğlunun (25.08. 1954) anadan olmasının 70 illiyi 491



Tarix. Din.

Akademik, tarix üzrə elmlər doktoru, professor Axundova Nərgiz Çingiz qızının (07.08.1959) anadan olmasının 65 illiyi 492
Qafqaz müsəlmanlarının XII Şeyxülislamı və Qafqaz Müsəlmanları İdarəsinin sədri, tarix elmləri doktoru, professor Paşazadə Allahşükür Hümmət oğlunun (Hacı Allahşükür Paşazadə) (26.08.1949) anadan olmasının 75 illiyi 493



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Bağırov Bağır İbrahimxəlil oğlunun (Bağır Ulduz) (01.08.1929-15.01.2010) anadan olmasının 95 illiyi

Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Məmmədov Xeyrulla Qulam oğlunun (01.08.1934-08.09.2005) anadan olmasının 90 illiyi 495
Sənətşünaslıq doktoru, professor Əliyeva Kübra Muxtar qızının (04.08.1944) anadan olmasının 80 illiyi 496
Filologiya elmləri üzrə fəlsəfə doktoru, şair, dramaturq, publisist, naşir Əhmədov Elbrus Misir oğlunun (Əhməd Elbrus) (07.08.1944-11.12.2006) anadan olmasının 80 illiyi 497
Akademik, filologiya elmləri doktoru, professor, ictimai xadim, yazıçı, publisist, tərcüməçi, mətnşünas Hüseynov Rafael Baba oğlunun (12.08.1954) anadan olmasının 70 illiyi 498



İdman

Əməkdar idman ustası, cüdoçu Hüseynov Nazim Qalib oğlunun (02.08.1969) anadan olmasının 55 illiyi 499
Beynəlxalq dərəcəli idman ustası, boksçu Məmmədov Ədalət Aydın oğlunun (03.08.1974) anadan olmasının 50 illiyi



Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor Məmmədov Tofiq Qambay oğlunun (04.08.1949) anadan olmasının 75 illiyi
Akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Əliyev Fikrət Əhmədəli oğlunun (13.08.1949) anadan olmasının 75 illiyi 500
Akademik, fizika elmləri doktoru Nəhmədov Ənvər Pirverdi oğlunun (24.08.1959-07.09.2021) anadan olmasının 65 illiyi 501
Əməkdar elm xadimi, akademik Əliyev Maqsud İsfəndiyar oğlunun (27.08.1924-23.12.2016) anadan olmasının 100 illiyi 502
Fizika-riyaziyyat elmləri doktoru, professor Əliyev İsfəndiyar Maqsud oğlunun (31.08.1954) anadan olmasının 70 illiyi



Kimya. Biologiya. Tibb

Biologiya elmləri doktoru, botanik Əsgərova Roza Qasım qızının (15.08.1929-21.02.2009) anadan olmasının 95 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Kitabxanasünas, pedaqoq, tarix üzrə fəlsəfə doktoru Xələfova Sevda Abbasqulu qızının (01.08.1964) anadan olmasının 60 illiyi 503

AVQUST 2024



Digər tarixi hadisələr

N.Nərimanovun Bakıda ilk ictimai kitabxana-qiraətxana açmasının (01.08.1894) 130 illiyi
Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001) 504
Azərbaycan Kinosu Günü (02.08.2001) 505
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü (05.08.1996)
Beynəlxalq Gənclər Günü (12.08.1999)
Beynəlxalq Kimsəsiz Heyvanlar Günü (16.08.1992)
Dövlət Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü (18.08.2000)
Beynəlxalq Humanitar Yardım Günü (19.08.2003)
Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidenti fərman imzalamışdır (21.08.2004)
Türk dünyasının tarixi Çaldıran döyüşünün (23.08.1514) 510 illiyi
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü (23.08.2008)
Laçın Şəhəri Günü (26.08.2023) 506
Beynəlxalq Azərbaycan Muğamı Günü (26.08.2010) 507
Altıağac Parkı yaradılmasının (31.08.2004) 20 illiyi 508

Höte İohann Volfqanq – 275

(1749-1832) *Alman şair, dramaturqu*



İohann Volfqanq Höte 1749-cu il avqust ayının 28-də anadan olmuşdur. Hötenin həyat və yaradıcılığı yalnız vətəni Almaniyada deyil, bütün Avropada mürəkkəb ictimai-siyasi çaxnaşmalar dövrünə təsadüf etmişdir. O, ilk gənclik yaşlarından bu "fırtına və hücum" cəbhələrinə atılmış, hətta həmin ad altında məlum olan ədəbi cərəyana, bu coşqun ədəbi mübarizəyə başçılıq etmişdir.

Höte evdə təhsil almış, 1765-ci ildə Leypsiq Universitetində təhsilini davam etdirmişdir. 1770-ci ildə Strasburqda dissertasiya müdafiə edərək hüquq elmləri doktoru elmi dərəcəsi almışdır.

1775-ci ildə Veymar prinsi, sonralar isə hersoq olan Karl Avqustun dəvəti ilə Höte onun sarayına köçmüş və ömrünü orada keçirmişdir. Sarayda müşavir, nazir, məhkəmə rəisi və s. vəzifələrə təyin edilmiş, nəhayət, əyan adı almış, belə ki, sözdə feodalizm quruluşunun düşməni olan Höte, işdə saray xadimi olmuşdur. Saray həyatının ilk on ili ədəbi yaradıcılıq baxımından, demək olar ki, tamamilə səmərəsiz keçmişdir. Bu durğunluq illərindən sonra, 1786-cı ildə məqsədyönlü İtaliya səfəri Hötenin yaradıcılıq ruhunu yenidən dirçəltmişdir. Klassik mədəniyyətin canlı xatirələrini yaşadan İtaliya şəhərləri, möhtəşəm saraylar, binalar, heykəllər, abidələr, muzeylər Höteyə o qədər təsir etmişdir ki, bir zaman yeni ictimai quruluş yaratmaq arzusu ilə köhnə dünyaya meydan oxuyan, onu məhv etmək istəyən, coşqun, üsyankar, "Fırtına və hücum" başçısı olmuş Höte, memarlıq abidələrinə valeh və heyran olaraq, indi antik sənət əsərlərinin məftunu kimi tanınmışdır. Özü də klassik üslubda əsərlər yazmağa başlamışdır. Adları, məzmunları, qəhrəman və iştirakçıları da, başlıca olaraq klassik ədəbiyyatla əlaqədar olan "İfigeniya Tavridada" (1887), "Torkvato Tasso" (1790), "German və Doroteya" və sair əsərləri məhz belə nümunələrdəndir.

Höte məşhur "Faust" əsəri üzərində, demək olar ki, bütün yaradıcılığı boyunca işləmişdir. O, bu əsərini 23 yaşında yazmağa başlamış, 1831-ci ildə - yəni 82 yaşında, ölümündən bir il əvvəl bitirmişdir. Haqlı olaraq "Faust" alman həyatının ensiklopediyası kimi yüksək qiymətləndirilir.

Təbiətşünaslıq sahəsində də Hötenin mühüm xidməti olmuşdur. Heyvanların və bitkilərin müqayisəli morfologiyasına dair Hötenin tədqiqatları böyük tarixi əhəmiyyətə malikdir. 1770-ci ildə yazdığı "Bitki metamorfozuna dair təcrübə" əsərində bitki aləminin geniş təhlilini verə bilmişdir. Hötenin bitki və heyvan orqanizmlərinin birliyinə dair baxışları onu Ç. Darvinin sələflərindən biri hesab etməyə imkan verir.

Höte İohann Volfqanq 1832-ci il mart ayının 22-də Frankfurt-Maynda vəfat etmişdir.

Ədəbiyyat:

Gənc Verterin iztirabları [roman] / İ.V.Höte; tərc. ed. S.Şamilov.- Bakı: Qanun, 2014.- 226 s


Rüstəmxanlı, S. İohan Volfqanq Höte 1749-1832: İ.V.Höte-270 / Sabir Rüstəmxanlı // Azərbaycan.- 2019.- №5. - S. 3-7.

Hacıyev, V. Yohan Volfqanq Höte - bütün dövrlərin ən böyük şairi / Vilayət Hacıyev // Ədəbiyyat qəzeti.- 2016.- 19 mart.- S. 5.

Möhlət Müslümov – 70

(1954)

Tarzən



Möhlət Xanəli oğlu Müslümov 1954-cü ildə avqustun 9-u Bakı şəhərində anadan olmuşdur. Səkkiz illik orta məktəbi və beş illik musiqi məktəbini bitirdikdən sonra Asəf Zeynallı adına Musiqi Məktəbinə daxil olmuşdur. O, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri şöbəsini tar ixtisası üzrə bitirmişdir.

1975-ci ildən S.Rüstəmov adına Xalq Çalğı Alətləri orkestrində solist, 1988-ci ildən M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında C.Qaryağdıoğlu adına muğam üçlüyünün solisti, 1988-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında müəllim, baş müəllim vəzifələrində işləmişdir.

Hal-hazırda Azərbaycan Milli Konservatoriyasının muğam kafedrasının Professorudur. Azərbaycan Dövlət Televiziya və Radio Qapalı Səhmdar Cəmiyyətinin Ə.Bakıxanov adına Xalq Çalğı Alətləri ansamblının bədii rəhbəridir.

Möhlət Müslümov Azərbaycan musiqisini uzun illər boyu böyük məharət və ustalıqla dünyada təmsil edir. Onun müxtəlif beynəlxalq festivallarda, müsabiqələrdə çıxışları böyük müvəffəqiyyətlə qarşılanır. Möhlət Müslümov Türkiyə, Rusiya, Fransa, ABŞ, Kanada, İngiltərə, İtaliya, Şotlandiya, Belçika, Macarıstan, Tayland, İsrail, Hindistan, Tunis, Mərakeş, Polşa, Rumıniya, İordaniya, Qətər, Nikaraqua, Kostarika, keçmiş SSRİ-nin bütün respublikalarında və şəhərlərində Azərbaycan musiqisinin parlaq ifaçısı kimi alqışlanmışdır.

Xarici ölkələrdə 20-dən artıq kompakt diski buraxılmışdır. Milli radio və xarici ölkə radiolarının fondlarında lent yazıları bu günədək saxlanılır.

Möhlət Müslümov 2000-ci ildə Əməkdar artist, 2005-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2006-ci ildən Prezident mükafatçısı, 2009-cu ildən Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdçüsüdür.

Ədəbiyyat:

Muğam adlarının etimoligiyası / Möhlət Müslümov // Mədəni-maarif.- 2005.- №6.- S.3.

50 ildir ki, tar mənimlədir / Möhlət Müslümov // Mədəniyyət.- 2014.- 8 avqust.- S. 7.

Xaçınçaylı, Q. Möhlət Müslümov olmağın sirri / Qələndər Xaçınçaylı // Həftə içi.-2011.- 20 dekabr.- S. 7

Oxu tar, oxu tar... /Möhlət Müslümov, müsahibəni apardı: G.Allahverdiyevahttp // Ekran-efir. - 2015. - 30 yanvar. - S.10 "Segah" muğamını ifa edəndə özümü, kimliyimi tapıram /Möhlət Müslümov; müsahibəni apardı: İ.İsmayıl //Kaspi.- 2018.- 24-26 noyabr.- S.16.

İnternetdə:

https://az.wikipedia.org/wiki/M%C3%B6hl%C9%99t_M%C3%BCsl%C3%BCmov

https://obastan.com/wiki/Möhlət_Müslümov

http://www.anl.az/down/meqale/kaspi_az/2018/noyabr/619436.htm

İlya Yefimoviç Repin – 180

(1844-1930)

Rus rəssamı və qrafiki



İlya Yefimoviç Repin 1844-cü il avqust ayının 5-də Ukraynanın Xarkov vilayətində anadan olmuşdur.

1864-1871-ci illərdə Peterburq Rəssamlıq Akademiyasında oxumuş, 1893-cü ildən isə həmin akademiyanın həqiqi üzvü seçilmişdir.

Repin portret, məişət və tarixi boyakarlıq janrlarında fəaliyyət göstərmiş, ofort və litoqrafiyalar çəkmişdir.

Onun 1870-1873-cü illərdə yaratdığı "Burlaklar Volqada" tablosunda zülmə qarşı etiraz motivləri, sadə adamların mənəviyyatı, qüvvə və qüdrəti əks etdirilmişdir. 1872-ci ildə məktəb layihəsinə təqdim etdiyi "Yurinin qızının həyata dönməsi" əsəri ona qızıl medal və təqaüd qazandırmışdı. Rəssam 1873-cü ildə İtaliya və Fransaya səyahət etmiş, 3 il orada qalaraq Avropa incəsənəti ilə yaxından tanış olmuş, "Paris kafesi" (1874-1875), "Sadko sualtı səltənətdə" (1876) əsərlərini yaratmış və plener üsulundan məharətlə istifadə etmişdir.

Xaricdən qayıtdıqdan sonra 1882- ci ildən Peterburqda yaşayan Repin rus həyatının sosial ziddiyyətlərini və ictimai münasibətləri qabarıq şəkildə təsvir edərək "Qorxaq kəndli" (1877), "Bədnəzər kəndli" (1877) əsərlərində bir sıra kəndli obrazları yaratmışdır. "Tövbədən imtina" (1879-1885), "Təbliğatçının həbsi" (1880-1892), "Gözləmirdilər" (1884-1888) tablolarında sürgündən qayıtmış inqilabçıların obrazını təsvir etmiş, qəhrəmanın ağır taleyini, onun ailə üzvlərinin hiss və həyəcanlarını mürəkkəb rəng çalarları ilə göstərmişdir. Bu illərdə Repin "V.V.Stasov" (1873), "A.F.Pisemski" (1880), "L.N.Tolstoy" (1887) əsərlərini işləmiş, həmçinin tarixi janr sahəsində "Şahzadə Sofiya" (1879), "İvan Qroznı və oğlu İvan" (1885), "Zaporojyelilər Türkiyə sultanına məktub yazarkən" (1878-1891) adlı görkəmli portretlərini yaratmışdır.

İlya Yefimoviç Repin 1930-cu il sentyabr ayının 29-da vəfat etmişdir.

1940-cı ildə rəssamın dəfn olunduğu Repino qəsəbəsində ev-muzeyi Çuquyevdə xatirə muzeyi açılmışdır.

1958-ci ildə Moskvada rəssama abidə ucaldılmışdır. Sankt-Peterburq Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutu Repinin adını daşıyır.

Ədəbiyyat:

Евстратова, Е.Н. Репин / [текст и сост. Е.Н.Евстратовой; отв. за выпуск Н.Красновская; ред. А.Казакова].- Москва: Олма Медиа Групп, 2008.- 127 s.

Лясковская, О.И. Е.Репин / О.А.Лясковская.- 3-е изд.- М., 1983.- 382 с.

Пилипенко, И. Репин в Абрамцеве /И.Пилипенко.- Л., 1980.- 80 с.

Репин, Суриков, Васнецов: летописцы русской жизни / [Е.Н.Евстратова, Л.А.Ефремова, Т.В.Постникова]; оформ. пер. С.Щавелева Евстратова, Елена Николаевна.- Москва: ОЛМА Медиа Групп, 2013.- 304 с.

Чуковский, К. Илья Репин / К.Чуковский.- 2-е изд.- М., 1983.- 144 с.

Milli Qəhrəmanlar

Ələsgər Novruzov – 75

(1949-1992)

Milli Qəhrəman



Ələsgər Xanlar oğlu Novruzov 1949-cu il avqust ayının 1-də Laçın rayonunun Kürdhacı kəndində anadan olmuşdur. 1966-cı ildə Kürdhacı kənd orta məktəbini bitirmiş və 1968-1970-ci illərdə Ermənistan Respublikasının Leninakan şəhərində hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vuraraq, 1971-ci ildə Şuşa Pedaqoji Texnikumuna daxil olmuş və 1973-cü ildə oranı bitirərək, bədən tərbiyəsi müəllimi ixtisasına yiyələnmişdir.

Ələsgər Novruzov əvvəlcə öz doğma kəndindəki orta məktəbdə ixtisası üzrə müəllim işləmiş və 1979-cu ildə Xocalıdakı 1 saylı məktəbdə fəaliyyətini davam etdirmişdir. O, əmək fəaliyyətinə başladığı ilk günlərdən uşaq və gənclərdə idmana marağı artırmışdır. 1988-ci ildə gizli yaranan Xocalının Müdafiə Şurasının ilk beş üzvündən biri Ə.Novruzov olmuşdur. Azğınlaşmış ermənilərə qarşı keçirilən əks əməliyyatlarda Ələsgər həmişə fərqlənmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımında soydaşlarımızın təhlükəsizliyini təmin etmək üçün var gücü ilə vuruşmuşdur. Düşmənlər böyük çətinliklə Ə.Novruzovu əsir götürmüş və böyük işgəncə ilə qətlə yetirmişlər. Doğma kəndi Kürdhacıda dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 saylı Fərmanı ilə Novruzov Ələsgər Xanlar oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Ölümündən sonra "General Məhəmməd Əsədov" adına mükafatıadına mükafata layiq görülmüşdür.

Ədəbiyyat:

Ələsgər Xanlar oğlu Novruzova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü – Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, erməni qəsbkarlarına qarşı mübarizədə, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində xüsusilə fərqlənərək şücaət və mərdlik göstərdiyinə, Vətən qarşısındakı borcunu şərəflə yerinə yetirdinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 fevral 1995-ci il // Azərbaycan.- 1995.- 26 fevral.- S.1.- (Ölümündən sonra)

Əsgərov V. Novruzov Ələsgər Xanlar oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları /V.Əsgərov.- Bakı, 2005.- S.174.

Novruzov Ələsgər Xanlar oğlu (1949-1992 // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.167.

Milli Qəhrəmanlar

Məhəmməd Həsənov – 65

(1959-2020)

Milli Qəhrəman



Məhəmməd Ələsgər oğlu Həsənov 1959-cu il avqust ayının 9-da Goranboy rayonunun Qarasüleymanlı kəndində anadan olmuşdur. 1976-cı ildə 3 saylı orta məktəbi bitirmişdir. 1977-ci ildə hərbi xidmətə çağırılmış, 1979-cu ildə Murmanskda hərbi xidmətini başa vurduqdan sonra Kiyev şəhərinə getmişdir. 1980-ci ildə Kiyev Radio Elektronika Texnikumuna daxil olmuşdur.

1984-cü ildə texnikumu bitirmiş, orada "Kommunist" zavodunda çalışmışdır. Sonra Vətənə qayıdaraq, 1989-cu ildə M.F.Axundov adına ADPİ-yə (indiki Slavyan Universiteti) daxil olmuşdur.

1991-ci ildən könüllü olaraq vətənin müdafiəsinə qalxmışdır. O, bölük komandiri təyin edilmişdir. Sonralar isə 1 saylı ərazi özünümüdafiə batalyonunun komandiri olmuşdur. H.Məhəmməd eyni zamanda Mənəşli, Erkəc, Rus Borisi, Erməni Borisi, Qaraçinar, Talış kəndlərində düşmənə qarşı mübarizədə rəşadət nümayiş etdirmişdir.

1993-cü ildə Bakı Ali Komandirlər Məktəbini bitirmiş, 1994-2000-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında baş müəllim vəzifəsində işləmişdir. Polkovnik-leytenant rütbəsinədək yüksəlmişdir. 2002-ci ildə Goranboy rayonunun Veysli kənd orta məktəbinin direktoru vəzifəsinə təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Həsənov Məhəmməd Ələsgər oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Məhəmməd Həsənov 2020-ci il noyabr ayının 9-da yaşadığı Goranboy rayonu ərazisində avtomobil qəzasınaya düşmüş və 18 noyabrda vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Həsənov Məhəmməd Ələsgər oğlu – baş leytenant – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorumasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 12.- S.35.

Əsgərov, V. Həsənov Məhəmməd Ələsgər oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / V.Əsgərov.- Bakı, 2005.-S.233-234.

Həsənov Məhəmməd Ələsgər oğlu (1959-1992) // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.82.

Qəhrəmanlar unudulmur // Şərq.- 2011.- 10 avqust.- S.5.

Mirzə, M. Məhəmməd Həsənov / M.Mirzə // Respublika.- 2022.- 9 avqust.- S.5.

AVQUST

1

Ruslan Rəcəbov - 40

(1984 – 2020)

Miçman



Rəcəbov Ruslan Rəcəb oğlu 1984-cü il avqustun 1-də Suraxanı rayonunda anadan olub.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı olan Ruslan Rəcəbov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ruslan Rəcəbov oktyabrın 31-də Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. II Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Rəcəbov Ruslan Rəcəb oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallıarı ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S. 6-13.

2

Kənan Axundzadə - 30

(1994 – 2020)

MAHHXHQ əsgər



Axundzadə Kənan Hamil oğlu 1994-ci il avqustun 2-də Lənkəran şəhərinin Girdəni kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə şəhid Məhəmməd Bağırov adına Girdəni kənd orta məktəbində təhsil almışdır. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətdə qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Kənan Axundzadə 2020-ci il oktyabrın 31-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kənan Axundzadə oktyabrın 31-də Füzuli və Xocavənd rayonlarının sərhədində yerləşən strateji əhəmiyyətli Üryandağ yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Girdəni kəndində dəfn olunmuşdur.

Axundzadə Kənan Hamil oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad edilməsinə gorə" və "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan. - 2020.- 26 dekabr.- S. 1;13.

AVQUST
2

Mahmud Əhmədov - 35

(1989 – 2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.58-60.

Əhmədov Mahmud Fərman oğlu 1989-cu il avqustun 2-də Ağstafa rayonunda anadan olmuşdur. 1995-2001-ci illərdə Ağstafa rayon A. Abdullayev adına 2 nömrəli tam orta məktəbdə, 2001-2006-cı illərdə isə Ağstafa rayon Texniki-humanitar Təmayüllü Liseyində təhsil almışdır.

2007-2009-cu illərdə Silahlı Qüvvələrin Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2009-cu ildə MAHHXHQ hazırlıq kursunu bitirərək Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissənində xidmətə başlamışdır. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir. 2013-cü ildə "Azərbaycan Ordusunun 95 illiyi", 2018-ci ildə 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilib.

Azərbaycan Ordusunun əsgəri olan Mahmud Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qoşularaq Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Döyüşlərdə yaralanarq oktyabrın 18-dək Bərdə rayon xəstəxanasında müalicə alışıdır. Müalicəsini yarımçıq qoyaraq yenidən döyüşlərə qatılmışdır. Noyabrın 3-də Laçın rayonu istiqamətində gedən şiddətli döyüşlərdə Mahmud Əhmədovun şəhid olmuşdur. Ağstafa Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi. İki qızı yadigar qalıb.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mahmud Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

2

Ramiz Musayev - 35

(1989-2020)

MAHHXHQ əsgər



Musayev Ramiz Kamil oğlu 1989-cu ildə 2 avqust tarixində Göygöl rayonunun Hacıməlik kəndində anadan olmuşdur. 1996-2007-ci ildə Hacıməlikdə 1 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2008-2009-cu ildə hərbi xidmətdə olmuşdur. 2015-ci ildə Daşkəsən rayonunda N saylı hərbi hissədə Çavuş olaraq xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Kamil Musayev 2020-ci il oktyabrın 31-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murov zirvəsinin və Kəlbəcər rayonun alınmasında iştirak etmişdir. 25 noyabr 2020-ci ildə Kəlbəcər istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ailəli idi. Bir övladı yadigar qalıb.

Musayev Ramiz Kamil oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Kəlbəcər rayonunun alınması" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

AVQUST 2

Nurlan Əbilov - 30

(1994-2021)

Əsgər



Əbilov Nurlan Fərrux oğlu 2 avqust 1994-cü ildə Masallı rayonunun Ağakişibəyli kəndində anadan olmuşdur. Orta təhsilini aldıqdan sonra Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsində təhsil almışdır. 2017-2018-ci illərdə Şəmkir rayon N saylı hərbi hissədə Sərhəd Qoşunlarının tərkibində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Əbilov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən baş nahiyəsindən ağır yaralanmışdır və Silahlı Qüvvələrin Baş Klinik Hospitalına yerləşdirilmişdir. 19 aprel 2021-ci ildə şəhid olmuşdur. Masallı rayonunun Şərəfə kəndində dəfn olunmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Əbilov Nurlan Fərrux oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda", "Cəsur döyüşçü", 3-cü dərəcəli "Vətənə xidmətə görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

2

Şəhriyar Hacıyev- 25

(1999 – 2020)

Əsgər



Hacıyev Şəhriyar Şahlar oğlu 2 avqust 1999-cu il tarixdə Gədəbəy rayonu, Novoivanovka kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Abşeron rayonu, Xırdalan şəhər 6 nömrəli tam orta məktəbində təhsil almışdır.2017-2018-ci ildə həqiqi hərbi xidmət qulluqçusu olmuşdu.

Azərbaycan Ordusunun əsgəri olan Şəhriyar Hacıyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsindəmüharibəsində Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 26 oktyabr 2020-ci il tarixdə Ağdamın Ballıqaya kəndində qəhrəmancasına şəhid olmuşdur. Novoivanovka kəndində dəfn olunmudur.

Hacıyev Şəhriyar Şahlar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şəhriyar Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://president.az/az/articles/view/49098

3 AVQUST

Anar Məmmədzadə - 25

(1999 – 2020)

Əsgər



Məmmədzadə Anar Nazim oğlu 1999-cu il avqustun 3-də Zərdab rayonunda anadan olmuşdur. 2005-2016-cı illərdə Zərdab rayon 1 saylı məktəb-liseyində, 2016-2019-cu illərdə Azərbaycan Texniki Universitetində (AzTU) təhsil almışdır. 2019-cu ildə təhsilini müvəqqəti olaraq dondurmuşdur. Anar Məmmədzadə 2020-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Anar Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Anar Məmmədzadə oktyabrın 8-də Füzuli döyüşlərində şəhid olmuşdur. 19 noyabrda Zərdab rayonunun Gəlmə kəndində dəfn olunmuşdur.

Məmmədzadə Anar Nazim oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1.

4

Əhməd Kərimov - 35

(1989 – 2020)

Əsgər



Kərimov Əhməd Vaqif oğlu 1989-cu il avqust ayının 4-də Göyçay rayonunda anadan olmuşdur. Kooperasiya Universitetində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əhməd Kərimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Şuşanın azadlığı edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 10-da Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 12 noyabrda Suraxanı rayon Dədə Qorqud qəsəbə qəbiristanlığında dəfn edilmişdir.

Kərimov Əhməd Vaqif oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əhməd Kərimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

İnternetdə:

https://president.az/az/articles/view/49098

AVQUST
5

Təbriz Quliyev - 30

(1994 – 2020)

MAHHXHQ əsgər



Quliyev Təbriz İlqar oğlu 1994-cü il avqustun 5-də Ağstafa rayonunun Qırılı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə S. Əliyev adına Qırılı kənd tam orta məktəbində təhsil almışdır.

Təbriz Quliyev 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2018-ci ildən Azərbaycan Ordusunun sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan ordusunun əsgəri olan Təbriz Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 27-də Zəngilan döyüşləri zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Qırılı kəndində dəfn olunmuşdur.

Quliyev Təbriz İlqar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Təbriz Quliyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

5

Məhəbbət Paşayev - 25

(1999 – 2020)

MAHHXHQ əsgər



Paşayev Məhəbbət Vaqif oğlu 5 avqust 1999-cu ildə Şəki rayon Bolludərə kəndində anadan olmuşdur. Təhsilini 2005-ci ildə Bolludərə kənd məktəbindəində, 2006-2016-cı illərdə Oğuz şəhər 3 nömrəli məktəb-liseydə davam etdirmişdir.

Məhəbbət Paşayev 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ilin avqustundan müddətdən artıq xidmət edən hərbi qulluqçusu kimi Azərbaycan Ordusunda xidmətə başlamışdır.

Azərbaycan ordusunun müddətdən artıq xidmət edən hərbi qulluqçusu Məhəbbət Paşayev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərində savaşmış və sentyabrın 29-da qəhrəmancasına şəhid olmuşdur. Sentyabrın 30 da Oğuz Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Paşayev Məhəbbət Vaqif oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Məhəbbət Paşayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Oğuz rayonunda şəhidin xatirəsinin əbədiləşdirmək məqsədi ilə xatirə-bulaq kompleksi açılmışdır.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

AVQUST
7

Məhəmməd Quluzadə - 25

(1999 – 2020)

MAHHXHQ əsgər



Məhəmməd Cəlal oğlu Quluzadə 7 avqust 1999-cu ildə Biləsuvar rayonunun Bəydili kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Bəydili kənd tam orta məktəbində orta təhsil almışdır.

2017-2019-cu illərdə Tərtər rayonu N saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmişdir. 2020-ci ildə isə könüllü şəkildə yenidən Tərtər rayonu N saylı hərbi hissəyə qayıtmışdır. Müddətdən artıq xidmət edən hərbi qulluqçu idi.

Məhəmməd Quluzadə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində iştirak etmiş, Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 29 sentyabrda Biləsuvar rayonu Bəydili kənd qəbiristanlığında dəfn olunmuşdur.

Məhəmməd Cəlal oğlu Quluzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://president.az/az/articles/view/49098

7

Tacəddin Əzizli - 30

(1994 – 2020)

Əsgər



Əzizli Tacəddin Şahəddin oğlu 1994-cü il 7 avqust tarixində Salyan rayonunun Sarvan kəndində anadan olmuşdur. 2000-2004-ci illərdə İsfəndiyar Həsənov adına Sarvan kənd tam orta məktəbində, 2004-2012-ci illərdə Bakı şəhəri, Səbail rayonu Rəfail Hüseynov adına 49 nömrəli məktəb-liseydə təhsil almışdır. 2012-2017-ci illərdə Ukraynanın Xarkov şəhərində yerləşən Xarkov Dövlət Ticarət və Qida Sənayesi İnstitutuna təhsilini davam etdirmişdir.

2017-2018-ci illər Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdu. O, nümunəvi xidmətinə görə fəxri fərmanlarla təltif olunmuşdur. 2020-ci il iyul ayında "Makro 2000" türk şirkətində əmək fəaliyyətinə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tacəddin Əzizli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Salyan rayonunda dəfn olunmuşdur.

Əzizli Tacəddin Şahəddin oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tacəddin Əzizli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

8 AVQUST

Naiq Ələkbərov- 30

(1994 – 2020)

Gizir



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Ələkbərov Naiq Faiq oğlu 1994-cü il avqustun 8-də Şamaxı rayonunun Bağırlı kəndində anadan olub. 2000-2011-ci illərdə F.Şıxəliyev adına Bağırlı kənd tam orta məktəbində, 2012-2014-cü illərdə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində "feldşer" ixtisası üzrə təhsil alıb.

Naiq Ələkbərov 2014-2015-ci illərdə "gizir" hərbi rütbəsi altında Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində feldşer kimi xidmət etmişdir. 2015-ci ildən etibarən kurslardan keçərək Xüsusi Təyinatlı Qüvvələrin cərgələrinə qoşulub. 2016-cı ilin Aprel döyüşlərində iştirak etmişdir. "Azərbaycan Sllahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" medalları ilə təltif olunmuşdur.

Azərbaycan ordusunun giziri olan Naiq Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Naiq Ələkbərov oktyabrın 9-da Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Şamaxı Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi. Üç övladı yadigar qalıb.


Ələkbərov Naiq Faiq oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

8

İlkin Zülfüqarov - 35

(1989 – 2020)

Kiçik gizir



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

Zülfüqarov İlkin Nurəddin oğlu 1989-cu il avqust ayının 8-də Ağsu rayonunun Gursulu kəndində anadan olmuşdur. Orta təhsilini Ağsu rayonunun Gursulu kənd orta məktəbində və Padar kənd orta məktəbində almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2018-ci ildə Xüsusi təyinatlıların təlim kursunda iştirak etmişdir.

Azərbaycan Ordusunun kiçik giziri olan İlkin Zülfüqarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir və oktyabrın 20-da Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Ağsu rayonu Şəhidlər xiyabanında dəfn edilmişdir.

Zülfüqarov İlkin Nurəddin oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olumasına görə" medalları ilə təltif edilmişdir.

Ağsu Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun Gursulu kəndində şəhid Zülfüqarov İlkin Nürəddin oğlunun adına inşa edilmiş bulaq açılmışdır.

AVQUST
8

Fərid Nağıyev - 25

(1999 – 2020)

MAHHXHQ əsgər



Nağıyev Fərid Poladxan oğlu 1999-cu il avqustun ayının 8-də Sabirabad rayonunun Zəngənə kəndində anadan olmuşdur. Orta təhsili Yalçın Ağayev adına Zəngənə kənd məktəbində almışdır.

2017-ci ildə Azərbaycan Silahlı Qüvvələri sırasına müddətli həqiqi hərbi xidmətdə çağırılmışdır və Goranboy rayonunun "N" saylı hərbi hissəsində xitmət etmişdir. Hərbi xidməti başa vurduqdan sonra müddətdən artıq hərbi xidmət qulluqcusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Nağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Sentyabrın 27-də şəhid olmuşdur. Sabirabad rayonunda dəfn olunmuşdur. Ailəli idi. Bir övladı yadigar qalıb.

Nağıyev Fərid Poladxan oğlu Azərbaycan Respulikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:


https://president.az/az/articles/view/49098

9

Samir Əliyev - 25

(1999 – 2020)

Leytenant



Əliyev Samir Əliheydər oğlu 1999-cu il avqustun ayının 9-da Bakı şəhərinin Suraxanı rayonunun Zığ qəsəbəsində anadan olmuşdur. 2016-2020-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır.

Samir Əliyev 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Samir Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Samir Əliyev sentyanrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Əliyev Samir Əliheydər oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

Pərviz Məmmədov - 35

(1989 – 2020) *Kapitan*



Pərviz Ələddin oğlu Məmmədov 1989-cu il avqustun 9-da Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olmuşdur. O, 1995-2006-cı illərdə Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki N.Qurban adına 288 nömrəli tam orta məktəbdə təhsil almışdır. Elə həmin il Pərviz Məmmədov Heydər Əliyev adına Ali Hərbi Akademiyanın Mühəndislik ixtisasına qəbul olmuşdur və 2010-cu ildə oranı müvəffəqiyyətlə bitirərək bir il Bakı şəhərində Salyansk hərbi hissədə leytenant rütbəsi ilə hərbi qulluq etmişdir.

2010-cu ildən isə həqiqi hərbi xidmətini leytinant rütbəsi ilə Murovdağda yerləşən N saylı hərbi hissədə davam etdirmişdir. 2013-cü ildə baş leytenant hərbi rütbəsi alaraq bölük komandiri kimi Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi, Ağbulaq kəndlərində xidmət etmişir. 2018-ci ildə kapitan rütbəsi alaraq tank əleyhinə bölük komandir təyin edilmişdir.

Azərbaycan Ordusunun kapitanı olan Pərviz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir və sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Qaradağ rayonunda dəfn olunmuşdur.

Ailəli idi. Bir övladı yadigar qalıb.

Pərviz Ələddin oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına batereya komandiri kimi qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi və Azərbaycanın Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://president.az/az/articles/view/49098

9 AVQUST

Elcan Məmmədov- 35

(1989 – 2020)

Leytenant



Məmmədov Elcan Söhrab oğlu 1989-cu il avqustun 9-da Tərtər rayonunda anadan olmuşdur. 1996-2007-ci illərdə Sabunçu rayonunda N. Rzayev adına 169 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2007-2010-cu illərdə isə Azərbaycan Texniki Universitetində "Maşınqayırma" üzrə ali təhsil almışdır.

Elcan Məmmədov 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2018-ci ildə Silahlı Qüvvələrin TTM-də üçaylıq təlimlərində iştirak etmişdir və "leytenant" hərbi rütbəsi almışdır. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2020-ci ildən isə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Elcan Məmmədov 2020-ci ildə Tovuz döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Elcan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elcan Məmmədov sentyabrın 27-də Talış döyüşləri zamanı şəhid olmuşdur. Ramana qəsəbəsində dəfn olunmuşdur.

Məmmədov Elcan Söhrab oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elcan Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları və "3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

9

Kamil Şirinov - 25

(1999 – 2020)

Çavuş



Şirinov Kamil Altay oğlu 1999-cu il avqustun 9-da Kürdəmir rayonunun Ərəb Qubalı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun çavuşu olan Kamil Şirinov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Kamil Şirinov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Kürdəmir rayonunun Ərəb Qubalı kəndində dəfn olunmuşdur.

Şirinov Kamil Altay oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kamil Şirinov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://president.az/az/articles/view/49098

9 AVQUST

Elməddin Qasımov - 25

(1999 – 2020)

Əsgər



Qasımov Elməddin Aqil oğlu 9 avqust 1999-cu ildə Salyan rayonunun Qarabağlı kəndində anadan olmuşdur. Qarabağlı kənd 1 saylı orta məktəbdə təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elməddin Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elməddin Qasımov 27 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirən zamanı şəhid olmuşdur.

Qasımov Elməddin Aqil oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://president.az/az/articles/view/49098

9

Elçin Novruzov- 35

(1989 – 2020)

Əsgər



Novruzov Elçin Qismət oğlu 9 avqust 1989-cu ildə Rusiyanın Voronej şəhərində anadan olmuşdur. 1996-2005-ci illərdə Masallı rayon Hüseynhacılı kənd tam orta məktəbində təhsil almışdır. 2005-2007-ci illərdə Ə.Məmmədov adına Öncəqala kənd tam orta məktəbində təhsilini davam etdirmişdir.

Elçin Novruzov 2007-ci ildə Hava Hücumundan Müdafiə qüvvələrinin sıralarında hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini Qaradağ rayonunun Şıxov qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elçin Novruzovi 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elçin Novruzov Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olmuşdur. 16 noyabr 2020-ci ildə Masallı rayonunun Hüseynhacılı kəndində dəfn olunmuşdur.

Novruzov Elçin Qismət oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr. - S.6-12.

10 AVQUST

Seymur Abbasov - 25

(1999 – 2020)

Kiçik çavuş



Abbasov Seymur Aqil oğlu 1999-cu il avqustun 10-da Cəlilabad rayonunun Buravar kəndində anadan olmuşdur.

Seymur Abbasov 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Seymur Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Seymur Abbasov oktyabrın 29-da Qubadlı döyüşləri zamanı şəhid olmuşdur.

Abbasov Seymur Aqil oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Seymur Abbasov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://president.az/az/articles/view/49098

Sübhan Məmmədli - 30

12

(1994-2020)

Baş leytenant



Məmmədli Sübhan Səbuhi oğlu 1994-cü il avqustun 12-də Kəngərli rayonunun Xıncab kəndində anadan olmuşdur. 2000-2009-cu illərdə Xıncab tam orta məktəbində, 2009-2012-ci illərdə Heydər Əliyev Adına Hərbi Liseydə təhsil almışdır. 2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır.

Sübhan Məmmədli 2016-cı ildə Leytenant rütbəsi alaraq Ordu sıralarına daxil olmuşdur. Xidmətə Bərdə şəhər N saylı hərbi hissədə başlamışdır. 2017-ci il may və sentyabr aylarında Tərtər rayonu istiqamətində ön xəttə xidmət etmişdir. 2017-ci ildə Goranboy rayon Ballı Qaya N saylı hərbi hissəsinə Bölük Komandiri vəzifəsinə göndərilmişdir. 2018-ci ildən xidmətini Bakı şəhər N saylı hərbi hissəsində Bölük Komandiri vəzifəsində davam etdirmişdir. 2019-cu il 26 iyunda Baş Leytenant rütbəsinə yüksəlmişdir.

2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2020-ci il oktyabrın 6-da Füzuli şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Məmmədli Sübhan Səbuhi oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Rəşadət" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

AVQUST

12

Əsəd Zeynallı - 25

(1999-2020)

Əsgər



Zeynallı Əsəd Ərziman oğlu 12 avqust 1999-cu ildə Qəbələ rayonunun Seyidqışlaq kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əsəd Zeynallı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əsəd Zeynallı 13 oktyabr 2020-ci ildə Tərtər rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Zeynallı Əsəd Ərziman oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

İ n t e r n e t d ə:

https://president.az/az/articles/view/52280

13

Nohəl Əliyev - 35

(1989 – 2020)

Kiçik gizir



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S. 6-13. articles/view/49098

Əliyev Nohəl Əlqəmə oğlu 1989-cu il avqustun 13-də Füzuli rayonunun Kürdmahmudlu kəndində anadan olmuşdur. 1995-2006-cı illərdə Ramil Əkbərov adına məktəbdə təhsil almışdır. 2007-2010-cu illərdə illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2010-cu ildən müddətdən artıq hərbi xidmətçi kimi Azərbaycan Ordusu sıralarında xidmətə başlamışdır. 2016-cı ilin Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun kiçik giziri olan Nohəl Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nohəl Əliyev oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olmudur. Yuxarı Kürdmahmudlu kənd qəbiristanlığında dəfn olunmuşdur. Ailəli idi. 2 övladı yadigar qalıb.

Əliyev Nohəl Əlqəmə oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

AVQUST
13

Anar Hüseynli - 30

(1994 – 2020)

Əsgər



Hüseynli Anar Saday oğlu 1994-cü il avqustun 13-də Şəmkir rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə S. Vurğun adına Təzəkənd kənd tam orta məktəbində təhsil almışdır.

Anar Hüseynli 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Anar Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Anar Hüseynli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Şəmkir rayonunun Təzəkənd kəndində dəfn olunmuşdur.

Hüseynli Anar Saday oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il. // Azərbaycan.–2020.– 16 dekabr.– S.6-12.

14

Fərid Əliyev - 30

(1994 – 2020)

Əsgər



Əliyev Fərid Pirəli oğlu 14 avqust 1994-cü ildə Bakı şəhərinin Səbail rayonunda anadan olmuşdur. 2000-2011-ci illərdə Bakı şəhər 132 saylı tam orta məktəbdə, sonra isə 17 saylı Texniki Peşə Liseyində təhsil almışdır.

Fərid Əliyev 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Cəbrayılın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fərid Əliyev 5 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Əliyev Fərid Pirəli oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3.

AVQUST

15

Sabir Salahov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Salahov Sabir Hikmət oğlu 15 avqust 1999-cu ildə Salyan şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə Salyan şəhər 3 saylı orta məktəbdə təhsil almışdır. 2017-ci ildə "Neft və energetika" kollecinə daxil olmuşdur.

2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən tərxis olunduqdan sonra könüllü olaraq ordu sıralarında "MAXE" kimi qulluq etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Sabir Salahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 5-də Fizuli şəhərinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə, Buqra dərəsi deyilən yerdə şəhid olmuşdur. Salyan rayon Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Salahov Sabir Hikmət oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr. - S.1; 12.

16

Raqil İsmayılov - 30

(1994-2020)

Kiçk çavuş



İsmayılov Raqil Rafiq oğlu 1994-cü il avqustun 16-da Salyan rayonunun Sarvan kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Şəhid Arif Nağıyev adına kənd tam orta məktəbində təhsil almışdır.

2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Raqil İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Raqil İsmayılov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur.

İsmayılov Raqil Rafiq oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun. - S. 81-84.

İ n t e r n e t d ə:

https://president.az/az/articles/view/49098

AVQUST
16

Elgün Həsənov - 25

(1999-2020)

Əsgər



Həsənov Elgün Əli oğlu 16 avqust 1999-cu ildə İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olmuşdur. 2005-2016-cı illərdə İmişli rayon Bəhrəmtəpə qəsəbə tam orta məktəbdə təhsil almışdır.

Elgün Həsənov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra mülki fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elgün Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elgün Həsənov 24 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. İmişli rayonunda dəfn olunmuşdur.

Həsənov Elgün Əli oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan. - 2020.- 26 dekabr.- S. 1;13.

17

Vüqar Əmrahov - 30

(1994 – 2020)

MAHHXHQ əsgər



Əmrahov Vüqar Mübariz oğlu 1994-cü il avqustun 17-də Tovuz rayonunun Xatınlı kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə F.Qasımov adına Xatınlı kənd tam orta məktəbində təhsil almışdır.

Vüqar Əmrahov 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdurub. Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuşdur. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Vüqar Əmrahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vüqar Əmrahov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Nəşi uzun müddət tapılmamışdır. Dekabrın 25-də Tovuz rayonunun Xatınlı kəndində dəfn olunmuşdur.

Əmrahov Vüqar Mübariz oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3.

https://president.az/az/articles/view/49098

AVQUST

18

Elmar Məmmədov - 25

(1999 – 2020)

Əsgər



Məmmədov Elmar Saleh oğlu 18 avqust 1999-cu ildə Gəncə şəhərində anadan olmuşdur. 2006-2017-ci ildə Gəncə şəhər 17 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Elmar Məmmədov Füzuli, Qubadlı və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 9 noyabr 2020-ci ildə Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. 21 noyabrda Gəncə Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Məmmədov Elmar Saleh oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S. 13-14.

İ n t e r n e t d ə:


https://president.az/az/articles/view/49098

19

Sənan Əliyev - 25

(1999 – 2020)

Gizir



Əliyev Sənan Ceyhun oğlu 1999-cu il avqustun 19-da Goranboy rayonunun Dəliməmmədli şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə Dəliməmmədli şəhəri orta məktəbində təhsil almışdır.

2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Sənan Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 14-də Füzuli uğrunda gedən döyşlərdə qəhrəmancasına şəhid olmuşdur. Adı uzun müddət itkin düşmüş sayılan hərbiçilərin siyahısında olmuşdur. Nəşi noyabrın 23-də müəyyən olunaraq ailəsinə təhvil verilmişdir. Dəliməmmədlidə dəfn edilmişdir.

Əliyev Sənan Ceyhun oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü"medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

https://president.az/az/articles/view/49098

AVQUST
20

Adil Rzayev - 25

(1999 – 2020)

Əsgər



Rzayev Adil Akif oğlu 1999-cu il avqustun 20-də Qobustan rayonunun Xilmilli kəndində anadan olmuşdur.

2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Adil Rzayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 29-da şəhid olmuşdur. 30 noyabrda Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn edilmişdir.

Rzayev Adil Akif oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan. - 2020.- 26 dekabr.- S. 1;13

İnternetdə:


https://president.az/az/articles/view/49098

21

Altun Məmmədov- 25

(1999 – 2020)

Əsgər



Məmmədov Altun Nüsrət oğlu 1999-cu il avqustun 21-də Gəncə şəhərində anadan olmuşdur. 2006-2015-ci illərdə N. Gəncəvi adına 11 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2015-2019-cu illərdə Ağdam Dövlət Sosial-İqtisad Kollecin də tahsilini davam etdirmişdir.

2019-cu ilin iyulun 9-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Nizami Rayon Şöbəsindən hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissələrində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Altun Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Altun Məmmədov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Oktyabrın 4-də Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Məmmədov Altun Nüsrət oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Altun Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;12.

AVQUST
22

Daşqın Şəfiyev - 35

(1989 – 2020)

Əsgər



Şəfiyev Daşqın Hidayət oğlu 1989-cu il avqustun 22-də Rusiyanın Krasnodar şəhərində anadan olmuşdur. 1995-2006-cı illərdə Samux rayonunda Seyidlər kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Daşqın Şəfiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Daşqın Şəfiyev noyabrın 5-də Laçın döyüşləri zamanı şəhid olmuşdur. Samux rayonunun Seyidlər kəndində dəfn olunmuşdur.

Şəfiyev Daşqın Hidayət oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvaafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S. 2-3.

İnternet:

https://president.az/az/articles/view/49098

22

Məhəmməd Məmmədli - 30

(1994 – 2020)

Əsgər



Məmmədli Məhəmməd Murad oğlu 1994-cü il avqustun 22-də Mingəçevir şəhərində anadan olmuşdur. Təhsilini əvvəlcə Rusiyanın Volqoqrad şəhəri Srednyaya Axtuba qəsəbə məktəbində, 2005-ci ildən Mingəçevir şəhərində 18 nömrəli tam orta məktəbdə təhsilini davam etdirmişdir. 2006-2011-cı illərdə Mingəçevir şəhər Fəxrəddin Qasımov adına Uşaq İncəsənət məktəbini Fortepiano ixtisası üzrə bitirmişdir.

2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri Məmmədli Məmmədəli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan döyüslərində iştirak etmişdir. 2 oktyabrda qəhrəmancasına şəhid olmuşdur. 1 dekabrda Mingəçevir Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir övladı yadigar qalıb.

Məmmədli Məhəmməd Murad oğlu Azərbaycan Respublikasın Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S. 7-9.

AVQUST
24

Aqşin İbadov- 40

(1984 – 2020)

Mayor



İbadov Aqşin Nazim oğlu 1984-cü il avqustun 24-də Lənkəran rayonunun Boladı kəndində anadan olmuşdur. 1990-2001-ci illərdə Boladi kəndinin 1 saylı orta məktəbində təhsil almışdır. 2001-2005-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. 2006-2010-cu illərdə kəşfiyyat taqım komandiri, 2010-2015-ci illərdə kəşfiyyat bölük komandiri, 2015-2019-cu illərdə hərbi hissənin kəşfiyyat rəisi kimi xidmət etmişdir. Sonradan Hərbi Akademiyada təhsil almışdır. 2019-2020-cu illərdə Türkiyədə "Milli Savunma Üniversitesində" komanda heyəti, kəşfiyyat ixtisaslarında təhsil almışdır.

2020-ci ildən isə Xüsusi Təyinatlı Qüvvələrdə mayor rütbəsinə kimi yüksəlmişdir. Xidməti dövründə "3-cü dərəcəli fərqlənmə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi yubiley medalı", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi yubiley medalı", "3-cü dərəcəli Qüsursuz hərbi xidmətə görə medalı", "Azərbaycan Ordusunun 100 illiyi yubiley medalı", "2-ci dərəcəli Qüsursuz xidmətə görə medalı" ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Aqşin İbadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin, Cəbrayılın, Xocavəndin və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Aqşin İbadov oktyabrın 19-da Zəngilan döyüşləri zamanı şəhid olmuşdur. Lənkəran rayonunda dəfn olunmuşdur. Ailəli idi. Bir övladı yadigar qalıb.

İbadov Aqşin Nazim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.24-28.

İnternetdə:


https://president.az/az/articles/view/49098

AVQUST
24

Cahan Məmmədzadə - 30

(1994 – 2020)

Gizir



Məmmədzadə Cahan Saleh oğlu 1994-cü il avqustun 24-də İsmayıllı rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə İsmayıllı rayonunun Mirzağa Əzimov adına Təzəkənd kənd tam orta məktəbində təhsil almışdır.

2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirmişdir.

Azərbaycan Ordusunun giziri olan Cahan Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Cahan Məmmədzadə noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur.

Məmmədzadə Cahan Saleh oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərb xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 31 dekabr.- S.14-15.

İ n t e r n e t d ə:

https://president.az/az/articles/view/49098

25

Şükür Hacıyev - 25

(1999 – 2020)

Leytenant



Hacıyev Şükür Bayram oğlu 1999-cu il avqustun 25-də Babək şəhərində anadan olmuşdur. 2005-2013-cü illərdə Babək şəhərində 1 nömrəli tam orta məktəbdə, 2013-2016-cı illərdə isə Heydər Əliyev adına Hərbi Liseydə təhsil almışdır. 2016-2020-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Şükür Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Şükür Hacıyev oktyabrın 12-da Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Babək şəhərində dəfn olunmuşdur.

Hacıyev Şükür Bayram oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.24-28.

https://president.az/az/articles/view/49098

AVQUST
25

Əhməd Məmmədov - 30

(1994 – 2020)

MAHHXHQ kiçik çavuş



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında:: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

Məmmədov Əhməd Nazim oğlu 25 avqust 1994-cü ildə Qazax rayonunun Fərəhli kəndində anadan olmuşdur. 2000-2009-cu illərdə şəhid Kamran Kərimov adına Fərəhli kənd ümumi orta məktəbində, 2009-2011-ci illərdə Qazax şəhər Firuddin Şamoyev adına 4 nömrəli tam orta məktəbində təhsil almışdır.

Əhməd Məmmədov 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Həqiqi hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətini davam etdirib..

Azərbaycan Ordusunun kiçik çavuşu olan Əhməd Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əhməd Məmmədov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Qazax rayonunun Fərəhli kəndində dəfn olunmuşdur.

Məmmədov Əhməd Nazim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

25

Təbriz Həsənov - 30

(1994 – 2020)

MAHHXHQ əsgər



Həsənov Təbriz Rəşid oğlu 25 avqust 1994-cü il tarixində Bərdə rayon İkinci Qaradəmirçi kəndində anadan olmuşdur. O, 2001-2012-ci illərdə Bərdə rayonu Ə. Dadaşov adına Xanağalı kənd tam orta məktəbində təhsil almışdır.

Müddətli hərbi xidmətini başa vurandan sonra o MAHHXHQ əsgər kimi Azərbaycan Orxusunda xidmət etməyə davam etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Təbriz Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 2 oktyabrda Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Həsənov Təbriz Rəşid oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Həsənov Təbriz ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İ n t e r n e t d ə:

https://president.az/az/articles/view/49098

AVQUST
25

Orxan Məhərrəmov - 30

(1994 – 2020)

Əsgər



Məhərrəmov Orxan Binət oğlu 25 avqust 1994-cü ildə Sumqayıtda anadan olmuşdur. 2001-2010-cu illərdə Sumqayıt şəhər 28 saylı tam orta məktəbdə doqquz illik təhsil almşdır. 2012-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər idarəsində həqiqi hərbi xidmətə yola düşmüşdür. Gədəbəy rayonu İvanovka kəndində yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdır. 2014-cü ildə xidmətini başa vurmuşdur.

Azərbaycan Ordusunun əsgəri Orxan Məhərrəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl döyüşlərində iştirak etmişdir. 6 oktyabr 2020-ci ildə Xocavənd rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. II Şəhidlər xiyabanında dəfn edilmişdir.

Məhərrəmov Orxan Binət oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.21-31.

26

İlqar Zeynalov - 35

(1989-2020)

Baş leytenant



Zeynalov İlqar Natiq oğlu 1989-cu il avqustun 26-da Cəlilabad rayonunun Zopun kəndində anadan olmuşdur. 2007-2011-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almşdır.

Azərbaycan Ordusunun baş leytenantı olan İlqar Zeynalov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İlqar Zeynalov oktyabrın 10-da Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb.

Zeynalov İlqar Natiq oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İlqar Zeynalov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İ n t e r n e t d ə:

https://president.az/az/articles/view/49098

AVQUST

26

Adəm Əmirov- 25

(1999 – 2020)

MAHHXHQ əsgər



Əmirov Adəm Elçin oğlu 26 avqust 1999-cu ildə Ağdam rayonunun Xındırıstan kəndində anadan olmuşdur.2005-2016-cı illərdə Ağdam rayon 2 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2017-2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən MAXE kimi Azərbaycan Ordusuna xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Adəm Əmirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 15 oktyabrda Ağdam rayonun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunmuşdur

Əmirov Adəm Elçin oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Adəm Əmirov ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 17-20.

İnternetdə:

https://president.az/az/articles/view/49098

27

Aqil Mirzəliyev - 25

(1999 – 2020)

Əsgər



Mirzəliyev Aqil Mehman oğlu 1999-cu il avqust ayının 27-də İsmayıllı rayonunda anadan olmuşdur. 2005-2016-cı illərdə İsmayıllı rayonunda İsrail Həsənov adına 1 saylı tam orta məktəbdə təhsil almışdır. 2016-2020-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin mühasibat uçotu və audit ixtisasında təhsil almışdır.

Aqil Mirzəliyev hərbi xidmətinə Xüsusi Təyinatlı Qüvvələrin tərkibində başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Aqil Mirzəliyev 2020-ci il sentyabr ayının 27-dən başlayan 2-ci Vətən müharibəsində Murovdağ, Cəbrayıl, Füzuli və Hadrut istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. 20 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və oktyabr ayının 23-ü Şəhidlər xiyabanında dəfn edilmişdir.

Mirzəliyev Aqil Mehman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. - 2020.- 16 dekabr.- S.6-12.

AVQUST

28

Elşən Həmidov- 45

(1979 – 2020)

Əsgər



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

Həmidov Elşən Məzahir oğlu 1979-cu il avqustun 28-də Füzuli rayonunun Əhmədalılar kəndində anadan olmuşdur.

Elşən Həmidov bir müddət Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyində (ANAMA) çalışmışdır. 2020-ci il avqustun 15-dən isə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində sürücü vəzifəsində çalışmışdır.

Azərbaycan Ordusunun ehtiyatda olan əsgəri Elşən Həmidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Qubadlı və Xocavənd istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularını daşıyan hərbi təyinatlı avtomobillərin sürücüsü olmuşdur. Elşən Həmidov noyabrın 8-də Xocavənd rayonu ərazisində şəhid olmuşdur. Füzuli rayonunun Əhmədalılar kəndində dəfn olunmuşdur. Ailəli idi. Üç övladı yadigar qalıb.

Həmidov Elşən Məzahir oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elşən Həmidov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

30

Təhmasib Mustafayev - 35

(1989 – 2020)

Baş leytenant



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 5-6.

Mustafayev Təhmasib Sərməst oğlu 1989-cu il avqustun 30-da Cəbrayıl rayonunun Hasanlı kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə Kürdəmir rayon Vahid Əhmədov adına Topal Həsənli tam orta məktəbində təhsil almışdır. 2008-2009-cu illərdə Naxçıvanda yerləşən Daxili Qoşunların N saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçmişdir. 2012-2014-cü illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbinin "Daxili Qoşunlarda taktiki komandanlıq" ixtisasını bitirərək leytenant hərbi rütbəsində xidmətini davam etdirmişdir. 2018-ci ildə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun komandiri vəzifəsinə təyinat almışdır.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş leytenantı olan Təhmasib Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Təhmasib Mustafayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Ailəli idi. Bir övladı yadigar qalıb.

Mustafayev Təhmasib Sərməst oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.

AVQUST
30

Namiq Bağırov - 40

(1984 – 2020)

MAHHXHQ çavuş



Bağırov Namiq Nurəddin oğlu 1984-cü il avqustun 30-da Masallı rayonunun Çaxırlı kəndində anadan olmuşdur. 1990-2001-ci illərdə Çaxırlı kənd tam orta məktəbində təhsil almışdır.

Namiq Bağırov 2001-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun çavuşu olan Namiq Bağırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Namiq Bağırov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. 8 oktyabrda Masallı rayonunun Çaxırlı kəndində dəfn olunmuşdur. Aləli idi. Bir qızı yadigar qalıb.

Bağırov Namiq Nurəddin oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 29 dekabr.- S. 5-14.

https://president.az/az/articles/view/49098

30

Qismət Qardaşxanov - 30

(1994 – 2020)

MAHHXHQ əsgər



Qardaşxanov Qismət Qərib oğlu 30 avqust 1994-cü ildə Füzuli rayonunun Birinci Mahmudlu kəndində anadan olmuşdur. Qismət Qardaşxanov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Qismət Qardaşxanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Qismət Qardaşxanov 5 oktyabrda Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Qardaşxanov Qismət Qərib oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xovavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

İnternet:

https://president.az/az/articles/view/49098

AVQUST
30

Elnur Vəliyev- 25

(1999 – 2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S. 24-28.

Vəliyev Elnur Mirsiyab oğlu 30 avqust 1999-cu ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Əliheydər Məmmədov adına Beyləqan rayon Təzəkənd kənd tam orta məktəbdə təhsil almışdır. Elnur Vəliyev 2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Beyləqan rayon üzrə şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Azərbaycan Daxili Qoşunlarının sıralarında, Bakı şəhərində yerləşən "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətinə başlamışdır. Qəbələ və Şəkidə yerləşən "N" saylı hərbi hissələrdə hərbi xidmətini davam etdirmişdir. Elnur Vəliyev 2020-ci ildən Xüsusi Təyinatlı Qüvvələrin sıralarında müddətdən artıq hərbi xidmət etmişdir.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Elnur Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 28 sentyabrda Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirən zamanı şəhid olmuşdur. Bir müddət neytral zonada qalan nəşi 2 oktyabr 2020-ci ildə doğulduğu Beyləqan rayonunun Təzəkənd kəndində dəfn olunmuşdur.

Vəliyev Elnur Mirsiyab oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Kəbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

31

Bahaləddin İsmayılov- 25

(1999 – 2020)

MAHHXHQ əsgər



İsmayılov Bahaləddin Temraz oğlu 1999-cu il avqustun 31-də Ağstafa rayonunun Muğanlı kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Muğanlı kənd tam orta məktəbində təhsil almışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ildən müddətdən artıq həqiqi hərbi qulluqçu olaraq Xüsusi Təyinatlı Qüvvələrin sıralarında xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Bahaləddin İsmayılov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 29-da Şuşa şəhəri istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur.

İsmayılov Bahaləddin Temraz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.-2020.- 16 dekabr.- S.6-12.

Mehriban Əliyeva – 60

(1964)

Birinci vitse-prezident



Ədəbiyyat:

Heydər Əliyev Fondu / ön söz M.Əliyeva.- Bakı, 2005.-103 s.

Mehriban Əliyeva - Azərbaycan mədəniyyətinin hamisi = Mecene de la culture Azerbaidjanaise / tərt. və ön söz müəl. Ə. Ələkbərova; elmi red. P.Kərimov; tərc.: H.Babayev, Z.Mustafayev; dizayner R.Quliyev; fotoqr. V.Əmrullayev.- [Bakı]: [Şərq-Qərb], [2018].- 208 s.

Mehriban Əliyeva: dini və etnik dözümlülük bizim sərvətimizdir: tədbirlər, görüşlər, çıxışlar: [toplu] / [Azərb. Resp. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi; tərt. S.Aslanov; burax. məsul M. Qurbanlı].- Bakı: [DQİDK], 2017.- 331, [7] s.

Mehriban Əliyeva: "Bütün fəaliyyətimdə, bugünkü çox məsuliyyətli vəzifəmdə mənim güc mənbəyim xalqdır": Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak etdi / M.Əliyeva // Azərbaycan.- 2017.-30 iyun.- S.1,8.

Nasir, Ş. İşıqlı əməllər sahibi Mehriban Əliyeva / Şəfəq Nasir // Respublika.- 2016.- 26 avqust.- S.2.

Əliyeva Mehriban Arif qızı 1964-cü il avqustun 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

1981-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1988-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1988-1990-cı illərdə İ.M.Seçenov adına Birinci Moskva Tibb İnstitutunda "Göz xəstəlikləri" ixtisası üzrə kliniki ordinatura keçmişdir. 1990-1995-ci illərdə Moskvada Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 2005-ci ildə "Eftanaziya və təbabətdə humanizm problemi" mövzusunda dissertasiya işi müdafiə edib və fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondu təsis olunmuşdur. 1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə çap olunan "Azərbaycan – İrs" jurnalını təsis etmişdir.

Mehriban Əliyeva 2002-ci ilin oktyabrın 7-də Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmişdir. 2004-cü ilin dekabrında Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir. 2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavin seçilmişdir.

2005, 2010 və 2015-ci illərdə Milli Məclisin deputatı seçilmişdir. Millət vəkili kimi fəaliyyəti dövründə isə milli maraqları üstün tutub. Onun təşəbbüsü ilə Milli Məclisdə gündəliyə çıxarılan mövzular geniş sosial sferanı əhatə edirdi.

Mehriban Əliyevanın 2004-cü ildən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsi və milli dövlətçilik ideyalarının təbliği məqsədi ilə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir. Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsinin davam etdirilməsi və milli dövlətçilik ideyalarının təbliği məqsədilə yaradılmış fond xeyirxah təşəbbüslərlə cəmiyyətin mənəvi dəstəyinə çevrilib. Fondun dəstəyi ilə "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" proqramları çərçivəsində məktəblər əsaslı təmir edilir, onlarla yeni məktəb binaları inşa olunub.

2004-cü ilin avqustunda Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə UNESCO-nun Xoşməramlı səfiri adına və 2006-cı ilin noyabrında isə Humanitar sahədə genişmiqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, İslam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə ISESCO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

2022-ci il noyabrn 15-də isə Xoşməramlı səfir kimi fəaliyyətinə xitam verilməsi üçün UNESCO-nun Baş direktoruna məktub ünvanlayıb.

2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib. 2005-ci ilin martında "2004-cü ilin ictimai xadimi" nominasiyası üzrə "Caspian Energy İntegration Award-2005" beynəlxalq mükafatına layiq görülüb. 2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən, Mehriban Əliyeva "İlin qadını" adına layiq görülüb.

2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülüb.

Mehriban Əliyeva mədəni-mənəvi dəyərlərin qorunub saxlanmasına verdiyi töhfələrə görə 2006-cı ilin martında BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalına layiq görülüb.

Dünya Səhiyyə Təşkilatı (WHO) İcraiyyə Komitə- sinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Mehriban Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möh- kəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına layiq görülüb

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında Mehriban Əliyeva "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülüb

Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 5 may tarixli sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Heydər Əliyev Mükafatı ilə təltif edilib.

2009-cu il sentyabrın 14-də Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif edilib.

2010-cu il fevralın 15-də Mehriban Əliyeva Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilib.

2010-cu il iyulun 30-da Mehriban Əliyevaya UNESCO-nun "Qızıl Motsart" medalı təqdim edilib. 2011-ci il iyunun 24-də Mehriban Əliyevaya Krans Montana Forumunun Qızıl medalı, 2012-ci il iyunun 29-da isə "Prix de la Fondation" mükafatı təqdim edilib.

2012-ci il fevralın 13-də Mehriban Əliyeva Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru adına layiq görülüb.

2012-ci il aprelin 13-də Mehriban Əliyevaya MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası (HCC) və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (IHCF) tərəfindən "Birlik Ulduzları" dövlətlərarası mükafatı təqdim edilib.

2012-ci ildə Mehriban Əliyeva "mərhəmətinə, xeyirxahlığına, xalqların rifahı naminə yorulmaz fəaliy- yətinə və kazaklara göstərdiyi köməyə görə" Azərbay- can Kazaklar İttifaqı tərəfindən ali "Kazak şöhrəti" ("Kazatskaya slava") mükafatına layiq görülüb.

2012-ci il dekabrın 8-də Avropa Olimpiya Komitəsi Baş Assambleyası 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul edib. Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədi ilə 2013-cü il yanvarın 17-də Təşkilat Komitəsi yaradılıb və onun sədri Mehriban Əliyeva təyin olunub.

2013-cü ilin yanvarında Pakistanın nüfuzlu "Daily Times" qəzeti və Qadın Könüllülər Təşkilatı Mehriban Əliyevanı "Humanizm simvolu – 2012-ci ilin adamı" elan edib.

2013-cü il dekabrın 27-də Mehriban Əliyeva Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı - 2013" mükafatına layiq görülüb.

Fransanın Ərəb Mədəni İrsi Mərkəzi və Misirin "Nefertiti Media Productions" şirkətinin 2013-cü il martın 8-dən 2014-cü il yanvarın 10-dək birgə keçirdiyi sorğunun nəticəsinə görə, Mehriban Əliyeva 2014-cü ilin ən nüfuzlu qadını adına layiq görülüb.

2014-cü ilin mayında Mehriban Əliyeva sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülüb.

Azərbaycanın ictimai, sosial və mədəni həyatında fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, Azərbaycan mədəniyyətinin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, həmçinin ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə "The Business Year" jurnalı tərəfindən 2014-cü ilin mayında "İlin Birinci Xanımı" mükafatına layiq görülüb.

2014-cü ilin iyununda Olimpiya dəyərlərinin təbli- ğindəki xidmətlərinə görə Beynəlxalq Olimpiya Aka- demiyasının "Olympic Excellence" xüsusi fəxri mü- kafatı ilə təltif olunub.

2014-cü ilin iyununda Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunub.2014-cü ilin avqustunda "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni ilə və İslam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə Küveyt Dövlətinin Fəxri diplomu ilə təltif olunub. 2015-ci il fevralın 11-də Pakistan İslam Respublikasının "Hilal-e Pakistan" ali ordeni ilə təltif olunub.

2015-ci il martın 26-da Mehriban Əliyeva Serbiya qarşısında ictimai, mədəni və humanitar sahələrdə xüsusi xidmətlərinə görə Serbiya Respublikasının yüksək dövlət mükafatı – "Sreten" ordeni ilə təltif edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 29 iyun tarixli sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilib.

Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu "Bakı-2015" birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsində oynadığı müstəsna rola, Azərbaycanın müsbət imicinin dünyada tanıdılması istiqamətində göstərdiyi genişmiqyaslı fəaliyyətə, Azərbaycan və dünya mədəniyyətinin qarşılıqlı inteqrasiyası üçün gördüyü işlərə, ölkədə multikulturalizm mühitinin formalaşdırılmasındakı töhfələrə və ardıcıl xeyriyyəçilik fəaliyyətinə görə Mehriban Əliyevanı "2015-ci ilin adamı" elan edib.

2016-cı il yanvarın 21-də Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden Mehriban Əliyevaya təqdim edilib. 2016-cı il martın 6-da Mehriban Əliyeva "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni ilə təltif edilib.

2016-cı ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü seçilib.

2016-cı il sentyabrın 22-də Bolqarıstanın Veliko Tırnovo şəhərinin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə Mehriban Əliyevaya şəhərin fəxri vətəndaşı diplomu və döş nişanı təqdim edilib.

2016-cı il sentyabrın 22-də Bolqarıstanın mədəni irsinin qorunmasına və təşviqinə böyük töhfəsinə, bu işdə fəal iştirakına görə Mehriban Əliyeva Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomu ilə təltif olunub.

2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin edilib.

2017-ci il iyunun 2-də Azərbaycan Memarlar İttifaqının fəxri üzvü seçilib. Azərbaycan memarlıq irsinin qorunub saxlanılmasında fəaliyyətinə və bu sahəyə verdiyi töhfələrə görə Mehriban Əliyeva "Akademik Mikayıl Hüseynov" xatirə medalı ilə də təltif olunub.

2017-ci il dekabrın 26-da Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə Mehriban Əliyevaya II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib.

2018-ci il martın 15-də qlobal layihələrin, təhsilin, elmin və mədəniyyətin inkişafına verdiyi töhfələrə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı Mehriban Əliyevaya təqdim edilib.

2018-ci il iyulun 18-də İtaliya Respublikasının "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni Mehriban Əliyevaya təqdim edilib

2018-ci il sentyabrın 22-də Mehriban Əliyevaya idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı təqdim olunub.

2019-cu il yanvarın 18-də Mehriban Əliyeva dahi bəstəkar, müasir Azərbaycan musiqi sənətinin banisi Üzeyir Hacıbəylinin zəngin irsinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına verdiyi əvəzsiz töhfələrə görə Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi "Üzeyir Hacıbəyli" fəxri medalı ilə təltif edilib.

2019-cu il avqustun 13-də Mehriban Əliyeva Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Fərmanı ilə Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiyanın "Dostluq" ordeni ilə təltif olunub.

2020-ci il fevralın 22-də mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Mehriban Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi - IX Piy Ordeninin Böyük Xaçı təqdim edilib.

2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Sərəncamı ilə partiya sədri nin birinci müavini təyin edilmişdir.

2023-cü il noyabr ayının 15-də Mehriban Əliyeva İstanbulda keçirilən dövlət və hökumət başçılarının xanımlarının "Fələstin üçün tək ürək" toplantısında iştirak etmişdir.

44 günlük Vətən müharibəsində Ali Baş Komandanın Zəfər müjdəsini ilk olaraq sosial şəbəkə hesablarında paylaşması, Prezidentlə birlikdə hospitallarda müalicə olunan hərbçiləri ziyarət etməsi, şəhid analarının yanında olarkən göz yaşlarını gizlətməyə çalışması, qələbədən sonra dəfələrlə işğaldan azad olunmuş rayonlara səfəri xanım Əliyevanın həm vətənpərvər, cəsarətli, eyni zamanda mərhəmətli və şəfqətli olmasını göstərir.

Mehriban Əliyevanın uzaqgörən ictimai-siyasi fəaliyyəti geniş miqyasda fəal və dünyəvi Azərbaycan qadını obrazının formalaşmasında əvəzsiz rol oynayır. Onun humanitar, elm, təhsil sahələrində həyata keçirdiyi tədbirlər həm Azərbaycanda, həm də digər ölkələrdə yaşayan qadınlar üçün əsl örnək kimi çıxış etməklə yanaşı, bu gün Azərbaycan Respublikasında siyasətin prioritet istiqamətlərindən biri olan qadınların cəmiyyətdə rolunun, habelə dövlət və ictimai sektorda fəallığının artırılmasının təşviq olunmasına xidmət edir.

Rahid Ulusel – 70

(1954)

Filosof



Xəlilov Rahid Süleyman oğlu 13 avqust 1954-cü ildə Masallı rayonunun Kəlbəhüseynli (keçmiş adı: Qaladibi) kəndində doğulmuşdur. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1986-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasında namizədlik, 2007-ci ildə Bakı Dövlət Universitetində doktorluq dissertasiyaları müdafiə etmişdir.

1975-2001-ci illərdə müəllim, İcra Hakimiyyəti başçısının müavini, baş redaktor vəzifələrində çalışmışdır. 2002-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının baş elmi işçisi və Azərbaycanda Atatürk Mərkəzinin elmi əməkdaşıdır. 2005-2007-ci illərdə Qərb Universitetində fəlsəfə və kulturologiya üzrə mühazirələr aparmışdır. 2005-ci ildə "Qlobalistika və Sivilizasiologiya" Elmi Araşdırmalar İctimai Birliyini təsis etmişdir. Prezidenti olduğu bu təşkilat 2011-ci ildə Azərbaycanda və bütün Cənubi Qafqazda ilk elmi qurum olaraq Fəlsəfə Cəmiyyətlərinin Beynəlxalq Federasiyasına üzv qəbul edilmişdir.

Rahid Ulusel 1989-cu ildən Yazıçılar İttifaqının üzvü, 2010-cu ildən Biokosmologiya Assosiasiyasının Təşkilat Komitəsinin (Rusiya) üzvü, Biokosmologiya Assosiasiyasının Yaxın Şərq üzrə vitse-prezidenti, "Biokosmologiya – neo-Aristotelizm" jurnalının Redaksiya Heyətinin üzvü olmuşdur. Hazırda Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun Dissertasiya Şurasının, Ədəbiyyat İnstitutunun Elmi Əsərləri – "Poetikaizm"in Redaksiya Şurasının üzvüdür. XXII Dünya Fəlsəfə Konqresi (Koreya, Seul Universiteti, 2008), VIII Dünya Konqresi (İsveç, Stokholm, 2010), II Beynəlxalq Konfrans (ABŞ, Harvard Universiteti, 2011), XXIII Dünya Fəlsəfə Konqresi (Yunanıstan, Afina, 2013) və bir sıra digər beynəlxalq tədbirlərdə Azərbaycanı təmsil etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Azərbaycanın dünya birliyinə inteqrasiyası: Mədəniyyətlərin İpək Yolu" (2009) layihəsini həyata keçirmiş, layihə çərçivəsində müvafiq kitabları çap etdirmişdir. Dövri mətbuatda esseləri və əsasən, elmi jurnallarda fəlsəfə, estetika, kulturologiya, filologiya problemlərinə dair 200-dən çox məqaləsi, 22 kitab və monoqrafiyası çap olunmuşdur.

1990-cı ildə "Humanitariya metasistemi" konsepsiyasına görə SSRİ Təhsil Nazirliyinin medalına layiq görülmüşdür. 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin təqaüdçüsüdür. Elmi nailiyyətlərinə görə 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən "İlin Alimi" adına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan: Bütöv, Güclü, Yenilməz: Sabir Rüstəmxanlının həyatı, mühiti, ictimai və ədəbi-mədəni

fəaliyyəti /Rahid Ulusel; elmi red. İ.Həbibbəyli; red. S.Süleymanlı.- [Bakı]: [Qanun], [2022].- 143 s.

Azərbaycan: Bütöv, Güclü, Yenilməz: Sabir Rüstəmxanlının həyatı, mühiti, ictimai və ədəbi-mədəni fəaliyyəti /Rahid Ulusel; elmi red. İ.Həbibbəyli; red. S.Süleymanlı.- [Bakı]: [Qanun], [2022].- 143 s.

Türk ədəbiyyatı Vəqfi Rahid Uluselin kitabını nəşr edib //525-ci qəzet. - 2020. - 24 yanvar. - S.15.

Bayat, F. İbretle Hikmet, Profanla İrfan arasında: Rahid Uluselin Türkiyede basılmış "Düşünce Vahası"

aforizmalar kitapı üzerine /F. Bayat //Ədəbiyyat qəzeti. - 2022. - 17 dekabr. - S.31.

Mədəniyyətimizin ulu kökləri: Türkün dünya fatehliyi bir möcüzə deyil! /Rahid Ulusel //Paralel.- 2021.-29 aprel.- S. 23; Ədəbiyyat qəzeti. - 2021. - 19 iyun. - S.29.

Qeylani Pənahov - 70

(1954)

Alim



Pənahov Qeylani Minhac oğlu 25 avqust 1954-cü ildə Qusar rayonu Ənix kəndində anadan olmuşdur. 1971-ci ildə Ənix kənd orta məktəbini bitirib, həmin il Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti - ADNSU) daxil olmuşdur,1976-cı ildə həmin institutun Neft və Mədən fakultəsinin dağ mühəndisi ixtisasını bitirmişdir.

1977-1979-cu illərdə Ukraynanın Krivoy Roq şəhərində müxtəlif şaxtalarda usta vəzifəsində və Təhlükəsizlik Texnikası İnstitutunda böyük mühəndis vəzifəsində işləmişdir.

1979-cu ildən 1988-ci ilə kimi Azərbaycan Neft və Kimya İnstitutunda (indiki ADNSU) kiçik elmi işçidən başlayaraq baş elmi işçiyə kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1984-1986-cı illərdə həmən İnstitutun aspiranturasında oxumuş və 1986-cı ildə texnika elmləri namizədi alimlik dərəcəsini almaq üçün "Fiziki sahələrlə quyu məhsullarının reofiziki xüsusiyyətlərini tənzimləməklə neftçıxarmada texnoloji proseslərin səmərəliliyinin artırılması" mövzusunda dissertasiya müdafiə etmişdir. 1996-cı ildə texnika elmləri doktoru alimlik dərəcəsini almaq üçün "Neft-qaz sənayesi üçün yeni kompozit sistemlərin işlənməsi və tətbiqi" mövzusunda dissertasiya müdafiə etmişdir.

1988-ci ildə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutu "Neft və qazın qeyri xətti mexanikası" şöbəsinə böyük elmi işçi vəzifəsinə seçilmişdir. 1999-2002-ci illərdə "Maye və qaz axınlarında fiziki mexaniki proseslər laboratoriyasının" müdiri vəzifəsində işləmişdir. 2002-ci ildən "Maye və qaz mexanikası" şöbəsinin müdiridir.

1991, 2007-2009-cu illərdə ABŞ-da, 1993-cü ildə Türkiyədə, 2002-2013 cü illərdə Çin Xalq Respublikasında elmi məzuniyyətlərdə olmuşdur. Qeylani Pənahov 180 elmi məqalənin müəllifidir. 55 elmi məqaləsi Rusiya Federasiyasının və Azərbaycan Respublikasının patentini almışdır.

1999-2001-ci illər ərzində Azərbaycan Ali Attestasiya Komitəsində Riyaziyyat və Mexanika üzrə ekspert şurasının, 1998-ci ildən indiyə kimi Riyaziyyat və Mexanika İnstitutunun Elmi Şurasının və Azərbaycan Dövlət Neft Akademiyasında namizədlik və doktorluq müdafiəsi üzrə İxtisaslaşdırılmış Elmi Şurasının üzvüdür. 1999-cu ildən Rusiya Federasiyasında İxtiralar üzrə Akademiyasının və 2003-cü ilin martından Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi xarici üzvü seçilmişdir.

Qeylani Pənahov "TRANSACTIONS ISSUE MECHANICS Series of physical-technical & mathematics science Azerbaijan National Academy of Science" jurnalının baş redaktoru, "Azərbaycan Neft Təsərrüfatı" və "Нефтегазовое дело" jurnalının redaksiya heyətinin üzvüdür.

2004-cü ildə akademik V.İ.Vernadski adına RTEA-nın fəxri gümüş medalına, AMEA-nın Fəxri Fərmanına, 2009-cu ildə Elmin və İqtisadiyyatın İnkişafındıkı nailiyyətlərə görə RTEA-nın Fəxri Nişanına, 2015-ci ildə Akademik Azad Mirzəcanzadə adına gümüş medala laiq görülmüşdür.

Ədəbiyyat:

Miriyev, A. Sənaye texnologiyasından xarici dövlətlər də yararlanır: AMEA Riyaziyyat və Mexanika İnstitutu Maye və qaz hərəkətində fiziki-mexaniki proseslər laboratoriyasının müdiri, akademik Pənahov Geylani Minhac oğlu haqqında /Anar Miriyev //Palitra . - 2009. - 22 dekabr. - S.7.

Реологические свойства структурообразующих дисперсных систем / Г.М.Панахов, Э.М.Аббасов, А.О. Юзбашиева, С.Р. Расулова, В.Г. Гусейнов // Нефтегазовое дело, №2. - 2016. - С.133-141.

İnternetdə:

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/1361

Nərgiz Axundova – 65

(1959)

Tarixçi



Axundova Nərgiz Çingiz qızı 7 avqust 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. O, 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1981-1983-cü illərdə Azərbaycan Dövlət Universitetinin ixtisasartırma fakültəsində ərəb dili müəllimi, 1983-1986-cı illərdə tarix fakültəsində əyani aspirant, 1986-2012-ci illərdə BDU-nun "Asiya və Afrika ölkələri tarixi" kafedrasında baş laborant, müəllimi, dosenti, professoru, 2012-ci ildən Qərbi Kaspi Universitetinin professoru vəzifəsində çalışır.

2014-cü ildə Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının Tarix ixtisası üzrə müxbir üzv seçilmişdir. 2017-ci ildə Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

AMEA A.A.Bakixanov adına Tarix İnstitutun şöbə müdiridir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestat Komissiyası Prezidiumunun üzvü, Rusiya, Orta Asiya elmi jurnallarının redaksiya heyətinin üzvü, AMEA RH "Sosial elmlər" jurnalının baş redaktorudur.

Nərgiz Axundova 110 elmi əsərin və xaricdə çıxmış 20 elmi əsərlərin müəllifidir. Beynəlxalq bazarlarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda 6 məqaləsi çap olunub. Nərgiz Axundova üç doktorant, iki dissertantın elmi rəhbəridir.

1987-ci ildə "Suriya Ərəb Respublikasının ictimai-siyasi həyatında islamın rolu (1963-1981-ci illər)" mövzusunda namizədlik dissertasiyası və 2007-ci ildə "Abbasilər Xilafətinin hərbi-siyasi strukturunda türklərin rolu" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Nərgiz Axundova "Xilafətin dövlət idarəçilik sistemində türklər" (2004), "Qafqaz və böyük türk imperiyaları (2012), "Suriya və İraq ƏSDP-in hakimiyyəti altında" (2000), "Asiya və Afrika ölkələri tarixi" (1994), Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi (2009), "Asiya və Afrika ölkələrinin çağdaş tarixi" (2009), "Buveyhilər və xilafət (2020) mövzusunda monoqrafiya və dərsliklərin müəllifidir.

"METAFİZİKA" beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalının 14-cü sayından jurnalın "Tarix, Arxeologiya və Antropologiya" üzrə redaksiya heyətinin üzvüdür.

Ədəbiyyat:

Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi: dərslik /Nərgiz Axundova; elmi red. R.İ.İsmayıl; rəyçi S.M.Qəndilov [və b.].- Bakı: Adiloğlu, 2010. - 326 s.

Həbibbəyli, İ. Ümumi tarixçilikdə ölkə maraqları / İsa Həbibbəyli // Azərbaycan.- 2019.- 6 avqust.- S. 4.

Kərimli, T. Azərbaycan mediyevistikasının görkəmli nümayəndəsi / Teymur Kərimli // Xalq qəzeti.- 2019.- 9 avqust.- S.6 Tarixçi alimin yubileyi ilə bağlı kitab sərgisi //Mədəniyyət. - 2019. - 9 avqust. - S.3. Heydər Əliyev müasir Azərbaycan tarixində /Nərgiz Axundova // Azərbaycan Milli Elmlər Akademiyasının xəbərlər məcmuəsi. - 2018. - C.5. - №2. - S.5-7. Azərbaycan elminin fəxri /Nərgiz Axundova // Azərbaycan. - 2018. - 19 sentyabr.- S.10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/N%C9%99rgiz_Axundova https://wcu.edu.az/az/teachers/nargiz-akhundova-id-201

Allahşükür Paşazadə - 75

(1949)

Din xadimi



Ədəbiyyat:

İslamda ümmət və şüubilik /Şeyxülislam Allahşükür Paşazadə; red. R.Əliyev; "İrşad" İslam Araşdırmaları Mərkəzi.- Bakı: Bilik, 1992.-127 s.

Qafqazda İslam: Tarix və müasirlik / Şeyxülislam Allahşükür Paşazadə; elmi red. Z.Bünyadov; Red. R.Əyyubov, T.Babayev.- Bakı: Azərnəşr, 1991.- 224 s.

Ömrün müdriklik zirvəsi: Xalq elçiləri / Şeyxülislam Allahşükür Paşazadə // Azərbaycan.-2018.- 22 fevral.- S. 3.

Şeyxülislam Hacı Allahşükür Paşazadənin orden və medalları / red. və ön sözün müəl. A. İsgəndərov; tərt. ed. A. İsgəndərov, S. İsmayılov, Z. Əmrahov; nəşrə məsul. S.Musayev.- Bakı: Qismət, 2010.- 184 s.

On ikinci Şeyxülislam / Şəhrəli, H.Ə.Nağıyev, R.Ağayev, H.A.Yaqubov; red.: H.V.Məmmədəliyev və b.- Bakı: Əlhuda, 2000.- 451s.

Şeyxülislam Allahşükür Paşazadə: biblioqrafik göstərici / tərt. ed. A. İsgəndərov (red.) [və b.]; nəşrə məsul H.S.Musayev.- Bakı: Nurlar, 2014.- 343, [1] s.- (Azərbaycanın görkəmli din xadimləri).

Şeyxülislam Allahşükür Hümmət oğlu Paşazadə 1949-cu il avqustun 26-da Azərbaycan Respublikası Lənkəran rayonunun Cil kəndində anadan olmuşdur. O, orta məktəbdə oxumaqla yanaşı yerli ruhanilərdən dini təhsil almağa müvəffəq olmuşdur. 1968-1970-ci illərdə Özbəkistan Respublikasının Buxara şəhərində "Mir-Ərəb" mədrəsəsində, 1971-1975-ci ildə İmam əl-Buxari adına Daşkənd İslam İnstitutunun ilahiyyat fakültəsində təhsil almışdır.

Allahşükür Paşazadə 1975-1978-ci illərdə Qafqaz Müsəlmanları İdarəsində məsul katib vəzifəsində, 1978-ci ildən isə Təzəpir məscidinin axundu və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini vəzifələrində çalışmışdır. 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri seçilərək Şeyxülislam rütbəsi almışdır, eyni zamanda Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının sədridir.

Şeyxülislam Allahşükür Paşazadə SSRİ-nin bir sıra beynəlxalq və ümumittifaq miqyaslı təşkilatlarında Rəyasət Heyətinin üzvü olan yeganə din xadimi kimi təmsil olunmuşdur. O, Sovet Sülhü Müdafiə Komitəsinin (sədr akad. Y.Fyodorov), Sovet Sülh Fondunun (sədr A.Karpov), Sovet Uşaq Fondunun (sədr A.Lixanov), Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin (sədr M.İbrahimov), Xarici ölkələrlə dostluq və mədəni əlaqələr üzrə Sovet cəmiyyətləri Şurasının (sədr V.Tereşkova), SSRİ Ali Soveti Millətlər Şurasının (sədr R.Nişanov) rəyasət üzvü kimi tez-tez xarici ölkələrdə səfərlərdə olmuş, ölkənin siyasi və ictimai-mədəni həyatında fəal rol oynamşdır.

Şeyxülislam A.Paşazadənin təşəbbüsü və İslam Konfransı Təşkilatının himayəsi ilə 1986-cı ildə Bakıda "Müsəlmanlar sülh uğrunda mübarizədə" beynəlxalq İslam konfransı keçirilmişdir. Təşkilatçılıq qabiliyyəti yüksək dəyərləndirilən Şeyxülislam həzrətləri 1987-ci ildə Moskvada "Nüvə silahsız dünya, bəşəriyyətin xilası uğrunda" beynəlxalq forumun başçısı və həmsədri seçilmişdir.

Qafqaz bölgəsinin ən nüfuzlu din xadimi kimi Allahşükür Paşazadə Çeçenistan və İnquşetiyada dini təfriqə salan radikal təmayüllü qüvvələrin xalqa zidd əməllərinin qarşısının alınmasında əməli tədbirlər görmüş, "Qafqaz evi" çərçivəsində bölgədə barış mühitinin formalaşması istiqamətində gərgin fəaliyyət göstərmişdir.

Şeyxülislam Allahşükür Paşazadənin 1998-ci ildə "Müasirlik və dini-mənəvi dəyərlər", 2003-cü ildə "Allahın lütfü, xalqın xilaskarı", 2004-cü ildə "Qloballaşma və islam", 2005-ci ildə "Qloballaşan dünyada islam", 2006-cı ildə "Tolerantlığın örnəyi – Azərbaycan", "İslamda dözümlülük", 2013-cü ildə "MDB ölkələri sülh və stabil inkişaf tərəfdarıdır", 2014-cü ildə "Dini tolerantlığın möhkəmləndirilməsi: (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)", 2015-ci ildə "İslam maarifçiliyi və müasir dövr" mövzularında keçirilən beynəlxalq konfranslara rəhbərlik etmişdir.

Allahşükür Paşazadənin təşkilatçılığı ilə 2002-ci ildə Tbilisidə "Qafqazda sülh uğrunda əməkdaşlıq" beynəlxalq forumu, 2004-cü ildə Moskvada Beynəlxalq dinlərarası sülhyaratma forumu, 2006-cı ildə Dünya Dini Liderlərinin Moskva Sammiti, 2010-cu ildə Dünya Dini Liderlərinin Bakı Sammiti keçirilmişdir.

Xristian aləmində böyük nüfuz və ehtiram sahibi olan Allahşükür Paşazadə, eyni zamanda 2006-cı ildən Roma Katolik və Rus Pravoslav kilsələrinin təklifi ilə katolik-pravoslav məzhəblərarası əlaqələr komissiyasının üzvüdür. 2009-cu ilin iyulunda UNESCO-nun yanında yaradılan din xadimlərinin yüksək səviyyəli Məşvərət qrupunun üzvü seçilmişdir.

Şeyxülislam Allahşükür Paşazadə 1989-cu ildə SSRİ Ali Sovetinə xalq deputatı seçilən ilk müsəlman din xadimidir. Həmçinin 1990-1995-ci illərdə müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının ilk Milli Məclisində Naxçıvan seçki dairəsindən XII çağırış millət vəkili olmuşdur.

1992-ci ildə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsini almışdır, 1999-cu ildən Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin professoru, BDU İmtahan Komissiyalarının sədri, AR Prezidenti yanında Ali Attestasiya Komissiyası ekspert şurasının üzvü, tarix və ilahiyyat üzrə onlarla dissertasiyaların elmi rəhbəri, opponenti və məsləhətçisidir.

Tarix və ilahiyyat elmləri üzrə "Qafqazda islam", "İslamda ümmət və şüubilik", "Quranın təfsiri və tərcüməsi tarixi", "Qurani-Kərimin ilahi hökmləri və öyrənilməsi", "İslamda şəhidlik", "Milli münasibətlər və din", "Qurani-Kərimin ecazkarlığı", "Qurani-Kərimdə insan təbiəti" adlı monoqrafiyaların, elmi əsərlərin və çoxsaylı məqalələrin müəllifidir.

Elmi fəaliyyətində bəşərin istiqbalına yönəlmiş təcrübi elmlərlə ilahi dini biliklərin vəhdətini önəmli bilən professor Allahşükür Paşazadə Azərbaycanda bu sahədə müstəsna xidmətləri olan şəxslərdəndir. Onun təkidi ilə uzun illər ərzində qapalı olan Bakı İslam mədrəsəsi 1989-cu ildə təsis edilmiş, 1991-ci ildən Bakı İslam Universiteti kimi fəaliyyət göstərməyə başlamışdır. Dini maarifi, İslamın elmi şəkildə tədris olunmasını önə çəkən Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü ilə 1997-ci ildə isə Qafqaz Müsəlmanları İdarəsi nəzdində görkəmli elm və din xadimlərindən ibarət Elmi-Dini Şura yaradılmışdır. Qloballaşma dönəmində dini maarifçiliyin böyük əhəmiyyət kəsb etməsi fikrini önə sürən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2015-ci ildə keçirilən "İslam maarifçiliyi və müasir dövr" mövzusunda beynəlxalq konfransın təşkilatçısı olmuşdur.

Şeyxülislam Allahşükür Paşazadə İslam aləmində yeganə fiqh alimidir ki, həm şiə, həm də sünni məzhəblərinə fəqihlik etmək - ali dini hüquqi qərar vermək səlahiyyətinə malikdir. O, məzhəbi vəhdət naminə beynəlxalq miqyasda təbliğat aparan ictihad alimlərindəndir.

Şeyxülislam Allahşükür Paşazadənin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycanın ali mükafatları olan "Heydər Əliyev", "Şöhrət", "İstiqlal", "Şərəf" ordenləri, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunmuşdur.

Şeyxülislam Allahşükür Paşazadənin çoxsahəli fəaliyyəti dünyanın böyük dövlətləri və dini qurumları tərəfindən də yüksək qiymətləndirilmiş, bir çox ali mükafatlara layiq görülmüşdür. O, keçmiş SSRİ-nin "Xalqlar dostluğu" ordeni, Rusiya Federasiyasının " Dostluq" və "Şöhrət" ordenləri, Misirin I dərəcəli "Əl-elm və əməl" ordeni, Çeçenistan Respublikasının "Milli qəhrəman-Koman Turpal" və "Kadırov" ordenləri, Rus Pravoslav Kilsəsinin I dərəcəli "Müqəddəs Vladimir", I dərəcəli "Müqəddəs Sergi Radonejski", "Şöhrət və Şərəf" ordenləri Gürcüstan Respublikasının "Şərəf" və " Qoyunun qızıl dərisi" ordenləri, Vatikan dövlətinin "Müqəddəs Qreqori" ordeni, İordaniya Krallığının I dərəcəli "Kral Hüseyn" ordeni, Rusiya Müftilər Şurasının I dərəcəli "Əl Fəxr" ordeni, Bakı və Xəzəryanı Yeparxiyanın I dərəcəli "Müqəddəs Apostol Varfolomey" ordeni, Şimali Qafqaz Müsəlmanları Koordinasiya Mərkəzinin I dərəcəli "Ümmət qarşısında xidmətlərinə görə" ordeni, "İNTERSAFETY" Terrorizm, Korrupsiya, Ekoloji Cinayətkarlığa qarşı Beynəlxalq Təhlükəsizlik Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Təltiflər İttifaqının (UNCOPA) "Aypara və Ulduz" ordeninin ali dərəcəsi, Beynəlxalq Ekoenergetika Akademiyasının qızıl medalı və Serbiya Respublikasının "İmperator Böyük Konstantinin" qızıl sikkəsi ilə təltif olunmuşdurGürcüstanın "Dostluq" ordeni (2022) və s. 2019-cu ildə Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. 2019-cu il 8 iyun tarixində Lənkəran şəhərində "Şeyxülislam Allahşükür Paşazadə-70: mənəviyyata həsr olunmuş ömür" mövzusunda regional konfrans keçirimişdir. Şeyxülislam Allahşükür Paşazadəyə Qazaxıstanın Avrasiya Milli Universitetinin fəxri professoru adına layiq görülmüşdür (2021), 2022-ci ildə Allahşükür Paşazadənin İslam dünyasının nüfuzlu qurumu olan Müsəlman Ağsaqqallar Şurasına üzv seçilmişdir. "Din və sülh, din və insan hüquqları üzrə dinlərarası dialoq" mövzusunda keçirdiyi beynəlxalq konfransda (2022), Allahşükür Paşazadə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində BMT Ətraf Mühitin Mühafizəsi üzrə "COP 28" çərçivəsində dünya dini liderlərinin qlobal sammitində iştirak etmişdir (2023). 2023-cü ildə Qafqaz Müsəlmanları İdarəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" mövzusunda konfrans keçirilmişdir.

Xeyrulla Məmmədov - 90

(1934-2005)

Ədəbiyyatşünas



Ə d ə b i y y a t:

XIX əsr Azərbaycan ədəbiyyatı / Xeyrulla Məmmədov; elmi red., nəşrə hazırl. və ön söz. müəl. E.Quliyev.- Bakı: 2006.- 214 s.

Sultan Məcid Qənizadə / X.Məmmədov; red. H.Qasımzadə.- Bakı: Yazıçı, 1983.- 211, [5] s.

Dünyada qala bilmək... : [filol. e. d-ru prof. Xeyrulla Məmmədov haqqında] / Tərt. ed. R.Novruz; red. İ.İsrafilov; ön söz müəl.T. Həmid.- Bakı: Qanun, 2012.- 209, [3] s

Əhməd, V. Xeyrulla Məmmədov - Maarif və elm fədaisi / Vüqar Əhməd // Kredo.- 2016.- 25 mart.- S.3.

Həsənli, A. Bənzərsiz xarakter sahibi / Ağacəfər Həsənli // 525-ci qəzet.- 2011.- 3 mart.- S.7.

Ələsgərova, S. Unudulmaz pedaqoq, tədqiqatçı alim / Sakibə Ələsgərova // Respublika.- 2015.- 4 avqust.- S.7.

Əhmədov, T. Azərbaycan yazıçıları XX-XXI yüzilliklərdə ensiklopedik məlumat kitabı /Teymur Əhmədov; naşir H. İ. Allahverdi ; red. N. Qurbanova.- Bakı: Nurlar, 2011.- 1055 s.

Xeyrulla Qulam oğlu Məmmədov 1934-cü il avqust ayının 1-də Lerik rayonu Zuvand mahalının Hoveri kəndində anadan olmuşdur.

1952-ci ildə Lerik kənd (o vaxtlar kənd sayılırdı) orta məktəbini bitirmişdir. 1957-ci ildə S.M.Kirov adına ADU-nun (indiki BDU-nun) filologiya fakültəsində təhsil almışdır. 1957-1960- cı illərdə Lerik qəsəbə orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir. Eyni zamanda internat məktəbində baş tərbiyəçi işləmişdir. Lerik rayonunda çıxan "Kolxoz yolu" qəzetində müntəzəm çıxış etmiş və bu qəzetin məsul katibi işləmişdir.

1960-1963-cü illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) aspiranturada təhsil almışdır. 1963-cü ilin noyabr ayında ADPİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında işə başlamış, 1963-1965-ci illərdə həmin kafedrada müəllim kimi çalışmışdır. 1965-1967-ci illərdə baş müəllim, 1967-1982-ci illərdə isə dosent vəzifələrini tutmuşdur. 1968-1970-ci illərdə Azərbaycan ədəbiyyatı tarixi kafedrası müdirinin müavini vəzifəsinə təyin olunmuşdur.

1982-ci ildə elmlər doktoru elmi dərəcəsini almışdır. 1991-ci ildən filologiya-tarix fakültəsinin qiyabi şöbəsinə dekan seçilmişdir. X.Məmmədov ömrünün sonunadək müxtəlif elm ocaqlarında pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Görkəmli alimin elmi fəaliyyətində ədəbi tənqid tariximizin öyrənilməsi xüsusi yer tuturdu. Xeyrulla Məmmədov həm də uşaq ədəbiyyatının araşdırıcılarından biri idi. O, üçcildlik Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatının tərtibçisi olmuşdur.

Professor Xeyrulla Məmmədov klassik ədəbiyyatımız ilə əlaqələrin itməsinə imkan verməmiş, köhnə mətnləri xüsusi qayğı və diqqətlə araşdırıb üzə çıxarmışdır. Onun ən mühüm özəlliklərindən biri araşdırdığı böyük ədəbi əsərlərin, yaradıcı şəxsiyyətlərin ali məktəblərdə öyrədilməsi üçün tədris proqramlarının və uyğun dərsliklərin hazırlanması sahəsindəki fəaliyyəti olmuşdur.

Elmi əsərlərindən:"XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda maarifçi realist ədəbiyyat" (1978), "Sultan Məcid Qənizadə" (1983),"Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər" (1986).,"XIX əsr Azərbaycan uşaq ədəbiyyatı" (1992), "Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudunda" (1999),"XIX əsr Azərbaycan ədəbiyyatı" (2006),«N.Nərimanov: görkəmli maarif xadimi və realist yazıçı»,«İsmayıl bəy Qaspirinski və Azərbaycan ədəbiyyatı»,«XIX əsrin sonu, XX əsrin əvvəli Azərbaycan ədəbiyyatı tarixi»,"Əqidə döyüşlərində","Molla Nəsrəddin"i zəmanə yaratdı","Əkinçi"-nin övladları","N.Nərimanov haqqında yeni materiallar","Bir mübahisə haqqında","S.Ə.Şirvani" haqqında həqiqət","Cəlal Ünsüzadə və uşaq ədəbiyyatı","Sultan Məcid Qənizadə"(1962),"S.M.Qənizadənin bədii nəsri","Tərcüman: Dildə, fikirdə, işdə birlik".

X.Məmmədov klassik və müasir ədəbiyyatımızın bir sıra aktual məsələlərinə, ədəbi əlaqələrimizə, mətbuat xadimlərimizin fəaliyyətinə həsr olunmuş 200-dən çox məqalənin müəllifidir.

Xeyrulla Qulam oğlu Məmmədov 2005-ci il sentyabr ayının 8-də vəfat etmişdir. 2011-ci il 26 yanvar tarixində Lerik şəhərində yaşadığı küçəyə alimin adı verilmişdir

2014-cü ildə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədovun 80 ilikyubileyi münasibəti ilə "Bizim yubilyarlar" mövzusunda kitab sərgisi açılmışdır.

Kübra Əliyeva – 80

(1944)

Sənətşünas



Ədəbiyyat:

Lətif Kərimovun həyat və yaradıcılığı / Kübra Əliyeva; elmi red. Ə. Salamzadə; red. F. Naci. – Bakı: [Mütərcim], 2023.- 201 s.

Azərbaycanın xovsuz toxunuşlu məişət əşyaları / Kübra Əliyeva; red. S.Sadıxova.- Bakı: [Mütərcim], 2023.- 415 s

Təbriz xalçaçılıq məktəbi / Kübra Əliyeva; elmi red. Ə. Salamzadə; red.

F. Naci.- Bakı: [Xəzər Universiteti], 2023.- 338 s.

Azərbaycan ərazisindəki talışların həsirtoxuma sənəti/Kubra Əliyeva; elmi red. A.Sadıqova; dizayner R.Quliyev.- Bakı: [Bakı nəşriyyatı], 2023.- 124 s.

Xalq rəssamı Kamil Əliyevin yaradıcılığı /Kubra Əliyeva; elmi red. S.Sadıxova; red. F.Naci. - Bakı: [Mütərcim], 2023. – 109 s.

Azəri, L. Fədakar alim, xalça sənətinin təəssübkeşi: Sənətşünas Kübra Əliyevanın kitablarının təqdimatı keçirildi /Lalə Azəri //Mədəniyyət. - 2023. - 24 noyabr, № 87. - S.6.

Tanınmış sənətşünasın mühazirəsi //Mədəniyyət. - 2020. - 29 yanvar. - S.4

Kübra Muxtar qızı Əliyeva 1944-cü il avqust ayının 4-də Ağdam rayonunda ziyalı ailəsində anadan olmuşdur.

Kübra Əliyeva 1963-cü ildə M.A.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) mədəni-maarif fakültəsinə daxil olmuş, 1967-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmiş, Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun Dekorativ tətbiqi sənət şöbəsində baş laborant, elmi işçi vəzifəsində çalışmışdır.

1978-1980-ci illərdə Moskva şəhərində Lomonosov adına Universitetin tarix fakültəsində professor V.M.Vasilenkonun yanında təcrübə keçmişdir. 1984-cü ildə sənətşünaslıq namizədi elmi dərəcəsini almışdır. 2004-cü ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

Kübra Əliyeva 1979-2001-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun rəssamlıq bölməsində (əvəzçiliklə) (Quba filialında 10 il) dosent vəzifəsində çalışmış, neçə-neçə peşəkar rəssamlar yetişdirmişdir.

2001-2004-cü illərdə Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin Memarlıq dizaynı bölməsində memar magistrlərin yetişməsində böyük əmək sərf etmişdir.

2003-cü ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Sənətşünaslıq kafedrasında müəllim dosent, hal-hazırda isə professor vəzifəsində çalışır. Azərbaycan Ensiklopediyasının III-X cildlərində gedən Azərbaycan dekorativ-tətbiqi sənətinə aid 60-dan artıq məqalənin müəllifidir. Rusiyada çap edilən Sovet Ensiklopediyasının xüsusi cildində Azərbaycan xalçalarına aid məqalələrin, Azərbaycanın dövri mətbuatında və xarici ölkələrdə nəşr edilən 100-dən artıq elmi məqalənin müəllifidir. "Azərbaycan xovsuz xalçaları" (1988), "Xalı və xalçaçılıq terminləri lüğəti" (1998); "XVI-XVII əsr Təbriz xalça məktəbi və onun Yaxın və Orta Şərq xalça sənəti ilə əlaqəsi" (R.Əfəndiyevlə müştərək (1999), "Lətif Kərimov: Həyat və yaradıcılığı" (E.İbrahimovla müştərək (2007) kitablarının müəllifidir. "Azərbaycan ərazisindəki talışların həsirtoxuma sənəti" (2023), Lətif Kərimovun həyat və yaradıcılığı", «Жизнь и творчество Лятифа Керимова» (2023), "Xalq rəssamı Kamil Əliyevin yaradıcılığı", «Творчество Народного художника Кямиля Алиева» (2023), "Təbriz xalçaçılıq məktəbi", «Тебризская ковравая школа» (2023), "Azərbaycanın xovsuz toxunuşlu məişət əşyaları", «Азербайджанские безворсовые (бытовые) ковровые изделия» (2023) kitablarının müəllifidir.

Kübra Əliyeva 2011-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun Qafqaz Albaniyasının memarlığı və incəsənəti şöbəsinin rəhbəri vəzifəsində çalışır.

1988-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Rəssamların yaradıcılığına həsr edilən onlarla kataloqun müəllifidir. Uzun illər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının eksperti və AMEA Tarix Muzeyinin eksperti olmuşdur. AMEA Terminologiya Komitəsinin üzvüdür. Sənətşünaslıq doktoru, xalçaçı-rəssam 5 beynəlxalq simpoziumda (Berlin, Bakı, Aşqabad, Dənizli, Kazan) iştirak etmişdir.

1989-cu ildə "Əmək veteranı" medalı ilə təltif edilmişdir. 2014-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

2014-cü ildə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Kübra Əliyevanın anadan olmasının 70illiyi münasibəti ilə "Bizim yubilyarlar" mövzusunda kitab sərgisi açılmışdır.

Əhməd Elbrus – 80

(1944-2006)

Ədəbiyyatşünas



Əhmədov Elbrus Misir oğlu 1944-cü il avqustun 7-də Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olub. 1959-cu ildə Ağcabədi şəhər 5 nömrəli orta məktəbini bitirmişdir. S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almışdır. AEA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmiş. Fədainin "Bəxtiyarnamə" adlı əsəri əsasında dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi adına layiq görülmüşdür.

Əhməd Elbrus 1976-1986-cı illərdə Azərbaycan Elmlər Akademiyasının "Elm" nəşriyyatında baş redaktor vəzifəsində işləmişdir. Ömrünün sonuna qədər özünün qurucusu olduğu ilk müstəqil "Qorqud" və eləcə də "Bəstəkar" nəşriyyatlarının təsisçisi və baş direktoru olmuşdur.

SSRİ və Azərbaycan Yazıçılar İttifaqının üzvü olan Əhməd Elbrus 15 şeir kitabının, 4 monoqrafiyanın və 200-dən artıq elmi-publisistik məqalənin müəllifi, yüzlərlə kitabın redaktoru və tərtibçisidir. O, "İnsan əfsanəsi" (1982), "Etibarım" (1971), "Günəş nəğmələri" (1977), "Ölməzlik" (1992), "Ömür yolu" (1979), "Uçun, durnalar" (1966), "Üçüncü addım" (1974), "İnam və idrak poetikası" (2006) və s. kitablarının, Heydər Əliyevə həsr olunan "Zəfər Marşı" şeirinin müəllifidir. "Riyazi poetika" və "İnam və idrak poetikası" adlı kitabları dünyanın bir sıra ölkələrinin böyük alimləri tərəfindən riyazi poetikanın kəşfi kimi qiymətləndirilmişdir.

Əhməd Elbrus Azərbaycanda ilk rəngli "Dədəm Qorqud" qəzetinin yaradıcısı və Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvi olmuşdur.

Əhmədov Elbrus Misir oğlu Əhməd Elbrus 2006-cı il dekabr ayının 11-də vəfat etmişdir

Ə d ə b i y y a t:

İnam və idrak poetikası: Qədim və Orta əsrlər Şərq poetikasında Hürufî rəmzlərin açılışı sistemləri / Əhməd Elbrus; red. F.Cəlilov, T.Kərimli, Q.Süleymanov, B.Ağayev, burax. məs. Hacı Aftandil Qasımov.- Bakı: Bəstəkar, 2006.- 839 s

Şükürov, Ə. Bir Əhməd Elbrus yaşardı... / Əlihüseyn Şükürov // Ədalət.- 2011.- 6 yanvar.- S. 7.

Əhməd Elbrus dünyası... / tərt.: A. Qüdrətoğlu, Ş. Mugdatoğlu; [red. N. Əlioğlu; buraxıl. məsul R. Qurbanov; ön söz əvəzi: R. Məmmədzadə, Y. Qoca, Ş. Vəfadar].- Bakı: Gənclik, 2010.- 199 s.

Misirli, A. Yaddaşımın aynasının insanı...: Unudulmaz Əhməd Elbrusun nurlu xatirəsinə həsr olunur /Adil Misirli //Ədəbiyyat qəzeti. - 2018. - 20 yanvar. - S.25.

İnternetdə

nurlu xatirəsinə həsr olunur /Adil Misirli //Ədəbiyyat qəzeti. - 2018. - 20 yanvar. - S.25. http://www.anl.az/down/meqale/edebiyyat/2018/yanvar/573733.htm

Rafael Hüseynov – 70

(1954)

Akademik



Ədəbiyyat:

Böyük yolun həqiqəti / Rəfayıl Hüseynov; [rəssam K. Həşimova; foto.: R.Bağırov, V.Əmrullayev].- Bakı: Nizami Muzeyi, 2020. -359, [1] s.

İkinci olmayacaq / Rəfayıl Hüseynov; [rəssam K. Haşımova; dizayner O. Mustafin]. – Bakı: [Elm və təhsil], 2023. - 1006, [2] s.

Akademik Rafael Hüseynov Böyük Britaniyada yüksək mükafatla təltif edilib // 525-ci qəzet.- 2015.- 19 dekabr.- S.11.

Vaxtdan yüksəkdə dayanan qələm adamı - Rafael Hüseynov: Rafael Hüseynovun 65 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərb. Resp. Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Resp. Uşaq Kitabxanası; tərt.: A.Əliyeva, S.Əhmədova; red. L.Qəmbərova; ixtisas red. və buraxıl. məsul Ş.Qəmbərova. - Bakı: [F.Köçərli ad. Resp. Uşaq Kitabxanası], 2020.- 24 s.

O gün mütləq gələcək [Mətn] /Rafael Hüseynov //525-ci qəzet. - 2023. - 15 iyul. -S.10-11.

Rafael Baba oğlu Hüseynov 1954-cü il avqust ayının 12-də Kürdəmir şəhərində anadan olmuşdur. 1971-ci ildə burada 12 saylı şəhər orta məktəbini bitirmiş, 1971-1976-cı illərdə ADU-nun (indiki BDU) şərqşünaslıq fakültəsində, fars filologiyası ixtisası üzrə təhsil almışdır.

Əmək fəaliyyətinə 1976-cı ildə AMEA Fəlsəfə və Hüquq İnstitutunun Fəlsəfə tarixi şöbəsində başlamışdır. 1978-1982-ci illərdə həmin institutun İran filologiyası şöbəsində kiçik elmi işçi, 1982-1988-ci illərdə isə Orta əsrlər Şərq yazılı mənbələrinin tədqiqi və nəşri şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır.

1980-ci ildə namizədlik, 1992-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Bir neçə il AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Milli Muzeyinin şöbə müdiri işləmiş, 1993- cü ildən isə muzeyin direktorudur.

Ədəbi fəaliyyətə 1975-ci ildə Kürdəmir rayonunda çıxan "İrəli" qəzeti səhifələrində dərc olunan şeirləri ilə başlamışdır. Dövri mətbuatda vaxtaşırı məqalələri dərc edilmiş, "Qobustan" incəsənət toplusunda "Görməyən gözlərin aydınlığı", "Əsas odur ki, xalq sizi sevir", "Həsrət qatarı" və s. publisistik yazıları çap olunmuşdur.

1975-ci ildən Azərbaycan radiosunda həftəlik, bir saatlıq efirə çıxan, ədəbiyyat və mədəniyyətə aid proqramın daimi müəllifidir. Azərbaycan xalq musiqisi və onun görkəmli ifaçıları haqqında hazırladığı "Nəğməli ömürlər" və "Axşam görüşləri" adlı həftəlik verilişlər silsiləsi efirdə səslənmişdir.

AYB-nin və Teatr Xadimləri İttifaqının üzvüdür. M.Gəncəvinin rübailərini, R.Rza və N.Rəfibəyli haqqında "İki ömrün işığı" (1987) adlı xatirələr və b. kitabların tərtibçisidir.

ADU-da "Fars ədəbiyyatı" (1987-1989), Konservatoriyada "Mədəniyyət tarixi" (1990-1991), Xəzər Universitetində "Azərbaycan ədəbiyyatı" və "Azərbaycan mədəniyyəti" (1995) fənlərindən dərs demişdir. 1995-1998-ci illərdə Xəzər Universitetində "Azərbaycan filologiyası və şərqşünaslıq" kafedrasının müdiri olmuşdur. 9 monoqrafiyanın, 6 dərslik və dərs vəsaitinin, 400 elmi araşdırmanın, 600-dən çox publisistik məqalənin, 5 tammetrajlı sənədli-publisistik filmin ssenarisinin, 200-dən çox televiziya və radio verilişinin və proqramının müəllifidir. İngilis, rus, fars, ərəb, tacik dillərini bilir.

2001-ci ildən Azərbaycan Milli Məclisinin və AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü seçilmişdir. Milli Məclisin Mədəniyyət Məsələləri Daimi Komissiyasının sədri olmuşdur. Azərbaycan Bosniya Hersoqovina, Azərbaycan-İspaniya, Azərbaycan-İsveç, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvüdür. 2005-ci ildən Hacıqabul-Kürdəmir seçki dairəsindən deputat seçilmişdir.

1997-ci ildə "Cavidlər" əsərinə görə Azərbaycan Respublikası EA-nın, Yazıçılar Birliyinin, Azərbaycan Universitetinin xüsusi mükafatına layiq görülmüşdür. 2005-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. 2007-cü ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilmiş, "Elmdə ad" Beynəlxalq mükafatını almışdır. "Avropa evi" quruculuğu istiqamətində xidmətləri nəzərə alınaraq Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının rəsmi qeydiyyatında olan "Birləşmiş Avropa Mükafatı" prizi və medalı ilə təltif edilmişdir.

2019-cu il 10 avqust tarixində Azərbaycan Milli Kitabxanasında Rafael Baba oğlu Hüseynovun yaradıcılığına həsr olunmuş "Rafael Hüseynov – 65" adlı kitab və dövri-mətbuat materiallarından ibarət sərgi açılmışdır.

Nazim Hüseynov – 55

(1969)

Cüdoçu



Nazim Qalib oğlu Hüseynov 1969-cu il avqust ayının 2-də Bakı şəhərində ləzgi ailəsində anadan olmuşdur. N.Hüseynovun atası əslən Qusar rayonunun Piral kəndindən, anası isə Dağıstanın Axtı kəndindəndir.

Hələ uşaq yaşlarından idmana maraq göstərən Nazim Hüseynov bir neçə dəfə SSRİ birinciliyində çempion olmaqla yanaşı bir neçə dəfə də mükafatçılar siyahısında olmuşdur. Onun birinci məşqçisi Azərbaycanın Əməkdar məşqçisi Tərlan Həsənovdur.

Dünya cüdo arenasında ilk dəfə 1991-ci ildə Budapeştdə keçirilən super dünya kubokunda fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Eyni zamanda həmin ildə Barselonada keçirilən dünya çempionatında 3-cü yer tutaraq mükafatçılar sırasına yüksəlmişdir. 1992-ci ildə isə daha da irəliləyərək Fransanın paytaxtı Parisdə keçirilən Avropa çempionatında qızıl medal qazanmışdır. Final görüşündə fransız cüdoçuya qarşı işlətdiyi fənd dünyanın 101 ən baxımlı ipponları siyahısına düşmüşdür.

1992-ci ildə cüdo əfsanəsi Nazim Hüseynov Azərbaycan tarixində ilk olaraq Barselonada keçirilən 25-ci yay olimpiya oyunlarında qızıl medal qazanaraq adını Azərbaycan idmanının tarixinə qızıl hərflərlə yazmışdır.

1993-cü ildə Yunanıstanın paytaxtı Afinada keçirilən Avropa çempionatında yenidən bütün rəqiblərinə qalib gələrək ikinci dəfə Avropa çempionu olmuşdur. Həmin ildə Hamiltonda keçirilən dünya çempionatında gümüş medala layiq görülmüşdür.

1994-cü ildə Qdanskda keçirilən Avropa çempionatının finalında dəfələrlə məğlub etdiyi italiyalı Girolamo Giovinazzoniyə hakimlərin xalı (XANTE) nəticəsində məğlub olmuşdur. Bundan sonra onun səhhətində baş vermiş problemlər və ardıcıl zədələr yenidən çempion olmağa mane olmuşdur. Buna baxmayaraq, 1996-cı il Atlantada, XXVI Yay Olimpiya Oyunlarının iştirakçısı və Azərbaycan Olimpiya komandasının kapitanı olmuş-Sidney Olimpiya oyunlarının lisenziya xarakterli turnirlərində isə viza problemi ucbatından yarışlara qatıla bilməsə də həmin lisenziya yarışlarında sonradan olimpiya oyunlarının mükafatçısı olan gürcü Vazaqaşvillini ipponla məğlub etmişdir.

Azərbaycan cüdosunun əfsanəsi Nazim Hüseynovun gənc idmançılara öz bilik və bacarığını əsirgəməməsi səbəbindən son illərdə bu sahədə yeni çempionlar dünya cüdo arenasına daxil olurlar. Nazim Hüseynov İtaliyanın cüdo üzrə yığma komandasına baş məşqçilik postuna rəhbərlik etmək təklifini rədd etmişdir.

Nazim Hüseynov 1989-cu ildə gənclər arasında SSRİ birinciliyinin və Ümumiittifaq idman oynlarının qalibi olmş, 1992-c ildə cudo üzrə Əməkdar idman ustası, 1995-ci ildə "Şöh- rət" ordeni ilə təltif olunub. Ölkə prezidentinin 10 oktyabr 2002-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdünə layiq görülüb.

2009-cu ildə Azərbaycan Milli Olimpiya Komitəsinin sifarişi ilə Nazim Hüseynova həsr olunmuş "İlk qızıl" filmi çəkilib. 2022-ci ildə isə Əməkdar bədən tərbiyəsi və idman xadimi adına laiq görülmüşdür.

Ədəbiyyat:

Nazim Hüseynov: "Avropa oyunları hər birimizin yaddaşında iz qoyacaq" / Nazim Hüseynov // Olimpiya dünyası.- 2015.- 26 may-1 iyun.- S.4.

Nazim Hüseynov: "Həyatda ən böyük qələbəm ailə səadətimdir" / Nazim Hüseynov; müsahibəni apardı Kənan Novruzov // Olimpiya dünyası.- 2019.- 20 avqust.- S.3.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nazim_H%C3%BCseynov

https://www.mys.gov.az/idman/mukafatcilar/9/nazim-qalib-oglu-huseynov

https://apa.tv/xeber/kim-sen-sen/-20832

Fikrət Əliyev – 75

(1949)

Akademik



Ədəbiyyat:

Azərbaycanda elmin problemləri və inkişaf perspektivləri / Fikrət Əliyev, Ş.Ağayev; red. C.Məmmədli.- Bakı: Elm, 2011.- 151 s.

Azərbaycanın beynəlxalq səviyyəli jurnalı dünyada ikinci oldu / Fikrət Əliyev; müsahibəni apardı Z.Qurbanqızı // Respublika.- 2023.- 28 iyul.- S. 4.

Məmmədli, C. Elmin inkişaf strategiyasına alim yanaşması / Cahangir Məmmədli // Respublika.- 2011.- 29 mart .- S. 6.

Qazaxıstanda Türk Dünyası Riyaziyyat Cəmiyyəti idarə heyətinin toplantısı olmuşdur // Azərbaycan.- 2012.- 8 iyun.- S. 11.

Abdullayeva, Z. Dünya elminə açılan qapı... / Zümrüd Abdullayeva // Respublika.- 2011.- 9 avqust.- S. 2.

Azərbaycanlı alimlərin monoqrafiyası ABŞ-da nəşr edilib //Azərbaycan. - 2022. - 5 aprel. - S. 11.

http://www.anl.az/down/meqale/azerbaycan/2022/aprel/790438.htm

https://www.nkpi.az/index.php?page=addread&id=1367

Fikrət Əhmədəli oğlu Əliyev 1949-cu il avqust ayının 13-də Ermənistanın Mehri rayonunun Nüvədi kəndində anadan olmuşdur.

1971-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini, 1975-ci ildə aspiranturanı bitirib, Ukraynada "Əks əlaqəli xətti optimal diskret sistemlərin sintezi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə isə Moskva şəhərində fizika-riyaziyyat elmləri doktoru dərəcəsini almaq üçün doktorluq dissertasiyasını müdafiə etmişdir.

1975-1992-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda əvvəl kiçik, sonra isə böyük elmi işçi kimi fəaliyyət göstərmişdir. 1992-1993-cü illərdə İstanbul Texniki Universitetinin professoru olmuşdur. 1993-cü ildən BDU-nun Tətbiqi Riyaziyyat ETİ-nin direktoru vəzifəsində çalışır.

Fikrət Əliyev 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasına informatika ixtisası üzrə akademik seçilmişdir. 150-dən çox elmi əsərin, beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap olunan 140 məqalənin müəllifidir. 95 adda elmi əsəri xaricdə nəşr olunmuşdur. 4 elmlər doktoru, 14 fəlsəfə doktoru hazırlığı üzrə doktorant və dissertantların elmi rəhbəri və məsləhətçisi olmuşdur.

Fikrət Əliyevin redaktorluğu ilə "Applied and Computational Mathematics" beynəlxalq jurnalı təsis edilmiş və Azərbaycan elm tarixində ilk dəfə Thomson Reuters agentliyinin siyahısına salınmışdır. Alim eynizamanda Türk Dünyası Riyaziyyat Cəmiyyətinin vitse prezidentidir və bu cəmiyyətin yaradılmasında, fəaliyyətində, onun konqreslərinin keçirilməsində müstəsna xidmətləri olmuşdur.

1993-cü ildən Amerika Riyaziyyat cəmiyyəti, 1996-cı ildən Beynəlxalq Kompyuter Assosiasiyası, 1997-ci ildən Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunun direktorudur.

Azərbaycan elminin inkişafı və təbliği sahəsində gördüyü işlər yüksək qiymətləndirilərək Fikrət Əliyev Azərbaycan Elminin Təbliğindəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Rumıniya Respublikasının Riyaziyyat Cəmiyyətinin 100 illiyinə həsr olunmuş "Xatirə" və Qazaxıstan Respublikasının Əl-Fərabi adına Milli Universitetinin Yubiley medallarına və Fəxri Fərmanlara layiq görülmüşdür.

2018-ci ildə Fikrət Əliyev "Tətbiqi və Hesablama Riyaziyyatı" ("Applied and Computational Mathematics") jurnalının "Web of Science Awards 2018" mükafatına (Q1 siyahısına daxil olmaq nominasiyası) layiq görülmüşdür.

2021-ci ildə akademik Fikrət Əliyevin rəhbərliyi ilə Bakı Dövlət Universitetinin nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun və Bakı Dövlət Universiteti Mexanika-riyaziyyat fakültəsinin əməkdaşlarının tərəfdaş olduğu "HORİZON 2020" Spektral Optimallaşdırma: riyaziyyatdan fizika və yüksək texnologiyaya ("HORİZON 2020" SOMPATY - Spectral Optimization: From Mathematics to Physics and Advanced Technology) layihəsi çərçivəsində elmi vebinar keçirilmişdir.

2009-cu ildə F.Ə. Əliyev Azərbaycan elminin təbliğindəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi " medalı, 2019-cu ildə "Əməkdar elm xadimi" fəxri adı təltif olunub.

Rumuniya Respublikasının Riyaziyyat Cəmiyyətinin 100 illiyinə həsr olunmuş xatirə medalı ilə təltif olunub; Kazaxstan Respublikasının Əl-Fərabi adına Milli Uni-versitetin Yubiley medalı; 2015-cü ilin nəticələrinə əsasən ETİ, ETM, ETL-lər üzrə yüksək elmi uğurlar əldə etdiyinə görə Tətbiqi Riyaziyyat İnstitutunun direktoru, akademik Fikrət Əliyev Fəxri fərmanla təltif edilib.

Ənvər Nəhmədov – 65

(1959-2021)

Akademik



Nəhmədov Ənvər Pirverdi oğlu 24 avqust 1959-cu ildə Bakı şəhərində anadan olub. O, 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsini qırmızı diplomla bitirib. Elə həmin il sentyabrın 1-də təyinatla AMEA-nın Fizika İnstitutunda akademik Firudin Həşimzadənin rəhbərlik etdiyi laboratoriyada əmək fəaliyyətinə başlayıb. 1982-84-cü illərdə SSRİ Elmlər Akademiyasının Leninqrad şəhərində yerləşən A.F.İoffe adına Fizika-Texnika İnstitutunda təcübə keçib.

O, 1988-ci ildə "Güclü anizotropik açıq Fermi səthi olan sistemlərdə zəif lokalizasiya effektləri" mövzusunda namizədlik, 2012-ci ildə "Aşağı ölçülü sistemlərdə korrelyasiya ve aşqar effektləri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilib.

Alimin nanostrukturlar fizikasında mezoskopik fluktuasiyalar və misoksid tərkibli keramikalarda yüksək temperaturlu ifrat keçiricilik effektlərinə dair araşdırmaları Amerika və Avropanın nüfuzlu jurnallarında dərc olunub.

Akademik Ənvər Nəhmədov elmi yaradıcılığı ilə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olur. O, Türkiyə və Almaniyanın universitetlərində tələbələrə mühazirə və aspirantlara ixtisas dərsləri verib. Alimin pedaqoji fəaliyyətində elmi kadrların hazırlığı böyük yer tutur. Onun elmi rəhbərliyi ilə fizika elmləri üzrə fəlsəfə və elmlər doktorları hazırlanıb.

1991-ci ildə Türkiyənin Marmara Universitetində, 1992-ci ilin sonundan isə İstanbul Texnik Universitetində dəvətli professor kimi çalışan alim ingilis və türk dillərində bakalavr, magistr və aspirantlara dərs deyib. O, 1999-cu ildə Almanyanın Würzburg Universitetinə, 2001-ci ildə isə Max-Planck İnstitutuna dəvət olunub və Drezden şəhərində yerləşən Kompleks Sistemlərin Fizikası İnstitutunda professor P.Fuldenin qrupunda işləmişdir.

Ənvər Nəhmədov 2002-ci ildə Saksoniyanın Chemnitz Texnik Universitetində işə başlamışdır. Drezden şəhərində MOSFET diodlarının dəlinmə mexanizmini öyrənmək üçün icra qrupu yaratmışdır.

2015-ci ildən AMEA Fizika İnstitutunda Kondensə olunmuş hallar və kvant fazaları laboratoriyasına rəhbərlik etmişdir. Eyni zamanda o, 2016-cı ildən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının Fizika fakültəsində dekan vəzifəsində çalışmışdır.

Ənvər Nəhmədov 90-a yaxın elmi məqalə, o cümlədən "Aşağı ölçülü sistemlərdə aşqar və korrelyasiya effektləri" kitabının müəllifidir.

Nano-strukturlar fizikası, ifrat keçiricilik nəzəriyyəsi, nizamsız yarımkeçiricilərdə Anderson lokalizasiyası, ab-initio DFT hesablamaları, spintronika və topoloji dielektriklər kimi elmi araşdırmalar Ə.Nəhmədovun tədqiqatlarının əsas istiqamətləridir.

O, çoxlu sayda beynəlxalq konfrans, simpozium və konqreslərdə məruzələrlə çıxış edərək Azərbaycan elmini təmsil etmişdir.

Nəhmədov Ənvər Pirverdi oğlu 7 sentyabr 2021-ci ildə vəfat etmişdir.

İnternetdə

https://az.wikipedia.org/wiki/%C6%8Fnv%C9%99r_N%C9%99hm%C9%99dov

http://frteb.science.gov.az/az/content/374

https://science.gov.az/az/news/open/10924

https://azedu.az/az/news/12764-akademik-enver-nehmedovun-meqalesi-abs-in-nufuzlu-jurnalinda-yayimlandi

Maqsud Əliyev – 100

(1924-2016)

Akademik



Əliyev Maqsud İsfəndiyar oğlu 1924-cü il avqustun 27-də Tbilisi şəhərində anadan olmuşdur.

1941-ci ildə Tbilisi Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olmuş, 1943-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirakı ilə əlaqədar təhsili yarımçıq qalmış və müharibədən sonra 1950-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.

1957-ci ildə fizika üzrə fəlsəfə doktoru və 1966-cı ildə fizika üzrə elmlər doktoru elmi dərəcəsini, 1967-ci ildə professor elmi adını almış, 1969-cu ildə AEA-nın müxbir üzvü, 1980-ci ildə həqiqi üzvü seçilmişdir.

Maqsud Əliyev 1961-ci ildə AEA Fizika İnstitutunda baş elmi işçi, sonra isə "Yarımkeçiricilərdə və yarımkeçirici nanostrukturlarda köçürmə hadisələri" laboratoriyasının müdiri olmuş, bir sıra təhsil ocaqlarında pedaqoji fəaliyyətini davam etdirmişdir. 1971-ci ildən AEA Fizika-riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibinin müavini, Fizika İnstitutunda Ümumi sektorun rəhbəri vəzifələrində çalışmışdır.

Akademik Maqsud Əliyev klassik yarımkeçiricilər olan selen, germanium, silisium, A3B5 tipli yarımkeçirici birləşmələr və onlar əsasında bərk məhlullarda, evtektikalarda köçürmə hadisələrinin tədqiqi ilə məşğul olmuşdur. Onun rəhbərliyi ilə yarımkeçiricilərdə elektron və fonon prosesləri, zolaq quruluşu öyrənilmiş, bəzi yarımkeçirici-metal evtektikalarında ifratkeçirmə və Cozefson effekti tədqiq olunmuşdur. İlk dəfə olaraq A3B5 birləşmələri və onların bərk məhlullarının istilik keçirməsinin tədqiqinə dair işlərə rəhbərlik etmişdir.

Maqsud Əliyev 350-dən artıq məqalənin, 30 müəlliflik şəhadətnaməsinin və patentin müəllifidir. Onun rəhbərliyi ilə 35 fəlsəfə doktoru, 7 elmlər doktoru yetişdirilmişdir.

Maqsud Əliyev 1998-ci ildən Azərbaycan "Zadə irsi və süni intellekt" və "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyalarının vitse-prezidenti, Beynəlxalq Ekoenergetika Elmlər Akademiyasının və "İntellektual inkişaf problemləri" Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur.

Akademik "Şöhrət" ordeni (2004), "Almaniya üzərində Qələbə" medalı (1946), "Vətən müharibəsi" ordeni (1985), "Xalqlar dostluğu" ordeni (1986), akademik Y.Məmmədəliyev adına mükafat və medal (1994), "Sülhün səfiri" Beynəlxalq diplomu (2003) ilə təltif olunmuşdur. Azərbaycan Respublikasının Əməkdar elm xadimidir (1989).

Əliyev Maqsud İsfəndiyar oğlu 23 dekabr 2016-cı ildə vəfat etmişdir. II Fəxri xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t:

M.İ.Əliyev: Biblioqrafiya / Tərtib ed. A.Ə.Xəlilova, Ç.N.Əhmədova; Elmi red. H.B.Abdullayev; Red. N.M.Teymurova; AzEA Qırmızı Əmək Bayrağı ordenli Fizika İnstitutu; Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 1992. 116 s.

Akademik Maqsud Əliyev 1924-2016 // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri / Fizika-texnika və riyaziyyat elmləri seriyası, fizika və astronomiya.- 2017.- №2.- S.191.

Məmmədov, F. Ömrün örnək səhifələri: Akademik Maqsud Əliyev-90 / Fuad Məmmədov // Xalq qəzeti.- 2014.- 6 dekabr.- S.6.

Sevda Xələfova - 60

(1964)

Kitabxanaşünas



Xələfova Sevda Abasqulu qızı 1 avqust 1964-cü ildə Bakı şəhərində anadan olmuşdur.

1981-ci ildə Bakı şəhərindəki 240 saylı məktəbi bitirmişdir. 1981-1986-cı illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində ali təhsil almışdır. 2004-2009-cu illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində fəlsəfə doktorluğu proqramı üzrə dissertant təhsili almışdır.

Sevda Xələfova 2009-cu ildə "XX əsrin 1970-1980-cı illərində Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (Azərbaycan Respublikası kütləvi kitabxanalar şəbəkəsinin materialları əsasında)" mövzusunda dissertasiya işi müdafiə etmiş və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Sevda Xələfova Bakı Dövlət Unversitetininin Kitabxanaşünaslıq kafedrasında laborant (1987), BDU-nun Elmi Kitabxanasında redaktor (1988-1999), baş laborant (2000-2002), BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasında müəllim (2002-2009), baş müəllim (2009-2012) vəzifələrində çalışmışdır.

2012-ci ildən dosent, 2019-cu ildən kafedra müdridir.

Sevda Xələfova "Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1930-1970)" adlı kitabın müəllifi və "Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi", "Kitabxana fondlarının idarə edilməsi və inkişafı" və "Elektron ehtiyatların saxlanılması və axtarışı" adlı dərs vəsaitlərinin müəlliflərindən biridir.

Sevda Xələfova beynəlxalq konfrans, simpozium və seminarlarda "İnformasiya cəmiyyətində Azərbaycanda MKS-in inkişaf istiqamətləri", "Kitabxana fondlarının mühafizəsi üzrə xarici proqramlar" "Korporativ kitabxana informasiya şəbəkələri kitabxana informasiya texnologiyasında yeni istiqamət kimi", "Azərbaycanda elektron toplu kataloqun yaradılması", "Uşaq kitabxanalarının elektron məlumat bazaları və elektron informasiya mənbələri", "Kitabxa¬nalarda elektron resurslarla işin təşkili", "Uşaq kitabxanalarının informasiyalaşdırılması və fondlarının elektron in¬formasiya resursları ilə formalaşması", ""Kitabxana-informasiya resursları" anlayışının evolyusiyası", "Rəqəmsal dövrdə kitabxanaların komplektləşdirilməsi strategiyası", "Çap və onlayn seriyalı nəşrlərin beynəlxalq verilənlər bazası", "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında ənənəvi və elektron sənəd axınının vəziyyəti", "Library-information resources in the system of national and spiritual values", "Kitabxana-informasiya resurslarının məzmununun formalaşmasına təsir edən amillər", "Qarabağ müharibəsi mövzusu çağdaş Azərbaycan poeziyasında (Şair Knyaz Aslanın yaradıcılığı əsasında)", "Professor Abuzər Xələfovun əsərlərində kitabxana sistemləri və şəbəkələri problemi", "Vətən müharibəsindən sonra Azərbaycan Milli Kitabxanasının fəaliyyətində Qarabağ mövzusu", "Vətən müharibəsi mövzusu Azərbaycan Milli Kitabxanasının fəaliyyətində", "İnformasiya cəmiyyətində kitabxana fondunun formalaşması məsələləri" mövzusunda çıxışlar etmişdir.

2011, 2014 və 2018-ci illərdə BDU-da Universitetdaxili "50-50" qrant proqramının qalibi olmuşdur.

Sevda Xələfova 2012-ci ildə Gənc nəslin yetişdirilməsindəki xidmətlərinə görə və 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə BDU rektorunun fəxri fərmanına; 2012-ci ildə "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi" döş nişanına; 2019-cu ildə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalına; 2021-ci ildə "Qafqaz Media" İctimai Birliyinin təsis etdiyi Qarabağın simvolu "Xarı Bülbül" diplomu və medalına; 2021-ci ildə "Qafqaz Media" İctimai Birliyinin təsis etdiyi Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Nizami Gəncəvi" diplomu və medalına layiq görülmüşdür.

Ədəbiyyat:

Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi: Dərs vəsaiti / Sevda Xələfova, S.Mustafayeva, T.Rzayeva.- Təkmilləşdirilmiş variant.- Bakı, Mütərcim.- 2020.- 256 s.

Kitabxana fondlarının idarə edilməsi və inkişafı: Dərs vəsaiti / Sevda Xələfova, A.Əliyev.- Bakı, 2022.- 260 s.

Elektron ehtiyatların saxlanılması və axtarışı: Dərs vəsaiti / Sevda Xələfova, Z.Rzayeva.- Bakı, 2022.- 211 s.

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü *(2001)*



Ə d ə b i y y a t:

Abbasov, İ. Ana dilimizin bayram gün: 1 Avqust – Azərbaycan əlifbası və Azərbaycan Dili Günü / İlham Abbasov // Xalq qəzeti.-2021.- 1 avqust.- S.7.

1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür: Latın qrafikalı əlifbaya keçidin başa çatmasından 20 il ötür // Mədəniyyət.-2021.- 30 iyul.- S.1;2.

Bayramova, Z. 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür / Zümrüd Bayramova // Səs.- 2019.- 1 avqust.- S.10.

Əsgərova, M. Dəyərli və zəngin sərvətimiz: 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür / Məhəbbət Əsgərova // Respublika.-2021.- 1 avqust.- S.7.

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü Şuşada qeyd olunub // Mədəniyyət. -2023. - 2 avqust. - S.2.

İ n t e r n e t d ə:

http://senet.az/1-avqust-az%C9%99rbaycan-%C9%99lifbasi-v%C9%99-az%C9%99rbaycan-dili-gunudur/

Ümummilli Lider Heydər Əliyevin 2001-ci ildə imzaladığı fərmana əsasən, avqust ayının 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur. Bu gün Azərbaycan dilinin dövlət statuslu dillər arasında olması, bu dilin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş Ümummilli Lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ulu Öndər milli-mənəvi dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində çox mühüm addımlar atmışdır. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi.

1993-cü ildə Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dili öz inkişafında yeni mərhələyə qədəm qoydu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil dövlətimizin ilk Konstitusiyası ilə dövlət dilinin adı bərpa edildi. Bu, Ulu öndərin Ana dilimizə dəyişməz mövqeyinin daha bir parlaq nümunəsi oldu.

Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. "Dövlət dili işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi ölkəmizdə bütünlüklə təmin edilməsi Ulu Öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq etdi. 2002-ci il 30 sentyabr tarixində "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addımdır. Bu sənəd Ümummilli Lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir.

Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Prezident İlham Əliyev 2018-ci il noyabr ayının 1-də Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalamışdır.

Hər il Azərbaycan Milli Kitabxanasında "1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" adlı tədbir keçirilir və Virtual sərgi hazırlanıb istifadəçilərə təqdim olunur.

Azərbaycan Kinosu Günü

(2000)



2 avqust - Azərbaycan Kinosu Günüdür. Hər il avqustun 2-i ölkəmizdə kino işçilərinin peşə bayramı kimi qeyd olunur. Azərbaycan kinosunun tarixi 1898-ci il avqust ayının 2-də Bakıda ilk dəfə kinosüjetlərin kütləvi nümayişi ilə başlanıb. 1898-ci il həmin gündə Bakıda fotoqraf və kinooperator Aleksandr Mişon, çəkdiyi bir neçə kinosüjeti nümayiş etdirib. Şəhər sakinləri onun lentə aldığı üç sənədli xronikaya - "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin "Veliki knyaz Aleksey" paroxodunda yolasalma mərasimi", "Qafqaz rəqsi" və bir məzəli süjetə "İlişdin" (Bakı şəhər bağçasında baş vermiş yumoristik əhvalat) tamaşa ediblər. Beləcə, Bakıda incəsənətin yeni növünün - kinematoqrafiyanın əsası qoyulub.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının mədəni inkişaf sahəsində kino işçilərinin xidmətlərini və ölkəmizdə çəkilmiş kinosüjetlərin ilk kinoseansının həyata keçirildiyi tarixi nəzərə alaraq bu günün qeyd olunması barədə Sərəncam imzalamışdır. 2000-ci il 18 dekabr tarixli 558 saylı Sərəncama əsasən 2 avqust Azərbaycan Kinosu Günü elan edildi.

Azərbaycan kinosu tarixi və şərəfli bir yol keçib. Yazıçı İbrahim bəy Musabəyovun eyniadlı pyesi əsasında 1905-ci ildə ekranlaşdırılmış H.Ərəblinskinin çəkildiyi səssiz "Neft və milyonlar səltənətində" filmindən indiyədək 300-dən çox tam və qısametrajlı kinosüjet və 100-dən çox cizgi, 150-dən çox xronikal sənədli, elmi-kütləvi, sifarişli, televiziya bədii və tədris filmləri istehsal edilib tamaşaçıların ixtiyarına verilib.

Son illərdə bu sahədə əldə edilən uğurlar isə təbii ki, dövlətimizin və ilk növbədə respublika prezidentinin mədəniyyət və incəsənətə göstərdiyi qayğının nəticəsidir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2007-ci ildə "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" sərəncamı, 2008-ci ildə "Azərbaycan Kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nı təsdiq edilməsi haqqında sərəncamı, 2019-cu ildə "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamı və 2022-ci ildə "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında fərmanı milli kinomuzun hərtərəfli inkişafı üçün əlverişli imkanlar yaratmışdır.

2023-cü ildə Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Bakıda "Azərbaycan kinosu – 125: reallıq, çağırış və hədəflər" mövzusunda kinoforum keçirilmişdir. Rejissor, ssenarist, bəstəkar, aktyor, operator, prodüser və bu sahənin mütəxəssislərinin bir araya gəldiyi forumda 125 yaşlı Azərbaycan kinosunun mövcud vəziyyəti, problemləri, inkişaf istiqamətləri müzakirə olunmuşdur.

İkinci Qarabağ müharibəsi, Vətən savaşındakı şanlı qələbəmiz münasibətilə filmlər yaradılır, ssenarilər üçün müsabiqələr keçirilir.

Hər il Azərbaycan Milli Kitabxanasında "2 Avqust Azərbaycan Kinosu Günüdür" adlı kitab sərgisi və "Milli kino günü" adlı Virtual sərgi hazırlanıb istifadəçilərə təqdim olunur.

Ədəbiyyat

Həsənqala, İ. Azərbaycan kinosu yeni yüksəliş yolunda: 2 Avqust Milli Kino Günüdür / İ. Həsənqala // Xalq qəzeti.- 2023.- 3 avqust.- S.12.

Ələddinqızı, N. Tarixin dönəmlərində Azərbaycan kinematoqrafiyası / Nəzakət Ələddinqızı // Səs.- 2023.- 2 avqust.- S.10.

Mükərrəmoğlu, M. Azərbaycan kinosunun zəngin ənənələri var: 2 Avqust Milli Kino Günüdür / Mehdi Mükərrəmoğlu // Xalq qəzeti.- 2022.- 2 avqust.- S.7.

Məmmədli, N. Azərbaycan kinosu – tariximizin salnaməsi /N.Məmmədli //Mədəniyyət. - 2023. - 4 avqust.- S.4.

Həmidə. Tarixi müsibətin film yaddaşından görünən təsviri /Həmidə //Mədəniyyət .-2023.- 5 aprel.- S.5.

Laçın Şəhəri Günü
(2023)



30 ilə yaxın işğal altında qalmış torpaqlarımız 44 günlük Vətən müharibəsində döyüş meydanında qazanılmış qələbə sayəsində işğaldan azad edilmiş, imzalanmış üçtərəfli bəyanata əsasən, Ermənistan Ağdam və Kəlbəcər rayonları ilə yanaşı, Laçın rayonunu da boşaltmaq məcburiyyətində qalmış, rayonu 2020-ci il dekabrın 1-də Azərbaycana təhvil verilmişdir.Laçın dəhlizi Laçın şəhərindən keçdiyindən şəhər Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında qalmış, alternativ yolun istifadəyə verilməsindən sonra Zabux və Sus kəndləri də daxil olmaqla Laçın şəhəri 2022-ci il avqust ayının 26-da Azərbaycan Ordusunun nəzarətinə keçmiş, ordu korpusunun komandiri, general-mayor Kənan Seyidov bununla bağlı Prezident İlham Əliyevə məruzə etmiş, şəhərdə Azərbaycan bayrağı ucaldılmışdır. Həmin gün Prezident İlham Əliyev azərbaycanlıların Laçın şəhərinə qayıtması ilə bağlı xəbəri tvitter səhifəsində elan etmişdir. 2023-cü ilin aprel ayının 23-də Laçın rayonunda, Azərbaycan Ermənistan sərhəddində sərhəd-buraxılış məntəqəsi qoyulmuş, ərazi bütövlüyümüz tam bərpa olunmuşdur.

Prezident İlham Əliyevin 31 iyul 2023-cü ildə azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi ilə bağlı imzaladığı sərəncama əsasən, 26 avqust – Laçın şəhəri günü kimi təsis edilmişdir. Azərbaycan prezidentinin müvafiq sərəncamına uyğun olaraq "Laçının azad olunmasına görə" medalı təsis olunmuş, 8397 hərbi qulluqçu həmin medal ilə təltif olunmuşdur.

Laçın rayonu 1930-cu il avqust ayının 8-də inzibati ərazi statusu almışdır. Rayon 1 şəhər,1 qəsəbə,125 kənddən ibarət olmuşdur. Ümumi sahəsi 1835 kvadrat kilometr olan Laçın rayonu 72 min hektar yaylaq sahəsinə və 34 min hektar meşə massivinə malikdir.

Laçın rayonu 1992-ci il may ayının 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 80 minə yaxın əhalisi etnik təmizləməyə məruz qalmış, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdür. İşğal nəticəsində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilmiş, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalmışdır

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın icrasına əsasən 620 fərdi yaşayış evi, 9 çoxmənzilli bina inşa edilmiş, 2023-cü il may ayının 28-dən Laçın şəhərinə məcburi köçkünlərin qayıdışına başlanılmış və bu istiqamətdə işlər davam etdirilir. Şəhərdə yaradılan Aqro və Sənaye parkında 46 müəssisə fəaliyyət göstərəcəkdir. Təməli 2021-ci ildə qoyulan Laçın beynəlxalq Hava Limanının 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılmışdır. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, mədəniyyət və turuzm obyektləri də yaradılacaqdır.

Prezident İlham Əliyev dəfələrlə Laçın rayonuna səfər etmiş, bir sıra yaşayış və inzibati binaların, avtomobil yollarının təməlini qoymuş, görülən işlərlə tanış olmuş, şəhərə köçmüş sakinlərlə görüş keçirmiş, "Laçın şəhəri günü" bayram şənliklərində iştirak etmişdir.

Ədəbiyyat

Zeynallı, A. Laçın yenidən laçınlaşır: 26 Avqust Laçın Şəhəri Günü / Arzu Zeynallı; müsahibəni apardı: P.Əfəndiyev // Xalq qəzeti.– 2023.– 26 avqust.– S.1;10.

Əliyeva, A. Laçın Şəhəri Günü / Aybəniz Əliyeva // 525-ci qəzet.– 2023.– 30 avqust.– S.7. Məmmədli, N. Laçınlar oylağının yeni növrağı: Laçın şəhəri günü təntənəli şəkildə qeyd olundu / Nurəddin Məmmədli // Mədəniyyət.– 2023.– 30 avqust.– S.1;4.

İnternetdə


https://apa.az/daxili-siyaset/azerbaycanda-26-avqust-lacin-seheri-gunudur-782624

https://report.az/daxili-siyaset/bu-gun-lacin-seheri-gunudur/

https://xalqqazeti.az/az/last-news/136569-bu-gun-lacin-seheri-gunudur

https://qafqazinfo.az/news/detail/bu-gun-lacin-seheri-gunudur-410309

Beynəlxalq Azərbaycan Muğamı Günü
(2010)



Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. 2010-cu ildə Beynəlxalq Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir.

Azərbaycan muğamının müasir tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır. UNESKO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın, tar ifaçılığı sənətinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsidir.

Ölkəmizdə "Muğam aləmi" Beynəlxalq muğam festivallarının, müsabiqələrin, muğam konsertlərinin, simpoziumların təşkili, "Qarabağ xanəndələri" albomunun buraxılması, "Muğam" jurnalının, "Muğam ensiklopediyası"nın nəşri, müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusunun hazırlanması Heydər Əliyev Fondu, Azərbaycan Mədəniyyət Fondunun bu sahəyə göstərdiyi diqqətə bariz nümunələrdəndir.

Bəstəkarlarımız üçün ilham mənbəyi olan muğam, həm də milli musiqi mədəniyyətimizin uğurlarının əsasında durur. Dahi Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasını muğam üzərində yazıb, Fikrət Əmirov "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları ilə dünya musiqisində simfonik muğam janrının əsasını qoyub. Niyazi, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Arif Məlikov, Firəngiz Əlizadə və digər görkəmli bəstəkarlarımızın yaradıcılığında muğamdan irəli gələn bədii prinsiplər ən müasir kompozisiya texnikası ilə qovuşur. Vaqif Mustafazadə bu janrı caz sənətinə gətirib.

Tarixən Şuşada Xarrat Qulu Məhəmməd oğlunun, Mir Möhsün Nəvvabın, Şamaxıda Mahmud Ağanın, Bakıda Məşədi Məlik Mənsurovun məclisləri, bu məkanlardan çıxan böyük sənətkarlar muğamın milli musiqimizin ana dili olduğunu bir daha təsdiqləyir. Hələ 1922-ci ildə Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına muğamın tədrisi daxil edilib. Bu sənət rəssamlarımız, heykəltəraşlarımız, şairlərimiz, rejissorlarımız üçün bu gün də ilham mənbəyidir.Hal hazırda dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir. Ustad və novator sənətkar, hələ 1999-cu ildə UNESKO-nun Beynəlxalq Musiqi Şurasının birinci mükafatına layiq görülmüş Alim Qasımovun muğamı özünəməxsus ifası və təqdimi bu sənətin geniş imkanları ilə dünya auditoriyasını heyran qoyur.Heyrətamiz hisslər, düşüncələr, müdriklik mənbəyi olan muğam bütün hallarda ovqatımıza təsir edir, azadlığa və müstəqilliyə qovuşduğumuz anların fərəhini yaşadır və bizləri qələbəyə səsləyir.

Bu gün dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir. Muğamımız bu gün bütün dünyanı fəth etmək, dilindən, dinindən, irqindən, miliyyətindən asılı olmayaraq, hər kəsin qəlbini, ruhunu oxşamaq iqtıdarındadır.

Ədəbiyyat:

Mehriban Əliyeva. Azərbaycan mədəniyyətinin hamisi /Ə. Ələkbərova [tərt. və ön söz müəl.].- Bakı: Şərq-Qərb, 2018.- 208 s.

Muğam bəşəri musiqiyə çevrilmişdir: 26 avqust – Beynəlxalq Azərbaycan Muğamı Günüdür / M.Mükərrəmoğlu // Xalq qəzeti.- 2021.- 26 avqust.- 10.

Səmədova, T. Muğam milli sərvətimizdir: 26 avqust Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günüdür /Töhfə Səmədova //Respublika .- 2023.- 26 avqust.- S.15.

Qurbanqızı, Z. Azərbaycan muğamı: dünya mədəniyyətinin şah əsəri: 26 Avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür /Zümrüd Qurbanqızı // Respublika. - 2022.- 26 avqust.- S.9.

İnternetdə:

https://science.gov.az/az/news/open/10930

Altıağac Milli Parkı - 20

(2004)

Altıağac Milli Parkı Azərbaycan Respublikası Prezidentinin 365 №-li Sərəncamı ilə 2004-cü il 31 avqust tarixində Xızı və Siyəzən rayonlarının inzibati ərazilərində yaradılmışdır. Milli Park Azərbaycanın şimal-şərqində, Xızı və Siyəzən inzibati rayonlarının ərazisində yerləşir. Altıağac Milli Parkı 1990-cı ildə yaradılmış Altıağac Dövlət Təbiət Qoruğu və ona həmsərhəd olan dövlət meşə fondu torpaqlarının bazasında yaradılmışdır. Ərazisi 11035 hektardır.

Milli Parkın yaradılmasında əsas məqsəd Böyük Qafqazın cənub-şərq yamaclarının təbii landşaftlarının, flora və fauna növlərinin qorunub saxlanılması, bərpası, təbii komplekslərin mühafizəsinin gücləndirilməsi, ekoloji monitorinqin həyata keçirilməsi, eləcə də, tədqiqatlar, turizm və istirahət (rekreasiya) üçün şəraitin yaradılması və əhalinin ekoloji cəhətdən maarifləndirilməsinin təşkilidir.

Altıağac Milli Parkının adının mənşəyi məsafə ölçü vahidi olan "ağac" sözündən götürülmüşdür. Milli Park Şamaxıdan altı ağac məsafəsində yerləşdiyindən ona və kəndlərin birinə Altıağac adı verilmişdir (bir ağac təqribən 5-6 km-ə bərabərdir).

Milli Parkın ərazisində qonur dağmeşə, çürüntülü-karbonatlı dağ-meşə, qəhvəyi dağ-meşə, bozqırlaşmış dağ-çəmən və s. torpaq tipləri yayılmışdır.

Altıağac Milli Parkının ərazisindən Ataçay və onun bir sıra kiçik qolları keçir. Ataçay öz başlanğıcını Dübrar dağının 1870 metr hündürlüyündən götürərək, Xəzər dənizinə tökülür. Suyundan suvarma məqsədləri üçün istifadə olunur.

Milli Parkın ərazisinin 3585 hektarını meşə əhatə edir. Buradakı meşələri əmələ gətirən əsas ağac növləri Qafqaz palıdı, Qafqaz vələsi, Şərq fıstığı, adi göyrüş, itiyarpaqlı ağcaqayındır. Burada yemişan, böyürtkən, əzgil, qaratikan, itburnu və s. kimi kol bitkiləri üstünlük təşkil edir. Təmiz palıd, fıstıq və vələs meşələri azdır. Onlar bir-biri ilə və az miqdarda göyrüş və ağcaqayın ilə qarışıq meşələr əmələ gətirir.

Böyük Qafqazın digər regionalarına nisbətən Altıağac qoruğunun heyvanları xeyli azdır. Bunun da başlıca səbəbi əhalinin regionda artması və onların qanunsuz ov etməsidir. Altıağac Milli Parkının ərazisində məməlilərdən cüyür, qonur ayı, çöl donuzu, vaşaq, yenot, dovşan, tülkü, dələ, canavar, çaqqal, quşlardan qırqovul, alabaxta, bildirçin, çobanaldadan, çöl qartalı, kəklik, qaratoyuq və s. növlərə rast gəlinir. Ərazidə adları Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmiş qonur ayı, çöl qartalı kimi məməli heyvan və quş növləri diqqəti daha çox cəlb edir. Əvvəllər burada Ussuri xallı maralı saxlanılırdı.

Qoruğun ərazisində qışı quraq keçən mülayim-isti və yayı quraq keçən mülayim-isti iqlim tipləri hakimdir. Burada illik günəş radiasiyası 125, radiasiya balansı isə 44 kkal/kv.sm təşkil edir. Havanın illik orta temperaturu 10.1 dərəcə müşahidə edilmişdir. Mütləq maksimum (40) və mütləq minimum (-23)temperatur fərqi 63 dərəcəyə çatır. İllik yağıntının miqdarı nisbətən azdır (430mm) onun da 42 %-i ilin isti yarısında yağır. İllik buxarlanma illik yağıntıdan 1,4-1,6 dəfə çoxdur ki, bu da rütubətlənmə əmsalının xeyli aşağı düşməsinə səbəb olur

Altıağac Milli Parkının nəzdində Vəhşi Təbiətin Bərpası Mərkəzi və Reabilitasiya Klinikası fəaliyyət göstərir.

Ədəbiyyat:

Abdullayeva, F. Altıağac turizm məkanına çevrilir / Fəxriyyə Abdullayeva // Mədəniyyət.- 2009.- 20 fevral.- S.9.

İsmayıl, K. Ecazkar və füsunkar: Təbii sərvətlərimiz: Altıağac Milli Parkı / Kamil İsmayıl //Respublika. - 2022. - 30 iyul.- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/medeniyyet_fevral2009/70272.htm

https://az.wikipedia.org/wiki/Alt%C4%B1a%C4%9Fac_Milli_Park%C4%B1

http://www.anl.az/down/meqale/respublika/2022/iyul/808488(meqale).pdf

SENTYABR

24 avqust
23 sentyabr

Qız bürcü Nişanəsi yerdir. Günəşin Qızlar bürcünün keçdiyi dövrdə doğulanlar hər işdə aydınlıq, dəqiqliyin olmasını istəyirlər

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30						

- *Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü (08.09.1958)*
- *Bilik Günü (15.09.2004)*
- *Milli Musiqi Günü (18.09.1995)*
- *Beynəlxalq Sülh Günü (21.09.1981)*
- *Turizm İşçiləri Günü (27.09.2016)*
- *İkinci Qarabağ müharibəsi şəhidlərinin Anım Günü (27.09.2020)*

Yaşıl dünya naminə həmrəylik ili



Meşələr torpaqları eroziyadan qoruyur, su ehtiyatlarının tükənməsinin qarşısını alır və havanı sanitariya-gigiyena baxımından saflaşdırır, təbiətdə maddələr mübadiləsində və enerjinin bioloji dövriyyəsində əvəzsiz rol oynayır. Meşə ilə örtülü ərazilərin miqyasının artırılması istiqamətində aparılmış meşəsalma və meşəbərpa tədbirləri nəticəsində meşə ilə örtülü ərazilərin sahəsi hazırda ölkə ərazisinin 12 faizini təşkil edir. Yaşıllaşdırma layihələrinin davamlılığının təmin edilməsi üçün ərazilər damcılı suvarma sistemləri ilə təmin olunub. Suvarmada alternativ su mənbələrindən - duzsuzlaşdırılmış dəniz suyundan, həmçinin tullantı sularından təkrar istifadə olunur. Bundan başqa, məhsul verən ağaclara, o cümlədən zeytun və digər meyvə ağaclarının əkilməsinə üstünlük verilir.

Ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi siyasət sayəsində Azərbaycan Respublikası ərazisində Milli Parklar, Dövlət Təbiət Qoruqları, Dövlət Təbiət Yasaqlıqları fəaliyyət göstərir. 2004-cü ilin fevral ayında Lənkəran və Astara rayonlarının inzibati ərazisində 21435 hektar sahədə yaradılmış Hirkan Milli Parkında Azərbaycanın "Qırmızı kitabı"na düşmüş Hirkan həmişəyaşıl şimşadı, dəmirağac, heyvan növlərindən bəbir, Talış qırqovulu, qara leylək, berkut və s. vardır.

SENTYABR 2024



Milli ədəbiyyat

Yazıçı-jurnalist və ictimai xadim Şahvələd Rza Nəbi oğlunun (02.09.1909-02.07.1984) anadan olmasının 115 illiyi
Əməkdar incəsənət xadimi, şair-dramaturq, ictimai-siyasi xadim Orucov Hidayət Xuduş oğlunun (05.09.1944) anadan olmasının 80 illiyi 516
Əməkdar incəsənət xadimi, şair, tərcüməçi, ssenarist, jurnalist Vəkilov Mənsur Fəxri oğlunun (Mənsur Fəxri) (07.09.1939-21.10.2009) anadan olmasının 85 illiyi 517
Fizika-riyaziyyat elmləri namizədi, yazıçı, dramaturq Qəhrəmanlı Aslan Qəhrəman oğlunun (14.09.1939-20.01.2014) anadan olmasının 85 illiyi
Əməkdar incəsənət xadimi, yazıçı, jurnalist, dramaturq Əsgərov Əfqan Hacıağa oğlunun (Əfqan) (23.09.1929-13.02.2022) anadan olmasının 95 illiyi
Şair, publisist Bünyadzadə Ülvi Yusif oğlunun (23.09.1969- 20.01.1990) anadan olmasının 55 illiyi



Dünya ədəbiyyatı

Amerika yazıçısı Kuper Ceyms Fenimorun (15.09.1789-14.09.1851) anadan olmasının 235 illiyi
Türk yazıçısı Mehmet Raşit Öğütçünün (Orxan Kamal) (15.09.1914- 02.06.1970) anadan olmasının 110 illiyi 518
Kıbrıs türk ədəbiyyatı yazar Hikmet Akif Mapoların (19.09.1919-05.031989) anadan olmasının 105 illiyi
Rus yazıçısı Ostrovski Nikolay Alekseyeviçin (29.09.1904- 22.12.1936) anadan olmasının 120 illiyi 519



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, dosent, bəstəkar Hacıbəyov İsmayıl Soltan oğlunun (02.09.1949-25.03.2006) anadan olmasının 75 illiyi 520



Teatr. Kino

Əməkdar incəsənət xadimi, aktyor və teatr rejissoru Atakişiyev Hüseynağa Ağahüseyn oğlunun (08.09.1949-09.04.2006) anadan olmasının 75 illiyi 521
Ukrayna kino rejissoru Dovjenko Aleksandr Petroviçin (11.09.1894- 25.11.1956) anadan olmasının 130 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Natiq İlyas oğlunun (01.09.1969-26.09.1991) anadan olmasının 55 illiyi 522

SENTYABR

2024



İkinci Qarabağ Müharibəsi Şəhidləri
Kiçik gizir Şıxıyev Səyyad Abdul oğlunun (04.09.1999–17.10.2020) anadan olmasının 25 illiyi 523
MAHHXHQ əsgər Amanov Əhməd Tahir oğlunun (04.09.1994 – 28.09.2020) anadan olmasının 30 illiyi 523
MAHHXHQ əsgər İşiyev Rəfail Əhmədağa oğlunun (04.09.1979 –03.11.2020) anadan olmasının 45 illiyi.....524
Əsgər Məmmədov Rəşad Fərəməz oğlunun (04.09.1989–08.11.2020) anadan olmasının 35 illiyi 524
MAHHXHQ çavuş Qarayev Cavid Əmirxan oğlunun (05.09.1984–26.10.2020) anadan olmasının 40 illiyi 525
MAHHXHQ əsgər Mirzəyev Elyar Cəlal oğlunun (06.09.1984–14.10.2020) anadan olmasının 40 illiyi 525
Əsgər Əliyev Asim Nuru oğlunun (07.09.1999–25.10.2020) anadan olmasının 25 illiyi.....526
Baş leytenant Nəhmətov Ceyhun Ehtiqad oğlunun (08.09.1994–07.11.2020) anadan olmasının 30 illiyi 526
MAHHXHQ kiçik çavuş Əliyev Maarif Təbriz oğlunun (09.09.1994–07.11.2020) anadan olmasının 30 illiyi.....527
Gizir Quliyev Əli Tədbir oğlunun (09.09.1984–27.10.2020) anadan olmasının 40 illiyi.....527
MAHHXHQ əsgər Quliyev Rusif Asim oğlunun (09.09.1989–03.11.2020) anadan olmasının 35 illiyi 528
Əsgər Zərbəliyev Aşurəli Səfərəli oğlunun (09.09.1999–11.10.2020) anadan olmasının 25 illiyi 528
Kapitan Meydanov Elməddin Bahəddin oğlunun (11.09.1989 – 27.10.2020) anadan olmasının 35 illiyi.....529
Əsgər Məmmədzadə Kəmaləddin Vüqar oğlunun (14.09.1999 – 09.11.2020) anadan olmasının 25 illiyi.....530
Əsgər Tağızadə Bəhruz Azər oğlunun (14.09.1999–08.11.2020) anadan olmasının 25 illiyi 530
Kiçik gizir Məmmədli Əşrəf Elman oğlunun (15.09.1999 – 17.10.2020) anadan olmasının 25 illiyi 531
MAHHXHQ əsgər Cabbarov Elnur Şahmurad oğlunun (15.09.1994–12.12.2020) anadan olmasının 30 illiyi 531
MAHHXHQ əsgər Məmmədov Elnur İsrəfil oğlunun (16.09.1989 – 02.10.2020) anadan olmasının 35 illiyi 532
MAHHXHQ çavuş Rzayev Ceyhun İsmayıl oğlunun (16.09.1994– 07.11.2020) anadan olmasının 30 illiyi 532
Baş gizir Əhmədov Yasən Yelmar oğlunun (16.09.1974–23.10.2020) anadan olmasının 50 illiyi 533

Əsgər Eminli Rüstəm Mais oğlunun (16.09.1999 – 01.11.2020) anadan olmasının 25 illiyi 534
Əsgər Eyvazlı Rüfət Arzu oğlunun (16.09.1994 –12.10.2020) anadan olmasının 30 illiyi 534
MAHHXHQ əsgər Kərimov Elgün Rauf oğlunun (17.09.1999 – 16.10.2020) anadan olmasının 25 illiyi 535
Əsgər Həmidov Rəşid Pərviz oğlunun (19.09.1999 – 07.10.2020) anadan olmasının 25 illiyi 535
MAHHXHQ kiçik çavuş Əliyev Orxan Məhəmməd oğlunun (19.09.1989 – 29.09.2020) anadan olmasının 35 illiyi 536
MAHHXHQ əsgər Əhmədov İslam İlqar oğlunun (19.09.1994 –27.09.2020) anadan olmasının 30 illiyi 536
Kiçik çavuş Nadirov Rəşad Nadim oğlunun (20.09.1999 – 20.10.2020) anadan olmasının 25 illiyi 537
Əsgər Ağayev Ramil Ağarəhim oğlunun (20.09.1994 – 13.10.2020) anadan olmasının 30 illiyi 537
Əsgər İskəndərov Əhmədağa Novruz oğlunun (20.09.1989 – 07.10.2020) anadan olmasının 35 illiyi 538
Əsgər Məmmədov Cəlil Qəhrəman oğlunun (20.09.1999 – 08.11.2020) anadan olmasının 25 illiyi 538
Əsgər Ağasiyev Elşən Ağabala oğlunun (22.09.1999–03.10.2020) anadan olmasının 25 illiyi 539
MAHHXHQ əsgər Qurbanov Cahangir Məmməd oğlunun (23.09.1994– 27.09.2020) anadan olmasının 30 illiyi 539
Əsgər Kamranlı Xalid Kazım oğlunun (23.09.1999–15.10.2020) anadan olmasının 25 illiyi 540
MAHHXHQ kiçik çavuş Piriyev Elşən Şəfalət oğlunun (24.09.1989 – 02.10.2020) anadan olmasının 35 illiyi 540
Əsgər Hacıyev Hacı Rafiq oğlunun (25.09.1999–07.11.2020) anadan olmasının 25 illiyi 541
MAHHXHQ çavuş Ələsgərov Pərviz Lətif oğlunun (27.09.1984 – 02.10.2020) anadan olmasının 40 illiyi 541
Leytenant Ağamalıyev Şəhriyar Əvəz oğlunun (28.09.1989 – 30.09.2020) anadan olmasının 35 illiyi 542
MAHHXHQ gizir Alxasov Elməddin Rəsul oğlunun (29.09.1994–01.10.2020) anadan olmasının 30 illiyi 542
Əsgər Aslanov Elşən Alxas oğlunun (29.09.1999 – 21.10.2020) anadan olmasının 25 illiyi 543
Əsgər Qasımlı Mir Həmid Nazim oğlunun (29.09.1994 – 21.10.2020) anadan olmasının 30 illiyi 543
Əsgər Səfərli Amil Nizami oğlunun (29.09.1994– 05.11.2020) anadan olmasının 30 illiyi 544
Əsgər Şıxıyev Orxan Raqif oğlunun (29.09.1989-01.11.2020) anadan olmasının 35 illiyi 544

SENTYABR 2024



Siyasət. Hərbi iş

Diplomat Xələfov Xələf Alı oğlunun (21.09.1959) anadan olmasının 65 illiyi
Polis polkovniki, hərbi xadim Kikboksinq üzrə veteranlar arası dünya çempionu, Əliyev Adil Abış oğlunun (25.09.1969) anadan olmasının 55 illiyi
Azərbaycan dövlət xadimi Rəhimov Sadıq Hacıyarəli oğlunun (27.09.1914-11.06.1975) anadan olmasının 110 illiyi 545



Tarix

Tarix elmləri namizədi, arxeoloq Əbilova Güllü Əbil qızının (16.09.1924-17.07.1994) anadan olmasının 100 illiyi 546
Əməkdar müəllim, tarix elmləri doktoru Bayramov Qurban Məmməd oğlunun (17.09.1934-08.11.2004) anadan olmasının 90 illiyi
Əməkdar elm xadimi, AMEA-nın mübir üzvü, tarix elmləri doktoru, professor Səfərli Hacıfəxrəddin Yəhya oğlunun (29.09.1949) anadan olmasının 75 illiyi 547



İqtisadiyyat. Fəlsəfə

Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, filosof, professor Şirəliyev Həsən İsmayıl oğlunun (22.09.1929-30.11.1997) anadan olmasının 95 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, teatrşünas, ədəbiyyatşünas və estetik Cəfərov Cəfər Haşım oğlunun (07.09.1914-19.09.1973) anadan olmasının 110 illiyi 548
Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor, teatrşünas-tənqidçi, jurnalist Rəhimli İlham Əziz oğlunun (08.09.1949) anadan olmasının 75 illiyi. 549
Sənətşünaslıq doktoru, professor, teatr rejissoru İsrafilov İsrafil Ramazan oğlunun (10.09.1949) anadan olmasının 75 illiyi 550
Psixologiya üzrə fəlsəfə doktoru, professor İbrahimbəyova Rəna Fuad qızının (15.09.1944) anadan olmasının 80 illiyi 551
Filologiya elmləri doktoru, professor, naşir Məmmədli (Məmmədov) Nadir Baloğlan oğlunun (19.09.1959) anadan olmasının 65 illiyi 552
Akademik, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Cəfərov Nizami Qulu oğlunun (21.09.1959) anadan olmasının 65 illiyi 553

SENTYABR 2024



İdman

İdmançı, Avropa çempionu Ağasiyev Ceyhun Fikrət oğlunun (07.09.1984) anadan olmasının 40 illiyi



Fizika.Riyaziyyat.Astronomiya

Akademik, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Allahverdiyev Cəlal Eyvaz oğlunun (17.09.1929-19.01.2017) anadan olmasının 95 illiyi



Texnika. Mühəndis işi

Akademik, əməkdar mühəndis, əməkdar elm və texnika xadimi, texnika elmləri doktoru, professor Quluzadə Məmmədpaşa Piri oğlunun (05.09.1914-28.02.1994) anadan olmasının 110 illiyi 554
Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Hüseynov Həsən Əhməd oğlunun (07.09.1944) anadan olmasının 80 illiyi 555
Akademik, Əməkdar elm və texnika xadimi, kimyaçı Orucova İzzət Mirzəağa qızının (16.09.1909-22.04.1983) anadan olmasının 115 illiyi
Azərbaycanda, Qafqazda ilk qadın təyyarəçi Məmmədbəyova Leyla Ələsgər qızının (17.09.1909-04.07.1989) anadan olmasının 115 illiyi
Texnika elmləri doktoru, professor Kəngərli Ulduz Səttar oğlunun (28.09.1924-29.01.2021) anadan olmasının 100 illiyi 556
Akademik, Əməkdar elm xadimi, texnika elmlər doktoru Həşimov Arif Məmməd oğlunun (28.09.1949) anadan olmasının 75 illiyi 557



Kimya.Biologiya.Tibb

Akademik, ilk azərbaycanlı qadın biologiya elmləri doktoru, professor Tutayuq Validə Xaspolad qızının (23.09.1914-12.11.1980) anadan olmasının 110 illiyi . 558



Kitabxanaşünaslıq. Biblioqrafiya

Kitabxanaşünas-alim, pedaqoq Quliyev Tacəddin Fərhad oğlunun (25.09.1929-10.10.2005) anadan olmasının 95 illiyi 559



Digər tarixi hadisələr

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən Bakı Dövlət Universitetinin təsis edilməsinin (01.09.1919) 105 illiyi
II Dünya müharibəsinin başlanmasının (01.09.1939) 85 illiyi

SENTYABR

2024

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı olan “Azərbaycan müəllimi” qəzetinin nəşrə başlamasının (02.09.1934) 90 illiyi 560
Bakıda Televiziya Mərkəzinin təməli qoyulmuşdur (02.09.1954)
Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü (08.09.1958)
Naxçıvan Dövlət Kukla Teatrının yaranmasının (14.09.1989) 35 illiyi
Azərbaycanla Qətər dövləti arasında diplomatik əlaqələr qurulmuşdur (14.09.1994)
Bilik Günü (15.09.2004) 561
Ümumdünya Ozon Qatının Mühafizəsi Günü (16.09.1994)
Milli Musiqi Günü (Üzeyir Musiqi Günü) (18.09.1995) 562
Neftçilər Günü (20.09.2001)
Qarabağda antiterror əməliyyatı (19.09.2023). 563
“Əsrin müqaviləsi”nin (20.09.1994) imzalanmasının 30 illiyi 564
Beynəlxalq Sülh Günü (21.09.1981)
Qori seminariyasında Azərbaycan şöbəsinin yaradılması haqqında qərarın qəbul olunmasının (23.09.1874) 150 illiyi
Azərbaycan SSRİ-nin Ali Soveti “Azərbaycan SSRİ-nin dövlət suverenliyi haqqında” Konstitusiya aktını qəbul etmişdir (23.09.1989)
Beynəlxalq Lal-Karlar Günü (24.09.1951)
Beynəlxalq Dəniz Günü (24.09.1978)
Beynəlxalq Turizm Günü (27.09.1980). 565
Turizm İşçiləri Günü (27.09.2016)
Anım Günü (27 sentyabr) 566
I Ümumazərbaycan diyarşünaslıq qurultayı keçirilmişdir (29.09.1924)
Gəncədə güclü zəlzələ baş vermişdir (30.09.1139)
Beynəlxalq Tərcüməçilər Günü (30.09.1991)

Hidayət Orucov– 80

(1944)

Şair-dramaturq



Hidayət Xuduş oğlu Orucov 1944-cü il sentyabr ayının 5-də Zəngəzurun Mehri bölgəsinin Maralzəmi kəndində anadan olmuşdur. 1963-ildə ADU-nun (indiki BDU) filologiya fakültəsinə daxil olub, 1968-ci ildə təhsilini bitirmişdir.

Bir müddət kənddə müəllim, "Sovet Ermənistanı" qəzetində ədəbi işçi işləmiş,1968-ci ilin iyil ayında C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru təyin olunmuşdur.

Ədəbi mühitdə Hidayət adı ilə tanınan yazıçının poeziya, publisistika, nəsr, tərcümə kitabları nəşr edilmiş, pyesləri İrəvan və Azərbaycan teatrlarında səhnəyə qoyulmuşdur. H.Orucov Ermənistan Yazıçılar İttifaqının Azərbaycan Ədəbiyyatı Şurasına rəhbərlik etmiş, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində XIX-XX əsr Azərbaycan ədəbiyyatından dərs demiş, onun təşəbbüsü və rəhbərliyi ilə onlarla şair və nasirlərin kitabları İrəvanda işıq üzü görmüş, "Ədəbi Ermənistan" məcmuəsi nəşr olunmuşdur.

1984-cü ildə Bakıya köçən H. Orucov "Gənclik" nəşriyyatının baş redaktor müavini, 1986-1992-ci illərdə həmin nəşriyyatın baş redaktoru vəzifəsində işləmiş, 1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri olmuş, 1993-2005-ci illərdə Azərbaycan Respublikası Milli siyasət məsələləri üzrə Dövlət Müşaviri, 2005-2006-cı illərdə Azərbaycan Respublikası Milli azlıqlarla və dini qurumlarla iş üzrə Dövlət Müşaviri işləmişdir. 25 iyul 2006-cı ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilmiş, 27 dekabr 2012-ci ildən 2021-ci il oktyabr ayının 6-a qədər Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri olmuşdur.

Yazıçının 60-dan çox poeziya, nəsr, publisistika, tərcümə və s. kitabları, 150-dən çox məqalə, publisist qeydləri vardır. Əsərləri otuzdan çox dilə çevrilmişdir. Onun "Heydər Əliyev və Azərbaycanda milli siyasət" monoqrafiyası rus, ingilis, gürcü dillərində də nəşr olunmuşdur.

H.Orucovun pyesləri Azərbaycanda və xaricdə böyük teatrların səhnələrində uğurla oynanılır. Azərbaycan Yazıçılar Birliyi Məclisinin və "Ədəbiyyat qəzeti"-nin redaksiya heyətinin üzvüdür.

H.Orucov 1970-ci ildə "Əməkdə igidliyə görə" medalı, 1978-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuş, Ermənistan SSR Əməkdar Mədəniyyət xadimi, 1991-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 2004-cü ildə Azərbaycanın "Şöhrət" ordeni, 2003-cü ildə Rus Pravoslav kilsəsinin "Müqəddəs Mömin Moskva Knyazı Daniil" ordeni, 2002-ci ildə Gürcüstanın "Ləyaqət"ordeni, 2019-cu ilin iyul ayında 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

2014-cü ildə Qırğız Respublikası Prezidentinin "İpək Yolu" hədiyyəsi, 2015-ci Çingiz Aytmatov adına beynəlxalq "İssık-Kul Forumu"nun Fəxri Fərmanı və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmiş, 2004-cü ildə Dağıstan Respublikasının Fəxri Fərmanı, Çuvaşıstan Respublikasının ali ədəbi mükafatı- Paydulla İskeyev adına Çuvaş Beynəlxalq ədəbi mükafatına layiq görülmüşdür. 2014-cü ildən Çingiz Aytmatov Beynəlxalq İctimai Akademiyasının akademikidir.

Ədəbiyyat:

Mığrı: ["Burdan min atlı keçdi" kitabından bir hissə] / Hidayət // Yeni Azərbaycan.- 2022.- 28 oktyabr.-S.6.

Ümmandan damlalar: Mir Cəlal-110 / Hidayət // Xalq qəzeti.- 2018.- 26 aprel.-S.8.

Yusifli,V. "Hidayət və teatr": [şair-dramaturq Hidayət Orucov haqqında] /Vaqif Yusifli // Ədalət.-2020.- 29 fevral.- S.15.

İnternetdə


https://report.az/daxili-siyaset/hidayet-orucov-sefir-vezifesinden-geri-cagirilib/

http://www.anl.az/down/meqale/az_muellimi/2022/avqust/811880.htm

Mənsur Fəxri – 85

(1939-2009)

Şair



Mənsur Fəxri oğlu Vəkilov 1939-cu il sentyabr ayının 7-də Bakıda ziyalı ailəsində anadan olmuşdur. Əslən Qazax rayonunun Yuxarı Salahlı kəndinin Vəkilovlar soyundandır.

Mənsur Vəkilov 1961-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin orqanı olan "Литературный Азербайджан" jurnalındaədəbi işçi kimi fəaliyyətə başlamış, Baş redaktor vəzifəsinə kimi yüksəlmişdir.

Mənsur Vəkilov Azərbaycan ədəbiyyatının rus dilində təbliği kimi mühüm işin başında duranlardan biri, Azərbaycan yazıçılar birliyinin katibi olmuşdur.Onun qələmindən çıxan nəzm nümunələri Ukrayna, gürcü, latış və digər xalqların dillərinə tərcümə olunmuşdur.

Mənsur Vəkilovun şeirlərini rus dilindən Azərbaycandilinə S.Məmmədzadə, N.Həsənzadə, F.Qoca, Ə.Muxtar, Ç. Əlioğlu tərcümə etmişlər.

Mənsur Vəkilov böyük tərcüməçilik fəaliyyətilə məşğul olmuş Səməd Vurğun, Hüseyn Arif, Vaqif Səmədoğlu, Əbülhəsən, Bəxtiyar Vahabzadə, Əli Kərim, Fikrət Qoca, Sabir Əhmədov, Vaqif Musa, Əkrəm Əylisli, Çingiz Əlioğlunun bir sıra şeir və əsərlərini rus dilinə çevirmişdir.

Mənsur Vəkilov öz vətənində geniş oxucu kütləsi üçün müəyyən dərəcədə rusca yazıb, yaratsa da, yazdığı əsərlər hay-küydən uzaq, təmkinli poetik olmuşdur. M. Vəkilov öz yurdunun mənəvi örnəklərinə qırılmaz tellərlə bağlı, varislik duyğusunun çox güclü olduğu bir sənətkar, sözün, sənətin qədrini bilən, şairlik adını uca tutan bir şəxs olmuşdur.

M. Vəkilovun "Şeirlər" (1970), "Avar səsi" (1970), "Son etiraf" (1977), "Qarçıdan atılan güllə" (1980), "Lirika" (2002) kitabları Rus dilində, "Payız uçuşu" (1983) kitabı Azərbaycan dilində çap olunmuşdur.

M. Vəkilov 2003-cü ildə "Əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür. "Şərəf nişanı" ordeni və Azərbaycan SSR Ali Soveti Rəyasər Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir.

Mənsur Vəkilov 2009-cu il oktyabr ayının 21-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Faiqqızı, N. "Ürəyin döyüntüsü, əfsus, əbədi deyil": [Mənsur Vəkilov haqqında]: esse / Natəvan Faiqqızı, rus dilindən tərc etdi: Məmməd Oruc //Azərbaycan.-2019.- № 11.- S.168-179.

Ağabalayeva, S.Bir payız ömürdən enib sabaha... [Şair Mənsur Vəkilov haqqında] /Südabə Ağabalayeva//Azərbaycan.-2010.- № 6.- S.140-142.

Payız uçuşu / Mənsur Vəkilov.- Bakı: Gənclik, 1983.- 77 [3] s.

İnternetdə


https://az.wikipedia.org/wiki/M%C9%99nsur_V%C9%99kilov

https://e-qanun.az/framework/1901

http://www.anl.az/down/meqale/azerbaycan_jurnali/11_2019/15(meqale).pdf

Orxan Kamal - 110

(1914-1970) *Türk yazıçısı*



Mehmet Raşit Öğütçü (Orxan Kamal) 1914-cü il sentyabr ayının 15-də Adananın Ceyhan qəzasında anadan olmuşdur. Uşaqlıq illəri Adanada keçmiş, I Dünya müharibəsindən sonra fransızların Adananı işğal etməsi ilə əlaqədar olaraq ailəsilə birgə Niğdeyə, daha sonra isə Konyaya köçmüşdür. Atası zamanının fəal siyasi xadimi olmuş, partiyası bağlandığına görə bütün ailə Suriyaya qaçmış, 1931-ci ildən Beyrutda yaşamağa başlamışlar.

1932-cü ildə Mehmet Türkiyəyə qayıdaraq pambıq fabrikində işçi olaraq fəaliyyətə başlamışdır. 1938-ci ildə hərbi xidmətə çağırılmış və əsgərlikdə olarkən M.Qorki və N.Hikmətin kitablarını oxumaq, xarici rejimlər lehində təbliğat və üsyana sövq etmək kimi ittihamlarla 5 il müddətinə həbs edilmişdir. İlk şeirlərini Kayseri həbsxanasında yazmış, "Divarlar" adlı şeiri "Yeddi gün" dərgisində "Rəşad Kamal" imzası ilə nəşr olunmuşdur.1940-cı ildə Bursa Həbsxanasında şair Nazim Hikmətlə tanış olmuş və üç ildən artıq bir müddətdə onunla eyni otaqda həbs həyatı yaşamış və ondan fransız dili, fəlsəfə və siyasət öyrənmişdir.

Nazim Hikmətin məsləhətilə özünü nasirlikdə sınamış, roman, hekayə yazmağa başlamış, "On səkkiz yaş" romanını yazmışdır. 1940-cı ildə ilk dəfə olaraq "Yeni Ədəbiyyat" dərgisində "Bacaksız Orhan" imzası ilə "Balıq" adlı əsərini çap etdirmişdir.

1943-cü ildə həbsxanadan azad edildikdən sonra Karataşda Dövlət Dəmir yollarında günlük işçi kimi çalışmış və "Orxan Kamal" imzası ilə "İkdam" qəzetində "Asma Çubuğu" hekayəsini çap etmişmişdir. 1945-ci ildə 35 günlük yarımçıq qalmış hərbi xidmətini tamamlamaq üçün yenidən əsgərliyə çağırılmış və ordan qayıtdıqdan sonra yenidən dərgilərdə hekayələr çap etdirmişdir.

O. Kamal 1949-cü ildə İstanbula köçmüş və bundan sonra məqalə, kinossenarisi və s. kimi əsərlər yazmaqla ailəsini maddi cəhətdən təmin etmişdir.1952-ci ildə çap etdirdiyi "Murtaza" və "Cəmilə" romanlarından sonra daha çox məhşur olmuşdur. "Bərəkətli torpaqlar", "72. Koğuş" və s. kimi bir çox əsərləri nəşr edilmiş, kino ssenariləri isə senzuradan keçməmişdir. 1965-ci ildə "Bir Filiz vardı" və Nazim Hikmətlə birlikdə "3,5 il" adlı xatirə kitabını çap etdirmişdir. 1966-cı ildə kommunizm propoqandası adı ilə yenidən həbs edilsə də onun fəaliyyətində cinayət tərkibli əsas olmadığı üçün yenidən azad edilmişdir.

1967-ci ildə "72. Koğuş" adlı əsəri Ankara Sənət Teatrı tərəfindən səhnəyə qoyulmuş və bu əsəri Ankara Sənətsevərlər Dərnəyi tərəfindən ən yaxşı oyun yazarı, 1969-cu ildə isə "Türk Dil Qurumu Ödülü" və "Öncə Çörək" əsəri isə "Sait Faiq Hekayə Ərmağanı"nı almışdır. Orxan Kamal 1970-ci ildə Bolqar Yazıçılar Birliyinin dəvəti ilə Sofiyaya getmiş və iyun ayının 2-də beyin qanaması nəticəsində vəfat etmişdir.

Cənazəsi Türkiyəyə gətirilərək Zincirlikuyu məzarlığında dəfn edilmişdir.

Hazırda İstanbulun Beyoğlu qəzasında "Orxan Kamal" muzeyi fəaliyyət göstərir. 1972-ci ildən etibarən "Orxan Kamal roman yarışması" keçirilir. Bir neçə əsəri Azərbaycan dilinə tərcümə edilmiş, 1990-ci ildə rejissor L.Məmmədbəyov və T.Vəliyev tərəfindən "Yad qızı" əsərinin televiziya tamaşası hazırlanmış və dərin rəğbət qazanmışdır. 2004-cü ildə akademik Nizami Cəfərovun redaktəsi və ön sözü ilə "Seçilmiş əsərləri" çap olunmuşdur.

Ədəbiyyat:

Qürbət quşları: [roman]/ O.Kamal; türkcədən tərc. N. Zöhrabi; red.T.Bədəlova.-Bakı: Qanun, 2015-471 s.

Əliyeva, A. Roman ustadı -Orxan Kamal/Aynurə Əliyeva // Türküstan.-2019.-17-23 sentyabr.- S.15.

Əliyeva, A. Orxan Kamal həqiqəti...: "Oxucuya nəsə çatdırmaq istəyən yazıçının dünyaya özünəməxsus baxışı olmalıdır" /Aynurə Əliyeva // Mədəniyyət.-2019.- 11 sentyabr.- S.6.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Orxan_Kamal

http://www.anl.az/down/meqale/medeniyyet/2019/sentyabr/670584.htm

Nikolay Ostrovski – 120

(1904-1936)

Rus yazıçısı



Nikolay Alekseyeviç Ostrovski 1904-cü il sentyabr ayının 29-da Ukraynanın Rovno vilayətində anadan olmuşdur. 1913-cü ildə öz kəndlərində kilsə məktəbini bitirmişdir. Daha sonra ailəsi Şepetovka şəhərinə köçdüyü üçün Ostrovski orada ikisinifli peşə məktəbində təhsil almış, çox erkən - 11 yaşından işləməyə başlamışdır.1919-cu ilin iyul ayında komsomol sıralarına daxil olmuş, könüllü cəbhəyə getmişdir. Q.İ.Kotovskinin süvari briqadasında və Birinci süvari orduda vuruşmuşdur. 1920-ci ilin avqustunda ağır yaralanmışdır. 1923-1924-cü illərdə Ukraynanın sərhəd rayonlarında rəhbər komsomol işi aparmışdır.

1927-ci ildə ağır iflic Nikolay Ostrovskini yatağa salmış, 1928-ci ildə isə gözləri tutulmuşdur. Lakin Ostrovski xəstəliklərə yenilmədən bütün mənəvi qüvvəsini toplayaraq mübarizə aparmış, təhsilini artırmışdır.

N.A.Ostrovski 1930-cu ilin "Polad necə bərkidi" romanını yazmışdır. O, 1934-1936-cı illərdə Qərbi Ukrayna zəhmətkeşlərinin inqilabi mübarizəsindən bəhs edən 3 cildlik "Fırtınadan doğulmuşlar" romanı üzərində işləmişdir.

N.A.Ostrovski 1935-ci ildə briqada komissarı hərbi rütbəsini almış, "Lenin" ordeni ilə təltif edilmişdir. Yazıçı 1936-cı il dekabr ayının 22-də vəfat etmişdir.

1966-cı ildə Ümumittifaq Lenin Komsomolu mükafatı laureatı adına layiq görülmüşdür. 1928-1936-cı illərdə yaşadığı Soçidə, Moskvada və vətənində N.A.Ostrovskinin ev-muzeyləri təşkil edilmişdir. 1979-cu ildə Xmelnitski vilayətinin Şepetovka şəhərində Ostrovskinin şərəfinə xatirə kompleksi yaradılmışdır.

Yazıçının əsərləri 100-dən çox dildə, o cümlədən Azərbaycan dilində dəfələrlə nəşr olunmuş və ekranlaşdırılmışdır.

Ədəbiyyat:

Polad necə bərkidi: [roman]; Çapayev: [povest] / N. A. Ostrovski, D. A. Furmanov; red. hey. A. Zamanov [və b.]; ill. E. Əlimirzəyev, Y. Salnikov; [tərc. ed. M. Arif, R. Təhmasib].- Bakı: Gənclik, 1987.- 645, [3] s.

Ostrovskinin Mehdi Hüseynə məktubu: "Ədəbiyyat qəzeti"nin arxivindən... 23 dekabr 1935-ci il № 30 (50) / N.Ostrovski // Ədəbiyyat qəzeti.- 2017.- 17 iyun.- S.13.

Əşrəf, S. Sinəmdə döyünən ürəyin cəmi iyirmi iki yaşı var... / Samirə Əşrəf // Ədəbiyyat qəzeti.- 2017.- 8 aprel.- S.25.

Ostrovski Nikolay Alekseyeviç // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Cild 7.- Bakı, 1983.- S.392.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nikolay_Ostrovski

https://portal.azertag.az/az/node/1966

İsmayıl Hacıbəyov - 75

(1949-2006)

Bəstəkar



İsmayıl Soltan oğlu Hacıbəyov 1949-cu il sentyabr ayının 2-də Bakı şəhərində anadan olmuşdur. Atası Soltan Hacıbəyovdan dərs alan İsmayıl Hacıbəyov Azərbaycan Dövlət Konservatoriyasına qəbul olub bəstəkarlıq üzrə professor Q.Qarayevin sinfində təhsil almış, 1972-ci ildə təhsilini başa vurmuşdur. Həmin ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq kafedrasında dərs demişdir.

Musiqi sahəsində yaradıcılığı çoxşaxəli olmuşdur. Hələ tələbə olarkən müxtəlif janrlı əsərlər yaratmış, simfonik və kamera əsərləri, fortepiano üçün musiqilər yazmış,Üzeyir Hacıbəyovdan gələn ənənəni özünəməxsus şəkildə davam və inkişaf etdirmişdir. İsmayıl Hacıbəyovun yaradıcılığı mədəniyyət tariximizdə bir hadisə olmaqla neçə-neçə əsəri Azərbaycan musiqisinin ən gözəl inciləri sayılır.

Professor İsmayıl Hacıbəyovun simfonik orkestr üçün bəstələdiyi "Naxışlar" fantaziyası da musiqişünaslar tərəfindən maraqla qarşılanmışdır. Bu əsərdə bəstəkar sırf milli düşüncə tərzi nümayiş etdirərək məhz Azərbaycan bəstəkarlıq məktəbində ən yaddaqalan və əvəzolunmaz yerlərdən birini tutmuşdur. İ. Hacıbəyov piano üçün "Albomdan səhifələr" süitası (1991); piano üçün "Üç İdilliya" (1992); Fleyta və simli orkestr üçün "Konsertştük" (1993); oktet üçün "Divertisment" (1993); Dantenin sözlərinə 4 Romans (1996); "Füruzə" operası (libretto - müəllifindir, 1997); fleyta, klarnet və piano üçün "İstəklər" triosu (1998); nəfəsli alətlər üçün Kvintet (1999), a' capella xoru üçün 3 Vokaliz (2000) və s. əsərlərin müəllifidir.

O, həm də musiqi nəzəriyyəsi ilə məşğul olmuş, müxtəlif toplularda məqalələr çap etdirmişdir.

İsmayıl Hacıbəyov həm də zəngin təxəyyülə, gözəl duyuma malik olan bir rəssam olmuşdur. İsmayıl Hacıbəyov böyük məhəbbətlə Üzeyir bəyin, Qara Qarayevin, atası Soltanın, Dmitri Şostakoviçin, həyat yoldaşı Ülviyyə xanımın, eləcə də özünün avtoportretini yağlı boya ilə kətan üzərində işləmişdir.

İ.Hacıbəyov 1984-cü ildə Azərbaycan SSR Lenin komsomolu və 1994-cü ildə "Humay" mükafatı laureatı olmuşdur. 2000-ci ildə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Bəstəkar Hacıbəyov İsmayıl 25 mart 2006-cı ildə Bakı şəhərində vəfat etmiş, II Fəxri xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Sevməcə [Notlar]: səs və fortepiano üçün / İsmayıl Hacıbəyov.-Bakı: 2007.- 6 s.

İsmayıl Hacıbəyov: Məqalələr, oçerklər, xatirələr / Tərtib ed. Ü.Hacıbəyova.-Bakı: OKA Ofset, 2007.-176 s.

İsgəndərova, N. İsmayıl Soltan oğlu Hacıbəyov / Natella İsgəndərova; red. Z. Qafarova; [baş red. S. Bektaşi; burax. məsul S. İsmayılova; dizayner K. Məhdəvi]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Şərq-Qərb, 2015.- 31, [1] s.

Quliyeva, S.İsmayıl Hacıbəyovun Üzeyir Hacıbəylinin "Cəngi" mövzusuna rapsodiyasında aşıq yaradıcılığının təzahürləri / Sevinc Quliyeva // Musiqi dünyası.- 2020.- № 2/83.- S.76-79.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0smay%C4%B1l_Hac%C4%B1b%C9%99yov

http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_oktyabr2009/92496.htm

http://musicacademy.edu.az/az/bestekar-gorkemli/371-ismayil-hacibeyov.html

Hüseynağa Atakişiyev – 75

(1949-2006) *Rejissor, aktyor*



Hüseynağa Ağahüseyn oğlu Atakişiyev 1949-cu il sentyabr ayının 8-də Bakı şəhərində anadan olmuşdur. 1955-1963-cü illərdə Bakı şəhər 7 saylı orta məktəbdə oxumuşdur. Ailə vəziyyəti ilə əlaqədar olaraq bir müddət Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında çalışmış, eyni zamanda 51 saylı fəhlə-gənclər məktəbində orta təhsilini davam etdirmişdir.

1971-1975-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsini bitirdikdən sonra Şəki Dövlət Dram Teatrına işləməyə göndərilmişdir. Orada rejissor, 1979-cu ildən isə baş rejissor işləmişdir. Bu müddətdə teatrda Azərbaycan və dünya dramaturgiyasının şah əsərlərini - "Lənkəran xanın vəziri", "Hacı Qara", "Xırs Quldurbasan" (M.F.Axundov),"Aydın" (C.Cabbarlı), "Adamın adamı","Şəhərin yay günləri" (Anar), "Əks-səda" (N.Xəzri), "Şirinbala bal yığır" (S.Qədirzadə), "Ağ xəstəlik"(K.Çapek) və s. tamaşaya qoymuşdur. 1974-cü ildə 9 tamaşa ilə Moskvada qastrolda olması isə teatr tarixinin qırmızı səhifələrindəndir. Səfər ərəfəsində kollektivin təqdim etdiyi səhnə əsərlərindən bir neçəsi paytaxt tamaşaçılarının xahişi ilə üç dəfə yenidən oynanılmışdır.

H. Atakişiyev 1985-1988-ci illərdə Bakıya dəvət olunaraq Akademik Milli Dram Teatrının baş rejissoru olmuşdur.

Hüseynağa Atakişiyev həm də aktyor kimi fəaliyyət göstərmişdir. Tamaşaçılar onu Xalq yazıçısı Anarın "Uzun ömrün akkordları" filmində Üzeyir Hacıbəyli rolunda görmüş və sevmişlər. Bundan başqa o, "Üzeyir ömrü" (1981), "Ac həriflər" (1993),"Olum ya ölüm və ya hər şeyə rəğmən" (1994), "Ömürdən uzun gecə" (1996), "Fatehlərin divanı" (1997) filmlərində rol almışdır.

Hüseynağa Atakişiyev 1989-cu ildə Azərbaycan Dövlət Gənclər Teatrını yaratmış və vəfatına qədər teatrın bədii rəhbəri və direktoru olmuşdur. Teatr 1989-cu il mart ayının 27-də pərdələrini Yusif Səmədoğlunun "Qətl günü" tamaşası ilə açmış və bundan sonra çoxlu sayda uğurlu tamaşalar nümayiş edilmişdir. "Ölülər günü" (C.Məmmədquluzadə),"Hamam hamam içində","Dadaşbala əməliyyatı (R.Əlizadə) və s. kimi bir çox tamaşalara quruluş vermişdir.

Hüseynağa Atakişiyev 1982-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına, 1996-cı ildə "Qızıl dərviş" mükafatına layiq görülmüşdür.

Hüseynağa Atakişiyev 2006-cı il aprel ayının 9-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Qafarov, V. Hüseynağa Atakişiyev: "Hamı qocalır da…" / Vidadi Qafarov // Kaspi.-2018.- 13 sentyabr.-S.12.

Müşfiq, Ş. Səhnəmizin sönməyən Hüseynağa Atakişiyev işığı / Şahanə Müşfiq // 525-ci qəzet.- 2018.- 8 sentyabr.- S.23.

Fərəcov, S.Teatra işıqçı kimi gəlmişdi...: [Hüseynağa Ağahüseyn oğlu Atakişiyev haqqında] /Savalan Fərəcov // Mədəniyyət.-2020.- 9 sentyabr.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/H%C3%BCseyna%C4%9Fa_Ataki%C5%9Fiyev

https://modern.az/reportaj/46203/huseynaa-atakisiyevin-ikinci-bahari-fotolar/

http://www.anl.az/down/meqale/kaspi_az/2018/sentyabr/605035.htm

https://medeniyyettv.az/az/news/1856/huseynaga-atakisiyev-teatrimiza-isiq-tutan-rejissor

Natiq Əhmədov - 55

(1969-1991) *Milli Qəhrəman*



Natiq İlyas oğlu Əhmədov 1969-cu il sentyabr ayının 1-də Xocalı rayonunun Kosalar kəndində anadan olmuşdur. 6 yaşı olarkən ailəsi Ağdamın Kosalar kəndindən Novruzlu kəndinə köçmüş və Natiq Ağdam rayonunun Novruzlu kənd orta məktəbini bitirmişdir. Rayonda keçirilən müxtəlif idman yarışlarında oxuduğu məktəbin şərəfini həmişə ləyaqətlə qorumuşdur. Orta məktəbi bitirdikdən sonra Ağdamın futbol komandasına dəvət edilmişdir. Sonralar isə o, Riqada şərq əlbəyaxa döyüşü sənəti - karateni öyrənmişdir.

Kalininqrad şəhərinin artilleriya hissəsində hərbi xidmətdə olmuş N. Əhmədov 1988-ci ildəNovruzlu kəndinəqayıdıb üzümçülük kolxozunda çalışmışdır.Lakin sonra o, ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər zamanı Xocalı rayon Daxili İşlər şöbəsinin yol patrul xidməti müfəttişi vəzifəsinə qəbul olunmuşdur.

N.Əhmədov Ağdam-Şuşa marşrutu ilə hərəkət edən sərnişin avtobuslarının təhlükəsizliyini təmin etmək üçün dəfələrlə ölümlə üzbəüz gəlmiş, ermənilərlə əlbəyaxa döyüşmüşdür. 26 sentyabr 1991-ci ildə Əsgərandan Xocalıya işə gedərkən içərisində olduğu maşına ermənilər pusqu qurmuş və atəşə tutulduğunu görür. Avtobusdakı mülki şəxsləri xilas etmək üçün iş yoldaşı ilə birgə son damla qanına qədər döyüşür. Həmin döyüşdə Natiq qəhrəmancasınaqəhrəmancasına həlak olmuşdur. Ağdam rayonunun Novruzlu kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Əhmədov Natiq İlyas oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Seyidzadə, M. Əhmədov Natiq İlyas oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi / M.Seyidzadə.- Bakı, 2010.- S.75.

Vüqar Əsgərov //"Azərbaycanın Milli Qəhrəmanları" (Yenidən işlənmiş II nəşr).-Bakı, 2010. - S. 70.

Turabqızı, S.Natiq İlyas oğlu Əhmədov /Səkinə Turabqızı //Xocalı ağrısı /S.Turabqızı.-Bakı, 2021.-S.77-80.

İnternetdə

https://az.wikipedia.org/wiki/Natiq_%C6%8Fhm%C9%99dov(milli_q%C9%99hr%C9%99man)https://vetendas.az/natiq-%C9%99hm%C9%99dov/

https://avciya.az/%C9%99hm%C9%99dov-natiq-ilyas-oglu/

SENTYABR

4

Səyyad Şıxıyev - 25

(1999-2020)

Kiçik gizir



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında [kiçik gizir Səyyad Abdul oğlu Şıxıyev]: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il// Azərbaycan.-2020. -16 dekabr.-S.6-12.

Səyyad Abdul oğlu Şıxıyev 1999-cu il sentyabr ayının 4-də Saatlı rayonunun Qaralar kəndində anadan olmuşdur.2006-cı ildə Saatlı rayon Ə. Şükürlü adına Varxankəndtam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2017-ci ildə həmin məktəbi bitirmişdir.1 yanvar 2018-ci ildə hərbi xidmətə çağırılmış, hərbi xidmətini başa vurduqdan sonra 2019-cu il noyabr ayının 19-dan Dövlət Sərhəd Xidmətində gizir kimi xidmət etməyə başlayır.Qazaxda xidmət etdikdən bir müddətsonra-Diversiya qrupunun kəşfiyyat bölümünə daxil olur və bir kəşfiyyatçı gizir kimi dövlət sərhədlərimiziqorumağa başlayır. Qısa müddət sonra pulemyotçu (qumbaraatan) vəzifəsinə təyin edilir.

S.Şıxıyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində iştirak etmişdir. 44 günlük Vətən müharibəsinin 20 gününü döyüşlərdə keçirmiş, Kəlbəcər yaxınlığında gedən döyüşlərdə, sonra isə Füzuli-Cəbrayıl döyüşlərində iştirak etmişdir. S, Şıxıyev oktyabr ayının17-də Cəbrayıl döyüşləri zamanı70-dən çox ermənini məhv etmiş,ürəyindən snaperlə vurularaq şəhidlik zirvəsinə ucalmışdır. Saatlı rayonunun Qaralar kəndində dəfn olunmuşdur.

Səyyad Şıxıyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham ƏliyevinSərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə,3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

4

Əhməd Amanov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat

Amanov Əhməd Tahir oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.156-157.

Müşfiq, Ş.Haqq yolundan dönməyən qəhrəman / Şahanə Müşfiq // 525-ci qəzet.-2022.- 30 sentyabr. -S.12.

Əhməd Tahir oğlu Amanov 1994-cü il sentyabr ayının 4-də Yevlax rayonunun Salahlı kəndində anadan olmuşdur. 2000-2009-cu illərdə Salahlı kənd B. Alıyev adına tam orta məktəbdə orta təhsil almışdır.2012-ci il oktyabr ayının 1-də hərbi xidmətə çağırılmış, Füzulinin Horadiz şəhərində kəşfiyyatçı çavuş olaraq xidmət etmişdir.2014-cü ildə xidmətini başa vurduqdan sonra bir müddət HMD-də işləmişdir. 2017-ci ildə yenidən hərbi xidmətə qayıtmış, Gəncədə "N" saylı hərbi hissədə MAHHXHQ tankçı, baş mexanik, sürücü olaraq xidmət etmişdir. Sonra isə Mingəçevirdə yerləşən "N"saylı hərbi hissədə xidmət etmişdir.

Ə. Amanov 12-16 iyul 2020-ci illərdə Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində başlayan Tovuz döyüşlərində tankçı kimi General-mayor Polad Həşimov ilə birlikdə vuruşmuşdur.

Əhməd Amanov 2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsini hərbi qulluqçu kimi ilk gündən döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşmuşdur. Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə tankçı olaraq vuruşmuş, 28 sentyabr 2020-ci ildə istifadə etdiyiiki tank qarşı tərəfin atəşi nəticəsində yansa da, o, həmin tanklardan sağ çıxmış, üçüncü tankla döyüş tapşırığını yerinə yetirərkənşiddətli döyüşdə şəhidlik zirvəsinə ucalmışdır. Yevlax rayonunun Salahlı kəndində dəfn edilmişdir.

Ə.Amanov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Rəfail İşiyev - 45

(1979-2020)

MAHHXHQ əsgər



Rəfail Əhmədağa oğlu İşiyev 1979-cu il sentyabr ayının 4-də Cəlilabad rayonunda anadan olmuşdur. 1996-cı ildə Cəlilabad şəhər 8 saylı məktəbi bitirmişdir. Ömrünün 16 ili orduda keçmişdir. 2016-cı ilin Aprel döyüşlərində də iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəfail İşiyev 2020-ci il sentyabr ayının 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş və idarə etdiyi BMP vurulmuşdur. Yaralandıqdan 2 gün sonra yenidən döyüşlərə qatılmışdır. Yaralı döyüş yoldaşının BMP-sini idarə edərək Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlərdə düşmənə ağır zərbələr vurmuşdur. İkinci dəfə də texnikası vurulmuş və yaralanmışdır. Amma, bir müddət sonra yenidən erməni qəniməti olan 3-cü BMP-ilə döyüşlərə qatılmışdır. Noyabr ayının 3-də son döyüşü olmuş, Xocavənd istiqamətində şəhidlik zirvəsinə ucalmışdır.

Rəfail İşiyev ölümündən sora Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2022-ci il sentyabr ayının 6-da Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidinə həsr olunmuş "Ana məni bağışla" tamaşası nümayiş olunmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.40.

Rəşad Məmmədov - 35

(1989-2020)

Əsgər



Rəşad Fərəməz oğlu Məmmədov 1989-cu il sentyabr ayının 4-də Gəncə şəhərində anadan olmuşdur. 2006-cı ildə Gəncə şəhər 34 nömrəli tam orta məktəbi bitirmişdir.2006-2010-cu illərdə Gəncə Dövlət Universitetində "tarix" ixtisası üzrə təhsil almışdır.2010-cu ildə həqiqi hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.2013-cü ildə Gədəbəy rayon Qoşabulaq kənd 1 saylı tam orta məktəbində tarix müəllimi kimi əmək fəaliyyətinə başlamışdır.

Rəşad Məmmədov 2020-ci il sentyabrayının 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində sentyabr ayının 29-dan könüllü olaraq iştirak etmiş, Xocavənd rayonunun Ağoğlan (Hadrud) qəsəbəsi, Füzuli, Qubadlı və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir.8 noyabr 2020-ci ildə Şuşa istiqamətində şəhidlik zirvəsinə ucalmışdır. 17 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Rəşad Məmmədova ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il//Azərbaycan. -2020. -30 dekabr. -S.18-21.

5 SENTYABR

Cavid Qarayev- 40

(1984-2020) *MAHHXHQ çavuş*



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il//Azərbaycan. -2020. -27 dekabr. -S.4;14.

Cavid Əmirxan oğlu Qarayev 1984-cü il sentyabr ayının 5-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olmuşdur.1990-cı ildə Kərimbəyli kəndindəki Əkrəm Səlimov adına tam orta məktəbin 1-ci sinifinə getmiş, 2001-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir.2002-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılmış, 2004-ci ilin yanvar ayında xidmətini başa vurmuşdur.2007-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akedemiyasına qiyabi qəbul olmuş, 2011-ci ildə oranı bitirmişdir.

C. Qarayev 2016-cı il Aprel döyüşlərindən sonra öz istəyi ilə müraciət edərək MAHHXHQ olaraq Vətənin keşiyində dayanmış, nizam- intizamı ilə seçilərək-çavuş kimi manqa komandiri vəzifəsinə yüksəlmişdir.


Vətən müharibəsi zamanı əks hücumlarda Cavid və manqası ön sıralarda döyüşə qoşulmuş, Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə əsl qəhrəman kimi döyüşərək torpaqlarımızın azad edilməsi uğrunda mərdliklə vuruşmuşlar.C. Qarayev bir çox strateji yüksəkliklərin azad olunmasında fəallıq göstərmiş, manqası ilə birlikdə düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını zərərsizləşdirmişdir. Oktyabr ayının 26-da Füzuli döyüşləri zamanışəhid olmuşdur. Füzuli rayonunun Kərimbəyli kəndində dəfn olunmuşdur.

C. Qarayev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə","Füzulinin azad olunmasına görə medalları və3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeniilə təltif edilmişdir.

6

Elyar Mirzəyev - 40

(1984-2020) *MAHHXHQ əsgər*



Ədəbiyyat

Əlibalaqızı,S.Vətən fədailəri - örnək ömürlər / Səbinə Əlibalaqızı // Mədəniyyət. -2021. -3 sentyabr. -S.6.

Hüseyn, T.Horovlunun cəsur oğlu /Tofiq Hüseyn //Respublika.-2021. -9 sentyabr. -S.5.

Elyar Cəlal oğlu Mirzəyev 1984-cü il sentyabr ayının 6-da Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olmuşdur.1990-cı ildən Sərdar İmrəliyev adına Bahar tam orta məktəbində təhsil almışdır.

E. Mirzəyev 2002-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 2016-cı ildə "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna daxil olmuş, kursubitirdikdən sonra Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin "Həmlə" taborunda pulemyotçu kimi xidmətə başlamışdır.2019-cu ildə Gəncədə keçirilən Azərbaycan Silahlı Qüvvələrinin futbol üzrə ordu çempionatında ikinci ordu korpusunun komandası tərkibində ordu çempionu olmuşdur.

2020-ci ilin 27 sentyabrında başlayan İkinci Qarabağ müharibəsində təmsil etdiyi "Həmlə" taborunun tərkibində döyüşlərə qatılan hərbçinin döyüş yolu Füzuli istiqamətindən başlamışdır. Oktyabrın 14-də səhər saatlarında Ağoğlan istiqamətində yerləşən Şaban dağının ətəklərində başlayan açıq döyüşdə snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalmışdır. Oktyabr ayının 16-da Bahar qəsəbəsində dəfn edilmişdir.

E. Mirzəyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

SENTYABR

7

Asim Əliyev - 25

(1999-2020)

Əsgər



Asim Nuru oğlu Əliyev 1999-cu il sentyabr ayının 7-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Düz Qırıqlı kənd tam orta məktəbində, 2017-2018-ci illərdə Azərbaycan Texnologiya Universitetində "Marketinq" ixtisası üzrə təhsil almışdır.2019-cu ildə təhsilini dayandırmış, həqiqi hərbi xidmətə yollanmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Asim Əliyev 2020-ci il sentyabr ayının 27-dəErmənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Xocavən və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə misilsiz şücaət göstərmiş,mətinliyi ilə seçilmişdir. A. Əliyev oktyabr ayının 25-də Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmışdır.Tovuz rayonunun Düz Qırıqlı kəndində dəfn olunmuşdur.

Asim Əliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və"Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Əliyev Asim Nuru oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.481.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. - 2021. -25 iyun. - S.45-57.

https://memorial.az/az/qehremanlarimiz/1735

8

Ceyhun Nəhmətov - 30

(1994-2020)

Baş leytenant



Ədəbiyyat

Şəhid sərhədçi baş leytenant Ceyhun Nəhmətovun anım tədbiri keçirilib: [Dövlət Sərhəd Xidmətinin təşkil etdiyi tədbir haqqında]//Azərbaycan. -2021. -11 sentyabr. -S.7.

https://memorial.az/az/qehremanlarimiz/706

Ceyhun Ehtiqad oğlu Nəhmətov 1994-cu il sentyabr ayının 8-də Bakı şəhəri Xəzər rayon Mərdəkan qəsəbəsində andan olmuşdur.2001-2012-ci illərdə Mərdəkan qəsəbəsində Hacı Zeynalabdin Tağıyev adına 123 saylı orta məktəbdə təhsil almışdır.2012-ci ildə Dövlət Sərhəd Xidməti Akademiyasına qəbul olmuş, 2016-cı ildə Dövlət Sərhəd Xidməti Akademiyasını "Leytenant" rütbəsi ilə bitirmiş və həmin ildən Sərhəd Qoşunlarının Yevlax Çevik hərbi hissəsində işləməyə başlamışdır. 2018 ci ildə Qazax Sərhəd dəstəsindəZastava rəisinin müavini vəzifəsində çalışmış, 2019-cu il may ayının 8-dən Zaqatala Sərhəd Dəstəsində xidmət etmişdir.

2020-ci ildə sentyabr ayının 27-dən-Vətən müharibəsi döyüşlərinə qatılmışdır. Kəlbəcər, Füzuli, Cəbrayıl, Laçın karidoru, Qubadlı, Zəngilan uğrunda gedən döyüşlərin hər birində böyük şücaət və igidlik göstərmişdir. 2020-ci il noyabr ayının 7-də Zəngilanın Ağbənd yüksəkliyi uğrunda gedən döyüşdə şəhidlik zirvəsinə ucalmış, noyabr ayının 9-da Bakı şəhəri 2-ci Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Ceyhun Nəhmətov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Zəngilanın azad olunmasına görə" ,"Cəbrayılın azad olunmasına görə" medalları və3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeniilə təltif edilmişdir.Paytaxtın Xəzər rayonunda şəhid Ceyhun Nəhmətovun xatirəsinə abidə-bulaq kompleksi yaradılmışdır.

SENTYABR
9

Maarif Əliyev- 30

(1994-2020) *MAHHXHQ kiçik çavuş*



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il//Azərbaycan. -2020. -30 dekabr. -S.18-21.

Maarif Təbriz oğlu Əliyev 1994-cü il sentyabr ayının 9-da Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur. 2000-2011-ci illərdə Həsənabad qəsəbə tam orta məktəbində təhsil almış, 2012-2013-cü illərdəhərbi xidmətdə olmuş, tərxis olunandan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət etmişdir. Xüsusi Təyinatlı Qüvvələr sırasında 2016-cı il Apreldöyüşlərində böyük şücaət və igidlik göstərmiş, 26.06.2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" medalı ilə təltif edilmişdir.

XTQ-nin kiçik çavuşu olan Maarif Əliyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində qəhrəmancasına iştirak etmişdir. Füzuli, Cəbrayıl, Hadrut, Kəlbəcər və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Maarif Əliyev noyabr ayının 7-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmışdır. 12 noyabr 2020-ci il tarixində Neftçala şəhərində dəfn olunmuşdur.

Maarif Əliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə","Cəbrayılın azad olunmasına görə","Cəsur döyüşçü","Xocavəndin azad olunmasına görə" medallarıilə təltif edilmişdir.

SENTYABR
9

Əli Quliyev - 40

(1984-2020) *Gizir*



Ədəbiyyat

Orucoğlu, Z. Vətən yolunda şəhid olan igid Əli / Zəfər Orucoğlu //Unikal.-2021. - 8 may. - S.18.

Abdulov, Ə. Cəsur döyüşçü /Ərəstun Abdulov // Respublika.-2021.-9 dekabr.

https://memorial.az/az/qehremanlarimiz/2087

Əli Tədbir oğlu Quliyev 1984-cü il sentyabr ayının 9-da İmişli rayonunun Otuziki kəndində anadan olmuşdur.1990-2001-ci illərdə Otuziki kənd məktəbindətəhsil almış,2002-ci il oktyabrın 5-də həqiqi hərbi xidmətə çağırılmışdır. Azərbaycan Silahlı Qüvvələrinin Kəşfiyyat Bölüyünə üzv olmuşdur. Silahlı Qüvvələrində qulluğa başlayan vaxtdanşəxsi heyyətin və komandanlığın hörmətini qazanan Əli Quliyev, dəfələrlə fəxrifərman və təşəkkür almışdır. Ə.Quliyev təcrübəli kəşfiyyatçı kimi 2016-cı ilin Aprel döyüşlərində,Tərtər ratonunun Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Talış və digər strateji mövqeylərimizin geri alınması istiqamətində düşmənlə mübarizə aparmış, kəşfiyyatçı kimi dörd erməni terrorcusunu əlbəyaxa döyüşlərdə zərərsizləşdirərək, məhv etmişdir.

2020-ci il sentyabr ayının 27-dən başlayanVətən Müharibəsinin iştirakçısı Baş gizir Əlinin Füzulidən başlayan döyüşləri Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlıda davam etmiş, ermənilərin silah və sursat anbarlarının, postlarının zərərsizləşdirilməsində, ağır itki verərərək geri çəkilməyə məcbur edilməsində, hərbi texnikalarının qənimət götürülməsindəsilahdaşları ilə birlikdə xüsusi xidmətləri olmuşdur. Döyüşlərin birində ayağındanyaralansa da, döyüş meydanını tərk etməmiş,oktyabr ayının 26-dan 27-ə keçən gecə Xocavənd rayonunun Yağlıvənd kəndində gedən döyüşlərdə iştirak etmiş, səngər döyüşləri zamanı düşmən snayperinə tuş gələrək şəhid olmuşdur.İmişli rayonunun Otuziki

9 SENTYABR

Rusif Quliyev - 35

(1989-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il//Azərbaycan. -2020. -30 dekabr. -S.20.

Rusif Asim oğlu Quliyev 1989-cu il sentyabr ayının 9-da Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur.1996-2007-ci illərdə E.Mustafayev adına Yenigün kənd tam orta məktəbində təhsil almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 2012-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmətdə qulluq etmişdir. Rusif Quliyev 8 illik hərbi xidmət müddətində "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdir.2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərinin iştirakçısı olmuşdur.

2020-ci il sentyabr ayının 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində böyük şücaət və igidlik göstərmişdir. Murovdağ və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Rusif Quliyev noyabr ayının 3-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmışdır. Noyabr ayının 5-də Ağstafa rayon Şəhidlər xiyabanında dəfn edilmişdir.

Rusif Quliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq tarixli Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medallarıvə 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.2022-ci ilin noyabr ayında "Keşikçidağ olaraq Qarabağda şanlı tarix yazanların yanındayıq" layihəsi çərçivəsində "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun əməkdaşları şəhidin xatirəsini yad etmişlər.

9

Aşurəli Zərbəliyev - 25

(1999-2020)

Əsgər



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il//Azərbaycan. -2020. -29 dekabr.-S.5-14.

Aşurəli Səfərəli oğlu Zərbəliyev 1999-cu il sentyabr ayının 9-da Qusar rayonunun Quxuroba kəndində anadan olmuşdur.2005-2014-cü illərdə Qusar rayon Quxuroba kənd orta məktəbin 9-cu sinfini bitirmişdir.

A. Zərbəliyev 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Aşurəli Zərbəliyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlayan Vətən müharibəsində böyük şücaət və igidlik göstərmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Aşurəli Zərbəliyev 11 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhidlik zirvəsinə ucalmışdır. Qusar rayonunda dəfn olunmuşdur.

Aşurəli Zərbəliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham ƏliyevinmüvafiqSərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə","Cəsur döyüşçü" və " Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Elməddin Meydanov- 35

(1989 - 2020)

Kapitan



Elməddin Bahəddin oğlu Meydanov 1989-cu il sentyabr ayının 11-də Şərur rayonunun Vərməziyar kəndində anadan olmuşdur.1997-2004-cü illərdə Türkiyənin İğdır şəhərindəki "Qurtuluş"ibtidai məktəbində oxumuş, 2004-cü ildə i Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmuş, 2007-ci ildə həmin liseyi əlaçı kursant olaraq qırmızı diplomla bitirmişdir. Təhsil illərində əldə etdiyi nailiyyətlərə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən də mükafatlandırılmışdır. 2007-2011-ci illərdə MTN-in Heydər Əliyev adına Akademiyasında "Sərhəd Qoşunları" fakültəsində ali hərbi təhsil almışdır.

Elməddin Meydanov 2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Sərhəd Qoşunlarının "N" saylı hərbi hissəsində xidmət etmiş, kapitan rütbəsinə qədər yüksəlmişdir. Hərbi xidməti dövründə III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi", "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley və III dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilmişdir.

Kapitan E. Meydanov Vətən müharibəsi başlayan zaman Göytəpə sərhəd dəstəsində xidmət etmiş, könüllü olaraq ön cəbhəyə gedərək Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda böyük şücaət və igidlik göstərmiş, Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına mübarizə aparmışdır.Elməddin Meydanov oktyabr ayının27-də Zəngilan döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirən zaman boğazından qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalmışdır. Şərur şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur. Şəhid olduğu yüksəkliyə soyadı verilərək "Meydan zirvəsi" adlandırılmışdır.

9 il Sərhəd Qoşunlarında qulluq edən E. Meydanov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib//Azərbaycan. -2021. -4 noyabr. -S.4.

Rəşid, Ə.Zirvədəki Meydanov- "Meydanov zirvəsi"- Sərhədçi şəhid kapitanın 32-ci doğum gününə... /Əntiqə Rəşid //Ədalət.-2021.- 11 sentyabr.

İnternetdə

https://az.wikipedia.org/wiki/Elm%C9%99ddin_Meydanov

https://memorial.az/az/qehremanlarimiz/569

https://bizim.media/az/cemiyyet/36489/

Kəmaləddin Məmmədzadə - 25

14

(1999 - 2020)

Əsgər



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.42.

Kəmaləddin Vüqar oğlu Məmmədzadə 1999-cu ildə sentyabr ayının 14-də Bakıda anadan olmuşdur. 2006-2017-ci illərdə Xətai rayonu 249 nömrəli tam orta məktəbində təhsil almışdır.Azərbaycan Memarlıq və İnşaat Universitetinin Nəqliyyat fakültəsinə daxil olmuşdur.O, üçüncü kursa keçid edərkən təhsilini dondurmuş və hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri K.Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsinə qatılmışdır. O, Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı, Laçın, Xocavəndin kəndləri, Şuşa şəhəri və bütün qəsəbə və yüksəkliklərin işğaldan azad edilməsi uğrunda döyüşmüşdür. Noyabr ayının 9-da Şuşa şəhərində boynundan snayperlə vurularaq qəhrəmancasına şəhid olmuşdur. Saatlı rayonunun Minbaşılılı kəndində dəfn olunmuşdur.

K. Məmmədzadə ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə". "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci ildə Xətai rayonunda xatirə lövhəsi vurulmuş, 2023-cü ilin mayında Bakının Xətai rayonunda yerləşən "Sülh" küçəsinin adı dəyişdirilərək şəhidin adı verilmişdir.

Bəhruz Tağızadə - 25

14

(1999 -2020)

Əsgər



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan. - 2020. - 19 dekabr. - S.12.

Bəhruz Azər oğlu Tağızadə 1999-cu il sentyabr ayının 14-də Qax rayonunda anadan olmuşdur. 2005-ci ildə Qax şəhər 2 saylı məktəb-litseyin birinci sinfinə daxil olub 9-cu sinfi həmin məktəbdə bitirmiş, qalan təhsilini Qax şəhər 5 saylı tam orta məktəbində davam etdirmişdir. 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmətini bitirdikdən sonra Şəki Regional Mühafizə idarəsində mühafizəçi kimi işləmişdir.

B. Tağızadə 2020-ci il sentyabr ayının 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrundabaşlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin, Hadrutun və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Bəhruz Tağızadə 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalmışdır.16 noyabr 2020-ci ildə Qax şəhəri Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Tağızadə Bəhruz ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci ildə haqqında Azərbaycan Dövlət Televiziyasında süjet yayımlanmış,hər il doğma rayonunda anım günləri keçirilir.

Əşrəf Məmmədli- 25

(1999 - 2020)

Kiçik gizir



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il//Azərbaycan. -2020. -19 dekabr. -S.13.

Əşrəf Elman oğlu Məmmədli 1999-cu il sentyabr ayının 15-də İsmayıllı rayonunun Maçaxı kəndində anadan olmuşdur. 2005-2009-cu illərdə Maçaxı kənd tam orta məktəbində, 2009-2014-cü illərdə Tircan kənd tam orta məktəbində təhsil almışdır.2014-2017-ci illərdə isə Abşeron Ceyranbatan Peşə Liseyində "təmirçi-çilingər" ixtisası üzrə təhsil almışdır.

Əşrəf Məmmədli 2018-2019-cu illərdə Dövlət Sərhəd Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ilin noyabr ayından isə Dövlət Sərhəd Xidmətinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının kiçik giziri olan Əşrəf Məmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində böyük şücaət və igidlik göstərmişdir.Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmiş,düşmənin çox sayda canlı qüvvəsini məhv etmişdir.

Əşrəf Məmmədli oktyabr ayının 17-də Cəbrayıl döyüşləri zamanışəhidlik zirvəsinə ucalmışdır. İsmayıllı rayonunun Maçaxı kəndində dəfn olunmuşdur.

Kiçik gizir Məmmədli Əşrəf Elman oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Döyüşdə fərqlənməyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Elnur Cabbarov - 30

(1994 - 2020)

MAHHXHQ əsgər



Ədəbiyyat

Cabbarov Elnur Şahmurad oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.-S.285.

Alıoğlu,S.Adınız ürəklərdə yaşayacaq [şəhid Elnur Cabbarov haqqında]/Salman Alıoğlu// Respublika. -2021. -24 iyul. -S.9.

Elnur Şahmurad oğlu Cabbarov1994-cü il sentyabr ayının 15-də Ağcabədi rayonunun Taxtakörpü adlanan ərazisində anadan olmuşdur. 2001-2012-ci illərdə Taxtakörpüqəsəbə orta məktəbində təhsil almışdır.2013-2015-ci illərdə Azərbaycan Respublikasının Fövqalədə Hallar Nazirlirinin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olmuşdur. 2016-cı ildə Daxili İşlər Naziri Ramil Usubovun seçimi ilə Azərbaycan Respublikası "Polisə dəstək" İctimai Birliyində xidmətə qəbul edilmişdir. 2020-ci il iyun ayının 17-də könüllü olaraq "N" saylı hərbi hissədə müddətdən artıqhərbi xidmətə başlamış, az sonra XTQ-nin tərkibinə keçmişdir.

Azərbaycan Ordusunun əsgəri Elnur Cabbarov Vətən müharibəsinin ilk günündən ön xətdə olmuş, böyük şücaət və igidlik göstərmişdir. O, Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Elnur Cabbarov 5 noyabr 2020-ci ildə Şuşa döyüşlərində ağır yaralanmış, əvvəlcə, Hadruta, oradan Bakıya aparılmışdır. Bakıda müalicə aldığı xəstəxanada12 noyabr 2020-ci ildə şəhid olmuşdur.Ağcabədi rayonunun Taxtakörpü ərazisindəki Qarakeçdi qəbiristanlığında dəfn olunmuşdur.

E.Cabbarov ölümündən sonraAzərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və"Qarabağ" ordeni ilə təltif edilmişdir.

SENTYABR

16

Elnur Məmmədov- 35

(1989 - 2020)

MAHHXHQ əsgər



Elnur İsrəfil oğlu Məmmədov 1989-cu il sentyabr ayının 16-da Daşkəsən rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Aqrar universitetinin "Ətraf mühitin mühafizəsi" ixtisasını bitirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elnur Məmmədov 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanı böyük şücaət və igidlik göstərmişdir. Döyüşün ilk günlərindənmüxtəlif mövqeylərdə döyüşən kəşfiyyatcı E.Məmmədov komandiri və döyüş yoldaşları ilə birlikdə oktyabr ayının 1-i Daşkəsən rayonundan Kəlbəcər rayonuna keçərək, düşmənin iki postunu dağıtmışdır. Oktyabr ayının 2-də "Ağdağ" döyüş mövqeyiistiqamətində döyüş gedən zaman, içi dolu erməni zabiti olan UAZ markalı maşını partlatmış, özü isəyaralanmışdır.Yaralı olmasına baxmayaraq döyüşüdavam etdirmiş,snayperləvurularaq, şəhid olmuşdur.Komandiri onun nəşini çıxara bilmədiyi üçüniki qayanın arasında gizlətmişdir. E.Məmmədovun nəşi 49 gündən sonra gizlədilən yerdən götürülərək, ailəsinə təhvil verilmişdir. Şəhid böyük izdihamla Gəncə şəhər Şəhidlər xiyabanında dəfn edilmişdir.

Elnur Məmmədov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq tarixli Sərəncamlarına əsasən"İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" meadalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.79.

16

Ceyhun Rzayev - 30

(1994-2020)

MAHHXHQ çavuş



Ceyhun İsmayıl oğlu Rzayev 1994-cü il sentyabr ayının 16-da Bərdə şəhərində anadan olmuşdur. Bərdə rayon 7 saylı tam orta məktəbində təhsil almışdır.Həqiqi hərbi xidmətini başa vurduqdan sonra DİN-in Daxili Qoşunlarının "Kobra" xüsusi təyinatlı dəstəsində atıcı vəzifəsində 8 il vətənə xidmət etmişdir.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşuCeyhun Rzayev 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsinin ilk saniyəsindəndöyüşlərə atılıb böyük şücaət və igidlik göstərmişdir.Xüsusi Təyinatlı Qüvvələrin Komandanı Hikmət Mirzəyevin rəhbərliyi altında Cəbrayıl, Fizuli, Hadrut, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Şərəfli döyüş yoluuzun olan Şuşa fatehi kimi adını Azərbaycanın müasir hərb tarixinəqızıl hərflərlə həkk etmiş Ceyhun Rzayev noyabr ayının 7-də Şuşa döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkənşəhidlik zirvəsinə ucalmışdır. Noyabr ayının 11-də Bərdə şəhərində dəfn olunmuşdur.

Ceyhun Rzayev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edilmişdir. Bərdə rayon Regional Mədəniyyət İdarəsiBərdə rayon Heydər Əliyev Mərkəzi ilə birlikdəRzayev Ceyhun İsmayıl oğlunun xatirəsinə həsr edilən videoçarx hazırlamışdır.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il//Azərbaycan-2020. -25 dekabr. -S.11.

Yasən Əhmədov - 50

(1974-2020)

Baş gizir



Yasən Yelmar oğlu Əhmədov 1974-cü il sentyabr ayının 16-da Ağdam rayonunun Kosalar kəndində anadan olmuşdur.1981-1991-ci illərdə Eyvazxanlı kənd tam orta məktəbində təhsil almışdır.1992-1998-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının zoomühəndislik fakültəsinin qiyabi şöbəsində təhsil almışdır.

Y. Əhmədov 1992-ci ildə 18 yaşı tamam olmamış Birinci Qarabağ müharibəsi zamanı atası Yelmar Əhmədovun xidmətdə olduğu Ağdam rayonunun "N" saylı hərbi hissəsinin özünümüdafiə batalyonunda xidmətə başlamışdır. 1993-cü ildə Ağdam Hərbi Komisarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmış və 1994-cü il noyabr ayının 29-da Müdafiə Nazirliyinin əmrinə əsasən "kiçik gizir" hərbi rütbəsi alaraq motoatıcı bölüyün baş çavuşu vəzifəsinə təyin olunmuşdur. 1995-ci ilin oktyabr ayındaninzibati təsərrüfat hissəsi rəisi,1996-cı ilin noyabr ayından kadrlar və nizami bölmənin məsul icraçısı vəzifələrində xidmət etmişdir.Y. Əhmədov 2002-ci ildə ehtiyata buraxılmışdır. 2004-2006-cı illərdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 10 saylı CM-də təsərrüfat işləri üzrə rəis müavini vəzifəsində olan Yasən Əhmədov, 2007-cı ilin iyun ayından Müdafiə Nazirliyinin əmrinə əsasən yenidən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başlamış və təyinata əsasən Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədəmotoatıcı bölüyün baş çavuşu, noyabr ayından hərbi hissə şəxsi heyət bölməsi rəisinin köməkçisi,2014-cü ilin fevral ayından "N" saylı hərbi hissənin kargüzarlığının məsul icraçısı, 2015-ci ilin avqust ayından fərdi qərargahın referenti, oktyabr ayından hərbi hissə komandirinin referenti, 2017-ci il aprel ayından Gəncə şəhərində yerləşən"N" saylı hərbi hissənin kəşfiyyat bölüyünün baş texniki,iyun ayından hərbi hissənin mühəndis-istehkam bölüyünün baş texniki vəzifəsində xidmət etmişdir.

Y. Əhmədov hərbi xidmət etdiyi dövrdə "Qüsursuz xidmətə görə" III dərəcəli, "Qüsursuz xidmətə görə" II dərəcəli, "Qüsursuz xidmətə görə" I dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir.

İlk gündən Vətən müharibəsində döyüşən Y. Əhmədov Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmiş, oktyabr ayının 9-da Talış döyüşləri zamanı ağır yaralanmış, 14 gün komadaqalmış, oktyabr ayının 23-də şəhid olmuşdur. Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Yasən Əhmədov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasınagörə", "Cəsur döyüşçü" medalları və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Əhmədov Yasən Yelmar oğlu// Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.437.

Alıoğlu,S.Xatirələrdə yaşayan ömür [şəhid Yasən Əhmədov haqqında] /Salman Alıoğlu// Respublika. -2021. - 8 dekabr. -S.5.

Müşfiq,Ş.Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz!:[II Qarabağ Müharibəsi şəhidləri haqqında] /Şahanə Müşfiq // 525-ci qəzet. -2021. -25 fevral. -S.14-15.

İnternetdə

https://az.wikipedia.org/wiki/Yas%C9%99n_%C6%8Fhm%C9%99dov

https://memorial.az/az/qehremanlarimiz/639

https://m.facebook.com/525.az/posts/4192986587404166/?locale=hi_IN

SENTYABR

16

Rüfət Eyvazlı - 30

(1994 - 2020)

Əsgər



Rüfət Arzu oğlu Eyvazlı 1994-cü il sentyabr ayının 16-da Bakının Zabrat qəsəbəsində anadan olmuşdur.2000-ci ildə Sabunçu rayon Zabrat qəsəbəsi, 192 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, sonra imtahan verərək Səttar Bəhlulzadə adına Xarici Dillər Gimnaziyasına qəbul olunmuşdur. Zabrat həvəskar futbol klubunun üzvü olmuş, dəfələrlə rayon ərazisində keçirilən yarışlarda qalib gələrək medallarla təltif edilmişdir. 2012-2013-cü illərdə Füzuli rayonunda həqiqi hərbixidmətdə olmuşdur.

Vətən müharibəsinin ilk günlərindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılmış,qızğın döyüşlərə qatılaraq, böyük şücaət və igidlik göstərmişdir. Füzuli, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edərək hər zaman ön cərgələrdə olmuş, düşmənin birinci istehkam xəttinin darmadağın edilməsi əməliyyatlarında iştirak etmişdir.2020-ci il oktyabr ayının 12-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən mərmi qəlpəsindən şəhidlik zirvəsinə ucalmışdır. I Zabrat qəbristanlığında dəfn edilmişdir.

Rüfət Eyvazlı ölümündən sonra Azərbaycan Respublikası Preidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə" və"Vətən uğrunda" medalları ilə təltif edilmişdir.Zabrat qəsəbəsi, 192 saylı tam orta məktəbə şəhidin adı verilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. -2020. -16 dekabr. -S.6-12.

16

Rüstəm Eminli - 25

(1999 - 2020)

Əsgər



Rüstəm Mais oğlu Eminli 1999-cu il sentyabr ayının 16-da Yardımlı rayonunun Horonlu kəndində anadan olmuşdur. Orta təhsilini 2005-2016-cı illərdə Horonlu kəndində almışdır. 2017-2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Əsgərlikdə olduğu müddətdə Türkiyəyə hərbi təlimlərə göndərilmişdir. Xidməti boyunca hərbi hazırlığı ilə fərqlənən Rüstəm təşəkkürnamə və fərmanlara layiq görülmüşdür.

Rüstəm Eminli 15 oktyabr 2020-ci ildə Səfərbərlik Xidməti tərəfindən hərbi xidmətə çağırılmışdır.Füzuli, Cəbrayıl, XocavəndQubadlı, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmiş, bu rayonların işğaldan azad olunması uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir.

Noyabr ayının 1-də Xocəvənd rayonunun Maçkalaşen kəndi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalmışdır. Yardımlı rayonu Horonlu kəndində dəfn edilmişdir.

R. Eminli ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25dekabr 2020-ci il //Azərbaycan. - 2020. - 27 dekabr. - S.7.

SENTYABR

17

Elgün Kərimov - 25

(1999 - 2020)

MAHHXHQ əsgər



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. -2020. -16 dekabr. -S.9.

Elgün Rauf oğlu Kərimov 1999-cu il sentyabr ayının 17-də Yevlax rayonunun Aran qəsəbəsində anadan olmuşdur. 2006-2017-ci illərdə orta təhsilini Yevlax rayon Aran qəsəbə 1 saylı tam orta məktəbində almışdır. Ali məktəbə qəbul olmuş, ailə vəziyyəti ilə əlaqədar təhsildən imtina etmişdir.

E. Kərimov 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış,Şəmkir rayonunda kəşfiyyat bölüyünün əsgəri olaraq xidmət etmişdir. Hərbi xidməti başa vurduqdan sonra, 2020-ci ilin avqust ayında könüllü olaraq MAXE hərbi qulluqçusu kimi ordu sıralarına yazılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elgün Kərimov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Murovdağ, Talış kəndi və Suqovuşan isdiqamətində gedən döyüşlərdəiştirak etmiş, böyük şücaət və igidlik göstərmişdir.E. Kərimov oktyabrın 16-da Suqovuşan istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalmışdır. 2020-ci il oktyabr ayının 17-də Yevlax rayonunun Aran qəsəbəsində dəfn edilmişdir.

Elgün Kərimov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Suqovuşanın azad olunmasına görə" və"Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

19

Rəşid Həmidov - 25

(1999 - 2020)

Əsgər



Ədəbiyyat

Nizamqızı, H. Bir məktəbin altı şəhidi [Bakının Pirşağı qəsəbəsindəki 10 saylı sanatoriya tipli internat məktəbin şəhid məzunları haqqında] /Həmidə Nizamiqızı //Mədəniyyət.-2021.-5 fevral.- S.6.

https://az.wikipedia.org/wiki/R%C9%99%C5%9Fid_H%C9%99midov

Rəşid Pərviz oğlu Həmidov 1999-cu il sentyabr ayının 19-da Siyəzən şəhərində anadan olmuşdur. 2007-ci ildə Siyəzən şəhər 6 saylı məktəb liseyin 1-ci sinfinə getmiş, 2 il həmin məktəbdə oxuduqdan sonra,təhsilini Bakı sanatoriya tipli 10 saylı internat məktəbində davam etdirmişdir. 9-cu sinifdən sonra o, Azərbaycan Dövlət Dəmir Yolu Liseyinə daxil olmuşdur. 2019-cu ildə liseyi maşinist ixtisası üzrə bitirmişdir.

2019-cu ilin iyul ayının 2-də Hərbi xidmətə çağırılmışdır.Fəal xidməti,qorxmazlığı, igidliyi ilə diqqəti cəlb edən Rəşid Həmidov kiçik çavuş adına layiq görülmüş, xidmət etdiyi bir il üç ay ərzində manqa komandiri kimi fəaliyyət göstərmişdir.

Hərbi xidmətinin bitməsinə 3 ay qalmış Vətən müharibəsi başlamış, ilk gündən döyüşlərə qatılmışdır. Füzuli, Murovdağ, Suqovuşan və Laçın rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Rəşid Həmidov oktyabr ayının 7-də Suqovuşan (Tərtər) rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatları zamanı şəhidlik zirvəsinə ucalmışdır. Siyəzən şəhərində dəfn olunmuşdur.

Rəşid Həmidov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiqSərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

19

Orxan Əliyev - 35

(1989 - 2020)

MAHHXHQ kiçik çavuş



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. -2020. -16 dekabr. -S.6-12.

Orxan Məhəmməd oğlu Əliyev 1989-cu il sentyabr ayının 19-da Bərdə rayonunun Mollaəhmədli kəndində anadan olmuşdur. Orta təhsilini 1995-2006-cı illərdə Mollaəhmədli kənd tam orta məktəbində almışdır. 2007-ci ildə həqiqi hərbi xidmətə çağırılıb Tovuz rayonunda xidmət etmişdir.Hərbi xidmətini başa vurduqdan sonra ordu sıralarında xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Orxan Əliyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı böyük şücaət və igidlik göstərmişdir.Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Orxan Əliyev sentyabr ayının 29-da Talış kəndinin azad edilməsi zamanı döyüş tapşırığını yerinə yetirərkənqəhrəmancasına şəhid olmuşdur. Adı uzun müddət itkin düşmüş hərbçilərin siyahısında olmuş, nəşi noyabr ayının 2-də müəyyən edilərək Mollaəhmədli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Orxan Əliyev ölümündən sonra "Vətən uğrunda","Laçının azad olunmasına görə","-Suqovuşanınazad olunmasına görə" medalları ilə təltif edilmişdir.

19

İslam Əhmədov - 30

(1994 - 2020)

MAHHXHQ əsgər



Ədəbiyyat

Əhmədov İslam İlqar oğlu// Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.424.

Müşfiq,Ş.Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz /Şahanə Müşfiq //525-ci qəzet. -2021. -23 sentyabr. - S.14-15.

İslam İlqar oğlu Əhmədov 1994-cü il sentyabr ayının 19-da Mingəçevir şəhərində anadan olmuşdur.Orta təhsilini 2000-2011-ci illərdə Mingəçevir şəhər 11 saylı tam orta məktəbdə almışdır.Orta məktəbi qurtardıqdan sonra2012-ci ildə müddətli həqiqi hərbi xidmətə yollanmış və Sumqayıt şəhərində hərbi xidmətini başa vurmuşdur. Hərbi xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi"və "Azərbaycan Ordusunun 100 illiyi"yubiley medalları ilə təltif edilmişdir. Hərbi xidmətdən tərxis olunduqdan sonra Mingəçevir şəhərindəki "N" saylı hərbi hissədə xidmət etmişdir. İ. Əhmədov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Füzuli, Tərtər-Ağdərə cəbhəsində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Sentyabr ayının 27-də səhər saatlarında Suqovuşanın azadlığı uğrunda gedən şiddətli döyüşdə şəhid olmuşdur. Sentyabrın 28-də Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur. Qardaşı Əli Əhmədov da hərbçi-kiçik çavuş kimi müharibənin elə ilk günü, sentyabrın 27-də Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.Mingəçevir Şəhidlər xiyabanında dəfn edilmişdir.

İslam Əhmədov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

SENTYABR
20

Rəşad Nadirov - 25

(1999 - 2020)

Kiçik çavuş



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan. -2020. -27 dekabr. -S.12.

Rəşad Nadim oğlu Nadirov 1999-cu il sentyabr ayının 20-də Bərdə rayonunda anadan olmuşdur. Bərdə rayonu Nəriman Nərimanov adına 3 nömrəli tam orta məktəbdə təhsil almışdır. Daha sonra təhsilini Bakı şəhəri Nizami rayonu 61 nömrəli orta məktəbdə davam etdirmişdir. 2016-cı ildə Azərbaycan Universitetinin Sosial İş ixtisası fakültəsinə qəbul olmuşdur.

Ali təhsilini yarımçıq qoymuş, 2018-ci ilin aprel ayında qardaşı Elşadla birlikdə Bərdə rayonu hərbi komissarlığından hərbi xidmətə yollanmışdır. Rəşad Nadirov N saylı hərbi hissənin 1-ci tabor 82 minamyot atan baterayanın kəşfiyyat manqa komandiri olmuşdur.

27 sentyabr 2020-ci il tarixindən etibarən II Qarabağ müharibəsində qardaşı ilə birlikdə iştirak etmiş, Füzuli rayonu uğrunda gedən döyüşlərdəböyük şücaət göstərmişdirlər. Döyüşlərin birində 42 döyüş yoldaşının həyatını xilas etmişdir.

20 oktyabr 2020-ci il tarixində Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində gedən döyüş zamanı yanında partlayan mərmi nəticəsində Rəşad şəhid olmuş, qardaşı Elşad isə yaralanmışdır. Rəşadın nəşi 9 gün neytral zonada qalmış, oktyabrın 29-da Bərdə rayonunun Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Rəşad Nadirov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

20

Ramil Ağayev - 30

(1994 - 2020)

Əsgər



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il//Azərbaycan. -2020. -16 dekabr. -S.6-12.

Ramil Ağarəhim oğlu Ağayev 1994-cü il sentyabr ayının 20-də Sabirabad rayonunda anadan olmuşdur.Ailənin yeganə evladı olan Ramil orta məktəbi yaxşı qiymətlərlə başa vurub, 2012-ci ildəAzərbaycan Memarlıq və İnşaat Universitetinəqəbul olmuşdur.2016-cı ildə həqiqi hərbi xidmətə çağırılmış, Biləcəridəki "N" saylı hərbi hissədə qulluq etmişdir. Digah Ərazi nümayəndəliyində müdür müavini vəzifəsində, daha sonra isə Abşeron Rayon İcra Hakimiyyətində Tikinti-Memarlıq şöbəsində baş mütəxəssis vəzifəsində işləmişdir.

Vətən müharibəsi başlayan zaman Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon idarəsi tərəfindən səfərbərliyə çağırılmışdır. Döyüşlərə Füzulivə Xocavənd istiqamətindən başlayan Ramil düşmənin qurduğu istehkamların yarılmasında, canlı qüvvəsinin məhv edilməsində, yaralı yoldaşlarının döyüş meydanlarından çıxarılmasında xüsusi igidlik və qəhrəmanlıq göstərmişdir. 13 oktyabr 2020-ci ildə Hadrut uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalmışdır. Sabirabad rayonunun Mürsəlli kəndindədəfn olunmuşdur.

Ramil Ağayev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin mqvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Əhmədağa İskəndərov - 35

(1989 - 2020)

Əsgər



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il//Azərbaycan. -2020. -16 dekabr. -S.6-12.

Əhmədağa Novruz oğlu İskəndərov 1989-cu il sentyabr ayının 20-də Bakı şəhərində anadan olmuşdur.1996-2007-ci illərdə Bakı şəhəri N.Nərimanov rayonu 82 nömrəli pilot-orta məktəbindətəhsil almışdır.2007-2011-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin İnformatika və İdarəetmə fakültəsinin Menecment ixtisası üzrə təhsil almışdır. Daha sonra Mingəçevir şəhərində "N" saylı hərbi hissədə xidmət etmişdir. 2013-cü ildən peşəkar iş fəaliyyətinə başlamışdır. Əhmədağa İskəndərov Azərbaycan Respublikasının Əmək Qanunvericiliyi, Kadr inzibatçılığı və əmək haqqı sahəsində ölkənin aparıcı ekspertlərindən biri olmuşdur.2017-2018-ci illərdə bir neçə kurslarda iştirak etmiş, diplom və sertifikatlarla təltif olunmuşdur.

2020-ci il sentyabr ayının 21-dəSəfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi toplanışa çağırılmış, Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılmışdır.Cəbrayıl, Füzuli, Xocavənd istiqamətində ordumuzun uğurlu əməliyyatlarında qəhrəmancasına iştirak etmişdir. Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə yaralanmış, oktyabrayının 7-də Füzuli rayonu uğrunda gedən döyüşlərdəşəhid olmuşdur. Oktyabr ayının 9-da Bakının Kürdəxanı qəbiristanlığında dəfn edilmişdir.

Ə. İskəndərov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Təhsil aldığı 82 saylı tam orta məktəbdə xatirə lövhəsi vurulmuşdur.

Cəlil Məmmədov - 25

(1999 - 2020)

Əsgər



Cəlil Qəhrəman oğlu Məmmədov 1999-cu il sentyabr ayının 20-də Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra Quba Dövlət Sosial İqtisad Kollecinə daxil olmuşdur. 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Cəlil Məmmədov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı böyük şücaət və igidlik göstərmişdir. Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. 8 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə yaralanan komandiriniəazidən çıxararkənşəhid olmuşdur. 12 noyabr 2020-ci ildə Qonaqkənd qəsəbəsində dəfn edilmişdir.

Cəlil Məmmədov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan. - 2020. - 29 dekabr. -S.14.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan. - 2020. - 27 dekabr. - S.11.

SENTYABR

22

Elşən Ağasiyev - 25

(1999-2020)

Əsgər



Elşən Ağabala oğlu Ağasiyev 1999-cu il sentyabr ayının 22-də Xaçmaz rayonunda anadan olmuşdur. 2006-2016-cı illərdə Xaçmaz rayon B. Rəsulov adına tam orta məktəbindətəhsil almışdır. Məktəb illərindən sərbəst güləşlə də məşğul olmuşdur.Atası Ağabala Ağasiyev Birinci Qarabağ döyüşlərində dörd il könüllü döyüşmüşdür.

Elşən Ağasiyev 2020-ci il may ayının 25-də Xaçmaz RHK-dan həqiqi hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri Elşən Ağasiyev 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsi zamanı böyük şücaət və igidlik göstərmişdir. Elşən savaşın ilk günlərində Tərtər-Ağdərə istiqamətlərində gedən döyüşlərdə aya-ğından yaralansa da, ön cəbhəni tərk etməyərək döyüşməyə davam etmiş, Talış və Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşmüşdür. Oktyabr ayının 3-də Suqovuşan uğrunda gedən döyüşdə şəhid olmuşdur. Xaçmaz rayonunda dəfn olunmuşdur.

Elşən Ağasiyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","İgidliyə görə", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il// Azərbaycan. -2020. -16 dekabr. -S.7

23

Cahangir Qurbanov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Cahangir Məmməd oğlu Qurbanov 1994-cü il sentyabr ayının 23-də Goranboy rayonunun Borsunlu kəndində anadan olmuşdur. 2001-2011-ci illərdə Goranboy Rayon Borsunlu kənd T.Əliquluoğlu adına 1 saylı tam orta məktəbində təhsil almışdır. 2012-ci ildə müddətli hərbi xidmətə çağırılmış, Gədəbəy rayonunun "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2016-ci ildənAzərbaycan Silahlı Qüvvələrində kəşfiyyatçı kimi xidmətinidavam etdirmişdir.

C. Qurbanov 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanı Talış istiqamətində gedən döyüşlərdəiştirak etmiş, düşmənin iki postunun ələ keçirilməsindəböyük şücaət və igidlik göstərmişdir. Cahangir Qurbanov sentyabr ayının 27-də Talış döyüşləri zamanıdöyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Sentyabr ayının 29-da Goranboy rayon Borsunlu kənd qəbiristanlığının Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Cahangir Qurbanov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Laçının azad olunmasına görə"medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan. - 2020. - 30 dekabr. - S.33.

Qasımov, H. Şəhidin doğulduğu Borsunlu kəndinə gəldilər və ad gününü qeyd etdilər…/ Hamlet Qasımov // Xalq qəzeti. - 2022. - 25 sentyabr. - S.7.

23

Xalid Kamranlı - 25

(1999-2020) *Əsgər*



Xalid Kazım oğlu Kamranlı 1999-cu il sentyabr ayının 23-də İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olmuşdur. 2006-2016-cı illərdə Rəhim Alışov adına Bəhrəmtəpə tam orta məktəbində təhsil almışdır. 2016-cı ildəDövlət Turizm Agentliyinin tabeliyindəki Mingəçevir Turizm Kollecinə daxil olmuş, 2019-cu ilin may ayında kolleci bitirmişdir.2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Xalid Kamranlı Vətən müharibəsi zamanı böyük

şücaət və igidlik göstərərək Laçın, Suqovuşan, Talış qəsəbəsinin azadlığı uğrundagedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir.Xalid Kamranlı oktyabr ayının 15-də Talış istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkənşəhid olmuşdur. İmişli rayonunda dəfn olunmuşdur.

X. Kamranlı ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il: ["Suqovuşanın azad olunmasına görə" medalı ilə] //Azərbaycan. - 2021. - 6 noyabr. - S.3

https://az.wikipedia.org/wiki/Xalid_Kamranl%C4%B1

24

Elşən Piriyev - 35

(1989 - 2020) *MAHHXHQ kiçik çavuş*



Elşən Şəfalət oğlu Piriyev 1989-cu il sentyabr ayının 24-də Ağstafa rayonunun Kolxəlfəli kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə R. Əkbərov adına Kolxəlfəli kənd tam orta məktəbində təhsil almışdır. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2009-cu ildənmüddətdən artıqhərbi xidmət qulluqçusu olmuş, hərbi xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Elşən Piriyev 2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Qubadlı istiqamətlərində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Oktyabr ayının 2-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Ağstafa rayonunun Kolxəlfəli kəndində dəfn olunmuşdur.

Elşən Piriyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il//Azərbaycan.-2020. -30 dekabr. - S.25.

SENTYABR
25

Hacı Hacıyev - 25

(1999-2020)

Əsgər



Hacı Rafiq oğlu Hacıyev 1999-cu il sentyabr ayının 25-də Qax rayonunun Çüdüllü kəndində anadan olmuşdur. 2005-ci ildə Çüdüllü kənd umumi məktəbinin birinci sinfinə daxil olmuşdur. Doqquzuncu sinfi bitirdikdən sonra təhsilini Marsan kənd tam orta məktəbində davam etdirmişdir. H. Hacıyev 2017-2019-cu illərdəhəqiqi hərbi xidmətdə olmuşdur.

2020-ci il sentyabrın 29-daHacı könüllü olaraq cəbhəyə yollanmışdır. İşğal olunan rayonlarımızın, kəndlərimizin alınmasında yaxından iştirak etmişdir. Şuşanın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabr ayının 7-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Hacı Hacıyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevinmüfaviq Sərəncamlarına əsasən "Vətənuğrunda", "Şuşanınazadolunmasınagörə" və "Cəsur döyüşçü"medallarıilətəltifolunmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan. -2020. -30 dekabr. -S.20.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il //Azərbaycan. -2020. -16 dekabr. -S.10.

İnternetdə

https://az.wikipedia.org/wiki/Hac%C4%B1_Hac%C4%B1yev_(%C9%99sg%C9%99r)

27

Pərviz Ələsgərov - 40

(1984 - 2020)

MAHHXHQ çavuş



Pərviz Lətif oğlu Ələsgərov 1984-cü il sentyabr ayının 27-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanan P.Ələsgərov xidmət müddəti bitdikdən sonra müddətdən artıq hərbçi kimi əmək fəaliyyətinə başlamışdır.Azərbaycan Ordusunun çavuşu olan P.Ələsgərov 2017-ci ildə düşmənlə üz-üzə olan postda erməni snayperi tərəfindən açılan atəş nəticəsində ağır yaralanmış, 15 saat sonra yüksək dağlıq ərazidən endirilərək əməliyyat olunmuşdur.Ordudan təxris olunma təklif edilsə də imtina etmiş, hərbi xidmətini davam etdirmişdir.Tovuz istiqamətində gedən döyüşlərdə iştirak etmiş, Vətən müharibəsinin ilk günü döyüşlərə qatılmışdır

Azərbaycan Ordusunun kiçik çavuşu, kəşfiyyatçı P. Ələsgərov 2020-ci il sentyabrın 27-dəMurovdağ istiqamətində öz qrupu ilə düşmənin 3 postunu ələ keçirmiş, içində düşmən zabitləri olan 2 UAZ markalı maşını partladıb, 20-yə yaxın erməni döyüşçüsünü öldürmüşdür. Yaralanmasına baxmayaraq, döyüşməyi davam etdirmiş, oktyabrın 2-də Kəlbəcər rayonunun Lev kəndi istiqamətində gedən döyüşlərdə Ağdağ yüksəkliyində snayperləvurularaq şəhid olmuşdur. Nəşi 52 gün sonra tapılaraq ailəsinə təhvil verilmiş, noyabr ayının 24-də Daşkəsən rayonunun Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Pərviz Ələsgərov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" və " İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.- 2021.- 25 iyun.- S.78.

SENTYABR

28

Şəhriyar Ağamalıyev - 35

(1989 - 2020) *Leytenant*



Ədəbiyyat

Əşrəf, S.“Həmişə də deyirdi ki, oğlum olsa, pilot kimi yetişdirəcəm...” [şəhid Şəhriyar Əvəz oğlu Ağamalıyev haqqında] / Samirə Əşrəf//Hərbi And. -2022. - 27 sentyabr. -S.14-15.

https://unudulmazlar.az/az/infom/1888

Şəhriyar Əvəz oğlu Ağamalıyev 1989-cu il sentyabr ayının 28-də Hacıqabul rayonunda anadan olmuşdur. Rayondakı İ. Ələkbərov adına 1 saylı tam orta məktəbi bitirdikdən sonra Bakı İslam Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır. Bir müddət SOKAR-da işləmiş, 2017-ci ildə sənədlərini hərbi hissəyə vermiş və kurs keçərək leytenant rütbəsi ilə xidmətə başlamışdır. Goranboyda,Tərtərdə xidmət etmişdir.

Azərbaycan Ordusunun leytenantıŞəhriyar Ağamalıyev 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanıxüsusi təyinatlı həmlə qrupunun komandiri olmuş Ş. Ağamalıyev müharibənin elə ilk günlərində Murovdağ istiqamətində gedən döyüşlərdə şəhid əmisinin və digər şəhidlərimizin qisasını alaraq 10-dan çox düşmən əsgərini

məhv etmişdir. Oktyabr ayının 30-daKəlbəcər istiqamətində gedən döyüşlərdə

şəhid olmuşdur. Noyabr ayının 2-də-Hacıqabul şəhərində dəfn olunmuşdur.

Şəhriyar Ağamalıyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən “Vətən uğrunda” , 3-cü dərəcəli “Vətənə xidmətə görə”, “İgidliyə görə”və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

29

Elməddin Alxasov- 30

(1994-2020) *MAHHXHQ gizir*



Elməddin Rəsul oğlu Alxasov 1994-cü il sentyabr ayının 29-da Xaçmazın Qaradağ-Buduq kəndində anadan olmuşdur. Qaradağ-Buduq kənd ümumi orta məktəbinin IX sinfini bitirmiş, 2012-2014-cü illərdə müddətli həqiqi hərbi xidmətə çağırılmış, Murovdağ silsiləsində xidmət etmiş,sərrast atıcı kimi tanınmışdır.

E. Alxasov 2014-cü ildən MAHHXHQ kimi Beyləqan və Füzulidə xidmət etmişdir.

Azərbaycan Ordusunun giziriElməddin Alxasov 2020-ci il sentyabrın 27-də Döyüşlərə Cəbrayıl, Füzuli istiqamətindən başlayaraq, düşmənə qan uddurmuş, qəhrəman kəşfiyyatçı daha sonra Xocavənd və Suqovuşanın azad olunması uğrunda əməliyyatlarda iştirak etmişdir.

2020-ci iloktyabr ayının 1-dəSuqovuşanın azad olunması əməliyyatındadöyüş tapşırığını yerinə yetirən zaman şəhid olmuş,Xaçmazın Qaradağ-Buduq kəndində dəfn olunmuşdur.

Elməddin Alxasov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: [3-cü dərəcəli “Vətənə xidmətə görə”] Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il //Azərbaycan.- 2022.-6 noyabr.- S.2.

SENTYABR
29

Elşən Aslanov- 25

(1999 - 2020)

Əsgər



Elşən Alxas oğlu Aslanov 1999-cu il sentyabr ayının 29-da Bakı şəhəri Qaradağ rayonu Qızıldaş qəsəbəsində anadan olmuşdur. Orta təhsilini 2005-2016-cı illərdə Qızıldaş qəsəbəsində yerləşən Azər Namazov adına 180 saylı tam orta məktəbdə almışdır. 2018-ci ildə həqiqihərbi xidmətəçağırılıb Naxçıvan MR-də yerləşən N saylı hərbi hissədə xidmət etmişdir.

Vətən müharibəsi başlayan zamanqismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb sentyabr ayının 29-u ad günündədöyüşlərə qatılmışdır. Füzuli, Hadrud, Cəbrayıl, Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhramancasına döyüşərək, böyük şücaət və igidlik göstərmişdir. Oktyabr ayının 21-dəFüzuli bölgəsindəki Ərgünəş zirvəsi uğrunda gedən döyüşdə şəhid olmuşdur. Qaradağ rayonunun Qızıldaş qəsəbəsindəki Şəhidlər xiyabanındadəfn edilmişdir.

Elşən Aslanov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.36.

Aslanov Elşən Alxas oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.162-163.

29

Mir Həmid Qasımlı - 30

(1994 - 2020)

Əsgər



Mir Həmid Nazim oğlu Qasımlı 1994-cü il sentyabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur. 2012-ci ildə 240 nömrəli orta məktəbi bitirmişdir.Mir Həmid Qasımlı 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində həqiqihərbi xidmətdə olmuşdur.

Mir Həmid Qasımlı 2020-ci il sentyabr ayının 21-də könüllü olaraq təlimlərə qatılmış, sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi iştirakçısı olmuşdur. Cəbrayıl və Füzuli - Xocavənd rayonları istiqamətində gedəndöyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Mir Həmid Qasımlı 2020-ci il oktyabrın 21-də Füzuli uğrunda gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkənşəhid olmuşdur. Əvvəlcə Qaradağ rayonundakı Ümumşəhər qəbiristanlığında dəfn olunmuş, sonra məzarı II Şəhidlər xiyabanına köçürülmüşdür.

Mir Həmid Qasımlı ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan. - 2020. - 27 dekabr. - S.10.

https://memorial.az/az/qehremanlarimiz/1568

SENTYABR
29

Amil Səfərli - 30

(1994 - 2020)

Əsgər



Amil Nizami oğlu Səfərli 1994-cü il sentyabr ayının 29-da İmişli rayonunun Çahar kəndində anadan olmuşdur. Çahar kənd orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmış, xidmət müddəti bitdikdən sonra mülkü işlə məşğul olmuşdur.

Sentyabr ayının29-u doğum günündə çağırış vərəqəsi gələn zaman tərəddüd etmədən cəbhəyə yola düşmüşdür. İlk döyüş yolu Füzuli istiqamətindən başlamış, Cəbrayıl, Xocavənd və Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Amil Səfərli noyabr ayının 5-də Qubadlı döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. İmişli rayonunun Çahar kəndində dəfn olunmuşdur.

Amil Səfərli ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", " Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il// Azərbaycan.- 2020.- 16 dekabr.- S.12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan.-2020. -30 dekabr.- S.17.

https://memorial.az/az/qehremanlarimiz/1886

29

Orxan Şıxıyev - 35

(1989 - 2020)

Əsgər



Orxan Rafiq oğlu Şıxıyev 1989-cu il sentyabrın 29-da Daşkəsən rayonunun Dəstəfur kəndində anadan olmuşdur.Orta təhsilini Dəstəfur kəndində başa vurduqdan sonra Həqiqi hərbi xidmətdə olmuş, hərbi xidmət müddəti bitdikdən sonra mülkü işlə məşğul olmuşdur.

Vətən müharibəsi başlayan zamanqismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıbdöyüşlərə qatılmışdır.

Azərbaycan Ordusunun əsgəri Orxan ŞıxıyevFüzuli, Cəbrayıl, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Xocavənd rayonunun erməni işğalçılarından azad edilməsində fəal iştirak etmiş, böyük şücaət və igidlik göstərmişdir.Orxan Şıxıyev noyabr ayının 1-dəXocavəndrayonunun Maçkalaşen kəndinin azad olunması uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Daşkəsən rayonunda dəfn olunmuşdur.

Orxan Şıxıyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

ŞairəGülxar Əmrahqızı"Şəhid oldu ölmədi" şeirini O. Şıxıyevə ithaf etmişdir.


Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.-2021. -25 iyun. -S.31.

Sadıq Rəhimov – 110

(1914 - 1975)

Dövlət xadimi



Sadıq Hacıyarəli oğlu Rəhimov 1914-cü il sentyabrın 27-də Bakının Balaxanı kəndində neftçi ailəsində anadan olmuşdur. O, 1929-cu ildə Balaxanı kənd məktəbini bitirmiş, Bakı neft texnikumuna daxil olmuşdur.1931-ci ildə texnikumu müvəffəqiyyətlə bitirərək Bakı maşınqayırma zavodunda texnik vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

S.Rəhimov 1932-1936-cı illərdə Azərbaycan SSR Xalq Yüngül Sənaye Komissarlığının 2 saylı Bakı ayaqqabı fabrikində əvvəl texnik, sonra isə mexaniki emalatxananın müdiri olmuşdur.

S.Rəhimov fabrikdə işləməklə yanaşı, 1932-ci ildə Azərbaycan Sənaye İnstitutunun maşınqayırma fakültəsinə daxil olmuş, 1937-ci ildə İnstitutu bitirdikdən sonra 2 saylı Bakı ayaqqabı fabrikinəbaş mexanikin müavini vəzifəsinə təyin olunmuş, 1938-1939-cu illərdə baş mexanik, 1939-cu ildə isə həmin fabrikin direktoru vəzifələrində çalışmışdır.

S.Rəhimov 1939-cu ildə Moskva Ali Partiya məktəbinə oxumağa göndərilmiş, 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar cəbhəyə getmişdir. 1941-1942-ci illərdə S.Rəhimov sovet ordusunun Qərb cəbhəsində vuruşan 160-cı atıcı diviziyasında siyasi şöbənin rəisi olmuş, Moskva, Smolenski ətrafında gedən döyüşlərdə fəal iştirak etmiş, Vyazma şəhəri yaxınlığındakı vuruşlarda yaralanaraq, hərbi qulluqdan tərxis edilmişdir.

S.Rəhimov 1942-1946-cı illərdə Azərbaycan toxuculuq sənayesi nazirinin müavini,1946-1949-cu illərdə isə Azərbaycan SSR toxuculuq sənayesi naziri olmuş, 1949-cu ildə Toxuculuq Sənayesi Nazirliyi ilə Yüngül Sənaye Nazirliyi birləşmiş və S.Rəhimov Azərbaycan SSR yüngül sənaye naziri təyin edilmişdir.

1952-ci ilin aprelində Azərbaycan SSR Ali Soveti rəyasət heyətinin qərarı ilə S.Rəhimov Gəncə Vilayət İcraiyyə Komitəsinin sədri təyin olunmuş, 1953-cü ildə Gəncə vilayəti ləğv edildikdən sonra, Azərbaycan SSR kommunal təsərrüfatı və mülki tikinti naziri, sonra isə çox işlənən sənaye malları naziri olmuşdur.

S.Rəhimov 1954-1958-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinə, 1958-1961-ci illərdə Respublika Nazirlər Sovetinin Sənayedə Təhlükəsiz İş Aparılması Üzərində Nəzarət və Dağ-Mədən Nəzarəti Dövlət Komitəsinə sədrlik etmiş, 1961-1965-ci illərdə Bakı Baş Tikinti İdarəsinin rəisi olmuşdur.

1965-1975-ci illərdə Azərbaycan SSR Yüngül Sənaye Naziri olan S.Rəhimov 1975-ci il iyunun 11-də Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Dövlət xadimi dəfələrlə Azərbaycan KP MK və onun bürosunun, Azərbaycan SSR Ali Soveti və rəyasət heyətinin üzvü, Azərbaycan, SSRİ Ali sovetlərinin deputatı olmuş, keçirilmiş plenum, konfrans, qurultay və sessiyalarda nümayəndə kimi iştirak etmiş, "Lenin", "Qırmızı bayraq", "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenləri və medallarla təltif edilmişdir

2014-cü ildə100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamış, həyat və fəaliyyətindən bəhs edən "Şərəfli ömür" kitabı nəşr olunmuşdur.

Ədəbiyyat:

Şərəfli ömür: Sadıq Rəhimov-100: sənədli publisistika / [ön söz əvəzi A. Rəhimov; red. Q. Mehdiyev].-Bakı: [s.n.], 2014.- 292, [2] s.

Əliyeva, İ.Ləyaqətlə yaşadı, hörmətlə anılır...: Sadiq Rəhimov-100 /İradə Əliyeva //Azərbaycan.-2014.- 25 sentyabr.- S.6.

Həsənova, S.Tanınmış dövlət xadimi, bacarıqlı mütəxəssis, vətənpərvər insan [Sadıq Rəhimovun 100 illiyi münasibətilə] / Sevinc Həsənova //Xalq qəzeti.-2014.- 23 sentyabr.- S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Sad%C4%B1q_R%C9%99himov

http://www.anl.az/down/meqale/azerbaycan/2014/sentyabr/392894.htm

https://president.az/az/articles/view/12535/print

Güllü Əbilova - 100

(1924-1994)

Arxeoloq



Güllü Əbil qızı Əbilova 1924-cü il sentyabr ayının 16-da Bakıda neftçi ailəsində anadan olmuşdur.Müharibənin ağır illərində orta təhsilini uğurla başa çatdıran Güllü Əbilova 1943-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur.1948-ci ildə Güllü Əbilova ali təhsilini müvəffəqiyyətlə başa vuraraq universitetdə təzə yaradılan arxeologiya kafedrasında fəaliyyətə başlamış, ilk dəfə olaraq Azərbaycan dilində arxeologiya fənninə aid dərs proqramıhazırlamış və çap etdirmişdir. Eyni vaxtda, onun təşəbbüsü ilə universitetdə zəngin arxeoloji fond yaradılmışdır.

Güllü Əbilova 1950-ci ildə universitetin aspiranturasına daxil olmuş, Azərbaycan alimi Yevgeni Alekseyeviç Paxomovunrəhbərliyi altında "Cənubi Qafqazın meqalit abidələri" mövzusunu işləmiş, 1953-cü ildə dissertasiya işini uğurla başa çatdıraraq müdafiəyə təqdim etmişdir. Dissertasiya işində ilk dəfə olaraq meqalit abidələrin dəqiq təsnifatı verilmiş, Avrasiya məkanının oxşar abidələri ilə müqayisə aparılmışdır.1954-cü il yanvar ayının 14-də Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında dissertasiyanın rəsmi müdafiəsi keçirilmişdir. Alimlik dərəcəsi aldıqdan sonra Güllü Əbilova Azərbaycan Dövlət Universitetində arxeologiyanın əsasları və Azərbaycan arxeologiyası ixtisasları üzrə mühazirələrini davam etdirməklə yanaşı,Tarix Muzeyində arxeologiya şöbəsinə rəhbərliketmişdir.

Minillikləri əhatə edən təkrarolunmaz maddi mədəniyyət tariximiz, Azərbaycan arxeologiyası Güllü Əbilovanın əsas maraq dairəsini, elmi araşdırmalarının başlıca istiqamətini təşkil etmişdir. Onun dövrümüzün ən geniş miqyaslı qazıntıları sayılan Mingəçevir tədqiqatlarında iştirakı daha səmərəli işlərindəndir.Mingəçevirdə- Kürün hər iki sahilində mədəni irsimizin bütün tarixi mərhələlərinə aid 20 mindən artıq nadir maddi mədəniyyət nümunələrinin üzə çıxarılması, onların sistemləşdirilməsi və qeydiyyata alınmasında Güllü Əbilovanın əməyi böyükdür.

1960-cı illər Güllü xanımın həyatında xüsusi mərhələ olmuşdur. 1961-ci ildə Güllü xanım Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsinin müdir müavini, Respublika Siyasi Maarif evinin müdiri vəzifəsində çalışmışdır.1969-cu ildə Bakı Şəhər Xalq Deputatları Sovetinin,səkkizinci və doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, 2 iyul 1971-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin katibi seçilmiş, 1980-ci ilə qədər bu vəzifədə çalışmışdır.

G.Əbilova 1980-1989-cu illərdə Mədəniyyət Nazirinin müavini,1990-cı ildən ömrünün sonuna qədər Respublika Mədəniyyıət Fondu İdarə Heyətinin sədr müavini vəzifəsində çalışmışdır.

Görkəmli arxeoloq və siyasi xadim-Gülü Əbilova 17 iyul 1994-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Təbliğatçıların nəzəri və metodik hazırlığı / Güllü Əbilova; [red. X. Əfəndiyev].- Bakı: Azərnəşr, 1972.- 22, [1] s.

Güllü xanıma məhəbbətlə / red. hey.: K. Abdulla, R. Kaşanlı, A. Cəlilov [və b.]; Azərb. Mədəniyyət Fondu.- Bakı: Azərnəşr, 1997.-100 s.

İsmayılzadə, Q. Şərəfli ömür yolu: Güllü Əbilova-90 / Qüdrət İsmayılzadə // Xalq qəzeti.-2014.- 18 sentyabr.- S.6.

"Güllü xanıma məhəbbətlə"...: [Azərbaycan Mədəniyyət Fondunda keçirilənxatirə günü və eyni adlı kitabın təqdimat mərasimi haqqında] // Azərbaycan.-1997.- 24 sentyabr.

İnternetdə:

https://az.wikipedia.org/wiki/G%C3%BCll%C3%BC_%C6%8Fbilova

https://web.archive.org/web/20150418170909/http://xalqqazeti.com/az/news/social/48528

Hacıfəxrəddin Səfərli– 75

(1949) *Tarixçi*



Ədəbiyyat:

Naxçıvanın türk-islam mədəniyyəti abidələri: [monoqrafiya] / Hacıfəxrəddin Səfərli; elmi red. İ. Hacıyev; AMEA, Naxçıvan Bölməsi.- Naxçıvan: [Əcəmi], 2017.- 215, [1] s.

Naxçıvan Muxtar Respublikasınınsosial-iqtisadi və mədəni inkişafınahəsr olunmuşmonoqrafiya: [professor İsmayıl Hacıyevin eyniadlı monoqrafiyası haqqında] / Hacıfəxrəddin Səfərli // İki sahil.- 2020.- 3 sentyabr.- S.19.

"Əlincəçay mahalının epiqrafiq əbidələri" monoqrafiyasınıntəqdimatı olub: [Hacıfəxrəddin Səfərlinin eyniadlı monoqrafiyası haqqında]// İki sahil.- 2020.- 12 sentyabr.-S.20.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Hac%C4%B1f%C9%99xr%C9%99ddin_S%C9%99f%C9%99rli

https://mail.muallim.edu.az/news.php?id=7935&lang=

https://president.az/az/articles/view/16666/print

Hacıfəxrəddin Yəhya oğlu Səfərli 1949-cu il sentyabr ayının 29-da Naxçıvan MSSR, Naxçıvan (indiki Babək) rayonunun Cəhri kəndində anadan olmuşdur. 1967-1971-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının tarix fakültəsində təhsil almışdır.

1971-ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kənd orta məktəbində tarix müəllimi kimi fəaliyyətə başlamış, 1973-1974-cü illərdə hərbi xidmətdə olmuş, hərbi xidmətini başa vurduqdan sonra əmək fəaliyyətini davam etdirmişdir. 1979-cu ilin noyabrında Azərbaycan SSR Elmlər Akademiyası Naxçıvan elm mərkəzində kiçik elmi işçi kimi fəaliyyətə başlamış, böyük elmi işçi və şöbə müdiri kimi çalışmışdır. 1987-ci ildə "Naxçıvan MSSR-in ərəb-fars dilli kitabələri tarix mədəniyyət abidələri kimi (XVI-XIX əsrlər)" mövzusunda fəlsəfə doktoru elmi adı almışdır.1995-ci ildə Naxçıvan Dövlət Universitetinin ümumi tarix kafedrasındamüəllim kimi işə başlamış, 1996-cı ildənUniversitetin Azərbaycan tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 2004-cü ildə "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər" mövzusunda elmi iş müdafiə edərək elmlər doktoruolmuşdur.Həmçinin, tarix-filologiya fakültəsində elmi işlər üzrə dekan müavini, 2002-2007-ci illərdə NDU Həmkarlar İttifaqı Komitəsinin sədri olmuşdur.

2007-ci ildən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru vəzifəsində çalışır. 2010-cu ildə professor diplomu almışdır. 2014-cü ildən AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvüdür.

H. Səfərli Azərbaycan tarixinin müxtəlif problemlərinə həsr olunmuş 300-ə yaxın elmi əsərin, o cümlədən 30-a yaxın monoqrafiya, kitab, dərslik, ümumiləşdirici əsər və s. müəllifidir. 2 cildlik Naxçıvan ensiklopediyasının, Naxçıvan abidələri ensiklopediyasının (Azərbaycan və ingilis dillərində), Naxçıvan tarixi atlasının və 3 cildlik Naxçıvan tarixinin əsas müəlliflərindən biridir.

2010-cu il və 2015-ci ildə 23 saylı Cəhri seçki dairəsindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmiş, Ali Məclisin "Hüquq siyasəti və dövlət quruculuğu" məsələləri komitəsinin sədri olmuşdur. 2017-ci ildən AMEA-nın müxbir üzvüdür.

H. Səfərli Azərbaycan Respublikasının "Əməkdar Elm Xadimi" elmi adını almış, Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə buraxılmış Xatirə qızıl medalı ilə təltif olunmuş, AMEA Rəyasət Heyətinin fəxri fərmanına layiq görülmüşdür.

Cəfər Cəfərov - 110

(1914-1973)

Teatrşünas



Cəfər Haşım oğlu Cəfərov 1914-cü il sentyabr ayının 7-də Bakıda anadan olmuşdur. İlk təhsilini burada almış,1937-ci ildə Moskvada A.Bubnov adına Pedaqoji İnstitutu bitirmişdir.1937-1938-ci illərdə Akademik Milli Dram Teatrında ədəbi hissə müdiri, 1938-1939-cu illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Ssenari şöbəsinin müdiri, 1939-cu ildə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, mədəniyyət nazirinin müavini işləmişdir.

O, 1951-1953-cü illərdə Azərbaycan KP MK-nın şöbə müdiri, 1959-1973-cü illərdə EA-nın Memarlıq və İncəsənət İnstitutunun Teatr və kino şöbəsinin müdiri, 1967-1971-ci illərdə Azərbaycan KP MK ideoloji katibi və s. kimi vəzifələrdə çalışmışdır. Hökumətdə müxtəlif məsul vəzifələr tutan Cəfər Cəfərov 1959-cu ildən ömrünün sonunadək Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun Teatr və kino şöbəsinin müdiri olmuşdur. Burada bir sıra teatrşünas alimlərin yetişdirilməsinə, kino və teatr sənətinə aid tədqiqatlar aparılmasına rəhbərlik etmişdir.

C.Cəfərov 1961-ci ildə sənətşünaslıq doktoru elmi dərəcəsi almış, 1962-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. 1963-cü ildə professor elmi adını almışdır.

Klassik və müasir Azərbaycan və dünya ədəbiyyatının, dramaturgiya və teatr tənqidçisi, milli teatr tarixinin tədqiqatçısı olmuş C. Cəfərov, H. Ərəblinskinin, İ.Hidayətzadənin, H. Rzayevanın, M. Məmmədovun, T. Kazımovun, A. Şərifzadənin, R. Təhmasibin yaradıcılıqları barədə dəyərli elmi məqalələr və monoqrafiyalar yazmış, Akademik Milli Dram Teatrının tarixini fundamental şəkildə araşdırmış və həmin mövzuda bir neçə kitab çap etdirmişdir. "M.F.Axundovun dramaturgiyası" (1953), "C. Cabbarlı" (1960),"M. F. Axundov" (1962), "V. Şekspir" (1964), "Azərbaycanda estetik fikir tarixindən" (M. Qasımovla birgə; 1964) və s. kitabları çapdan çıxmışdır. Milli teatr tarixinə, müasir teatr proseslərinə və məsələlərinə həsr olunmuş "Azərbaycan dram teatrı tarixi" (1953, 1959, 1974), "Azərbaycan sovet dram teatrı" (1968) kimi fundamental tədqiqatları vardır.

Azərbaycan və bir sıra rus teatrlarının ən maraqlı tamaşalarına resenziyalar yazmış alimin "Rejissor sənəti", iki cilddə Azərbaycan və rus dillərində "Seçilmiş əsərləri", "Azərbaycan Dram Teatrı" kitabı dəyərli tədqiqat nümunələridir. Onun "Cavid və teatr", "M.F.Axundovun dramaturgiyası", "M.F.Axundov və teatr", "V.Şekspirin dramaturgiyası" elmi əsərləri milli teatrşünaslıq elmimizin yaradıcılıq örnəkləridir.

Alim 1972-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Cəfər Cəfərov 1973-cü il sentyabr ayının 19-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Əsərləri: iki cilddə / C. Cəfərov; burax.məs. A. Cəfərov; red.Ə. Əsədzadə; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Renessans-A, 2016.- C.1.- 455, [1] s.

M. F. Axundov və teatr / C. Cəfərov; red.Ə.Əsədzadə; buraxıl. məsul A.Cəfərov; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Renessans-A, 2016.- 128, [2] s.

Anar. Zamana uymayan müəllim, yaxud Cəfər əmi... / Anar // Qobustan.- 2021.- № 3.- S. 4-10.

İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3315


https://teatro.az/az/post/cefer-ceferov-teatrsunas-edebiyyatsunas-ve-incesenet-xadimi-572

http://www.anl.az/down/meqale/medeniyyet/2023/mart/840919.htm

İlham Rəhimli – 75

(1949)

Teatrşünas



İlham Əziz oğlu Rəhimli 1949-cu il sentyabr ayının 8-də Yevlax rayonunun Malbinəsi kəndində anadan olmuşdur.1966-cı ildə Yevlaxdakı 1 saylı orta məktəbi bitirmiş, bir il oradakı 4 saylı avtobazada çilingər işləmiş, 1967-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) teatrşünaslıq fakültəsinə daxil olmuşdur. 1972-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. İnstitutun son kursunda oxuyarkən "Kommunist" qəzeti redaksiyasında təcrübə keçdiyi zaman bir neçə məqaləsi çap olunmuş və redaksiyanın yazılı məktub-tələbnaməsinə əsasən təyinatla həmin qəzetdə işə göndərilmişdir.

İ.Rəhimli hərbi xidmətdən sonra (may 1973 - may 1974) yenə redaksiyaya qayıdaraq müxtəlif illərdə ədəbi işçi, baş müxbir, felyeton və publisistika, mədəniyyət şöbələrinin müdiri işləmişdir.

Onun teatra aid ilk yazısı 1969-cu ildə "Azərbaycan gəncləri" qəzetində çap olunmuşdur. İlham Rəhimli səhnə sənətinə, kinoya, təsviri incəsənətə, dramaturgiyaya, aktyor və rejissor sənətinə, mədəniyyətin müxtəlif problemlərinə aid 100-ə qədər kitabın və 1000-ə yaxın məqalənin müəllifidir. İlham Rəhimli 5 cildlik "Azərbaycan teatr tarixi" (2017, 2018), 3 cildlik "Səhnə fədailəri" (2018), 3 cildlik "Azərbaycan teatr ensiklopediyası" (2016, 2017), "Gəncə teatrı" (2017), 2 cildlik "Akademik Milli Dram Teatrı" (2002), "Abbasmirzə Şərifzadə" (2017), "Ağasadıq Gəraybəyli"(2017), "Mustafa Mərdanov"(2017), "Kazım Ziya" (2017), "İbrahim Həmzəyev"(2017), "Həsənağa Turabov"(2017), "Məmmədrza Şeyxzamanov"(2017), "Mehdi Məmmədov"(2017), "Mərziyə Davudova"(2017), "Nəsibə Zeynalova"(2017), "Fatma Qədri"(2017), "Barat Şəkinskaya"(2017), "Rza Təhmasib"(2017), "Hökümə Qurbanova"(2017) və "Habil Əliyev" (2017) və başqa kitabların müəllifidir.

Teatrşünas alim 1975-ci ildən ADMİU-nun Teatr tarixi kafedrasında dərs deyir.1991-1993-cü illərdə "Azərbaycan" qəzetinin baş redaktoru, Prezident Aparatının Humanitar siyasət şöbəsinin məsul işçisi olmuşdur. 1993-2003-cü illərdə Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri kimi fəaliyyət göstərmiş, 2007-ci ilin aprel ayından Azərbaycan Televiziya və Radio Qapalı Səhmdar Cəmiyyətinin "Maarifçilik" redaksiyasında baş redaktor vəzifəsində çalışmışdır. 2011-ci il aprel ayının 14-dən "Mədəniyyət" televiziya kanalının direktor müavinidir.

1996-cı ildə sənətşünaslıq doktoru elmi dərəcəsi, 1997-ci ildə professor elmi adını almışdır. Azərbaycan Televiziyasında "Ekran. Kino. Yeniliklər", "Teatr", "Yeni tamaşalar", "Aktyorlar və rollar", "Sərbəst söhbət" verilişlərinin müəllifidir. Azərbaycan Jurnalistlər İttifaqının, Rəssamlar İttifaqının, Azərbaycan Teatr Xadimləri İttifaqının, Yazıçılar Birliyinin üzvüdür. Professor İlham Rəhimli milli teatrımızın tədqiqatçısı kimi Dehli, Praqa, Moskva, Tehran, Dəməşq, Kiyev, İstanbul, Berlin, Brüssel, Paris, Roma və digər şəhərlərdə Beynəlxalq teatr simpoziumlarında elmi məruzələrlə çıxış etmişdir.

İlham Rəhimli 1977-ci il may ayının 5-də Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm", 1992-ci il mart ayının 10-da Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş", 1993-cü ildə "Humay" mükafatına layiq görülmüş, 1989-cu il sentyabr ayının 1-də "Əməkdar incəsənət xadimi" fəxri adı almışdır.

10 may 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş,10 mart 2021-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Sənətkar" medalı ilə təltif olunmuşdur.

Milli Kitabxanada teatrşünas-tənqidçisi, jurnalist, Əməkdar incəsənət xadiminin yubileyi ilə əlaqədar olaraq "İlham Rəhimli-70" adlı kitab sərgisi hazırlanmışdır.

Ədəbiyyat:

7 sənət aşiqi: [monoqrafiya] / İ. Rəhimli; red. E. Nuri; Azərb. Teatr Xadimləri İttifaqı.- Bakı:[Letterpress], 2020.- 492, [3] s.

Alın yazısına inam:[Yasin Qarayev] / İ. Rəhimli; red. C. Rəhimli; tərtibat rəssamı İ. Əzizoğlu; [dizayn A. Duxanina].-Bakı: Letterpress, 2023.- 185, [2] s.

Eldaroğlu, E. Yevlaxdan başlanan ömür yolu... / Elman Eldaroğlu // Xalq Cəbhəsi.- 2022.- 8 sentyabr.-S.14.

İntenetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0lham_R%C9%99himli

http://binegedi-ih.gov.az/az/page/117.html

https://www.azerbaijan-news.az/view-173536/milli-kitabxanada-34-ilham-rehimli-70-34-adli-kitab-sergisi-acilib

İsrafil İsrafilov - 75

(1949)

Teatrşünas



İsrafil Ramazan oğlu İsrafilov 1949-cu il sentyabr ayının 10-da Bakı şəhərində anadan olmuşdur. 1956-1966-cı illərdə Bakıda 31 saylı orta məktəbdə, 1967-1971-ci illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) ali təhsil almışdır. 1971-1972-ci illərdə Ordu sıralarında xidmət etmişdir.

1973-1975-ci illərdə Bakı şəhəri 1 May mədəniyyət sarayında bədii rəhbər, 1975-1978-ci illərdə Akademik Milli Dram Teatrında truppa müdiri vəzifəsində çalışmışdır. Eyni zamanda rejissor fəaliyyəti ilə də məşğul olmuş, görkəmli rejissor T.Kazımovla bir sıra tamaşaların hazırlanmasında, o cümlədən, V.Şekspirin "Fırtına", M.S.Ordubadinin "Qılınc və Qələm", Anarın "Şəhərin yay günləri", M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah", A.Safronovun "Daşqın" əsərlərinin səhnə təcəssümündə rejissor kimi işləmişdir.

ADMİU-da Tədris teatrının direktoru (1978-1985), Azərbaycan KP MK-nın mədəniyyət şöbəsində təlimatçı (1986-1989), ADMİU-da elmi işlər üzrə prorektor (1989-1991), AR Prezidentinin Aparatında böyük məsləhətçi (1991 avqust-sentyabr), Azərbaycan Ali Sovetinin XII çağırış seçkilərində deputat (1991-1995), AR Abşeron rayonu İcra Hakimiyyətinin başçısı (1991-1992), AR EA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyinin direktoru (1993-2003), Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru (2003-2010), Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru (2010-2016) olmuş, Türkdilli Xalqların Dövlət Teatrları Rəhbərləri Şurasının sədri, eləcə də dissertasiya müdafiəsi şurasının, Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının sədr müavini, Teatr Xadimləri İttifaqının və "Simurq" Azərbaycan Mədəniyyəti Assosiasıyasının idarə heyətlərinin, Azərbaycan Yazıçılar Birliyinin, Beynəlxalq Muzeylər Şurasının, həmçinin Beynəlxalq Teatr Tənqidçiləri Assosiasiyasının üzvüdür.

İ.İsrafilov 1985-ci ildə filologiya üzrə fəlsəfə doktoru, 2004-cü ildə sənətşünaslıq üzrə elmlər doktoru elmi dərəcələrini, professor elmi adını almış, 300-dən artıq elmi əsərləri ölkəmizdə və xarici mətbuatda dərc olunmuşdur. Müxtəlif ölkələrdə keçirilən beynəlxalq simpozium və konfranslarda respublikamızın elmi ictimaiyyətini təmsil etmişdir.

Teatr sənətinin elmi-nəzəri məsələlərinə, milli və dünya teatr prosesinə həsr edilən "Sən nə üçün yaşayırsan?" (rus dilində), "Həyatın səhnəsi, səhnənin həyatı", "Düşündüklərim", "Zaman. Rejissor. Poetika", "Ədil İsgəndərovun teatrı", "Mehdi Məmmədovun rejissor sənəti", "Azərbaycan milli rejissor sənətinin poetikası", "Tofiq Kazımovun rejissor dərsləri", "Gələcəyin adamı", "...və Teatr", "Teatr haqqında söhbətlər" adlı monoqrafiyaların müəllifidir. Həmçinin, ADMİU-dakı elmi-pedaqoji fəaliyyəti dövründə elmi rəhbərliyi ilə onlarla gənc alim yetişdirilmiş, tədris üçün müvafiq proqramlar, metodik vəsaitlər və dərsliklər hazırlanmışdır.

2012-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, "Qızıl qələm", "Qızıl dərviş", "Humay", "Qızıl Arzu", "Simurq" mükafatları ilə, müxtəlif beynəlxalq diplomlarla təltif edilmişdir. 2015-ci ildə "Avropa Nəşr Mətbuat Evi"-nin təsis etdiyi "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalına və elə həmin ildə TÜRKSOY-un "Haldun Taner" mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Teatr haqqında söhbətlər:[məqalələr] / İsrafil İsrafilov.- Bakı: [Xəzər], 2020.- 232 s.

Azərbaycan rejissor sənəti tarixindən səhifələr / İsrafil İsrafilov; elmi red.: B. Nəbiyev, M. Əlizadə.- Bakı: [Zərdabi Nəşr], 2022.- 367, [1] s.

Bir dahateatrtəhsilimiz haqqında/İsrafil İsrafilov//525-ci qəzet.- 2020.- 4 mart.- S.19.


İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0srafil_%C4%B0srafilov_(teatr%C5%9F%C3%BCnas)

https://44festival.az/az/speakers/6

Rəna İbrahimbəyova – 80

(1944) *Alim*



Rəna Fuad qızı İbrahimbəyova 1944-cü il sentyabr ayının 15-də Bakı şəhərində ailəsində anadan olmuşdur.

1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet) inşaat fakültəsinin memarlıq şöbəsini bitirmişdir. 1974-cü ildə Kirov adına Azərbaycan Dövlət Universitetinin (ADU) psixologiya üzrə aspiranturasına daxil olmuşdur. Aspiranturada memarlığın psixologiyası üzrə tədqiqatlar aparmış və dissertasiyasını vaxtından əvvəl təqdim etməsi ilə əlaqədar ADU-nun pedaqogika və psixologiya kafedrasında assistent vəzifəsinə təyin olunmuşdur. 1977-ci ildə Moskvada, SSRİ Elmlər Akademiyasının Psixologiya İnstitutunda namizədlik dissertasiyasını müdafiə etmiş, 1983-cü ildə işlədiyi kafedrada dosent vəzifəsinə seçilmişdir.

Rəna İbrahimbəyova 1991-ci ilə qədər memarlar üçün hazırladığı "Memarlıq psixologiyası" kursunu İnşaat İnstitutunda tədris etmiş, 90-cı illərdə istedadlı uşaqların axtarışı və təhsilinin təşkil edilməsi işinə dəvət olunmuşdur. O, respublikada ilk təhsil qeyri-hökumət təşkilatı olan "İstedad" Assosiasiyasının sədr müavini seçilmiş və Bakı Dövlət Universitetində "Yaradıcı istedad" Mərkəzinin direktoru təyin olunmuşdur. Qısa müddətdə Mərkəzistedadlı uşaqların erkən yaşlarından aşkar edilməsinin və ən müasir pedaqoji texnologiyalar üzərində qurulmuş fərdi tədris prosesinin vahid sistemini formalaşdırmışdır.

1993-cü ildə R.İbrahimbəyova Mərkəzin direktoru vəzifəsini ictimai əsaslarla icra edərək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdir müavini vəzifəsinə təyin olunmuş, 1997-ci ildə BMT İnkişaf Proqramının və Azərbaycan Hökumətinin üç il davam edən "Azərbaycanda gender inkişafda" layihəsinin milli koordinatoru olmuş, Oksford Universitetində (Böyük Britaniya) xüsusi gender treninq kursları keçmişdir. 2000-ci ildə R.İbrahimbəyova YUNİFEM-in 11 Ölkədə həyata keçirilən "Zorakılıqsız həyat - bizim hüququmuzdur" regional layihəsinin Azərbaycan üzrə koordinatoru təyin edilmişdir.

R.İbrahimbəyova"Azərbaycanda gender münasibətləri: tendensiyalar və problemlər" BMT İnkişaf Proqramı tərəfindən hazırlanmış Azərbaycanda İnsan İnkişafı haqqında Hesabat-2007 (MDB ölkələri arasında ilk dəfə) üzrə Milli məsləhətçi, 40-dan artıq beynəlxalq konfrans, seminar və forumun iştirakçısı olmuşdur. Onun 100-dən artıq elmi məqaləsi, kitabı, broşurası çap olunmuş, rəhbərliyi ilə müvafiq ixtisaslar üzrə tədris proqramları hazırlanaraqnəşr olunmuşdur.

Rəna İbrahimbəyova Azərbaycan Memarlar İttifaqının, Azərbaycan Gerontoloq Cəmiyyətinin sədr müavini və Müasir Azərbaycan Psixoloqlar İctimai Birliyinin üzvüdür.

Rəna xanım 2014-cü ildə"Azərbaycanın Əməkdar Müəllimi" fəxri adına, Memarlar İttifaqının Fəxri Fərmanına layiq görülmüş, "Kəlayağı konsepsiyası"nınmüəlliflərindən olaraq 2015-ci ildə Müəllif hüquqları üzrə Dövlət Agentliyindən müəllif hüququ haqqında şəhadətnamə almışdır.

Ədəbiyyat:

Alın yazısına inam: [Yasin Qarayev] / İlham Rəhimli; red. C. Rəhimli; tərtibat rəssamı İ.Əzizoğlu; [dizayn A. Duxanina].- Bakı: Letterpress, 2023.- 185, [2] s.

Milli səhnəmizin yeni nəsil auditoriyası: Gənc Tamaşaçılar Teatrı - 95 /İlham Rəhimli // Xalq qəzeti.- 2023.- 2 sentyabr.- S.8.

Gender büdcəsi / Rəna İbrahimbəyova, O. Haqverdiyev; Ön söz. H. Hüseynova.- Bakı: [Səda], 2007.- 120 s.

Kəlağayı/Rəna İbrahimbəyova, C. C. Tariverdiyev, Z. C. Müller Tariverdi; elmi red. T. Əfəndiyev; dizayn P. Bağırov; foto: müəllif. arxivindən; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: [s. n.], 2016.- 157, [3] s.

Vəzir, M. Ölkəmizin gender banisi // Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar / M.Vəzir.-Bakı, 2008.-S.87.

İnternetdə:

http://socialogy.bsu.edu.az/az/content/rna_brahimbyova__dos_kafedra_mdiri__219

Nadir Məmmədli - 65

(1959)

Dilçi alim



Nadir Baloğlan oğlu Məmmədli 1959-cu il sentyabr ayının 19-da Bakının Bülbülə qəsəbəsində anadan olmuşdur. 1977-1979-cu illərdə Moskva şəhərində hərbi xidmətdə olmuşdur.

1985-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsini, 1988-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu nəzdindəki xarici dillər iki illik Fars dili şöbəsini əla qiymətlərlə bitirmişdir.

Nadir Məmmədlinin ilk mətbu yazıları 1977-ci ildən Moskva şəhərinin hərbi qəzetlərində dərc olunmuşdur.

1989-1992-ci illərdə Moskvada SSRİ Elmlər Akademiyasının Dilçilik İnstitutunda və İran İslam Respublikasının Təbriz şəhərindəki Dil və Ədəbiyyat Universitetində təcrübə keçmişdir. 1992-1994-cü illərdə Moskva və Moskva ətrafı şəhərlərin arxivlərində çalışmışdır.

1985-1992-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunda işləmiş, 1992-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasında çalışır.

1989-cu ildə "Müasir Azərbaycan dilində feli sinonimlər" mövzusunda namizədlik, 2000-ci ildə isə "Müasir Azərbaycan dilində alınma terminlər (1920-1991-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, Filologiya elmləri doktoru, 1995-ci ildə dosent, 2007-ci ildə professor elmi adını almışdır.

2021-ci ildən AMEA Dilçilik İnstitutunun baş direktoru vəzifəsində çalışır. "Filologiya məsələləri" elmi jurnalının redaksiya heyətinin üzvü və rəyçisidir.13 kitab, 5 monoqrafiya, 3 praktik lüğət, "Alınma terminlərin leksik və semantik xüsusiyyətləri" (Bakı, "Nurlan", 1995) adlı metodik göstəriş, 100-dən artıq elmi, 200-ə qədər publisistik məqalənin müəllifidir. Tehranda nəşr olunan "Məfaxeri Azərbaycan: şaeran, nevisendeqanü xoşnevisan" ("Azərbaycanın fəxrləri: şairləri, yazıçıları və xəttatları") adlı Ensiklopediyada (1997) XIX əsrdə Moskva Şərq Dilləri İnstitutunda çalışmış azərbaycanlı alimlər haqqında 2 məqaləsi yer almışdır.

Dünyanın ən nüfuzlu Beynəlxalq konfranslarında çıxış edən N.Məmmədlinin əsərləri Təbriz (İran), Trabzon, İstanbul (Türkiyə), Oş, Bişkek, (Qırğızıstan), Perm, Ufa, Mahaçqala (Rusiya), Quvahati (Hindistan), Okinava (Yaponiya), Estern (Şri-Lanka) başqa şəhərlərdə nəşr olunmuşdur.

1995-ci ildə Respublika Təhsil Nazirliyinin humanitar sahə üzrə təsis etdiyi "Gənc alim müsabiqəsi"nin və 2000-ci ildə "Alınma terminlər" monoqrafiyasına görə "Ən yaxşı elmi iş" müsabiqəsinin qalibidir. 1996-cı ildə İran İslam Respublikasının Ərdəbil şəhərində çəkilən "Şeyx Səfi" sənədli filminin ssenari müəllifi kimi pul mükafatına layiq görülmüş, 2002-ci ildə "Rəsul Rza" mükafatı ilə təltif olunmuş, Azərbaycan Yazıçılar Birliyinin "Bəxtiyar Vahabzadə" mükafatı laureatıdır.

Ədəbiyyat:

Professor Nadir Məmmədli: "Ölkədə yüksək çap texnologiyaları olan nəşriyyatlar var" [professor Nadir Məmmədli ilə müsahibə] /Nadir Məmmədli; müsahibəni apardı: M.Əyyub // Palitra.-2018.-13 mart.- S.7.

Müstəqillik illərində Azərbaycan dilinə Heydər Əliyev qayğısı:1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür / Nadir Məmmədli //Respublika.-2022.- 29 iyul.- S.4.

Nadir Baloğlan oğlu Məmmədli:Biblioqrafik göstərici / AMEA, Nəsimi ad. Dilçilik İn-tu; [tərt. və ixtisas red. S. Zülfüqarova; layihə rəhbəri N. Məmmədli; ön söz. müəl. N. Cəfərov].- Bakı: Elm və təhsil, 2023.- 331, [1] s.

Cəfərov, N. Azərbaycan elmində professor Nadir Məmmədli imzası / Nizami Cəfərov // Kredo.- 2023.-21 iyun.- S.9.

İnternetdə:

https://tehsil.biz/news/az/25735/Tannm-nair-A-MEA-nn-Dililik-nstitutunun-direktoru-tyin-olunub

https://science.gov.az/az/institutes/32

Nizami Cəfərov – 65

(1959)

Akademik



Ədəbiyyat:

Ümummilli Lider: Azərbaycandan Türk dünyasına: Heydər Əliyev -100 / Nizami Cəfərov; red. D. Osmanlı; [ön söz R. Ulusel; dizayner K. İbrahimov]; Bakı Dövlət Un-ti, Azərbaycanda Atatürk Mərkəzi.- Bakı: Elm və təhsil, 2023.- 300, [4] s.

Ümumi dilçilik:Dərslik / Nizami Cəfərov; Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Bakı Dövlət Un-ti.- 2-ci nəşr, təkmilləşdirilmiş.-Bakı: Təhsil, 2023.- 213, [3] s.

Cəfərov, Ş. "İdeala doğru: düşüncədən yazıya":"Tənqidçinin Azərbaycançılıq idealı" kitabına akademik Nizami Cəfərovun "ön söz"ü haqqında düşüncələr / Şəddat Cəfərov // Kredo.-2023.-30 mart.-S.10-11.

Ulu Öndərin xatirəsinə ehtiramla: [Nizami Cəfərovun "Ümummilli Lider: Azərbaycandan türk dünyasına"kitabı haqqında] // Ədəbiyyat qəzeti.- 2023.- 15 aprel.- S.9.

İnternetdə:

https://meclis.info/deputy/nizami-cfrov/

Nizami Qulu oğlu Cəfərov 1959-cu il sentyabr ayının 21-də Ağstafa rayonunun Zəlimxan kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1977-1982-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almış və universiteti fərqlənmə diplomu ilə bitirmişdir.1982-1985-ci illərdə Azərbaycan dilçiliyi ixtisası üzrə "Sadə cümlənin struktur semantik təkamülü" mövzusunda görkəmli mütəxəssis professor Tofiq Hacıyevin rəhbərliyi ilə elmi-tədqiqat işi apararaq 1985-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almış və həmin ildən Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi olmuşdur.

Nizami Cəfərov dövri mətbuatda müasir Azərbaycan dilçiliyinin və nəzəri linqvistikanın ayrı-ayrı problemlərinə həsr etdiyi məqalələri ilə çıxış etmiş, 1987-1991-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1991-ci ildə "XVIII əsr Azərbaycan türk ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. 1993-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Dilçi alim "Füzulidən Vaqifə qədər" (1991), "Eposdan kitaba" (1999), "Azərbaycanşünaslığa giriş" (2001), "Qədim türk ədəbiyyatı" (2004), "Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları" (2016), "Türkologiyanın müasir problemləri" (2017), "Molla Pənah Vaqif" (2017),"Ədəbiyyat söhbətləri" (2018), "Mir Cəlalın milli idealları" (2018), "Ümummilli Lider: Azərbaycandan Türk dünyasına: Heydər Əliyev -100" (2023), "Ümumi dilçilik" (2023) adlı kitabların, 500-dən çox elmi əsərin müəllifi olmaqla orta məktəblər üçün çap olunmuş Azərbaycan dili dərsliklərinin yazılışında və orta məktəb proqramlarının tərtibində yaradıcı alim kimi özünü göstərmişdir. N.Cəfərov 30-dan çox fəlsəfə doktoru, 3 elmlər doktoru yetişdirmiş, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilmişdir.

N.Cəfərov BDU-nun Türkologiya kafedrasının baş müəllimi (1994-2001), professoru (1994), Ümumi dilçilik kafedrasının müdiri (2000), fakültənin dekanı (1994-2001), Azərbaycan Ali Attestasiya Komissiyasının Dilçilik üzrə doktorluq müdafiəsi Şurasının sədri (2001-2003), 2001-ci ildən Azərbaycanda Atatürk Mərkəzinin rəhbəridir.

Yeni Azərbaycan Partiyasının üzvü, Azərbaycan Respublikası (II (2000-ci il), III (2005-ci il), IV (2010-cu il) , V (2015-ci il) və VI (2020-ci il) çağırış Milli Məclisinin deputatıdır. 2005-2015-ci illərdə Parlamentin Mədəniyyət Komitəsinin sədri olmuşdur. Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Qazaxıstan, Azərbaycan Qırğızıstan, Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

N.Cəfərov 2000-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, "Bilik" Maarifçilik Cəmiyyətinin qərarı ilə "Yusif Məmmədəliyev adına medal"-la təltif olunmuşdur. 20 sentyabr 2019-cu ildə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və elmin inkişafında xidmətlərinə görə ölkə başçısı tərəfindən "Şöhrət" ordeni ilə təltif edilmiş, Türk Dil qurumunun "Türk dilinə xidmət ödülü"- nə layiq görülmüşdür.

2023-cü ildə türk dünyası ədəbiyyatının təbliğində və TÜRKSOY Beynəlxalq Mədəniyyət təşkilatının türkdilli ölkələrdə keçirdiyi tədbirlərdə fəal iştirakına görə TÜRKSOY Beynəlxalq təşkilatının "Şərəf" medalı ilə təltif olunmuşdur.

Məmmədpaşa Quluzadə - 110

(1914-1994)

Akademik



Məmmədpaşa Piri oğlu Quluzadə 1914-cü il sentyabr ayının 5-də Bakının Əmircan kəndində anadan olmuşdur. 1927-ci ildə N.Nərimanov adına Sənaye Texnikumuna daxil olmuş, 1932-1938-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) neft-mədən fakültəsində təhsil almışdır.

M.P.Quluzadə 1938-1941-ci illərdə "Əzizbəyovneft" neft qaz çıxarma idarəsində qazma üzrə texnik, qazma ustası, mühəndis, böyük mühəndis vəzifələrində çalışmışdır.M.P.Quluzadə Böyük Vətən müharibəsində iştirak etmiş, 1946-cı ildə Azərbaycan Sənaye İnstitutunun əyani aspirantı olmuş, 1949-cu ildə namizədlik, 1959-cu ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1951-1964-cü illərdə institutda asistent, dosent, professor, Neft və qaz quyularının qazılması kafedrasının müdiri, institutun elmi işlər üzrə prorektoru vəzifələrində çalışmışdır.1958-1964-cü illərdə Ümumittifaq "Neft və Qaz" jurnalının məsul redaktoru olmuşdur. M.Quluzadənin elmi tədqiqat işləri neft elminin və texnikasının inkişafına, xüsusən də neft və qaz quyularının qazılma texnologiyasının nəzəriyyə və təcrübəsinə həsr edilmişdir. O, maili quyuların qazılması texnologiyasının əsasını qoyanlardan və turbin üsulu ilə qazıma məktəbinin yaradıcılarından biridir. Yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələri Azərbaycanda, Qərbi Sibirdə, Qazaxıstanda, Krımda, Başqırdıstanda, Saxalində və başqa neft-qaz rayonlarında tətbiq edilmişdir. "Neft Daşları", "Qum adası", "Sanqaçal-Duvannı-dəniz", "Bulla-dəniz", "Makarov" və başqa yataqlarda, bilavasitə onun rəhbərliyi altında maili quyular qazılmışdır. Bu üsulun geniş miqyasda tətbiqinə görə M.Quluzadə bir qrup alim və mütəxəssislə birlikdə 1972-ci ildə Azərbaycan Respublikasının dövlət mükafatına layiq görülmüşdür.

Alim 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1972-ci ildə isə həqiqi üzvü seçilmişdir. 400 elmi əsərin, o cümlədən 15 monoqrafiya, 15 ixtira və kəşflərin, Azərbaycan dilində yazılmış ilk fundamental dərsliklərin, dərs vəsaitlərinin müəllifidir. O, rəhbərlik etdiyi 10 elmlər doktorunun elmi məsləhətçisi olmuş və 45 texnika elmləri namizədi hazırlamışdır.

Məmmədpaşa Quluzadə 1994-cü il fevral ayının 28-də vəfat etmişdir.

Elm və texnikanın inkişafı və yüksək ixtisaslı kadrların hazırlanmasında xidmətlərinə görə M.Quluzadə1965-ci ildə Azərbaycan SSR Əməkdar mühəndisi, 1971-ci ildə SSRİ-nin fəxri neftçisi, Azərbaycan SSR əməkdar elm və texnika xadimi adına layiq görülmüş, 1967-ci ildə "Qırmızı Əmək Bayrağı", 1984-cü ildə "Lenin" , 1985-ci ildə "II dərəcəli Vətən müharibəsi" ordenləri, bir çox Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Maili və üfüqi quyuların profillərininin lahiyələndirilməsi: Metodik göstərişlər / O.K.Məmmədbəyov; P.M.Quluzadə; M.M.Şirinov; E.E.Şmonçeva; H.Ə.İsmaylova.-Bakı: Nafta-Press, 2001.- 45 s.

Qədirov, F. Görkəmli neftçi alim və pedaqoq / F.Qədirov // Azərbaycan.- 2014.- 10 sentyabr.- S.5.

Quluzadə Məmməd Paşa / Azərbaycan Sovet Ensiklopediyası.- Cild 3.-Bakı, 1979.-S.271.

İnternetdə

https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99dpa%C5%9Fa_Quluzad%C9%99

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3335

http://www.az.baku-art.com/az/bu-gun-memmed-pasha-piri-oglu-quluzadnin-do-um-g-n-d-r

Həsən Hüseynov – 80

(1944)

Alim



Həsən Əhməd oğlu Hüseynov 1944-cü il sentyabr ayının 7-də Cəbrayıl şəhərində anadan olmuşdur. 1961-ci ildə akademik M.Mehdizadə adına (keçmiş M.Qorki) Cəbrayıl şəhər orta məktəbini bitirdikdən sonra Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunda (indiki ATU) mexanika fakültəsində "Maşınqayırma texnologiyası, metalkəsən dəzgahlar və alətlər" ixtisası üzrə təhsil almışdır. İnstitutun göndərişi əsasında Bünyad Sərdarov adına maşınqayırma zavodunda mühəndis kimi əmək fəaliyyətinə başlamışdır.

1967-1968-ci illərdə hərbi xidmətdə olmuş, 1968-1984-cü illərdə Ümumittifaq Elmi-Tədqiqat və Layihə Texnologiya Maşınqayırma İnstitutunda böyük mühəndis və aparıcı mühəndis vəzifələrində işləmişdir.1974-cü ildə institutun aspiranturasına daxil olmuş, 1978-ci ildə İ.M.Qubkin adına Rusiya Dövlət Neft-Qaz Universitetində namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almış, həmin ildən institutda kiçik elmi işçi, assistent, baş müəllim, dosent və professor vəzifələrində çalışmışdır. O, 1984-1985-ciillərdə M.Torez adına Moskva Xarici Dillər İnstitutunda fransız dili üzrə 10 aylıq intensiv kurs keçmiş və 1984-1987-ci illərdə Madaqaskar Dövlət Universitetində professor vəzifəsində işləmişdir. 1990-cı ildə Texniki Universitetdə "Maşınqayırma ALS" kafedrasına müdir vəzifəsinə seçilmiş, 1995-ci ildə "STANKİN" Moskva Dövlət Texnologiya Universitetində doktorluq dissertasiyası müdafiə etmiş, 1996-cı ildə Rusiya Federasiyası Keyfiyyət Problemləri Akademiyasının akademiki seçilmiş və professor elmi adını almışdır.

Həsən Hüseynov 150-dən artıq çap olunmuş elmi-metodiki materialların, 4 ixtiranın, 3 monoqrafiyanın, onlarla dərslik və dərs vəsaitinin müəllifidir. Madaqaskar Demokratik Respublikasında fransız dilində 4 dərsliyi çap edilmiş, 6 nəfər texnika elmləri namizədi hazırlamışdır. Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının tətbiq müxanizmlərinə, Diferensial əmək haqqı sisteminin tətbiqi imkanlarına və digər aktual məsələlərə həsr olunmuş bir çox məqalələrin müəllifidir.

H.Hüseynovun Azərbaycan Texniki Universitetində (ATU) TK və XT kafedrasına rəhbərlik etdiyi son illərdə "Biotibbi praktikada mühəndis işi T-360200" və "Kömrük eksport və import nəzarəti cihaz və sistemləri T130009" ixtisasları açılmış və onların tədris metodiki bazalarının yaradılması istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirilmişdir. Kafedranın maddi-texniki bazasının formalaşması istiqamətində əməli işlər görülmüş; plotter, skaner və yeni kompüterlər alınmış və CAD/CAM/CAE texnologiyaları tədris prosesinə geniş tətbiq olunmuşdur.

O, 2003-cü ildə DAAD xəttilə Almaniyanın Frayberq Dağ Akademiyası Texniki Universitetində, 2006-cı ildə isə TEMPUS proqramı çərçivəsində uzun müddətli təcrübə mübadiləsi keçmişdir. Onun rəhbərliyi iləAlmaniyanın Frayberq Dağ Akademiyası və Fransanın Orlean Texniki Universitetləri ilə birlikdə TEMPUS proqramı çərçivəsində "Təhsildə kompüter texnologiyaları mərkəzi" - JEP-27088-2006 birgə Avropa layihəsi işlənmişdir. Alimin yetirmələrindən 4 nəfər elmlər namizədi hazırda Almaniyanın müxtəlif universitetlərində müəllim vəzifəsində çalışırlar.

H.Hüseynov ATU-nun Texnoloji maşınlar fakültəsinin, Universitetin Elmi Şurasının, Elmi-metodiki şuranın, Dissertasiya Şurasının üzvü və Dissertasiya şurası nəzdində fəaliyyət göstərən Elmi seminarın sədridir.

Professor Həsən Hüseynov 2011-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Maşın və cihazqayırmada texnoloji proseslərin avtomatlaşdırılmış layihələndirmə sistemləri /Həsən Hüseynov.- Bakı: "Təhsil"NPM, 2013.-336 s.

Publisistika və poeziya / Həsən Hüseynov; elmi red. E. B. İsgəndərzadə; [ön söz R. Hümbətov].- Bakı: Vektor, 2019.- 203, [1] s.

Elm, təhsil və istehsalat əlaqələrinin inteqrasiyası qlobal çağırışlar kontekstində / Həsən Hüseynov // Azərbaycan.- 2022.- 6 sentyabr.- S. 7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/H%C9%99s%C9%99n_H%C3%BCseynov_(m%C3%BCh%C9%99ndis)

Ulduz Kəngərli - 100

(1924-2021)

Alim



Ulduz Səttar oğlu Kəngərli (Kəngərlinski) 1924-cü il sentyabr ayının 28-də İrəvanda anadan olmuşdur. İlk təhsilini İrəvan şəhərində almışdır.1941-ci ildə 9-cu sinfi bitirdikdən sonra, artilleriya hərbi məktəbinə daxil olmuş, sonra zabit rütbəsində Ukrayna cəbhəsinə göndərilmişdir. 1947-ci ildə ordu sıralarından qayıtdıqdan sonra, Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1952-ci ildə (indiki Neft Akademiyası) Energetika fakültəsini, 1958-ci ildə isə Azərbaycan EA-nın aspiranturasını bitirərək namizədlik dissertasiyasını müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

1958-1961-ci illərdə Sumqayıt şəhərindəki Elmi-Tədqiqat "Neftkimyaavtomat" Layihə İnstitutunda şöbə müdiri və Elmi-Tədqiqat Neft İnstitutunda laboratoriya rəhbəri işləmişdir.

1961-ci ildə Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) onun rəhbərliyi ilə radiotexnika, elektronika və rabitə kafedrası təşkil edilmişdir. Bu sahədə onun ilkin yaratdığı kafedra əsasında 7 yeni kafedra təşkil edilmiş və universitetdə iki radiotexnika və telekommunikasiya və rabitə fakültələri fəaliyyət göstərmişdir.1969-cu ildə Texnika elmləri doktoru, 1970-ci ildə professor elmi adı almışdır.

Alim radioelektronika sahəsində tədqiqatlar aparmış, 17 dərslik və dərs vəsaitinin 218 elmi əsərin, 12 ixtiranın müəllifidir. 1983-cü ildə çap olunmuş "Rusca-azərbaycanca-ingiliscə radioelektronika terminləri lüğəti"nin (Cəmilə Kəngərli ilə birlikdə) müəllifidir. Ulduz Kəngərlinin yerinə yetirdiyi elmi-tədqiqat işlərinin nəticələri respublikanın müxtəlif sənaye müəssisələrində geniş tətbiq edilmişdir.

U. Kəngərli respublikada elmi pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirmiş, kafedranın əməkdaşlarının elmi səviyyələrinin artmasına şərait yaratmışdır.

Ulduz Səttar oğlu Kəngərli 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Texnika elmləri doktoru, professor Ulduz Kəngərli 29 yanvar 2021-ci ildə vəfat etmişdir.

Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyaları sahəsində böyük xidmətlərinə görə U.Kəngərli bir sıra orden və medallarla təltif edilmişdir.

Ədəbiyyat:

Qeyri-xətti elektrik dövrələri nəzəriyyəsi: radiotexniki siqnallar və dövrələr: dərslik / Ulduz Kəngərli; elmi red. İ. Q. Əfəndiyev.-Bakı: Maarif, 1991.- 440 s.

Siqnallar və sistemlər: dərslik / U. S. Kəngərli; elmi red. A. M. Paşayev, Ə. M. Abbasov.-Bakı: [AzTU], 2010.-652[1] s.

İslamov, İ. Görkəmli alim, bacarıqlı təşkilatçı: [Azərbaycan Texniki Universitetinin görkəmli alimi U.Kəngərlinin elmi-pedaqoji fəaliyyəti haqqında] / İslam İslamov // Respublika.-2009.- 26 sentaybr.- S. 7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ulduz_K%C9%99ng%C9%99rli

http://veteran.gov.az/en/news/1141-ulduz-settar-oglu-kengerli

https://mod.gov.az/az/pre/30188.html

https://e-qanun.az/framework/15747

Arif Həşimov – 75

(1949)

Akademik



Arif Məmməd oğlu Həşimov 1949-cu il sentyabr ayının 28-də Naxçıvan MR Şahbuz rayonunda müəllim ailəsində anadan olmuşdur.

1966-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNSU) energetika fakültəsinə daxil olmuş, 1971-ci ildə institutu bitirib, AMEA Fizika İnstitutunun "Elektrofizika" laboratoriyasında mühəndis kimi işə başlamışdır.

1980-ci ildə Ukrayna MEA Elektrodinamika İnstitutunda namizədlik, 1993-cü ildə isə həmin institutda doktorluq dissertasiyasını müdafiə etmişdir. Elmi işlərinin əsasını müasir elmin çox əhəmiyyətli istiqamətlərindən biri olan energetikanın fizikitexniki problemləri sahəsində elmi tədqiqat işləri və mürəkkəb elektrik şəbəkələrində dissipativ faktorları, ifrat gərginlikdən elektrotexniki avadanlıqları mühafizə edən və qısaqapanma cərəyanlarını məhdudlaşdıran qurğuları tam nəzərə almaqla elektromaqnit dalğa proseslərini hesablamaq üçün riyazi modellərin işlənib hazırlanması təşkil edir.

Akademik 1999-cu ildə "Yüksək gərginliklər fizikası və texnikası" laboratoriyasının rəhbəri seçilmişdir.Yüksək gərginliklər texnikası və elektrotermiki qurğular kafedrasının professoru, AMEA Fizika İnstitutunda fəaliyyət göstərən elmlər doktoru alimlik dərəcəsi verən şuranın sədri, Azərbaycan Elmi-Tədqiqat Energetika və Enerjilayihə İnstitutunda elmlər doktoru alimlik dərəcəsi verən şuranın üzvüdür.

A.Həşimov 2002-ci ildə AMEA-nın Fizika İnstitutunun direktoru vəzifəsinə seçilmiş, 2009-cu ilə qədər bu vəzifəni icra etmişdir.

310-dan artıq elmi məqalənin, onlarla patentləşdirilmiş ixtiraların və 5 monoqrafiyanın müəllifi olanakademik 2007-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir. Moldova Respublikasının MEA-nın Tətbiqi Fizika İnstitutunda nəşr olunan "Электронная обработка материалов", İran İslam Respublikasının "Taba Elm" elmi mərkəzində nəşr olunan "Energetikanın texniki fiziki problemləri", İspaniyanın Bilbao Universitetində nəşr olunan "İnternational Journalfor knowledge seience and texnoloji" jurnallarının redaksiya heyətinin üzvü, AMEA-nın Fizika İnstitutunda nəşr olunan "Energetikanın Problemləri" jurnalının redaktorunun müavini, AR Müdafiə sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin "Xəbərləri" jurnalının redaksiya heyətinin üzvüdür.

A.M.Həşimov bir neçə il Azərbaycan Dövlət Neft Akademiyasında mühazirələr oxumuş və "Yüksək gərginliklər texnikası və elektrotermiki qurğular kafedrası"-nın professoru olmuşdur.

Akademik Arif Həşimov 2021-ci il yanvarın 21-də AMEA Fizika İnstitutunun baş direktoru, 2021-ci il may ayının 28-də AMEA-nın akademik-katibi vəzifəsinə seçilib, 5 noyabr 2021-ci ildən AMEA-nın birinci vitse-prezidenti olmuş, 19 fevral 2022-ci ildən oktyabr ayının 25-ə qədər AMEA-nın prezidenti vəzifəsini müvəqqəti icra etmişdir.

Arif Həşimov 1978-ci ildə "Yüksək gərginlikli elektrik şəbəkələrinin neytralının rejiminə aid kompleks işlər"ə görə müəlliflər kollektivi ilə birlikdə Elm və Texnika sahəsində Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüş, 2005-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adı almışdır. 2019-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fizika İnstitutunda akademik Arif Həşimovun 70 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilmişdir.

Ədəbiyyat:

Heydər Əliyev irsinə yeni elmi-nəzəri və konseptual baxış / Arif Həşimov // Elm.- 2022.- 17 iyun.- S.2.

Ulu Öndərin elm siyasəti / Arif Həşimov,Səlimə Mehdiyeva // Respublika.- 2023.- 5 may.- S.13.

Kərimov, M. Görkəmli alim, bacarıqlı elm təşkilatçısı, akademik Arif Həşimov - 60 /M.Kərimov // Elm.- 2009.- 19 sentyabr.- S.3.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Arif_H%C9%99%C5%9Fimov

https://science.gov.az/az/forms/deystvitelnyie-chlenyi/42

https://science.gov.az/az/news/open/21834

Validə Tutayuq – 110

(1914-1980)

Akademik



Validə Xaspolad qızı Tutayuq 1914-cü il sentyabr ayının 23-də Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur.1930-cu ildə Şuşa şəhər 9 illik orta məktəbini bitirərək Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) bağçılıq və bostançılıq fakültəsinə qəbul olunmuşdur.

1932-ci ildə həmin institutun Bağçılıq kafedrasına preparator vəzifəsinə qəbul edilən Validə Tutayuqaxşam təhsili ilə yanaşı əmək fəaliyyətinə başlamışdır.

1934-cü ildə aspiranturaya qəbul olunmuş və K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasına ezam edilmiş, "Şəbbügülündə çoxləçəkliliyin təbiəti" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. SSRİ-nin müxtəlif bölgələrində örtülütoxumlu bitkilərin çoxləçəkli çiçəklərinin tədqiqini davam etdirmiş, "Çoxləçəkli örtülü toxumluların embriologiyası" adlı dissertasiya işini 1949-cu il mayın 11-də Leninqradda, SSRİ EA V.L.Komarov adına Botanika İnstitutunda müdafiə edərək 35 yaşında Biologiya elmləri doktoru elmi dərəcəsini alan ilk azərbaycanlı qadın olmuşdur.

V.X.Tutayuq 1939-1957-ci illərdə və 1962-cı ildən ömrünün sonuna qədər S.Ağamalı oğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda Botanika kafedrasına başçılıq etmiş,1951-1954-cü illərdə institutun meşə təsərrüfatı fakültəsinin dekanı, sonralar isə elmi hissə üzrə prorektoru olmuşdur.

1957-ci ildə Azərbaycan SSR EA V. L.Komarov adına Botanika İnstitutunun direktoru seçilmiş, 1962-ci ilədək bu vəzifədə çalışmış, 1968-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

1950-ci ildə Kanadanın Monreal şəhərində Botaniklərin 9-cu Beynəlxalq konqresində məruzə etmişdir. 1968-1972-ci illərdə V.X.Tutayuqun rəhbərliyi ilə Azərbaycanın qış və yay otlaqlarının geniş geobotaniki tədqiqi aparılmış, Qarabağın, xüsusən Şuşanın bitki aləminin öyrənilməsi üçün böyük elmi ekspedisiya təşkil etmiş, bölgənin nadir və endem bitkiləri və 100 minə yaxın herbari toplanmışdır. Hazırda bu kolleksiya ADAU Biologiya kafedrasının herbari fondunun əsasını təşkil edir. Şuşanın cıdır düzünün "Xarı bülbül" bitkisinin bioekoloji xüsusiyyətləri ilk dəfə olaraq Validə xanım Tutayuq tərəfindən öyrənilərək elmi məqalə formasında çap edilmişdir. Bundan sonra dünya botanikləri bu nadir bitkinin məhz Şuşa endemi olduğunu qəbul etmişdir.

V.Tutayuq 250-dən artıq elmi əsərin, o cümlədən, 9 monoqrafiyanın və 10 dərsliyin müəllifidir.

Validə Tutayuq 1980-ci il dekabr ayının 12-də Gəncə şəhərində vəfat etmişdir.

Akademik 1943-cü ildə "Şərəf nişanı" ordeni,1945-ci ildə "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində fədakar əməyinə görə medalı, 1955-ci ildə B. Miçurinin anadan olmasının 100 illiyi xatirəsinə" yubiley medalı ilə, 1960-cı ildə Respublikanın xalq təsərrüfatı və mədəniyyətinin inkişafı sahəsindəki xidmətlərinə görə Fəxri fərman təltif edilmiş, 1974-cü ildə Azərbaycan SSR Ali Sovetin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Haqqında "Çinara bənzəyən insan" adlı film çəkilmişdir.

Ədəbiyyat:

Seyidzadə, T. Validə Tutayuq: Azərbaycanda ilk akademik qadın / T.Seyidzadə //Azad Azərbaycan.- 2017.- 26 sentyabr.- S.7.

Validə Tutayuq -100 // AMEA-nın Xəbərləri: biologiya və tibb elmləri.- 2014 .- № 2.- C.69.-S. 135-137.

Allahverdiyev, E. "Çinara bənzəyən insan" / E.Allahverdiyev // Ekran-efir.-2014.- 31 oktyabr.- S.4.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Valid%C9%99_Tutayuq


https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3424

http://www.anl.az/down/meqale/kaspi_az/2014/iyul/385354.htm

Tacəddin Quliyev – 95

(1929 - 2005)

Alim



Tacəddin Fərhad oğlu Quliyev 1929-cu il sentyabr ayının 25-də Goranboy rayonunun Zeyvə kəndində anadan olmuşdur. Zeyvə kənd natamam orta məktəbini bitirdikdən sonra, İkinci Dünya müharibəsinin başlaması və ağır həyat şəraiti səbəbindən əmək fəaliyyətinə başlamış, əvvəlcə kolxozda, sonra isə Goran dəmir yolunda fəhlə işləmişdir.

1945-ci ildə Gəncə Pedaqoji Texnikumuna daxil olmuş, təhsilini başa vurduqdan sonra Qasım İsmayılov (indiki Goranboy) rayon mədəni-marif şöbəsində təlimatçı kimi işə başlamış, 1949-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində ali təhsil almışdır.

Respublika Elmi Texniki Kitabxanasında kitabxanaçı, Sabunçu rayonunun "Zərbəçi" adına Uşaq Kitabxanasının direktoru olmuş T.Quliyev N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunun müəllimi, metodisti olmaqla, 1958-1962-ci illərdə Respublika Kitabxana Kollektorunun direktoru vəzifəsində çalışmışdır.

1962-ci ildə ADU-nun Kitabxanaşünaslıq kafedrası üzrə aspiranturaya daxil olmuş, "Azərbaycan SSR-də Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1940-cı illər)" mövzusunda tarix üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1965-ci ildən taleyini BDU-nun kitabxanaçılıq fakültəsinə bağlayan alim, əvvəlcə Kitabxanaşünaslıq kafedrasında müəllim, 1973-cü ildən isə dosent vəzifəsində işləmişdir. 1973-1986-cı illərdə ADU-nun kitabxanaçılıq fakültəsində dekan müavini, 1990-ci ildən 2005-ci ilə qədər Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri vəzifəsində çalışmışdır.

T. Quliyev 50 ilə yaxın bir dövrdə elmi-pedaqoji fəaliyyət göstərmiş, 100-dən artıq dərslik, dərs vəsaiti, monoqrafiya, elmi məqalə o cümlədən "Biblioqrafik təsvirin tərtib qaydaları" (1996), " Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi və metodikası" (1997), "Azərbaycanda kitabxanaçılıq işi: Həmkarlar İttifaqı Kitabxanalarının materialları əsasında" (2004, 2 hissə) və s. kimi bir çox əsərlərin müəllifidir. O, 1970-ci ildən kitabxanaşünaslıq və biblioqrafiya ixtisası ilə bağlı nəşr olunan elmi məcmuələrin, elmi topluların və elmi əsərlərin, 1997-ci ildən isə "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Görkəmli kitabxanaşünas alim T.Quliyev Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərman və diplomları ilə, "Əmək veteranı", "Əmək şücaətinə görə" medalları ilə təltif edilmişdir.

Tacəddin Quliyev 2005-ci il oktyabr ayının 10-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycanda kitabxanaçılıq işi: (Respublika Həmkarlar İttifaqı kitabxanalarının materialları əsasında) / T.Quliyev;elmi red. A.Xələfov.- Hissə 2.- Bakı: Vətən, 2004.- 232 s

Quliyev Tacəddin Fərhad oğlu // Azərbaycan Kitabxana Ensiklopediyası /Azərb. Resp. Mədəniyyət və Turizm Naz., Azərb. Milli Kitabxanası.- Bakı, 2015.- S. 391- 392.

Tacəddin Fərhad oğlu Quliyev // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2005.- № 2.- S.143-144.


Fərəcov, S. Yorulmaz tədqiqatçı, səriştəli pedaqoq: [kitabxanaşünas alim Tacəddin Quliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar] /S. Fərəcov //Mədəniyyət.-2019.- 25 sentyabr.- S.6.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2019/sentyabr/672865.htm

https://www.azerbaijan-news.az/posts/detail/milli-kitabxanada-taceddin-quliyev-90-adli-kitab-sergisi-acilib-174521

“Azərbaycan müəllimi” qəzeti - 90
(1934)



Otuzuncu illərin ortalarında əhalinin sayının artması, xalq maarifinin inkişafı, yeni elmi-pedaqoji kadrların, ziyalı qüvvələrin yetişməsi, informasiya məkanının genişlənməsi pedaqoji mətbuatın yaranması ehtiyacını doğurduğundan, 1934-cü il sentyabrın 2-də “Kommunist maarifi” qəzeti nəşrə başlamışdır. Qəzet “mədəni inqilab”ın əsas təbliğat vasitələrindən olmaqla respublikada milli elmi-pedaqoji kadrların formalaşmasına yaxından kömək etmiş, xalq maarifinin, təhsilinin inkişafında müstəsna rol oynamışdır. O, kommunist ideyalarının, bolşevik maarifinin ruporu kimi nəzərdə tutulub yaradılsa da, daha çox ümumxalq qəzeti, müəllim, ziyalı qəzeti olmağa çalışmışdır.

Sırf pedaqoji məsələlərə daha geniş yer ayırdığı üçün 1938-ci ildə qəzetin adı dəyişdirilərək “Müəllim qəzeti” adlandırılmış, 1941-ci ilin iyununadək bu adla nəşr olunmuşdur. Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar 1941-ci ilin iyunundan 1946-cı ilin aprelinədək onun nəşri dayandırılmışdır. Qəzetin əməkdaşları döyüşən ordu sıralarında Böyük Vətən müharibəsi cəbhələrinə göndərilmişdir. Qəzetin təşəkkül tarixindən 1946-cı ilə qədərki dövrü onun taleyinin ən ağrılı, ən çətin mərhələsini təşkil etmişdir. Qəzetin ilk müəlliflərindən bir çoxu amansız Stalin repressiyalarının qurbanı olmuş, bəziləri NKVD zindanlarına atılaraq onlara “xalq düşməni” damğası vurulmuş, əməkdaşların bir qismi isə Böyük Vətən müharibəsində həlak olmuşdur.

1946-cı ilin aprelindən “Azərbaycan müəllimi” adı ilə yenidən nəşrə başlayan qəzet sonrakı illərdə də özünəməxsus üslubuna, dəsti- xəttinə, başlıcası isə məramına, amalına sədaqəti qoruyub saxlaya bilmişdir. “Azərbaycan müəllimi” fəaliyyət göstərdiyi dövrdə şərəfli bir yol keçmiş, təhsilin, mədəniyyətin, pedaqoji ənənələrin formalaşmasında əvəzsiz xidmətləri olmuş, çoxminli oxucuların rəğbətini qazanmışdır.

“Azərbaycan müəllimi” həmişə əsl ziyalıların, elm və maarif xadimlərinin tribunası olmuş, akademik Mehdi Mehdizadə, görkəmli alimlər Əhməd Seyidzadə, Mərdan Muradxanov, Şövqi Ağayev, Nurəddin Kazımov, Zahid Qaralov, Bəşir Əhmədov, Misir Mərdanov, Əliheydər Həşimov, Yəhya Kərimov, Əziz Əfəndizadə, Hüseyn Əhmədov, Əkbər Bayramov, Əbdül Əlizadə, Əjdər Ağayev, xalq müəllimləri Zahid Şöyübov, İsrafil Şükürov, əmək qəhrəmanları Məsmə Atakişiyeva, Zərbəli Səmədov, Məhər Quliyev, İsa Məmmədov və başqaları maraqlı məqalələrlə çıxış etmişlər. Müxtəlif məsələlər haqqında fikir və mülahizələrinin geniş ictimaiyyətə çatdırılmasında “Azərbaycan müəllimi” qəzeti əhəmiyyətli rol oynamışdır.

Ədəbiyyat

Həsənov, H. Yubiley təbrikləri: “Azərbaycan müəllimi” -80 / HəsənHəsənov, H. Babaoğlu //Azərbaycan müəllimi.- 2014.-7 mart.- S.3.

Qəzetə ünvanlanmış təbriklər: “Azərbaycan müəllimi”-80 // Azərbaycan müəllimi.- 2014.- 11 aprel.- S.4.

Tanınmış imzalar: “Azərbaycan müəllimi”-80 // Azərbaycan müəllimi.- 2014.- 28 fevral.-S.3.

İnternetdə

https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_m%C3%BC%C9%99llimi_(q%C9%99zet)

https://www.muallim.edu.az/arxiv.php?cat=12

Bilik Günü (2004)



Azərbaycanda 15 sentyabr tarixi Bilik günu kimi qeyd olunur. Bu gün 2004-cü ilə qədər sentyabrın 1-nə təsadüf edirdi. Lakin prezident İlham Əliyevin 21 avqust 2004-cu il tarixli fərmanına əsasən Azərbaycanın bütün təhsil müəssələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınıb və beləliklə həmin gün bilik günü kimi qeyd olunub. Bilik günü məktəb həyatına qədəm basan birincilər üçün səbirsizliklə, sevinc və həyacanla gözlənilən, xüsusi qayğı və məmnuniyyətlə, təntənəli şəkildə qarşılanacaqları bir gündür. Onlar əlifba ilə tanış olub, kitablar oxuyub, şeirlər əzbərliyəcək və beləcə ilk zəngin səsası ilə yeni həyata məktəb həyatına qədəm qoyacaqlar.

Tarix boyu elmə, biliyə yiyələnmək və onu tədris etmək şərəfli iş hesab olunub. İslama görə elm öyrənmək Allaha ibadət qədər əhəmiyyətlidir. Bu haqda Məhəmməd Peyğəmbərin (s.) və onun bir çox səhabələrinin hikmətli sözləri və hədisləri vardır. İslam tarixində öz şərəfli yeri olan, dərin bilik və ağıl sahibi Həzrəti Əli müəllimə dəyər verərkən "Mənə bir hərf öyrədənin köləsi olaram " demişdi. Xalqımız elmi, biliyi həmişə yüksək qiymətləndirib, öz övladlarının savadlanması üçün əllərindən gələni əsirgəməyib.

Azərbaycan elminin tarixində Nəsirəddin Tusi, Bəhmənyar, Abbasqulu Ağa Bakıxanov, Mirzə Kazım bəy, Yusif Məmmədəliyev kimi yüzlərlə alim və filosoflar olub ki, onlar dünya elminin inkişafına öz töhfələrini veriblər.

Müəllim əməyinin nəticəsində formalaşan cəmiyyətdə savadli, bilikli, geniş dünya görüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirirlər. Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Bir faktı xatırlatmaq kifayətdir ki, ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır.

Ədəbiyyat

15 sentyabr Bilik Günüdür // Mədəniyyət.- 2023.- 15 sentyabr:- S.1.

Salmanlı, R.Dövlətin qayğısı sayəsində yeni təhsil müəssisələrinin coğrafiyası genişləndirilir:15 Sentyabr Bilik Günüdür / Rəhman Salmanlı // Azərbaycan.- 2023.-15 sentyabr.- S.16.

Məmmədova, M. 15 sentyabr: şən və kövrək anlar... / Mətanət Məmmədova //Səs.- 2023.- 16 sentyabr:- S.7.

İnternetdə

https://www.azmiu.edu.az/az/news/2076

http://teqvim.az/site/?name=gun&gunid=176

https://az.wikipedia.org/wiki/Bilik_G%C3%BCn%C3%BC

Milli Musiqi Günü (1995)



Sentyabr ayının 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəylinin doğum günüdür.

Həmin gün təkcə musiqisevərlərin deyil, həm də xalqımızın bayramıdır. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoymuşdur. Onun təşəbbüsü ilə XX əsrdə hər il sentyabrın 18-i böyük bəstəkarımız Üzeyir bəy Hacıbəylinin anadan olduğu gün respublikamızda xüsusi təntənə və mərasimlərlə qeyd edilmişdir.

Üzeyir Hacıbəylinin ədəbi irsi çox zəngin və qiymətlidir. Bütün ömrü boyu Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır.

Mədəniyyət ocaqlarında, musiqi məktəblərində, xüsusilə konservatoriyamızın - indiki Musiqi Akademiyasının qarşısında Üzeyir Hacıbəylinin şərəfinə onun ölməz əsərlərindən fraqmentlər səsləndirilmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda, xüsusilə də Bakıda yaşanan siyasi böhranla əlaqədar bu ənənə bir müddət unudulmuş, Böyük bəstəkarın özfəaliyyət səviyyəsində xatırlanması həqiqətən narahatlıq doğurmuşdur.

Mədəniyyətimizin böyük hamısı, ümummilli lider Heydər Əliyev məhz bu günü də unutmamış, dahi Üzeyir Hacıbəylinin 110 illik yubileyi münasibətilə 1995-ci il 17 sentyabr tarixində imzaladığı Sərəncama əsasən, 18 sentyabr Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunmağa başlamışdır.

Dahi bəstəkar Azərbaycan Dövlət Himninin müəllifidir. Bu gün Azərbaycan bayrağı, məhz həmin himnin sədaları altında dünyanın ən mötəbər salonlarında ucalır, həmçinin, tədbirlər bu himnin sədaları altında başlayır.

Zəngin irsin müəllifinə çevrilən Ü. Hacıbəylinin anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuş, 2009-cu ildən, hər il 18 sentyabr tarixində Azərbaycanda Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalı keçirilməyə başlamışdır.

Artıq üç ildir ki, Milli Musiqi Günü xüsusilə əlamətdardır. 30 ildən sonra işğaldan azad edilən Azərbaycanın mədəniyyət paytaxtı ŞuşadaHeydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə təşkil olunan Beynəlxalq Musiqi festivalı hər il sentyabrın 18-də açıq elan edilir və 10 gün davam edir.

Bu gün Azərbaycan musiqisi əsl çiçəklənmə dövrünü yaşayır.Üzeyir Musiqi günü münasibətilə respublikamızda bir çox konsertlər, tədbirlərtəşkil olunur. Ölkəmizdə davamlı olaraq keçirilən beynəlxalq musiqi festivalları, müxtəlif müsabiqələr bütövlükdə, Azərbaycan mədəniyyətinin, Azərbaycan musiqisinin daha geniş miqyasda təbliğinə xidmət edir.

Ədəbiyyat:

Abbas, G. Üzeyir musiqisinin gücü:Milli Musiqi Günü 3 ildir Şuşada qeyd olunur / Günel Abbas // Yeni Azərbaycan.-2023.- 16 sentyabr.- S.5.

Azərbaycanın dünyaya bəxş etdiyi dahi:Üzeyir Hacıbəyli və Milli Musiqi Günü ilə bağlı xarici mediada materiallar yayımlanıb // Mədəniyyət.- 2023.- 20 sentyabr.- S.2.

Qurbanlı, R. Azərbaycanda Üzeyir Musiqi Günü şənlikləri:Bəstəkarın şərəfinə XV Beynəlxalq Musiqi Festivalı da başlanıb / Ramilə Qurbanlı // Xalq qəzeti.- 2023.-19 sentyabr.- S.10.

https://az.wikipedia.org/wiki/Milli_Musiqi_G%C3%BCn%C3%BC

Qarabağda antiterror əməliyyatı
(2023)



2023-cü il sentyabr ayının 19-da səhər saatlarında Qarabağda Azərbaycan konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirlərinə başlamışdır. Üçtərəfli bəyənatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa -quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması məqsədilə başlanılmışdır. Anti-terror əməliyyatından əvvəl Xocavənd rayonu ərazisində mina partlayışları olmuş və nəticədə Daxili İşlər Nazirliyinin polisləri də daxil olmaqla 9 nəfər həyatını itirmişdir.Tədbir çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinliklərdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə mülkü əhali və infrastruktur obyektləri hədəfə alınmamaqla, yalnız legitim hərbi hədəflər sıradan çıxarılmışdır. 23 saatlıq lokal xarakterli antiterror tədbirləri nəticəsində 90-dan artıq döyüş mövqeyi və bir sıra əhəmiyyətli obyektlər nəzarətə götürülmüş, Qarabağdakı qondarma rejim ağ bayraq qaldıraraq təslim olmuşdur. Hərbi əməliyyatlar sentyabrın 20-də, saat 13:00-da əldə olunan razılığa əsasən dayandırılmışdır. Razılığa əsasən Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymaqla, Azərbaycan ərazilərindən çıxmış, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmış,silah-sursat təhvil verilmiş vəbu prosesləri Rusiya Sülhməramlı Kontingenti ilə əlaqələndirilmiş formada aparılması təmin edilmişdir. Sentyabr ayının 21-də Qarabağın erməni əhalisinin nümayəndələri ilə Yevlaxda görüş keçirilmiş, Qondarma rejimin buraxılması qərara alınmışdır.

Hərbi əməliyyatlar zamanı regionda Azərbaycan Silahlı Qüvvələrinin 202 hərbi qulluqçusu şəhid olmuş, 511 hərbi qulluqçusu isə yaralanmışdır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tarixi ədaləti bərpa etmiş, 1988-ci ildə erməni terroruna məruz qalan xalqımızın qisasını almışdır.

Ədəbiyyat:

Kamal, M.Lokal xarakterli antiterror tədbirlərinin uğurlu sonu / Mustafa Kamal //Respublika.- 2023.-21 sentyabr.-S.11.

Əmiraslanov, Ə. Antiterror tədbirləri bölgəyə sülh və sabitlik gətirəcək / Əhliman Əmiraslanov // Respublika.-2023.- 21 sentyabr.-S.8.

Sadıqov, B. 44 günlük Zəfərə 23 saatlıq əlavə / Bəxtiyar Sadıqov // Azərbaycan.- 2023.-23 sentyabr.-S.1; 4.

İnternetdə:

https://science.gov.az/az/news/open/26636

https://literature.az/?page=185&newsId=118629&lang=aze

https://hafta.az/bir-gunluk-antiterror-emeliyyati-%C2%A0-aktual-349995-xeber.html

“Əsrin müqaviləsi”nin imzalanmasının 30 illiyi *(1994)*



1994-cü il sentyabr ayının 20-də Bakıda “Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında” 8 ölkənin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Türkiyə, Norveç, Yaponiya, Rusiya və Səudiyyə Ərəbistanı) 13 məşhur neft şirkəti (BP, SOCAR, “Amoco”, “McDermott”, “Unocal”, “LUKoil”, “Statoil”, “Exxon”, TPAO, “Pennzoil”, “Itochu”, “Ramco”, “Delta”) ilə ARDNŞ-ın işbirliyini rəsmiləşdirən sənəd imzalanmışdır.Təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanmış“Əsrin müqaviləsi” Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmiş, 12 dekabr 1994-cü ildə qüvvəyə minmişdir.

Şimal istiqamətindəki uzunluğu 231 km, diametri 720 mm olan Bakı-Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inşa edilmiş və 25 oktyabr 1997-ci ildə Azərbaycan nefti Novorossiysk limanına (Rusiya Federasiyasına) nəql olunmuşdur. Qərb istiqamətində uzunluğu 837 km, diametri 530 mm Bakı-Supsa boru kəməri inşa edilərək, 17 aprel 1999-cu ildə işə salınmışdır.

İlk dəfə hesablanmış çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmış və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmişdir; ümumi təmiz gəlirdən Azərbaycanın payına 80 %, sərmayəçilərin payına 20 % düşür.

1999-cu ilin dekabr ayındailk tanker dünya bazarlarına çıxarılmış, əldə edilən valyuta Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil edilmişdir.

1999-cu il noyabr ayında İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) “Əsas İxrac Neft Kəməri”nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci il sentyabr ayının 18-də Bakıda, Səngəçal terminalındaAzərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməli qoyulmuş, 2004-cü ilin oktyabr ayında BTC-nin Azərbaycan hissəsi Gürcüstan hissəsi ilə birləşdirilmiş, 2006-cı il iyul ayının 13-dəTürkiyənin Ceyhan şəhərində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

BTC boru kəməri ilə nəql edilmiş ixrac xam nefti yüklənmiş ilk tanker 2006-cı ilin iyun ayının 4-də yola salınmışdır.2007-ci il iyunun 16-da Qazaxıstan da rəsmən BTC layihəsinə qoşulmuş, Qazaxıstan və Azərbaycan prezidentləri Almatıda Qazaxıstan neftinin Xəzər dənizi və Azərbaycan ərazisi üzərindən BTC sistemi vasitəsilə beynəlxalq bazarlara daşınmasına dəstək və yardım haqqında Müqavilə imzalamışlar. BTC kəmərinin istismara verildiyi gündən 01.01.2022-ci il tarixinə kimi kəmər vasitəsilə dünya bazarlarına 516 milyon tondan çox (3,77 milyard barrel) xam neft ixrac olunmuşdur.

20 sentyabr 1995-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə “Respublika” sarayındaneft-qaz sənayesi kollektivlərinin nümayəndələri ilə görüş keçirilmiş və bu görüşlər mütəmadi xarakter almışdır.16 avqust 2001-ci ildə Heydər Əliyev hər il sentyabr ayının 20-də Azərbaycanda “Neftçilər Günü” peşə bayramı kimi qeyd edilməsi barədə Fərman imzalamışdır.

Ədəbiyyat:

Aslanbəyli, B.Heydər Əliyev və “Əsrin müqaviləsi” / Bəxtiyar Aslanbəyli // Azərbaycan.- 2023.-20 sentyabr.- S.9.

Nərimanoğlu, M.“Əsrin müqaviləsi” inkişafa öz töhfəsini verir / Mikayıl Nərimanoğlu //Respublika.- 2023.-20 sentyabr.-S.5.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2020/sentyabr/717912.htm

https://az.wikipedia.org/wiki/%C6%8Fsrin_m%C3%BCqavil%C9%99si

http://www.anl.az/down/

Beynəlxalq Turizm Günü

(1980)



1925-ci ildən Cenevrədə müxtəlif adlar altında fəaliyyət göstərən turizm təşkilatları 1970-ci ilsentyabr ayının 27-də Ümumdünya Turizm Təşkilatı kimi formalaşmışdır.

1975-ci ildə İspaniyanın Madrid şəhərindəÜmumdünya Turizm Təşkilatının Birinci Baş Assambleyası keçirilmiş və Robert Lonati Təşkilatın Baş Katibi seçilmişdir. Həmin il rəsmən BMT-nin beynəlxalq ixtisaslaşmış təşkilatı - ÜTT-nin yaranması ili hesab edilir. 1979-cu ildə Baş Qərargahı Madrid şəhərinə köçürülən təşkilat 27 sentyabr- Ümumdünya Turizm Gününü təsis etmiş, 1980-ci ildəkeçirilmiş 2-ci Baş Assambleyada hər il sentyabr ayının 27-nin "Beynəlxalq Turizm Günü" kimi qeyd olunması qərara alınmışdır. Ümumdünya Turizm Günü artıq dünyanın 150-dən çox ölkəsində qeyd olunur.

2001-ci il sentyabr ayının 25-də Koreya Respublikasının paytaxtı Seulda keçirilən Ümumdünya Turizm Təşkilatının XIV Baş Assambleyasında Azərbaycan Respublikası təşkilata üzv olmuş, 2002-ci ildən başlayaraq Bakıda hər il Beynəlxalq Turizm və "Ümumrespublika Daxili Turizm Konfransları" və Sərgiləri" keçirilmişdir. 2003-cü ilsentyabr ayının 26-da1-ci Turizm Filmləri Festivalı, 2006-cı ildə "Cənnət görmək istəyən Azərbaycana gəlsin" şüarı altında "Turizm aləmi" fotomüsabiqəsikeçirilmişdir.

"Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafı üzrə Dövlət Proqramı", "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı","2010-2014-cü illərdə Azərbaycanda turizmin inkişafına dair" dövlət proqramları qəbul olunmuş, İçərişəhər, Şirvanşahlar Sarayı, Qız qalası vəQobustan qayaüstü rəsmlər muzeyi YUNESKO-nun dünya mədəni irsi siyahısına salınmışdır. 2011-ci ilin Turizm İli elan edilməsi və "Eurovision -2012"mahnı müsabiqəsinin Bakıda keçirilməsi turizm sənayesinin inkişafına güclü təkan vermişdir. Ölkəmiz 20-dək ən nüfuzlu beynəlxalq turizm forumlarında: Londonda (WTM), Berlində (ITB), Moskvada (MITT), İstambulda (MTE) və digərlərində iştirak edir.

2006-cı ildən etibarən dünyanın nüfuzlu televiziya kanallarında (CNN, Euronews, Travel Channel, BBC, CNBC, Eurosport, National Geographic, TV5 MONDE) turizm imkanlarını əks etdirən filmlər və reklam çarxları yayımlanır,-turizmin təbliği məqsədilə 50-yə yaxın müxtəlif növ və dillərdə informasiya xarakterli reklam-çap məhsulları hazırlanmışdır. 2006-cı ildə ölkədə Turizm İnstitutu yaradılmış, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılmışdır.

2014-cü ildə Azərbaycan Turizm Assosiasiyası, Bakı Turizm İnformasiya Mərkəzi və Azərbaycan Turizm İnstitutu BMDTT-yə qoşulmuş üzv (Affiliate member) seçilmişdir. Bu gün assosiativ üzvlərinin sayına görə Dünya Turizm Təşkilatında birinci yeri İspaniya, ikinci yeri Azərbaycan, üçüncü yeri isə Braziliya tutur. Bu o deməkdir ki, Azərbaycan artıq turizm sahəsində dünyada öz sözünü deyir.

Azərbaycanın zəngin tarixi, mədəni və təbii irsi dünyanın hər yerindən qonaqları ölkəmizə cəlb edir, turizm sahəsi günü-gündən inkişaf edir və tezliklə iqtisadiyyatın ən mühüm sahələrindən birinə çevriləcəkdir. Əldə edilən uğurların ən böyük səbəbi isə Azərbaycanda bu sahəyə dövlət tərəfindən göstərilən diqqətdir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında "Turizm işçiləri günü" peşə bayramının təsis edilməsi haqqında 1 sentyabr 2016-cı il tarixli Sərəncamına əsasən, sentyabrın 27-si ölkəmizdə turizm işçilərinin peşə bayramı kimi qeyd olunur.

Ədəbiyyat:

Hacıyev, A.Olkəmizdə turizmininkişafı yeni inkişaf mərhələsindədir / Ağalar Hacıyev // Respublika.-2017.- 27 sentyabr.- S.6.

Eminov, N.Qeyri-neft sektorunda turizmin çəkisi artmaqdadır:27 sentyabr Beynəlxalq Turizm Günüdür / Nəzər Eminov // Xalq qəzeti.- 2019.- 27 sentyabr.- S.6.

Bayramova, Z. 27 sentyabr Beynəlxalq Türizm Günüdür / Zümrüd Bayramova // Səs.-2019.- 27 sentyabr .- S.13.

İnternetdə:

https://icherisheher.gov.az/az/173-news-detail/

http://www.anl.az/down/meqale/ses/2019/sentyabr/673274(meqale).pdf

Anım günü
(2020)



27 sentyabr - doğma torpaqlarımızı işğaldan azad etmək, ölkəmizin sərhədlərini təxribatlardan qorumaq üçün iradəmizin güclü təməli, Qarabağda erməni hökmranlığını başa çatdıracaq hərbi-siyasi gücümüzün ortaya qətiyyətlə qoyulduğu, milli ruhumuzun, milli həmrəyliyimizin öz sözünü kəskinliklə dediyi şərəfli bir tarixdir.

2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Cünnüt əməliyyatı, 2020-ci ilin iyul ayında Tovuz döyüşləri Anım gününə və qələbəyə gedən yolun başlanğıcı olmuşdur.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədi ilə 27 sentyabrda bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan Ordusu 1990-cı illərin əvvəlində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başlamış, 44 gün davam edənmüharibəAzərbaycanın qələbəsi ilə başa çatmışdır. Azərbaycanın mədəniyyət paytaxtıŞuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən sonra, noyabr ayının 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentihərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalamış, Azərbaycan torpaqlarının uzun müddət davam edən işğalına son qoyulmuşdur.Vətən müharibəsində 2914 Azərbaycan hərbçisi şəhid olmuş, mindən çox əsgər yaralanmışdır.

Əks-hücum əməliyyatı nəticəsində noyabr ayının 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilmiş, Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şüküraz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olunmuşdur. İmzalanmış bəyanata əsasən noyabr ayının 20-də Ağdam rayonu, 25-də Kəlbəcər rayonu, dekabr ayının 1-də Laçın rayonu, 2022-ci il avqust ayının 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülmüşdür. 2023-cü il aprel ayının 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd buraxılış məntəqəsi yaradılmış, sentyabr ayının 20-də həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim olmuş, dövlət suverenliyimiz tam təmin edilmişdir.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması ilə bağlı 2020-ci ildekabr ayının 2-dəSərəncam imzalamış, Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə hər il sentyabr ayının 27-də saat 12:00-da ölkə ərazisində bir dəqiqəlik sükut elan edilmişdir. 2020-ci il dekabr ayının 3-də Azərbaycan Prezidenti Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir.

Ədəbiyyat

Əfəndiyev, N. Ölməzlik qazananların məkanı ürəklərdir:27 Sentyabr Azərbaycanda Anım Günüdür / Nəsimi Əfəndiyev // Xalq qəzeti.- 2023.- 27 sentyabr.- S.5.

Səfərova, S. Anım Günü - müasir Azərbaycanın şərəfli tarixi rəmzlərindən biri kimi... / Samirə Səfərova //Bakı Xəbər.-2023.- 28 sentyabr.- S.4.

Əsgər və zabitlərimizin igidliyinin, xalqımızın əzminin simvolu: [27 sentyabr - Anım Günü] // Mədəniyyət.- 2023.- 29 sentyabr.- S.1;2.

İnternetdə

https://az.wikipedia.org/wiki/An%C4%B1m_G%C3%BCn%C3%BC_(Az%C9%99rbaycan)

https://copat.gov.az/az/news/27-sentyabr-anim-gunudur

https://www.muallim.edu.az/news.php?id=22149

OKTYABR



24 sentyabr-
23 oktyabr

Tərəzi bürcü Nişanı havadır. Veneranın himayəsindədir. Günəşin Tərəzi bürcündən keçdiyi dövrdə doğulanlar yumşaq xasiyyətli, parlaq zəkalı olurlar

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30	31			

- *Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir (03.10.1993)*
- *Azərbaycan Respublikası Prezidentliyinə alternativ əsasda keçirilən seçkilərdə İlham Əliyev qalib gəlmişdir (15.10.2003)*
- *Dövlət Müstəqilliyinin Bərpası Günü (18.10.1991)*

Yaşıl dünya naminə həmrəylik ili



İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Qeyri-sabit hava şəraiti tək Azərbaycanda deyil dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər yaratmaqdadır.

Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə yüksək dərəcədə həssas bir ölkədir və ölkə artıq iqlim dəyişmələrinin mənfi təsirlərini - daşqınlar, sellər, quraqlıq, istilik stressləri və s. kimi təbiət hadisələrinin sayının artmasını özündə hiss edir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 2015-ci ildə Paris şəhərində keçirilmiş 21-ci Tərəflər Konfransında qlobal iqlim dəyişmələri üzrə 2020-ci ildən sonrakı dövr üçün iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səviyyəli beynəlxalq-hüquqi sənəd olan Paris Sazişi qəbul edilmiş, 2018-ci ilin may ayında "İqlim dəyişmələrinə adaptasiya sahəsində meteorologiya təşkilatlarının vacib rolu" mövzusunda konfrans keçirilmişdir. Azərbaycan müxtəlif layihələrin həyata keçirilməsi yolu ilə bir sıra beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq edir. Beləliklə, iqlim dəyişikliyinin azaldılması texnologiyası və bu sahədə potensialın yaradılması ilə bağlı 30-dan çox layihə həyata keçirilmişdir

OKTYABR

2024



Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi, şair, dramaturq Rzayev Hüseyn Məmməd oğlunun (Hüseyn Razi) (17.10.1924-27.02.1998) anadan olmasının 100 illiyi. 574
Əməkdar incəsənət xadimi, şair, kinodramaturq, ssenarist Axundova Alla Nuru qızının (27.10.1939) anadan olmasının 85 illiyi 575



Dünya ədəbiyyatı

Ukrayna şairi, SSRİ Dövlət mükafatı laureatı Bajan Mikolo Platonoviçin (09.10.1904-23.11.1983) anadan olmasının 120 illiyi
Rus şairi Lermontov Mixail Yuryeviçin (15.10.1814-27.07.1841) anadan olmasının 210 illiyi 576
Qazax uşaq yazıçısı, şair, ssenarist Berdibek Sokpakbayevin (15/13.10.1924-24.07.1991) anadan olmasının 100 illiyi
Məşhur türk ozan-şairi Satıroğlu Veysəlin (Aşıq Veysəl) (25.10.1894- 21.03.1973) anadan olmasının 130 illiyi 577
Qırğızıstan xalq ozanı, manasçı Toktogul Satılganovun (25.10.1864-17.02.1933) anadan olmasının 160 illiyi



Musiqi. Opera. Balet

Əməkdar artist, opera müğənnisi, aktrisa Aslanova Sona Şahnəzər qızının (04.10.1924- 09.03.2011) anadan olmasının 100 illiyi 578
Bəstəkar, şair, rəssam, folklorçu Cavid Ərtoğrul Hüseyn Cavid oğlu Rasizadənin (22.10.1919-14.11.1943) anadan olmasının 105 illiyi 579



Teatr. Kino

Əməkdar incəsənət xadimi, aktyor, teatr rejissoru Həsənov Vaqif İbrahim oğlunun (Vaqif İbrahimoğlu) (18.10.1949-12.05.2011) anadan olmasının 75 illiyi 580



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Kazım Ərşad oğlunun (01.10.1969-15.11.1991) anadan olmasının 55 illiyi 581
Azərbaycanın Milli Qəhrəmanı Babayev Çingiz Adil oğlunun (02.10.1964-28.10.1995) anadan olmasının 60 illiyi 582
Azərbaycanın Milli Qəhrəmanı Rzayev Rövşən Abdulla oğlunun (15.10.1969-08.01.1999) anadan olmasının 55 illiyi 583
Azərbaycanın Milli Qəhrəmanı Polovinko Ruslan Aleksandroviçin (21.10.1969-06.08.1992) anadan olmasının 55 illiyi 584



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Kapitan Pənahov Rövşən Mahmud oğlunun (02.10.1989–02.10.2020) anadan olmasının 35 illiyi 585
Əsgər Quliyev Sehrulla Xeyrulla oğlunun (02.10.1999–21.10.2020) anadan olmasının 25 illiyi 586
MAHHXHQ əsgər Hacıyev Fərid Təşkilat oğlunun (04.10.1989–30.09.2020) anadan olmasının 35 illiyi 586
MAHXHHQ əsgər Verdiyev Eldəniz Rabil oğlunun (04.10.1999–27.09.2020) anadan olmasının 25 illiyi 587
Əsgər Hüseynli Elxan İsrayıl oğlunun (04.10.1999 – 09.11.2020) anadan olmasının 25 illiyi 587
MAHHXHQ əsgər Məsimov Əkbər Yunis oğlunun (05.10.1994 – 27.09.2020) anadan olmasının 30 illiyi 588
Əsgər Nəcəfli Oruc Rövşən oğlunun (06.10.1989–17.10.2020) anadan olmasının 35 illiyi. 588
Əsgər Fərəcov Əflatun Mircangir oğlunun (07.10.1999 – 14.11.2020) anadan olmasının 25 illiyi 589
Əsgər Paşayev Samir Adışirin oğlunun (07.10.1999–29.09.2020) anadan olmasının 25 illiyi 589
Baş leytenant Bayramov Ramin Hüseynağa oğlunun (08.10.1979–31.10.2020) anadan olmasının 45 illiyi 590
Əsgər Sarkayev Nəcməddin Əli oğlunun (09.10.1999–05.11.2020) anadan olmasının 25 illiyi 590
T/x baş leytenantı Ənvərli Aqşin Faiq oğlunun (10.10.1994 – 06.11.2020) anadan olmasının 30 illiyi 591
Baş leytenant Məmmədzadə Mikayıl İlqar oğlunun (10.10.1994–28.09.2020) anadan olmasının 30 illiyi 591
MAHHXHQ əsgər İbrahimov İbrahim Abdulla oğlunun (10.10.1999 – 09.11.2020) anadan olmasının 25 illiyi 592
MAHHXHQ kiçik çavuş Murtuzəliyev Xəqani İsa oğlunun (11.10.1984–20.10.2020) anadan olmasının 40 illiyi 592
Kapitan Əsgərov Samid Gülmalı oğlunun (12.10.1989–30.09.2020) anadan olmasının 35 illiyi 593
Baş leytenant Hüseynli Əmrah Namiq oğlunun (12.10.1994 – 26.10.2020) anadan olmasının 30 illiyi 594
Əsgər Adgözəlov Ceyhun Çoban oğlunun (12.10.1994 – 06.11.2020) anadan olmasının 30 illiyi 595
MAHHXHQ Kiçik çavuş Vəlixanov Rövşən Aydın oğlunun (15.10.1994 –02.10.2020) anadan olmasının 30 illiyi 595
Baş leytenant Gülüşov Tərlan Salman oğlunun (16.10.1994– 21.10.2020) anadan olmasının 30 illiyi 596

OKTYABR

2024

MAHHXHQ əsgər İsmayılzadə Müşfiq Xanlar oğlunun (16.10.1994 – 01.10.2020) anadan olmasının 30 illiyi 596
Kiçik gizir Rəsulov Mirbala Əmirağa oğlunun (17.10.1989–06.10.2020) anadan olmasının 35 illiyi 597
Əsgər Balakişiyev Xəyal Müseyib oğlunun (17.10.1994 – 25.10.2020) anadan olmasının 30 illiyi 597
Əsgər Qənbərli Taleh Abil oğlunun (17.10.1994 – 06.11.2020) anadan olmasının 30 illiyi 598
Çavuş Qasımov Eltun Vüqar oğlunun (18.10.1994 – 18.10.2020) anadan olmasının 30 illiyi 598
Əsgər Abbasov Fərrux Azər oğlunun (18.10.1994 – 26.10.2020) anadan olmasının 30 illiyi 599
Kiçik çavuş Abbasov Tural Fəzayıl oğlunun (19.10.1989 – 02.10.2020) anadan olmasının 35 illiyi 599
MAHHXHQ əsgər Həsənov Sahib Azər oğlunun (19.10.1999 – 17.10.2020) anadan olmasının 25 illiyi 600
MAHHXHQ baş əsgər Əliyev Elman Rakif oğlunun (23.10.1994–20.10.2020) anadan olmasının 30 illiyi 600
MAHHXHQ əsgər Eldarzadə Azər İsmixan oğlunun (25.10.1994 – 03.10.2020) anadan olmasının 30 illiyi 601
Əsgər İbadlı Araz Babəli oğlunun (25.10.1999 – 09.10.2020) anadan olmasının 25 illiyi 601
Polkovnik–leytenant Təhməzov Elzamin Kamal oğlunun (26.10.1979 – 28.09.2020) anadan olmasının 45 illiyi 602
Baş gizir Bədəlov Oktay Ələddin oğlunun (27.10.1984 – 27.10.2020) anadan olmasının 40 illiyi 602
MAHHXHQ əsgər Osmanov Məhəmməd Seymur oğlunun (27.10.1994 – 04.10.2020) anadan olmasının 30 illiyi 603
Kiçik gizir Quliyev Fərid Ayazxan oğlunun (28.10.1994 – 09.10.2020) anadan olmasının 30 illiyi 603
MAHHXHQ əsgər İsmayılov Kənan Mənsur oğlunun (28.10.1994 – 10.10.2020) anadan olmasının 30 illiyi 604
Gizir Nağıyev Anar Sahib oğlunun (30.10.1989 – 08.11.2020) anadan olmasının 35 illiyi 604
Əsgər Əhədov Mehrac İntiqam oğlunun (30.10.1999 – 21.10.2020) anadan olmasının 25 illiyi 605
Əsgər Əliyev Şöhrət Cambulat oğlunun (30.10.1999 – 08.11.2020) anadan olmasının 25 illiyi 605
Əsgər İsmayılov Rövşən Məmmədağa oğlunun (30.10.1999 – 13.10.2020) anadan olmasının 25 illiyi 606
Əsgər Tahirov Rəşid Loğman oğlunun (31.10.1989 – 06.11.2020) anadan olmasının 35 illiyi 606

OKTYABR 2024



Siyasət. Hərbi iş

Hərbi xadim, Azərbaycan ordusunun general-mayoru Əfəndiyev Süleyman bəy Əlisüleyman oğlunun (5.10.1864-21.02.1919) anadan olmasının 160 illiyi
General-mayor Bakıxanov Cəfərqulu ağa Mirzə Məhəmməd xan oğlunun (24.10.1799/1793-1867) anadan olmasının 225 illiyi
Dövlət xadimi, tarix elmləri doktoru Seyidzadə Dilarə Bağır qızının (25.10.1939) anadan olmasının 85 illiyi 607



İqtisadiyyat. Fəlsəfə

Akademik, filosof Qasımzadə Fuad Feyzulla oğlunun (22.10.1929-03.08.2010) anadan olmasının 95 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar jurnalist, filologiya üzrə fəlsəfə doktoru, dosent, şair, tərcüməçi və ədəbiyyat tədqiqatçısı Cəmilov Adil Savalan oğlunun (Adil Cəmil) (08.10.1954) anadan olmasının 70 illiyi 608
Maarif xadimi Qayıbzadə Əsgər ağa Mirzə Nəbi Əfəndi oğlunun (09.10.1849-30.12.1919) anadan olmasının 175 illiyi
Filologiya elmləri doktoru, şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, İmanquliyeva Aida Nəsir qızının (10.10.1939-19.09.1992) anadan olmasının 85 illiyi 609
Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor, şərqşünas alim Məmmədov Ələsgər Cəfər oğlunun (10.10.1919-29.01.2000) anadan olmasının 105 illiyi 610
Akademik, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas Həbibbəyli İsa Əkbər oğlunun (16.10.1949) anadan olmasının 75 illiyi 611
Türkoloq, filologiya elmləri doktoru Mirzəliyeva Məhəbbət Mirzəxan qızının (17.10.1949-22.07.2016) anadan olmasının 75 illiyi
Filologiya elmləri doktoru, professor Məmmədov Alxan Bayram oğlunun (Alxan Bayramoğlu) (22.10.1954) anadan olmasının 70 illiyi 612
Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Mikayılov Şəmistan Abdu oğlunun (24.10.1929-15.11.2018) anadan olmasının 95 illiyi



Coğrafiya. Geologiya.

AMEA-nın müxbir üzvü, coğrafiya elmlər doktoru, professor Xəlilov Şahvələd Binnət oğlunun (07.10.1939-26.09.2007) anadan olmasının 85 illiyi
Əməkdar geoloq Ağdamski Məmməd Əhməd oğlunun (20.10.1934-31.08.2019) anadan olmasının 90 illiyi


OKTYABR

2024



Fizika.Riyaziyyat.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor Sadıxov Rzaqulu Zeynal oğlunun (15.10.1944-15.10.2015) anadan olmasının 80 illiyi



Kimya.Biologiya.Tibb

Akademik, Əməkdar elm xadimi, kimya elmləri doktoru Məmmədyarov Məhərrəm Əli oğlunun (17.10.1924–02.01.2022) anadan olmasının 100 illiyi 613
Biologiya elmləri doktoru Novruzova Zivər Ələkbər qızının (29.10.1914-22.10.1995) anadan olmasının 110 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Əməkdar mədəniyyət işçisi Əhmədov Mayıl Hilal oğlunun (17.10.1959) anadan olmasının 65 illiyi 614



Texnika. Mühəndis işi

Əməkdar elm xadimi, avtomexanika sahəsində alim Babayev Sabir Həbib oğlunun (08.10.1929) anadan olmasının 95 illiyi
Texnika elmləri doktoru, professor, kimyaçı alim Cavadova Həqiqət Əliəşrəf qızının (09.10.1939) anadan olmasının 85 illiyi
Akademik, texnika elmləri doktoru Məmmədov Vaqif Əhməd oğlunun (27.10.1939-01.02.2008) anadan olmasının 85 illiyi
Texnika elmləri doktoru, professor Fərhadova Gülarə Məmmədtağı qızının (28.10.1944-27.10.2004) anadan olmasının 80 illiyi
AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Ramazanova Elmira Məmmədəmin qızının (28.10.1934-08.12.2020) anadan olmasının 90 illiyi 615
AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Qurbanov Ramiz Seyfulla oğlunun (30.10.1934) anadan olmasının 90 illiyi 616



Digər tarixi hadisələr

Beynəlxalq Musiqi Günü (01.10.1975) 617
Beynəlxalq Ahıllar Günü (01.10.1992)
Prokurorluq İşçiləri Günü (01.10.1998)
Beynəlxalq Qeyri-zorakılıq Günü (02.10.2007)
Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü (03.10.2009) 618

OKTYABR 2024

Beynəlxalq Heyvanları Müdafiə Günü (04.10.1931)
Cəbrayıl Şəhəri Günü (04.10.2020) 619
Gəncə terroru (04, 05, 08, 11, 17 oktyabr 2020)
"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Fərman imzalamışdır (04.10.2021)
Beynəlxalq Müəllimlər Günü (05.10.1966) 620
Bərdə terroru (05, 27, 28 oktyabr 2020)
Ümumdünya Quşları Müşahidə Günü (5-6.10.1993)
Ümumdünya Yaşayış Yerini Qoruma Günü (06.10.1979)
Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında qanun qəbul edilmisdir (06.10.2020)
Azərbaycanla Küveyt arasında diplomatik münasibətlər qurulmuşdur (07.10.1994)
Ümumdünya Poçt Günü (09.10.1974)
Yanğınsöndürənlərin peşə bayramı günü (10.10.2002)
Dəmir yolu işçilərinin peşə bayramı günü (13.10.2005)
Beynəlxalq Təbii Fəlakətlərdən Qorunma Günü (13.10.2009)
Ümumdünya Yoxsulluqla Mübarizə Günü (17.10.1992)
Füzuli Şəhəri Günü (17.10.2023) 621
Dövlət Müstəqilliyin Bərpası Günü (18.10.1991) 622
Azərbaycan Dövlət Yuğ Teatrının (18.10. 1989) yaradılmasının 35 illiyi
Beynəlxalq Kulinariya Günü (20.10.2004)
Ümumdünya Statistika Günü (20.10.2010)
Zəngilan Şəhəri Günü (20.10.2023). 623
Energetiklər günü (20.10.2004)
Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi yaradılmışdır (23.10. 2004)
Birləşmiş Millətlər Təşkilatı Günü (24.10.1971)
Hepatit virusu kəşf edilmişdir (25.10.1989)
Qubadlı Şəhəri Günü (25.10.2023) 624
Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında qanun qəbul edilmişdir (27.10.2020)
Azərbaycan Respublikası Mavritaniya ilə diplomatik əlaqələr qurmuşdur (29.10.1994)
Azərbaycan Xalq Cümhuriyyəti dövründə Mətbuat haqqında Nizamnamə qəbul edilmişdir (30.10.1919)
Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü (30.10.1974)

Hüseyn Razi – 100

(1924–1998)

Şair-dramaturq



Hüseyn Məmməd oğlu Rzayev 1924-cü il oktyabr ayının 17-də Naxçıvan MR Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur. Ordubad Pedaqoji Məktəbini bitirdikdən sonra Culfa rayonunun Ərəzin kəndində orta məktəbdə müəllim işləmişdir.

İkinci dünya müharibəsində 1943-1945-ci illərdə Sovet ordusu sıralarında Oryol, Kursk, Bryansk istiqamətində gedən döyüşlərdə iştirak etmiş, yaralanmış, sağaldıqdan sonra kiçik təyyarə mütəxəssisləri məktəbini bitirmiş, ikinci Pribaltika cəbhəsində əlahiddə uzaq kəşfiyyat alayında xidmət etmiş, ordudan tərxis olunmuşdur. 1959–cu ildə S.M.Kirov adına ADU–nun filologiya fakültəsini bitirmişdir.Ordubadda səkkizillik məktəbdə müəllim, Dəstə kənd klubunda müdir, Naxçıvan Radio Verilişləri Redaksiyasında redaktor, "Şərq qapısı" qəzetində ədəbi işçi, Azərbaycan Teleqraf Agentliyinin Naxçıvan MR üzrə xüsusi müxbiri vəzifəsində çalışmışdır.

1962-1989-cu illərdə "Şərq qapısı" qəzetində Ədəbiyyat və İncəsənət şöbəsinin müdiri olmuşdur.

1947-ci ildə ilk şeirləri "Şərq qapısı" qəzeti və "İnqilab və mədəniyyət" jurnalında çap olunmuş, bundan sonra dövri mətbuatda müntəzəm olaraq çıxış etmişdir. O, poetik yaradıcılıqla bərabər tərcümə ilə də məşğul olmuşdur. M.İsakovski, L.Martınov, S.Mixalkov, S.Şipaçev, O.Şestinski, R.Həmzatov, R.Babacan, A.Bartonun şeirlərini dilimizə tərcümə etmişdir. Şeirləri türk, tatar, fars, fransız və rus dillərinə tərcümə olunmuşdur.1958–ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1959–cu ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü olmuşdur.

Dramaturq kimi onun "Odlu diyar" (1963), "Tarla gözəli" (1964), "Günəş" (1968), "Arxalı dağlar" (1974), "Haray səsi" (1978), "Şirinliyin acısı" (1981) pyesləri teatrlarda tamaşaya qoyulmuşdur. "Buludlar arasında", "Həyəcanlı gecə" nəsr əsərlərinin, yüzlərlə publisistik məqalə və oçerklərin, teatr resenziyalarının, "İrəvan ədəbi mühiti" adlı irihəcmli tədqiqat işinin müəllifidir.

Çexiya, Macarıstan, Slovakiya, Polşa, İran, İraq və başqa xarici ölkələrə səfər etmişdir.

Xidmətlərinə görə bir neçə medala, 1981-ci ildə Naxçıvan MR, 1984-cü ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi adına,Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin və Naxçıvan MR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanlarına layiq görülmüşdür.

Şair, dramaturq Hüseyn Razi 1998-ci ildə fevral ayının 27-də vəfat etmiş və Dəstə kəndində dəfn edilmişdir.

2023-cü ildə AMEA Naxçıvan Bölməsinin direktoru Sahab Əliyevanın "Hüseyn Razinin publisistikası" adlı monoqrafiyası çap olunumuşdur. Kitabda şair və publisist Hüseyn Razinin yaradıcılığının mühüm qolunu təşkil edən publisistik irsi ilk dəfə sistemli şəkildə araşdırılır.

Ədəbiyyat:

Əliyeva, S.Hüseyn Razinin publisistikası:monoqrafiya /Sahab Əliyeva; elmi red. və ön sözün müəl. F. Xəlilov; AMEA, Naxçıvan Bölməsi.– Naxçıvan: [Əcəmi], 2021.– 223, [1] s.

Nağdəliyeva, B.Kitablar, rəylər : İlk monoqrafiyanın uğuru: [Sahab Əliyevanın "Hüseyn Razinin publisistikası"monoqrafiyası haqqında] / Bibixanım Nağdəliyeva //Elmi əsərlər: İctimai və humanitar elmlər seriyası / AMEA, Naxçıvan bölməsi.–2021.– C.17, № 3.– S.300–301.

Quliyev,Ə.Qədim diyarın tərənnümçüsü: Hüseyn Razi poetik zənginliyi ilə seçilən yaradıcılıq irsi yadigar qoyub /Əsəd Quliyev//Mədəniyyət.–2021.– 15 oktyabr.– S. 6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/H%C3%BCseyn_Razi

https://ikisahil.az/post/240101–sherq–qapisi–qezeti–ve–huseyn–razi

http://www.anl.az/down/meqale/kredo/2020/yanvar/693982(meqale).pdf

Alla Axundova - 85

(1939) *Şair-kinodramaturq*



Alla Nuru qızı Axundova 1939-cu il oktyabr ayının 27-də Moskvada anadan olmuşdur.1964–cü ildə Maksim Qorki adına Ədəbiyyat İnstitutunu və 1967-ci ildə Ali rejissorluq və ssenaristlər kursunun ssenari bölməsini bitirmişdir.

1957-ci ildən mətbuatda şeirləri və əsərləri dərc olunan Alla Axundova bir sıra qısametrajlı, eyni zamanda cizgi filmlərinin müəllifidir.

Xarici film istehsalçılarının "Bizim oynadığımız dənizin kənarında" (1967, rejissor Vladimir Mkedonski (Rusiya), "Bir dəfə yayda" (1973, rejissor Gennadi Vasilyev, Boris Naşekin, Vladimir Saruxanov (Rusiya), "Avtomobil, skripka və it Klyaksa" (1974, rejissor Rolan Bıkov (Rusiya), "Orada, görünməyən yollarda" (1982, rejissor Mixail Yuzovski (Rusiya), "Unudulmuş əşyalar" (1982, rejissor Viya Veynete (Latviya), "Lyuboçka" (1984, rejissor Valeri Fedoso (Rusiya) filmlərinin ssenarilərinin müəllifidir.

"Şərikli çörək" (1969), "Cırtdan" (1969), "Var olun, qızlar" (1972),"Şahzadə–qara qızıl" (1974),"Alma almaya bənzər" (1975),"Şir evdən getdi" (1977), "Bizi bağışlayın" (film, 1979), "Uşaq və külək", (1982), "Təqib" (1984), "Bahar əyləncələri" (1989) kimi ekran əsərlərinin yaranmasında misilsiz xidmətlər göstərmişdir.

1970-ci ildə SSRİ Yazıçılar İttifaqının,1971-ci ildə SSRİ Kinematoqrafçılar İttifaqının üzvü olmuşdur. Bütün fəaliyyəti dövrü Azərbaycan ədəbiyyatının Rusiyada təbliğini də unutmamış, çoxsaylı şairlərimizin şeirləri onun tərcüməsində dərc olunmuş, "Dədə Qorqud" dastanını da rus dilinə çevirmişdir.

Əsərləri ingilis, ərəb, gürcü, türk dillərinə tərcümə edilmiş Alla Axundova 1969-cu ildə "Azərbaycanfilm" kinostudiyasında buraxılmış "Şərikli çörək" kinofilminin ssenarisinə görə Respublika Dövlət mükafatına və 1988-ci ildə Azərbaycanın əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Ədəbiyyat:

Qısqanclıq/ Alla Axundova //Ədəbiyyat qəzeti.–2014.–25 aprel.– S.16.

Variasiya: "Ulduz" jurnalı ilə "Ədəbiyyat qəzeti"nin birgə layihəsi: [Alla Axundovanın yaradıcılığı haqqında] //Ədəbiyyat qəzeti.–2014.– 11 aprel.–S.16.

Fəhmi,İ.Üç "Ax"dan biri: Şairə Alla Axundovanın 80 illiyinə /İlqar Fəhmi//Ədəbiyyat qəzeti.–2019.– 5 oktyabr.– S.18–19.

İnternetdə:

https://news.milli.az/culture/442827.html

https://az.wikipedia.org/wiki/Alla_Axundova

https://www.facebook.com/kinobiz.az/photos/az%C9%99rbaycankinosu12027–oktyabr–ssenarist–alla–axundovan%C4%B1n–do%C4%9Fum–g%C3%BCn%C3%BCd%C3%BCralla–axund/1915657031848995/

Mixail Yuryeviç Lermontov - 210

(1814-1841)

Rus şairi



Mixail Yuryeviç Lermontov 1814-cü il oktyabr ayının 15-də Moskvada anadan olmuşdur.

Şairin uşaqlıq illəri nənəsinin malikanəsində - Tarxanı kəndində keçmişdir. Qohumları ilə Qafqaza səfərləri (1818, 1820, 1825) Lermontovun xatirəsində silinməz izlər buraxmışdır.

İlk təhsilini evdə xarici müəllimlərdən almış, 1828-ci ildə Moskva Əsilzadələr Pansionuna daxil olmuş və 1828-ci ildə "Çərkəzlər", "Dəniz qulduru", "Qafqaz əsiri", 1829-cu ildə "Cani", "Demon" poemalarını, bir çox lirik şeirlərini burada yazmışdır.

Moskva Universitetindəki təhsil illəri (1830-1832) Lermontovun formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bu illərdə Lermontov Puqaçov hərəkatından bəhs edən "Xadim" (1832) tarixi romanı üzərində işləmiş, "İsmayıl bəy", "Hacı Abrek" (1833-1834) romantik poemalarını və "Qəribə adam" (1831) dramını yazmışdır. A.S.Puşkinin ölümünə həsr etdiyi "Şairin ölümünə" (1837) şeiri Lermontovun yaradıcılığında həlledici rol oynamışdır. M.Y.Lermontov dostu S.Rayevskiyə yazdığı məktublarda Qafqaz təəssüratlarını onunla bölüşmüşdür.

O, Tiflisdə olarkən "tatar (azərbaycanlı) alim Əli və Əhməd"lə tanış olduğunu, Şuşa (yəqin ki, Şəki), Quba, Qusar və Şamaxını gəzdiyini, yerli əhali ilə ünsiyyətini və hətta, fransız dili Avropada vacib olduğu qədər, Asiyada geniş işlənən tatar dilini öyrənməyə başladığını da vurğulamışdır. Şair hərbi qulluqda ikən Qafqaza səfəri zamanı dramaturq Mirzə Fətəli Axundzadə ilə tanış olmuş və dost olmuşdur. Axundzadənin sayəsində şair Qafqaz xalqları, onların adət və ənənələrini yaxından tanımış və həmçinin Azərbaycan dilini öyrənməyə səy göstərmişdir.

Lermontov şeir yazmaqla yanaşı, həm də Qafqaz mənzərələrini çəkmişdir. O, Azərbaycan dilini yüksək qiymətləndirmiş və əsərlərində çoxlu Azərbaycan sözləri işlətmişdir. Lermontovun "İsmayıl bəy", "Hacı Abrek", "Fərari", "Demon", "Mtsıri" romantik poemalarının mövzuları Qafqazla bağlıdır. Dəfələrlə Qafqaza səyahət edən şair M.F.Axundovun yaxından köməyi nəticəsində məşhur məhəbbət dastanımız "Aşıq Qərib"i "Türk nağılı" adı ilə yazıya almışdır.

M.Y.Lermontov rus ədəbiyyatında realist rus sosial-psixoloji roman janrının əsasını qoymuş və "Zəmanəmizin qəhrəmanı" romanını qələmə almışdır. Bu əsər 1908-ci ildə Azərbaycan türkcəsinə çevrilmişdir. Bu mövzudan təsirlənən tanınmış şair və yazıçımız, rus ədəbiyyatının gözəl bilicisi və tərcüməçisi Abdulla Şaiq isə Azərbaycan həqiqətlərini əks etdirən "Əsrimizin qəhrəmanı" romanını yazmışdır.

Mixail Yuryeviç Lermontov 1841-ci il iyul ayının 7-də Pyatiqorskda dueldə öldürülmüşdür.

Onun "Zəmanəmizin qəhrəmanı", "Maskarad" və s. əsərləri ekranlaşdırılmışdır. Ədəbi irsi Azərbaycan dilində nəşr olunmuş, Azərbaycanla əlaqəsi öyrənilmişdir. Bakıda adına küçə var. Qusarda olarkən yaşadığı evdə barelyefi qoyulmuş, ev-muzeyi yaradılmışdır.

Ədəbiyyat:

Zəmanəmizin qəhrəmanı: [Roman] / Mixail Lermontov; tərc. C. Məcnunbəyov.- [Bakı]: [Qanun], [2021].- 214, [1] s.

Zəmanəmizin qəhrəmanı: [roman : orijinaldan tərcümə: yeni redaktə ilə] / Mixail Lermontov; rus dilindən tərc. C. Məcnunbəyov; red.: İ. Əfəndiyev, F. Hüseyn; tərtibatçı Z. Xəlilov; dizayner B. Qafarov.- [Bakı]: Parlaq İmzalar , [2022].- 211, 4] s.

Bu naməyə görə məni əhv eylə...: Klassik rus poeziyasından yeni tərcümələr / Mixail Lermontov; tərcümə və təqdim etdi: Azad Yaşar // Ədəbiyyat qəzeti.- 2023.- 30 sentyabr.- S.46.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Mixail_Lermontov

http://anl.az/el/l/lmy_se.pdf

Aşıq Veysəl - 130

(1894-1973)

Türk xalq ozanı



Veysəl Şatıroğlu (Aşıq Veysəl) 1894-cü il oktyabr ayının 25-də Sivasın Şarkışla bölgəsinin Sivrialan kəndində anadan olmuşdur.Yeddi yaşında ikən Sivasdayayılmış çiçək xəstəliyindən iki bacısı vəfat etmiş, Veysəl isə görmə qabiliyyətini tamamilə itirmişdir. Atası Veysəli iztirablardan qurtarmağa çalışaraq Yunus İmrə, Pir Sultan Abdal, Qaracaoğlan, Əmrah, Dadaloğlu kimi ozanların şeirlərini oğluna öyrətmiş və dərdini azca da olsa unudacağı ümidi iləbir saz almış, onu saz çalmağa, söz qoşmağa həvəsləndirmişdir. Saz onun sevincinin, kədərinin, məhəbbət və iztirablarının tərcümanı olmuşdur.

Çətin həyat keçirmiş, ailə həyatında da ağır sınaqlardan keçmiş aşıqdərvişliyə başlamış, 1928-ci ildən dostlarının köməyi ilə öz elindən ayrılıb qonşu kəndlərdə aşıqlıq etmiş, Sivasın mərkəzinə gəlib çıxmışdır. 1931-ci ildə Sivasın maarif müdiri Əhməd Qutsi Tecərin hazırladığı "Xalq şeirlərini qorumaq dərnəyi"nin bayramında iştirak etməklə, şeirlərini oxuyan Veysəlin şöhrəti hər yerə yayılmışdır.

1941-1944-cü illərdə Əhməd Qutsi Tecərin köməyi ilə şeirlərini yazıya köçürüb çap etdirmişdir. 1942-1943-cü illərdə Arifiyə və Həsənoğlu kəndlərində, daha sonra isə Əskişəhər Çiftçilər kənd institutlarında xalq şeiri müəllimi kimi çalışmış, durumunu və vətən qarşısındakı xidmətlərini nəzərə alaraq 1960-cı ildən ona özəl təqaüd ayrılmışdır.

1970-ci illərdə isə Hümeyra, Fikrət Qızılox və Esin Əfşar kimi sənətçilərin Aşıq Veysəl tərəfindən yazılan mahnıları səsləndirməsi onun şöhrətini daha da artırmışdır.

1944-cü ildə "Deyişmələr", 1950-ci ildə "Sazımdan səslər", 1970-ci ildə "Dostlar məni xatırlasın" kitabları işıq üzü görmüşdür.

Aşıq Veysəl 1973-cü il mart ayının 21-də Sivasda vəfat etmişdir.

Xatirəsini əbədiləşdirmək məqsədilə haqqında film çəkilmiş, ev-muzeyi yaradılmış, hər il "Aşıq Veysəl Aşıqlar Bayramı" adı altında festival keçirilmişdir. İstanbuldakı Gülxanə parkında heykəli ucaldılmışdır. 1984-cü ildə "Bütün şeirləri" adı altında əsərləri təkrar nəşr olunmuşdur.

Aşığın həyat və yaradıcılığı Azərbaycan tədqiqatçıları X. C. Quliyeva-Qafqazlı, Ə. Kərimov tərəfindən tədqiq olunmuşdur.

Ədəbiyyat:

Gəlməz yola gedirəm mən: şeirlər / Aşıq Veysəl // Ədəbiyyat qəzeti.- 2017.- 24 iyun.- S.30.

Sultanova, M.Ankarada "Aşıq Veysəl ili"nin açılışı keçirilib / Mehparə Sultanova // Mədəniyyət.-2019.- 1 may.- S.8.

Baxşıyeva, Ü.Aşıq Veysəl şeirlərində vətən sevgisi / Ülkər Baxşıyeva // 525-ci qəzet.- 2019.- 21 fevral.- S.8.

Eminquey. "Bu bendeki aşk olmasa": [Aşıq Veysəl Satıroğlu yaradıcılığı haqqında] /Eminquey//Ədəbiyyat qəzeti.-2022.- 9 iyul.- S.18.

İnternetdə:

https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_Veys%C9%99l

https://turkic.world/az/articles/who_is_who/82015

Sona Aslanova - 100

(1924-2011) Opera müğənnisi-aktrisa



Sona Şahnəzər qızı Aslanova 1924-cü il oktyabr ayının 4-də Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Konservatoriyasında musiqi təhsili almış, 1952-ci ildə konservatoriyanı bitirdikdən sonraorada dərs deməyə başlamışdır. Azərbycan səhnəsinəonu ilk dəfə Üzeyir Hcıbəyli gətirmiş, "səsi ürəkləri fəth edən qadın" deyə tanıtmışdır.

İtaliyalı Sofe İkonovna Qorskadan dərs alan aktrisa uzun illər Azərbaycan televiziyası, Dövlət Filarmoniyası və estrada orkestrinin solisti olmuş, 200-dən çox Azərbaycan və xarici bəstəkarların nəğmələrini böyük coşqu və məharətləifa etmişdir. Sona Aslanova ikiseriyalı Anlamaq istəyirəm (1980) bədii filmdə Çinarənin anası rolunu canlandırmış, Arşın mal alan (1965), Bir az da Bahar bayramı (1979), Bizim Cəbiş müəllim (1969), Bizim küçə (1961), Doğma xalqıma (1954), Əmək və qızılgül (1962), Görüş (1955), Gün keçdi (1971), İstintaq (1979), Qəmbər Hüseynli (2007), O qızı tapın (1970), Ömrün səhifələri (1974), Telefonçu qız (1962), Üzeyir ömrü (1981) filmlərində mahnıları ifaetmişdir. Azərbaycanda yeganə "Coloratura Soprano" səsinə malik olan ifaçı opera səhnəsində "Arşın Mal Alan"da Gülçöhrə, "Əsli və Kərəm"də Əsli, "Koroğlu"da Nigar obrazını yaratmışdır.

II Dünya Müharibəsinin iştirakçısı olmuş Sona Aslanova 1956-cı il noyabr ayının 6-da "Azərbaycan SSR əməkdar artisti" fəxri adına layiq görülmüş, 1959-cu il iyun ayının 9-da "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Sona xanım 1994-cü ildə ABŞ-a köçmüşdür.

Sona Şahnəzər qızı Aslanova 9 mart 2011-ci ildə Los-Ancelesdə vəfat etmişdir.

Ədəbiyyat:

Mirməmməd, G. Bir Sona xanım var idi: "Operadan ekrana aparan yolun yolçuları" silsiləsindən:[Əməkdar artist Sona Aslanova haqqında] /Gülcahan Mirməmməd //Mədəniyyət.-2020. - 6 may.- S.5.

Ayxan. Operamızın Gülçöhrəsi 87 yaşında dünyasını dəyişdi: [ABŞ-ın Los-Anceles şəhərində yaşayan Əməkdar artist Sona Aslanova haqqında] /Ayxan//Ekspress.-2011.-11 mart.- S. 14.

Opera səhnəmizin Gülçöhrəsi vəfat etdi: Sona Aslanovanın səsini dahi Üzeyir Hacıbəyli "Qəlbləri ovsunlayan səs"adlandırmışdı// Olaylar.-2011.- 11 mart.- S.16.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Sona_Aslanova

https://kulis.az/xeber/media/atasina-hesret-qaldi-olene-qeder-baki-deyib-agladi-nevesi-iraqda-sehid-oldu-colorredkasibliqdan-nesi-yandirilan-mugennimizcolor-36740

https://az.baku-art.com/az/qelbleri-ovsunlayan-s-sin-sahibi-xalq-artisti-sona-aslanova

Ərtoğrul Cavid - 105

(1919-1943)

Bəstəkar



Ədəbiyyat

Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid:on iki cilddə / AMEA, Hüseyn Cavidin Ev Muzeyi; layihənin müəl. və tərt. G. Babaxanlı; fars dil. olan mətn. tərc. və red. T. Kərimli; red. hey.: M. Kərimov [və b.].- C.1-12.- Bakı: Çaşıoğlu, 2011.

Natamam ömrün 100 illik təntənəsi: Ərtoğrol Cavid-100 / Azərb. Resp., Naxçıvan Muxtar Resp. ; tərtib ed.: T. Bakıxanov, N-P Quliyev.- Naxçıvan: [Əcəmi NPB], 2019.-94, [2] s.

Quliyev, N. Hüseyn Cavidin natamam əsəri - Ərtoğrol Cavid / Nazim Quliyev; red. və elmi məsləhətçi G. Babaxanlı [ön söz]; [nəşrə hazırl. C. Cəfərov; işçi qrupu: İ. Novruzova, A. Kərimli, T. Tağıyeva]; AMEA, Hüseyn Cavidin Ev-Muzeyi.- Bakı: Elm və Təhsil, 2019.- 119, [1] s.

Babaxanlı, G.Üzeyir Hacıbəylinin sevimli tələbəsi:Cavid əfəndinin bəstəkar oğlu Ərtoğrul / Gülbəniz Babaxanlı // Xalq qəzeti.-2023.- 24 sentyabr.- S.10.

Ərtoğrul Hüseyn oğlu Rasizadə (Ərtoğrul Cavid) 1919-cu il oktyabr ayının 22-də Bakıda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin ailəsində anadan olmuşdur.

1940-cı Azərbaycan Pedaqoji İnstitutunun (indiki APU) filologiya fakültəsini bitirmiş, 1941-1942-ci ildə Azərbaycan-Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində təhsil almışdır. Burada dahi Üzeyir Hacıbəylidən və başqa məşhur musiqiçilərdən sənətin incəliklərini öyrənmiş, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Tofiq Quliyev, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Hacı Xanməmmədov kimi bəstəkarlarla birlikdə təhsil almışdır. 1938-ci ildə ilk elmi əsəri sayıla biləcək "Məktəb və ailə" referatını yazmışdır. Ərtoğrul 1939-1942-ci illərdə SSRİ Xalq artisti Bülbülün yaratdığı və rəhbərlik etdiyi Musiqi Elmi Tədqiqat Kabinetində işə başlamış, 1940-1941-ci illərdə ştatdankənar işçi kimi Azərbaycan Musiqi Elmi Tədqiqat Kabinetində musiqi və poetik folklorunu yazmaq, habelə rus dilindən Azərbaycan dilinə mahnı mətnlərini tərcümə etmək sahəsində çalışmışdır.O, Bülbül ilə Azərbaycanın bir sıra rayonlarında folklor toplamaq üçün ekspedisiyalarda da iştirak etmişdir.

Ərtoğrul Cavid qələmini dramaturgiya və poeziya sahəsində də sınamış və uğurlu əsərlər yaratmışdır. 34-dən artıq xalq mahnısı və el havalarını nota köçürmüş ("Kürd qızı", "Dağlarda çiçək", "Uca dağlar", "Sona bülbüllər", "Ceyran bala" və s.), aşıqlarımızın ifasında söylənən dastanların mətnlərini yazıya almış, öz yaradıcılığında onlardan yararlanaraq gözəl əsərlər yaratmışdır.

İlk böyük əsəri Üzeyir Hacıbəyliyə həsr etdiyi 1941-1942-ci illərdə fortepiano üçün yazılmış "Doqquz variasiya"dır. Skripka ilə fortepiano üçün poema, Nizaminin "Sevgili yar gəlmiş idi" qəzəlinə, N.Rəfibəylinin "Eşq olsun", türkmən şairi Kəminənin "Leylanın vəsfi", T.Rasizadənin "Sənin-lə olaydım" və s. şeirlərinə romans və mahnılar bəstələmişdir. Böyük Vətən müharibəsi başlanarkən "Cəbhədən məktub" simfonik balladasını və marşlar yazmışdır. "Şeyx Sənan", "Məhsəti" operaları, yazacağı baletdən "Adajio", "Babəkin andı" simfonik poeması və bir sıra vokal, instrumental, kamera əsərləri yarımçıq qalmışdır. O, musiqi sahəsindən başqa, ədəbi-bədii yaradıcılıqda da qələm sınamış, "Eqoistin taleyi" adlı pyes yazmışdır.


Ərtoğrul Cavid 1942-ci il fevralın 22-də İkinci Dünya müharibəsində iştirak etmək üçün ordu sıralarına çağırıldığı üçün təhsilini yarımçıq qoymalı olmuşdur. O, "xalq düşməni"nin oğlu olduğu üçün ön cəbhəyə deyil, Tiflisdəki fəhlə batalyonuna göndərilmişdir. Kübar bir ailədə boya-başa çatmış Ərtoğrul, buradakı ağır şəraitə dözə bilməmiş, tez bir zamanda soyuqlamış, sağalmaz ciyər xəstəliyinə (vərəmə) düçar olmuşdur. O zaman Gürcüstanda məsul vəzifədə çalışan atasının yaxın dostu Əziz Şərif onu Naxçıvana gətirməyə müvəffəq olmuşdur. Lakin müalicələrə baxmayaraq Ərtoğrul 14 noyabr 1943-cü ildə Naxçıvanda vəfat etmiş, məzarı ölümündən 53 il sonra Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Hüseyn Cavidin Naxçıvandakı məqbərəsinə köçürülmüşdür.

Ərtoğlun Cavidin yüz illiyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Hüseyn Cavidin Ev Muzeyi tərəfindən "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" (Bakı, Çaşıoğlu, 2011- 2015) adlı kitab çap olunmuşdur. I cild - "Azərbaycan adət-ənənələri və Ərtoğrol Cavid"; II cild - "Azərbaycan klassik musiqi mətnləri və Ərtoğrol Cavid"; III-VIII cildlər - "Azərbaycan dastanları və Ərtoğrol Cavid"; IX-X cildlər -Azərbaycan aşıq şeirləri və Ərtoğrol Cavid"; XI cild - "Balaman məktəbi" dərsliyi və Ərtoğrol Cavid"; XII cild - "Ərtoğrol Cavidin nota köçürdüyü xalq mahnıları"; XIII cild - "Ərtoğrol Cavidin yarımçıq qalmış əsərləri".

Teatr. Kino.

Vaqif İbrahimoğlu - 75

(1949-2011) *Aktyor-teatr rejissoru*



Vaqif İbrahim oğlu Həsənov (Vaqif İbrahimoğlu) 1949-cu il oktyabr ayının 18-də Bakı şəhərində Mərdəkan qəsəbəsində anadan olmuşdur. 1967-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuş, 1972-ci ildə həmin institutu bitirmişdir. 1973-1976-cı illərdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında aktyor kimi çalışmışdır.

1976-1979-cu illərdə Azərbaycan Teatr Cəmiyyətinin nəzdindəki Eksperimental Teatr Studiyasında, 1979-1982-ci illərdə Tədris Teatrında bədii rəhbər, 1982-1989-cu illərdə isə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında baş rejissor vəzifəsində fəaliyyət göstərmişdir.

Rejissorilk işi olan "Əhvalat vaqe olur", Cəlil Məmmədquluzadənin "Yığıncaq" və Cəfər Cabbarlının "Yaylağa gedir" birpərdəli komediyalarının kompozisiyaları ilə seçdiyi sənət istiqamətini əks etdirmişdir. Türkiyənin Ankara və Bursa teatrlarında, Estoniyanın Uqala Teatrında tamaşalar hazırlamışdır.

Rejissorun milli teatr poetikasını yaratmaq arzusu və bu yolda mətin mübarizəsi artıq fərqli konsepsiya ilə işləyən, fərqli bədii-estetik prinsiplərə söykənən yeni bir teatrın yaranmasını zərurətə çevirmişdir.

1989-cu ildə Həsənağa Turabovun təşəbbüsü və yaxından köməkliyi nəticəsində Akademik Milli DramTeatrının nəzdində "Yuğ" Teatr Studiyası açılmış və 1992-ci il 18 oktyabr tarixində bu studiya dövlət statusu almışdır. Yarandığı ildən Vaqif İbrahimoğlu teatrın bədii rəhbəri vəzifəsində çalışmışdır. Teatrda 1989-cu ildən həyatının sonuna qədər 90-a yaxın tamaşaya quruluş vermişdir. Onun quruluş verdiyi son tamaşa Dövlət Akademik Dram Teatrında "Sərgüzəşti-vəziri-xani Lənkəran" tamaşası olmuşdur.

1991-ci il may ayının 22-də Azərbaycan Respublikasının"Əməkdar incəsənət xadimi" fəxriadına layiq görülmüşdür. ADMİU-nun dosenti olan rejissor Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Qızıl Dərviş" mükafatı laureatı, 2006-cı ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur

Vaqif İbrahimoğlu 2011-ci il may ayının 12-də Bakıda vəfat etmişdir.

2019-cu ilin martında Bakıda Vaqif İbrahimoğlunun xatirəsinə həsr olunmuş "Boş məkanın dolğunluğu" adlı eksperimental tamaşalar festivalı keçirilmişdir.

Ədəbiyyat:

Qəlbimdəki xoş arzular / VaqifİbrahimoğluNaşir Q. İsabəyli.- Bakı: Şirvannəşr, 2012.- 242, [2] s.

Mehdi, N. Vaqif İbrahimoğlunun Türkiyə xatirələri-o, belə göpçulardan ola bilməzdi /Niyazi Mehdi //Ədəbiyyat qəzeti.- 2022.- 24 dekabr.-S.20.

Nizamiqızı, H. Özünü "Psix"liyə vurma!: Yaxud bir Don Kixot bəs edir: [Vaqif İbrahimoğlunun hazırladığı eyniadlı tamaşa haqqında] / Həmidə Nizamiqızı//Mədəniyyət.- 2022.- 11 may.- S.5.

Abdulla, K. "Dəvə yağışı": bir hekayə, iki premyera: [Vaqif İbrahimoğlunun quruluş verdiyi eyniadlı tamaşa haqqında] / Kamal Abdulla //Ədəbiyyat qəzeti.- 2022.-17 sentyabr.- S.4-5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Vaqif_%C4%B0brahimo%C4%9Flu

https://obastan.com/wiki/Vaqif_%C4%B0brahimo%C4%9Flu

https://m.facebook.com/115520856906273/photos/a.116042766854082/134695968322095/?type=3&locale=hi_IN

Kazım Məmmədov - 55

(1969-1991) *Milli Qəhrəman*



Kazım Ərşad oğlu Məmmədov 1969-cu il oktyabr ayının 1-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdur.Orta təhsilini 1976-1986-cı illərdə kənd 1 saylı orta məktəbdə almış, 1986-cı ildə Gəncə İnşaat Texnikomuna daxil olmuşdur.

1988-ci ildə ordu sıralarına çağırılmış, hərbi xidmətini Çelyabinsk şəhərində etmiş, 1990-cı ildə ordudan tərxis olunaraq təhsilini davam etdirmək üçün Gəncə şəhərinə qayıtmışdır. 1991-ci ildə Kazım Məmmədov Cəbrayıl rayon DİŞ-də post-patrul xidmətində işə başlamış və tezliklə cəbhəyə yollanmışdır.

1991-ci il noyabr ayının 15-də ermənilər Xocavənd rayonunun Zamzur kəndinə hücum etmişdir. Gərgin döyüşdə cəsur döyüşçümüz, kiçik çavuş, Azərbaycanın igid oğlu Kazım Məmmədov qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Məmmədov Kazım Ərşad oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Böyük Mərcanlı kəndində dəfn edilmişdir. Təhsil aldığı məktəbə onun adı verilmiş, məktəbin önündə büstü qoyulmuşdur.Adına 3 mükafat təsis edilmişdir.

Ədəbiyyat:

Kiraz, R.20 Yanvar faciəsi və Heydər Əliyevin prinsipial mövqeyi: [Kazım Məmmədovun anım gününə həsr olunmuş tədbir haqqında] / Rağıp Kiraz // Azərbaycan müəllimi.- 2019.- 18 yanvar.- S.13.

Əlifoğlu, Ş.Milli qəhrəmanın xatirəsi anıldı: [Bakıdakı 116 saylı məktəbdə keçirilən tədbir haqqında] / Şakir Əlifoğlu // Yeni Təfəkkür.- 2019.-25 yanvar.- S.4.

Mirzə, M. Kazım Məmmədov:Qürurla anırıq / M.Mirzə //Respublika.- 2022.- 1 oktyabr.-S.9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Kaz%C4%B1m_M%C9%99mm%C9%99dov_(milli_q%C9%99hr%C9%99man)

https://avciya.az/m%C9%99mm%C9%99dov-kazim-%C9%99rsad-oglu/

http://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Memmedov_Kazim.pdf

Milli Qəhramanlar

Çingiz Babayev - 60

(1964-1995)

Milli Qəhrəman



Çingiz Adil oğlu Babayev 1964-cü il oktyabr ayının 2-də Bakı şəhərində anadan olmuşdur.

Orta təhsilini Yasamal rayonundakı 20 saylı orta məktəbdə almışdır. Məkəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur.1986-cı ildə təhsilini başa vuraraq, təyinatla Azərelektroterm zavodunda əmək fəaliyyətinə başlamışdır. İşləməklə yanaşı Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun nəzdində ingilis dili üzrə ikiillik kurs bitirmişdir.1992-ci ildə Yasamal rayon Əhalinin Əmək və Məşğulluq Mərkəzində aparıcı mütəxəssis vəzifəsinə işə qəbul olunmuş, həmin ilkönüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Bir müddət hərbi hissələrin birində qərargah rəisi vəzifəsində çalışmışdır.

1994-cü ildə Azərbaycan Müdafiə Nazirliyinin sərəncamı ilə C.Naxçıvanski adına hərbi liseyə keçirilmişdir. Əvvəlcə taqım komandiri, sonra isə bölük komandiri və tərbiyəvi işlər üzrə müavin vəzifəsinə irəli çəkilmişdir.

Çingiz Babayev 1995-ci il oktyabr ayının 28-də Bakı Metropoliteninin "Ulduz" və "Nərimanov" stansiyaları arasında hərəkət edən qatarda baş vermiş qəzada onlarla sərnişinlərin həyatını xilas edərək faciəli surətdə həlak olmuş, Bakının Yasamal rayon qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 3 noyabr 1996-cı il tarixli 506 saylı Fərmanı ilə Babayev Çingiz Adil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Onun şərəfinə Bakı Metrosunun "Ulduz" stansiyasında abidə kompleksi ucaldılmış, C.Naxçıvanski adına hərbi liseydə isə büstü qoyulmuşdur. Təhsil aldığı orta məktəbə və yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat:

Kərimzadə, Y. Cənab baş leytenant / Yeganə Kərimzadə // Ədalət.- 2017.- 28 oktyabr.- S.7.

Məmmədhəsən. Şəhidlər Xiyabanı ziyarət yerimizdir: [Milli QəhrəmanÇingiz Babayev və Əjdər Babayev haqqında] / Məmmədhəsən // Azad Azərbaycan.- 2017.- 17 may.- S.7.

Mirzə, M. Çingiz Babayev:Qürurla anırıq / M.Mirzə // Respublika.- 2022.- 2 oktyabr.- S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C3%87ingiz_Babayev_(milli_q%C9%99hr%C9%99man)

https://avciya.az/babayev-cingiz-adil-oglu/

http://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Babayev_Cingiz.pdf

Rövşən Rzayev - 55

(1969-1999)

Milli Qəhrəman



Rövşən Abdulla oğlu Rzayev 1969-cu il oktyabr ayının 15-də Bakı şəhərinin Sahil qəsəbəsində anadan olmuşdur.1986-cı ildə 253 saylı orta məktəbi bitirərək, Vladiqafqaz Ali Hərbi Komandirlər Məktəbinə daxil olmuşdur. 1991-ci ildə təhsilini başa vuraraqQazaxıstana təyinat almış, daxili qoşunların tərkibində taqım komandiri kimi fəaliyyətə başlamışdır.

1992-ci ildə Bakıya qayıtmış və "N" saylı mühafizə alayına komandir təyin edilmişdir. Rövşən Rzayev Ağdam rayonunun Papravənd, Pircamal,Aranzəmin, Şelli, Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümayiş etdirmişdir. 1993-cü ildə Ədliyyə Nazirliyinin hərbi hissəsinin qərargah rəisi təyin edilmiş, 1994-cü ildə isə vaxtilə xidmət etdiyi alayın 4-cü taborunda qərargah rəisi olmuşdur. 1996-cı ildə isə Ədliyyə Nazirliyi məhkəmə Qərarlarının Baş İdarəsinin mühafizə alayında qərargah rəisi vəzifəsinə təyin edilmiş, Qobustan həbsxanasında mühafizə bölüyünün komandiri olmuşdur.

1999-cu il yanvar ayının 8-də məhbus qiyamının yatırılmasında iştirak edərək,xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur. Sahil qəsəbəsində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 1999-cu il tarixli 73 saylı Fərmanı ilə kapitan Rzayev Rövşən Abdulla oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.Sahil qəsəbəsində adına park var və burada büstü qoyulmuşdur.

Ədəbiyyat:

Rövşən Abdulla oğlu Rzayevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kapitan - Qobustan həbsxanasında baş vermiş cinayətin qarşısının alınmasında,terrorçuların zərərsizləşdirilməsində, girov görürülmüş insanların həyatının xilas edilməsində, hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən göstərdiyi şəxsi qəhrəmanlıq və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 12 yanvar 1999-cu il // Azərbaycan.- 1999.- 13 yanvar.- (Ölümündən sonra).

Arazlı, A. Təki əsgər yaşasın: povest /A.Arazlı.- Bakı: Çaşıoğlu, 2001.- 224 s.

Rzayev Rövşən Abdulla oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Mili Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.183-184.

Seyidzadə, M. Rzayev Rövşən Abdulla oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.-Bakı, 2010.- S.193.

İnternetdə:

https://az.wikipedia.org/wiki/R%C3%B6v%C5%9F%C9%99n_Rzayev_(kapitan)

http://veten-ugrunda.az/milliqehremanlar/279-rzayev-rvn-abdulla-olu.html

Ruslan Polovinko - 55

(1969-1992)

Milli Qəhrəman



Ruslan Aleksandroviç Polovinko 1969-cu il oktyabr ayının 21-də Xarkov vilayətinin Zmiyev şəhərində mühəndis ailəsində anadan olmuşdur.1987-ci ildə Sızran Ali Hərbi Təyyarəçilər məktəbinə daxil olmuşdur. Ali məktəbi bitirdikdən sonra 1991-ci ildə Naxçıvan şəhərində yerləşən 15425 saylı hərbi hissəyə göndərilmişdir. Azərbaycanda hərbi Hava Qüvvələri yarananda, xidmətini Bakı Ələhiddə Vertolyot Eskadrilyasında təyyarəçi operator vəzifəsində davam etdirmişdir.

Ruslan Polovinko 1992-ci ildən başlayaraq erməni hərbi birləşmələrinə qarşı əməliyyatlarda fəallıq göstərmişdir. Qubadlı, Laçın, Ağdərə uğrunda gedən döyüşlərdə rəşadət nümayiş etdirmişdir. Dəfələrlə vertolyotu ilə təhlükəli yerlərə uçuş etmiş, əhalini və yaralı döyüşçüləri təhlükəsiz yerlərə aparmışdır. Dördüncü uçuş zamanı Ruslan Polovinko qəhrəmancasına həlak olmuşdur. Doğulduğu Zmiyev şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 14 sentyabr 204 saylı Fərmanı ilə Polovinko Ruslan Aleksandroviçə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxriadı verilmişdir.

Ədəbiyyat:

Faxralı, R. Ruslan Polovinko / R.Faxralı // Ömrün üfüqləri /R.Faxralı.- Bakı, 1996.- S.114.

Polovinko Ruslan Aleksandroviç // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Mili Kitabxanası; tərt. ed.H.Həmidova.- Bakı, 2008.- S.173.

Seyidzadə, M. Polovinko Ruslan Aleksandroviç / M.Seyidzadə // Milli qəhrəmanlar zirvəsi / M.Seyidzadə.- Bakı, 2010.-S.184.

Əsgərov, V. Polovinko Ruslan Aleksandroviç / Vüqar Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S.238.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ruslan_Polovinko


https://avciya.az/polovinko-ruslan-aleksandrovic/

https://vetendas.az/ruslan-polovinko/

Rövşən Pənahov - 35

(1989-2020)

Kapitan



Rövşən Mahmud oğlu Pənahov 1989-cu il oktyabr ayının 2-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur.1995-2006-cı illərdə M. Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbində, 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil almışdır.1 il təlim keçmək üçün Bakıda hərbi hissələrdə, 2011-ci ildən Naftalan şəhərində yerləşən "N" saylı hərbi hissədə, 2014-2020-ci illərdə müxtəlif hərbi hissələrdə xidmət etmişdir.

2016-cı il Aprel döyüşlərində iştirak etmiş, xidmətinə görə "kapitan" hərbi rütbəsi almış,"Qüsursuz xidmətə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif edilmişdir.

Kapitan Rövşən Pənahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə qəhramancasına iştirak etmişdir. R. Pənahov oktyabr ayının 2-də -doğum günündə Kəlbəcərin Ömər dağ yüksəkliyi istiqamətində tapşırığı yerinə yetirərkən şəhid olmuşdur. Qazax rayonunun Birinci Şıxlı kəndində dəfn olunmuşdur.

R. Pənahov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan.-2020.- 30 dekabr.- S.24.

İsmayıl, E. Pənahov, Rövşən Mahmud oğlu /Elçin İsmayıl // Qanları ilə dastan yazanlar /E.İsmayıl.-Bakı, 2021.-S.15-17.

İnternetdə:

https://az.wikipedia.org/wiki/R%C3%B6v%C5%9F%C9%99n_P%C9%99nahov

https://memorial.az/az/qehremanlarimiz/2771

https://goyezen.az/manset/5542-dogum-gununde-sehid-olan-qazaxin-igid-oglu-kapitan-rovsen-penahovun-ildonumunde-xatiresi-anilib.html

2 OKTYABR

Sehrulla Quliyev - 25

(1999-2020)

Əsgər



Sehrulla Xeyrulla oğlu Quliyev 1999-cu il oktyabr ayının 2-də Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra, müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuş, hərbi xidmətini başa vurduqdan sonra mülki işdə çalışmışdır.

Sehrulla Quliyev 2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdəqəhramancasınaiştirak etmişdir. Sehrulla Quliyevoktyabr ayının 21-də Qubadlı rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkənşəhid olmuşdur.

S. Quliyev ölümündən sonra“Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə”, “İgidliyə görə” medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il: ["Füzulinin azad olunmasına görə" medalı ilə] //Azərbaycan.-2021.- 6 noyabr.- S.3.

4

Fərid Hacıyev - 35

(1989-2020)

MAHHXHQ əsgər



Fərid Təşkilat oğlu Hacıyev 1989-cu il oktyabr ayının 4-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdur. 2006-cı ildə Biləsuvar rayonundakı məcburi köçkün qəsəbəsində fəaliyyət göstərən İ.Quliyev adına B.Mərcanlı kənd tam orta məktəbini bitirmişdir. Həqiqi hərbi xidməti başa vurduqdan sonra 2014-cü ildən müddətdən artıqhərbi xidmətdə olmuş, Beyləqan və Lələtəpədə xidmət etmiş, 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Hərbiçi F. HacıyevVətən müharibəsindən bir ay əvvəl təlimlərə qoşulmuş, müharibənin ilk günündənCəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Fərid Hacıyevsentyabr ayının 30-da Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanışəhid olmuşdur.

Fərid Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış qəbiristanlıqda dəfn edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan.- 2020.-30 dekabr.- S.20.

Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız: [Vətən müharibəsi şəhidləri haqqında] /Şahanə Müşfiq //525-ci qəzet. - 2021. - 6 may. - S.15.

OKTYABR

4

Eldəniz Verdiyev - 25

(1999-2020)

MAHXHHQ əsgər



Eldəniz Rabil oğlu Verdiyev 1999-cu il oktyabr ayının 4-də Göygöl şəhərində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 2017-2019-cu illərdə N saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmiş, xidmət müddəti bitdikdən sonra, müddətdənartıq hərbi qulluqçu kimi xidmət etmişdir.

Eldəniz Verdiyev 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanı böyük şücaət və igidlik göstərmiş, Murovdağ istiqamətində gedən döyüşlərdə qəhramancasına iştirak etmişdir. E. Verdiyev sentyabr ayının 27-də Murovdağ döyüşləri zamanı itkin düşmüş, 2021-ci il iyun ayının 2-dəMurovdağ istiqamətində nəşi tapılmış, iyun ayının 5-də Göygöl şəhər Şəhidlər xiyabanında dəfn edilmişdir.

E. Verdiyev ölümündən sonra3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. - 25 iyun. -S.80.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il: [3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə"] // Azərbaycan.-2022.- 6 noyabr.- S.2.

4

Elxan Hüseynli - 25

(1999-2020)

Əsgər



Elxan İsrayıl oğlu Hüseynli 1999-cu il oktyabr ayının 4-də Beyləqan rayonunun Yuxarı Kəbirli kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Əli Əsgərov adına Beyləqan rayon Kəbirli kənd tam orta məktəbində təhsil almış, 2017-2019-cu illərdəMüdafiə Nazirliyinin "Həmlə" Taborunda müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Elxan Hüseynli 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsinəkönüllü qoşulmuş,Cəbrayıl, Füzuli, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Elxan Hüseynli 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüşlərzamanı şəhid olmuşdur. Noyabr ayının 10-da Beyləqan rayonunun Yuxarı Kəbirli kəndində dəfn olunmuşdur.

Elxan Hüseynli ölümündən sonra"Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. - 2021. -25 iyun. - S.39.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. - 2021. - 25 iyun. - S.4.

OKTYABR

5

Əkbər Məsimov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Əkbər Yunis oğlu Məsimov 1994-cü il oktyabrın 5-də Ağdaş rayonunun Qaradeyin kəndində anadan olmuşdur.2012-ci ildə həqiqi hərbi xidmətə çağırılmış, Naxçıvanda xidmət etmişdir. 2017-ci ildən müddətdən artıq hərbi qulluqçu kimi xidmətini davam etdirmişdir.

Əkbər Məsimov 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanı böyük şücaət və igidlik göstərmişdir. Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Əkbər Məsimov sentyabrın 27-də Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirərkən itkin düşmüş, 7 iyun 2021-ci ildə nəşi tapılmış və Ağdaş rayonunun Qaradeyin kəndində dəfn olunmuşdur.

Əkbər Məsimov ölümündən sonra“Vətən uğrunda” , “Cəsur döyüşçü” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il: ["Cəsur döyüşçü" medalı ilə]//Azərbaycan. -2021. -6 noyabr. - S.2.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. - 25 iyun. -S.80.

https://memorial.az/az/qehremanlarimiz/3162

6

Oruc Nəcəfli - 35

(1989-2020)

Əsgər



Oruc Rövşən oğluNəcəfli 1989-cu il oktyabr ayının 6-da Yevlax rayonunun Tanrıqulular kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə Mingəçevir şəhərində8 nömrəli tam orta məktəbdə və 2007-2011-ci illərdə isə Mingəçevir Politexnik İnstitutunda "İnformatika və hesablama texnikası" ixtisası üzrətəhsil almışdır.2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Mingəçevir şəhərində yerləşən "Azərişıq" ASC-də əmək fəaliyyətinə başlamışdır.

Oruc Nəcəfli 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılaraq böyük şücaət və igidlik göstərmiş, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə, həmçinin Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Oruc Nəcəfli oktyabrın 17-də Ağdərə istiqamətində "Tülkü dərəsi" adlandırılan ərazidə şəhid olmuş, 19 gün sonra nəşi tapılmış, noyabr ayının 6-da Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Oruc Nəcəfli ölümündən sonra"Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə"və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. -2021. -25 iyun. -S.75.

7 OKTYABR

Əflatun Fərəcov - 25

(1999-2020)

Əsgər



Əflatun Mircangir oğlu Fərəcov 1999-cu il oktyabr ayının 7-də Lənkəran rayonunun Osakücə kəndində anadan olmuşdur. 2005-2005-ci illərdə Osakücə kənd tam orta məktəbində təhsil almış, 2017-2018-ci illərdə Mingəçevirdəhəqiqi hərbi xidmətdə olmuşdur.

Əflatun Fərəcov 2020-ci il sentyabr ayının 27- də başlanan Vətən müharibəsində könüllü atıcı olaraq iştirak etmiş, böyük şücaət və igidlik göstərmişdir. Tərtər-Ağdərə,Talış kəndivə Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Əflatun Fərəcov Zəfər gününü görsə də, noyabrın 14-də Füzuli rayonu ərazisindədöyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş,noyabr ayının 20-də Lənkəran rayonunda dəfn edilmişdir.

Əflatun Fərəcov ölümündən sonra"Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il:[Suqovuşanın azad olunmasına görə]//Azərbaycan. -2021. -6 noyabr.- S.2.

Fərəcov Əflatun Mircangir oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.631.

İnternetdə

https://memorial.az/az/qehremanlarimiz/954

7

Samir Paşayev - 25

(1999-2020)

Əsgər



Samir Adışirin oğlu Paşayev 1999-cu il oktyabr ayının 7-də Binəqədi rayonunda anadan olmuşdur. Binəqədi rayon 100 saylı orta məktəbifərqlənmə atestatla bitirmiş, 2016-cı ildə 600 balla Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olmuş, İnformasiya Texnologiyaları və İdarəetmə (İTF) fakültəsinin Kompyüter Elmləri Mühəndisi ixtisasını ingilis dili üzrə fərqlənmə diplomu iləbitirmişdir. 2020-ci ildəGoranboy rayonu "N" saylı hərbi hissədə qulluq etməyə başlamışdır.

Samir Paşayev 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsi zamanı baş atıcı kimi böyük şücaət və igidlik göstərmişdir. Samir Paşayev Suqovuşan döyüslərində qəhramancasınadöyüşmüş,sentyabr ayının 29-daTalış Suqovuşan istiqamətindəki döyüşlər zamanı şəhid olmuşdur. Binəqədi rayonundadəfn edilmişdir.

Samir Paşayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. - S.84.

Hüseynli, R. Vətən sənin lə fəxr edir! - Samir Paşayev / Rüfət Hüseynli [ön söz]; red. N. Əhmədli.-Bakı: [n. y.], 2022.-167 s.

İnternetdə

https://az.wikipedia.org/wiki/Samir_Pa%C5%9Fayev

8

Ramin Bayramov - 45

(1979-2020) *Baş leytenant*



Ramin Hüseynağa oğlu Bayramov 1979-cu il oktyabr ayının 8-də Cəlilabad rayonunun Alar kəndində anadan olmuşdur.1986-1996-cı illərdə Alar kənd 2 saylı orta məktəbdə təhsil almışdır. 1996-cı ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə qəbul olmuş, 2000-ci ildə ali təhsilini əla qiymətlərlə başa vurduqdan sonra 3 ay hərbi təlim-məşq keçərək "leytenant" rütbəsi almışdır. 2005-2006-cı illərdə zabit kimi həqiqi hərbi xidmətə çağırılıb, Murovdağda xidmət etmiş, "baş leytenant" rütbəsində ehtiyata buraxılmış, müxtəlif sahələrdə çalışmışdır.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı qismən səfərbərlik çərçivəsində ordu sıralarına çağırılmış, sentyabrın 28-dəcəbhəyə yollanmışdır. Bölük komandiri kimi Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıuğrunda gedən həlledici döyüşlərdə böyük şücaət və igidlik göstərmiş, Oktyabr ayının 31-də Qubadlı istiqamətində gedən döyüşlərdə mühasirədə olan döyüş yoldaşlarını mühasirədən çıxararkən şəhid olmuşdur. Cəlilabad rayonunun Alar kəndində dəfn edilmişdir.

Ramin Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il//Azərbaycan. -2020. -25 dekabr. -S.6-13

9

Nəcməddin Sarkayev - 25

(1999-2020) *Əsgər*



Nəcməddin Əli oğlu Sarkayev 1999-cu il oktyabrın 9-da Balakən rayonunun Şərif kəndində anadan olmuşdur.2006-2017-ci illərdə Şərif kənd tam orta məktəbində təhsil almışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2019-cu ildə hərbi xidmətini başa vurduqdansonra Bakıdakı "Sədərək" Ticarət Mərkəzində "Sabit Mühafizə Xidməti" MMC-də işə qəbul olunmuşdur.

Nəcməddin Sarkayev 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanı könüllü olaraq cəbhəyə getmiş, Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Nəcməddin Sarkayev noyabrın 5-də Ağdərə döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkənşəhid olmuşdur. Balakən rayonunun Şərif kəndində dəfn edilmişdir.

Nəcməddin Sarkayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

2021-ci il dekabrın 8-də "Sədərək" Ticarət Mərkəzinin ərazisindəNəcməddin Əli oğlu Sarkayevin büstünün açılış mərasimi keçirilmiş, yazıçıRamazan, Xutra"Vətənə oğul gərək" poemasını şəhidin xatirəsinə həsr etmişdir.

Ədəbiyyat

Şəhidlər ölməz, Vətən bölünməz! [şəhid Nəcməddin Sarkayev haqqında] // Mədəniyyət. -2020. - 9 dekabr. -S.6.

İnternetdə

https://az.wikipedia.org/wiki/N%C9%99cm%-C9%99ddin_Sarkayev

OKTYABR

10

Aqşin Ənvərli - 30

(1994-2020)

Baş leytenan



Aqşin Faiq oğlu Ənvərli 1994-cü il oktyabr ayının 10-da Qəbələ şəhərində anadan olmuşdur. 2001-2012-ci illərdə Qəbələ şəhərinin N. Apayev adına 4 nömrəli tam orta məktəbində, 2012-2018-ci illərdə Azərbaycan Tibb Universitetində (ATU)təhsil almışdır.2018-ci ildə tibbi xidməti leytenantı rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlamış, bir müddət sonraXüsusi Təyinatlı Qüvvələrin Tibb Xidmətinin rəisi vəzifəsinə təyin edilmişdir.

A. Ənvərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanıCəbrayıl, Füzuli, Qubadlı, Şuşa və Xocavənd istiqamətində gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım etmiş, ağır döyüşlərdə yaralansa da, səngəri tərk etməmiş, "baş leytenant" rütbəsi almışdır. A. Ənvərli noyabr ayının 6-da Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Noyabr ayının 18-dəQəbələ rayonunun Xırxatala kəndində dəfn olunmuşdur.

Tibbi xidmət baş leytenantı Aqşin Ənvərli ölümündən sonra"Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və"Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Şair Elşad Barat "Şəhid Ənvərli Aqşinə" adlı şeir həsr etmişdir.

Ədəbiyyat

Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz!: [II Qarabağ Müharibəsi şəhidləri haqqında] / Şahanə Müşfiq // 525-ci qəzet. -2021.- 25 fevral. -S.14-15.

10

Mikayıl Məmmədzadə - 30

(1994-2020)

Baş leytenant



Mikayıl İlqar oğlu Məmmədzadə 1994-cü il oktyabr ayının 10-da Sumqayıt şəhərində anadan olmuşdur. 2001-ci ildə Sumqayıt şəhər 13 saylı, 2004-2009-cu illərdə C. Səfərov adına 10 saylı tam orta məktəbdə, 2009-2012-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə,2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM)təhsil almışdır.

Mikayıl Məmmədzadə 2016-cı ildən Goranboy, Tərtər,Göygöl rayonlarında, Murov dağ yüksəkliyində xidmət etmiş, 2018-ci ildə "baş leytenant" hərbi rütbəsi almışdır.

Tağım komandiri olan M. Məmmədzadə Vətən müharibəsi zamanı Kəlbəcər, Göygöl və Goranboy sərhədində yerləşən ən yüksək zirvə olan Camış dağ və Murov dağ yüksəkliyinin tam hissəsinin alınmasında, ordunun 30 km Kəlbəcərə irəliləməsində böyük rol oynamışdır. Mikayıl Məmmədzadə sentyabr ayının 28-dəKəlbəcər rayonu ərazisində Camışdağ - Qaragöl istiqamətində gedən döyüşlərdə şəhid olmuş, nəşi 87 gündən sonra Murov dağ silsiləsi ətrafında aşkar edilmiş, dekabr ayının 28-də Sumqayıt Şəhidlər xiyabanında dəfn edilmişdir.

Mikayıl Məmmədzadə ölümündən sonra"Kəlbəcərin azad olunmasına görə" medalı və "3-cü dərəcəli "Rəşadət" ordeni ilətəltif edilmişdir.

2022-ci il oktyabr ayının 10-da Sumqayıt "Dostluq" Mədəniyyət evi şəhidin doğum gününəhəsr olunmuş "Şəhid qanı axmayan torpaqdan Vətən olmaz" adlı tədbir keçirmişdir.

Ədəbiyyat


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. - 25 iyun. -S.61.

OKTYABR

10

İbrahim İbrahimov - 25

(1999-2020) *MAHHXHQ əsgər*



İbrahim Abdulla oğluİbrahimov 1999-cu il oktyabr ayının 10-da Bakı şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə Bakı şəhərində 205 saylı tam orta məktəbdə təhsil almış, 2018-ci ildə Sumqayıt Dövlət Texniki Kollecinə qəbul olmuşdur. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

İbrahim İbrahimov 2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsinə qoşularaq böyük şücaət və igidlik göstərmiş, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Noyabr ayının 8-də Şuşa istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərmiş, ayın 9-da Şuşa şəhəri yaxınlığında şəhid olmuşdur. Noyabr ayının 12-də Bakı şəhərində Binəqədi qəbiristanlığında dəfn edilmişdir.

İ. İbrahimov ölümündən sonra"Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.39.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.- 2021.- 25 iyun.- 52.

11

Xəqani Murtuzəliyev - 40

(1984-2020) *MAHHXHQ kiçik çavuş*



Xəqani İsa oğlu Murtuzəliyev 1984-cü il oktyabr ayının 11-də Zaqatala rayonunun Qımır kəndində anadan olmuşdur.1990-2001-ci illərdə İ. Məmmədov adına Qımır kənd tam orta məktəbində təhsil almış, 2002-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 2013-cü ildənmüddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Kiçik çavuş Xəqani Murtuzəliyev 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanı döyüşlərdə böyük şücaət və igidlik göstərmiş, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Xəqani Murtuzəliyev oktyabrın 20-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Zaqatala rayonunun Qımır kəndində dəfn olunmuşdur.

Xəqani Murtuzəliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.35.

Malıyev, E. "Xəqani mənimlə danışandan bir-iki saat sonra şəhid olub...": Şəhid anası Südabə xanım: "Oğlum elə bil bu dünyaya qonaq gəlmişdi, at belində uzaq səfərə getdi..." /Elman Malıyev // Hürriyyət. -2021. -29-30 iyun. -S.7.

Samid Əsgərov - 35

(1989-2020)

Kapitan



Samid Gülmalı oğlu Əsgərov 1989-cu il oktyabrın 12-də Neftçala rayonunun Boyat kəndində anadan olmuşdur.1996-1999-cuillərdə Neftçala rayonu Bəhruz Həşimov adına Boyat kənd tam orta məktəbindətəhsil almış, 1999-cu ildən 2005-ci ilə qədər təhsilini Neftçala rayonu Elton Həbibov adına 4 saylı orta məktəbdə davam etdirmişdir. 2005-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olmuş, 2008-ci ildə həmin liseyi bitirmiş Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2012-ci ildə həmin məktəbi bitirmiş, SQTTM-də qoşun kəşfiyyatı üzrə ixtisas kursunu bitirərəkAğdam rayonunda N saylı hərbi hissədə xidmətə başlamışdır. Kapitan rütbəsinə qədər yüksələn S. Əsgərov xidməti dövründə ona verilən tapşırıqları vaxtında və dəqiq yerinəyetirdiyinə görə dəfələrlə müxtəlif diplom və sertifikatlarla, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif olunmuşdur.

Vətən müharibəsi başlayanda ilk gündən həlledici döyüşlərə qatılmış,Füzuli rayonunun Horadiz və Seyidəhmədli kəndləri istiqamətində gedən döyüşlərdə rəşadətləvuruşmuşdur. "Polad Həşimov hərəkatı" adlandırılmış döyüş zamanı düşmənin keçilməz səddinin yarılmasında S. Əsgərov böyük qəhrəmanlıq göstərmiş, iki dəfə yaralanmasına baxmayaraq döyüşü davam etdirmişdir. Sentyabrın 30-da Füzuli uğrunda gedəndöyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.Neftçala şəhərindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Samid Əsgərov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və"Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Əsgərov Samid Gülmalı oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.605.

Müşfiq, Ş.Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz! / Şahanə Müşfiq // 525-ci qəzet. -2020. -22 dekabr. -S.14.

Nurəddin."Yalnız irəli! Geriyə yol yoxdur!"/ Nurəddin// Mədəniyyət. -2021. - 10 sentyabr. -S.6.

İnternetdə

https://az.wikipedia.org/wiki/Samid_%C6%8Fsg%C9%99rov

https://memorial.az/az/qehremanlarimiz/534

https://shehidimiz.az/samid-%C9%99sg%C9%99rov/

12 OKTYABR

Əmrah Hüseynli – 30

(1994-2020)

Baş leytenant



Əmrah Namik oğlu Hüseynli 1994-cü il oktyabrın 12-də Cəlilabad şəhərində anadan olmuşdur.2010-u ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuş, 2013-2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM)təhsil almışdır. 2017-ci ildə hərbi məktəbi "Taktiki kəşfiyyat qoşunları komandiri" ixtisası üzrə leytenant hərbi rütbəsində bitirmişdir. Xüsusi Təyinatlı Qüvvələrin təməl komando kurslarını keçmiş vəAzərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət etmişdir.

Baş leytenant Əmrah HüseynliVətən müharibəsi zamanı Qubadlı, Zəngilan, Füzuli və Cəbrayıl rayonlarınınkəndlərinin azad edilməsində yaxından iştirak etmiş, döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir.Oktyabr ayının 7-də Xocavənd rayonu Hadrut qəsəbəsi uğrunda gedən döyüşlərdə yaralanmış, 4 gün hospitalda qaldıqdan sonra döyüşlərə qatılmışdır. Ə. Hüseynli oktyabr ayının 26-da Çanaqçı istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman şəhid olmuşdur. Oktyabr ayının 27-də Cəlilabad şəhərində dəfn olunmuşdur.

Əmrah Hüseynli ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təlif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.45.

Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz! /Şahanə Müşfiq//525-ci qəzet. -2020. -25 dekabr. -S.15.

İnternetdə

https://az.wikipedia.org/wiki/%C6%8Fmrah_H%C3%BCseynli

https://memorial.az/az/qehremanlarimiz/622

https://az.baku-art.com/az/qehremanlari-tan-yaq-v-tan-daq-rubrikas-nda-emrah-huseynli

OKTYABR

12

Ceyhun Adgözəlov - 30

(1994-2020)

Əsgər



Ceyhun Çoban oğlu Adgözəlov 1994-cü il oktyabr ayının 12-də Saatlı rayonunun Azadkənd kəndində anadan olmuşdur.2012-ci ildə Azadkənd tam orta məktəbini bitirmiş, sərbəst güləş üzrəyon, məktəb turnirlərində dərəcə almışdır.2012-2014-cüillərdəAzərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətdə olmuş, xidmətini başa vurduqdan sonra mülki işlərdə çalışmışdır.

C. Adgözəlov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başlaması ilə əlaqədar qismən səfərbərlik çərçivəsində ordu sıralarına çağırılmış,Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd və Şuşa istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. C. Adgözəlov oktyabr ayının 15-də Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olmuş, nəşi bir müddət sonra tapılaraqnoyabr ayının7-də Azadkəndkəndində dəfn olunmuşdur.

C. Adıgözəlov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Adgözəlov Ceyhun Çoban oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.80.


Albalıyev, Ş. Ələmin ruhu-Vətən göylərində dalğalanan ələm: [Şəhidlər Ceyhun Adıgözəlov və Ələm Hüseynov haqqında] / Şakir Albalıyev // Yeni Təfəkkür. - 2021. - 3 sentyabr. - S. 2.

15

Rövşən Vəlixanov - 30

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Rövşən Aydın oğluVəlixanov 1994-cü il oktyabr ayının 15-də Tovuz rayonunun Qaraxanlı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə F. Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbində təhsil almışdır.2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa çaxdıqdan sonra R. Vəlixanov müddətdən artıq xidmət edən hərbi qulluqçu olmuşdur. Kiçik çavuş N saylı hərbi hissədə həmlə taborunun rabitə bölüyündə rabitəçi olmuşdur. Müharibənin ilk günündən Döyüşdə Həmlə Taborunda iştirak iştirak etmişdir. Rövşən Vəlixanov oktyabr ayının 2-də Murovdağ döyüşləri zamanı itkin düşmüş, dekabr ayının 18-də şəhid olduğu müəyyənləşmişdir. Tovuz rayonunun Qaraxanlı kəndində dəfn olunmuşdur.

R.Vəlixanov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.- 2021.-25 iyun.- S. 80.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan.- 2021.-25 iyun.- S.62.

https://unudulmazlar.az/az/infom/566

OKTYABR

16

Tərlan Gülüşov- 30

(1994-2020) *Baş leytenant*



Tərlan Salman oğlu Gülüşov 1994-cü il oktyabr ayının 16-da Salyan rayonunun Xələc kəndində anadan olmuşdur. Orta təhsilini 2001-2012-ci illərdə Xələc kənd 1 saylı tam orta məktəbində almışdır. 2012-2016-cıillərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM)təhsil almışdır. 2016-cı ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət etmişdir. Hərbi xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi"və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları almışdır.

Azərbaycan Ordusunun baş leytenantı T. Gülüşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə böyük şücaət və igidlik göstərmiş, Füzuli, Cəbrəyıl, Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Tərlan Gülüşov oktyabrın 21-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Salyan rayonunun Xələc kəndində dəfn olunmuşdur.

T. Gülüşov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü"və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.32.

16

Müşfiq İsmayılzadə - 30

(1994-2020) *MAHHXHQ əsgər*



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. - 25 iyun. -S.64.

Müşfiq Xanlar oğlu İsmayılzadə 1994-cü il oktyabr ayının 16-da Tovuz rayonunun Alakol kəndində anadan olmuşdur. 2001-2005-ci illərdə Tovuz rayonunda Alakol kənd tam orta məktəbində təhsil almış, 2005-cu ildəGəncə şəhərində İ. Nəsimi adına 44 nömrəli tam orta məktəbdə təhsilini davam etdirib, 2009-cu ildə 9-cu sinfibitirmişdir.

Müşfiq İsmayılzadə 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra Rusiya Federasiyasına getmiş, bir müddət orada çalışmış, 2016-cı ildə Azərbaycana qayıtmışdır. 2019-cu ildən hərbi qulluqçu kimi Azərbaycan ordusunda xidmət etməyə başlamışdır.

M. İsmayılzadə 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsində ilk gündən iştirak edərək Murovdağ istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. M. İsmayılzadə oktyabr ayının 1-də Kəlbəcər rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Dekabr ayının 19-da Tovuz rayonunun Alakol kəndində dəfn olunmuşdur.

Müşfiq İsmayılzadə ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və"Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Alakol kəndində NurəddinSadıqov adına məktəbin 1 sinfinə şəhidin adı verilmişdir.

OKTYABR

17

Mirbala Rəsulov - 35

(1989-2020)

Kiçik gizir



Mirbala Əmirağa oğlu Rəsulov 1989-cu il oktyabrın 17-də Şabran rayonunun Rəhimli kəndində anadan olmuşdur. Orta məktəbi Şabran rayon Rəhimli kəndində bitirmiş, həqiqi hərbi xidmətdə olmuşdur. Xidmət müddəti bitdikdən sonra Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmiş, 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olmuşdur. Hərbi xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun kiçik gizir olan Mirbala Rəsulov 2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. M. Rəsulov oktyabrın 6-da Füzuli döyüşləri zamanı yaralı yoldaşlarını döyüş meydanından çıxararkənşəhid olmuşdur. Şabran rayonunun Rəhimli kəndində dəfn olunmuşdur.

Mirbala Rəsulov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" "Cəbrayılın azad olunmasına görə" medaları və "Azərbaycan Bayrağı" ordeniilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: [Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə" medalıilə] Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il //Azərbaycan. -2021. -6 noyabr. -S.2.

17

Xəyal Balakişiyev - 30

(1994-2020)

Əsgər



Xəyal Müseyib oğlu Balakişiyev 1994-cü il oktyabrın 17-də Bakı şəhərində anadan olmuşdur. 2001-2012-ci illərdə Yasamal rayonunda H. Aslanov adına 175 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında Ağdam və Füzuli rayonlarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

2020-ci il sentyabrın 27-dəVətən müharibəsibaşlayandaehtiyatda olan hərbi qulluqçu kimi orduya çağırılmış, oktyabr ayının 5-də cəbhəyə yollanaraq ilk gündən həlledici döyüşlərdə rəşadətlə vuruşmuş, baş atıcı kimi misilsiz şücaət göstərmişdir. Cəbrayıl və Füzuli istiqamətində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliyi və qorxmazlığı ilə seçilmişdir.Xəyal Balakişiyev oktyabrın 25-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkənşəhidlik zirvəsinə ucalmışdır. Bakıda II Fəxrixiyabanda dəfn olunmuşdur.

Xəyal Balakişiyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il:[Cəbrayılın azad olunmasına görə" medalı ilə] //Azərbaycan. -2021. -6 noyabr. - S.2.

Balakişiyev Xəyal Müseyib oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.232.

OKTYABR

17

Taleh Qənbərli - 30

(1994-2020)

Əsgər



Taleh Abil oğlu Qənbərli 1994-cü il oktyabrın 17-də İsmayıllı rayonunun Quşencə kəndində anadan olmuşdur.

Taleh Qənbərli Vətən müharibəsi başlayan zaman səfərbərlik xidməti tərəfindən orduya çağırılmışdır.Döyüş yolu Cəbrayıldan başlamış, sonra isə Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmiş, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Taleh Qənbərli noyabrın 6-da Şuşa döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Taleh Qənbərli ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şüşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 29 dekabr.- S. 13.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: ["Şüşanın azad olunmasına görə"] Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il //Azərbaycan. -2022. -6 noyabr. -S.2.

İnternetdə

https://az.wikipedia.org/wiki/Taleh_Q%C9%99nb%C9%99rli

18

Eltun Qasımov - 30

(1994-2020)

Çavuş



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il//Azərbaycan. -2021. -25 iyun. -S.34.

Eltun Vüqar oğlu Qasımov 1994-cü il oktyabr ayının 18-də Bakı şəhərində anadan olmuşdur.2001-ci ildən A. Məmmədov adına 115 nömrəli tam orta məktəbin ibtidai sinfində, VI sinifdən sonra250 nömrəli məktəbdə təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetinə qəbul olmuşdur. Universiteti bitirdikdən sonra 2016-cı ildə hərbi xidmətə çağırılmış, 2017-ci ildə baş tuşlayıcı, topçu kimi hərbi xidmətinitəşəkkürnamə iləbaşa vurmuşdur. EltunQasımov"Mineral Sular" MMC-də anbar rəisi işləmiş, musiqi ilə də məşğul olmaqla "C.o.R & Crank" qrupunun üzvü olmuş, milli mahnılarımızın aranjeman edilməsində, Türkiyə, Rusiya, Amerikada tanınmasında xidmətləri olmuşdur.

EltunQasımov Vətən müharibəsi başlayan zaman səfərbərlik xidməti tərəfindən orduya çağırılmış,29 sentyabr tarixindən arxa cəbhədə iştirak etmiş, 5 oktyabr tarixindənCəbrayıl rayonunun,Hadrut, Xocavənd rayonunun kəndlərinin, Füzuli rayonunun alınmasında iştirak etmişdir. Eltun Qasımov oktyabrın 18-də Hadrut döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkənşəhid olmuşdur. Keşlə qəsəbəsi "Şəhidlər xiyabanında" dəfn olunmuşdur.

Eltun Qasımov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

OKTYABR

18

Fərrux Abbasov - 30

(1994-2020)

Əsgər



Fərrux Azər oğlu Abbasov 1994-cü il oktyabrın 18-də Ağstafa rayonunun Zəlimxan kəndində anadan olmuşdur.2001-2012-ci illərdə X.Mirzəyev adına Qıraq Kəsəmən kənd tam orta məktəbində təhsil almışdır. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

F. Abbasov 2020-ci il sentyabrın 21-dəSilahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçu kimi hərbi təlimlərə cəlb olunmuş, savaşın ilk günlərindən döyüş meydanlarında döyüşmüşdür. Füzuli, Cəbrayıl, Zəngilan vəQubadlı istiqamətində gedən döyüşlərdə rəşadətlə vuruşmuş, misilsiz şücaət göstərmişdir. Fərrux Abbasov oktyabr ayının 26-da Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Zəlimxan kəndində dəfn olunmuşdur.

Fərrux Abbasov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan. -2020. -29 dekabr. -S.5-14.

Abbasov Fərrux Azər oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.19.

https://shehidimiz.az/f%C9%99rrux-abbasov/

19

Tural Abbasov - 35

(1989-2020)

Kiçik çavuş



Tural Fəzayıl oğlu Abbasov 1989-cuil oktyabr ayının 19-da Şəmkir rayonunun Qılıncbəyli kəndində anadan olmuşdur. Orta təhsilini Şöhrət Hüseynov adına Şəmkir rayon Qılıncbəyli kənd tam orta məktəbində almışdır. 2007-ci ildə müddətli həqiqi hərbi çağırılmış, xidmət müddətini başa vurduqdanbir müddət sonra ordu sıralarına qayıdaraq Murovdağda xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu Tural Abbasov 2020-ci il sentyabr ayının 27-dən döyüş meydanında olmuş, Murovdağ yüksəkliyinin azad olunması uğrunda gedən ağır döyüşlərdə iştirak etmiş, misilsiz şücaət göstərmişdir. Oktyabr ayının 2-də Murovdağ istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Nəşi uzun müddət tapılmadığına görə itkin hesab edilmiş, dekabr ayının 16-da tapılaraq Şəmkir rayonunun Qılıncbəyli kəndində dəfn olunmuşdur.

Tural Abbasov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və 3-cü dərəcəli "Vətənə xidmətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il:[3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə] //Azərbaycan. -2022. -6 noyabr. -S.2

https://obastan.com/wiki/Tural_Abbasov_%28%C9%99sg%C9%99r%29

OKTYABR

19

Sahib Həsənov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Sahib Azər oğlu Həsənov 1999-cu il oktyabr ayının 19- da Gəncə şəhərində anadan olmuşdur. 2017-ci ildə Gəncə şəhər 7 nömrəli tam orta məktəbi bitirmiş, hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Sahib Həsənov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuşdur.

Sahib Həsənov 2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsində Murovdağ zirvəsinin azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. S. Həsənovoktyabr ayının 17-də Goranboy rayonu Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttindədöyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 18 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Sahib Həsənov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan. -2020. -30 dekabr. -S.27.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 31 dekabr.-S. 15.

23

Elman Əliyev - 30

(1994-2020)

MAHHXHQ baş əsgər



Elman Rakif oğlu Əliyev 1994-cü il oktyabr ayının 23-də Mingəçevir şəhərində anadan olmuşdur. Orta təhsilini 2000-2011-ci illərdə Mingəçevir şəhər 18 saylı tam orta məktəbdə almış, 2013- 2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.Tərxis olunandan bir müddət sonra ordu sıralarına qayıdıb MAHHXHQ kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun hərbi qulluqçusu Elman ƏliyevVətən müharibəsinin ilk günlərindən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir.Tərtər-Ağdərə, Suqovuşan və Talış kəndinin azad olunması uğrunda qanlı döyüşlərdə öz qorxmazlığı və hünəri ilə seçilmişdir. Elman Əliyev oktyabrın 20-də Tərtər-Ağdərə döyüşləri zamanı şəhid olmuşdur. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

E. Əliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və 3-cü dərəcəli "Vətənə xidmətə görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il:[3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə] //Azərbaycan. -2022. -6 noyabr. -S.2.

Əliyev Elman Rafiq oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.495.

OKTYABR

25

Azər Eldarzadə - 30

(1994-2020)

MAHHXHQ əsgər



Azər İsmixan oğlu Eldarzadə 1994-cü il oktyabr ayının 25-də Göygöl şəhərində anadan olmuşdur. 2000-2011-ci illərdə Göygöl şəhər 4 saylı tam orta məktəbdə təhsil almışdır. 2012-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, 2014-cü ildə tərxis olunandan bir neçə ay sonra ordu sıralarına qayıdıb müddətdən artıq hərbi qulluqçu kimi işini davam etdirmişdir. 2016-cı ilin Aprel döyüşlərində iştirak etmiş, 2018-ci ildə "Ordunun 100 illiyi" medalı ilə təltif edilmışdir.

Azərbaycan Ordusunun hərbi qulluqçusu Azər EldarzadəVətən müharibəsinin ilk günlərindən ön cəbhədə, döyüş meydanında olmuş, misilsiz qəhrəmanlıqla vuruşmuşdur. Azər Eldarzadə oktyabrın 3-də Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmişdir. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azər Eldarzadə ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "İgidliyə görə" medaları ilə təltif edilmişdir.

Yaşadığı küçəyə adı verilmişdir.

Ədəbiyyat

Eldarzadə Azər İsmixan oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.384-385.

Vətən sizə oğul dedi // Ədalət. - 2021. - 25 fevral. - S.5.

Aprel döyüşləri və Vətən müharibəsi iştirakçısı şəhid Azər Eldarzadə // İki sahil.-2021.-14 dekabr.

https://az.wikipedia.org/wiki/Az%C9%99r_Eldarzad%C9%99

25

Araz İbadlı - 25

(1999-2020)

Əsgər



Araz Babəli oğlu İbadlı 1999-cu il oktyabr ayının 25-də Lənkəran rayonu Gəgiran kəndində anadan olmuşdur.2016-ci ildə Gəgiran orta məktəbini bitirmişdir. 2017-ci ilin oktyabr ayında hərbi xidmətə çağırılmış, 2019-cu ilin aprel ayında rabitəçi kimi hərbi xidmətini başa vurmuşdur. 2019-cu ildə ailəsi ilə birlikdə Lənkəran rayonunun Ürgə kəndinə köçmüş, orada fəhlə işləmişdir. İkinci Qarabağ müharibəsi başlananda ölkədə elan olunan qismən səfərbərliklə bağlı hərbi xidmətə çağırılmış, müharibənin ilk günündəndöyüşlərə qatılaraq dəfələrlə ağır döyüşlərdən zəfərlə çıxmış, düşmənin çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını məhv etmişdir.Araz İbadlı oktyabrın 9-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdəatılan artilleriya atəşi nəticəsində ölümcül yaralansa da, döyüşərək şəhid olmuşdur. Nəşınoyabr ayının 12-də müəyyən olunmuş, noyabrın 14-də Ürgə kənd qəbiristanlığında dəfn olunmuşdur.

Araz İbadlı ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Füzulinin azad olunmasına görə" , 18.12.2020-ci il tarixli Sərəncamına əsasən "İgidliyə görə" və"-Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2022-ci ildə Lənkəran rayonunun Ürgə kəndində Vətən müharibəsi şəhidləri İbadlı Araz Babəli oğlu və İbadzadə Zabil Fikrət oğlunun xatirəsinə bulaq kompleksi inşa edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan. -2021. -25 iyun. -S.39.

OKTYABR

26

Elzamin Təhməzov - 45

(1979 - 2020)

Polkovnik-leytenant



Ədəbiyyat

Məmmədhəsən.Adına və andına sadiq qalan Şəhid: Polkovnik-leytanant Elzamin Təhməzov /Məmmədhəsən //Azad Azərbaycan. -2021. -29 aprel. -S.5.

https://az.wikipedia.org/wiki/Elzamin_T%C9%99hm%C9%99zov

Elzamin Kamal oğlu Təhməzov 1979-cu il oktyabrın 26-da Bərdə rayonunun Şirvanlı kəndində anadan olmuşdur.Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Akademiyasına qəbul olmuş, hərbi təhsilini başa vurduqdan sonra "N" saylı hərbi hissəsində xidmətə başlamışdır. ABŞ-da, Almaniyada, Pakistanda, İraqda, Sloveniyada və Türkiyədə keçirilən təlimlərdə iştirak etmiş, həmçinin NATO təlimlərində Azərbaycanı təmsil etmişdir.

E. Təhməzov hərbi xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" (1991-2001), "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi","Azərbaycan Ordusunun 100 illiyi", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, və "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan E. Təhməzov 2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsi zamanı briqadanın kəşfiyyat rəisi olmaqla, Murov yuksəkliyi və Suqovuşan istiqamətində gedən ağır döyüşlərdə bir çox erməni postlarının alınmasında böyük şücaətlər göstərmişdir. Elzamin Təhməzov sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalmışdır. Bərdə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

E. Təhməzovölümündən sonra"Vətən uğrunda", "Suqovuşanın azad olunmasınagörə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeniilətəltif edilmişdir.

27

Oktay Bədəlov - 40

(1984 - 2020)

Baş gizir



Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. -2021. -25 iyun. - S.46.

Oqtay Ələddin oğlu Bədəlov 1984-cü il oktyabrın 27-də Tovuz rayonunun Çeşməli kəndində anadan olmuşdur. 2001-ci ildə Çeşməli kənd tam orta məktəbini bitirib, 2003-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, XTQ-nin N saylı hərbi hissəsində xidmət etmiş, tərxis olunandan sonra gizir kurslarını bitirərək hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun baş giziri olan Oqtay BədəlovVətən müharibəsinin ilk günlərindən ön xətdə, döyüş meydanlarında olmuş, misilsiz rəşadətlə döyüşmüşdür. Kəlbəcər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa uğrundakı həlledici döyüşlərdə iştirak etmişdir. Oqtay Bədəlov doğum günündə- oktyabrın 27-də Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.Tovuz rayonunun Çeşməli kəndində dəfn olunmuşdur.

O. Bədəlov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiqSərəncamlarına əsasən"Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda","Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

OKTYABR

27

Məhəmməd Osmanov - 30

(1994 - 2020)

MAHHXHQ əsgər



Məhəmməd Seymur oğluOsmanov 27 oktyabr 1994-cü ildə Ağdaş rayonunun Ərəbocağıkəndində anadan olmuşdur.2002-ci ildə Qazaxıstan Respublikası Uralsk şəhər 3 saylı məktəbinə qəbul olmuş və 2013-cü ildəAğdaş rayonu Ərəbocağı kənd Zəkəriyyə Maqsudov adına orta məktəbi bitirmişdir. 2013-2015-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ildə müqavilə əsasında ordu sıralarına qayıdıb müddətdən artıq hərbi qulluqçuolmuş, xidmət etdiyi dövrdə dəfələrlə fərqlənmişdir.

Məhəmməd Osmanov 2020-ci il sentyabr ayının 27-dəbaşlanan Vətən müharibəsi zamanı böyük şücaət və igidlik göstərmişdir. Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla döyüşmüş, oktyabr ayının 4-dəTalış yüksəkliyi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Ağdaş rayonu Ərəbocağı kənd qəbiristanlığında dəfn olunmuşdur.

Məhəmməd Osmanov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan. -2020. -30 dekabr. -S.9.

Vətən sizə oğul dedi: [II Qarabağ Müharibəsi şəhidləri haqqında] // Ədalət.- 2021.- 23 fevral.- S.5.

28

Fərid Quliyev - 30

(1994 - 2020)

Kiçik gizir



Fərid Ayazxan oğlu Quliyev 1994-cü il oktyabr ayının 28-də Cəlilabad rayonunun Babalı kəndində anadan olmuşdur.2000-2011-ci ildəBabalı kənd orta məktəbində təhsil almışdır.

2012-2014-cü illərdə Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissədə xidmət etmişdir. 2019-cu ildəilkin hazırlıq kursunu keçdikdən sonra Xudat ərazisində yerləşən hərbi hissədə kiçik gizir kimi xidmətə başlamış, kəşfiyyatçı kimi Qazax əlahiddə sərhəd diviziyasında işləmişdir.

Fərid Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanıilk gündən döyüşlərə qatılmış, Cəbrayıl və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. F. Quliyev oktyabr ayının 9-da Hadrut döyüşləri zamanı şəhidlik olmuş, oktyabr ayının 16-da Cəlilabad rayonunun Babalı kəndində dəfn olunmuşdur.

Fərid Quliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2023-cü ildə Cəlilabad rayonunda Fərid Quliyevin ev muzeyinin açılışı olmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan. -2020. -27 dekabr. -S.5.

Cəlilabadda şəhidlər anılıb: [Cəlilabad rayonununşəhidləri Əliyev Vüsal Məmmədəli oğlu,Abbasov Davud Yalçın oğlu vəQuliyev Fərid Ayazxan oğlunun şəhadətlərinin ildönümünə həsr olunmuş mərasimlər haqqında] //İki sahil.- 2021.- 16 oktyabr.

28 OKTYABR

Kənan İsmayılov - 30

(1994 - 2020)

MAHHXHQ əsgər



Kənan Mənsur oğlu İsmayılov 28 oktyabr 1994-cü ildə Yevlax rayonunun Xanabad kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Xanabad kənd tam orta məktəbində təhsil almışdır. 2012-ci ildə həqiqi hərbi xidmətə çağırılmış, 2014-cü ildə hərbi xidmətini başa vurduqdan sonra tikinti işləri ilə məşğul olmuşdur.

2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsi zamanAzərbaycan Ordusunun əsgəri kimi döyüşlərə qatılan Kənan İsmayılov Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə xüsusi cəsurluq nümayiş etdirmişdir. Kənan İsmayılovoktyabr ayının 10-da Talış-Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman şəhid olmuşdur. Yevlax rayonunun Xanabad kəndində dəfn olunmuşdur.

Kənan İsmayılov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və"Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Yusifqızı, Ə.Orda bir ev var, oğağı yanmır... /Əminə Yusifqızı // Biz vətən üçün doğulduq: [oçerklər] /Ə.Yusifqızı.-Bakı, 2022.-S.196-200.

Xəlilov, Z. Cəsur döyüşçü yad olundu [şəhid Kənan İsmayılov və Tural Quliyev haqqında] /Zabit Xəlilov // Respublika. -2021. -14 noyabr. -S.5.

Yusifqızı, Ə. ...Sahibini gözləyən ev [şəhid Kənan İsmayılov haqqında]/Əminə Yusifqızı // Olaylar.-2021.- 30 iyul-5 avqust.- S.18.

30

Anar Nağıyev - 35

(1989 - 2020)

Gizir



Anar Sahib oğlu Nağıyev 1989-cu il oktyabrın 30-da Gəncə şəhərində anadan olmuşdur.1996-2000-ci illərdə Samux rayonunda Alıuşağı kənd tam orta məktəbində, 2000-2007-ci illərdə isə Qazax rayonunda S. Nəsirov adına Ürkməzli kənd tam orta məktəbində təhsil almışdır.

2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2009-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

44 gün davam edən Vətən müharibəsinə Xüsusi Təyinatlı Qüvvələrin giziri kimi qatılan Anar Nağıyevin qələbənin qazanılmasında müstəsna xidmətləri olmuş, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı olaraq verilən mühüm döyüş tapşırıqlarını peşəkarcasına yerinə yetirmişdir. Oktyabr ayının 16-da Xocavənd uğrunda gedən döyüşlərdə yaralanmış, 2 həftədən sonra yenidən cəbhəyə qayıtmışdır. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmiş Anar Nağıyev noyabrın 8-dədöyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Qazax rayonunun Ürkməzli kəndində dəfn olunmuşdur.

Anar Nağıyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Qarabağ" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan. -2020. -30 dekabr. - S.18.

OKTYABR
30

Mehrac Əhədov - 25

(1999 - 2020)

Əsgər



Mehrac İntiqam oğlu Əhədov 30 oktyabr 1999-cu ildə Bakıda anadan olmuşdur. 2006-2017-ci illərdə Bakı şəhər 93 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında Goranboy rayonundakı N saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra mülki işlə məşğul olmuşdur.

M. Əhədov 2020-ci il sentyabrın 21-də Azərbaycan Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi hərbi təlimlərə cəlb olunmuş, müharibənin ilk günlərindən ön cəbhədə atıcı olaraq hünərlə vuruşmuşdur. Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edərək böyük şücaət göstərmişdir. Mehrac Əhədovoktyabr ayının 21-də Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Qobustan rayonunun Nərimankənd kəndində dəfn olunmuşdur.

Mehrac Əhədov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında [Mətn]: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il// //Azərbaycan. -2020. -29 dekabr. -S.10.

https://memorial.az/az/qehremanlarimiz/1531

30

Şöhrət Əliyev - 25

(1999 - 2020)

Əsgər



Şöhrət Cambulat oğlu Əliyev 1999-cu ilin oktyabr ayının 30-da Gəncə şəhərində anadan olmuşdur. Gəncə şəhər Məhəmməd Füzuli adına 22 saylı vəMəşədi Əzizbəyov adına 15 saylı tam orta məktəblərdə təhsil almışdır. 2018-2019-cu illərdə müddətli həqiqihərbi xidmətdə olmuşdur.

2020-ci il Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçünmüraciət etmiş, sentyabr ayının 27-dəVətən müharibəsi başlayan gün cəbhəyə yola düşmüşdür.Füzuli və Cəbrayıl, Xocavənd istiqamətində həyata keçirilən əks-hücum əməliyyatlarında iştirak etmiş, Şuşa və Xankəndi istiqamətlərində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Noyabr ayının 8-dəŞuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Nəşi noyabr ayının 16-da müəyyən olunaraqGəncə Şəhidlər xiyabanında dəfn edilmişdir.

Ş. Əliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il //Azərbaycan.-2020.- 30 dekabr.- S.20.

Əliyev Şöhrət Cambulat oğlu // Memorial: Vətən müharibəsi şəhidləri.-I cild.-Bakı, 2022.- S.550.

OKTYABR

30

Rövşən İsmayılov - 25

(1999 - 2020)

Əsgər



Rövşən Məmmədağa oğlu İsmayılov 1999-cu il oktyabr ayının 30-da Bakı şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə Binəqədi rayonunda 83 nömrəli məktəb-liseydə, 2016-2020-ci illərdə Azərbaycan Kooperasiya Universitetində (AKU) "Maliyyə" ixtisası üzrətəhsil almışdır. 2020-ci ilin iyul ayından Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuş, 2 aylıq təlimdən sonra hərbi hissədə yaradılmış "Həmlə" könüllülər qrupuna qoşulmuşdur. Rövşən İsmayılov II Qarabağ müharibəsindəbaş atıcı olaraqAğdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmiş, oktyabr ayının 3-də yaralanmasına baxmayaraq, ayın 7-də yenidən döyüşlərə qatılmışdır.

Rövşən İsmayılov oktyabr ayının 13-də Ağdərə istiqamətində "Tülkü dərəsi" adlandırılan ərazidə ağır döyüşdə şəhid olmuş, nəşi ailəsinə35 gün sonra təhvil verilmiş, noyabr ayının 19-da Binəqədi rayonunun Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Rövşən İsmayılov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il //Azərbaycan.-2021.- 25 iyun.- S.73.

31

Rəşid Tahirov - 35

(1989 - 2020)

Əsgər



Rəşid Loğman oğlu Tahirov 1989-cu il oktyabr ayının 31-də Beyləqan rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətdə olmuş, xidmət müddəti bitdikdən sonra mülki şəxs olaraq fəaliyyət göstərmişdir.

Rəşid Tahirov 2020-ci il sentyabrın 27-dəbaşlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmiş, Füzuli və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Rəşid Tahirov 6 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Rəşid Tahirov ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan.-2020.- 29 dekabr.- S.17.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: ["Şuşanın azad olunmasına görə"]Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il //Azərbaycan. -2021. -6 noyabr. - S.3.

https://unudulmazlar.az/az/infom/3063

Dilarə Seyidzadə - 85

(1939) *Dövlət xadimi*



Dilarə Bağır qızı Seyidzadə 1939-cu il oktyabr ayının 25-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.1956-1961-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində təhsil almışdır. D. Seyidzadə 1961-ci ildə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutuna işə qəbul olunmuşdur. 1964-1967-ci illərdə SSRİ EA Tarix İnstitutunun aspiranturasında (əyani) təhsil almışdır.

Dilarə Seyidzadə 1974-cü ildə namizədlik, 1993-cü ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 2004-cü ildə professor elmi adını almışdır.

O, 1978-1983-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) Sov.İKP tarixi kafedrasında baş müəllim və dosent işləmişdir. 1983-cü ildə yenidən Tarix İnstitutuna qayıdaraq Azərbaycanın yeni tarixi şöbəsində böyük elmi işçi vəzifəsində çalışmışdır. 1993-cü ildə Tarix İnstitutunda 0,5 ştatda aparıcı elmi işçi vəzifəsində (əvəzçiliklə) qalmaqla Azərbaycan Respublikası Prezidenti Aparatı Humanitar Siyasət şöbəsinin baş məsləhətçisi vəzifəsinə təyin edilmiş (1993-1997), 1997-1998-ci illərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, 25 aprel 1998-ci ildən 16 noyabr 1999-cu ilədək Azərbaycan Respublikası Prezidenti katibliyinin rəis müavini, Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 1999-cu il tarixli Sərəncamı ilə Dilarə Seyidzadə Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi vəzifəsinə təyin edilmişdir. 2 dekabr 2019-cu il ildə Azərbaycan Respublikası Prezidenti Dilarə Seyidzadəyə fərdi təqaüd verilməsi haqqında sərəncam imzalamışdır.

Tarix elmləri doktoru, professor D.B. Seyidzadə tarixşünaslıqda ilk dəfə olaraq Azərbaycan milli burjuaziyasının yaranması və formalaşması tarixini tədqiq etmişdir. Onun "XX əsrin əvvəllərində Azərbaycan burjuaziyasının tarixindən" (Bakı, 1978), "Rusiya Dövlət Dumasında Azərbaycan deputatları" (Bakı, 1991), "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə gedən yollar" (Bakı, 1998, 2004) adlı monoqrafiyaları çap olunmuşdur. Professor D.B.Seyidzadə həmçinin,"H.Əliyev - siyasi portretə ştrixlər" (Kiyev, 1994; ukrayna dilində) adlı kitabın müəllifidir.

Dilarə Seyidzadə dövlət qulluğunda xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2009-cu il tarixli sərəncamı ilə "Şöhrət" ordeni, 24 oktyabr 2019-cu il tarixli Sərəncamı ilə "Şərəf" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar / D.Seyidzadə; red. A.Həsənov.- Bakı: [s.n.], 2004.- 348 s.

Qarabağ Azərbaycandır! [Miniatür kitab muzeyi; tərt. ed.: D. Seyidzadə, Z. Salahova] .- [K. 2]20 noyabr - 1 dekabr 2020-ci il.- Bakı: [n. y.]2020.- İndigo, 281, [7] s.

Prezident İlham Əliyev Dilarə Seyidzadəyə "Şərəf" ordenini təqdim edib //Azərbaycan.-2019.- 3 dekabr.- S.2.

"Heydər Əliyev-100 il":Elm və Təhsil Nazirliyində Dilarə Seyidzadə ilə görüş keçirilib // Azərbaycan müəllimi.- 2023.- 22 sentyabr.-S.4.

Rəhimov, N. "O bizimlədir":Professor Dilarə Seyidzadə ADPU-da keçirilən görüşdə Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb / Niyazi Rəhimov // Azərbaycan müəllimi.-2023.- 3 mart.- S.8.

Rüstəmli, T. "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetində tarix elmləri doktoru, professor Dilarə Seyidzadə ilə görüş keçirilib //Xalq qəzeti.- 2023.- 1 mart.- S.5.

İnternetdə:

https://president.az/az/articles/view/34569

https://az.wikipedia.org/wiki/Dilar%C9%99_Seyidzad%C9%99

https://musavat.com/news/iki-prezidentle-islemis-konsul-jurnalist-nazir-muavini-qizi-dilare-seyidova-kimdir_651686.html

Adil Cəmil – 70

(1954)

Jurnalist



Adil Savalan oğlu Cəmilov 1954-cü il oktyabrın 8-də Azərbaycanın Kəlbəcər rayonunun Kilsəli kəndində anadan olmuşdur. Kilsəli kəndində ibtidai məktəbi, Mingəçevir şəhərində isə 9 saylı orta məktəbi bitirmişdir.

1972-1977- ci illərdə ADU-nun Jurnalistika fakültəsində təhsil almışdır. 1977-ci ildə təyinatla "Yazıçı" nəşriyyatına göndərilmiş, 1990-cı ilə qədər poeziya redaksiyasının redaktoru olmuşdur.

1990-1993-cü illərdə "Həqiqət" qəzetində baş redaktor, "Bakı" qəzeti redaksiyasında mədəniyyət şöbəsinin müdiri, "Boz qurd" qəzetində redaktor, 1993-1994-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi nəzdində olan mətbəədə nəşriyyat şöbəsinin rəisi, 1994-2001-ci illərdə "Binəqədi" rayon qəzetinin redaktoru olmuşdur. 2002-ci ildən "Ədəbiyyat qəzeti" redaksiyasında şöbə müdiridir.

Orta məktəb illərindən bədii yaradıcılığa başlasa da ilk mətbu şeiri -"Bahar" 1970-ci il martın 22-də "Mingəçevir işıqları" qəzetində dərc olunmuşdur. "İşıqlar, pərvanələr", "Gündoğandan günbatana", "Aylı gecə nağılı", "Sözümün canı var", "Yuxusunda gülən qız" və "Ürəyimdə bir haray var" əsərlərinin müəllifidir.

Rus, belorus, özbək, Latın Amerikası poeziyasından etdiyi bədii tərcümələr qəzet, jurnal və toplularda dərc olunmuşdur. Onun mənzum tərcümə etdiyi "Manas" qırğız xalq qəhrəmanlıq dastanından müəyyən hissələr Azərbaycan mətbuatında dərc olunmuşdur. Həmçinin iyirmiyə yaxın bədii filmi - "Məhəbbətin son mahnısı" (Türkiyə), "Samraat" (Hindistan), "13-cü nəvə" (Qırğızıstan), "Qayıtmağı unut" (Moldaviya) və s. doğma dilimizə çevirmişdir. Şeirləri qardaşxalqların dillərinə tərcümə olunmuşdur.

Adil Cəmil 1979-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüolmuş, 2004-cü ildə "Manas" eposu və türk dastançılıq ənənəsi" mövzusunda elmi iş müdafiə edərək, filologiya elmləri namizədi elmi adı almışdır.

Adil Cəmil 1998-ci ildə"Qızıl qələm" mükafatı və 30 dekabr 2015-ci ildə Azərbaycanın Əməkdar jurnalisti fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Manas eposu və türk dastançılıq ənənəsi: [monoqrafiya] / Adil Cəmil; ideya və ön söz. müəl. G. Əfəndiyeva; elmi red. E. Əlibəyzadə; məsul red. F. Hüseyn; ill. müəl. T. Gertsen; [üz qabığının dizaynı M. Babayeva; tərtibatçı Z. Xəlilov; son söz yerinə İ. Vəliyev (Ömərоğlu)];Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu.- [Bakı]: [Parlaq imzalar], [2023].- 465, [7] s.

Hüseynov,S.Adil Cəmil ömrünün zirvəsi/Sabir Hüseynov //Ədalət.-2020.- 30 yanvar.- S.6.

Hüseynoğlu, S. Məzuniyyət günlərinin yalqızlığında, yaxud Adil Cəmillə xəyali söhbət /Sərvaz Hüseynoğlu// Ədəbiyyat qəzeti.-2023.- 5 avqust.-S.15.

Adil Cəmil poeziyasına yeni baxış //Ədəbiyyat qəzeti.-2022.- 23 iyul.- S.26.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Adil_C%C9%99mil

https://president.az/az/articles/view/17406

https://science.gov.az/az/forms/doktora-filosofii-instituta-folklora/273

Aida İmanquliyeva – 85

(1939-1992)

Şərqşünas alim



Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabr ayının 10-da Bakı şəhərində görkəmli jurnalist, pedaqoq, Əməkdar elm xadimi Nəsir İmanquliyevin ailəsində anadan olmuşdur.

1947-1957-ci illərdə Bakıda 132 saylı orta məktəbdə təhsil almış və məktəbi qızıl medalla bitirmişdir. 1957-1961-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil almışdır. 1962-1966-cı illərdə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspirantura təhsili alaraq 1967-ci ildə "Qələmlər birliyi" və onun "Mixail Nüaymənin yaradıcılığında rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və həmin ildən etibarən filologiya elmləri namizədi kimi Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmağa başlamış, 1973-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ərəb dili müəllimi kimi fəaliyyət göstərmişdir. 1970-ci ildə Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda "Ərəb ədəbiyyatı" qrupunda kiçik elmi işçi, 1972-ci ildən həmin qrupun rəhbəri, 1976-cı ildən Ərəb filologiyası şöbəsinin müdiri, 1987-ci ildə elmi işlər üzrə direktor müavini, 1991-1992-ci illərdə direktor vəzifəsini icra etmişdir.

1976-1988-ci illərdə institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə onun rəhbərliyi ilə 10 nəfər ərəbşünas namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

A.İmanquliyeva 1989-cu ildə Tbilisi şəhərində Yeni ərəb ədəbiyyatı korifeyləri Cübran Xəlil Cübran, Mixail Nüaymə və Əmin ər-Reyhani yaradıcılığına dair doktorluq dissertasiyası müdafiə edərək ilk azərbaycanlı qadın-ərəbşünas elmlər doktoru olmuş, 1991-ci ildə "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə ilk professor adını almışdır.

Üç monoqrafiya və 70-dən artıq elmi məqalənin müəllifi, bir çox kitabın ön söz müəllifi, elmi əsərlərin, məqalələr məcmuələrinin redaktoru, redaksiya heyətinin üzvlərindən biri olmuşdur.

A.İmanquliyeva elmi yaradıcılığında tərcümə əsərlərinə də yer vermişdir. O, 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini, İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsini tərcümə edərək "Ağ günlərin sorağında" adlı məcmuədə, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək 1979-cu ildə Moskvada "Vostoçnı almanax" jurnalında çap etdirmişdir.

Görkəmli şərqşünas alim 1981-ci ildə Yazıçılar Birliyinin üzvü, 1983-cü ildən Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin Azərbaycan bölməsinin sədr müavini, 1987-ci ildə cəmiyyətin üzvü və Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olmuşdur.

Aida İmanquliyeva 1992-cü il sentyabr ayının 19-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Alimin 2005-ci ildə "Yeni ərəb ədəbiyyatı korifeyləri" kitabı Tbilisi şəhərində gürcü dilində, 2007-ci ildə Türkiyə türkcəsində çap edilmişdir. 2005-ci ildə Sankt-Peterburq Dövlət Universitetinin xatirə medalı ilə təltif edilmişdir.

2019-cu ildə Azərbaycan Milli Kitabxanası şərqşünas alimin 80 illiyi ilə əlaqədar olaraq "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Aida İmanquliyeva" biblioqrafiyasını çap etdirmişdir.

Eldar İsgəndərzadənin ssenarisi əsasında rejissor Vasif Məmmədzadənin quruluş verdiyi "Aida İmanquliyeva" sənədli-bədii televiziya filmi 2018-ci ildə İctimai Televiziyada istehsal edilmişdir.

Ədəbiyyat:

Bayramova,Z. Azərbaycanın dünya elminə bəxş etdiyi şərqşünas alim-Aida İmanquliyeva / ZümrüdBayramova //Səs.- 2023.- 19 sentyabr.- S.3.

Abbas, G.Qısa və mənalı ömrün səhifələri:Elmin zirvəsini fəth edən Aida İmanquliyeva / Günel Abbas //Yeni Azərbaycan.- 2023.- 19 sentyabr.- S.5.


Qurbanqızı, Z. Kamil insan, dəyərli alim, unudulmaz müəllim, qayğıkeş ana / Zümrüd Qurbanqızı // Respublika.- 2023.- 19 sentyabr.-S.5.

Görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsi anılıb: [AMEA-nın kollektivialimin məzarını ziyarət etmişdir]// Azərbaycan.-2023.- 20 sentyabr.-S.12;Xalq qəzeti.- 2023.- 20 sentyabr.- S.11.

Aida İmanquliyeva: (Aida Nəsir qızı İmanquliyeva): biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. edən M. Vəliyeva; elmi red. K.Tahirov; red. M. Cəfərova ; dizayner M. Əliqızı.- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2019.- 238,[2] s.

Ələsgər Məmmədov – 105

(1919-2000) *Şərqşünas alim*



Ədəbiyyat:

Ərəb dili: 2-ci sinif üçün dərslik / Ələsgər Məmmədov; ixtisas red. V. M. Məmmədəliyev.- Üçüncü nəşr.- Bakı: Maarif, 1993.- 184 s.

Azərbaycanda müasir ərəbşünaslığın banisi, əməkdar elm xadimi, professor Ələsgər Məmmədovun anadan olmasının 100 illiyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları: [Bakı şəhəri, 18-19 dekabr 2019-cu il].- təşkilat komitəsi A. Kazımzadə (sədr) [və b.].- Bakı: Elm və təhsil, 2019. 277, [3] s.

Əliyeva, İ. Nürnberq prosesində iştirak etmiş yeganə azərbaycanlı:- Görkəmli şərqşünas alim Ələsgər Məmmədovun qızı: "Atam ona verilən ömür payını şərəflə yaşadı. Mən onunla fəxr edirəm" / İradə Əliyeva: müsahibəni apardı S.Babaşova // 525-ci qəzet.- 2019.-17 aprel.- S.19.

Mirzəbəyli, İ.Vətənə, yurda, sözə bağlı sənətkar/ İttifaq Mirzəbəyli//Xalq qəzeti.-2020.- 15 mart.- S.6.

Ələsgər Məmmədov (rəsmi sənədlərdə Əli Əsgər) 10 oktyabr 1919-cu ildə Bakıda anadan olmuşdur. Valideynlərini itirdiyindənəmisinin himayəsində böyümüş, yeddi illik orta məktəbi bitirdikdən sonra 1933-1937-ci illərdə Bakı Sənaye Texnikumunda, 1937-1941-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun alman dili şöbəsində təhsil almış, eyni zamanda Bakı Ali Hərbi Dənizçilik Məktəbində alman dilindən dərs demişdir. 1941-ci ilin iyul ayında Şərq dillərini öyrənmək üçün Moskvaya göndərilmiş və 1944-cü ildə Moskva Şərqşünaslıq İnstitutunun ərəb dili üzrə hərbi şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Ələsgər Məmmədov 1945-ci ilin fevral ayından SSRİ Xarici İşlər Nazirliyindəbaş referent kimi əmək fəaliyyətinə başlamış, işlədiyi 2 il yarım ərzində Almaniya Xarici İşlər Nazirliyinin ələ keçirilmiş 30-dan artıq diplomatik sənədini alman dilindən rus dilinə tərcümə etmişdir.

Ələsgər Məmmədov 1947-ci ilin avqust ayından Bakı Dövlət Universitetinin Şərqşünaslıq fükültəsinin dekanı olmuş,1957-ci ildən fakültənin ərəb dili kafedrasına rəhbərlik etmişdir. O, 1947-1950-ci illərdə universitetdə baş müəllim vəzifəsində işləmiş, 1948-1950-ci illərdə ərəb dili ixtisası üzrə aspiranturaya daxil olmuş, 1953-cü ildə filologiya elmləri namizədi alimlik dərəcəsi, 1954-cü ildə dosent, 1967-ci ildə professor elmi adı almışdır.

1958-ci ilin sentyabr ayında Ə.Məmmədovun redaktorluğu ilə Azərbaycan Radiosu nəzdində ərəb redaksiyası yaradılmış,1969-cu ildən SSRİ Semitoloqlar Kollegiyasının üzvü olmuş, 1963-cü ilin mart ayında Misirə ezam olunmuş, 1973-cü ildə İraqa səfər etmişdir. İraqda "azərbaycanlı ərəb" adlandırılan Məmmədova qızıl suyuna çəkilmiş "Qurani Kərim" kitabı bağışlanmış, Misir, İraq və İordaniyan qəzet və jurnallarında fəaliyyəti barədə materiallar dərc edilmişdir.

Rus, alman, fransız, fars və ingilis dillərini də mükəmməl bilən Ə. Məmmədovun 573 səhifədən ibarət ilk "Ərəb dili" dərsliyi 1958-ci ildə Sovet İttifaqında kütləvi tirajla (5000 nüsxə) buraxılmış, Azərbaycanla yanaşı, Tacikistan və Özbəkistanda da istifadə edilmiş, 1972-ci ildə yazdığı "Ərəb dili" kitabı sifarişə əsasən 22 ölkəyə göndərilmişdir.

Ələsgər Məmmədov XX əsrin 90-cı illərində Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində "Quranşünaslıq" fənni üzrə dərs demişdir. Şərqşünas 1992-ci ildə əməkdar elm xadimi adına layiq görülmüş, 1994-cü ildə pedaqoji elmlər doktoru alimlik dərəcəsi almışdır.

Ələsgər Məmmədov 29 yanvar 2000-ci ildə vəfat etmişdir.

Azərbaycanın tanınmış ərəbşünasları Məmmədovun yetirmələri hesab olunmaqla, tələbələri ərəb ölkələrində, əsasən də İraq, Suriya, İordaniya, Küveyt, Yəmən, Ədən, Misir, Liviya, Tunis və Əlcəzairdə tərcüməçi və diplomat kimi fəaliyyət göstərmişlər.

Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin "Aztelefilm" Yaradıcılıq Birliyi tərəfindən Rəfiqə Məsudun ssenarisi əsasında 2001-ci ildə Ələsgər Məmmədovun həyatından bəhs edən "Ömürdən qalan izlər" adlı tammetrajlı film çəkilmişdir.

2019-cu ildə Azərbaycanda müasir ərəbşünaslığın banisi, Əməkdar elm xadimi, professor Ələsgər Məmmədovun anadan olmasının 100 illiyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransı keçirilmişdir.

İsa Həbibbəyli – 75

(1949)

Akademik



Ədəbiyyat:

Hüseyn Cavid:Həyatı və sənəti: (Hüseyn Cavid -140) / İsa Həbibbəyli; elmi red. G. Babaxanlı; [nəşrə hazırl.: Ə. Nəcəfzadə, C. Cəfərov; Hüseyn Cavidin Ev Muzeyi].- Bakı: Elm və təhsil, 2022.-103, [1] s.

Akademik İsa Həbibbəyli (Həbibbəyli İsa Əkbər oğlu): biblioqrafiya /Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; [tərt. müəll. Z.Əliyeva, A.Şükürov; elmi red.: T.Kərimli, K.Tahirov; ön sözün müəl.:K.Əliyev, M.Əliyev].- Bakı:[Azərbaycan Milli Kitabxanası], 2018.- 614, [2] s.- (Azərbaycanın görkəmli şəxsiyyətləri)

Babayeva, G.Vaqifdən vaqifliyə gedən yol: [İsa Həbibbəylinin "Molla Pənah olan Vaqif" monoqrafiyası haqqında] / GülbənizBabayeva //525-ci qəzet.-2022.- 5 fevral.- S.16-17.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0sa_H%C9%99bibb%C9%99yli

https://science.gov.az/az/forms/deystvitelnyie-chlenyi/44

İsa Əkbər oğlu Həbibbəyli 1949-cu il oktyabr ayının 16-da Naxçıvan MR-nın Şərur rayonunun Dan yeri (Danzik) kəndində anadan olmuşdur.

1967-1971-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının dil-ədəbiyyat fakültəsində təhsil almış, 1971-ci ildə Dan yeri kəndində müəllim işləmiş,1972-ci ildə hərbi xidmətdə olmuş, 1973-cü ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun qiyabi aspiranturasına daxil olmuşdur. 1980-ci ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1997-ci ildə professor elmi adı almışdır.

1975-ci ildən Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetində müəllim, dosent, 1991-1996-cı illərdə elmi işlər üzrə prorektor vəzifəsində çalışmış, 1996-2013-cü ilin aprel ayınadək Naxçıvan Dövlət Universitetinin rektoru olmuşdur. 2013-cü ilin aprel ayından 2022-ci ilin oktyabr ayına qədər Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, bir müddət vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru olmuşdur.

2022-ci ilin oktyabr ayının 25-dən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmişdir.

1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1998-ci ildən Jurnalistlər Birliyinin üvü olmuş, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2003-cü ildə həqiqi üzvü seçilmişdir. 2018-ci ildən Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyəti sədrinin müavinidir.

2001-ci ildə Nyu-York Elmlər Akademiyasının, 2006-cı ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının, 2010-cu ildə Amerika Bioqrafiya İnstitutunun akademiki seçilmişdir. 109 kitabın, 800 elmi əsərin, o cümlədən 8 monoqrafiya, 2 dərslik, 6 dərs vəsaiti, 6 tanıtma kitabı, 7 albom-monoqrafiya, 8 broşura kitabı, 35 tərtib kitabı, 147 kitabın elmi redaktoru, 53 kitabın rəyçisi, 7 layihənin rəhbəri olmuşdur. 212 əsəri xarici ölkələrdə müxtəlif dillərdə, 237 məqaləsi beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap olunmuşdur.

Akademik 33 fəlsəfə doktoru, 16 elmlər doktoru yetişdirmişdir. Birinci və ikinci çağırış Naxçıvan MR Ali Məclisinin deputatı, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. 2016-cı ildə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü seçilmiş, Azərbaycan-Belçika, Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan-Pakistan, Azərbaycan Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İ.Həbibbəyli 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 2007-ci ildə "Şöhrət", 2009-cu ildə "Şərəf" və 2019-cu ildə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmiş, 2022-ci ildə Beynəlxalq Türk Akademiyasının təsis etdiyi "Əlişir Nəvai", TÜRKSOY-un "Şərəf" medalı, "Əliövsət Quliyevin 100 illiyi medalı" ilə, Tatarıstanın böyük ziyalısı Qabulla Tukayın anadan olmasının 135 illiyi münasibətilə "Qabulla Tukay-135" yubiley medalı, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının "Elmi istiqamətin rəhbəri" (2009), "Ustad Şəhriyar mədəniyyət medalı" (2015), İLESAM-ın "Türk dünyası onur medalı" (2017) ilə təltif olunmuş, bir çox mükafat və diplomlara layiq görülmüş, 2001-ci ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən "İlin adamı" seçilmişdir.

2018-cu ildə Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Akademik İsa Həbibbəyli" biblioqrafiyasını nəşr etdirmişdir.

Alxan Bayramoğlu – 70

(1954)

Ədəbiyyatşünas



Alxan Bayram oğlu Məmmədov 1954-cü il oktyabr ayının 22-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 1977-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) filologiya fakültəsini bitirmiş, 1977-1982-ci illərdə Şamaxı rayon Çöl Göylər kənd orta məktəbindəmüəllim işləmişdir.

1982-1984-cü illərdə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspirantı olmuş, 1986-cı ildə "M.Ə.Sabir və ictimai-ədəbi mühit (elmi tərcümeyi-hal məsələləri)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Alxan Məmmədov 1991-1993-cü illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun doktorantı olmuşdur. Onun 1998-ci ildə müdafiə etdiyi "Şamaxı ədəbi mühiti (XIX əsrin ortalarından mart 1918-ci ilə qədər)"mövzusunda doktorluq dissertasiyası Azərbaycan ədəbiyyatının regional tədqiqi istiqamətində atılan ilk addımdır.

Elmlər Akademiyasında elmi işçi olmuş, hazırda baş elmi işçi vəzifəsində çalışan A.Məmmədov2002-ci ildən BDU-da Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının professorudur və həmin ildən AMEA Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən Doktorluq üzrə Dissertasiya Şurasının, 2006-cı ildən isə həm də BDU-nun nəzdində fəaliyyət göstərən Doktorluq üzrə Dissertasiya Şurasının seminarının üzvüdür. Jurnalist sənətkarlığının əsasları, müasir mətbuatda ədəbi tənqid, Azərbaycan juralistikasının məktəbləri kimi fənləri tədris edir. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda hazırlanan çoxcildli "Azərbaycan ədəbiyyatı tarixi"nin V cildinin redaksiya heyətinin üzvü və əsas müəlliflərindən biridir.

Alxan Bayramoğlu"M.Ə.Sabir (qısa tərcümeyi-hal)" (Bakı, "Nurlan", 2001, 139 s.) və "Mirzə Ələkbər Sabir (həyatı və əsərləri)" (Bakı, "Qismət", 2003, 320 s., rəyçilər; professor Məmməd Məmmədov və professor Kamran Əliyev) monoqrafiyaları ilə Sabirşünaslığı zənginləşdirmiş, "Qafqaz imdadına çatan türkün könül nəğmələri" (Bakı, 2002, 163 s.), "Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat"(Bakı, 2003), "Sabir Bakıda" (Bakı, 2012), "Hüququnu dərk edən kəslər" (Bakı, 2015) adlı monoqrafiyaları çap olunmuşdur. Tanınmış alim 600-ə yaxın elmi məqalə, 13 monoqrafiya, tərtib, ön söz, lüğət və şərhlərdən ibarət 6 kitab, ali məktəblər üçün 4 dərs vəsaiti və 7 tədris proqramının müəllifidir.

Alxan Bayramoğlu elmi fəaliyyətlə yanaşı, tədris sahəsində də çalışır. O, Bakı Dövlət Universitetinin professorudur. Alim "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki (Qədim dövrdən 1930 illərədək)", "Azərbaycan jurnalistika məktəbləri" və "Jurnalist sənətkarlığı" adlı dərs vəsaitlərinin müəllifidir.

Professor Alxan Bayramoğlunun 2010-cu ildə "Elm" nəşriyyatında çapdan çıxan və M.Ə.Sabirin tərcümeyihalına, Sabir və ümum Azərbaycan mədəniyyəti probleminə, şairin əsərlərinin nəşri və tədqiqi məsələlərinə həsr edilmiş müxtəlif vaxtlarda ayrı-ayrı məcmuələrdə, jurnallarda, qəzetlərdə işıq üzü görmüş məqalələrdən ibarət tərtib olunmuş "Bənzərəm bir qocaman dağa ki" kitabı Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Jurnalist sənətkarlığı/ Alxan Bayramoğlu; red. C. Məmmədli // Bakı: Elm və təhsil, 2015.- 85, [3] s.

Hüququndərk edən kəslər / Alxan Bayramoğlu; red. N. Cəfərov.- Bakı: Elm və təhsil, 2015.- 45, [3] s.

Əsgərli,Ə.Alim və müəllim ömrünün bəhrəsi: Alxan Bayramoğlu-65 /Əlizadə Əsgərli//Şərq.-2019.- 19 oktyabr.- S.12; 525-ci qəzet.-2019.-23 oktyabr.-S.20.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Alxan_Bayramo%C4%9Flu

https://shamakhi-encyclopedia.az/alxan-bayramoglu-m%C9%99mm%C9%99dov-alxan-bayram-oglu/

http://www.anl.az/down/meqale/sherq/2019/oktyabr/678186.htm

Məhərrəm Məmmədyarov – 100

(1924-2022)

Akademik



Məhərrəm Əli oğlu Məmmədyarov 1924-cü il oktyabr ayının 17-də Naxçıvan MR Culfa rayonu Yaycı kəndində anadan olmuşdur. 1941-ci ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmişdir. 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində iştrak etmiş, 12 medal və ordenlərlə mükafatlanmışdır.1949-cu ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU), 1953-cü ildə isə Leninqrad (indiki Sankt-Peterburq) Texniki Universitetinin aspiranturasını bitirmişdir. 1953-1955-ci illərdə Azərbaycan EA-nın Kimya İnstitutunda elmi katib, 1955-1959-cu illərdə SSRİ EA-nın N.D.Zelinski adına Üzvi Kimya İnstitutunda baş elmi işçi, 1959-cu ildən Neft-Kimya Prosesləri İnstitutunda işləmiş,1969-cu ildə sintetik yağların sintez və texnologiyaları laboratoriyasının rəhbəri olmuşdur.1970-ci ildə "Neft kimyası" ixtisası üzrə kimya elmləri doktoru elmi dərəcəsini, 1971-ci ildə isə professor elmi adını almışdır.

1973-1979-cu illərdə Azərbaycan MEA Naxçıvan regional elmi mərkəzinin rəhbəri olmuş, eyni zamanda 1975-1978-ci illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (indiki Naxçıvan Dövlət Universiteti) dərs demişdir. 1981-ci ildən 1994-cü ilə qədər Azərbaycan EA Mikrobiologiya İnstitutunun şöbə müdiri, 1994-cü ildən 2002-ci ilə qədər isə direktoru, Neft-Kimya Prosesləri İnstitutunun Sintetik yağların sintez və texnologiyaları laboratoriyasının rəhbəri olmuşdur. 1975-1980-ci illərdə zərif üzvi sintez üzrə SSRİ MEA-nın Elmi Şurasının üzvü, Naxçıvan MR üzrə "Bilik" cəmiyyətinin sədri, Ümumittifaq "Bilik" cəmiyyətinin təftiş komissiyasının üzvü, Respublika "Bilik" cəmiyyətinin kimya və biologiya elmlərinin təbliği şöbəsinin sədr müavini, 1992-1993-cü illərdə "Neft kimyası" ixtisası üzrə namizədlik və doktorluq elmi dərəcələrinin verilməsi üzrə Y.H.Məmmədəliyev adına NKPİ-də İxtisaslaşmış Şuranın sədri olmuşdur.

Alim 1980-ci ildə Naxçıvan termal mənbələrinin karbon qazının sənayedə istifadə texnologiyasını işləyib hazırladığına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür. Vinilxloridin toplu miqyasda qaynar katolizatorun layında etilenin xlorlaşdırılması üsulu ilə alınması onun rəhbərliyi altında həyata keçirilmiş, sintetik efir yağlarının yeni növləri sintez edilmiş,layların hasilatının artırılması üçun biotexnologiya işlənib hazırlanmışdır.

1989-cu ildən AMEA-nın müxbir üzvü, 2001-ci ildən AMEA-nın həqiqi üzvü olan

Məhərrəm Məmmədyarov 250-dən çoxelmi işin, 39 patent və müəlliflik şəhadətnaməsinin, 3 monoqrafiyanın müəllifi olmuş, rəhbərliyi altında 14 elmlər namizədi və bir elmlər doktoru hazırlanmışdır.

Alim 1985-ci ildə I dərəcəli "Böyük Vətən müharibəsi" ordeni, 1988-ci ildə "SSRİ-nin Silahlı Qüvvələrinin 70 ili", 1995-ci ildə Y.H.Məmmədəliyev adına medal, 2006-cı ildə İslam Ölkələri İqtisadi İnkişaf təşkilatının "OGS"qızıl medalı və diplomu, 2014-cü ildə "Şərəf" ordeni ilə təltif edilmişdir.

1980-ildə Azərbaycan SSR Dövlət mükafatı, 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına, 2014-cü ildə Y.H.Məmmədəliyev adına mükafata layiq görülmüş, 2019-cu ildəAzərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif edilmişdir.

Akademik Məhərrəm Məmmədyarov 2 yanvar 2022-ci ildə Bakıda vəfat etmiş, İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Döyüş səngərlərindən elmi kəşflərə /M.Məmmədyarov; müsahibəni apardı Ceyhun Abbasov // 525-ci qəzet.- 2014.- 29 noyabr.- S.14.

"Allah ermənilərə görə yaradıb ki, pisi görüb yaxşını yaddan çıxarmayaq":Kimya elmləri doktoru,AMEA-nın həqiqi üzvü M. Məmmədyarovla müsahibə/ M.Məmmədyarov; müsahibəni apardı A.Camal,A.Rzaoğlu // Türküstan.-2017.- 16-22 may.- S.8-9.

Məhərrəm Əli oğlu Məmmədyarov: biblioqrafiya/ AMEA, Y.H.Məmmədəliyev ad. Neft-Kimya Prosesləri İn-tu, Mərkəzi Elmi Kitabxana; tərt.: F.X.Əliyeva,L.N.Hüseynova; elmi red. V.M.Abbasov;red.: L.B.İmanova,G.Q.Abbasova.- Bakı: Elm,2015.- 220, [2] s.


İnternetdə:

https://az.wikipedia.org/wiki/M%C9%99h%C9%99rr%C9%99m_M%C9%99mm%C9%99dyarov

https://ikisahil.az/post/275396-meherrem-memmedyarov-vefat-etdi

Mayıl Əhmədov – 65

(1959)



Mayıl Hilal oğlu Əhmədov 1959-cu il oktyabr ayının 10-da Goranboy rayonunun Xanqərvənd kəndində anadan olmuşdur. O, 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Kitabxanaçılıq fakültəsinə daxil olmuş, buranı fərqlənmə diplomu ilə bitirmişdir.

1983-1988-ci illərdə Bakı şəhərində Toxuculuq və Yüngül Sənaye işçilərinin Həmkarlar İttifaqı Respublikası Komitəsinin Kitabxanasının müdiri, 1989-1991-ci illərdə respublikada ictimai-siyasi yönümlü əsas kitabxana, ölkənin partiya kitabxanalarının metodiki mərkəzi olan Azərbaycan KP MK Siyasi Maarif Evi Kitabxanasının müdiri vəzifəsində çalışmışdır. 1992-2001-ci illərdə Azərbaycan Respublikası Prezidentinini İşlər İdarəsi təsərrüfat şöbəsinin nəzdindəki kitabxananın müdiri, 2001-2003-cü illərdə İşlər İdarəsinin böyük məsləhətçisi vəzifələrində işləmişdir. Mayıl Əhmədov hazırda Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsinin Prezident Kitabxanasının direktoru vəzifəsində çalışır.

Mayıl Əhmədov kitabxana-informasiya və biblioqrafiya xidmətinə dair dünyada mövcud olan yeni, səmərəli metod və texnologiyaların öyrənilməsinə və bu yeniliklərin Prezident Kitabxanasında tətbiqinə, istifadəsinə xüsusi diqqət yetirir. Onun rəhbərliyi altında Prezident Kitabxanasında 2004-cü ildə dövri nəşrlərdə dərc edilən materialların elektron kartotekası yaradılaraq həm lokal şəbəkədə, həm də internet üzərində istifadəyə verilmişdir.

Mayıl Əhmədov İFLA-nın Böyük Britaniyada (Qlazqo),İtalyada (Milan),İsveçdə (Qeteborq), Polşada (Vrotslav), Yunanıstanda (Afina) keçirilmiş illik Şura və Konfraslarında, 2011-ci ildə İsveçrədə keçirilmiş Azərbaycan və İsveçrə kitabxanaçılarının birgə konfrasında iştirak etmişdir. 2012-ci ildə Ankara Avrasiya Kitabxanaçılar Birliyinin təsis Konfrasında Azərbaycan kitabxanalarının inkişaf prespektivlərinə həsr edilmiş məruzə ilə çıxış etmişdir.

M. Əhmədovun təşəbbüsü ilə ilk dəfə olaraq DİOSİT keçirilməyə başlanmışdır. Bu maraqlı tədbir Prezident Kitabxanasında iki dəfə (2008 və 2013-cü illərdə) keçirilmiş və MDB, Şərqi Avropa kitabxana ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

Mayıl Əhmədov Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Ekspert Konisssiyasının və Milli Kitabxananın Məsləhət Şurasının üzvüdür. O, görkəmli dövlət və ictimai xadimlərin fəaliyyətinə dair bir neçə kitabın həmtərtibçisi və məsul redaktoru, dövri mətbuatda, konfrans toplularında dərc edilmiş bir sıra məqalələrin müəllifidir.

Mayıl Əhmədov 2011-ci ildə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüş, 2019-cu il oktyabr ayının 16-da 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan kitabxanaşünaslığının patriarxı: [Əməkdar elm xadimi və Əməkdar mədəniyyət işçisi, "Şöhrət" və "Şərəf" ordenli, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin təsisçisi Abuzər Xələfov haqqında] / Mail Əhmədov // Xalq qəzeti.- 2020.- 5 iyun.-S.10.

Kitaba bağlı mənalı ömür yolu: [M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor,Əməkdar mədəniyyət işçisi Kərim Tahirovun 70 illiyi münasibətilə] / Mail Əhmədov, Əliyusif Məmmədov // Respublika.-2021.-12 noyabr.-S.11.

Məmmədov, Ə.Təbrik edirik! Kitabxanaşünaslıq və İnformasiya jurnalının redaksiya heyəti Mayıl Əhmədovu 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edirik/Əliyusif Məmmədov//Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və təcrübi jurnal.-2019.-№2.- S.137-139.

İnternetdə:

http://www.anl.az//down/meqale/kitabxanashunasliq-informasiya/2_2019/17(meqale).pdf

Elmira Ramazanova – 90

(1934-2020)

Alim



Elmira Məmmədəmin qızı Ramazanova 1934-cü il oktyabr ayının 28-də Bakıda anadan olmuşdur. 1952-ci ildə Bakıdakı 134 nömrəli məktəbi qızıl medalla, 1957-ci ildə isə Azərbaycan Sənaye İnstitutunu (indiki ADNSU) fərqlənmə diplomu ilə bitirmişdir.

Əmək fəaliyyətinə Azərbaycan Energetika İdarəsində mühəndis işləməklə başlayan Elmira Ramazanova 1960-cı ildən Azərbaycan Dövlət Neft Akademiyasının aspiranturasında oxuyaraq neft-qaz və qaz kondensat sistemləri karbohidrogenlərin termodinamikası üzrə ixtisaslaşmışdır.

E.Ramazanova 1965-ci ildə namizədlik, 1975-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1967-1977-ci illərdə Neft və qaz yataqlarının işlənməsi kafedrasında dosent, 1978-1981-ci illərdə professor, 1981-1992-ci illərdə isə axşam və qiyabi təhsil üzrə prorektor vəzifələrində işləmişdir. 1992-ci ildən ADNSU-nun nəzdində Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya Elmi-Tədqiqat İnstitutunun direktoru olmuşdur. 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Elmira Ramazanova 300-dən çox elmi əsərin, o cümlədən 3 monoqrafiya, 11 tədris metodik vəsait, 16 elmi-metodik rəhbərlik, 25 patent və ixtiranın müəllifidir. O, eyni zamanda Azərbaycan Milli Neft Komitəsinin vitse-prezidenti, "Azərbaycan neft təsərrüfatı" jurnalı və "Vışka" qəzeti redaksiya heyətinin, Təbiət Elmləri üzrə Rusiya Akademiyasının, Beynalxalq Şərq Neft Akademiyasının üzvü olmuş, rəhbərlik etdiyi Elmi-Tədqiqat İnstitutunun nəzdində Ali Attestasiya Komissiyasının (indiki Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyası) təsdiq etdiyi "Neft yataqlarının işlənməsi və istismarı", "Quyuların qazılması", "Maşınlar, aqreqatlar və proseslər" kimi üç ixtisas üzrə doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə Şura fəaliyyət göstərmişdir.

Alim elm və texnologiyaların inkişafındakı nailiyyətlərinə görə "SSRİ neft sənayesi əlaçısı" nişanı (1981), "Şərəf nişanı" ordeni (1986), Əməkdar elm xadimi (1990), SSRİ-nin Fəxri neftçisi (1990), "Vyetnamın neft sənayesinin Fəxri xadimi" (2010) və İqtisadi Əməkdaşlıq Təşkilatının "11-ci Sammit ECO-2010" mükafat və adlarına layiq görülmüşdür. Azərbaycan Respublikasında neft və qaz sənayesi üçün yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasındakı xidmətlərinə görə isə "Şöhrət" (2014) ordeni ilə təltif olunmuşdur.

Elmira Məmmədəmin qızı Ramazanova 8 dekabr 2020-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Композит наноструктурных поликристаллических порошков ВАФ-1 ВАФ-2- современная технология / Э.Рамазанова // Международная НаучноТехническая Конференция.- УФА.- Ноябрь.- 2016.

Обсуждены вопросы создания новых технологий / Э.Рамазанова // Вышка.- 2015.- 13 марта.- С.7.

Сепарационная система внутритрубного исполнения / Э.Рамазанова // Нефте газовые технологии.- 2015.- № 6.

Ramazanova Elmira Məmmədəmin qızı - 85 il! //Azərbaycan neft təsərrüfatı.-2019.- №11.- S.73-74.

Elmira Məmmədəmin qızı Ramazanova (1934-2020): [vəfatı ilə əlaqədar]//Azərbaycan neft təsərrüfatı.-2020.- №12.- S. 58.

İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3885

Ramiz Qurbanov – 90

(1934)

Alim



Ramiz Seyfulla oğlu Qurbanov 1934-cü il oktyabr ayının 30-da Salyan şəhərində anadan olmuşdur. Atası Kürdəmir Rayon Partiya Komitəsinin birinci katibi, Azərbaycan KP Mərkəzi Komitəsinin büro üzvü və SSRİ Ali Soveti, Millətlər Sovetinə deputatlığa namizəd göstərilən Seyfulla Qurbanov 1937-ci ildə "Xalq düşməni" damğası vurularaq güllələnmiş, anası Qazaxıstanın Karaqanda şəhərinə sürgün edildiyindən, qardaşı ilə uşaq evində böyümüşdür. Orta məktəbi "gümüş medalla" bitirib Azərbaycan Sənaye İnstitutuna daxil olmuş,1956-cı ildə Neft yataqlarının işlənilməsi və istismarı ixtisasıüzrə neft-mədən fakültəsini fərqlənmədiplomu ilə bitirmişdir.

26 Bakı komissarı adına NQÇİ-də operator kimi əmək fəaliyyətinə başlayaraq, usta köməkçisi, neft və qazhasilatı üzrə usta, böyük mühəndis vəzifələrində işləmişdir.

1961-1963-cü illərdə AzNKİ-nin "Nəzəri mexanika"kafedrasında assistent işləyən R.Qurbanov 1963-cü ildə "Neft işində maye və qaz axmasının təyin edilmə məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, 1963-1965-ci illərdə böyük müəllim, 1965-1969-cu illərdə dosent olmuş,1968-ci ildə isə "Qeyri-nyuton neftlərinin hasilatının hidrodinamik xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1970-ci ildə professor elmi adı almışdır. 1968-1989-cu illərdə AzNKİ-da Nəzəri mexanika kafedrasının müdiri, 1982-1989-cu illərdə institutun elmi işlər üzrə prorektoru, 1989-cu il iyun ayının 30-da Azərbaycan EA müxbir üzvü seçilmiş, 1989-1990-cı illərdə Azərbaycan Texniki Universitetinin rektoru olmuşdur. Azərbaycan Təhsil Nazirliyinin "Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya" ETİ şöbəsində baş elmi işçidir.

RamizQurbanov 300-ə yaxın elmi məqalənin, 2 monoqrafiyanın, 2 broşüranın müəllifidir. İxtiralara görə 31 müəlliflik şəhadətnaməsi almış və 7 elmlər doktoru, 33 elmlər namizədi hazırlamışdır.

Bərk cismin mexanikası və neft hasilatı texnologiyası sahəsində tanınmış alim Ramiz Qurbanov Azərbaycan SSR Dövlət mükafatına (1986), "SSRİ fəxri neftçisi" adlarına layiq görülmüş, "SSRİ ali təhsil sahəsində işində əla müvəffəqiyyətlərə görə","Azərbaycan neft sənayesi əlaçısı","Azərbaycan qaz sənayesi əlaçısı" nişanları ilə təltif olunmuş, Amerika neftçiləri cəmiyyətinin həqiqi üzvü seçilmişdir.

Ədəbiyyat:

Hidravlika: ali texniki məktəb və fakültələr üçün dərslik / A.X.Mirzəcanzadə, R.S.Qurbanov, Z.M.Əhmədov.- Bakı: Maarif, 1990.- 280 s.

Məlikov, R. Alim və insan: [Ramiz Qurbanov -80: publisistik oçerklər] / Rüstəm Məlikov; kitabın ideya müəl. və red. Hacı Kəmalə Muxtarova.-Bakı: [Şərq-Qərb], 2014.- 300, [4] s.

Qurbanov Ramiz Seyfulla oğlu - 85 il! //Azərbaycan neft təsərrüfatı.-2019.- №11.- S.75-76.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ramiz_Qurbanov

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/117

http://binegedi-ih.gov.az/az/page/114.html

Beynəlxalq Musiqi Günü
(1975)



Bəşəriyyətin musiqi ilə tanışlığı çox qədim dövrlərdən başlamışdır. Afrika mağaralarında aşkar edilən qayaüstü rəsmlərdə əlində musiqi aləti tutan insanlar təsvir edilmişdir. 2000-ci ildə isə Çin arxeoloqları iki min illik tarixi olan musiqi alətləri muzeyini aşkar etmişlər.

Azərbaycanda da musiqinin tarixi çox qədimlərə gedib çıxır. Qobustandakı qavaldaş daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Qobustan qayalarında qədim Azərbaycanın "Yallı" rəqs səhnələri təsvir olunmuşdur. Bu rəqsin uğurlu ov üçün ovsun mərasimi olduğu vurğulanmışdır. Azərbaycan dilinin musiqi dili olması da buradan qaynaqlanır.

Beynəlxalq Musiqi Günü UNESCO nəzdində fəaliyyət göstərən Beynəlxalq Musiqi Şurası tərəfindən 1973-cü ildə Lozannada keçirilən Baş Assambleyada təsis olunmuş və ilk dəfə UNESCO-nun qərarı ilə Beynəlxalq Musiqi Günü 1975-ci il oktyabr ayının 1-də keçirilmişdir. Bu bayramın yaradıcılarının qarşısına qoyduğu əsas məqsəd, mədəniyyətlər arasında təcrübə mübadiləsi müxtəlif ölkələr və musiqi sənətinin yayılması idi. Bu bayram hər il bütün dünyada ən yaxşı musiqiçi və incəsənət kollektivlərinin iştirak etdiyi möhtəşəm konsert proqramları ilə qeyd olunur. Beynəlxalq Musiqi Günündə dünya xəzinəsinin qeyri-adi, bənzərsiz inciləri ifa edilir. Azərbaycan musiqiçiləri də bu tarixi, əlamətdar günə daim öz töhfəsini verir. Xalqımızın milli-mənəvi sərvətlərinin yaşadılması və gələcək nəsillərə çatdırılması, eyni zamanda bəşəriyyətə layiqincə təqdim edilməsi istiqamətində bir çox layihələrin müəllifi olan Heydər Əliyev Fondunun təşəbbüsləri və onları gerçəkləşdirməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərdəndir.

Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində çox böyük layihələrə imza atılmışdır. Muğam 2008-ci ildə UNESCO tərəfindən şedevr əsər kimi Bəşəriyyətin Qeyri Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. Bakıda - Dənizkənarı Milli Parkda Beynəlxalq Muğam Mərkəzinin tikilib istifadəyə verilməsi fondun qlobal mədəniyyət layihələri sırasında mühüm yer tutur. Dünyada ilk dəfə olaraq "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı da məhz bu mədəniyyət mərkəzində keçirilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi və layihələri əsasında keçirilən silsilə beynəlxalq mədəniyyət və incəsənət tədbirləri sırasına Hamburq və Kölndəki "Azərbaycan gecəsi", Münhendəki "Azərbaycan mədəniyyəti gecəsi", Romadakı "Azərbaycan: mədəniyyət ruzigarı", İtaliyada və Avropa Parlamentinin mənzil-qərargahındakı "Azərbaycan mədəniyyəti günləri", Florensiyada Azərbaycan incəsənət ustalarının konserti, "San-Remo festivalının ulduzları Bakıda", Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalı, "Evrovision" mahnı müsabiqəsi, UNESCO-da olan "Azərbaycanın gənc istedadları" konsert proqramı, Beynəlxalq Aşıq Festivalı və s. möhtəşəm mədəniyyət tədbirlərini də əlavə etməliyik. Musiqi intəhasız, heç bir ölçüyə sığışmayan gücə malikdir. Bir çox məşhur bəstəkarlar daxili dünyalarını, duyğularını, istək və arzularını ifadə etmək üçün musiqidən istifadə ediblər. Onların adı məhz musiqinin qüdrəti sayəsində tarixə və gələcək nəsillərin yaddaşına yazılıb.Musiqi heç zaman qocalmır və insanlara bəxş edilən bu nadir nemət bəşəriyyət var olduqca yaşayacaq, yeniləşəcək, gəncləşərək seviləcək.

Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilirir.

Ədəbiyyat:

Qafarova, Z. Həmişə müasir Üzeyir bəy Hacıbəyli: 1 oktyabr Beynəlxalq Musiqi Günüdür /Zemfira Qafarova //Azərbaycan. -2015. -1 oktyabr. -S.12.

Fərəcov, S.Dahi bəstəkarın ev-muzeyi sənət adamlarının görüş məkanına çevrilib: [Qara Qarayevin ev-muzeyində "1 oktyabr - Beynəlxalq Musiqi Günü"münasibətilə keçirilən tədbir haqqında] / S.Fərəcov // Mədəniyyət.- 2019.- 4 oktyabr.- S.4.

Fərəcova, Z. Dünya musiqisevərlərinin bayramı: 1 oktyabr Beynəlxalq Musiqi Günüdür / Zöhrə Fərəcova // Azərbaycan.-2022.-1 oktyabr.-S.11.

İnternetdə:

https://www.medeniyyet.az/page/news/59203/Beynelxalq-Musiqi-Gunu-adli-virtual-sergi.html

http://www.anl.az/down/meqale/azerbaycan/2014/oktyabr/393829.htm

https://portal.azertag.az/az/node/17985

Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü

(2009)



2009-cu il oktyabr ayının 3-də IX Türkdilli Ölkələr Dövlət Rəhbərləri Zirvəsinin iştirakçı dövlətləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən Türk Şurasının yaranması haqqında Naxçıvan müqaviləsi imzalanmışdır. 2010-cu il sentyabrın 16-da türkdilli dövlət başçılarının İstanbul sammitində bu tarix "Türkdilli Xalqların Həmrəyliyi Günü" (Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü) kimi təsis olunmuşdur.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd təmələ əsaslanır və üzv dövlətlər arasında əməkdaşlıq və həmrəyliyin inkişafı baxımından mühüm regional platformadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyevin Naxçıvanda iştirak etdikləri zirvə görüşü bir sıra mühüm qərarlarla yadda qalmışdır. Həmin toplantıda çıxış edən Prezident İlham Əliyev türkdilli dövlət rəhbərlərinin 1992-ci ildə keçirilmiş ilk zirvə görüşünü xatırladaraq ötən 17 il ərzində türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin, işbirliyinin möhkəmləndirilməsində əsaslı dəyişikliklərin baş verdiyini qeyd etmişdir. Naxçıvan Zirvə toplantısında ölkələr arasında əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə təkliflərin səsləndirilməsi və görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Saziş və Naxçıvan Bəyannaməsinin imzalanması mühüm hadisə olmuşdur. Naxçıvan Zirvə toplantısında yaradılması qərara alınmış TÜRKSOY Fondunun mənzil qərargahı Bakıda yerləşən "Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu" fəaliyyətini uğurla davam etdirir.

15 oktyabr 2019-cu ildə VII Sammitdə Özbəkistan Türk Şurasının tam hüquqlu üzvü kimi iştirak etmişdir. 10 aprel 2020-ci ildə COVID-19 ilə mübarizədə ölkələr arasında həmrəyliyi və koordinasiyanı artırmaq məqsədi ilə Türk Şurasının üzvü, müşahidəçi ölkələrin və Türkmənistanın dövlət,hökumət başçılarının iştirakı ilə Türk Şurasının Fövqəladə Video Konfransı Zirvəsi keçirilmişdir.

Keçirilən tədbirlər "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq", "Turizm sahəsində əməkdaşlıq", "Media və informasiya sahəsində əməkdaşlıq" və s. mövzular altında keçirilmişdir. Bundan başqa, üzv dövlətlər arasında ticarət-iqtisadi münasibətləri inkişaf etdirmək məqsədilə nəqliyyat və gömrük sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verilmişdir.

Azərbaycan Respublikası Türk Şurasına üzv qardaş dövlətlərlə ikitərəfli və çoxtərəfli tərəfdaşlıq münasibətlərinə yüksək dəyər verir və üzv dövlətlər arasında qarşılıqlı etimadın gücləndirilməsi, regionda və onun hüdudlarından kənarda sülhün qorunub-saxlanılması, ortaq maraqları əhatə edən hərtərəfli və səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi, ticarət və sərmayələr üçün münbit şəraitin yaradılması da daxil olmaqla, təşkilatın məqsəd və məramlarına sadiqdir.

Ədəbiyyat:

Əliyeva, Z. Məqsəd Türk Dövlətləri Təşkilatını dünyanın iqtisadi güc mərkəzlərindən birinə çevirməkdir / Züleyxa Əliyeva // Azərbaycan.- 2023.- 18 noyabr.- S.10.

Bayramqızı, Ə. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası on illik yol işığında / Əfsanə Bayramqızı // Xalq qəzeti. - 2019.- 4 oktyabr. - S. 6.

Bayramov, V. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası mühüm uğurlar əldə edib / Vaqif Bayramov // Xalq qəzeti. - 2019. - 17 oktyabr. - S. 5.

İmanquliyev, B.TDT-nin rəqəmsal dünyaya baxışı Qarabağdan keçir:Təşkilatın VIII Zirvə Görüşündə günün digər vacib iqtisadi məsələlərindən də bəhs olundu / Bahadur İmanquliyev // Azərbaycan.- 2021.-19 noyabr.- S.1;4.

İnternetdə:

https://az.wikipedia

https://www.medeniyyet.az/page/news/59210/3-oktyabr-Turkdilli-Dovletlerin-Emekdasliq-Gunudur.html

Cəbrayıl Şəhəri Günü
(2023)



Tarixi Qələbə günlərinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamına əsasən 4 oktyabr Cəbrayıl şəhəri günü təsis edilmişdir. Bu əlamətdar günün təsis olunması 2020-ci ilin oktyabr ayının 4-də Cəbrayıl şəhəri və 9 kəndinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır.

Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə təşkil edilmiş, 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilmiş, 17 iyun 1964-cü ildə yenidən yaradılmışdır. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1049 kvadrat kilometrdir, ərazisi əsasən dağlıqdır. Rayon 1993-cü il avqust ayının 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən zaman 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət olmuşdur. İşğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəymiş, 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, kəndlər vəhşicəsinə dağıdılmış, 52000 məcburi köçkün respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, o cümlədən qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdır. Cəbrayıl rayonundan Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olmuş, 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

1994-cü il yanvar ayının 5-də Horadiz əməliyyatı zamanı rayonun Cocuq Mərcanlı kəndi işğaldan azad olunmuş, 2016-cı il Aprel döyüşləri zamanı əks-hücum nəticəsində Lələtəpə yüksəkliyi düşməndən təmizlənmiş və Cocuq Mərcanlı kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçmişdir.

2020-ci il Vətən müharibəsi zamanı rayonun tamamilə işğaldan azad edilməsi ilə Azərbaycan-İran sərhədinə dövlət nəzarəti bərpa edilmiş, oktyabr ayının 18-də Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırılmışdır. 2020-ci ilin noyabr ayının 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Cəbrayıl şəhərində və Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırmış, Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş vermiş, "Zəfər yolu"nun başlanğıcını qoymuşdur. Müzəffər Ali Baş komandanın bu ərazilərə hər bir səfəri yeni sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. İşğaldan azad edilmiş bütün ərazilərimizin əvvəlki simasının özünə qaytarılması üçün atılan addımlar hər birimizi qürurlandırır.

Ədəbiyyat:

Qardaşxanova, Ə.CƏBRAYIL Azad edilən ilk şəhərimiz: Azadlığın təntənə günü / Əsmər Qardaşxanova // Azərbaycan.- 2023.-4 oktyabr.- S.8.

Xasayeva, S. Prezidentin bayram ərməğanı: [Cəbrayıl şəhərinin işğaldan azad olunması günü ilə bağlı] / Səbinə Xasayeva; Qələmə aldı Ə.Qardaşxanova //Azərbaycan.- 2023.- 4 oktyabr.-S.6.

Əkbərov, C. Vətən adlı bir sevdamız var / Cavid Əkbərov //İki sahil.- 2023.- 4 oktyabr.-S.4.

İnternetdə:

https://azertag.az/xeber/bu_gun_cebrayil_seheri_gunudur-2773699

https://report.az/daxili-siyaset/bu-gun-cebrayil-seheri-gunudur-seherin-isgaldan-azad-olunmasindan-3-il-otur/

https://www.muallim.edu.az/news.php?id=26579

Beynəlxalq Müəllimlər Günü
(1966)



1966-cı il oktyabr ayının 5- də YUNESKO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda "Müəllimlərin statusu haqqında"adlı ilk beynəlxalq sənəd imzalanmışdır. 1994-cü ildən isə həmin tarix YUNESKO tərəfindən Ümumdünya Müəllimlər Günü kimi təsis edilmişdir. Bu tarix həmçinin BMT-nin də beynəlxalq və ümumdünya günlər sisteminə daxildir.

Bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna diqqət çəkməyi nəzərdə tutmuşdur. Hal-hazırda dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə "Müəllimlər günü" qeyd edilir. Albaniyada 8 mart, Cənubi Koreyada 15 may, Argentinada 11 sentyabr, Çində 28 sentyabr, Özbəkistanda 1 oktyabr, Türkiyədə 24 noyabr tarixlərində Müəllimlər günü qeyd olunur.

Azərbaycanda Beynəlxalq Müəllimlər Günü 1993-cü ildən qeyd edilir. "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirmiş, onlara böyük hörmətlə yanaşmış, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalmışdır.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha bilikli yetişməsinə hesablanmışdır. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynamışdır.

Son 20 ildə ölkəmizdə 3600 yeni məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur. Təkcə son 3 ildə ölkədə 275 yeni məktəb tikilmişdir. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən nəinki fərqlənmir, hətta onları üstələyir. Bütün bu tədbirlər Prezident İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikrini reallığa çevirir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində təhsil müəssisələrinin tikintisi və təmiri davam edir. Prezident İ. Əliyev iyulun 21-də Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olmış, Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışlarında iştirak etmişdir.

Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində 20 məktəb direktoru, 32 direktor müavini, 671 müəllim düşmənə qarşı vuruşaraq qəhrəmanlıqlar göstərmiş, 20 təhsil işçisi döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə onların hər biri müxtəlif dərəcəli medallarla təltif edilmişdir.

Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdırlar. Heç bir müasir təhsil texnologiyası müəllim əməyini əvəz edə bilməz. Azərbaycanın müəllimlər ordusu xalqımızın xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edərək, layiqli vətəndaşlar yetişdirilməsində öz xidmətlərini əsirgəmirlər.

Ədəbiyyat:

Həsənova, N. Qəhrəmanlar yetişdirən müəllimlərin bayramı: 5 Oktyabr Beynəlxalq Müəllim Günüdür / Nərmin Həsənova // Azərbaycan.- 2023.- 5 oktyabr.- S.1.

Qurbanov, S.Baş müəllim: 5 Oktyabr Beynəlxalq Müəllim Günüdür / Sadıq Qurbanov // Azərbaycan.- 2023.- 5 oktyabr.- S. 8.

Fərəcova, Z.Cəmiyyətin gələcəyini nurlandıran işıq: 5 Oktyabr Beynəlxalq Müəllim Günüdür /Zöhrə Fərəcova // Azərbaycan.- 2020.- 4 oktyabr.- S. 12.

Mükərrəmoğlu, M. Müəllim əməyi əsl vətənpərvərlik nümunəsidir: 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür / M.Mükərrəmoğlu //Xalq qəzeti.- 2021.- 5 oktyabr.- S.11.

Amanov, R.Müəllim ömrü şama bənzəyir:5 Oktyabr Müəllim Günüdür / Rasim Amanov // Respublika.- 2020.-4 oktyabr.- S.9.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2021/oktyabr/758895(meqale).pdf

Füzuli Şəhəri Günü
(2023)



Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi ilə əlaqədar 31 iyul 2023-cü il tarixli sərəncama əsasən, 17 oktyabr Füzuli Şəhəri Günüdür.

1827-ci ildə Qarabulaq adlanan yaşayış məntəqəsi əsasında yaradılan əraziyə Qaryagin adı verilmiş, 1930-cu ildə rayon adlandırılmış, 1959-cu ildə böyük şair Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə rayona onun adı verilmişdir.

1993-cü il avqustun 23-də Füzuli şəhəri və rayonun kəndlərinin böyük hissəsi, həmin ilin oktyabrında isə rayonun Arazboyu yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, əhali respublikanın 50-dən çox rayon və şəhərində məskunlaşmışdır. Füzuli rayonunda işğaldan əvvəl 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri mövcud olmuşdur. Hazırda rayonun əhalisi təxminən 144 min nəfərdir. İşğal zamanı ermənilər tərəfindən bütün infrastruktur obyektləri, o cümlədən tarixi, dini-mədəni abidələr yerlə yeksan edilmiş, 663 nəfər şəhid olmuş, 181 nəfər əsir və itkin düşmüşdür.

1994-cü ilyanvar ayının 5-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində rayonun Arazboyu 21 kəndi və Horadiz qəsəbəsi, 44 günlük Vətən müharibəsində Füzuli şəhəri də daxil olmaqla 62 yaşayış məntəqəsi işğaldan azad edilmişdir. 2020-ci il noyabr ayının 26-da "Füzulinin azad olunmasına görə" medalı təsis edilmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25 min 301 hərbi qulluqçusu bu medal ilə təltif olunmuşdur. 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair "Dövlət Proqramı" əsasında, cəmi 9 ayda Füzuli Beynəlxalq Hava Limanı inşa edilərək istifadəyə verilmiş, açılış mərasimində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan iştirak etmişlər. Şəhərdə geniş bərpa və quruculuq işləri başlanılmış, çox sayda bağça, məktəb, xəstəxana tikilmiş, bir-birindən rahat yollar, yaraşıqlı parklar salınmış, yaşayış kompleksləri ucaldılmış, 2023-cü ilin avqust ayından 258 ailənin (928 nəfər) daimi məskunlaşması təmin edilmişdir. Bu istiqamətdə layihələrin icrası davam etdirilir.

Ədəbiyyat:

Abdullayev, M.Zəfərin Füzuli zirvəsi: 17 Oktyabr Füzuli Şəhəri Günüdür / Məsaim Abdullayev // Xalq qəzeti.- 2023.- 17 oktyabr.- S.10.

Qardaşxanova, Ə.Qələbənin FÜZULİ müjdəsi: Vətən müharibəsinin 21-ci günü qədim şəhərimiz azadlığına qovuşdu / Əsmər Qardaşxanova // Azərbaycan.- 2023.-17 oktyabr.- S.16.

Sadıqov, T. Yeniləşən, əzəli yurdumuz Füzuli /Tacir Sadıqov // Respublika.- 2023.- 17 oktyabr.- S.12.

İnternetdə:

https://azertag.az/xeber/bu_gun_fuzuli_seheri_gunudur-2790052

https://qafqazinfo.az/news/detail/bu-gun-fuzuli-seheri-gunudur-415495https://aztv.az/az/news/26972/bu-gun-fuzuli-seheri-gunudur

Dövlət Müstəqilliyin Bərpası Günü
(1991)



1990-cı illərin əvvəllərində SSRİ-nin əksər regionlarında millətlərin və xalqların azadlıq hərəkatı başlamış, 1991-ci ilin avqustunda İttifaqın ləğv edilməsi haqqında qərar verilmiş və Sovetlər Birliyi dünya xəritəsindən silinmişdir. SSRİ-yə daxil olan digər müttəfiq respublikalar kimi, 1991-ci il oktyabrın 8-də Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyası 4 gün müzakirələr aparmış, 1991-ci il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmişdir.

Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirilmiş, səsvermə hüququ olanların 95%-dən çoxu referendumda iştirak etməklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxmışdır. Müstəqillik bərpa olunandan sonra dövlət bayrağı, himni və gerbi haqqında da qanunlar qəbul edilmişdir. Müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, dekabr ayının 11-də Rumıniya, 13-də Pakistan, 23-də İsveçrə, 25-də İran, 1992-ci il yanvarın 23-də ABŞ, aprelin 10-da Rusiya və b. dövlətlər tanımışdır. 2 mart 1992-ci ildə Azərbaycan müstəqil dövlət kimi BMT-yə üzv qəbul olunmuşdur.

1993-cü ildə bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyininsəhv siyasəti və daxildə gedən siyasi çəkişmələr müstəqillik üçün təhlükə yaratmışdır. Xalqının tələbi ilə siyasihakimiyyətə qayıdan Heydər Əliyevin Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə etməklə, "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" prinsipini əsas götürməklə qətiyyətli mübarizəsi nəticəsindəmüstəqilliyi qorumaq və inkişaf etdirmək mümkün olmuşdur.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev siyasi ənənələrə və dövlətin qorunmasının ali prinsiplərinə uyğun olaraq Azərbaycanda demokratik cəmiyyətin formalaşdırılması, demokratik hüquqi dövlət quruculuğunun daha da dərinləşdirilməsi üçün misilsiz islahatlar həyata keçirir. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımız 2020-ci ildə 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş, bu tarixi Zəfəri qazanan Azərbaycan xalqı bütün dünyaya göstərmişdir ki, Azərbaycanın müstəqilliyi əbədidir!

15 oktyabr 2021-ci il tarixli Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən may ayının 28-i Müstəqillik Günü, oktyabr ayının 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilmişdir. Azərbaycan xalqı indi bu bayramı öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir.

Ədəbiyyat

Dövlət Müstəqilliyin Bərpası Günü // 525-ci qəzet.- 2023.- 19 oktyabr, №189.- S.9.

"Müstəqilliyimiz əbədidir!" // Mədəniyyət.- 2023.- 20 oktyabr, №78.- S.4

Nəcəfxanlı, Ə.Dövlət müstəqilliyimizin bərpası milli kimliyimizin rəsmi təsdiqidir:18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür / Əli Nəcəfxanlı // Xalq qəzeti.- 2022.- 18 oktyabr.-S.1;4.

Əliyeva, Y. Şanlı Qələbəmiz hər şeyi özü deyir: 18 Oktyabr müstəqilliyin bərpası günüdür! / Yeganə Əliyeva //İki sahil.- 2022.- 18 oktyabr.- S.3.

Fərəcova, Z.Milyonların arzusunun reallaşdığı gün: 18 oktyabr Müstəqilliyin Bərpası Günüdür / Zöhrə Fərəcova //Azərbaycan.- 2022.- 18 oktyabr.-S.5.

İnternetdə

https://republic.preslib.az/az_a3.html

Zəngilan Şəhəri Günü
(2023)



Prezident İlham Əliyevin 2023-cü il iyul ayının 31-də imzaladığı sərəncama əsasən 20 oktyabr Zəngilan Şəhəri Günüdür. Azərbaycan Ordusu Zəngilanın işğal tarixinin - 29 oktyabr 1993-cü ilin üstündən xətt çəkərək yeni-azadlığa qovuşduğu Zəfər tarixini yazmışdır. Vətən müharibəsinin 24-cü günündə 2020-ci il oktyabr ayının 20-də bütün zəngilanlıların 27 illik həsrətinə son qoyularaq, işğal edilən sonuncu torpağımız olsa da, Zəngilan da azadlığına qovuşan ilk şəhərlər sırasına daxil olmuşdur.

Oktyabr ayının 20-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Zəngilan şəhəri və rayonun 6 kəndinin işğaldan azad olunduğunu elan etmiş, rayon uğrunda döyüşlər nəticəsində ümumilikdə 1şəhər, 4 qəsəbə və 49 kəndi işğaldan azad edərək, Azərbaycan-İran sərhədini tam bərpa edilmişdir. 1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin təkidi ilə Zəngəzurun yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalmışdır. Zəngilan 1930-cu il avqust ayının 8-də müstəqil rayon kimi formalaşmış, 1967-ci ildə şəhər statusu almışdır. Bakı-Culfa-Naxçıvan dəmir yolunun üzərində yerləşdiyindən mühüm strateji əhəmiyyətə malik olan Zəngilanın ərazisi 730 kvadratkilometr, əhalisi isə 45 mindən çox olmuşdur. 1993-cü ildə Zəngilan əhalisi 67 gün mühasirə şəraitində vuruşaraq 235 şəhid vermiş, oktyabrın 29-da işğal olunmuşdur. İşğal edilərkən 1 şəhər, 5 qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 19 ibtidai məktəb, 15 orta məktəb, bir texniki peşə və musiqi məktəbi, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu olmuşdur. İşğal dövründə bütün infrastruktur, tarixi və dini memarlıq abidələri dağıdılıb, təbiətə, ətraf mühitə ciddi ziyan vurulmuşdur.

Prezidentin sərəncamına əsasən, 2020-ci il noyabrın 26-da "Zəngilanın azad olunmasına görə" medalı təsis edilmiş, Silahlı Qüvvələrimizin 6974 hərbi qulluqçusu bu medalla təltif olunmuşdur. Prezident İlham Əliyev 2020-ci il dekabr ayının 23-də Zəngilanda Azərbaycanın üçrəngli bayrağını qaldırmışdır. Azərbaycan dövləti öz gücü hesabına bu gün azad olunmuş ərazilərdə sürətli bərpa-quruculuq işləri həyata keçirməklə, ilkin mərhələdə Ağalıda 200 ev və məktəb, tibb məntəqəsi, uşaq bağçası, "ASAN", "DOST" mərkəzləri, kiçik və orta biznesə dəstək, ümumilikdə digər xidmətlərə əlçatanlığın təmin olunması üçün hər şey nəzərə alınmaqla, 2022-ci il iyul ayının 19-da məskunlaşmaya başlamış və proses davam etdirilir. Zəngilan Beynəlxalq Hava Limanı inşa edilərək istismara verilmiş, ilk ali qonağı qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmuşdur. Rayonun Ağbənd qəsəbəsi yaxınlığında Azərbaycan və İran hökuməti arasında İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında memorandum imzalanmışdır. Şərq və Qərb ölkələrini birləşdirəcək Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində işlər davam edir. Rayon ərazisində infrastrukturun bərpası işləri uğurla həyata keçirilir.

Ədəbiyyat:

Bayramova, Z.Vətən müharibəsinin 24-cü günü: Azad Zəngilan şəhəri / Zümrüd Bayramova //Səs.- 2022.- 20 oktyabr.- S.4.

Vətən müharibəsinin Zəfər soraqlı üçüncü şəhəri:20 oktyabr Zəngilan Şəhəri Günüdür //Mədəniyyət.- 2023.- 20 oktyabr.- S.1.


"44 gün"ün 24-cü gün müjdəsi: 20 Oktyabr Zəngilan Şəhəri Günüdür//Xalq qəzeti.-2023.- 20 oktyabr.- S.6.

İnternetdə:

https://report.az/qarabag/bu-gun-zengilan-seheri-gunudur/

https://azertag.az/xeber/bu_gun_zengilan_seheri_gunudur-2794429

Qubadlı Şəhəri Günü
(2023)



Vətən müharibəsinin 29-cu günündə 2020-ci il oktyabr ayının 25-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndinin və Qubadlı şəhərinin işğaldan azad edildiyini bildirmiş, Müzəffər Azərbaycan Ordusu üçrəngli bayrağımızı həmin ərazilərdə qürurla dalğalandırmışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən 2020-ci il noyabr ayının 26-da "Qubadlının azad olunmasına görə" medalı təsis edilmiş,Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 15189 hərbi qulluqçusu bu medal ilə təltif olunmuşdur.

2020-ci il dekabr ayının 23-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olmuş, hər iki rayonda Azərbaycan bayrağını ucaltmışlar.

V-VI əsrlərdə yaşamış Sasani hökmdarı I Qubadın adı ilə bağlı olsa da yaşayış məskəni kimi qədim olan rayon 14 mart 1933-cü ildə Qubadlı kəndinin əsasında təşkil olunmuş,1963-cü ildə ləğv edilərək ərazisi Zəngilan rayonu ilə birləşdirilmişdir. 1964-cü ildə yenidən müstəqil rayon olan Qubadlı Azərbaycan Respublikasının cənub qərbində yerləşməklə, qərbdən 120 kmməsafədə Ermənistan ilə, şimaldan Laçın, şərqdən Cəbrayıl, cənubdan isə Zəngilan rayonları ilə həmsərhəddir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aid olan Qubadlı 31 avqust 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. İşğal nəticəsində rayondan 29997 nəfər məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti məskunlaşmış, 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekt, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış və yararsız vəziyyətə salınmışdır. 1080 ədəd kənd təsərrüfatı obyekti, 650 km avtomobil yolu, 2 su anbarı, 150 km magistral su xətləri, 4830 km elektrik xətləri, 165 km magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 ədəd dəyirman, 4 ədəd su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılmışdır. İşğalçılar Qubadlının zəngin təbiətinə, flora və faunasına qarşıekoloji terror törətmiş, meşələri, nadir ağac və bitki növlərini məhv etmiş, mişar daşı, yəşəm, mərmərləşmiş əhəng daşı, tuf daşı, qum-gil, əqiq yataqlarını istismar etmişdir.

Rayon işğaldan azad olunduqdan sonra ərazinin minalardan təmizlənmə əməliyyatlarına başlanılmaqla bərpa və yenidənqurma işlərinə başlanılmış, Qubadlı-Eyvazlı avtomobil yolunun tikintisi aparılmış, 2021-ci ildə Xudafərin-Qubadlı-Laçın avtomobil yolundan Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun tikintisinə başlanılmış, 2023-cü il sentyabr ayının 5-də "Yeni Qubadlı-Laçın avtomobil yolunun tikintisi ilə bağlı sərəncam imzalanmışdır. Qubadlı şəhərində inzibati binanın, 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının, 600 şagird yerlik tam orta məktəb binası, İşğal və Zəfər muzeylərinin, Zilanlı, Mahruzlu kəndlərinin tikintisinin davametdirilməsiylə bərpa işləri davam etdirilir.

Ədəbiyyat:

Yaqubqızı, R. Böyük Qələbə yaxınlaşırdı / Ramidə Yaqubqızı // Respublika.-2023.- 25 oktyabr.- S.8.

Məmmədova, M.Qubadlı: 30 ilin o başı, bu başı / Mətanət Məmmədova // Səs.- 2023.-31 avqust.- S.5-6.

Kamal, M. Qubadlı: Əbədi yurdumuz qürur və iftixar gününü qeyd edir / Mustafa Kamal // Respublika.- 2023.- 25 oktyabr.- S.8.

İnternetdə:

https://baku.ws/politics/205439

http://ganja-ih.gov.az/az/news/bu-gun-qubadli-seheri-gunudur.html

https://teleqraf.com/news/siyaset/395277.html

NOYABR



24 oktyabr-
22 noyabr

Əqrəbin Nişanı sudur. Marsın və Neptunun himayəsindədir. Günəşin Əqrəb bürcündən keçdiyi dövrdə doğulanlar güclü xarakterli olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	

- *Şuşa şəhəri işğaldan azad olundu (08.11.2020)*
- *Azərbaycan Bayrağı Günü (09.11.2009)*
- *Azərbaycan, Rusiya və Ermənistan liderləri Dağlıq Qarabağda 44 gündür davam edən döyüşlərin dayandırılması barədə bəyanat imzalamışdır (10.11.2020)*
- *Konstitusiya Günü (12.11.1995)*
- *Milli Dirçəliş Günü (17.11.1992)*

Yaşıl dünya naminə həmrəylik ili



"İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində əks olunan 5 ümummilli məqsədlərdən biri kimi qeyd olunmuşdur. Bu məqsədə uğurla nail olmaq üçün azad edilmiş ərazilərdə məcburi köçkünlərin və yeni sakinlərin dayanıqlı məskunlaşması təmin edilməsi, həmin ərazilərin cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməsi, burada dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılması üçün lazımı işlər görülür. Hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların daimi məskunlaşması üçün böyük əhəmiyyət daşıyır. Bunun üçün azad edilmiş ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olması üçün regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilir.

İşğaldan azad edilmiş Zəngilan rayonunun yenidən qurulan Ağalı kəndində küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, günəş panellərinin quraşdırılması kimi müasir şəhərsalma standartları tətbiq edilmişdir. Kəndin dayanıqlı enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində Arximed turbini tipli Su Elektrik Stansiyası inşa edilmişdir.Bütün bu yeniliklərin Qarabağda yenidən salınan şəhər və kəndlərdə də tətbiq olunacağı planlaşdırılmışdır.

NOYABR 2024



Milli ədəbiyyat

Şair, publisist İsmayılov Məmməd Mürşüd oğlunun (Məmməd İsmayıl) (01.11.1939) anadan olmasının 85 illiyi
Şair, geologiya-minerologiya elmləri namizədi Rzalı Oqtay Məhərrəm oğlunun (Oqtay Rza) (02.11.1934-18.08.2019) anadan olmasının 90 illiyi
Əməkdar mədəniyyət işçisi, yazıçı Vəzirov Cəlil Həbib oğlunun (08.11.1944-19.08.2008) anadan olmasının 80 illiyi 633
Şair, tərcüməçi Tapdıqov İlyas Oruc oğlunun (İlyas Tapdıq) (30.11.1934-25.12.2016) anadan olmasının 90 illiyi 634



Dünya ədəbiyyatı

Rus şərqşünası, akademik Bartold Vasili Vladimiroviçin (03.11.1869-19.08.1930) anadan olmasının 155 illiyi
Alman şairi Şiller İohann Kristof Fridrixin (10.11.1759-09.05.1805) anadan olmasının 265 illiyi
Ədəbiyyatşünas, tənqidçi, publisist, folklorçu Əta Tərzibaşı Ömər oğlunun (14.11.1924-31.03.2016) anadan olmasının 100 illiyi 635
Fransız maarifçisi, şair, publisist, tarixçi, insan hüquqları müdafiəçisi Fransua-Mari Aruenin (Volter) (21.11.1694-30.05.1778) anadan olmasının 330 illiyi
Türk yazıçısı Rəşad Nuri Güntəkinin (25.11.1889-13.12.1956) anadan olmasının 135 illiyi 636



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Əməkdar incəsənət xadimi, rəssam Səmədova Vəcihə Əli qızının (24.11.1924-24.10.1965) anadan olmasının 100 illiyi 637
Xalq rəssamı Mustafayeva Güllü Hacı Naim Mustafa qızının (29.11. 1919-18.05.1994) anadan olmasının 105 illiyi



Musiqi. Opera. Balet

Xalq artisti, Əməkdar incəsənət xadimi, professor, dirijor Adıgözəlov Yalçın Vasif oğlunun (04.11.1959) anadan olmasının 65 illiyi 638
Estrada müğənnisi Ağayev Oqtay Cəfər oğlunun (07.11.1934-14.11.2006) anadan olmasının 90 illiyi
Xalq artisti, professor, bəstəkar Kərimi Siyavuş Əşrəf oğlunun (09.11.1954) anadan olmasının 70 illiyi 639
Xalq artisti, xanəndə, pedaqoq Rzayev İslam Tapdıq oğlunun (11.11.1934-26.01.2008) anadan olmasının 90 illiyi 640
Əməkdar incəsənət xadimi, dirijor Əliverdibəyov Kazım Ağalar oğlunun (27.11.1934-19.12.2022) anadan olmasının 90 illiyi 641

Xalq artisti, professor, bəstəkar İbrahimova Sevda Mirzə qızının (28.11.1939-17.07.2022) anadan olmasının 85 illiyi 642



Teatr. Kino

Xalq artisti, aktrisa Qurbanova Solmaz Cəbrayıl qızının (13.11.1939-04.06.2013) anadan olmasının 85 illiyi 643
Xalq artisti, aktyor, teatr rejissoru Əliyev Rafiq Hacıbaba oğlunun (14.11.1949-16.04. 2020) anadan olmasının 75 illiyi 644



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Musayev Aqil Hüseyn oğlunun (03.11.1974-05.10.1994) anadan olmasının 50 illiyi 645
Azərbaycanın Milli Qəhrəmanı Əliyev Əsgər Ələkbər oğlunun (08.11.1974-17.03.1995) anadan olmasının 50 illiyi 646



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Gizir Qasımov Baba Əhməd oğlunun (01.11.1989-21.10.2020) anadan olmasının 35 illiyi. 647
Əsgər Həsənov Afik Namik oğlunun (01.11.1999-03.10.2020) anadan olmasının 25 illiyi 647
Əsgər Babayev Elman Telman oğlunun (01.11.1994-29.09.2020) anadan olmasının 30 illiyi. 648
Əsgər Xəlilov Fəryad Fəxri oğlunun (01.11.1999-27.10.2020) anadan olmasının 25 illiyi 648
Kiçik çavuş Xudayev Yaşar Əli oğlunun (01.11.1999-27.09.2020) anadan olmasının 25 illiyi. 649
Əsgər İbrahimzadə Nahid Şahid oğlu (01.11.1994- 05.11.2020) anadan olmasının 30 illiyi. 649
Əsgər Qəfərli Samir Möhlət oğlunun (01.11.1994- 30.10.2020) anadan olmasının 30 illiyi. 650
Əsgər Ramazanlı İlqar Etibar oğlunun (02.11.1994- 03.11.2020) anadan olmasının 30 illiyi. 650
Gizir Xəlilov Nadir Ağadadaş oğlunun (03.11.1984- 30.09.2020) anadan olmasının 40 illiyi. 651
Baş leytenant Emnalıyev Orxan Eyvaz oğlunun (05.11.1994-26.10.2020) anadan olmasının 30 illiyi 651
Əsgər Ədilov Səid Həsən oğlunun (05.11.1994-02.10.2020) anadan olmasının 30 illiyi 652
Əsgər Məmmədov Tural Tariyel oğlunun (05.11.1999-09.11.2020) andan olmasının 25 illiyi. 652

Gizir İskəndərov Elvin Mətləb oğlunun (06.11.1989- 27.09.2020) anadan olmasının 35 illiyi 653
Əsgər İbrahimov Elsevər Etibar oğlunun (06.11.1999-09.11.2020) anadan olmasının 25 illiyi 653
Baş leytenant Şükürov Samir Təyyub oğlunun (07.11.1974-09.10.2020) anadan olmasının 50 illiyi 654
Əsgər Həsənov Elvin Əlizade oğlunun (07.11.1994-14.10.2020) anadan olmasının 30 illiyi 654
Əsgər Qasımov Elman Yunis oğlunun (08.11.1999-09.10.2020) anadan olmasının 25 illiyi 655
Baş gizir İsmayılov Əmrah Xudaverdi oğlunun (10.11.1994-10.11.2020) anadan olmasının 30 illiyi 655
Gizir Əlisoltanov Vahid Tahir oğlunun (10.11.1994- 24.10.2020) anadan olmasının 30 illiyi 656
Əsgər Hüseynli Fariz Dadaş oğlunun (10.11.1994-03.10.2020) anadan olmasının 30 illiyi 656
Əsgər Abbasov Vahid Sahib oğlunun (10.11.1994-22.10.2020) anadan olmasının 30 illiyi. 657
Gizir Əhmədov Cavanşir Xeyrulla oğlunun (12.11.1999-15.10.2020) anadan olmasının 25 illiyi 657
Əsgər Məmmədov Vasif Əlibala oğlunun (12.11.1994-04.11.2020) anadan olmasının 30 illiyi 658
MAHHXHQ baş çavuş Məmmədov Sahib Yaşar oğlunun (13.11.1989-19.10.2020) anadan olmasının 35 illiyi 658
Əsgər Hacıyev Ülvi Şirin oğlunun (13.11.1994-19.10.2020) anadan olmasının 30 illiyi. 659
Əsgər Həsənov Səxavət Alim oğlunun (13.11.1994- 02.11.2020) anadan olmasının 30 illiyi 659
Əsgər Salehov Orxan Fikrət oğlunun (14.11.1999- 06.10.2020) anadan olmasının 25 illiyi 660
Əsgər Rüstəmli Kənan Yalçın oğlunun (14.11.1999-31.10.2020) anadan olmasının 25 illiyi 660
Leytenant Orucov Nemət Əkbər oğlunun (15.11.1994-27.09.2020) anadan olmasının 30 illiyi 661
Gizir Aslanov Babək Sakit oğlunun (15.11.1994- 03.10.2020) anadan olmasının 30 illiyi. 662
MAHHXHQ əsgər Hüseynov Samir Əlizadə oğlunun (15.11.1994-09.11.2020) anadan olmasının 30 iliyi. 662
Gizir Ələkbərov Vüqar Telman oğlunun (16.11.1994- 12.10.2020) anadan olmasının 30 illiyi 663
Əsgər Mədətov Zaur Kamal oğlunun (16.11.1999- 08.10.2020) anadan olmasının 25 illiyi 663

NOYABR

2024

Kapitan Nəcəfov İlkin Misir oğlunun (17.11.1989-17.10.2020) anadan olmasının 35 illiyi 664
Əsgər Abışov Əmrah Səyyab oğlunun (17.11.1999- 30.10.2020) anadan olmasının 25 illiyi 665
MAHHXHQ əsgər Rzayev Məhəmməd Nadir İlqar oğlunun (18.11.1994-15.10.2020) anadan olmasının 30 illiyi 665
Əsgər Yusifov Taleh Gündüz oğlunun (18.11.1994-05.11.2020) anadan olmasının 30 illiyi 666
Kiçik gizir Abbasov Davud Yalçın oğlunun (19.11.1999-16.10.2020) anadan olmasının 25 illiyi 666
Kiçik gizir İbrahimli Elməddin Zeynəddin oğlunun (19.11.1999-17.10.2020) anadan olmasının 25 illiyi 667
Əsgər Həsənov Maarif Rahim oğlunun (19.11.1999- 12.10.2020) anadan olmasının 25 illiyi 667
MAHHXHQ əsgər Quliyev Ruslan Şaxsəddin oğlunun (20.11.1984-11.10.2020) anadan olmasının 40 illiyi 668
Əsgər Bayramov Səid Eldəniz oğlunun (20.11.1999-05.11.2020) anadan olmasının 25 illiyi 668
Əsgər Qocayev Niftalı Zakir oğlunun (20.11.1994-01.11.2020) anadan olmasının 30 illiyi 669
MAHHXHQ baş çavuş Həsənov Tofiq Etibar oğlunun (21.11.1989-30.09.2020) anadan olmasının 35 illiyi 669
Kapitan Abdurrəhmanov Hafiz Xalid oğlunun (21.11.1989- 02.11.2020) anadan olmasının 35 iliyi 670
Baş gizir Nurmətov Çoban Razaddin oğlunun (23.11.1984-23.10.2020) anadan olmasının 40 illiyi 671
Kiçik gizir Namazov Orxan Ceyhun oğlunun (24.11.1994-10.10.2020) anadan olmasının 30 illiyi 671
Mayor Mansurov Elçin Elşən oğlunun (25.11.1984-27.09.2020) anadan olmasının 40 illiyi 672
Leytenant Zeynalov Nurlan Rəfail oğlunun (25.11.1989- 09.11.2020) anadan olmasının 35 illiyi 673
AHHXHQ əsgər Osmanov Orxan Mənsur oğlunun (25.11.1999-01.10.2020) anadan olmasının 25 illiyi 673
MAHHXHQ əsgər Əsgərov Vüqar Rza oğlunun (26.11.1994- 25.10.2020) anadan olmasının 30 illiyi 674
MAHHXHQ kiçik çavuş Məhərrəmli Fuad Habil oğlunun (28.11.1994-12.10.2020) anadan olmasının 30 illiyi 674
Siyasət. Hərbi iş
Dövlət xadimi Yaqubov Mir Teymur Mir Ələkbər oğlunun (06.11. 1904-17.02.1970) anadan olmasının 120 illiyi

NOYABR 2024



Fəlsəfə. İqtisadiyyat. Hüquq

AMEA-nın müxbir üzvü, Əməkdar hüquqşünas, hüquq elmləri doktoru, professor Məlikova Məsumə Fazil qızının (22.11.1929) anadan olmasının 95 illiyi 675



Mədəniyyət. Maarif. Təhsil

AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor Baxşəliyeva Gövhər Baxşəli qızının (26.11.1954) anadan olmasının 70 illiyi 676
Filologiya elmləri doktoru, dosent Feyzullayeva Aida Hənifə qızının (15.11.1939) anadan olmasının 85 illiyi




Coğrafiya. Geologiya

Texnika elmləri doktoru, neftçi-alim Bağırov Mikayıl Kazım oğlunun (01.11.1934-29.12.2017) anadan olmasının 90 illiyi 677
Geologiya-minereologiya elmləri doktoru, professor Abdullayev Rəsmi Əsəd oğlunun (07.11.1924-20.01.1995) anadan olmasının 100 illiyi. 678
Geologiya-mineralogiya elmləri doktoru, professor Əliyev Vasif İsmayıl oğlunun anadan olmasının (07.11.1929-25.01.1982) 95 illiyi
Geologiya-mineralogiya elmləri doktoru, paleontoloq Babayev Şıxəli Əlikram oğlunun (29.12.1939-19.10.2017) anadan olmasının 85 illiyi



Riyaziyyat. Fizika. Astronomiya

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru Babayev Arif Əliheydər oğlunun (11.11.1934-05.06.1998) anadan olmasının 90 illiyi 679



Kimya. Biologiya. Tibb

Akademik, kimya elmleri doktoru Rizayev Ramiz Həsən Qulu oğlunun (02.11.1939) anadan olmasının 85 illiyi 680
AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Axundzadə İdris Məmmədhüseyn oğlunun (21.11.1914-15.06.1999) anadan olmasının 110 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Biblioqraf, tarix üzrə fəlsəfə doktoru Sadıqova Solmaz Azay qızının (05.11.1959) anadan olmasının 65 illiyi 681
A.Şaiq adına uşaq kitabxanasının yaradılmasının (indiki Nərimanov

NOYABR 2024

MKS-nin mərkəzi kitabxanası) (18.11.1954) 70 illiyi
Naxçıvan MR Kəngərli rayon MKS-nin yaradılmasının (01.11.2004) 20 illiyi



Digər tarixi hadisələr

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının (01.11.1939) 85 illiyi 682
Azərbaycan Respublikası ilə Qvatemala arasında diplomatik münasibətlər qurulmuşdur (01.11.1994)
Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü (01.11.2008)
Azərbaycan Respublikası ilə Çili arasında diplomatik münasibətlər qurulmuşdur (03.11.1994)
Televiziya və Radio İşçiləri Günü (06.11.1926)
Müharibə və Hərbi Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısını alma Günü (6.11.2001)
Abşeron yarımadasında "Qara daşlar" buruğunda ilk neft quyusu fontan vurmuşdur (07.11.1949)
Bakı metropoliteni işçilərinin peşə bayramı günü (08.11.2006)
Zəfər Günü (08.11.2020) 683
Şuşa Şəhəri Günü (08.11.2023) 684
Xankəndi şəhərində təntənəli zəfər paradı keçirilmişdir (08.11.2023)
Azərbaycan Bayrağı Günü (09.11.2009) 685
Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda 44 gün davam edən döyüşlərin dayandırılması barədə bəyanat imzalamışdır (10.11.2020)
10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhərində həmin tarixdən Rusiya sülhməramlı qüvvələrinin mərkəzi qərargahı yerləşdirilmişdir (10.11.2020)
Xocavənd rayonu işğaldan azad olunmuşdur (10.11.2020)
Çar I Pyotr erməni əhalisinin Xəzəryanı bölgələrə yerləşdirilməsi barədə fərman vermişdir (10.11.1724)
Avropa Şurası Parlament Assambleyası Azərbaycan-Ermənistan cəbhəsində atəşkəsin əldə edilməsi ilə bağlı 1047 saylı qətnaməni qəbul etmişdir (10.11.1994)
Konstitusiya Günü (12.11.1995) 686
Beynəlxalq Gözdən Əlillər Günü (13.11.1984)
Ümumdünya Diabet Günü (14.11.1991)
Beynəlxalq Tolerantlıq Günü (16.11.1995) 687
Azərbaycan Respublikası ilə Əfqanıstan arasında diplomatik münasibətlər qurulmuşdur (16.11.1994)
Milli Dirçəliş Günü (17.11.1992) 688

NOYABR

2024

Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəqlinə dair dövlətlərarası sazişin imzalanmasının (18.11.1999) 25 illiyi
Qarakənd faciəsi (20.11.1991) 689
Ümumdünya Uşaq Hüquqları Günü (20.11.1954) 690
Xəstə insanlara ilk dəfə olaraq süni qan köçürülmüşdür (20.11.1979)
Ağdam Şəhəri Günü (20.11.2023) 691
Xocavənd rayonunun Tsakuri kəndinin Hünərli kəndi adlandırılması haqqında qanun qəbul edilmişdir (20.11.2020)
Xocalı rayonunun Quşçubaba kəndinin Baharlı kəndi adlandırılması haqqında qanun qəbul edilmişdir (20.11.2020)
Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti yaradılmasının (21.11.1914) 110 illiyi 692
Ümumdünya Salam Günü (21.11.1973)
Ümumdünya Televiziya Günü (21.11.1996)
Dünya Fəlsəfə Günü (21.11.2002)
Sumqayıt şəhərinin yaranmasının (22.11.1949) 75 illiyi
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.2000)
Azərbaycan Respublikası ilə Nikaraqua arasında diplomatik münasibətlər qurulmuşdur (23.11.1994)
C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin yaradılmasının (24.11.1934) 90 illiyi 693
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)
Kəlbəcər Şəhəri Günü (25.11.2020) 694
“Vətən Müharibəsi Qəhrəmanı” adının təsis edilməsi haqqında qanun qəbul edilmişdir (26.11.2020)
DQMV-də XİK ləğv edilmiş, Azərbaycan SSR-in Təşkilat Komitəsi yaradılmışdır (28.11.1989)
Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır (28.11.2023)
Ümumdünya Təbiəti mühafizə cəmiyyətinin yaranması günü (29.11.1948)
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (30.11.1988)
Ümumdünya Ev Heyvanları Günü (30.11.1931)
Dövlət Sərhəd Xidmətinin Azərbaycanın şərqində yerləşən Səngəçal aerodromundan qalxan Mi-17 hərbi helikopterinin qəzaya uğraması nəticəsində baş verən, 14 nəfərin ölümü, 2 nəfərin yaralanması ilə nəticələnən Qaraheybət faciəsi (30.11.2021)

Cəlil Vəzirov – 80

(1944-2008)

Yazıçı



Cəlil Həbib oğlu Vəzirov 1944-ci il noyabr ayının 8-də Naxçıvan şəhərində anadan olmuşdur.

1968-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir.

1968-2003-cü illərdə "Şərq qapısı" qəzetində işləmiş, baş müxbir, ədəbiyyat və incəsənət şöbəsinin müdiri olmuşdur.

Cəlil Vəzirov Naxçıvan teatrı tarixinin, onun öncül nümayəndələrinin yaradıcılığının tədqiqatçısı olmuşdur. 1976-cı ildə Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü seçilmişdir. 1978-ci ildə Jurnalistlər, 2000-ci ildə isə Yazıçılar birliyinin üzvü olmuşdur.

O, 1980-ci ildən 2008-ci ilədək Teatr Xadimləri İttifaqının Naxçıvan Təşkilatına rəhbərlik etmişdir. 4 il AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi vəzifəsində çalışmışdır.

Cəlil Vəzirov səmərəli fəaliyyətinə görə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüş, Prezident mükafatçısı olmuşdur. "Rəsul Rza" və "Qızıl Dərviş" mükafatları ilə təltif edilmişdir.

O, "İbrahim Həmzəyev", "Güldürən-ağladan", "Cavid dünyası", Şərur - qədim diyar (1997), "Tanrının işıqlı bəndəsi" sənədli romanını (1998), "Naxçıvan Dövlət Filarmoniyası (1959-2002)", "Sözlü nəğməli Naxçıvan"(2003), "Əliqismət Lalayev və Naxçıvan teatrı" (2017) və s. əsərlərini qələmə almışdır. Bununla yanaşı Cəlil Vəzirov Azərbaycan mədəniyyəti, incəsənəti, istedadlı sənətkarları barədə 20 kitabın, mindən artıq məqalənin, 600-dən çox televiziya verilişinin müəllifi olmuşdur.

Cəlil Vəzirovun "Əliqismət Lalayev və Naxçıvan teatrı" adlı kitabı müəllifin sağlığında işıq üzü görməmişdir. Cəlil Vəzirov bu kitabında Əliqismət Lalayevin Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyində, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında və Muxtar Respublikadakı Cavid Poeziya Teatrındakı fəaliyyətindən, səhnədə canlandırdığı müxtəlif obrazlardan, quruluşçu rejissor kimi hazırladığı bir-birindən maraqlı tamaşalardan, Naxçıvanın teatr mühitinə gətirdiyi yenilik və töhfələrdən ətraflı bəhs etmişdir.

Cəlil Həbib oğlu Vəzirov 2008-ci il avqustun 19-da vəfat etmişdir.

Ədəbiyyat:

Tanrının işıqlı bəndəsi: Sənədli roman / Cəlil Vəzirov; Red.:Zəhra xanım Quliyeva.- Bakı:1998.- 184s.

Şərur - qədim diyar: [Oçerklər toplusu] / Cəlil Vəzirov; Naşir: Q. İsabəyli; Red.: E. Telmanoğlu.- Bakı: Şirvannəşr, 1997.- 96 s.

Naxçıvan Dövlət Filarmoniyası: [1959-2002] / Cəlil Vəzirov; red. A. Quliyev.- Bakı: Sabah, 2002.- 32 s.

Sözlü nəğməli Naxçıvan: (məqalələr toplusu) / Cəlil Vəzirov, J.Əliyeva ; elmi red. İ.Hacıyev; ön söz. müəl. R.Məmmədova; AMEA, Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İn-tu.- H. 1.- Bakı: Sabah, 2003.- 139, [1] s.

125 yaşlı Naxçıvan teatrı / Cəlil Vəzirov // Azərbaycan.- 2008. - 13 aprel. - S. 5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Cəlil_Vəzirov

https://modern.az/az/news/143437/qeribe-taleli-kitab

İlyas Tapdıq – 90

(1934-2016)

Şair



İlyas Oruc oğlu Tapdıqov (İlyas Tapdıq) 1934-cü il noyabr ayının 30-da Gədəbəy rayonunun Əli İsmayıllı kəndində anadan olmuşdur.

Gədəbəyin Kiçik Qaramurad kəndində orta məktəbi bitirdikdən sonra 1952-1956-cı illərdə APİ-nin (indiki ADPU) dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir.

Ədəbi yaradıcılığa tələbəlik illərində "Azərbaycan" jurnalında dərc olunan "Bakının gecəsi" şeirilə başlamışdır. 1955-ci ildə əsas mövzusu kənd həyatı, təbiət təsvirləri olan "Kəndimizin çobanı" adlı şeirlər kitabı nəşr olunmuşdur. "Bulaq başında". "Gözlər", "Bir eşqin şimşəyi", "Arxalı dağlar", "Əksim və qəlbim", "Meşənin mahnısı", "Bir gülün qönçəsi", "Qızlar, qağaylar", "Özümlə görüş", "Nağıllı ağaclar" və b. kitabları nəşr olunmuşdur.

1958-ci ildə Yazıçılar Birliyinin üzvlüyünə qəbul olunmuşdur.

1957-1962-ci illərdə "Uşaqgəncnəşr"-də redaktor, 1962-1968-ci illərdə "Azərnəşr"də redaktor, böyük redaktor, 1968-1976-cı illərdə "Gənclik" nəşriyyatında böyük redaktor, redaksiya müdiri, baş redaktor, 1976-1978-ci illərdə Azərbaycan Baş Mətbuat Müvəkkilliyində qrup rəhbəri, 1978-1983-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində Gənclər baş redaksiyasının baş redaktoru, 1989-1992-ci illərdə "Azərnəşr"də Bədii ədəbiyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir.

1992-1995-ci illərdə Türkiyəyə getmiş, Ankara şəhərində Türk Standartları İnstitutunda və Xarici İşlər Nazirliyi və kalkınma ajansında müəllim kimi çalışmış, "Azərbaycan" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri olmuşdur.

"Gənclik" nəşriyyatı redaksiya şurasının üzvü, Azərbaycan komsomolu Şöhrət şurasının üzvü, "Türk əsrində Azərbaycan" jurnalının redaksiya heyətinin üzvü və Azərbaycan təmsilçisi olmuş, bir sıra respublika festival və müsabiqələrində münsiflər heyətinin üzvü kimi iştirak etmişdir.

İlyas Tapdıq müasir uşaq ədəbiyyatının tanınmış nümayəndələrindən idi. Onun əsərlərinin mühüm bir qismi yurdumuzun təbiətinə, gözəlliklərinə həsr olunmuşdur. "Bildirçin", "Dəmirağac", "Bir evim var...", "Qaçaq dovşan", "Şıltaq günəş", "Təpələr", "Günlərin adı" və s. uşaqların çox sevdiyi, həvəslə əzbərlədiyi, söylədiyi şeirlərdəndir. Onun "Meşənin mahnısı" və "Çiçəklərim, güllərim" kitablarında toplanan şeirlərini Azərbaycan uşaq poeziyasının incilərindən saymaq olar.

Bədii tərcüməsahəsində də səmərəli fəaliyyət göstərmişdir. F.Tütçev, L.Ukrainka, M.Zoşşenko, R.Berestov, Y.Raynis, Abay, E.Mejelytis, Aybek, Uyğun, Züfiyyə və b. görkəmli sənətkarların yaradıcılığından nümunələri dilimizə çevirmişdir. Eyni zamanda onun da şeirləri türkmən, rus, belorus, qırğız, eston, bolqar, çex və b. dillərə tərcümə edilmişdir.

Şairin 40-a yaxın şeir və tərcümə kitabı, rus dilində isə 9 şeir kitabı çap olunmuşdur. 1000-ə yaxın kitabın redaktoru olmuşdur. "Aşıq Ələsgər" sənədli filminin ssenarisini yazmışdır.

1972-ci ildə Respublika komsomol mükafatına və Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2003-cü il tarixli Fərmanı ilə Prezident təqaüdünə layiq görülmüşdür.

İlyas Oruc oğlu Tapdıqov 2016-cı il dekabr ayının 25-də Bakıda vəfat etmiş, Badamdar qəbiristanlığında dəfn olunmuşdur.

2019-cu ildə Azərbaycan Milli Kitabxanasında İlyas Tapdığın anadan olmasının 85 illiyi münasibətilə "İlyas Tapdıq-85" adlı kitab sərgisi açılmışdır

Ədəbiyyat:

Təqvimə düşən oğlan / İlyas Tapdıq; layihənin məsləhətçisi Elçin; [rəssam S.Səmədova; layihənin rəhbəri Qaraqoyunlu; dizayn R. Hüseynov].- [Bakı]: [Beşik], [2009].- 13, [1] s.

Tapdıq, İ. Şeir sevən balalar: Şeir və poemalar / İlyas Tapdıq; Red.: O. Hüseynli.- Bakı: [Turan evi], 2005.- 528 s.

İlyas Tapdıq: biblioqrafiya / Azərb. Resp. Məd. və Turizm Naz., F.Köçərli adına Resp. Uşaq Kitabxanası; tərt. ed.: N.Tahirova, L.Qafarova; ixt. red. və burax. məsul Ş.Qəmbərova; ön söz müəl. Z.Xəlil; red. G.Səfərəliyeva.- Bakı: [F.Köçərli ad. Respublika Uşaq Kitabxanası], 2015.- 247 s.

Hüseynova, G. İlyas Tapdığın uşaq şeirlərində işlənən metaforların üslubi xüsusiyyətləri / Günay Hüseynova.- Bakı: Elm və təhsil, 2021.- oktyabr.- S.152-156.


Məlikzadə, S. Ustad haqqı qazanmış şair / Səməd Məlikzadə // Kaspi.- 2019.- 23-25 noyabr.- S.20-21.

İsabəyli, Q. Ədəbi imzalar bolluğunda ədəbi sima - İlyas Tapdıq / Qəşəm İsabəyli // Kredo.- 2014.- 27 sentyabr.- S. 10.

Əta Tərzibaşı – 100

(1924-2016)

Ədəbiyyatşünas



Əta Tərzibaşı Ömər oğlu 14 noyabr 1924-cü il İraqın Kərkük şəhərində anadan olmuşdur.

İlk təhsilini bu Kərkük şəhər məktəblərində almış, daha sonra Bağdad Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur.

Hüquq fakültəsindən məzun olduqdan sonra vəkillik etmiş və eyni zamanda həftəlik ədəbiyyat və mədəniyyət qəzeti olan "Bəşir" qəzetinin redaktoru vəzifəsində çalışmışdır. Cəmi 26 nömrəsi nəşr olunan bu qəzet 1959-cu il mart ayının 17-də hərbi vəziyyət rəhbərliyi tərəfindən verilən hərbi qərarla bağlanır və elə həmin mart ayında ədib həbs olunaraq Hilləyə sürgün edilir. Tərzibaşı daha sonra Kərkükə qayıdaraq vəkillik fəaliyyətini bərpa etmişdir. 1955-ci ildən Kərkük Vəkillər İttifaqının başçısı olmuşdur.

Əta Tərzibaşı İraq-türkman ədəbiyyatı, mədəniyyəti və folkloru sahəsində apardığı araşdırmalarla tanınmışdır. Şöhrəti İraqdan başqa Türkiyə və Azərbaycan ərazisində də yayılmış və bu sahədə türkman mədəniyyətinin ən böyük təmsilçisi olmuşdur.

Araşdırma fəaliyyətinə gənc yaşlarında başlayan Tərzibaşı ilk yazısını hüquq fakültəsində tələbə ikən yazmış və Misirdə nəşr olunan "ər-Risalə" jurnalında çıxarmışdır. Daha sonra onun yazıları Qahirədə "əl-Risalə", Beyrutda "əl-Ədib", Hələbdə "əl-Hədis", İstanbulda "Türk Yurdu", Ankarada "Türk dili" jurnal və qəzetlərində çap olunmuşdur. Kərkükdə "Afaq" və "Kərkük" qəzetlərinin daimi yazarlarından olan Tərzibaşı türkcə "Bəşir" və ərəbcə "əl-Səqafə" adlı həftəlik ədəbi qəzetlərin təsisçisi olmuşdur. Bundan əlavə, o, Türkiyə və İraqda türkologiya və folklor mövzusunda keçirilmiş bir çox beynəlxalq konqres və simpoziumlarda iştirak etmiş, türkman mədəniyyəti, ədəbiyyatı və folkloru sahəsində təbliğatlar aparmışdır.

Ədib 268 elmi məqaləsi ilə yanaşı, hüquq, mədəniyyət, ədəbiyyat və incəsənət mövzusunda bir sıra kitabın da müəllifidir: "Taliqat ala əl-Taliqat əl-Vafiyə", 200 şərqi və türkünü ehtiva edən "Şərqi və türkülər", unudulmuş xalq melodiyalarını əhatə edən "Kərkük havaları", "Kərkük xoyrat və maniləri", 700 atalar sözünü ehtiva edən "Kərkük əskilər sözü", Füzulinin "İcmali Aşk" kitabının tərcüməsi, "Arzu-Qənbər" dastanı, 1879-1985-ci illərdə Kərkükdə nəşr olunan qəzet və jurnallar, nəşriyyat evləri haqqında "Kərkük mətbuat tarixi", Kərkükdə və Ərbildə yaşayıb-yaratmış şairlərin həyat və yaradıcılığını əhatə edən "Kərkük şairləri" və "Ərbil şairləri", Kərkük şəhəri və ətrafında tikilmiş 62 tarixi tikilinin yaranma tarixini əks etdirən "Kərkükdə imarət və təsislərin mənzum tarixləri", İraq-türkman ədəbiyyatı tarixində ilk səyahətnamə olan "Sərgüzəşt-i Səadət" ("Xoşbəxt Həcc ziyarəti"), Kərkük və türkman cəmiyyəti haqqında tarixi, ictimai, ədəbi məqalələr toplusu olan "Türkman kəşkülü", görkəmli şairlər Kərküklü Şeyx Rıza, Kərküklü Muhiddin Qabil Əfəndi, Şeyx Əbdülqadir Faizin həyat və yaradıcılığı haqqında yazdığı "Kərküklü Şeyx Rıza və türkcə şeirləri", "Kərküklü Kabil", "Kərküklü Faiz" kitablarını, eləcə də "Kərkük ağzı" türkman dili lüğət və s.

Ömrünü türkman ədəbiyyatının, dilinin, folklorunun və mətbuat tarixinin öyrənilməsinə həsr etmiş Əta Tərzibaşı türkman xalqı qarşısında misilsiz xidmət göstərmiş, özündən sonra zəngin bir irs qoyub getmişdir. Bu irs İraq-türkman ədəbiyyatının, xüsusilə də folklorunun bir araya toplanması, itibbatmaması və bütün dünyaya tanıdılması baxımından türkman xalqı üçün əvəzsiz, qiymətli bir töhfədir.

Əta Tərzibaşı 2016- cı il mart ayının 31-də Kərkükdə vəfat etmişdir.

Ədəbiyyat:

Paşayev, Q. Əta Tərzibaşının folklorşünaslıq fəaliyyəti / Qəzənfər Paşayev.- Bakı: Təhsil, 2016.- 262 s

İsayev, O. Əta Tərzibaşının elmi yaradıcılığında XVI əsr Bağdad ədəbi mühiti / Orxan İsayev // Filologiya və sənətşünaslıq / Azərbaycan Milli Elmlər Akademiyası.- 2022.- №1.- S.73-79.

İsayev, O. Əta Tərzibaşının Azərbaycan sevgisi / Orxan İsayev // Kredo.- 2021.- 2 iyun.- S.8.

İnternetdə:

http://www.anl.az/down/meqale/kredo/2021/iyun/747653(meqale).pdf

http://www.anl.az/down/meqale/edebiyyat/2020/yanvar/696376.htm

http://www.anl.az/down/meqale/525/2016/aprel/486242.htm

Rəşad Nuri Güntəkin – 135

(1889-1956) *Türk yazıçısı*



Rəşad Nuri Güntəkin 1889-cu il noyabrın 25-də İstanbulda anadan olmuşdur.

1912-ci ildə İstanbul Universitetinin ədəbiyyat fakültəsini bitirmiş, Bursada fransız dili müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Yazıçı Vəfa və Erenköy liseylərinin müdiri olmuş, Kabataş, Qalatasaray, Camlıca və başqa liseylərdə ədəbiyyat, türk dili və fəlsəfə müəllimi işləmişdir. 1931- 1939-cu illərdə Maarif Nazirliyində müfəttiş işləyən Rəşad Nuri Güntəkin 1933-1943-cü illərdə Cümhuriyyət Xalq Partiyasının (CHP) təmsilçisi kimi Çanaqqaladan Böyük Millət Məclisinə millət vəkili seçilmişdir.

Yaradıcılığa Birinci Dünya müharibəsinin sonlarında Camal Nemət adıyla başlayan ədib ilk əsəri olan "Əski Ahbap" povestini 1917-ci ildə nəşr etdirmişdir. Həmin dövrdən başlayaraq teatr tənqidi və araşdırmaları ilə yanaşı davamlı olaraq hekayə yaradıcılığı ilə məşğul olan yazıçı əsərlərini "Şair", "Nədim", "Böyük məcmua" kimi dərgilərdə çap etdirmişdir.

İlk dəfə 1922-ci ildə təfriqə şəklində "Vaxt" ("Vakit") qəzetində çap olunan "Çalıquşu" romanı yazıçıya böyük şöhrət gətirmişdir. Rəşad Nuri Güntəkin müxtəlif janrlarda qələmə alınmış yüzdən artıq əsərin müəllifi olmuşdur. Bunların on doqquzu romandır: "Gizli əl" (1922), "Çalıquşu"(1922), "Damğa" (1924), "Dodaqdan qəlbə" (1925), "Axşam günəşi" (1926), "Bir qadın düşməni" (1927), "Yaşıl gecə" (1928), "Acımaq" (1928), "Yarpaq tökümü" (1930), "Qızılcıq dalları" (1932), "Göy üzü" (1935), "Əski xəstəlik" (1938), "Atəş gecəsi" (1942), "Dəyirman" (1944), "Miskinlər təkkəsi" (1946), "Xarabaların çiçəyi" (1953), "Qovaq yelləri" (1950), "Son sığınaq" (1961) və "Qan davası" (1955) və s. Müəllifin hekayələri yeddi müxtəlif kitabda toplanmışdır. Bunların içərisində "Tanrı müsafiri" (1927), "Sönmüş ulduzlar" (1927), "Leyli ilə Məcnun" (1928), "Olağan işlər" (1930) və digərləri xüsusi yer tutur.

"Əski bir yara", "Əsgərlikdən qayıtmaq", "Bir istefa" və s. hekayələrində müharibə fəlakətləri, insanların azad yaşamaq istəyi, əsarətə, zülmə etiraz sədaları yüksək sənətkarlıqla qələmə alınmışdır.

Yazıçı tərcümə yaradıcılığı ilə də məşğul olmuş, Migel de Servantesin "Don Kixot", Albert Kamyunun "Yad", Emil Zolyanın "Həqiqət" romanlarını, habelə dünya yazıçılarının bir çox hekayələrini türkcəyə çevirərək nəşr etdirmişdir. Onun haqqında Türkan Poyraz, Müəzzəz Albek, Müzəffər Uyğunər, İbrahim Zəki Burdurlu, Kamal Yavuz, Birol Emil və başqaları ciddi monoqrafik tədqiqatlar aparmışlar.

Azərbaycan oxucuları Rəşad Nuri Güntəkinin "Çalıquşu", "Dodaqdan qəlbə", "Damğa", "Yarpaq tökümü", "Dəyirman" romanları və bir sıra hekayələri ilə yaxından tanışdırlar.

1950-ci ildə Türkiyənin Parisdəki səfirliyində mədəniyyət attaşesi kimi fəaliyyət göstərmiş, YUNESKO-nun Türkiyə üzrə təmsilçisi olmuş, 1954-cü ildə təqaüdə çıxmışdır.

Rəşad Nuri Güntəkinin 1956-cı il dekabr ayının 7-də vəfat etmiş, İstanbulun Qaraca Əhməd məzarlığında dəfn olunmuşdur.

Ədəbiyyat:

Yarpaq tökümü: roman / Rəşad Nuri Güntəkin; Azərbaycan türkcəsinə çevirən. V. Sultanlı, Naşir. Q. İsmayıloğlu.- Bakı: Çinar-Çap, 2007.- 112 s.

Dodaqdan qəlbə: [roman] / Rəşad Nuri Güntəkin; nəşrə hazırl. M.Axundova; [buraxıl. məsul Ə. Güləliyev; tərtibatçı-rəssam N.Əliyeva].- Bakı: Şərq-Qərb, 2006.- 280 s.

Fərəcova, Z. Ədəbiyyatın gün təki nuru...: Dünya yazarları / Zöhrə Fərəcova // Azərbaycan.- 2020.- 26 yanvar.- S. 6.

Qaraoğlu, F. Tarixdə iz buraxanlar: Rəşad Nuri Güntəkin / Fazil Qaraoğlu.- Bakı Xəbər, 2017.- 28 mart.- S.13

Vəcihə Səmədova – 100

(1924-1965)

Rəssam



Vəcihə Əli qızı Səmədova 1924-cü il noyabr ayının 24-də Bakıda anadan olmuşdur.

1939-1944-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil almış, sonradan V. İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun rəngkarlıq fakültəsinə – tanınmış rus rəssamı Pavel Korinin emalatxanasına daxil olmuşdur. 1951-ci ildə "Üzeyir Hacıbəyov tələbələri arasında" adlı diplom işini müvəffəqiyyətlə müdafiə etmişdir.

Müəllimlərinin təkidi ilə təhsilini daha üç il aspiranturada davam etdirmişdir. Sonradan oxuduğu institutda dərs demək təklifi alan Vəcihə Səmədova vətənə qayıtmağı üstün tutaraq, müstəqil yaradıcılığa başlamışdır. O, Azərbaycanın ilk peşəkar qadın rəngkarı olmuşdur.

1960-cı ildə Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinin və Rəngkarlıq Sesiyasının sədri olmuşdur. Eyni zamanda Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda da pedaqoji fəaliyyət göstərmişdir.

Vəcihə xanım Səmədovanın fərdi sərgiləri dəfələrlə Bakıda, Moskvada, Sofiyada uğurla nümayiş etdirilir. Onun tablolarındakı rəng çalarları, milli kolorit, böyük ustalıq bu əsərlərin dünya muzeylərində layiqli yer tutmasına səbəb olmuşdur.

1957-1963-cü illər rəssamın yaradıcılıq fəaliyyətində ən məhsuldar illər olmuşdur. 1962-ci ildə Bolqarıstana yaradıcılıq ezamiyyəti yeni istiqamətin inkişafına təkan vermişdir. Rəssamın bu silsiləyə daxil olan əsərlərinə "Sofiya bazarında", "Qoca bolqar qadınları", "Plovdiv qayaları", "Türk qızı", "Tırnovo", "Sozopolun dənizdən görüntüsü " və başqaları.

Vəcihə Səmədova Azərbaycanın müxtəlif guşələrini gəzmişdir. Bunun bəhrəsi olaraq "Kür qırağında", "Mahnı", "İntizarda", "Toya hazırlıq" tematik tabloları, "Qoşqar yaylağında", "Göy göl", "Kəpəz", "Kür sahillərində" silsilə mənzərələri çəkmişdir.

Vəcihə Səmədova yaradıcılığında portretlər xüsusi bir yerə malikdir. Onun portret əsərlərinə: "Avtoportret", "Aktrisa Leyla Bədirbəylinin portreti", "Sürəyya Kərimovanın portreti", "Söhbət İbrahimovanın portreti", "Gənc skripkaçı", "Geoloq Minurə Məmmədbəylinin portreti" və digərləri. 1953-cü ildə aktrisa Leyla Bədirbəylinin portretini çəkmişdir. Bu portret Azərbaycan İncəsənət Muzeyində nümayiş edilir.

Rəssamın son tablosu olan "Xəbər gözləyirəm" adlı rəsm əsəridir. 1963-cü ildə çəkmişdir. Əsər 1963-cü ildə Bakıda keçirilən "Bizim müasirimiz" adlı sərgidə nümayiş etdirilmişdir.

1964-cü ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Vəcihə Əli qızı Səmədova 24 oktyabr 1965-ci ildə vəfat etmişdir.

Adının əbədiləşdirilməsi məqsədilə 1965-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Bədii Sərgi Salonuna Azərbaycanın Əməkdar İncəsənət Xadimi Vəcihə Səmədovanın adı verilmişdir. Kinorejissor Nicat Feyzullayev Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə rəssamın həyat və yaradıcılığından bəhs edən "Azərbaycan rəngkarlığının kraliçası" adlı sənədli film çəkmişdir. Ölümündən sonra həyat yoldaşı Lətif Feyzullayev ona həsr etdiyi "Köhnə qəbiristanlıq", "Tənha məzar", "Rəssam Vacihə Səmədovanın portreti" və "Səhər" tablolarını çəkmişdir. Vəcihə Səmədovanın 4 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır

Ədəbiyyat:

Vəcihə Səmədova: [albom] / mətn müəl. A. Mirfeyzullazadə; tərcümə F. Feyzullayeva; foto. L. Gülalıyeva.- [İstanbul]: APA Group, 2008.- 190, [4] s.

Sarıyeva, İ. Azərbaycanın ilk peşəkar rəngkar qadını - Vəcihə Səmədova...: / İradə Sarıyeva // Bakı Xəbər.- 2015.- 7 yanvar.- S.15.

Ağayev, E. Vəcihə Səmədova yaradıcılığında lirik rənglər / Emil Ağayev; A.Xəlilov // Elmi iş humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal.- 2019.- №2/3. - S.116-117.

Mükərrəmoğlu, M. Rəngkarlıq kraliçası / M.Mükərrəmoğlu // Xalq qəzeti.- 2021.- 7 mart.- S.10.

Səlimli, N. Rəssam qadınlarımız... /Nuranə Səlimli // Qobustan: Sənət toplusu. - 2022. - №1. - S.36-59.

Əhmədova, A. "Aktrisa Leyla Bədirbəylinin portreti" /Aytac Səmədova: müsahibəni apardı A.Səməd//525-ci qəzet. - 2023. - 8 fevral.- S.11.

İnternetdə:

http://www.anl.az/down/meqale/525/2023/fevral/835297.htm

Yalçın Adıgözəlov – 65

(1959)

Dirijor



Yalçın Vasif oğlu Adıgözəlov 1959-cu il noyabr ayının 4-də Bakı şəhərində görkəmli bəstəkar, Xalq artisti Vasif Adıgözəlovun ailəsində anadan olmuşdur.

Musiqi ilə məşğul olmağa atasının rəhbərliyi ilə başlamışdır. Y.Adıgözəlov pianoçu kimi Bülbül adına Orta-İxtisas Musiqi Məktəbini bitirərək, 1982-ci ildə Bakı Musiqi Akademiyasında fortepiano ixtisası üzrə professor Rauf Atakişiyevin sinfində təhsil almışdır.

1983-1984-cü illərdə Daşkənd Dövlət Konservatoriyasında "Opera-simfonik dirijorluğu" fakültəsində (professor K.M.Usmanovun sinfi), 1984-1989-cu illərdə Leninqrad konservatoriyasının "Opera-simfonik dirijorluğu" fakültəsində (professor İlya Musinin sinfində) təhsil almışdır. 1990-1992-ci illərdə Vyana Musiqi və İfaçılıq Sənəti Akademiyasında (Azərbaycanı təmsil edən ilk musiqiçi kimi professor Karl Esterrayxerin sinfində) təcrübə keçmişdir.

Yalçın Adıgözəlov 1989-cu ildən Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, 1991-1998-ci illərdə isə bədii rəhbəri və baş dirijoru olmuşdur. 1998-2000-ci illərdə Rusiya Dövlət Simfonik Radio-Televiziya Orkestrinin dirijor, 2000-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijorudur. 2001-2004-cü illərdə İstanbul Dövlət Opera Teatrının dirijoru kimi fəaliyyət göstərmişdir. 2002-ci ildən Moskvanın "Gelikon-opera" teatrı ilə sıx əməkdaşlıq edir.

Yalçın Adıgözəlov 1991-ci ildə Uzaq Şərq şəhərlərində (Yujno-Saxalinsk, Petropavlovsk-Kamçatski, Maqadan) və 1992-ci ildə Orta Asiyada qastrollarda olmuşdur. 2007-ci ildə "Azərbaycan simfo-muğamı" layihəsi həyata keçirilmişdir.

Yalçın Adıgözəlov 6 iyun 2019-cu ildə Heydər Əliyev Mərkəzində ADSO-nun 200 musiqiçisi, Azərbaycan Dövlət Xor Kapellası, Batumi xor kapellası, Tbilisi konservatoriyasının xoru, həmçinin İtaliya, Almaniya, Rusiya və Azərbaycandan olan solistlərin iştirakı ilə C. Verdinin "Rekviyem" əsərinin dirijorluğunu həyata keçirmişdir.

Yalçın Adıgözəlov Azərbaycan musiqiçiləri arasında ilk dəfə ölkə mədəniyyətini dünyanın Wiener Musikverein, London Barbican Centre, Berliner Philharmonie, London Cadogan Hall, Central Hall Westminster Abbey, Konzerthaus Berlin, Arena di Verona, Smetana Hall Prague, Cidade Das Artes and Theatro Municipal do Rio de Janeiro, Linder Auditorium Johannesbur, Koninklijk Royal Conservatorium Brussels kimi nüfuzlu konsert salonlarında, həmçinin Moskva Konservatoriyasının Böyük zalında, Riqa Böyük Gildiyasında, Pekin və Küveytin opera salonlarında layiqincə təmsil etmişdir.

Professor Yalçın Adıgözəlov 30 ilə yaxındır ki, Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə məşğuldur. Onun tələbələri hazırda respublikanın aparıcı dirijorlarıdır. Bakı Musiqi Akademiyasının dosenti, 2000-ci ildən dirijorluq kafedrasının professorudur.

Yalçın Adıgözəlov 1993-cü ildə "İlin ən yaxşı dirijoru" nominasiyasında "Humay" mükafatının ilk laureatı olmuşdur. 2007-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi", 2012-ci il sentyabr ayının 14-də "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 2012-2023-cü illərdə Prezident Mükafatçısı olmuşdur. 2019-cu ildə Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2023-cü ildə Heydər Əliyev Sarayının tabeliyində fəaliyyət göstərən Niyazi adına Dövlət Simfonik Orkestrinin bədii rəhbər-baş dirijoru vəzifəsinə təyinat olub.

Ədəbiyyat:

İndi dünya bizi yaxşı tanıyır / Yalçın Adıgözəlov; müsahibəni apardı Ramilə Qurbanlı // Xalq qəzeti.- 2023.- 29 sentyabr.- S.10.

Əsl mədəniyyət savaşı bundan sonra başlayacaq / Yalçın Adıgözəlov; müsahibəni apardı T.Məhərrəmova // Kaspi.- 2023.- 30 sentyabr.- S.8-9.

Qurbanlı, R. Şuşanın bir parçası...: Yalçın Adıgözəlovla birgə "Qarabağ şikəstəsi" oratoriyası da vətəninə qayıtdı / Ramilə Qurbanlı // Azərbaycan.- 2021.- 23 may.- S.1; 3.

Əfəndiyeva, İ. Yalçın Adıgözəlov - Zirvələri fəth edən sənətkar / İmruz Əfəndiyeva // Axtarış yollarının bəhrəsi / İmruz Əfəndiyeva; tərt. L.Məmmədova (Fərəcova), M.Əhmədova.- Bakı, 2014.- S.60-64.

"İndi dünya bizi yaxşı tanıyır" /Yalçın Adıgözəlov; müsahibəni apardı: R.Qurbanlı //Xalq qəzeti . - 2023. - 29 sentyabr. - S.10.

İsgəndərova, O. Yalçın Adıgözəlov-60 /Ofeliya İsgəndərova //Musiqi dünyası . - 2020. - №2/83. - S.37-38

Siyavuş Kərimi – 70

(1954)

Bəstəkar



Siyavuş Əşrəf oğlu Kərimi 1954-cü il noyabrın 9-da Bakı şəhərində anadan olmuşdur.

1961-1969-cu illərdə Bakıda 159 saylı tam orta məktəbdə təhsil almışdır. 1969-1972-ci illərdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin tar sinfini bitirmiş, ustad musiqiçi Əhsən Dadaşovun tələbəsi olmuşdur. 1972-1977-ci illərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Musiqi Akademiyası) təhsilini davam etdirmişdir. 1979-cu ildən başlayaraq Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının orkestrində solist, Azkonsertin "Aşıqlar" ansamblının bədii rəhbəri, "AzTR" Estrada Simfonik orkestrinin bədii rəhbəri, "Cəngi" Etno Folklor Ansamblının musiqi rəhbəri, C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının Rafiq Babayev adına musiqi studiyasında bədii rəhbər vəzifələrində çalışmışdır.

2001-ci ildən Azərbaycan Milli Konservatoriyanın rektorudur. 2007-ci ildən, həmçinin, həmin konservatoriyanın Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının professorudur.

Siyavuş Kərimi bir çox beynəlxalq miqyaslı musiqi lahiyələrinin müəllifidir. 2001-ci ildə Azərbaycan- Norveç vokal musiqi lahiyəsi, 2002-ci ildə Azərbaycan və Cənubi Amerika musiqiçiləri ilə müştərək yaratdıqları "Salam hola" Beynəlxalq lahiyəsi onun rəhbərliyi ilə uğurla həyata keçirilmişdir.

Professor Siyavuş Kərimi bəstəkar kimi də fəaliyyət göstərir. O, "Ailə" (1998), "Acılar bitməz" (2009), "Bakı, mən səni sevirəm" (2015), "Biz qayıdacağıq" (2007), "Biz qayıdacağıq" (veriliş, 2007), "Çalışan adam" (1996), "Dərvişin qeydləri" (2013), "Dünən qəfildən gəldi" (2009), "Əlvida, cənub şəhəri" (2006), "Girov" (2005), "Heydər Əliyev" (1999-2013), "Hər şey yaxşılığa doğru" (1997), "Həsən Əbluc" (1999), "İlahi məxluq" (2011), "İstanbul reysi" (2010), "Kabusun gözüylə" (2010), "Kədərimiz... Vüqarımız.." (1998), "Kəsişməyən yollar" (2002), "Qaravəlli (1989), "Qaravəlli-2" (1992), "Mənə inanın!" (2007), "Məşədi İbad-94"(2005), "Ovsunçu" (2002), "Ömür payı. Səməndər Rzayev" (2015), "Ömür və tale" (1998), "Sarı gəlin" (1998), "Son arzu" (2003), "Son döyüş" (1996), "Şahid qız" (1990), "Yuxu" (2001) və s. bədii filmlərə, 2 animasiya filminə və 10-dan artıq teatr tamaşasına musiqi bəstələmişdir.

Siyavuş Kərimi "Saz məktəbi" dərsliyinin həmmüəllifi (A.Quliyev, M.Əliyevlə birlikdə), iki cilddən ibarət "Azərbaycan xalq mahnıları" məcmuəsinin tərtibçisidir.

"Muğam ensiklopediyası"-nın, "Azərbaycan xanəndələri" CD toplusunda "Gənc xanəndələr" bölməsinin səsyazısına rəhbərlik etmişdir.

Görkəmli bəstəkar 2003-cü ildə "Hamlet" tamaşasına yazdığı musiqisinə görə "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür.

Professor Siyavuş Kəriminin musiqi yaradıcılığı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Xalq artisti fəxri adına layiq görülmüşdür.

2014-cü ildə musiqi təhsili sahəsində səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə, 2020-ci ildə isə Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Xalq artisti, professor Siyavuş Kərimi 20 ildən artıqdır ki, milli musiqiçi kadrlarının yetişməsində əhəmiyyətli pol oynayan Azərbaycan Milli Konservatoriyasına böyük uğurla rəhbərlik edir.

Ədəbiyyat

Azərbaycan Milli Konservatoriyası - 20 il: 2000-2020 : [Yubiley toplusu] /Azərb. Milli Konservatoriyası ; [ideya müəl. S.Kərimi ; tərt. red. L. Hüseynova ; materialları hazırl. A.Babayev [və b.] ; red.: G. Manafova, F. Nəbiyeva ; dizayner E. Aslanov, G. Rəfiq].- [Bakı]: [ATRA MMC], [2022]. – 157 s.

Azərbaycan xalq mahnıları [Not]: toplu /tərt. S.Kərimi; red. E.Dadaşova.- Bakı: Öndər nəşriyyat, 2005.- C.I.- 169 s.; C.II.- 168 s.

Saz məktəbi [Notlar]: Musiqi və incəsənət məktəblərinin saz ixti¬sası dərslik / [S.Kərimi, A.Quliyev, M.Əliyev]; elmi red. T. Məmmədov; rəylər: V. Əbdülqasımov, C.Quliyev, M.Kərimov, M.Qasımlı; Azərbaycan Milli Konservatoriyası.-Bakı: Qa¬rabağ, 2007.- 227 s.

Şuşadan dünyaya açılan pəncərə / Siyavuş Kərimi // Xalq qəzeti.- 2022.- 7 aprel.- S.6.


Parlaq gələcəyimizi müjdələyən tarixi sənəd / Siyavuş Kərimi // Xalq qəzeti.- 2021.- 19 iyun.- S.3.

Sadıqoğlu, A. Bəstəkar Siyavuş Kərimi ilə görüş / Afət Sadıqoğlu // Xalq qəzeti.- 2019.- 13 noyabr.- S.12.

İslam Rzayev – 90

(1934-2008)

Xanəndə



Ədəbiyyat:

Verdiyeva, S. Muğam sənətinin tədrisində İslam Rzayevin rolu: "İfaçılıq sənəti tarixi" "İxtisas fənninin tədris metodikası" və "Xalq musiqi nümunələrinin təhlili" fənnləri üzrə nəzərdə tutulmuş dərs vəsaiti / Səadət Verdiyeva; elmi red. A. N. Quliyev; [naşir Ceyhun Əli]; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Milli Konservatoriyası.- Bakı: PrintMe, 2022.- 183, [1] s.

Xalq artisti İslam Rzayevin anadan olmasından 89 il ötür // Hərbi And.- 2023.- 17 noyabr, №42.- S.12.

Nərimanoğlu, M. Həzin səsin dalğaları: Gözəlliyin və məhəbbətin rəmzi muğam, segah və xalq mahnıları İslam Rzayevin ifasında nəinki Qarabağda, "dünyanın o başında" da qanad çalırdı, "Qatar" təsnifi kimi... / Məhəmməd Nərimanoğlu // Azərbaycan.- 2020.- 23 avqust.- S.5.

Rzalı, N. Onun da ruhu şadlanır indi...: Qarabağ torpağının yetirdiyi böyük sənətkar / İslam Rzayevi sonsuz ehtiramla anırıq / Nazim Rzalı // 525-ci qəzet.- 2020.- 11 noyabr.- S.19.

Rzayev İslam Tapdıq oğlu 11 noyabr 1934-cü ildə Füzuli rayonunun Sərdarlı kəndində anadn olmuşdur.

İslam Rzayev 1951-1956-ci illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunda musiqi təhsili almışdır. Seyid Şuşinski, Həqiqət Rzayeva, Zülfi Adıgözəlovdan muğamın sirlərini öyrənmişdir. Qarabağ xanəndəlik məktəbinin layiqli davamçılarından biri olmuşdur. İslam Rzayev daha sonralar Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir.

İfaçılıq sənətinə gənc yaşlarından başlayan müğənni uzun illər ərzində Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur. "Muğam Teatrı"nın yaradıcılarından biri olan İslam Rzayev 1988-ci ildən ömrünün sonunadək burada bədii rəhbər kimi fəaliyyət göstərmişdir.

Qarabağ xanəndəlik məktəbinin tanınmış nümayəndəsi və layiqli davamçısı olan İslam Rzayev nadir istedadı və böyük zəhmətsevərliyi sayəsində qısa müddətdə mahir müğənni kimi tanınmış və dinləyicilərin məhəbbətini qazanmışdır. O, öz sələflərinin sənət ənənələrini lazımınca yaşatmış, bütün yaradıcılığı boyu muğamın klassik ifa tərzinin qorunub saxlanmasına çalışmış və bu sahədə böyük xidmətlər göstərmişdir. Xalq musiqisinin incəliklərini dərindən duyan İslam Rzayev milli musiqi xəzinəmizi zənginləşdirən böyük sənətkarlardandır. O, qədim tarixi köklərə malik Azərbaycan xanəndəlik məktəbində layiqli yer tutaraq, onun inkişafına mühüm töhfələr vermişdir.

Əhatəli və çoxşaxəli yaradıcılığı ilə seçilən İslam Rzayev geniş diapazonlu, məlahətli və zəngin çalarlı ecazkar səs tembrinə malik sənətkar idi. Onun böyük məharətlə ifa etdiyi muğamlar milli muğam sənətinin qızıl fonduna daxil olmuşdur. Müğənninin ifasında səslənən xalq və bəstəkar mahnıları, təsniflər Azərbaycan musiqisi tarixində özünəməxsus yer tutur.

Onun oxuduğu "Çahargah", "Bayatı-Kürd", "Mahur-Hindi", "Rast" muğam dəstgahları AzTV-nin fonduna daxil edilmişdir. Bir sıra mahnılar da bəstələmiş, onlardan "Gəl inad etmə", "Dağlar başı", "Almadərən" mahnıları geniş yayılmışdır. Öz yaradıcılığında bəstəkar əsərlərinə də müraciət etmiş, Cahangir Cahangirovun "Nəsimi", "Aşıq Alı" və s. kantatalarında solo partiyanı ifa etmişdir.

İslam Rzayev 1975-ci ildə instrumental ansambl yaratmışdır. O, dünyanın 80-ə yaxın ölkəsində - Kolumbiya, Peru, Kuba, Yaponiya, Hindistan, Nepal və digərlərində Azərbaycan musiqi mədəniyyətini böyük uğurla təmsil etmiş, respublikanın hüdudlarından çox-çox uzaqlarda müxtəlif səhnələrdəki çıxışları ilə milli musiqimizə geniş şöhrət qazandırmışdır.

Azərbaycan Milli Konservatoriyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru olmuşdur. Onun muğam ənənələrinin yaşadılması naminə gənc muğam ustalarının yetişdirilməsində özünəməxsus xidmətləri vardır.

Azərbaycan musiqi sənəti sahəsindəki nailiyyətlərinə görə bir sıra mükafatlara - 1991-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüş, 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü, 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Rzayev İslam Tapdıq oğlu 2008-ci il yanvar ayının 26-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Kazım Əliverdibəyov – 90

(1934-2022)

Dirijor



Kazım Ağalar bəy oğlu Əliverdibəyov 1934-cü il noyabr ayının 27-də Bakı şəhərində anadan olmuşdur.

1959-cu ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki Orta İxtisas Musiqi məktəbinin xor dirijorluğu sinfini, eyni zamanda skripka sinfini və Dövlət Konservatoriyasının xor dirijorluğu fakültəsini bitirmişdir.

1958-ci ildə tələbə ikən bəstəkar Süleyman Ələsgərovun dəvəti ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında işləməyə başlamışdır. Gənc musiqiçi fransız bəstəkarı Brommenin "Marionun toyu" operettasını tamaşaya hazırlamış, 1960-cı ildə operettaya baxışdan sonra onu M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrına (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı) dirijor vəzifəsinə qəbul edilmişdir. Teatrda Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası istedadlı dirijorun ilk işi olmuşdur.

Kazım Əliverdibəyov 1960-1995-ci ilə qədər müəyyən fasilələrlə Azərbaycan Akademik Dövlət Opera və Balet Teatrında dirijor və baş dirijor vəzifələrində çalışmışdır. Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə də məşğul olmuş, 1981-ci ildə dosent, 1992-ci ildə professor elmi dərəcəsi almışdır. 1996-2006-cı illərdə Türkiyənin İzmir şəhər Konservatoriyasında çalışmışdır. 2007-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı və Bakı Musiqi Akademiyasının Opera Studiyasının professor olmuşdur.

Teatrın repertuarına daxil olan bir çox opera və balet tamaşalarını - "Leyli və Məcnun", "Aşıq Qərib", "Gəlin qayası", "Şah İsmayıl", "Vaqif", "Sevilya bərbəri", "Karmen" operaları, eyni zamanda O, Opera və Balet Teatrında Üzeyir bəyin "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu", F.Əmirovun "Sevil", "1001 gecə", Ə.Bədəlbəylinin "Qız qalası", T. Bakıxanovun "Dəniz balladası", Z.Hacıbəyovun "Aşıq Qərib", M.Maqomayevin "Şah İsmayıl", Q.Qarayevin "İldırımlı yollarla", "Yeddi gözəl"inə, A.Məlikovun "Məhəbbət əfsanəsi", C.Verdinin "Aida", C.Rossininin "Sevilya bərbəri", J.Bizenin "Karmen", M.Musorqskinin "Boris Qodunov", P.Çaykovskinin "Qu gölü", "Fındıqqıran" və s. əsərlərinə dirijorluq etmişdir. Bundan başqa o, "Madam Batterflyay", "Don Kixot" (Minkus), "Jizel", "Xəzər balladası, "Bolero", "Karmen-süita", "Paxita", "Şopeniana" baletlərini idarə etmişdir.

Kazım Əliverdibəyov 1978-ci ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 2008-ci ildən Prezident təqaüdçüsü olmuşdur.

2014-cü il dekabrın 16-da Bakı Musiqi Akademiyasında Xalq artisti, Kazım Əliverdibəyovun 80 illik yubileyinə həsr edilmiş tədbir keçirilmişdir.

Kazım Ağalar bəy oğlu Əliverdibəyov 2022-ci il dekabrın 19-da vəfat etmişdir.

Ədəbiyyat

Adilqızı, S. Nəsillərin varisliyi / S.Adilqızı // Mədəniyyət.- 2015.- 9 yanvar.- S.12.

Elsevər, S. Üzeyir bəy ocağının yadigarı: Kazım Əliverdibəyov mənsub olduğu nəslin adını həmişə uca tutmaqla yanaşı, özü də sevilib-seçilib / S.Elsevər // Kaspi.- 2015.- 25 noyabr.- S.13.

Ələsgərova, G. Görkəmli nəslin layiqli övladı / Gülnarə Ələsgərova // Mədəniyyət.- 2014.- 19 dekabr.- S.6.

İnternetdə

http://www.anl.az/down/meqale/kaspi_az/2015/noyabr/464900.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2014/dekabr/410349.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2015/yanvar/413041.htm

Sevda İbrahimova – 85

(1939-2022)

Bəstəkar



Sevda Mirzə qzı İbrahimova 1939-cu il noyabrın 28-də Bakı şəhərində anadan olmuşdur.

İlk musiqi təhsilini Sevda İbrahimova Bülbül adına orta ixtisas musiqi məktəbində almış, 1956-1964-cü illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano (prof. M.R.Brennerin sinfi) və bəstəkarlıq (Q.Qarayevin sinfi) fakültələrində təhsil almışdır.

1965-ci ildə Bakıda keçirilən ilk "Zaqafqaziya baharı" musiqi festivalında fortepiano və orkestr üçün poema ilə çıxış etmişdir.

S.İbrahimovanın yaradıcılığı çoxşaxəlidir. O, opera, instrumental və vokal əsərlər, mahnı və romanslar, filmlərə musiqi və uşaqlar üçün nəğmələr yazmışdır.

Sevda İbrahimova müxtəlif janrlarda musiqi əsərlərinin: 2 opera, 2 kantata, 2 kvartet, fortepiano və orkestr üçün 5 konsert, fortepiano və orkestr üçün konsertino, fantaziya, orqan və orkestr üçün konsert, skripka və orkestr üçün musiqi, fortepiano üçün silsilə pyeslər, teatr və kino üçün romans və mahnıların müəllifidir. Yaradıcılığında uşaqlara xüsusi yer ayırmış, bir-çox əsərlərini, o cümlədən "Biri-vardı" uşaq operasını onlara həsr etmişdir.

Bəstəkarın "Sənin səadətin", "Deyir gözün", "Ceylaya", "Azərbaycan təranələri", "Yaşa, ülvi məhəbbətim", "Necə sevməyim səni" kamera instrumental və vokal əsərlərini yazmışdır. S.İbrahimova müxtəlif illərdə dünyasını dəyişmiş əzizlərinin xatirəsinə bəstələdiyi "Əzizlərimin xatirəsinə" adlı silsilə musiqi əsərləri – Qurbansız qalan tarım" kamera əsəri, görkəmli yazıçımız Mirzə İbrahimovun sözlərinə yazdığı "Laylay", anasına və həyat yoldaşının xatirəsinə ithaf etdiyi "Əhval-ruhiyyələr" və "Məhəbbət işığı" adlı pyeslərin müəllifidir.

Bəstəarın yaradıcılığında bir sıra sənədli və bədii filmlərə yazdığı musiqi də xüsusi yer tutmuşdur. "Əzim Əzimzadə", "Yazıçının bir günü", "Peşmançılıq", "Min bir xəzinə", "Nar", "Odlu ürək" kimi filmlərə musiqi bəstələmişdur.

Əsərləri ABŞ, Fransa, İsveç, Almaniya, MDB ölkələri, Əlcəzair və başqa ölkələrdə ifa olunur.

S.İbrahimova həm də geniş pedaqoji fəaliyyətlə məşğuldur. O, 1989-cu ildən Bakı Musiqi Akademiyasının dosenti, 1994-cü ildən professorudur. Metodika və pedaqoji hazırlıq kafedrasının müdiridir. 150-dən artıq tələbə buraxılışı (BMA-da, respublika musiqi məktəblərində və respublika xaricində) yola salmışdır.

Sevda İbrahimova Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1989-cu ildə "Əməkdar incəsənət xadimi", 2005-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2008-ci ildən Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdçüsü olmuşdur.

Sevda Mirzə qzı İbrahimova 2022-ci il iyulun 17-də vəfat etmişdir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxana tərəfindən "Milli musiqi xəzinəmizdən: Azərbaycan Milli Kitabxanasının fondundan" layihəsində Sevda İbrahimovanın "Poema-xatirə" (2023) adlı not məcmuəsi təkrar nəşr edilmişdir (layihənin rəhbəri Kərim Tahirov).

Ədəbiyyat:

Poema-xatirə: Tar və kamera orkestri üçün: Tar və fortepiano üçün köçürmə / Sevda İbrahimova; layihə. rəhb. Kərim Tahirov; tərt. ed. M. İbrahimov; red. S. Fərəcov; [tar partiyasının red. R. Quliyev]; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası. – Bakı: [n. y.], 2023.- 21, [3] s.

Nizamiqızı, H. Musiqiləri kimi həzin...: Xalq artisti, bəstəkar Sevda İbrahimovanın əziz xatirəsinə / Həmidə Nizamiqızı // Mədəniyyət.- 2022.- 31 avqust. - S.6.

Muradova, A. Sevda İbrahimovanın "Məhəbbət işığı" fortepiano silsiləsində proqramlılıq prinsipinin təzahürü / Aygün Muradova // Konservatoriya.- 2020.- № 4(49).- S.41-53.

Poema-xatirə: Tar və kamera orkestri üçün; Tar və fortepiano üçün / Sevda İbrahimova; layihənin rəhbəri K.Tahirov; tərt. ed. M.İbrahimov; red. S.Fərəcov. – Bakı, 2023. –24 s.

Solmaz Qurbanova – 85

(1939-2013) *Aktrisa*



Solmaz Cəbrayıl qızı Qurbanova 1939-cu il noyabrın 13-də də Bakıda anadan olmuşdur.

O, Bakıdakı 19 saylı orta məktəbdə oxuyarkən, buradakı dram dərnəyinin fəal üzvlərindən olub. 1955-cü ildə Gənc tamaşaçılar teatrının baş rejissoru Zəfər Nemətov onu teatra dəvət etmişdir.

Solmaz Qurbanova 1955-2011-ci illərdə Azərbaycan Gənc Tamaşaçılar Teatrından fəaliyyətə göstərmişdir. O, teatrın səhnəsində əvəzolunmaz ifası ilə yaddaqalan obrazlar yaratmışdır. Aktrisa kimi fəaliyyət göstərdiyi illər ərzində gənc nəslin təlim-tərbiyəsində muhüm rol oynayan, xeyli sayda uşaqlar və böyüklər üçün hazırlanan tamaşalarda əsas obrazları yaradaraq onların yüksək bədii dəyərə malik olmasına səy göstərmişdir, bilik və təcrübəsini teatr sənətinin inkişafına həsr etmişdir.

Aktrisa səhnə fəaliyyətinə Azərbaycan Gənc Tamaşaçılar Teatrında başlamış, yeniyetmə oğlan rollarında çıxış etmişdir. Onun Qavroş (V.Hüqonun "Səfillər" romanı əsasında), Antonio ("Puerto Sorido alovları", M.Minçkovski), Rəcəb ("Anacan", Y.Əzimzadə), Petya ("İnqilab naminə", M.Şatrov), Kamal ("Sehrli yaylıq", K.Həsənov), Cülyetta, Culiya ("Romeo və Cülyetta", "İki veronalı", U.Şekspir), kraliça ("İki ağanın bir nökəri", K.Qoldoni), Cemma ("Ovod", E.Voyniç), Flavio ("Sükut divarı", P.Missini), Yaqut ("Məlikməmməd", Ə.Abbasov), Paşa xala ("Unutmayın", Y.Əzimzadə), Dilarə ("Ötən ilin son gecəsi", Anar), Şəcərət ("Əlvida, Hindistan", Q.Rəsulov), Afərid ("Söhrab və Rüstəm", İ.Coşğun), Bibi ("Bala bəla sözündəndir" Əli Əmirli), Qəmər banu ("Mahmud və Məryəm", Elçin) və s. rolları bu gün yaddaşlardadır.

Azərbaycan Milli Teatr sənəti sahəsindəki xidmətlərinə görə Solmaz Qurbanova 1979-cu ildə Əməkdar artist, 1991-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2005-ci ildən isə Prezident təqaüdçüsü olmuşdur.

Solmaz Cəbrayıl qızı Qurbanova 4 iyun 2013-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Solmaz Qurbanova / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İ. Rəhimli; layihənin rəhb. Ə.M.Qarayev; red. hey.: T. İ. Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- C. 3: N, O, Ö, P, R, S, Ş, T, U, Ü, V, Y, Z.- Bakı: [Azərnəşr], 2017. – S. 200-2001.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Solmaz_Qurbanova


https://sia.az/az/news/culture/350875.html

http://azteatr.musigi-dunya.az/file?id=92&dt=70

Rafiq Əliyev – 75

(1949-2020)

Aktyor



Rafiq Hacıbaba oğlu Əliyev 4 noyabr 1949-cu ildə Füzuli rayonunun Merdinli kəndində anadan olmuşdur.

1968-ci ildə Bakı şəhərindəki 58 nömrəli orta məktəbi, 1971-ci ildə Sankt-Peterburq şəhərində Mədəniyyət İnstitutunun Mədəni-Maarif fakültəsinin Rejissorluq bölməsini, 1979-cu ildə isə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Musiqili komediya aktyorluğu fakültəsini bitirmişdir.

1976-cı ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında işləməyə başlamışdır. Aktyor kimi "Bumbaraş" tamaşasında Bumbaraş, "Üç müşketyor"da Aramis, "Təmas"da Andrey, "Müsyö Jordan və Dərviş Məstəli Şah"da Hatəmxan ağa, "Buratino"da Karabas-Barabas, "Buraxılış gecəsi"ndə Gena, "Müfəttiş"də Dobçinski, "Keçən ilin son gecəsi"ndə Süleyman, "Quyu"da Akif və başqa obrazlar yaratmışdır. "Quyu" tamaşasındakı Akif obrazına görə o, 1996-cı ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür.

Rafiq Əliyev 1994-cü ildən Gənc Tamaşaçılar Teatrında quruluşçu rejissor kimi fəaliyyət göstərmişdir. "Blez", "Bir dəfə Braziliyada", "Donaldın qeyri-adi sərgüzəştləri", "Nəsrəddin", "Hind fantaziyası", "Timsah Genanın məzuniyyəti", "Arzuları gerçəkləşdirən", "Sirr", "Çimnaz xanım yuxudadır" və başqa tamaşalara quruluş vermişdir. Eyni zamanda, Akademik Milli Dram Teatrında "Hamlet", "İbrus" Teatrında "Şirə bənzər", İstanbul Bələdiyyə Teatrında "Arslana bənzər", Qazax Dövlət Dram Teatrında "Alov" tamaşalarının quruluşçu rejissoru da olmuşdur.

Rafiq Əliyev Teatrla yanaşı kino sahəsində də uzun illər səmərəli fəaliyyət göstərmişdir. "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Babamızın babasının babası" filmində Reportyor, "Keçən ilin son gecəsi"ndə Süleyman, "Uzun ömrün akkordları"nda Əli Terequlov, "Qəm pəncərəsi"ndə General-qubernator, "Əlaqə"də Astrofizik və psixiator, "Lətifə"də Komsomol rəhbəri, "Ürəkdarıxdırıcı əhvalat"da Ortancıl qardaş, "Ailə dairəsi"ndə Qarik, "Otel"də ingilis professoru Luis, "Həqiqət anı"nda Əli Ömərov, "Hökmdarın taleyi"ndə Vanya Yüzbaşı, "Papaq"da Başçı, "Ölümə məhkum olunmuşlar"da Müstəntiq kimi obrazlar yaratmışdır.

R.Əliyev "Azərbaycanfilm"də çəkilmiş "Dərs" bədii filminin, eyni zamanda, "Mozalan satirik jurnalında "Tövbə" süjetinin quruluşçu rejissoru olmuşdur. Azərbaycan Teatr xadimləri İttifaqı Yaradıcı Gənclər Mərkəzi-Laboratoriyasının 2007-ci ildə hazırladığı Qurban Səidin "Əli və Nino" ritual faciəsinin prodüseri olmuşdur.

Teatr və kino fəaliyyəti ilə yanaşı Rafiq Əliyev uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Musiqili Teatr Aktyoru fakültəsində pedoqoji fəaliyyətlə də məşğul olmuşdur.

2004-cü ilin mayından ömrünün sonunadək Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq məsələləri üzrə sədr müavini vəzifəsində çalışmışdır.

Rafiq Əliyev Azərbaycan teatr sənəti qarşısında göstərdiyi xidmətlərə görə 1990-cı ildə Respublikanın Əməkdar artisti, 2007-ci ildə Respublikanın Xalq artisti fəxri adlarına layiq görülmüşdür. Həmçinin o, Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatına, 2005-ci ildə "Humay" mükafatını layiq görülmüşdür. 2017-ci ildən Prezident təqaüdçüsü olmuşdur.

Rafiq Hacıbaba oğlu Əliyev 16 aprel 2020-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Rafiq Əliyev: Onlar bu baxışı, bu düşüncə tərzini yaşadığı mühitdən, şərqli qan yaddaşından götürmüş, əxz etmişlər... : Professor Rafiq Əliyevlə müsahibə /Rafiq Əliyev; söhbətləşdi: A. Mərzili // Ədəbiyyat qəzeti. - 2023. - 18 mart.- S.22.

Rafiq Əliyev / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İ. Rəhimli; layihənin rəhb. Ə.M.Qarayev; red. hey.: T. İ. Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- C. 3: N, O, Ö, P, R, S, Ş, T, U, Ü, V, Y, Z.- Bakı: [Azərnəşr], 2017. – S. 104.

Aktyor bütünlükdə bir aləmdir / Rafiq Əliyev // Kino.- 2007.- 17 avqust. - S. 8.

İnternetdə:

https://qafqazinfo.az/news/detail/xalq-artisti-rafiq-eliyev-vefat-etdi-284131

Aqil Musayev – 50

(1974-1994)

Milli Qəhrəman



Aqil Hüseyn oğlu Musayev 1974-cü il noyabr ayının 3-də Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur.

1991-ci ildə kənd məktəbini bitirmiş, sonra Qazax şəhərindəki 117 saylı texniki peşə məktəbinə daxil olmuşdur. Sürücü peşəsinə yiyələnənmişdir.

Aqil Musayev 1993-cü ildə Qazax rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmışdır. Təlim-məşq toplantılarında iştirak edərək, 777 saylı hərbi hissənin tərkibində cəbhəyə yollamışdır. İlk döyüş yolu Ağdam bölgəsindən başlamışdır. O, sonralar Füzuli və Tərtər bölgələrində də erməni işğalçılarına qarşı aparılan əməliyyatlarına fəal iştirak etmişdir. Füzuli istiqamətində gedən döyüşlərdə yaralanmış, bir müddət müalicə aldıqdan sonra yenidən döyüşə qayıtmışdır.

Aqil Musayev 1994-cü il oktyabr ayının 5-də Gəncə hadisələri zamanı qiyamçı dəstənin zərərsizləşdirilməsində iştirak edərkən qəhrəmancasına şəhid olmuşdur. Qazax rayonunun Əzizbəyli kəndindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-cü il tarixli 215 saylı Fərmanı ilə Musayev Aqil Hüseyn oğluna ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Musayev Aqil Hüseyn oğlu – çavuş –Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi zamanı göstərdiyi şəxsi qəhrəmanlıq və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 oktyabr 1994-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1994.- S.10.

Əsgərov, V. Musayev Aqil Hüseyn oğlu / V. Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.159.

Musayev Aqil Hüseyn oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.-S.151.

Seyidzadə, M. Musayev Aqil Hüseyn oğlu / M. Seyidzadə Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.164.

İnternetdə

http://www.milliqahramanlar.az/hero/159

Milli Qəhrəmanlar

Əsgər Əliyev – 50

(1974-1995)

Milli Qəhrəman



Əsgər Ələkbər oğlu Əliyev 1974-cü il noyabr ayının 8-də Lənkəran rayonunun Ləj kəndində anadan olmuşdur.

1982-1992-cı illərdə Haftoni qəsəbə orta məktəbində, daha sonra isə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank-artilleriya fakültəsinə daxil olmuşdur.

Milli Orduda xidmət edən Əsgər Əliyev 17 mart 1995-ci ildə hakimiyyəti zorla devirmək cəhdi zamanı çevirilişə cəhd edilən döyüşdə yaralanan 4 nəfəri xilas edərkən qəhrəmancasına şəhid olmuşdur. Ləj kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Əliyev Əsgər Ələkbər oğ¬luna ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adı verilmiş¬dir.

Lənkəran şəhərində adına park var. Büstü qoyulmuş, xatirə lövhəsi vurulmuşdur. Haftoni qəsəbə orta məktəbində xatirə guşəsi yaradılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əliyev Əsgər Ələkbər oğlu – Müdafiə Nazirliyi, kursant – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan.- 1995.- 5 aprel.-S.1.- (Ölümündən sonra).

Əliyev Əsgər Ələkbər oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.59.

Əsgərov, V. Əliyev Əsgər Ələkbər oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.83.

Seyidzadə, M. Əliyev Əsgər Ələkbər oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.58.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əsgər_Əliyev_(hərbçi)

veten-ugrunda.az/.../226-lyev-sgr-lkbr-olu.html

NOYABR

1

Baba Qasımov - 35

(1989-2020)

Gizir



Baba Əhməd oğlu Qasımov 1989-cu il noyabrın 1-də Astara rayonunun Ərçivan qəsəbəsində anadan olumuşdur. Şəhid Sahib Kələntərov adına Ərçivan 2 saylı tam orta məktəbin məzunu olmuşdur. 2014-cü ildən müddətdən artıq hərbi xidmətdə fəaliyyətə başlamışdır. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun giziri olan Baba Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Astara rayonunun Ərçivan qəsəbəsində dəfn olunmuşdur. Ailəli idi. Üç övladı Vətənə yadigar qaldı.

Baba Qasımov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətənə xidmətə görə" ordeni və "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

İ n t e r n e t d ə:

https://525.az/news/214708-veten-muharibesi-sehidi-baba-qasimov

1

Afik Həsənov - 25

(1999-2020)

Əsgər



Afik Namik oğlu Həsənov 1 noyabr 1999-cu ildə Qusar rayonunun Böyük Muruq kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Qusar rayon Böyük Muruq kənd tam orta məktəbdə təhsil almışdır. 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Afik Həsənov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Ordusu tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 3 oktyabr 2020-ci ildə Murovdağ döyüşləri zamanı Goranboy rayonunun Buzluq kəndi istiqamətində təmas xəttində şəhid olmuşdur. Uzun müddət itkin olaraq axtarılmışdır. 14 yanvarda 2021-ci ildə Afik Həsənovun nəşi tapılaraq Qusar rayonunun Böyük Muruq kəndində dəfn edilmişdir.

Afik Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ə d ə b i y y a t:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il // Azərbaycan.- 2022.- 6 noyabr.- S.2.

https://az.wikipedia.org › wiki/Afik_Həsənov

1 NOYABR

Elman Babayev - 30

(1994-2020)

Əsgər



Elman Telman oğlu Babayev 1 noyabr 1994-cü ildə Oğuz rayonunun Padar kəndində anadan olmuşdur. 2001-2007-ci illərdə şəhid Arzu Əliyev adına Padar kənd tam orta məktəbində, 2007-2012-ci illərdə Oğuz şəhər 3 nömrəli məktəb-liseydə təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elman Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində iştirak etmişdir. Sentyabrın 29-da Murovdağ döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 4-də Oğuz Şəhidlər xiyabanında dəfn olunmuşdur Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Elman Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" , "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 31 dekabr.- S.14-15.

İnternetdə:

https://www.wikiwand.com/az/Elman_Babayev_(əsgər)

1

Fəryad Xəlilov - 25

(1999-2020)

Əsgər



Fəryad Fəxri oğlu Xəlilov 1 noyabr 1999-cu ildə Ağcabədi rayonunun Hüsülü kəndində anadan olmuşdur. Cavad Həsənov adına Ağcabədi rayon Hüsülü kənd tam orta məktəbində orta təhsil, həmçinin, Hüsülü kəndində yerləşən yeddiillik musiqi məktəbinin piano şöbəsində musiqi təhsili almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Fəryad Xəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fəryad Xəlilov Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 27 oktyabr 2020-ci ildə Ağcabədi Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Fəryad Xəlilov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S. 6-13.

1 NOYABR

Yaşar Xudayev - 25

(1999-2020)

Kiçik çavuş



Yaşar Əli oğlu Xudayev 1999-cu il noyabrın 1-də Quba şəhəri Dağlı kəndində anadan olmuşdur. Dağlı Kənd Tam Orta məktəbində və Bakı Qida Sənayes Kollecində təhsil almışdır. 2019-cu ilin Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağrılmışdır, XTQ sıralarında xidmət etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuş olan Yaşar Xudayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında iştirak edib. Sentyabrın 27-də Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Yaşar Xudayev Quba şəhərində dəfn olunmuşdur.

Yaşar Xudayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il Azərbaycan.- 2020.- 19 dekabr.- S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2315

1

Nahid İbrahimzadə - 30

(1994-2020)

Əsgər



Nahid Şahid oğlu İbrahimzadə 1994-cü il noyabrın 1-də Ağdaş rayonunun Kotavan kəndində anadan olmuşdur. Kotavan kənd tam orta məktəbində təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Orsusu sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nahid İbrahimzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 5-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi. 2 övladı Vətənə yadigar qalıb.

Nahid İbrahimzadə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Mingəçevirdə Vətən müharibəsi şəhidi İbrahimzadə Nahid Şahid oğlunun adına tikilmiş Şəhid bulağı istifadəyə verilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

http://mingechevir-ih.gov.az/az/page/60.html

1 NOYABR

Samir Qəfərli - 30

(1994-2020)

Əsgər



Samir Möhlət oğlu Qəfərli 1 noyabr 1994-cü ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Ucar rayon Bərgüşad kənd Şəhid Ağamusa Mustafayev adına 1 saylı tam orta məktəbdə təhsil almışdır. 2012-ci Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kulturologiya fakültəsinə qəbul olmuşdur. 2019-cu ildə Azərbaycan Orsusu sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Samir Qəfərli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Cəbrayılın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 30 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 31 oktyabr 2020-ci ildə Ucar rayonunun Bərgüşad kəndində dəfn olunmuşdur.

Samir Qəfərli Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S. 6-13.

https://memorial.az/az/qehremanlarimiz/1055

2

İlqar Ramazanlı - 30

(1994-2020)

Əsgər



İlqar Etibar oğlu Ramazanlı 2 noyabr 1994-cü ildə Bakıda anadan olmuşdur. Təhsilini 159 saylı orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan İlqar Ramazanlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonun azad olunması uğurunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 3-də Şuşa uğurunda gedən döyüşlərdə şəhid olmuşdur. 2-ci Fəxri Xiyabanda dəfn olunmuşdur.

İlqar Ramazanlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S. 24-28.

İnternetdə:

https://az.wikipedia.org/wiki/İlqar_Ramazanlı

3 NOYABR

Nadir Xəlilov - 40

(1984-2020)

Gizir



Nadir Ağadadaş oğlu Xəlilov 1984-cü il noyabrın 3-də Astara rayonunun Artupa kəndində anadan olmuşdur. Artupa kənd orta məktəbində təhsil almışdır. 2002-ci ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağrılmışıdır. 2005-ci ildə Azərbaycan Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində hərbi təhsil almışdır və gizir rütbəsilə tank komandiri vəzifəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun giziri olan Nadir Xəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Ailəli idi. 2 övladı Vətənə yadigar qalıb.

Nadir Xəlilov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/4271

5

Orxan Emnalıyev - 30

(1994-2020)

Baş leytenant



Orxan Eyvaz oğlu Emnalıyev 1994-cü il noyabrın 5-də Tovuz rayonunun Aşağı Mülkülü kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Aşağı Mülkülü kənd tam orta məktəbində, 2013-2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil almışdır. Azərbaycan Ordusu sıralarında 2017-ci ildə "leytenant" hərbi rütbəsi, 2019-cu ildən "baş leytenant" hərbi rütbəsi altında xidmət etdirmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan Orxan Emnalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 26-da Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Tovuz rayonunun Aşağı Mülkülü kəndində dəfn olunmuşdur.

Orxan Emnalıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il // Azərbaycan.-2022.- 6 noyabr.- S.2.

5 NOYABR

Səid Ədilov - 30

(1994-2020)

Əsgər



Səid Həsən oğlu Ədilov 5 noyabr 1994-cü ildə Bərdə rayonunun Cəyirli kəndində anadan olmuşdur.

Səid Ədilov 21 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında könüllü olaraq təlimlərə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Səid Ədilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2 oktyabr 2020-ci ildə Suqovuşan döyüşləri gedişatında Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Şəhidin nəşi 2020-ci il dekabrın 2-də tapılmışdır və Bərdə Şəhidlər xiyabanında dəfn edilmişdir.

Səid Ədilov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/3586

5

Tural Məmmədov - 25

(1999-2020)

Əsgər



Tural Tariyel oğlu Məmmədov 1999-cu il noyabrın 5-də Daşkəsən şəhərində anadan olmuşdur. 2006-2015-ci illərdə Bakı şəhər 99 nömrəli məktəbdə və Mehdiabad qəsəbəsi 1 nömrəli orta məktəbdə təhsil almışdır. 2015-ci ildə təhsilini Cəmşid Naxçıvanski adına hərbi lisey davam etdirmişdir. 2017-2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Tural Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Tural Məmmədov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olmuşdur.

Tural Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

İnternetdə:

http://azhistorymuseum.gov.az/az/news/3639

6 NOYABR

Elvin İskəndərov - 35

(1989-2020) *Gizir*



Elvin Mətləb oğlu İskəndərov 1989-cü il noyabrın 6-da Yevlax rayonunun Tanrıqulular kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Elvin İskəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Elvin İskəndərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/3129

6

Elsevər İbrahimov - 25

(1999-2020) *Əsgər*



Elsevər Etibar oğlu İbrahimov 6 noyabr 1999-cu ildə Şəki rayonu Aşağı Göynük kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Aşağı Göynük kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri Elsevər İbrahimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı və Şuşa şəhərlərinin işğaldan azad edilməsində iştirak etmişdir. O, 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Noyabr ayının 15-də Aşağı Layısqı kəndində dəfn olmuşdur.

Elsevər İbrahimov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.6-12.

İnternetdə:

https://www.wikiwand.com/az/Elsevər_İbrahimov

NOYABR
7

Samir Şükürov - 50

(1974-2020)

Baş leytenant



Samir Təyyub oğlu Şükürov 1974-cü il noyabrın 7-də Lerik rayonunun Kəlvəz kəndində anadan olmuşdur. 1981-1991-ci illərdə Kəlvəz kənd Fəxrəddin Şahbazov adına tam orta məktəbdə təhsil almışdır. 1991-ci ildə Azərbaycan Ordusu sıralarına həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Samir Şükürov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Samir Şükürov noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Binə Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ailəli idi. Üç övladı Vətənə yadigar qalmışdır.

Samir Şükürov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.5.

İnternetdə:


https://memorial.az/az/qehremanlarimiz/501

7

Elvin Həsənov - 30

(1994-2020)

Əsgər



Elvin Əlizade oğlu Həsənov 1994-ci ilin noyabrın 7-də Ağdaş rayonu Mürsəl kəndində anadan olmuşdur. 2013-2014-cü illərdə Azərbaycan Ordusu sıralarına həqiqi hərbi xidmət olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd döyüşlərində iştirak etmişdir. 2020-ci il oktyabrın 14-də Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 8 noyabrda Mürsəl kənd qəbiristanlığında dəfn olunmuşdur.

Elvin Həsənov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qoyulmuş tapşırıqların icrası müvafiq sərəncamları ilə zamanı verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.32-44.

8 NOYABR

Elman Qasımov - 25

(1999-2020) *Əsgər*



Elman Yunis oğlu Qasımov 8 noyabr 1999-cu ildə Hacıqabul rayon Udulu kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Hacıqabul rayonunu Udulu kənd tam orta məktəbində, 2016-2019-cu illərdə Gəncə Dövlət Regional Kollecində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətdə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elman Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 9 oktyabr 2020-ci il tarixində Tərtər rayonunun Suqovuşan kəndin istiqamətində qəhrəmancasına şəhid olmuşdur. 28 noyabr 2020-ci ildə nəşi ailəsinə təhvil verilmişdir və Hacıqabul rayonunun Udulu kəndində dəfn edilmişdir.

Elman Qasımov Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Elman_Qasımov

https://memorial.az/az/qehremanlarimiz/2284

10

Əmrah İsmayılov - 30

(1994-2020) *Baş gizir*



Əmrah Xudaverdi oğlu İsmayılov 1994-cü il noyabrın 10-da Şərur rayonunun Cəlil kəndində anadan olumuşdur.

Azərbaycan Ordusunun baş giziri olan Əmrah İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 10-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1; 13.

https://az.wikipedia.org/wiki/Əmrah_İsmayılov

https://memorial.az/az/qehremanlarimiz/1279

10 NOYABR

Vahid Əlisoltanov - 30

(1994-2020)

Gizir



Vahid Tahir oğlu Əlisoltanov 1994-cü il noyabrın 10-da Balakən rayonunun Gərəkli kəndində anadan olmuşdur. 2011-2012-ci illərdə M.Müşfiq adına Gərəkli kənd tam orta məktəbində təhsil almışdır. Vahid Əlisoltanov 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2016-cı ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun giziri olan Vahid Əlisoltanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Vahid Əlisoltanov oktyabrın 24-də Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Balakən şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.5-6.

10

Fariz Hüseynli - 30

(1994-2020)

Əsgər



Fariz Dadaş oğlu Hüseynli 10 noyabr 1994-cü ildə Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olmuşdur. Əsgərabad kənd tam orta məktəbində orta təhsilini almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Fariz Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonu Talış kəndi, Laçın və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 3 oktyabr 2020-ci il tarixində düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına həlak olmuşdur. Şəhid Fariz Hüseynli 4 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonu Əsgərabad kənd qəbiristanlığında dəfn olunmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Fariz Hüseynli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 6-12.

NOYABR

10

Vahid Abbasov - 30

(1994-2020)

Əsgər



Vahid Sahib oğlu Abbasov 1994-cü il 10 noyabr Şəki şəhərində anadan olmuşdur. 2000-2011-ci ildə 47 nömrəli orta məktəbi bitirmişdir. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2016-ci il Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vahid Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 22-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Binəqədi rayonunda dəfn olunmuşdur.

Vahid Abbasov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr. - S. 1;13.

İnternetdə:

http://binegedi-ih.gov.az/az/page/1364.html

morial.az/az/qehremanlarimiz/2284

12

Cavanşir Əhmədov - 25

(1999-2020)

Gizir



Cavanşir Xeyrulla oğlu Əhmədov 12 noyabr 1999-cu ildə Qaradağ rayonu Ələt qəsəbəsində anadan olmuşdur. 2005-2016-cı illərdə Ələt qəsəbəsində orta məktəbində, 2017-2020-ci illərdə Bakı İnşaat Kollecində təhsil almışdır. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun giziri olan Cavanşır Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ zirvəsinin, Cəbrayıl, Zəngilan rayonlarının və Hadrut qəsəbəsinin düşməndən azad olunmasında iştirak etmişdir. 15 oktyabrda Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Cavanşır Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

NOYABR

12

Vasif Məmmədov - 30

(1994-2020)

Əsgər



Vasif Əlibala oğlu Məmmədov 1994-cü il noyabrın 12-də Göyçay şəhərində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Vasif Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Vasif Məmmədov noyabrın 4-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Göyçay şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Vasif Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/972

13

Sahib Məmmədov - 35

(1989-2020)

MAHHXHQ baş çavuş



Sahib Yaşar oğlu Məmmədov 1989-cu il noyabrın 13-də Culfa rayonunun Yaycı kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə Yaycı kənd 1 N - li tam orta məktəbdə təhsil almışdır. 2007-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır. 2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq hərbi xidət qulluqçusu olmuşdur.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Sahib Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sahib Məmmədov oktyabrın 19-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Culfa rayonunda dəfn olunmuşdur. Ailəli idi. Üç övladı Vətənə yadigar qalıb.

Sahib Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

https://memorial.az/az/qehremanlarimiz/3064

NOYABR

13

Ülvi Hacıyev - 30

(1994-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr. - S. 6-12.

Ülvi Şirin oğlu Hacıyev 1994-cü il noyabrın 13-də Suraxanı rayonunda anadan olmuşdur. 2001-2012-ci illərdə Suraxanı rayonunda R.Ənnağıyev adına 141 nömrəli tam orta məktəbdə, 2012-2016-cı illərdə isə Azərbaycan Dövlət İqtisad Universitetində (ADİU) "İqtisadiyyat" üzrə ali təhsil almışdır. 2016-2018-ci illərdə həmin universitetdə "Biznesin idarə edilməsi" üzrə magistr dərəcəsi almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ildən Dövlət Gömrük Komitəsinin (DGK) Qırmızı Körpü Sərhəd-Keçid Məntəqəsinin postunda çalışmışdı.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ülvi Hacıyev oktyabrın 19-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamışdır. Dekabrın 5-də II Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Ülvi Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


2021-ci il yanvarın 28-də Dövlət Gömrük Komitəsinin (DGK) "Azərterminalkompleks" Birliyinin inzibati binasında Ülvi Hacıyevin büstünün açılış mərasimi baş tutmuşdur.

13

Səxavət Həsənov - 30

(1994-2020)

Əsgər



Səxavət Alim oğlu Həsənov 13 noyabr 1994-cü ildə Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. 2001-2012-ci illərdə Gəncə şəhər Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri Səxavət Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı, Cəbrayıl və Laçın rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2 noyabr 2020-ci il tarixində Laçın rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 4 noyabrda Gəncə şəhər Şəhidlər xiyabanında dəfn edilmişdir.

Səxavət Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr. - S. 6-12.

NOYABR
14

Orxan Salehov - 25

(1999-2020)

Əsgər



Orxan Fikrət oğlu Salehov 1999-cu il noyabrın 14-də Şamaxı şəhərində anadan olmuşdur. 2006-2017-ci illərdə 10 saylı Şamaxı şəhər tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Salehov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Orxan Salehov oktyabrın 6-da Ağdərə istiqamətində qəhrəmancasına şəhid olmuşdur. Şamaxı şəhərində Yeddi Günbəz qəbiristanlığında dəfn olunmuşdur.

Orxan Salehov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidin adına Şamaxıda bulaq kompleksi, küçə və orta məktəbdə sinif otağı var.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il // Azərbaycan.- 2022.- 6 noyabr.- S.2.

14

Kənan Rüstəmli - 25

(1999-2020)

Əsgər



Kənan Yalçın oğlu Rüstəmli 1999-cu il noyabrın 14-ü Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olmuşdur. Saleh Babayev adına Əsgərabad kənd tam orta məktəbində təhsil almışdır. Bakı Slavyan Universitetinin məzunu olmuşdur. Boks və güləşlə məşğul olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Kənan Rüstəmli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Murovdağ silsiləsindəki yüksəkliklərin işğaldan azad edilməsində və Suqovuşan döyüşündə iştirak etmişdir. Kənan Rüstəmli düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. O, 31 oktyabr 2020-ci ildə Əsgərabad kənd qəbristanlığında dəfn olunmuşdur.

Kənan Rüstəmli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Vətən müharibəsi şəhidi Kənan Yalçın oğlu Rüstəmlinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə şəhidin adını daşıyan abidə-bulaq kompleksini tikilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

https://memorial.az/az/qehremanlarimiz/2801

15 NOYABR

Nemət Orucov - 30

(1994-2020)

Leytenant



Nemət Əkbər oğlu Orucov 1994-cü il noyabrın 15-də Goranboy rayonunun Qaraçinar kəndində anadan olmuşdur. 2001-2011-ci illərdə Goranboy rayon Qaraçinar kənd tam orta məktəbində təhsil almışdır. 2012-2016-cı illərdə Azərbaycan Texnologiya Universiteti-nin (ATU) ekologiya mühəndisliyi fakültəsində ali təhsil almışdır.

Nemət Orucov 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Xidmətini kəşfiyyatçı olaraq qurtarmışdır. 2018-ci ildən hərbi xidmətini «leytenant» rütbəsi ilə davam etdirmişdir. Zabitlik kursunu bitirdikdən sonra Beyləqan və Ağcabədi rayonlarında yerləşən "N" saylı hərbi hissədə post komandiri vəzifəsində xidmət etmişdir. 17 noyabr 2018-ci ildə Azərbaycan Ordusunda "Ən yaxşı motoatıcı bölük" adı uğrunda keçirilən yarışlarda yüksək nəticələr əldə etdiyinə və 3 mart 2019-cu ildə hərbi hissənin yaranmasının 27-ci ildönümü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə fəxri fərmanlar ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun leytenantı olan Nemət Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində motoatıcı olaraq iştirak etmişdir. Nemət Orucov sentyabrın 27-də Xocavənd döyüşləri gedişatında rayonda yerləşən Nərgiztəpə ərazisində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Goranboy rayonunda dəfn olunmuşdur.

Nemət Orucov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 45-57.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun. - S. 79.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nemət_Orucov

https://memorial.az/az/qehremanlarimiz/1401


https://utecasehidleri.com/orucov-nemet

NOYABR
15

Babək Aslanov - 30

(1994-2020)

Gizir



Babək Sakit oğlu Aslanov 1994-cü il noyabrın 15-də Tovuz rayonunun Yanıqlı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə A. Hüseynov adına Yanıqlı kənd tam orta məktəbində təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrində gizir rütbəsi ilə xidmət etmişdir.

Azərbaycan Ordusunun giziri olan Babək Aslanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Babək Aslanov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Tovuz rayonunun Yanıqlı kəndində dəfn olunmuşdur.

Babək Aslanov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;12.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Babək_Aslanov_(gizir)

15

Samir Hüseynov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.21-31.

Samir Əlizadə oğlu Hüseynov 15 noyabr 1994-cü ildə Lerik rayonunun Vov kəndində anadan olmuşdur. Orta təhsilini şəhid Rakif Babayev adına Vov kənd 9 illik natamam orta məktəbdə almışdır. 2013-214-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2016-cı ildən Xüsusi Təyinatlı Qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Samir Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Cəbrayılın, Füzulinin, Zəngilanın, Xocavəndin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Vov kənd qəbiristanlığında dəfn olunmuşdur.

Samir Hüseynov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

NOYABR
16

Vüqar Ələkbərov - 30

(1994-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S. 6-13.

Vüqar Telman oğlu Ələkbərov 1994-cü il noyabrın 16-da Ucar rayonunun Qazyan kəndində anadan olmuşdur. 2001-2010-cu illərdə Qazyan kənd 2 nömrəli tam orta məktəbində təhsil almışdır. 2010-2014-cü illərdə isə Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecində "Avtomobilin təmiri və servisi" üzrə təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2016-cı ildən Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmətə başlamışdır. Vüqar Ələkbərov 2018-ci ildə "gizir" hərbi rütbəsi almışdır

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının giziri olan Vüqar Ələkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağı istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişir. Oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Ucar rayonunun Qazyan kəndində dəfn olunmuşdur.


Vüqar Ələkbərov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

16

Zaur Mədətov - 25

(1999-2020)

Əsgər



Zaur Kamal oğlu Mədətov 1999-cu il noyabrın 16-da Sumqayıt şəhərində anadan olmuşdur. 2006-2017-ci illərdə Abşeron rayonunun ərazisində müvəqqəti yerləşən Qubadlı rayonunun Xanlıq kənd tam orta məktəbində, daha sonra təhsilini Nizami rayonunun 277 nömrəli tam orta məktəbində davam etdirmişdir. Zaur Mədətov 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətdli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Zaur Mədətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Zaur Mədətov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Sumqayıt şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Zaur Mədətov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

http://absheron-ih.gov.az/az/page/127.html

17 NOYABR

İlkin Nəcəfov - 35

(1989-2020)

Kapitan



İlkin Misir oğlu Nəcəfov 17 noyabr 1989-cu ildə Salyan rayonunun Şəkərli kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə Salman Cəfərov adına Şəkərli kənd orta məktəbində təhsil almışdır. 2007-2011-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır. 2011-2012-ci illərdə leytenant kimi zabitləri təkmilləşdirmə kursunu uğurla bitirib və Tərtər rayonunda yerləşən N-saylı hərbi hissədə xidmət etmişdir.

2016-cı il Aprel döyüşləri iştirak etmişdir. Döyüşlərdə iştirakı və 26 iyun Silahlı qüvvələrin yaranmasının ildönümü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda, nizam-intizamda əldə etdiyi yüksək nailiyyətlərə görə Fəxri fərmanla təltif olunub.

Şəhid 2018-cil il 26 iyun Azərbaycan ordusunun 100 illiyi "Yubiley Medalı" və Azərbaycan Respublikasına Qüsursuz xidmətinə görə 3-cü dərəcəli medalla təltif olunmudur. 2019-cu ildə ona "kapitan" rütbəsi verilmişdir.

Azərbaycan Ordusunun kapitanı olan İlkin Nəcəfov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İlkin Nəcəfov 17 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində gedən döyüşlərdə zamanı şəhid olmuşdur. Salyan rayonunun Şəkərli kəndində dəfn olunmuşdur.

Ailəli idi. Bir övladı Vətənə yadigar qalıb.

İlkin Nəcəfov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/997

https://az.wikipedia.org/wiki/İlkin_Nəcəfov

https://president.az/az/articles/view/49727

NOYABR

17

Əmrah Abışov - 25

(1999-2020)

Əsgər



Əmrah Səyyab oğlu Abışov 17 noyabr 1999-cu ildə Ağcabədi rayonunun Kürdlər kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Akif Sultanov adına Ağcabədi rayon Kürdlər kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 2019-cu ildən MAXE kimi xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əmrah Abışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əmrah Abışov 30 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ağcabədi Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Əmrah Abışov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 78.

İnternetdə:


https://memorial.az/az/qehremanlarimiz/1959

18

Məhəmməd Rzayev - 30

(1994-2020)

MAHHXHQ əsgər



Məhəmməd Nadir İlqar oğlu Rzayev 18 noyabr 1994-cü ildə Sumqayıt şəhərində anadan olmuşdur. 2001-2012-ci illərdə Sumqayıt şəhər 17 saylı tam orta məktəbdə təhsil almışdır. 2012-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ildən Xüsusi Təyinatlı Dəstələrin tərkibində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Məhəmməd Nadir Rzayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Məhəmməd Nadir Rzayev 15 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Məhəmməd Nadir Rzayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məhəmməd_Nadir_Rzayev

NOYABR

18

Taleh Yusifov - 30

(1994-2020)

Əsgər



Taleh Gündüz oğlu Yusifov 1994-cü il noyabrın 18-də Samux rayonunun Ziyadlı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Samux rayon Ziyadlı kənd İmadəddin Nəsimi adına tam orta məktəbdə təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Taleh Yusifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Taleh Yusifov noyabrın 5-də Laçın döyüşləri zamanı şəhid olmuşdur. 27 noyabrda Ziyadlı kəndində dəfn olunmuşdur.

Taleh Yusifov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr. - S. 6-13.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Taleh_Yusifov_(əsgər,_1994)

19

Davud Abbasov - 25

(1999-2020)

Kiçik gizir



Davud Yalçın oğlu Abbasov 1999-cu il noyabrın 19-da Cəlilabad rayonunun Sabirabad kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə E.Yusubov adına Uzuntəpə kənd tam orta məktəbində təhsil almışdır. 2018-2020-ci illərdə Dövlət Sərhəd Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən isə "Kiçik gizir" hərbi rütbəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Davud Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Davud Abbasov oktyabrın 16-da Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur. Cəlilabad rayonunun Sabirabad kəndində dəfn olunmuşdur.

Davud Abbasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S. 13-14.

https://unudulmazlar.az/az/infom/3331

NOYABR
19

Elməddin İbrahimli - 25

(1999-2020)

Kiçik gizir



Elməddin Zeynəddin oğlu İbrahimli 1999-cu il noyabrın 19-da Cəlilabad rayonunun Hacıcavadlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik giziri olan Elməddin İbrahimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Cəbrayılın, Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 17-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Cəlilabad rayonunun Hacıcavadlı kəndində dəfn edilmişdir.

Elməddin İbrahimli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr. - S.24-28.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2651

19

Maarif Həsənov - 25

(1999-2020)

Əsgər



Maarif Rahim oğlu Həsənov 1999-cu il noyabr ayının 19-da Göyçay rayonunda anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri Maarif Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə, Suqovuşan döyüşlərində iştirak etmişdir. 12 oktyabr 2020-ci ildə Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 17 noyabr 2020-ci ildə Göyçay şəhəri Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Maarif Həsənov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qoyulmuş tapşırıqların icrası zamanı verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Vətən müharibəsində şəhid olmuş Maarif Rahim oğlu Həsənovun əbədi xatirəsinə ehtiram əlaməti olaraq adına bulaq açılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 66-67.

https://525.az/news/157553-qehreman-dogulmurlar-qehreman-olurlar

NOYABR
20

Ruslan Quliyev - 40

(1984-2020)

MAHHXHQ əsgər



Ruslan Şaxsəddin oğlu Quliyev 1984-cü il noyabrın 20-də Tovuz rayonunun Dondar Quşçu kəndində anadan olmuşdur. 1991-2002-ci illərdə Tovuz rayonunun Dondar Quşçu kənd tam orta məktəbində təhsil almışdır.Ruslan Quliyev 2003-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2015-ci ildən Azərbaycan Silahlı Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ruslan Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 11-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Tovuz rayonunun Dondar Quşçu kəndində dəfn olunmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Ruslan Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında $h [Mətn]: $b Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il Azərbaycan $g 2020.- 19 dekabr.- S.6-12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ruslan_Quliyev_(əsgər)

20

Səid Bayramov - 25

(1999-2020)

Əsgər



Səid Eldəniz oğlu Bayramov 20 noyabr 1999-cu ildə Kürdəmir rayonunun Çöl Ərəb kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə şəhid Əkbər Şəmiyev adına Kürdəmir rayon Çöl Ərəb kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Hava Hücumundan Müdafiə Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Səid Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin, Cəbrayılın, Zəngilanın, Xocavəndin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 5 noyabr 2020-ci ildə dəfn olunmuşdur.

Səid Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;13.

NOYABR

20

Niftalı Qocayev - 30

(1994-2020)

Əsgər



Niftalı Zakir oğlu Qocayev 1994-cü il noyabrın 20-də Qazax rayonunun Çaylı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə E.Cəfərov adına 2 saylı Çaylı kənd tam orta məktəbində təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Niftalı Qocayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayıl istiqamətində gedən döyüşlərdə xüsusi iştirak etmişdir. Noyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Qazax rayonunun Çaylı kəndində dəfn edimişdir.

Niftalı Qocayev Azərbaycan respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İnternetdə:

http://qazax-ih.gov.az/az/news/3656.html

21

Tofiq Həsənov - 35

(1989-2020)

MAHHXHQ baş çavuş



Tofiq Etibar oğlu Həsənov 1989-cu il noyabrın 21-də Gədəbəy rayonunun Cəfərli kəndində anadan olmuşdur. Gədəbəy rayon Daryurd kənd tam orta məktəbində təhsil almışdır. 2010-cu ildən Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Tofiq Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Tofiq Həsənov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Tofiq Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.24-28.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/3058

NOYABR
21

Hafiz Abdurrəhmanov - 35

(1989-2020)

Kapitan



Hafiz Xalid oğlu Abdurrəhmanov 1989-cu il noyabrın 21-də Şəmkir rayonunun Sabirkənd kəndində anadan olmuşdur.

1997-2005-ci illərdə Şəmkir rayonunun Sabirkənd kəndində yerləşən S. Rüstəmov adına tam orta məktəbdə, 2005-2008-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi liseydə, 2008-2012-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbə təhsil almışdır. 2012-2013-cü illərdə Texniki Təlim Mərkəzində təhsil almışdır.

2013-cü ildən Sumqayıt şəhərində yerləşən N nömrəli hərbi hissədə xidmətə başlamışdır. 2014-cü ildən Qusar rayonunda yerləşən N nömrəli hərbi hissədə bölük komandiri vəzifəsində çalışmışdır. 2015-ci ildən Bakı şəhərində yerləşən N nömrəli hərbi hissədə mühəndis-istehkam bölük komandiri vəzifəsində xidmətini davam etdirmişdir. 2019-cu ildən Tərtər rayonunda yerləşən N saylı hərbi hissədə mühəndis-istehkam bölük komandiri vəzifəsində xidmət etdmişdir.

2012-ci ildə leytenant, 2015-ci ildə baş leytenant, 2020-ci ildə kapitan hərbi rütbəsini almışdır.

Azərbaycan Ordusunun kapitanı olan Hafiz Abdurrəhmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə iştira etmişdir. Hafiz Abdurrəhmanov noyabrın 2-də Ağdərə döyüşləri zamanı şəhid olmuşdur. Şəmkir rayonunda dəfn olunmuşdur.

Kapitan Hafiz Abdurrəhmanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Azərbaycan Ordusunun 100 illiyi" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 5-6.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 6-12.

Əbədiyyətdəki əziz ünvanlarımız, Şəhidlər ölməz, Vətən bölünməz! 525-ci qəzet.- 2021.- 12 avqust.- S.14-15.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/1863

https://az.wikipedia.org/wiki/Hafiz_Abdurrəhmanov

https://www.clb.az/haqqimizda/tarixd-bu-gun/2022-11-21

NOYABR

23

Çoban Nurmətov - 40

(1984-2020)

Baş gizir



Çoban Razaddin oğlu Nurmətov 1984-cü il noyabrın 23-də Qusar rayonunun Cibir kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun baş giziri olan Çoban Nurmətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 23-də Xocavənd şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qusar rayonunun Cibir kəndində dəfn olunmuşdur. Ailəli idi. Üç övladı Vətənə yadigar qalıb.

Çoban Nurmətov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

https://az.wikipedia.org/wiki/Çoban_Nurmətov

24

Orxan Namazov - 30

(1994-2020)

Kiçik gizir



Orxan Ceyhun oğlu Namazov 1994-cü il noyabrın 24-də Goranboy rayonunun Xoylu kəndində anadan olmuşdur. Orta təhsilini Goranboy rayonunun Xoylu kəndində almışdır. Daha sonra təhsilini Gəncə Regional Kollecində davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Namazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ yüksəkliyi, Talış dağ zirvəsi, Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Orxan Namazov oktyabrın 10-da Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Orxan Namazov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/1104

NOYABR

25

Elçin Mansurov - 40

(1984-2020)

Mayor



Elçin Elşən oğlu Mansurov 1984-cü il noyabrın 25-də Bakının Xəzər rayonunun Binə qəsəbəsində anadan olmuşdur.

Orta təhsilini Binə qəsəbəsi 149 nömrəli orta məktəbdə, Yasamal rayon 286 saylı orta məktəbdə və Yardımlı rayonunun Kürəkçi məktəbində almışdır. 2003-2007-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbdə ali təhsil almışdır. 2007-ci ildən Tovuzda yerləşən "N" saylı hərbi hissədə leytenant rütbəsi ilə hərbi vəzifəsinə başlamışdır. 2009-cu ildən Goranboyda yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı zabit olaraq xidmət etmişdir. Xidməti zamanı kəşfiyyatçı vəzifəsində olmuşdur. Aprel döyüşlərində iştirak etmişdir.

Tovuz, Murovdağ, Göygöl və Füzuli rayonlarında xidmət edib. 2020-ci ilin yayında mayor rütbəsinə yüksəlmişdir.

Xidməti dövründə 6 medalla, dəfələrlə fəxri fərmanla təltif olunmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Elçin Mansurov 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 27 sentyabrda qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamışdır. 10 oktyabr 2020-ci ildə II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Elçin Mansurov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Bakı şəhəri 88 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Elçin Elşən oğlu Mansurovun adı verilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 10 dekabr.- S.3.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1; 12.

Müşfiq M. Elçin Mansurov /Mirzə Müşfiq //Respublika .- 2022.- 25 noyabr.- S.12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Elçin_Mansurov

https://memorial.az/az/qehremanlarimiz/677

https://xazar-ih.gov.az/az/news/1244.html

NOYABR

25

Nurlan Zeynalov - 35

(1989-2020) *Leytenant*



Nurlan Rəfail oğlu Zeynalov 1989-cu il noyabrın 25-də Sabirabad şəhərində anadan olmuşdur. 1996-2007-ci illərdə Mirzə Ələkbər Sabirin adını daşıyan 1 nömrəli orta məktəbdə, 2007-2011-ci illərdə Memarlıq və İnşaat Universitetində təhsil almışdır. Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində xüsusi kurslarını keçmiş, ehtiyatda olan zabit kimi tərxis olunmuşdur.

Azərbaycan Ordusunun leytenantı olan Nurlan Zeynalov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştiraketmişdir. Nurlan Zeynalov noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Sabirabad şəhərində dəfn olunmuşdur.

Nurlan Zeynalov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;13.

https://ikisahil.az/post/178788-qehramanliq-zirvesini-feth-eden-boyuk-vetenperver

25

Orxan Osmanov - 25

(1999-2020) *MAHHXHQ əsgər*



Orxan Mənsur oğlu Osmanov 25 noyabr 1999-cu ildə Xaçmaz rayonunun Mürşüdoba kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Mürşüdoba kənd orta məktəbində təhsil almışdır. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Osmanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Orxan Osmanov 1 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Orxan Osmanov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/1818

NOYABR

26

Vüqar Əsgərov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Vüqar Rza oğlu Əsgərov 1994-cü il noyabrın 26-da Şərur (indiki Kəngərli) rayonunun Qarabağlar kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Qarabağlar kənd 2 nömrəli tam orta məktəbində təhsil almışdır. 2012-ci ildə Azərbaycan Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatı ixtisasına qəbul olmuşdur və sonradan təhsilini davam etdirməmiş dir. 2012-2014-cü Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əsgərov Vüqar 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vüqar Əsgərov 25 oktyabr 2020-ci ildə Şuşa ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Vüqar Əsgərov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.45-57.

28

Fuad Məhərrəmli - 30

(1994-2020)

MAHHXHQ kiçik çavuş



Fuad Habil oğlu Məhərrəmli 1994-cü il noyabrın 28-də Tərtər rayonunun Evoğlu kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Fuad Məhərrəmli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fuad Məhərrəmli oktyabrın 12-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Fuad Məhərrəmli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2389

Məsumə Məlikova – 95

(1929)

Hüquqşünas



Məsumə Fazil qızı Məlikova 22 noyabr 1929-cu ildə Bakı şəhərində anadan olmuşdur.

1952-ci ildə ADU-nun (indiki BDU) hüquq fakültəsini bitirmiş, 1953-cü ildə M.V. Lomonosov adına MDU-nun aspiranturasında təhsil almışdır.

1958-ci ildə M.V.Lomonosov adına MDU-da "M.F.Axundovun ictimai-siyasi baxışları" mövzusunda namizədlik dissertasiyası, 1973-cü ildə isə "XIX əsrin ikinci yarısı - XX əsrin başlanğıcında Azərbaycan maarifçilərinin siyasi və hüquqi baxışları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1974-cü ildə professor elmi adını almış, 1989-cu ildə Azərbaycan MEA-nın müxbir üzvi seçilmişdir.

Məsumə Məlikova 1956-1968-ci illərdə Bakı Dövlət Universitetinin Dövlət hüququ kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1968-ci ildən Dövlət hüququnun nəzəriyyəsi və tarixi kafedrasının müdiridir.

Bir çox dərslik, dərs vəsaiti, monoqrafiyanın, 200-ə qədər elmi məqalə və tezisin müəllifidir. Rəhbərliyi altında 35 namizədlik və 4 doktorluq dissertasiyası müdafiə edilmişdir.

Prof. M.Məlikovanın elmi-fəaliyyəti hüquqşünaslığın iki mühüm sahəsinin siyasi və hüquqi təlimlər tarixinin və dövlət və hüquq nəzəriyyəsinin aktual problemlərinin tədqiqinə həsr edilmişdir. Azərbaycanın siyasi və hüquqi təlimlər tarixinin öyrənilməsi məktəbinin banisidir. O, Azərbaycanda ilk dəfə olaraq milli siyasi və hüquqi fikir tarixinin öyrənilməsinin əsasını qoymuş və beləliklə də hüqüqşünaslıqda yeni bir istiqamətin bünövrəsini yaratmışdır.

M.Məlikova ilk dəfə olaraq Azərbaycanda milli siyasi və hüquqi fikrin öyrənilməsinin əsaslarını yaratmış, hüquq elmində yeni istiqamət açmaqla müvafiq məktəb formalaşdırmışdır. Azərbaycanda siyasi və hüquqi təlimlər tarixinin problemli tədqiqat metodunu tətbiq etmişdir. Əsərlərində Azərbaycanda maarifçilik ideologiyasının meydana gəlməsi və təşəkkül tapması konsepsiyasının, eləcə də, bu ideologiyanın qədim dövrlərdən başlayaraq inkişafının dövrləşməsinin elmi əsaslandırılması verilmişdir. Elmi-tədqiqat obyektləri qismində, həmçinin ümumi dövlət və hüquq nəzəriyyəsinin, Azərbaycanın və xarici ölkələrin dövlət və hüquq tarixinin problemləri ilə çıxış edir.

Prof. M.Məlikova baş redaktor qismində Azərbaycanda ilk dəfə 1991-ci ildə nəşr edilmiş "Hüquq ensiklopedik lüğəti"nin tərtib edilməsini təşkilatçısı olmuş, böyük müəlliflər kollektivinə rəhbərlik etmişdir və həm də bu lüğətdə 80-dən artıq məqalənin müəllifidir. Bir çox monoqrafiya, elmi jurnal və dərsliklərin elmi redaktorudur.

Prof. M.Məlikova tərəfindən ilk dəfə yazılmış "Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi" (1984), "Kitabi Dədə Qorqudda ictimai siyasi ideyalar" monoqrafiyaları ölkədə hüquq elminin inkişaf etdirilməsində diqqətəlayiq hadisə olmuşdur.

1969-cu ildə Azərbaycan SSR Əməkdar hüquqşünası, 1976-cı ildə "Şərəf nişanı"ordeni, 1985-ci ildə "Əmək veteranı" medalı, 2000-ci ildə "Şöhrət" ordeni, 2009-cu ildə AR Prezidentinin fərdi təqaüdçüsü, 2009-cu ildə AR Təhsil Nazirliyinin "Fərqlənməyə görə" döş nişanı, AR Təhsil Nazirliyinin, BDU-nun, DİN-nin, 1994, 1999, 2004-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının və digər dövlət orqanlarının fəxri fərmanları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Qasımov, Alış. Hüquqşünas, müəllim, alim ömrü...: Elm xadimləri / Alış Qasımov // Azərbaycan.- 2019.- 22 noyabr.- S.10.

Zeynalova, T. Azərbaycan hüquq elminin kamil bələdçisi / Təranə Zeynalova; E. Nəbiyev; X. İsmayılov // Respublika.- 2019. - 4 dekabr. - S.6.

İnternetdə:

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/124

https://www.nkpi.az/index.php?page=addread&id=1821

Gövhər Baxşəliyeva – 70

(1954)

Akademik



Gövhər Ağabala qızı Baxşəliyeva 1954-cü il noyabr ayının 26-da Bərdə şəhərində anadan olmuşdur.

1977-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, elmi işlər üzrə direktor müavini, şöbə müdiri vəzifələrində işləmişdir.

1984-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi almışdır, professordur. 1997-ci ildən AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışır. 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilmişdir.

II, III, IV və V çağırış Milli Məclisinin deputatı olmuşdur. 2001-2005-ci illərdə AR Milli Məclisinin sədr müavini, 2001-2019-cu illərdə AR MM-nin İslam Əməkdaşlıq Təşkilatında nümayəndə heyətinin sədri, Azərbaycan-Misir dostluq qrupunun rəhbəri olmuşdur.

Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun və İslam Konfransı Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuşdur.

Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı) ixtisası üzrə 21 fəlsəfə doktoru yetişdirmişdir. Gövhər Baxşəliyeva Azərbaycan elmini bir çox xarici ölkələrdə uğurla təmsil etmişdir (Türkiyə, Rusiya, İran, Misir, Səudiyyə Ərəbistanı, Suriya, BƏƏ, Fransa, İngiltərə, İtaliya, Macarıstan, Rumıniya, Çin, Malaziya, İndoneziya və s.).

Qədim və müasir ərəb ədəbiyyatının, ərəbdilli Azərbaycan ədəbiyyatının, ərəbdilli mənbələrin, ərəb Azərbaycan ədəbi əlaqələrinin tədqiqi ilə məşğul olmuş, şərqşünaslıq elminin ən müxtəlif sahələrinə aid onlarca əsəri çap edilmişdir. "Əbülfərəc İsfahani. Bir Məcnun vardı…", "Hamıdan ucadır alimin yeri. Məqalələr. Müsahibələr. Rəylər.", "Ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu", "Абу-л-Фарадж ал-Исфахани. Рассказы о Кайсе ибн Мулаввахе по прозвищу Меджнун и арабоязычных азербайджанских поэтах", 2 cilddə "Cübran Xəlil Cübran. Qırılmış qanadlar, Məqalələr, məruzələr, müsahibələr...", "İslam", "Əsassız erməni iddiaları və tarixi faktlar" və s. əsərlərin müəllifidir.

Şərqşünaslıq elminin müxtəlif sahələrinə aid 260-dən artıq məqaləsi və məruzəsi, 24 xaricdə dərc edilən məqaləsi, 5 monoqrafiyası, 18 kitabı çap olunmuşdur.

"Türk xalqları ədəbiyyatı" və "Dünya ədəbiyyatı" ixtisasları üzrə Müdafiə Şurasının, Şərqşünaslıq sahəsində Problem Şurasının sədridir. "Elmi araşdırmalar" dərgisinin məsul redaktoru, "Azərbaycan şərqşünaslığı" dərgisinin baş redaktorudur. 2018-ci ildən Azərbaycan İlahiyyat İnstitutunun Himayəçilər Şurasının üzvüdür.

G.B.Baxşəliyeva "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, (27 may 2019-cu il), "Azərbaycan polisinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (5 iyun 2018-ci il), Azərbaycan Respublikası Milli Məclisinin "Parlament" medalı. (24 dekabr 2018-ci il), "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı (7 mart 2019-cu il), "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı (9 iyul 2019-cu il), "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı (6 dekabr 2019-cu il), Nizami Gəncəvi irsinin tədqiqi və təbliği sahəsində elmi fəaliyyətinə görə AMEA-nın Fəxri fərmanına (22 dekabr 2021-ci il) layiq görülmüşdür.

Ədəbiyyat:

Məqalələr, məruzələr, müsahibələr...: [2 cilddə] / G.Baxşəliyeva; elmi red. V.Məmmədəliyev.- Bakı: [Bakı Çap Evi], 2011.- C.1.- 435 s.; C.2.- 511 s.

Cəfərov, N. Professor Gövhər Baxşəliyeva / N.Q. Cəfərov; red. D.Osmanlı.- Bakı: AzAtaM, [Elm və təhsil], 2013.- 98 s.

Gövhər Ağabala qızı Baxşəliyeva // Azərbaycanda kim kimdir: ensiklopedik məlumat kitabı.- Bakı, 2010.- S.27.

Həmzəoğlu, K. Gövhər Baxşəliyeva: "Nizami fars şairi deyil, fars dilində yazmış Azərbaycan şairidir"/ Kamil Həmzəoğlu // 525-ci qəzet.- 2019.- 4 yanvar. - S.5.

Mikayıl Bağırov – 90

(1934-2017)

Alim



Mikayıl Kazım oğlu Bağırov 1934-cü il noyabr ayının 1-də Naxçıvan MR-nın Şərur rayonunun Daşarx kəndində anadan olmuşdur.

1951-1956-cı illərdə Azərbaycan Sənaye İnstitutunun Neft-mədən fakültəsində Neft yataqlarının işlənilməsi və istismarı ixtisası üzrə təhsil almışdır. 1956-1960-cı illərdə "Qaradağneft" NQÇİ-də operatordan sahə rəisinə qədər müxtəlif vəzifələrdə işləmişdir.

1960-cı ildən AzETNÇİ-nun "Neft hasilatı texnologiyası" laboratoriyasında mühəndis, 1966-1975-ci illərdə bu laboratoriyanın elmi işçisi, rəhbəri, 1963-1966-cı illərdə bu institutun aspirantı olmuşdur. 1966-cı ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1971-1975-ci və 1982-1985-ci illərdə Əlcəzairdə Neft və Kimya İnstitutunda pedaqoq işləmiş və eyni zamanda öz elmi fəaliyyətini davam etdirmişdir. 1975-1992-ci illərdə "Neft quyularının hasilatının intensivləşdirilməsi", "Quyuların əsaslı və cari təmiri" laboratoriyalarının rəhbəri olmuşdur. 1992-2002-ci illərdə "Azneftqaz" DETLİ-də direktor vəzifəsində işləmişdir. 1998-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 2002-ci ildən "Geofizika və mühəndis geologiyası" İnstitutunun baş elmi işçisi və eyni zamanda ADNSU-nun "Neft yataqlarının işlənilməsi və istismarı" kafedrasının professoru olmuşdur.

Neft və qaz yataqlarının işlənilməsi sahəsində tanınmış alim olmuşdur. M.Bağırovun tədqiqatları neft və qaz yataqlarının işlənilməsi, istismar olunan quyuların məhsuldarlığının artırılması, laylara və quyudibi sahəyə təsir üsullarının yaradılmasına və neft sənayesinin aktual problemlərinin həllinə yönəldilmişdir.

Beynəlxalq Şərq Akademiyasının akademiki, prof. Mikayıl Bağırov 130-dan artıq elmi məqalənin, 7 monoqrafiyanın müəllifidir. İxtiralarına görə 40 müəlliflik şahadətnaməsi və patentləri vardır. Görkəmli alimin rəhbərliyi ilə 5 elmlər namizədi hazırlanmışdır.

O, uzun müddət Dövlət Elm və Texnika Komitəsinin, "Yanacaq Energetika" Şurasının üzvü, Azərbaycan Ali Attestasiya Komissiyasının "Yer Elmləri üzrə" Ekspert Şurasının sədri, Azərbaycan neft sənayesinin və neft elminin inkişafında müstəsna rolu olan "Azərbaycan Neft Təsərrüfatı" jurnalının redaksiya heyətinin və şurasının üzvü olmuşdur.

Beynəlxalq EA Azərbaycan Bölməsinin Rəyasət Heyətinin üzvü-akademiki, Beynəlxalq EKO Energetia Akademiyasının elmlər doktoru, professoru adına layiq görülmüşdür

Mikayıl Bağırov 2017-ci il dekabr ayının 29-da vəfat etmişdir.

Ədəbiyyat:

Quyuların təmiri üçün avadanlıq və alətlər: Mühazirələrin icmalı / M.K.Bağırov; red. Ə.X.Canəhmədov.- Bakı: Çaşıoğlu, 2000.- 70 s.

Neft elminin beşiyi / M.K.Bağırov və b.;red.F.Abdullayev.- Bakı, 1999.- 150 s.

Neftçıxarmanın texnika və texnologiyası / Azərbaycan Respublikası Dövlət Neft Şirkəti; "Quruda neft və qazçıxarma"İstehsalat Birliyi.; Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu (AzNSETLİ); red. heyəti: M.K.Bağırov, Ş.P.Kazımov, Q.Ə.Məmmədov və b.- Bakı, 1999.- 312 s.

Respublika neft sənayesinin problemlərinin həlli yolları: AzNSETLİ-nin elmi əsərlər toplusu / Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu; red. heyəti: M.K.Bağırov [və b.]; .-Bakı: AzNSETLİ, 1997.-511 s.

İnternetdə:

https://www.nkpi.az/?page=addread&id=16231

Rəsmi Abdullayev – 100

(1924-1995)

Geoloq



Rəsmi Əsəd oğlu Abdullayev 1924-cü il noyabrın 26-də Bakıda anadan olmuşdur.

1944-cü ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat şöbəsinə daxil olmuşdur. 1949-cu ildə Moskva Neft İnstitutunun Geofiziki kəşfiyyat metodları kafedrasının aspiranturasına qəbul olmuşdur.

1954-cü ildə Moskvada namizədlik dissertasiyası müdafiə edərək geofizika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1973-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Rəsmi Abdullayev Azərbaycanda geofizika elminin inkişafına böyük töhfə vermişdir. Elmi işçi olmaqla yanaşı, 40 il müəllim kimi də fəaliyyət göstərmişdir. 1975-ci ildə geofiziki kəşfiyyat üsulları kafedrasının professoru elmi adı verilmişdir, çoxsaylı elmi əsərin müəllifi olmuşdur.

Onun bir çox tələbələri və aspirantları da öz növbəsində elmin inkişafı üçün fəaliyyətini davam etdirmişlər. O, təkcə mühəndislər və geofiziklər deyil, həm də seysmik kəşfiyyat sahəsində alimlər yetişdirmişdir. Onun rəhbərliyi altında Banqladeş, Vyetnam və Konqodan olan 16 fəlsəfə doktoru namizədlik dissertasiyası müdafiə etmiş, Fransa və Çindən geofiziklər hazırlanmışdır.

Rəsmi Abdullayev 1995-ci ildə vəfat etmişdir.

2014-cü ilin noyabr ayında Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutunda (GGİ) geofizika elminin inkişafında böyük xidmətləri olmuş geologiya-mineralogiya elmləri doktoru, professor Rəsmi Əsəd oğlu Abdullayevin anadan olmasının 90 illik yubileyi qeyd edilmişdir.

2014-cü ildə Abdullayevin 90 illik yubileyi münasibətilə onun həyat yoldaşı Səidə Mirizadə-Abdullayevanın "Alimin ömür yolu, ailəsi, irsi və xatirələri" adlı kitabçası çap olunub.

Ədəbiyyat:

Seysmik dalğaların kinematik və dinamik xarakteristikaları: mühazirələrin konspekti / Rəsmi Abdullayev, N. M. Əliyev; P. Z. Məmmədov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu.- Bakı: Azərb.NKİ, 1985.- 70.

İnternetdə:

https://ru.wikipedia.org/wiki/Абдуллаев,_Расми_Асад_оглы

https://science.gov.az/az/news/open/1403

Arif Babayev – 90

(1934-1998)

Alim



Arif Əliheydər oğlu Babayev 1934-cü il noyabr ayının 11-də Bakı şəhərində anadan olmuşdur.

1952-ci ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsinin riyaziyyat bölməsinə daxil olmuş və 1957-ci ildə təhsilini bitirmişdir. 1957-ci ildə Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının aspirantı olmuşdur. 1960-cı ildə namizədlik, 1966-cı ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Əmək fəaliyyətinə universitetdə laborant kimi başlamış, 1965-1979-cu illərdə Riyazi analiz kafedrasının müdiri, 1979-1994-cü illərdə mexanika-riyaziyyat fakültəsinin dekanı olmuşdur.

Görkəmli alim 60-a yaxın elmi əsərin müəllifidir. Arif Babayev qeyri-xətti sinqulyar inteqral tənliklərin həllinin varlığı və yega¬nəliyi haqqında bir sıra yeni teoremlər isbat etmiş, qeyri–hamar qapalı inteqrallama əyrisi üzrə sinqulyar inteqralı tədqiq etmiş, xətti və qeyri-xətti sinqul¬yar inteqral tənliklərə tətbiq etmişdir. Açıq əyri üzrə Koşi nüvəli sinqulyar inteqral operatorun tədqiqi üçün yeni üsul vermişdir ki, bu üsul əsasında qeyri-xətti sinqulyar inteqral tənliklərin lokal nəzəriyyəsi yaradılmışdır. Koşi tipli inteqral və qeyri-hamar qapalı düzləndirilə bilən əyri üzrə sinqulyar inteqral haqqında klassik Plemel-Privalov problemini həll etmişdir. Sinqulyar inteqralın və bu inteqralın təsir etdiyi fəzaların diskret analoqları, həmçinin bu anlayışların qeyri-xətti sinqulyar inteqral tənliklərin təqribi həllinə tətbiqləri verilmişdir.

Bilavasitə iştirakı və rəhbərliyi altında qeyri-xətti sinqulyar inteqral tənliklərin lokal nəzəriyyəsi, bu tənliklərin təqribi həlli üsulları, oblast üzrə çoxölçülü sinqulyar inteqral operatorlar və tənliklərin lokal nəzəriyyəsi inkişaf etdirilmiş və funksional fəzaların daxilolma teoremlərinə və s. tətbiq edilmişdir.

Arif Babayev "Məxsusi inteqral və sinqulyar tənliklər" elmi seminarlarının rəhbəri, ixtisaslaşmış Müdafiə Şurasının sədri, EA-da İxtisaslaşmış Müdafiə Şurasının üzvü, SSRİ dövründə Ali Attestasiya Komissiyasının eksperti, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının riyaziyyat ixtisası üzrə şuranın sədri, AMEA-nın Rəyasət Heyətinin "Riyaziyyat problemləri" Şurasının üzvü, Azərbaycan Riyaziyyat Cəmiyyətinin vitse-prezidenti, müxtəlif elmi jurnalların redaksiya heyətlərinin üzvü kimi fəaliyyət göstərmişdir.

Professor A.Ə.Babayevin rəhbərliyi altında 40-dan çox namizədlik dissertasiyası müdafiə olunmuşdur.

A.Ə.Babayev 1968-ci ildə professor elmi adını almış, 1976-cı ildə AMEAnın müxbir üzvü seçilmişdir.

Prof. Arif Babayevin elmin və xalq təhsilinin inkişafındakı, yüksəkixtisaslı elmi kadrların hazırlanmasındakı xidmətləri dövləti tərəfindən yüksək qiymətləndirilmiş və 1976-cı ildə "Şərəf nişanı" ordeni və Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunmuş, 1992-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Arif Babayev 1998-ci il iyun ayının 5-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Babayev Arif Əliheydər oğlu // Azərbaycan Milli Ensiklopediyası.- Cild 2.- Bakı, 2010.- S.582.

Abbasov, Z. Görkəmli alim, mahir pedaqoq / Zahid Abbasov // Azərbaycan.- 2010. - 13 yanvar.- S.5 .

Abbasov, Z. Uğurların təməlində istedad və zəhmət dayanırsa / Zahid Abbasov // Xalq qəzeti.- 2010.- 3 fevral.- S.7.

Боголюбов, А.Н. Математики Механики / А.Н. Боголюбов. - Киев, Наукова думка, 1983.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Arif_Babayev_(riyaziyyatçı)

http://www.anl.az/down/meqale/azerbaycan/2010/yanvar/103140.htm

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3295

Ramiz Rizayev – 85

(1939)

Akademik



Ramiz Həsən Qulu oğlu Rizayev 1939-cu il noyabr ayının 2-də Naxçıvan şəhərində anadan olmuşdur.

1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsini bitirmiş, 1962-1973- cü illərdə AMEA-nın Neft Prosesləri İnstitutunda elmi işçi və baş elmi işçi, 1973-1985-ci illərdə laboratoriya müdiri, 1985-1993-cü illərdə AMEA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun direktoru vəzifələrində işləmişdir.

1965-ci ildə kimya üzrə fəlsəfə doktoru və 1974-cü ildə kimya üzrə elmlər doktoru elmi dərəcəsi, 1978-ci ildə isə professor adını almışdır.

1983-cü ildə AMEA-nın müxbir üzvü, 2001-ci ildə həqiqi üzvü seçilmişdir.

Azərbaycan Dövlət Universitetində fiziki-kimya fənnindən dərs demişdir. AMEA Akad. M.F.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda baş elmi işçisidir.

1993-cü ildə Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri, 1994-cü il 15 avqust tarixindən səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin edilmişdir. 2005-ci ildə vəzifəsindən geri çağırılmışdır.

Əsas tədqiqatları aromatik birləşmələrin oksidləşdirici ammonoliz reaksiyalarının nəzəri və tətbiqi problemlərinin həllinə aiddir. Onun rəhbərliyi ilə keçmiş SSRİ-də ilk dəfə benzonitrilin, ftalonnitrilin və tereftalonnitrilin texnologiyası hazırlanmış və tətbiq edilmişdir. Bu maddələr əsasında yeni növ plastik kütlələr, sintetik qətranlar, boyalar, stabilizatorlar və s. istehsal edilir.

Rizayev 280-dən çox elmi əsərin, o cümlədən 50 müəlliflik şəhadətnaməsi və 30 xarici patentin, 1 monoqrafiyanın müəllifidir.

Rizayev Rizayevin rəhbərliyi ilə 7 elmlər doktoru və 26 fəlsəfə doktoru hazırlanmışdır.

R.Rizayev keçmiş SSRİ EA-nın "Kataliz" Elmi Şurasının üzvü, SSRİ Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyasının üzvü, neft-kimya üzrə ekspert şurasının və "Neft-kimya" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. R.Rizayev Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı, "Əmək rəşadətinə görə" medalı ilə təltif olunmuşdur..

Akademikin ixtiralarına ABŞ, Yaponiya, Fransa, İngiltərə, AFR, Belçika və s. ölkələrin 30-dan çox patenti verilmişdir. Əsərləri mötəbər xarici jurnallarda çap olunmuşdur. Rumıniyada, AFR-da, Niderlandda, İsveçdə keçirilən elmi məclislərdə məruzələr etmişdir. Kimya sənayesi sahəsində əməkdaşlıq üzrə keçmiş Sovet-Niderland işçi qrupunun üzvü olmuş (1981-1991), "AKZO" konserninin (Niderland) Mançestr və Amsterdamdakı elmi mərkəzləri, Almaniyanın Leypsiq və Hindistanın Heydərabad Universitetləri ilə birgə tədqiqatlar aparmışdır.

Ramiz Rizayev 280-dən çox elmi əsərin, Xaricdə çıxmış elmi əsərlərinin sayı 71, o cümlədən 50 müəlliflik şəhadətnaməsi və 30 xarici patentin, 1 monoqrafiyanın müəllifidir. Rəhbərliyi ilə 7 elmlər doktoru və 26 fəlsəfə doktoru hazırlamışdır.

R.Rizayev keçmiş SSRİ EA-nın "Kataliz" Elmi Şurasının üzvü, SSRİ Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyasının üzvü, neft-kimya üzrə ekspert şurasının və "Neft-kimya" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. R.Rizayev Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı, "Əmək rəşadətinə görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Aromatik nitrillərin istehsalında heterogen katalizi / Ramiz Rizayev.- Bakı: Elm, 1992.

Şahtaxtinski, T. Kimya elminin tanınmış nümayəndəsi / T. Şahtaxtinski // Azərbaycan.- 2009.- 5 dekabr.- S.7.

Ramiz Rizayev Həsən Qulu oğlu // Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.481-48.

Ризаев Р.Г., Шейнин В.Е., Сардарлы А.М. Реакционная способность ункциональнозамещенных алкилароматических углеводородов вогеннокаталитическом окислительном аммонолизе. Сборник статьей II Международная конф. "Техническая химия. От теории к практики", г.Пермь, 2010, т.1, стр. 436-439

İnternetdə:

https://science.gov.az/az/forms/deystvitelnyie-chlenyi/63

https://nakhchivan.preslib.az/az_b4.html

Solmaz Sadıqova – 65

(1959)

Biblioqrafiyaşünas



Solmaz Azay qızı Sadıqova 1959-cu il noyabr ayının 5-də Zərdab şəhərində anadan olmuşdur. 1976-cı ildə Zərdab şəhər 1 saylı orta məktəbi bitirmişdir. 1980-1985-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaçılıq fakültəsində təhsil almışdır. 1995-1999-cu illərdə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasında doktorant (qiyabi) olmuşdur.

2011-ci ildə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Azərbaycan mətbuatının (kitab və dövri nəşrlər) biblioqrafik repertuarı: tarixi, müasir vəziyyəti və perspektivləri (1959-2000-ci illər)" mövzusunda dissertasiyasını müdafiə etmişdir və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 1985-ci ildə F.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasında böyük kitabxanaçı, elmi katib, 1986-1994, Elmi-metodika şöbəsinin müdiri işləmişdir. 1985-1989-cı illərdə Bakı şəhəri, Nəsimi rayon kitabxanaları üzrə Birləşmiş Partiya Təşkilatının katibi olmuşdur, 1987-1989-cu illərdə Azərbaycan KP MK yanında Partiya – təsərrüfat fəalları fakültəsi, ideoloji iş şöbəsini bitirmişdir. 1994-cü ildə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasında baş laborant, 2004-cü ildən Bibliorafiyaşünaslıq kafedrasının müəllim olmuşdur. 2006-2009-cu illərdə Kitabxanaçılıq-informasiya fakültəsində dekan müavini vəzifəsində çalışmışdır. 2008-ci ildən Bibliorafiyaşünaslıq kafedrasının baş müəllim, 2015-ci ildən Bibliorafiyaşünaslıq kafedrasında tam ştat dosent əvəzi, 2016-cı ildən Bibliorafiyaşünaslıq kafedranın dosenti olmuşdur. 2017-ci ildən 2021-ci ilədək Elmlər doktorantı proqramı üzrə doktorant olmuş, "İnformasiya cəmiyyəti şəraitində Azərbaycan kitabxanalarında biblioqrafik fəaliyyətin innovativ formaları və elmi metodları (Azərbaycan Respublikası elmi və sahəvi kitabxanalarının materialları əsasında)" mövzusunda doktorluq dissertasiyası işini uğurla başa çatdırmışdır. İşlədiyi müddətdə Moskva və Kiyev şəhərlərində elmi ezamiyyətlərdə və eləcə də respublikamızın müxtəlif bölgələrində əməli və metodiki ezamiyyətlərdə olmuşdur. BDU-nun YAP Qadınlar Şurası Rəyasət Heyətinin üzvüdür. Solmaz Sadıqova magistratura pilləsində "Milli ideologiyaya dair ədəbiyyatın biblioqrafiyası" və "Humanitar ədəbiyyatın biblioqrafiyası", bakalavr pilləsində "Biblioqrafiyaşünaslıq", "Sosial-siyasi informasiya resursları" (Azərbaycan və ingilis bölməsində), Xarici biblioqrafiya", Azərbaycan biblioqrafiyasının tarixi", "Kitabxanada biblioqrafiya işinin təşkili və metodikası", "Uşaq və gənclər ədəbiyyatının biblioqrafiyası" və s. fənləri tədris edir. 190-dan çox elmi əsərin - 1 qrant qalibi, 28 kitab, Azərbaycan, rus və ingilis dillərində elmi məqalə və tezislərin, fənn proqramlarının, 1 monoqrafiyanın, 2 dərs vəsaitinin və s. müəllifidir. Bir sıra biblioqrafik əsərlərin, o cümlədən Ümummilli Liderimiz Heydər Əliyevə həsr edilmiş 3 dildə çap olunmuş biblioqrafik məlumat kitabının həmmüəllifidir. 2002 və 2016-cı illərdə BDU rektorluğunun təşəkkürnaməsinə, 2002, 2013 və 2018-cü illərdə fəxri fərmanına layiq görülmüşdür. Bakı Dövlət Universitetinin 90 illiyi münasibətilə Səmərəli elmi-pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Fəxri Fərman"ı ilə təltif edilmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Yüksək ixtisaslı kadrların hazırlanması sahəsində səmərəli pedaqoji fəaliyyətinə görə və fakültənin 50 illik yubileyi münasibətilə "Fəxri Fərman"la təltif edilmişdir. 2019-cu ildə BDU-nun 100 illik yubiley medalı ilə və "Uzun müddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində xidmətlərinə, Universitetin ictimai həyatında fəal iştirakına görə və 60 illik yubileyi münasibətilə BDU-nun "Fəxri Fərman"ına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan milli biblioqrafiyası qlobal informasiya məkanında: (monoqrafiya) / Solmaz Sadıqova; elmi red.: A. A. Xələfov, Z. H. Əliyev ; red. A. Sadıqlı.- Bakı: [ADPU], 2018.- 304, [1] s.

Sosial-siyasi informasiya resursları: dərs vəsaiti / Solmaz Sadıqova; elmi red. N. İsmayılov; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: Mütərcim, 2016.- 124, [2] s.

Azərbaycanda sosial-siyasi elmlər üzrə sənəd axını və cəmiyyətin informasiya təminatında onun rolu / Solmaz Sadıqova; F.Nağıyeva // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal.- 2021.- №1(48).- S.92-103.

Kitabxana-informasiya müəssisələrində biblioqrafik xidmətin modern formaları / Solmaz .Sadıqova // "Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meyilləri" mövzusunda Respublika elmi konfransının materialları, 7 may 2021-ci il / Bakı Dövlət Universiteti.- 2021.- S.56-57.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi – 85 *(1939)*



Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi – Bakıda yerləşən elmi tədqiqat müəssisəsidir. Muzey Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1 noyabr 1939-cu il tarində Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr olunmuş daimi sərgi xatirə muzeyinin təşkili haqqında 4972 №-li sərəncamı ilə yaradılmışdır. Amma muzeyin açılışı 1945-ci il may ayının 14-də olmuşdur.

Muzeyin binası 1860-cı illərdə ikimərtəbəli karvansaray kimi tikilmişdi. Binanın memarı Qasım bəy Hacıbabəyov olmuşdur. 1915-ci ildə bina "Metropol" mehmanxanası kimi fəaliyyət göstərmişdir. Sonralar 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının Nazirlər Kabinetinin əməkdaşları burada yaşamışlar və işləmişlər, 1920-1930-cu illərdə Azərbaycan Həmkarlar İttifaqları Şurası burada yerləşdirilmişdir.

Memarlar Sadıq Dadaşov və Mikayıl Üseynovun layihəsi çərçivəsində əsaslı təmir işləri aparılmış, baş fasadda heykəllər quraşdırılmış və daha iki mərtəbə tamamlandı. Binanın fasadında Azərbaycanın görkəmli şairləri və yazıçılarının heykəlləri quraşdırılmışdır. Məhəmməd Füzuli (heykəltəraş F. Əbdürrəhmanov), Molla Pənah Vaqif (heykəltəraş C. Qaryağdı), Mirzə Fətəli Axundov (heykəltəraş P.Sabsay), Xurşidbanu Natəvan (heykəltəraş E. Tripolskaya), Cəlil Məmmədquluzadə (heykəltəraş N. Zaxarov) və Cəfər Cabbarlı (heykəltəraş S.Klyatsky). Muzeyin interyeri Lətif Kərimov tərəfindən bəzədilmişdir. Sonradan Nizami xatirə muzeyi Azərbaycan Ədəbiyyatı Muzeyinə çevrilmişdir. 1959 və 1967-ci illərdə muzey hərtərəfli bərpa edilmiş, genişlənmişdir. 2004-2009-cu illərdə təmir və restovrasiya olunmuşdur. Sərginin sahəsi 2500 kv. metrədək artmışdır.

AMEA-nın tərkibində olan Azərbaycan Ədəbiyyat muzeyi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır. Muzey 1959 və 1967-ci illərdə xeyli genişləndirilmiş və yenidən qurulmuşdur. Azərbaycan ədəbiyyatına və mədəniyyətinə aid materialların toplanması, tədqiqi, elmi fondlarda qorunması, ekspozisiyada və sərgilərdə nümayiş etdirilməsi ilə məşğul olur.

Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan ədəbiyyatının ən qədim dövrlərdən müasir dövrə qədər keçmiş olduğu yol işıqlandırılır. Muzeydə müxtəlif sənədlər, əlyazmalar, kitablar və s. ilə yanaşı, qədim və orta əsrlər dövrünə aid maddi mədəniyyət nümunələri, rəsm və heykəltaraşlıq əsərləri nümayiş etdirilir. Ədəbiyyat tarixi muzeyi 30 ekspozisiya zalından, 10 əsas şöbə, 2 regional filial, elmi fond və s. ibarətdir.

Nizami muzeyində ardıcıl olaraq Nizami lektoriyaları, elmi seminarlar, mühazirələr, tanınmış ictimai, elm və mədəniyyət xadimləri ilə görüşlər təşkil edilir.

2020-ci ildə Azərbaycan Milli Kitabxanası Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illiyi münasibət ilə "Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi" adlı sərgini virtual rejimdə istifadəçilərə təqdim etmişdir.

Ədəbiyyat:

Bəşirli, X. Nizami Muzeyinin müasir elmi şəkli: Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi - 80 /Xatirə Bəşirli //Elm. - 2020. - 6 noyabr.- S.7.

Qəhrəmanova, N. Milli Azərbaycan Ədəbiyyatı Muzeyi-80 il /Nərgiz Qəhrəmanova //Ədalət. – 2019. - 12 iyun. - S.6.

Nizami Muzeyinin müasir elmi şəkli: Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi - 80 / Xatirə Bəşirli//Elm. - 2020. - 6 noyabr. - S.7.

Hüseynov, R. Söz məbədi. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi: [İzomaterial] / mətnin müəl. və tərt. R. Hüseynov; rəssam S. Şatikov; Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.- Bakı: [Araz], 2009. 47, [1] s.

Məmmədli, Y. Muzeyləşən tariximiz / Y.Məmmədli // Təzadlar.- 2009.- 19-21 may.- S. 7.

Sərvaz. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin ictimaiyyət üçün açılışı oldu / Sərvaz // Ədəbiyyat qəzeti.- 2009.- 15 may.- S. 3, 4.

Zəfər Günü
(2020)



Ədəbiyyat:

8 Noyabr - Zəfər Günü: metodik vəsait: Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait / Azərbaycan Respublikası, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. A. Məmmədova; ixtisas red. K. M. Tahirov; red. L. Əhmədova.- Bakı: [Azərbaycan Milli Kitabxanası].- 2021.

Novruzov, A. Zəfər salnaməsinin 44 günü / Asəf Novruzov (layihə. rəhb. və tərt. müəl.); red. S. Hüseynov; [ön söz F. Əliyev; dizayn V. Hüseyn].- Bakı: [Maarif], 2021.- 318, [2] s.

8 Noyabr - Zəfər Günü münasibətilə bəyanat // Azərbaycan.- 2021.- 11 noyabr.- S.13.

Atakişiyev, M. Şərəf günü / Müşfiq Atakişiyev // Azərbaycan.- 2023.- 8 noyabr. - S.16.

İnternetdə:

https://copat.gov.az/az/news/8-noyabr-zafar-gunudur

https://az.wikipedia.org/wiki/Zəfər_Günü_(Azərbaycan)

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etmişdir.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir.

Rəşadətli Azərabaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edilmişdir. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olmuşdur.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından qurtarılması müharibənin taleyində həlledici rol oynamışdır. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli digər Sərəncamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması qərara alınmışdır.

19-20 sentyabr 2023-cü ildə Azərbaycan ordusunun keçirdiyi lokal xarakterli antiterror əməliyyatının nəticəsində 29 sentyabrdan Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırmışdır. 8 noyabr 2023-cü ildə Xankəndi şəhərində təntənəli zəfər paradı keçirilmişdir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev parada qatılmışdır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport vermiş, Dövlət başçısı şəxsi heyəti salamlamışdır. Daha sonra Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin xatirəsi bir dəqiqə sükutla yad olunmuşdur. Ardınca Azərbaycanın Dövlət Himni səsləndirilmiş və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etmişdir.

Hər il Azərbaycan Milli Kitabxanası tərəfindən Zəfər Günü münasibətilə "8 Noyabr – Zəfər Günü" adlı kitab sərgisi, virtual sərgi və "Zəfər günü şanlı tariximizdir!", "Zəfərin mübarək Azərbaycan əsgəri" adlı elektron məlumat bazası hazırlanıb istifadəçilərə təqdim edilir.

Şuşa Şəhəri Günü
(2023)



Ədəbiyyat

Nəciyev, E. Şuşa ABŞ və Böyük Britaniya mətbuatında: 1827-1915-ci illərə aid qəzet materialları əsasında /Elnur Nəciyev, Ədibə İsmayılova; layihə rəhb. və ön söz. müəl. K. Tahirov; red. G.Nəciyeva. - Bakı: [Azərbaycan Milli Kitabxanası], 2022. – 82 s.

Şuşa - Azərbaycanın mədəniyyət paytaxtı: bibliooqrafiya : Şuşanın erməni işğalından azad edilməsinə həsr olunur /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. ed. X.Abbasova; elmi red. K.Tahirov; red. E. Nəciyev.- Bakı: [Zərdabi-Nəşr], 2021.- 598 s.

Şuşa tarixi mənbələrdə: Biblioqrafiya : Şuşanın 270 illiyinə həsr olunur / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. X.Abbasova; elmi red. K.Tahirov.- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2022.- 630 s.

Abdullayev, M. Şuşa qeyrət və qürur qalası / Məsaim Abdullayev // Xalq qəzeti. 2023.- 8 noyabr. S.11.

Qəniyev, E.Hər günü mübarək Şuşa! / Elşən Qəniyev // Azərbaycan. 2023.14 may.- S.6.

Prezident İlham Əliyevin 2023-cü il iyul ayının 31-də imzaladığı sərəncama əsasən, hər il noyabr ayının 8-i Şuşa Şəhəri Günü kimi qeyd ediləcəkdir.

Şuşa 2020-ci il noyabr ayının 8-də Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən düşmən tapdağından azad olunmuş, şəhərin mərkəzinə Azərbaycanın üçrəngli bayrağı sancılmış, Prezident Şəhidlər xiyabanından xalqa müraciətində şəhərin işğaldan azad olunduğunu elan etmişdir.

Şuşa döyüşləri zamanı Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri şəhərə bir çox istiqamətdən yaxınlaşmaq üçün yüz nəfərlik qruplara bölünərək, sıx meşələri, keçilməz yarğanları və çətin dağ keçidlərini aşaraq yüngül silah-sursat ilə noyabr ayının 7-də Şuşaya daxil olmuş, qızğın küçə döyüşləri apararaq noyabrın 8-də şəhəri düşməndən azad etmişdir.

Şuşa şəhəri 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 22 min əhalisi məcburi köçkün kimi Azərbaycanın müxtəlif bölgələrində yerləşmişdir. Şuşanın işğalı zamanı 195 nəfər həlak olmuş, 165 nəfər yaralanmış, 55 nəfər əsir götürülmüşdür.

Şəhər azadlığına qovuşandan sonra orada bərpa, quruculuq və yenidənqurma işlərinə, infrastrukturun bərpasına start verilmiş və burada ölkə əhəmiyyətli açılışlar həyata keçirilmiş, yeni məktəb, məscid, xəstəxana və digər əhəmiyyətli obyektlərin, eləcə də yaşayış binalarının inşasına başlanılmışdır.

2021-ci ilin may ayında 7-də Prezident İlham Əliyevin sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş, may ayının 12-13-də Şuşa şəhərindəki Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı keçirilmişdir. 2022ci il yanvar ayının 5-də Prezident İlham Əliyev Azərbaycanda 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncam imzalamışdır.

2023-cü il sentyabr ayının 25-də Qətərin Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransı iştirakçılarının yekdil rəyi ilə Şuşa 2024-cü il üçün İslam dünyasının paytaxtı elan olunmuşdur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 noyabr 2023-cü ildə "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır.

2023-cü il sentyabr ayının 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra ərazilərimiz separatçılardan təmizlənməklə orada yaşayan əhalinin təhlükəsizliyi təmin olunmuşdur.

2023-cü ilin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOYun 30 illik yubileyləri münasibətilə Şuşada TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının 9-cu iclası keçirilmişdir. 2023-cü il noyabr ayının 3-də Astanada Türk Dövlətləri Təşkilatının (TDT) "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə qəbul edilmiş Bəyannamədə TDT-nin dövlət və hökumət başçıları Azərbaycanın 2024-cü il aprelin sonu və ya mayın əvvəlində Şuşada TDT dövlət başçılarının qeyri-rəsmi toplantısının təşkili təklifini qəbul etmişdir.

Son üç il ərzində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə Şuşa şəhərində səfərdə olmuş, orada həyata keçirilən təmir, bərpa və yenidənqurma işləri ilə tanış olmuşlar. Hazırda Şuşada həyat canlanmaqdadır və şəhər öz sakinlərinin yolunu gözləyir.

Azərbaycan Milli Kitabxanası tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı Şuşa", "Qarabağın incisi Şuşa", "Biz səni dirçəldəcəyik əziz Şuşa" adlı elektron məlumat bazaları hazırlanıb istifadəçilərə təqdim olunmuşdur.

Digər tarixi hadisələr.

Dövlət Bayrağı Günü
(2009)



Dövlət Bayrağı Günü Prezident İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncamı ilə təsis edilmişdir. Həmin il dekabrın 4-də Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirmişdir.

Azərbaycanın dövlət bayrağı 1918-ci il noyabrın 9-da Cümhuriyyət Hökumətinin iclasında qəbul edilib. 1920-ci ilin aprelində Cümhuriyyətin süqutundan sonra endirilən üçrəngli bayrağımız 70 il sonra - 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyanın qərarı ilə Naxçıvan Muxtar Respublikasında yenidən ucaldılıb. Bundan bir qədər sonra - 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin qərarına əsasən həmin üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunub. Həmin il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını bərpa edib. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilib.

Ulu Öndər Heydər Əliyev Dövlət Bayrağımızı səciyyələndirərək deyirdi: "Azərbaycan Bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin"

Bayraq millətimizin, dövlətimizin şərəf və ləyaqətinin ifadəsidir. Azərbaycan xalqının milli düşüncəsində bayrağa xüsusi münasibət tarix boyu özünü qabarıq göstərib, bayraq xalqımızın milli mövcudluq nişanəsi sayılıb.

Dövlət Bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir.

2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı düşmən işğalından qurtararaq ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan əsgəri bayrağımızı 28 il həsrətində olduğumuz Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərlərində, Hadrut, Mincivan, Ağbənd qəsəbələrində, Suqovuşanda, işğaldan azad olunmuş 200-dən çox kənddə ucaldı.

Hər il Azərbaycan Milli Kitabxanası tərəfindən Dövlət Bayrağı Günü münasibətilə "Dövlət Bayrağı Günü" adlı virtual sərgi hazırlanıb istifadəçilərə təqdim edilir.

Ə d ə b i y y a t:

Sadıqov, T. Bütöv Azərbaycanda dalğalanan müqəddəs bayrağımız: Azərbaycan bayrağı Azərbaycan Respublikasının rəsmi simvollarından biridir. Bayrağımız ilk dəfə 9 noyabr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası tərəfindən təsdiq edilib / Tacir Sadıqov // Respublika.- 2023.- 9 noyabr, № 246.- S.1;7.

Kamal, M. Xalqımızın müstəqillik, dəyanət və qürur rəmzi / Mustafa Kamal // Respublika.- 2023.- 9 noyabr, № 246.- S.7.

Sadıqlı, F. Bayraq Günün mübarək, qalibiyyət bayraqlı Azərbaycan! / Flora Sadıqlı Azərbaycan $g 2023.- 9 noyabr. - S.12.

Rzayeva, M. Bayrağımız zəfərimizin son nidasıdır!: Xankəndidə dalğalandıqdan sonra daha da möhtəşəm görünür / Məlahət Rzayeva // Şərq.- 2023.- 8 noyabr, №205.- S.6.

Konstitusiya Günü
(1995)



Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir. 1996-cı il fevral ayının 6-da Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə noyabrın 12-i Konstitusiya Günü elan edilmişdir.

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunmuşdu. 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiya da, əvvəlki konstitusiyalar kimi, SSRİ Konstitusiyasına uyğunlaşdırılmışdı.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. Azərbaycan Konstitusiyası 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir.

Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30, 2016-cı il sentyabrın 26-da 29 maddəsinə 41 əlavə və dəyişiklik olunub.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tarixi Qələbənin qazanılması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması Konstitusiyamızın ölkəmizin bütün ərazisində tətbiqinə imkan yaradıb. Bu Qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra beynəlxalq hüququn prinsip və tələbləri yerinə yetirilib və işğaldan azad edilmiş ərazilərdə Konstitusiyanın hüquqi qüvvəsi təmin olunub.

Hər il Azərbaycan Milli Kitabxanasında "12 noyabr- Konstitusiya Günüdür" adlı kitab sərgisi və virtual sərgi hazırlanıb istifadəçilərə təqdim edilir.

Ədəbiyyat:


Azərbaycan Respublikasının Konstitusiyası / buraxıl. məsul B. C. Kərimli.- Bakı: [Hüquq Yayın Evi, 2023.- 115, [1] s.

Cəfərli, R. Konstitusiyamız artıq bütün Azərbaycan ərazisində qüvvədədir: Böyük Zəfər dövlətimizin konstitusion əsaslarını da tam təmin etdi / Rəşad Cəfərli // Azərbaycan.- 2023.- 9 noyabr, №246- S.11.

Mirzəbəyli, İ. Müstəqil dövlətin manifesti: 12 Noyabr Azərbaycan Respublikasının Konstitusiyası Günüdür / İttifaq Mirzəbəyli // Xalq qəzeti.- 2023.- 9 noyabr.- S.6.

Səfərli, R. Milli dəyərlərə söykənən Ali Qanunumuz / Rüstəm Səfərli // Azad Azərbaycan.- 2023.- 16 noyabr.- S.5.

Beynəlxalq Tolerantlıq Günü
(1995)



16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür. Beynəlxalq Tolerantlıq Günü 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilmişdir.

Bu günün təsis edilməsində məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını birbirinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Sivilizasiyaların qovuşduğu, şərq və qərb mədəniyyətlərinin çuğlaşdığı Azərbaycanda daim müxtəlifliyə, fərqliliyə hörmət, dinindən, dilindən, irqindən asılı olmayaraq bütün insanlara eyni isti münasibət, eyni rəğbət olub. Bu, özünü xalqımızın əsrlərdən gələn ədəbiyyat nümunələrində, bədii və fəlsəfi fikir tarixində də göstərir.

Azərbaycan indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır.

Bu müdrik addım indi də Ulu Öndərin siyasətinin məntiqi davamı olaraq ölkə prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətə öz töhfələrini verir. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam həmrəyliyi ili" elan edilməsi ölkəmizdəki bütün xalqların qədimdən multikultural ənənələrin hakim olduğu mühitdə mehriban yaşadığını bir daha sübut edir.

Azərbaycan dövləti, eyni zamanda vətəndaşının öz milli adət-ənənələrini davam və inkişaf etdirməsinə, eləcə də dini ayinlərin icrasına hər cür şərait yaradıb. Məmləkətimizdə tarix boyu müxtəlif dinlər - bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və digər dinlər yayılıb. O da bəllidir ki, dini tolerantlıq cəmiyyətdə həmrəylik yaratmaqla dini sabitliyi möhkəmləndirən vacib amillərdən biridir. Müxtəlif sivilizasiyaların qovuşduğu, ayrı-ayrı dini görüşlərin formalaşdığı Azərbaycanda dinlər arasında qarşılıqlı etimad mühiti mövcuddur. Dini tolerantlığın qorunması müstəqil Azərbaycanın dövlət siyasətində mühüm yer tutur. Bu sahədə həyata keçirilən işlər dini sabitliyin möhkəmlənməsində böyük əhəmiyyət daşıyır.

Ayrı-ayrı milli-etnik qrupların və dinlərin nümayəndələrinin bir amal, bir məfkurə - azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşmələri ölkəmizdə tolerant dəyərlərin inkişafına böyük təkan verir.

Xalqımızın sahib olduğu multikultural dəyərlərin dünyaya təqdim edilməsində Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezident Mehriban Əliyevanın böyük əməyi var.

Ədəbiyyat:

Qurbanova, L. Tolerantlıq – Azərbaycanın böyük mənəvi sərvəti: 16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür / Leyla Qurbanova // Xalq qəzeti.- 2023.- 16 noyabr.- S.9.

Rəhimli, S. Tolerantlığın Azərbaycan modeli : Bu gün Beynəlxalq Tolerantlıq Günüdür / Səidə Rəhimli // Yeni Azərbaycan.- 2022.- 16 noyabr.- S.8.

Nəcəfxanlı, Ə. Tolerantlığın qorunduğu Azərbaycan: 16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür / Əli Nəcəfxanlı // Xalq qəzeti.- 2022.- 16 noyabr.- S.11.

Fərəcova, Z. Uğurlu inkişafın, sabitliyin təminatı: 16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür / Zöhrə Fərəcova // Azərbaycan.- 2022.- 16 noyabr.- S.8.

Milli Dirçəliş Günü
(1992)



17 Noyabr – Milli Dirçəliş Günüdür. Azərbaycan xalqı keşməkeşli, mübarizələrlə dolu tarixi yol keçərək azadlıq, müstəqillik, dirçəliş yoluna qovuşa bilmişdir. Qeyd etdiyimiz Milli Dirçəliş Günü də, məhz xalqın istəklərini reallaşdırmaq məqsədindən güc almış, bu gün xalqın ona edilən ədalətsizliyə qarşı yumruq kimi birləşmək qüdrətində olduğunu sübut etmişdir.

Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı anti-Azərbaycan siyasəti nəticəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda anti-sovet xalq hərəkatı təşəkkül tapdı və 17 noyabr 1988-ci ildə Bakının əsas meydanı sayılan Azadlıq meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqləri başladı. Qeyd edək ki, Ermənistanda və Qarabağın dağlıq hissəsində Azərbaycan xalqına qarşı yönəldilmiş soyqırımı sovet ordusu tərəfindən dəstəklənirdi. O zamankı SSRİ rəhbərliyi məkrli qonşularımız ermənilərlə əlbir olub Dağlıq Qarabağı işğal edərək Ermənistanın nəzarətinə verməsi istiqamətində atdığı addımlar xalqın səbir kasasını daşırmışdı. Xalqımız imperiya buxovlarından, əsarət zəncirindən azad olmaq istəyirdi. Azərbaycanda meydan hərəkatı geniş vüsət aldı. Bu milli hərəkat xalqın dirçəlişiydi. Xalq hərəkatı təkcə Bakıda deyil, Naxçıvan, Gəncə və Lənkəranda da kütləvi xarakter aldı. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejimini Azərbaycandan süpürüb atmaq təhlükəsi yaratmışdı.

Bundan qorxuya düşən imperiya başçıları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Komendant saatı tətbiq olundu. Lakin xalq geri çəkilmədi. Sovet rejimindən Ermənistanda və Qarabağın dağlıq hissəsində erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "Meydan hərəkatı" tezliklə Azərbaycanı müstəqilliyə çağıran şüarlara keçdi. Azərbaycanda bu hadisələr milliazadlıq hərəkatı kimi qiymətləndirilir və respublikamızın istiqlaliyyət qazanmasında əsas amil sayılır. Dekabrın 4-dək 18 gün aramsız davam edən aksiyalara 1 milyonadək insan toplaşmışdı. Bu, keçmiş Sovet İttifaqında ən genişmiqyaslı kütləvi çıxışlar idi.

1988-ci ilin 17 noyabrında başlanan kütləvi çıxışlar Azərbaycanın tarixinə milli dirçəliş aksiyaları kimi düşdü. 17 noyabr bir daha göstərdi ki, bütün ciddi-cəhdlərə baxmayaraq, azad yaşamaq üçün xəlq olunmuş milləti müstəmləkə boyunduruğu altında saxlamaq qeyri-mümkündür. Zəngin tarixə malik xalqımız artıq neçə ildir ki, Milli Dirçəliş Gününü bayram kimi qeyd edir və bu günün qeyd olunması bütün Azərbaycan xalqının mənəvi haqqıdır.

Ədəbiyyat:


Abdalov, N. Milli dirçəlişdən tərəqqiyə uzanan yol / Nurlan Abdalov // Respublika.- 2023.- 17 noyabr.- S.1;4.

Möhbaliyev, S. Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayraq:İlham Əliyev indi onu bütün Azərbaycanda Zəfər qüruru ilə dalğalandırır / Səttar Möhbaliyev // Azərbaycan.- 2023.- 17 noyabr. - S.4.

Məmmədova, M. Milli dirçəlişdən müstəqilliyə... : 17 Noyabr Milli Dirçəliş Günü / Mətanət Məmmədova // Səs.- 2022.- 17 noyabr.- S.8-9.

İsmayılqızı, X. Müstəqilliyimiz dönməzdir, əbədidir...: 17 noyabr - Milli Dirçəliş Günüdür / Xuraman İsmayılqızı // İki sahil.- 2022.- 17 noyabr.- S.5.

Qarakənd faciəsi (1991)



Qarakənd faciəsi və ya 20 noyabr faciəsi – 1991-ci ildə Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində hərbi vertolyotun erməni quldurları tərəfindən vurulduğu gündür. Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyo- tu 1991-ci il noyabrın 20-də saat 14:42 radələrində vurulmuşdu. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatmış, lakin nə qədər maraqlı olsa da bu faciə haqqında xəbər Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verlişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün bu məlumatı saat 16:15-də Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlamışdı.

1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi helikopterinin erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – dövlət katibi Tofiq Kazım oğlu İsmayılov, Baş prokuror İsmət İsmayıl oğlu Qayıbov, dövlət müşaviri Məhəmməd Nəbi oğlu Əsədov, Baş nazirin müavini Zülfi Saleh oğlu Hacıyev, deputatlar Vaqif Cəfər oğlu Cəfərov və Vəli Hüseyn oğlu Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Hüseyn oğlu Mirzəyev, nazir müavini Qurban Hüseyn oğlu Namazəliyev, DQMV-nin prokuroru İqor Aleksandroviç Plavski, DQMV Daxili İşlər İdarəsinin rəisi Vladimir Vladimiroviç Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey Semyonoviç İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Vladimiroviç Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Dasumoviç Serikov, milis general-mayoru Mixail Dmitriyeviç Lukaşov, polkovnikleytenant Oleq Nikoloyeviç Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmməd oğlu Məmmədov, telejurnalist Alı Mustafa oğlu Mustafayev, AzTV-nin işıqçısı Arif İsmayıl oğlu Hüseynzadə, video-operator Fəxrəddin İbrahim oğlu Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Vladimiroviç Kotov, heyət üzvləri Gennadi Vladimiroviç Domov, Dmitri Borisoviç Yarovenko həlak olmuşlar.

Əvvəlcə rəsmi olaraq helikopterin dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, bir neçə gündən sonra onun vurulması faktı təsdiqlənmişdir.

Bu sui-qəsd erməni quldur dəstələrinin törətdiyi cinayətlərin qarşısını almağa çalışan Azərbaycanın yüksək çinli dövlət nümayəndələrinə qarşı törədilmişdir. Üstündən 30 ildən də çox vaxt keçməsinə baxmayaraq, hadisə ilə bağlı bir sıra qaranlıq məqamlara bu günə qədər aydınlıq gətirilməmişdir. Aviaqəzalarda bütövlüyünü saxlayan və zədəsiz qalan qara qutudakı lentin "yanması" da qaranlıq məsələ olaraq qalmışdır.

Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Proku- rorluğu tərəfindən cinayət işi açılmış, istintaqın aparılması Respublika Prokurorluğuna verilmişdir. Sonradan cinayət işi üzrə istintaq dayandırılmışdır. Səbəb hadisənin baş verdiyi ərazinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmasıdır. Cinayəti törədən şəxsləri müəyyənləşdirmək mümkün olmamışdır.

Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi.

Ədəbiyyat:

Qasımzadə, J. Erməni məkri, Qarakənd faciəsi / Jalə Qasımzadə // Respublika.- 2023.- 19 noyabr, № 252.- S.1;7.

Alıoğlu, S. Beynəlxalq miqyaslı sui-qəsd / Salman Alıoğlu // Respublika.- 2023.- 19 noyabr.- S.7.

Ələddinqızı, N. Terrorun acı üzü: Qarakənd faciəsi / Nəzakət Ələddinqızı // Səs. 2022.- 19 noyabr.- S.8.

Əmircanov, P. Qarakənd faciəsi – 31 ilin müəmması / Paşa Əmircanov // Xalq qəzeti.- 2022.- 20 noyabr.- S.4.

Ümumdünya Uşaq Hüquqları Günü
(1954)



1954-cü ildə BMT-nin Baş Assambleyası 836 (IX) saylı qətnaməsinə əsasən noyabrın 20-i Ümumdünya Uşaqlar Günü (Universal Children's Day) kimi qəbul etmişdir.

Uşaq hüquqları - insan hüquqları anlayışının bir hissəsi kimi bütün uşaqların doğulduqları gündən qanunla sahib olduqları təhsil, sağlamlıq, sığınma, fiziki, psixoloji və ya cinsi istismara qarşı qorunma kimi hüquqlarının təyinində istifadə edilən universal anlayışdır.

Uşaqların fərqli fiziki, fizioloji, davranış və xüsusiyyətləri olduğu, davamlı böyümə və inkişaf göstərdiyi, hərtərəfli yetişməsinin bir cəmiyyət problemi olduğu və elmi yanaşmalarla hər kəsin bu məsuliyyəti yüklənməsinin vacibliyi nəzərə alınaraq 1959-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi "Uşaq Hüquqları Bəyannaməsi"ni qəbul etmişdir.

Uşaqların hüquqlarını qorumağa dair ən mükəmməl beynəlxalq sənəd 1989-cu il noyabrın 20-də BMT tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyası olmuşdur. 20 noyabr 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 54 maddədən ibarət "Uşaq Hüquqları Haqqında Konvensiya" qəbul edilmişdir.

Azərbaycanda uşaqlarla bağlı siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulubdur. Uşaqların keyfiyyətli təhsil almaları, yüksək dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilmələri, hərtərəfli qayğı ilə əhatə olunmaları, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda Ulu Öndərimiz Heydər Əliyevin ənənələrindən irəli gələn başlıca prinsiplərindəndir.

Heydər Əliyevin təşəbbüsü ilə bir sıra beynəlxalq konvensiya və protokollar ratifikasiya edilərək qüvvəyə minibdir. Belə ki, ölkəmiz 21 iyul 1992-ci ildə uşaqların yaşaması, inkişafı üçün zəruri olan mühüm standartların müəyyən edilməsi və hüquqlarının qorunması məqsədilə Uşaq Hüquqları Konvensiyasına qoşulubdur. Bundan başqa 1998-ci il 19 may tarixdə Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu, 1999-cu il 22 iyun tarixdə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanun, 2004-cü il 13 yanvar tarixdə "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair Konvensiyaya qoşulma barəsində", 2005-ci il 24 may tarixdə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının qanunları, 2009-cu ilin "Uşaq ili" elan edilməsi, Uşaqların cinsi istismarı və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanunları qəbul edilmişdir.


Uşaqlar Günü hər birimizə uşaqların hüquqlarını müdafiə etmək, onlara daha yaxşı bir dünya yaratmaq üçün ruhlandırıcı bir tarixdir. Dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda uşaqların hüquqları yüksək səviyyədə qorunur, onlar diqqət və qayğı ilə əhatə olunur.

Ədəbiyyat:

"Uşaq hüquqları tribunası" mövzusunda konfrans təşkil olunub // Azərbaycan.- 2023.- 18 noyabr.- S.5.

Əliyeva, İ. Ölkəmizdə uşaq hüquqları yüksək səviyyədə qorunur: 20 noyabr Ümumdünya Uşaq Günüdür / İradə Əliyeva // Azərbaycan.- 2014.- 20 noyabr.- S.8.

Ağdam Şəhəri Günü
(2023)



Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il sərəncamına əsasən 20 noyabr Ağdam şəhəri günü kimi qeyd olunacaqdır.

2020-ci il 20 noyabr tarixi Ağdamın azad olunduğu şanlı gün. Bu tarix yaddaşımızda həm kədərli, həm də sevincli bir təqvim kimi həkk olmuşdur.

1991-ci il noyabrın 20-də Ağdam yaxınlığındakı Qarakənd səmasında "Mi-8" hərbi vertolyotunun ermənilər tərəfindən vurulmasından 29 il sonra 44 günlük Vətən müharibəsi zamanı 10 noyabr 2020ci il tarixində Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçılarının imzaladıqları bəyanata əsasən, 2020ci il noyabr ayının 20də Ağdam rayonunun işğal olunmuş ərazisi Ermənistan ordusu tərəfindən boşaldılmış,27 ildən sonra şəhərdəAzərbaycanın üçrəngli bayrağı ucaldılmışdır.

Ağdam şəhəri və rayon 1993cü il iyul ayının 23dəerməni silahlı dəstələri tərəfindən işğal ediləndə bölgənin 1154 kvadrat kilometr, əhalisi 147000 nəfər olan ərazisinin 77, 4 faizi ermənilərin əlinə keçmiş, tarixi abidələr, qəbiristanlıqlar, yaşayış obyektləri, xəstəxanalar, kitabxanalar, məktəblər, idarə və müəssisələr darmadağın edilmişdir.128 min nəfər doğma ev-eşiyindən didərgin düşmüş, Azərbaycan iqtisadiyyatına 3 milyard manatdan çox ziyan dəymişdir. İşğaldan əvvəl Ağdamda 1898sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikilili-ri, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu olmuşdur. Ağdam düşmənlə döyüşlərdə 6 mindən çox şəhid vermiş, onlardan 16-sı Azərbaycanın Milli Qəhrəmanıdır.

Qalib sərkərdə kimi 2020ci il noyabr ayının 23də Ağdama səfər edən İlham Əliyev şəhərdə Azərbaycan bayrağını ucaltmış, Məkkədən gətirdiyi Qurani-Kərimi Ağdam məscidinə bağışlamışdır. 2021ci ilin may ayının 28-də şəhərin Baş PlanıPrezidentə təqdim olunmuşdur.

Baş plana əsasən Ağdamın əhalisinin 100 min nəfər təşkil edəcəyi, 1750 fərdi yaşayış evi olmaqla yanaşı, çoxmənzilli binalarda 23 min mənzilin olması ilə yanaşı, ərazisinin 23% -i meşə və park zonalarından (yaşıl zona) ibarət olmaqla 125 hektar meşə zolağı da salınması nəzərdə tutulmuşdur. Məşğulluğun davamlılığını təmin etmək üçün şəhərin yaxınlığında sənaye parkları, süni gölün yaradılması, şəhərdən keçəcək 2 kanalın üzərində keçid üçün körpülərin də inşa ediləcəyi planlaşdırılır. Tarixi mərkəz əsasən "İmarət" saray kompleksini, Qarabağ xanlarının məqbərəsini, Şahbulaq qalasını və yeni məscidi əhatə edəcəkdir. İşğal müddətində "Qafqazın Xerosiması", "Ruhlar şəhəri "adlandırılan yerdən artıq əsər-əlamət yoxdur.

Prezident İlham Əliyevin Ağdamadəfələrlə səfər edərək abadlıqquruculuq işləri ilə tanış olması, Ağdam üçün yeni dövrün başladığından və ağdamlılarıntezliklə öz doğma yurdlarına qayıdacaqlarından xəbər verir.

2023-cü il 24 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse prezident Mehriban Əliyeva Ağdam şəhərinə səfər etmiş, orada bir sıra yenidənqurma işləri ilə tanış olmuş, yeni tikiləcək yaşayış evləri və inzibati binaların təməlini qoymuşdur

Ədəbiyyat:

İsmayılova, S. Ağdam əvvəlkindən də gözəl olacaq / Səhər İsmayılova // Xalq qəzeti.2021. 3 iyun.S.4.

Baxşəliyev, R. Ağdamın Zəfər Günü:İlham Əliyev bir güllə atılmadan azad etdiyi Qarabağın giriş qapısını inkişaf və quruculuğun yeni rəmzinə çevirib / Rəşad Baxşəliyev // Azərbaycan. 2022. 20 noyabr. S.12.

Ələddinqızı, N. 27 il sonra Ağdamın işğalına son qoyuldu / Nəzakət Ələddinqızı //Səs.2021. 23 iyul. S.11.

İnternetdə:

https://tehsil.biz/news/az/67221/Noyabrn-20-si-Adam-hri-Gndr

https://www.anspress.com/bu-gun-agdam-s%C9%99h%C9%99ri-gunudur

https://astarainfo.az/2023/11/18/20-noyabr-agdam-s%C9%99h%C9%99ri-gunudur/

Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti - 110

(1914)



1914-cü ildə valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara yardım məqsədilə Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti yaradılmışdır. Cəmiyyətin təsisçisi fəal maarifçi Rəhilə Hacıbababəyova idi. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin idarə heyətinin sədri M.S.Tağıyeva, sədrin müavini Rəhilə Hacıbababəyova, katibi Əminə Ağayeva, xəzinədarı Pəri Topçubaşova olmuşdur.

Xeyriyyəçiliklə yanaşı, müsəlman qadınları arasında savadlılığı və maarifçiliyi yaymaq, şagirdlərə maddi yardım göstərmək cəmiyyətin başlıca məqsədinə çevrilmişdir. Nizamnaməsi hakimiyyət orqanları tərəfindən təsdiq edildikdən sonra, 1914-cü il noyabrın 21-də Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti məşhur neft milyonçusu Murtuza Muxtarovun həyat yoldaşı Liza xanım Muxtarovanın (Tuqanova) sədrliyi ilə fəaliyyətini davam etdirdi.

Cəmiyyət tərəfindən tez-tez müxtəlif tədbirlər həyata keçirilmiş, xəstə və yaralı əsgərlər, yetim və yoxsul uşaqlar köməksiz buraxılmırdı. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti Birinci Dünya müharibəsində əsir düşmüş yaralı türk əsgərlərinə də yardım göstərirdi.

Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti qızların oxuması, təhsil alması istiqamətində fəaliyyətə də başlamışdır. Cəmiyyətin maarifçilik sahəsində ən mühüm xidmətlərindən biri Bakıda yoxsul qızlar üçün peşə məktəbinin açması olmuşdur. 1917-ci ilin oktyabrından fəaliyyət göstərən məktəbdə 4 ümumtəhsil sinif və 6 peşə bölməsi yaradılmışdır. Burada türk dili, hesab, əl işi, biçmə və tikiş üzrə dərslər keçirilmişdir.

1918-ci ilin martında erməni daşnakları Bakıda soyqırımı törətdilər. O dəhşətli günlərdə məktəbin fəaliyyətini davam etdirmək mümkün olmamışdır. Ancaq cəmiyyətin həyata keçirdiyi digər xeyirxah əməllər kimi, qızlar üçün peşə məktəbi də unudulmadı...

1919-cu ilin əvvəllərində Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti məktəbi bərpa edilmişdir. Təhsil müəssisəsinin daha səmərəli fəaliyyət göstərməsi məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti cəmiyyətə 30 min manat vəsait ayırmışdır. Məktəb azərbaycanlı qızların savadlanmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında böyük rol oynamışdır.

1920-ci ildə, aprel ayında bolşeviklərin işğalından sonra Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti fəaliyyətini dayandırmışdır.

Ədəbiyyat:

Fərəcova, Z. Xeyirxahlıq...: Xeyriyyəçi qadınlarımız: [Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin fəal üzvləri haqqında] / Zöhrə Fərəcova // Azərbaycan.- 2019.- 27 dekabr.- S. 9.

Güməşli, H. Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti və "Qardaş köməyi" / Hüseyn Günəşli // Azərbaycan.- 2017.- 4 aprel.- S. 7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Bakı_Müsəlman_Qadın_Xeyriyyə_Cəmiyyəti

http://anl.az/down/meqale/azerbaycan/2019/dekabr/692713.htm

Azərbaycan Dövlət Teatr Muzeyi - 90

(1934)



C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi 1934-cü ildə yaradılmışdır. Muzeyin yaradıcısı və ilk direktoru görkəmli teatr xadimi Ağakərim Şərifov olmuşdur. Muzey 1935-ci ildən Azərbaycanın dahi dramaturqu Cəfər Cabbarlının adını daşıyır.

Bu gün muzeyin əsas fondunda 137.000-dən artıq eksponat qorunur. Burada toplanan nadir eksponatlar sayəsində milli teatrın yaranma tarixi, təşəkkül dövrü, müxtəlif inkişaf mərhələləri, Azərbaycan mədəniyyəti tarixində misilsiz xidmətləri olan maarifçi və ziyalılar, teatr korifeyləri, sənətkarlar haqqında tam məlumat almaq mümkündür. Bu materiallar müxtəlif janrlı ilk teatr tamaşalarının proqram və afişalardan, dramaturqlar, aktyor və rejissorlara məxsus əlyazmalardan, məktublardan, rol dəftərlərindən, foto və neqativlərdən, geyim və dekorasiya eskizlərindən, tamaşaların müxtəlif pərdələri üçün verilmiş səhnə tərtibatlarının maketlərindən, şəxsi əşya və rekvizitlərdən, teatr kostyumlarından, obrazlara düzəldilmiş kuklalardan və s. ibarətdir.

Muzeydə üç fond: arxiv – memuar, eskiz – maket, foto – neqativ fondları, iki şöbə: fonoteka, ekspozisiya – kütləvi şöbələri, bir kitabxana və foto – laboratoriya fəaliyyət göstərir. Arxiv – memuar fondunda müxtəlif tamaşaların nadir proqram və afişaları, əlyazmalar, rol dəftərləri, məktublar, rejissor eksplikasiyaları, teatr kostyumları, rekvizitlər, şəxsi əşyalar və sair şəxsi arxivlərdə cəmlənərək qorunur. Eskiz – maket fondunda isə teatr rəssamlarının səhnə tərtibatına və geyimlərə verdikləri eskizlər, tamaşaların müxtəlif pərdələrini görükdürən maketlər və sairə mühafizə olunur. Foto – neqativ fondunda tamaşalardan, sənətkarların həyat və yaradıcılığının ən maraqlı məqamlarından çəkilmiş foto və neqativlər mühafizə olunur.

Muzeyin 7 zaldan ibarət ekspozisiyası teatr mədəniyyətimizi əks etdirən tarixi xronologiya üzrə qurulmuşudur. Burada Azərbaycan peşəkar teatrının yaranma tarixindən 1873 – cü ildən başlayaraq teatrın təşəkkül dövrü, inkişafı, professionallaşması və milliləşməsi prosesilə, müxtəlif teatrların yaranması və fəaliyyəti ilə bağlı tam təəssürat yaranır. İlk zalda xalq oyunlarında rast gəlinən teatr elementlərini əks etdirən rəsmlər, Azərbaycana Avropa mədəniyyəti gətirmiş maarifçilərimizə, teatr korifeylərimizə həsr olunmuş guşələr, peşəkar teatrımızın ilk tamaşasının afişası və s. nümyaiş etdirilir.

Muzeydə müntəzəm olaraq teatr tariximizlə, korifey sənətkarlarımızın həyat və yaradıcılıqları ilə bağlı yubiley sərgiləri hazırlanır, xatirə gecələri, tədbirlər keçirilir, mühazirlər oxunur. İl ərzində mütəmadi olaraq ayrı – ayrı vətəndaşlara, müxtəlif idarə və təşkilatlara, təhsil və mədəniyyət ocaqlarına, mətbuat orqanlarına, televiziya kanallarına fond materialları ilə metodiki köməklik göstərilir. Respublikamızda fəaliyyət göstərən bir sıra muzeylərin açılmasında Teatr Muzeyi fond materialları ilə yaxından köməklik etmişdir.

Muzey 2004-cü ildə "Teatr sənəti tarixinin toplanması, qorunması və mühafizəsindəki xidmətlərinə görə" Teatr Xadimləri İttifaqı tərəfindən "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür. 2011-ci ildən muzeyin 3D texnoligiyası əsasında hazırlanmış veb saytı fəaliyyət göstərir.

Ədəbiyyat:


Ağaşahqızı, Yaqut. Zəngin sənət və mədəniyyət inciləri $h [Mətn] $c Y.Ağaşahqızıİki sahil $g 2019.- 21may.- S.13.

Qurbanlı, R. 89 il əvvəl ölkəmizdə Teatr Muzeyi yaradılıb /Ramilə Qurbanlı amilə //Xalq qəzeti.- 2023.- 25 noyabr.- S.11.

İnternetdə:

https://museum.az/az/museum/9

Kəlbəcər Şəhəri Günü
(2023)



Ədəbiyyat:

Nurullayeva, K. Qarabağ və Şərqi Zəngəzurun bərpası yeni mərhələyə qədəm qoyub: [Azərbaycan Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində] / Könül Nurullayeva // Xalq qəzeti. 2022.29 iyun. S.8.

Əliyev, A.İşğaldan azad olunmuş bölgələrimizdə abadlıq-quruculuq işlərinin aparılması sülh və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir: [Azərbaycan Prezidenti İlham Əliyev iyunun 26-da Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində] / Adil Əliyev // Xalq qəzeti. 2022.29 iyun.S.8.

Bağırov, E. Azərbaycan Ordusu ölkəmizin sərhədlərini qorumaq üçün bütün imkanlara malikdir: [AMEA Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru Emin Bağırovun söhbəti] / Emin Bağırov; söhbəti apardı V. Bayramov //Xalq qəzeti. 2022. 29 iyun. S.8.

İnternetdə:

https://dalidag.az/kelbecer/6498-25-noyabr-kelbecer-seheri-gunu-kimi-ten-teneli-sekilde-qeyd-olunacaq-serencam.html

Bu qədim yurd yerimizin işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, insanpərvərliyi ilə qalmışdır. 44 günlük Vətən müharibəsi zamanı üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkə Prezidenti İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. Ermənilər evlər ilə yanaşı meşələri də yandırmaqla, 25 noyabr 2020-ci il tarixində ərazini tərk etmiş, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinəzarəti ələ almışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023cü il sərəncamına əsasən 25 noyabr Kəlbəcər şəhəri günü kimi qeyd olunacaqdır. 2020ci il noyabr ayının 26da "Kəlbəcərin azad olunmasına görə" medalı təsis edilmiş, Silahlı Qüvvələrin9454 hərbi qulluqçusu "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Kəlbəcər rayonu 1993cü il aprelin 2də işğal edilmiş, 53 min nəfərdən çox əhali öz dədə-baba yurdundan didərgin düşmüş, 511 dinc sakin öldürülmüş, 321 adam əsir götürülmüş və itkin düşmüş, əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmışdır. İşğal nəticəsində onlarla tarixiмədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, yüzlərlə maşın, texnika və sair talan edilib, dağıdılmış və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınmışdır.

Kəlbəcər 1930cu il avqust ayının 8də inzibati rayon status almış,sahəsi 3054 kv. km. olmaqla,1 şəhər, 1 qəsəbə, 145 kənd və 55 inzibati ərazi dairəsindən ibarət olmuşdur.

Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etmiş, bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunmuşdur. Lakin rəsmi İrəvan həmin Qətnaməni icra etməmiş, beynəlxalq təşkilatlar isə onun icrasını tələb etməmiş, BMT və ATƏTin prinsiplərinə zidd olaraq 1999cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılmışdır.

İşğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərə də həyat yenidən qayıdır. 2022ci il iyun ayının 26da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda İşğal və Zəfər muzeyləri kompleksinin, "İstisu" sanatoriyasının, 2022ci il avqust ayının 16da ToğanalıKəlbəcər avtomobil yolu üzərində Murovdağ və KəlbəcərLaçın avtomobil yolu üzərində inşa olunacaq tunellərintəməlini qoymuş, "Kəlbəcər1" Kiçik Su Elektrik yarımstansiyasında görülən işlərlə tanış olmuş, 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının açılışını etmişdir. Şəhərin Baş planının təsdiqindən sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcək, hərbi hissələr, ictimai yerlər artıq fəaliyyət göstərir.

DEKABR



23 noyabr -
21 dekabr

Oxatanın Nişanı oddur. Yupiterin himayəsindədir. Günəşin Oxatan bürcündən keçdiyi dövrdə doğulanlar təmkinli, fəal olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30	31					

- *Laçın rayonu işğaldan azad olundu! (01.12.2020)*
- *Ümummilli lider Heydər Əliyevin Anım Günü (12.12.2003)*
- *Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)*

Yaşıl dünya naminə həmrəylik ili



Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 %-i 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğal altında saxlanılmış, bu ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, təbii sərvətlərimiz talan edilmiş, iqtisadiyyata əhəmiyyətli dərəcədə zərər vurulmuşdur. 2020-ci ilin 27 sentyabr tarixində başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmiş və bununla da həmin ərazilərin dayanıqlı inkişafına başlanılmışdır. Təbii ki, dayanıqlı məskunlaşma üzrə fəaliyyətə iqtisadiyyatın bir çox sahələri ilə yanaşı enerji infrastrukturunun qurulması və yenidən bərpası, həmçinin ətraf mühitin etibarlı mühafizəsi, ekoloji təhlükəsizliyi, təbii resurslardan səmərəli və effektiv istifadə, "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarının tətbiqini təşviq etmək üzrə bir çox tədbirlər daxildir. İşğaldan azad olunmuş ərazilərdə səmərəli və ekoloji təmiz texnologiyaların tətbiqi məqsədi ilə günəş və külək elektrik stansiyalarının tikilməsi, yararsız hala salınmış kiçik su elektrik stansiyalarının bərpası, o cümlədən yeni kiçik və böyük həcmli su elektrik stansiyalarının inşası, damüstü günəş enerjisi sistemlərinin quraşdırılması "yaşıl" texnologiyaların tətbiqinə dair tələblərin müəyyən edilməsi kimi tədbirlər öz əksini tapmışdır.

DEKABR 2024



Milli ədəbiyyat

Xalq şairi, dramaturq, publisist, tərcüməçi, ssenarist Babayev Nəbi Ələkbər oğlunun (Nəbi Xəzri) (10.12.1924- 15.01.2007) anadan olmasının 100 illiyi . . 703
Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Bayramov Tofiq Qulam oğlunun (Tofiq Bayram) (16.12.1934-19.04.1991) anadan olmasının 90 illiyi
Şair, dramaturq, publisist Qurbanov Teyyub Yarməmməd oğlunun (Teyyub Qurban) (18.12.1934-21.02.2018) anadan olmasının 90 illiyi. 704
Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi Aslanov Məmməd Muxtar oğlunun (Məmməd Aslan) (24.12.1939-23.09.2015) anadan olmasının 85 illiyi 705
Filologiya elmləri doktoru, professor, şair, tənqidçi, publisist Mehdiyev Famil Ağalar oğlunun (Famil Mehdi) (25.12.1934-28.09.2003) anadan olmasının 90 illiyi 706
Əməkdar incəsənət xadimi, şair Mirzəyev Ağalar Həmzə oğlunun (Ağalar Mirzə) (25.12.1954-05.03.2008) anadan olmasının 70 illiyi 707
Əməkdar incəsənət xadimi, yazıçı-publisist və jurnalist Nəzirova Sara Mollaçı qızının (Sara Oğuz Nəzirova) (29.12.1944-22.06.2014) anadan olmasının 80 illiyi 708



Dünya ədəbiyyatı

Özbək şairi, dramaturqu, tənqidçisi Həmid Alimcanın (12.12.1909- 3.06.1944) anadan olmasının 115 illiyi 709



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Xalq rəssamı, Əməkdar incəsənət xadimi Bəhlulzadə Səttar Bəhlul oğlunun (15.12.1909-14.10.1974) anadan olmasının 115 illiyi. 710
Xalq rəssamı, Əməkdar incəsənət xadimi, heykəltəraş Zeynalov İbrahim İsmayıl oğlunun (27.12.1934-06.03.2008) anadan olmasının 90 illiyi. 711
Xalq rəssamı Nəcəfzadə Kamil Nəcəf oğlunun (29.12.1929-29.06.2011) anadan olmasının 95 illiyi



Musiqi. Opera. Balet

Azərbaycanın və Dağıstanın Xalq artisti, professor, opera müğənnisi Zeynalov Azər Zeynalabdin oğlunun (13.12.1964) anadan olmasının 60 illiyi. 712
Xalq artisti, müğənni Dostəliyeva Nazpəri Əhmədəli qızının (23.12. 1959) anadan olmasının 65 illiyi 713
Xalq artisti, rəqqasə, baletmeyster və pedaqoq, milli rəqslərin ustası Dilbazi Əminə Paşa qızının (26.12.1919-30.04.2010) anadan olmasının 105 illiyi



Teatr. Kino

Əməkdar incəsənət xadimi, kino rejissoru, aktyor, ssenarist Mahmudbəyov Şamil Fərəməz oğlunun (05.12.1924-20.05.1997) anadan olmasının 100 illiyi 714

Xalq artisti, teatr aktyoru Sultanov Əjdər Əliabbas oğlunun (08.12.1909-10.01.1962) anadan olmasının 115 illiyi
Xalq artisti, teatr aktyoru Məmmədov İbrahim Əhməd oğlunun (22.12.1934-09.09.2014) anadan olmasının 90 illiyi
Xalq artisti, rejissor və aktyor Şərifov Ələsgər Məmmədtağı oğlunun (25.12.1909-09.09.1982) anadan olmasının 115 illiyi
Xalq artisti, aktrisa Mahmudova Fatma Yaqub qızının (30.12.1954) anadan olmasının 70 illiyi 715



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Yusif Əliyusif oğlunun (02.12.1969-24.09.1991) anadan olmasının 55 illiyi 716



İkinci Qarabağ Müharibəsi Şəhidləri

MAHHXHQ baş əsgər Dəmirov Həsən Turan oğlunun (01.12.1994-28.09.2020) anadan olmasının 30 illiyi 717
MAHHXHQ əsgər Abdullayev Gündüz Çingiz oğlunun (01.12.1999-27.09.2020) anadan olmasının 25 illiyi 717
Əsgər Talıbzadə Ceyhun Aqil oğlunun (01.12.1994- 18.10.2020) anadan olmasının 30 illiyi 718
MAHHXHQ əsgər Qasımov Azər Yaqub oğlunun (02.12.1979-29.10.2020) anadan olmasının 45 illiyi 718
MAHHXHQ əsgər Əliyev Amid İbrahim oğlunun (03.12.1999-28.09.2020) anadan olmasının 25 illiyi 719
MAHHXHQ əsgər Quliyev Elnur Sərdar oğlunun (03.12.1989-27.09.2020) anadan olmasının 35 illiyi 719
Gizir Ağayev Cəlal Ağaverdi oğlunun (04.12.1984- 29.09.2020) anadan olmasının 40 illiyi 720
Gizir Muradov Turan Vaqif oğlunun (05.12.1994- 14.10.2020) anadan olmasının 30 illiyi 720
MAHHXHQ əsgər Cabbarov Oruc Akif oğlunun (06.12.1999-04.10.2020) anadan olmasının 25 illiyi 721
Əsgər Abduləzimli Emil Rasif oğlunun (06.12.1994- 19.10.2020) anadan olmasının 30 illiyi 721
Kapitan Hacıyev Hikmət Şubay oğlunun (07.12.1984- 08.11.2020) anadan olmasının 40 illiyi 722
MAHHXHQ baş əsgər Həsənov Pərviz Fərmayıl oğlunun (08.12.1989-06.11.2020) anadan olmasının 35 illiyi 722
MAHHXHQ kiçik çavuş Həsənquliyev Nicat Aydın oğlunun (09.12.1989-26.10.2020) anadan olmasının 35 illiyi 723
Əsgər Xəlilli Nicat Əli oğlunun (09.12.1994- 09.10.2020) anadan olmasının 30 illiyi 723
Polkovnik-leytenant Cəfərov Ramiz Sübhan oğlunun (10.12.1974-06.11.2020) anadan olmasının 50 illiyi 724

DEKABR

2024

Leytenant Məhərrəmov Vüsal Aslan oğlunun (10.12.1979- 06.11.2020) anadan olmasının 45 illiyi 725
Miçman Səfərov Elvin Ramiz oğlunun (10.12.1989-31.10.2020) anadan olmasının 35 illiyi 725
MAHHXHQ əsgər Qurbanov Emil Rafael oğlunun (10.12.1999-10.10.2020) anadan olmasının 25 illiyi 726
MAHHXHQ əsgər Rüstəmov Amil Bədrəddin oğlunun (10.12.1994-08.11.2020) anadan olmasının 30 illiyi 726
Baş leytenant Qasımov Həmid Oruc oğlunun (11.12.1994-03.10.2020) anadan olmasının 30 illiyi 727
MAHHXHQ əsgər Cəfərli Cəfər Babacəfər oğlunun (11.12.1999-03.11.2020) anadan olmasının 25 illiyi 727
Əsgər Mövlanov Vüqar Tumarxan oğlunun (11.12.1994-06.11.2020) anadan olmasının 30 illiyi 728
Əsgər Əlimərdanov Elvin İlham oğlunun (12.12.1994-16.10.2020) anadan olmasının 30 illiyi 728
Əsgər Hüseynov Sabir Elşən oğlunun (14.12.1999-14.10.2020) anadan olmasının 25 illiyi 729
Əsgər Bağırov Əli Eltay oğlunun (15.12.1994-10.10.2020) anadan olmasının 30 illiyi 729
Əsgər Əsədov Murad Rüstəm oğlunun (15.12.1999- 08.10.20) anadan olmasının 25 illiyi 730
Əsgər Qarayev Telman Əli oğlunun (15.12.1999-25.11.2020) anadan olmasının 25 illiyi 730
MAHHXHQ əsgər Kərimli Ramin Əli oğlunun (17.12.1999-28.09.2020) anadan olmasının 25 illiyi 731
Gizir Qasımov İsmayıl Sadiq oğlunun (17.12.1989- 09.10.2020) anadan olmasının 35 illiyi 731
Mayor Ağayev Ramil Mərdan oğlunun (20.12.1984-08.10.2020) anadan olmasının 40 illiyi 732
MAHHXHQ əsgər Tağıyev Azər Kamil oğlunun (20.12.1999-09.11.2020) anadan olmasının 25 illiyi 732
Əsgər Bayramov Cəlal Yaqub oğlunun (20.12.1994-27.10.2020) anadan olmasının 30 illiyi 733
MAHHXHQ əsgər Kazımov Rəşad Nüsrət oğlunun (21.12.1989-25.10.2020) anadan olmasının 35 illiyi 733
MAHHXHQ əsgər Quliyev Tərlan Bəxtiyar oğlunun (22.12.1999-17.10.2020) anadan olmasının 25 illiyi 734
Baş leytenant Xıdırov Elgün Fuad oğlunun (23.12.1989-01.10.2020) anadan olmasının 35 illiyi 734
Əsgər Məlikov Əhməd Məmməd oğlunun (23.12.1999-28.10.2020) anadan olmasının 25 illiyi 735

MAHHXHQ baş çavuş Babayev Orxan Sədail oğlunun (24.12.1994-07.11.2020) anadan olmasının 30 illiyi 735
Əsgər Sultanov Zaminəli Nazim oğlunun (25.12.1999-20.10.2020) anadan olmasının 25 illiyi 736
Əsgər Məmmədov Şaiq Şükür oğlunun (26.12.1999-9.11.2020) anadan olmasının 25 illiyi 736
Mayor Mürsəliyev Sübhi Balamirzə oğlunun (28.12.1979-30.09.2020) anadan olmasının 45 illiyi 737
MAHHXHQ çavuş Əsədov Saleh Səməd oğlunun (29.02.1984-08.10.2020) anadan olmasının 40 illiyi 738
MAHHXHQ əsgər Xudiyev Toğrul Habil oğlunun (29.12.1999-07.11.2020) anadan olmasının 25 illiyi 738
Çavuş Quliyev Namiq Natiq oğlunun (29.12.1994-08.11.2020) anadan olmasının 30 illiyi 739
Gizir Hüseynov Kərim Tərlan oğlunun (30.12.1989-14.10.2020) anadan olmasının 35 illiyi 739



Siyasət. Hərbi iş

Hərbi xadim, mühəndis qoşunları general-mayoru Rüstəmov Əmir Məmməd oğlunun (05.12.1909-13.04.1979) anadan olmasının 115 illiyi
Əməkdar hüquqşünas Əhmədova Flora Cəfər qızının (09.12.1934- 03.08.2012) anadan olmasının 90 illiyi 740
Dövlət xadimi, polkovnik Rəhimov Şəmsi Nuru oğlunun (18.12.1924- 29.09.1994) anadan olmasının 100 illiyi 740



Tarix

Tarix elmləri doktoru, professor Məmmədov Adil Əli oğlunun (02.12.1929-21.12.2016) anadan olmasının 95 illiyi 741
Şərqşünas alim, tarix elmləri doktoru, professor Əliyev Saleh Məmməd oğlunun (13.12.1929-22.11.2006) anadan olmasının 95 illiyi 742
Akademik, tarix elmləri doktoru, professor Əzizbəyova Püstə Əzizağa qızının (29.12.1929-08.01.1998) anadan olmasının 95 illiyi 742



Fəlsəfə. İqtisadiyyat. Hüquq

İqtisad elmləri doktoru, profesor Allahverdiyev Mədət Mustafa oğlunun (21.12.1929-1992) anadan olmasının 95 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar mədəniyyət işçisi, filologiya elmlər doktoru, tərcüməçi Əliyeva Dilarə Ələkbər qızının (14.12.1929-19.04.1991) anadan olmasının 95 illiyi

Pedaqoq və mətbuat tədqiqatçısı, professor Hüseynov Şirməmməd Ağamməd oğlunun (17.12.1924-24.06.2019) anadan olmasının 100 illiyi. 743
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, teatrşünas, pedaqoq Atayev Məmmədşah Qədim oğlunun (20.12.1939- 2011) anadan olmasının 85 illiyi
Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, ictimai-siyasi xadim İsmayılov Rauf Əbdüləli oğlunun (22.12.1939-2.10.2019) anadan olmasının 85 illiyi
Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Şəmsizadə Nizaməddin Şəmsəddin oğlunun (30.12.1954) anadan olmasının 70 illiyi 744




Coğrafiya. Geologiya

Akademik, texnika elmləri doktoru, professor Məmmədov Şirəli Nəsir oğlunun (Nəsirzadə) (25.12.1904-18.02.1984) anadan olmasının 120 illiyi
AMEA-nın müxbir üzvü, Geologiya-mineralogiya elmləri doktoru, dosent Hüseynov Dadaş Ağa-Cavad oğlunun (27.12.1959) anadan olmasının 65 illiyi. 745
Azərbaycan SSR EA-nın müxbir üzvü, coğrafiya elmləri doktoru, professor Gül Qasım Kazım oğlunun (Ağaqasım Kazım oğlu Güləhmədov) (31.12.1909-30.05.1972) anadan olmasının 115 illiyi



Riyaziyyat. Fizika. Astronomiya

Akademik, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Mehdiyev Arif Şəfaət oğlunun (19.12.1934-19.12.2016) anadan olmasının 90 illiyi 746
Fizika-riyaziyyat elmləri doktoru, professor Əsədov Yusif Qəzənfər oğlunun (20.12.1934-01.10.2021) anadan olmasının 90 illiyi. 747



Kimya. Biologiya. Tibb

Həkim Mehmandarov Əbdülkərim (Kərim) bəy Mirzə Mustafa bəy oğlunun (02.12.1854-20.12.1929) anadan olmasının 170 illiyi
Akademik, Əməkdar elm xadimi, kimya elmləri doktoru Mehdiyev Soltan Cəfər oğlunun (02.12.1914-12.10.1985) anadan olmasının 110 illiyi
Tibb elmləri doktoru, oftolmoloq Qasımova Münəvvər Cavad qızının (03.12.1924-10.01.1990) anadan olmasının 100 illiyi
Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor Musayev Əlişir Veys oğlunun (04.12.1949-28.04. 2020) anadan olmasının 75 illiyi
Kimya elmləri doktoru, professor Məmmədova Svetlana Həmid qızının (18.12.1939-20.01.1990) anadan olmasının 85 illiyi
Akademik, Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor Fərzəliyev Vaqif Məcid oğlunun (19.12.1939) anadan olmasının 85 illiyi. 748

Cərrah-endokrinoloq, tibb elmləri doktoru, professor Diyarova Hüsniyyə Ağayar qızının (20.12.1919 -?) anadan olmasının 105 illiyi
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Babaxanov Rauf Əliməmməd oğlunun (21.12.1929-04.05.1992) anadan olmasının 95 illiyi
AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, kənd təssərrüfatı elmləri doktoru, professor Ağabəyli Ağaxan Ələsgər oğlunun (22.12.1904-20.08.1980) anadan olmasının 120 illiyi 749
AMEA-nın müxbir üzvü, seleksiyaçı alim Hüseynov Rəhim Məşədi Allahverdi oğlunun (23.12.1914-25.05.1971) anadan olmasının 110 illiyi
Əməkdar həkim, tibb elmləri doktoru, cərrah Quliyeva Xurşid Cəmil qızının (25.12.1919-05.11.2016) anadan olmasının 105 illiyi
Əməkdar həkim, tibb elmləri doktoru, hematoloq Axundova Asya Mahmud qızının (26.12.1919-30.11.1983) anadan olmasının 105 illiyi



Texnika mühəndis işi

Sosialist Əməyi Qəhrəmanı, neft ustası Əliyev Gülbala Ağabala oğlunun (05.12.1879-27.03.1971) anadan olmasının 145 illiyi
Əməkdar mühəndis, neftçi-geoloq Şıxlinski Arif Şərif oğlunun (26.12.1929-20.07.1995) anadan olmasının 95 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Kitabxanaşünas, tarix üzrə fəlsəfə doktoru Kazımi Pərviz Firidun oğlunun (10.12.1959) anadan olmasının 65 illiyi 750



Digər tarixi hadisələr

Laçın rayonu işğaldan azad olundu! (01.12.2020)
QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988)
Beynəlxalq Əlillər Günü (03.12.1992) 751
Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır (03.12.2020)
Beynəlxalq Könüllülər Günü (05.12.1985)
Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü (06.12.2006)
Azərbaycan İstiqlal Muzeyinin yaradılmasının (07.12.1919) 105 illiyi
Xalça bayramı (07.12.2004)
“YAŞAT” Fondu yaradılmışdır (08.12.2020)
Beynəlxalq Dağlar Günü (11.12.2003)
Beynəlxalq İnsan Hüquqları Günü (10.12.1948). 752
Ümummilli Lider Heydər Əliyevin anım günü (12.12.2003) 753
Azərbaycan Respublikası Kolumbiya ilə diplomatik münasibətlər qurmuşdur (13.12.1994)

DEKABR

2024

Fövqəladə Hallar Nazirliyi İşçilərinin Peşə Bayramı Günü (16.12.2006)
Müdafiə Sənayesi Nazirliyi İşçilərinin Peşə Bayramı Günü (17.12.2010)
Avropa İttifaqının İnsan Alverinə qarşı mübarizə Günü (18.12.2007)
Azərbaycan Respublikası Honduras Respublikası ilə diplomatik münasibətlər qurmuşdur (22.12.1994)
Beynəlxalq Kino Günü (28.12.1895). 754
Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) yaradılmasının (29.12.1999) 25 illiyi
Gəncə şəhərinin tarixi adının bərpa olunmasının (30.12.1989) 35 illiyi
Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991). 755

Nəbi Xəzri – 100

(1924-2007)

Şair



Nəbi Ələkbər oğlu Babayev (Nəbi Xəzri) 1924-cü il dekabr ayının 10-da Bakı şəhərinin Xırdalan kəndində anadan olmuşdur.

1942-1943-cü illərdə İkinci Dünya müharibəsində arxa cəbhədə iştirak etmiş, ordudan tərxis olunduqdan sonra 1943-1945-ci illərdə "Kommunist" qəzeti redaksiyasında korrektor və Azərbaycan radiosunda diktor vəzifələrində çalışmışdır. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) qəbul olunmuşdur. 1947-1949-cu illərdə Leninqrad Dövlət Universitetində (indiki Sankt-Peterburq), 1949-1952-ci illərdə M.Qorki adına Ədəbiyyat İnstitutunda ali təhsilini davam etdirmişdir. 1952-ci ildə təhsilini başa vuran Nəbi Xəzri 1957-ci ilədək Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, 1957-1958-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, 1958-1965-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi, 1965-1971-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi sədrinin müavini, 1971-1974-cü illərdə Azərbaycan mədəniyyət nazirinin müavini vəzifələrində çalışmışdır.

1974-cü ildən Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin Rəyasət heyətinin sədri, 1992-ci ildən "Azərbaycan Dünyası" Beynəlxalq Əlaqələr Mərkəzi adı altında fəaliyyət göstərən bu təşkilatın prezidenti olmuşdur.

Ədəbi yaradıcılığa erkən yaşlarında başlamış, "Günəş" adlı ilk şeirini 16 yaşında qələmə almışdır."Çiçəklənən arzular" adlı ilk şeirlər kitabı 1950-ci ildə çap olunmuşdur. 1945-ci ildə Yazıçılar İttifaqına üzvlüyə qəbul edilmişdir. 1958-ci ildən "Xəzri" təxəllüsü ilə yaradıcılığını davam etdirmişdir. O, 60-dan çox kitabın müəllifidir. "Vətən və qürbət", "Xatirələr çırağında","Avropa xatirələri", "Seçilmiş əsərləri"i (2, 3, 5 cilddə), "Dərələr", "İllər və sahillər", "Son illərin sətirləri", "Ulduz karvanı", "Ümmandan damlalar" və s. kitabları nəşr olunmuşdur. "Sən yanmısan", "Əks-səda", "Mirzə Şəfi", "Qütb ulduzu", "Torpağa sancılan qılınc", "Mənsiz dünya", "Gecə döyülən qapılar", "Burla xatun" və s. dram əsərləri Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş, tamaşaçı rəğbəti qazanmışdır.

Nəbi Xəzri nəğməkar şair kimi də tanınmış, şeirlərinə bəstələnən "Azərbaycan", "Gələrmi, gəlməzmi", "Dərələr", "Mavidir", "Pəncərəmə qondu çiçək", "Sən danışanda", "Güllərim" və s. mahnıları dinləyicilər tərəfindən bu gün də sevilə-sevilə dinlənilir. Nəbi Xəzrinin sözlərinə yazılmış nəğmələri sırasında "Heydər Əliyev haqqında oda", yaxud "Məşəl kimi yanan ürək" adlı şeiri onun şah əsəridir. Nəbi Xəzri uşaq mövzusuna da müraciət etmiş, "Arzunun arzuları", "Nənəm nağıl danışır", "Qaranquş qonaqmıdır?", "Dəniz niyə daşmayır", "Sarı top" və s. şeirləri balaca oxucuların sevə-sevə oxuyub, əzbərlədikləri ən gözəl sənət incilərindəndir.

Nəbi Xəzrinin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra orden və medallara - 1982-ci ildə Azərbaycan dövlət mükafatı laureatı adına, 1979-cu ildə "Əməkdar incəsənət xadimi", 1984-cü ildə "Xalq şairi" fəxri adlarına layiq görülmüş, o cümlədən Azərbaycan Respublikasının ali dövlət təltifləri - "Şöhrət" (1993) və "İstiqlal" (2004) ordenləri ilə təltif olunmuşdur.

Nəbi Ələkbər oğlu Babayev 2007-ci il yanvar ayının 15-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

2014-c ildə Nəbi Xəzrinin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. Milli Kitabxanada "Nəbi Xəzri–90" və "Nəbi Xəzri–95" adlı kitab sərgiləri açılmışdır.

Ədəbiyyat:

Seçilmiş əsərləri / N.Xəzri; tərt. ed. və red. M.Çəmənli; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Təhsil, 2014.- 439 s.

Baxşəliyev, Ə.Ş. Nəbi Xəzrinin yaradıcılıq yolu / Ə.Ş.Baxşəliyev; red. Ə.Əsgərli; AMEA Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: Sabah, 2014.-243 s.

Cəfərov, A. Nəbi Xəzrinin poetik dili: [dərs vəsaiti] / A.Cəfərov; elmi red. R.Məhərrəmova; rəy.: N.Cəfərov, T.Əfəndiyeva, F.Şahbazlı, İ.Vəliyev; Azərb. Resp. Təhsil Nazirliyi.- Bakı: Elm və təhsil, 2012.- 143 s.

İbrahimli, S. Gözəllik-lər nəğməkarı / Sahib İbrahimli // Ədəbi proses: dünən və bu gün.- Bakı: Elm və təhsil, 2016.- S.155-159.

Yusifli, V. Xoşbəxt taleli sənətkar- Nəbi Xəzri / Vaqif Yusifli // 525-ci qəzet.- 2020.- 8 yanvar.- S.20.

Teyyub Qurban – 90

(1934-2018)

Şair, dramaturq



Ədəbiyyat:

Dönməzlik:[povest] / T. Qurban ; red. Ə. Balayev; üz qabığında M. Rəsulzadənin portreti rəssam O. Sadıqzadə ; [ön söz əvəzi H. Nasir].–Bakı:[Ecoprint] ,2018.– 127, [1] s.

Bir kərə yüksələn bayraq: Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illiyinə həsr olunur / Teyyub Qurban; red. Ə. Balayev.- Bakı: [OL MMC], 2014.-189 s.

Gündəlikdən sətirlər / T.Qurban.-Bakı: "OL" MMC, 2013.- 46 s.

Elə oyna ki...: uşaqlar üçün şeirlər / Teyyub Qurban; red. Z.Dadaşova.- Bakı: "OL" MMC, 2014.-20 s.

Qapına gəlməyəcəyəm / T.Qurban.- Bakı: "OL" MMC, 2013.- 95 s.

Yüz tələbə, yüz tale / T.Qurban; red. Q.Dünyaminqızı.- Bakı: [Şur], 2018.- 254, [2] s.

Sənədlərin dili ilə / T.Qurban // Azərbaycan.- 2015.- № 4.- S.112-127.

Teyyub Qurban - 80: bibliooqrafiya / tərt. ed. Mədinə Vəliyeva; red. Sevgiyə Əsədova; ixt. red. Mətanət İbrahimova, Gülbahar Misirova.- Bakı: [ADPU], 2014.- 160 s.

Teyyub Yarməmməd oğlu Qurbanov (Teyyub Qurban) 1934-cü il dekabr ayının 18-də Bakının Bülbülə qəsəbəsində anadan olmuşdur.

1954-cü ildə orta məktəbi bitirmiş, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filoloji fakültəsinin jurnalistika şöbəsinə daxil olmuşdur. 1961-1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin Jurnalistika kafedrasının aspiranturasında təhsil almışdır.

Əmək fəaliyyətinə Bakı Pioner və məktəblilər Sarayında ədəbi yaradıcılıq dərnəyinin rəhbəri kimi başlamışdır. 1963-1991-ci illərdə Respublika Xalq Nəzarəti Komitəsinin məsul işçisi olmuş, 1992-ci ildə Suraxanı rayon İcra Hakimiyyəti başçısının I müavini vəzifəsində işləmişdir. 1994-cü ildə Bakı və Kəndlər Birliyinin mətbuat xidmətinin rəhbəri təyin edilmişdir. 2001-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xalq Təhsili Muzeyində şöbə müdiri işləmişdir.

"Koreyalı döyüşçüyə" adlı ilk şeiri 1950-ci ildə "Pioner" jurnalında çap olunmuşdur. 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. "Mənim gəncliyim", "Dostluğun gücü", "Unudulmayan", "Yanğı", "El yolu", "Gözəllik yarışı", "Ömrün gənclik yazı", "Dönməzlik", "Sara", "Məcra", "Düşmənlərindən güclü şəxsiyyət", "Müqəddəs məkanda Qüdsümüz vardır" və s. kitabların müəllifidir.

Şeirləri ayrı-ayrı xalqların dilində çap olunmuşdur. Milli müstəqillik uğrunda mübarizə illərindən başlayaraq Teyyub Qurban şeir yaradıcılığını davam və inkişaf etdirməklə bərabər, bir sıra bədii sənədli publisist əsərlər, dram əsərləri də yazmışdır. Müstəqillik uğrunda mübarizə tariximiz haqqında, M.Ə.Rəsulzadə haqqında "Dönməzlik" sənədli povestini, "Bir kərə yüksələn bayraq" adlı dram əsərini yazmışdır.

M.Ə.Rəsulzadəyə həsr etdiyi ikihissəli "Azərbaycan, Azərbaycan" dramı Şəhriyar adına Bakı Mədəniyyət Mərkəzinin "Miniatür" teatrında tamaşaya qoyulmuş, bu əsərə görə "Araz" Ali Ədəbi mükafatı diplomu ilə təltif edilmişdir. 1993-cü ildə Hacı Zeynalabdin Tağıyevə həsr etdiyi "Yaşayan ömür" pyesi Azərbaycan Dövlət Gənclər Teatrında tamaşaya qoyulmuşdur.

1994-cü ildə "Xəzər" Beynəlxalq Fondunun işində yaxından iştirak etdiyinə və anadan olmasının 60 illiyi münasibətilə fondun mükafatını almışdır. 2002-ci ildə "Yaşıl rəngin işığı" kitabına görə Rəsul Rza Beynəlxalq mükafatı laureatı adını almışdır.

2014-cü ildə 80 illik yubileyi münasibətilə "Teyyub Qurban – 80" adlı biblioqrafiya tərtib olunmuşdur.

Qurbanov Teyyub Yarməmməd oğlu 2018-ci il fevral ayının 21-də vəfat etmişdir. Bülbülə kənd qəbirstanlığında dəfn edilmişdir.

2019-cu ildə Azərbaycan Milli Kitabxanasında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, tədqiqatçı, şair, dramaturq, publisist Teyyub Yarməmməd oğlu Qurbanovun (Teyyub Qurban) anadan olmasının 85 illiyi münasibətilə "Teyyub Qurban – 85" adlı kitab sərgisi açılmışdır.

Məmməd Aslan – 85

(1939-2015)

Şair



Məmməd Muxtar oğlu Aslanov (Məmməd Aslan) 1939-cu il dekabr ayının 24-də Kəlbəcər rayonunun Laçın kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra APİ-nin (indiki ADPU) filologiya fakültəsində təhsil almışdır (1957-1962).

Əmək fəaliyyətinə Kəlbəcər rayonunun Yanşaq və İstisu kənd məktəblərində Azərbaycan dili və ədəbiyyat müəllim kimi başlamışdır. Rayonda nəşr olunan çoxtirajlı "Yenilik" qəzeti redaksiyasında məsul katib işləmişdir.

1970-ci ildə Bakıya köçmüş, "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyalarında çalışmış, 1985-1991-ci illərdə "Yazıçı" nəşriyyatında redaktor, böyük redaktor, 1991-ci ildə "Günəş" jurnalında məsul katib, 1992-1995-ci illərdə Azərbaycan Dövlət Teleradio Şirkətinin "Ekran-efir" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır.

Bədii yaradıcılığa 1960-cı ildə "Azərbaycan müəllimi" qəzetində çıxan ilk şeiri ilə başlamışdır. Dövri mətbuatda müntəzəm çıxış etmişdir. "Dağ ürəyi" adlı ilk şeirlər kitabı 1969- cu ildə çap olunmuşdur. Onun müxtəlif illərdə "Səsimə səs ver", "Ürək möhlət verəydi", "Nur içində nur", "Dağ ürəyi", "Bizdən sonra nə qalır", "Dəvə niyə gövşəyir", "Saxla izimi, dünya", "Nur içində nur", "Allahın rəsulu", "Varlıqla yoxluq arasında" və s. kitabları nəşr edilmişdirr. Şairin eyni zamanda uşaqlar üçün "Böyürtkən, böyürtkən", "Səhəri kim açır" adlı şeir kitabları, "Durnalar lələk salır" hekayələr, "Ərzurumun gədiyinə varanda", "Bir sultan yaşardı Sultantəpədə", "Ömrün yarı yaşında" və s. adda publisistik kitabları çap olunmuşdur.

Məmməd Aslanın türk dünyası ədəbiyyatından çoxlu tərcümələri vardır. Şair keçmiş MDB xalqları ədəbiyyatından Zülfiyyənin "Torpağa səcdə", qazax şairi Qədir Murzalıyevin "Bu bağda bülbüllər ötər" (1980) şeirlər məcmuələrini şərikli tərcümə etmişdir.

Məmməd Aslan təkcə şair və publisist deyil, həm də televiziya aparıcısı olmuşdur. AzTV-də hazırladığı "Dərədən-təpədən" verilişi ilə böyük tamaşaçı sevgisi qazanmışdır, daha sonralar "Xəzər" televiziyasında müəllif verilişi ilə çıxış etmişdir.

1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.Şairin ədəbiyyatımız qarşısındakı xidmətləri yüksək qiymətləndirilmiş, o, 1998-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Bir sıra beynəlxalq və respublika mükafatları laureatı olmuşdur.

Məmməd Muxtar oğlu Aslanov 2015-ci il sentyabr ayının 23-də vəfat etmiş, Masazır qəbiristanlığında dəfn olunmuşdur.

2019-cu ildə Milli Kitabxanada "Məmməd Aslan-80" kitab sərgisi açılmış, "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi tərəfindən 80 illiyinə həsr olunmuş poeziya gecəsi keçirilmişdir.

Ədəbiyyat:

Əliyev, Ə. Məmməd Aslan: həyatı və yaradıcılığı "Varlıqla yoxluq arasında": (Monoqrafiya) / Əli Əliyev; elmi red. S. R. Məmmədov; [ön söz. S. Rüstəmxanlı].– Bakı: [ADPU], 2023.– 179, [1] s.

Seçilmiş əsərləri / M.Aslan; red. T.Qaraqaya; ön söz müəl. M.Süleymanlı.- Bakı: Avrasiya press, 2006.- 320 s.

Şair səlahiyyəti / M.M.Aslan; red. İ.Məmmədli; tərt.: F.Rüstəmqızı, M.Paşabəyli; [rəssam.: Y.Əsədov, M.Yavəroğlu].-Bakı: Azərnəşr, 2015.- 342 s.

Varlıqla yoxluq arasında: iki cilddə: [poeziya] / M.Aslan; red. İ.Məmmədli; rəssam.: Y.Əsədov, M.Yavəroğlu.- Bakı: Qismət, 2011.- C.I.- 576 s.; C.II.- 424 s.


Məmməd Aslan əbədiyyətə vardı // Türküstan.- 2015.- 29 sentyabr-4 oktyabr.- S.16.

Nəcəfxanlı, Ə. Məmməd Aslan / Əli Nəcəfxanlı // Xalq qəzeti.- 2023.- 9 fevral .- S.10.

Famil Mehdi – 90

(1934-2003)

Şair



Famil Ağalar oğlu Mehdiyev 1934-cü il dekabr ayının 25-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur. Əhmədavar kənd məktəbində 7-ci sinfi bitirdikdən sonra Ağdam Pedaqoji Məktəbinə daxil olmuş, həm məktəbi, həm də texnikumu fərqlənmə diplomu ilə bitirmişdir. 1953-1958-ci illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsində təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə 1958-ci ildə "Bakı" axşam qəzetində ədəbi işçi kimi başlamış, ADU-nun filologiya fakültəsində aspirant (1961-1964), müəllim, baş müəllim, 1973-cü ildən Jurnalistika fakültəsində Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri vəzifələrində işləmişdir.

Akademik Mirzə İbrahimovun rəhbərliyi altında namizədlik, 1974-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1977-ci ildə professor elmi adını almışdır. Fəal pedaqoji, elmi və ictimai işlə məşğul olmuşdur.

"Jurnalistika məsələləri" adlı ali məktəb tələbələri üçün dərsliyin müəlliflərindən biridir. "Alovlu publisist Səməd Vurğun", "Azərbaycan bədii publisistikasının sənətkarlıq problemləri", "Mətbuatda publisistika", "Bədii publisistika" kimi monoqrafik kitablar və dərs vəsaitləri onun qələminin məhsuludur.

Bədii yaradıcılığa 1951-ci ildə Ağdam rayon qəzetində çıxan ilk şeiri ilə başlamış, dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. İlk poeması "Gənclik eşqi" də tələbəlik illərində "Azərbaycan" jurnalında dərc olunmuşdur. Həmin jurnalda nəşr edilən "Səni gözləyirəm" poeması bütün respublikada böyük oxucu marağına səbəb olmuşdur. "Təbriz xalısı" (1981), "Ömür keçir, gün keçir" (1983), "Borc" (1984), "Əyilmə, dünyam" (1985), "Seçilmiş əsərləri" (1989), "50-dən sonra" (1993), "Qarabağ faciəsi" (publisistika) (1995) və s. onlarca kitabın müəllifidir.

1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. Əsərləri müxtəlif xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Bakı şəhər Oktyabr rayonu Xalq Deputatları Sovetinin (XVII, XVIII, XIX çağırış) deputatı olmuşdur. "Oqonyok" jurnalının laureatı adına layiq görülmüşdür. SSRİ "Bilik" cəmiyyətinin ən yaxşı elmi-kütləvi əsərlərə görə diplomunu almışdır.

Qarabağ müharibəsinin ilk günlərindən "Nicat" cəmiyyətini yaratmış və Vətənin müdafiəsinə qalxan könüllülər arasında stimul yaratmaq məqsədi ilə cəmiyyət adından "General Məhəmməd Əsədov" mükafatı təsis etmişdir.

Famil Ağalar oğlu Mehdiyev 2003-cü il sentyabr ayının 29-də Bakıda vəfat etmişdir.

2019-cu ildə Azərbaycan Milli Kitabxansında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri şair və elm xadiminin anadan olmasının 85 illiyi münasibətilə "Famil Mehdi – 85" adlı kitab sərgisi açılmışdır.

Ədəbiyyat:

Qarabağ faciəsi (publisistika) / Famil Mehdi.– Bakı: Gənclik, 1995.– 320 s

Bədii publisistika /Famil Mehdi; elmi red. T.Rüstəmov.-Bakı: Maarif, 1982.-293 s.

Borc: şeirlər və poema /Famil Mehdi.-Bakı: Gənclik, 1984.-277 s.

Əllidən sonra: şeirlər /Famil Mehdi.-Bakı: Yazıçı, 1993.-136 s.

Mətbuatda publisistika: sənətkarlıq söhbəti: dərs vəsaiti /Famil Mehdi; elmi red. M.Mahmudov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, S.M.Kirov ad. Azərb. Döv. Un-ti.- Bakı: ADU, 1981.- 75 s.

İsitdi qəlbini xəyallar onun - Famil Mehdinin ilk kitabı: şeirlər /F.Mehdi; hazırladı:A. Kərimova //Kaspi.-2018.- 13- 15 yanvar.- S.17.

Ağalar Mirzə – 70

(1954-2008)

Şair



Mirzəyev Ağalar Həmzə oğlu 1954-cü il dekabr ayının 25-də Dəvəçi (indiki Şabran) şəhərində anadan olmuşdur. Burada orta təhsil almışdır.

1974-1979-cu ildə ADU-nun jurnalistika fakültəsində təhsilini davam etdirmişdir. 2002-ci ildə "Xaltanlı Tağının yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə etmişdir. Filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. "Şirvan aşıq məktəbi" mövzusunda doktorluq dissertasiyası yazmış, müdafiə etməyə ömür vəfa etməmişdir.

Əmək fəaliyyətinə Dəvəçi şəhər 1 saylı səkkizillik məktəbində pioner baş dəstə rəhbəri kimi başlamışdır. Sonra Pirəmsən kənd orta məktəbində pioner baş dəstə rəhbəri olmuşdur.

Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində radionun incəsənət və radio teatrı şöbəsində ("Bulaq" verilişi üzrə) kiçik redaktor, redaktor , televiziyanın ədəbiyyat və xalq yaradıcılığı redaksiyasında redaktor, böyük redaktor, şöbə müdiri , ədəbi dram verilişləri Baş redaksiyasının baş redaktorunun müavini , xalq yaradıcılığı redaksiyasının baş redaktoru vəzifələrində çalışmışdır.

Ağalar Mirzə şifahi xalq yaradıcılığına dair müxtəlif televiziya verilişlərinin, o cümlədən "Ustadnamə", "Dastan" proqramlarının müəllifi olmuşdur.

Ağalar Mirzə bədii yaradıcılığa keçən əsrin 70-ci illərindən başlamışdır. Gənc şairlərin respublika ədəbi birliyinin fəal üzvü olmuşdur. Birliyin "Çinar pöhrələri", "Gənc istedadlar", "Qudyalçay nəğmələri" və s. almanaxlarında şeirləri çap olunmuşdur. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir.

Ağalar Mirzə alim və şair kimi gələcək nəsillər üçün yazılmış bir sıra qiymətli əsərlərin, o cümlədən etnoqrafik oçerklərdən ibarət olan "Bayramlar, adətlər, ənənələr", "Bulaq", "Ömrün bənövşə fəsli", "Ovcunu tut yağışa", "Novruz töhfələri" (iki dəfə nəşr edilib), "Mən baxdığım pəncərə", "Dünənə məktub"adlı kitabların müəllifidir.

1982-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur

1996-cı ildə "Qızıl qələm" mükafatına, 1998-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Mirzəyev Ağalar Həmzə oğlu 5 mart 2008-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Novruz töhfələri: [Yeniyetmələr üçün] / Ağalar Mirzə, İ. Mehdiyev; red. V. Məcidov; rəssam. Ə. Məmmədov, M. Məmmədov.- Bakı: Gənclik, 1990. - 112 s.


"Karvanı kısılmiş yola bənzərsən...": Aşıq yaradıcılığının təşəkkülü və genetik qaynaqları haqqında / Ağalar Mirzə // Azərbaycan.- 2007.- № 9. - S.142-147.

Rəşid, M. Ağalar Mirzənin munis və unudulmaz təbəssümü / Mina Rəşid // 525-ci qəzet.- 2020.- 25 dekabr.- S.13.

Sara Nəzirova – 80

(1944-2014)

Yazıçı-publisist



Sara Mollaçı qızı Nəzirova 1944-cü il dekabr ayının 29-da Oğuz rayonunda (keçmiş Vartaşen) anadan olmuşdur. 1965-ci ildə APİ-nin (ADPU) İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsini bitirmişdir.

1966-1988-ci illərdə Azərbaycan Dövlət İncəsənət Muzeyində (indiki Azərbaycan Milli İncəsənət Muzeyi) müşayətçi, kiçik elmi işçi, filial müdiri, şöbə müdiri və baş elmi işçi vəzifələrində çalışmışdır. Elə ilk elmi publisistik və bədii yazılarını da burada qələmə almışdır.

1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda estetika üzrə aspiranturanı bitirmişdir.

1984-cü ildə SSRİ Rəssamlar İttifaqına, 1988-ci ildə isə SSRİ Yazıçılar İttifaqına üzvlüyə qəbul olunmuşdur. 2002-ci ildə Fransanın Lill şəhərində Avropa Beynəlxalq Jurnalist Məktəbini müvəffəqiyyətlə başa vurmuşdur.

Sara Nəzirovanın əsərləri 1968-ci ildən dövri mətbuatda çap olunmağa başlamışdır. Onun incəsənətdə axtarışları sənətşünaslıq aləminə bir sıra töhfələr bəxş etmişdir: "Gözəlləmə", "Ocaqlarımızın bərəkəti", "Çin-süsləməsi", "Keçmişimiz və mədəniyyətimiz", "Şəki xan sarayı və bərpaçı", "Söz sənəti və miniatür", həmçinin rəssamlıq sənəti ilə bağlı məqalələri elmi təfəkkürün məhsuludur.

O, ədəbiyyata bir qədər gec, yetmişinci illərin sonlarında gəlmiş, ilk hekayələrini "Azərbaycan" jurnalında çap etdirmişdir. "Ümid ulduzu", "Savab yiyəsi", "Tale damğası" povestlərinin, "Bayat oxşaması", "Yevlaxdan keçən yollar", "Ölü dərdi", "Köhnə kişi" və s. hekayələrin müəllifidir. 1994-cü ildə Amerika Birləşmiş Ştatlarında "İkarus" jurnalında onun povesti Azərbaycanı təmsil etmişdir. 1996-cı ildə YUNESKO-nun "The World Literature to Day" toplusunun payız sayında "Kəpənək ömrü" povesti dərc olunmuşdur. O, 2010-cu ildə ən yaxşı hekayəyə görə Beynəlxalq müsabiqənin qalibi olmuşdur. S.Nəzirovanın 1983-cü ildə "Yazıçı" nəşriyyatında "Terrakota", 1986-cı ildə "Qədir ağacı", 1992-ci ildə "Tale damğası", 1990-cı ildə "Nağıl nabatı", 1996-cı ildə "Beton evdən yazılar", 2007-ci ildə "Əşrəf Muradoğlu", ingilis dilində "Selected Works" kitabları çap edilmişdir.

Yaradıcılığı haqqında 2003- cü ildə "Elm" nəşriyyatında "Oğuz gözəlləməsi" kitabı nəşr olunmuşdur. "Azərbaycanfilm" kinostudiyasında "Batmış şəhərin incəsənəti", "Nar nağılı", "Qəsd", "İçərişəhərin hamamları", "Dost dosta tən gərək", "Üfüqü ötənlər" filmləri onun ssenariləri əsasında çəkilmişdir. Onun "Nağılını göstər", "Mərd körpüsü", "Qayıt", "Sözün sehri" pyesləri Azərbaycan Dövlət Teatrlarında tamaşaya qoyulmuşdur. Əsərləri rus, ukrayna, ingilis, ispan, çin və s. dillərdə nəşr olunmuşdur. Yazıçı 2012-ci il may ayının 9-da Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Sara Mollaçı qızı Nəzirova 2014-cü il iyun ayının 22-də vəfat etmişdir.

Ədəbiyyat:

Bayat oxşaması: (Hekayə) / Sara Oğuz; red. Ş. Hüseynli.- Bak: [Zərdabi Nəşr MMC], 2022. - 35, [1] s.

Beton evdən yazılar: [povestlər və hekayələr] / S.A.Nəzirova; red. Ə.Əmirli; rəssam T.Qorçuyev.- Bakı: Yazıçı, 2014.-399 s.

Dəli istək / S.Oğuz (Nəzirova); red. və tərc. M.Hüseynzadə.- Bakı: Ziya, 2007.- 32 s.

Qəhrəmanova, A. Sara Oğuz nəsrində qadın dünyası / Ayşən.Qəhrəmanova // Kaspi.-2017.- 4-6 noyabr.- S. 21-22.

Bədəlov, N. Söz toxuyan qadın / Nadir Bədəlov // Ədəbiyyat qəzeti.- 2019.- 8 mart.- S. 16-17.

İnternetdə:

http://www.anl. az/down/ meqale/ medeniyyet/2014/ dekabr/411288.htm

Həmid Alimcan – 115

(1909-1944)

Özbək şairi, dramaturqu



Həmid Alimcan 1909-cu il dekabr ayının 12-də Cizzax şəhərində anadan olmuşdur.

Həmid Alimcan ilk təhsilini başa vurduqdan sonra Səmərqənd şəhərinə getmişdir. O, Səmərqənd pedaqoji məktəbində təhsilini davam etdirmiş və 1928-ci ildə buranı müvəffəqiyyətlə bitirmişdir. Həmid Alimcan 1928-1930-cu illərdə Səmərqənd Pedaqoji Akademiyasının ictimai elmlər bölməsində təhsil almışdır. Özbək ədəbiyyatının tanınmış şəxsiyyətlərindən olan Uyğun, Aydın, Mirtemir, Cəlal Əkrəmi burada olduğundan Həmid Alimcan onlarla tanış olmuşdur. Ümumiyyətlə, akademiyada mövcud olan elmi-ədəbi mühit onun bir şəxsiyyət və sənətkar kimi formalaşmasında mühüm rol oynamışdır.

Həmid Alimcan ilk şeirini tələbəlik illərində yazmışdır. Şairin bu dövrdə yazdığı şeirlər kitab halında 1929-cu ildə çapdan çıxmışdır. H.Alimcanın yaradıcılığında epik əsərlərinin əhəmiyyəti olduqca böyükdür. "Şahmərdan", "İki qızın hekayəsi", "Zeynəb və Aman", "Aygül və Bəxtiyar" və s. poemalarında epik janrın imkanlarından istifadə etməklə o, özbək həyatının özünəməxsusluqları şəraitində bütün reallıqlarını canlandıra bilmişdir. Həmid Alimcanın poema yaradıcılığının zirvəsi "Zeynəb və Aman" (1938) əsəridir. Əsərin mövzusu olmuş hadisələrdən götürülmüşdür. Poemanın baş qəhrəmanı Zeynəbin prototipi Buxaranın Gicduvan nahiyəsinin vətəndaşı Zeynəb Amanovadır. Poemanı yazmamışdan öncə, H.Alimcan 1936-cı ildə onun haqqında "Zeynəb" adlı oçerkini qələmə almışdır.

O, ilk əvvəllər qəzet və jurnallarda çalışmışdır. Bir qədər sonra isə elmi-tədqiqat institutunda işləmiş, ədəbiyyatın nəzəri məsələlərinə dair tədqiqatlar aparmışdır. Nəvai və Muqumi kimi sənətkarların yaradıcılığını tədqiq edən sanballı əsərlər yazmışdır.

Həmid Alimcanın bədii yaradıcılığında milli hisslərin güclü olması, istər-istəməz onun bir sənətkar olaraq müəyyən məhdudiyyətlər ilə üzləşməsinə gətirib çıxarmışdır. Belə ki, 30-cu illərin ortalarından başlayaraq o, millətçi və burjua ideologiyasının təbliğatçısı kimi təqib üzvlüyündən kənarlaşdırılmışdır. Həmid Alimcan qısa müddətdən sonra yenidən birliyə üzv qəbul olunmuş, özünün elmi və bədii yaradıcılığını davam etdirmişdir. O, 1939-cu ildə Özbəkistan Yazıçılar Birliyinə sədri təyin olunmuşdur.

Həmid Alimcan 1939-cu ildə o, Şöhrət ordeni ilə mükafatlandırılmış, 1943-cü ildə isə Özbəkistan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Həmid Alimcan 1944-cü il iyun ayının 3-də vəfat etmişdir. O, qısa, lakin şərəfli bir ömür yaşamışdır. Hazırda Özbəkistanın bir çox küçə, meydan, institut, orta məktəb, metro və s. yerləri onun adını daşıyır. 1979-1984-cü ildə ədibin seçilmiş əsərlərinin 10 cildliyi çap olunmuşdur.

Ədəbiyyat:

Sən doğulan gün [Mətn]: Şeirlər və poemalar /H. Alimcan; özbək dilindən tərcümə ed. Ə. Muxtar Bakı: Yazıçı, 1989. 91,[2] s.

Həmid Alimcan - müasir özbək ədəbiyyatının yaradıcılarından biri [Mətn] /E. Quliyev //Xalq Cəbhəsi.-2019.- 4 iyul.- S.14


İnternetdə:

https://az.wikipedia.org/wiki/H%C9%99mid_Alimcan

Səttar Bəhlulzadə – 115

(1909-1974)

Rəssam



Ədəbiyyat:

Abdinova, P. Səttar Bəhlulzadə: gözəlliyə həsr olunmuş həyat: [monoqrafiya] / P. Abdinova; elmi red. C. Novruzova; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Səttar Bəhlulzadənin ev-muzeyi.– [Bakı]: Şərq-Qərb, [2020].– 245, [7] s.

Əliyev, Z. Səttar Bəhlulzadənin Şuşa sevgis / Ziyasxan Əliyev Mədəniyyət.- 2022.- 28 sentyabr. - S.7.

Yaqubqızı, R. Xalq rəssamı, bənzərsiz Səttar Bəhlulzadə / Ramid Yaqubqızı // Respublika. 2022.- 15 dekabr.- S .8.

Səttar Bəhlulzadənin karikaturaları: "Kommunist" qəzetinin materialları əsasında: [kataloq] / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Səttar Bəhlulzadənin evmuzeyi; kataloqun tərt. və giriş sözünün müəl. P.Abdinova.-Bakı: [s.n.], 2016.-47 s.

Səttar Bəhlulzadə: biblioqrafiya / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; layih. rəhb. Ə.Qarayev; tərt. ed. M.Cahangirova, P.Qurbanova; ixtisas red. və burax. məs. K.Tahirov.- Bakı, 2009.- 181 s.

Səttar Bəhlul oğlu Bəhlulzadə 1909-cu il dekabr ayının 15-də Bakının Əmircan kəndində anadan olmuşdur. 1927-1931-ci illərdə Azərbaycan Rəssamlıq Texnikumunda təhsil almışdır. Burada Azərbaycanın Xalq rəssamı Ə.Əzimzadənin məsləhəti ilə o, "Kommunist" qəzetində karikaturaçı rəssam kimi işləməyə başlamışdır.

1933-cü ildə Sətar Bəhlulzadə Moskva V.İ.Surikov adına Rəssamlıq İnstitutunun qrafika fakültəsinə daxil olmuş, məşhur qrafika ustası V.A.Favorskinin emalatxanasında oxumuşdur. Səttar Bəhlulzadə üçüncü kursdan rəngkarlıq fakültəsinə keçmişdir. Burada o, Q.M.Şeqalın emalatxanasında rəngkarlıq sənətinin incəliklərinə yiyələnmişdir.

Bakıya qayıtdıqdan sonra Səttar Bəhlulzadə 1941-1943-cü illərdə Rəssamlıq Məktəbində dərs demişdir. Lakin tezliklə rəssam pedaqoji fəaliyyətinə son qoyaraq demək olar ki, həyatını bütünlüklə yaradıcılığa həsr etmişdir.

Azərbaycan təsviri sənət tarixində lirik mənzərə janrının banisi olan Səttar Bəhlulzadənin əsərlərində 40-50-ci illərdə realizm ənənələri üstünlük təşkil edirdisə, sonrakı illərdə onun realizmdən fərqli fərdi üslubunun formalaşması, artıq Bəhlulzadə dəst-xəttinin meydana gəldiyi aydın görünürmüş, Azərbaycan torpağına, doğma təbiətə vurğun olan rəssam öz məhəbbətini əsasən mənzərə və natürmortlarında açıqlamışdır. Rəssam Azərbaycanın demək olar ki, bütün regionlarını gəzmiş, doğma diyarın rəngarəng təbiətini "Abşeronun tacı", "Xəzər gözəli", "Mərdəkan", "Qədim Şamaxı", "Torpağın arzusu", "Bazardüzü", "Muğan gözəlləri" və b. mənzərələrində tərənnüm etmişdir. Azərbaycan təbiətinin nemətlərini və madi mədəniyyət nümunələrini "Şamaxı örtüyü ilə natürmort", "Zəfəranla natürmort" və s. əsərlərində təsvir etmişdir. Səttar Bəhlulzadənin yaradıcılığında tarixi mövzulara və böyük Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunmuş əsərlər də mövcuddur.

Sağlığında Səttar Bəhlulzadənin Bakıda (1955, 1974), Tiflisdə (1955, 1960), Praqada (1966), Moskvada (1973) fərdi sərgiləri keçirilmişdir. Vəfatından sonra rəssamın Moskvada, Yaltada, Minskdə, müstəqillik illərində Nyu-York, İstanbul (1994), London (1995), Bonn (1996), Daşkənd, Parisdə (2009) fərdi sərgiləri təşkil edilmişdir. Fərdi sərgilərindən başqa S.Bəhlulzadənin əsərləri həm keçmiş sovet respublikalarının paytaxtlarında, həm də dünyanın bir çox şəhərlərində - Qahirə, Vyana, Berlin, Paris, Neapol, Monreal, Havana və b. şəhərlərdə keçirilən Azərbaycan təsviri sənəti, Azərbaycan rəngkarlığına həsr olunmuş sərgilərdə nümayiş olunmuşdur.

1960-cı ildə Səttar Bəhlulzadə "Azərbaycanın əməkdar incəsənət xadimi", 1963-cü ildə Azərbaycan Təsviri Sənətinin inkişafında xidmətlərinə görə "Azərbaycanın Xalq Rəssamı" fəxri adlarına, 1972-ci ildə yaratdığı silsilə əsərlərinə görə Azərbaycan Dövlət Mükafatına və digər orden və medallara layiq görülmüşdür.

Səttar Bəhlul oğlu Bəhlulzadə 1974-cü il oktyabr ayının 14-də Moskvada vəfat etmiş, doğma Əmircan kəndində dəfn olunmuşdur. Əmircanda qəbirüstü abidəsi ucaldılmışdır. Bakının küçələrindən birinə adı verilmişdir

Ümummilli Lider Heydər Əliyevin istedadlı fırça ustasının Əmircanda yaşadığı evdə muzeyinin təşkil olunması haqqında müvafiq Sərəncamına əsasən 1994-cü ildə ev-muzeyi yaradılmışdır. 18 əsəri Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanılır.

Əsərlərinin UNESCO səviyyəsində sərgisi təşkil olunmuş, 2009-cu il "Səttar Bəhlulzadə ili" elan edilmişdir.

İbrahim Zeynalov – 90

(1934-2008)

Heykəltəraş



İbrahim İsmayıl oğlu Zeynalov 1934-cü il dekabr ayının 27-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1951-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin heykəltəraşlıq sinfinə (Həyat Abdullayevanın sinfinə) daxil olmuşdur. 1956-cı ildə məktəbin heykəltəraşlıq şöbəsini bitirən İbrahim Zeynalov elə həmin ildən təhsilini Xarkov Rəssamlıq institutunda davam etdirmişdir.

O, 1962-ci ildə ali təhsilini başa vuraraq Bakıya qayıtmış və bütün ömrünü heykəltəraşlıq sənətinə həsr etmişdir. 1957-ci ildən etibarən ən müxtəlif respublika, ümumittifaq və beynəlxalq sərgilərdə iştirak etmişdir. Azərbaycanda milli heykəltəraşlıq məktəbinin inkişaf etdirilməsində İbrahim Zeynalovun böyük xidmətləri olmuşdur. Onun monumental heykəl, büst-portret və digər heykəltəraşlıq janrlarında yaratdığı gözəl sənət əsərləri ölkəmizin zəngin ənənələrə malik heykəltəraşlıq mədəniyyətinin parlaq səhifələrindəndir. Öz yaradıcılıq illərində İbrahim Zeynalov Beyləqan şəhərində M.Beyləqaninin, Ə.Naxçıvaninin, İ.Nəsiminin (Tokay Məmmədovla birlikdə) Bakıda Şah İsmayıl Xətainin, Qəbələdə İsmayıl bəy Qutqaşınlının, M.F.Axundov adına Milli Kitabxananın foyesində Mirzə Fətəli Axundzadənin, Şamaxıda Mirzə Ələkbər Sabirin, Nəriman Nərimanovun və Hacı Zeynalabdin Tağıyevin unudulmaz obrazlarını gözəl abidələrə çevirərək mədəniyyət tariximizə həmişəlik həkk etmişdir.

İbrahim Zeynalov heykəltəraşlıq sənəti ilə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1971-1973-cü illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində müəllim işləmiş, 1973-1993-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) müəllim, baş müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdır. Harada işləməsindən və hansı vəzifəni tutmasından asılı olmayaraq, milli mədəni irsin təbliği, tədrisi və qorunmasında qüvvə və bacarığını əsirgəməmiş, özünün zəngin bilik və təcrübəsini gənc sənətkarlar nəslinin yetişdirilməsi işinə sərf etmişdir. 1994-cü ildən 2003-cü ilədək Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru olmuşdur.

İbrahim Zeynalovun Azərbaycan mədəniyyəti qarşısındakı xidmətləri yüksək qiymətləndirilmişdir. O, 1972-ci ildə SSRİ, 1976-cı ildə Azərbaycan Dövlət mükafatları laureatı olmuş, 1975-ci ildə "Əməkdar incəsənət xadimi", 1988-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. 3 iyul 2003–cü ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

İbrahim İsmayıl oğlu Zeynalov 2008-ci il mart ayının 6-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Quliyev, Ə. Ağac fiqurlardan monumental abidələrə: Heykəltəraş İbrahim Zeynalovun yaradıcılığına qısa nəzər / Əsəd Quliyev // Mədəniyyət.- 2022.- 20 iyul.- S.7.

Fərəcova, Z. Abidələşən düha: Tarixləşən heykəllər / Zöhrə Fərəcova // Azərbaycan.- 2019.- 27 yanvar.- S.6.

Fərəcov, S. Sənət tariximizi zənginləşdirən heykəltəraş / Savalan Fərəcov // Mədəniyyət.- 2015.- 6 mart.- S. 11.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0brahim_Zeynalov_(heyk%C9%99ltara%C5%9F)

Azər Zeynalov – 60

(1964)

Opera müğənnisi



Azər Zeynalabdin oğlu Zeynalov 1964-cü il dekabr ayının 13-də Naxçıvan şəhərində anadan olmuşdur.

1969-cu ildən Bakı şəhərində yaşayan Azər Zeynalov 1982-1989-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) dram rejissorluğu şöbəsində təhsil almışdır.

Musiqiyə olan həvəs onu 1990-cı ildə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrına gətirmiş, eyni zamanda Rafiq Babayevin "Cəngi" ansamblında da fəaliyyət göstərmişdir.

1990-cı ildə "Odlar Yurdu Bakı - 90" mahnı müsabiqəsinin laureatı olmuşdur. 1992-ci ildə Bakı Musiqi Akademiyasının vokal şöbəsinə daxil olmuş, 1994-cü ildə İtaliyada imtahan verərək "Aqostino Steffani" adına (Kastelfranko Veneto şəhəri) İtaliya Dövlət Konservatoriyasının vokal şöbəsinə qəbul olmuşdur. 1996-cı ildə "Opera ifaçısı" ixtisası ilə təhsilini bitirmiş, Azərbaycana dönmüş və Bakı Musiqi Akademiyasında yarımçıq qalmış təhsilini də başa vurmuşdur. 1996-cı ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistidir.

"Liriko-dramatik tenor" səs tembrinə malik olan Azər Zeynalov Avropanın və Azərbaycanın klassik operalarında baş rolların ifaçısıdır. O, yalnız opera ifaçısı kimi yox, həm də Azərbaycan bəstəkarlarının mahnı və romanslarını, oda və oratoriyalarını da ifa edir. E.Sabitoğlunun "Şükriyyə", "Gəncədən gəlirəm", T.Quliyevin "Bəxtəvər oldum", "Azərbaycan", R.Hacıyevin "Leyla", R.Mirişlinin "Vətən harayı", R.Qasımovanın "Sənin-ləyəm, Azərbaycan", R.Mustafayevin "Məhəmməd və Leyla", V.Adıgözəlovun "Qəm karvanı", S.Kəriminin "Ömrümün istəyi", "Sənsizləmişəm", S.Əliyevanın "Əziz anam" və s. musiqi əsərləri onun ifasında yaddaşlarda qalmışdır.

Öz ifası ilə xarici dövlətlərin böyük konsert salonlarında dəfələrlə çıxış etmişdir. Azər Zeynalov 2001-ci ildən ADMİU-da Vokal kafedrasının müdiri, 2015-ci ildən Musiqili teatr aktyoru kafedrasının və Azərbaycan Milli Konsevatoriyasında yeni yaradılmış Milli vokal kafedrasının ictimai əsaslarla müdiri vəzifələrində çalışmış, 2016- 2017-ci tədris ilindən etibarən pedaqoji fəaliyyətini yalnız Azərbaycan Milli Konservatoriyasında davam etdirərək Milli vokal kafedrasına rəhbərlik etmişdir. 2009-cu ildə "Milli vokal" kafedrası üzrə dosent, 2013-cü ildə isə professor adı almışdır. Vokal ifaçılığının tədrisi üzrə 2008-ci ildə maqistr, 2012 və 2016-cı illərdə isə bakalavr təhsil pilləsi üçün proqramlar tərtib etmişdir. 2012-ci ildə nəşr etdirdiyi "Vokal ifaçılığı" kitabı ali musiqi məktəblərinin opera-vokal sinfində təhsil alan tələbələr üçün ana dilində ilk dərslikdir.

Azərbaycan Opera sənəti sahəsində xidmətlərinə görə müxtəlif mükafatlar almışdır. 1995-ci ildə "Avropa TürkİslamKültür Cəmiyyəti" tərəfindən qızıl medalla təltif edilmiş, 1998-ci ildə Azərbaycan Respublikasının Xalq artisti, 2008-ci ildə isə Dağıstan Res-publikasının Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2013-cü ildə "TÜRKSOY" təşkilatının təsis etdiyi medalla təltif olunmuşdur.

2001-2023- ci illərdə hər il Prezident Mükafatına layiq görülmüşdür.

2023-cü ildə TÜRKSOY Beynəlxalq Mədəniyyət təşkilatının tədbirlərində fəal iştirakına və türkdilli ölkələrin mədəniyyətinin və incəsənətinin təbliğində xidmətlərinə görə həmin təşkilatın təsis etdiyi "TÜRKSOY-un 30 illiyi medalı" ilə təltif olunmuşdur.

Ədəbiyyat:

"Vokal və tədrisi metodikası" fənni üzrə nümunəvi repertuar: "Musiqi müəllimliyi" ixtisası üçün bakalavr səviyyəsi üzrə dərs vəsaiti / A. Z. Zeynalov (tərt.), N. M. Şahməmmədova (tərt.); elmi red. L. Ş. Hüseynova; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Milli Konservatoriyası.– Bakı:[CBS-PP] 2019.– 191, [1] s.

Varlığın Zinəti (Nəti - Şəzif) [Səsyazma] / söz N.Gəncəvi; mus. R.Mirişli; qiraət V.Məmmədəliyev; aranj. Y.Mirişli; ifa edirlər: A.Zeynalov və xor.- Bakı: [2015].-[1] elektron. opt. disk (CD ROM): 12 sm.

Xalq artisti Belarus teatrında çıxış edəcək // Mədəniyyət.- 2017.- 15 fevral.- S.2. Şəmsizadə, N. Şəmsizadə, N. Xalq artisti, professor Azər Zeynalov. Səs / Nizaməddin Şəmsizadə // Əgər onlar olmasaydı.../ red. E.İsgəndərzadə.-Bakı, 2015.- S.209-212.

İnternetdə:

https://metbuat.az/melumat/taninmis/18/azer-zeynalov.html

Nazpəri Dostəliyeva – 65

(1959)

Müğənni



Nazpəri Əhmədəli qızı Dostəliyeva 1959-cu il dekabrın 23-də Bakıda anadan olmuşdur.

Azərbaycan Dövlət İncəsənət Universitetini bitirmiş, 2018-ci ildə Nazpəri Dostəliyeva "İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Böyük səhnədə ilk addımlarını 1996-cı ildə atmışdır. 1998-ci ildən Azərbaycan Dövlət Teleradio Şirkətinin solistidir.

Nazpəri Dostəliyeva "Nə olar Allahım, ayırma bizi", "Mənim göz yaşımı görməyəcəksən", "Dilbərim", "Bağışla ana", "Unut kədərini, qəmini unut" kimi yaddaqalan mahnılar ifa etmiş, bu mahnılar həm də ona böyük populyarlıq qazandırmışdır.

Nazpəri xanımın yaradıcılığı səhnə fəaliyyəti ilə bitmir. 2009-cu ildən özünün də məzunu olduğu Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuş Nazpəri xanım, gənclərdə peşəkarlığa və akademik musiqiyə marağı və sevgini aşılamaq məqsədilə Azərbaycan bəstəkarlıq məktəbi tarixində öz sözlərini əsərləri və mahnıları ilə demiş Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Cahangir Cahangirov, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Elza İbrahimova, Ramiz Mirişli və başqa bəstəkarların mahnılarını öyrədərək, onlardan sənətə ciddi yanaşmağı tələb edir.

Fransanın Paris, Almaniyanın Bonn, Frankfurt, Köln və Hannover, Niderlandın Amsterdam, Norveçin Oslo, Türkiyənin bir çox şəhərlərinin böyük konsert salonlarında solo konsertlərlə çıxış edən Nazpəri xanım müasir Azərbaycan bəstəkarları və musiqiçiləri ilə də dünyaya səs salmış beynəlxalq yaradıcılıq layihələri həyata keçirmişdir.

Nazpəri xanım 2018-ci il iyun ayının 20-də "Azərbaycanın şərq və qərb aşıq məktəblərinin xüsusiyyətləri və ifaçılıq ənənələrinin müqayisəli təhlili" adlı dissertasiya işini müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Nazpəri xanımı Azərbaycan mədəniyyəti qarşısındakı xidmətləri yüksək qiymətləndirilmişdir. 2002-ci ildə "Əməkdar artist", 2008-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat:

Babazadə, Ə. Sevgidən doğulmuş sənət və ya əbədiyyəti yaradan nəfəs / Əbülfəz Babazadə // 525-ci qəzet.- 2018.- 18 iyul.- S.7.

Salmanov, R. Bu bir röya, bir yuxu idi / Rafiq Salmanov // Xalq qəzeti.- 2000.- 26 dekabr.

Xəlilzadə, F. Mehriban olaq / Flora Xəlilzadə // Azərbaycan.- 2000.- 26 dekabr.- S.6.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Nazpəri_Dostəliyeva

http://ek.anl.az/lib/item?id=chamo:138622&theme=e-kataloq

Şamil Mahmudbəyov – 100

(1924-1997)

Aktyor



Şamil Fərəməz oğlu Mahmudbəyov 1924-cü il dekabr ayının 5-də Naxçıvan şəhərində anadan olmuşdur.

Gəncliyi Böyük Vətən müharibəsi illərinə təsadüf edən Şamil Mahmudbəyov ordu sıralarında xidmət etmiş, Qroznıda hərbi-texniki məktəbi qurtararaq Birinci Ukrayna Cəbhəsində döyüşən hissənin tərkibində vuruşmuşdur.

Ordudan tərxis edildikdən sonra Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olmuş, görkəmli rejissor S.Gerasimovun və aktrisa T.Makarovanın kursunda təhsil almışdır.

1954-cü ildən Bakı Kinostudiyasında (Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Dövlət Kinostudiyasında) rejissor vəzifəsində çalışmış, Azərbaycan kinosunun klassikasına çevrilmiş onlarca bədii film çəkmişdir.

Quruluş verdiyi ilk bədii lenti 1955-1956-cı illərə aid "Sol gediş" qısametrajlı film olmuşdur. Sənətkarın yaradıcılığı sonralar çəkdiyi "Romeo mənim qonşumdur", "Qaraca qız", "Torpaq, dəniz, od, səma", "Şərikli çörək", "Həyat bizi sınayır", "Skripkanın sərgüzəşti", "Dərviş Parisi partladır", "Bayquş gələndə", "Vadidə üsyan", "Tənha narın nağılı" kimi filmlərlə zənginləşdirmişdir. Həm rejissor, həm də aktyor kimi fəaliyyət göstərən Şamil Mahmudbəyov əsərlərində bir çox janrlara müraciət etmiş və fərqli səviyyələrdə uğurlar qazanmışdır.

1966-cı ildə Süleyman Sani Axundovun eyniadlı hekayəsi əsasında ekranlaşdırılan "Qaraca qız" filminin ssenarisi də Şamil Mahmudbəyova məxsusdur. Bu film böyük maraqla qarşılanmış və bu gündə tamaşaçıların sevərək baxdıqları filmlərdəndir. İkinci Dünya müharibəsinin uşaqların həyatına təsirindən bəhs edən "Şərikli çörək" filmi Şamil Mahmudbəyovun şah əsəridir. 1969-cu ildə bu filmə görə Dövlət Mükafatı ilə təltif edilmişdir. Bədii filmlərindən əlavə, Şamil Mahmudbəyov vaxtilə çox məşhur olan "Mozalan" satirik kinojurnalı üçün də film-süjetlər yaratmışdır. Onun özünəməxsus yumor hissi bu əsərlərdə aydın görünür. "Yazmaqla düzəlsəydi", "Varlığa nə darlıq" kimi film-süjetlər buna parlaq misaldır.

Şamil Mahmudbəyov aktyor kimi də kino tariximizdə imzasını qoymuşdur. Onun bir sıra filmlərdə oynadığı rollar maraq doğurmuşdur. "Yenilməz batalyon"da Əlimərdan, həmçinin son çəkildiyi "Fəryad" filmində yaratdığı erməni həkim obrazı çox baxımlı və yaddaqalan olmuşdur.

1970-ci ildə Azərbaycan SSR Dövlət mükafatı almış, 1976-cı ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Şamil Fərəməz oğlu Mahmudbəyov 1997-ci il may ayının 20 də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Həmidə. Onun həyat filmi: Şamil Mahmudbəyov yad edildi: [Dövlət Film Fondunda kinorejissorun 95 illiyi ilə əlaqədar keçirilən tədbir haqqında] / Həmidə // Mədəniyyət.– 2019.– 18 oktyabr.– S.1;6.

Mükərrəmoğlu, M. Uşaqlığın şərikli çörəyi: [rejissor Şamil Mahmudbəyovun eyniadlı filmi haqqında] / Mehdi Mükərrəmoğlu // Xalq qəzeti.– 2019.– 9 may.– S.11.

Əmirli, Ş. 45 ildir "Dərviş Parisi partladır"/ Şamil Əmirli // Mədəniyyət.- 2021.- 26 fevral.- S.7.

Əmirli, Ş. 50 yaşlı "Şərikli çörək" / Şəhla Əmirli // Mədəniyyət.- 2019.- 24 aprel.- S.6.

Əbdülrəhmanlı, N. Şamil Mahmudbəyov - ilk kino məmurumuz / N.Əbdülrəhmanlı //Aydın yol.-2016.- 13 may.- S.11.

Şamil Mahmudbəyovun son filmi təqdim olunacaq // Mədəniyyət.-2017.- 20 dekabr.- S.3.

Fatma Mahmudova – 70

(1954) *Aktrisa*



Fatma Yaqub qızı Mahmudova 1954-cü il dekabr ayının 30-da Ağdam rayonunda anadan olmuşdur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunu (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) "Teatr kollektivi rejissoru" ixtisası üzrə bitirmişdir.

1968-ci ildən Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrında aktrisa işləmişdir. Teatrın aparıcı aktrisalarından olan Fatma Mahmudova bu müddət ərzində bir çox özünəməxsus obrazlar yaratmağa nail olmuşdur. Sona xanım (Ə.Haqverdiyev "Dağılan tifaq"), Məryəm (S.Vurğun "Fərhad və Şirin"), Sara (C.Cabbarlı "Solğun çiçəklər"), Həcər (S. Rüstəm "Qaçaq Nəbi"), Təhminə (Anar "Təhminə və Zaur"), Ana (A.Kamyu "Qismət") və s. bu kimi obrazları tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Aktrisa 1987-ci ildə "Pirverdinin Xoruzu" filmində Həlimə roluna çəkilmişdir.

Ağdam rayonunun işğalı ilə bağlı Bakıda köçkün kimi yaşayan Fatma Mahmudova 1994-cü ildən taleyini Azərbaycan Dövlət Musiqili Komediya Teatrı ilə bağlamalı olmuşdur. Teatrın repertuarında olan tamaşaların əksəriyyətində rol alaraq bir sıra maraqlı obrazlar yarada bilmişdir. O, "On min dollarlıq keyf" (C.Məmmədov və E.Sabitoğlu) tamaşasında Bağdagül, "Hərənin öz ulduzu"nda Xurma (İ.Məlikzadə və S.Ələsgərov), "Bankir adaxlı"da ağuçu Gülbikə (E.Sabitoğlu və T.Vəliyeva), "Birgünlük sığə"də Adilə Dudu (R.N.Güntəkinin əsəri əsasında. Libretto müəllifi C.Məmmədov, bəstəkar S.Fərəcov), "Adamın adamı"nda At Balaxanım (Anar), "Məsmə xala dayımdır" əsərində Əsmər (C.Məmmədov və R.Mustafayev), "Şeytanın yubileyi"ndə Məryəm (A.Babayev və O.Rəcəbov) və s. obrazları peşəkarlıqla ifa etmişdir.

On beşə qədər filmdə çəkilmişdir. "Ərazi","Məşədi İbad-94", "Moskva-Bakı qatarı", "Hərənin öz payı+tayı (Gülxanım)", "Bəylik dərsi və ya keçmişdən gülməcələr..., Kəndim+nizə qayıdın!?", "Yanmış körpülər", "Acılar bitməz (qonşu)", "Bacanaqlar", "21 sual" filmlərində bir-birindən maraqlı obrazlar yaratmışdır.

Fatma Mahmudova 1989-cu ildə Əməkdar artist, 2000-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2006-cı il 15 may tarixindən Prezident təqaüdçüsüdür.

Ədəbiyyat:

"Nə günah işlətmişəm ki, məni Ağdama aparmırlar?!": Xalq artisti Fatma Mahmudova: "Oradakı evimin xarabalığında bir az oturub Ağdam Teatrının uçuq divarlarına baxmaq istəyirəm" / Fatma Mahmudova // 525-ci qəzet.– 2022.– 7 yanvar.– S.8.

Xalq artisti: "aktrisa kimi xoşbəxtəm, amma qadın kimi yox..." / F.Mahmudova // Şərq.- 2017.- 13 iyun.- S.13.

Fatma Yaqub qızı Mahmudova / Z.Nağıyev // Ağdam və onun yetirmələri / Z.Ə.Nağıyev; red. Z. Nağıyeva.- Kitab 3.- Bakı, 2013.- S. 317-318.

Rəhimli, İ. Fatma Mahmudova / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası : üç cilddə; layihənin rəhb. Ə.M.Qarayev [ön söz]; red. hey.: T.İ.Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Cild 1.- Bakı, 2016. - S.390.

İnternetdə:

https://musiqiliteatr.az/staff/az/6

Yusif Əliyev – 55

(1969-1991)

Milli Qəhrəman



Yusif Əliyusif oğlu Əliyev 1969-cu il dekabr ayının 2-də Bakının Qobustan qəsəbəsində anadan olmuşdur.

Qəsəbədəki 223 saylı orta məktəbi bitirmişdir. 1988-ci ildə ordu sıralarına çağırılmış, hərbi xidmətini Sverdlovsk şəhər piyada qoşun hissəsində keçmişdir. 1990-cı ildə ordudan tərxis olunaraq Bakıya qayıtmışdır.

1990-cı ilin avqustunda polis sıralarına qəbul olunan Yusif Əliyev post-patrul xidməti alayının 3-cü rotasında xidmət etmişdir.

İlk döyüş yolu 1991-ci ilin fevralında Goranboydan başlamışdır. Həmin ərəfədə ermənilər Buzluq, Mənəşid, Erkəs kəndləri istiqamətindən hücum etmişlər. 1991-ci il sentyabr ayının 14-də düşmən Buzluq kəndinə hücum etdikdə əsgərlərimizə sursat çatdırmaq Yusifin həyatı bahasına başa gəlmişdir. Həmin döyüşdə Yusif Əliyev qəhrəmancasına şəhid olmuşdur. Ağsu rayonunun Rəhimli kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Əliyev Yusif Əliyusif oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Qobustan qəsəbəsindəki 195 saylı orta məktəb Milli Qəhrəmanın adını daşıyır. Məktəbdə büstü qoyulmuşdur. "Yaddaş" studiyasında Yusif Əliyevin xatirəsinə həsr olunmuş "Vətənə bağışlanan həyat" sənədli filmi çəkilmişdir. 2015-ci ildə Qobustan qəsəbəsindəki Aşıq Rza adına Mədəniyyət evində filmin təqdimatı keçirilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əliyev Yusif Əliyusif oğlu - DİN PQKA milis nəfəri -Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.24.- (Ölümündən sonra).

Cəmilzadə, H. Əbədiyyətə qovuşmuş ömür / H.Cəmilzadə // Azərbaycanın ilk Milli Qəhrəmanları / H.Cəmilzadə.- Bakı, 1993.- S.106-115.

Əsgərov, V. Əliyev Yusif Əliyusif oğlu / Y.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / Y.Əsgərov.- Bakı, 2005.- S.63-64.

Əliyev Yusif Əliyusif oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.66.

Hüseynzadə, F. Milli qəhrəmanlarımıza sonsuz ehtiramın nümunəsi / Fuad Hüseynzadə // Palitra.- 2019.- 4 dekabr.- S.11.

Seyidzadə, M. Əliyev Yusif Əliyusif oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi / M.Seyidzadə.-Bakı, 2010.- S.63.

"Vətənə bağışlanan həyat" sənədli filminin nümayişi // Mədəniyyət.- 2015.- 2 dekabr.- S. 12.

Barat, E. Ömür payı: Milli Qəhrəman Yusif Əliyevə ithaf / Elşad Barat // Ədəbiyyat qəzeti.- 2020. - 3 oktyabr. - S. 18.

İnternetdə:

https://avciya.az/%C9%99liyev-yusif-%C9%99liyusif-oglu/

DEKABR
1

Həsən Dəmirov - 30

(1994-2020) *MAHHXHQ baş əsgər*



Həsən Turan oğlu Dəmirov 1994-cü il dekabrın 1-də Cəlilabad rayonunun Muğan kəndində anadan olmuşdur.

2001-2012-ci illərdə Muğan kənd tam orta məktəbində təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Təxlis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmış, hərbi xidmətini Naftalan rayonunda N saylı hərbi hissədə MAHHXHQ kimi davam etdirmişdir.

Azərbaycan Ordusunun baş əsgəri olan Həsən Dəmirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Cəlilabad rayonunun Muğan kəndində dəfn olunmuşdur. Ailəli idi.

Həsən Dəmirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr. - S. 29-34.

1

Gündüz Abdullayev - 25

(1999-2020) *MAHHXHQ əsgər*



Gündüz Çingiz oğlu Abdullayev 1999-cu il dekabrın 1-də Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olmuşdur.

2007-2018-ci illərdə Zəhmətabad kənd tam orta məktəbində təhsil almışdır. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Qazax şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Gündüz Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Gündüz Abdullayev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. 17 dekabr 2020-ci il tarixində Biləsuvar rayonunda dəfn olunmuşdur.

Çingiz Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.61-65.

https://az.wikipedia.org/wiki/Gündüz_Abdullayev_(əsgər)

DEKABR

1

Ceyhun Talıbzadə - 30

(1994-2020)

Əsgər



Ceyhun Aqil oğlu Talıbzadə 1994-cü il dekabrın 1-də Salyan rayonu Şorsulu kəndində anadan olmuşdur. 2001-2012-ci ildə Şorsulu kənd məktəbini bitirmişdir. 2013-2014-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgər olan Ceyhun Talıbzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd döyüşlərində iştirak etmişdirir. 18 oktyabrda 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Şorsulu kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ceyhun Talıbzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr. - S.1;13.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2761

2

Azər Qasımov - 45

(1979-2020)

MAHHXHQ əsgər



Azər Yaqub oğlu Qasımov 1979-cu il dekabrın 2-də Tərtər rayonunun Yenikənd kəndində anadan olmuşdur. 1986-1997-ci illərdə Yenikənd kənd orta məktəbində təhsil almışdır.

1997-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır. 2014-cü ildən müddətdən artıq hərbi qulluqçu kimi Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışdır. 2016-cı ildə Aprel döyüşlərində iştirak edərək xüsusi medalla təltif edilmişdir.

Azərbaycan Ordusunun əsgər olan Azər Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan döyüşlərində iştirak etmişdir. 29 oktyab 2020-ci ildə Talış Suqovuşan istiqamətindəki döyüşlər zamanı şəhid olmuşdur. Tərtərdə dəfn edilmişdir. Ailəli idi. 4 övladı Vətənə yadigar qalıb.

Azər Qasımov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S. 6-12.

3 DEKABR

Amid Əliyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Amid İbrahim oğlu Əliyev 1999-cu il dekabrın 3-də Biləsuvar rayonunun Çaylı kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Çaylı kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Amid Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. 1 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunda dəfn olunmuşdur.

Amid Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2950

3

Elnur Quliyev - 35

(1989-2020)

MAHHX əsgər



Elnur Sərdar oğlu Quliyev 3 dekabr 1989-cu ildə Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun müddətdən artıq hərbi qulluqçusu olan Elnur Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 27 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Elnur Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən onra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 81-84.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2645

DEKABR

4

Cəlal Ağayev - 40

(1984-2020)

Gizir



Cəlal Ağaverdi oğlu Ağayev 1984-cü il dekabrın 4-də Lerik rayonunun Kornədi kəndində anadan olmuşdur. 1992-2003-cü illərdə Vizəzəmin kənd orta məktəbində təhsil almışdır.

2003-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır. 2005-ci ildə Azərbaycan Ordusunda müddətdən artıq xidmət göstərmişdir.

Azərbaycan Ordusunun giziri olan Cəlal Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 29-da Madagizin azad edilməsi zamanı zamanı şəhid olmuşdur. Lerik rayonunun Kornədi kəndində dəfn olunmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Cəlal Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr. - S.5.

İnternetdə:

https://www.unudulmazlar.az/az/infom/980

5

Turan Muradov - 30

(1994-2020)

Gizir



Turan Vaqif oğlu Muradov 5 dekabr 1994-cü ildə, Zərdab rayonunun Körpükənd kəndində anadan olmuşdur. Xasa kənd orta məktəbində təhsilini almışdır. 2013-2014-cü illərdə Füzuli rayonunda müddəti hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra, müddətdən artıq hərbi xidmətə başlamışdır. Xidmətdə fərqlənməsinə görə, o gizir hazırlığı kursuna göndərilmişdir. Kursu başa vurduqdan sonra, gizir rütbəsi almış və manqa komandiri təyin olunmuşdur.

Azərbaycan Ordusunun giziri olan Turan Muradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. O, 25 oktyabr 2020-ci ildə Körpükənd qəbristanlığında dəfn olunmuşdur.

Turan Muradov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67

6 DEKABR

Oruc Cabbarov - 25

(1999-2020) *MAHHXHQ əsgər*



Oruc Akif oğlu Cabbarov 1999-cu il dekabrın 6-da Yevlax rayonunun Nərimanabad kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Nərimanabad kənd orta məktəbində təhsil almışdır. 2018-ci ildən Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2020-ci ildən MAHHXHQ kimi Azərbaycan Ordusunda xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Oruc Cabbarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 4-də Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamışdır. 2 yanvar 2021-ci ildə doğulduğu Yevlax rayonunun Nərimanabad kəndində dəfn olunmuşdur.Oruc Cabbarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Cabbarov Oruc Akif oğlu // Memorial. Vətən müharibəsi şəhidləri.- Bakı, 2022.- S.288.

6

Emil Abduləzimli - 30

(1994-2020) *Əsgər*



Emil Rasim oğlu Abduləzimli 6 dekabr 1994-cü ildə Zəngilan rayonunda anadan olmuşdur. 2001-2012-ci illərdə Masazır kənd 2 saylı orta məktəbdə, 2012-2014-cü illərdə Azərbaycan Kooperasiya Universitetində təhsil almışdır. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Emil Abduləzimli 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl, Hadrut, və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 19 oktyabr 2020-ci ildə Cəbrayıl döyüşləri zamanı şəhid olmuşdur.

Emil Abduləzimli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S. 6-13.

7 DEKABR

Hikmət Hacıyev - 40

(1984-2020) — *Kapitan*



Hikmət Şubay oğlu Hacıyev 7 dekabr 1984-cü ildə Şəmkir şəhərində anadan olmuşdur. Orta təhsilini Şəmkir şəhərində almışdır. 1999-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuşdur. 2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdır. 2006-cı ildə leytenant rütbəsi ilə hərbi xidmətə başlamışdır. 3 il Füzulidə xidmət etmişdir. 2014-cü ildə kapitan rütbəsi almışdır.

Azərbaycan Ordusunun kapitanı olan Hikmət Hacıyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2 oktyabr tarixində Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə ağır yaralanmış, 8 noyabr 2020-ci ildə şəhid olmuşdur. Ailəli idi. 2 övladı Vətənə yadigar qalıb.

Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə III dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il // Azərbaycan.- 2022.- 6 noyabr.- S.2.

https://memorial.az/az/qehremanlarimiz/1714

8

Pərviz Həsənov - 35

(1989-2020) — *MAHHXHQ baş əsgər*



Pərviz Fərmayıl oğlu Həsənov 1989-cu il dekabrın 8-də Samux rayonunun Poylu kəndində anadan olmuşdur. 1997-2008-ci illərdə Poylu kənd tam orta məktəbində təhsil almışdır. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2009-cu ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş əsgəri olan Pərviz Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Pərviz Həsənov noyabrın 6-da Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Ailəli idi. Bir övladı Vətənə yadigar qalıb.

Pərviz Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci i // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/3088

DEKABR
9

Nicat Həsənquliyev - 35

(1989-2020) *MAHHXHQ kiçik çavuş*



Nicat Aydın oğlu Həsənquliyev 1989-cu il dekabrın 9-da Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Nicat Həsənquliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 26-da Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Ailəli idi. Bir övladı Vətənə yadigar qalmışdır.

Nicat Həsənquliyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və III dərəcəli "Vətənə xidmətə görə" ordeni medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S.6-13.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/886

http://ismayilli-ih.gov.az/az/page/158.html

9

Nicat Xəlilli - 30

(1994-2020) *Əsgər*



Nicat Əli oğlu Xəlilli 1994-cü il dekabrın 9-da Zaqatala rayonunun Muğanlı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə O.Rəsulov adına Muğanlı kənd tam orta məktəbində təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Nicat Xəlilli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər və Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, oktyabrın 9-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Zaqatala rayonunun Muğanlı kəndində dəfn olunmuşdur.

Nicat Xəlilli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 6-12.

İnternetdə

https://diaspor.info/siyaset/19334-shehd-ncat-xelll-muasr-tarx-yazanlardandr.

Ramiz Cəfərov - 50

(1974-2020) *Polkovnik-leytenant*



Ramiz Sübhan oğlu Cəfərov 1974-cü il dekabrın 10-da Donesk vilayətinin Makeyevka şəhərində anadan olmuşdur.

1981-1985-ci illərdə Sumqayıt şəhərində 17 nömrəli tam orta məktəbdə, 1985-1989-cu illərdə Sumqayıt şəhərində 11 nömrəli tam orta məktəbdə, 1989-1992-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır.

1992-1996-cı illərdə V. F. Marqelov adına "Suvorov" ordenli Ryazan Qvardiya Ali Hava-Desant Komandanlığı Məktəbində ali hərbi təhsil almışdır. Alman, ingilis və rus dillərini bilirdi. Ramiz Cəfərov 2004-cü ildə martın 1-dən martın 20-nə qədər Birləşmiş Ştatlarda baş tutan NATO-nun "Əməliyyat heyəti zabitləri" Kursunda iştirak etmişdir. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Polkovnik-leytenant Ramiz Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrin sıralarında tabeliyində olan hərbi qulluqçularla Cəbrayıl rayonu və Şuşa rayonu istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Ümumi olaraq 40 gün ərzində bir sıra yaşayış məntəqələrinin, həmçinin əlverişli mövqelərin və strateji nöqtələrin azad edilməsi uğrunda gedən döyüşlərdə olmuşdur. Noyabrın 6-da Şuşa istiqamətində şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ramiz Cəfərov ailəli idi, 5 övladı Vətənə yadigar qaldı.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Ramiz Cəfərova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Ramiz Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", 1-ci dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Silahlı Qüvvələri Veteranı", "Azərbaycan Ordusunun 100 illiyi", "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci il fevralın 19-da İctimai TV-də Ramiz Cəfərova həsr olunan "Bir Şuşa qəhrəmanı" sənədli filmi təqdim olunmuşdur. 25 dəqiqədən ibarət olan sənədli filmin ssenari müəllifi Ramil Ələkbərov, rejissoru isə Elmar Orucovdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 10 dekabr. - S. 3.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/83

https://az.wikipedia.org/wiki/Ramiz_Cəfərov_(polkovnik-leytenant)

https://unudulmazlar.az/az/infom/2185

DEKABR
10

Vüsal Məhərrəmov - 45

(1979-2020) *Leytenant*



Vüsal Aslan oğlu Məhərrəmov 1979-cu il dekabrın 10-da Masallı rayonunun Hışgədərə kəndində anadan olmuşdur. 1986-1997-ci illərdə Hişkədərə kənd tam orta məktəbində, 1997-2001-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında (hazırki ADAU) təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Vüsal Məhərrəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir Vüsal Məhərrəmov noyabrın 6-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Masallı rayonunda dəfn olunmuşdur. Ailəli idi. 2 övladı Vətənə yadigar qalıb.

Vüsal Məhərrəmov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan $g 2021.- 25 iyun. - S. 1-6.

İnternetdə:

http://masalli-ih.gov.az/az/news/3289.html

https://president.az/az/articles/view/49098

10

Elvin Səfərov - 35

(1989-2020) *Miçman*



Elvin Ramiz oğlu Səfərov 1989-cu il dekabrın 10-da Lerik rayonunun Soru kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə T. Cəfərov adına Soru kənd tam orta məktəbində təhsil almışdır. 2008-2009-cu illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsində xüsusi təyinatlıların sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı olan Elvin Səfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrutun, Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 31-də Xocavəndin Qızılqaya yüksəkliyi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmusdur. 1 noyabr 2020-ci ildə Lerik rayonunun Soru kəndində dəfn edilmişdir.

Elvin Səfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Qarabağ" ordeni və "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

DEKABR
10

Emil Qurbanov - 25

(1999-2020)

MAHHXHQ əsgər



Emil Rafael oğlu Qurbanov 10 dekabr 1999-cu ildə Ağdam rayonunun Çəmənli kəndində anadan olmuşdur. 2007-2017-ci illərdə Ziyəddin İsgəndərov adına məktəbdə təhsil almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən Azərbaycan Ordusu sıralarında müddətdən artıq hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Emil Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağı, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 10 oktyabr 2020-ci ildə Suqovuşanın azadlığı uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur.

Emil Qurbanov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S. 7-9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Emil_Qurbanov_(əsgər)

10

Amil Rüstəmov - 30

(1994-2020)

MAHHXHQ əsgər



Amil Bədrəddin oğlu Rüstəmov 1994-cü il dekabrın 10-da Tovuz rayonunun Bayramlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Amil Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Tovuz rayonunda dəfn olunmuşdur.

Amil Rüstəmov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

İnternetdə:

https://e-qanun.az/framework/46559

https://az.wikipedia.org/wiki/Amil_R%C3%BCst%C9%99mov

DEKABR
11

Həmid Qasımov - 30

(1994-2020)

Baş leytenant



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

Həmid Oruc oğlu Qasımov 1994-cü il dekabrın 11-də Şərur rayonunun Qışlaqabbas kəndində anadan olmuşdur. Orta təhsilinə Kəngərli rayonunun Qabıllı kənd məktəbindən almışdır. 2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

Həmid Qasımov 2016-cı ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət etmişdir. 2016-2017-ci illərdə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə Tağım Komandiri, 2017-ci ildən isə Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 2019-cu ildə Bölüyün Komandiri olmuşdur.

Azərbaycan Ordusunun baş leytenantı olan Həmid Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Həmid Qasımov oktyabrın 3-də Talış istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur. Kəngərli rayonunun Qabıllı kəndində dəfn olunmuşdur.

Həmid Qasımov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

11

Cəfər Cəfərli - 25

(1999-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 45-57.

Cəfər Babacəfər oğlu Cəfərli 11 dekabr 1999-cu ildə Yardımlı rayonu Avun kəndində anadan olmuşdur. 2006-2016-cı ildə şəhid Vüqar Bəndəliyev adına Urakəran kənd tam orta məktəbində təhsil almşdır. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət həqiqi hərbi xidmətə çağrılmışdır. Xidmətini başa vurduqdan sonra Xüsusi Təyinatlı Qüvvələrin tərkibində MAXE hərbi qulluqçu kimi davam etmişdir.


Azərbaycan Ordusunun əsgəri Cəfər Cəfərli Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində iştirak etmişdir. 3 noyabr tarixində Xocavənd rayonu uğrunda gedən döyüşlər zamanı şəhid olumuşdur. 14 dekabr 2020-ci ildə Yardımlı rayonu Avun kəndində dəfn edilmişdir.

Cəfər Cəfərli Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü", 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

11 DEKABR

Vüqar Mövlanov - 30

(1994-2020) *Əsgər*



Vüqar Tumarxan oğlu Mövlanov 11 dekabr 1994-cü ildə Lerik rayonunun Günəşli kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Lerik rayon Günəşli kənd tam orta məktəbində təhsil almışdır. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışıdr.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Mövlanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Hadrutun və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 6 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Lerik rayonunun Günəşli kəndində dəfn olunmuşdur.

Vüqar Mövlanov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.32-44.

https://az.wikipedia.org/wiki/V%C3%BCqar_M%C3%B6vlanov

12

Elvin Əlimərdanov - 30

(1994-2020) *Əsgər*



Elvin İlham oğlu Əlimərdanov 1994-cü ilin dekabr ayının 12-də Sumqayıtda anadan olmuşdur. Orta məktəbi Gürcüstan Respublikasının Bolnisi rayonun Saraçlı kəndində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Əlimərdanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. 16 oktyabr 2020-ci il tarixində Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmşdur. Lakin Elvin Əlimərdanovun nəşi tapılmamışdır. Şəhidin nəşi 1 dekabr 2020-ci il tarixində tapılaraq Xırdalan şəhər şəhidlər xiyabanında dəfn edilmişdir.

Elvin Əlimərdanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Elvin_%C6%8Flim%C9%99rdanov


DEKABR

14

Sabir Hüseynov - 25

(1999-2020)

Əsgər



Sabir Hüseynov Elşən oğlu 14 dekabr 1999-cu ildə Siyəzən rayon Yenikənd kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Yenikənd kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elşən Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl və Zəngilan istiqamətində gedən ağır döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 14-də Qubadlı istiqamətində gedən şiddətli döyüş zamanı qəhrəmancasına şəhid olmuşdur. 27 oktyabr tarixində dəfn edilmişdir.

Elşən Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 45-57.

İnternet:

https://azertag.az/xeber/1815335

15

Əli Bağırov - 30

(1994-2020)

Əsgər



Əli Eltay oğlu Bağırov 15 dekabr 1994-cü ildə Xəzər rayon Buzovna qəsəbəsində anadan olmuşdur. 26 saylı orta məktəbdə təhsil almışdır. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əli Bağırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 10 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndində uğrunda gedən döyüşlər zaman şəhid olmuşdur. Xəzər rayonunun Buzovna qəsəbəsində dəfn olunmuşdur.

Əli Bağırov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

DEKABR
15

Murad Əsədov - 25

(1999-2020)

Əsgər



Murad Rüstəm oğlu Əsədov 15 dekabr 1999-cu ildə Ağcabədi rayonunun Şərəfxanlı kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Ağcabədi rayon şəhid Ceyhun Cəfərov adına Şərəfxanlı kənd tam orta məktəbində orta təhsil almışdır. Murad Əsədov 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Murad Əsədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə, 8 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.

Murad Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.21-31.

15

Telman Qarayev - 25

(1999-2020)

Əsgər



Telman Əli oğlu Qarayev 1999-cu il dekabrın 15-də Şəmkir şəhərində anadan olmuşdur. 2007-2014-cü illərdə M. Füzuli adına Şəmkir şəhər tam orta məktəbində, 2014-2016-cı illərdə N. Gəncəvi adına Şəmkir şəhər tam orta məktəbində, 2016-2019-cu illərdə isə Şəmkir Peşə Liseyində təhsil alıb. Telman Qarayev 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqcusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Telman Qarayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 8-də Hadrutun azad edilməsi uğrunda gedən döyüşlər zamanı ağır yaralanmışdır. Noyabrın 25-də isə şəhid olmuşdur. Şəmkir şəhərində dəfn olunmuşdur.

Telman Qarayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il Azərbaycan $g 2020.- 26 dekabr.- S.1;13.

DEKABR
17

Ramin Kərimli - 25

(1999-2020)

MAHHXHQ əsgər



Ramin Əli oğlu Kərimli 17 dekabr 1999-cu ildə İmişli rayonunun Qaragüvəndikli kəndində anadan olmuşdur. Ramin 2005-2016-cı illərdə İmişli rayon Qaragüvəndikli kənd tam orta məktəbdə təhsil almışdır. Ramin Kərimli Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Bir müddət mülki fəaliyyət göstərdikdən sonra fəaliyyətini müddətdən artıq hərbi qulluqçu kimi davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ramin Kərimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Aslan Salmanov 28 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Ramin Kərimli Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 6-12.

17

İsmayıl Qasımov - 35

(1989-2020)

Gizir



İsmayıl Sadiq oğlu Qasımov 17 dekabr 1989-cü ildə Sumqayıt şəhərində anadan olmuşdur. 1996-2007-ci illərdə Sumqayıt şəhər 14 saylı orta məktəbdə təhsil almışdır. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun giziri İsmayıl Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində iştirak etmişdir. 9 oktyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. 10 dekabr 2020-ci ildə İkinci Fəxri Xiyabanda dəfn edilmişdir. Ailəli idi. Bir övladı Vətənə yadigar qalıb.

İsmayıl Qasımov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020. - 19 dekabr. - S. 6-12.

DEKABR
20

Ramil Ağayev - 40

(1984-2020)

Mayor



Ramil Mərdan oğlu Ağayev 1984-cü il dekabrın 20-də Lerik şəhərində anadan olmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Ramil Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Lerik şəhərində dəfn olunmuşdur. Ailəli idi. İki övladı vətən yadigar qalıb.

Ramil Ağayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Ordusunun 100 illiyi", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il // Azərbaycan.- 2022.- 6 noyabr.- S. 2.

20

Azər Tağıyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Azər Kamil oğlu Tağıyev 1999-cu il dekabrın 20-də Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Şahtaxtı kənd tam orta məktəbində təhsil almışıdr. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Azər Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Noyabrın 9-da Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. 13 noyabrda Şaxtaxtı kəndində dəfn olunmuşdur. Subay idi.

Azər Tağıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 5-6.

DEKABR
20

Cəlal Bayramov - 30

(1994-2020) *Əsgər*



Cəlal Yaqub oğlu Bayramov 20 dekabr 1994-cü ildə Saatlı rayonunun Çolpı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Çolpı kənd orta məktəbində təhsil almışıdır. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Cəlal Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Cəbrayılın, Qubadlının, Xocavəndin və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 27 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Arpagədik kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı itkin düşmüşdür. Uzun müddət nəşi tapılmamışdır. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunmuşdur. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülmüşdür. Cəlal Bayramovun nəşi 13 yanvar 2021-ci ildə tapılmış və ailəsinə təhvil verilmişdir. Çolpı kəndində dəfn olunmuşdur.

Cəlal Bayramov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

https://az.wikipedia.org/wiki/C%C9%99lal_Bayramov

21

Rəşad Kazımov - 35

(1989-2020) *MAHHXHQ əsgər*



Rəşad Nüsrət oğlu Kazımov 21 dekabr 1989-cu ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Kazımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 25 oktyabr 2020-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə zamanı qəhrəmancasına şəhid olmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Rəşad Kazımov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

DEKABR
22

Tərlan Quliyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Tərlan Bəxtiyar oğlu Quliyev 1999-cu il dekabrın 22-də Cəlilabad rayonunun Tahirli kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Cəlilabad rayon Cəngan kənd tam orta məktəbində təhsil almışdır.

Tərlan Quliyev 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra 6 aylıq xüsusi təyinatlı kursunu keçmiş və Xüsusi Təyinatlı Qüvvələrin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Tərlan Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Murovdağın, Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 17-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Cəlilabad rayonunun Tahirli kəndində dəfn olunmuşdur.

Tərlan Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S. 24-28.

23

Elgün Xıdırov - 35

(1989-2020)

Baş leytenant



Elgün Fuad oğlu Xıdırov 1989-cu il dekabrın 23-də Goranboy rayonunun Xoylu kəndində anadan olmuşdur. 2007-2011-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Elgün Xıdırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Goranboy rayonunun Xoylu kəndində dəfn olunmuşdur. Ailəli idi. Bir övladı Vətənə yadigar qalıb.

Elgün Xıdırov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S. 6-12.

DEKABR

23

Əhməd Məlikov - 25

(1999-2020)

Əsgər



Əhməd Məmməd oğlu Məlikov 1999-cu ilin dekabrın 23-də Hacıqabulun Qarasu kəndində anadan olmuşdur. Hacıqabul rayon V.Mustafayev adına Qarasu kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Məlikov Əhməd 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əhməd Məlikov oktyabrın 28-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Məlikov Əhməd Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi, həmçinin Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S. 13-14.

24

Orxan Babayev - 30

(1994-2020)

MAHHXHQ baş çavuş



Orxan Sədail oğlu Babayev 1994-cü il dekabrın 24-də Astara rayonunun Kijəbə qəsəbəsində anadan olmuşdur. 2001-2012-ci illərdə Astara rayon A.Hidayətov adına Lovayın kənd tam orta məktəbində təhsil almışdılar. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Orxan Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. 11 noyabrda Kijəbə kənd qəbiristanlığında dəfn edilmişdir.

Orxan Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S. 18-21.

İnternetdə:

https://president.az/az/articles/view/49682

DEKABR

25

Zaminəli Sultanov - 25

(1999-2020)

Əsgər



Zaminəli Nazim oğlu Sultanov 25 dekabr 1999-cu ildə Saatlı rayonunun Qara Nuru kəndində anadan olmuşdur. Saatlı rayon Qara Nuru kənd tam orta məktəbində təhsil almışdır. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Zaminəli Sultanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Qubadlının və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 20 oktyabr 2020-ci ildə Füzuli-Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Zaminəli Sultanov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 11-16.

İnternetdə:

https://azertag.az/xeber/1815401

26

Şaiq Məmmədov - 25

(1999-2020)

Əsgər



Şaiq Şükür oğlu Məmmədov 26 dekabr 1999-cu ildə Gəncə şəhərində anadan olmuşdur.

2012-cü ildə Gəncə şəhəri Ş.İ.Xətai adına 20 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirmişdir. 2012-2015-ci illərdə təhsilini 3 nömrəli Peşə liseyində davam etdirmişdir. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şükür Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Ağdam, Füzuli və Qubadlı rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 9 noyabr 2020-ci ildə Xankəndi şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 13 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Şükür Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr. - S. 6-12.

Sübhi Mürsəliyev - 45

(1979-2020)

Mayor



Sübhi Balamirzə oğlu Mürsəliyev 1979-cu il dekabrın 28-də İsmayıllı rayonun Qurbanəfəndi kəndində anadan olmuşdur.

1997-ci ildə BDU-nun İqtisadi nəzəriyyə ixtisasına qəbul olmuşdur. 2016-cı il Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun mayoru olan Sübhi Mürsəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sübhi Mürsəliyev sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. İsmayıllı rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", III dərəcəli "Qüsursuz xidmətə görə", II dərəcəli "Qüsursuz xidmətə görə", I dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr. - S.6-12.

İnternetdə:

https://president.az/az/articles/view/49098

DEKABR
29

Saleh Əsədov - 40

(1984-2020)

MAHHXHQ çavuş



Saleh Səməd oğlu Əsədov 1984-cü il dekabrın 29-da Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun çavuşu olan Saleh Əsədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Saleh Əsədov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 25 dekabr.- S. 6-13.

29

Toğrul Xudiyev - 25

(1999-2020)

MAHHXHQ əsgər



Toğrul Habil oğlu Xudiyev 1999-cu il dekabrın 29-da Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Toğrul Xudiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 9-da Şuşa döyüşləri zamanı ağır yaralanmış və noyabrın 17-də şəhid olmuşdur. Beyləqan rayonunda dəfn olunmuşdur.

Toğrul Xudiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 45-57.

İnternetdə:

https://az.wikipedia.org/wiki/To%C4%9Frul_Xudiyev

DEKABR

29

Namiq Quliyev - 30

(1994-2020) *Çavuş*



Namiq Natiq oğlu Quliyev 1994-cü il dekabrın 29-da Bakı şəhərində anadan olmuşdur. 2000-2005-ci illərdə Kişinyov şəhərində N.Qoqol adına Liseyin, 2005-2012-ci illərdə 2 nömrəli Texniki Humanitar Liseydə, 2009-2012-ci illərdə Zərifə Əliyeva adına Liseydə təhsil almışdır. 2012-2016-cı illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində ali təhsil almışdır.

Namiq Quliyev 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrin sırasında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun çavuşu olan Namiq Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Namiq Quliyev noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Namiq Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S. 1;13.

https://e-qanun.az/framework/46531

30

Kərim Hüseynov - 35

(1989-2020) *Gizir*



Kərim Tərlan oğlu Hüseynov 1989-cu il dekabrın 30-da Qusar rayonunun Piral kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Kərim Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Kərim Hüseynov oktyabrın 14-də Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qusar rayonunda dəfn olunmuşdur. Ailəli idi. İki övladı Vətənə yadigar qalıb.

Kərim Hüseynov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S. 80.

İnternetdə:

https://az.wikipedia.org/wiki/K%C9%99rim_H%C3%BCseynov

Flora Əhmədova - 90

(1934-2012) *Hüquqşünas*



Flora Cəfər qızı Əhmədova 1934-cü il dekabr ayının 9-da İrəvan şəhərində anadan olmuşdur.

1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə Məhkəmə Ekspertizası İnstitutunda ekspert-kriminalist kimi başlamışdır.

1962-1979-cu illərdə Ədliyyə Nazirliyi sistemində işləmiş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyində idarə rəisi, respublikanın Baş Dövlət arbitri olmuşdur.

1979-cu ildən Azərbaycan Respublikası İqtisad məhkəməsinə 30 il rəhbərlik etmişdir. Ali dərəcəli hakim olmuşdur. Azərbaycan qadınları arasında ilk dəfə general rütbəsi alan Əməkdar hüquqşünas idi.

Ölkədə məhkəmə islahatları aparılan dövrə – 2000-ci ilə qədər Azərbaycan İqtisad Məhkəməsinin Rəyasət Heyətinin sədri olmuşdur.

Flora Cəfər qızı Əhmədova 2012-ci il avqust ayının 3-də vəfat etmişdir.

Ədəbiyyat:

https://kaspi.az/az/dost-itkisi-vaxt-sorusmur

Şəmsi Rəhimov - 100

18

(1924-1994) *Dövlət xadimi*



Şəmsi Nuru oğlu Rəhimov 1924-cü il dekabr ayının 18-də Qafan rayonunun Gövdəkli kəndində müəllim ailəsində anadan olmuşdur.

1942-ci ildə hərbi məktəbdə zabitlərin hazırlıq kurslarını bitirdikdən sonra ön cəbhəyə göndərilmiş, İkinci Dünya müharibəsində iştirak etmiş, Berlinədək döyüş yolu keçmişdir.

1943-1945-ci illərdə ordu sıralarında vzvod komandiri, 1946-1949-cu illərdə Bakı, Gəncə hərbi birləşmələrində, Dövlət Təhlükəsizlik Komitəsində əməliyyat işçisi, sonra rəhbər vəzifələrdə işləmişdir.

1962-ci ildə ADU-nun (indiki BDU) hüquq fakültəsini bitirmişdir. "Qırmızı Bayraq", iki "Qırmızı Ulduz", "Birinci dərəcəli Vətən müharibəsi" ordenləri və 14 medalla təltif edilmişdir.

İstefaya çıxdıqdan sonra 1985-ci ildən 1990-cı ilədək mülki vəzifələrdə işləmişdir. 1994-cü ildə respublikanın rəhbərliyi müharibə şəraitində olan ölkənin çətin vəziyyətini, Ş.Rəhimovun ordunun təşkilindəki təcrübəsini nəzərə alaraq onu yeni yaradılmış Prezident Aparatı Yanında Xüsusi İdarənin rəisi təyin etmişdir.

Şəmsi Nuru oğlu Rəhimov 1994-cü il sentyabr ayının 29-da sui-qəsd nəticəsində qətlə yetirilmişdir.

1995-ci ildə "Şəmsi Nuru oğlu Rəhimovun xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır

Ədəbiyyat:

Xanməmmədov, B. Rəhimov, Şəmsi Nuru oğlu // Didərgin şəhidlər: Zəngəzurun Qafan rayonu üzrə /Bahadur Xanməmmədov.- Bakı, 1995.- S.8-9.

Adil Məmmədov - 95

(1929-2016)

Tarixçi



Adil Əli oğlu Məmmədov 1929-cu il dekabr ayının 2-də Ağdam rayonunun Seyidli kəndində anadan olmuşdur.

1945-1947-ci illərdə Bakı Pedaqoji Texnikumunda oxumuş, 1947-1952-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində ali təhsil almışdır.

Ali təhsilini başa vurduqdan sonra Respublika Baş Mətbuat İdarəsində müvəkkil vəzifəsində işləmişdir. 1953- cü ildə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın sovet dövrü tarixi şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul olunmuş, 1954-1957-ci illərdə həmin şöbə üzrə aspiranturada təhsil almışdır.

Adil Məmmədov 1961-ci ildə namizədlik, 1981-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 2004-cü ildə "Vətən tarixi" ixtisası üzrə professor elmi adı almışdır.

1985-1989-cu illərdə AEA-nın SSRİ Xalqlar Dostluğu Respublika sarayının direktoru, 1989-2016-cı ilədək A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsinin müdiri vəzifələrində işləmişdir.

Adil Məmmədov bir sıra beynəlxalq simpozium və konfranslarda iştirak etmişdir. O, "SSRİ fəhlə sinfinin və sənayesinin inkişafı" (1972, Moskva), "Sosializim quruculuğu dövründə SSRİ-də çoxmillətli fəhlə sinfinin təşəkkülü və inkişafı" (1978, Tiflis), "Azərbaycan beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə" (1995, Bakı), "20-30-cu illərdə Azərbaycanın digər respublikalarda neft rayonlarının yaranması və inkişafında rolu" (1995, Bakı) mövzusunda keçirilmiş konfrans və simpoziumlarda maraqlı məruzələrlə çıxış etmişdir

Adil Məmmədov 100-ə yaxın elmi əsərin müəllifi idi. Adil Məmmədov "Azərbaycan tarixi" (III cild I hissə, müştərək) (Bakı, 1963), "Azərbaycan SSR fəhlə sinfinin tarixi oçerkləri" (1917-1940) (müştərək) (Bakı, 1974), "Azərbaycanda Staxanov hərəkatı" (Bakı, 1975), "Gəncə (tarixi ocerk)" (müştərək) (Bakı, 1994), "Azərbaycan tarixi" (VI cild, müştərək) (Bakı, 2000), "Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri əməllər barədə tarixi həqiqətlər" (Bakı, 2003, rus, ingilis dillərində), "Azərbaycan Milli Elmlər Akademiyasının yaradılması və elmi ziyalı kadrların formalaşması yollarında (1920-1945-ci illər)" (Bakı, 2005), "Azərbaycan xalqının əlifbasının inkişafı yollarında mühüm mərhələ" (Bakı, 2006, rus dilində) adlı kitabların müəllifidir. O, "Heydər Əliyev" (iki cilddə. I cild, Bakı, 2013) kitabının "Erməni separatizminə qarşı mübarizə", "Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə Ermənistan SSR-nin ərazi iddialarına və erməni separatçılığına qarşı mübarizəsi (1969-1982-ci illər)" mətnlərinin müəlliflərindən biri olmuşdur.

Onun tarixçi kadrların hazırlanmasında xüsusi əməyi olmuş, rəhbərliyi altında bir nəfəri doktorluq, 12 nəfəri namizədlik dissertasiyaları müdafiə etmişdir.

1994-2014-cü illərdə Bakı Dövlət Universitetinin tarix fakültəsinin bakalavr buraxılışı üzrə dövlət imtahan komissiyasına sədrlik etmiş, 1993-2013-cü illərdə Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və siyasi elmlər üzrə ekspert şurasının üzvü olmuşdur. Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin nəzdində fəaliyyət göstərən Milli problemlər üzrə elmi şuranın, respublika "Bilik" cəmiyyəti idarə heyətinin üzvü, Azərbaycan Sovet Ensiklopediyasının məsləhətçisi olmuşdur. Dəfələrlə elm sahəsindəki xidmətlərinə görə AMEAnın Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilmişdir.

Adil Əli oğlu Məmmədov 2016-cı il dekabr ayının 21-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycanda Staxanov hərəkatı / Adil Məmmədov; red. Ə.Mirzəyev.- Bakı: Azərnəşr, 1975.- 55 s

Mahmudov, Y. Tədqiqatçı alim / Yaqub Mahmudov // Azərbaycan.- 2014.- 2 dekabr.- S.6.

Mahmudov, Y. Elmə həsr olunmuş ömür / Yaqub Mahmudov // Azərbaycan.- 2009.- 2 dekabr.- S. 7.

Saleh Əliyev - 95

(1929-2006) *Şərqşünas alim*

Saleh Məmməd oğlu Əliyev 1929-cu il dekabr ayının 13-də Gəncədə anadan olmuşdur.

Orta təhsilini bitirdikdən sonra 1947-1952- ci illər Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinin Fars dili bölməsində ali təhsil almışdır. 1955-ci ildə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda aspiranturaya qəbul olumuşdur. 1986-cı ildə doktorluq dissertasiyasını müdafiə etdikdən sonra o, Moskvada qalaraq ömrünün sonunadək həmin elmi-tədqiqat institutunda çalışmışdır.

İran tarixi üzrə dəyərli mütəxəssis olan Saleh Əliyev, uzun illər araşdırmalar aparmış və "Neft və XX əsrdə İranın ictimai-siyasi inkişafı"(1985), "Müasir İran: arayış kitabçası"(1993), "İranın tarixi: XX əsr" (2004) adlı dəyərli kitabların ərsəyə gəlməsinə müvəffəq olmuşdur.

Saleh Məmməd oğlu Əliyev 2006-cı il noyabr ayının 22-də Moskvada vəfat etmiş və orada dəfn olunmuşdur.

Ədəbiyyat:

История Ирана. XX век /С.М.Алиев; отв. ред. А.З.Егорин; РАН, Ин-т востоковедения.-Москва: ИВ РАН, Крафт+, 2004.-644 с.

Современный Иран: справочник/Л.Е.Авдеева и С.М.Алиев.-Москва: «Наука»,1993.-428 с.

Püstə Əzizbəyova - 95

(1929-1998) *Akademik*

29



Ədəbiyyat:

Gəncəli, S. Püstəxanım Əzizbəyova / S.Gəncəli // Qadın, gözəllik və ülviyyət: ensiklopedik toplu (Azərbaycan, ingilis və rus dillərində) / S.Gəncəli; ön söz. Z.Quliyeva.- Bakı, 2001.- S.237-238.

Püstə Əzizağa qızı Əzizbəyova 1929-cu il dekabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur.

1951-ci ildə ADU-nun (indiki BDU) tarix fakültəsini bitirmiş, bir müddət M.Əzizbəyovun evmuzeyinin direktoru işləmişdir. 1954-cü ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi, 1961-ci ildə isə ilk azərbaycanlı qadın tarix elmləri doktoru elmi dərəcəsi almışdır. P.Əzizbəyova 1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1989-ci ildə isə həqiqi üzvü seçilmişdir. Pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakının müxtəlif ali məktəblərində dərs demiş, 1955-ci ildə dosent, 1962-ci ildə isə professor adını almışdır. 1955-ci ildə o, Azərbaycan Tarixi Muzeyinin Ən yeni tarix şöbəsinin müdiri vəzifəsinə keçirilmişdir. 1961-ci ildə muzeyin direktoru təyin olunan P.Əzizbəyova ömrünün sonunadək (1998) bu vəzifədə işləmişdir. 50 kitabın, monoqrafiyanın, 300-ə yaxın məqalənin müəllifidir. İllər uzunu tədqiq etdiyi, arayıb axtardığı N.Nərimanovun çoxcəhətli inqilabi, siyasi və ədəbi fəaliyyətini əks etdirən üç cildliyi tarix elmimizə qiymətli töhfədir. Uzun müddət Ümumittifaq "Bilik" Cəmiyyətinin Bakı bölməsinə başçılıq etmişdir.

"Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı" ordenləri, "Rəşadətli əməyə görə" medalı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin iki Fəxri Fərmanı ilə təltif edilmişdir. 1982-ci ildə Azərbaycan SSR-nin Əməkdar elm xadimi fəxri adına layiq görül-müşdür.

Püstə Əzizağa qızı Əzizbəyova 1998-ci il yanvar ayının 8-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Şirməmməd Hüseynov - 100

(1924-2019)

Pedaqoq, alim



Ədəbiyyat:

"Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər: noyabr 1918-aprel 1920 / araşdırıb toplayanı, yazıların böyük qismini ərəb əlifbasından latın əlifbasına çevirəni Ş. Hüseynov; transliterasiya red. və ərəb əlifbasından latın əlifbasına çevirən S. Xalidoğlu; transliterasiya red. və məsləhətçi Ş. Vəliyev.- C. 3.- Bakı: [Qanun], 2017.- 551 s.

Orsər, R. Haqqın səsi: professor Şirməmməd Hüseynovun portret cizgiləri / Ramiz Orsər; red. Q. Məhərrəmli.- Bakı: Elm və təhsil, 2019.- 303, [1] s.

Azərbaycan prezidenti 2018-ci ili Azərbaycan Xalq Cümhuriyyəti İli elan etmişdir / Şirməmməd Hüseynov // 525-ci qəzet.- 2018.- 17 fevral.- S.20-21.

Şirməmməd Hüseynov: biblioqrafiya / Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Un-ti; tərt. ed.: A.Q.Əzimova, S.X. Mirzəyev; red. Ş.Q.Vəliyev.-Bakı: Bakı Universiteti, 2014.-102 s.

Babayeva, G. Şirməmməd Hüseynov - böyük istiqlalçı alim / Gülbəniz Babayeva // 525-ci qəzet.- 2021.- 6 noyabr.- S. 16-17.

Şirməmməd Ağamməd oğlu Hüseynov 1924-cü il dekabr ayının 17-də Şəkidə anadan olmuşdur.

1941-1943-cü illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxumuşdur.

Bir müddət Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük, Oxut kənd orta məktəblərində fizika-riyaziyyat müəllimi, "Nuxa fəhləsi" qəzetində ədəbi işçi işləmişdir.

1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. Universitetin "Lenin tərbiyəsi uğrunda" qəzetində redaktor müavini, daha sonra "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri işləmişdir.

1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspiranturasında təhsilini davam etdirmiş, 1954-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

1954-1961-ci illərdə ADU-nin filologiya fakültəsinin jurnalistika kafedrasının müəllimi, dosenti, 1962-1969-cu illərdə filologiya fakültəsinin dekan müavini, 1961-1971-ci illərdə BDU-nun Jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrasının dosenti, 1971-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1988-ci ildən Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru olmuşdur.

Onun tədqiqatlarının xeyli hissəsi Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun yaradıcısı Məmməd Əmin Rəsulzadənin, cümhuriyyət qurucularının irsinin və o dövrün mətbuat orqanlarının tədqiqinə həsr olunmuşdur. Mətbuat tariximizin qaranlıq səhifələrinə işıq salanların sırasında onun adı ön cərgədə çəkilir. O dahi Mirzə Fətəlinin, Həsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Ömər Faiq Nemanzadənin, Məmməd Əmin Rəsulzadənin, Üzeyir bəy Hacıbəylinin bu günümüzə gəlib çatmış saralmış arxiv sənədlərinin hər sətrində bu millət fədailərinin düşüncələrini, arzu və istəklərini, sonsuz vətən eşqini aşkar etmişdir.

Görkəmli alimin "Müstəqilliyin çətin yolu"(1996), "Azərbaycan legionerləri"(2003), "Mənəvi irsimiz və gerçəkliyimiz"(2004), "Milli haqq və ədalət axtarışında"(2004) "Mətbu irsimizdən səhifələr"(2007), "Müstəqilliyin çətin yolu" "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər"(3 cilddə, 2015-2017) və digər kitabları nəşr olunmuşdur.

Şirməmməd Hüseynov 1948-ci ildə "Nizami təqaüdü"(tələbəlik dövründə), 1966-1972-ci illərdə "Qızıl qələm" mükafatı ilə təltif edilmiş, 1988-ci ildə Əməkdar jurnalist fəxri adına layiq görülmüşdür. 1991-ci ildə H.Zərdabi adına mükafatla, 1992-ci ildə Y.Məmmədəliyev adına mükafatla, 1998-ci ildə M.Ə.Rəsulzadə adına mükafatla, 2014-cü ildə "Şərəf" ordeni ilə təltif olunmuşdur. Ali Media Mükafatı laureatı olmuşdur. 2005-ci ildən Prezident təqaüdçüsü olmuşdur.

Görkəmli alim 24 iyun 2019-cu ildə Bakıda vəfat etmişdir. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ş.Hüseynovun qəbri üzərində abidəsi ucaldılmış, 2019-cu ildə Şirməmməd Hüseynov mükafatı təsis olunmuşdur. 2021-ci ilin dekabr ayında Türkiyənin İstanbul şəhərində dərc olunan "Təmrin" jurnalının xüsusi sayı böyük alim, ustad pedaqoq və ictimai xadim türk dünyası qarşısında böyük və təmənnasız xidmətləri olmuş Şirməmməd Hüseynova həsr olunmuş, 2022-ci il aprel ayının 7-də Bakı Dövlət Universitetində təqdimatı keçirilmişdir.

Nizaməddin Şəmsizadə – 70

(1954)

Ədəbiyyatşünas



Nizaməddin Şəmsəddin oğlu Şəmsizadə 1954-cü il dekabr ayının 30-da Quba rayonunun İspik kəndində anadan olmuşdur.

1972-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır.

1978-ci ildə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutuna baş laborant, 1981-ci ildə kiçik elmi işçi, 1986-cı ildə baş elmi işçi vəzifələrində çalışmışdır. 1982-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1990-cı ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi pedaqoji fəaliyyətini davam etdirmişdir. 1990-cı ildə müsabiqə yolu ilə baş müəllim, 1991-ci ildə dosent, 1992-ci ildə professor elmi adı almışdır. 1991-2006-cı illərdə Ədəbiyyat və dillər, Ədəbiyyat və Azərbaycan dili və Ədəbi yaradıcılıq kafedralarının müdiri vəzifələrində işləmişdir.

1978-ci ildə "Azərbaycan" jurnalının 12-ci sayında "Sən kimsən müasirim" adlı ilk məqaləsi çap edilmişdir . "Ədəbi mübahisələr" (1986), "Azərbaycan ideologiyası" (1996), "Azərbaycan ədəbiyyatşünaslığı" (1997), "Rejissor taleyi" (2004), "Tənqidin ədəbi prosesdə rolu" (2004), "Böyük nəslin davamçısı" (2005), "Azərbaycançılıq" (2006), "Ədəbi proses və ədəbi nəsil" (2008) kimi monoqrafiyaların, "Bürkü" (2003), "Tüstü" (2007) hekayələr və şeirlər kitablarının, 250-dən çox ədəbi-tənqidi, elmi-nəzəri və publisistik məqalənin müəllifidir.

Onun yaradıcılığı haqqında 80-dən artıq elmi məqalə və professor Ş.Vəliyevin "Azərbaycanşünas alim" (2004) monoqrafiyası və "Filosof tənqidçi" (2011) kitabı çap olunmuşdur. 2014-cü ildə "Nizaməddin Şəmsizadə: Biblioqrafiya" kitabı çap olunmuşdur. 20-30-cu illər tənqidin ilk sistemli öyrənilməsi, Azərbaycan ədəbiyyatşünaslığının min illik tarixi və mərhələlərinin ilk monoqrafik tədqiqi, çoxəsrlik gülüş mədəniyyətimizin araşdırılması, Xalq Cümhuriyyətinin tarixini öyrənmək, H.Z.Tağıyevin tarixi haqqını bərpa etmək ideyası professor Nizaməddin Şəmsizadənin adı ilə bağlıdır. O, milli ideologiyamız - azərbaycançılıq nəzəriyyəsi haqqında ilk kitabın müəllifidir.

1985-ci ildən SSRİ Yazıçılar İttifaqının (indiki AYB) üzvüdür. 2002-ci ildə Tiflisdə Qafqaz Xalqları Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının, BDU-nun nəzdində dissertasiya Şurasının üzvü, "Yaddaş" Milli Mükafatlar komissiyasının sədridir.

2007-2012-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri, 2012-2013-cü illərdə Ədəbiyyat nəzəriyyəsi şöbəsində baş elmi işçi vəzifələrində işləmişdir. 2013-cü ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Ədəbiyyat və dillər kafedrasının professoru kimi elmi-pedoqoji fəaliyyətini davam etdirir.

Elmi xidmətlərinə görə 2003-cü ildə akademik Y.Məmmədəliyev mükafatının laureatıdır. 2010-cu ildə "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" (müştərək) kitabına görə Azərbaycan Respublikasının Dövlət mükafatına, 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycançılıq: [Azərbaycan xalqının milli ideologiyası] / Nizaməddin Şəmsizadə; Red.: K. Talıbzadə.- Bakı: Nurlar, 2006.- 192 s.

Roman və tarix / Nizaməddin Şəmsizadə; red. B. Qaraca. – Bakı: Elm və təhsil, 2023. -255, [1] s.

Etnik mədəniyyət və etnopsixologiya / Nizaməddin Şəmsizadə // 525-ci qəzet.- 2023.- 16 may.- S.11.

Dadaş Hüseynov – 65

(1959)

Alim



Dadaş Ağa-Cavad oğlu Hüseynov 27 dekabr 1959-ci ildə Bakıda anadan olmuşdur.

1967-1977-ci illərdə Bakı şəhəri 175 saylı məktəbdə orta təhsil almışdır. 1977-1982-ci illərdə Azərbaycan Dövlət Universitetini (hal-hazırda BDU) geolog-mühəndis ixtisası üzrə bitirmişdir.

Dadaş Hüseynov 1984-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunda (hal-hazırda Geologiya və Geofizika İnstitutu) işləməyə başlamışdır. İşlədiyi müddət ərzində o ardıcıl olaraq mühəndis (1984-1986), böyük mühəndis (1986-1991), elmi işçi (1991-1993), böyük elmi işçi (1993-1996), aparıcı elmi işçi (1996-2002) vəzifələrində, 2003-2010-cu ilə qədər "Geoloji-geofiziki məlumatların CİS analizi" şöbəsinin rəhbəri vəzifəsində çalışmışdır. 2010-cu ilin aprel ayından "Hövzə modelləşdirilməsi və geotexnologiyalar" şöbəsinə rəhbərlik etmişdir. 2013-cu ildən Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır.

2013-ci ildə "Cənubi Xəzər hövzəsinin karbohidrogen sistemləri" mövzusunda doktorluq dissertasiaysının müdafiyə etmişdir. 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Xəzər hövzəsinin çökmə süxurlarının karbohidrogen potensialı, fluidlərin geokimyası, neft-qaz sistemləri və ümümiyətlə neft-qaz geologiyası sahəsində tanınmış ekspert olaraq, iyirmidən artıq beynəlxalq elmi qrant və birgə aparılan layihələrin, o cümlədən İNTAS, CRDF, STCU, İGCP UNESCO, Darius, SNSF kimi beynəlxalq elmi fondlar, həmçinin BP, Shell, Exxon-Mobil, Conoco-Phillips, Lukoil, OMV, RWE, Rosneft, Chevron kimi iri transmilli neft şirkətləri tərəfindən maliyyələşdirilən layihələrin rəhbəri və əsas icraçısı olmuşdur.

Dadaş Hüseynov uzunmüddətli Dövlət Proqramı olan (2007-2014) "Cənubi Xəzər meqahövzəsinin geoloji-geofiziki modeli, karbohidrogen potensialı və geodinamika problemləri" işinin məsul icraçısıdır.

Dadaş Hüseynov çoxsaylı beynəlxalq elmi forumun, xüsusilə Beynəlxalq Geoloji Konqres, Beynəlxalq Sedimentologiya Konqresi, Sedimentoloqların Beynəlxalq Assosiasiyasının Konfransları, Avropa Geoloq-alimləri Assosiasiyasının illik Sərgi və Konfransları, Amerika neftçi geoloqlar Assosiasiyasının Konfransları, Dördüncü dövr Tədqiqatları Beynəlxalq Assosiasiysının konfransları, Beynəlxalq Geoloji Korrelyasiya proqramı üzrə UNESCO Konfransları və başqa elmi toplantıların iştirakçısı olmuş və ölkəmizi ləyaqətlə təmsil etmişdir.

ABŞ Geoloqlar cəmiyyətinin dəvəti ilə cəmiyyətin Vaşinqtondakı Baş bölməsində 2004-cü ildə, Koreya Mineral Xammal İnstitutunda 2007-ci ildə Cənubi Xəzər hövzəsinin palçıq vulkanlarına və neft sisteminə həsr olunmuş elmi məruzələrlə çıxış etmişdir.

Dadaş Hüseynov həmçinin dünyanın Xəzəryanı, Orta və Cənubi Xəzər hövzələri, Qrin River formasiyası (Kolorado, ABŞ), Şimali və Cənubi Kaliforniya, Mərmərə və Qara dəniz kimi hövzələrinin çökmə qatlarını tədqiq etmək məqsədi ilə təşkil olunmuş beynəlxalq geoloji ekspedisiyalarda dəfələrlə iştirak etmişdir.

O, 140-dan artıq elmi məqalənin müəllifi, 5 kitabın həmmüəllifidir. Onlardan bir neçəsi ingilis dilinə tərcümə edilmişdir.Beynəlxalq Sedimentoloqlar Cəmiyyətinin (IAS), Amerika Neftçi Geoloqlar Assosiasiyasının (AAPG) və Avropa Geoalimlər və Mühəndislər Assosiasiyasının (EAGE) üzvüdür.

Elmi fəaliyyətlə yanaşı Dadaş Hüseynov elmi-pedaqoji və gənc kadrların yetişdirilməsi fəaliyyətilə də məşğul olur. O, AMEA nəzdində magistraturada geoloji fənlər üzrə dərs deyir. 2012-ci ildə Russiyanın Qubkin adına Neft və Qaz İnstitutunun dəvəti ilə hövzə modelləştirməsindən mühazirələr oxumaq üçün dəvət olunmuşdur. 2013-ci ildən ADNSU-nın AMEA Geologiya və Geofizika institutunun nəzdindəki "Neftın və qazın geologiyası" baza kafedrasının rəhbəridir.

2017-ci ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Huseynov D.A., Huseynova Sh. 2014. HC Generation and Migration at the Western Flank of South Caspian Basin - Results of Basin Modeling. 76th EAGE Conference & Exhibition 2014. Amsterdam RAI, The Netherlands, 16-19 June 2014.

Quliyev İ.S., Huseynov D.A. 2015. Relics of Mud Volcanoes in the Sedimentary Cover of the South Caspian Basin. Lithology and Mineral Resources, 2015, Vol. 50, No. 4, pp. 311–321.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Dadaş-Hüseynov

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/3058

Arif Mehdiyev – 90

(1934-2016)

Akademik



Arif Şəfaət oğlu Mehdiyev 1934-cü il dekabr ayının 19-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1952-1957-ci illərdə Moskva Elektrotexniki Rabitə İnstitutunda radiorabitə mühəndisi ixtisası üzrə ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1957-ci ildə Azərbaycan EA-nın (AMEA) Fizika İnstitutunda başlamış, 1961-1965-ci illərdə SSRİ Elektron Sənayesi Nazirliyinin tərkibindəki qapalı müəssisədə çalışmış, 1965-1966-cı illərdə Azərbaycan Dövlət Plan Komitəsində böyük mühəndis, 1966-1974-cü illərdə Elmlər Akademiyasının Fizika İnstitutunda böyük elmi işçi vəzifələrində işləmişdir.

1969-cu ildə fizika-riyaziyyat elmləri üzrə namizədlik, 1984-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1987-ci ildə isə professor elmi adını almışdır. 1973-cü ildən Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda, sonralar Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutuna çevrilmiş "Xəzər" Elmi Mərkəzində elmi işlər üzrə direktor müavini, 1979-cu ildə həmin Mərkəzin əsasında yaradılmış Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunda baş direktorun birinci müavini vəzifələrində çalışmışdır. Arif Mehdiyev Birliyin bazasında yaradılmış Azərbaycan Milli Aerokosmik Agentliyinin ilk baş direktoru olmuşdur.

2001-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir. 2001-2007-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsini icra etmişdir. 2002-ci ildən etibarən ömrünün sonunadək Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri vəzifəsində çalışmışdır.

1992-ci ildən Beynəlxalq mühəndis akademiyasının həqiqi üzvü, 1996-cı ildən isə Amerika astronavtika və aeronavtika institutunun üzvü olmuşdur.

Elmi yaradıcılığı pedaqoji fəaliyyətlə uğurla əlaqələndirərək uzun illər ərzində Azərbaycan Neft Akademiyasının və Azərbaycan Aviasiya Akademiyasının professoru kimi yüksəkixtisaslı kadrların hazırlanmasında fəal iştirak etmişdir. Onun elm təşkilatçısı kimi də fəaliyyəti təqdirəlayiq olmuşdur. Arif Mehdiyev respublikamızda və ölkənin hüdudlarından kənarda mötəbər beynəlxalq simpozium və konfranslarda, o cümlədən ümumdünya kosmik konqreslərində Azərbaycan elmini layiqincə təmsil etmişdir.

Arif Mehdiyevin araşdırmalarının nəticələri ölkəmizdə və xaricdə nəşr edilmiş 300-dən artıq elmi əsərdə və 50-dən çox ixtirada öz əksini tapmışdır. Rəhbərliyi altında Azərbaycanda onlarla elmlər doktoru hazırlanmışdır.

2011-ci ildə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından akademik Arif Şəfaət oğlu Mehdiyevin elmi əsərlərinin biblioqrafik göstəricisi çap olunmuşdur.

Akademik Arif Mehdiyevin elmi və elmi-təşkilati fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şərəf nişanı" ordeni ilə, 2009-cu ildə 2009-cu ildə "Şöhrət" ordeni ilə, 2014-cü ildə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikasının Dövlət mükafatı laureatıdır. Azərbaycan SSR Əməkdar elm və texnika xadimi adına, Y.Məmmədəliyev adına medala, BMA "Böyük qızıl medalı"na və Belarus Respublikasının "Fransisk Skorina" medalına layiq görülmüşdür.

Arif Şəfaət oğlu Mehdiyev 2016-cı il dekabr ayının 19-da vəfat etmiş, II Fəxri xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Aerokosmik informasiyanın emalı metodları və alqoritmləri: dərslik / A.Mehdiyev, K.Ramazanov; Azərb. Resp. Təhsil Nazirliyi; "AZAL" QSC, MAA.- Bakı: [Mülki Aviasiya redaksiyası], 2010.- 228 s. Coğrafi informasiya sistemləri: ali məktəblər üçün dərslik / A.Mehdiyev, A.İsmayılov; red. R.M.Məmmədov.- Bakı: Müəllim, 2011.-231 s.

Görkəmli alim Arif Mehdiyev son mənzilə yola salınıb // Azərbaycan.- 2016.- 21 dekabr.- S.2; Xalq qəzeti.- 2016.- 21 dekabr.- S.5.

Akademik Arif Mehdiyev 1933-2016 // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri / Fizika-texnika və riyaziyyat elmləri seriyası, fizika və astronomiya.- 2017.- №2.- S.192.

Arif Şəfaət oğlu Mehdiyev-85 // Elmi məcmuələr: Azərbaycan "Hava yolları" Qapalı Səhmdar Cəmiyyəti. Milli Aviasiya Akademiyası.- 2019.- C.21, №4.- S. 1-2.

Yusif Əsədov – 90

(1934-2021)

Fizik



Yusif Qəzənfər oğlu Əsədov 20 dekabr 1934-cü ildə Tovuz rayonunun Almalıtala kəndində anadan olmuşdur.

1942-1949-cu illərdə Ağbaşlar kəndində yeddiillik məktəbdə, 1949-1954-cü illərdə Gəncədə Klara Setkin adına Pedoqoji Texnikumda, 1954-1959-cu illərdə ADPU-nun fizika-riyaziyyat fakültəsində fizika və istehsalın əsasları ixtisası üzrə təhsil almışdır. Birinci kursun sonunda Stalin təqaüdünə layiq görülmüş və institutu fərqlənmə diplomu ilə bitirmişdir.

1959-1960-cı illərdə AMEA-nın Fizika institutunda kiçik elmi işçi kimi fəaliyyətə başlamışdır.1960-1963-cü illərdə Moskvada SSRİ EA-nın Element Orqanik Birləşmələr İnstitutunda aspirant olmuşdur.

Professor Yusif Əsədovun beynəlxalq elmi jurnallarda və AMEA-nın elmi jurnallarında 230-dan çox məqaləsi çap olunmuş və bir müəlliflik şəhadətnaməsinin müəllifidir. Onun rəhbərliyi altında 20 fizika-riyaziyyat elmləri namizədi və 3 elmlər doktorluğu müdafiə edilmişdir.

Yusif Əsədovun tədqiq etdiyi 28 kimyəvi birləşmənin quruluş parametrləri ABŞ-da Beynəlxalq Difraksiya Mərkəzində qeydə alınıb və sertifikat verilmişdir.

O, 1980-ci ildən Beynəlxalq Kristalloqrafiya Cəmiyyətinin, 1995-ci ildən isə Nyu-York Elmlər Akademiyasının üzvüdür. Yusif Əsədov həm də "Fizika" jurnalının redaksiya heyətinin üzvü olmişdur, 1973-cü ildən "Quruluş və quruluş çevrilmələri" laboratoriyasına rəhbərlik etmişdir.

2010-cu ildə ABŞ-da yerləşən "İnternational Bioqraphical Centre" mərkəzinin qızıl medalı ilə təltif olunmuşdur. 1993-cü ildə Beynəlxalq elm fondunun qrantını almışdır, AMEA-nın fəxri fərmanı ilə təltif olunmuşdur. Dünyanın qabaqcıl ölkələrində onun elmi əsərlərinə çoxlu sayda istinadlar edilir.

Tanınmış alim, fizika-riyaziyyat elmləri doktoru,professor uzun illər AMEA-nın Fizika intitutunda çalışmışdır.

Yusif Qəzənfər oğlu Əsədov 1 oktyabr 2021- ci ildə vəfat etmişdir.

İnternetdə:


https://m.facebook.com//tovuzlulr/photos/yusif-əsədov-amea-fizika-institutunun-alimi-fizika-riyaziyyat-elmləri-doktoru-pr/536321749861603/

https://modern.az/aktual/309955/professor-yusif-esedov-vefat-etdi/

Vaqif Fərzəliyev – 85

(1939)

Akademik



Vaqif Məcid oğlu Fərzəliyev 1939-cu il dekabr ayının 19-da Bakı şəhərində anadan olmuşdur.

Orta təhsilini Bakı şəhər 189 saylı məktəbdə, 1958-1963-cü illərdə Azərbaycan Dövlət Universiteti (indiki BDU) kimya fakültəsində təhsil almışdır. Universitetini bitirdikdən sonra Azərbaycan Neft-Kimya Prosesləri İnstitututunun aspiranturasına daxil olmuşdur.

1968-ci ildə namizədlik, 1986-cı ildə doktorluq dissertasiyalarını müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsi, 1987-ci ildə isə professor elmi adı almışdır.

Elmi fəaliyyətə "Sürtkü yağları və aşqarlar" laboratoriyası və 1965-ci ildə onun əsasında təşkil edilmiş, keçmiş SSRİ-də yeganə olan, hazırda da dünyada ixtisaslaşmış çox az sayda elm mərkəzlərindən olan AMEA-nın Aşqarlar Kimyası İnstitutu ilə bağlıdır. Elmi fəaliyyətinin əsas istiqamətini sürtkü yağları, yanacaq və yağlayıcı-soyuducu mayelərə yüksək təsirli aşqarların və onların əsasında yüksək keyfiyyətli yağ, yanacaq və yağlayıcı-soyuducu maye kompozisiyalarının yaradılmasının elmi əsaslarının işlənib hazırlanması təşkil etmişdir.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə yaradılmış bir sıra aşqarlar və sürtkü yağları, o cümlədən xüsusi təyinatlı yağlar sənayedə tətbiq edilmişdir.

1967-1987-ci illər ərzində AMEA Aşqarlar Kimyası İnstitutunda kiçik və böyük elmi işçi, "Sürtkü yağlarına polimer aşqarlar" laboratoriyası müdirinin müavini, "Aşqarların sintezi və təsir mexanizminin elmi əsasları" laboratoriyasının rəhbəri, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1987-ci ildə Aşqarlar Kimyası İnstitutuna direktor əvəzi təyin edilmiş, daha sonra isə institutun kollektivi tərəfindən direktor seçilmişdir.

Vaqif Fərzəliyev aşqarlar kimyası elminin inkişafı sahəsindəki böyük uğurlarına görə 2001-ci ildə AMEAnın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir. 2007-2013-cü illərdə AMEA RH-nin akademik-katibi vəzifəsində çalışmışdır.

Vaqif Fərzəliyev 900-ə yaxın elmi əsərin, o cümlədən 550-ə yaxın elmi məqalə, 150-dən çox müəlliflik şəhadətnaməsi və patent, dörd monoqrafiyanın, bir kitabın müəllifidir. Onun əsərlərinin təxminən 300-ə yaxını xaricdə çap olunmuşdur. 120-dən çox elmi əsəri isə beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda nəşr olunmuşdur. O, 200-ə yaxın Beynəlxalq və Respublika miqyaslı konfranslarda, simpoziumlarda, müşavirələrdə məruzələrlə çıxış etmişdir. Onun rəhbərliyi ilə 18 fəlsəfə doktoru və 4 elmlər doktoru müdafiə etmişdir.

Akademik Firat Univerisitetinin medalı (1995), Hindistan Texnoloji İnstitutunun xatirə medalları (1997), "Akademik N.M.Emmanuelin xatirəsi" medalı (2009), "Kraliça Viktoriya adına ekskuliziv Britaniya mükafatı" (2011), Avropa Birliyinin ElmSənaye Palatasının "Qızıl" medalı və diplomu (2013) ilə təltif edilimişdir.

Vaqif Fərzəliyev elm və texnikanın inkişafındakı nailiyyətlərinə və elmi nəticələrin xalq təsərrüfatına tətbiqinə görə 2005-ci ildə "Şöhrət", 2019-cu ildə "Şərəf" ordenləri ilə təltif edimiş, 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 2017-ci ildə AMEA-nın akademik Yusif Məmmədəliyev adına mükafatı laureatı olmuşdur.

Ədəbiyyat:

Tietanlar kimyası: [Monoqrafiya] / Vaqif Fərzəliyev, S. Babayev; red. Ə. R. Sucayev. – Bakı: [Elm], 2022 – 170 s..

Kimya və həyat / V.M.Fərzəliyev, M.Ə.Allahverdiyev, K.M.Allahverdiyeva.- Bakı: Elm, 2014.- 200 s.

Azərbaycan Milli Elmlər Akdemiyası / [red. V.Fərzəliyev; fotoşəkillər "Elm TV"nin çəkiliş heyəti; ön söz A.Əlizadə].- [Bakı]: [Elm], [2016].- 119 s.

MDB-də Aşqarlar kimyası sahəsində yeganə elmi mərkəz: Tədqiqat institutlarımız / Vaqif Fərzəliyev; söhbətləşdi O. Mustafayev // Azərbaycan müəllimi.- 2023.- 24 fevral.- S.6.

Vaqif Məcid oğlu Fərzəliyev: biblioqrafiya / AMEA, Akad. Ə. M. Quliyev ad. Aşqarlar Kimyası İn-tu; Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 2009.- 363 s.

Vaqif Məcid oğlu Fərzəliyev: biblioqrafiyaya əlavə / AMEA, Akad. Ə. M. Quliyev ad. Aşqarlar Kimyası İn-tu; R. M. Rəxşanlı.- Bakı: Elm, 2010.-251 s.

Ağaxan Ağabəyli – 120

(1904-1980)

Alim



Ağaxan Ələsgər oğlu Ağabəyli 1904-cü il dekabr ayının 22-də Salyanda anadan olmuşdur.

1923-cü ildə Azərbaycan Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsinə daxil olmuşdur, ali məktəbi bitirdikdən sonra 1927-1929-cu illərdə Xalq Torpaq Komitəsinin Kolxoz mərkəzi sistemindəki Salyan peşə məktəbinin direktoru təyin olunmuşdur.

1929-1930-cu illərdə Bakı və Şəkidə aqronom-zootexnik işləmişdir.

1925-1926-cı illərdə Ukrayna Ümumittifaq Hibridləşdirmə və İqlimləşdirmə İnstitutuna yunluq və ətlik məhsuldarlığı öyrənmək məqsədi ilə Askaniya-Nova Hibridləşdirmə İnstitutuna göndərilmişdir.

Ağalar Ağabəyli 1930-cu ildə Moskva Ümumittifaq Elmi-Tədqiqat Heyvandarlıq İnistitutunun aspiranturasına daxil olmuş, məşhur seleksiyaçı-alim A.S.Serebrovskinin rəhbərliyi altında "Ləzgi cinsli qoyunlar və onların meronoslarla çarpazlaşdırılmasının nəticələri" mövzusunda tədqiqatlar aparmışdır.

1932-ci ildə aspiranturanı müvəffəqiyyətlə bitirmiş, 1938-ci ildə namizədlik, 1949-cu ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1939-cu ildə dosent, 1950-ci ildə professor elmi adlarına layiq görülmüşdür. 36 il müddətinə AzKTİ-nin "Heyvanların yetişdirilməsi və genetikası" kafedrasına rəhbərlik etməklə yanaşı, "Zoologiya və darvinizm" kafedrasının müdiri, Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutunda baş elmi işçi, AzKTİ-nun zootexnika fakültəsinin dekanı işləmişdir.

O, 1956-cı ildə ÜİKT EA-nın (indi Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyası) və AMEA-nın müxbir üzvü seçilmişdir.

1966-cı ildən həyatının son günlərinədək Azərbaycan EA Genetika və seleksiya İnstitutunda yeni yaradılmış "Heyvanların genetikası və seleksiyası" şöbəsinə rəhbərlik etmişdir.

AğalarAğabəyli heyvandarlıq sahəsindəki elmi tədqiqatlarının nəticəsi kimi 220-dən çox elmi əsər, o cümlədən bir neçə fundamental monoqrafiya və dərs vəsaiti çap etdirmişdir. Onun "Camışçılıq" adlı dərs vəsaiti bir neçə dəfə nəşr edilmiş, 1967-cı ildə isə Moskvada rus dilində çap olunmuşdur. Sonralar Vyetnam dilinə də tərcümə edilmişdir; 1975-ci ildə "Kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi" dərsliyi, 1980-cı ildə "Azərbaycan camışları" monoqrafiyası, 1981-ci ildə "Azərbaycanda iri buynuzlu qaramalın zebu ilə hibridləşdirilməsi" əsərləri işıq üzü görmüşdür.

1964-cü ildə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni, üç medal və Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Ağaxan Ələsgər oğlu Ağabəyli 1980-ci il avqust ayının 20-də vəfat etmişdir.

Ə d ə b i y y a t:

Zebu və onun qaramal ilə hibridləşdirilməsi / A.Ə.Ağabəyli; Azərbaycan SSR, EA Genetika və Seleksiya İn-tu.- Bakı: Elm, 1981.-71 s.

Kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi: kənd təsərrüfatı institutu üçün dərslik / A.Ə.Ağabəyli; [red. M.Kərimov, O.Məmmədov].- Bakı: Maarif, 1975.- 289 s.

Ağaxan Ağabəyli 100 / Tərtibçilər: Z.Ə.Abbasov, İ.R.Əbilov, R.A.Ağabəyli; red. M.A.Musayev; Ön söz: M.Musayev; Azərbaycan Milli Elmlər Akademiyası.- Bakı: Elm, 2004.-288 s.

Ağaxan Ələsgər oğlu Ağabəyli: biblioqrafiya / Tərt. Y.H.Hacıyev, İ.R.Əbilov, Z.Ə.Abbasov, R.A. Ağabəyli; red. M.A.Musayev; AMEA; Azərb. Resp. Kənd Təsərrüfatı Nazirliyi.-Bakı: Elm, 2005.- 205 s.

Pərviz Kazımi – 65

(1959)

Kitabxanaşünas



Pərviz Firudin oğlu Kazımi 1959-cu il dekabr ayının 10-da Bakı şəhərində anadan olmuşdur.

1967-1977-ci illərdə Bakı şəhəri 240 nömrəli orta məktəbdə təhsil almışdır. 1977-ci ildə Bakı Baş Tikinti trestinin 21 nömrəli tikinti idarəsində fəhlə işləməyə başlamış və bir müddət İdarə gənclər təşkilatına rəhbərlik etmişdir.

1978-1983-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaçılıq fakültəsində təhsilini davam etdirmişdir. Təhsil illərində professor A.A.Xələfov tərəfindən elmi tədqiqat işlərinə cəlb edilmiş və bir müddət Tələbə Elmi Cəmiyyətinin sədri olmuşdur.

1984-cü ildə Suraxanı rayonunda Respublika Həmkarlar Təşkilatının Mərkəzi İttifaqlararası Kitabxanasında çalışmağa başlamış və az müddətdən sonra Mərkəzi kitabxananın direktoru təyin edilmişdir.

1986-cı ildə BDU-nun dissertantı olmuş, 1987-ci ildən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində müəllim olaraq fəaliyyətə başlamışdır.

2009-cu ildə "Səfəvilər dövründə Azərbaycanda kitabxana işi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

2012-2017-ci illərdə BDU-nun doktorantura layihəsində iştirak etmiş və "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir.

2016-cı ildən "Kitabxanaşünaslıq" kafedrasının dosentidir və fakültə Tələbə Elmi Cəmiyyətinə rəhbərlik edir.

Elmi-pedaqoji fəaliyyətlə yanaşı, geniş ictimai fəaliyyətlə də məşğul olur. "Mühacir" ictimai birliyinin sədr müavini, İslam Konfransı ölkələrinin "Yüksək texnologiyalar sahəsində əməkdaşlıq" Assosiasiyasının və İslam ölkələri "Elmi İsnad Mərkəzinin" (mərkəzi Şiraz şəhəri) Azərbaycanda nümayəndəsi, professor A.A.Xələfovun rəhbərlik etdiyi "Kitabxanaşünaslıq və informasiya" elmitəcrübi jurnalının məsul katibidir.

Pərviz Kazımi 100-ə qədər elmi məqalə, 3 dərs vəsaiti, 12 tədris proqramı, 2 monoqrafiya çap etdirmişdir. Bir neçə elmi əsərin redaktoru və rəyçisi olmuş, 2 elmi əsərin S.Kramerin "Tarix Şumerdən başlayır" kitabını rus dilindən tərcümə edərək, professor A.A.Xələfovun elmi redaktorluğu ilə çap etdirmiş və akademik V.P.Maksakovskinin "Dünyanın coğrafi mənzərəsi" əsərini Azərbaycan dilinə tərcümə etmiş və kitabın redaktorluğunu etmişdir.

Ədəbiyyat:

Kitabxanalarda informasiya texnologiyaları / A. Qurbanov, Pərviz Kazimi, O. Quliyev; elmi red. A.A.Xələfov; red. S.F.Mütəllimova; Azərb. Resp. Mədəniyyət Nazirliyi, C. Cabbarlı ad. Respublika Gənclər Kitabxanası. – Bakı: [Mütərcim], 2020. - 253, [3] s.

Türk xalqlarının tarixi təkamülündə əlifba problemi (Müasir gerçəklik - tarixi hadisələrin nəticəsi kimi) / Pərviz Kazımi // "Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meyilləri" mövzusunda Respublika elmi konfransının materialları, 7 may 2021-ci il / Bakı Dövlət Universiteti.- 2021.- S. 13-14.

Güneydə türk dilində kitabların "soyqırımı" / Pərviz Kazımi // Xalq qəzeti.- 2023. - 5 aprel. - S.9.

Beynəlxalq Əlillər Günü

(1992)



Beynəlxalq Əlillər Günü bütün dünyada hər il dekabrın 3-də qeyd edilir və bu barədə 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Onun hədəfi — ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir.

Dünyada təxminən bir milyard əlil yaşayır və onlar cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər. BMT-nin məlumatına əsasən, onlar dünya əhalisinin ən kasıb hissəsini təşkil edir və təhsil, səhiyyə, məşğulluq sahələrində, eləcə də sosial və hüquqi yardım almaq baxımından digər cəmiyyət üzvləri ilə eyni imkana malik deyillər.

2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilmişdir. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanmışdır. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapmışdır. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müəssisələr yaradılmışdır.

Əlillərin, şəhid ailələri və müharibə veteranlarının sosial müdafiəsi Prezident İlham Əliyevin də diqqət mərkəzindədir. Dövlət başçısının əhalinin sosial problemlərinin həllinə xüsusi qayğısı əlillərin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpasına şərait yaratmışdır. Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Bu sahədə qanunvericilik təkmilləşdirilmişdir.

2014-cü il iyunun 20-də dövlətimizin başçısının verdiyi Sərəncama uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların ailələri və əlillər üçün mənzillər və şəxsi evlər tikilir, həmin kateqoriyadan olan şəxslərə mənzil və ya fərdi evləri ilə təmin olunur.

Ölkəmizdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 41,3 min şəxsə əlillik təyin edilmişdir. Agentliyin reabilitasiya müəssisələrində 69,8 min şəxsə reabilitasiya xidmətləri göstərilmişdir.

Ədəbiyyat:

Bayramova, Z. 3 dekabr-Beynəlxalq Əlillər Günüdür / Zümrüd Bayramova // Səs.- 2021.- 3 dekabr. - S.13.

Zümrüd. 3 dekabr Beynəlxalq Əlillər Günü / Zümrüd // Səs.- 2018.-1 dekabr.- S. 11.

Beynəlxalq Əlillər Günü ilə bağlı kitab sərgisi // Mədəniyyət.- 2019.- 4 dekabr. - S.2.

Beynəlxalq İnsan Hüquqları Günü
(1948)



Dekabrın 10-u dünyada Beynəlxalq İnsan Hüquqları günü kimi qeyd olunur. "Bütün insanlar azad və bərabərdir" tezisinə əsaslanan Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası 10 dekabr 1948-ci ildə bu günü Beynəlxalq İnsan Hüquqları Günü olaraq qəbul etmişdi.

İnsan hüquqları, insanların təbii və dərakədən irəli gələn subyektiv hüquqlarını təsvir edir. İnsan hüquqlarının əsas konsepsiyası ondan ibarətdir ki, bütün insanlar eyni hüquqlara malik olmalıdırlar və bu hüquqlar hər hansı bir izaha ehtiyac olmadan hər kəsə bərabər şəkildə aid edilməlidir.

Dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, BMT-nin İnsan hüquqları haqqında Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara qoşulmuşdur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiya ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuş, hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan vermiş, mühüm normativ-hüquqi aktlar və dövlət proqramları qəbul edilmiş, insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyənləşdirilmişdir.

Demokratik inkişaf yolu seçmiş Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin real təminatı üçün zəruri qanunvericilik bazası yaradılmışdır. 1998-ci ilin 22 fevralında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalanmış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən olunmuşdur.

Respublikamızda həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması olub. 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı, habelə 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkili təsisatının yaradılması nəzərdə tutulub. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi. 2001-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanununu qəbul edib. Müvəkkil təsisatının yaradılması və fəaliyyəti üçün maddi və hüquqi baza formalaşdırılmışdır. Həmçinin 24 dekabr 2002-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu qəbul edilmişdir.

Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaqla bu Konvensiya Konstitusiyamızın 148-ci maddəsinə müvafiq olaraq milli qanunvericiliyin tərkib hissəsinə çevrilmişdir. Həmçinin Azərbaycan Respublikası insan hüquqlarının qorunması sahəsində mühüm beynəlxalq sənədlərə, o cümlədən BMT Baş Məclisi tərəfindən qəbul edilmiş "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqət alçaldan davranış və cəza növünə qarşı" Konvensiyaya qoşulmuşdur.

Ölkəmizdə hər il İnsan Hüquqları günü yüksək səviyyədə konfranslar və görüşlər, həm də insan hüquqları məsələlərinə həsr olunmuş mədəni tədbirlər və sərgilərlə qeyd olunur. Əlavə olaraq, 18 iyun da Azərbaycan Respublikasında İnsan hüquqları günü kimi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyi nəzərə alınaraq iyunun 18-i Azərbaycan Respublikasında İnsan hüquqları günü kimi təsis edilib. Bu hadisə özü də onu göstərir ki, ölkəmizdə insan hüquqları dövlət tərəfindən qorunur və xüsusi diqqət edilir.

Ədəbiyyat:

Bakıda Beynəlxalq İnsan Hüquqları Günü qeyd edildi // Azərbaycan.- 2022.- 10 dekabr.- S.11.


Hacalıyev,E. Azərbaycanda insan hüquq və azadlıqları yüksək səviyyədə təmin olunub: / [10 dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür]/Elnur Nacalıyev//Azərbaycan.-2016.-10 dekabr.-S.7

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2015/dekabr/467752.htm

https://az.wikipedia .org/wiki/İnsan_Hüquqları_Günü

Ümummilli Lider Heydər Əliyevin anım günü



2003-cü il dekabr ayının 12-də Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, xalqımızın Ümummilli Lideri, Azərbaycan Respublikasının sabiq Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi və taleyi Ümummilli Lider Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş, məhz onun adı ilə bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövrlər ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

12 dekabr - bu gün bütün dünya azərbaycanlıları milli liderimiz Heydər Əliyevin əziz xatirəsini yad edir. O, indi aramızda olmasa da, yoxluğuna inanmaq çox çətindir. Çünki bizi əhatə edən gözəl Bakımız, əzəmətli Azərbaycanımız milli liderimiz Heydər Əliyevin əməlləri ilə əhatə olunmuşdur. Son illər ölkəmizdə görülmüş və müvəffəqiyyətlə davam etdirilən quruculuq işləri, respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafı, xalqımızın rifahının yüksəldilməsi istiqamətində həyata keçirilmiş genişmiqyaslı tədbirlər Heydər Əliyev şəxsiyyətinin unudulmaz xatirəsinə ən böyük ehtiramdır.

Göstərdiyi yüksək diqqət və qayğı ilə, imzaladığı fərman və sərəncamlarla, keçirdiyi çoxsaylı görüşlərlə, söylədiyi dərin məzmunlu nitqlərlə uzaqgörən sərkərdə milli sərhəd siyasətimizi formalaşdırmış, ölkəmizin sərhədlərinin mühafizəsi strategiyasını zərgər dəqiqliyi ilə müəyyənləşdirmişdir. Bu siyasəti uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Vətən müharibəsindəki möhtəşəm qələbə də öz vətəndaşlarına nə qədər bağlı olduğunu, dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etdiyini bir daha əyani göstərdi. Döyüşlərin getdiyi 44 gün ərzində cənab İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə böyük strateq nümunəsi sərgilədi, informasiya müharibəsində Azərbaycanın haqq səsini məharətlə bütün dünyaya yaydı, bütün təzyiqlərə cəsarətlə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik, müdriklik rəmzinə çevrildi.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir.

Deyirlər dahilər yüz ildən, min ildən bir dünyaya gəlir... Böyük tarixi olan Azərbaycan əsrlər boyu çox dahilər yetişdirmişdi... Ancaq belə dahi insan dünyaya nə gəldi, nə də çətin ki, bundan sonra gələ...

Heydər Əliyev Bakıda, Fəxri Xiyabanda, ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın yanında dəfn olunmuşdur. 2004-cü ildə heykəltəraş Ömər Eldarov tərəfindən qəbirüstü abidəsi ucaldılmışdır.

Onun məzarı qədirbilən Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilmişdir.

Biz həmişə onunla fəxr etmişik, bu gün də fəxr edirik. Necə ki o, azərbaycanlı olduğu üçün həmişə fəxr edirdi!

Ədəbiyyat:

Heydər Əliyev: Biblioqrafiya (Kitabları və haqqında yazılmış kitablar) / tərt. ed.: M.Vəliyeva, Y.Sadıqova; elmi red. K.Tahirov; ön söz müəl. İ.Həbibbəyli; red. X.Abbasova. – Bakı, 2023. – 1000 s.

Şəkərəliyev, A. Ümummilli lider Heydər Əliyev: amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqına xidmət etmək olan ulu öndər: (Son dövrdə mətbuatda çap edilmiş məqalələr toplusu) /A.Şəkərəliyev; red.: M.Meybullayev.- Bakı: Naksuana, 2007.- 491 s.

Heydər Əliyev və Hüseyn Cavid /Gülbəniz Babaxanlı; red. A. Əliyeva-Kəngərli [ön söz.]; AMEA, Hüseyn Cavidin Ev Muzeyi.- Bakı: Elm və Təhsil, 2020.-144 s.

Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti: [monoqrafiya] /N. Zamanov ; elmi red. M. Nağısoylu ; ön sözün müəl. N. Cəfərov.- K. 4.- Bakı: Elm və təhsil, 2020.- 540, [4] s.: portr., 22 sm.

Paşayev, Q. Xilaskarlar / Qəzənfər Paşayev; ön söz. müəl. İ.Həbibbəyli; red. N. Cəfərov; [üz qabığının tərt. T.Mehdiyev].-Bakı: Təhsil, 2021.- 135, [1] s.

Beynəlxalq Kino Günü
(1895)



Dekabrın 28-də dünyada Beynəlxalq Kino Günü qeyd olunur. 1895-ci il dekabrın 28-də Lui və Oqyust Lümyer qardaşları Parisin Kapusin bulvarındakı balaca kafedə ilk dəfə özlərinin çəkdikləri qısametrajlı filmlərin pullu nümayişini təşkil etmişdirlər. Filmlərin arasında 46 saniyəlik "Fəhlələrin Lümyer fabrikindən çıxması" filmi də var idi. XIX əsrin ən maraqlı kəşflərindən biri olan kino yarandığı gündən insanların dünyagörüşünü formalaşdırmaqla bərabər, hər bir xalqın tarixini milli adət-ənənələrini yaşadır, həyatın bütün sahələrinə nüfuz edir. Kino yeganə sənət növüdür ki, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirir. Onun digər bir üstünlüyü də əyaniliyindədir, inandırma gücünə və təsirə malik olmasındadır.

Azərbaycanda milli kino günü hər il avqustun 2-də qeyd edilir. Ümummilli lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur.

Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra – 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü sayılır.

Ötən əsrin əvvəllərində "Pate", "Pirone", "Filma" kimi xarici kino şirkətləri Bakıda filiallarını açaraq film istehsalı ilə məşğul olublar. 1916-cı ildə yazıçı İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət bir çox mədəni-siyasi islahatlar keçirmişdir. Xarici aləmlə diplomatik, mədəni-iqtisadi əlaqələr dünya kinosunun ilk nümunələrinin Bakıya gətirilməsinə və ictimai baxışlara təkan vermişdir. Bunun nəticəsində Bakıda kinematoqrafiya həvəskarlarının sayı artmağa başlamışdır. 1918-ci ildə onlar "Kinematoqrafiya və teatr qulluqçuları şurası"nda birləşmişdilər.

1923-1926-cı illərdə kinostudiya Birinci Dövlət Kinofabriki, sonradan AFKİ Kinofabrik ilə birləşdirilərək "Azdövlətkino", "Azərkino", "Azərfilm", "Azdövlətkinosənaye", "Bakı kinostudiyası", "Azərbaycanfilm" adlandırılıb. 1960-cı ildən Cəfər Cabbarlının adını daşıyır.

"Azərbaycanfilm"də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülmüşdür.

2018-ci ildə Azərbaycan kinosunun 120 illiyinin qeyd olunması haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən ölkəmizin hər yerində silsilə tədbirlər keçirilmişdir. Azərbaycan kinosu böyük tarixə malikdir. Bu illər ərzində ölkəmizin, xalqımızın həyatının müxtəlif sahələrinə aid filmlər çəkilib. Təxminən son on ildə dövlət büdcəsindən ayrılmış vəsait hesabına tammetrajlı və qısametrajlı bədii, sənədli, habelə cizgi filmləri çəkilib. Bu gün gənclərimiz dünyanın bir sıra ölkələrində bu sahədə təhsil alırlar. Eyni zamanda, ölkəmiz dünyanın müxtəlif ölkələrində keçirilən film festivallarında iştirak edir.

Ədəbiyyat:

Xaspoladova, Ü. Bu kino ki var...: / Ülkər Xaspoladova //Azərbaycan qəzeti.- 2022.- 18 dekabr.- S.11.

Fərəcova, Z. Ekran adlı möcüzə...: 28 dekabr Beynəlxalq kino günüdür / Zöhrə Fərəcova // Azərbaycan.- 2019.- 28 dekabr.- S. 11.

Nərimanoğlu, M. Ağlı-qaralı ekran həyatı: Bakıda lentə alınan "Bibiheybətdə neft fontanı" Azərbaycanda kino sənətinin əsasını qoyub / Məhəmməd Nərimanoğlu // Azərbaycan.- 2021.- 28 dekabr.- S.11.

İnternetdə:

https://azertag.az/xeber/Bu_gun_Beynelxalq_Kino_Gunudur-1676151

Dünya Azərbaycanlılarının Həmrəylik Günü



1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmiş, beləliklə, bütün azərbaycanlılar üçün əziz olan bu gün bütün dünyada bayram edilir.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilmiş, Yeni il isə ikinci plana keçmişdir. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşlər. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

SSRİ-nin son günləri, Azərbaycan millətinin Arazın hər iki sahilində sərhəd yürüyüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaş bacısına qovuşmaları iki totalitar dövlətin ciddi təzyiqlərinə baxmayaraq, o taylı-bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. Həmrəylik günü bu birləşmək istəyinin simvolik nişanıdır.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda, sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyulmuş, Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdılmışdı. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verilmişdi.31 dekabr Dünya azərbaycanlılarının həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin.

Ədəbiyyat:

Bayramova, Z. 31 dekabr-Dünya azərbaycanlılarının birlik və həmrəylik günü! / Zümrüd Bayramova // Səs.- 2022.- 31 dekabr.- S.3.

Hüseynova, G. Zəfər ilinin Həmrəylik Günü: 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür / Gülsurə Hüseynova, Ş.Behbudzadə // Azərbaycan ordusu.- 2020.- 31 dekabr.- S. 4.

İnternetdə:

https://az.wikipedia.org/wiki/ Dünya_Azərbaycanlılarının_Həmrəylik_Günü

http://anl.az/down/meqale/xalqqazeti/ xalqqazeti_dekabr2009/101637.htm

Bu bölmədə 2024-cü ildə qeyd ediləcək, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında məlumat əldə edəcəksiniz

Yaşıl dünya naminə həmrəylik ili



Azərbaycanda yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Bu ənənə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin ətraf mühitin mühafizəsi sahəsində əsasını qoyduğu siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, görülmüş mühüm işlər ekologiya və ətraf mühitin mühafizəsi sahəsində də yeni nailiyyətlərin əldə olunmasına şərait yaratmışdır.

Salınmış yaşıl sahələr, meşələr, parklar ətraf mühitin qorunması ilə yanaşı, insanların, ən əsası isə uşaqların təbiətlə sıx əlaqəsini təmin edir, onlarda "eko dostluğuna" və torpaq sevgisinə gətirib çıxardır. Dövlətimizin daxili siyasətini təşkil edən "Təmiz ətraf mühit və "yaşıl artım" prioriteti, həmçinin, uşaqların və gənclərin ekologiya və təbiətlə bağlılığının möhkəmləndirilməsində və yüksəldilməsində, onların sağlam həyat tərzinin bir hissəsinə çevrilməsində böyük rol oynayır.

ƏLAVƏLƏR

2024



Milli ədəbiyyat

Şair, mütəfəkkir Seyid Əli Seyid Məhəmməd oğlunun (İmadəddin Nəsimi) (1369-1417) anadan olmasının 655 illiyi 762
Şair Məhəmməd Füzuli ibn Süleymanın (1494-1556) anadan olmasının 530 illiyi . 763
Şair Qasım bəy Əlibəy oğlunun (Qasım bəy Zakir) (1784-1857) anadan olmasının 240 illiyi 764
Şair Mirzə Şəfi Vazehin (1794-16.11.1852) anadan olmasının 230 illiyi 765
Molla Nəsrəddinçi şair Abbaszadə Bayraməli Abbas oğlunun (1869- 04.06.1926) anadan olmasının 155 illiyi
Şair Əbdülsəlimzadə Ağa Məhəmməd Əbdülsəlim oğlunun (Məhəmməd Hadi) (1879-04.1920) anadan olmasının 145 illiyi
Aşıq-şair Axundov Məzahir Həmzə oğlunun (Məzahir Daşqın) (1909- 31.11.1979) anadan olmasının 115 illiyi
Əməkdar mədəniyyət işçisi, filologiya elmləri namizədi, şair, ədəbiyyatşünas Əsgərov Şamil Səlim oğlunun (Şamil Dəlidağ) (09.1929-20.05.2005) anadan olmasının 95 illiyi
Şairə Ağayeva-Zamanova Zivər Sübhan qızının (1934-22.06.2015) anadan olmasının 90 illiyi



Folklor

Aşıq Allahverdi Kosacanlının (Ağ Aşıq) (1754-1860) anadan olmasının 270 illiyi
Aşıq Rzayev Əsəd Əhməd oğlunun (Aşıq Əsəd) (1874-27.04.1951) anadan olmasının 150 illiyi 766
Aşıq Məhərrəmov İdris Şirin oğlunun (1894-1945) anadan olmasının 130 illiyi 767
Aşıq Cavadova Nabat Paşa qızının (Aşıq Nabat) anadan olmasının (1914-03.10.1973) 110 illiyi



Dünya ədəbiyyatı

Türkmən şairi Məhtumkulu Fəraqinin (1724-1782) anadan olmasının 300 illiyi
Özbək yazıçısı, şairi Zakirjan Furkat Kalmukhammed oğlunin (1859-1909) anadan olmasının 165 illiyi 768
Xalq şairi, Qırğızıstanın Xalq artisti Sayakbay Karalaevin (1894-07.05.1971) anadan olmasının 130 illiyi



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Nəqqaş, xəttat Abdullazadə Kərbəlayı Zeynalabdin Əbu Səid oğlunun (Usda Zeynal Nəqqaş) (1839-1904) anadan olmasının 185 illiyi



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, müğənni Naxçıvaniski Xurşid Rəhimxan qızının (Qacar Xurşid) (1849-1963) anadan olmasının 175 illiyi
Xanəndə Mütəllimov Mütəllim Kəblə Ələkbər oğlunun (1909-1981) anadan olmasının 115 illiyi

ƏLAVƏLƏR

2024



Teatr.Kino

Aktyor Əliyev Ələkbər Fərəculla oğlunun (Ələkbər Süheyli) (1879- 26.2.1927) anadan olmasının 145 illiyi

Aktyor, teatr xadimi Muradov Murad bəy Məmmədrza bəy oğlunun (1884-2.11.1964) anadan olmasının 140 illiyi 769

Siyasət. Hərbi iş

Görkəmli dövlət xadimi, şair Sivasi Qazı Bürhanəddin Şəmsəddin Məhəmməd oğlunun (1344- 1398) anadan olmasının 680 illiyi 770

Xalq qəhrəmanı Nəbi Alı oğlunun (Qaçaq Nəbi) (1854-12.03.1896) anadan olmasının 170 illiyi 771

Zabit, hüquqşünas, maarifpərvər, bibliofil, ictimai xadim Kəngərli Məmmədqulu bəy Şefi ağa oğlunun (1864-1905) anadan olmasının 160 illiyi 772

İctimai-siyasi xadimi, şərqşünas Ağayev Əhməd bəy Mirzə Həsən oğlunun (Ağaoğlu) (dekabr.1869-19.05.1939) anadan olmasının 155 illiyi

Dövlət xadimi, hərbçi Cahangirzadə İbrahim bəy Cahangir oğlunun (1874-19.05.1948) anadan olmasının 150 illiyi 773

Dövlət xadimi, general-mayor Əlizadə Məmməd (Məhəmməd) Əli oğlunun (mart 1919-bilinmir) anadan olmasının 105 illiyi

İctimai xadim Şeyx Məhəmməd Hacı Əbdülhəmid oğlunun (Şeyx Məhəmməd Xiyabani) (1879-14.09.1920) anadan olmasının 145 illiyi

Dövlət xadimi, ixtiraçı-mühəndis, texniki elmlər sahəsində ilk azərbaycanlı professorlardan biri Məlikaslanov Xudadat bəy Ağa oğlunun (aprel 1879-23.07.1935) anadan olmasının 145 illiyi


Osmanlı ordusunun generalı, Qafqaz İslam Ordusunun komandanı Killigil Nuru Paşa Əhməd bəy oğlunun (1889-2.03.1949) anadan olmasının 135 illiyi

Azərbaycan dövlət və ictimai xadimi Aslanova Çimnaz Əbdüləli qızının (1904-10.03.1970) anadan olmasının 120 illiyi



Tarix

Tarixçi, şair Xəzani Mir Mehdi Mir Həşim bəy oğlunun (1819-1894) anadan olmasının 205 illiyi



Fəlsəfə. İqtisadiyyat. Hüquq

Filosof, şair Marağalı Əvhədədin Şeyx Əvhədi ibn Hüseynin (Əhvədi Marağayi) (1274-1338) anadan olmasının 750 illiyi 774



Mədəniyyət. Maarif. Təhsil

Maarifçi, publisist, xeyriyyəçi Şərifzadə (Şərifov) Qurbanəli Hacı Ələsgər oğlunun (1854-1917) anadan olmasının 170 illiyi 775

Əməkdar müəllim Ağalarova Bahar Əmirəli qızının (Anacan) (1884-16.02.1953) anadan olmasının 140 illiyi

Pedaqoq, coğrafiyaçı, publisist Mirzəzadə Qafur Rəşad Ələkbər oğlunun (Qafur Rəşad) (1884-1943) anadan olmasının 140 illiyi. 776

Maarifçi, publisist Əlibəyova Xədicə Ələddin qızının (1884-1961) anadan olmasının 140 illiyi
Maarif xadimi Qiyasbəyli Mədinə Mehdi ağa qızının (1889-1938) anadan olmasının 135 illiyi
Əməkdar müəllim, maarif xadimi Mirişli Mir Cəfər Miriş ağa oğlunun (1899-1979) anadan olmasının 125 illiyi
Əməkdar mədəniyyət işçisi, jurnalist Məlikov Süleyman Dadaş oğlunun (1899-1979) anadan olmasının 125 illiyi
Əməkdar müəllim, ictimai xadim Ələkbərli Məmməd Həmid oğlunun (1899-1959) anadan olmasının 125 illiyi
Maarif xadimi Məmmədov Qulam Kərim oğlunun (1904-1985) anadan olmasının 120 illiyi
Əməkdar elm xadimi, görkəmli pedaqoq-alim, professor Muradxanov Mərdan Əsədulla bəy oğlunun (1909-1979) anadan olmasının 115 illiyi



Texnika.Mühəndis işi

Əməkdar mühəndis Rüstəmbəyova Fəridə Cəfər qızının (1924) anadan olmasının 100 illiyi



Coğrafiya.Geologiya

Coğrafiya elmləri doktoru, professor, sinoptik və iqlimşünas Mədətzadə Əliabbas Abbasqulu oğlunun (1909-1972) anadan olmasının 115 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

M.Seyidzadə adına mərkəzi şəhər uşaq kitabxanası (indi Səbail MKS-nin 2 saylı filialı) açılmışdır (1889)
“8 mart” adına Bakıxanov qəsəbə uşaq kitabxanası (indi Sabunçu MKS-nin 3 saylı filialı) açılmışdır (1904)
X.Natəvan adına uşaq kitabxanası (indi Yasamal MKS-nin 4 saylı filialı) açılmışdır (1904)
Sabunçu qəsəbə kütləvi kitabxanası açılmışdır (1904)
Şəhriyar adına Bakıxanov qəsəbə uşaq kitabxanası (indi Sabunçu MKS-nin 1 saylı filialı) açılmışdır (1904)
Bakı Dövlət Universitetinin Elmi kitabxanası yaradılmışdır (1919). 777
M.Dilbazi adına Sabunçu qəsəbə uşaq kitabxanası açılmışdır (indi Sabunçu MKS-nin 2 saylı filialı) (1919)
Neftçala rayonunda ilk kitabxana, Xıllı qəsəbə (indi MKS-nin 1 saylı Xıllı qəsəbə kitabxanası) kitabxanası yaradılmışdır (1919)

M.Ə.Sabir adına Mərkəzi şəhər kitabxanası (indi Səbail MKS-nin 1 saylı filialı) açılmışdır (1919)
"28 may" adına Zabrat qəsəbə uşaq kitabxanası açılmışdır (indi Sabunçu MKS-nin 4 saylı filialı) (1924)
Ordubad rayon Mərkəzi kitabxanası yaradılmışdır (1924)
N.Hikmət adına uşaq kitabxanası (indi Səbail MKS-nin 3 saylı filialı) açılmışdır (1924)
M.Qorki adına Mərkəzi şəhər Səyyar kitabxana (indi Səbail rayon MKS) açılmışdır (1924) 778
Gəncə şəhər Mərkəzi Kitabxanası yaradılmışdır (1934) 779
Masallı rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1924)
Ağcabədi rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1934)
Astara rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1939) 780
Şabran rayonunda ilk kitabxana yaradılmışdır (1939)
Xəzər MKS-nin C.Cabbarlı adına Mərdəkan 7 saylı filial kitabxanası yaradılmışdır (1944)
Saatlı rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1949)
Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin kitabxanası yaradılmışdır (1954)
Bərdə Rayon Mərkəzi kitabxanası yaradılmışdır (1954)
Nizami rayon MKS-nin mərkəzi kitabxanası yaradılmışdır (1959)
Ağcabədi rayon MKS yaradılmışdır (1974) 781
Ağdam rayon MKS yaradılmışdır (1979)
Şirvan şəhər MKS yaradılmışdır (1979)
Balakən rayon MKS yaradılmışdır (1979)
Ağsu rayon MKS yaradılmışdır (1979)
Şabran rayon MKS yaradılmışdır (1979)
Xətai MKS-nin Ş.İ.Xətai adına 1 saylı filial kitabxanası açılmışdır (1984)
Xızı rayon MKS yaradılmışdır (1994)
Bibiheybət qəsəbə Kütləvi Kitabxanası yaradılmışdır 1934
Xaçmaz rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1934)
Hacıqabul rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1939)
Qax rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1979)
Laçın rayon MKS yaradılmışdır (1979)



Digər tarixi hadisələr

Göy-gölün yaranmasının (Kiçik Qafqazda dağ gölü) (1139) 885 illiyi. 782
Azərbaycanın ən qədim rəsədxanası - Marağa rəsədxanasının (1259) inşa edilməsinin 765 illiyi
İrəvan qalasının (orta əsrlərdə qala şəhər) inşa edilməsinin (1504-1510) 520 illiyi 783
"Şeyx Səfi" xalçasının (Təbriz xalçaçılıq məktəbinə mənsub Azərbaycan xalısı) (1539) 485 illiyi

ƏLAVƏLƏR

2024

Şəki Dövlət Dram Teatrının əsası (1879) qoyulmuşdur
N.Gəncəvi adına Gəncə Tarix Diyarşünaslıq Muzeyinin əsası (1924) qoyulmuşdur 784
“Azərbaycan məktəbi” aylıq pedaqoji jurnal nəşrə başlamışdır (1924)
Zaqatala dövlət təbiət qoruğunun (Zaqatala və Balakən rayonun ərazisində) yaradılmasının 95 illiyi (1929)
Azərbaycan SSRİ-də latın qrafikasından kiril qrafikalı əlifbaya keçilmişdir (1939)
“Azərbaycanfilm”də yaradılmış multiplikasiya sexində birhissəli rəngli “Cırtdan” cizgi filminin çəkilməsinin (1969) 55 illiyi
Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) – Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olan elmi-metodiki və ixtisasartırma təşkilatı yaradılmışdır (1939)
Qurban bayramı A 785
Ramazan bayramı. 786

İmadəddin Nəsimi – 655

(1369-1417)

Şair



Seyid Əli Seyid Məhəmməd oğlu (İmadəddin Nəsimi) 1369-cu ildə Şamaxı şəhərində anadan olmuşdur. Əsl adının Əli və Ömər olduğu qeyd edilir. Atası Seyid Məhəmməd dövrünün tanınmış şəxslərindən olmuşdur. İlk təhsilini Şamaxı şəhərində almış, sonralar biliklərini daha da təkmilləşdirmiş, xüsusən fəlsəfi və dini cərəyanları öyrənməyə həvəs göstərmişdir.

Yaradıcılığa aşiqanə şeirlərlə başlamış, X əsrdə Bağdadda dara çəkilmiş Həllac Mənsur Huseyninin sufi görüşlərini təbliğ edərək "Hüseyni", "Seyid Hüseyni", "Seyid"təxəllüsü ilə yazmış, hürufiliyin banisi Fəzlullah Nəiminin görüşlərini mənimsəyərək, Nəiminin təxəllüsü ilə həmahəng səslənən "Nəsimi" təxəllüsünü qəbul etmişdir. Nəsimi üç (Azərbaycan, fars, ərəb) dildə yazmış, ana dilində ilk dəfə müstəzad, mürəbbe və tərcibəndlər qələmə almış, dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazmış, Azərbaycan ədəbiyyatı tarixində ana dilində yazılmış fəlsəfi qəzəlin banisi olmuşdur. Əsərləri hələ sağlığında Azərbaycan, Yaxın Şərq, İraq, Kiçik Asiya və Suriyada, eləcə də Orta Asiyada geniş şöhrət tapmışdır. Ana dilində yazdığı əsərlər Şah İsmayıl Xətai, Füzuli, Vaqif kimi böyük sənətkarların yaradıcılığına təsir göstərmişdir. Nəsimi 1417-ci ildə Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyalarına görə Hələb şəhərində edam olunmuşdur.

Şairin əsərlərinin əlyazmaları dünyanın bir sıra kitabxanalarında saxlanılır. Əsərləri ilk dəfə 1844-cü, sonra isə 1871 və 1880-ci illərdə İstanbulda çap edilmişdir. Ədəbiyyatşünas Salman Mümtaz 1926-cı ildə Nəsimi divanını ərəb əlifbası ilə nəşr etmişdir. Şairin ana dilində divanının elmi-tənqidi mətnini ilk dəfə Azərbaycan alimlərindən C.Qəhrəmanov nəşrə hazırlamışdır. Heydər Əliyevin təşəbbüsü ilə 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur. Şairin Azərbaycan ədəbiyyatı və incəsənətində yaddaqalan obrazı yaradılmış, AMEA Dilçilik İnstitutuna, Bakı rayonlarından birinə adı verilmiş, şəhərin mərkəzində heykəli ucaldılmışdır. 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında sərəncam ilə əlaqədar 2 cilddə seçilmiş əsərləri təkrar nəşr olunmuş, 2012-ci ilin sentyabr ayında Heydər Əliyev Fondu fransız dilində qəzəlləri, məsnəviləri, rübailəri toplanmış kitab nəşr etmişdir. 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Nəsimi - şeir, incəsənət və mənəviyyat adlı dörd günlük festival keçirilmiş, müxtəlif tədbirlər, sərgilər, mühazirələr, ədəbi-bədii gecələr, musiqili kompozisiyalar və s. təşkil olunmuşdur. 2018-ci il noyabr ayının 15-də 650 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalanmış, 19 noyabr 2018-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda büstünün açılışı olmuş, 2019-cu ildə yubileyi respublikamızda dövlət səviyyəsindəqeyd edilmişdir. 10 may 2019-cu ildə Xaçmazda "Çənlibel" parkında abidəsinin açılışı olmuş, 2019-cu ildə Kiyevdə heykəli ucaldılmış, 3 iyun 2019-cu ildə Mars və Yupiter planetlərinin arasında yerləşən 1995 UN2 asteroidinə adı verilmiş,Türkiyənin Xəzinə və Maliyyə Nazirliyi 650 illiyinə həsr olunan xatirə pulları buraxmışdır.

2019-cu ildə Azərbaycan Milli Kitabxanasında "Mədəni sərvətlərimizin vətənə qayıdışı" layihəsi çərçivəsində "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" adlı kitab sərgi açılmış, "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "İmadəddin Nəsimi" biblioqrafiyası nəşr olunmuş və "İmadəddin Nəsimi-650" elektron məlumat bazası hazırlanmışdır.

Ədəbiyyat:

İmadəddin Nəsimi (Seyid Əli ibn Seyid Məhəmməd): biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərtib ed.: M. Vəliyeva, G. Əfəndiyeva, G. Misirova; elmi red. K. Tahirov; ön söz. müəl. T. Kərimli.- Bakı: [n. y.], 2019.- 647, [1] s.

Həqq məndədir:seçilmiş əsərləri / İmadəddin Nəsimi.- [Bakı]: [Kitab Klubu], [2019].-375, [1] s.

Görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş oxucu konfransı: [Mingəçevir şəhəri, 2 dekabr 2019-cu il].- [Mingəçevir], [MDU İnformasiya texnologiyaları mərkəzi], [2020].- 51 s.

Yaqub, M. Nəsimi Nəfəsi / Mail Yaqub; red.: A. Mirzəyeva, V. Hətəmov; [ön söz T. Pənahqızı].- [Bakı]: [Qanun], [2020].- 208 s.

İnternetdə:


https://personalar.az/imadeddin-nesimi-kimdir/

http://anl.az/el/emb/inesimi.pdf

Məhəmməd Füzuli – 530

(1494-1556)

Şair



Məhəmməd Füzuli ibn Süleyman 1494-cü ildə İraqın Kərbəla şəhərində anadan olmuşdur. Bir müddət İraqın Nəcəf və Hüllə şəhərlərində yaşamışdır. Şəxsi mütaliəsi sayəsində orta əsr elmləri – məntiq, tibb, nücum, riyaziyyat, xüsusən dini-fəlsəfi cərəyanları, yunan fəlsəfəsi ilə yaxından tanış olmuş, klassik türk, ərəb, fars və hind ədəbiyyatını öyrənmişdir.

Füzuli hələ yeniyetmə yaşlarından, mədrəsədə oxuyarkən yazdığı aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Şair üç dildə qəzəl, qəsidə, müsəddəs, tərkibbənd, tərcibənd, rübai, qitə, mürəbbe və s. janrlarda yazmışdır. O, qəsidələrini ayrıca bir əsər kimi toplayıb kitab şəklinə salmış, türk, fars və ərəb dillərində divanlar tərtib etmişdir.

Füzuli Azərbaycan ədəbi-bədii dilinin yaradıcılarındandır. Yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Füzuli hələ gənc yaşlarında ana dilində qələmə aldığı alleqorik "Bəngü badə" poemasında dövrünün mühüm siyasi məsələlərinə toxunmuş, lovğa, təkəbbürlü, şöhrətpərəst hökmdarların, şah və sultanların surətlərini yaratmışdır. Dahi şairin fəlsəfi görüşləri əsasən ərəb dilində nəsrlə yazdığı "Mətləületiqad" əsərində öz əksini tapmışdır. Fəlsəfi mahiyyətli qəsidələri, "Yeddi cam", "Ənisül-qəlb", "Səhhət və mərəz" əsərləri qocalıq dövrünün məhsullarıdır. Onun əsərləri Təbrizdə, İstanbulda, Ankarada, Misirdə, Daşkənddə, Buxarada, Aşqabadda, Bakıda dəfələrlə çap olunmuş, şeirləri bir çox dillərə tərcümə edilmiş, dünya şərqşünasları tərəfindən yüksək qiymətləndirilmişdir. Əsərlərinə görkəmli rəssamlar miniatürlər, illüstrasiyalar çəkmiş, Ü.Hacıbəyli "Leyli və Məcnun" poeması əsasında eyniadlı ilk Azərbaycan operasını yazmışdır.

Məhəmməd Füzuli qəməri tarixlə 963-cü, miladi təqvimlə 1556-cı ildə Kərbəlada vəfat etmiş, orada da dəfn olunmuşdur.

Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi 1996-cı ildə YUNESKO səviyyəsində qeyd edilmişdir və əsərləri UNESCO-nun vasitəçiliyi ilə bir daha dünyaya nümayiş etdirilmişdir. Dahi şairin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə çıxış edən Ulu Öndər Heydər Əliyev dünya mədəniyyətini zənginləşdirən Füzuli irsinə yüksək qiymət vermişdir.

Əsərləri toplanaraq ən qədim nüsxələr əsasında Azərbaycanda altı cilddə nəşr olunmuşdur. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-ci il tarixli sərəncamı ilə nəşr olunan kitablar sırasında 1996-cı ilin nəşri əsasında təkrar nəşr olunmuşdur. 1996-cı ildə Azərbaycan Milli Bankı Füzulinin 500 illiyinə həsr olunmuş 100 manat nominalında qızıl, 50 manat nominalında isə gümüş xatirə sikkələri buraxmışdır. Məhəmməd Füzuli (1958), Məhəmməd Füzuli (1989), Şəbi-hicran (1993), Füzuli-500 (1997) filmlərləri çəkilmişdir. Onun adına şəhər, rayon, küçə, mədəni-maarif müəssisələri və s. var. Bakıda abidəsi ucaldılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli qərarı ilə Məhəmməd Füzuli Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Ədəbiyyat:

Leyli və Məcnun: Nəsrlə / Məhəmməd Füzuli.- Bakı: ADPU, 2023.- 230, [1] s.

Qasımlı, A. Ən böyük Qəlb şairi-Füzuli Bağdadi / Aydın Qasımlı // Türküstan.- 2023.- 9-15; 16-22; 23-29 may.- S.16.

Həsənova, T. Üzeyir və Füzuli vəhdəti: "Leyli və Məcnun" – 115 / Təranə Həsənova // Respublika. – 2023. – 18 yanvar. – S. 9.

İnternetdə


https://www.bioqrafiya.com/2020/06/mehemmed-fuzuli.html

https://portal.azertag.az/az/node/382

Qasım bəy Zakir – 240

(1784-1857)

Şair



Ədəbiyyat:

Təmsillər, hekayələr / Qasım bəy Zakir; buraxıl. məsul Ə. Aslanoğlu; red. Z. Şahsevənli; rəssam S. Şovqatova; qapaq dizaynı M. Əziz.- [Bakı]: [MİMTA Yayımları], [2023].- 73, [7] s.

Təmsillər, hekayələr / Qasım bəy Zakir; nəzmdən nəsrə çevirən N. Cəfərzadə; [buraxıl. məsul Ə. Aslanoğlu; red. Z. Şahsevənli; rəs. S. Şovqatova; qapaq dizaynı M. Əziz; Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondu].- [Bakı]: [Nurlar NPM] [MİMTA yayımları], [2021].– 75, [5] s.

Salmanlı, R. Qasım bəy Zakir: Unudulmazlar / Rəhman Salmanlı // Azərbaycan.– 2022.– 18 dekabr.- S.10.

Cavadova, T. Qasım bəy Zakirin əsərlərinin tədqiqi və nəşri tarixindən / Təranə Cavadova // Filologiya və sənətşünaslıq: Azərbaycan Milli Elmlər Akademiyası.- 2022.- № 2.- S. 109-116.

Yaqubqızı, R. Qasım bəy Zakir: satirik şeirlər, təmsillər müəllifit / Ramidə Yaqubqızı // Respublika.- 2023.- 15 avqust.- S.9.

Qasım bəy Əli bəy oğlu Zakir 1784-cü ildə Şuşa şəhərində, Qarabağda məşhur olan Cavanşirlər nəslində anadan olmuşdur.

İlk təhsilini mollaxanada almış, ərəb, fars dillərini öyrənmişdir. Bu dilləri bilməsi ona Yaxın şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz usadlarının əsərləri ilə tanış olmaq imkanı vermişdir.

Şairin yeniyetməliyi və gəncliyi Qarabağda baş vermiş siyasi-hərbi hadisələr dövrünə təsadüf etmişdir. Qarabağ xanlığı Rusiyanın idarəçiliyinə keçdikdən sonra Zakir çar ordusunun Qafqaz müsəlman könüllü atlı dəstəsinə qoşulmuş, 1806-1813, 1826-1828-ci illərin Rusiya-İran müharibələrində Abbas Mirzənin başçılıq etdiyi İran qoşununa qarşı vuruşan dəstənin tərkibində olmuş, döyüşlərdə fərqləndiyinə görə 1828-ci ildə gümüş medalla təltif edilmişdir.

Q.Zakir yaradıcılığa lirik şeirlərlə başlamışdır. Ədəbi fəaliyyətinin ilk mərhələsində klassik qəzəl janrına nisbətən aşıq şeiri formasına daha çox üstünlük vermiş, qoşma və gəraylılarda bir tərəfdən Vidadi və Vaqif, digər tərəfdən isə Aşıq Qurban, Tufarqanlı Abbas kimi ustadların ənənələrini davam etdirmişdir. Sələflərinin ədəbi ənənələrini yeni tarixi şəraitdə davam etdirərək klassik üslubda yazdığı qəzəlləri, müxəmməs, müstəzad, tərcibənd, tərkibbəndləri ilə yanaşı yaradıcılığında xalq şeiri formasına - qoşma, təcnis və gəraylılara da geniş yer vermişdir. Şairə ədəbiyyat tariximizdə xüsusi mövqe qazandıran və onu daha çox şöhrətləndirən ictimai-siyasi satiralarıdır. Şifahi xalq ədəbiyyatına bağlı satiranın XIX əsrin əvvəllərində yazılı ədəbiyyatımızda meydana çıxması Zakirin adı ilə bağlıdır. Zakirin satiraları əsas etibarı ilə çar hakimləri və çarizmin müstəmləkəçi qanun və qaydaları əleyhinə çevrilmişdir. Onun satirasında ən amansız tənqid olunanlar gücsüzlərin və acizlərin hüquqlarını tapdalayanlardır. İfşaçılıq, kəskin tənqid və kinayəli gülüş Zakir satiralarının əsas xüsusiyyətlərindəndir. Zakirin yaradıcılığında mənzum hekayə və təmsilləri mühüm yer tutur. Onun müxtəlif mövzularda yazdığı "Məlikzadə və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər", "Tərlan və elçi", "Dəvəsi itən kəs", "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxlaqsız qazı", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl alim" kimi mənzum hekayələri vardır. Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun nəşr olunmuş "Əsərləri"ndə: "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" ("İlan, Dəvə, Tısbağa"),"Tülkü və şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, Qarğa, Kəsəyən, Ahu") adları ilə altı təmsili çap olunmuşdur. "Dərviş və fəqir", "Dəvəsi itən kəs", "Aslan, Qurd və Çaqqal" və "Tülkü və qurd" əsərləri "Vətən dili" dərsliyinə salınmışdır.

Qasım bəy Zakir 1857-ci ildə Şuşada vəfat etmiş, Mirzə Həsən qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli qərarı ilə Qasım bəy Zakir Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Mirzə Şəfi Vazeh – 230

(1794-1852)

Şair



Ədəbiyyat:

Mirzə Şəfi Vazeh: (Mirzə Məhəmməd Şəfi Vazeh Kərbəlayı Sadıq oğlu) : biblioqrafiya $c Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. edən.: X. Abbasova, G. Misirova; elmi red. K. Tahirov; red. G. Səfərəliyeva; ön sözün müəl. A. Bayramov.- Bakı: [Zərdabi-Nəşr MMC], 2019.- 374, [2] s.

Bütün əsərləri: [4 kitabda] / Mirzə Şəfi Vazeh; ideya Xalq Bank; layihənin rəhbəri R. Həşimov; layihənin red., nəşrin tərt. və ön sözün müəl. S. Babulla-oğlu; tərc. X. Rza [və b.] (Azərb. dili), F. Bodenştedt, Karl H. Kiel (alman dili), N. Qrebnev [və b.] (rus dili); red.-korrektorlar: Ş. Tahirqızı (Azərb. dili), A. Talıbova (rus dili), Y. Savalan (alman dili); ill. N. Süleymanoğlu; bədii tərtibat və dizayn T. Qorçu.- Bakı: [n. y.], 2019. -461, [3] s.

Yaqubqızı, R. Mirzə Şəfi nəğmələri / Ramidə Yaqubqızı // Respublika.–2022.– 27 noyabr.– S.9.

İrəvanlı, M. Mirzə Şəfi Vazehin nəğmələri rus mətbuatı səhifələrində / Mürsəl İrəvanlı // Türküstan.– 2021.– 8–17 may.– S.11.

Mirzə Məhəmməd Şəfi Vazeh Kərbəlayı Sadıq oğlu 1794-cü ildə Gəncə şəhərində anadan olmuşdur.İlk təhsilini mədrəsədə almış, ərəb və fars dillərini öyrənmiş, xəttatlıq sənətinə yiyələnmişdir. 1804-cü ildən Gəncə məscidində kitabların üzünü köçürmüş və buna görə də "Mirzə" adlandırılmışdır. 1820-ci ildə Gəncədə "Divani-hikmət" ədəbi məclisini təşkil etmişdir. 1820-1825-ci illərdə Cavad xanın qızı Püstə xanımın mülkünü idarə etmiş və yazı-pozu işlərini görmüşdür. 1840-1948-cı illərdə Tiflisdə qəza məktəbində Şərq dilləri üzrə müəllim işləyir.

1830-cu ildə Şah Abbas məscidi yanında xüsusi məktəb açmışdır. 1840-1844-cü ildə Gəncədə "Divani-hikmət" ədəbi məclisi təsis etmişdir. 1852-ci ildə "Azərbaycan ləhcəsinin tatar müntəxəbatı" dərsliyi nəşr edilmək üçün Təbriz şəhərinə göndərilmiş, 1855-ci ildə daşbasması üsulu ilə çap olunmuşdur. Vazeh təxəllüsü ilə həm Azərbaycan dilində, həm də fars dilində şeirlər yazmışdır. Vazehin poeziya yaradıcılığında əsərlərinin əsas mövzusu romantik sevginin tərənnümü və həyatdan zövq almaq idi. Bəzi şeirlərində isə feodal cəmiyyətinin eyiblərini göstərir, kölələriyin və dini fanatizmin əleyhinə çıxış edirdi.

Qafqaza gəlmiş alman şairi və şərqşünası Fridrix fon Bodenştedt "Divani-Hikmət" məclisində olmuş, burada Vazehdən fars və Azərbaycan dili dərsləri almışdır. F.Bodenştedt öz vətəninə qayıdarkən onunla vidalaşan zaman Mirzə Şəfi şeirlər dəftərini ona hədiyyə etmişdir. F.Bodenştedt müəlliminin şeirlərini alman dilinə tərcümə edərək 1850-ci ildə "Şərqdə 1001 gün" adı ilə çap etdirmişdir. Qısa müddətdə Vazehin şeirləri ingilis, fransız, italyan, polyak, macar, rus, ivrit və başqa dillərə tərcümə edilmişdir. Rus bəstəkarı Anton Rubinşteyn Mirzə Şəfi Vazehin şeirlərinə bəstələdiyi 12 romansdan ibarət "Fars nəğmələri" adlı vokal silsilə yaratmışdır.

Mirzə Şəfi Vazeh 1852-ci il noyabr ayının 28-də Tiflis şəhərində vəfat etmiş, Tiflis müsəlman qəbiristanlığında dəfn edilmiş, qəbiristanlıq dağıdıldığından, nəşi Nəbatat bağında Görkəmli Azərbaycanlılar panteonunda dəfn edilmişdir.

Şairin yaradıcılığının çox az bir hissəsi dövrümüzə gəlib çatmışdır. Bu şeirləri isə ilk dəfə Salman Mumtaz üzə çıxarmış və 1926-cı ildə "Mirzə Şəfi Vazeh" adı ilə nəşr etdirmişdir. Gürcüstan Elmlər Akademiyası yanında Əlyazmalar İnstitutunda Mirzə Şəfi Vazehin öz xətti ilə yazdığı 2 qəzəli və "Məktubun intizarında" poeması tapılmışdır.

Adının əbədiləşdirilməsi məqsədilə 1968-ci ildə Gəncədə 16 nömrəli orta məktəbə adı verilmiş, 1981-ci ildə "Azərbaycanın maarifpərvər şairi M.Ş. Vazehin yaradıcılıq irsinin öyrənilməsini gücləndirmək haqqında" qərar imzalanmışdır. Bakı şəhərində və Tiflis şəhərində küçələrdən birinə Mirzə Şəfinin adı verilmişdir. 2012-ci ildə AMEA Gəncə bölməsinin binasının qarşısında büstü qoyulmuş, 2016-cı ildə Gəncədə muzeyi inşa edilmiş, muzeyin qarşısında heykəli qoyulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə Mirzə Şəfi Vazehin əsərləri kütləvi tirajla çap edilmişdir. 2014-cü il fevralın 3-də "Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalanmışdır.

2019-cu ildə Milli Kitabxana tərəfindən "Mirzə Şəfi Vazeh" adlı biblioqrafiya tərtib edilmiş, Tbilisidə Mirzə Şəfi Vazeh və alman şairi Fridrix fon Bodenştedtin yubileylərinə həsr olunmuş "Şərq-Qərb şairlərinin dostluğu" mövzusunda elmi-yaradıcı məclis keçirilmiş, Gəncə şəhərində ev-muzeyində konfrans keçirilmiş, Xalq Bankın "Xalq Əmanəti" layihəsinin on səkkizinci nəşri şairin yaradıcılıq irsinə həsr olunmuşdur.

Aşıq Əsəd – 150
(1874-1951)



Əsəd Əhməd oğlu Rzayev (Aşıq Əsəd) 1874-cü ildə Göyçə mahalının Böyük Qara Qoyunlu kəndində anadan olmuşdur.

Kiçik yaşlarında atasını itirəndən sonra beş il muzdurluq etmişdir. Söz qoşmağa, çalıb-çağırmağa olan həvəsini bilən Aşıq Ələsgər onu şagirdliyə götürmüş, dörd il sənətin sirrlərini öyrətmişdir. 1895-ci ildən müstəqil aşıqlıq etmiş, el arasında ustad sənətkar kimi tanınmışdır.

Aşıq Əsəd 1918-ci ildə daşnaq ordusunun zabiti Selikovun öldürülməsində günahkar bilinmiş və qardaşı Məhəmmədlə birgə həbsə alınmışdır. Göyçədə Müsavat Partiyası Göyçay təşkilatının köməyi ilə həbsdən qaçırılmışdır. 1921-ci ildə Qızıl Ordu sıralarında banditizmə qarşı mübarizədə iştirak etmişdir.

Uzun müddət Tovuz, Qazax qəzalarında yaşadıqdan sonra 1932-ci ildən Tovuz mahalının Bozalqanlı kəndində məskunlaşmışdır.

Aşıq Əsəd aşiqanə lirik şeirlər ilə yanaşı, xalq həyatını tərənnüm edən bir sıra şeirlər də yazmışdır.

Aşıq Əsəd Rzayev 1928-ci ildə Aşıqların 1-ci qurultayında yüksək ifaçılığa görə birinci mükafata layiq görülmüş və ona Azərbaycanın ilk aşığı adı verilmişdir. 1930-1940-cı illərdə Respublikada keçirilən incəsənət tədbirlərində iştirak edən ən fəal aşıqlardan biri olmuş və mükafatlar almışdır. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünün iştirakçısı olmuş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Aşıq Əsəd aşıq havalarının istifadə olunan bütün nümunələrindən istifadə etmiş və hətta unudulanları bərpa etmişdir. Bu zəngin biliyinə görə Göyçənin, Tovuzun, Qazağın bir çox aşıqlarının yetişməsində Aşıq Əsədin böyük rolu olmuşdur.

1939-cu ildə folklorşünas Hümbət Əlizadə "Koroğlu" dastanının bir neçə qolunu, xalq dastanlarından bir çoxunu Aşıq Əsədin dilindən yazıya almışdır. Onun xeyirxahlığı və köməkliyi sayəsində 1939-cu ildə Aşıq Əsədin ilk kitabı çap olunmuşdur.

Aşıq Əsəd 1951-ci il aprel ayının 27-də Tovuzda vəfat etmişdir.

Aşıq Əsədin ikinci şeirlər 1979-cu ildə folklorşünas Bəhlul Abdullayev tərəfindən nəşr edilmişdir. 2010-cu ildə Vidadi Rzayev tərəfindən aşığın "Sazın sözün Koroğlusu" kitabının 1-ci cildi, 2014-cü ildə isə 2-ci cildi çap olunmuşdur.

1994-cü ildə Aşıq Məhərrəm Hüseynlinin böyük əməyi nəticəsində Aşıq Əsədin Tovuz şəhərində və Bakıda, Azərbaycan Dövlət Filarmoniyasında 120 illik yubileyi keçirilmişdir. Hər iki tədbirin audio-video lenti Azərbaycan Dövlət Teleradio Şirkəti vasitəsilə geniş ictimaiyyətə çatdırılmış, tədbir haqqında xəbərlər İranda, Türkiyədə, Orta Asiyada və başqa xarici ölkələrdə yayımlanmışdır.

Ədəbiyyat:

Fərəcov, S.Aşıq Ələsgər ənənələrinin layiqli davamçısı / Savalan Fərəcov //Mədəniyyət.– 2019.– 30 yanvar .– S.6.

Mehman Rasimoğlu: "Aşıq Əsədin zil səsi ilə söndürdüyü otuzluq çıraqları insanlar əziz bir əşya kimi saxlayırdılar" /Mehman Rasimoğlu; müsahibəni apardı: M. Əyyublu //Palitra.–2018.– 6; 9 oktyabr.–S. 15.

Sadıq, İ.Aşıq Ələsgər və Aşıq Əsəd: İki böyük sənətkarla bağlı iki böyük yanlışlıq / İslam Sadıq //Aşıq Ələsgər: Sazın sehri və sözün şöhrəti: Beynəlxalq elmi konfransın materialları / AMEA, Folklor İnstitutu.– 2021.– S.257-268.

İnternetdə:

https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_%C6%8Fs%C9%99d

https://az-az.facebook.com/tovuzlulr/posts/581996588627452/

İdris Məhərrəmov – 130

(1894-1943)

Aşıq



İdris Şirin oğlu Məhərrəmov 1894-cü ildə (bəzi mənbələrdə 1903-cü ildə) Göyçə mahalının Zərkənd kəndində Aşıq Şirinin ailəsində anadan olmuşdur.

Aşıqlıq sənətinə erkən yaşlarından maraq göstərən İdris 12 yaşında atasından dərs almağa başlamış, Aşıq Ələsgərdən, Aşıq Musadan saz-söz sənətinin incəliklərini öyrənmişdir.

Arxiv materiallarında Aşıq İdrisin həm yaradıcı, həm də ifaçı sənətkar olduğu, Göyçə mahalında, Kəlbəcər kəndlərində ad çıxardığı, məlahətli zil səsi olduğu qeyd olunur.

Aşıq İdris səksəndən artıq saz havasına bacarıqla yiyələnib, otuz beş dastanı əzbərdən bilmiş, hər dəfə həmin dastanları yeni əlavələrlə danışmışdır.

İdris Məhərrəmov 1938-1941-ci illərdə Basarkeçər rayonunun maarif şöbəsinin nəzdində təşkil olunmuş "Aşıqlar birliyinin" sədri olmuş, Aşıqların I və II qurultaylarında iştirak etmişdir. Aşıq İdris 1938-ci ildə İncəsənət xadimi fəxri adına layiq görülmüşdür. Mahnıları vala köçürülmüşdür.

Aşıq İdris tarda da gözəl ifa etmiş, balaban ifaçısı Cabbar Fərzəliyev, dəf ifaçısı Xanbaba Əliyevlə Azərbaycanın Kəlbəcər, Qubadlı, Laçın, Zəngibasar, Tərtər, Goranboy, Ağcabədi və s. şəhər, rayon, kəndlərini qarış-qarış gəzərək zəhmətkeş xalq qarşısında konsertlər vermişdir. Aşıq İdris tez-tez İrana, Türkiyəyə də səfər etdiyindən, bu ölkələrdə tikilən evləri görüb Zərkənddə ikimərtəbəli daş ev tikdirmişdir. Təəssüflər olsun ki, indi bu evdə bədnam qonşularımız yaşayır. Evin yerləşdiyi ərazini isə kilsə ediblər.

İdris Məhərrəmov 28 avqust 1942-ci ildə Basarkeçər RHK-dan orduya çağırılmış, müharibədə iştirak etmiş, 1943-cü ilin may ayında (digər mənbəyə görə avqust ayında) itkin düşmüşdür.

Dədə Şəmşir Aşıq İdrislə görüşü haqqında dastan yazmış, bədnam qonşularımız Aşıq Şəmşirin evində əlyazmaları qorunub saxlanılan dəmir seyfi gülləbaran etdikləri zaman əlyazmaları ilə birlikdə həmin dastan da məhv edilmişdir.

2003-cü ildə Aşıq İdrisin və atası Aşıq Şirinin həyat və yaradıcılığından bəhs edən "Göyçə aşıqları: Aşıq Şirin Aşıq İdris" adlı kitab "Nurlan" nəşriyyatında çap olunmuşdur.

Ədəbiyyat:

Nəbioğlu, M. İdris Məhərrəmov / Musa Nəbioğlu // "Ozan-aşıq dünyası"/M.Nəbioğlu.- Bakı, 2010.-S.25.

Şirinova, R.Aşıq Şirin, Aşıq İdris: Unutsaq unudularıq / Rübabə Şirinova // Ozan dünyası.- 2014.-№6(21). - S.83-84.

Şirinova, R. Torpaq uğrunda ölən varsa vətəndir: [Aşıq İdris haqqında] / RübabəŞirinova // Kredo.- 2020.- 28 may.- S.12.


İnternetdə:

https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_%C4%B0dris

https://www.wikiwand.com/az/A%C5%9F%C4%B1q_%C4%B0dris

Məhtumkulu Fəraq – 300

(1724-1782) *Türkmən şairi*



Məhtumkulu Fəraqi 1733-cü ildə müxtəlif türkmən tayfalarının yaşadığı Kopetdağın ətəyində, Ətrak çayının hövzəsində yerləşən Hacı Qovuşan kəndində anadan olmuşdur. Məhtumkulunun ailəsi oturaq Göklən tayfasının, Gerkez qəbiləsinin, Qışıq qoluna aiddir.

Yetkin çağlarında Məhtumkulu özünə Fərağı ləğəbini götürmüşdür. Erkən yaşlarından ərəb və fars dilində kitab oxumasını, atası şair Dövlət-Məmmədin zəngin kitabxanasına borcludur. Bundan başqa Məhtumkulu uşaqlıqdan zərgərlik və dəmirçiliklədə məşğul olmuşdur. 1753-cü ili Buxara xanlığında Qızıl-Ayağdaki İdris-Baba mədrəsəsində oxuduqdan sonra, 1754-cü ildə Buxaranın məşhur Kəkildaş mədrəsəsindədə bir il təhsil almışdır. Burada o öz dövrünün savadlı adamlarından sayılan mövlana Nuri-Kazım ibn Baharla tanış olmuş və onunla birlikdə səyahətə çıxaraq Özbəkistan, Tacikistan, Əfqanıstanı keçərək Hindistanın şimalına gəlmişdir. 1757-ci ildə hər ikisi o dövrün elm mərkəzlərindən biri və çoxlu mədrəsəsi olan Xivə şəhərinə gəlmişlər. Burada Məhtumkulu Şirqazi xanın 1713-cü ildə tikdirdiyi mədrəsəyə daxil olmuşdur. 1760-cı ildə atasının ölümü ilə əlaqədar o vətəninə qayıtmışdır. 1760-cı ildə həyatının sonuna qədər o Manqışlaqa, Həştərxana, Azərbaycana oradanda Yaxın və Orta Şərq ölkələrinə səyahət etmişdir.

Məhtumkulunun əsas nailiyəti, klassik ədəbiyyatı folklor ilə yaxınlaşdırmasıdır. O həmçin türkmən ədəbiyatını ərəb və fars təsirlərindən xeyli azad etmişdir. Məhtumkulu türkmənlərin birləşməsini istəyirdi. Bu onun yaradıcılığında yer almışdır. Türkmənlərin özlərini ayrı-ayrı tayfalara aid edən bir millət hesab edirdi. Məhtumkulunun yaradıcılığı Azərbaycanın görkəmli yazıçıları Molla Pənah Vaqifə və Molla Vəli Vidadiyə çox təsir etmişdir. Həmçin Məhtumkulu özüdə heç şübhəsiz Azərbaycan ədəbiyyatından təsirlənmişdir.

Məhtumkulu Fəraqi 1783-cü ildə vəfat etmişdir.

İnternetdə:
https://az.wikipedia.org/wiki/M%C9%99htimqulu

Murad Muradov – 140

(1884-1964) *Aktyor*



Murad Məmmədrza oğlu Muradov 1884-cü ildə Ağdam rayonunun Muradbəyli kəndində anadan olmuşdur.

İlk təhsilini Ağdamda almış və sonra Bakıdakı Realnı məktəbdə davam etdirmişdir.

Murad Muradov səhnəyə ilk addımını 1897-ci ildə Şuşa şəhərində atmışdır. 1900-cü ildə Bakıya gələn Murad Muradov canlı teatr prosesinə qoşulub və müxtəlif obrazlar oynamışdır. O, 1907-ci ildə Ümumrusiya Teatr Cəmiyyətinin üzvü olan ilk azərbaycanlı aktyorlardan biridir. Murad Muradov "Müsəlman dram artistləri cəmiyyəti"ndə, "Nicat" və "Səfa" truppalarında çalışmış, əsasən epizodrolların ifaçısı kimi tanınmışdır. 1919-cu ildən isə müəyyən fasilələrlə Akademik Milli Dram Teatrında işləmişdir.

1959-cu ilin may ayında Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasında iştirak etmişdir.

Murad Muradov Azərbaycanın ilk mədəniyyət xadimlərindəndir ki, 1933- cü ildə o dövr üçün SSRİ-nin ən şərəfli mükafatlarından sayılan Əmək qəhrəmanı adına layiq görülmüşdür. Milli peşəkar teatrın 75 illik yubileyi münasibətilə 21 iyul 1949-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunmuşdur.

M.Muradovun ifa etdiyi əsas rollar: Həmzə bəy, Çingiz ("Dağılan tifaq" və "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Hacı Məsud ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Cəbi, Fəxrəddin ("Hacı Qəmbər" və "Müsibəti Fəxrəddin", Nəcəf bəy Vəzirov), Rzaqulu xan ("Nadir şah", Nəriman Nərimanov), Ərəb zabiti ("İblis", Hüseyn Cavid), Pərviz ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Koçkaryov, Bobçinski ("Evlənmə" və "Müfəttiş", Nikolay Qoqol), Şpipelberq ("Qaçaqlar", Fridrix Şiller), Mirzə Rzaqulu ("Vətən" Namiq Kamal), KeşişAnton ("Dubrovski", AleksandrPuşkin), Elağsaqqalı, Əhməd kişi ("Vaqif" və "Xanlar", Səməd Vurğun), Tacir ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Soldat ("Aslan yatağı", Məmmədhüseyn Təhmasib), Müxbir ("İntiqam", Zeynal Xəlil), Alman casusu ("Vəfa", Rəsul Rza), Səlhəbçi ("Dumanlı Təbriz", Məmməd Səid Ordubadi), İngilis müxbiri ("Od içində", Ənvər Məmmədxanlı), Heydər ağa ("Ölülər", Cəlil Məmmədquluzadə), Şəhərli ("Tufan", Aleksandr Ostrovski), Həkim ("Həyat", Mirzə İbrahimov), Metr Dotel ("Qardaşlar", Rəsul Rza) və s.

Murad Muradov 1964-cü il noyabr ayının 2-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Rəhimli, İ.Unudulmayanlar: [Murad Muradov, Cəlil Bağdadbəyov və Ələkbər Hüseynzadə haqqında] / İlham Rəhimli //Ədəbiyyat qəzeti.– 2018.– 17 fevral.– S.27.

Teatrımızda Muradov imzası: [Azərbaycan teatrının görkəmli nümayəndələri – aktyorlar Murad və Qaflan Muradovlar haqqında] // Azadlıq.– 2013.– 22 avqust.–S. 14.

Fərəcov, S. Mədəniyyət tariximizdə iz qoyanlar: Murad və Qaflan Muradov qardaşları / Savalan Fərəcov // Mədəniyyət.– 2012.– 14 noyabr.–S. 15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Murad_Muradov

https://portal.azertag.az/az/node/25141

Qazi Bürhanəddin – 680

(1344-1398)

Dövlət xadimi



Qazi Bürhanəddin Əhməd bəy Salur 1344-cü ildə Kayseri (Qeysəriyyə) şəhərində anadan olmuşdur. Anasını erkən yaşlarından itirdiyindən onun tərbiyəsi ilə öz dövrünün məşhur qazilərindən sayılan atası məşğul olmuşdur.

O, 1356-cı ildə atası ilə Dəməşqə getmiş, bir müddətdən sonra yenidən Qeysəriyəyə qayıtmışdır. Əhmədvətənində öz dövrünə görə yaxşı ilkin təhsil almış, 1358-ci ildə isə təhsilini davam etdirmək üçün Misirə getmişdir. Orada ilahiyyatı (fiqh, hədis), tibbi, nücumu, fəlsəfəni və digər elmləri öyrənmişdir. Daha sonra Dəməşqdə bütün Şərqdə məşhur olan alim Qütb əd-Din Razinin yanında təhsilini davam etdirmişdir.

Əhməd on doqquz yaşında ikən Məkkəyə getmiş, sonra isə Hələbə köçmüşdür. 1365-ci ildə Qeysəriyyəyə dönmüş, sarayda qazi təyin edilmişdir. Bu vəzifədə on ildən artıq işləyərək öz yüksək savadı, mədəniyyəti və ədalətliliyi ilə bütün xalqın hörmətini qazanmaqla yanaşı, Bürhanəddin təxəllüsü ilə yazıb-yaratmışdır. Əratna hökmdarı Məhəmməd öldükdən sonra onun taxtına oturmuş oğlu Əli azyaşlı olduğu üçün dövlətin bütün işlərini Qazı Bürhanəddin görmüş və 1378-ci ildə vəzir təyin olunmuşdur. İki ildən sonra Əli də ölmüş və Bürhanəddin onun körpə uşağının atabəyi olmuşdur. Beləliklə, dövlətə bütün rəhbərlik onun əlinə keçmişdir.

1381-ci ildə Qazı Bürhanəddin öz adını daşıyan yeni bir dövlət yaratmış və sultan elan edilmişdir. Bundan sonra onun bütün həyatı daxili və xarici düşmənlərə qarşı fasiləsiz yürüş və döyüşlərdə keçmiş, öz aralarında daimi çəkişmələr aparan qaramanlı, osmanlı, türkmən tayfaları arasındakı düşmənçiliyi yox etmək və ölkədə qanun-qaydanı möhkəmləndirmək üçün əlindən gələni etmişdir. Osmanlı sultanı I Bayazid, Qızıl Orda xanı Toxtamış, Əmir Teymur kimi təhlükəli rəqiblərin və onlarla xırda əmirlərin əhatəsində qalan Bürhanəddin17 il öz ölkəsində sülhü və əmin-amanlığı qoruya bilmişdir. Bürhanəddin ticarət, maarif və elmin inkişafına yardım etmiş, mədrəsələr, karvansaralar açdırmış, körpülər saldırmışdır.

Qazı Bürhanəddin 1398-ci ildə döyüşdə həlak olmuş və Sivas şəhərində dəfn edilmişdir.

Qazı Bürhanəddinin bir türkçə divanı, iki ərəbcə yazılmış əsəri mövcuddur. O, öz şeirlərini üç dildə – Azərbaycan türkcəsində, fars və ərəb dillərində yazmışdır. Azərbaycan türkcəsində "Divan"ı bir nüsxədə saxlanmışdır. Bu nüsxə hələ müəllifin sağlığında xəttat Xəlil ibn Əhməd tərəfindən yazılıb və hal-hazırda Britaniya Muzeyindədir. Onu Londona ingilis səfirliyinin işçisi Tomas 1890-cı ildə İstanbuldan gətirmişdir. "Divan" Azərbaycan alimi, professor Əlyar Səfərli tərəfindən 1988-ci ildə Bakıda nəşrə olunmuuşdur. Kitaba şairin qısa tərcümeyi-halı da daxil edilmişdir. Bu "Divan" 1319 qəzəl, 20 rübai və 108 tuyuqdan ibarətdir. 2005-ci ildə "Divan" yenidən nəşr olunmuşdur

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Qazi Bürhanəddin Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Ədəbiyyat:

Kərimov, P. Qazi Bürhanəddin şeirlərinin mövzu dairəsi və bədii ifadə vasitələri / Paşa Kərimov // Elmi əsərlər / AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu.–2020.– № 2.– S.3–12.

Salamoğlu, T. İsmayıl Hikmətin anadilli Azərbaycan ədəbiyyatı konsepsiyasında Qazi Bürhanəddinin yeri / Təyyar Salamoğlu, Yədulla Dadaşlı // Ədəbiyyat qəzeti.–2022.–11 iyun.– S.10–12.

İsmayılova, G.Şərq ədəbi-bədii təcrübəsində divan ənənəsi: (Yunus Əmrə və Qazi Bürhanəddin "Divan"ları əsasında) / Gülnar İsmayılova // Dil və ədəbiyyat.–2022.– №1(118).– S.364-367.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Qazi_B%C3%BCrhan%C9%99ddin

http://anl.az/el/b/bq_d.pdf

Qaçaq Nəbi – 170

(1854-1896) *Xalq qəhrəmanı*



Nəbi Alı oğlu 1854-cü ildə Zəngəzur qəzasının Aşağı Mollu kəndində (indiki Qubadlı rayonunda) anadan olmuşdur.

Qaçaq Nəbi XIX əsrdə azərbaycanda məşhur olan kəndli hərəkatının başçısı, xalq qəhrəmanı, uşaqlıqda çoban, sonralar muzdur olmuşdur. Kəndlilərin torpaqlarını tutmaq istəyən, yerli mülkədarlara müqavimət göstərdikdən sonra (təqribən 1875-ci illərdən) qaçaq düşmüşdür. Kəndlilərdən dəstə yaradaraq Naxçıvan, Zəngəzur qəzalarında İran və türkiyədə fəaliyyət göstərmişdir. Onun dəstəsində milliyyətindən asılı olmayaraq, əsl vətənpərvərlər, haqsızlığa dözməyənlər iştirak edirdilər. İgidliyi və cəsarətilə şöhrət qazanmış həyat yoldaşı Həcər xanım qaçaq Nəbinin sadiq sirdaşı olmuşdur. Amansız bəylərə, işğalçı çar hökuməti məmurlarına, tacir və sələmçilərə, bir sözlə haqsızlığa qarşı barışmaz mübarizə aparmışıdr.

Qaçaq Nəbi yoxsul kəndlilərin, sadə zəhmətkeş insanların mənafeyini müdafiə edir, zalım hökümdarların, qaniçən varlıların var-dövlətini, torpaqlarını alıb yoxsullara paylayırdı. Çar hökuməti Qaçaq Nəbiyə qarşı polis, kazak dəstələrini göndərsə də, onu ələ keçirə bilmirdi.

Qaçaq Nəbi ömrünün 20-22 ilini haqsızlığa qqarşı mübarizəyə həsr etmişdir. Bu illər ərzində hökumət tərəfindən görülən bütün tədbirlər uğursuzluqla nəticələnmişdir.

Qaçaq Nəbi 1896-cı ilin mart ayının 12-də Kərbəladan dönərkən Türkiyə və İran sərhədi arasında olan Larni kəndi yaxınlığında Novruz çərşənbəsinin gecəsi əvvəlcədən hazırlanmış plan əsasında qətlə yetirilmişdir.

Xalq Qaçaq Nəbinin qəhrəmanlığını unutmamış, onun haqqında dastanlar, mahnılar və şeirlər qoşmuşdur.

Zəngəzur qəzasının qazısı, tarixçi, folklorşünas Bəhlul Behcət "Qaçaq Nəbinin tarixi" adlı kitab, Süleyman Rüstəm "Qaçaq Nəbi" pyesini yazıb, onun haqqında "Qanlı zəmi", "Atları yəhərləyin"filmləri çəkilmişdir.

Görkəmli folklorşünas alim, professor M.Təhmasib Nəbiyə yüzlərlə hekayə, roman, povest, pyes, nəğmə, dastan qoşmasının köklərini xalqın səmimi sevgisi ilə əlaqələndirir: "Nəbi xalqın, həm də ədəbiyyatın, musiqinin yaddaşında yaşayan qəhrəmandır".

Bakı şəhərində Qaçaq Nəbinin adını daşıyan küçə var.

Ədəbiyyat:

Bəhcət, B. Qaçaq Nəbinin tarixi:vəsiqə və sənədlər üzrə / Bəhlul Bəhcət; mətni hazırl. və ön söz müəl. İ. Abbaslı; elmi red. və naşir Ə. Cəfərov.– Bakı: Çıraq, 2011.–295, [1] s.

Yolçuoğlu, N. Qacaq Nəbi hərəkatı: Nəbi ilə bağlı araşdırmalar sona çatıbmı? / Nizami Yolçuoğlu // Azad Azərbaycan.–2021–22 aprel.– S.11.

Nərimanoğlu, H. Qaçaq Nəbi:12 mart sui-qəsdi / Hacı Nərimanoğlu //525–ci qəzet.–2021.– 11 mart.– S.13;16.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Qa%C3%A7aq_N%C9%99bi

https://portal.azertag.az/az/node/376

Məmmədqulu bəy Kəngərli – 160

(1864-1905) *İctimai xadim*



Məmmədqulu Kəngərli Şəfi ağa oğlu 1864-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur.

İlk təhsilini ərəb, fars, rus dillərini bilən, Peterburqda ali təhsil almış dövlət qulluqçusu olan atasından, ibtidai təhsilini isə xüsusi müəllimdən almışdır. İbtidai təhsilini tamamladıqdan sonra Tiflis hərbi məktəbinə-kadet korpusuna daxil olmuşdur. Təhsilini başa vurub Peterburqda Mixaylov Ali Topçuluq məktəbinə daxil olmuş, 1882-ci ildə unter-zabit rütbəsi almışdır. 1893-cü ilə qədər əsgəri qulluqda xidmət göstərmiş, ştabs-kapitan rütbəsində istefaya çıxmışdır. Topçu zabit olan Məmmədqulu bəy sonra Peterburq Universitetində hüquq fakültəsində təhsil almış, Naxçıvanda və İrəvanda həmyerlilərinin (xüsusən də savadsız kəndlilərin) hüquqlarını müdafiə etmişdir.

Məmmədqulu bəy ciddi, nizam-intizamlı hərbiçi, hüquqşünas olmaqla yanaşı, həm də maarifpərvər, xeyriyyəçi, millətpərəst bir ziyalı olmuş, Cəlil Məmmədquluzadə ilə yaxın dost olmuşdur.

Mütaliəni çox sevən Məmmədqulu bəy Naxçıvanda öz evində zəngin kitabxana yaratmış və həmyerlilərinin ixtiyarına vermişdir.

1901-ci ildə Naxçıvan şəhər pedaqoji şurasının yığıncağında M.Kəngərliyə "İbtidai sinif müəllimi" adı verilmişdir. 1901-ci ildə Qafqaz Təhsil Dairəsindən şəxsi məktəb açmaq üçün rəsmi icazə alaraq "Məhəmmədqulubəy Kəngərlinskinin üçüncü dərəcəli birsinifli şəxsi məktəbi" adlanan, sonra qızlar üçün gimnaziya statusu almış məktəb, oğlanları gimnaziyaya hazırlayan məktəb-pansion açmışdır. Məhəmmədqulu bəy Kəngərlinin şəxsi məktəbi öz işini 1903-cü ildən İrəvan şəhərində davam etdirmişdir. Məktəb 1 iyun 1905-ci il tarixində Məhəmmədqulu bəyin xaricə getmək qərarı ilə əlaqədar bağlanmışdır.

Çar hökuməti Azərbaycanda, xüsusən də Qarabağ və Naxçıvanda müsəlmanlara qarşı birmənalı siyasətini davam etdirdiyi zaman Naxçıvan ziyalıları bu olaylara qarşı çıxaraq hökumətə etirazlarını bildirmək üçün Məmmədqulu bəyin rəhbərliyi ilə üç nəfərdən ibarət nümayəndə heyətini Peterburqa göndərmişdir. Peterburqda yüksək rütbəli hökumət məmurları ilə, xüsusən də Qafqaz canişini Vorontsov-Daşkovla görüşə nail olan Məmmədqulu bəy müsəlmanların dini, milli ehtiyaclarını hökumətə bildirməklə yanaşı, onların da xaçpərəstlərlə bərabər hüquqlu sayılmasını tələb etmişdir. Bu tələbdən sonra Məmmədqulu bəy həm çar hökumətinin yerli çinovnikləri, həm də ermənilər tərəfindən güclü təqiblərə məruz qalmışdır.

Mirzə Cəlilin məsləhəti ilə Məmmədqulu bəy bacısı oğlu Heydərlə 1905-ci ilin avqustunda Tiflisə gələrək, buradan da Parisə getmək üçün Batuma yola düşmüşdür. Avqust ayının 29-da gəmiyə minərkən erməni komitəsinin göndərilən iki nəfər muzdlu qatil tərəfindən bacısı oğlunun gözləri qarşısında güllələnmişdir. Bu dəhşətli qətldən huşunu itirən Heydər özünə gələn kimi Mirzə Cəlilə teleqram vurmuş, Mirzə Cəlil Məmmədquluu bəyin cənazəsini gətirib sentyabr ayının 2-də Tiflisdə dəfn etmiş, Heydəri isə öz himayəsinə götürmüşdür. C. Məmmədquluzadə dostu haqqında Peterburq, Tiflis və b. şəhərlərin mətbuatında matəm yazıları çap etdirmişdir.

M.S.Ordubadi M.Kəngərlinin vətənə xidmətlərindən bəhs edən "Vətən Fəryadnaməsi"ni yazmışdır.

Ədəbiyyat:

Dünyaminqızı, Q. İgid nəslin igid oğlu: Məmmədqulu bəy Kəngərli çar hökumətinə etirazın daha bir qurbanı idi / Qərənfil Dünyaminqızı // Kaspi.– 2016.– 11 may.– S.15.

Kərimov,Z. Məhəmmədqulu bəy Kəngərli üçün –"Vətən"fəryadnaməsi / Zakir Kərimov // Tarix, insan və cəmiyyət.– 2020.– № 1.– S.73-78.

İnternetdə:

https://www.facebook.com/IrevandaTurkler/

İbrahim bəy Cahangirzadə – 150

(1874-1948)

Dövlət xadimi



İbrahim Məhəmməd bəy oğlu Cahangirzadə 1874-cü ildə Aleksandropolda (Cümrüdə) anadan olmuşdur. İlk təhsilini Cümrü və Qars şəhərlərində mədrəsədə almış, Quran oxumağı, şəriəti, fars və ərəb dillərini öyrənmiş, üç il Qars şəhər məktəbində rus dilində təhsil almışdır. 1903-cü ildə Cümrü kazak alayına qəbul edilmiş, beş il təlim keçdikdən sonra Qarsdakı gizli "İslam cəmiyyəti" ilə əlaqələri olduğundan Dağıstana sürgün olunmuş, 6 aydan sonra azad olunaraq Qarsa qayıtmış və maliyyə məmuru işləmişdir.

1905-ci ildə ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı dövründə İbrahim bəyin rəhbərliyi altında qardaşı Həsənxanın da daxil olduğu könüllü dəstə Qarabağa köməyə gəlmişdir. Difai Partiyası sıralarına qoşulan İbrahim bəy 1906-cı ildə oradan öz dəstəsi ilə Təbriz vilayətinə keçib məşrutə inqilabına qoşulmuş və üsyançılar tərəfdə vuruşmuşdur.

İbrahim bəy Qarsa qayıtdıqdan sonra "Nəşri-maarif" cəmiyyəti yaratmış, eyni zamanda, İttihad və Tərəqqi Partiyası Ərzurum şöbəsinin üzvü olmuşdur.

1907-ci ildə Xoy şəhərinə köçən İbrahim bəy Təbrizdə şah rejiminə qarşı mübarizə aparmış, 1912-ci il oktyabr ayında 700 mücahidlə Van vilayətinə qayıtmış, 1913-cü ilin martında İttihadçıların dəvətilə öz könüllüləri ilə birlikdə İstanbula getmiş, onun komandanlığı altında "Qafqaz könüllü taboru" Ədirnəni bolqarlardan azad etmişdir.

1914-cü ilin iyun ayında Şöroyel qaymakamı təyin edilən İbrahim bəy, İrəvan və digər bölgələrdən olan qaçqınları ətraf kəndlərə yerləşdirmiş, 1914-cü ilin noyabr ayında Osmanlı hərbi naziri Ənvər paşa tərəfindən könüllüləri ilə birlikdə İran və İraq cəbhələrinə göndərilərək rus ordusuna qarşı vuruşmuşdur.

İ.Cahangirzadə 9 yanvar 1918-ci ildə Milli Şura tərəfindən Qars valisi təyin olunmuş, may ayında Ənvər paşa onu "Fəxri alay komandanı" rütbəsilə 9-cu Ordu komandanı Yaqub Şevqi paşanın sərəncamına göndərmişdir. 1918-ci il noyabr ayının 3-də Araz-Türk Respublikası hökumətinin hərbi naziri təyin olunan İbrahim bəy 20 tabor (batalyon) təşkil etməklə, əhalini ermənilərin törətdikləri qırğından müdafiə etmiş, noyabr ayının 30-da Qarsda keçirilən İkinci Qars Qurultayında qurulan Milli İslam Şurası Hökumətinin başçısı seçilmişdir.

1919-cu il yanvar ayının 17-də keçirilmiş Böyük Qars Konqresində Cənub-Qərbi Qafqaz Cümhuriyyəti elan olunmuş, hökumətin başçısı İbrahim bəy Cahangirzadə seçilmişdir.

1919-cu il aprel ayının 12 və 13-də ingilis ordusu tərəfindən Cənub-Qərbi Qafqaz Cümhuriyyəti məğlub edilmiş, hökumət üzvləri Malta adasına sürgün olunmuşdur. İbrahim bəy 1921-ci ildə N. Nərimanovun köməyi ilə sürgündən azad edilib, Tiflis həbsxanasına göndərilmiş, Azərbaycana gələrək Gəncədə Xudadat bəy Rəfibəylinin himayəsində olan həyat yoldaşı və oğlunu götürüb Qarsa qayıtmışdır.

İbrahim bəy 1921-ci ilin avqust ayında Qars şəhər bələdiyyəsinin sədri seçilmiş, 1922-1927-ci illərdə Qars bələdiyyə rəisi işləmiş, sonralar ticarət məmuru olmuşdur.

1934-cü ildə Türkiyədə qəbul olunmuş qanuna uyğun olaraq "Aydın" soyadını qəbul etmişdir.

İbrahim bəy Cahangirzadə 1948-ci il may ayının 19-da Qars şəhərində vəfat etmişdir.

2003-cü ildə Qars şəhərində bələdiyyə tərəfindən İbrahim bəyin xatirəsinə abidə qoyulmuş, parklardan birinə onun adı verilmişdir.

Ədəbiyyat:

Hüseynov, R. İbrahim bəy Cahangiroğlu, Cahangirzadə / R.Hüseynov // Qərbi Azərbaycan mühacir Hökuməti: İdeyadan gerçəkliyə.– Bakı, 2006.– S.19-22.

Mirişli, E. Cənubi-Qərbi Qafqaz Demokratik Respublikası...Və ya İbrahim bəy Cahangiroğlu kimdir? / Elşən Mirişli // Türküstan.– 2016.– 5-11 aprel.– S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0brahim_b%C9%99y_Cahangirzad%C9%99

https://moderator.az/az/arasdirma/227610/nerimanovun-surgunden-xilas-etdiyi-ermeni-silahlilarinin-qen

Əvhədi Marağayi – 750

(1274-1338) *Filosof-şair*



Əvhədədin Şeyx Əvhədi ibn Hüseyn Marağalı 1274-cü ildə (dəqiq məlum deyil) Marağa şəhərində anadan olmuşdur. Təhsilini Marağa şəhərində alan Əvhədi ana dilindən başqa ərəb, fars dillərini, məntiq, təbiət, fəlsəfə, ilahiyyat və başqa elmləri də öyrənmişdir. Bəzi mənbələrə görə ilk zamanlar "Safi" təxəllüsü ilə yazmışdır.

Əvhədi Marağayi Sufilikfəlsəfəsinə əsaslanan poetik əsərlərin, şeir və poemaların, o cümlədən "Cəmşid piyaləsi" əsərinin müəllifidir. Mövlana Əvhədinin bizə məlum olan tərcibənd, qəzəl, rübai, qitə və qəsidələrdən ibarət (ən azı 15000 beytlik) divan, Məlikül Hükəma Xacə Nəsirəd-din Tusinin nəvəsi Xacə Ziyad-əd-din Yusif ibn Xacə Əsilinin (Əsil-əd-din) xahişi ilə yazdığı, 525 beytdən ibarət aşiqanə bir poema "Dəhnamə" ("Məntiqül-üşşaq"), 1333-1334-cü ildə 60 yaşında 1 ilə yazdığı şah əsəri "Cami-Cəm" didaktik-fəlsəfi məsnəvi (9142 misra, Azərbaycan hökmdarı Xacə Qiyasəddin Məhəmməd ibn Rəşidə ithaf olunmuşdur), 10000 beytlik şeir divanı vardır.

İmadəddin Nəsimi Əvhədini çox sevmiş, əsərlərini tərcümə etmiş, onlara nəzirələr yazmışdır. Xacə Hafiz onu "Piri-Təriqət" adlandırmışdır. Sədi Şirazi onu öz ustadı saymışdır.

Əvhədi həyatının müəyyən bir dövrünü İsfahanda yaşamış və burada farsca bir çox əsərlər yazmışdır. Bu faktı əsas gətirən bəzi müəlliflər uzun zaman onu fars şairi kimi qələmə verməyə çalışsalar da bu fikir öz təsdiqini tapmamışdır.

Mövlana Əvhədi 1338-ci ildə martın 8-də Marağa şəhərində vəfat etmişdir.

Dahi şairin məqbərəsi (Cənubi Azərbaycanın Marağa şəhərində) hal-hazırda "Pir Əvhəd-əd-din" adı ilə çox məşhur ziyarətgahdır.

Qulamhüseyn Beqdeli və Xəlil Həmid oğlu Əvhədinin "Cami-Cəm" əsərini farscadan Azərbaycan dilinə tərcümə etmişlər. Bu tərcümə 1970-ci ildə Azərbaycan Dövlət nəşriyyatında 20000 tirajla kiril əlifbası ilə nəşr olunmuşdur. Dahi şairin həyat və yaradıcılığını ən geniş tədqiq edən şəxs Qulamhüseyn Beqdeli olmuşdur. O, şair haqqında "Əvhədinin həyat və yaradıcılığı" adlı kitab (Bakı, 1962) nəşr etdirmişdir.

Ədəbiyyat:

Cami-Cəm: [məsnəvi] / Əhvədi Marağalı.– Əlyazmanın faksimilesi.– Reprint nəşr.- [Bakı]: [n. y.].– [2020].– 197 v.

Fərəcov, S. Ensiklopedik zəka sahibi, mütəfəkkir şair / Savalan Fərəcov // Mədəniyyət.– 2021.–12 mart.– S.6.

Fərəcov, S. Didaktik əsərlər müəllifi: [görkəmli mütəfəkkir şair Marağalı Əvhədi haqqında] / Savalan Fərəcov // Mədəniyyət.– 2015.– 29 iyul.– S. 13.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fvh%C9%99di_Mara%C4%9Fal%C4%B1

https://news.milli.az/culture/157197.html

Qurbanəli Şərifzadə – 170

(1854-1917)

Maarifçi



Qurbanəli Hacı Ələsgər oğlu Şərifov (Şərifzadə) 1854-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur.

Qurbanəli Şərifzadə dövrünün çox mükəmməl biliyə malik, savadlı, bir neçə dil bilən şəxsi olmuşdur. İxtisasca dəmir-yolu mühəndisi olmuş, Gürcüstan dağ yollarının, Şahtaxtı-Maku dəmir yolunun çəkilişində icarəçi mühəndis kimi iştirak etmişdir.

Naxçıvan teatrının fəallarından olan Şərifzadə Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Ə.Haqverdiyev, F.Köçərli, M.Ə.Sabir, Ö.F.Nemanzadə və Ə.Qəmküsarla dostluq əlaqələri saxlamış, Naxçıvan, Bakı, İrəvan, Tiflis ziyalıları ilə sıx münasibətdə olmuşdur.

Qurbanəli Şərifzadə peşəkar yazıçı, jurnalist olmamışdır, lakin dövrünün ağrı-acılarını dərindən duyan, xalqına, millətinə ürəyi yanan bir şəxs olduğundan 1890-cı illərdən "Həblül-mətin" qəzeti ilə əməkdaşlıq etmiş, onun bölgə üzrə daimi müvəkkili olmuşdur. Bu qəzet onun görüşlərinə çox müsbət təsir göstərmişdir.

Şərifzadə "Molla Nəsrəddin"in nəşrində C.Məmmədquluzadəyə dəstək vermiş, jurnalda ara-sıra "Leylək", "Hacıleylək", "Məşədi Mozalanbəy" imzası ilə felyetonlar və məktublar dərc etdirməklə, "Mozalan bəyin səyahətnaməsi"nin İrəvana və Naxçıvana aid hissələrini də yazmışdır.

Naxçıvanın maarifpərvər və millətpərəst simalarından olan Q.Şərifzadə həm də bacarıqlı iş adamı olmuşdur. O, milli təhsilin, mətbuat və mədəniyyətin fəal müdafiəçisi olmaqla, M.T.Sidqinin Naxçıvanda açdığı "Tərbiyə" məktəbinin və Naxçıvan teatrının inkişafına maddi və mənəvi yardım göstərmişdir.

Böyük şairimiz Hüseyn Cavidin "Məktəbi-Tərbiyə"də oxumasında da, Türkiyədə təhsil almasında da Qurbanəli Şərifzadə böyük rol oynamış, ona maddi və mənəvi köməkliyini əsirgəməmişdir. Bunu Hüseyn Cavid Qurbanəli Şərifzadəyə yazdığı doqquz məktubun hər birində qeyd etmişdir.

Q.Şərifzadə 1917-ci ildə Naxçıvanda vəfat etmişdir.

H.Cavid həmin il iyun ayının 9-da "Açıq söz" qəzetində çap olunan məqaləsində Q.Şərifzadəni "səmimi millət xadimi" kimi səciyyələndirmişdir.

Qurbanəli Şərifzadənin arxivi Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə vermişdir. Həmin materiallar arasında Qurbanəli bəyə aid 100-ə yaxın məktub, o dövrün qəzet, jurnal redaksiyaları ilə yazışmaları və s.vardır.

Ədəbiyyat:

Qədimov, Ə. Qurbanəli Şərifzadənin həyatı və yaradıcılıq yolu / Əsgər Qədimov; ön sözün müəl. İ. Həbibbəyli; elmi red. F. Kazımova.– Bakı: Elm və Təhsil, 2009.–260, [3] s.

Camalov, K. Maarif və mədəniyyət tariximizdə parlayan sima – Qurbanəli Şərifzadə / Kamal Camalov // 525-ci qəzet.– 2021.– 23 fevral.– S.13.

Fərəcov, S. Maarif təşnəsi / Savalan Fərəcov // Mədəniyyət.– 2016.– 4 may.– S. 15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Qurban%C9%99li_%C5%9E%C9%99rifzad%C9%99

https://sonavaliyeva.com/az/meqaleler/585/huseyn-cavid-ve-qurbaneli-serifzade-sona-veliyeva-yazir/

Qafur Rəşad – 140

(1884-1943)

Pedaqoq



Qafur Ələkbər oğlu Mirzəzadə (Qafur Rəşad) 1884-cü ildə Şamaxıda anadan olmuşdur.

1894-1901-ci illərdə Şamaxı şəhər realnı məktəbində oxumuş, Bakıya gələrək III Aleksandr kişi gimnaziyasında xüsusi komissiya qarşısında imtahan vermiş və Azərbaycan dili müəllimi arayış-vəsiqəsini almışdır. 1902-ci ildə Şamaxı qəzasının Lahıc kənd ibtidai məktəbinə müəllim təyin olunmuş, burada beş il çalışmışdır. 1907-ci ildə Bakıya köçüb "Nəşrimaarif" cəmiyyətinin müəllim hazırlığı kursunda, "Rus-tatar" məktəbində müəllimlik etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918) Xalq məktəbləri direktorunun əmri ilə milli fənləri tədris etmək üçün 2-ci Realnı məktəbinə təyinat almışdır.

O, 1923-1927-ci illərdə Bakı Ali Pedaqoji İnstitutunda (indi ADPU) oxumuşdur. Sovet hakimiyyəti illərində Azərbaycan Dövlət Universitetində (indiki BDU), Zaqafqaziya Pambıqçılıq İnstitutunda, M. Əzizbəyov adına Bakı Politexnik İnstitutunda (indiki ADNSU) işləmişdir.

Qafur Rəşad Azərbaycan məktəblərinin dərsliklərlə təminatı məsələsində səyini əsirgəməmiş, "Qafqaz coğrafiyası", "Ümumi coğrafiya", "İbtidai coğrafiya", "Coğrafiya terminləri lüğəti", "SSRİ-nin iqtisadi coğrafiyası", "Xəritə üzərində əməli iş" kimi ümumilikdə 18 dərslik və dərs vəsaiti nəşr etdirmişdir. Onun Məmmədsadıq Axundov və Əbdürrəhman Əfəndizadə ilə birgə hazırladığı "Rəhbəri-sərf", "Rəhbəri-hesab" dərslikləri uzun illər məktəblərdə tədris olunmuşdur.

Milli uşaq ədəbiyyatının inkişafında da Q.Rəşadın xidmətləri böyükdür. Ə. Əfəndizadə ilə birgə Azərbaycanda "Məktəb" adlı ikinci uşaq jurnalının (1911-1920) və eyniadlı mətbəənin təsisçisi olmuşdur. Jurnal Xalq Cümhuriyyəti dövründə uşaqların milli müstəqillik və dövlətçilik ruhunda tərbiyəsində müsbət rol oynamışdır. O, uşaq ədəbiyyatının yaradılmasında folklor nümunələrindən geniş şəkildə istifadə etmiş, xalq hikmətlərinin yaşadılması və gələcək nəsillərin təlim-tərbiyə olunmasını diqqətdə saxlamışdır.

Qafur Rəşad kasıb və kimsəsiz uşaqları milli dövlət məktəblərinə, eləcə də özünün xüsusi məktəbinə cəlb etmək məqsədilə dövri mətbuatda tez-tez çıxışlar etmişdir.

Tanınmış maarifçi tərcümə sahəsində də özünü sınamış, L.N.Tolstoyun "İnsana çoxmu torpaq lazımdır?", "Baha oturur", "Barmaq boyda uşaq", "Dövlətli sərçə və dişli siçan", "Bir-birinə məhəbbət ediniz" və P.N.Polevoyun "İki yol, iki yoldaş" əsərlərini dilimizə tərcümə edərək Azərbaycan oxucusunun ixtiyarına vermişdir.

Qafur Rəşad 1943-cü il noyabr ayının 27-də vəfat etmişdir.

Ədəbiyyat:

Bağırova, N. Görkəmli pedaqoq, coğrafiyaçı, publisist Qafur Rəşad Mirzəzadə /Nərmin Bağırova // Milli Azərbaycan Tarixi Muzeyi-2016.– Bakı, 2016.– S. 69–77.

Rzayeva, M."Məktəb"in baş redaktoru...: Qafur Rəşad cümhuriyyətdövründə fəaliyyət göstərmiş jurnalistlərdəndir / Məlahət Rzayeva // Şərq.– 2018.– 25 aprel.– S.11.


Muzeydə görkəmli pedaqoq və publisistin fotoşəkilləri saxlanılır: [Tarixi MuzeyindəQafur Rəşad Mirzəzadənin fotoşəkillərinin saxlanılması haqqında]// Mədəniyyət.– 2020.– 22 iyul.– S.6.

İnternetdə:

https://portal.azertag.az/az/node/13475

https://shamakhi-encyclopedia.az/qafur-r%D3%99sad/

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası – 105 *(1919)*



Bakı Dövlət Universiteti 1919-cu ildə yaradılmış və həmin ildə onun strukturunda önəmli yeri olan kitabxana təşkil olunmuşdur.

Elmi kitabxana fondunun zənginliyinə, biblioqrafiya və informasiya işinin nümunəvi təşkilinə, oxuculara yüksək xidmət mədəniyyətinə, yüksək ixtisaslı kadrlarına görə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin 1971-ci il 7 may tarixli 131 saylı əmrinə əsasən, ali və orta ixtisas məktəb kitabxanalarının metodiki mərkəzidir.

1974-cü ildən universitetin kitabxanasına "Elmi kitabxana" statusu verilmişdir. Kitabxananın 2,5 milyondan çox kitab fondu vardır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1999-cu il 171 saylı əmrinə əsasən 2000-ci ildən "Kitabxananın kompüterləşdirilməsi" Elmi Tədqiqat Laboratoriyası fəaliyyətə başlamışdır. Laboratoriyanın əsas məqsədi universitet kitabxanasının informasiya fəaliyyətinə müxtəlif kitabxana prosesi səviyyələrində yeni texnologiyaların daxil olması ilə əlaqədar nəzəri və təşkilati məsələləri təkmilləşdirməkdir.

2001-ci ildən respublika ali məktəb kitabxanaları arasında ilk dəfə olaraq, BDU-nun Elmi kitabxanasında elektron kataloqun (EK) yaradılmasına başlanmışdır. Kitabxananın Azərbaycan dilində olan fondu tam elektron kataloqa daxil edilmiş və bu proses davam etdirilir. Kitabxanada Azərbaycan, rus və xarici dillərdə olan dövri nəşrlər, dissertasiya və nadir kitablar da elektron kataloqa daxil edilmişdir. Bu prosses İRBİS-64 avtomatlaşdırılmış kitabxana informasiya sistemi ilə həyata keçirilir. Elektron kataloq beynəlxalq kompüter şəbəkəsi vasitəsi ilə oxuculara dünyanın istənilən nöqtəsində xidmət göstərməyə imkan verir. Elmi kitabxanada tammətnli elektron kitabxana yaradılmışdır. 2002-ci ildən Elmi kitabxananın bdu.az saytı sərbəst fəaliyyət göstərir. İstifadəçilər bu sayta daxil olmaqla, kitabxana haqqında məlumat ala bilər və eyni zamanda, elektron kataloq vasitəsilə Online rejimində daha operativ axtarış apara bilirlər.

Elmi kitabxananın qiraət zalları müasir standartlara uygun əsaslı təmir edilmiş, yeni, rahat mebel avadanlıqları, kompüter texnologiyaları alınmışdır. Azərbaycan Respublikasının 1999-cu il 12 mart tarixli "Kitabxana işi haqqında" Qanununun 15-ci maddəsinə əsasən, BDU-nun Elmi kitabxanası poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından 2 pulsuz məcburi nüsxə alır.

Elmi kitabxana həm respublika ali məktəb kitabxanaları ilə, həm də 21 ölkənin 49 universiteti və beynəlxalq nəşriyyatı ilə informasiya mübadiləsi aparır. Amerika Kitabxana Assosiasiyası, Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyası və universitetin Elmi kitabxanası ilə birgə işlənilən layihə çərçivəsində "Hinari" verilənlər bazasında olan elektron jurnallardan oxucuların istifadəsi mümkün olmuşdur. BDU-nun Elmi kitabxanası Respublika Mərkəzi Metodiki Kitabxana Komissiyasının, Azərbaycanın Kitabxana İşinin İnkişafı Assosiasiyasının, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin və Avroasiya Kitabxanaşünaslıq Assambleyasının üzvüdür.

Ədəbiyyat:

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası-100:[-monoqrafiya Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunur] /A. Xələfov; red.: K. Aslan, P. Kazımi;[dizayn. K. İbrahimov].-[Yenidən işlənmiş, təkmilləşdirilmiş 2-ci nəşr].-Bakı: Elm və təhsil, 2019.-263, [1] s.

İsmayılova, N. Bakı Dövlət Universiteti -100: Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 100 il elm və təhsilin xidmətində / Nigar İsmayılova // Kitabxanaşünaslıq və informasiya.- 2019.- № 2.- S.140-144.

Fətəliyeva, A. Ali təhsil müəssisələrinin kitabxana fondlarının formalaşmasında innovativ üsul və metodların tətbiqi (Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının iş təcrübəsi əsasında) / Aygün Fətəliyeva // Kitabxanaşünaslıq və biblioqrafiya.-2021.- № 2(49).- S.149-157.

M.Qorki adına Mərkəzi şəhər Səyyar Kitabxanası – 100

(1924)



Mərkəzi Səyyar Kitabxana Fondu 1924-cü ildə Bakı Xalq Maarif Şöbəsinin nəzdində yaradılmışdır. 1936-cı ildən Maksim Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondu kimi fəaliyyət göstərmişdir. 1950-ci illərdə kitabxana binasının nəzdində qiraət zalı açılmışdır. Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin "Mərkəzləşdirilmiş kitabxana sisteminin yaradılması haqqında" 27 yanvar 2011-ci il tarixli 4 saylı əmrinə əsasən kitabxananın adı yerləşdiyi rayon üzrə Səbail MKS adlandırılmışdır. Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi bu rayonda yerləşən kitabxanaların bazasında yaradılmışdır. Yeni qurum özündə Mərkəzi Kitabxana və 6 kitabxana-filialı birləşdirir. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması üçün kitabxanada İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilmişdir. Bakı Şəhər M.Qorki adına Mərkəz Səyyar Kitabxana Fondunda İnformasiya Mərkəzi, eyni zamanda, yenilənmiş kitabxananın saytı və elektron kataloqu oxuculara hədiyyə edilmişdir. İndi oxucular İnformasiya Mərkəzində quraşdırılmış kompyuterlərdən istifadə edirlər. www.baku-mskf.az saytının köməyi ilə oxucular M.Qorki adına kitabxananın yaranma tarixi, onun ilk kitabları, Azərbaycan və rus şöbələrinin strukturu, həmçinin, elektron kataloqdan istifadə qaydaları barədə məlumat əldə edə bilərlər. M.Qorki adına Kitabxana Fondunun elektron kataloqu M.F.Axundov adına Milli Kitabxananın mütəxəssisləri ilə birlikdə yaradılmışdır. Kitabxanada "Oxuculara xidmət şöbəsi", "Uşaq şöbəsi", "Komplektləşdirmə və kitabişləmə", "Metodika və biblioqrafiya", "İnformasiya-resurs" və "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması" şöbələri fəaliyyət göstərir. Bundan başqa, kitabxananın saytı (sabail.cls.az) və elektron kataloqu istifadəçilərin ixtiyarındadır. Kitabxananın fondunda 100-ə yaxın nadir kitab saxlanılır.

2022-ci il sentyabrın 18-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) Mərkəzi Kitabxanasının binasının əsaslı təmirdən sonra açılış mərasimi keçirilmişdir.

İl ərzində Mərkəzi Kitabxana və filiallar vasitəsilə ümumilikdə 50 mindən oxucu müraciəti üzrə ənənəvi və virtual xidmət göstərilir. Hazırda Mərkəzi Kitabxananın fondu 268 min nüsxə təşkil edir, oxucuların sayı 13509 nəfərdir.

Ədəbiyyat:

M.Qorki adına Mərkəzi Şəhər Səyyar Kitabxana Fondu//Azərbaycan kitabxanaları XX əsrin informasiya məkanında.- Bakı, 2007.- S.177-180.

Dünyamalıoğlu, F.İnformasiya mərkəzi açıldı: [M.Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondundayaradılmış informasiya mərkəzinin açılışı oldu] / Fərahim Dünyamalıoğlu //Mədəniyyət.- 2009.- 7 fevral.- S.3.

İnternetdə:

https://www.azerbaijans.com/content_161_az.html

https://azertag.az/xeber/MARKAZI_SAYYAR_KITABXANA_FONDUNDA_INFORMASIYA_MARKAZI_ACHILMISDIR-431853

Səbail rayon mərkəzləşdirilmiş kitabxana sistemi //Azərbaycan Kitabxana Ensiklopediyası.-Bakı, 2015.-S.551.

Gəncə şəhər Mərkəzi Kitabxanası – 90

(1934)



Gəncə şəhər Mərkəzi Kitabxanası 1934-cü ildə şəhər maarif şöbəsi tərəfindən təşkil edilmişdir. 1935-ci ildə kitabxananın fondunda 5 min nüsxə kitab olmuş, 300 nəfər oxucuya xidmət göstərilmişdir. Gəncə şəhər MKS 1976-cı ildə təşkil edilmişdir. MKS-in 1 şəhər Mərkəzi Kitabxanası (MK) (9 şöbə ilə) uşaq kitabxanası və 21 kitabxana filialı var. Bunlardan 16 şəhər kitabxana filialı və 1 qəsəbə kitabxana filialı böyüklərə, biri gənclərə, üç kitabxana isə kiçik yaşlı uşaq - oxuculara xidmət edir.

MKS-in fondunda olan 391834 nüsxə fondu ilə Azərbaycan və dünya ədəbiyyatı nümunələrinin, bütün kitab sərvətlərinin, digər informasiya vasitələrilə 62458 nəfər oxucuya, 1201983 kitab verlişi ilə xidmət göstərir. Mərkəzi kitabxana sistemə daxil olan bütün kitabxanalara metodik rəhbərlik edir.

Mərkəzi kitabxanada oxucuya lazım olan kitabı tapmağa kömək məqsədi ilə əlifba və sistemli kataloqlar, sistemli və ölkəşünaslıq kartotekaları tərtib edilmişdir. 2003-cü ildən Mərkəzləşdirilmiş kitabxana sisteminin "gencekitab. az" veb-saytı yaradılmış və 2015-ci ildən Vahid Mərkəzləşdirilmiş Kitabxaba Portalı yaradıldıqdan sonra kitabxana ikinci bir saytlada işləməyə başlamışdır. (cls.az) 2004-cü ildən İRBİS-64 kitabxana proqramı alınmışdır. Kitabxanada avtomatlaşdırılmış infrastruktur qurulmuş, elektron kataloq və elektron kitabxana yaradılmışdırdır. 2015- ci ildən isə Mərkəzləşdirilmiş Kitabxana İnformasiya sistemi (ALISA) proqramı ilə işləyir. Kitabxanada avtomatlaşdırılmış infrastruktur qurulmuş, elektron kataloq və elektron kitabxana yaradılmışdır. Hazırda müntəzəm olaraq elektron kataloqun bazalarında işlər və həmçinin elektron kitabxanaya dəyərli çap əsərlərinin yüklənməsi davam etdirilir. Hər bir İnternet istifadəçisi Kitabxananın Web səhifəsi vasitəsi ilə onun Elektron kataloqundan və digər elektron resurslarından istifadə edə bilir. Kitabxananın kollektivi müasir texnoloji vasitələrdən istifadə edərək oxucu sorğularını tez və dolğun ödəməyə çalışır. Kitabxanaların avtomatlaşdırılması sahəsində görülən işlər filiallarda da həyata keçirilir. Belə ki, MKS-in filiallarında da kompüterləşdirilmiş infrastruktur qurulmuş, kitabxanaların kompyuterlə, internetlə, WI-FI ilə təmin olunması həyata keçirilir

Ədəbiyyat:

Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi // Azərbaycan Kitabxana Ensiklopediyası / Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundzadə adına Milli Kitabxana.- Bakı, 2015.- S.246-247.

Hüseynov, F. Kitabxanaların fəaliyyəti günün müasir tələblərinə cavab verməlidir: Gəncə şəhərində kitabxana işçilərinin Gəncə-Qazax zonası üzrə müşavirəsi keçirilib / Fariz Hüseynov //Mədəniyyət.- 2015.- 23 oktyabr.- S. 5.

İnternetdə:

www.gencekitab.az; www.ganja.cls.az.

https://azertag.az/xeber/gence_seher_merkezi_kitabxanasinin_veb_sayti_internet_sebekesine_yerlesdirilmisdir-469065

Astara rayon Mərkəzi Kitabxanası – 85

(1939)



Astara rayon MKS-nin Mərkəzi rayon kitabxanası 1939-cu ildən fəaliyyətə başlamışdır.

1975-ci ildə Astara Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. Ötən müddətdə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əhatəsində 80 kitabxana yaradılmış, onların potensialı genişləndirilmişdir. Mərkəzi rayon kitabxanası aşağıdakı strukturdan ibarətdir: Xidmət şöbəsi, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, Metodika və biblioqrafiya şöbəsi, İnformasiyaresurs şöbəsi, Uşaq şöbəsi, Komplektləşdirmə və kitabişləmə şöbəsi. 2011-ci ildə rayon MKS-nin oxucularının sayı 31 min 258 nəfər, kitab fondu 423 min 719 nüsxə, kitab verilişi 497 min 522 nüsxə olmuşdur. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması üçün kitabxanada İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilmişdir.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"na müvafiq olaraq rayonun 10 qabaqcıl kitabxana filialı müasir informasiya texnologiyaları, inventar və avadanlıqla təmin edilmiş, WIFI zonası yaradılaraq oxucuların istifadəsinə verilmişdir. Astara MKS Elektron kitabxana və yeni informasiya texnologiyalarının işlədici və işlədicilərinin Beynəlxalq Assosiasiyasının (ELNİT) qərarı ilə beynəlxalq assosiasiyaya üzv qəbul edilmişdir.

Astara Rayon Mərkəzi Kitabxanası 2017-ci ildə Mədəniyyət Nazirliyinin keçirdiyi müsabiqədə "İlin ən yaxşı kitabxanası" nominasiyasının qalibi olmuşdur. İnsanların kitaba, mütaliəyə marağını artırmaq, kitabxanalara daha çox oxucu cəlb etmək məqsədilə Astara rayon Mərkəzi Kitabxanası "Hər kitabı ünvanına" adlı layihə keçirmiş, "Şahin" Gənclərin hərbi-vətənpərvərlik düşərgəsinin zabit və gəncləri üçün səyyar kitabxana xidməti təşkil olunmuşdur.

Ədəbiyyat:

Kərimov, S. Astara MKS beynəlxalq assosiasiyaya üzv qəbul edilib:[Elektron kitabxana və yeni informaisya texnologiyalarının işlədici və işlədicilərinin Beynəlxalq Assosiasiyasının (ELNİT) qərarı ilə] / Sakitağa Kərimov // Mədəniyyət.- 2013.- 21 iyun.- S. 15.

Astara rayon Mərkəzləşdirilmiş Kitabxana sistemi // Azərbaycan Kitabxana Ensiklopediyası.-Bakı, 2015.-S.43.

İnternetdə:

https://azertag.az/xeber/astarada_merkezi_kitabxananin_yaradilmasinin_80_ci_ildonumu_qeyd_olunub-1378392

https://cenublu.az/aktual/astarada-sayyar-kitabxana-xidmat-gostarib/

Ağdam rayon Mərkəzi Kitabxanası – 45

(1979)



1990-cı illərin əvvəllərinə - erməni işğalına qədər MKS-in tərkibində 1 Mərkəzi Kitabxana (MK), 2 şəhər, 2 uşaq, 1 gənclər kitabxanası və 101 kənd kitabxana filialı fəaliyyət göstərmişdir. Ağdam rayon kitabxanasının əsası 1907-ci ildə görkəmli yazıçımız Ə. Haqverdiyev tərəfindən ayrı-ayrı şəxslərdən toplanmış kitablar hesabına təşkil edilmişdir. 1920-ci ilə qədər kitabxana qapalı fəaliyyət göstərmiş, sonra kitabxana-qiraətxana xalqın xidmətinə verilmişdir. 1930-cu illərdən sonra fəaliyyətini rayon mərkəzi kitabxanası kimi davam etdirmişdir.

1993-cu il iyul ayının 23-də Ağdam rayonu düşmənin işğalına məruz qalmışdır. Rayonun böyük hissəsi - 77,4 faizi, o cümlədən Ağdam şəhəri, rayonun 1 qəsəbə və 82 kəndi işğal olunmuş, 143 min nəfərə yaxın ağdamlı doğma ev eşiyindən didərgin düşmüşdür. Erməni silahlı dəstələri işğala məruz qoyduqları ərazilərdə vandalizm aktı törətmiş, 67 kitabxana filialını tamamilə məhv etmişdir. Qalan 40 kitabxana filialının yerləşdiyi binalar, kitab fondları və inventarlar tamamilə yararsız hala salınmışdır. MK fəaliyyətini Bakı şəhərinin Yasamal rayonunda - BDU-nun yataqxanasında davam etdirmək və yataqxanada məskunlaşan məcburi köçkünlərə xidmət göstərmək məcburiyyətində qalmışdır. 2010-cu ilin noyabr ayından MK Ağdam rayonunun Yeni Quzanlı qəsəbəsində fəaliyyət göstərməyə başlamışdır. MK-nın 3838 nüsxə kitab fondu, 4030 nəfər oxucusu, 250 nəfərlik tədbir salonu və geniş oxu zalı vardır.

"Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında Kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması üçün kitabxanada İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilmişdir.

Ağdam rayon MKS 2016-cı ildə Mədəniyyət və Turizm Nazirliyinin və Milli Kitabxananın birgə təşəbbüsü ilə keçirilən "Açıq kitabxana" layihəsinə qoşulmuş, "Uşaq guşəsi", "Səyyar kitabxana" xidməti, "Mütaliə həftəsi" çərçivəsində tədbirlər həyata keçirmişdir.

Ağdam rayonu 10 noyabr 2020-ci il bəyannaməsinə əsasən işğaldan azad edilmiş, rayonda quruculuq işlərinə başlanılmış və kitabxanada tezliklə yeni ünvana köçürüləcəkdir.

Ədəbiyyat:


Ağdam rayon Mərkəzləşdirilmiş kitabxana sistemi // Azərbaycan Kitabxana Ensiklopediyası.-Bakı, 2015.-S.18.

Cəfərli, R. Ağ günə qovuşan Ağdamda Kitab bayramı:[Kitab bayramı və Respublika konfransının keçirilməsi haqqında] / Rəşad Cəfərli //Azərbaycan.-2021.- 21 dekabr.- S.9.

İnternetdə:

https://agdam.org/kitabxana_info.php?id=18

Göygöl – 885
(1139)



Azərbaycan gözəl mənzərələr məskənidir. Təbiət başı qarlı dağlarını, alp çəmənliklərini, subtropik zonalarını, qızmar günəşi, təmiz dağ havasını, iti axınlı çaylarını, mineral bulaqlarını, dəniz və göllərini buradan əsirgəməmişdir. Azərbaycanın ən gözəl göllərindən biri olan Göygöl Gəncədə yerləşir. 1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib. Nəticədə isə, füsunkar gözəlliyi, xüsusilə də suyunun şəffaflığı ilə seçilən məşhur Göygöl yaranmışdır. Göygöl ərazisində ümumilikdə 19 göl var. Bunlardan 7-si böyük göllər sırasına daxildir: Maral göl, Qara göl, Ördək göl, Zəli göl, Ağ göl, Ayna göl, Şamlıq göl... Dəniz səviyyəsindən 1556 metr yüksəkliyində yerləşir. Uzunluğu 2800 metrdir. Eni 800 metrdən 1000 metrə qədər, dərinliyi 96 metrdir. Gölün görünmə qabiliyyəti 8-10 metrdir. Hüsnü o qədər gözəldir ki, görənləri heyran qalır.

Moskvalı alım, tibb elmləri doktoru R.Qlizerin onun "qonağı olduqdan" sonra yazıb ki, "Göygölü seyr etmək, onun havası ilə nəfəs almaq, müalicə üçün bir "vaqon" dərman qəbul etməkdən yaxşıdır". Ona, "Göygöl" deyirlər. Çünki ağacların kölgəsi ayna üzünə düşüb rəngini göyərtmişdir. Əslində göy rəng xoşa gələn yaşıllıqdır, yaşıllıqsa cavanlıq əlamətidir.

Göygölün faunası olduqca zəngindir. Göldə qorunmaqda olan forel balıqları yaşayır. O, Azərbaycanın digər çay forellərindən xeyli fərglənir. Öz mənşəyi etibarilə Göygöl foreli çay forelindən əmələ gəlmişdir. Onların əmələgəlmə tarixi Göygölün yaranma tarixi ilə bağlıdır. Zəlzələ zamanı gölün ərazisində qalan çay forelləri uzun illər ərzində tədricən göl forelinə çevrilmiş, artıb çoxalmış və zəmanəmizə qədər gəlib çatmışdır.

Göygöl Dövlət Təbiət Qoruğu 1925- ci ildə Azərbaycanda yaradılmış ilk qoruqdur. Göygöl və onun ətrafının meşə landşaftı öz təbiət zənginliyi və füsunkarlığı ilə dünyada məşhurdur. Göygöl Dövlət Təbiət Qoruğu Göygöl rayonu ərazisində yerləşir. Ərazisi 6732 hektardır. Ərazisində 423 növ ağac və kol, dərman bitkiləri var. Ərazidə Qafqaz maralı, cüyür, ayı, çöl qabanı, dağ keçisi, canavar, tülkü, caqqal, porsuq, oxatan kirpi, cöl pişiyi, vaşaq var. Göygöl və onun ətrafının meşə landşaftı öz təbiət zənginliyi və füsunkarlığı ilə dünyada məşhurdur.

Ədəbiyyat:

Qarayeva, S.Azərbaycan təbiətinin mirvarisi - Göygöl Milli Parkı / S.Qarayeva // 525-ci qəzet.- 2020.- 5 sentyabr.- S.21.

İsmayıl, K.Ecazkar və füsunkar: Təbii sərvətlərimiz:Göygöl Milli Parkı / Kamil İsmayıl //Respublika.- 2022.- 13 avqust.- S.11.


İnternetdə6

https://az.wikipedia.org/wiki/G%C3%B6yg%C3%B6l_(g%C3%B6l)

https://portal.azertag.az/az/encyclopedia/post/3105

İrəvan qalası – 520

(1504)



İrəvan qalası 1504-cü ildə Səfəvi hökmdarı I Şah İsmayılın tapşırığı ilə, vəziri Rəvanqulu xan tərəfindən Zəngi çayının sahilində, indiki İrəvan şəhərinin yerində 7 ilə inşa edilmişdir. Qala Rəvanqulu xanın şərəfinə "Rəvan", dialektdə daha sonra isə "İrəvan" adlandırılmışdır.

Qalada 8 məscid, 800 ev olmuş və yalnız azərbaycanlılar yaşamışdır. Uzunluğu 850 metr olan qalanın divarları çiy kərpicdən hörülmüşdür. Qalanın bayır divarının hündürlüyü 10 metrdən hündür olub və bu divarda 17 bürc olmuşdur. Qala ikiqat divarla dövrələnmiş, iç qaladan təxminən 1 km məsafədə Keçiqala adlı köməkçi qala da tikilmişdir. Ümumiyyətlə, İrəvan qalasının 50-60 bürcü, 3 qapısı olub: Cənubda Təbriz qapısı, Şimalda Meydan qapısı və Körpü qapısı. Qaladaxili şəhər isə dörd məhəlləyə bölünüb: Qala məhəlləsi, Şəhər məhəlləsi, Təpəbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. Uzunmüddətli mühasirəyə davam gətirmək üçün qalanın daxilinə gizli yolla su kəməri çəkilmişdir.

Qaladaxili şəhərsalma tipik Şərq-Azərbaycan şəhərləri üslubunda olmuşdur, küçələr dar, evlərin divarları hündür olduğuna görə küçədən evlərin həyətlərini müşahidə etmək mümkün olmayıb. Qalada iki, bəzi mənbələrə görə isə dörd məscid olmuşdur.

Osmanlı Səfəvi müharibəsi zamanı dağıdılan qala divarlarını 1582-1583-cü illərdə Osmanlı sərkərdəsi Fərhad paşa daha da möhkəmləndirmişdir. İrəvan qalası 1604-cü ildə Səfəvi-Osmanlı müharibəsi (1603-1612) zamanı I Şah Abbas tərəfindən tutulmuş və İrəvanın idarəçiliyi Əmirgün xan Qacara verilmişdir. 11 aprel 1635-ci ildə Səfəvi-Osmanlı müharibəsi (1623-1639) gedişində türk qoşunları İrəvan qalasını almışdır.

İrəvan qalası uğrunda döyüşlərdə 1804-cü ildə İrəvan xanı Məhəmməd xan və mühasirədə olan qardaşlarına köməyə gəlmişdir və geri çəkilməyə məcbur etmişdir.

1804-cü ilin iyun-avqustunda general P.Sisianov, 1808-ci ilin iyun-avqustunda isə general-feldmarşal İ.Qudoviçin komandanlığı altında çoxsaylı rus qoşunun İrəvan qalasını mühasirəyə alaraq ələ keçirmək cəhdləri boşa çıxmışdır. II Rusiya-Qacar müharibəsinin (1826-1828) gedişində İ.Paskeviçin komandanlığı altında rus qoşunları 1827-ci il oktyabr ayının 1-də İrəvan qalasını işğal etmişdir. Bundan sonra qala daxilində ermənilərin yerləşdirilməsi və yaşaması başlanmışdır. İrəvan qalasının işğal edilməsi şərəfinə 1827-ci il 8 noyabrda Sankt-Peterburqdakı Qış sarayının kilsəsində I Nikolayın iştirakı ilə dua mərasimi keçirilmişdir. İrəvan qalasını zəbt edən general İ. Paskeviçin titullarına isə "İrəvan qrafı" titulu da əlavə edilmişdir.

1853-cü ildə baş vermiş zəlzələ nəticəsində qala divarları ciddi zədələr almış, 1865-ci ildə qalanın ərazisi erməni Nerses Tahiryants gildiyası tərəfindən satın alınmışdır. 1880-ci illərdə Tahiryanlar qalanın şimal divarlarını dağıdaraq yerində konyak zavodu inşa edilmiş, 1930-cu illərdə qala divarları ermənilər tərəfindən tamamilə məhv edilmişdir.

Ədəbiyyat:

Nəcəfli, G. İrəvan xanlığı: İrəvan qalası - qəhrəmanlıq qalası / G.Nəcəfli; ideya müəl., layihə. rəhb., elmi red. və ön söz. müəl. Y.Mahmudov; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərb. Tarixçiləri İctimai Birliyi.– [Bakı]: [Azərb. Tarixçiləri İctimai Birliyi], [2018].– 47 s.

Qaliboğlu, E .Erməni vandalları İrəvan qalalarını necə yox ediblər?: Akademik Yaqub Mahmudov: "Ermənilər İrəvan bölgəsindəki bütün tarixi abidələrimizi dağıdıblar" / Elçin Qaliboğlu // Xalq Cəbhəsi.–2020.–19 mart.– S.13.

Muğanlı, N.Əfsanəvi İrəvan qalasınınsüqutunun sirri / Nurəddin Muğanlı // İki sahil.– 2020. 8 avqust.– S.24.

İnternetdə

https://az.wikipedia.org/wiki/%C4%B0r%C9%99van_qalas%C4%B1

https://iravan.preslib.az/irevan_qalasi.html

Gəncə Tarix Diyarşünaslıq Muzeyi - 100
(1924)



Əsası 1924-cü ildə qoyulmuş muzeyin yaradılmasında Gəncə seminariyasının bir qrup müəllim və tələbələrindən İ.Cəfərzadə, S.Seyidov, C.Rəfibəyov, F.Məlikov və başqaları fəal iştirak etmişlər.

İlk illərdə muzey 500-dən çox eksponatla diyarşünaslıq və kənd təsərrüfatı şöbələrindən ibarət olmuşdur. 1927-ci ildə Xanlarda mənşəcə alman olan Y.İ.Hümmel arxeoloji qazıntılar apardığı zaman tapılmış eksponatların bir hissəsini Göygöl (Xanlar) diyarşünaslıq muzeyinə təhvil vermiş, digər bir hissəsini isə öz vətəninə göndərməyə nail olmuşdur. 1954-cü ildə Əzizbəyov 260 ünvanına köçürülmüş N.Gəncəvi adına Ölkəşünaslıq muzeyi 7 böyük zaldan ibarət olmuş və 3 şöbəyə bölünmüşdür: Təbiətşünaslıq, İnqilabaqədərki dövr və Sovet dövrü.

1961-ci ildə Göygöl və Gəncə muzeyləri birləşdirilmiş, 1972-ci ildə vaxtilə Cavad xanın nəticələri Adil xan və İsmayıl xan Ziyadxanovların şəxsi mülkü olmuş, sovetlər dövründə müsadirə edilmiş binaya köçürülmüşdür.

2004-cü ildən etibarən birinci dərəcəli muzey statusu alan Muzeydə olan 30 mindən çox eksponat 18 salonda nümayiş etdirilir. Əsas fondunda 24785 eksponat vardır. Onlardan 4483 arxeologiya, 1648 ədədi etnoqrafiya, 392 rəssamlıq, 9 heykəltəraşlıq, 2753 fotoşəkil, 9259 sənəd, 3441 numizmatika, 1984 kitab, 816 ədədi isə vətənpərvərlik sahələrinə aiddir. 972 kv.m. sahəsi olan muzey salonları iki şöbədən ibarətdir: qədim dövr və müasir dövr şöbələri.

Qədim dövr şöbəsində Gəncə yaxınlığından tapılmış tunc təbərzin və onun düzəldilməsi üçün istifadə olunmuş daş qəlib, e. ə. II minilliyə aid boyu 2 m. 20 sm. olan qadın skleti və onunla bərabər basdırılmış bəzək və məişət əşyaları, VII əsrə aid olan Qafqaz Albaniyası hökmdarına məxsus qəbir üstü abidə saxlanılır.

Muzeyin qədim Gəncəyə aid ekspozisiya bölməsində XII əsrə aid üzərində "Atabəy Məhəmməd Cahan Pəhləvan" sözləri yazılmış Gilçıraq, Gəncədə buraxılmış mis pullar, saxsı su boruları, qədim sənətkarlıq nümunələri ilə yanaşı Gəncənin qədim qapısının fotoşəkli də nümayiş olunur. Dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş salonda, həmçinin XII əsrdə yaşamış şairlərdən Məhsəti Gəncəvi və Əbül-üla Gəncəvi barədə də məlumat verilir. Gəncə hökmdarı Cavad xan, şair Mirzə Şəfi Vazeh, Azərbaycan Xalq Cümhuriyyəti barədə materiallar Gəncənin nisbətən yaxın tarixini əks etdirir. Muzeyin ekspozisiyasına Qafqaz Albaniyası dövrünə aid gümüş qadın tacı, N.Gəncəvinin qəbrindən aşkarlanmış çıraqlar, Gəncə xalçaçılıq məktəbinə məxsus xalça nümunələri, müxtəlif dövrlərə aid sikkələr, zərgərlik nümunələri, Gəncə xanlığının bayrağı da daxildir.

Tarix-Diyarşünaslıq Muzeyində 2019-cu ilin noyabr ayının 8-dən Heydər Əliyev fondu tərəfindən maliyyələşdirilməklə təmir-bərpa işlərinəbaşlanılmış, Ölkə Prezidentinin 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi ilə əlaqədar imzaladığı sərəncam çərçivəsində bərpa işləri başa çatdırılaraq istifadəyə verilmişdir.

Ədəbiyyat:

Quliyeva, N. Gəncə misgərlik sənətinin XIX əsrin sonu – XX əsr mərhələsinin tədqiqində Gəncə dövlət tarix-diyarşünaslıq muzeyi eksponatlarının əhəmiyyəti / Nərgiz Quliyeva, Elnur Həsənov // "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu": II respublika elmi konfransının materialları.–Bakı, 2012.–S.114–117.

Xaçınçaylı, Q. Gəncədə qapının içində muzey tikilib: Gəncə Tarix-Diyarşünaslıq Muzeyi gələn il əsaslı təmir olunacaq / Qələndər Xaçınçaylı // Həftə içi.– 2014.– 1 oktyabr.– S.8.

Gəncə Tarix-Diyarşünaslıq Muzeyinin eksponatları bərpa olunub// Mədəniyyət.– 2020.–22 may.– S.4.

İnternetdə

https://az.wikipedia.org/wiki/G%C9%99nc%C9%99_Tarix-Diyar%C5%9F%C3%BCnasl%C4%B1q_Muzeyi

https://museum.az/az/museum/14

Qurban bayramı
(1992)



Bütün müsəlman aləmində Qurban bayramı hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Dini qurbankəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah (S.S.) İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr etmişdir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olmuş, İsmayıl özü də qurban olmağa razılaşmışdır.

Din tarixində dərin iz salmış bu hadisə Allaha imanın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. Belə ki, uca Allah bunu öz elçisinə rəva bilməmiş və qurbanlıq üçün ona bir qoç göndərmişdir. Buna görə də bu bayramda kəsilən qurbana "İsmayıl qurbanı" da demişlər.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Qurbanlıq qoçun yaşı ən azı altı aylıq heyvan olmalıdır. Qurban bayramında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Kəsiləcək qurbanlıq gözəgəlimli olmalıdır.

Qurbanlıq ət qurban kəsən özü də bərabər pay götürməklə kasıblara paylanır. Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar – Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə – dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Ədəbiyyat:

Bayramova, Y. Dini ənənələrə söykənən bayram-Qurban bayramı / Yeganə Bayramova // Yeni Azərbaycan.- 2023.- 24 iyun.- S.8.

Cavid. Qurban bayramı mənəvi birlik rəmzidir / Cavid //Xalq Cəbhəsi.– 2022.– 7 iyul.– S.13.

Bayramova, Z. Qurban bayramı Allaha sonsuz sevgi, dərin etiqaddır / Zümrüd Bayramova // Səs.–2022.– 9 iyul.– S.4.


Abdullayev, M. Birlik, qardaşlıq və xeyirxahlıq bayramı / Mübariz Abdullayev // Yeni Azərbaycan.– 2022.– 9 iyul.– S.4.

İnternetdə:

https://azerbaijan.az/related-information/75

https://www.trt.net.tr/azerbaycan/m-d-niyy-t-v-s-n-t/2023/06/28/qurban-bayrami-islam

Ramazan bayramı
(1992)



İslamın müqəddəs bayramları içərisində orucluq bayramı mühüm yer tutur. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər. İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani Kərim nazil olmuşdur.

Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Məhəmməd peyğəmbər buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar. Orucluq dövründə insan Allah-Təalanın əmrini yerinə yetirməsi üçün sübh azanından şam azanına qədər orucu pozan bir sıra əməllərdən uzaq durmalıdır. Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

Orucluğun başa çatdığı gün "Fitr bayramı" adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında fitrə zəkatı verməlidir.

Bayramda kasıblar və yoxsullar da sevinməlidir, onlar da yeni paltar geyərək bütün müsəlmanlarla bir yerdə namaza gəlməlidirlər. Məhz buna görə fitrə zəkatı buyurulmuşdur ki, yoxsul müsəlmanlar da bayramı keçirsinlər. Ramazan bayramının məqsədlərindən biri müsəlmanların toplanması və görüşməsidir. Bayramın başqa məqsədlərindən biri də, müsəlmanların bir-birini ziyarət etməsi, qohum əqrabalarla görüşməsi, əgər arada inciklik varsa barışması üçündür.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olunmuş, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişmişdir. Ramazan (Orucluq) bayramı Azərbaycanda Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən, 1993-cü ildən dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır.

Ədəbiyyat:

Mübarək Ramazan ayı // İqtisadiyyat.– 2023.– 20-26 aprel.– S.5.

Ələddinqızı, N. Birlik, xoş niyyətlər və xeyirxah əməllər rəmzi-Ramazan bayramı / Nəzakət Ələddinqızı // Səs.– 2023.– 21 aprel.– S.3.

Qəniyev, E. Ramazan humanizm və bərabərlik bayramıdır / Elşən Qəniyev // Azərbaycan.–2023.– 21 aprel.– S.16.

İnternetdə:

https://oxu.az/society/720461

https://www.azerbaijan-news.az/posts/detail/ramazan-bayrami-islam-dininin-en-elametdar-bayramidir-45322

Yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlərin və mühüm tarixi hadisələrin Əlifba göstəricisi

A

A.Şaiq adına uşaq kitabxanasının yaradılması (indi Nərimanov MKS-nin mərkəzi kitabxanası) 630
Abasquliyev Əhməd Əlibala oğlu 204
Abbasov Teymur Tofiq oğlu 10
Abbasov Zöhhak Yaqub oğlu 203
Abbaszadə Bayraməli Abbas oğlu 757
Abdinov Ovsat Bəhram oğlu 64, 114
Abdulla Qədiri 199, 209
Abdullayev Məmmədsadıq Məmmədağa oğlu 396, 442
Abdullayev Rasi Mahmud oğlu 392, 402
Abdullayev Rəsmi Əsəd oğlu 630, 678
Abdullayev Süleyman Cümşüd oğlu . . . 60, 74
Abdullayev Çingiz Akif oğlu 199, 206
Abdullayev Lütfəli Əmir oğlu 127, 147
Abıyev Aydın Müstəcəb oğlu 203, 256
Abramoviç Mixail Vladimiroviç 64
Abşeron yarımadasında “Qara daşlar” buruğunda ilk neft quyusu fontan vurmuşdur 631
Abutalıbov Hacıbala İbrahim oğlu . . . 271, 320
Adıgözəlov Yalçın Vasif oğlu 626, 638
Ağabəyli Ağaxan Ələsgər oğlu 701, 749
Ağahüseynova Minirə Məhəmməd Əli qızı 132, 188
Ağalarova Bahar Əmirəli qızı 758
Ağamirzəyev Ramiz Əlirza oğlu 335, 379
Ağaoğlu Səməd Əhməd bəy oğlu 199
Ağasiyev Ceyhun Fikrət oğlu 514
Ağayev Elxan Ağabala oğlu 335
Ağayev Oqtay Cəfər oğlu 626
Ağayeva Xuraman Telman qızı 65, 118
Ağayeva-Zamanova Zivər Sübhan qızı . . . 757
Ağayev Əhməd bəy Mirzə Həsən oğlu 758
Ağcabədi rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1934) 760
Ağcabədi rayon MKS yaradılmışdır (1974) 760
Ağdam rayon MKS yaradılmışdır (1979) 760, 781
Ağdam Sənaye Parkının yaradılması haqqında fərman imzalanmışdır 272
Ağdam Şəhəri Günü 632, 691
Ağdamski (Bədəlbəyli) Əhməd Bəşir oğlu 6, 17
Ağdamski Məmməd Əhməd oğlu 571
“Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalanmışdır 205
Ağsu rayon MKS yaradılmışdır (1979) . . . 760
Axmatova (Qorenko) Anna Andreyevna . . 332
Axundov Ədalət Yavuz oğlu 336
Axundov Nazim Yusif oğlu 132
Axundova Alla Nuru qızı 568, 575
Axundova Asya Mahmud qızı 701
Axundova Nərgiz Çingiz qızı 452, 492
Axundova Şəfiqə Qulam qızı 6, 18
Axundzadə Xosrov Mirzə Əli oğlu 395
Axundzadə İdris Məmmədhüseyn oğlu 630
Axundov Məzahir Həmzə oğlu 757
Axundov Nazim Fərrux oğlu 335, 378
Aleksandr Sergeyeviç Puşkin 266
Alışanov Hüseyn Həsən oğlu 332
Allahverdi Kosacanlı 757
Allahverdiyev Cəlal Eyvaz oğlu 514
Allahverdiyev Kərim Rəhim oğlu 204, 257
Allahverdiyev Mədət Mustafa oğlu 699
Allahverdiyev Müseyib Abdulla oğlu 269
Altıağac Parkı yaradılmasının 20 illiyi 454, 508
Amerika astronavtlarının Ayın səthinə enmələrinin 55 illiyi 396
Anarlı (Məmmədov) Əbülhəsən 267
Anım Günü 515, 566

Aprel döyüşləri və ya dördgünlük müharibə 204, 260
Araslı Dürdanə Həmid qızı 336
Araslı Həmid Məmmədtağı oğlu 63
“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Fərman imzalamışdır 573
Aslanov Elçin Muxtar oğlu 6, 16
Aslanova Çimnaz Əbdüləli qızı 758
Aslanova Sona Şahnəzər qızı 568, 578
Aslanov Məmməd Muxtar oğlu (Məmməd Aslan) 696, 705
Astara rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1939) 760, 780
Aşıq Hüseynli Məhərrəm Hüseyn oğlu 392
Aşıq Qədirov Bəylər Hacı Rəşid oğlu 266, 277
Atakişiyev Hüseynağa Ağahüseyn oğlu 510, 521
Atayev Məmmədşah Qədim oğlu 700
VI Ümumazərbaycan Sovetlər qurultayının qərarı ilə Azərbaycanda yeni ərazi-inzibati vahidlər dairələr yaranmışdır 204
Avropa Birliyi ilə Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq sazişi qüvvəyə minmişdir 337
Avropa İttifaqının İnsan Alverinə qarşı mübarizə Günü... 702
Avropa Şurası Parlament Assambleyası Azərbaycan-Ermənistan cəbhəsində atəşkəsin əldə edilməsi ilə bağlı 1047 saylı qətnaməni qəbul etmişdir 631
Avşarov Muxtar Həsən oğlu 61, 81
Avtomobil yol işçilərinin Peşə Bayramı Günü 65
Azərbaycan Bayrağı Günü 631, 685
Azərbaycan Bəstəkarlar İttifaqının yaradılmasının 90 illiyi 337, 390
Azərbaycan Çad və Şərqi Timor dövlətləri ilə diplomatik münasibətlər qurmuşdur 204
Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (keçmiş ADNA) terror hadisəsinin (30.04.2009) 15-ci ildönümü 205, 264
Azərbaycan Dövlət Pantomima Teatrının yaradılmasının 30 illiyi 272, 328
Azərbaycan Dövlət Yuğ Teatrının yaradılması 573
Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü 454, 504
Azərbaycan Hərbi Hava Qüvvələri Günü . . . 65
Azərbaycan Xalq Cümhuriyyəti dövründə Mətbuat haqqında Nizamnamə qəbul edilmişdir 573
Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə Əlifba islahatı komissiyası yaradılmışdır . . 133
Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən Bakı Dövlət Universiteti təsis edilməsi 514
Azərbaycan İstiqlal Muzeyinin yaradılması … 701
Azərbaycan Kinosu Günü 454, 505
Azərbaycan Latviya və Slovakiya ilə diplomatik münasibətlər qurmuşdur 10
“Azərbaycan məktəbi” aylıq pedaqoji jurnal nəşrə başlamışdır (1924) 761
Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəqlinə dair dövlətlərarası sazişin imzalanması 632
Azərbaycan parlamenti Hərbi məhkəmənin və alay məhkəmələrinin yaradılması haqqında qanun vermişdir 204
Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncam 10
Azərbaycan Polisi Günü 396
Azərbaycan Respublikası Ekvador ilə diplomatik əlaqələr qurmuşdur 133
Azərbaycan Respublikası Əlcəzair ilə diplomatik əlaqələr qurmuşdur 205
Azərbaycan Respublikası Honduras ilə diplomatik münasibətlər qurmuşdur 702
Azərbaycan Respublikası ilə Çili arasında diplomatik münasibətlər qurulmuşdur. 631
Azərbaycan Respublikası ilə Əfqanıstan arasında diplomatik münasibətlər qurulmuşdur 631
Azərbaycan Respublikası ilə Qvatemala arasında diplomatik münasibətlər qurulmuşdur 631
Azərbaycan Respublikası ilə Malavi dövləti arasında diplomatik münasibətlər qurulmuşdur. 272
Azərbaycan Respublikası ilə Nikaraqua arasında diplomatik münasibətlər qurulmuşdur 632
Azərbaycan Respublikası Keniya ilə diplomatik əlaqələr qurmuşdur. 272

Azərbaycan Respublikası Kolumbiya ilə diplomatik münasibətlər qurmuşdur … 701
Azərbaycan Respublikası Mavritaniya ilə diplomatik əlaqələr qurmuşdur 573
Azərbaycan Respublikası Paraqvay ilə diplomatik əlaqələr qurmuşdur 205
Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdır 397
Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam 11
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası 65
Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı olan “Azərbaycan müəllimi” qəzeti nəşrə başlaması 515, 560
Azərbaycan Respublikasında “Bilik günü”nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidenti fərman imzalamışdır 454
Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır 396
“Azərbaycan Respublikasının dövlət dili haqqında” qanun 10, 54
Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) yaradılması 702
Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmışdır 396
“Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendumu keçirilmişdir 133
Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti 65
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması 10, 53
Azərbaycan SSRİ-də latın qrafikasından kiril qrafikalı əlifbaya keçilmişdir (1939) 761
Azərbaycan SSRİ-nin Ali Soveti “Azərbaycan SSRİ-nin dövlət suverenliyi haqqında” Konstitusiya aktını qəbul etmişdir … 515
Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda 44 gündür davam edən döyüşlərin dayandırılması barədə bəyanat imzalamışdır 631
Azərbaycanda ərəb əlifbasından latın qrafikalı əlifbaya keçid başlanmışdır 10
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü 454
Azərbaycanda ilk Dövlət Bankının yaradılması 132
Azərbaycanda ilk Milli Təhlükəsizlik Orqanının yaradılması 133
Azərbaycanda İnsan Hüquqları Günü . 337, 388
Azərbaycanda Kitabxana işinin inkişafı Assosiasiyasının yaradılmasının 25 illiyi 336, 386
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü 336
Azərbaycanda Nobel Qardaşları şirkətinin yaradılması 133
Azərbaycanda Tibb İşçilərinin Peşə Bayramı Günü 337
“Azərbaycanfilm”də yaradılmış multiplikasiya sexində birhissəli rəngli “Cırtdan” cizgi filmi çəkilməsinin (1969) 55 illiyi 761
Azərbaycanın BMT-yə qəbul olunması günü 132
Azərbaycanın ən qədim rəsədxanası - Marağa rəsədxanasının (1259) inşa edilməsinin 765 illiyi 760
Azərbaycanla Küveyt arasında diplomatik münasibətlər qurulmuşdur 573
Azərbaycanla Qətər dövləti arasında diplomatik əlaqələr qurulmuşdur 515
Azərbaycanla Vatikan dövləti arasında diplomatik münasibətlər qurulmuşdur 10
Azərbaycanlıların soyqırımı günü 133, 197
“AzInTelecom” MMC 132

B

Babaxanov Rauf Əliməmməd oğlu ... .701
Babayev Abdulla Murtuz oğlu 199, 210
Babayev Arif Əliheydər oğlu … 630, 679
Babayev Əkbər Ağarza oğlu 395, 437
Babayev Sabir Həbib oğlu 572
Babayev Şıxəli Əlikram oğlu … 630
Babayev Nəbi Ələkbər oğlu 696, 703
Bağırov Bağır İbrahimxəlil oğlu 452
Bağırov Mikayıl Kazım oğlu … 630, 677

Baxşəliyev Rza İbrahim oğlu 131
Baxşəliyeva Gövhər Ağabala qızı . . ….630, 676
Bajan Mikolo Platonoviç 568
Bakı Dövlət Universitetinin Elmi kitabxanası yaradılmışdır (1919) 759, 777
Bakı metropoliteni işçilərinin peşə bayramı günü 631
Bakı metrosunun “28 May” və “Gənclik” stansiyaları arasında qatarda partlayış törədilməinin 30 illiyi 396, 444
Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti yaradılması 632, 692
Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır …. 701
Bakıda Atatürk Mərkəzinin açılışı olmuşdur 204
Bakıda Hərbi Qənimətlər Parkı açılmışdır . 204
Bakıxanov Abbasqulu Mirzə Məhəmməd oğlu 332, 342
Bakıxanov Cəfərqulu ağa Mirzə Məhəmməd xan oğlu 571
Balakən rayon MKS yaradılmışdır (1979) . 760
Balayev Məmmədəli Bəşir oğlu 7, 20
Barxalov Barxal Şaban oğlu 271
Bartold Vasili Vladimiroviç 626
Bayramov Adilxan Hüseynəli oğlu 63
Bayramov Qurban Məmməd oğlu … 513
Bayramova Gülarə Əşrəf qızı 131
Bayramov Tofiq Qulam oğlu (Tofiq Bayram) 696
Behrəngi Səməd İzzət oğlu 332
Beqdeli Qulamhüseyn Fətulla xan oğlu . . . 130
Berdibek Sokpakbayev. 568
“Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında Sərəncam imzalanmışdır 337
Beyləqan rayonu 11
Beynəlxalq Azərbaycan Muğamı Günü 454, 507
Beynəlxalq Bioloji Müxtəliflik Günü 272
Beynəlxalq Caz Günü 205
Beynəlxalq Dağlar Günü …. 701
Beynəlxalq Dəniz Günü…. 515
Beynəlxalq Ekoloji Bilik Günü 204
Beynəlxalq Elektronrabitə Günü 272
Beynəlxalq Əqli Mülkiyyət Günü 205
Beynəlxalq Gözdən Əlillər Günü 631
Beynəlxalq Günəş Günü 271
Beynəlxalq Heyvanları Müdafiə Günü 573
Beynəlxalq Humanitar Yardım Günü 454
Beynəlxalq İdman Jurnalistləri Günü 396
Beynəlxalq İqlim Günü 271, 327
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 632
Beynəlxalq İnsan Hüquqları Günü …. 701, 752
Beynəlxalq Kimsəsiz Heyvanlar Günü 454
Beynəlxalq Kino Günü … 702, 754
Beynəlxalq Kitab Bağışlama Günü 65, 122
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü 205
Beynəlxalq Könüllülər Günü…. 701
Beynəlxalq Kulinariya Günü 573
Beynəlxalq Qan Donoru Günü 337
Beynəlxalq Qeyri-zorakılıq Günü 572
Beynəlxalq Quşlar Günü 204
Beynəlxalq Lal-Karlar Günü …. 515
Beynəlxalq Musiqi Günü 572, 617
Beynəlxalq Mübarizə Günü 133
Beynəlxalq Müəllim Günü 573, 620
Beynəlxalq Olimpiya Komitəsinin yaradılmasının 130 illiyi 337
Beynəlxalq Olimpiya Qaçış Günü 337
Beynəlxalq Poeziya Günü 133, 194
Beynəlxalq Rəqs Günü 205
Beynəlxalq Sülh Günü … 515
Beynəlxalq Şahmat Günü 396, 446
Beynəlxalq Teatr Günü 133, 195
Beynəlxalq Təbii Fəlakətlərdən Qorunma Günü 573
Beynəlxalq Təcavüzə Məruz Qalmış Uşaqlar Günü 336
Beynəlxalq Təhlükəsiz İnternet Günü 65
Beynəlxalq Tərcüməçilər Günü 515
Beynəlxalq Tolerantlıq Günü 631, 687
Beynəlxalq Turizm Günü … 515, 565
Beynəlxalq Uşaq Kitabı Günü 204, 259
Beynəlxalq Valyuta Fondunun əsası qoyulmuşdur 396
Bədən Tərbiyəsi və İdman Günü 132
Bəhlulzadə Səttar Bəhlul oğlu 696, 710
Bərdə Rayon Mərkəzi kitabxanası yaradılmışdır (1954) 760
Bərdə terroru. 573
Bibiheybət qəsəbə Kütləvi Kitabxanası

yaradılmışdır 1934 760
Bilik Günü 515, 561
I Dünya müharibəsinin başlanmasının 110 illiyi 397
I Ümumazərbaycan diyarşünaslıq qurultayı keçirilmişdir … 515
Birləşmiş Millətlər Təşkilatı Günü 573
Budaqova Zərifə İsmayıl qızı 203
Bünyadzadə Ülvi Yusif oğlu … 510
Bürcəliyev Məmməd İsmayıl oğlu . . . 200, 223
Berns Robert 6
Beynəlxalq Ahıllar Günü 572
Beynəlxalq Ailə Günü 271, 327
Beynəlxalq Ana Dili Günü 65, 123
Beynəlxalq Əlillər Günü … 701, 751
Beynəlxalq Gənclər Günü 454
Beynəlxalq Qadınlar Günü 132, 191
Beynəlxalq Muzeylər Günü 272, 329
Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü 271

C

C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin yaradılması 632, 693
Cabbarlı Cəfər Qafar oğlu 126
Cahangirzadə İbrahim bəy Cahangir oğlu 758, 773
Cavadov Ağahüseyn Xəlil oğlu 200, 222
Cavadov Mais Həbib oğlu 131
Cavadova Həqiqət Əliəşrəf qızı 572
Cavadova Nabat Paşa qızı 757
Cavadzadə Əli Qulu oğlu 6, 13
Cavadov Cəlal Novruz oğlu 332
Cavid Ərtoğrul Hüseyn Cavid oğlu Rasizadə .... .568, 579
Cəbrayıl Şəhəri Günü 573, 619
Cəfərov Cəfər Haşım oğlu 513, 548
Cəfərov Əliağa Qafar oğlu 271, 323
Cəfərov Təyyar Cümşüd oğlu 396, 441
Cəfərov Vaqif Cəfər oğlu 203
Cəfərova Bəsti Əli qızı 333, 348
Cəfərzadə Əhməd İsmayıl oğlu 203
Cəfərzadə Rza Rüstəm oğlu 267
Cəfərov Məmməd Zeynalabdin oğlu . 270, 315
Cəfərov Nizami Qulu oğlu 513, 553
Cəlilova Roza İsmayıl qızı 267, 281
Cəmilov Adil Savalan oğlu (Adil Cəmil) 571, 608

Ç

Çar I Pyotr erməni əhalisinin Xəzəryanı bölgələrə yerləşdirilməsi barədə fərman vermişdir 631

D

Dadaşov Məlik Yusif oğlu 333, 347
Dadaşzadə Məmməd Arif Məhərrəm oğlu 335, 376
Daxili Qoşunlar Günü 132
Dəmir yolu işçilərinin peşə bayramı günü 573
Dəmirçizadə Əbdüləzəl Məmməd oğlu . . . 395
Dənizçilərin Peşə Bayramı Günü 337
Dilbazi Əminə Paşa qızı 696
Diyarova Hüsniyyə Ağayar qızı 701
DQMV-də XİK ləğv edilmiş, Azərbaycan SSR-in Təşkilat Komitəsi yaradılmışdır 632
Dmitri Mendeleyev kimyəvi elementlərin onların atom çəkisinə və kimyəvi uyğunluqlarına görə dövri cədvəlini tərtib etmişdir 132
Dostəliyeva Nazpəri Əhmədəli qızı 696, 713
Dövlət Qulluqçularının Peşə Bayramı 337
Dövlət Müstəqilliyin Bərpası Günü 573, 622
Dövlət Sərhəd Xidmətinin Azərbaycanın şərqində yerləşən Səngəçal aerodromundan qalxan Mi 17 hərbi helikopterinin qəzaya uğraması nəticəsində baş verən, 14 nəfərin ölümü, 2 nəfərin yaralanması ilə nəticələnən Qaraheybət faciəsi 632
Dövlət Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü 454
Dünya Autizm Məlumatlandırma Günü 204, 261
Dünya Azərbaycanlılarının Həmrəylik Günü 702, 755
Dünya Ekoloji Təhsil Günü 11, 58
Dünya Elektron Kitabxanası saytının rəsmi açılışı olmuşdur 205
Dünya Fəlsəfə Günü 632
Dünya İncəsənət Günü 204
Dünya Qoruqları və Milli Parklar Günü . 10, 55
Dovjenko Aleksandr Petroviç 510

E

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü 272
Eldəgizlər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın hakimiyyətə gəlməsi ... 204
Elm Günü 133, 196
Emmanuel Nobel 336
Energetiklər günü 573
Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi deportasiya dilməsinə başlanmışdır 10, 57
Ermənistanın xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı metropoliteninin "20 Yanvar" stansiyasında terror aktı törədilmişdir 133
Esambayev Mahmud Əlisoltanoviç .. 392, 403
Eynşteyn Albert 132

Ə

Əbdülhəlimov Hikmət Əhməd oğlu .. 392, 399
Əbilova Güllü Əbil qızı 513, 546
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü 632
Əfəndiyev Fuad Ələddin oğlu 64
Əfəndiyev Süleyman bəy Əlisüleyman oğlu 571
Əfəndiyev Hikmət Ziya oğlu 266
Əfəndiyev İlyas Məhəmməd oğlu 266, 276
Əfəndiyeva Türkan Əşrəf qızı 130, 184
Əhmədov Elbrus Misir oğlu 453, 497
Əhmədov İlham Namiq Kamal oğlu 7, 19
Əhmədov Mayıl Hilal oğlu 572, 614
Əhmədova Flora Cəfər qızı 699, 740
Əhmədov Yusif Yaqub oğlu 60
Əhvədi Marağayi 758, 774
Əjdərov Təhmasib Hüseyn oğlu 203, 255
Əkbərov Surxay Cabbar oğlu 64, 111
Əkbərov Məhəmməd Həmzə oğlu 266
Ələkbərli Məmməd Həmid oğlu 759
Ələkbərov Kazım Əbdülmanaf oğlu 64
Ələkbərzadə Əbülhəsən Əlibala oğlu . 126, 134
Ələsgərov Bəybala Aydabala oğlu ... 271, 322
Ələsgərov Fuad Murtuz oğlu 270, 312
Ələsgərova Şamama Məmmədkərim qızı .. 132
Ələsgərov Süleyman Əyyub oğlu 61, 75
Əlibəyova Xədicə Ələddin qızı 759
Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü 271
Əliverdibəyov Kazım Ağalar oğlu 626, 641
Əliyev Adil Abış oğlu 513
Əliyev Ələkbər Fərəculla oğlu 758
Əliyev Fikrət Əhmədəli oğlu 453, 500
Əliyev Gülbala Ağabala oğlu 701
Əliyev Hüseynqulu Əli oğlu 60, 69
Əliyev İsfəndiyar Maqsud oğlu 453
Əliyev Maqsud İsfəndiyar oğlu 453, 502
Əliyev Rafiq Hacıbaba oğlu 627, 644
Əliyev Rasim Həsən oğlu 392, 401
Əliyev Saleh Məmməd oğlu 699, 742
Əliyev Vasif İsmayıl oğlu …. 630
Əliyeva Elmira Mirzə Ağa qızı 332, 344
Əliyeva Kübra Muxtar qızı 453, 496
Əliyeva Lətifə Cahandar qızı 392, 405
Əliyeva Mehriban Arif qızı 452, 487-489
Əliyev Çingiz Əli oğlu 332, 343
Əliyev Teymur Süleyman oğlu 126, 137
Əliyeva Dilarə Ələkbər qızı 699
Əlizadə Ağasəməd Əbdülhüseyn oğlu 132
Əlizadə Akif Ağa Mehdi oğlu 64, 112
Əlizadə Məmməd (Məhəmməd) Əli oğlu .. 758
Əmənzadə Yusif Əmən oğlu 64
Əsədov Yusif Qəzənfər oğlu 700, 747
Əsədullayev Seyfulla Qüdrət oğlu ... 335, 377
Əsgərov Ramiz Baxşəli oğlu 9, 49
Əsgərov Şamil Səlim oğlu 757
Əsgərov Vasif Fətulla oğlu 204
Əsgərova Roza Qasım qızı 453
Əsgərov Əfqan Hacıağa oğlu 510
Əsgərov Salman Məmmədəmin oğlu . 270, 317
"Əsrin müqaviləsi"nin imzalanması.... 515, 564
Əta Tərzibaşı Ömər oğlu 626, 635
Əyyubova Amaliya Abdulla qızı 132
Əzizbəyova Püstə Əzizağa qızı 699, 742

F

Faşizm üzərində Qələbə Günü 271, 325
Feyzullayeva Aida Hənifə qızı 630
Feyxtvanger Lion 392, 400
Fəxrəddin Kərimov 332, 346
Fərhadova Gülarə Məmmədtağı qızı 572
Fərzəlibəyov Mərahim Fərzəli oğlu .. 333, 349
Fərzəliyev Vaqif Məcid oğlu ... .700, 748

Fərzəliyev Şamil Xurşud oğlu 60
Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı təsis edilmişdir 65
Fövqəladə Hallar Nazirliyi İşçilərinin Peşə Bayramı Günü 702
Fransua-Mari Aruenin (Volter) … 626
Füzuli şəhəri günü 573, 621

G

Gəncə şəhər Mərkəzi Kitabxanası yaradılmışdır (1934) 760, 779
Gəncə şəhərinin tarixi adının bərpa olunması … 702
Gəncə terroru 573
Gəncədə güclü zəlzələ baş vermişdir … 515
Gənclər Günü 65, 119
Gömrük İşçiləri Günü 11
Göygöl şəhəri (indiki Göygöl rayonu) alman kolonistləri tərəfindən Yelenendorf (alm. Helenendorf) adı altında salınmışdır 205
Göy-gölün yaranmasının 885 illiyi . . . 760, 782
Gül Qasım Kazım oğlu (Ağaqasım Kazım oğlu Güləhmədov) .... .700

H

Hacıbəyli Zülfüqar Əbdülhüseyn oğlu 199, 217
Hacıbəyov İsmayıl Soltan oğlu... . . . .. 510, 520
Hacıbəyov Soltan İsmayıl oğlu 267
Hacıqabul rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1939) 760
Hacınski Mehdi bəy Süleyman oğlu 270
Hacıyev Dəmir Vahid oğlu 10
Hacıyev Əmir Səhliəli oğlu 267
Haqverdiyeva Tahirə Həbib qızı 271
Haşımova Ceyran Əsəd qızı 126, 141
Hepatit virusu kəşf edilmişdir 573
Heydər Əliyev Fondunun yaradılmasının 20 illiyi 271, 326
Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi seçilməsinin 55 illiyi 396, 445
Heydərov Arif Əmrah oğlu 396, 443
Heydərzadə (Vəlixanlı) Məmmədəli Hacı Heydər oğlu 127
Həbibbəyli İsa Əkbər oğlu 571, 611
Həkimov Mürsəl İsmayıl oğlu 270
Həmid Alimcan 696, 709
Həsənov Əşrəf Həsən oğlu 6
Həsənov Vaqif İbrahim oğlu 568, 580
Həşimov Arif Məmməd oğlu 514, 557
Hikmet Akif Mapolar 510
Hirkan Milli Parkı 65
Höte İohann Volfqanq 449, 455
Hüseynov Çingiz Həsən oğlu 199
Hüseynov Dadaş Ağa-Cavad oğlu 700, 745
Hüseynov Emil Kamil oğlu 131
Hüseynov Hacıbaba Hüseynəli oğlu 126
Hüseynov Həsən Əhməd oğlu 514, 555
Hüseynov Nazim Qalib oğlu 453, 499
Hüseynov Rafael Baba oğlu 453, 498
Hüseynov Rəhim Məşədi Allahverdi oğlu 701
Hüseynov Şirməmməd Ağamməd oğlu 700, 743
Hüseynova Züleyxa İsmayıl qızı 270, 313
Hüseynzadə Hüseyn Camal oğlu 332, 340
Hüseynzadə Əli bəy Molla Hüseyn oğlu 64, 110
Hüseynov Mehdi Əli oğlu 126
Heminquey Ernest Miller 392

X

X.Natəvan adına uşaq kitabxanası açılmışdır (1904) 759
Xaçmaz rayon Mərkəzi kitabxanası yaradılmışdır (1934) 760
Xalça bayramı 701
“Xalçaçı günü” peşə bayramı 271, 324
Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır 632
Xankəndi şəhərində təntənəli zəfər paradı keçirilmişdir 631
Xələfov Xələf Alı oğlu 513
Xələfova Sevda Abbasqulu qızı 453, 503
Xəlilov Elçin Nüsrət oğlu 203
Xəlilov Rahid Süleyman oğlu 452, 490
Xəlilov Şahvələd Binnət oğlu 571
Xəlilov Zeynal Rza oğlu 126, 135
Xəndan Rəfiq Zəka Cəfər oğlu 332, 341
Xəstə insanlara ilk dəfə olaraq süni qan köçürülmüşdür 632
Xətai MKS-nin Ş.İ.Xətai adına 1 saylı filial

kitabxanası açılmışdır (1984) 760
Xəzani Mir Mehdi Mir Həşim bəy oğlu . . . 758
Xəzər MKS-nin C.Cabbarlı adına Mərdəkan 7 saylı filial kitabxanası yaradılmışdır (1944) 760
Xızı rayon MKS yaradılmışdır (1994) 760
Xocalı rayonunun Quşçubaba kəndinin Baharlı kəndi adlandırılması haqqında qanun qəbul edilmişdir 632
Xocavənd rayonu işğaldan azad olundu … . 631
Xocavənd rayonunun Tsakuri kəndinin Hünərli kəndi adlandırılması haqqında qanun qəbul edilmişdir 632
Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında qanun qəbul edilmişdir 573
Xudiyev Nizami Manaf oğlu 203
Xuluflu Vəli Məmmədhüseyn oğlu . . . 270, 318
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü 454
Xocalı soyqırımı günü 65, 124

İ

“28 may” adına Zabrat qəsəbə uşaq kitabxanası açılmışdır (1924) 760
II Dünya müharibəsinin başlanması 514
İbrahimbəyova Rəna Fuad qızı 513, 551
İbrahimxəlilov İbrahimxəlil Şıxəhməd oğlu 131
İbrahimov Samir Həsən oğlu 271
İbrahimova Sevda Mirzə qızı 627, 642
İbrahimov Əjdər Mütəllim oğlu 200
İbrahimov Hüseyn Məhəmmədəli oğlu . . . 266
İmanquliyeva Aida Nəsir qızı 571, 609
İnsan Alverinə Qarşı Mübarizə Günü 397
İnşaatçılar Günü 204
İrəvan qalasının inşa edilməsinin (1504-1510) 520 illiyi 760, 783
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda 133
İsayev İbrahim İsa oğlu 64, 115
İsmayılov Hacı Məcid oğlu 7, 21
İsmayılov İsmayıl Ələsgər oğlu 266
İsmayılov Rafiz Rza oğlu 127, 148
İsmayılov Rauf Əbdüləli oğlu 700
İsmayılov Rüstəm Hacı Əli oğlu 396
İsmayılov Tofiq Hüseyn oğlu 200, 218
İsmayılova Svetlana Rəhim qızı 60
İsmayılov Məmməd Mürşüd oğlu (Məmməd İsmayıl) 626
İsrafilov İsrafil Ramazan oğlu 513, 550

J

Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü ... 515

K

Kazımi Pərviz Firidun oğlu.. . . . . .. 701, 750
Kazımov Məmməd İsrafil oğlu 266, 275
Kazımova Tamella Həsən qızı 336, 382
Kazımzadə Səməd Hacı Əhməd oğlu 6
Kəlbəcər Şəhəri Günü 632, 694
Kəmali Əli Əkbər oğlu 266
Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü 631
Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi yaradılmışdır 573
Kəngərli Məmmədqulu bəy Şefi ağa oğlu 758, 772
Kəngərli Ulduz Səttar oğlu 514, 556
Kərbəlayı Zeynalabdin Əbu Səid oğlu 757
Kərimi Siyavuş Əşrəf oğlu … 626, 639
Kərimova Qərinə Rəhim qızı 332, 345
Killigil Nuru Paşa 758
Köçərli Tofiq Qasım oğlu 63
Kuper Ceyms Fenimor 510
Konstitusiya Günü 631, 686

Q

Qacar Çingiz Oveys oğlu 336, 381
Qacar Xurşid 757
Qacar Seyfulla Mirzə Bəhmən Mirzə oğlu . 130
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü 632
Qafarova Elmira Mikayıl qızı 130, 180
Qax rayon Mərkəzi kitabxanası yaradılmışdır (1979) 760
Qaqarin Yuri Alekseyeviç 132, 189
“Qarabağ Dirçəliş Fondu” 10
Qarabağda antiterror əməliyyatı 515, 563
Qarabağ iqtisadi rayonunun yaradılması barədə qərar qəbul edilmişdir 396
Qarakənd faciəsi 632, 689
Qaralov Zahid İbrahim oğlu 395, 435

Qasım bəy Əlibəy oğlu 757, 764
Qasımov Əbdül Hüseynəli oğlu 131
Qasımov Əbülfəz Əsədulla oğlu 452
Qasımov Ənvər Yusif oğlu 6
Qasımov Mayis Ələkbər oğlu 336
Qasımov Mirabbas Göycə oğlu 396
Qasımova Münəvvər Cavad qızı ... .700
Qasımova Nisə Fətulla qızı 60, 73
Qasımzadə Fuad Feyzulla oğlu 571
Qasımov Dəmir Müseyib oğlu 126, 136
Qasımov Tariyel İsgəndər oğlu 61, 78
Qayıbzadə Əsgər ağa Mirzə Nəbi Əfəndi oğlu
.. . . 571
Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı
Günü 337
Qəhrəmanlı Aslan Qəhrəman oğlu 510
Qəhrəmanlı Nazif Ələkbər oğlu 130
Qəhrəmanov Səfa Hüseyn oğlu 127, 143
Qəmbərov Salman Hüseyn oğlu 199, 216
Qızıl Aypara Günü 132
Qızılağac Dövlət Təbiət qoruğunun
yaradılmasının 95 illiyi 396
QİÇS-ə Qarşı Mübarizə Günü … 701
Qiyasbəyli Mədinə Mehdi ağa qızı 759
Qoqol Nikolay Vasilyeviç 126, 140
Qori seminariyasında Azərbaycan şöbəsinin
yaradılması haqqında qərarın qəbul olunması
… 515
Qoşqarlı Oruc Hüseyn oğlu 449
Qubadlı şəhəri günü 573, 624
Quliyev Əyyub Salah oğlu 336, 380
Quliyev Qabil Əzizulla oğlu 200, 219
Quliyev Məmməd Allahverdi oğlu . . . 127, 144
Quliyev Piri Dostməmməd oğlu 130
Quliyev Tacəddin Fərhad oğlu … 514, 559
Quliyeva Xurşid Cəmil qızı 701
Quliyeva Qəndab Həbib qızı 449
Quluzadə Məmmədpaşa Piri oğlu 514, 554
Qurban bayramı 761, 785
Qurbanlı Mübariz Qəhrəman oğlu 9, 45
Qurbanov Fazil Səməd oğlu 64, 116
Qurbanov Ramiz Seyfulla oğlu 572, 616
Qurbanov Teyyub Yarməmməd oğlu (Teyyub
Qurban) 696, 704
Qurbanova Solmaz Cəbrayıl qızı 627, 643
Qurbanov Afad Məhəmməd oğlu 9, 50
Qurbanov Şamil Dünyamalı oğlu 270, 316
Qolikov Arkadi Petroviç 60, 68

L

Laçın rayon MKS yaradılmışdır (1979) . . . 760
Laçın rayonu işğaldan azad olundu! 701
Ləmbəranski Əliş Cəmil oğlu 271
Lənkəran rayon MKS yaradılmışdır 10
Lermontov Mixail Yuryeviç 568, 576
Lessinq (Qothold Efraim) 6
Leonidze Georgi Nikolayeviç 6
Leonov Leonid Maksimoviç 266

M

M.Dilbazi adına Sabunçu qəsəbə uşaq
kitabxanası açılmışdır (1919) 759
M.Ə.Sabir adına Mərkəzi şəhər kitabxanası
açılmışdır (1919) 760
M.Qorki adına Mərkəzi şəhər Səyyar Kitabxana
açılmışdır (1924) 760, 778
M.Seyidzadə adına mərkəzi şəhər uşaq
kitabxanası açılmışdır (1889) 759
Mahmudbəyov Həbib bəy Hacı İbrahimxəlil bəy
oğlu 395, 440
Mahmudbəyov Şamil Fərəməz oğlu 696, 714
Mahmudov Rəşad Məmmədqulu oğlu . . 10, 51
Mahmudov Yaqub Mikayıl oğlu 63, 107
Mahmudova Ceyran Emin qızı 395, 439
Mahmudova Fatma Yaqub qızı 697, 715
Mahmudov Tofiq Cavad oğlu 392, 398
Makovelski Aleksandr Osipoviç 395, 436
Masallı rayon Mərkəzi Kitabxanası yaradılmışdır
(1924) 760
Mehdiyev Arif Şəfaət oğlu 700, 746
Mehdiyev Soltan Cəfər oğlu 700
Mehmandarov Əbdülkərim (Kərim) bəy Mirzə
Mustafa bəy oğlu ... .700
Mehmet Raşit Öğütçünün (Orxan
Kamal).. . . . . .. 510, 518
Mehrəliyeva Nailə Müzəffər qızı 65, 118
Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma
Mərkəzi (MEMİM) – Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyinin strukturuna daxil
olan elmi-metodiki və ixtisasartırma təşkilatı
yaradılmışdır (1939) 761

Mədətzadə Əliabbas Abbasqulu oğlu 759
Məhəmməd Füzuli ibn Süleyman 757, 763
Məhəmməd Hacı Əbdülsəlimzadə Hadi . . 757
Məhəmməd Məşədi Xəlil oğlu 392, 404
Məhərrəmov Firudin Əlməmməd oğlu 267, 285
Məhərrəmov İdris Şirin oğlu 757, 767
Məhtumkulu Fəraqi 757, 768
Məlikaslanov Xudadat bəy Ağa oğlu 758
Məlikov Süleyman Dadaş oğlu 759
Məlikzadə İsi Abbas oğlu 266, 273
Məlikova Məsumə Fazil qızı 630, 675
Məmmədbəyova Leyla Ələsgər qızı 514
Məmmədquliyev Mahmud Əhməd oğlu 63, 105
Məmmədquluzadə Cəlil Məmmədqulu oğlu 60, 67
Məmmədli (Məmmədov) Nadir Baloğlan oğlu 513, 552
Məmmədov Adil Əli oğlu 699, 741
Məmmədov Alxan Bayram oğlu.... 571, 612
Məmmədov Aydın İsrafil oğlu 130
Məmmədov Ədalət Aydın oğlu 453
Məmmədov İbrahim Əhməd oğlu 697
Məmmədov İsmayıl Məmməd Rəhim oğlu 269
Məmmədov Qulam Kərim oğlu 759
Məmmədov Maqsud Davud oğlu 267, 282
Məmmədov Şirəli Nəsir oğlu (Nəsirzadə) 700
Məmmədov Tariyel Aydın oğlu 61, 77
Məmmədov Tofiq Qambay oğlu 453
Məmmədov Tofiq Səfərəli oğlu 204
Məmmədov Vaqif Əhməd oğlu 572
Məmmədova Nəzakət Əli qızı 61, 76
Məmmədova Svetlana Həmid qızı 700
Məmmədyarov Məhərrəm Əli oğlu 572, 613
Məmmədov Aydın Mirsaleh oğlu 10
Məmmədov Xeyrulla Qulam oğlu . . . 453, 495
Mərdanov Mustafa Haşım oğlu 61, 82
Məsimov Baba Vəzir oğlu 6, 12
Mikayılov Şəmistan Abdu oğlu 571
Miqrasiya orqanları işçilərinin peşə bayramı günü 133
“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir . 337
Milli Dirçəliş Günü 631, 688
Milli Qurtuluş Günü 337, 387
Milli Məclis “Xocalı soyqırımı günü haqqında” qərar 65
Milli Mətbuat və Jurnalistika Günü . . 396, 447
Milli Musiqi Günü (Üzeyir Musiqi Günü).. . . . . 515, 562
Milli Silahlı Qüvvələr Günü 337, 389
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü 133
Milli Teatr Günü 132, 192
Mingəçevir Su Elektrik Stansiyası (SES) 65, 120
Mirişli Mir Cəfər Miriş ağa oğlu 759
Mirişli Ramiz Aqil oğlu 199, 215
Mirqasımov Mirələsgər Mirəsədulla oğlu 60, 70
Mirzalıyev Xaspolad Salman oğlu 266
Mirzə Şəfi Vazeh 757, 765
Mirzəliyeva Məhəbbət Mirzəxan qızı 571
Mirzəyev Ağalar Həmzə oğlu (Ağalar Mirzə) 696, 707
Mirzəyev Arif Abdulla oğlu 199, 213
Mirzəzadə Qafur Ələkbər oğlu 758, 776
Mirzəzadə Sirus Yədulla oğlu 6, 15
Muxtarova Əsməd İmamməmməd qızı 203, 254
Muradxanov Mərdan Əsədulla bəy oğlu . . . 759
Muradov Murad bəy Məmmədrza bəy oğlu 758, 769
Musayev Əlişir Veys oğlu 700
Musayev Qılman İsabala oğlu . . . . . 199 , 208
Mustafayev Teymur Ağaxan oğlu 199, 212
Mustafayeva Güllü Hacı Naim Mustafa qızı … 626
Mustafazadə Tofiq Teyyub oğlu 335, 374
Müdafiə Sənayesi Nazirliyi İşçilərinin Peşə Bayramı Günü 702
Müfidzadə Cəmil Mir Yusif oğlu 60, 71
Müharibə və Hərbi Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısını alma Günü 631
Müslümov Möhlət Xanəli oğlu 449, 456
Müstəqillik Gününün dövlət bayramı kimi qeyd edilməsi 272, 330
Mütəllibov Tofiq Mütəllim oğlu 199
Mütəllimova Firəngiz Bəhər qızı 267, 284
Mehdiyev Famil Ağalar oğlu(Famil Mehdi) 696, 706
Mehdizadə Abbasqulu Əlabbas oğlu . 266, 274
Mendeleyev Dmitri İvanoviç 64

N

N.Gəncəvi adına Gəncə Tarix Diyarşünaslıq Muzeyinin əsası (1924) qoyulmuşdur . 761, 784

N.Hikmət adına uşaq kitabxanası açılmışdır (1924) 760
N.Nərimanovun Bakıda ilk ictimai kitabxana-qiraətxana açmasının 130 illiyi 454
Nadirov Asəf Abbasqulu oğlu 130, 182
Naxçıvan Dövlət Kukla Teatrının yaranması 515
Naxçıvan MR 65, 121
Naxçıvan MR Kəngərli rayon MKS-nin yaradılması.. 631
Naxçıvan MR-da Kəngərli rayonu yaradılmışdır 133
Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən blokadaya alınmasına başlanılmışdır 397
Naxçıvanski İsmayıl xan Ehsan xan oğlu 9
Napoleon Bonapart 452
Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü 337
Neftçala rayonunda ilk kitabxana, Xıllı qəsəbə kitabxanası yaradılmışdır (1919) 759
Neftçilər Günü 515
Nemətova Məşədixanım Sədulla qızı 9, 48
Nemətzadə Əflatun Nemət oğlu 200, 224
Nəbi Alı oğlu (Qaçaq Nəbi) 758, 771
Nəcəfov Qəşəm Mirzə oğlu 199
Nəcəfzadə Kamil Nəcəf oğlu 696
Nəcib Fazil Qısakürək 266, 279
Nəhmədov Ənvər Pirverdi oğlu 453, 501
Nərimanov Bəhram Əhməd oğlu 270, 319
Nərimanova Zemfira Əli qızı 200, 221
Nəsibov Ədalət Məhəmmədəli oğlu 6, 14
Nəsirov Məmməd Yəhya oğlu 131, 187
Nəsrullayeva Həcər Məhəmməd qızı . 271, 321
Nəzirova Sara Mollaçı qızı (Sara Oğuz Nəzirova) 696, 708
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılması 631, 682
Nizami rayon MKS-nin mərkəzi kitabxanası yaradılmışdır (1959) 760
Novruz bayramı 133, 193
Novruzov Cahangir Mütəllib oğlu . . . 392, 406
Novruzova Zivər Ələkbər qızı 572
Nuriyev Əli Xudu oğlu 335, 375
Neruda Yan 392, 400

O

10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhərində həmin tarixdən Rusiya sülhməramlı qüvvələrinin mərkəzi qərargahı yerləşdirilmişdir.. 631
Onore de Balzak 266, 278
Ordubad rayon Mərkəzi kitabxanası yaradılmışdır (1924) 760
Orucova İzzət Mirzəağa qızı 514
Orucov Hidayət Xuduş oğlu 510, 516
Ostrovski Nikolay Alekseyeviç 510, 519

P

Parklara Yürüş Günü 205
Paşayev Arif Mir Cəlal oğlu 64, 113
Paşazadə Allahşükür Hümmət oğlu 452, 493, 494
Pənahov Qeylani Minhac oğlu 452, 491
Prokurorluq İşçiləri Günü 572
Popov Aleksandr Stepanoviç 132

R

Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü … 701
Rable Fransua 60
Ramazan bayramı 761, 786
Ramazanov Emin Ramazan oğlu 270
Ramazanova Elmira Məmmədəmin qızı 572, 615
Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı 65
Rəcəb Tayyib Ərdoğan 63, 106
Rəcəbov Aydın Məhəmməd-Ağa (Məmmədağa) oğlu 200, 225
Rəhimli İlham Əziz oğlu 513, 549
Rəhimov Sadıq Hacıyarəli oğlu 513, 545
Rəhimov Şəmsi Nuru oğlu 699, 740
Rəsulzadə Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu 9, 47
Rəsulzadə Natiq Rəsul oğlu 332, 339
Rəşad Nuri Güntəkin 626, 636
Rızayev Ramiz Həsən Qulu oğlu 630, 680
Rüstəm Məmməd İbrahim oğlu 60, 66
Rüstəmbəyova Fəridə Cəfər qızı 759
Rüstəmli Asif Heydər oğlu 63, 109

Rüstəmov Əmir Məmməd oğlu 699
Rzalı Oqtay Məhərrəm oğlu (Oqtay Rza) 626
Rzayev Əsəd Əhməd oğlu 757, 766
Rzayev İslam Tapdıq oğlu …. 626, 640
Rzayeva Münəvvər Məcid qızı 332
Rzayev Hüseyn Məmməd oğlu 568, 574
Rzayev Hüseynqulu Məlik oğlu 126, 142
Rzayev Nurəddin Məmmədbağır oğlu 336, 383
Repin İlya Yefimoviç 449, 457

S

“8 mart” adına Bakıxanov qəsəbə uşaq kitabxanası açılmışdır (1904) 759
Saatlı rayon Mərkəzi Kitabxanası yaradılmışdır (1949) 760
Sabunçu qəsəbə kütləvi kitabxanası açılmışdır (1904) 759
Sadıxov Rzaqulu Zeynal oğlu 572
Sadıqov (Sadıqlı) Murtuz Zeynal oğlu 131
Sadıqova Solmaz Azay qızı 630, 681
Sadıqov Hüseynağa Ələsgər oğlu 127, 146
Sayakbay Karalaev 757
Seyid Əli Seyid Məhəmməd oğlu 757, 762
Seyidməmmədova Züleyxa Həbib qızı 132
Seyidov Ənvər Cümşüd oğlu 130, 183
Seyidov Səməd İsmayıl oğlu 9, 46
Seyidzadə Dilarə Bağır qızı 571, 607
Səbri Təbrizi Qulamrza Hacı Məhəmmədəli oğlu 131, 185
Səfərli Hacıfəxrəddin Yəhya oğlu …. 513, 547
Səfərov Məhəmməd Tağı Kərbəlayi Səfər oğlu 131, 186
Səmədova Fəzilə İbrahim qızı 132
Səmədova Vəcihə Əli qızı . . . . . ….626, 637
Sivasi Qazı Bürhanəddin 758, 770
Su təsərrüfatı və meliorasiya işçiləri günü . 336
Sultanov Əjdər Əliabbas oğlu 697
Sultanov Xosrov bəy Paşa bəy oğlu 270
Sultanov Qeys Cəmşid oğlu 131
Sumqayıt şəhər MKS yaradılmasının 50 illiyi 336, 384
Sumqayıt şəhərinin yaranması 632
Süleymanov Bağır Ələkbər oğlu 336
Seyidov Yusif Mirəhməd oğlu 270

Ş

Şabanov Ələddin Hacı Ağa oğlu 335
Şabran rayon MKS yaradılmışdır (1979) . . 760
Şabran rayonunda ilk kitabxana yaradılmışdır (1939) 760
Şahtaxtinskaya Adilə İsasultan qızı . . 204, 258
Şahvələd Rza Nəbi oğlu 510
Şatıroğlu Veysəlin (Aşıq Veysəl) 568, 577
Şekspir Vilyam 199
Şevçenko Taras Qriqoryeviç 126, 139
Şeyx Məhəmməd Hacı Əbdülhəmid oğlu . 758
“Şeyx Səfi” xalçasının (1539) 485 illiyi . . . 760
Şəhriyar adına Bakıxanov qəsəbə uşaq kitabxanası açılmışdır (1904) 759
Şəki Dövlət Dram Teatrının əsası (1879) qoyulmuşdur 761
Şəkinskaya Barat Həbib qızı 333, 350
Şəmsizadə Nizaməddin Şəmsəddin oğlu 700, 744
Şərifov Ələsgər Məmmədtağı oğlu 697
Şərifov Niyaz Səttar oğlu 127, 145
Şərifova Firəngiz Abbasmirzə qızı 61, 79
Şərifzadə (Şərifov) Qurbanəli 758, 775
Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması barədə qərar qəbul edilmişdir 396
Şıxlinski Arif Şərif oğlu.. 701
Şıxlinski İsmayıl Qəhrəman oğlu 126
Şiller İohann Kristof Fridrix 626
Şirəliyev Həsən İsmayıl oğlu 513
Şirvan şəhər MKS yaradılmışdır (1979) . . . 760
Şukşin Vasili Makaroviç 392
Şuşa şəhəri “Azərbaycanın Mədəniyyət paytaxtı” elan edilmişdir 271
Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında fərman imzalanmışdır 337
“Şuşa şəhərinin 2024–cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalanmışdır (21 noyabr 2023) 65
Şuşa Şəhəri Günü.. . . . . .. 631, 684
Şuşinski Seyid Mir Möhsün Ağa Seyid İbrahim oğlu 199, 214

T

Tağıyev Bahadır Hüseyn oğlu 131

Tağızadə Aida Zeynal qızı 60, 72
Tağızadə Tofiq Mehdiqulu oğlu 61
Talıbov Tariyel Hüseynəli oğlu 64, 117
Talışinskaya Cahan Rza qızı 60
Tapdıqov İlyas Oruc oğlu 626, 634
Tarıverdiyeva Kövsər Məmməd qızı . . 395, 438
Tarixi Abidələrin Mühafizəsi Günü . . 205, 262
Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin kitabxanası yaradılmışdır (1954) 760
Teymurov Kamil Heydər oğlu 335
Təhmasib Rza Abbasqulu oğlu 200, 220
Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında qanun qəbul edilmisdir 573
Toktogul Satılganov 568
Tovuz döyüşləri baş vermişdir 396
Turizm İşçiləri Günü … 515
Tutayuq Validə Xaspolad qızı 514, 558
Türk dünyasının tarixi Çaldıran döyüşünün 510 illiyi 454
Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü... . . . . .572, 618
Türkiyə hökuməti Ceyhan terminalına Heydər Əliyevin adının verilməsi 65
Televiziya və Radio İşçiləri Günü 631

U

Ucar rayonu 10
Uşaqların Beynəlxalq Müdafiə Günü . 336, 385

Ü

Ümumdünya Aviasiya və Kosmonavtika Günü 204
Ümumdünya Diabet Günü 631
Ümumdünya Dialoq və İnkişaf Uğrunda Mədəni Müxtəliflik Günü 272
Ümumdünya Ev Heyvanları Günü 632
Ümumdünya Əhali Günü 396
Ümumdünya Əməyin Mühafizəsi Günü . . . 205
Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü 336
Ümumdünya Gülüş Günü 204
Ümumdünya Hemofiliya Günü 204
Ümumdünya Xərçənglə Mübarizə Günü . . . 65
Ümumdünya İnformasiya Cəmiyyəti Günü 272
Ümumdünya İstehlakçılar Günü 132
Ümumdünya Qaçqınlar Günü 337
Ümumdünya Qırmızı Xaç və Qızıl Aypara Günü 271
Ümumdünya Qida Təhlükəsizliyi Günü . . . 336
Ümumdünya Quşları Müşahidə Günü 573
Ümumdünya Meşələr Günü 133
Ümumdünya Meteorologiya Günü 133
Ümumdünya Metrologiya Günü 272
Ümumdünya Mülki Müdafiə Günü 132
Ümumdünya Okeanlar Günü 337
Ümumdünya Ozon Qatının Mühafizəsi Günü 515
Ümumdünya Poçt Günü 573
Ümumdünya Sağlamlıq Günü 204
Ümumdünya Salam Günü 632
Ümumdünya Səhralaşma və Quraqlıqla Mübarizə Günü 337
Ümumdünya Səs Günü 204
Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü 573
Ümumdünya Statistika Günü 573
Ümumdünya Su Günü 133
Ümumdünya Su Məməlilərinin Mühafizəsi Günü 65
Ümumdünya Televiziya Günü 632
Ümumdünya Təbiəti mühafizə cəmiyyətinin yaranması günü 632
Ümumdünya Tütünlə Mübarizə Günü 272
Ümumdünya Uşaq Hüquqları Günü 632, 690
Ümumdünya Yaşayış Yerini Qoruma Günü 573
Ümumdünya Yazıçılar günü 132, 190
Ümumdünya Yer Günü 205, 263
Ümumdünya Yoxsulluqla Mübarizə Günü 573
Ümumxalq hüzn günü 10, 56

V

Veysəlova Rəmziyyə Osman qızı 61, 80
Vəkilov Məmmədrza Hacı Mənsur oğlu . . . 130
Vəkilov Mustafa ağa Məmməd ağa oğlu 9
Vəkilov Mənsur Fəxri oğlu 510, 517
Vəkilov Vaqif Səməd oğlu 332, 338
Vəlibəyov Bahadır Qasım oğlu 9
Vəliyev Ədalət Məqsəd oğlu 130, 181

Vəliyev Tofiq Talış oğlu 270, 314
“Vətən Müharibəsi Qəhrəmanı” adının təsis
edilməsi haqqında qanun qəbul edilmişdir 632
Vəzirov Kamil Səfərəli oğlu 449
Vəzirova Fəridə Şamil qızı 63, 108
Vəzirov Cəlil Həbib oğlu 626, 633
Vəzirov Nəcəf bəy Fətəli bəy oğlu . . . 199 , 207
Vidadi Molla Vəli 126
Voyniç Etel Lilian 266, 278

Y

Yaqubov Mir Teymur Mir Ələkbər oğlu … . 629
Yanğınsöndürənlərin peşə bayramı günü .... .573
“YAŞAT” Fondu yaradılmışdır …. 701
“Yuxarı Baş” Dövlət tarix-memarlıq qoruğuna
milli qoruq statusu verilməsi haqqında qərar 11
Yusupova Şükufə Mühəddin qızı 267, 286
Yeni il 10, 52

Z

Zakirjan Kalmukhammed oğlu Furkat 757
Zaqatala dövlət təbiət qoruğunun yaradılmasının
95 illiyi (1929) 761
Zamanova Elmira Nəzər qızı 396
Zeynalov Azər Zeynalabdin oğlu 696, 712
Zeynalov Fərhad Ramazan oğlu 335
Zeynalov İbrahim İsmayıl oğlu 696, 711
Zeynalov Mikayıl Cabbar oğlu 126, 138
Zəfər Günü 631, 683
Zəngilan şəhəri günü 573, 623
Zöhrabov Ramiz Fərzulla oğlu 267, 280
Zülfüqarov Oqtay Qədir oğlu 267, 283
Zeynallı Asəf Zeynalabdin oğlu 199, 211

Milli Qəhrəmanların və İkinci Qarabağ Müharibəsi Şəhidlərinin Əlifba göstəricisi

A

Abbasov Davud Yalçın oğlu 629,666
Abbasov Fərrux Azər oğlu 570,599
Abbasov Seymur Aqil oğlu 450, 471
Abbasov Tural Fəzayıl oğlu 570,599
Abduləzimli Emil Rasim oğlu 697, 721
Abdullayev Elgün Əmirxan oğlu... . . .. 201, 232
Abdullayev Gündüz Çingiz oğlu 697, 717
Abdullayev Həmdulla Aslan oğlu 129, 172
Abdullayev Həsən Qərib oğlu 334, 368
Abdullayev İbrahim Habil oğlu 394, 423
Abdullayev Məhəmməd Vaqif oğlu 202, 246
Abdullayev Namiq Vahid oğlu 267, 288
Abdullayev Rövşən Əbdülhüseyn oğlu . . .7, 25
Abdullayev Şövqiyar Cəmil oğlu 200, 226
Abdullazadə Qasım Əli oğlu 394, 429
Abdurrəhmanov Hafiz Xalid oğlu 629,670
Abışov Babək Vaqif oğlu 202, 249
Abışov Əmrah Səyyab oğlu 629,665
Adgözəlov Ceyhun Çoban oğlu 569,595
Ağamalıyev Şəhriyar Əvəz oğlu 512,542
Ağasiyev Elşən Ağabala oğlu 512,539
Ağayev Bəylər Tapdıq oğlu 61, 84
Ağayev Cavanşir Niyaməddin oğlu . . 268, 291
Ağayev Cəlal Ağaverdi oğlu 697, 720
Ağayev Faiq Alış oğlu 333, 351
Ağayev Mənsur Ağa oğlu 395, 433
Ağayev Ramil Ağarəhim oğlu 512,537
Ağayev Ramil Mərdan oğlu 698, 732
Ağayev Zabil Azər oğlu 127, 154
Axundov Mirzə Musa oğlu 129, 168
Axundzadə Kənan Hamil oğlu 449, 460
Aqarunov Albert Aqarunoviç 200, 230
Alxasov Elməddin Rəsul oğlu 512,542
Alıyev Vahid Abbas oğlu 63, 101
Allahverdiyev Babək Bəxtiyar oğlu . . 269, 310
Allahverdiyev Bəxtiyar Əzizulla oğlu 333, 352
Allahverdiyev İsgəndər Nəsir oğlu . . . 201, 233
Alməmmədov Emin Akif oğlu 63, 104
Alməmmədov İman Tarverdi oğlu . . . 268, 300
Amanov Əhməd Tahir oğlu 511,523
Aslanov Babək Sakit oğlu 628,662
Aslanov Elşən Alxas oğlu 512,543
Aslanov Xəyal Qüdrət oğlu 128, 159
Aslanov Rəşad Taryel oğlu 129, 170
Atakişiyev İntiqam Vahid oğlu 200, 227
Atayev Nicat Habil oğlu 128, 159
Azadlı Zabil Tələt oğlu 7, 29

B

Bababəy Şamil Nazim oğlu 7, 31
Babayev Allahverdi Ələt oğlu 129, 174
Babayev Çingiz Adil oğlu 568,582
Babayev Elman Telman oğlu 627,648
Babayev Fariz Zakir oğlu 62, 100
Babayev Orxan Sədail oğlu 699, 735
Babayev Rəşad İlham oğlu 129, 169
Bağırov Elçin Fəhrad oğlu 202, 250
Bağırov Elçin Yunus oğlu 334, 364
Bağırov Əli Eltay oğlu 698, 729
Bağırov Namiq Nurəddin oğlu 452, 485
Bağırov Ramin Nəriman oğlu 202, 246
Baxışova Arəstə Kərim qızı 268, 294
Baxşiyev Vahid Məclum oğlu 268, 301
Balakişiyev Xəyal Müseyib oğlu 570,597
Balakişiyev Qara Əmirxan oğlu 393, 416
Bayramov Cəlal Yaqub oğlu 698, 733
Bayramov Elvin İslam oğlu 393, 414
Bayramov Əli Nadir oğlu 129, 175
Bayramov Ramin Hüseynağa oğlu 569,590
Bayramov Səid Eldəniz oğlu 629,668
Bədəlov Oktay Ələddin oğlu 570,602
Bəşirov Hakim Nizam oğlu 127, 155
Bəşirzadə Hüseyn Xanhüseyn oğlu . . 269, 307

C

Cabbarov Elnur Şahmurad oğlu 511,531
Cabbarov Oruc Akif oğlu 697, 721
Cavadov Cəlil Ağaddin oğlu 130, 179
Cavadov Mahmud Heydər oğlu 202, 242
Cəbrayıllı İbrahim Raqub oğlu 62, 89
Cəfərli Cəfər Babacəfər oğlu 698, 727
Cəfərli Şahin Şamil oğlu 334, 371
Cəfərov Faiq Əliqulu oğlu 267, 287
Cəfərov Oruc Vaqif oğlu 62, 97
Cəfərov Sübhan Mehman oğlu 333, 360
Cəfərov Vüsal Sərhədxan oğlu 128, 160
Cəmiyev Aşur Bəybala oğlu 334, 365

Ç

Çirinqov Ramazan Heybullah oğlu 61, 86

D

Dadaşov Əzizağa Ramis oğlu 393, 408
Dadaşov Seyfəddin Məhyyəddin oğlu 128, 163
Daşdəmirov Rəvan Məzahir oğlu 128, 161
Dəmirov Həsən Turan oğlu 697, 717
Dursunov Zeynali Əlləz oğlu 129, 170

E

Eldarzadə Azər İsmixan oğlu 570,601
Eminli Rüstəm Mais oğlu 512,534
Emnalıyev Orxan Eyvaz oğlu 627,651
Eyvazlı Rüfət Arzu oğlun 512,534
Eyvazov İslam Həsən oğlu 201, 238

Ə

Əbilov Nurlan Fərrux oğlu 449, 462
Ədilov Səid Həsən oğlu 627,652
Əhədov Mehrac İntiqam oğlu 570,605
Əhmədov Cavanşir Xeyrulla oğlu 628,657
Əhmədov Əhmədxan Məzahir oğlu 61, 88
Əhmədov Xəyal Hüseyn oğlu 268, 296
Əhmədov İlqar Xəqani oğlu 129, 171
Əhmədov İslam İlqar oğlu 512,536
Əhmədov Mahmud Fərman oğlu 449, 461
Əhmədov Natiq İlyas oğlu 510,522
Əhmədov Sabir Səfər oğlu 334, 363
Əhmədov Vidadi Murad oğlu 393, 418
Əhmədov Yasən Yelmar oğlu 511,533
Ələkbərov Əlisahib Selman oğlu 8, 39
Ələkbərov Naiq Faiq oğlu 450, 466
Ələkbərov Niyaməddin İsrafil oğlu . . 393, 419
Ələkbərov Röyal Fərmail oğlu 334, 369
Ələkbərov Vüqar Telman oğlu 628,663
Ələsgərov Mətləb Vüqar oğlu 394, 423
Ələsgərov Niyaməddin Süleyman oğlu 202, 243
Ələsgərov Pərviz Lətif oğlu 512,541
Əlimərdanov Elvin İlham oğlu 698, 728
Əlisoltanov Vahid Tahir oğlu 628,656
Əliyev Aqil Faiq oğlu 8, 35
Əliyev Amid İbrahim oğlu 697, 719
Əliyev Araz Aydın oğlu 334, 366
Əliyev Asim Nuru oğlu 511,526
Əliyev Azər Dilafər oğlu 8, 32
Əliyev Denis Aleksandroviç 269, 306
Əliyev Elçin Rasim oğlu 128, 157
Əliyev Eldar Süleyman oğlu 62, 97
Əliyev Elqaş Barat oğlu 62, 96
Əliyev Elman Rakif oğlu 570,600
Əliyev Əsgər Ələkbər oğlu 627,646
Əliyev Fərid Pirəli oğlu 451, 473
Əliyev Xəyal Saleh oğlu 202, 249
Əliyev İxtiyar İlqar oğlu 393, 412
Əliyev Qubat Hüsür oğlu 62, 91
Əliyev Maarif Təbriz oğlu 511,527
Əliyev Mahir Əjdər oğlu 202, 244
Əliyev Məhəmməd İlham oğlu 8, 34
Əliyev Mərhab Şikar oğlu 128, 165
Əliyev Nohəl Əlqəmə oğlu 450, 472
Əliyev Orxan Məhəmməd oğlu 512,536
Əliyev Rauf Səxavət oğlu 333, 358
Əliyev Rafael Oruc oğlu 269, 305
Əliyev Rövşən İsrafil oğlu 62, 90
Əliyev Samir Əliheydər oğlu 450, 467
Əliyev Sənan Ceyhun oğlu 451, 476
Əliyev Sənan Əlisafa oğlu 201, 239
Əliyev Şöhrət Cambulat oğlu 570,605
Əliyev Timur Nurəddin oğlu 269, 308
Əliyev Vasili Əhməd oğlu 7, 24
Əliyev Yadigar Səfxan oğlu 333, 357
Əliyev Yusif Əliyusif oğlu 697, 716
Əliyev Zaur Eldar oğlu 394, 427
Əlizadə Famil Habil oğlu 268, 293

Əlizadə Fuad Nazim oğlu 393, 411
Əlizadə Tahir Qəribəli oğlu 334, 367
Əmirov Adəm Elçin oğlu 451, 483
Əmrahov Emin Əvəz oğlu 333, 359
Əmrahov Vüqar Mübariz oğlu 451, 475
Ənnağıyev Babək Oktay oğlu 202, 251
Ənvərli Aqşin Faiq oğlu 569,591
Əsədov Baxış Sahib oğlu 335, 373
Əsədov Murad Rüstəm oğlu 698, 730
Əsədov Saleh Səməd oğlu 699, 738
Əsədov Səbuhi AzRüstəmovər oğlu 9, 42
Əsgər Abbasov Vahid Sahib oğlu 628,657
Əsgər Həsənov Afik Namik oğlu 627,647
Əsgərov Samid Gülmalı oğlu 569,593
Əsgərov Vüqar Rza oğlu 629,674
Əzizli Tacəddin Şahəddin oğlu 450, 465
Əzizov Sübhan Məmməd oğlu 8, 41

F

Feyziyev Əli Malik oğlu 393, 417
Fərəcov Əflatun Mircangir oğlu 569,589
Fərəcullayev Elşad İsa oğlu 8, 38
Fərziyev Balaş İltizam oğlu 128, 161
Fətaliyev Şahin Şamxal oğlu 395, 434
Fətiyev Xəqani Hüseynəli oğlu 335, 372
Fətullayev Tərlan Amaşah oğlu 268, 299

G

Gülüşov Tərlan Salman oğlu 569,596

H

Hacılı Feyruz Bəhruz oğlu 128, 158
Hacıyev Abakar Məhəmməd oğlu . . . 201, 240
Hacıyev Elmaz Elmar oğlu 268, 296
Hacıyev Elnur Yaqub oğlu 334, 362
Hacıyev Fərid Təşkilat oğlu 569,586
Hacıyev Fikrət Əli oğlu 267, 289
Hacıyev Hacı Rafiq oğlu 512,541
Hacıyev Hikmət Şubay oğlu 697, 722
Hacıyev Kamran Füzuli oğlu 8, 39
Hacıyev Nicat Cahangir oğlu 269, 306
Hacıyev Şəhriyar Şahlar oğlu 450, 462
Hacıyev Şükür Bayram oğlu 451, 480
Hacıyev Ülvi Şirin oğlu 628,659
Hadıyev Raqim Teymur oğlu 129, 172
Həbibov Rəfael Hacı Şərafət oğlu . . . 200, 229
Həmidov Elşən Məzahir oğlu 451, 484
Həmidov Pərvin Azər oğlu 128, 162
Həmidov Rəşid Pərviz oğlu 512,535
Həsənquliyev Nicat Aydın oğlu 697, 723
Həsənov Elgün Əli oğlu 451, 475
Həsənov Elvin Əlizade oğlu 628,654
Həsənov Emil Eldəniz oğlu 127, 155
Həsənov Maarif Rahim oğlu 629,667
Həsənov Məhəmməd Ələsgər oğlu . . . 449, 459
Həsənov Pərviz Fərmayıl oğlu 697, 722
Həsənov Sahib Azər oğlu 570,600
Həsənov Səxavət Alim oğlu 628,659
Həsənov Sərxan Habil oğlu 128, 163
Həsənov Səyavuş Həsən oğlu 7, 26
Həsənov Teymur Mahal oğlu 201, 234
Həsənov Təbriz Rəşid oğlu 451, 481
Həsənov Tofiq Etibar oğlu 629,669
Həsənov Tural Tapdıq oğlu 394, 422
Həsənzadə Famil Şiraslan oğlu 129, 174
Həsənzadə Məhəmmədəli Hörmət oğlu 268, 291
Həşimov Tərzan Qəhrəman oğlu 202, 243
Hilalov Araz Elburus oğlu 201, 231
Hüseyinov Bəhruz Yavər oğlu 8, 42
Hüseynli Anar Saday oğlu 450, 473
Hüseynli Elxan İsrayıl oğlu 569,587
Hüseynli Əliheydar Səlahəddin oğlu . 202, 244
Hüseynli Əmrah Namik oğlu 569,594
Hüseynli Fariz Dadaş oğlu 628,656
Hüseynov Cavid Habil oğlu 200, 231
Hüseynov Əfsun Mətləb oğlu 334, 370
Hüseynov Əzizağa Nizami oğlu 61, 88
Hüseynov Fərid Ehtibar oğlu 334, 361
Hüseynov Fərid Fətəli oğlu 334, 369
Hüseynov Kərim Tərlan oğlu 699, 739
Hüseynov Rəcəb Nazim oğlu 7, 30
Hüseynov Rəhim Qədir oğlu 393, 409
Hüseynov Samir Əlizadə oğlu 628,662
Hüseynov Tofiq Mirsiyab oğlu 200, 228
Hüseynov Vüqar Tofiq oğlu 333, 353
Hüseynov Vüsal Hüseyn oğlu 7, 28

X

Xanalıyev Ziyəddin Ariz oğlu 8, 40

Xankişiyev Nicat Aşur oğlu 9, 44
Xeyrullayev Cəlil Mürvət oğlu 268, 300
Xəlilbəyli Təbriz Xəlil Rza oğlu 61, 85
Xəlilli Murad Vəli oğlu 394, 420
Xəlilli Namiq Həsən oğlu 63, 103
Xəlilli Nicat Əli oğlu 697, 723
Xəlilov Fəryad Fəxri oğlu 627,648
Xəlilov Nadir Ağadadaş oğlu 627,651
Xəncələv Ümüd Radif oğlu 201, 239
Xıdırov Elgün Fuad oğlu 698, 734
Xudayev Yaşar Əli oğlu 627,649
Xudiyev Toğrul Habil oğlu 699, 738

İ

İbadlı Araz Babəli oğlu 570,601
İbadov Aqşin Nazim oğlu 451, 479
İbişov Vüsal Əli oğlu 334, 366
İbrahimli Elməddin Zeynəddin oğlu . . . 629,667
İbrahimli Kənan Azad oğlu 269, 308
İbrahimli Nail Nəriman oğlu 128, 157
İbrahimov Bəhram Sakit oğlu 268, 295
İbrahimov Elsevər Etibar oğlu 628,653
İbrahimov İbrahim Abdulla oğlu 569,592
İbrahimov Zamanət Gülhəsən oğlu . . . 268, 298
İbrahimzadə Nahid Şahid oğlu 627,649
İlyasov Fərid İbad oğlu 394, 424
İmanov Ənvər Emil oğlu 8, 37
İsazadə Səfa Əmirxan oğlu 269, 301
İsgəndərov İlkin Camal oğlu 129, 171
İskəndərov Elvin Mətləb oğlu 628,653
İskəndərov Əhmədağa Novruz oğlu 512,538
İslamlı Ruhid Uğur oğlu 201, 233
İsmayılov Bahaləddin Temraz oğlu . . 452, 486
İsmayılov Camal Vidadi oğlu 393, 413
İsmayılov Elçin Mübariz oğlu 269, 309
İsmayılov Elvin Tələt oğlu 128, 165
İsmayılov Etibar Bəylər oğlu 127, 152
İsmayılov Əmrah Xudaverdi oğlu 628,655
İsmayılov İlqar Sədi oğlu 127, 151
İsmayılov İmamverdi Yoloğlu oğlu . . 267, 290
İsmayılov Kənan Mənsur oğlu 570,604
İsmayılov Raqil Rafiq oğlu 451, 474
İsmayılov Rövşən Məmmədağa oğlu . . 570,606
İsmayılov Tural Nurəddin oğlu 129, 167
İsmayılzadə Müşfiq Xanlar oğlu 570,596
İsmayılzadə Şəhriyar Əkbər oğlu 393, 414
İşiyev Rəfail Əhmədağa oğlu 511,524
İzzətli Fərid Aydın oğlu 129, 173

K

Kamranlı Xalid Kazım oğlu 512,540
Kazımov Rəşad Nüsrət oğlu 698, 733
Kərimli Ramin Əli oğlu 698, 731
Kərimov Asif Məmməd oğlu 129, 176
Kərimov Cavid Mərdan oğlu 63, 103
Kərimov Elgün Rauf oğlu 512,535
Kərimov Əhməd Vaqif oğlu 450, 463
Kərimzadə Mirxəyal Valeh oğlu 8, 36

Q

Qaracayev Nurlan Ömər oğlu 268, 297
Qaraxanov Səfa Yenişar oğlu 63, 102
Qarayev Cavid Əmirxan oğlu 511,525
Qarayev Namiq Qarakişi oğlu 202, 247
Qarayev Telman Əli oğlu 698, 730
Qardaşxanov Qismət Qərib oğlu 452, 485
Qasımlı Mir Həmid Nazim oğlu 512,543
Qasımov Azər Yaqub oğlu 697, 718
Qasımov Baba Əhməd oğlu 627,647
Qasımov Elman Yunis oğlu 628,655
Qasımov Elməddin Aqil oğlu 450, 470
Qasımov Eltun Vüqar oğlu 570,598
Qasımov Faiq Qaçay oğlu 62, 94
Qasımov Həmid Oruc oğlu 698, 727
Qasımov Hüseyn Kamil oğlu 268, 298
Qasımov İsmayıl Sadiq oğlu 698, 731
Qədimov Ayxan Fikrət oğlu 203, 253
Qədirzadə Aqşin Elman oğlu 128, 166
Qəfərli Samir Möhlət oğlu 627,650
Qəhrəmanov Fariz Çoban oğlu 127, 153
Qəhrəmanov Məkan Mübariz oğlu 62, 90
Qənbərli Taleh Abil oğlu 570,598
Qəniyev Cahid Şaiq oğlu 63, 101
Qəribzadə Fəxri Elmir oğlu 8, 36
Qocayev Niftalı Zakir oğlu 629,669
Qulamlı Ülvi Şahin oğlu 269, 305
Qulamzadə Afərin Müqəddəs oğlu . . . 394, 419
Quliyev Alim Fuad oğlu 129, 169
Quliyev Elnur Eldar oğlu 394, 428
Quliyev Elnur Sərdar oğlu 697, 719

Quliyev Eltay Əli oğlu 333, 356
Quliyev Əli Tədbir oğlu 511,527
Quliyev Fərid Ayazxan oğlu 570,603
Quliyev Hüseyn Həsən oğlu 128, 158
Quliyev İman Kürdoğlu oğlu 393, 416
Quliyev Mətləb Kamran oğlu 7, 22
Quliyev Mirzə Məcid oğlu 7, 23
Quliyev Namiq Natiq oğlu 699, 739
Quliyev Nofəl İlham oğlu 334, 360
Quliyev Rusif Asim oğlu 511,528
Quliyev Ruslan Şaxsəddin oğlu 629,668
Quliyev Sehrulla Xeyrulla oğlu 569,586
Quliyev Təbriz İlqar oğlu 450, 464
Quliyev Tərlan Bəxtiyar oğlu 698, 734
Quluzadə Məhəmməd Cəlal oğlu 450, 465
Quluzadə Orxan Elxan oğlu 335, 372
Qurbanlı Elvin Mehman oğlu 62, 89
Qurbanov Cahangir Məmməd oğlu 512,539
Qurbanov Elvin Elmar oğlu 203, 252
Qurbanov Emil Rafael oğlu 698, 726
Qurbanov İmran İlqar oğlu 269, 304

L

Laçınov Əhməd Qurban oğlu 395, 432
Lillahov Fərid Loğman oğlu 128, 162

M

Mahmudov Cavid Hilal oğlu 62, 92
Mahmudov Emin Pünhan oğlu 333, 356
Mailov Rafael İlqar oğlu 202, 245
Manafov Cavid Faiq oğlu 62, 91
Mansurov Elçin Elşən oğlu 629,672
Mehbalıyev Elşən Təvəkgül oğlu 394, 426
Mehbalıyev Vasif Gülhəsən oğlu 129, 177
Mehdiyev Nüsrət Telman oğlu 7, 30
Mehdiyev Zahir Zakir oğlu 202, 251
Mehdizadə Mərdan Əhməd oğlu 129, 176
Mehtiyev Elgiz Şahin oğlu 127, 154
Meydanov Elməddin Bahəddin oğlu . . 511,529
Məcidzadə Saleh Nəriman oğlu 394, 421
Mədətov Zaur Kamal oğlu 628,663
Məhərrəmli Fuad Habil oğlu 629,674
Məhərrəmov Fuad İmaməddin oğlu . . 201, 236
Məhərrəmov İsa Məhərrəm oğlu 62, 100
Məhərrəmov Orxan Binət oğlu 451, 482
Məhərrəmov Vüsal Aslan oğlu 698, 725
Məlikov Əhməd Məmməd oğlu 698, 735
Məlikov Mahmud Təhmasib oğlu 201, 234
Məmişov Qədir Zülfəli oğlu 393, 412
Məmiyev Valeh İsbat oğlu 130, 177
Məmmədli Cavid Natiq oğlu 8, 41
Məmmədli Cəmil Habil oğlu 395, 433
Məmmədli Əşrəf Elman oğlu 511,531
Məmmədli Məhəmməd Murad oğlu . . 451, 478
Məmmədli Nicat Rizvan oğlu 395, 434
Məmmədli Sübhan Səbuhi oğlu 450, 471
Məmmədov Abid Asif oğlu 201, 235
Məmmədov Aqil Səməd oğlu 393, 407
Məmmədov Altun Nüsrət oğlu 451, 477
Məmmədov Anar Kərəm oğlu 333, 359
Məmmədov Araz Adil oğlu 268, 293
Məmmədov Cəlil Qəhrəman oğlu.... . . . 512,538
Məmmədov Coşqun Elnur oğlu 128, 166
Məmmədov Elcan Söhrab oğlu 450, 469
Məmmədov Elmar Saleh oğlu 451, 476
Məmmədov Elmir Arzu oğlu 333, 357
Məmmədov Elnur İsrəfil oğlu 511,532
Məmmədov Elşən Əziz oğlu 202, 247
Məmmədov Etibar Səday oğlu 334, 368
Məmmədov Əhməd Nazim oğlu 451, 481
Məmmədov Xəyal Arif oğlu 62, 96
Məmmədov İlham Rauf oğlu 62, 98
Məmmədov Kazım Ərşad oğlu 568,581
Məmmədov Kənan Bəhruz oğlu 202, 248
Məmmədov Kərim Namil oğlu 201, 236
Məmmədov Məhəmməd Zakir oğlu 9, 43
Məmmədov Oqtay Namiq oğlu 7, 29
Məmmədov Pərvin Rza oğlu 130, 178
Məmmədov Pərviz Ələddin oğlu 450, 468
Məmmədov Rəşad Fərəməz oğlu 511,524
Məmmədov Sahib Yaşar oğlu 628,658
Məmmədov Sahil Ələmdar oğlu 61, 87
Məmmədov Şaiq Şükür oğlu 699, 736
Məmmədov Şəhriyar Müzəffər oğlu . . . 63, 102
Məmmədov Taleh Arif oğlu 8, 40
Məmmədov Tural Tariyel oğlu 627,652
Məmmədov Ümid Fərman oğlun 129, 167
Məmmədov Ürfan Çingiz oğlu 334, 371
Məmmədov Vasif Əlibala oğlu 628,658
Məmmədov Vüqar İlqar oğlu 8, 35
Məmmədov Vüsal Aydın oğlu 201, 238

Məmmədsalahov Kazım Sahib oğlu . . 268, 295
Məmmədzadə Anar Nazim oğlu 450, 463
Məmmədzadə Cahan Saleh oğlu 451, 480
Məmmədzadə Kəmaləddin Vüqar oğlu 511,530
Məmmədzadə Mikayıl İlqar oğlu 569,591
Məsimov Əkbər Yunis oğlu 569,588
Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğlu . . 394, 429
Mirzəliyev Aqil Mehman oğlu 451, 483
Mirzəyev Elyar Cəlal oğlu 511,525
Mirzəyev İbad Mansur oğlu 202, 250
Mirzəyev Nuran Akif oğlu 394, 430
Mövlanov Vüqar Tumarxan oğlu 698, 728
Muradov Hikmət Oqtay oğlu 7, 27
Muradov Hüseyn Fərhad oğlu 268, 297
Muradov Turan Vaqif oğlu 697, 720
Muradov Vüsal Cəsarət oğlu 269, 302
Murtuzəliyev Xəqani İsa oğlu 569,592
Musayev Aqil Hüseyn oğlu 627,645
Musayev Ələkbər Ələvsət oğlu 334, 364
Musayev Ramiz Kamil oğlu 449, 461
Musayev Sahib Musa oğlu 394, 425
Musibov Veysəl Yadullayeviç 62, 99
Mustafayev Əlizamin Baxış oğlu 334, 367
Mustafayev Sərxan İslam oğlu 129, 173
Mustafayev Təhmasib Sərməst oğlu . . 452, 484
Mürsəliyev Sübhi Balamirzə oğlu . . . 699, 737

N

Nadirov Fədail Fərhad oğlu 394, 426
Nadirov Rəşad Nadim oğlu 512,537
Nağıyev Anar Sahib oğlu 570,604
Nağıyev Fərid Poladxan oğlu 450, 467
Namazov Babək Səhman oğlu 268, 299
Namazov Orxan Ceyhun oğlu 629,671
Namazov Taleh Zülfəli oğlu 394, 430
Namazov Təbriz Ələmdar oğlu 129, 168
Nəcəfli Oruc Rövşən oğlu 569,588
Nəcəfov Elmin Saleh oğlu 9, 44
Nəcəfov İlkin Misir oğlu 629,664
Nəhmətov Ceyhun Ehtiqad oğlu 511,526
Nəsibov Asəf Səfəralı oğlu 63, 104
Nəsirov Qara Eldəniz oğlu 8, 32
Niftəliyev İlyas Güloğlan oğlu 201, 241
Niftullayev Elşən Əfqan oğlu 269, 307
Novruzov Allahverdi Bəhram oğlu . . . 269, 302
Novruzov Elçin Qismət oğlu 450, 470
Novruzov Ələsgər Xanlar oğlu 449, 458
Nurmətov Çoban Razaddin oğlu 629,671
Nüsrətbəyli Ülvi Arif oğlu 62, 98

O

Omarov Vüsal Şəmsəddin oğlu 393, 413
Orucov Nemət Əkbər oğlu 628,661
Orucov Nicat Niyadxan oğlu 394, 425
Orucov Şakir Bakir oğlu 129, 175
Osmanov Məhəmməd Seymur oğlu 570,603
Osmanov Orxan Mənsur oğlu 629,673

Ö

Ömərli Kənan Elxan oğlu 128, 164
Ömərov Qoşqar Səxavət oğlu 62, 93

P

Paşayev Elgün İlham oğlu 127, 156
Paşayev Məhəbbət Vaqif oğlu 450, 464
Paşayev Ramil Şakir oğlu 395, 432
Paşayev Samir Adışirin oğlu 569,589
Pənahov Rövşən Mahmud oğlu 569,585
Piriyev Elşən Şəfalət oğlu.... 512,540
Polovinko Ruslan Aleksandroviç 568,584

R

Ramazanlı İlqar Etibar oğlu 627,550
Ramazanov Vüsal Vahid oğlu 393, 415
Ramiz Cəfərov Sübhan oğlu 697, 724
Rəcəbov Ruslan Rəcəb oğlu 449, 460
Rəhimli Orxan Rəşid oğlu 202, 252
Rəhmətov Əbülfəz Hüseynverdi oğlu . 393, 410
Rəsulov Elxan Ayaz oğlu 201, 237
Rəsulov Mirbala Əmirağa oğlu 570,597
Rəsulov Sahil Sərvan oğlu 394, 427
Rəşidov Tural Fazil oğlu 269, 311
Rüstəmli Kənan Yalçın oğlu 628,660
Rüstəmov Amil Bədrəddin oğlu 698, 726
Rüstəmov Rövşən Orxan oğlu 201, 241
Rüstəmov Vüqar Kamil oğlu 268, 292
Rzayev Adil Akif oğlu 451, 477
Rzayev Ceyhun İsmayıl oğlu 511,532

Rzayev Elxan Ariz oğlu 202, 245
Rzayev İlkin Cəfər oğlu 395, 431
Rzayev Məhəmməd Nadir İlqar oğlu . . 629,665
Rzayev Rövşən Abdulla oğlu 568,583
Rzazadə Həsən Vüqar oğlu 334, 363

S

Sabir Hüseynov Elşən oğlu 698, 729
Salahov Sabir Hikmət oğlu 451, 474
Salehov Orxan Fikrət oğlu 628,660
Samidli Babək Mətləb oğlu 8, 33
Sarıyev Zaur Rəşid oğlu 333, 354
Sarkayev Nəcməddin Əli oğlu 569,590
Seryoqin Viktor Vasilyeviç 127, 149
Seyfullazadə Kamran Cəlal oğlu 8, 38
Seyidov Əli Rahim oğlu 393, 417
Səfərli Amil Nizami oğlu 512,544
Səfərov Elvin Ramiz oğlu 698, 725
Səfərov Mais Şakir oğlu 394, 424
Səlifov Murad Nəbi oğlu 9, 43
Soltanov Nadir Nəzir oğlu 8, 37
Soltanov Oruc Fərhad oğlu 7, 28
Sultanov Nurlan Yaşar oğlu 269, 311
Sultanov Zaminəli Nazim oğlu 699, 736
Süleymanov Arif Ramiz oğlu 7, 31

Ş

Şahmuradov Rəvan Dilşad oğlu 394, 421
Şalıyev Ceyhun Nüsrət oğlu 269, 303
Şamilov Fərid Mirzə oğlu 268, 294
Şəfiyev Daşqın Hidayət oğlu 451, 478
Şıxıyev Orxan Raqif oğlu 513,544
Şıxıyev Səyyad Abdul oğlu 511,523
Şıxıyev Şahəli Əflatun oğlu 268, 292
Şirinov Kamil Altay oğlu 450, 469
Şirvanov Davud Xeyrulla oğlu 201, 232
Şükürov Azər Cahid oğlu 62, 95
Şükürov Samir Təyyub oğlu 628,654

T

Tağıyev Azər Kamil oğlu 698, 732
Tağıyev Elçin Ağaqulu oğlu 393, 408
Tağıyev Əkbər Məhəmməd oğlu 62, 93
Tağıyev Şahin Talıb oğlu 61, 83
Tağızadə Bəhruz Azər oğlu 511,530
Tahirov Rəşid Loğman oğlu 570,606
Talıbov Təbriz Məhrəməli oğlu 334, 361
Talıbzadə Ceyhun Aqil oğlu 697, 718
Teymurov Elvin Mustafa oğlu 269, 303
Teymurov Fərid Fizuli oğlu 62, 95
Teymurov Mansur Elnur oğlu 333, 358
Təhməzov Cavid Əvəz oğlu 334, 370
Təhməzov Elzamin Kamal oğlu 570,602
Təhməzov Paşa Qurban oğlu 127, 150

V

Verdiyev Eldəniz Rabil oğlu 569,587
Vəlixanov Rövşən Aydın oğlu 569,595
Vəliyev Elnur Mirsiyab oğlu 452, 486
Vəliyev Hidi Bəxtiyar oğlu 127, 156
Vəliyev Qoşqar Nuruş oğlu 201, 242
Vəliyev Nurlan Habil oğlu 201, 235
Vəliyev Oruc Ramiz oğlu 394, 420
Vəlizadə Anar Afət oğlu 393, 411

Y

Yaqubzadə Yaqub Eldəniz oğlu 202, 248
Yusibov Kənan Fehruz oğlu 393, 415
Yusifli Azər Nazim oğlu 130, 178
Yusifov Mehman Musa oğlu 394, 422
Yusifov Taleh Gündüz oğlu 629,666
Yusubov Elzar Süleyman oğlu 8, 34

Z

Zeynallı Əsəd Ərziman oğlu 450, 472
Zeynalov Arzu Rövşən oğlu 128, 160
Zeynalov Elnur Elsevər oğlu 395, 431
Zeynalov Elşən Zaman oğlu 128, 164
Zeynalov Əlisəfa Elşad oğlu 201, 237
Zeynalov İlqar Natiq oğlu 451, 482
Zeynalov Nurlan Rəfail oğlu 629,673
Zərbəliyev Aşurəli Səfərəli oğlu 511,528
Zülfüqarov Elxan Qaçay oğlu 333, 355
Zülfüqarov İlkin Nurəddin oğlu 450, 466

İstifadə olunmuş ədəbiyyat

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə. – Bakı, 2004-2005.
Azərbaycan Qadını Ensiklopediyası. – Bakı, 2002. – 404 s.
Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. C. 1-6. – Bakı, 2009-2010.
Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə: "Azərbaycan cildi". – Bakı, 2007. – 884 s.
Azərbaycan Kitabxana Ensiklopediyası / Baş red. prof. Kərim Tahirov. – Bakı, 2015. – 632 s.
"Azərbaycanın mədəniyyət təqvimi" (Elektron kataloq). – Bakı, 2019. – 510 s.
Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. – Bakı, 1976-1986.
Azərbaycan tarixi günbəgün: kitab-təqvim. – Bakı, 2008. – 368 s.
Azərbaycan kinosu. Ensiklopedik lüğət. Azərbaycan Dövlət Film Fondu: İki cilddə. – Bakı: Elm və təhsil, 2017. – C. 1.
Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı. – Bakı, 2010. – 392 s.
Azərbaycanın elmi elitası - elmlər doktorları: məlumat kitabçası. – Bakı, 2011. – 320 s.
Azərbaycanın tanınmış xanımları = Famous ladies of Azerbaijan. – Bakı, 2002. – 270 s.
Azərbaycan rəssamları haqqında qısa məlumat kitabçası. Azərbaycan Dövlət Rəsm Qalereyası. – Bakı, 2017. – 110 s.
Cəlil Məmmədquluzadə Ensiklopediyası. – Bakı: Şərq Qərb, 2008. – 320 s.
Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar = Role models: Women daring to change. – Bakı, 2008. – 135 s.
Əhmədov, S. Azərbaycan tarixindən 100 şəxsiyyət. – Bakı, 2006. – 267 s.
Əhmədov, T. Azərbaycan Yazıçıları (XX-XXI yüzillikdə). – Bakı, 2011. – 1056 s.
Əlizadə, Y.M. Azərbaycan efiri: tarix və müasirlik. – Bakı: Nurlan, 2006. – 184 s
Fəxri Xiyaban = The Honorary Cemetery. – Bakı, 2007. – 208 s.
Qarabağ: Yaddaş. – Bakı, 2010. – 192 s.
Muğam Ensiklopediyası. – Bakı, 2008. – 215 s.
Naxçıvan Ensiklopediyası. – Bakı, 2002. – 594 s.
Məhərrəmov, A. Azərbaycan kimyaçıları / Abel Məhərrəmov (ön söz); red. hey.: İ.Ə. Əliyev [və b.]; [dizayn və tərtibat F. Vəliyev, H. Kərimov, S. Kərimova].- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2017.- 495, [1] s.
Seyidəhmədli, Günel. Azərbaycan memorial heykəltəraşlığının bədii xüsusiyyətləri: Fəxri Xiyabanın abidələri əsasında: monoqrafiya / Günel Seyidəhmədli; elmi red.: Ö. Eldarov, S. Sadıxova; dizayn A. Xəlilov.- Bakı: [Avropa], 2020.- 261, [1] s.
Heydər Əliyev - 100. Azərbaycanda qadın hərəkatının inkişafı: [toplu] / hazırl. M. İbrahimqızı; elmi red. E. Süleymanova; [dizayner A. Aydın ; üz qabığı M. Əliqızı].- Bakı: [Zərdabi Nəşr], 2023.- 238, [2] s.
Mikayılqızı, P. Klassik irsimizin zərif nümayəndələri: [məqalələr toplusu] / Pərixanım Mikayılqızı; elmi məsl. M. Nəcəfova [ön söz]; red. S. Seyidova; dizayner A. Məhərrəmova.- K. 1.- Bakı: [Maarif], 2023.- 215, [1] s.
Azərbaycan qadınları / M. Mirzəyev.- Bakı: Azərnəşr, 1957.- 107, [1] s.

İnternet resursları

https://president.az/
http://www.science.gov.az
http://ensiklopediya.gov.az
http://azteatr.musigi-dunya.az/
http://mk.musigi-dunya.az/performers.html
http://www.azerbaijanfilm.az/
http://www.e-qanun.az/
http://anl.az/new/
http://www.preslib.az/
http://musicacademy.edu.az/
http://medeniyyet.az/
https://memorial.az/

Mündəricat

Nəşr haqqında 1-2
Əjdaha ili 3
Yanvar 4-58
Fevral ..... 59 - 124
Mart 125-197
Aprel 198-264
May 265-330
İyun 331-390
İyul 391-447
Avqust 448-508
Sentyabr 509-566
Oktyabr 567-624
Noyabr 625-694
Dekabr 695-755
Əlavələr 756-786
Yubileyləri qeyd olunacaq
görkəmli şəxsiyyətlərin və mühüm
tarixi hadisələrin əlifba göstəricisi 787-800
Milli Qəhrəmanların və
İkinci Qarabağ Müharibəsi Şəhidlərinin
əlifba göstəricisi 801-807
Ədəbiyyat siyahısı 808

2024

Əlamətdar və tarixi günlər təqvimi 2024

Kompüter yığımı: K.İmanova
A.Əliyeva

Kompüter dizaynı: İ.Zəkəryəyev

Ünvan: AZ-1000 Bakı ş.,
Xaqani küç.57
E-mail: contact@anl.az
URL: www.anl.az

Sifariş: № 51
Çapa imzalanmışdır: 30.12.2023
Tiraj: 300
Pulsuz

Mətbəənin direktoru:
Elman Qasımov
"Zərdabi Nəşr" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi.
Sifariş № 96
Tel.: iş (012) 514 73 73
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru

Təqvim 2024

Yanvar

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30	31				

Fevral

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29			

Mart

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	31

Aprel

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30					

May

B.E.	Ç.A.	Ç.	C.A	C.	Ş.	B.
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30	31		

İyun

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30

İyul

B.E.	Ç.A	Ç.	C.A.	C.	Ş.	B.
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30	31				

Avqust

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

Sentyabr

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30						

Oktyabr

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30	31			

Noyabr

B.E.	ÇA.	Ç.	C.A.	C.	Ş.	B.
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	

Dekabr

B.E.	Ç.A	Ç.	C.A.	C.	Ş.	B.
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30	31					